AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
TARİX FAKÜLTƏSİ

Türk dünyası: Ortaq tarixi-mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış

II Beynəlxalq elmi konfransın
MATERİALLARI

The Turkic World: Shared historical and cultural values, contemporary realities, and a virion for the future

II International Scientific Conference
MATERIALS



25-26 dekabr 2025 / 25-26 december 2025

AZƏRBAYCAN RESPUBLİKASININ ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

TARİX FAKÜLTƏSİ

TÜRK DÜNYASI: ORTAQ TARİXİ – MƏDƏNİ DƏYƏRLƏR, MÜASİR REALLIQLAR VƏ GƏLƏCƏYƏ BAXIŞ MÖVZUSUNDA

II BEYNƏLXALQ ELMİ KONFRANSIN MATERİALLARI

25-26 dekabr 2025-ci il

THE TURKIC WORLD: SHARED HISTORICAL AND CULTURAL VALUES, CONTEMPORARY REALITIES, AND A VISION FOR THE FUTURE

II INTERNATIONAL SCIENTIFIC CONFERENCE

MATERIALS

25-26 december 2025

Konfransın materialları BDU-nun Tarix fakültəsi Elmi Şurasının 17 mart 2026-cı il tarixli (3 saylı protokol) iclasının qərarı ilə çap edilir.

BAKI - 2026

TƏŞKİLAT KOMİTƏSİ

Sədr:
İbrahim Zeynalov

Üzvlər:
Kəmalə Nəcəfova
Elnur Əbilov
Nigar İsmayılzadə
Sevinc Əliyeva
Hüseyn Hüseynli
Qənirə Pirquliyeva
Səidə Quliyeva
Ulduz Paşayeva

ELMİ KOMİTƏ

Sədr:
Yaqub Mahmudov

Üzvlər:
Mavlyuda Abbasova-Yusupova
Yulduz Erqaşeva
Əsməd Muxtarova
İradə Hüseynova
Vəkil Həsənov
Tarix Dostiyev
Azad Rzayev
Mehman Abdullayev
İqbal Ağayev
Baybolot Abıtov
Meltem Tekerek
Elmira Zulpıkharova

Türk dünyası: ortaq tarixi – mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış. II Beynəlxalq elmi konfransın materialları. Bakı, "Füyuzat" nəşriyyatı, 2026, 848 səh.

© "Füyuzat", 2026

MÜNDƏRİCAT

İbrahim Zeynalov
Ümummilli Lider Heydər Əliyev: türk dilli xalqları birləşdirən ortaq tarixi-mədəni irs, ortaq dil 17
Kəmalə Nəcəfova
Cənubi Qafqazda sülh və təhlükəsizliyin qorunmasında "Şuşa Bəyannaməsi" nin rolu 19
İqbal Ağayev
Türk dövlətləri təşkilatı çərçivəsində Azərbaycanın orta dəhlizin genişləndirilməsi istiqamətində fəaliyyəti 22
Sani Hacıyev
XVII-XVIII əsrlərdə Osmanlı dövlətində demoqrafik proseslərin sosial nəticələrinə dair 28
Rəşad Cabarov
Göytürk imperiyasının nümunəsində klassik Türk dövlət quruculuğu 32
Hüseyn Hüseynli
Türkiyənin müdafiə-təhlükəsizlik siyasətində Azərbaycan və Gürcüstan 34
Samudə İskəndərova
Türk dövlətləri təşkilatının yaradılması və fəaliyyəti 37
Tariel Abbasov
XX əsrin sonu – XXI əsrin əvvəllərində Yaxın və Orta Şərq regionunda ABŞ-ın xarici siyasət strategiyasının təhlili 42
Əsməd Muxtarova
Erkən orta əsrlərdə Türk dövlətlərində hərbi demokratiyanın mövcudluğunu göstərən elementlər 46
Sevinc Ruintən
Şimali Kipr Türk Cümhuriyyəti müasir beynəlxalq münasibətlər sistemində 50
Şəbnəm Cəfərova
Misir və Yaxın Şərqin tarixində ilk müsəlman türklər: Zəngilər (XI-XIII əsrlər) 60
Taleh Cəfərov
Azərbaycan-Türkiyə diasporunun təşkilatlanması və erməni lobbisinə qarşı birgə fəaliyyəti 63
Mehman Abdullayev
Xanlıqlar dövründə Azərbaycanda zadəgan cəmiyyətinin özünəməxsus xüsusiyyətləri 69

Zəhra İslamova
Şuşa məscidlərinin Vəqfnamələri 73
Səidə Quliyeva
Türk dünyasında miqrasiya və etno-siyasi proseslər barədə (ən qədim zamanlardan 1991-ci ilə qədər) 76
Asəf Hacıyev
Azərbaycan Xalq Cümhuriyyətinin sərhəd və ərazi məsələlərinə dair 79
Ulduz Paşayeva
XIX– XX əsrdə Bakı şəhərinə və əhalisinə dair məlumatlar tarixi əsərlərdə və mənbələrdə 84
Günay Aşurova
Türk şəhəri İrəvanda demoqrafik strukturun ermənilərin lehinə dəyişdirmə fəaliyyətləri 88
Elgün Qəhrəmanov
Keçilmiş yoldan asılılıq kontekstində Türkiyə avrasiyaçılığına baxış 92
Sevinc Məlikzadə
Xəzərlərin azərbaycan xalqının etnogenezinə təsiri 97
Arzu Abbasova
Müasir dövrdə Türk dövlətləri arasında inteqrasiya prosesləri 101
Elşən Aslanov
XIX əsrdə Qarabağın tarixi coğrafiyası: siyasi və demoqrafik dəyişikliklər 105
Sevinc Qasımova
XIX əsr Azərbaycan maarifçilərinin ortaq türk tarixinə yanaşmaları: müqayisəli təhlil 109
Kəmalə Məmmədova
Türk xalqlarının ortaq taleyində Azərbaycan legionu: siyasi varislik və gesiyasi gözləntilər 113
Səbinə Alıyeva
Türk dünyası: Nadir şahın Azərbaycan - Türkiyə tarixşünaslığında müqayisəli təhlil 117
Gülnarə Sədrəddinova
Laybax konqresi və Osmanlı: "Şərq məsələsi"ndə güc balansı 120
Nərminə Hüseynova
Müstəqillik dövründə türk xalqlarının ortaq qeyri – maddi mədəni irsinin UNESCO-da mühafizəsi 123
Sevinc Məmmədova
Azərbaycanın mədəni diplomatiyasında İCESCO-nun rolu 127

Rauf Qurbanov
Türk dövlətləri təşkilatının Azərbaycan-Rusiya münasibətlərinə təsiri (2009-2023-cü illər)..... 129
Nərminə Məmmədova
Müasir Türk dünyasında dil, gender və mədəni inteqrasiya: Azərbaycan və Türkiyə nümunəsində tarixi-mədəni davamlılıq və qərb dilləri ilə müqayisəli nəzəri yanaşmalar 134
Əfsanə Quliyeva
Vətən müharibəsi qələbəsinin Ümumtürk kimliyinin qrammatik- semantik ifadəsinə təsiri..... 138
Əsmər Şükürlü
Müstəqillik illərində Qazaxıstan – Azərbaycan strateji tərəfdaşlığı: siyasi, iqtisadi və mədəni aspektlər..... 143
Zəhra Cəfərli
XXI əsrin ilk rübündə Azərbaycan və Özbəkistan arasında ikitərəfli münasibətlər..... 148
Fərhad Rüstəmzadə
Şah I Təhmasibin hakimiyyəti illərində Səfəvi-Böyük Moğol əlaqələri 152
Samirə Hadıyeva
Moisey Kalankatuklunun kimliyi və erməni tarixşünaslığında təhrifi problemi. 154
Xəyalə Ağayeva
Ermənilərin Versal (Paris) Sülh konfransında tələbləri 158
Oruc Quliyev
"Əkinçi" qəzetinin nümayəndələrinin şəxsi arxivində Azərbaycan tarixi məsələləri..... 162
Xuraman Hümmətova
Detektiv janrı və Kemel Tokayevin "Sirli iz" povestində tarixi gerçəkliklər..... 167
Seyidnisə Lətifli
Kemel Tokayevin "Damğalı qızıl" povestinin polis detektivi kontekstində bədii təhlili..... 174
Jalə İsmayılova
Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunmasının Ümumtürk tarixi kontekstdə əhəmiyyəti 179
Gültəkin Knyazova
Mədəni yaddaş və sosial psixologiya: Türk dünyasında kollektiv kimliyin inkişafı 183
Lamiyə Orucova
Dördüncü sənaye inqilabı dövründə Türk dövlətləri: süni intellekt əsasında əməkdaşlıq və inkişaf..... 188

Nurlan Nəsirov
Ortaçağ narrativ qaynaqlarında Moğol hakimiyyəti dövründə Azərbaycanda məskunlaşan türk tayfalarına aid məlumatlara dair 193
Söhrab Mustafayev
8 noyabr zəfərinin Türkiyə qəzetlərində əks olunması 198
Odər Əlizadə
"Azərbaycan" qəzetində (1918-1920-ci illər) Turan ideyasının poetik və siyasi ifadəsi 202
Ülvü Rəhimli
Türk dövlətləri birliyinin potensialı: geosiyasi reallıqlar və inteqrasiya 208
Günel Rəhimli
Səfəvilərin etnik kökü məsələsi: Şeyx Səfiəddin Ərdəbilinin "Türk piri" kimi təsnifi 212
Salman İbişov
Azərbaycan tarixinin Ümumtürk tarixi kontekstində öyrənilməsi məsələləri (Cümhuriyyət qurucularının əsərləri əsasında) 215
Rəvan Məmmədov
Azərbaycan-Türkiyə humanitar əlaqələrinin institusional mexanizmləri 219
Həmid Əhmədli
Qarabağ zəfərinin Türk dövlətləri arasında inteqrasiya proseslərində əhəmiyyəti: nəticələr və perspektivlər 222
Şəfa Əbdürrəhimova
Fransa-Türkiyə münasibətlərində Osmanlı borcları məsələsi 227
Səbinə Muradova
XX–XXI əsrlərdə Türk dünyasında etnik və mədəni kimlik problemləri 230
Ülviyyə Poladxanlı-Yaşarlı
İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzura qayıdış və bərpa-quruculuq işləri 234
Sevinc Qurbanova
Səfəvi səfirləri İspaniya sarayında 237
Şəfəq Mustafayeva
Türk dünyası XXI əsrdə: müasir reallıqlar və gələcəyə baxış 240
Aygün Soltanzadə
Türkiyəyə təhsil və iş üçün gələn qazaxların ikitərəfli münasibətlərdə rolu 243
Kəmalə Qurbanlı
Osmanlı imperiyası dövründə ərəb millətçiliyi 246
Ramil Niftalıyev
Türk dövlətləri arasında müasir inteqrasiya mexanizmləri və regional əməkdaşlıq platformaları 248

Dilqəm Əhmədov
Türkiyə Böyük Millət Məclisində fəaliyyət göstərmiş azərbaycanlılar 253
Vüsalə Bəbirova
Vətən müharibəsində qazanılan qələbənin Ümumtürk tarixi üçün əhəmiyyəti və nəticəsi 256
Səmra Hacıyeva
Orta əsrlərdə türk xalqları mədəniyyətinin əsas qayəsi 261
Əli Fərhadov
Qacarlar dövründə demokratik haqlar uğrunda mübarizə: Mirzə Yusif xan Təbrizi nümunəsi 266
Türkan Qurbanova
44 günlük Vətən müharibəsinin Ümumtürk tarixi və regional əhəmiyyəti 269
Saida İsmayılzadə
Hun imperiyasının Cənub-Şərqi Avropada etno-siyasi təsiri: Roma–Hun qarşıdurması və Avropanın yeni etnik xəritəsinin formalaşması 272
Nazim Məmmədov
Türk dünyası və Heydər Əliyev fenomeni 276
Nigar Camalova
Türk dünyasının şəxsiyyətləri: T. Makinskinin rəsmi fəaliyyəti 282
Xuraman Vəliyeva, Vəfa Əliyeva
Ağabala Quliyevin şəhər özünüidarəsində iştirakı və siyasi fəaliyyətinə dair (1904-1917-ci illər) 288
Bəxtiyar Tuncay
İslamdan öncəki türk poeziyası və ilk türk şairləri 295
Fidan Şahmalıyeva
Türk dövlətlərinin zəfərdən sonra Qarabağda quruculuq dəstəyi: tarix, həmrəylik və gələcək 299
Nərmin Əhmədli
Beynəlxalq Türk mədəniyyət təşkilatının (Türksoy) Türk dünyası üçün əhəmiyyəti və onun fəaliyyət istiqamətləri 302
Aytac Nəcəfli
Tarixi dünyagörüşün fəlsəfi əsaslarına dair 306
Tarix Dostiyev
Qarabağın daş bütlərinin etnik- mədəni mənsubiyyətinə dair 311
Qənirə Pirquliyeva
Türk dövlətlərinin sikkə zərbinin özəllikləri və Azərbaycan 316
Hicran Mahmudova
Skif hərb sənətinin Ümumtürk xüsusiyyətləri 322

Fəxriyyə Həvilova
Qarabağ və Şərqi Zəngəzurun xalq rəqslərində ümumtürk motivləri 325
Əmanət Əsədova
Türk dastanlarında Ozan-Aşıq sənətinin etnoqrafik təhlili (Zəngəzur materialları əsasında) 328
Mircavid Ağalarov
Fayans məmulatı Azərbaycanın Səlcuq dövrü ticarətinin göstəricisi kimi 331
Azad Zeynalov, Yoshihiro Nishiaki, Yaqub Məmmədov, Ülviyyə Səfərova, Pərivəs Babai
Tağlar mağarasında arxeoloji tədqiqatların bərpası: qarşıda duran vəzifələr və ilkin nəticələr 334
Şamil Nəcəfov, Musa Mursaquliyev, Səadət Əliyeva
Ceyrançöl – türk kökənli qədim mədəniyyətlərin tarix yaddaşı 339
Aida İsmayılova
Azərbaycanın Səlcuqlu dövrü torevtika məmulatının ortaq türk mədəniyyət sistemində yeri 345
Tural Şiriyev
Orta əsrlərdə Azərbaycanda dini tikililərin etnoqrafik xüsusiyyətlərinə dair 348
Nərgiz Əliyeva
Türkdilli xalqların tarixi-mədəni əlaqələrinin sərgilərdə əksi 354
Vüsalə Beydullazadə
Türk dünyasının arxeoloji irsində Gəncənin dekorativ kərpic və kaşı ənənələri. 357
Orxan Zamanov
"Türk dövrü" maddi-mədəni irsinin arxeoloji tədqiqi problemi 363
Ülkər Allahverdiyeva
Son tunc – Erkən dəmir dövründə dəfn adətləri və sosial struktur: Azərbaycan və Anadolu arasında müqayisəli antropoloji təhlil 367
Müzəffər Hüseynov
Goranboyun Göl Yeri qədim yaşayış yeri 372
Cavid Bağırzadə
Albaniyanın ilk Orta əsr Bərdic və Abxaz şəhərlərinin lokallaşdırılması və tarixi-arxeoloji tədqiqi məsələsi (mənbə məlumatları və tarixi-arxeoloji tədqiqatlar əsasında) 380
Rəna İbrahimova
Türk dünyasında miqrasiyalar (XX-XXI əsrlər) 386
Günel Əliyeva
Naxçıvan türbələrində sərdabələrin quruluşu haqqında 390

Arzu Mirzəhmədova
Orta əsr Beyləqan şəhərinin Səlcuq dövrü keramikasının rəqəmsallaşdırılması və mühafizəsi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)..... 394
Nihad Baxşıyev
Erkən orta əsrlərdə Gəncə-Qazax bölgəsində türk siyasi-mədəni təsirləri 398
Səlimə Əliyeva
Türk etnomədəni sistemində İnsan konstitusiyasının ekoloji aspektləri..... 401
Gülay Hüseynli
Anadolu antropologiyasında paleopatoloji tapıntılar..... 405
Nihad Mərdiyev
Türk xalqlarında uzunömürlülük: antropoloji yanaşma..... 408
Qüdrət Aliyev
Xəzər türkləri və yəhudilik dini mərasim yeməkləri 411
Asiman Eyvazova
Cənubi Azərbaycan qaya təsvirləri haqqında..... 415
Aişə İsmayılzadə
Gəncə-Qazax bölgəsinin erkən əkinçi tayfaları Türk dünyasının formalaşan mədəni irsinin tərkib hissəsi kimi 419
Ülviyyə Ağamalıyeva
Cənubi Qafqazda Homo sapiens neandertalensis növünün miqrasiyası və təkamülü problemi 422
Fidan Osmanlı
Ailə dəyərlərinə qloballaşmanın təsiri 425
Maral Əlizadə
Tovuz rayonunun Neolit dövrü abidələrindən aşkarlanmış bitki qalıqlarına dair 429
Gülbikə Aslanlı
Skif heyvani üslubu Ümumtürk mədəniyyətləri sistemində..... 433
Mehdi Novruzov
Sikkələr və təsvirlər-Türklərin dünyagörüşlərinin simvolları kimi 436
Akif Marifli
Dövlətləşdirilmiş terrorizm, humanitar fəlakət və yumşaq güc: erməni terrorizmi və Azərbaycan qaçqınları kontekstində analitik yanaşma 440
Meleyke Memmedova
Kültürel bellekte nazar ve çıle: Azerbaycan ve Anadolu halk inançlarında rıtüel ve koruyucu pratıkler..... 443
Nigina Elmamatova
Markaziy Osiyo xalqlari tarixi organilishi..... 448

Mehmet Balyemez
Kıbrıs türk milli mücadelesi tanıklarıyla yapılan sözlü tarih görüşmelerinde elde edilen tecrubeler 451
Nurbolat Bögenbayev
Kazakistan'ın Mangıstau bölgesinde yıva (Oğuz) boyuna ait damgalar üzerine yeni bulgular 455
Ali Necefoğlu
Bölgesel güvenlik toplumu inşası: Türk dünyasında sosyo-kültürel sürdürülebilirliğin stratejik rolü 456
Meltem Tekerek
1974 Kıbrıs Barış Harekâtında Türkiye Kamuoyunda dayanışma pratikleri..... 460
Ömer Karataş
1916 Türkistan Milli Hareketı üzerine bazi değerlendirmeler..... 465
A. Fatih Fındıklı
Kıbrıs türklerinin Varoluş mücadelesi bağlamında İsmail Bozkurt döneminde Geçitkale-Kovanı (1964–1967) 469
Muhammed Alparslan Kartal
Türk dünyasının ortak değerleri: ortak atasözlerinde dinî etkiler..... 474
Ирада Гусейнова
К вопросу переселения армян на Южный Кавказ 481
Джамиля Рустамова
Трабзонская конференция: попытка создания нового порядка на Южном Кавказе 485
Севиндж Алиева
Основные векторы развития Турецкой Республики 490
Севда Сулейманова
Военное дело у древних тюркских племен и государств..... 493
Миршод Сиддиков
Сила единства: роль Азербайджана в Ташкентском землетрясении 1966 года 498
Байболот Абытов
Влияние джадидизма на развитие тюркских государств 503
Саодат Давлатова
Узбекистан–Азербайджан: новый этап национального и культурно-гуманитарного сотрудничества 508
Гюнель Алиева-Мамедова
Турецко-Американские отношения в контексте Ближнего Востока..... 512
Надир Мамедов
Эволюция международного правопорядка на современном этапе 513

Айтан Ибрагимова
Исторические конфликты и их следы в азербайджанском языке после армянской агрессии 516
Нигяр Гезалова, Мирзохид Аскаров
Формирование политических и геополитических основ формата «Центральная Азия плюс Азербайджан»: историко-политическое исследование 521
Азат Кали
Роль татар Семиречья в развитии просвещения и общественной мысли тюркских народов в конце XIX – начале XX веков 527
Гусейн Гусейнов
Оценка роли тюркских стран в контроле международных транспортных путей Евразии 533
Дениз Асадова
Образ Узун Гасана в современной тюркской историографии и его значение для интеграционных процессов в Тюркском мире 538
Санубар Исмайлова
История государственности тюркских народов 543
Алишер Дониёров
Узбекистан и Азербайджан в системе Тюркской государственности: исторические корни, модели развития и современная интеграция 546
Фаррух Разаков
Новый взгляд на источники по взаимоотношениям Османской империи с государствами Центральной Азии 553
Хошгадам Ислам, Ильхам Мамедов
Как решалась судьба Зангезура в 1920-1921 годы: документы и факты 558
Роза Исмаилова
Роль судебной антропологии в идентификации жертв вооружённых конфликтов: опыт Карабаха 563
Фариба Алекперова
Русскоязычная периодическая печать Азербайджана конца XIX – начала XX века как исторический источник по истории Карабаха ... 566
Нилуфар Гадималиева
Геополитические аспекты Концепции морской силы Альфреда Мэхэна в контексте восстановления Карабаха 570
Айла Ахундова
Дипломатические усилия Азербайджанской Демократической Республики в урегулировании Карабахского вопроса 574

Адия Гаджиева
Актуальность изучения Азербайджано - Турецких отношений на современном этапе и их освещение в школьных учебниках по истории Азербайджана 577
Рашад Алиев
Социально - политический строй гуннов 581
Теймурхан Караханов
Скифский вопрос во внешней политике государства Ахеменидов 585
Davronbek Olimjonov
The Turkic Peoples' Worldview Related to Plants (based on the "Baburnama") 589
Jamila İsagova
Post-conflict reconstruction policies and sustainable development model in Eastern Zangezur 596
Farida Allahverdiyeva
The İslamic dimension in European Middle Eastern policy: geopolitical consequences for the Turkic world 601
Khadija Mirzayeva
The Causes and Consequences of the decline of the Safavid Empire 606
Tamara Ahmadova
Trade, silk, and diplomacy: safavids in the global economy 609
Sabir Khudiyev, Zeynal Nazirli
Safavid Foreign Relations with the Ottomans and European Powers during the Reign of Shah Ismail 612
Emiliya İslamova
The Reign of Safavid Shah Tahmasip in the accounts of European travelers 616
Natig Aliyev
İntegration processes among Turkic States in the Modern Era and cooperation within the framework of the non-aligned movement 618
Muhammed Ali Kumtepe
Ferah Ali pasha and the Ottoman Frontier Administration in the North Caucasus (1781–1784) 621
Farid Karimov
The importance of the South Caucasus States for the Turkic World: communication and energy perspectives 625
Lala Bagirova
The role and impact of the Armenia-Azerbaijan peace settlement process in the United States' South Caucasus policy (2020-2025) 629

Murat Sholakhov
Analysis of Western European military historiography of the Crimean Khanate 633
Afaq Alıyeva
Tarix dərslərində Türk dünyası elementlərinin inteqrativ yanaşmalarla öyrədilməsi 641
Aysel Rüstəmova
Türkiyədə "Çağdaş Türk və dünya tarixi" fənninin tədrisi və tətbiqi 644
Könül Əzimova
"Erməni məsələsi" – Tarixin saxtalaşdırılması 649
Nərgiz Əlizadə
Qərbi Azərbaycanlıların öz tarixi - etnik torpaqlarından deportasiyasının növbəti mərhələsi (1948-1953-cü illər) 652
Ayşən Allahverdiyeva
Matenadaran sənədlərində Azərbaycanın Çuxur-Səəd bölgəsinin türk toponimləri 655
Aynur Əliyeva
Azərbaycan Atabəylər dövləti Türk tarixşünaslığında 658
Fidan Xudaverdiyeva
Türk dünyasında şəhər idarəçiliyində oxşarlıqlar (Səfəvi və Böyük Moğol imperiyaları nümunəsində) 661
Mirsamir Seyidov
Rusiyanın Mərkəzi Asiya və Şimali Azərbaycan müsəlman ruhaniliyinə dair siyasətinin müqayisəli təhlili 665
Rəşad Əsgərov
Sovet işğal rejimi tərəfindən dini təriqətlərin sistemli sıxışdırılması (1920-1930-cu illər) 669
Turqay Məmmədli
Bakı Türkoloji qurultayının keçirilməsində sovet siyasətinin təsiri və nəticələri 672
Nihad Nadirli
Lənkəran qəzasında yerləşən Qədirli kəndinin 1873-cü il kameral təsviri 676
Ruslanə Tağıyeva
Sovet Rusiyası – Türkiyə əməkdaşlığı və Azərbaycan (1919-1921-ci illər) 680
İlahə Cəfərova
Yunan mədəniyyətinin qədim Azərbaycan cəmiyyətinə təsiri 684
Məhəmməd Ərəbov
Kamal Əliyevin tədqiqatlarında qədim Albaniya dövlətinin sərhədləri və qonşuları məsələsi 688

Tünzalə Səfərova
Mark Antoninin dövründə Roma və Atropatena arasında hərbi-siyasi əlaqələr .. 691
Alidə Quliyeva
Azərbaycan şəhərləri Yan Streysin "Üç səyahət" əsərində 695
Mətin Quliyev
Bayandurlu-Qaraman əlaqələri 700
Pərzad Mirzəzadə
Türkiyə- Pakistan strateyi əməkdaşlığının əsas istiqamətləri 703
Orxan Eyyubov
Hülakülərin idarəçilik sistemindəki yeniliklər və onların regiona təsiri..... 707
Aydın İslamzadə
Mərcidabık və Ridaniyə döyüşlərinin türk tarixində yeri 712
Nuranə Cəbizadə
Osmanlı modernləşməsinin (XVIII–XIX əsrlər) Türk dünyasında etnik kimliklərin transformasiyasına və qərbyönümlü mədəni proseslərə təsiri 717
Taliyyə Eminova
Qərbi Hun imperiyasının xarici siyasətinin Avrasiya geosiyasətinə təsiri və XXI əsr Türk dünyası üçün tarixi ibrətləri..... 720
Emil Qarayev
Türk mədəniyyətinin fundamental mənbələri və tarixi yaddaşı 723
Elnur Mehdiyev
Əlcəzair müstəqilliyi kontekstində Evian sazişi və Fransa kolonializminin süqutu..... 726
Yeganə Məmmədzadə
XX əsrin 80 – ci illərində İngiltərə - Türkiyə münasibətləri 729
Mirfazil İbrahimli
Rusiya imperiyasının Şərq siyasəti: Qafqaz istiqamətində genişlənmə və beynəlxalq rəqabət..... 733
Rauf Kərimzadə
Gürcüstan Respublikasının sovetləşməsi..... 736
Rəna Həsənzadə
Heydər Əliyev–İlham Əliyev siyasi xəttinin Türk dünyası reallıqları kontekstində təhlili..... 741
Günay Əliyeva
Azərbaycan-Türkiyə qardaşlığının humanitar aspektləri (1914-1918-ci illər).... 744
Ayişə Aslanova
Müasir təhsildə rəqəmsal qurğuların rolu və inteqrasiyası və istifadə zamanı yaşanan problemlər..... 748

İsmət İbrahimov
Ümumtəhsil məsələlərində məktəblərin VIII sinifdə Azərbaycan tarixinin tədrisində analitik bacarıqların inkişaf etdirilməsi 751
Günay Ömərova
V sinif Azərbaycan tarixi kursunda akvarium təlim üsulundan istifadə 753
Süleyman Rəhimli
Türk dünyasının ortaq tarixi-mədəni irsinin tədrisində innovativ metodların tətbiqi 756
Cehun Hüseynli
Müasir dövrdə Ali məktəblərdə fəal təlim metodları ilə tədris (Şah I Abbasın hakimiyyət dövrü) 759
Banuçiçək Hüseynli
Türkiyənin Avropa İttifaqına üzvlük cəhdləri və ABŞ-nın mövqeyi 762
Sərxan Məmmədov
NAFTA ilə Türkiyə arasında ticarət münasibətləri 765
Abdurrəhman Abdurəhmanov
Cop29-un Azərbaycanda keçirilməsinin Qafqaz və Türk dünyası ölkələri üçün ekoloji və diplomatik əhəmiyyəti 768
Səbuhi Kazımzadə
Müasir dövrdə ABŞ-nın Cənubi Qafqaz siyasətinin Türk dünyasına təsiri 771
Bənövşə Ramazanova
Sovet hakimiyyəti dövründə Azərbaycan neftinin iqtisadi və strateji rolu (1920-1922-ci illər) 775
Nüsrət Mirzəyev
Türk dünyasında inteqrasiyanın tarixi əsasları 778
Lətif Abdullayev
Cənubi Qafqazda geosiyasi rəqabət kontekstində Gürcüstan və Türk dünyası ... 781
Yaşar Xıdırov
Zəngəzur dəhlizi layihəsinin reallaşmasının regional əhəmiyyəti 784
Kənan Hüseynzadə
Azərbaycan–Türkiyə münasibətlərində Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti və perspektivləri 787
Dərya Rəsulova
Türk dünyasında Qızılbaşlıq ideologiyasının yeri 790
Ahu Səfərəliyeva
Ümumtürk dünyasında Ərdəbil Şeyxliyinin yeri 793
Rəfiqə Yunusova
Şirvanşah III Mənuçöhr dövründə Azərbaycan-Gürcüstan münasibətləri 796

Emin Məcidli
Türk-İslam Cəmiyyətlərində Vəqf İnstitutunun sosial-iqtisadi rolu (XVIII-XIX əsrin I yarısı) 801
Zəhra Şərifzadə
İrəvan xanlığı ilə Osmanlı imperiyasının münasibətləri Azərbaycan tarixşünaslığında 805
Nigar Mirzəyeva
Türk dünyası tarixində Azərbaycan qadınları Cümhuriyyət dövründə 809
Fidan Şahəli
Birinci Türkoloji qurultayının Türk dünyasında ortaq mədəni və tarixi dəyərlərin araşdırılmasında yeri 813
Zalikə Bəybalayeva
Türkiyə tarixşünaslığında Səfəvi-Osmanlı münasibətlərində din faktorunun əhəmiyyəti 816
Vasif Beybutlu
Azərbaycan milli mətbuatın formalaşmasında Həsən bəy Zərdabi və "Əkinçi" qəzetinin tarixi missiyası 820
Səkinə Hüseynova
Türk dunyası mədəni irsinin və tarixi şəxsiyyətlərinin qəhrəmanlıq nümunələrinin bəzi məsələləri 826
Röya Mirzəzadə
Türk dünyası: ortaq tarixi mövzuların tarix dərslərində interaktiv metodlarla tədrisi 831
Tamilla İsmayılbəyli
Türk dünyasında təhsilin strateji vəhdəti: milli ruh, yaradıcı təfəkkür və inkişaf prioritetləri 835
Mirhəmid Bədəlov
Günümüzdə Türkiyənin Balkan siyasətinin prinsip və istiqamətləri 840
Ayna Quliyeva
Türk Dövlətləri Təşkilatı: reallıqdan gələcəyə 844

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV: TÜRK DİLLİ XALQLARI BİRLƏŞDİRƏN ORTAQ TARİXİ-MƏDƏNİ İRS, ORTAQ DİL

İbrahim Zeynalov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin dekanı, professor
senedtarix@mail.ru

Hər bir xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşıbsa da, dayanmayıb, inkişaf edib.

Ümummilli Lider Heydər Əliyev

***Açar sözlər**: Türk xalqları, Türk respublikaları, Türkdilli xalqların dahi şəxsiyyətləri, Türk xalqları birliyi, milli dəyərlər*
***Keywords**: Turkic peoples, Turkic republics, prominent figures of the Turkic-speaking peoples, unity of the Turkic peoples, national values*

Türk dilli xalqları birləşdirən başlıca **ortaq dəyərlərin əsasını ortaq tarixi - mədəni irs, ortaq dil, adət-ənənələr, milli-mənəvi və dini amillər, tarixi köklər və etnik əlaqələr** təşkil edir.

Tarixin bütün zamanlarında Avrasiya məkanının başlıca regionlarında yaşayan və dünya mədəniyyətinə misilsiz töhfələr vermiş türkdilli xalqlar dərin qədim tarixi köklərlə, mənəvi tellərlə bir-birinə bağlı olmuşlar. Bu bağlılıq onları zamanın bütün sınaqlarından qalibiyyətlə çıxmalarına və inkişaflarına səbəb olmuşdur.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın türkdilli xalqlarla əlaqələrinin, əməkdaşlığının gücləndirilməsində, Azərbaycanın türk dünyasında aparıcı mövqelərə çıxmasında, həmçinin ümumtürk həmrəyliyinin təmin olunmasında əvəzsiz rol oynamışdır.

Ulu Öndər Heydər Əliyev ***Türkiyə*** ilə qardaşlıq bağlarını möhkəmləndirməklə bərabər, ***Mərkəzi Asiyadakı türk respublikaları*** ilə sıx əməkdaşlığı da daim prioritet saymışdır. Çünki Azərbaycan coğrafiyadakı strateji yerinə, güclü iqtisadi və infrastruktur imkanlarına görə Türkiyə və Mərkəzi Asiyanın türk ölkələri arasında əvəzolunmaz körpüdür. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə bu körpü real tərəfdaşlıq müstəvisi kimi təşəkkül tapdı və möhkəmləndi.

Tarixə Türk boylarının bu günə qədər qurduğu 150-dən yuxarı dövlət qurumu (16 imperiya, 50-dən artıq dövlət, 50-dən artıq şahlıq-bəylik, bir neçə atabəylik, 20-dən artıq xanlıq, 10-dan artıq sultanlıq və 15-dən artıq respublika) bəllidir.

Azərbaycanın, o cümlədən Mərkəzi Asiya türklərinin yaşadığı ərazilərin Çar Rusiyası tərəfindən işğalından sonra türkdilli xalqlar arasında süni uçurumlar yaranmağa və əlaqələr məhdudlaşmağa başlanmışdır.

Türkdilli xalqların, türk dünyasının zəngin tarixi-mədəni və elmi irsinin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsində **Atatürk Mədəniyyət, Dil və Tarix Ali Qurumunun** türk kimliyinin müəyyənləşdirilməsi uğrunda davamlı fəaliyyəti böyük əhəmiyyətə malikdir.

Elm, mədəniyyət, sənət, iqtisadiyyat, texnologiya və sair sahələrdə qurulacaq əməkdaşlıq üçün əsas şərtlərdən birincisi ortaq ünsiyyət dili və ortaq əlifba məsələsi də mühüm əhəmiyyət kəsb edən məsələlərdən hesab olunur.

Türk dilli xalqların dahi şəxsiyyətləri, görkəmli mədəniyyət, incəsənət xadimləri, yazıçıları, şairləri - Nizami Gəncəvi, Yunis Əmrə, İmadəddin Nəsimi, Əlişir Nəvai, Məhəmməd Füzuli, Məhtumqulu, Abay Kunanbayev, Çingiz Aytmatov və s. kimi türk dahilərinin əsərləri dünya inciləri sırasına daxildir.

Ulu Öndərimiz qeyd edir ki, gənclər milli ruhda, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnsinlər, tariximizi, ənənələrimizi yaxşı bilsinlər. Dahi şəxsiyyət, böyük Öndər dönə - dönə təkrar edirdi: *"Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".*

Türk xalqları birliyini möhkəmləndirmək, mənəvi körpüləri qorumaq, milli kökə qayıdış, ortaq dəyərlərimizi birləşdirmək Ümummilli lider Heydər Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edirdi.

SSRİ-nin dağılmasından sonra İttifaqın tərkibindən çıxan və yeni yaranan müstəqil türk respublikaları - Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan elmdə, təhsildə, incəsənətdə, iqtisadiyyatda, ümumiyyətlə bir çox əhəmiyyət kəsb edən sahələrdə ümumdünya proseslərinə inteqrasiya etməyə başladılar.

Uca Tanrının ona bəxş etdiyi nadir keyfiyyətlər sayəsində Ümummilli Lider Heydər Əliyev tarixi hadisələrin gedişini irəlicədən görə bilmiş, olduqca əhəmiyyət daşıyan qərarlar qəbul edilən anda əsl vətənpərvərlik mövqeyi nümayiş etdirmişdir.

Ulu öndərin təşəbbüsü ilə Azərbaycanda qazax şairi Abay Kunanbayevin 125, Özbək ədəbiyyatının klassiki, mənşəcə azərbaycanlı olan Maqsud Şeyxzadənin 70 illik yubileyləri təntənə ilə keçirilmişdi.

Ümummilli lider "Kitabi-Dədə Qorqud"un 1300, "Manas"ın 1000, Qazax şairi, filosofu Abayın 150, Özbəkistanın böyük dövlət xadimi, türk dünyasının böyük şəxsiyyəti Əmir Teymurun 660, Azərbaycan şairi, eyni zamanda bütün türk dünyasına mənsub olan Məhəmməd Füzulinin 500 illik yubileylərinin bütün türkdilli dövlətlərin qeyd etmələrini böyük tarixi hadisə hesab etmiş və çox yüksək qiymətləndirmişdir.

Çox əsrlik tariximizin bir çox qaranlıq, təhrif olunmuş, saxtalaşdırılmış səhifələrinin açıqlanması, kimliyimizin tam müəyyən edilməsi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəslin yetişdirilməsi dövrümüzün ən vacib məsələlərindəndir.

Qəbələ Zirvə görüşündə (2025-ci il 6-7 oktyabr) Respublika Prezidenti İlham Əliyev qeyd etmişdir: "Son illərdə türk birliyinin siyasi gücə çevrilməsi istiqamətində atdığı addımlar artıq nəticə verir: türk dövlətləri arasında iqtisadi əlaqələr dərinləşir, birgə müdafiə təşəbbüsləri müzakirə olunur, enerji və nəqliyyat layihələri ortaq strateji hədəfə çevrilir...Rusiya və həm də Qərb gücləri (xüsusən bəzi Avropa

ölkələri) də türk birliyinin siyasi-iqtisadi cəhətdən güclənməsini ehtiyatla izləyir. Onlar hesab edir ki, bu birlik enerji bazarlarında və logistika dəhlizlərində Avropanın təsirini azalda bilər. Türk dövlətləri enerji tranzitini birgə idarə etməyə başlasa, Qərbin regiondakı oyun qaydaları dəyişəcək".

CƏNUBİ QAFQAZDA SÜLH VƏ TƏHLÜKƏSİZLİYİN QORUNMASINDA "ŞUŞA BƏYANNAMƏSİ"NİN ROLU

Kəmalə Nəcəfova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Elmi işlər üzrə dekan müavini,
tarix üzrə fəlsəfə doktoru, dosent
knajafova69@mail.ru

Açar sözlər: *Türkiyə, Azərbaycan, Şuşa Bəyannaməsi, Cənubi Qafqaz, regional təhlükəsizlik*
Keywords: *Turkey, Azerbaijan, Shusha Declaration, South Caucasus, regional security*

2020-ci ilə qədər Cənubi Qafqazda mövcud olan süni tarazlıq vəziyyəti və həll olunmamış Ermənistan-Azərbaycan münaqişəsi Fransa, ABŞ və Rusiya da daxil olmaqla müəyyən xarici güclərin, eləcə də İrandakı müəyyən qüvvələrin əlində Bakıya qarşı təsir vasitəsi rolunu oynayırdı.

Lakin 44 günlük Vətən müharibəsində Azərbaycanın təcavüzkar Ermənistan üzərində Şanlı Zəfəri bu süni tarazlığı kökündən dəyişdirdi. Azərbaycan nəinki təcavüzkarı cəzalandırdı, təkbaşına BMT-nin kağız üzərində qalmış qətnamələrinin təmin olunması da daxil beynəlxalq hüququn aliliyini və tarixi ədaləti bərpa etdi. 8 noyabr 2020-ci ildə Şuşanın azad edilməsi 44 günlük Vətən müharibəsində dönüş nöqtəsi oldu və Azərbaycanın işğal olunmuş ərazilərinin əhəmiyyətli bir hissəsi üzərində nəzarəti bərpa etməsinə səbəb oldu. Cəmi yeddi ay sonra, isə, məhz bu şəhərdə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ikitərəfli əməkdaşlığın yeni səviyyəsini qeyd edən bir bəyannamə imzaladılar. 15 iyun 2021-ci il tarixi Azərbaycan və Türkiyənin müasir tarixində iki qardaş dövlət arasında strateji əlaqələrin müttəfiq münasibətlərinə çevrildiyi gün kimi tarixə düşdü.

Qeyd etmək lazımdır ki, Azərbaycan 1991-ci ilin oktyabrında müstəqilliyini bərpa etdikdən sonra Türkiyə ilə münasibətləri bütün sahələrdə ardıcıl olaraq inkişaf etmişdir. Ölkələr arasında münasibətlərin məzmununu, ümumi istiqamətini və xarakterini müəyyən edən mindən çox dövlətlərarası sənəd imzalanmışdır. Bundan əlavə, Azərbaycan-Türkiyə dövlətlərarası münasibətlərin inkişafı üçün əsas rolunu oynayan ilk fundamental sənəd Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü il fevralın 9-da Türkiyəyə ilk rəsmi səfəri zamanı imzalanmış "Azərbaycan və Türkiyə arasında Dostluq və Hərtərəfli Əməkdaşlığın İnkişafı haqqında Müqavilə" olmuşdur. Uzun müddət iki ölkə arasında münasibətlərin inkişafı bu müqaviləyə əsaslanırdı [2]. Dövlətlərarası münasibətləri daha yüksək səviyyəyə qaldıran növbəti mərhələ 16 avqust 2010-cu ildə "Azərbaycan və Türkiyə arasında

Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında Müqavilə"nin imzalanması olmuşdur [5, s. 29]. Nəhayət, 15 iyun 2021-ci ildə Şuşa Bəyannaməsinin imzalanması nəticəsində Azərbaycan müasir tarixdə ilk dəfə olaraq qardaş Türkiyə olan strateji tərəfdaş və rəsmi müttəfiq qazandı [1]. Qoşulmama siyasəti sayəsində Azərbaycan əvvəllər heç bir hərbi-siyasi blokun üzvü olmayıb və Cənubi Qafqazdakı bəzi qonşularından fərqli olaraq rəsmi müttəfiqləri yoxdur. Nəticə etibarilə, Şuşa Bəyannaməsinin imzalanması Azərbaycan və Türkiyəni ilk dəfə olaraq bloklara qoşulmayan müttəfiqlərə çevirdi və iki türk dövləti arasında sonrakı inteqrasiya və qarşılıqlı əməkdaşlıq üçün bir model rolunu oynadı ki, bu da digər ölkələr üçün nümunə ola bilər. Azərbaycan və Türkiyə prezidentləri tərəfindən Şuşa şəhərində imzalanan və Azərbaycanla Ermənistan arasında İkinci Qarabağ müharibəsindən sonra "Azərbaycanın mədəniyyət paytaxtı" elan edilən Müttəfiqlik Münasibətləri haqqında Bəyannamə iki qonşu dövlət arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsində mühüm mərhələ oldu. Bəyannamənin imzalanmasının 15 iyunda, Azərbaycanın Milli Qurtuluş Gününü qeyd etdiyi gün baş tutması əlamətdardır. 1993-cü ilin bu günündə ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Şurasına rəhbərlik etdi və bununla da ölkəni separatizmdən və dövlət çevrilişindən xilas etdi [1]. Sənədin imzalanması üçün 1752-ci ildə Pənahəli xan tərəfindən qurulan və həmişə 98%-i azərbaycanlıların yaşadığı tarixi Azərbaycan şəhəri olan Şuşanın seçilməsi də təsadüf deyildi.

Şuşada imzalanan Bəyannamə müxtəlif sahələrdə müttəfiqlik münasibətlərinə aiddir. Orada hərbi, siyasi, sosial, mədəni, iqtisadi sahələrdə qarşılıqlı yardım, birgə ticarət və iqtisadi əməkdaşlıq, gənclər siyasəti, idman, təhsil, beynəlxalq fəaliyyətlər və siyasi və iqtisadi əlaqələrin inkişafı enerji təhlükəsizliyinin, xüsusən də Cənub Qaz Dəhlizinin əhəmiyyətini vurğulayır [1]. Azərbaycan Prezidenti danışıqlarda əsas diqqəti iki əsas məsələyə yönəltdi: 1) müdafiə sektorunda əməkdaşlıq və əməkdaşlıq və 2) nəqliyyat kommunikasiyaları məsələsi. Bu baxımdan, sənəddə tərəflərin suverenliyə, müstəqilliyə, təhlükəsizliyə, toxunulmazlığa və ya ərazi bütövlüyünə qarşı üçüncü dövlətlər tərəfindən təcavüz və ya təhdid, eləcə də hər iki tərəfin beynəlxalq səviyyədə tanınmış sərhədlərinə digər qəsdlər halında zəruri birgə tədbirlərin həyata keçirilməsi barədə razılığı əks olunur. Belə bir təhlükə yarandıqda, tərəflər BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq qarşılıqlı məsləhətləşmələr aparmağı, təşəbbüs göstərməyi və bir-birinə lazımi yardım göstərməyi öhdələrinə götürdülər. Bu müzakirələr təcili olaraq keçirilməli və lazımi yardımın həcmi və forması müəyyən edilməlidir. Bundan sonra birgə tədbirlərin həyata keçirilməsi üçün müdafiə ehtiyaclarının ödənilməsi barədə qərar qəbul edilməli və Silahlı Qüvvələrin təhlükəsizlik və komandanlıq strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil edilməlidir. Bundan əlavə, tərəflər müntəzəm olaraq milli təhlükəsizlik məsələləri üzrə Təhlükəsizlik Şurasının birgə iclaslarını keçirəcəklər və bu iclaslarda tərəflərin maraqlarına təsir edən milli müdafiə, regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunacaq. Bəyannamədə müdafiə sənayesi ilə bağlı məsələlər də yer almışdır. Müdafiə sektorunda qarşılıqlı əlaqə və əməkdaşlıq tarixi bir nailiyyətdir və bir daha Türkiyə və Azərbaycanın həmişə bir-

birinin təhlükəsizliyini təmin etdiyini və təmin edəcəyini nümayiş etdirir [1]. Qeyd etmək lazımdır ki, Müttəfiqlik Bəyannaməsi yüz il əvvəl imzalanmış Qars müqaviləsinin möhkəm tarixi təməlinə əsaslanır, lakin yenə də Azərbaycan-Türkiyə əməkdaşlığının gələcək ümumi istiqamətini göstərir [4, s. 217].

Sənəddə həmçinin təhdidlər qarşısında xarici siyasət tədbirlərinin əlaqələndirilməsi; təcrübə, personal və texnologiya mübadiləsi daxil olmaqla silahlı qüvvələrin birgə inkişafı; Zəngəzur dəhlizi də daxil olmaqla nəqliyyat və enerji dəhlizlərinin inkişafı; müdafiə sənayesində, o cümlədən istehsal və tədqiqat və inkişaf səviyyələrində əməkdaşlıq; və regional sabitliyə təhdidlərə dair ortaq baxış əks olunur.

Bu son məqam İsrail və İran arasındakı mövcud qarşıdurma nəzərə alınmaqla xüsusilə vacibdir. Aydındır ki, Yaxın Şərqdə yeni gərginlik dalğası, o cümlədən İsrail və İran arasındakı hərbi qarşıdurma fonunda Şuşa Bəyannaməsinin əhəmiyyəti Azərbaycandan çox kənara çıxır və daha geniş strateji kontekstin bir hissəsinə çevrilir.

İmzalanmış Bəyannamədə əks olunan ikinci vacib məsələ nəqliyyat kommunikasiyalarının inkişafı ilə bağlıdır. Sənəddə Türkiyə ilə Azərbaycanı avtomobil və dəmir yolu ilə birləşdirən nəqliyyat magistralı olan Zəngəzur Dəhlizinin açılması ilə bağlı müddəaları əks etdirən bənd var. Beləliklə, müqavilənin 9-cu bəndinə əsasən, "Tərəflərin razılığı ilə Naxçıvan Muxtar Respublikasını Azərbaycanın qərb bölgələri ilə birləşdirən yeni nəqliyyat kommunikasiyalarının tikintisi təmin ediləcək" [4, s. 218]. Şuşa Bəyannaməsində adı çəkilən və Ermənistan ərazisindən keçən Zəngəzur avtomobil dəhlizi 1990-cı illərin əvvəllərinə qədər fəaliyyət göstərib, həmin il Birinci Qarabağ müharibəsi hadisələri nəticəsində rabitə kəsilib. 2020-ci ilin 10 üçtərəfli bəyanatının şərtlərinə əsasən, Azərbaycan və Türkiyəni Naxçıvan Muxtar Respublikasının ərazisi ilə birləşdirəcək avtomobil və dəmir yolunun çəkilməsi qərarı da İkinci Qarabağ müharibəsindən sonra yaranan yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün artıq danışıqlar aparılmır və təkcə Türkiyə və Azərbaycanı deyil, həm də bəzi digər dövlətləri dəmir yolu və avtomobil nəqliyyatı ilə birləşdirəcək yolun açılması üçün TRİP layihəsi reallaşmaqdadır.

Beləliklə, Şuşa Bəyannaməsinin imzalanması Bakının Türkiyənin hərbi-siyasi sisteminə və dolayı yolla NATO-ya sıx inteqrasiya olunmuş regional oyunçu kimi ortaya çıxmasının əlaməti oldu. Bu sənəd müharibənin qələbəsinin məntiqi nəticəsi və eyni zamanda yeni bir başlanğıc nöqtəsi oldu. Şuşa Bəyannaməsi təkcə müharibənin nəticələrini qeyd etməklə kifayətlənmədi, həm də regional təhlükəsizlik arxitekturası üçün yeni təməllər qoyaraq Bakının geosiyasi təsirini gücləndirdi, Cənubi Qafqazda güc balansını bərpa etdi və Azərbaycanın ərazi bütövlüyünə qarşı çıxan qüvvələrə güclü təsir göstərdi. 1871-ci il Praqa müqaviləsi Almaniyanın Avropadakı qələbəsini möhkəmləndirdisə, Şuşa Bəyannaməsi də Cənubi Qafqazda yeni bir reallığın - güclənmiş, özünəinamlı və bərpa olunmuş Azərbaycan dövrünün simvoluna çevrildi. Ümumiyyətlə, Şuşa Bəyannaməsi sadəcə hüquqi və ya diplomatik akt deyil, Cənubi Qafqazda tarixin gedişatını dəyişdirən strateji sənəddir. O, tam qələbəni təmin etdi, təhlükəsizliyi təmin etdi, müttəfiqliyi gücləndirdi və Azərbaycanı regional və qlobal siyasətdə fəal rol oynayan bir dövlətə çevirdi.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan və Türkiyə arasında müttəfiqlik haqqında Şuşa bəyannaməsi imzalanıb // - https://president.az/az/articles/view/52115

2. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsi // - https://e-qanun.az/framework/49147

3. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Şuşa Bəyannaməsinin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının qanunu // - https://e-qanun.az/framework/49147

4. Мамедова Я. Историческое значение Шушинской Декларации как документа мира, дружбы и взаимопомощи // Москва: Право и практика, - №2, 2022, - с. 215-219.

5. Nəcəfova K. Şuşa Bəyannaməsinin tarixi, hüquqi və siyasi əhəmiyyəti // Türk dünyası: ortaq mədəni dəyərlər, müsir reallıqlar və gələcəyə baxış. - Bakı Dövlət Universiteti, 19-20 dekabr 2023-cü il. - I Beynəlxalq elmi konfransın materialları. - Bakı: Fiyuzat, - 2024. – c. 29-34.

TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCANIN ORTA DƏHLİZİN GENİŞLƏNDİRİLMƏSİ İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİ

İqbal Ağayev
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin
"Asiya və Afrika ölkələri tarixi" kafedrasının müdiri, dosent
iqbalagayev@bsu.edu.az

Açar sözlər: *Türk Dövlətləri Təşkilatı, Trans-Xəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi, Bir kəmər Bir Yol (BKBY), İpək Yolunun İqtisadi üzrə Zolaq (İYİZ), Orta Dəhliz, Zəngəzur dəhlizi*
Keywords: *Organization of Turkic States, Trans-Caspian International East-West Middle Corridor, One Belt One Road (OBOR), Silk Road Economic Belt (SRB), Middle Corridor, Zangezur Corridor*

XXI əsrin birinci rübünün son dekadasında Türk Dövlətləri Təşkilatının (TDT) Cənubi Qafqaz regionu ilə bağlı fəaliyyəti özünün aktivliyi ilə seçilir. TDT-yə daxil olan dövlətlərin dünyanın mərkəzi hesab olunan Avrasiya (heartland) məkanında və bununla da Şərq-Qərb dəhlizinin mərkəzində yerləşməsi onu əhatə edən geosiyasi güclərin təşkilatla münasibətlərdə ehtiyatlı siyasət yeritməsini şərtləndirir. Onların istər yumşaq, istər sərt güc siyasətinə qarşı duruş gətirərək neytrallığı saxlamağa çalışan Mərkəzi Asiya (MA) dövlətlərinin TDT-da birləşməsi onların bəzilərinin Rusiya ilə hərbi-siyasi blokda olmalarına baxmayaraq xarici siyasətdə müstəqil addımlar atmalarını şərtləndirir. MA dövlətlərinin Qara dəniz limanlarına və Avropaya çıxışının Azərbaycan üzərindən keçməsi və onların sanksiyalarla üzləşmiş istər şimal, istər cənub istiqamətlərində maneələrlə rastlaşması istər-istəməz Trans-Xəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi (TXBŞQOD və ya Orta Dəhliz) və o dövlətlərlə ortaq mədəni-tarixi dəyərləri bölən Azərbaycanı Avropa üçün ümid qapısına çevirir. Bu mənada Azərbaycanı Naxçıvan ilə ayıran qədim Azərbaycan ərazisi sayılan qərbi Zəngəzurdan keçən 42 km-lik dəhlizin açılması nəinki Azərbaycanın, həmçinin Cənubi Qafqaz, MA və qonşu dövlətlərin iqtisadi çiçəklənməsinin rəhni ola bilər.

Bu mənada dəhlizin açılması təkcə lokal və regional deyil, interkontinental əhəmiyyətə də malikdir.

TDT-nin yaranması. Azərbaycanın həm Şimal-Cənub, həm də Şərq-Qərb dəhlizlərinin qovşağında yerləşməsi onun region dövlətləri üçün əhəmiyyətini artırmaqla yanaşı onun diplomatik sahədə manevr qabiliyyətinin çevikliyini təmin edir. Azərbaycan dövlətçiliyinin əsasını qoymuş Heydər Əliyev müstəqillik illərində Azərbaycanın beynəlxalq nəqliyyat layihələrində iştirakına xüsusi önəm vermiş və bu siyasətin beynəlxalq və regional təşkilatlar çərçivəsində də həyata keçirilməsini hər cür təşviq etmişdir.

Belə təşkilatlardan biri də əsası 1992-ci ildə qoyulmuş, lakin məhz 2009-cu ildə Türkdilli dövlətlərin dövlət başçılarının Naxçıvanda baş tutmuş zirvə görüşünün yekununda qəbul edilmiş Naxçıvan Bəyannaməsinə əsasən adı dəyişdirilərək fəaliyyətini davam etdirən TDT-dir. Tarixi qərarın Naxçıvanda qəbul edilməsinin simvolik mənası Türk dünyasını körpü kimi birləşdirən qədim Azərbaycan ərazisi olan Zəngəzura qayıdış anlamına gəlir. Qayıdış təkcə həmin dövrdə düşmən tapdağı altında olan Şərqi Zəngəzurun azad edilməsi kimi deyil, həm də, Azərbaycanın əsas hissəsi ilə Naxçıvanı birləşdirən Qərbi Zəngəzur ərazisindən nəqliyyat baxımından maneəsiz istifadə haqqının qaytarılması anlamında başa düşülməlidir. Yeni ad altında keçirilən ilk zirvə görüşünün hədəfləri içərisində beynəlxalq layihələrin təşviqi xüsusi yer tuturdu. Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev iştirakçıların nəzərini "Azərbaycanın tranzit imkanları"na yönəltdi. Bu imkanlardan Qazaxstan və Türkmənistanın istifadə etdiyini vurğulayan prezident o zaman tikilməkdə olan Bakı-Tbilisi-Qars (BTQ) dəmir ipək yolunun əhəmiyyətinə diqqəti çəkdi [16]. 2011-ci ildə nə Bir Kəmər Bir Yol (BKBY), nə də Avropanın Global Gateway təşəbbüsü vardı. Yalnız mənzil qərargahı Bakıda olan və MA respublikalarını Cənubi Qafqaz vasitəsilə Avropa ilə birləşdirən TRASECA layihəsi vardı. Çinin 2013-cü ildə irəli sürdüyü BKBY təşəbbüsündən sonra qədim ipək yolunun arealı daha genişlənərək mərkəzi Çini İpək Yolunun İqtisadi Zolağı (İYİZ) vasitəsilə quru yollarla Avropa ilə birləşdirməli idi. Azərbaycan 2017-ci ildə ev tapşırığını yerinə yetirərək BTQ dəmir yolunu istismara buraxdı [3]. BTQ təkcə Azərbaycanı Gürcüstan vasitəsilə Türkiyəyə deyil, TDT-a daxil olan MA dövlətlərini, Çini transanadolu dəmir yolu ilə Avropaya birləşdirirdi. İkinci istiqamət Tbilisidən Qara dəniz limanları – Poti və Batumiyə yönlənirdi ki, buradan yüklər gəmilər vasitəsilə Şərqi Avropa ölkələrinə çatdırılırdı. BTQ-nın istismara verilməsi Çin üçün Orta dəhlizin əhəmiyyətini bir qədər də artırdı. Mənzil qərargahı Astanada olan TXBŞQOD -də iştirak etmək istəyən şirkətlərin sayı artdı. BKBY təşəbbüsünə həsr olunmuş 2017-ci ildə baş tutmuş birinci forumda tranzit imkanları baxımından böyük üstünlüyü olan artıq bütün TDT-a üzv olan dövlətlər iştirak etdi. Forumda MA məkanının tranzit üstünlükləri xüsusilə vurğulandı. Tranzit Azərbaycan üzərindən olduğuna görə artıq TDT-nin Çolpan Ata zirvə görüşündə (sentyabr 2018) qəbul edilmiş Bəyannamədə BTQ və istifadəyə verilən Ələt limanının adı Mərmərə dənizinin altından çəkilən dəmir yolu kimi nəhəng layihə ilə bir sırada yer aldı [8].

Orta Dəhlizin inkişafı. Azərbaycan Orta dəhlizin səmərəsini artırmaq istiqamətində titanik işlər görsə də, bu sahədə əsaslı dönüş "44 günlük müharibənin" başa çatmasından sonra regionda yaranmış yeni geosiyasi reallıqdan sonra baş verdi. 2022-ci ilin fevralında Rusiya-Ukrayna münaqişəsinin başlanması Orta Dəhlizin əhəmiyyətini daha da artırdı. Bu dövrdə İ.Əliyev tərəfindən BTQ ilə yanaşı "Zəngəzurdan keçən marşrutun" da əhəmiyyəti xüsusi vurğulandı [11].

Əslində Zəngəzur məsələsi siyasi həllini 2020-ci il noyabrın 10-da imzalanmış Üçtərəfli razılaşmada tapmışdı. Lakin subyektiv səbəblərdən dəhlizin bərpası bəzi dövlətlər tərəfindən yubadılmağa başladı. İ.Əliyevin "Zəngəzur dəhlizini (ZD) heç kim ləğv etməyib, bu layihə gündəlikdə qalmaqdadır və həyata keçirilməyənədək gündəlikdə qalacaq" fikri bu ölkələrə mesaj idi [15].

Sanksiyalarla üzləşmiş Rusiya ərazisindən tranzit kimi istifadə əhəmiyyətini itirdikcə Çin Orta Dəhlizin də genişlənməsində maraqlı olduğunu bildirərək əməli addımlar atmağa başladı.

ŞƏT-in Səmərqənd forumunda ÇXR-in sədri Si Cinpin İ.Əliyev ilə təkbətək görüşündə "Azərbaycanın Çin ilə Avropa arasında nəqliyyat prosesində mühüm rol" unu vurğulamış, [14], iki il sonra yenə ŞƏT forumunun gedişində iki liderin görüşünün məhsulu olaraq AR ilə ÇXR arasında strateji tərəfdaşlıq haqqında birgə Bəyannamə" imzalanmışdı [24]. TDT üzvləri üçün də bu tarixi hadisə kimi qəbul edildi. İstər ayrı-ayrı güclərin MA ölkələri ilə "5+1" formatinda keçirdiyi sammitlərdə, istər TDT-nin zirvə görüşlərində nəqliyyat-tranzit məsələləri aktuallığını saxlamaqda davam edirdi. TDT-nin 2023-cü ildə qəbul etdiyi Astana bəyannaməsində də Üzv dövlətlərinə TXBŞQOD üzərindən nəqliyyat əməliyyatlarının asanlaşdırılması üçün səyləri davam etdirmək tapşırığı haqqında maddə əksini tapmışdı [9].

Regional təhlükəsizliklə bağlı yaranmiş problemlərin operativ müzakirəsi üçün dövlət başçılarının qeyri-formal zirvə görüşləri ənənəvi şəkil almışdır. Bu mənada TDT üzvlərinin 2024-cü ildə Şuşada qəbul etdiyi Qarabağ bəyannaməsinin tarixi əhəmiyyəti o oldu ki, avqustun 23-də "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" strateji müttəfiqliyi rəsmiləşdirdi [4]. Bəyannaməsinin 5,6,7-ci bəndləri TXBŞQOD vasitəsilə üzvlər arasında regional əlaqəni və inteqrasiyanı gücləndirmək, nəqliyyat əməliyyatlarını, gömrük prosedurlarını optimallaşdırmaq və rəqəmsallaşmanı əhatə etmək üçün üzv dövlətlər arasında sıx əməkdaşlıq" məsələsinə həsr olunmuşdu [20]. Sentyabrda K.J.Tokayev "Orta Dəhlizin hazırda 10 milyon tona qədər yük daşımaq potensialı ilə Avropaya ən qısa və ən etibarlı marşrut" olmasını bildirir [21].

İlham Əliyev TDT-nin 11-ci zirvə görüşündə "2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2024-cü ilin yanvar-sentyabr aylarında üzv və müşahidəçi dövlətlər ilə tranzit daşımalarının həcmində 15 faizə yaxın artım müşahidə edildiyini bildirməklə yanaşı "MA ölkələri ilə Türkiyəni Azərbaycan üzərindən bağlayan bu dəhlizin ötürmə qabiliyyətinin yüksəldilməsi üçün Azərbaycanın öz sərmayələrini artırdığını" vurğuladı [12]. Qazaxstanlı ekspertə görə, "Bişkek sammitində (2024) nəqliyyat əlaqəsinin Yol Xəritəsinin imzalanması bu istiqamətdə mühüm addım" idi [10].

Elə həmin dövrdən də ZD məsələsi TDT-nin üzv dövlətlərinin nazirləri səviyyəsində müzakirə mövzusu oldu: "Türkiyə, Orta Dəhliz vasitəsilə Azərbaycanla yük daşınması üçün Zəngəzurdan keçərək ayrıca bir marşrut yaratmaq üzərində fəal şəkildə çalışır" [23].

Lakin Zəngəzur məsələsinin həllində əsaslı dönüşə İ.Əliyevin yerli mediyaya verdiyi müsahibə səbəb oldu. Prezidentin "Zəngəzur dəhlizi tarixi zərurətdir və Ermənistan istəsə də, istəməsə də bu, reallaşacaq" fikri region və böyük dövlətlərin demarşına səbəb oldu [6]. Iran ilə Rusiya arasında hərtərəfli strateji tərəfdaşlıq sazişi imzalandı [27].

Türkiyə qəzeti yazırdı ki, "Fransa və ABŞ Zəngəzur dəhlizinin açılmasını istəmir... Ermənistan tez və ya gec Prezident İlham Əliyevin bütün tələblərini yerinə yetirəcək" [22].

Türk dünyasının təzyiqləri, beynəlxalq layihələrdən kənarda qalmamaq arzusu N.Paşinyanın 31 yanvar 2025-ci ildə ZD barəsində bəyanatla çıxış etməsinə səbəb oldu. Yeni seçilmiş ABŞ prezidenti D.Trampın Qafqazda konstruktiv addımları da hadisələrin sürətli inkişafına səbəb oldu. Aİ 2025-ci il aprelində MA ölkələri ilə Daşkənddə "5+1" formatında sammit keçirdi. Aİ Orta Dəhlizin inkişafına maliyyə ayrılacağını və onun Ermənistan ərazisindən keçəcəyini bəyan etdi. Aİ-nin bu addımını bəzi politoloqlar məhz Daşkənd forumundan sonra Brüsselin artıq nəqliyyat dəhlizlərinə texniki vasitə kimi deyil, Avropanın strateji avtonomiya aləti baxımından yanaşması kimi qiymətləndirdilər [26].

Bunun ardınca İ.Əliyevin tarixi Pekin səfəri baş tutdu ki, səfər zamanı iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"da ÇXR-in Çin-Avropa-Çin Transxəzər marşrutunun yaradılmasında Azərbaycanla əməkdaşlıq quracağı və "BKBL" təşəbbüsünün Azərbaycanın "İpək Yolunun dirçəldilməsi" dövlət inkişaf strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf Strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılaşma öz əksini tapdı [7].

2025-ci ilin iyulunda Azərbaycanla Ermənistan arasında Abu-Dabidə vasitəçilərin iştirakı olmadan ölkə rəhbərləri səviyyəsində görüş oldu. ZD məsələsi beynəlxalq məsələyə çevrilməklə yanaşı onun 42 km-lik hissəsinin məhz Ermənistan Respublikası ərazisindən keçməsi bu problemi də Azərbaycanla Ermənistan arasında davam edən sülh danışıqları prosesinin müzakirə mövzusuna çevirdi. Görüşdən bir neçə gün sonra ABŞ prezidenti D.Trampın ZD-nin təhlükəsiz istifadə məsələsinin Amerika şirkətlərinin birinə həvalə edilməsi ilə bağlı rəsmi açıqlama verməsi ikitərəfli görüşdə onun barəsində müəyyən razılığın əldə olunmasına dəlalət edir. Bir qədər sonra D.Trampın dəvəti ilə Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh memorandumunun paraflanması və ZD-nin yeni hüquqi statusunun müəyyənləşməsi kimi mühüm tarixi hadisə baş verdi. ABŞ prezidentinin şahidliyi ilə imzalanan Birgə Bəyannamədə "Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydalar" [5]

öz əksini tapdı. 4-cü bənd ZD-nin üzərində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" bağlantı layihəsinin yaradılmasını təsbit etdi. Dəhliz məsələsinin bu cür həlli böyük güclərin narahatlığına səbəb oldu. Türkiyənin NATO üzrə müttəfiqi ABŞ-ın regiona "girməsi" TDT-in güclənməsindən narahat olan Rusiyanı narahat etməyə bilməzdi.

Yeni geosiyasi reallıqlardan irəli gələn çağırışlara hazır olmaq üçün TDT dövlət başçılarının Qəbələ zirvə görüşünün mövzusu "Regional sülh və təhlükəsizlik" kimi müəyyən olunması təsadüfi deyildi. İ.Əliyev TDT-ni qlobal arenada vacib aktora çevirməsində nəqliyyat-logistika sahəsində böyük imkanları əsas komponent kimi vurğulasa da, real şəraitdə təhlükəsizlik məsələlərinə iştirakçıların diqqətini çəkdi. İ.Əliyev çıxışında "təhlükəsizlik olmadan inkişaf mümkün deyil" tezisini iştirakçıların nəzərinə çatdırdı və üzv dövlətlərin iştirakı ilə birgə hərbi təlimlərin keçirilməsinin zəruriliyini və bununla da "təşkilatın təkcə əməkdaşlıq platforması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşdığını" vurğuladı [17].

Geosiyasi reallığı nəbzi ilə hiss edən Azərbaycan Prezidentinin regionda sabit siyasi şəraitin təhlükə altında olması haqqında mülahizələri tezliklə öz təsdiqini tapdı. NATO və Aİ-nin MA və CQ ilə qarşılıqlı əlaqələrin intensivləşməsini Rusiya diplomatik, siyasi, iqtisadi vasitələrlə qarşısının alınacağını" bildirdi" [25].

Vaşinqton görüşü hətta Aİ-nin ZD məsələsində gözləyici mövqe tutmasına səbəb oldu. Buna baxmayaraq Astanada 2025-ci ilin oktyabrın 21-də Azərbaycan və Qazaxıstan prezidentlərinin iştirakı ilə "Orta Dəhlizin inkişafı" birgə layihəsinin təqdimatı oldu. "Qeyd edildi ki, Çin və Orta Asiya ölkələrini Avropa dövlətləri ilə birləşdirməkdə əsas nəqliyyat-logistika marşrutu olan Orta Dəhliz regional və qitələrarası ticarətin möhkəmlənməsində strateji rol oynayır" [1].

Rusiyanın hədələri isə ABŞ-ın MA dövlətləri ilə "5+1" formatında keçirdiyi sammitə mane olmadı. Sammitdən bir neçə gün sonra keçirilən MA ölkələrinin məşvərət şurasında Azərbaycan onun üzvü oldu. Bu akt yeni C6 formatının yaranmasına səbəb oldu. Fikrimizcə bu mədəni-tarixi məkanın geosiyasi subyektliliyə təkamülündə mühüm aktı oldu. Bu addım "MA ölkələrinin artıq Avropa ilə Asiya arasında, sadəcə, tranzit məntəqə yox, regional aktor kimi çıxış etmək niyyəti"ndən xəbər verirdi [18]. Politoloq F.Şəfiyev də "C5+1" formatını "daha güclü iqtisadi inteqrasiyanı və geosiyasi müstəqilliyi hədəfləyən 6 dövlətli bir platforma" kimi qiymətləndirir [19]. Məşvərət şurasında çıxış edən İ.Əliyev Azərbaycanda ZD tikintisinin başa çatmaq üzrə olduğunu və "15 milyon ton yükdaşıma qabiliyyətinə malik dəmir yolunun Orta Dəhlizin əsas arteriyasına çevriləcəyini" bildirdi: "Biz Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında güclü bir körpü quracağıq və vahid əməkdaşlıq məkanının formalaşmasına yol açacağıq" [13].

2025-ci ilin dekabrında Brüsseldə keçirilən beynəlxalq konfransda H.Hacıyev çıxışı zamanı "Zəngəzur dəhlizini təkcə infrastruktur layihəsi deyil, həm də Avropa–Azərbaycan strateji əməkdaşlığının yeni ifadəsi" kimi təqdim etdi [2]. Məhz bundan sonra Aİ-nin ZD məsələsində müsbətə doğru dəyişikliklər özünü göstərməyə başladı.

Nəticə. Beləliklə, Azərbaycanın həm C 6, həm də TDT çərçivəsində fəaliyyətini son dərəcə aktivliyi ilə xarakterizə etmək olar. Əgər birincidə Azərbaycan Respublikası əsasən nəqliyyat-tranzit və logistika sahələrində fəallığı ilə fərqlənirsə, ikincidə onun fəaliyyəti çoxşaxəlidir. AR TDT-nin fəaliyyətində əsas seqment kimi birləşdirici rol oynamaqla yanaşı təşkilat çərçivəsində ikitərəfli əlaqələrin inkişafını müttəfiqlik səviyyəsinə qaldırmaqla nümunə göstərir və Orta Dəhlizin aramsız və təhlükəsiz fəaliyyətinin əsas şərtini türk dövlətlərinin TDT çərçivəsində hərbi sahədə əməkdaşlıqlarının möhkəmləndirilməsində görür. Bunun qarşılığında TDT regional təhlükəsizlik məsələlərində sayıqlığı itirməməklə yanaşı da həm də davamlı olaraq müxtəlif nəqliyyat layihələri üzrə koordinasiyanı genişləndirir.

Ədəbiyyat siyahısı:

1. Astanada "Orta dəhlizin inkişafı" birgə layihəsi təqdim edilib. 21 oktyabr 2025. https://president.az/az/articles/view/70378).

2. Avropa İttifaqına "Zəngəzur dəhlizi" mesajı: Hikmət Hacıyev Avrasiyanın yeni geoiqtisadi arxitekturasını açıqladı. 1 dekabr 2025. https://yenicag.az/avropa-ittifaqina-zengezur-dehlizi-mesaji-hikmet-haciyev-avrasiyanin-yeni-geoiqtisadi-arxitekturasini-aciqladi

3. Azerbaijan, Turkey, Georgia inaugurate newly built Asia-Europe railway //New China. Source: Xinhua. 2017-10-31 // http://news.xinhuanet.com/english/2017-10/31/c_136715937.htm

4. Azərbaycan-Özbəkistan: Münasibətlərin Strateji Zirvəsi - Müttəfiqlik... 27.08.2024 https://www.yeniazerbaycan.com/Gundem_e107141_az.html

5. Azərbaycan Prezidentinin və Ermənistanın Baş nazirinin Vaşinqton şəhərində keçirilmiş görüşünə dair Birgə Bəyannamə imzalanıb. 09 avqust 2025. https://president.az/az/articles/view/69572

6. Azərbaycan Prezidenti Zəngəzur dəhlizinin imkanları ilə bağlı dünyaya daha bir mesaj verdi 12.01.2025. https://azertag.az/xeber/azerbaycan_prezidenti_zengezur_dehlizinin_imkanlari_ile_bagli_dunyaya_daha_bir_mesaj_verdi-2442452

7. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat imzalanıb. 23 aprel 2025. https://president.az/az/articles/view/68634

8. DECLARATION OF THE SIXTH SUMMIT OF THE COOPERATION COUNCIL OF TURKIC SPEAKING STATES Cholpon-Ata, Kyrgyzstan. https://www.turkicstates.org/u/d/basic-documents/sixth-summit-declaration-13-en.pdf

9. DECLARATION OF THE TENTH SUMMIT OF THE ORGANIZATION OF TURKIC STATES Astana, Kazakhstantenth-summit-declaration-2023-21-en.pdf

10. Əhmədova M. Orta Dəhliz layihəsi TDT ölkələrinin infrastruktur inteqrasiyasını gücləndirəcək - Qazaxıstanlı analitik. 6 Noyabr 2024 https://az.trend.az/business/3965748.html

11. İlham Əliyev Bakıda keçirilən "Orta Dəhliz boyunca: geopolitika, təhlükəsizlik və iqtisadiyyat" mövzusunda beynəlxalq konfransda iştirak edib. 25 noyabr 2022, https://president.az/az/articles/view/57968

12. İlham Əliyev Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə Görüşündə iştirak edib06 noyabr 2024 https://president.az/az/articles/view/67211

13. lham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxış edib 16 noyabr 2025, https://president.az/az/articles/view/70592

14. İlham Əliyevin Səmərqənddə Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olub.15 sentyabr 2022-ci il. //https://president.az/az/articles/view/57205

15. İlham Əliyev Şuşa Qlobal Media Forumunda çıxış edib. 21 iyul 2023 https://president.az/az/articles/view/60544

16. İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının I Zirvə Toplantısında iştirak etmişdir. 21 oktyabr 2011. https://president.az/az/articles/view/3358

17. Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə İlham Əliyevin çıxışı. 7 oktyabr 2025. https://president.az/az/articles/view/70315)
18. Mərkəzi Asiya birliyinə qoşulması Azərbaycanın orta və uzunmüddətli milli maraqlarına tam şəkildə cavab verir. 18.11.2025. https://azertag.az/xeber/merkezi_asiya_birliyine_qosulmasi_azerbaycanin_ orta_ve_ uzunmuddetli _milli_maraqlarina_tam_sekilde_cavab_verir__serh-3867127
19. Şəfiyev F. "5+1"dən "6-lığa" doğru: Azərbaycanın Mərkəzi Asiya ilə birliyi. https://aircenter.az/az/single/51den-6-liga-dogru-azerbaycanin-merkezi-asiya-ile-birliyi-1901
20. Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Qarabağ Bəyannaməsi imzalanıb. 06 iyul 2024, https://president.az/az/articles/view/66416
21. Tokayev: Orta Dəhliz Avropaya ən qısa və ən etibarlı marşrutdur. 16 sentyabr. https://report.az/infrastruktur/tokayev-orta-dehliz-avropaya-en-qisa-ve-en-etibarli-marsrutdur/
22. "Türkiye" qəzeti: Ermənistan tez və ya gec Prezident İlham Əliyevin bütün tələblərini yerinə yetirəcək. 17.01.2025. https://azertag.az/xeber/turkiye_qezeti_ermenistan_tez_ve_ya_gec_prezident_ ilham_eliyevin_ butun_teleblerini_yerine_yetirecek-3376259
23. Абдулкадир Уралоглу: Активно работаем над созданием отдельного маршрута через Зангезур 20 ноября 2024 . https://report.az/ru/cop29/abdulkadir-uraloglu-aktivno-rabotaem-nad-sozdaniem-otdelnogo-marshruta-cherez-zangezur/
24. В Астане состоялась встреча Президента Азербайджана Ильхама Алиева с Председателем Китайской Народной Республики Си Цзиньпином03 июля 2024. https://president.az/ru/articles/view/66386
25. Выступление и ответы на вопросы СМИ Министра иностранных дел Российской Федерации С.В.Лаврова по итогам пленарного заседания высокого уровня III Минской международной конференции по евразийской безопасности, Минск, 28 октября 2025 года 28.10.2025. https://www.mid.ru/ru/press_service/video/posledniye_dobavlnenniye/2056203/
26. Итоги первого саммита «Центральная Азия – ЕС» в Самарканде 05/04/2025 https://www.newscentralasia.net/2025/04/05/itogi-pervogo-sammita-centralnaya-aziya-es-v-samarkande/
27. Прорывной договор и Ближний Восток. Заявления Путина после переговоров с Пезешкианом. 17 января 2025. https://tass.ru/politika/22910049

XVII-XVIII ƏSRLƏRDƏ OSMANLI DÖVLƏTİNDƏ DEMOQRAFİK PROSESLƏRİN SOSİAL NƏTİCƏLƏRİNƏ DAİR

Sani Hacıyev
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Asiya və Afrika ölkələri tarixi" kafedrasının professoru
sanihadjiyev@bsu.edu.az;
ORCID: 0000-0002-8069-086X

Açar sözlər: *Osmanlı, sosial siyasət, demoqrafiya, əhali, müsəlmanlar, qeyri-müsəlmanlar*
Keywords: *Ottoman Empire, social policy, demography, population, Muslims, non-Muslims*

Demoqrafik proseslərin fərqli istiqamətlər alaraq ayrı-ayrı dövlətlərin və cəmiyyətlərin siyasi, sosial, iqtisadi və mədəni həyatına ciddi şəkildə təsir göstərdiyi müasir dövrdə bu proseslərin tarixi köklərinin araşdırılması da aktuallaşmışdır. Ümumiyyətlə son yarım əsrdə bu və ya digər dövlətin, o cümlədən Türkiyənin tarixi demoqrafiyası məsələlərinə böyük maraq nəzərə çarpır. Bu, bir tərəfdən, 600 illik

tarixə malik olan Osmanlı dövlətinin siyasi tarixində etnik və demoqrafik proseslərin çox əhəmiyyətli faktor olması, digər tərəfdən, həmin proseslərin həm Osmanlı dövlətinin, həm də Türkiyə Respublikasının sosial həyatına da ciddi şəkildə təsir etməsi ilə bağlıdır. Son illərdə Türkiyə və Avropa tədqiqatçılarının apardığı araşdırmalar Osmanlı dövlətindəki demoqrafik prosesləri izləməklə yanaşı, bu prosesləri müşayiət edən amilləri, həmçinin doğurduğu sosial nəticələri də müəyyən etməyə imkan verir.

1299-cu ildə qurulmuş Osmanlı bəyliyi, XV əsrin ortalarından başlayaraq böyük bir dövlətə çevrilmiş ("imperiya" ifadəsini Osmanlı üçün istifadə etməməyi məqsədəuyğun görürük), ardından həm İslam dünyasının, həm də Avropa qitəsinin siyasi, iqtisadi, sosial və mədəni həyatının ayrılmaz parçası olmuşdur. Bu dövlət təkcə hərbi gücü ilə deyil, zəngin siyasi ənənələri, iqtisadi və mədəni inkişaf imkanları ilə də uzun müddət dünyanın ən güclü dövlətlərindən biri olmuş, geniş coğrafiyaları öz içərisinə almışdır. XVII əsrin əvvəllərindən etibarən qitədə yaşanan sosial və iqtisadi irəliləyişlər, "Coğrafi kəşflər" adı altında Avropa dövlətlərinin yürütdüyü müstəmləkəçilik siyasəti, Osmanlı dövlətinin də inkişafına ciddi təsir göstərmiş, dövlətin sonrakı əsrlərdəki tənəzzülündə daxili amillərlə yanaşı, bu xarici amillər də böyük rol oynamışdır. Proses XVIII əsrdə daha da dərinləşmiş, Osmanlı dövləti böyük bir böhranın içərisinə girmişdir.

Bizim izlədiyimiz demoqrafik proseslərin xronoloji çərçivəsinin də XVII-XVIII əsrlər olaraq müəyyən edilməsinin əsas səbəbi də məhz bu amillə bağlıdır. Qurulduğu tarixdən etibarən Osmanlı dövlətinin ən böyük özəlliklərindən biri müxtəlif xalqları (o cümlədən qeyri-müsəlmanları) bir bayraq altında birləşdirərək, onların ortaq bir mədəniyyətə inteqrasiya etməsinə imkan verməsidir. Bu prosesləri öyrənməyimizin əsas məqsədi – seçmiş olduğumuz xronoloji çərçivədə Osmanlı dövlətindəki böhran və tənəzzüldə demoqrafik proseslərin yerini, sosial nəticələrini göstərməkdir.

İlk olaraq qeyd etməliyik ki, tarixşünaslıqda Osmanlı dövlətinin demoqrafiya məsələləri daha çox XIX və XX əsrin əvvəllərini əhatə edir, XVII və XVIII əsrin demoqrafik prosesləri isə indiyədək çox az araşdırılmışdır. Bu da ilk növbədə Osmanlı dönəminə aid avarız və təhrir dəftərlərinin araşdırılması istiqamətində elmi fəaliyyətlərin sistemsiz olması ilə bağlı olmuşdur. Türkiyə tarixşünaslığında əhali tarixi və demoqrafik proseslərin geniş miqyasda tədqiqi Ö.L.Barkan tərəfindən başladılmış, təhrir dəftərləri əsas alınaraq, bəzi statistik tədqiqatlar aparılmışdır [1,3]. Lakin sonrakı illərdə bu tədqiqatlar davam etdirilməmiş olub, Osmanlı demoqrafiyası 1990-cı illərin əvvəllərindən yenidən mövzu obyekti olmağa başlamışdır. Onların da içərisində M. İlhan, M. Öz, O. Özel kimi müəllifləri göstərmək olar [8; 13; 14]. Lakin konkret olaraq XVII və XVIII əsrlərin demoqrafik prosesləri istiqamətində ən geniş və kompleks tədqiqatlar, ilk növbədə rus (sovet) tarixçisi M. S. Meyerin adı ilə bağlıdır [12]. Eyni zamanda A. M. Cook, S. Faroqhi, Ch. İssavi kimi müəlliflərin də əsərlərində demoqrafik proseslərlə bağlı araşdırmalara rast gəlinir [4; 5-7; 11]. Bu tədqiqatlardakı statisktik məlumatlara istinadən XVII

və XVIII əsrlərdə Osmanlı dövlətindəki demoqrafik proseslərin sosial nəticələrini müəyyən etməyə çalışacayıq.

Nəzərdən keçirdiyimiz tədqiqatlardakı məlumatlardan ilk nəzərə çarpan məqam ondan ibarətdir ki, XVI əsrin sonlarına doğru Osmanlı dövlətində vergi ödəyən əhalinin sayı ciddi şəkildə artmağa başlamışdır. Türkiyə tarixçisi X.İnalcığın hesablamalarına görə, XVI əsrin əvvəlləri ilə müqayisədə əsrin sonuna doğru bu rəqəm 12-13 milyondan 30-35 milyona qədər yüksəlmişdir, bu da əhali artımının illik 1% olduğu qənaətinə gəlməyə imkan vermişdir [9, s.69-96]. Bəzi tarixçilərə görə, bu artım Aralıq dənizi bölgələrində əhalinin təbii artımı ilə bağlı olmuş [2, s.163-171; 5, s.322-323], M.S.Meyer də bu fikri qəbul edərək, XVI əsrdə "demoqrafik partlayışın" olduğu qənaətinə gəlmişdir [12, s.83, 85]. Həmin zaman kəsiyində demoqrafik dəyişikliklər Anadoluda da nəzərə çarpmış olub, XVI əsrin ilk rübü ilə əsrin son rübü arasında artım bölgədən bölgəyə 41-82 % arasında dəyişmişdir. Ən yüksək artım Mərkəzi Anadolu bölgəsində baş vermişdir [12, s.84; 3, s.169]. Baş verən bu dəyişiklik, eyni zamanda XVI əsrin ortalarından etibarən Osmanlı dövlətində sosial rifahın da artması ilə əlaqələndirilməlidir.

XVII əsrə gəlindiyində Osmanlı dövlətinin demoqrafik mənzərəsində fərqli dəyişiklikləri görə bilirik: yuxarıda adını çəkdiyimiz müəlliflərin, o cümlədən S. Faroqhi, X. İnalcık və M. Meyerin tədqiqatlarındakı məlumatlardan [6, s.47, 59; 10, s.285; 12, s.87] belə bir nəticəyə gəlmək olur ki, əvvəlki əsrlərlə müqayisədə XVII əsrdə kənd əhalisinin azalması, bunun əvəzində, təbii olaraq, şəhər əhalisinin artması baş vermiş, bu da öz növbəsində ərzaq qıtlığına və dövlətin sosial həyatına ciddi təsir göstərmiş, şəhərlərdə sosial gərginliyə gətirib çıxarmışdır. Tədqiqatlarda kənd əhalisinin sayında azalma səbəbi kimi torpaq payının kifayət etməməsi göstərilir. Eyni zamanda şəhərlərdə əhalinin sayının artması dövlətin iqtisadi siyasətinin də yetərsizliyi səbəbilə izah edilə bilər.

XVII əsrin ortalarından etibarən vəziyyət daha sabit şəkil almış, əsrin əvvəllərində görünən əhali sayının azalması əsrin sonuna doğru dəyişərək artmağa başlamışdır. M. Meyerin hesablamalarına görə, bu rəqəm XVIII əsrin sonlarında 60 %-dək yüksəlmişdir [12, s.87]. XVIII əsrdə bu artım davam etmiş, xüsusilə şəhər əhalisinin sayının artması daha sürətlə getmişdir. Tədqiqatçıların hesablamalarını nəzərə alsaq, bu rəqəm XVIII əsrin sonuna doğru, əvvəlki əsrlərlə müqayisədə 10-20 % arasında dəyişmişdir [11, s.33; 7, s.216].

Yuxarıda da qeyd etdiyimiz kimi, Osmanlı dövləti bir çox xalqın, o cümlədən qeyri-müsəlman əhalinin yaşadığı coğrafiyaları ehtiva etmişdir və Osmanlı dövlətinin polietnik və polikonfessional quruluşu demoqrafik göstəricilərin də təhlilində mühüm yer tutur. Bununla əlaqədar, demoqrafik göstəricilərdə bu məsələ də tarixçilərin diqqət yetirdiyi məsələlərdəndir. Qeyd etdiyimiz müəlliflərin apardığı tədqiqatların nəticələri göstərir ki, Osmanlı dövlətində müsəlmanların sayı çox olsa da, XVII-XVIII əsrlərdə qeyi-müsəlmanların (xristianlar və yəhudilər) sayında ciddi yüksəliş baş vermişdir. Belə ki, XVI əsrin sonları və XIX əsrin ilk rübü arasındakı zaman kəsiyində bu artım 8,4-dən 14 %-ə gəlib çıxmışdır [12, s.88].

M. S. Meyer qeyri-müsəlman əhalinin sayındakı bu artımı Osmanlı dövlətinin apardığı çoxsaylı müharibələr səbəbilə orduda xidmət göstərən müsəlmanların həlak olması ilə əlaqələndirir [12, s.88]. Fikrimizcə, bu amil üstün olmaqla yanaşı, qeyri-müsəlmanların sayındakı artımın digər amili – Osmanlı hökumətinin sosial və iqtisadi siyasəti, o cümlədən qeyri-müsəlman əhaliyə tanıdığı sosial və iqtisadi hüquqlar səbəbilə əhalinin rifahının artması olmuşdur. Çünki digər müsəlman dövlətlərində olduğu kimi, Osmanlı dövlətində də sosial siyasətin ən mühüm istiqamətlərindən biri qeyri-müsəlmanlara iş və sosial müdafiə məsələlərində hüquqların təmin edilməsi olmuş, onlar da müsəlmanlar kimi eyni sosial müdafiə hüquqlarından faydalanmışlar.

Məruzənin həcmini nəzərə alaraq, onu statistik məlumatlarla yükləmək istəmədik, yekun olaraq isə aşağıdakı nəticələri göstərmək istədik: XVII-XVIII əsrlərdə Osmanlı dövlətində baş verən demoqrafik proseslər siyasi və sosial həyatla birbaşa bağlı olmuş, dövlətin ümumi böhran dinamikasında mühüm rol oynamışdır. XVI əsrdə yüksək əhali artımı sosial-iqtisadi inkişafı dəstəkləsə də, XVII əsrdə kənd təsərrüfatında geriləmə və müharibələr nəticəsində demoqrafik balans pozulmuş, şəhərləşmə sürətlənmiş, sosial gərginlik artmışdır. XVIII əsrdə əhali artımı bərpa olunsa da, dövlət strukturunda və sosial münasibətlərdə yaranmış problemlər əvvəlki sabitlik modelinin dağılmasına gətirib çıxarmışdır. Qeyri-müsəlman icmaların sayının yüksəlməsi isə Osmanlı iqtisadiyyatında yeni sosial-iqtisadi münasibətlərin formalaşmasına təkan vermişdir. Beləliklə, demoqrafik dəyişikliklər bu dövrdə yalnız əhali statistikası deyil, Osmanlı dövlətinin tənəzzül mexanizminin mühüm komponenti kimi çıxış etmişdir.

Ədəbiyyat siyahısı:

1. Barkan Ö. L. Türkiye'de İmparatorluk devirlerinin Nüfus ve Arazi Tahrirleri ve Hakana Mahsus İstatistik Defterleri // İstanbul Üniversitesi İktisadiyat Fakültesi Mecmuası, Cilt 2, Sayı 1, 1940, s.214-247.

2. Barkan Ö. L. Tarihi Demografi Araştırmaları ve Osmanlı Tarihi // Türkiyat Mecmuası, Cilt 10, 1953, s.1-26.

3. Barkan O. L. Research on the Ottoman Fiscal Surveys // Studies in the Economic History of the Middle East from the Rice of İslam to the Present Day, London. 1970, pp.163-171.

4. Cook M. Population Pressure in Rural Anatolia, 1450-1600. London: Oxford University Press, 1972, 118 p.

5. Erder L., Faroqhi S. Population Rice and fall in Anatolia, 1550-1620 // Middle Eastern Studies, 1979, Vol. 15, No 3, pp. 322-345.

6. Faroqhi S. Men of Modest Substance: House Owners and House Property in the Seventeenth Century Ankara and Kayseri. Cambridge: Cambridge University Press, 1987, 292 p.

7. Faroqhi S. Towns and Townsmen of Ottoman Anatolia. Trade, grafts and Food Production in an Urban Setting, 1520-1650. Cambridge: Cambridge University Press, 1984, 424 p.

8. İlhan M. XVI. Yüzyılın ilk Yarısında Diyarbakır Şehrinin Nüfusu ve Vakıfları // Tarih Araştırmaları Dergisi, 1992, 16 (27), s. 45-111.

9. Inalcik H. Impact of the "Annals" School on Ottoman Studies and New Findings // Review. Binghamton, 1978, vol. 1, No 3-5, pp. 69-96.

10. Inalcik H. Military and Fiscal Transformation in the Ottoman Empire, 1600-1700. H. Inalcik // Studies in Ottoman Social and Economic History. London, 1985, pp. 283-337.

11. Issawi Ch. The Economic History of Turkey, 1800-1914. Chicago: University of Chicago Press, 1980, 390 p.
12. Meyer M. S. Osmanskaya imperiya v XVIII veke. Çertı strukturnoqo krizisa. Moskova, Nauka, 1991, 261 s.
13. Öz M. Tahrir Defterlerinin Osmanlı Tarih Araştırmalarında Kullanılması Hakkında Bazı Düşünceler // Vakıflar Dergisi, Sayı 22, 1991, s.429-439.
14. Özel O. XVII Yüzyıl Osmanlı Demografi ve İskân Tarihi için Önemli Bir Kaynak: Mufassal Avarız Defterleri // XII. Türk Tarihi Kongresi, Ankara, 1999, s.149-179.

GÖYTÜRK İMPERİYASI NÜMUNƏSİDƏ KLASSİK TÜRK DÖVLƏT QURUCULUĞU

Rəşad Cabarov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasının baş müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru
cabarov.rashad1983@gmail.com

Açar sözlər: *Göytürk imperiyası, türk dövlətçiliyi, kut, törə, qurultay, Orxon yazıtları, türk siyasi mədəniyyəti*
Keywords: *Goyturk Empire, Turkish statehood, kut, tora, kurultai, Orkhon inscriptions, Turkish political culture*

Türk xalqlarının dövlətçilik tarixi dünya siyasi tarixinin mühüm tərkib hissəsidir. Bu tarix yalnız geniş coğrafiyalarda mövcud olmuş imperiyalarla deyil, eyni zamanda özünəməxsus idarəetmə prinsipləri, hüquqi-siyasi düşüncə sistemi və ideoloji baxışları ilə səciyyələnir. Klassik türk dövlətçilik modelinin formalaşmasında Göytürk imperiyası (VI–VIII əsrlər) xüsusi yer tutur. Göytürk dövləti türk adını ilk dəfə siyasi termin kimi tarixə daxil etmiş, türk kimliyini dövlət ideologiyası səviyyəsinə yüksəltmişdir. Bu məqalənin məqsədi Göytürk imperiyası nümunəsində klassik türk dövlət quruculuğu prinsiplərini sistemli şəkildə təhlil etmək, bu prinsiplərin siyasi, hüquqi, hərbi və ideoloji aspektlərini araşdırmaq və onların sonrakı türk dövlətlərinə təsirini elmi əsaslarla ortaya qoymaqdır.

Əsas hissə: Klassik türk dövlətçilik düşüncəsinin formalaşması: türk dövlətçilik düşüncəsinin əsasını "il" (dövlət) və "el" (xalq) anlayışları təşkil edirdi. Bu anlayışlar qarşılıqlı asılılıq prinsipi üzərində qurulmuşdu. Dövlət xalqın təhlükəsizliyi və rifahı üçün mövcud olur, xalq isə dövlətin yaşamasını təmin edən əsas sosial baza rolunu oynayırdı. Türk siyasi düşüncəsində dövlət və xalq arasında bu harmoniya dövlətin davamlılığının əsas şərti hesab edilirdi. Hakimiyyətin legitimliyi "kut" anlayışı ilə izah olunurdu. Kut Tanrı tərəfindən verilən ilahi hakimiyyət haqqı idi və xaqanın idarəetmə hüququnun mənəvi əsasını təşkil edirdi. Xaqan yalnız gücə deyil, eyni zamanda mənəvi məsuliyyətə malik lider kimi qəbul edilirdi. Kutun itirilməsi xaqanın hakimiyyətdən uzaqlaşdırılmasını legitimləşdirirdi [1].

Göytürk imperiyasında siyasi idarəetmə sistemi: Göytürk imperiyası mərkəzləşdirilmiş, lakin çevik siyasi sistemə malik idi. Dövlətin başında xaqan dayanırdı.

Xaqanın hakimiyyəti yabqular, şadlar və tiginlər vasitəsilə həyata keçirilirdi. İkili idarəetmə sistemi — şərq və qərb qanadları — geniş ərazilərin effektiv idarə olunmasına imkan verirdi. Kurultay dövlətin ən mühüm siyasi institutlarından biri idi. Burada dövlətin daxili və xarici siyasətinə dair mühüm qərarlar qəbul edilir, xaqanın fəaliyyəti müzakirə olunurdu. Bu, türk dövlətçilik ənənəsində kollegial qərarvermə mexanizminin mövcudluğunu göstərir [3].

Törə anlayışı və hüquqi sistem: Törə türk dövlətçilik modelində hüquqi və əxlaqi normaların məcmusu idi. Törə yalnız yazılı qanunlar deyil, həm də sosial davranış qaydaları, ədalət prinsipləri və ictimai məsuliyyət anlayışını əhatə edirdi. Göytürk imperiyasında törə dövlətin dayağı hesab olunur, onun pozulması siyasi böhranın başlanğıcı kimi qiymətləndirilirdi. Orxon-Yenisey yazıtlarında törə anlayışının dövlətin varlığını təmin edən əsas faktor kimi təqdim edilməsi bu hüquqi sistemin ideoloji gücünü açıq şəkildə göstərir [4].

Göytürk ordusu və hərbi təşkilatlanma: Göytürk imperiyasının gücünün əsas dayaqlarından biri hərbi təşkilatlanma idi. Ordunun əsasını süvari qoşunları təşkil edirdi. Onluq sistemə əsaslanan hərbi struktur çeviklik və intizam baxımından dövrünün ən inkişaf etmiş modellərindən biri idi. Hərbi sistem aşirət strukturu ilə sıx bağlı idi. Bu, ordu ilə xalq arasında güclü bağ yaradır, səfərbərlik imkanlarını artırırdı. Göytürk hərbi modeli sonralar Səlcuq, Monqol və Osmanlı ordularına ciddi təsir göstərmişdir [2].

İqdisdi əsaslar və İpək yolu: Göytürk imperiyasının iqtisadi bazası köçəri maldarlıq üzərində qurulsa da, dövlətin regional gücə çevrilməsində İpək yoluna nəzarət həlledici rol oynamışdır. Çin, Bizans və İran arasında ticarət əlaqələrinin mərkəzində yerləşən Göytürk dövləti iqtisadi diplomatiyanı uğurla həyata keçirmişdir. İpək yoluna nəzarət həm maliyyə gəlirləri, həm də siyasi təsir imkanları yaratmış, imperiyanın beynəlxalq mövqeyini gücləndirmişdir [5].

Türk kimliyi və dövlətçilik ideologiyası: Göytürk imperiyasında türk kimliyi dövlət ideologiyasının əsasını təşkil edirdi. Orxon abidələrində türk xalqının birliyinə, dövlətin qorunmasına və milli şüurun saxlanmasına çağırışlar açıq şəkildə ifadə olunur. Bilgə Kağan və Tonyukuk yazıtları türk siyasi fəlsəfəsinin manifesti kimi qiymətləndirilə bilər. Bu ideoloji xətt sonrakı türk dövlətlərində də davam etdirilmiş, milli dövlətçilik düşüncəsinin formalaşmasında mühüm rol oynamışdır.

Nəticə olaraq, Göytürk imperiyası klassik türk dövlət quruculuğu prinsiplərinin sistemli şəkildə formalaşdığı tarixi mərhələdir. Kut, töre, kurultay, hərbi təşkilatlanma və milli ideologiya kimi anlayışlar bu dövlətin siyasi modelini səciyyələndirir. Göytürk dövlətçilik modeli yalnız tarixi əhəmiyyət daşımır, eyni zamanda müasir türk dövlətlərinin siyasi mədəniyyətinin formalaşmasında nəzəri baza rolunu oynayır.

Ədəbiyyat siyahısı:

1.Golden, P. B. Central Asia in World History. Oxford University Press, 2011, 192 s.
2.Gumilyov, L. N. Köktürkler. İstanbul: Ötüken, 1993
3.Klyashtorny, S. G., & Sultanov, T. I. Türkün Üç Min İli. İstanbul: Kronik, 2014
4.Tekin, T. Orhon Yazıtları. Ankara: TDK, 1968, 218 s.
5.Ögel, B. Türk Kültür Tarihine Giriş. Ankara: Kültür Bakanlığı, 1971, 513 s.

TÜRKİYƏNİN MÜDAFİƏ-TƏHLÜKƏSİZLİK SİYASƏTİNDƏ AZƏRBAYCAN VƏ GÜRCÜSTAN

Hüseyn Hüseynli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi" kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru
huseyn.huseynli@bsu.edu.az

Açar sözlər: *Türkiyə, Azərbaycan, Gürcüstan, hərbi doktrina*
Keywords: *Türkiye, Azerbaijan, Gerogia, military doctrine*

Ərazisinə görə dünyanın ən böyük, hərbi gücünə görə isə ikinci dövləti olan SSRİ-nin süqutundan sonra Cənubi Qafqaz regionu geosiyasi sarsıntı keçirirdi. Bu kontekstdə Qafqaz bölgəsində geosiyasi boşluq yaranmışdı və bu geosiyasi boşluğu doldurmaq istəyən qlobal və regional güclərin mübarizəsi artmışdı. İş o yerə çatmışdı ki, SSRİ-nin "parçala və hökmranlıq et" siyasəti ilə böyük xaosa sürüklənən Qafqazda iqtisadi böhran, müharibə və etnik münaqişələr həll olunmaz vəziyyətdə idi [3, s.257]. Böyük güclərin daimi marağında olan Qafqazda gedən proseslər və qeyri-sabit vəziyyət onun əsas tranzit qovşağı olmasını da təhlükəyə atırdı. Dövrünün nüfuzlu diplomatlarından biri olan Bjezinskinin dediyi kimi: *"Avrasiya dünya hökmranlığı uğrunda mübarizənin getdiyi şahmat taxtasıdır. "Qafqaz regionu Avropanı Asiya ilə birləşdirən tranzit marşrutu olduğu üçün bu şahmat taxtasında mühüm hərəkət və manevr sahəsidir"* [9, s.176].

SSRİ-nin dağılmasından sonra bölgə ölkələrinin ilk təşəbbüsü lokal səviyyədə yaranan ideoloji boşluğu doldurmaq üçün öz daxili və xarici siyasətlərində kimlik axtarışına başladılar. Növbəti mərhələ isə regionun böyük dövlətləri Türkiyə, İran və Rusiyanın, eləcə də, qlobal aktorlardan Aİ və ABŞ-nin də iştirak etdiyi geosiyasi mübarizə mərhələsidir. Bu baxımdan XX əsrin sonlarında Türkiyə başda olmaqla Cənubi Qafqazda maraqları olan dövlətlərin regional siyasətlərini qiymətləndirmək göründüyü qədər asan deyil. Buna baxmayaraq Türkiyə Cənubi Qafqazda müstəqil respublikaların yaradılmasını böyük sevinclə qarşıladı və regionda yaranmış yeni geosiyasi vəziyyətə uyğun olaraq regional siyasətində ciddi dəyişikliklər etdi. Regionun yeni müstəqillik qazanmış dövlətlərinin təkcə texniki yardıma deyil, həm də maliyyə yardımına ehtiyacı olduğunu bilən Ankara hökuməti 1992-1993-cü illərdə bu problemlərin həllində mühüm rol oynadı. Bu çərçivədə C.Qafqaz dövlətlərinə 1,2 milyard ABŞ dolları kredit verilmişdir. Bundan başqa, Türkiyə Azərbaycanın tarixi torpaqlarını işğal etdiyinə görə Ermənistanla quru və hava sərhədlərini bağladı [6, s.414] (1993-cü ildə Ermənistan Silahlı Qüvvələri Kəlbəcəri işğal etdikdən sonra sərhədi bağladı, lakin 2004-cü ildə hava nəqliyyatı bərpa olundu – H.H).

Müstəqilliyin ilk illərində region dövlətlərinin öz aralarındakı münasibətlər də inkişaf edirdi. Bu kontekstə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 9 mart 1996-cı ildə Gürcüstana rəsmi-işgüzar səfəri xüsusi əhəmiyyət kəsb

edir. Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadze ilə görüş zamanı Prezident Heydər Əliyevin nitqi regionun gələcək inkişafının mənzərəsini təsvir edirdi: *"Biz – Eduard Şevardnadze ilə mən Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunması üçün çox mühüm əhəmiyyət kəsb edən bəyannamə imzaladıq. Bu bəyannamə onu göstərir ki, həm cənab Eduard Şevardnadze, həm də mən Qafqazda sülhü həqiqətən möhkəmləndirməyə, sülhü bərqərar etməyə çalışırıq. Nəinki öz ölkələrimiz, öz xalqlarımız haqqında düşünürük, bütün Qafqaz haqqında, Qafqazın bu günü, gələcəyi haqqında düşünürük. Bu bəyannamə açıq bir sənəddir və mən ümidvar olduğumu bildirmək istəyirəm ki, Qafqazın bütün respublikaları, dövlətləri də və başqa dövlətlər də bu bəyannaməyə qoşulacaqlar. Çünki Qafqazda sülhü, əminamanlığı bərqərar etmək təkcə Gürcüstan, Azərbaycan üçün deyil, Qafqazda yaşayan bütün xalqlar üçündür. Bu təkcə Qafqaz üçün yox, Qafqazla əlaqəsi olan bütün ölkələr, xalqlar üçündür, bütün dünya üçündür. Qafqaz indi bütün dünyanın diqqət mərkəzindədir. Ona görə də Qafqazda gedən prosesləri düzgün istiqamətə, sülh istiqamətinə yönəldib Qafqazda sülhə, əmin-amanlığa nail olmaq çox böyük, müqəddəs məqsəddir, ali məqsəddir və biz bu məqsəd uğrunda bundan sonra da əzmlə çalışacağıq"* [2, s.60].

Qeyd edək ki, bu, Gürcüstan müstəqillik əldə etdiyi vaxtdan indiyədək, həm də Azərbaycan Respublikasının müstəqillik qazandığı vaxtdan indiyədək Azərbaycan prezidentinin Gürcüstana ilk səfəri idi.

Gürcüstan regionda mövcud olan etnik problemlərin həllini NATO-nun Rusiyaya təzyiqində görürdü. Bu baxımdan Türkiyə NATO ilə hərbi əlaqələrdə Gürcüstan üçün son dərəcə mühüm rol oynayırdı. Gürcüstan prezidenti Eduard Şevardnadze bu barədə deyirdi: *"Gürcüstan Rusiyanın strateji zonasının cənub cinahı deyil, Türkiyə və İsraildən Mərkəzi Asiyaya qədər uzanan Türkiyənin və NATO-nun strateji maraqlarının şimal cinahıdır"* [1, s.22].

Türkiyə, Azərbaycan və Gürcüstan - hər bir ölkə digərini strateji tərəfdaş hesab edir və təhlükəsizlik və müdafiə doktrinalarında bunu nəzərə alır. 2011-ci ilin sonunda qəbul edilən Gürcüstan Milli Təhlükəsizlik doktrinasında Türkiyənin regionun aparıcı dövlətlərindən biri və yeganə NATO üzvü olduğu, eyni zamanda mühüm hərbi müttəfiq olduğu müəyyən edilib. Doktrinada Gürcüstanın Türkiyə ilə təhlükəsizlik və müdafiə sahəsində əlaqələrinin daha da inkişafına önəm verdiyi bildirilir. Həmin sənəddə Azərbaycan da strateji tərəfdaş kimi müəyyən edilmişdir [8, s.259].

Əməkdaşlığın üçtərəfli səviyyəyə yüksəldilməsi üçün müxtəlif müqavilələr, o cümlədən müxtəlif hərbi təlimlər keçirilmişdir. Bu çərçivədə Azərbaycan, Türkiyə və Gürcüstanın 2014-cü il avqustun 19-da Naxçıvanda imzaladığı və birgə hərbi təlimlərin keçirilməsini nəzərdə tutan sazişlə təhlükəsizlik sahəsində üçtərəfli əməkdaşlıq quruldu. Müqavilə hər üç ölkənin silahlı qüvvələrinin döyüş qabiliyyətini təkmilləşdirmək məqsədi daşıyırdı. Üç ölkənin xüsusi təyinatlı qüvvələri ilk üçtərəfli hərbi təlim fəaliyyətini 2012-ci ilin noyabrında keçirilən "Qafqaz Qartalı 2012" adlı hərbi təlimlə həyata keçirdi [4, s.352].

2016-cı ilin may ayında Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə keçirilən üçtərəfli görüşdə üç ölkənin hərbi bacarıqlarının və hazırlığının artırılması

məqsədilə birgə təlimin keçirilməsinin məqsədəuyğun olacağı qərarlaşdırıldı. Həmçinin kibertəhlükəsizlik, neft və təbii qaz kəmərlərinin mühafizəsi üzrə əməkdaşlığın miqyası genişləndirildi. Bu çərçivədə birgə təlimlərin keçirilməsi qərara alındı. Azərbaycan, Türkiyə və Gürcüstan silahlı qüvvələrinin iştirakı ilə birgə hərbi təlimlər keçirildi. Türkiyə, Azərbaycan və gürcü hərbçilərinin iştirakı ilə Gürcüstanda keçirilən "Eternity-2017" birgə hərbi təlimi uğurla nəticələndi. 2018-ci ilin aprel ayında Türkiyə, Azərbaycan və Gürcüstan arasında imzalanan əməkdaşlıq memorandumu ilə üç ölkə arasında hərbi əməkdaşlıq son illərdə daha da önəm qazandı. Əməkdaşlıq nəzəri müstəvidə qalmadı, həm də praktiki müstəviyə keçdi. Hərbi sahədə birgə təlimlərin təşkili bir daha vurğulandı. Azərbaycan və Gürcüstan əsgərlərinin NATO üzvü olan türk əsgərlərindən təlim almasının əhəmiyyəti vurğulandı. Üçtərəfli əməkdaşlıq hər üç ölkənin silahlı qüvvələrini beynəlxalq terrorizmə, silah və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə mübarizəyə hazırlamaq məqsədi daşıyırdı. Daha sonra Girəsun şəhərində Türkiyə, Azərbaycan və Gürcüstan milli müdafiə nazirlərinin iştirakı ilə 6-cı Müdafiə Zirvəsi keçirildi. NATO-nun dəstəyi ilə Gürcüstanda təşkil edilən 4-cü "Noble Partner 2018" çoxmillətli hərbi təlimi paytaxt Tbilisi yaxınlığındakı Vaziani hərbi bazasında keçirildi [5]. Təlimdə Türkiyə, Gürcüstan, ABŞ, İngiltərə, Almaniya, Estoniya, Fransa, Litva, Polşa, Norveç, Ukrayna, Azərbaycan və Ermənistan iştirak edirdi. Danışıqların məqsədi müdafiə nazirlərinin ildə iki dəfə görüşməsi, birgə konfranslar və dəyirmi masa görüşlərinin təşkili, üçtərəfli hərbi təlim və əməkdaşlıq mexanizmlərinin yaradılması idi. Bu kontekstdə müxtəlif Qərb təşkilatları və qurumları, xüsusilə NATO və digər müvafiq təhlükəsizlik təşkilatları ilə daha sıx əməkdaşlıq etmək qərara alındı.

Türkiyə Gürcüstan və Azərbaycanın NATO ilə əməkdaşlığın inkişafında həlledici mövqeyə sahibdir. Qeyd etmək lazımdır ki, NATO ilə əlaqələr 1994-cü ildə Azərbaycan və Gürcüstan arasında imzalanmış "Sülh Naminə Tərəfdaşlıq" (SNT) çərçivəsində başlayıb [7, s.420]. Bu əlaqələr Azərbaycan və Gürcüstan hərbi birliklərinin Kosovo və Əfqanıstanda türk komandanlığı altında xidmət etməsilə daha da möhkəmləndi. Türkiyə hər iki ölkədə hərbi məktəblər təsis edərək bu ölkələrin hərbi hissələrini təlimlərə cəlb etdi. Hərbi sənaye sahəsində də üçtərəfli əməkdaşlığın inkişaf etdirilməsinə çalışdı.

Bölgədəki üçtərəfli əməkdaşlığa regionun digər ölkələrinin də daxil edilməsi və Cənubi Qafqazın sülh zonasına çevrilməsi üçün bugün hərtərəfli səylər göstərilir. Türkiyə və Azərbaycan hər fürsətdə inkişaf etdirdikləri əməkdaşlığın İran və Rusiya əleyhinə olmadığını bəyan edərkən, Gürcüstan sözügedən əməkdaşlığın Ermənistana qarşı qurulmadığını və region dövlətləri ilə yaxşı münasibətləri inkişaf etdirməyi hədəflədiyini bildirir.

Ədəbiyyat siyahısı:

1. Bezhanishvili, Z. Between Conflict and Patnership, Comtemporary Developments in Russian-Georgian Relations. Russian Politics and Law, 47(3), s.19-35

2. Heydər Əliyev və Azərbaycan diasporu.

https://files.preslib.az/projects/diaspora/a4.pdf (09.09.2023)
3. Kafkasya'da Türkiye, Azerbaycan ve Gürcistan İttifakının Bölgesel Güvenliğe Etkileri https://dergipark.org.tr/en/download/article-file/836891 (12.10.2023)
4. Karabakh from conflict to resolution.
https://setav.org/en/assets/uploads/2023/06/K78En.pdf (01.11.2023)
5. Multinational military exercise Noble Partner 2018 begins in Georgia. https://www.army-technology.com/uncategorized/multinational-military-exercise-noble-partner-2018-begins-georgia/?cf-view (28.10.2023)
6. Türk Dış Politikasi Yıllığı – 2009. Ankara: SETA Yayınları XIII, 2011, 714s.
7. Türk Dış Politikası: Kurtuluş Savaşından Bugüne Olgular, Belgeler, Yorumlar. 3 ciltte. Cilt 2: 1980-2001/Editör: Baskın Oran. İstanbul: İletişim yayınları, 2001, 637 s.
8. Türkiye'nin Gürcistan Politikasında Rusya Faktörü. https://dergipark.org.tr/tr/download/article-file/1596938 (04.11.2023)
9. Zbigniew Brzezinski. The Grand Chessboard: American Primacy and its Geostrategic Imperatives. Nyu-York: Basic Books nəşriyyatı 1998, 240s.

TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ YARADILMASI VƏ FƏALİYYƏTİ

Samudə İskəndərova
Bakı Dövlət Universiteti, Tarix fakültəsinin "Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi" kafedrasının müəllimi, t.ü.f.d.
samuda.1970.bdu@gmail.com

Açar sözlər: *Türk Dövlətləri Təşkilatı, Naxçıvan Sazişi, regional inteqrasiya, türkdilli dövlətlər, çoxtərəfli əməkdaşlıq, Avrasiya geosiyasəti.*
Keyword: *Organization of Turkic States; Nakhchivan Agreement; regional integration; Turkic-speaking states; multilateral cooperation; Eurasian geopolitics.*

XXI əsrdə regionalizm proseslərinin güclənməsi, ortaq mədəni-tarixi köklərə malik dövlətlərin bir araya gəlməsi beynəlxalq münasibətlərin mühüm xüsusiyyətlərindən birinə çevrilmişdir. Türk Dövlətləri Təşkilatı bu kontekstdə özünəməxsus yer tutur və türk dünyasının birləşməsinə xidmət edən əsas institutdur.

Mövzunun aktuallığı bir neçə aspektlə müəyyən olunur. Birincisi, Sovetlər İttifaqının dağılmasından sonra müstəqillik qazanan türkdilli dövlətlərin öz milli maraqlarını müdafiə etmək, iqtisadi inkişafı təmin etmək və beynəlxalq arenada mövqelərini möhkəmləndirmək ehtiyacı yaranmışdır. İkincisi, qloballaşma və regional təşkilatların artan rolu şəraitində türk dövlətləri arasında institutlaşmış əməkdaşlıq zərurəti ortaya çıxmışdır. Üçüncüsü, enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri və iqtisadi inteqrasiya məsələləri Avrasiya məkanında xüsusi əhəmiyyət kəsb edir.

Tarixi inkişaf və formalaşma prosesi: 1991-ci ildə Sovet İttifaqının süqutu ilə müstəqillik əldə edən Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan türk dünyası dövlətləri ilə əlaqələrini inkişaf etdirmək imkanı qazandılar.

1992-ci ildə Ankarada keçirilən ilk Türkdilli Ölkələrin Dövlət Başçıları Zirvə Görüşü tarixi əhəmiyyət daşıyır. 1994-2001-ci illər arasında bir sıra zirvə görüşləri təşkil olundu. 2006-cı ildə Qazaxıstan prezidenti Nursultan Nazarbayev türkdilli dövlətlər arasında daimi əməkdaşlıq mexanizminin yaradılması təşəbbüsü ilə çıxış etdi.

2009-cu il oktyabrın 3-də Naxçıvan Muxtar Respublikasında tarixi Naxçıvan Sazişi imzalandı. Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan arasında imzalanan bu sənəd Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) hüquqi əsasını təşkil etdi. Təşkilat 2012-ci il noyabrın 1-dən rəsmən fəaliyyətə başladı [1].

2018-ci ildə Çolpon-Atada keçirilən VI Zirvə Görüşündə Macarıstan müşahidəçi statusu aldı. 2019-cu il oktyabrın 15-də Bakıda keçirilən VII Zirvə Görüşündə Özbəkistan tam hüquqlu üzv kimi təşkilata qoşuldu. Bu addım təşkilatın genişlənməsi və nüfuzunun artması baxımından mühüm əhəmiyyət kəsb etdi [3].

2021-ci il noyabrın 12-də İstanbulda keçirilən VIII Zirvə Görüşündə tarixi qərar qəbul edildi. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Türk Dövlətləri Təşkilatına çevrildi. Bu transformasiya təşkilatın beynəlxalq subyektliyinin güclənməsini, fəaliyyət dairəsinin genişlənməsini və institusional strukturunun təkmilləşdirilməsini əks etdirdi. Həmçinin "Türk Dünyasına Baxış - 2040" konsepsiyası qəbul edildi və Türk İnvestisiya Fondunun yaradılması haqqında qərar verildi [5].

İnstitusional struktur və üzv dövlətlər: Türk Dövlətləri Təşkilatının tam hüquqlu üzvləri Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası, Türkiyə Cümhuriyyəti və Özbəkistan Respublikasıdır. Türkmənistan, Macarıstan və Şimali KiprTürk Cümhuriyyəti müşahidəçi statusuna malikdir. 2023-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatı da müşahidəçi kimi qoşulmuşdur.

Təşkilatın strukturu bir neçə əsas orqandan ibarətdir. Ən yüksək qərar qəbuletmə orqanı Dövlət Başçıları Şurasıdır və ildə bir dəfə toplanır. Xarici İşlər Nazirləri Şurası strateji qərarların hazırlanmasında və xarici siyasət məsələlərində koordinasiyanın təmin edilməsində mühüm rol oynayır. Ağsaqqallar Şurası məsləhət funksiyalarını yerinə yetirir. Yüksək Vəzifəli Şəxslər Komitəsi Zirvə Görüşlərinin hazırlanmasını həyata keçirir.

Daimi Katiblik İstanbulda yerləşir və gündəlik fəaliyyətə rəhbərlik edir. İlk baş katib vəzifəsini 2010-2014-cü illərdə türk diplomat Xəlil Axıncı, 2014-2018-ci illərdə Ramil Həsən, 2018-2022-ci illərdə isə qazax diplomat Bağdad Amreyev icra etmişdir. 2022-ci ildən etibarən qırğız diplomat Kubanıçbek Omuraliyev bu vəzifəni icra edir [7].

Fəaliyyət istiqamətləri: Türk Dövlətləri Təşkilatının fəaliyyəti Naxçıvan Sazişi ilə müəyyən edilmiş prinsiplər əsasında həyata keçirilir. Əsas məqsədlər arasında tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm və ekstremizmə qarşı mübarizə, ticarət və investisiya əlaqələrinin inkişafı, elm və mədəniyyət sahəsində əməkdaşlıq yer alır.

İqtisadi əməkdaşlıq prioritet istiqamətlərdən biridir. Üzv dövlətlər arasında ticarət dövriyyəsinin artırılması, investisiya axınlarının stimullaşdırılması, gömrük

prosedurlarının sadələşdirilməsi, nəqliyyat infrastrukturunun inkişafı əsas məqsədlər sırasındadır. 2021-ci ildə İstanbul Zirvə Görüşündə Türk İnvestisiya Fondunun yaradılması qərarı əhəmiyyətli addım olmuşdur.

Nəqliyyat-kommunikasiya sahəsində əməkdaşlıq xüsusi diqqət mərkəzindədir. Bakı-Tiflis-Qars dəmir yolu, Trans-Xəzər nəqliyyat marşrutu, Orta Dəhliz layihəsi kimi infrastruktur layihələri türk dövlətləri arasında fiziki əlaqələri möhkəmləndirmişdir. Zəngəzur dəhlizi layihəsi isə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əlaqəsinin bərpası və Orta Asiya ilə Türkiyə arasında birbaşa nəqliyyat əlaqəsinin yaradılması baxımından strateji əhəmiyyət daşıyır.

Mədəni əlaqələr və humanitar sahədə fəaliyyət təşkilatın fəlsəfəsinin əsasını təşkil edir. Ortaq dil, ədəbiyyat, incəsənət və folklor ənənələri türk xalqlarını birləşdirən güclü amillərdir. Türk Dünyasının Mədəniyyət Paytaxtı layihəsi mədəni turizmi və qarşılıqlı tanışlığı stimullaşdırır.

Təhlükəsizlik sahəsində əməkdaşlıq getdikcə aktuallaşır. Terrorizm, ekstremizm, transsərhəd cinayətkarlıq, kibertəhlükələr kimi çağırışlara qarşı birgə mübarizə təşkilatın gündəmindədir. 2020-ci ildə COVID-19 pandemiyası ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Fövqəladə Zirvə Görüşü keçirilib və üzv dövlətlər arasında pandemiyanın nəticələri ilə mübarizədə əməkdaşlıq təmin edilmişdir.

Beynəlxalq münasibətlər sistemində rolu: Türk Dövlətləri Təşkilatı regional və qlobal səviyyədə mühüm rol oynayır. Avrasiya məkanında yerləşən təşkilat Avropa və Asiya arasında körpü rolunu oynayır. Təşkilat Birləşmiş Millətlər Təşkilatının prinsiplərinə, beynəlxalq hüququn əsas normalarına - suveren bərabərliyə, ərazi bütövlüyünə, sərhədlərin toxunulmazlığına sadiqdir.

Təşkilat digər beynəlxalq və regional strukturlarla əməkdaşlıq edir. BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi, Ümumdünya Turizm Təşkilatı ilə əlaqələr qurulmuşdur. Bu əməkdaşlıq təşkilatın beynəlxalq nüfuzunun artmasına və fəaliyyət dairəsinin genişlənməsinə kömək edir.

Enerji təhlükəsizliyi məsələlərində təşkilatın əhəmiyyəti xüsusilə qabarıqdır. Azərbaycan və Qazaxıstan enerji resurslarının Avropaya tədarükündə mühüm rol oynayır. Türkiyə enerji tranzit marşrutlarının əsas keçid nöqtəsidir. Üzv dövlətlər arasında enerji sahəsində əməkdaşlıq qarşılıqlı asılılığı azaldır, enerji təhlükəsizliyini gücləndirir [2].

Təşkilat regional münaqişələrin həllində də konstruktiv rol oynayır. Türk Dövlətləri Təşkilatı Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq hüququn prinsiplərini ardıcıl şəkildə dəstəkləmişdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycanın qələbəsindən sonra İstanbul Bəyannaməsində Azərbaycanın zəfəri alqışlanmış və Azərbaycan-Ermənistan əlaqələrinin normallaşması dəstəklənmişdir [6].

Əldə olunan nəticələr və yeniliklər: Təşkilatın fəaliyyət göstərdiyi illər ərzində əhəmiyyətli nəticələr əldə edilmişdir. İqtisadi sahədə üzv dövlətlər arasında ticarət dövriyyəsi artmışdır. "Türk Dünyasına Baxış - 2040" konsepsiyası təşkilatın uzunmüddətli inkişaf strategiyasını müəyyənləşdirmişdir. Bu sənəd 2040-cı ilə qədər əldə edilməli hədəfləri və prioritetləri əks etdirir.

Nəqliyyat-kommunikasiya sahəsində əldə olunan irəliləyişlər diqqətəlayiqdir. Bakı-Tiflis-Qars dəmir yolu Azərbaycan, Gürcüstan və Türkiyə arasında dəmir yolu əlaqəsini bərpa etmişdir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Mərkəzi Asiya ilə Avropanı birləşdirən mühüm dəhliz rolunu oynayır. Bu infrastruktur layihələri Çinin "Bir kəmər, bir yol" təşəbbüsü ilə də əlaqələndirilir və Avrasiya məkanında yük daşınması üçün alternativ marşrutlar təqdim edir.

Təhsil və elm sahəsində innovativ addımlar atılmışdır. Beynəlxalq Türk Akademiyası elmi tədqiqatların əlaqələndirilməsində, türkşünaslıq sahəsində araşdırmaların dəstəklənməsində mühüm rol oynayır. Tələbə və akademik heyət mübadiləsi proqramları, birgə elmi tədqiqat layihələri həyata keçirilir. Türk Universitetlər Birliyinin yaradılması ali təhsil sahəsində əməkdaşlığın inkişafına töhfə verir.

Mədəni sahədə Türk Dünyasının Mədəniyyət Paytaxtı layihəsi uğurla davam edir. Hər il seçilən şəhərdə mədəni tədbirlər, sərgilər, festivallar təşkil olunur. Bu layihə türk xalqlarının mədəni irsinin təbliğinə, qarşılıqlı tanışlığa və turizmin inkişafına kömək edir. TÜRKSOY-un təşkil etdiyi beynəlxalq mədəniyyət tədbirləri türk dünyasının zəngin mədəni irsini dünyaya tanıdır.

2013-cü ildən etibarən türk dövlətlərinin diaspor təşkilatları arasında əməkdaşlıq inkişaf etdirilir. 2013-cü ildə Bakıda Azərbaycanın təşəbbüsü ilə keçirilən Birinci Diaspor Forumu və qəbul edilən Bakı Bəyannaməsi bu sahədə əməkdaşlığın əsasını qoymuşdur.

Perspektivlər: Təşkilatın inkişaf perspektivləri geniş görünür. İqtisadi inteqrasiyanın dərinləşməsi, ticarət və investisiya əlaqələrinin intensivləşməsi gözlənilir. "Türk Dünyasına Baxış - 2040" konsepsiyası uzunmüddətli hədəfləri müəyyənləşdirmişdir. Rəqəmsal əməkdaşlıq, innovasiya, yaşıl iqtisadiyyat kimi yeni sahələrdə əməkdaşlıq imkanları genişlənirdi.

2025-ci ildə Qəbələdə keçirilən XII Zirvə Görüşündə "Regional Sülh və Təhlükəsizlik" mövzusu müzakirə edilmiş və Azərbaycana 2026-cı ilə qədər sədrlik hüququ verilmişdir. Növbəti rəsmi Zirvə Görüşünün 2026-cı ildə Türkiyədə keçirilməsi planlaşdırılır. Gənc nəslin təşkilatın fəaliyyətinə cəlb edilməsi, mədəni əlaqələrin gücləndirilməsi, diaspor əməkdaşlığının inkişafı uzunmüddətli perspektivlər üçün əhəmiyyətlidir.

Nəticə: Türk Dövlətləri Təşkilatı türkdilli xalqlar arasında əməkdaşlığın inkişafında mühüm rol oynayan müasir regional qurumdur. 2009-cu ildə Naxçıvanda təsis edilən və 2021-ci ildə İstanbulda yeni status qazanan təşkilat on beş illik tarixi ərzində siyasi dialoq platformasından tam hüquqlu beynəlxalq təşkilata çevrilmişdir. Təşkilatın beynəlxalq münasibətlər sistemində rolu artmaqdadır. Regional stabilliyin təmin edilməsi, iqtisadi inkişafın stimullaşdırılması, mədəni dəyərlərin qo-

runması və təbliği istiqamətində fəaliyyət beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılanır. Ortaq dil, mədəniyyət və tarixi köklər əsasında qurulmuş təşkilat türk dünyasının birləşməsinin real simvoluna çevrilmişdir.

Naxçıvan Sazişi ilə başlanan proses "Türk Dünyasına Baxış - 2040" konsepsiyası ilə davam edir. İqtisadi inteqrasiya, nəqliyyat dəhlizləri, enerji əməkdaşlığı, mədəni əlaqələr, təhlükəsizlik məsələləri üzrə əldə edilən konkret nəticələr təşkilatın effektivliyini sübut edir. Türk İnvestisiya Fondunun yaradılması, nəqliyyat infrastrukturunun inkişafı, mədəni layihələrin həyata keçirilməsi və beynəlxalq təşkilatlarla əməkdaşlığın genişlənməsi təşkilatın dinamik inkişafını göstərir. Gələcəkdə təşkilatın daha da güclənməsi, yeni əməkdaşlıq sahələrinin açılması, institusional strukturun təkmilləşdirilməsi və üzv dövlətlər arasında inteqrasiyanın dərinləşməsi gözlənilir. Türk Dövlətləri Təşkilatı XXI əsrdə regionalizm proseslərinin uğurlu nümunəsi kimi qlobal əhəmiyyət kəsb edir və beynəlxalq münasibətlər sisteminin mühüm komponentinə çevrilməkdədir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi. (2024). Azərbaycan - Türk Dövlətlər Təşkilatı (TDT) münasibətləri. https://www.mfa.gov.az/az/category/regional-teskilatlar/azerbaycan-turkdilli-dovletlerin-emekdasliq-surasi-tdes-munasibetleri. İstinad tarixi: 21.11.2025

2. Azərbaycan Respublikası Energetika Nazirliyi. (2023). Türk Dövlətləri Təşkilatı (TDT). https://minenergy.gov.az/az/beynelxalq-teskilatlarla-elaqeler/turkdilli-dovletlerin-emekdasliq-surasi. İstinad tarixi: 22.11.2025

3. Türk Dövlətləri Təşkilatı Rəsmi Veb Saytı. (2024). Türk Dövlətləri Təşkilatı haqqında. https://www.turkicstates.org/az/organization-of-turkic-states. İstinad tarixi: 21.11.2025

4. APA İnformasiya Agentliyi. (2021, Noyabr 13). Türk Dövlətləri Təşkilatı Azərbaycan-Ermənistan əlaqələrinin normallaşmasını dəstəkləyib. https://apa.az/az/foreign-politics/turk-dovletleri-teskilati-azerbaycan-ermenistan-elaqelerinin-normallasmasini-destekleyib-670625. İstinad tarixi: 21.11.2025

5. Amerikanın Səsi. (2021, Noyabr 12). Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşü keçirilib - ekspert baxışı. https://www.amerikaninsesi.org/a/türkdilli-dövlətlərin-əməkdaşlıq-şurasının-viii-zirvə-görüşü-keçirilib-ekspert-baxışı-/6310910.html. İstinad tarixi: 23.11.2025

6. Azerbaijan.az Portal. (2022). Azərbaycan — Türk Dövlətləri Təşkilatı. https://azerbaijan.az/related-information/201. İstinad tarixi: 22.11.2025

7. Respublika qəzeti. (2024). Türk Dövlətləri Təşkilatı dərin kökləri olan türk xalqlarını daha da yaxınlaşdırır. https://respublika-news.az/news/turk-dovletleri-teskilati-derin-kokleri-olan-turk-xalqlarini-daha-da-yaxinlasdirir. İstinad tarixi: 21.11.2025

8. Respublika qəzeti. (2023). Türk Dövlətləri Təşkilatı yeni dünya düzəninin gerçəkliyidir. https://respublika-news.az/news/turk-dovletleri-teskilati-yeni-dunya-duzeninin-gercekliyidir. İstinad tarixi: 23.11.2025

9. Respublika qəzeti. (2024). Dünyada güclü təşkilat: Türk Dövlətləri Təşkilatının 15 yaşı tamam olur. https://respublika-news.az/news/dunyada-guclu-teskilat-turk-dovletleri-teskilatinin-15-yasi-tamam-olur. İstinad tarixi: 23.11.2025

XX ƏSRİN SONU – XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ YAXIN VƏ ORTA ŞƏRQ REGİONUNDA ABŞ-IN XARİCİ SİYASƏT STRATEGİYASININ TƏHLİLİ

Tariel Abbasov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi" kafedrasının dosenti
tariel abbasov@rambler.ru

Açar söz: *"Soyuq müharibə", xarici siyasət, "ikili standartlar", Yaxın Şərq, "demokratikləşmə", rəsmi Vaşinqton, münagişə.*
Keywords: *"Cold War", foreign policy, "double standard", Middle East, "democratization", official Wachington, conflict.*

Amerika-Sovet qarşıdurmasının sona çatması ilə Birləşmiş Ştatlar yeganə fövqəldövlət kimi qaldı və bu hal, ona yeganə dünya lideri mövgeyini tutmağa imkan verdi. Gözlənildiyi kimi, aparıcı "neokonlardan" Çarlz Krauthammerin [3] müəllifi olduğu "birqütblü dünya nizamı" ideyası gündəmə gəldi. Rəsmi Vaşinqton bu faktı özünün ictimai-siyasi quruluş modelinin üstünlüyünün birbaşa sübutu kimi qiymətləndirdi. Frensis Fukuyama [6] və Cozef Nay [4] kimi amerikalı ideoloqlar bu baxımdan, əksər dövlətlərin bu modeli tanıdığını, qalanların isə bunu qəbul etməkdən başqa çarəsi qalmadığına işarə edərək, onu ideal sosial nizamlama bağlı çoxsaylı mübahisələrə son qoyacaq "tarixin sonu" elan etdilər.

Yaxın və Orta Şərq regionu ABŞ-ın xarici siyasətinin əsas və bəlkə də prioritet sahələrindən biri olmaqla davam edir. Əlverişli coğrafi mövqe, böyük həcmdə yanacaq-enerji ehtiyatlarının mövcudluğu, həmçinin geosiyasi aspektlər bu regionun ABŞ-ın xarici siyasətində strateji rolunu müəyyənləşdirən amillərdir. Eyni zamanda, rəsmi Vaşinqtonun Yaxın və Orta Şərq regionunda siyasətinin prioritet məqsədləri, əlbəttə ki, dəyişməz olaraq qalır, yəni bu regiondan yanacaq-enerji ehtiyatlarının fasiləsiz təminatı ücün şəraitin yaradılması, sülhün qorunması, İsrailin təhlükəsizliyinə zəmanətin verilməsi, həmçinin ABŞ-ın milli maraqlarının təmin olunması üçün potensial terror təhlükələrinin aradan qaldırılmasında tərəfdaş ölkələrin səylərinin əlaqələndirilməsi şərtləri olduğu kimi qalır.

Qeyd etmək lazımdır ki, prezident Ata Corc Buşun (1989-1993-cü illər) administrasiyası ABŞ-ın yeni xarici siyasət strategiyasının sistemli konssepsiyasını formalaşdıra bilmədi və bu, şübhəsiz ki, administrasiyanın regional yanaşmalarına təsir etdi. Amerika administrasiyasının regional komponentində yeni tendensiyaların mövcudluğu özünü göstərsə də, bununla belə, bu elementlər bütün vahid siyasi mənzərənin bir hissəsi ola bilmədi. Beləliklə, bu keçid dövrü üçün rəsmi Vaşınqtonun yeni xarici siyasət strategiyasının hazırlanması üzrə bütün məsuliyyət məharətlə növbəti Amerika administrasiyasının üzərinə qoyuldu.

Onu əvəz edən Bill Klintonun (1993-2001-ci illər) yeni administrasiyası Ata Corc Buş administrasiyasının xarici siyasət strategiyasının əsas elementlərini, o

cümlədən Yaxın və Orta Şərqdə regional prioritetləri inkişaf etdirməyə davam etdi ki, bunların da ən mühümləri aşağıdakılardan ibarət idi: Ərəb-İsrail və Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə həlli prosesinin monitorinqi, rəsmi Bağdada qarşı qabaqlayıcı güc göstərilməsi tədbirlərinin tətbiqi, İranın siyasi təcrid olunması kontekstində diplomatik təzyiq "alətlərindən" istifadə edilməsi, Amerikanın ənənəvi silah ticarəti ilə birlikdə regionda hərbi mövcudluğu faktorunu göstərmək olar. Rəsmi Vaşinqtonun Yaxın və Orta Şərq regionunda siyasətinin strateji məqsədi dünyanın bu iqtisadi və geosiyasi baxımdan həyati əhəmiyyət daşıyan regionunda Amerikanın nüfuzunu möhkəmləndirmək istəyindən ibarətdir. Eyni zamanda, bir tərəfdən bu regionda gərginliyi Amerikanın nəzarəti altında saxlaması, bunun əksi olaraq Ağ Evin Ərəb-İsrail, Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə həlli prosesinə təşəbbüs göstərməsi, digər tərəfdən isə Birləşmiş Ştatların Yaxın və Orta Şərq regionunda "ikili standartlar" siyasəti aparılmasına müstəsna sadiqliyini bütün dünya ictimaiyyətinə bir daha açıq şəkildə nümayiş etdirdi.

Bu gün qəbul edilir ki, prezident Corc Buş (oğul) (2001-2009-cu illər) administrasiyasının (2001-2009-cu illər) Yaxın və Orta Şərq regionuna yönəlmiş cəhdləri və ABŞ-ın bu istiqamətdə hərbi ekspansiyasına başlamasının əsas səbəbi 11 sentyabr 2001-ci ildə ABŞ-da törədilən terror aktları olub. Guya ki, Amerika liderini bu regionla qarşıdurma yoluna yönəldən beynəlxalq terrorizm tərəfindən törədilən "xarici amil" olub. Bəlli deyil, 11 sentyabr terror aktlarını "Əl-Qaidə" terror təşkilatı, yoxsa ABŞ-ın xüsusi xidmət orqanları hazırlayıb – bu gün hər iki versiya eyni dərəcədə sübuta yetirilməyib. Hər halda, Səudiyyə Ərəbistanından olan Usamə Bin Laden terror hücumlarının əsas təşkilatçısı elan edildi, Amerika tərəfi isə lazımi sübutları dünyanın aparıcı dövlətlərinin liderlərinə (amma ictimaiyyətə yox) təqdim etdi və Əfqanıstanın "Taliban" rejimi Amerika qisasının birinci "qurbanı" elan edildi [5]. Təsadüfi deyil ki, 2002-ci ilin sentyabrında açıqlanmış Milli Təhlükəsizlik Strategiyasında (MTS) ABŞ-ın milli təhlükəsizliyinə əsas təhdid kimi beynəlxalq terrorizm və kütləvi qırğın silahlarının (KQS) yayılması müəyyən edilib [7]. Qeyd edək ki, 2006-cı ilin martında dərc olunan növbəti Strategiyada da ABŞ-ın beynəlxalq terrorizmə qarşı müharibə vəziyyətində olduğu qeyd edilib [8]. Əslində bu, həm ABŞ-da, həm də xaricdə terrorla mübarizə strategiyasına çevrilib.

Vurğulamaq lazımdır ki, Əfqanıstanın Amerika ekspansiyasının qurbanı olması təsadüfi deyildir. Unutmaq olmaz ki, bu ölkə regionda mühüm geosiyasi mövqeyə malikdir. Əfqanıstan iki nəhəng dünya gücü ilə – Hindistan və Çinlə həmsərhəddir. Əfqanıstanda baş verən hadisələr Mərkəzi Asiyanın postsovet ölkələrinə də öz təsirini göstərir. Əfqanıstana qarşı "intiqam zərbəsi" ABŞ prezidenti Corc Buşa (oğul) nəinki Amerika liderinin qətiyyətli addımlara hazır olduğunu göstərməyə imkan verdi, həm də rəsmi Vaşinqtona bu strateji regionda, Avrasiyanın "mülayim bölgəsində" – Mərkəzi Asiyada, Çinə təhlükəli dərəcədə yaxın olan yerdə enerji resurslarının nəqlinə çıxış əldə etməkdə möhkəmlənmək imkanı yaratdı. Amerika qoşunları Əfqanıstandan İrana təzyiq göstərə və Pakistana nəzarət edə bilərdi.

Amerikanın İraqı işğal etməsindən hiddətlənən beynəlxalq ictimaiyyət bir neçə

il sonra ABŞ-ın Əfqanıstan kampaniyasına müsbət yanaşmışdı. 11 sentyabr faciəsindən sonra dünya dövlətlərinin əksəriyyəti amerikalılara "təəssübkeşliklə yanaşmaq" kimi yardım göstərmək istəyini ifadə etmişdilər. NATO bloku da öz növbəsində Əfqanıstandakı hərbi əməliyyatda iştirak edəcəyini açıqlamışdı. Və sonda hamı tərəfindən unudulmuş Əfqanıstan uzun illər dünya siyasi və iqtisadi proseslərindən kənarda qalaraq "müharibə şəraitində" yaşamışdır. Talibanın iyrənc rejiminə qarşı kiçik qələbəli müharibəsi Böyük Yaxın Şərqin xəritəsini "yenidən çəkmək" üçün yaxşı başlanğıc olardı. Bir çox müasir müharibələr kimi "Əfqan" kampaniyası da qapalı idi. Ona görə də onun o vaxtkı real nəticələri haqqında danışmaq çətindir. Talibləri Kabildən qovdular, amma hərbi-siyasi qüvvə kimi məhv etmədilər. Ona görə də Əfqanıstanın "demokratikləşdirilməsi" üzrə əldə olunan uğurlar da şübhə doğururdu.

"İraq" kampaniyası Birləşmiş Ştatlar üçün onun siyasi rəhbərliyinin gözlədiyindən də qat-qat əhəmiyyətli rol oynadı. Bu qədər tez və, demək olar ki, uğurla başa çatan Səddam Hüseyn rejiminin süqutu ilə İraqdakı müharibə, həm də, obrazlı desək, "ABŞ üçün ikinci Vyetnama" çevrildi. 2003-cü il martın 20-də başlayan İraq hərbi kampaniyası mayın 1-də – ABŞ prezidenti Corc Buş (oğul) hərbi əməliyyatların başa çatdığını elan edəndə (əməliyyatın ilkin olaraq "Şok və qorxu" adlandırılan, sonra isə "İraqın Azadlığı" adlandırılan aktiv mərhələsi cəmi 26 gün davam etdi) sona çatdı [2]. Pirr qələbəsi Amerika istəblişmentində ciddi böhrana səbəb oldu. Məhz İraq Müharibəsi ilə bağlı mövqe ABŞ-da Respublikaçıların idarəçiliyinə son qoydu və gənc demokrat senator Barak Obamanı Ağ Evə gətirdi.

İraqda müharibəyə hazırlaşan və onu başladan rəsmi Vaşinqton bütün Yaxın və Orta Şərqi hərəkətə gətirən güclü çarxı işə saldı. Ağ Ev öz strateji planlarının müdafiə olunmasına ilk növbədə regionun ərəb dövlətlərindən dəstək almağa çalışırdı. Ümumiyyətlə, onların əksəriyyəti bu və ya digər səbəbdən hərbi hazırlıqdan çəkinərək uzaqlaşıb, anti-İraq koalisiyasında iştirakdan imtina etdilər. İraq müharibəsi bütün ərəb icması üçün daha bir ciddi yanaşma və sınaq oldu. Bir sıra ərəb dövlətlərinin Səddam Hüseyn rejiminə qarşı bütün qeyri-müəyyən və hətta mənfi münasibətlərinə baxmayaraq, söhbətin Misir və ya Suriya, Sudan və ya İordaniya, Fələstin və ya Livandan getməsindən asılı olmayaraq, sadə insanlar – "ərəb küçəsi" İraqa qarşı müharibəni təkcə bütün ərəblər üçün ağır bir zərbə kimi deyil, həm də 1967-ci ilin "Altı Günlük" Müharibəsində məğlubiyyətin acısı ilə müqayisə edilə bilən bir rüsvayçılıq kimi qəbul edirdi.

ABŞ-ın 44-cü prezidenti Barak Obamanın (2009-2017-ci illər) xarici siyasəti rəsmi Vaşinqtonun İrana qarşı siyasətinə düzəlişlər etdi. Tehranın danışıqlar formatını davam etdirmək istəməməsi ilə ifadə olunan İran rəhbərliyinin konstruktiv mövqeyindən uzaq olması Amerika administrasiyası tərəfindən yeni, daha geniş sanksiyalar paketinin tətbiqi ilə yanaşı, İran rəhbərliyinə qarşı siyasi və iqtisadi təcrid sistemindən istifadə edilməsinə gətirib çıxardı [1, c.79-80]. Bu planların həyata keçirilməsi Yaxın və Orta Şərqin ayrı-ayrı ölkələrində inqilabi sarsıntıların hə-

yata keçirilməsi və onlarda sırf rəsmi Vaşinqtona yönəlmiş yeni siyasi rəhbərliyin yaradılması yolu ilə planlaşdırılırdı.

2016-cı ilin noyabrında ABŞ-da keçirilən prezident seçkilərində qalib gələn Respublikaçı Donald Tramp (2017-2021-ci illər) prezidentliyinin əvvəlindən bəri ABŞ-ın "qlobal öhdəliklərinə" yenidən baxılmasına yönəlmiş bir sıra xarici siyasət qərarları qəbul edərək, ABŞ qoşunlarının Suriyanın bəzi bölgələrindən qismən çıxarılması, habelə ABŞ-ın İranın nüvə proqramı üzrə Birgə Hərtərəfli Fəaliyyət Planından çıxması ilə bağlı qərarlar qəbul etmişdi. 2017-ci ilin dekabrında Qüds şəhərini İsrail dövlətinin paytaxtı kimi tanıyan Ağ Evin yeni rəhbəri Amerika səfirliyinin diplomatik korpusunun Qüdsə köçürülməsi vəzifəsini ölkənin Dövlət Departamentinə həvalə etdi. Bu addım rəsmi Ankara tərəfindən çox mənfi qarşılandı. 2018-ci ilin mayında Prezident Donald Tramp ABŞ-ın İranla nüvə sazişindən birtərəfli qaydada çıxdığını elan etdi və 2019-cu ilin martında rəsmi Vaşinqtonun İsrailin Colan təpələri üzərində suverenliyini tanımasının vacibliyini qeyd etdi. ABŞ-da 2020-ci ilin noyabrında keçirilən prezident seçkilərinin nəticələrindən sonra Donald Tramp Ağ Evin yeni rəhbəri kimi Demokratlar Partiyasının namizədi Cozef Baydenə uduzdu.

Beləliklə, XX əsrin sonu – XXI əsrin əvvəllərində Yaxın və Orta Şərq regionunda ABŞ-ın siyasətinin formalaşmasına əsasən aşağıdakı siyasi aspektlər təsir edib:

– İraq və Suriya ərazisində terror aktlarının davam etdirilməsi;

– beynəlxalq koalisiya qüvvələrinin ölkədən çıxması və ərazisinin "Taliban" hərəkatının nəzarətinə keçməsi səbəbindən Əfqanıstanda daxili siyasi vəziyyətin gərginləşməsi;

– bütün sonrakı şərtlər də daxil olmaqla, hələ də həll olunmamış Fələstin-İsrail münaqişəsi;

– rəsmi Vaşinqton tərəfindən İsrailə təhlükəsizlik zəmanətinin verilməsi və onun de-fakto ərəb ölkələri üzərində hərbi-texniki üstünlüyünü saxlaması;

– İran rəhbərliyinin hərəkətləri, o cümlədən rəsmi Tehranın Ağ Evin rəhbəri Donald Trampın imtina etdiyi 2015-ci il nüvə sazişinə qayıtmaq istəməməsi;

– Amerika administrasiyasının rəsmi Tehranın siyasətinə Körfəz ölkələrinin müqavimət faktorundan istifadə etməsi;

– Körfəz ölkələrinin təhlükəsizliyinin təmin edilməsi problemlərinin həllinə yönəlmiş ABŞ-ın regional xarici siyasətinin daha da möhkəmlənməsi.

Ədəbiyyat siyahısı:

1. Аббасов Т.Н. Приоритеты ближневосточной политики США в конце XX – начале XXI вв. (учебное пособие) / Т.Аббасов. – Баку: типография АЗТУ, - 2020. – 174 с.

2. Буш объявил об окончании войны в Ираке [Электронный ресурс] /18 августа 2019. URL https: // www.newsru.com/world/02 may2003/end,html

3. Краутхаммер Ч. Демократический реализм: американская внешняя политика для однополярного мира / Ч.Краутхаммер. – Вашингтон: Институт американского предпринимательства, - 2004. – 21 с.

4. Най-младший Дж. Мягкая сила. Кака добиться успеха в мировой политике / Дж.Най-младший. – Москва: Тренд, - 2006. – 397 с.

5. Началась военная операция США в Афганистане: [Электронный ресурс] / 6 августа 2019. URL https: // oms.rus.team. /events/item/nachalas-voennaya-operatsiya-ssha-v-afganistane
6. Фукуяма Ф. Конец истории и последний человек / Ф.Фукуяма. – Москва: АСТ, - 2007. – 588 с.
7. The National Security Strategy of the United States of America. Washington. September 2002 //WHITEHOUSE. GOV, сайт Белого дома США: [Electronik resource] / 10 февраля 2018. URL https: // www.state.gov/documents/organization/63562.pdf
8. The National Security Strategy of the United States of America. Washington. March 2006 // GEOR GEWBUSH – WHITE HOUSE. RCHIVES.GOV, сайт Белого дома США (архив Джорджа Буша): [Electronik resource] / 10 февраля 2018. URL https: // georgewbush-whitehouse.archives.gov/nse/nss/2006

ERKƏN ORTA ƏSRLƏRDƏ TÜRK DÖVLƏTLƏRİNDƏ HƏRBİ DEMOKRATİYANIN MÖVCUDLUĞUNU GÖSTƏRƏN ELEMENTLƏR

Əsməd Muxtarova
Bakı Dövlət Universiteti Tarix fakültəsinin
"Türk xalqları tarixi" kafedrasının müdiri,
tarix elmlər doktoru, professor
asmad.mukhtarova@bsu.edu.az

Açar sözlər: *Erkən orta əsrlər – Türk dövlətləri – hərbi demokratiya – qəbilə quruluşu – sosial-siyasi sistem*
Keywords: *Early Middle Ages – Turkic states – military democracy – tribal structure – socio-political system*

Məlum olduğu kimi, dövlət qurumunun yaranması ilə hüquq (dövlət hüququ) da yaranır. Lakin tarixşünaslıqda türk xalqlarında ictimai inkişafın müxtəlif mərhələlərində (ibtidai icma, hərbi demokratiya, quldarlıq, feodalizm) hüququn mahiyyətinin xüsusi olaraq tədqiqat predmeti olmamışdır. Türk xalqlarında hərbi demokratiya quruluşunda dövlət hüququ yox idi, hüquq dövlət tərəfindən müəyyən olunan və hakim sinfə xidmət edən institutdursa, hərbi demokratiya şəraitində belə hüquq ola bilməzdi. Orada adət hüququ vardı, yəni ibtidai icma quruluşundan qalma vərdişə çevrilmiş, hamı tərəfindən gözlənilən davranış qaydaları olan normalar hakim idi. Herodot (e.ə. I əsr) yazmışdır ki, skiflərdə başqa xalqların adətinə əməl edən şəxs öldürülürdü. Deməli, klassik quldar və feodal dövlətlərində hüquq həmin qurumların qorunmasına xidmət etdiyi halda, hərbi demokratiyada adət hüququ tayfalarla tayfa başçıları arasında münasibətləri tənzim edən yeganə institut kimi özünü büruzə verirdi [5, 33-43].

Hərbi demokratiya quruluşu etnik şüur və etnik birlik hissinə əsaslanırdı. Bu hiss ümumi maraqla (qorunma və yeni ərazinin işğalı və s.) şərtlənmişdir. Bu ümumi maraqsız tayfa ittifaqı yarana bilməzdi. Lakin etnik şüur (etnik özünüdərk) tayfa ittifaqının çərçivəsindən kənara çıxmırdı. Tarix boyu müxtəlif türkmənşəli tayfa ittifaqlarının bir-birinə qarşı qanlı müharibələri də bununla izah olunur. S.A.Pletnyova yazır ki, Cənub-Şərqi Avropada yaşayan Peçeneq tayfa ittifaqına səkkiz tayfa

(onuncu əsr Bizans müəllifi Konstantin Baqryanorodnının məlumatında "fem") və 40 qəbilə vardı və onların hər birinin başında xan dururdu, icra hakimiyyəti onlara məxsus idi [3, 11-45]. Deməli, hər tayfa müstəqil vahid idi, lakin hərbi səfər vaxtı bu ordalar (tayfalar) birgə hərəkət edirdilər.

Dövlət qurumu formalarına idarəçilik forması ünsürləri (atributları) da daxildir. Lakin qədim dövrdə və erkən orta əsrlərdə türk xalqlarında dövlət idarəçiliyi də əsas etibarilə hərbi demokratiyanın ünsürlərinin bu və ya digər dərəcədə mövqeyindən asılı idi. Ona görə türk xalqlarında hərbi demokratiyanın dövlət idarəçiliyi formalarının xüsusi olaraq tədqiq olunmasına ehtiyac vardır. İş burasındadır ki, adət hüququnun mövqeyindən asılı olaraq quldarlıq və feodalizm dövlət hüququ da müxtəlif formalar kəsb etməli idi.

Tayfa ittifaqı daxilində ümumi maraq hərbi demokratiyanın ideoloji əsasını təşkil edirdi.

Hərbi demokratiya quruluşunun hüququ ibtidai icma cəmiyyətinin daxilindəki hüququn davamı idi. Bu hüquq isə adətlərin və normaların ənənəviliyinə əsaslanırdı. Ona görə də hərbi demokratiya quruluşunda adətlərin (yəni hərbi demokratiya hüququnun) pozulması halları ola bilmədiyinə görə, onları qoruyan xüsusi orqana da ehtiyac yox idi. Onun əvəzinə bütün tayfa və tayfa ittifaqı tərəfindən tətbiq edilən cəza tədbirləri mövcud idi.

Lakin hərbi demokratiya keyfiyyətcə yeni istehsal üsulunun (intensiv maldarlıq təsərrüfat sahəsinin) bərqərar olması ilə səciyyələnirdi. Bununla əlaqədar olaraq maldar ellərdə cəmiyyətin siyasi idarə sistemi, yəni idarə aparat təşkilatı vardı. Əgər dövlət iqtisadi cəhətdən hakim sinfin siyasi təşkilatıdırsa, onda hərbi demokratiya quruluşunda müəyyən normalar, yəni tayfa ittifaqının müəyyən müddət ərzində yaşamasını şərtləndirən qaydalar olmalı idi. Bu qaydalar, şübhəsiz, bəylərə və xanlara mənsub idi. Təəssüf ki, türk xalqlarına aid ümumiləşdirilmiş əsərlərdə bu problemdə də aydınlıq yoxdur.

Yuxarıda deyilənlərdən aydın olur ki, maldar türk tayfalarında hərbi demokratiya ibtidai icma quruluşu dağıldıqdan sonra təşəkkül tapmışdı.

Maldar türk tayfalarında hərbi demokratiya ibtidai icma quruluşu dağıldıqdan sonra təşəkkül tapmışdı.

Orta Asiyada quldarlıq əsas etibarilə Sırdərya, Amudərya və Zərəfşan çaylarından suvarma kanallarının çəkilməsində qul əməyindən istifadə ilə əlaqədardır. Arxeoloji qazıntılar suvarma əkinçiliyinin hələ Tunc dövründə təşəkkül tapdığını göstərmişdir. Bu e.ə. I minilliyin ortalarında sinfi münasibətlərin təşəkkülünü, o isə öz növbəsində dövlətin yaranmasını şərtləndirmişdir. Suvarma əkinçiliyi əsas etibarilə indiki Türkmənistan, Özbəkistan, Qaraqalpaq və b. ölkələrdə geniş vüsət almışdı. Həmin bu vaxt Avrasiyada köçəri maldarlıq yaranır. Buna uyğun olaraq iki tip dövlət qurumunun (quldarlıq və hərbi demokratiya) təşəkkülü baş verir. Bu tarixi zərurət idi: iri suvarma xətlərinin çəkilməsi ayrı-ayrı ittifaq icmalarının imkanları daxilində deyildi, bunu yalnız dövlət qurumu yerinə yetirə bilərdi. Türk xalqlarının Orta Asiyada ilk quldar dövlətləri belə yaranmışdı [2, 23].

Lakin elə Orta Asiyanın çöl və dağ yerlərində, Altayda və oradan Cənub-Şərqi Avropanın qurtaracağına (Dunay çayına) qədərki Böyük çöldə köçəri maldarlıq icmaların əsas təsərrüfat sahəsinə çevrilirdi və köçərilərin hərbi demokratiya quruluşlu dövlət qurumlarının yaranmasına səbəb olurdu.

Hərbi demokratiya ilə quldarlıq quruluşu arasında bir mühüm fərq vardır: hərbi demokratiya quruluşunda natural təsərrüfat hökm sürdüyü halda, erkən orta əsrlərdə quldarlıq quruluşunda pul dövriyyəsinə əsaslanan ticarət və mübadilə vardır. Deməli, hərbi demokratik quruluşlu qədim türk dövlətləri (tayfa ittifaqlarının siyasi qurumları) quldarlıq quruluşundan yan keçərək IV-V əsrlərdə erkən feodalizmlə əvəz olunmuşdu. Erkən feodalizm quruluşu da maldar ellərdə hələ uzun müddət tayfa-qəbilə institularını (hərbi demokratiya qaydalarını və s.) saxlayırdı. Fərq onda idi ki, köçərilərdə erkən feodalizm münasibətləri sinfi mahiyyətə malik idi, yəni hərbi demokratiya institutları feodalizm münasibətlərinə uyğun olaraq dəyişmişdir. Oturaq əhalisi olan müəyyən bir ərazidə köçəri maldar tayfa ittifaqının yaratdığı dövlət qurumu forması Orta Asiyada erkən orta əsrlər dövrü üçün səciyyəvidir. V.V.Bartold bu dövlət qurumlarından danışarkən yazır ki, belə dövlətlərdə yerli köçəri maldarlıq qaydaları yerli oturaq mədəni qaydalarla qarışır və nəticədə köçəri hakimiyyət ilə yerli oturaq əhali arasında özünəməxsus münasibətlər təşəkkül tapır [2, 23].

Qədim maldar türk xalqlarının tarixində ilk dövlət qurumları e.ə. I minillikdə tayfa ittifaqlarından ibarət idi və köçəri maldarlıq təsərrüfatının mahiyyətinə uyğun olaraq bu qurumlar hərbi demokratiya əsasında təşəkkül tapmışdı. Hərbi rəis, şura (kurultay) və xalq (tayfa) yaxud kara (qara camaat) yığıncağı – hərbi demokratiyanın əsas dövlət elementləridir.

Hərbi demokratiya ictimai-iqtisadi formasiya deyil. Bu yalnız siyasi quruluş forması olmaq etibarilə köçəri maldarlıqla məşğul olan tayfalara aiddir. Hunların dövləti də belə idi. Onlar Şərqi Avropaya hərbi demokratiya ilə gəlmişdilər: ailə qrupları bir tayfa təşkil edirdi, hər tayfa təxminən beş min adamı birləşdirirdi və tayfanın başında hərbi rəis (bəy) dururdu. Müharibə vaxtı bəy həmin tayfadan olan döyüşçülərin başçısı idi, lakin sülh vaxtı tayfanın xalq yığıncağının qərarlarına tabe idi. Ammian Marsellin aydın yazır ki, hunlar bütün işlərdə məsləhətləşirlər, bu, köçəri həyat tərzindən irəli gəlirdi və yuxarıda deyildiyi kimi, bu həyat tərzi isə otlaqlar ələ keçirmək və qənimətə nail olmaq məqsədilə müharibəni peşəyə çevirir.

İlk vaxtlar hunlar hərbi demokratiya şəraitində yaşadıqlarına görə birgə hərəkət edirdilər. Lakin 453-cü ildə Attilanın ölümündən sonra onlar tayfa ittifaqlarında yenidən qruplaşdılar və hər tayfa ittifaqı müstəqil siyasi qurumlara çevrildilər.

Mənbələrdən aydın olur ki, Qərbi Hun dövləti Şərqi Hun dövlətinin ənənələrinin davamçısı idi, yəni bu dövlətin ərazisində yaşayan tayfalar əsas etibarilə maldarlıqla məşğul olduqlarına görə hərbi demokratiya şəraitində yaşayırdılar.

Attilanın hakimiyyəti illərində hunlar Qərbi Avropaya və Şərqi Roma imperiyasına qarşı mütəmadi hərbi səfərlərdə olurdular. Bu aramsız basqınlar yalnız qarət və təzminat almaq məqsədi güdürdü. Bu, məhz hərbi demokratiyanın ən mühüm səciyyəvi cəhətidir.

Qərbi Hun dövlətinin süqutu ilə demokratiya quruluşlu yeni qədim türk dövlətlərinin tarixi başlandı. Bu imperiya əsasında erkən orta əsrlərdə yaranmış Bolqar, Xəzər, Avar və Suvar dövlətləri artıq erkən feodalizm quruluşuna əsaslanan qurumlar olsalar da, onlarda eyni zamanda hərbi demokratiya ənənəsi də qalırdı.

Xəzər dövləti köçəri maldar və əkinçi tayfaların yaşadığı, yəhudi, islam və şamanizm dinlərinin mövcud olduğu bir şəraitdə hərbi demokratiya qaydalarının erkən feodalizm münasibətləri ilə çulğalaşdığı qurum idi.

Mənbələrdən aydın olur ki, peçeneqlər maldarlığın tabor formasında istifadə edirdilər. Bu, hərbi demokratiyanın bir forması idi. Yəni hər fem, yəni hərbi düşərgə-tabor bir tayfa ittifaqının mərkəzi hesab olunurdu. Hər taborun başında xan (Konstantin Baqryanorodnının məlumatında "arxont") dururdu. Peçeneqlər hərbi demokratiyadan feodalizmə keçə bilmədilər və XI əsrin əvvəllərində bir hissəsi Cənub-Şərqi Avropaya İrtış sahillərindən gəlmiş qıpçaqlar tərəfindən tabe edildilər, digər hissəsi isə Bizans ərazisinə keçərək məskunlaşdılar.

Oğuz yabquları formal olaraq seçilmiş hökmdarlar olsalar da, hakimiyyətlərini nəsli olaraq almışdılar. Oğuz ulu yabqularının seçkisi hərbi demokratiya dövründəki xalq məclislərinin izlərini daşıyırdı. X əsrdə oğuzlar arasında belə yığıncaqların olduğu Əhməd ibn Fadlanın kitabında da qeyd edilir. İbn Fadlan yazır: Onlar (Guzlar) hər hansı bir məsələni həll etmək üçün bir yerə toplaşıb o məsələ ilə bağlı qərar verdiklərində aralarından ən aşağı səviyyədə və hətta ən kasıbı qalxıb onların qərarlarını ləğv edə bilirdi. Lakin oğuzlarda xalq yığıncaqları çox nadir hallarda təşkil olunurdu və gündəlik həyatla bağlı məsələlərin həllində əsas rolu ərkan-i dövlət öz öhdəsinə götürürdü. Xalq yığıncaqları təşkil olunduqda, əsas qərarı oğuz əsilzadələri verirdi [6, 38-72].

Sırdərya Oğuz dövlətində hərbi demokratiya quruluşundan alınma hakimiyyət müəssisələri qorunub saxlanılırdı. Oğuz yabqularının hakimiyyəti böyük hərbi boy aristokratiya məclisi ilə məhdudlaşdırılırdı.

Qızıl Orda dövləti ümumiyyətlə feodal tipli qurum sayılsa da, əyalətlərdə hələ də hərbi demokratiya quruluşunun qalıqları qalmaqda idi.

Əmir Teymurun dövləti Orta Asiya türk xalqlarının tarixində mühüm yer tutur. Bu onunla əlaqədardır ki, bu dövlətdə türk-monqol dövlətçiliyi, hərbi demokratiyanın qalıqları İslam mədəniyyəti ilə bağlı dövlətçilik ünsürləri ilə çulğalaşmışdır.

Yuxarıda deyilənlərdən aydın olur ki, Orta Asiyada erkən orta əsrlərdə türk dövlətlərində hərbi demokratiya və erkən feodalizm quruluşu çulğalaşmış vəziyyətdə idi və onların heç birində yetkin feodalizm münasibətləri formalaşmışdı.

Ədəbiyyat siyahısı:

1.Muxtarova Ə.İ. Türk xalqlarının tarixi (qədim dövr və orta əsrlər). Bakı, Adiloğlu, 2008, 448 s.
2.Muxtarova Ə.İ. Türk xalqlarının dövlətçilik tarixi (qədim dövr və orta əsrlər). Bakı, Adiloğlu, 2025, 316 s.
3. Багрянародный К. Об управлении империей. М., Наука, 1989, 496 с.
4. Бартольд В.В. Отчет о поездке в Среднюю Азию с научной целью (1893-1894). СПб., тип. Акад.наук,1897,198 с.
5. Граков Б.Н. Скифы. Научно-популярный очерк. М., МГУ, 1971, 166 с.

6. Ковалевский А.П. Книги Ахмеда Ибн Фадлана о его путешествии на Волгу. Харьков, Изд-во ХГУ имени АМ.Горького, 1956, 193 с.
7. Плетнева С.А. Печенеги, торки и половцы в южнорусских степях // Труды Волго-Донской археологической экспедиции. Т.1/62, М.-Л., 1958, с.151-226.
8. Рыбакова Б.А. Геродотова Скифия. М., Наука, 1979, 248 с.

ŞİMALİ KİRP TÜRK CÜMHURİYYƏTİ MÜASİR BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ


Sevinc Ruintən
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Türk xalqları tarixi" kafedrasının dosenti, t.ü.f.d.
sevinjruintan@bsu.edu.az;
ORCID ID: 0000-0002-8211-1577

Açar sözlər: *Şimali Kipr Türk Cümhuriyyəti, Birləşmiş Millətlər Təşkilatı, Annan planı, Crans Montana prosesi, Türk Dövlətləri Təşkilatı, Avropa Birliyi, Montevideo konvensiyası*
Keywords: *Turkish Republic of Northern Cyprus, United Nations, Annan Plan, Crans Montana Process, Organization of Turkic States, European Union, Montevideo Convention*

Giriş. Şimali Kipr Türk Cümhuriyyəti və onunla bağlı məsələlər günümüzdə də aktuallığını qoruyub saxlamaqda olan məsələlərdən biridir. Belə ki, 2025-ci ilin əvvəllərində hakimiyyətin 4-cü qanadı hesab edilən kütləvi informasiya vasitələrində Türk dövlətlərinin Kipr Respublikası ilə diplomatik münasibətlər qurduğu və bununla da "Türkiyəyə xəyanət etdiyi" başlıqlı xəbərlərin böyük sürətlə bir-birini əvəz etdiyinin şahidi olduq [22; 27; 36]. Bir sıra mütəxəssislər məsələyə hər nə qədər *"başa düşüləndir"* deməklə aydınlıq gətirməyə çalışsalar da, əslində "başa düşülməyən", qaranlıq qalan məsələlər də oldu.

Türkiyənin Xarici işlər naziri Hakan Fidanın ona verilən suala cavab olaraq *"Biz prinsip etibarilə ailəvi məsələlərimizi ictimaiyyət qarşısında müzakirə etməməyə üstünlük veririk"* deməsi [22], Türkiyənin siyasi dairələrində *"Kipr məsələsi sadəcə tarixi, hüquqi məsuliyyət deyil, Türkiyənin "ön geosiyasi xəttinin" müdafiəsidir"* deyilməsi məsələnin mühüm əhəmiyyət daşıdığını əyani şəkildə göstərməkdədir [13]. Günümüzdə baş verməkdə olan bu hadisələri əsas götürərək, hazırki araşdırmada ŞKTC-nin yaranmasını şərtləndirən səbəblər, yaranmasından günümüzə qədər problemin həlli istiqamətindəki fəaliyyətlər və onların nəticəsi haqda ümumi məlumat veriləcək; ümumilikdə ŞKTC-nin beynəlxalq vəziyyəti məsələlərinə aydınlıq gətiriləcəkdir.

Şimali Kipr Türk Cümhuriyyətinin yaranması: tarixi arayış. Tarix boyu Kipr adası müxtəlif imperiyaların tərkibində olmuşdur. 1914-cü ildə Böyük Britaniyanın adanı ilhaq etməsinin ardınca, 1930-cu illərdən başlayaraq Kipr rumları "Enosis", "Meqali İdeya" siyasətləri çərçivəsində Yunanıstanla birləşmək tələblərini irəli sürməyə başladılar. Türkiyədə Fatih Rüştü Zorlunun xarici işlər naziri təyin olunması ilə isə Kipr məsələsi Türkiyə xarici siyasətində də "milli dava" səviyyəsinə yüksəl-



miş oldu [13]. Kipr rumları ilə bu qarşıdurmada Britaniyanın müstəmləkə hökuməti Yunanıstana birləşmək istəməyəcək Kipr türklərini özünün "təbii müttəfiqi" rolunda görür, Kipr rumlarına qarşı mübarizədə onlardan istifadə edirdi ki, bu da faktiki olaraq "parçala, hökm sür" siyasətinin həyata keçirilməsi idi.

Bir sıra daxili və xarici (müstəmləkəçilik əleyhinə çıxışlar, Süveyş problemi, Malayada müharibə vb.) problemlərin təsiri ilə Britaniya adanın müstəqilliyini tanımaq məcburiyyətində qaldı. 1959-cu ilin fevral ayında Sürixdə Kipr Respublikasının quruluşu, Qarantorluq və İttifaq haqqında müqavilələr imzalandı. Bir tərəfdən Kipr Respublikası, digər tərəfdən Yunanıstan, İngiltərə və Türkiyə arasında imzalanmış "Qarantorluq müqaviləsi" hər 3 dövlətə *müqavilənin şərtlərinin pozulacağı halda* Kipr Respublikasının daxili işlərinə qarışma hüququ verirdi [21]. Kipr Respublikası, Türkiyə və Yunanıstan arasında imzalanmış İttifaq müqaviləsinə əsasən adada Yunanıstan 950, Türkiyə 650 əsgərlik hərbi qüvvə saxlamaq hüququ alırdı [15]. Adada Böyük Britaniyanın da 2 hərbi baza (Akrotiri və Dekeliya Suveren Baza əraziləri) saxlamaq hüququ tanınmışdı. 1960-cı il avqust ayının 16-da Lefkoşada (Yunan dilində: Nikosiya – S.R.) Böyük Britaniya, Türkiyə, Yunanıstan, həmçinin Kiprin yunan icmasının lideri arxiyepiskop Makarius və türk icmasının lideri doktor Fazil Küçük arasında 1959-cu il Sürix müqavilələrini təsdiq edən Kipr Respublikasının müstəqilliyi, ərazi bütövlüyü və bitərəfliyi haqqında müqavilə imzalandı [43].

Müstəqilliyin elanından sonra icmalar arasında münasibətlər daha da kəskinləşdi. 1963-cü ildə prezident Makariusun *idarəçiliyin mərkəzləşdirilməsi* məqsədilə konstitusiyada dəyişikliklər etmək qərarından sonra silahlı münaqişə başlandı. Türk icmasının hakimiyyətdə təmsil olunmuş nümayəndələri: vitse-prezident F.Küçük, nazirlər, Nümayəndələr palatasının üzvləri, digər məmurlar ölkənin idarəçiliyində iştirakdan imtina edərək paytaxt Lefkoşanın türklərə aid olan hissəsinə keçdilər. 15 iyul 1974-cü ildə Yunanıstanda Enosis siyasətinin tərəfdarları "qara polkovniklər" çevrilişinin ardınca, onların Kiprdəki tərəfdarları da çevriliş etdilər. "Akritas planı" çərçivəsində türkləri hədəf alan soyqırım və məhvetmə siyasətinin qarşısının alınması məqsədilə [13] Qarantorluq müqaviləsinə əsaslanan Türkiyə 20 iyul 1974-cü ildə ordularını Kiprə çıxardı. 1975-ci ildə Rauf Denktaşın prezidentliyi ilə Kipr Türk Federativ Respublikasının yaradıldığı elan edildi [16]. Kiprin rum icması ilə 8 il uğursuz danışıqlardan sonra, 15 noyabr 1983-cü ildə adanın şimal hissəsində Şimali Kipr Türk Respublikasının müstəqilliyi elan edildi [17].

Şimali Kipr Türk Cümhuriyyətinin beynəlxalq vəziyyəti. Müstəqilliyin elan edilməsinin ardınca BMT TŞ-nın qəbul etdiyi 541 və 550 saylı qərarlar [41; 42] təşki-

lata üzv dövlətlərin ŞKTC-ni tanımasının qarışısını almış oldu [13]. Burada yeri gəlmişkən, bir məsələyə aydınlıq gətirmək istərdik. Beynəlxalq hüquqda dövlətlər üçün "tanınma öhdəliyi" müəyyən edilməyib. Bu, yəni "tanıma" "tanıyan dövlət"in xoşməramlı niyyətinin göstəricisidir, "tanıyan dövlət" adətən özünün mülahizələrindən çıxış edir. Dövlətin tanınması başqa bir dövlətin onun kimliyini, başqa sözlə varlığını qəbul etməsi deməkdir. BMT üzvlüynə qəbul olunma dövlətin sadəcə beynəlxalq subyektin üzvü olması faktını təsdiqləyir, lakin BMT üzvü digər dövlətlər tərəfindən tanınma anlamına gəlmir [26, c.16-17]. ŞKTC-nin Türkiyədən başqa heç bir BMT üzvü dövlət tərəfindən rəsmi olaraq tanınmadığı məlum olsa da, 1983-cü ildə Pakistan və Banqladeş də onun müstəqilliyini tanımışdılar. Lakin 24 saat sonra da, BMT TŞ-nın 541 saylı qərarı və beynəlxalq ictimaiyyətin, xüsusilə ABŞ-ın təzyiqləri nəticəsində qərarlarını geri çəkmək məcburiyyətində qalmışdılar [1, s.40; 18; 28]. Bu isə başqa sözlə, Montevideo konvensiyasının *"tanımanın qeyd-şərtsizliyi və dönməzliyi"* haqda olan VI maddəsinin [33] pozulması deməkdir.

Hazırda ŞKTC-nin prezidentləri BMT və AB tərəfindən "Kipr Türk toplumunun lideri" statusu ilə qəbul edilir. ŞKTC və Türkiyə də öz növbələrində Kipr Respublikasını "Kipr Cümhuriyyəti" deyil, "Güney Kıprıs Rum Yönetimi" deyə adlandırırlar.

Beynəlxalq, regional təşkilatlarla əməkdaşlıq. ŞKTC Türk Dövlətləri Təşkilatının, İslam Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının, Türk Akademiyasının, Türksoyun, Türk dili və Ləhcələri konuşan Ülke ve Bölgelerdeki Yerel Yönetimler Birliyinin (TDBB) müşahidəçi üzvüdür:

Türk Dövlətləri Təşkilatının 2022-ci il Səmərqənd zirvəsində təşkilata müşahidəçi üzv qəbul olunub [25]. Qeyd edilməlidir ki, TDT ŞKTC-nin ilk dəfə öz adı ilə üzv qəbul olunduğu təşkilat olmuşdur. Hətta Avropa Birliyi bununla bağlı TDT-na etirazını bildirmiş [35], Türkiyə Xarici İşlər nazirliyi də bu etiraza *"...beynəlxalq ictimaiyyət Kipr Rum tərəfini adanın yeganə sahibi kimi görən mövqeyindən imtina etməli və ŞKTC-ni tanımalıdır"* deyə cavab vermişdi [5].

İslam Əməkdaşlıq Təşkilatı - 1975-ci ildə Kipr Türk Federativ Dövləti olaraq "qonaq" statusu ilə təşkilatın toplantılarına qatılmışdı. 1976-cı ildən etibarən İƏT-in Xarici İşlər nazirləri toplantılarında; 1981-ci ildən İƏT Zirvə toplantılarında davamlı olaraq iştirak etməkdədir. İƏT Kiprlə bağlı ilk qərarını 1976-cı ildə qəbul etmişdir. 1978-2004-cü illərdə "Türkish Muslim Community of Cyprus (1981 ildən – Kıbrıs)" adı ilə, 2004-cü ildən isə "Kipr Türk dövləti" adı ilə təmsil edilməkdədir [Ətraflı: 14].

İqtisadi Əməkdaşlıq Təşkilatı - 1992-ci ildə "Turkish Muslim Community of Cyprus" adı ilə ən yüksək səviyyədə toplantılarda, səsvermə hüququ olmadan iqtisadi, texniki, mədəniyyət toplantılarında, seminarlarda iştirak hüququ verilmişdir. 1993-cü ildən Regional Planlama Şurasının toplantılarında davamlı iştirak etməkdədir. 2004-cü ildən, 14-cü Nazirlər Şurasından "Türkish Cypriot State" adı ilə toplantılarda iştiraka davam etməkdədir. 2012-ci ilin avqust ayında rəsmən müşahidəçi dövlət statusu almaq üçün müraciət edilmiş, təşkilatın oktyabr ayında keçirilən 20-ci Nazirlər Şurasında müraciət qəbul edilmiş, 16 oktyabrda Bakıda keçirilən üzv dövlətlərin Dövlət və Hökumət nazirlərinin 12-ci Zirvə Toplantısında müşahidəçi dövlət statusu təsdiq edilmişdir [Ətraflı: 10].

Türk Akademiyası - TDT-nın Dövlət və Hökumət başçılarının 2025-ci ildə Budapeştdə keçirilən qeyri-rəsmi zirvəsində müşahidəçi dövlət statusu almışdır [20].

2004-cü ildən "Kıbrıs Türk Toplumu seçilmiş temsilcileri" adı ilə *Avropa Şurası Parlament Assambleyası* ilə, həmçinin *BMT və Aİ-nin bəzi qurumları* ilə əməkdaşlıq etməkdədir [Ətraflı: 4]. Məsələn, İnsan Haqları Məhkəməsi, ŞKTC Daşınmaz Əmlak Komissiyası vb.

Səfirlik, konsulluq, nümayəndəlik səviyyəsində münasibətlər. Türkiyənin ŞKTC-də (Lefkoşada), ŞKTC-nin də Türkiyədə (Ankarada) səfirliyi, konsulluqları (İstanbulda, İzmirdə, Mərsində, Trabzonda, Antalyada, Qazientepde) mövcuddur. Bir neçə başqa ölkədə də ŞKTC-nin de-fakto səfirlik olan qeyri-rəsmi nümayəndəlikləri fəaliyyət göstərir. Məsələn, Bakıda, Londonda, Romada, Genuyada, Brüsseldə, Vaşinqtonda, Nyu-Yorkda, İslamabadda, Dohada, Maskatda, Küveytdə, Abu-Dabidə, Mahamada, Stokholmda, Berlində, Budapeştdə, Strasburqda, Helsinkidə nümayəndəlik; Bişkekdə - İqtisadiyyat və turizm ofisi [9]. Digər ölkələrdə ŞKTC-nin maraqlarını Türkiyə təmsil edir.

Lefkoşada həmçinin Avstraliya Ali Komissarlığı ofisi, ABŞ Səfirliyinin Şimal ofisi, İngilis Ali Komissarlığı ofisi, İtaliya Viza başvuruları üçün məlumat masası, Almaniya Federal Cümhuriyyəti səfirliyinin İnformasiya ofisi, Kipr Türk Fransa Mədəniyyət dərnəyi; AB-Yardım ofisi fəaliyyət göstərir [19]. ABŞ və Britaniya səfirlərinin iqamətgahları Şimali Lefkoşada yerləşir; lakin, adanın bölünməsindən əvvəl orada yerləşdikləri üçün bu, ŞKTC-nin tanınması demək deyil [26, c.19]. ŞKTC-də həmçinin Bavariya, Münhen, Köln, Ştutqard, Melburn, Sidney, Mayami, Los Angeles şəhərlərindən fəxri konsullar da fəaliyyət göstərməkdədirlər [Ətraflı: 12].

Kipr probleminin həlli istiqamətində fəaliyyətlər, nəticələri. Günümüzə qədər Kipr probleminin həlli istiqamətində bir sıra fəaliyyətlər həyata keçirilmiş, lakin heç biri uğurlu olmamışdır. Tərəflər arasında 1968-cı ilin iyun ayından Beyrutda başlanmış müzakirələrdə sonrakı dörvlərdə bir çox dövlətlər, siyasi xadimlər, beynəlxalq təşkilatlar tərəfindən vasitəçilik etməyə cəhd göstərilsə də, əməli nəticə əldə olunmayıb. Müzakirələrdə problemin həlli məqsədilə əsasən iki yanaşma təklif olunur: federativ, birləşmiş Kipr dövləti (UR of Cyprus) və iki dövlət həlli.

Federativ həll modeli çərçivəsində BMT-nin Baş katibi Kofi Annan tərəfindən irəli sürülmüş planla bağlı ("The comprehensive settlement of the Cyprus problem") adada 2004-cü ildə referendum keçirildi. Plan türk icması tərəfindən lehinə 64,91% səslə dəstəkləndi, yunan icması tərəfindən isə əleyhinə 75,83% səslə rədd edildi. Qeyd edək ki, planın 4-cü maddəsində 2004-cü il may ayının 1-dən Kiprin Avropa Birliyinə tam hüquqlu üzv olaraq qəbul ediləcəyi qeyd edilmişdi [6]. Edildi də, sadəcə ŞKTC təmsil olunmadan. Bu "kiçik" məqam nəzərə alınmasa, Planın Kipr rumları tərəfindən rədd edilməsindən sonra beynəlxalq aləmdə Kiprli türklərə münasibətdə müəyyən yumşalma hiss edilməyə başlandı: ŞKTC-nin bir sıra dövlət təşkilatları beynəlxalq siyasi, elmi, mədəni, turist, idman təşkilatlarına üzvlüyə qəbul edildilər. Məsələn, ABŞ konqresmenlərindən ibarət bir nümayəndə heyəti də adanın cənub hissəsinə getmədən birbaşa ŞKTC-nə səfər etmiş, nazirliklərin nümayəndələri arasında birbaşa görüşlər keçirilmişdi. Bəzi ölkələrin nümayəndələri ŞKTC-nin Ankaradakı səfirliyini ziyarət etmişdilər [Ətraflı: 37; 44]. Öz növbəsin-

də, Azərbaycan da ŞKTC-ni rəsmən tanımamasına rəğmən, qeyri-rəsmi münasibətləri inkişaf etdirməyə cəhd göstərmişdi. Hətta 2005-ci ildə Azərbaycandan ŞKTC-nə və əksinə təyyarə uçuşları həyata keçirilmişdi. Amma davamlı olmadı. Səbəb olaraq maliyyə problemi göstərilsə də, əslində Kipr Respublikası və Yunanıstan AB, həmçinin Rusiya vasitəsilə Azərbaycana təzyiqlər edərək məsələnin qarşısını almağı bacarmışdılar [1, s.42-43] (Hazırda ŞKTC-dən qalxan təyyarələr yalnız Türkiyə ərazisində eniş edə bilir. Digər ölkələrə isə Türkiyədən tranzit olaraq uçuş etmək mümkündür -S.R.).

Adada iki müstəqil dövlət yaradılmasını nəzərdə tutan ikinci həll yolu Kiprin həm türk, həm də yunan icmaları üzvlərinin əhəmiyyətli hissəsi tərəfindən dəstəklənir. ŞKTC-də 2007-ci ildə keçirilən sorğuda 60%, 2009-cu ildə keçirilən digər bir sorğuda 77,9% bu həll yolunu dəstəklədiyini bildirmişdi. 2020-ci ildə keçirilən sorğuda Kiprli türklərdən 60,2% iki ayrı dövlət lehinə səs vermiş, 24,1% mövcud durumun davam edəcəyinin daha gerçəkçi olduğunu bildirmişdi. 10,2% rumlarla federasiya, 8,5% isə konfederasiya lehinə səs vermişdi [11].

Krans Montana prosesi. İsveçrənin Krans Montana şəhərində 2017-ci ilin iyun ayında qarantor dövlətlərin iştirakı ilə yenidən başlanmış Kipr müzakirələrində BMT Baş katibi Antonio Quterreş *"torpaq, siyasi bərabərlik, mülkiyyət, təhlükəsizlik və zəmanətlər üzrə ekvivalent yanaşma" haqqında "paket yanaşma"* variantı təklif etdi. 10 gün davam edən konfransın ilk günündən Kiprin rum tərəfinin adada "sıfır əsgər, sıfır qaranti" mövqeyində israrı nəticəsində konfrans uğursuzluqla sona çatdı. 2019-cu ildə BMT Baş katibi A.Quterreşin vasitəçiliyi ilə keçirilən üçtərəfli qeyri-rəsmi görüş də nəticəsiz yekunlaşdı. ŞKTC və Türkiyə federasiya variantının Krans Montanada iflasa uğradığını, fərqli bir modelin müzakirəyə təqdim edilməli olduğunun doğru olacağını bildirdilər. BMT hələ də "5+1" formatında danışıqların davam etdirilməsi "düşüncəsindədir".

Problemin hazırki vəziyyəti. Hazırda bir sıra mütəxəssislər Kipr problemində pat vəziyyətinin yarandığını qeyd edirlər. Beynəlxalq ictimaiyyətin problemin həlli üçün təklif etdiyi bütün variantlar bu planların "türkyönümlü olduğu" səbəb göstərilməklə rum icması tərəfindən rədd edilir. ŞKTC-nin ikinci prezidenti olmuş Mehmet Əli Tələtin (2005-2010) vaxtilə dediyi sözlərə haqq qazandırmamaq imkansız: *"Kirpli yunanların hər-hansı bir həll yolu tapmaq üçün motivasiyası yoxdur... onlar dünya tərəfindən tanınırlar, BMT-nin, Avropa İttifaqının üzvüdürlər... problemin həllindən qazanacaqları indi qazana bildiklərindən daha az olacaq"* [26, c.21].

Artıq Türkiyə və ŞKTC-nin ortaq xarici siyasət yanaşmasında federasiya modeli qəti şəkildə rədd edilir, yalnız iki dövlətli həll modeli dəstəklənir [13]. Türkiyə prezidenti R.T.Ərdoğan 13 noyabr 2025-ci ildə ŞKTC-nin yeni seçilmiş prezidenti Tufan Erhürman ilə görüşündə bu məsələni bir daha vurğulayaraq bildirdi ki, *"...Kipr məsələsinin ən real həlli yolu adada iki dövlətin birgə yaşamasındadır... adada iki xalqın sülh, rifah və təhlükəsizlik şəraitində yan-yana yaşaya biləcəyi həll yolu mümkündür"* [7].

Türk dövlətləri və ŞKTC. Türk dünyasının ayrılmaz bir hissəsi olan ŞKTC, müstəqilliyinin türk dövlətləri tərəfindən rəsmən tanınmamasına rəğmən, XX əsrin sonlarından başlanmış olan Türk dünyası daxili inteqrasiya proseslərində ilk günlərdən bu və ya digər səviyyədə iştirak etməkdədir. Amma, artıq qeyd etdiyimiz kimi, 2025-ci il aprel ayının 3-4-də Özbəkistanın Səmərqənd şəhərində keçirilən

"Mərkəzi Asiya+AB" sammiti zamanı imzalanmış sənədlər Mərkəzi Asiyanın türk dövlətlərinin Türkiyə və ŞKTC münasibətləri ilə bağlı müəyyən sualların meydana çıxmasına səbəb oldu. AB-nin "Global Gate" layihəsi çərçivəsində region dövlətləri üçün ayrılacaq *"10 milyard avro müqabilində Türk dünyasında parçalanma"* baş verdiyi, *"Türkiyəyə xəyanət edildiyi"* haqda ittihamlar; imzalanmış sənədlərlə bağlı *"Türkiyənin "işğalçı dövlət" kimi tanındığı qalmaqallı anlaşma", "Şimali Kipr Cümhuriyyətinin beynəlxalq səviyyədə tanıdılması səylərinə zərbə*" kimi fikirlər irəli sürülməyə başlandı. Səbəbi: Sammitin Yekun Bəyannaməsinin 4-cü bəndində *"...bütün beynəlxalq və regional forumlar çərçivəsində bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmağı və bu prinsiplərə zidd olan hər hansı addım atmaqdan çəkinməyi öhdəmizə götürdük. Eyni ruhda, BMT Təhlükəsizlik Şurasının müvafiq 541(1983) və 550(1984) saylı qətnamələrinə olan qətiyyətli sadiqliyimizi bir daha təsdiqlədik..."* kimi ifadələrin yer almasıdır [29].

Bundan sonra, hansısa səbəblərdən kütləvi informasiya vasitələrində Mərkəzi Asiyanın türk respublikalarından Qazaxıstan, Türkmənistan və Özbəkistanın Kipr Respublikasında səfirliklərinin açılması məsələsi də "sammitin davamı" kimi tirajlanmağa başlandı [22; 27; 36]. Əslində isə bu məsələ daha əvvəllərə aid bir məsələ idi. Belə ki, hər 3 dövlət müəyyən fərqlərlə, müstəqilliklərinin ilk illərində Kipr respublikası ilə diplomatik əlaqələr qurmuşdular:

Cədvəl 1.

Mərkəzi Asiyanın türk respublikalarının Kipr Respublikası ilə əlaqələri

	Qazaxıstan	Özbəkistan	Türkmənistan	Qırğızıstan
Müstəqilliyin elanı	16.12.1991	01.09.1991	25.10.1991	31.08.1991
Kipr Respublikası ilə diplomatik münasibətlərin qurulduğu tarix	02.04.1992[30]	30.05.1997[40]	13.11.2007[39]	20.02.1992[32]
Kipr Respublikasında səfirlik/konsulluq	2020 ildən – İsraildəki səfiri həmçinin Kiprdə səfiri hesab olunmuşdur; 2023 ildə – Lefkoşada Fəxri konsulluq açılmışdır[31]; 2025, 24 fevral – Lefkoşada səfirlik açılmışdır[34]	19 dekabr 2024 – İtaliyadakı səfiri həmçinin Kiprdə səfiri hesab olunur, Özbəkistanın Kipr Respublikasında akkreditə olunan ilk səfiridir[45].	2 aprel 2025 – İtaliyadakı səfiri həmçinin Kiprdə səfiri hesab olunur;	Bütün məsələlər Qırğızıstanın Avstriyadakı səfirliyi vasitəsilə həll edilir[32].
Kipr Respublikasının... səfirliyi	2022 – bütün məsələlər Kipr Respublikasının Moskvadakı səfirliyi tərəfindən nizamlanmışdır; 2024 oktyabr – Astanada səfirlik açılmışdır[34]	Bütün məsələlər Yunanıstanın Özbəkistandakı səfirliyi vasitəsilə nizamlanır	Bütün məsələlər Yunanıstanın Türkmənistan-dakı səfirliyi vasitəsilə nizamlanır	Bütün məsələlər Yunanıstanın Moskvadakı səfirliyi vasitəsilə nizamlanır[32].

Kipr Respublikası ilə əlaqələrin inkişafında Qazaxıstanın xüsusi fəallığı diqqəti cəlb edir. Cədvəldən də göründüyü kimi, Qırğızıstanın Kiprdə səfirliyi yoxdur. Çərkəzi Asiyanın digər üç türk dövlətindən Özbəkistan və Türkmənistan özlərinin İtaliyadakı səfirlərini Kiprə akkreditə etdikləri halda, Qazaxıstan Lefkoşada səfirlik açıb. Öz növbəsində, Kipr Respublikası da 3 dövlətdən yalnız Qazaxıstanda səfirliyini təsis edib. Bundan əlavə, 2024-cü il mart ayının 6-da Qazaxıstan baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleunin Kiprə rəsmi səfəri zamanı 2026-cı ildə iki ölkə arasında birbaşa aviareyslərin açılması haqqında razılıq əldə olunub. Ola bilsin elə bu və digər səbəblərə görədir ki, müəyyən şərhçilər Qazaxıstanın səylərini *"Türkiyənin Şərqlə Qərb arasındakı əsas əlaqələndirici rolunu zəiflətməsi"* kimi təqdim edirlər [34]. Bu əlaqələrdə bəzi məqamlar həqiqətən də yumşaq desək, müəyyən suallar yaradır. Məsələn, Qazaxıstan Respublikasının səfiri Nikolay Jumakanovun 21 fevral 2025-ci ildə etimadnaməsini Kipr Respublikasının prezidenti Nikos Xristodulidesə təqdim edərkən *"Qazaxıstan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Kipr Respublikasının suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir... Kipri regionda sülhün, sabitliyin və əməkdaşlığın təşviq edilməsindəki ardıcıl səylərinə görə təqdir edirik"* [38] deməsi. Bundan başqa, ŞKTC-nin 2022-ci ildə Türk Dövlətləri Təşkilatında müşahidəçi statusu almasına rəğmən, 1 il sonra təşkilatın Qazaxıstanda keçirilən 10-cu yubiley zirvə görüşünə dəvət edilməməsi də anlaşılan deyil. Əslində, dövlətlərin ərazi bütövlüyünün dəstəklənməsi, beynəlxalq hüquq prinsiplərinə sədaqət və s. kimi məsələlər çox təqdirəlayiq məsələlərdir də, sadəcə bunların yaşadığımız çox real dünyada bir qədər idealistcəsinə səsləndiyi zamanların da olduğu unudulmamalıdır.

Hadisələrin səbəbini düzgün dəyərləndirmək üçün, məsələyə bir də fərqli rakursdan baxarsaq, "2025-ci il məsələsini 2022-ci ildə ŞKTC-nin TDT-na müşahidəçi üzv qəbul edilməsinə cavab hesab etmək mümkünmü?" sualını verə bilərik. Ehtimallar hər zaman var. Üzvlüyə qəbuldan sonra Türkiyə prezidenti R.T.Ərdoğanın *"Türk dünyasının ayrılmaz bir parçası olan Kıbrıslı kardeşlerimizin yalnız olmadığını göstererek, çözüm sürecine de katkı sağladık"* [8], TDT Baş katibi Ömüralıyevin *"bunun dünyaya çox önəmli bir mesaj olduğunu"* demələri [24] mesajın ünvanına çatdığı, cavabın da özünü çox gözlətmədiyini deməyə əsas verir.

Baş verənlərə TDT ilə münasibətlər aspektindən baxan özbək araşdırmaçı Səttarov hesab edir ki, hazırki yanaşma, TDT-na üzv dövlətlərin əslində təşkilatı xarici siyasətlərinin əsas vasitəsi deyil, "əlavə yardım platforması" olaraq görmələri səbəbindən ola bilər: *"...TDT ...Ərdoğan üçün MHP ilə koalisya baxımından önəmlidir. Azərbaycan üçün diplomatik baxımdan təcrid olunmadığını göstərmənin yoludur. Orta Asiya respublikaları üçün isə çoxistiqamətli xarici siyasətin istiqamətlərindən biridir... Orta Asiya respublikaları xarici siyasətlərində güclər arasında balans qurmağa, tək bir aktordan asılı olmamağa çalışırlar"* [22]. Azərbaycanlı araşdırmaçı Namiq Bilal hesab edir ki, *"Yunan Kipri qərarı TDT üçün ilk ciddi sınaq hesab edilə bilər. Təşkilata üzv dövlətlərin maraqları bu məsələdə toqquşdu... maraqlı qüvvələr indi də TDT daxili münasibətləri zədələmək üçün Kipr problemindən yararlanırlar"* [2].

Hadisələrin davamında, 2025-ci ilin may ayında TDT Ağsaqqallar Şurasının 17-ci toplantısının ŞKTC-nin Girne şəhərində keçirilməsi [23] **"...***biz önümüzə baxacağıq, yanlışlardan deyil, doğrulardan və hadisələri bizi birləşdirən ...gələcək perspektivdən dəyərləndirəcəyik"* deyən türkiyəli araşdırmaçı **Y.Karauzün haqlı olduğunu** göstərmiş oldu [3]. Özbəkistanlı araşdırmaçı Alişir İlkhamov isə *"Orta Asiya ölkələri "etdikləri səhvi düzəltmək üçün" Kiprin şimalındakı Türk idarəçiliyinin TDT-dakı statusunu tam üzv olmasa belə, müşahidəçi üzvdən daha yüksək bir səviyyəyə qaldıra biləcəkləri"* fikrindədir [22].

Nəticə. 2004-cü ildə Kiprli rumların Annan planını rədd etməsi, 2015-ci ildə başlamış "birləşmə" müzakirəsinin 2017-ci ildə iflasa uğraması ilə Türkiyə bundan sonra Kiprdə birləşmə müzakirələrinə deyil, Kiprin şimalındakı Türk yönətimin beynəlxalq aləmdə tanınmasına çalışacağını bildirdi. ŞKTC-nin müstəqil dövlət kimi mövcudluğu, beynəlxalq ictimaiyyət tərəfindən tanınıb-tanınmaması məsələsini Deklarativ dövlətçilik nəzəriyyəsini özündə təsbit edən, beynəlxalq hüquqda dövlətçiliyin əsas meyarlarını müəyyənləşdirən Montevideo konvensiyasına (Uruqvay, 1933) əsasən nəzərdən keçirsək, çox maraqlı bir mənzərə yaranır. Konvensiyanın I maddəsində dövlətin beynəlxalq hüququn subyekti olması üçün 4 əsas xüsusiyyət müəyyənləşdirilir: daimi əhali; müəyyən ərazi; hökumət; digər dövlətlərlə münasibət qura bilmə bacarığının olması [33]. Konvensiyanın III maddəsində qeyd edilir ki, *"Dövlətin siyasi mövcudluğu onun digər dövlətlər tərəfindən tanınmasından asılı deyil... Dövlətin öz hüquqlarını reallaşdırması yalnız digər dövlətlərin beynəlxlaq hüquqla müəyyənləşdirilmiş hüquqlarının gerçəkləşdirilməsi ilə məhdudlaşa bilər"* [33]. Montevideo konvensiyasının ŞKTC-nin mövcudluğunun beynəlxalq hüquqa zidd olmadığını hesab etmək üçün kifayət qədər əsas verdiyini hesab etmək mümkündür. Bundan başqa, Türkiyə Cümhuriyyətinin də adada hərbi-siyasi iştirakı üçün hüquqi əsasının olduğu faktı unudulmamalıdır. Son olaraq qeyd edək ki, hətta problemin bütün aspektlərini detallı əhatə etməyin imkansız olduğu hazırkı araşdırma belə, beynəlxalq münasibətlərdə mövcud olan ikili standartlar yanaşmasına rəğmən, ŞKTC ilə münasibətlərin qurulmasının, onunla əməkdaşlığın beynəlxalq hüquqa zidd olmadığını bir daha təsdiq edir.

Ədəbiyyat siyahısı:

1. Cavid Vəliyev. Regional hadisələrin Türkiyə-Azərbaycan münasibətlərinə təsiri / Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: Uğurlar və imkanlar (Məqalələr toplusu). Bakı, CBS Polygraphic Production, s.15-44. - https://www.preslib.az/az/elibrary/ebook/ikypmfq [22.11.2025].

2. Namiq Bilal. Mərkəzi Asiyanın Türk dövlətləri Türkiyəyə xəyanət etdilərmi? / Azpolika.info, 16.04.2025. - https://azpolitika.info/?p=789359 [22.11.2025].

3. Türk dünyası üçün tarixi səhv, yoxsa inanılmaz plan? / Operator.az, 2025-04-17. - https://aqreqator.az/az/siyaset/73448297 [22.11.2025].

4. Avrupa Konseyi Parlamenter Asamblesi ile İlişkiler / Kuzey Kıbrıs Türk Cumhuriyeti Dışişleri Bakanlığı. - https://mfa.gov.ct.tr/tr/dis-politika/uluslararasi-orgutler/avrupa-konseyi/akpa/ [22.11.2025].

5. Behlül Çetinkaya. Türkiye'den KKTC'nin TDT'ye gözlemci üye olmasını eleştiren AB'ye yanıt / Anadolu Ajansı, 12.11.2022. - https://www.aa.com.tr/tr/politika/turkiyeden-kktcnin-tdtye-gozlemci-uye-olmasini-elestiren-abye-yanit/2736400#:~:text=D%C4%B1%C5%9Fi%C5%9Fleri%20Bakanl%C4%B1%C4%9F%C4%

B1%2C%20KKTC'nin%20T%C3%BCrk%20Devletleri%20Te%C5%9Fkilat%C4%B1na%20(TDT),a%C3%A7%C4%B1klamay%C4%B1%20t%C3%BCm%C3%BCyle%20reddetti%C4%9Fini%20bildirdi.%20%2D%20Anadolu%20Ajans%C4%B1. [22.11.2025].
6. BM Kapsamlı Çözüm Plaanı (Annan Planı), 31 Mart 2004 / Türkiye Cumhuriyeti Dış İşleri Bakanlığı saytı. - https://www.mfa.gov.tr/bm-kapsamli-cozum-plani-_annan-plani_.tr.mfa [22.11.2025].
7. Cumhurbaşkanı Erdoğan: Kıbrıs meselesine çözümün Ada'da iki devletin bir arada var olmasından geçtiğine inanıyoruz / Anadolu Ajansı, 14.11.2025. - https://www.aa.com.tr/tr/politika/cumhurbaskani-erdogan-kibris-meselesine-cozumun-adada-iki-devletin-bir-arada-var-olmasindan-gectigine-inaniyoruz/3743055 [22.11.2025].
8. Cumhurbaşkanı Erdoğan, Türk Devletleri Teşkilatı Zirvesi'nde konuştu / TC Cumhurbaşkanlığı. İletişim Başkanlığı, 11.11.2022. - https://www.iletisim.gov.tr/turkce/haberler/detay/cumhurbaskani-erdogan-turk-devletleri-teskilati-zirvesinde-konustu [22.11.2025].
9. Dış Temsilciliklerimiz / Kuzey Kıbrıs Türk Cumhuriyeti Dışişleri Bakanlığı. - https://mfa.gov.ct.tr/tr/konsolosluk-bilgisi/dis-temsilciliklerimiz/ [22.11.2025].
10. Ekonomik İşbirliği Teşkilatı (EİT) ile İlişkiler / Kuzey Kıbrıs Türk Cumhuriyeti Dışişleri Bakanlığı. - https://mfa.gov.ct.tr/tr/dis-politika/uluslararasi-orgutler/eit/ [22.11.2025].
11. Gezici Araştırma KKTC'de bir araştırma yaptı ve sonuçlarını bu gün açıkladı, 20.01.2020. - https://www.gundemkibris.com/gezici-anket-sonuclarini-acikladi-tatar-onde/amp [22.11.2025].
12. Fahri Temsilciler / Kuzey Kıbrıs Türk Cumhuriyeti Dışişleri Bakanlığı. - https://mfa.gov.ct.tr/tr/konsolosluk-bilgisi/fahri-temsilciliklerimiz/ [22.11.2025].
13. Furkan Kaya. Yeni Sykes-Picot'un kırıldığı yer: Türkiye'nin Kıbrıs odaklı güvenlik doktrini / Anadolu Ajansı, 15.11.2025. - https://www.aa.com.tr/tr/analiz/yeni-sykes-picot-un-kirildigi-yer-turkiye-nin-kibris-odakli-guvenlik-doktrini/3744596 [22.11.2025].
14. İslam İşbirliği Teşkilatı (İİT) ile İlişkiler / Kuzey Kıbrıs Türk Cumhuriyeti Dışişleri Bakanlığı. - https://mfa.gov.ct.tr/tr/dis-politika/uluslararasi-orgutler/oic/ [22.11.2025].
15. İttifak Antlaşması (Zürih, 11 Şubat 1959). - https://www.mfa.gov.tr/ittifak-antlasmasi- zurich 11-subat-1959 .tr.mfa [22.11.2025].
16. Kıbrıs Türk Federe Devleti'nin Kuruluşu. 13 Şubat 1975. / Kuzey Kıbrıs Türk Cumhuriyeti Cumhurbaşkanlığı saytı. - https://kktcb.org/tr/belgeler/kibris-sorunu/1963-1983 [22.11.2025].
17. KKTC'nin Kuruluş Bildirgesi, 15 Kasım 1983. /Kuzey Kıbrıs Türk Cumhuriyeti Cumhurbaşkanlığı saytı. - https://kktcb.org/tr/belgeler/kibris-sorunu/1983-2004 [22.11.2025].
18. 'KKTC'yi neden hiçbir ülke tanımıyor? /BBC News Türkçe, 19 Temmuz 2024. - https://www.bbc.com/turkce/articles/czk0pdn9d7vo [22.11.2025].
19. KKTC'deki Yabancı Misyonlar /Kuzey Kıbrıs Türk Cumhuriyeti Dışişleri Bakanlığı. - https://mfa.gov.ct.tr/tr/konsolosluk-bilgisi/kktcdeki-yabanci-misyonlar/ [22.11.2025].
20. KKTC'ye yeni bir statü daha: Türk Akademisi'ne gözlemci üye oluyor / TRT Haber, 21.05.2025. - https://www.trthaber.com/haber/turk-dunyasi/kktcye-yeni-bir-statu-daha-turk-akademisine-gozlemci-uye-oluyor-907895.html#:~:text=Akademi'ye%20yeni%20bir%20g%C3%B6zlemci,birli%C4%9Finin%20g%C3%BC%C3%A7lendirilmesi%20y%C3%B6n%C3%BCnde%20giri%C5%9Fimlerde%20bulunuyor. [22.11.2025].
21. Garanti Antlaşması (Zürih, 11 Şubat 1959). - https://www.mfa.gov.tr/garanti-antlasmasi-_zurich_11-subat-1959_.tr.mfa [22.11.2025].
22. Onur Erem, Rufat Ergeshov. Orta Asya ülkelerinin tartışmalı Kıbrıs kararının arkasında hangi nedenler var? / BBC News Türkçe, 5 Mayıs 2025. - https://www.bbc.com/turkce/articles/ckg2w41y970o [22.11.2025].
23. TDT Aksakallar Konseyi 17. Toplantısı KKTC'de gerçekleştirildi / Türk Devletleri Teşkilatı, 2025-05-02. - https://www.turkicstates.org/tr/haber/the-17th-meeting-of-the-council-of-elders-of-the-organization-of-turkic-states-was-held-on-2-may-2025-in-girne-trnc [22.11.2025].
24. TDT Genel Sekreteri Ömüraliyev: (KKTC'nin TDT'ye gözlemci üye kabul edilmesi) Dünyaya çok önemli bir mesaj oldu / AA, 18.11.2022. - https://www.aa.com.tr/tr/gundem/tdt-genel-sekreteri-

omuraliyev-kktcnin-tdtye-gozlemci-uye-kabul-edilmesi-dunyaya-cok-onemli-bir-mesaj-oldu/2741858 [22.11.2025].
25. Türk Devletleri Teşkilatı Dokuzuncu Zirvesi Semerkant Bildirisi / Türk Devletleri Teşkilatı, 2022-11-12. - https://www.turkicstates.org/tr/haber/turk-devletleri-teskilati-9-zirvesi-semerkant-bildirisi [22.11.2025].
26. Алексеев И.П. Опыт проблемной государственности: Турецкая Республика Северного Кипра / Мировая политика: взгляд из будущего. Материалы V Конвента Российской Ассоциации международных исследований (РАМИ). Москва, МГИМО-Университет, 2009, с.15-23.
27. Davide Cancarini. Central Asia Creates a Rift in the Turkic World Over Cyprus / The Times of Central Asia, 15 April 2025. - https://timesca.com/central-asia-creates-a-rift-in-the-turkic-world-over-cyprus/ [22.11.2025].
28. Is Now the Time for a Cyprus Deal? / Commentary, July 07, 2014. - https://www.commentary.org/michael-rubin/is-now-the-time-for-a-cyprus-deal/ [22.11.2025].
29. Join Declaration following the First European Union – Central Asia Summut, April 4, 2025 / European Commission. - https://ec.europa.eu/commission/presscorner/detail/en/statement_25_980 [22.11.2025].
30. Kazakhstan – Cyprus / Ministry of Foreign Affairs of the Republic of Kazakhstan, 15 March 2022. - https://www.gov.kz/memleket/entities/mfa/press/article/details/525?lang=en [22.11.2025].
31. Kazakhstan and Cyprus Aim to Intensify Broad Cooperation / Ministry of Foreign Affairs of the Republic of Kazakhstan, 29 September 2023. - https://www.gov.kz/memleket/entities/mfa/press/news/details/627665?lang=en [22.11.2025].
32. List of countries with which the Kyrgyz Republic has established diplomatic relations. - https://mfa.gov.kg/en/osnovnoe-menyu/vneshnyaya-politika/mezhdunarodnye-dogovory/spisok-stran-s-kotorymi-ustanovleny-dipotnosheniya/spisok-stran-s-kotorymi-kr-ustanovil-diplomaticheskie-otnosheniya [22.11.2025].
33. Montevideo Convention on the Rights and Duties of States. Signed in Montevideo, 26 December 1933, 8 p. - https://treaties.un.org/doc/Publication/UNTS/LON/Volume%20165/v165.pdf [22.11.2025].
34. Nicoletta Kouroushi. Can the Cyprus-Kazakhstan Strategic Alignment Bypass Turkey? / Middle East Forum Observer, March 27, 2025. - https://www.meforum.org/mef-observer/can-the-cyprus-kazakhstan-strategic-alignment-bypass-turkey [22.11.2025].
35. OTS: Statement by HR/VP Josep Borrell on attempts to legitimise the Turkish Cypriot secessionist entity / European Union External Action. The Diplomatic Service of the European Union, 07.11.2024. - https://www.eeas.europa.eu/eeas/ots-statement-hrvp-josep-borrell-attempts-legitimise-turkish-cypriot-secessionist-entity_en [22.11.2025].
36. Paola Sorbello. Central Asia Opens Diplomatic Rift With Turkiye Over Cyprus / The Diplomat, 18 April 2015. - https://thediplomat.com/2025/04/central-asia-opens-diplomatic-rift-with-turkiye-over-cyprus/ [22.11.2025].
37. Reference to Cyprus by the Turkish and Paraguayan Foreign Ministers after meeting in Ankara / Cyprus PİO: Turkish Press and Other Media, No53/06.03.17. - http://www.hri.org/news/cyprus/tcpr/2006/06-03-17.tcpr.html [22.11.2025].
38. Speech of H.E. Mr. Nikolay Zhumakanov Ambassador of the Republic of Kazakhstan at the occasion of the presentation of his credentials to His Excellency Mr. Nikos Christodoulides, President of the Republic of Cyprus Friday, 21 February 2025. - https://www.gov.cy/media/2025/02/24022025_ KazakhstanSpeechAmbassador.pdf [22.11.2025].
39. States with which Turkmenistan established diplomatic relations / Ministry of Foreign Affairs of Turkmenistan? 25 January 2017. - https://www.mfa.gov.tm/en/articles/55 [22.11.2025].
40. The Republic of Uzbekistan established diplomatic relations with the following countries. - https://gov.uz/en/mfa/sections/view/76780 [22.11.2025].
41. The Security Council Resolution 541 (1983) of 18 November 1983. - https://digitallibrary.un.org/record /58970?ln=en&v=pdf [22.11.2025].

42. The Security Council Resolution 550 (1984) of 11 May 1984. - https://digitallibrary.un.org/record/67600?ln=en&v=pdf [22.11.2025].
43. Treaty Concerning The Establishment of The Republic of Cyprus. Registered by the UK on 12 December 1960. - https://peacemaker.un.org/sites/default/files/document/files/2024/05/cy600816 treatynicosia.pdf [22.11.2025].
44. The US Ambassador to Nicosia is visiting today the self-styled assembly in occupied Lefkosia / Cyprus PİO: Turkish Press and Other Media, No53/06.03.17. - https://web.archive.org/web/20060518032548 /http://www.hri.org /news/cyprus/tcpr/2006/06-03-17.tcpr.html#01 [22.11.2025].
45. Uzbekistan accredits first ambassador to Republic of Cyprus / Gazeta.uz, 20 December 2024. - https://www.gazeta.uz/en/2024/12/20/cyprus/ [22.11.2025].

MİSİR VƏ YAXIN ŞƏRQİN SİYASİ TARİXİNDƏ İLK MÜSƏLMAN TÜRKLƏR: ZƏNGİLƏR (XI-XIII əsrlər)

Şəbnəm Cəfərova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Türk xalqları tarixi" kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru
shabnamjafarova@bsu.edu.az;
https://orcid.org/0009-0008-3070-198X

Açar sözlər: *zəngilər, müsəlman türklər, siyasi tarix, İslam tarixi*
Keywords: *zengi, muslim turks, political history, Islamic history*

İslam tarixində türklərin siyasi və hərbi rolu böyük olmuşdur. O cümlədən Misir və Yaxın Şərqin siyasi tarixində ilk müsəlman türklərdən biri zəngiləri qeyd edə bilərik. Zəngilər yalnız hərbi qüvvə kimi deyil, həm də siyasi təşkilatçılıqda mühüm rola malik idilər. Zəngilər əsasən, Mərkəzi Asiya türkləri arasında formalaşmış və XI-XIII əsrlərdə Misir və Yaxın Şərqdə nüfuz qazanmışdılar. Zəngilər həm sultanların yanında xidmət edir, həm də yerli əhalinin idarə olunmasında iştirak edirdilər. Onların gücü, əsasən, hərbi təşkilatlanma və strateji mövqelərin qorunmasında özünü göstərirdi. Zəngilər yalnız siyasi və hərbi sahədə deyil, eyni zamanda mədəni və dini sahədə də dəriz iz buraxmışdır. Onlar İslam təhsilini və mədəniyyətini dəstəkləmiş, məscidlər, kitabxanalar və dini məktəblərin yaradılmasına töhfə vermişlər [1, s.60].

Orta əsrlərdə Yaxın Şərq siyasi mənzərəsi müxtəlif imperiya və sülalələrin qarşılıqı təsiri ilə formalaşırdı. XI–XIII əsrlərdə bölgədə yüksələn və güclənən ilk müsəlman türk sülalələrindən biri zəngilər olmuşdur. Bu sülalə Böyük Səlcuq dövlətinin zəiflədiyi dövrdə Mosul, Hələb və Şam ətrafında siyasi nüfuzunu artırmış, Səlib yürüşlərinə qarşı müqaviməti təşkil etmiş və Misirdə türklərin hakimiyyətə gəlməsinə zəmin yaratmışdır. Bu dövrdə Zəngilər xəlifəlik və yerli hökmdarlar arasında balans yaratmaqda vasitəçi olmuş, eyni zamanda bölgədə türk nüfuzunun güclənməsinə xidmət etmişlər [2, s. 91].

Zəngilərin kökləri Oğuz türklərinə bağlıdır. Onlar əvvəlcə Səlcuqlara xidmət edən hərbi əmirlər idilər. İmadəddin Zəngi Mosul və Hələb valisi təyin olunandan

sonra sürətlə güclənərək bölgədə müstəqil siyasi qurum yaratdı. Bu dövrdə Səlib yürüşləri və Fatimilərin zəifləməsi Zəngilərin siyasi nüfuzunu artırmaq üçün əlverişli şərait yaratmışdır. Zəngilər Misirdə xüsusi bir siyasi güc olaraq formalaşmış və Fatimilər dövründə yüksək mövqelər tutmuşlar [3, s. 120].

E.ə. VIII əsrə aid Assur qaynaqlarında sanqlı şəklində qeyd edilmiş zəngilərin ilkin vətəni Qərbi Azərbaycanın İrəvan mahalı və Urmiya gölü ətrafı ərazilər hesab olunur. Arazdan cənubdakı ərazilər, eləcə də Ürmiya gölündən şimaldakı ərazilər Assur mənbələrində Sanqibut ölkəsi adlanır. Zəngibasar bölgə adının yaranmasına səbəb olan Zəngi çayı öz adını vaxtilə bu ərazilərdə yaşamış zəngi boyundan götürmüşdür. Zəngibasar və Ağrıdağ vadilərinə, eləcə də Türküstan çöllərinə yayılan zəngilərin ata yurdlarından biri də Zəngəzur bölgəsidir.

Zəngi sülaləsinin əsasını qoymuş Ağ Sunqur 1128-ci ildə Hələbi, daha sonra Suriya şəhərlərini ələ keçirdi. O, siyasi bacarığı və səlibçilərə qarşı apardığı müvəffəqiyyətli mübarizəsi sayəsində Mesopatamiyanı və Suriyanın böyük bir hissəsini hakimiyyətinə daxil etdi. Artıq zəngi soyu təkcə Mosulda deyil, Hələb və Dəməşq bəyliklərində də hakimiyyətini möhkəmləndirmişdir. Bu isə onu deməyə əsas verir ki, Ağ-Sunqurun oğlu İmadəddin Zənginin mənsub olduğu zəngi soyu əhali arasında geniş sosial dayağa malik idi [4, s.360].

İmadəddin Zəngi Sincar, Xabur, Nusaybin, Xarran, Şəhrizur və Kərkükü itaət altına saldıqdan sonra, borilər də onun hakimiyyətini qəbul etmək məcburiyyətində qalmışdır. Beləliklə, İmadəddin Zəngi dövlətinin gücləndirdikdən sonra səlibçilərə qarşı mübarizəyə başladı və 1137-ci ildə türk komandanı Savarın idarəsi altında olan Zəngi ordusu Qüds krallığına məxsus xaçlı ordusunu məğlub etdi. Həmçinin, 1144-cü ilin dekabrında Urfa şəhərini və qalasını zəbt edən Zənginin bu uğuru bütün islam dünyasında sevinclə qarşılanmış, Avropada isə müthiş bir həyəcan fırtınası yaratmışdı. Hətta Urfanın ələ keçirilməsi Avropanı II Səlib yürüşünə çıxmağa vadar etmişdir [4, s. 362]. İmadəddin Zəngi orduda struktur islahatları həyata keçirərək Oğuz süvari ənənələrinə əsaslanan güclü qoşun yaratmışdı. Bu qoşun məmlüklərdən ibarət idi və şəhərlərin müdafiəsi ilə yanaşı, Səlib yürüşlərinə qarşı döyüş qabiliyyətini də artırırdı. 1144-cü ildə Edessanın fəthi İmadəddin Zənginin ən böyük hərbi uğuru idi. Bu qələbə Səlib yürüşləri üzərində ilk mühüm müsəlman üstünlüyünü göstərmişdir. Zəngilər hərbi quruluş baxımından yaxşı təşkilatlanmışdı. Onlar əsasən piyada və süvari dəstələrindən ibarət idi və hərbi əməliyyatlarda yüksək çevikliyə malik idilər. Zəngilərin hərbi taktikası həm strateji mövqelərin qorunması, həm də hücum əməliyyatlarında istifadə olunmuşdur. Onların komandirləri yüksək təcrübəyə malik idi və döyüş zamanı çevik qərarlar qəbul edə bilirdilər.

Zəngilər Misirdə xüsusi bir siyasi güc olaraq formalaşmış və Fatimilər dövründə yüksək mövqelər tutmuşlar. Zəngilər ticarət yollarının qorunması və iqtisadi sabitliyin təmin edilməsində vacib rola malik idilər. Onların nəzarət etdiyi bölgələrdə bazarların və limanların qorunması təmin edilmişdir. Bu, həm yerli əhalinin rifahını, həm də dövlətin iqtisadi gücünü artırmışdır. Mosul və Hələb ticarət yollarına

nəzarət Zəngilərin iqtisadi gücünü artırmış, siyasi sabitlik yaratmışdır. Bu şəhərlər həm Şərq, həm də Qərb ticarətinin mərkəzinə çevrilmişdir .

Mosul atabəyliyinin banisi İmadəddin Zənginin vəfatından sonra Suriya torpaqlarına digər oğlu Nurəddin Mahmud hakim oldu. Zəngilərin Fərat çayının şərqində qalan hissəsi Seyfəddin Qazinin, qərbindəki hissəsi isə Nurəddin Mahmudun əlində idi. Seyfəddin Qazinin tabeliyində olanlar Zəngilərin Mosul qoluna, Nurəddin Mahmudun tabeliyində olanlar isə Hələb qolu olmaqla iki qola ayrıldı. Seyfəddin Qazi 1146-1149-cu illərdə Mesopatamiyanı fəth etdi. O, Suriyanın fəthi zamanı Dəməşqi ələ keçirib paytaxtı bura köçürdü.

Nurəddin Mahmudun zamanında Zəngilər Atabəyliyi Azərbaycan Atabəyliyindən sonra Səlcuqlu dünyasının ən böyük və ən güclü atabəyliyinə çevrildi. Onun torpaqları qərbdə Azərbaycandan, şərqdə Qüds və Antakya Səlib krallıqlarının torpaqlarına qədər uzanır, bütün əl-Cəziräni, Suriyanı, Fələstinin bir hissəsini və indiki Türkiyənin cənub-şərq hissəsini özündə birləşdirirdi. Onun ən mühüm siyasəti Səlahəddin Əyyubi vasitəsilə Misiri ələ keçirmək planı idi. 1169-cu ildə Fatimi xəlifə əl-Adid tərəfindən Səlahəddin Əyyubi vəzir təyin edildikdən sonra Misir Zəngilərin əlinə keçdi. Nurəddin Mahmudun vəfatından sonra Azərbaycandan Sudana qədər uzanan geniş bölgəyə hakim olan Zəngilər atabəyliyi torpaqlarında siyasi parçalanmalar başladı. Səlahəddin Əyyubi Şama sahib olduqdan sonra Xums ilə Xamanın zəbtinə başladı. Beləcə, Səlahəddin qısa müddət ərzində Şam, Xums, Xama və Balbəki ələ keçirib, Misirdə yeni bir türk dövlətinin – Əyyubilərin əsasını qoydu. Bundan sonra Zəngilər sürətlə zəifləməyə başladılar və Zəngi torpaqları Əyyubilərin nəzarəti altına keçdi. Nəticədə, 1233-cü ildə Mosulda Zəngilər atabəyliyinin varlığı sona çatdı. Mosulun idarəsini ələ keçirən Bədrəddin Lulu Əyyubilərin hakimiyyətini qəbul etdiyindən, 1233-cü il Zəngilərin süqut tarixi olaraq qəbul edilir [5, s.582].

Nəticə. Beləliklə, Zəngilər Misir və Yaxın Şərqin siyasi tarixində ilk müsəlman türklər olaraq müstəsna rol oynamışdılar. Onların fəaliyyətləri yalnız dövrün siyasi tarixinə deyil, həm də türk-islam mədəniyyətinin formalaşmasında daha çox nəzərə çarpır. Zəngilərin mədəni təsiri onların idarə etdiyi bölgələrdə də hiss olunmuşdur. Onlar elmi və dini mərkəzlərin inkişafına dəstək vermiş, həmçinin memarlıq və incəsənət sahələrinə töhfələr vermişlər. Zəngilər dövründə Misirdə və Yaxın Şərqdə məktəblər və kitabxanalar inkişaf etmiş, türklərin islam dünyasındakı mədəni inteqrasiyasına şərait yaranmışdır .

Dövlət təşkilatı Səlcuq imperiyasının dövlət strukturu ilə eynilik təşkil edirdi. Ölkəsini yanında olan Səlcuqlu məliki adından idarə edən atabəy, həm Böyuk Səlcuqlu, həm də İraq Səlcuqlu dövlətinə tabe hesab edilirdi. Mosul atabəyləri öz adlarına sikkə zərb etdirir və xütbə oxutdururdular. Mosul atabəyliyində dövlət təşkilatının dörd növü vardır: saray, hökümət, ordu və təhlükəsizlik təşkilatı. Onların tətbiq etdiyi hərbi-strateji və inzibati üsullar digər türk və müsəlman dövlətləri üçün model olmuşdur. Bu baxımdan Zəngilər tarixi baxımdan həm Misir, həm də Yaxın Şərq üçün əvəzolunmaz bir nümunə təşkil edir.

Ədəbiyyat siyahısı:

1.Bünyadov Z. Azərbaycan tarixi. Bakı.1980 Elm, s. 45-60.
2. İsmayılov, R. İslam dövrü türk dövlətləri. Bakı1995. Şərq-Qərb, s. 78-91.
3.Smith J. The History of Muslim Turks in the Middle East. London. 2005. Routledge, 250 s.
4. Cəfərov T. Türk xalqları və dövlətlərinin tarixi. Bakı. 2024. Azərnəşr. I cild.603 s.
5. Əkbər Nəcəf. Türk dövlətləri və mədəniyyətləri tarixi. Bakı.2024.Çapar.1125 s.
6.Uzunçarşılı, İ. H. İslam Tarihi. Ankara: TTK, 1988. 410 s.

AZƏRBAYCAN-TÜRKİYƏ DİASPORUNUN TƏŞKİLATLANMASI VƏ ERMƏNİ LOBBİSİNƏ QARŞI BİRGƏ FƏALİYYƏTİ

Taleh Cəfərov
ADPU-nun Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedrasının dos.v.i.e., tarix üzrə fəlsəfə doktoru, BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kaferasının doktorantı
talehceferov697@gmail.com;
https://orcid.org/0009-0005-4833-0679

Açar sözlər: *diaspor,lobbi,strateji əməkdaşlıq, Bakı Bəyənnaməsi, qurultay*
Keywords: *diaspora, lobby, strategic cooperation, Baku Declaration, congress*

Giriş. XIX əsrin I yarısından etibarən türk dünyası iki yüzillik tarixi olan erməni terroru, etnik-milli təmizləmə, soyqırımı, ekosid kimi faciələrlə üzləşmiş, onun ağrı-acılarını uzun müddət çəkmişlər. Xüsusilə böyük dövlətlərin maraq dairəsində olan, onlardan bu və ya digər formada yararlanan erməni millətçi ekstremistləri Azərbaycan və Türkiyə türklərinə qarşı çirkin mübarizənin miqyasını genişləndirmiş, 2 milyona yaxın türkü məhv etmiş, yerindən-yurdundan didərgin etmişdir.

Emənilərin ən böyük diaspor təşkilatları məhz Avropada fəaliyyət göstərir və onlar bu ölkələrin siyasətinə təsir göstərmək imkanına malikdirlər. Odur ki, ermənilərin xalqımıza və dövlətimizə qarşı apardığı mənfur təbliğatın qarşısını almağın ən optimal yolu Avropada yaşayan azərbaycanlıların ideya-siyasi birliyinin yaradılmasından keçir [1, s. 65].

Türkiyədə yaşayan soydaşlarımız da mövcud təşkilatların daha sıx və əlaqəli şəkildə fəaliyyət göstərməsi, bir-biri ilə vahid proqram və ümummilli maraqlar kontekstində çalışması, bütün həmvətənlərimizin milli dəyərlər ətrafında səfərbər olunması üçün xüsusi qurum – "Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası" (TADF) təsis edildi. 2004-cü ilin mayın 28-də Türkiyənin İsgəndərun şəhərində təşkil olunmuş təsis konfransında Azərbaycanın 18 icma və birliyi quruma üzv olduğunu bəyan etdi. Təşkilat üzvlərinin sayı ildən-ilə artır və hazırda quruma üzv cəmiyyətlərin sayı 20-ni ötüb [1, s. 66].

Federasiya ölkənin 20-yə yaxın şəhərində fəaliyyət göstərən "Azərbaycan Evi" cəmiyyətlərini əhatə edir. Qurum Türkiyədə Azərbaycanın maraqlarını təbliğ edərək, Azərbaycan təşkilatlarının işini əlaqələndirir [10].

Diasporumuzun aktiv fəaliyyətinə çalışan İlham Əliyev Türkiyə səfərində bu ölkədə yaşayan azərbaycanlıların işgüzarlığına, Türkiyə-Azərbaycan diasporlarının qarşılıqlı iş birliyinə də xüsusi önəm verdiyini diqqətə çatdırdı: "...Xaricdə bizim fəaliyyətimiz daha yüksək səviyyədə qurulmalıdır. Bu baxımdan diaspor təşkilatlarının fəaliyyətinə böyük önəm verilməlidir. Diaspor təşkilatlarımız xaricdə çox sıx əməkdaşlıq edir. Türkiyə və Azərbaycan diasporlarının müxtəlif öl-kələrdə birgə layihələri, birgə tədbirləri çox uğurludur və əminəm ki, bu, gələcəkdə bizim imkan-larımızı daha da artıracaqdır. Mən təklif edirəm ki, gələn ilin birinci yarısında Azərbaycanda Türkiyə və Azərbaycan diaspor təşkilatları rəhbərlərinin forumunu keçirək, Türkiyə və Azərbaycan diasporlarının birgə fəaliyyətini bir daha təhlil edib onları istiqamətləndirək" [1, s. 67].

Türk və Azərbaycan diaspor təşkilatlarının birgə keçirdiyi tədbirlərdən biri də 2003-cü ilin dekabr ayında Ankara şəhərində təşkil edilmiş "Türkiyə-Azərbaycan əlaqələri XXI əsrdə" forumu olmuşdur. Forumda hər iki ölkənin dövlət və hökumət nümayəndələri, Türkiyənin tanınmış elm və mədəniyyət xadimləri, Azərbaycan diaspor təşkilatlarının nümayəndələri iştirak etmişdir.

Forumda iki ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə olunmaqla yanaşı, Azərbaycan və türk diasporları arasında əlaqələrin intensivləşdirilməsi, onların birgə fəaliyyətlərinin təmin olunması barədə ətraflı fikir mübadiləsi aparılmışdır.

Qardaş Türkiyədə azərbaycanlıları öz ətrafında birləşdirən, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında böyük rolu olan daha bir təşkilat – "Türkiyə-Azərbaycan Strateji Araşdırmalar Mərkəzi" 2006-cı il noyabr ayında təsis edilmişdir. Bu Mərkəzin əsas fəaliyyət istiqamətlərindən biri də Azərbaycanın tarixi həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq məqsədilə elmi-praktik konfranslar təşkil etməkdir. Mərkəzin nəzdində ayrı-ayrı sahələr üzrə fəaliyyət göstərən bölmələr vardır. Mərkəz həmçinin iki qardaş ölkənin dostluq və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə xidmət edən tədbirlər təşkil edir. Qloballaşma proseslərinin vüsət aldığı, xalqlar arasında qarşılıqlı inteqrasiyanın zərurətə çevrildiyi müasir dövrümüzdə Azərbaycan və Türk diasporları yeni bir missiyanı yerinə yetirməkdədirlər [9, s. 122].

Prezident İlham Əliyev Türkiyədə səfərdə olarkən Azərbaycan diaspor təşkilatlarının nümayəndələrini əmin etmişdir ki, dövlətimiz və hökumətimiz Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması işində onlara lazım olan dəstəyi verəcəkdir. Bu baxımdan Türkiyə və Azərbaycan diaspor təşkilatlarının müxtəlif ölkələrdə birgə layihələr, tədbirlər keçirməsi əsas şərtdir [9, s. 123].

Bu şərtləri nəzərə alaraq, 2006-cı il sentyabr ayının 18-20-də Türkiyə Respublikasının Antalya səfərində Türk Dövlət və Cəmiyyətlərinin X Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayı keçirildi. Qurultayda Azərbaycan Prezidenti İlham Əliyev iştirak etmiş, türk dünyası üçün mühüm əhəmiyyət kəsb edən qərarların qəbul ediləcəyinə əmin olduğunu bildirmişdir.

Qurultayda Prezident İlham Əliyev Türkiyə və Azərbaycan diaspor təşkilatları rəhbərlərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüşdür. Məhz Prezident İlham Əliyevin təşəbbüsü ilə 2007-ci il martın 9-da Bakıda Dünya Azərbaycan və

Türkiyə diaspor təşkilatları rəhbərlərinin I Forumu keçirildi. Azərbaycan diasporunun öz qarşısına böyük məqsədlər qoyduğunu, bütün türkdilli xalqların diaspor təşkilatları arasında əməkdaşlıq əlaqələrinin qurulduğunu göstərdi [10].

Tədbirə ümumilikdə 48 ölkədən 513 nəfər qatılmışdır. Onlardan 173-ü Azərbaycan, 140-ı türk, 14-ü Ahıska, 23-ü İraq diaspor təşkilatlarının, 5-i isə Kipr türklərinin nümayəndələri olmuşdur. Türkiyə, Almaniya, ABŞ, Rusiya, Ukrayna, İsveç, Niderland, Rumıniya, Norveç və Litva, Ukrayna, Lüksenburq, Bolqarıstan, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın dövlət və hökumət nümayəndələri, parlament üzvləri iştirak etmişlər [4, s. 130].

Tədbirdə türk diasporları ilə görüşən, onlarla ətraflı fikir mübadiləsi aparan Azərbaycan Prezidenti İlham Əliyev çıxışında diaspor təşkilatlarının qarşısına konkret vəzifələr qoydu, onların fəaliyyət prinsiplərini və strategiyasını müəyyənləşdirdi: "Bizim əleyhimizə çox güclü erməni lobbisi fəaliyyət göstərir. O, Türkiyə və Azərbaycana düşmənçilik mövqeyindədir və bizi ləkələmək, ölkəmizdə gedən prosesləri təhrif etmək, yalan, böhtan kampaniyası aparmaq onların əsas peşəsidir. Biz bunun qarşısına öz siyasətimizi, öz təbliğat mexanizmimizi qoymalıyıq və qoyuruq. Ona görə də xaricdə yaşayan soydaşlarımız daha da güclənməlidir, təşkilatlanma prosesi daha da sürətlə aparılmalıdır. Onlar yaşadıqları ölkələrin siyasi dairələrinə, siyasi təsisatlarına daha da fəal inteqrasiya etməlidirlər" [1, s. 68]. Həmçinin Prezident İlham Əliyev forumun çox böyük əhəmiyyəti olduğunu bildirdi: "Çünki ilk dəfədir ki, türk və Azərbaycan diaspor təşkilatları artıq belə geniş formatda bir araya gəlir. Forumun nəticəsi olaraq bizim birliyimiz daha da möhkəmlənəcək, daha da güclənəcək, xaricdə yaşayan soydaşlarımız özlərini daha da rahat hiss edəcəklər [2, s. 192-194].

Forum Azərbaycan və Türkiyə diasporlarının birgə fəaliyyətində yeni mərhələnin başlanğıcını qoydu. Tədbirdə aparılan müzakirələrin nəticəsi olaraq "Azərbaycan və Türk Diaspor Təşkilatlarının Birgə Strategiyası", "Bakı Bəyannaməsi", "Türkdilli xalqlara Müraciət", "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət nümayəndələrinə Müraciət", "1915-ci il hadisələri ilə əlaqədar erməni iddiaları ilə bağlı qərar qəbul edən ölkələrə etiraz Bəyanatı" qəbul edilmişdir [3].

Dünya Azərbaycan və Türkiyə diaspor təşkilatları rəhbərlərinin I Forumu iki ölkə ilə yanaşı, əslində bütün türkdilli xalqların həyatında mühüm hadisə olmuş və birlik üçün zəmin yaratmışdır. [17, s. 68].

Təbii ki Azərbaycan və Türkiyə dövlətləri arasında mövcud isti münasibətlər, qardaşlıq telləri, həmvətənlərimizin fəaliyyət dairəsinin daha da genişlənməsinə, diasporumuzun inkişafına şərait yaradır [1, s. 69].

Bakı Bəyannaməsi Azərbaycan və Türkiyənin, habelə bütün Türk dünyasının milli maraqlarının müdafiəsi, xarici ölkələrdə yaşayan azərbaycanlıların və türklərin ictimai-siyasi fəallığının artırılması, təşkilatlanma prosesinə dəstək verilməsi, insan hüquq və azadlıqlarının təmini, lobbi quruculuğu sahəsində əməkdaşlıq, azərbaycanlı və türk iş adamlarının forumlarının keçirilməsi, xarici sərmayəçilərin Azərbaycan və Türkiyəyə investisiya qoymağa təşviq edilməsi ilə bağlı məsələlər öz əksini tapmışdır [4, s.132].

Forumda aparılmış müzakirələrin yekunu olaraq Azərbaycan və Türk diaspor təşkilatlarının Koordinasiya Şurası yaradılmışdır. Koordinasiya Şurasının üzvləri xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı və türk icmalarının rəhbərləri arasından seçilmişdir. Şura strategiyada nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirir, Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin növbəti forumuna qədər görülmüş işlər haqqında hesabat hazırlayır. Şuranın işinin təşkil edilməsi və üzvlərin fəaliyyətinin əlaqələndirilməsi məqsədilə həmsədrlik institutu yaradılmışdır [5].

2007-ci ilin 17-19 noyabrında Azərbaycan Prezidentinin təşəbbüsü ilə Bakı şəhərində keçirilmiş Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı Azərbaycan və Türk diaspor təşkilatları arasında əməkdaşlığın spektrini daha da genişləndirmişdir. Məhz bu Qurultaydan sonra türkdilli xalqların diaspor təşkilatları arasında əməkdaşlıq məsələsi gündəmə gəlmişdir [6].

Qurultay çərçivəsində türkdilli xalqlar arasında elm, texnika, mədəniyyət, təhsil, iqtisadiyyat, ticarət, turizm və maliyyə sahələrində əməkdaşlıq, Türk dünyasının mədəni irsinin təbliği, türk gəncliyinin qarşısında duran vəzifələr, onların milli ruhda tərbiyə olunması problemləri, müasir qloballaşma proseslərinin xalqlarımızın həyatına təsiri ilə bağlı məsələlər müzakirə edilmişdir. Qurultayda Türk dünyasını narahat edən bir sıra digər problemlər – Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Şimali Kiprin beynəlxalq təcriddən çıxarılması, İraq və Əfqanıstanda yaşayan türkdilli xalqların vəziyyəti, Ahıska türklərinin tarixi torpaqlarına qayıdışı ilə bağlı fikir mübadiləsi aparılmış, bir sıra mühüm sənədlər qəbul edilmişdir [4, s.133]. 30 ölkədən 550 nəfər nü-mayəndə və qonağın dəvət olunduğu qurultayın işində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan, Şimali Kipr Prezidenti Mehmet Əli Tələt, Türkiyə Respublikasının 9-cu Prezidenti Süleyman Dəmirəl, habelə Türkdilli ölkələrin yüksək dövlət və hökumət nümayəndələri iştirak etmişlər. Toplantıda qurultayın yekun hesabatı, habelə ermənilərin soyqırımı iddiaları ilə bağlı Bəyanatın mətni müzakirə və qəbul edilmişdir [7, s. 32].

Bu gün Türkiyədə Azərbaycan diasporu ölkəmizlə bağlı həqiqətlərin təbliği sahəsində kifayət qədər fəal iş aparır. Eyni zamanda, xalqlarımız arasında çox əsrlik qardaşlıq münasibətləri və dostluq əlaqələri sayəsində azərbaycanlılar ictimai fəaliyyətdə demək olar ki, heç bir manea ilə qarşılaşmırlar. Əksinə bu yaxınlıq beynəlxalq miqyasda türk-azərbaycan diasporunun birgə fəaliyyəti üçün zəmin yaradır.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında hər iki tərəf maraqlıdır. Türkiyə Azərbaycan üçün beynəlxalq aləmdə strateji müttəfiq və dayaqdırsa, Azərbaycanın da güclü dövlət ol-ması Türkiyənin dünya siyasətində gücünün və rolunun artması deməkdir. [8].

Ümumiyyətlə, müasir Azərbaycan diasporunun formalaşması və fəaliyyətində Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın diqqəti xüsusi qeyd edilməlidir. Heydər Əliyev Fondunun dəstəyi ilə xarici ölkələrdə fəaliyyət göstərən "Qarabağ" adlı Azərbaycan məktəbləri, Xocalı soyqırımının tanıdılması istiqamətində həyata keçirilən layihə və tədbirlər xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması, ümummilli

məsələlərdə birliyinin təmin olunması baxımından olduqca böyük əhəmiyyət kəsb edir [12].

Vətən müharibəsi ərzində 46 ölkədə fəaliyyət göstərən və 26 ölkəni əhatə edən 12 Koor-dinasiya Şurasında təmsil olunan 126 təşkilat da daxil olmaqla, 265 diaspor təşkilatı, beynəlxalq təşkilatlar və Azərbaycandakı icmalar tərəfindən 23 dildə 383 müraciət qəbul edilmişdir. Avropa Parlamentinin üzvlərinə 775 bəyanat, müxtəlif ölkələrin 641 nəfər parlament üzvünə isə bəyanat və müraciətlər birbaşa göndərilmişdir. Eyni zamanda, Ermənistanın təxribatları, işğalçılıq siyasəti, terrorçuluq fəaliyyəti haqqında müxtəlif dillərdə 4700 məktub elektron poçt vasitəsi ilə göndərilmişdir [11, s.50].

44 günlük müharibə Azərbaycanın qələbəsi ilə başa çatdıqdan sonra da bu mübarizə diplomatiya və informasiya sahəsində davam etməkdədir. Azərbaycana məğlub olan Ermənistan dünyadakı diaspor və lobbi təşkilatlarının dəstəyi ilə olmayan saxta, separatçı bir qurumun tanıdılması istiqamətində fəaliyyət həyata keçirirdi. Fransa Milli Assambleyasının 188 üzvü cəmi 3 nəfərin əleyhinə olması ilə qondarma "Arsaxı" tanımağa çağıran daha bir bədnam sənəd qəbul etdi. Bir həftə əvvəl isə Fransa Senatı 305 səslə belə bir sənəd qəbul etmişdi [13]. Bu qətnamənin hüquqi qüvvəsi olmasa da, Senatın halında olduğu kimi, Milli Assambleyasının sənədinin siyasi mənasını nəzərə alaraq, bu qətnamələr beynəlxalq hüququn norma və prinsipləri, BMT Nizamnaməsi və Helsinki Yekun Aktı, BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli qətnamələri, eləcə də Azərbaycan ilə Fransa arasında mövcud olan ikitərəfli sənədlər ilə ziddiyyət təşkil edir. Fransanın ardınca Belçika parlamentində də belə bir cəhd edildi. Belçika Federal Parlamentinin Xarici Əlaqələr Komitəsinin 2020-ci il dekabrın 2-də keçirilən iclasında erməni diasporu və ermənipərəst qüvvələrin anti-Azərbaycan səyləri puç oldu [13].

İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın milli diaspor təşkilatları da hərəkətə keçərək beynəlxalq qurumların qarşısında mütəmadi şəkildə aksiyalar keçirir və yaşadıqları dövlətlərin rəhbərlərinə, siyasi partiyalarına, vətəndaş cəmiyyəti və sadə insanlarına Qarabağ həqiqətlərini, Ermənistanın hərbi təcavüzkar siyasətini ifşa edən sənədləri, eləcə də dinc əhalinin qanunla yasaq edilmiş kaset bombalarla öldürməsi faktlarını bütün dünya ictimaiyyətinə tanıtdırırdılar [11, s.50].

"Amerika Azərbaycanlıları Şəbəkəsi" 2020-ci il oktyabrın 28-də işğalçı Ermənistan ordusu tərəfindən Azərbaycan Respublikasının Bərdə şəhərinə edilən raket hücumu ilə bağlı Tramp adminstrasiyasını, media şəbəkələrin, tanınmış rəsmi şəxsləri və ictimai xadimləri məlumatlandırmaq üçün məktub kampaniyasına başlamışdılar [11, s. 51].

ABŞ-ın Hyuston şəhərində yaşayan soydaşlarımız işğalçı Ermənistan ordusunun Azərbaycanın Bərdə və Gəncə şəhərlərində, eləcə də digər yaşayış məntəqələrində törətdikləri terror aktla-rını dünya ictimaiyyətinə çatdırmaq məqsədilə "ABŞ-Azərbaycan Qarabağ Atları Xilası Birliyi", "Bakı-Hyuston Qardaşlaşmış Şəhərlər Assosiasiyası" və "Amerika-Azərbaycan Mədəniyyət Assosiasiyası"nın birgə təşkilatçılığı ilə aksiya keçirmiş, dünya ictimaiyyətini Ermənistanın hərbi təxribatlarına biganə qalmamağa səsləmişlər [14].

Beləliklə, dünyanın müxtəlif ölkələrində, ümumilikdə, Azərbaycanın 500-ə yaxın diaspor təşkilatı var və onların da xeyli hissəsi aktiv fəaliyyət həyata keçirir. Bu da onu deməyə əsas verir ki, bu qurumlarda təmsil olunan diaspor fəalları Azərbaycanın, Azərbaycançılığın təbliğində xüsusi rol oynamağı əsas hədəf olaraq qəbul etməlidirlər [10].

2018-ci ildə Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən hazırlanan Strateji Yol Xəritəsini müsbət qiymətləndirmək mümkündür. O cümlədən "Azırbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi ilə Türkiyə Respublikasının Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsi arasında "Diaspor sahəsində birgə fəaliyyətə dair" Anlaşma Memorandumu" və "Türk Şurası (hazırda Türk Dövlətləri Təşkilatı) Türkdilli Diasporların Birgə Fəaliyyət Strategiyası"na dəyişikliklərin təsdiq edilməsi haqqında qərarın, "2019-cu ildə Türk Şurası Türkdilli Diasporların Birgə Fəaliyyət Planı"nın imzalanması əhəmiyyətli məsələlərdəndir [16].

Türkiyənin Xaricdəki Türklər və Əqraba İcmaları İdarəsinin (YTB) sədri Abdullah Erenin rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıda keçirdiyi görüşlərdə də bu istiqamətdə danışıqlar aparılıb. Bu sahədə əməkdaşlığın yeni üfüqlər açdığını xatırladıb: "Məlum olduğu kimi, noyabrın 8-də Ankarada Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzv ölkələrinin diaspor məsələlərinə məsul dövlət qurumlarının rəhbərlərinin üçüncü iclası keçirilib. Oradakı çıxışımda da bildirdiyim kimi, müasir dünyada türkdilli diaspor təşkilatları arasında koordinasiyanın müəyyən edilməsi və əməkdaşlıq formalarının tapılması, bu sahədə birgə fəaliyyət xarici ölkələrdə yaşayan vətəndaşlarımız və soydaşlarımız üçün mühüm əhəmiyyət daşıyır. Məhz bu baxımdan həmin iclasda "Türk Şurasının Türkdilli Diaspor Birgə Fəaliyyət Strategiyası"na dəyişikliklərin təsdiq edilməsi haqqında qərarın və "2019-cu ildə Türk Şurası Diaspor Birgə Fəaliyyət Planı"nın imzalanması xüsusi önəm kəsb edir. Sözügedən iclas çərçivəsində "Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi ilə Türkiyə Respublikasının Xaricdəki Türklər və Əqraba İcmaları İdarəsi arasında "Diaspor siyasəti sahəsində birgə fəaliyyətə dair Anlaşma Memorandumu"nun imzalanması iki qardaş ölkənin diaspor sahəsində ortaq əməkdaşlığına yeni təkan verəcək [16].

Beləliklə, apardığımız araşdırmadan belə nəticəyə gəlmək olar ki, Vətən müharibəsindən sonrakı dövrdə Azərbaycan və Türkiyə diasporunun əsassız erməni iddialarına qarşı birgə mübarizəsi diplomatik müstəvidə tam gücü ilə davam etdirilməlidir.

Ədəbiyyat siyahısı:

1. *Məmmədov R. Azərbaycan diasporu (dərs vəsaiti). Bakı, Zərdabi Nəşr MMC, 2019, 312 s.*
2. *Dirçəliş XXI əsr jurnalı, №118-119, 2007-2008-ci il, 429 s.*
3. *Dünya azərbaycanlılarının II Qurultayından keçən dövr ərzində diaspor quruculuğu sahəsində görülmüş işlərlə bağlı məlumat, Bakı, 17-20 dekabr 2008.*
4. *Səbinə Həziyeva. Dünya azərbaycanlıların həmrəyliyi tarixi (XX əsrin sonu, XXI əsrin əvvəl-ləri). Bakı, Adiloğlu, 2010, 168 s.*
5. *Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin I Forumunun yekunlarına dair 27 mart 2007-ci il tarixli hesabat. Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komi-təsinin arxivi.*

6. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin 2007-ci ilin yekunlarına dair 14 yanvar 2008-ci il tarixli hesabatı.
7. Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı. Bakı, Yurd, 2008, s. 32.
8. Qasımlı, M. Azərbaycanın xarici siyasəti (Konsepsiya məsələləri). Bakı, Mütərcim, 1997.
9. Əsgərova, Z. Türkiyədə Azərbaycan diasporunun formalaşması (XX əsr). Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya, Bakı, 2015, sit. 122.
10. Xaricdəki diaspor təşkilatları. -https://www.azerbaijans.com/content_495_az.html [20.10. 2021].
11. Osmanov, M. Azərbaycan Diasporunun fəaliyyəti: mövcud vəziyyət və perspektivlər. Tarix və onun problemləri. 2022, №4, s. 48-52
12. Muradov, F. Azərbaycan diaspor hərəkatında yeni dövr başlayır.-https://files.Preslib.az /projects/diaspora/articles/eart2020.pdf [20.10.2021].
13. Qəribli, M. Diasporumuzun qarşısında postmüharibə dövrünün yeni vəzifələri – güclü lobbiçi qüvvəyə çevrilmək zərurəti... /"Bakı Xəbər" qəz., 2020, 5-7 dekabr
14. Qarabağdakı qələbələr milli diasporumuzun qürur mənbəyinə çevrilir / "Hürriyət" qəz., 2020, 5-6 noyabr
15. Musayev, O. Azərbaycandan dünyaya açılan qardaşlıq və həmrəylik qapısı / "Xalq qəzeti", 2020, 30 dekabr.
16. Azərbaycanla Türkiyə arasında diaspor, təhsil və QHT sahələrində əməkdaşlıq yeni mərhələyə qədəm qoyub / Yeni Azərbaycan. -2018. -28 noyabr. -№225. -s. 6
17. Babanlı, Y. Azərbaycan diasporuna sistemli yanaşmanın nəzəri və praktiki əsasları. Tarix və onun problemləri, 2002, №, s. 64-75.

XANLIQLAR DÖVRÜNDƏ AZƏRBAYCANDA ZADƏGAN CƏMİYYƏTİNİN ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ

Mehman Abdullayev
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasının müdiri, dosent
dos.mehman.abdullayev@gmail.com

Açar sözlər: *Xanlıqlar, ali zümrə, bəy və ağa titulları, torpaq mülkiyyəti, ruhani zümrəsi*
Keywords: *Khanates, nobility, bey and agha titles, land ownership, clerical class*

XVIII əsrdə Azərbaycan ərazisində təşəkkül tapmış xanlıqlar dövlət idarəçiliyinə görə monarxiya quruluşuna malik idi. Bu idarəetmə modelində bütün qanunverici və icraedici hakimiyyət birbaşa olaraq xanın əlində cəmləşirdi. Abbasqulu ağa Bakıxanovun məlumatına əsasən, Nadir şahın ölümündən sonra vilayətləri nəsilliklə idarə edən bəzi hakimlər zamanla müstəqil hökmdar statusu qazanmış, Şəki, Şirvan və Qarabağ kimi bölgələrdə yüksək əsil-nəcabəti olmasa da, xalq arasında böyük nüfuz sahibi olan şəxslər hakimiyyətə gəlmişdilər [2, s.135].

Xanlıqlar dövründə cəmiyyətin sosial tərkibi ali zümrə, kəndli kateqoriyaları və şəhər sakinlərindən (sənətkarlar və tacirlər) ibarət idi. Ali zümrənin başında xan dururdu. Bir sıra xanlıqlarda - xüsusilə Şəki, Şamaxı, Quba və Qarabağda - xanın yanında Divan (Xan Şurası) fəaliyyət göstərirdi. Divan - məşvərətçi-məsləhətçi orqan

funksiyasını yerinə yetirsə də, onun tərkibinə daxil olan nüfuzlu şəxslərin fikirləri və mövqeləri xanın verdiyi qəti qərarların formalaşmasına ciddi təsir göstərirdi.

İlkin yazılı mənbələrin, A.Bakıxanov və Mirzə Camal Cavanşirin əsərlərinin - müqayisəli təhlili həmin dövrdə ali zümrənin tərkibi və hüquqi statusu barədə mühüm məsələləri daha aydın müəyyənləşdirməyə imkan verir. Azərbaycan xanlıqlarında ali zümrə xanın özü və onun ailə üzvləri, sultanlar, məliklər, ağalar, bəylər və yüksək din xadimlərindən ibarət idi. Bəzi xanlıqlarda qədim nəsildən olub geniş torpaqlara və imtiyazlara sahib olanlara sultan titulu verilirdi. A.Bakıxanovun qeyd etdiyinə görə, sultan adlandırılan şəxslər çox vaxt nüfuzlu bəylər arasından seçilir, daha qədim əsil-nəcabəti və idarəçilik sahəsində xüsusi rolu ilə seçilirdilər. Onlar ali zümrədə xanlardan sonra dayanırdılar. Məsələn, Salyanı idarə edən hakimlər ənənəvi olaraq sultan titulu daşıyırdılar [2, s.137]. Məlik titulu isə daha kiçik və ərazi vahidlərini nəsilliklə idarə edən hakimlərə aid edilirdi.

Xanlıqlar dövründə praktiki olaraq bütün Azərbaycan ərazisində ali təbəqənin nümayəndələri üçün ümumi titul bəy idi. Bəylər əsasən üç kateqoriyaya bölünürdü:

1. Köklü-əsilli bəylər,
2. Nəsli bəylər,
3. Şəxsi bəylər.

Köklü bəylərin böyük qismi bu adı hələ Səfəvilər dövründən aldıqları üçün daha qədim nəsil xəttinə malik idilər. Nəsli bəylər isə əsasən bu titulu hakim xanların xüsusi fərmanı ilə əldə etmişdilər. Mirzə Camal Cavanşirin Qarabağ xanlığındakı mövcud sosial quruluş barədə verdiyi məlumatlarda xanın qohumları - qardaşları, onların övladları və əmisi uşaqları - "məruf bəylər" kimi xarakterizə olunur, onların malik olduqları var-dövlət və nüfuzun digər xanlıqlardakı bəylərlə müqayisə edilə biləcək səviyyədə olduğu göstərilirdi. Bununla yanaşı, doqquz el və beş mahalın başçıları da "məruf bəylər" sırasına daxil edilirdilər. Xanın özünün tərbiyə etdiyi, səmimiyyəti və xidmətlərinə görə yüksəltdiyi şəxslər isə "məşhur bəylər" kimi qeyd edilirdi [9, s.164-165]. Azərbaycan xanlıqlarının demək olar ki, hamısında bəy titulu birbaşa xanın iradəsi ilə verilirdi və bu titul ilkin mərhələdə irsi xarakter daşımırdı. Mənbələrdə göstərildiyinə görə, xan hətta adi bir nökərə belə sədaqətli xidmətinə görə bəy adı bağışlaya bilərdi. Lakin bu titulu daşıyan şəxsin nəslinin adı irsilik qazanmamışdan əvvəl üç nəsil keçməli idi. Şəxsi bəy adı daşıyan şəxs öldükdən sonra isə bu titul yalnız xanın xüsusi mərhəməti nəticəsində onun övladlarına verilə bilərdi [1, c.429; 8, c.121]. Digər mənbələrdən məlum olur ki, köklü bəylər qədim nəsil mənsubiyyətinə və xalq arasındakı nüfuzlarına görə xüsusi hörmətə sahib idilər və xanlar belə şəxslərlə münasibətdə ehtiyatlı davranırdılar. Şəxsi bəylər isə xanlara sədaqətli xidmət göstərmiş orta və aşağı təbəqənin nümayəndələri arasından çıxırdı və bu ad həmişə irsən ötürülmürdü; onun varisləri yalnız xanın təsdiqi ilə bu titulu daşıya bilirdilər [7, c.121].

Bu faktlar aydın şəkildə göstərir ki, xanlıqlar dövründə Azərbaycanda Qərbi Avropa və Rusiyadakı kimi qapalı zadəgan sistemi mövcud deyildi. Bir qayda olaraq, yalnız xan nəslinə mənsub bəzi şəxslərin daşıdığı "ağa" titulu irsi xarakter daşısa

da, bəy adını almaq üçün bəy nəslindən olmaq vacib deyildi. Qərbi Avropa və Rusiyada isə aristokratiya qapalı sinif olduğundan aşağı təbəqədən olan hər hansı bir şəxsin zadəgan titulu alaraq ali təbəqəyə daxil olması olduqca çətin idi; bu ölkələrdə, hətta Gürcüstanda belə zadəganların hüquq və imtiyazları xüsusi zadəgan məclisləri tərəfindən təsdiqlənirdi [2, s. 138].

Ağa tituluna sahib olan Qazax, Şəmşəddil və Borçalı ağaları digər xanlıqlardakı bəylərlə eyni sosial pillədə dayanır, onlarla eyni hüquq və imtiyazlara malik idilər. Bəzi tədqiqatçıların yanlış qiymətləndirməsinin [5, s.36] əksinə olaraq, A.Bakıxanov bu üç sultanlıqda ağa zümrəsinin statusunu düzgün şəkildə müəyyən etmişdir [2, s.138]. Azərbaycanın bir çox xanlıqlarında hakim xanların övladları bəylərdən fərqlənmək üçün "ağa" titulunu daşıyırdılar. Lakin Şirvan və Lənkəranda xanın övladları digər bəylər kimi bəy titulunu daşıyırdılar, Qarabağ xanlığında isə xanın övladları bəy deyil ağa titulu ilə tanınırdılar.

Xanlıqlar dövründə ali zümrənin əsas üstünlüklərindən biri onun vergi immunitetinə malik olması idi. Tarixşünaslar tez-tez bunu ali zümrənin mükəlləfiyyətlərdən də azad olması haqqında qəti fikir söyləsələr də, əslində bu zümrə xan qarşısında hərbi xidmət vəzifəsindən azad deyildi. Bundan əlavə, bəy titulunu daşıyanların inzibati, idarəçilik və məhkəmə funksiyalarını yerinə yetirmək, xan sarayında və qoşunda müəyyən vəzifələr tutmaq hüquqları da mövcud idi. Ali zümrənin nümayəndələri xanlıqların sosial, iqtisadi və siyasi həyatında mühüm rol oynayır, sarayda yüksək mövqedə fəaliyyət göstərir və xan xəzinəsindən müəyyən məvacib alırdılar. Bəy və ağalar sərbəst şəkildə torpaq və digər mülkləri alıb sataraq öz mülkiyyətlərinə çevirə bilər, xan xəzinəsinə vergi ödəmədən istənilən peşə fəaliyyəti, o cümlədən ticarətlə məşğul ola bilərdilər [8, s.66-67].

Araşdırılan faktlar göstərir ki, Azərbaycan xanlıqlarında ali zümrənin torpaq üzərində sahiblik hüququ onun sosial və siyasi imtiyazlarının əsas təməlini təşkil edirdi. Əsilli-köklü bəylər, ağalar, sultan və məliklər torpaq və kənd sahələrini həm şərtsiz, həm də irsi olaraq varislərinə ötürmək hüququna malik idilər. Bu zümrə mülk və mülki-xalisə torpaqların böyük hissəsinə sahib olaraq sosial statusunu qoruyurdu. Hətta hakim xanlar tərəfindən mülk və torpaq hüququndan məhrum edildikdə, bəzən xanlıq ərazisindən çıxarıldıqları halda belə, əsilli-köklü bəylər öz bəy titulunu itirmirdilər [8, s.66]. Buna qarşılıq, nəsli və şəxsi bəylərin sosial mövqeyi və torpaq hüquqları daha çox hakim xanın iradəsindən və mərhəmətindən asılı idi. Beləliklə, xan sülaləsinə mənsub bəylər və ağalar, eləcə də ali zümrənin orta və aşağı təbəqəsinə aid olan nəsli və şəxsi bəylər, xan hakimiyyətinin əsas sosial dayağını təşkil edirdilər. Eyni zamanda, bəzi iri əyanlar və əsilli-köklü bəylər, müxtəlif xanlıqlarda baş verən daxili siyasi mübarizələrin təşəbbüskarı və təşkilatçısı olurdular.

Tarixi faktlar göstərir ki, Nadir şahın dövründə (1736-1747) müəyyən imtiyazlara sahib olan bəzi qruplar ayrı-ayrı xanlıqlarda pozuculuq fəaliyyəti ilə məşğul olduqlarına görə hakim xanlar tərəfindən cəzalandırılırdılar. Məsələn, Qarabağ məlikləri, Bakı xanlığında Bakıxanovlar nəsli [10, s.16], Quba hakimi Şeyxəli xandan narazı olan Buduq mahalının bəyləri, Gəncə hakimi Cavad xanla münaqişəyə

girən Şəmşəddilli Nəsib Sultan, Şirvan hakimi Mustafa xanla mübarizədə məğlub olmuş qardaşı Qasım xan, Dərbəndli Mehdi xan, Əli Pənah bəy və başqaları, daxili-siyasi qarşıdurmalarda iştirak edən əsas sosial qrupları təmsil edirdilər [3, s.219, 225]. Hakim xanlar tərəfindən "etibarsız" sayılan bu qruplar daxili-siyasi mübarizələrdə hər hansı xarici qüvvə ilə əməkdaşlığa meyilli idilər. Tarixi təcrübə göstərir ki, bu tip qruplardan bəziləri Rusiya işğalı dövründə çar hökumətinin tərəfində yer almışdılar.

Xanlıqlar dövründə cəmiyyətdə özünəməxsus yer tutan müsəlman ruhani zümrəsinin statusunun müəyyən edilməsi mühüm məsələlərdən biridir. Rəsul Hüseynli bu zümrəni dörd kateqoriyaya ayırır:

1. Ali təbəqə - ruhanilərə rəhbərlik edən, hüquqi məsələlərdə həlledici səlahiyyətə malik mücdəhidlər, şeyxülislamlar, axundlar, əfəndilər, qazılar, ali dini təhsil verən müdərrislər, görkəmli ilahiyyatçılar və qanunşünas üləmalar.

2. Orta təbəqə - dini ibadət və ayinləri icra edən imamcümələr, pişnamazlar, mollalar və digər ruhanilər.

3. Aşağı təbəqə - bəzi mollalar, müəzzinlər və digərləri.

4. Azad ruhanilər - seyidlər, ağamirlər, dərvişlər və başqaları [6, s.163].

Ümumilikdə, ruhani zümrəsi vergi və digər öhdəliklərdən azad olsa da, onun bütün kateqoriyaları ali zümrəyə daxil deyildi. Ali təbəqəyə daxil olan ruhanilər sosial-iqtisadi, hüquqi və siyasi mövqelərinə görə xanlıqlardakı bəylər, ağalar və digər zadəganlarla bərabər səviyyədə, bəzən onlardan da üstün mövqedə olurdular. İlkin mənbələrin təhlili bunu dəstəkləyir. Ali zümrənin nümayəndəsi olan ruhanilər bəy və ağalarla demək olar ki, eyni hüquqlara malik torpaq sahibi idilər. Azərbaycan xanlıqlarında ali idarəetmə orqanı olan Divanxanada bütün əsas vəzifələr ali zümrənin üzvləri tərəfindən icra edilirdi. Hakim xan, vəzir, müstofi (maliyyə məmuru), divanbəyi ilə yanaşı, xanlığın baş ruhanisi də Divanxananın üzvü sayılırdı. Ali dini rəhbərin əsas vəzifəsi xanın fərmanlarını şəriət hökmləri ilə qanuniləşdirməkdən ibarət idi. Bəzi hallarda ali ruhanilər divanbəyi funksiyasını da yerinə yetirirdilər; bu halda divanbəyi həm də qazi kimi xanın hüquqi məsələlərdə məsləhətçisi olurdu. Divanbəyilər xan divanxanası tərəfindən təqib olunan şəxslərin, xüsusilə siyasi müqəssirlərin cəzalandırılması ilə bağlı qərarlar verirdilər. Bütün mübahisələrin həlli şəriət qanunlarına əsaslanırdı. Mahal və şəhərlərdə məhkəmə qərarlarına etiraz edən sakinlər divanbəyinə və ya xanlığın baş ruhanisi olan şeyxülislama müraciət edə bilərdilər [4, s.31-32].

Ədəbiyyat siyahısı:

1. *Акты, собранные Кавказской Археографической Комиссией /Архив Главного Управления Наместника Кавказского края. Тифлис, Типография Главного Управления Наместника Кавказа, 1866–1904. Т.7, док. 373. 966 с.*
2. *Bakıxanov A.* Сочинение, записки, письма. *Bakı, "Elm", 1983, 404 c.*
3. *Bakıxanov A.* Gülüstani-İrəm. *Bakı, "Möminin", 2001, 321 s.*
4. *Dəlili H.Ə.* Azərbaycanın cənub xanlıqları (XVIII əsrin II yarısı), *Bakı, "Elm", 1979,142 s.*
5. *Gülmalıyev M.M.* XVIII əsrin son rübü-XIX əsrin birinci yarısında Azərbaycan kəndinin sosial-iqtisadi strukturu, *Bakı, "Elm", 1989, 280 s.*

6. Hüseynli R. Azərbaycan ruhaniliyi (xanlıqlar çağından sovet işğalına qədər), *Bakı, "Kür", 2002, 266 s.*
7. Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX века. ч.1, Из-во АН СССР, М-Л., 1936, 463 с.
8. Mustafazadə T. Qarabağ xanlığı. *Bakı, "Sabah", 2010, 126 s.*
9. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi. Qarabağnamələr. I kitab. *Bakı, "Şərq-Qərb",2006,216 s.*
10. Петрушевский И.П. Система русского колониального управления в Азербайджане, а первой половине XIX века - Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX века. ч.1, *М-Л., Из-во АН СССР, 1936, 463 с.*

ŞUŞA MƏSCİDLƏRİNİN VƏQFNAMƏLƏRİ

Zəhra İslamova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru
zahraislamova@bsu.edu.az;
https://orcid.org/0000-0002-9530-4263

Açar sözlər: *Şuşa vəqf sistemi, məscid vəqfnamələri, dini-sosial idarəetmə, məscid təsərrüfatı, islam hüququ vəqfi, Şuşa mədrəsələri*
Keywords: *Shusha waqf system, mosque endowment deeds, religious-social governance, mosque economic assets, islamic waqf law, Shusha madrasas*

Qarabağın tarixi mədəniyyət mərkəzi olan Şuşa şəhəri, XVIII–XIX əsrlər boyunca Azərbaycan ictimai-dini həyatının mühüm ocaqlarından biri kimi formalaşmışdır. Şəhər məscidləri Şuşanın urbanizasiyası, sosial strukturu və mədəni identikliyinin ayrılmaz hissəsi olmaqla yanaşı, həm də dini tədris, sosial yardım və idarəçilik funksiyalarını yerinə yetirən çoxşaxəli institutlar kimi fəaliyyət göstərmişdir. Bu funksiyaların öyrənilməsində ən etibarlı mənbələrdən biri Şuşa məscidlərinə aid vəqfnamələrdir. Vəqfnamələr təkcə maliyyə mexanizmini deyil, icma və məscid arasındakı hüquqi, sosial və mədəni əlaqələri də əks etdirir. Bu sənədlər vasitəsilə məscidlərin necə idarə olunduğunu, hansı elm və təhsil fəaliyyətlərini icra etdiyini, kasıblara və ehtiyacı olan şəxslərə hansı yardımların göstərildiyini, ümumilikdə isə Şuşa cəmiyyətində məscidin yeri və funksiyasını daha dolğun mənzərədə görmək mümkündür.

Tədqiqatin əsas məqsədi Şuşa şəhərində fəaliyyət göstərmiş məscidlərin vəqfnamələrini təhlil etməklə onların dini, elmi və sosial funksiyalarını sistemli şəkildə üzə çıxarmaq, şəhərin ictimai həyatına təsirini araşdırmaqdır. Vəqfnamələrin məzmunu göstərir ki, Şuşa məscidləri yalnız ibadət məkanı deyil, həm də təhsil, sosial müdafiə, iqtisadi idarəetmə və ictimai nizamın qorunmasında mühüm rol oynayan institutlar olmuşdur.

I. Şuşa məscidlərinin vəqf sistemi: mənbələr və hüquqi çərçivə. Vəqf institutu İslam hüququnun əsas sosial-iqtisadi mexanizmlərindən biri olmuş və dini, təhsil

və rifah yönümlü müəssisələrin davamlı fəaliyyətini təmin etmişdir. Şuşa şəhərində müxtəlif məscidlər - Cümə məscidi, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri, Mirzə Həsən Ağa məscidi və digər məhəllə məscidləri - öz vəqfnamələri əsasında idarə olunurdu. Bu sənədlər məscidlərin gəlir mənbələrini, mütəvəllilərin səlahiyyətlərini, icra olunmalı şəriət qaydaları və sosial öhdəlikləri dəqiq şəkildə qeyd edir.

Şuşa vəqfnamələrinin bir hissəsi daş kitabələr, məscid üzərində yazılar və ya arxiv sənədləri şəklində günümüzə gəlib çatmışdır. Sənədlərin dili əsasən farsca, ərəbcə və osmanlı türkcəsindədir; terminologiya isə klassik İslam hüququnun fiqh normalarına uyğundur. Vəqfnamələrdə icarəyə verilmiş dükanlar, bağlar, bostanlar, karvansaralar, torpaqlar və digər təsərrüfat obyektləri barədə məlumatlar yer alır. Bu obyektlərin gəlirləri məscidin ehtiyaclarına, imam və müdərrislərin maaşlarına, tələbələrin təminatına və sosial yardımlara yönəldilirdi.

Vəqf əmlakının idarəsi mütəvəllilər tərəfindən həyata keçirilir və onların fəaliyyəti ciddi nəzarət altında olurdu. Mütəvəlli vəzifəsinə təyin edilən şəxslər adətən hörmətli din xadimləri, nüfuzlu ailə üzvləri və ya əhali arasında qəbul edilən şəxslər olurdu. Vəqfnamələr mütəvəllilərin hesabat vermə öhdəliyini və vəqf əmlakının şəxsi məqsədlərlə istifadəsinə qəti qadağa qoyulduğunu göstərir. Bu hüquqi struktur məscidlərin sabit və şəffaf şəkildə fəaliyyət göstərməsinə imkan yaradırdı.

II. Elm və təhsil sahəsində Şuşa məscidlərinin rolu. Şuşanın dini mədəniyyətində məscidlər həm ibadət, həm də təhsil mərkəzi kimi çıxış etmişdir. Bir çox məscidin nəzdində dərs otaqları mövcud olmuş və burada dini elmlərlə yanaşı, ərəb dili, qiraət, fiqh, məntiq və bəzi hallarda hesab və yazı öyrədilmişdir. Bu mədrəsə tipli təhsil ənənəsi Şuşanı Qarabağ bölgəsində dini-intellektual mərkəzə çevirmişdir.

Vəqfnamələrdə "müəllimə verilən günlük rüsum", "tələbələrə paylanacaq ərzaq", "qışda isitmə üçün ayrılacaq odun pulu" kimi qeydlər bu sistemin nə qədər təşkilatlanmış olduğunu göstərir. Təhsil prosesinin əsas maliyyə mənbəyi məhz vəqf gəlirləri idi. Bu isə Şuşada dini maarifçiliyin sinfi sərvətdən deyil, icma dəstəyindən qaynaqlandığını sübut edir [2, s.7-8].

Vəqf sənədləri göstərir ki, müdərrislərin aylıq məvacibi, onların ibadət və tədris işini icra etmələri üçün ayrılan vəsaitlər dəqiq şəkildə tənzimlənmişdir. Tələbələrin də ehtiyacları nəzərə alınmış, imkansız şagirdlər üçün xüsusi yardımlar ayrılmışdır. Bu, həmin dövr üçün sosial bərabərlik baxımından mühüm göstəricidir. Şuşada yetişmiş alim və din xadimlərinin bir qismi məscid dərsliklərində təhsil almış, sonradan bölgənin dini həyatında mühüm rol oynamışdır. Bu səbəbdən məscid təhsili Qarabağın dini-mədəni inkişaf xəttinin aparıcı elementi kimi çıxış edir.

III. Sosial həyat və ictimai funksiyalar. Şuşa məscidlərinin sosial funksiyaları vəqfnamələrdə ən geniş yer alan məsələlərdən biridir. Sənədlərdə kasıblara, imkansız ailələrə və qocalara ayrılan illik və ya mövsümi vəsaitlərin miqdarı, ərzaq və geyim yardımlarının paylanma qaydası göstərilir. Bayram və xüsusi dini günlərdə paylanacaq "sədəqə", "fitrə", "qurban payı" kimi yardımlar da maliyyə-icra mexanizmləri ilə qeyd edilir.

Bu cür yardım sistemi Şuşa cəmiyyətində sosial həmrəylik və qarşılıqlı dəstək ənənəsinin inkişafına böyük töhfə verirdi. Kasıbların müdafiəsi yalnız fərdi xeyriyyəçiliklə deyil, sistemli, hüquqi əsaslı dini institutlar vasitəsilə təmin olunurdu.

Məscidlər icma toplantılarının keçirildiyi, mübahisələrin şəriət və adət qaydaları əsasında həll olunduğu məkan funksiyasını da daşıyırdı. Vəqfnamələrdə "məscidin xidmətçiləri", "nizam-intizamın qorunması", "mübahisə hallarında imamın səlahiyyəti" kimi müddəalar bu funksiyanı təsdiqləyir.

Bəzi hallarda məscidlər səyyah və mühacirlərə sığınacaq rolunu oynayır, onlara qısa müddətli yardım və yaşayış imkanı verilirdi. Vəqfnamələrdə "yolçular üçün ayrılan yemək və gecələmə haqqı" xüsusi qeyd olunur. Bu, Şuşanın ticarət yolları üzərində yerləşməsinin sosial funksiyalara təsirini nümayiş etdirir.

IV. İqtisadi təminat və vəqf əmlakının idarə olunması. Şuşa məscidlərinin davamlı fəaliyyət göstərməsinin əsas şərti sabit vəqf gəlirləri idi. Vəqfnamələrdə geniş təsərrüfat obyektləri təsvir olunur: dükan və bazar yerləri, bağ və bostan sahələri, icarəyə verilən torpaqlar, karvansaralar və anbarlar, su dəyirmanları və digər təsərrüfat qurğuları. Bu obyektlərin gəlirləri həm dini, həm təhsil, həm də sosial xərclərin qarşılanmasına yönəldilirdi. Mütəvəllilər gəlirlərin qeydiyyatını aparır, onların düzgün bölünməsinə cavabdeh olurdu.

İdarəetmədə şəffaflıq və sosial məsuliyyət prinsiplərinin qorunması vəqfnamələrdə ciddi şəkildə vurğulanır: vəqf əmlakının satılması, ailə mülkiyyətinə keçirilməsi və ya şəxsi məqsədlərlə istifadəsi qəti şəkildə qadağan olunmuşdu [5, 115-116]. Bu sistem məscidlərin dini-sosial fəaliyyətinin uzunmüddətli davamlılığını təmin edirdi.

Nəticə: Şuşa məscidlərinin vəqfnamələri şəhərin dini-mədəni və sosial tarixini öyrənmək üçün mühüm mənbədir. Təhlil göstərir ki, Şuşa məscidləri yalnız ibadət məkanı kimi deyil, həm də elm və təhsil mərkəzi, sosial yardım institutu, ictimai idarəçilik məkanı və iqtisadi fəaliyyətin təşkilatçısı kimi çoxşaxəli funksiyalar icra etmişdir. Bu funksiyalar şəhərin sosial strukturunda məscidin rolunu gücləndirmiş, Şuşanı Qarabağ bölgəsində dini-intellektual mərkəzə çevirmişdir. Vəqfnamələrdə təsvir olunan hüquqi-maliyyə mexanizmlər Şuşa məscidlərinin cəmiyyət qarşısında daimi öhdəlik daşıdığını, sosial və dini rifahı təmin etdiyini, icma birlik və həmrəyliyinin qorunmasında həlledici rol oynadığını ortaya qoyur.

Beləliklə, Şuşa məscidlərinin vəqfnamələrinin tədqiqi şəhərin keçmiş dini-sosial həyatının bütöv mənzərəsini açır və vəqf institutunun Qarabağ ictimai sistemində oynadığı mühüm rolu bir daha təsdiqləyir.

Ədəbiyyat siyahısı:

1. *Azərbaycan tarixi. Yeddi cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı. "Elm". 2007. 592 səh.*
2. *Boran, Ə. (2022). Azərbaycan ruhaniliyində Şuşadakı məscidlərin və imanlı insanların yeri. ("qarabağnamələr" əsasında). Orta Doğu ve Orta Asya-Kafkaslar Araştırma ve Uygulama Merkezi Dergisi, 2(1), 1-20. // https://dergipark.org.tr/en/pub/odak/issue/72767/1181647*
3. *Ələkbərli F. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı, "Elm və təhsil", 2020, 864 səh.*
4. *Hüseynov Y.R. Qarabağ tarixi mənbələrdə Bakı: "Şuşa" nəşriyyatı, 2012. – 248 s.*

5. *Qarabağnamələr. III kitab. Bakı, "Şərq-Qərb" 2006, 248 səh.*
6. *Şuşanın tarixi və memarlıq abidələri //* https://ryl.az/melumat-bazalari/Turk_dunyasinin_medeniyyet__paytaxti_Shusha_el_melumat_bazasi/pdf/abideler.pdf

TÜRK DÜNYASINDA MİQRASİYA VƏ ETNO-SİYASİ PROSESLƏR BARƏDƏ (ən qədim zamanlardan 1991-ci ilə qədər)

Səidə Quliyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin
"Dünya azərbaycanlıları: tarixi demoqrafiya"
ETL-nin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent
saidaquliyeva@bsu.edu.az;
ORCİD İD: 0000-0003-4320-3425,

Açar sözlər: *türk xalqları, etno-siyasi proseslər, miqrasiya, tarixi-demoqrafiya, hunlar, oğuzlar, qıpçaqlar*
Keywords: *Turkic peoples, ethno-political processes, migration, historical demography, Huns, Oghuzs, Kipchaks*

Türk xalqlarının köçü (miqrasiya) və onların yaşadıqları ərazilərdə baş verən etno-siyasi və tarixi-demoqrafik proseslər elmi müstəvidə müzakirə edilən aktual məsələlərdən biridir və tədqiqatımızın əsas mövzusunu təşkil edir. Tədqiqatın əsas məqsədi müasir türk dövlətlərinin ərazisində tarixən baş vermiş miqrasiyalara nəzər salmaq, onun etno-siyasi və tarixi-demoqrafik proseslərə təsirini aydınlaşdırmaqdır. Mövzunu araşdırmaq üçün erkən orta əsrlərdən başlayaraq XX əsrin sonlarına qədər baş verən miqrasiyalar təhlil edilir və ümumiləşdirilir.

Məlumdur ki, köçlər təkcə fərdi hərəkətlər deyil, bəzən bütöv tayfa, xalq və ya dövlətlərin həyatında dönüş nöqtəsi yaradan proseslər olmuşdur. "Köç" termini türk dillərində qədimdən mövcuddur və "hərəkət etmək", "yerini dəyişmək", "başqa yurda getmək" mənalarını ifadə edir. Müxtəlif dövrlərdə türk xalqları üçün bu anlayış həm iqtisadi fəaliyyətin, həm də mədəni kimliyin əsas elementi olmuşdur. Tədqiqat nəticəsində türklərin köçlərinə təsir edən amilləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1. İqtisadi səbəblər – torpaq və su qıtlığı, otlaq yerlərinin tükənməsi, dolanışıq vasitələrinin məhdudluğu.
2. İqlim və təbii şərait – quraqlıqlar, soyuqlar və ya digər təbii fəlakətlər.
3. Siyasi və hərbi amillər – döyüşlər, dövlətlərarası toqquşmalar, təzyiqlər və işğallar.
4. Dini və mədəni motivlər – dini inancların və mədəni təsirlərin dəyişməsi [8, 225-236; 9, 24-26; 13, 18-32, 52-56; 16].

Türk xalqlarında köç prosesi həm də mövsümü mərasim xarakteri daşıyırdı. Belə həyat tərzi yarımköçəri heyvandarlıqla əlaqəli olmuşdur.

Köçlər müxtəlif istiqamətlərdə baş vermişdir: şərqdən qərbə, şimaldan cənuba, daxili miqrasiyalar formasında. Türk xalqları tarixində şərqdən qərbə köçlər daha çox baş vermişdir. Onlar tarixən miqrasiya proseslərinin ən fəal iştirakçılarından olmuş, bu proseslər zamanı da dövlətçilik ənənələrini qoruyub saxlamışlar.

Əlbəttə ki, türklərin miqrasiya proseslərinin əsas növü hərbi-siyasi hadisələrlə əlaqədar olmuşdur. Bu zaman ideologiya onların hərbi yürüşlərinə (fütühat) haqq qazandırırdı: türk inancına görə hökmdar Tanrının yer üzündəki təmsilçisi sayılırdı və xalqı onun ədalətinə əsasən idarə edirdi [17, 122-133]. Bu səbəbdən də, Səlcuqlular və Osmanlılar fəthlərini Tanrının bəxş etdiyi haqq kimi dəyərləndirir, qazilik mübarizəsi apardıqlarını, insanları Bizans və xaçlıların zülmündən xilas etdiklərinə inanırdılar [12; 4, 52-287].

Türk xalqlarının tarixində miqrasiya prosesləri əsasən hunların, oğuzların və qıpçaqların fəaliyyəti ilə əlaqəli olmuşdur:

-Hunların şərqi Türküstandan cənub-qərbə və Xorasana köçü;

-Hunların Türküstandan Xəzərin şimalı ilə qərbə doğru köçü. Bu köç Avropaya qədər uzanmış, "Xalqların Böyük köçü"nə səbəb olmuşdur [2; 16; 17, 55-183; 11, 44-46, 82-92, 206-270; 13, 116-199; 18].

-Oğuz türkləri XI əsrdə Xəzərin şimal şərq sahillərindən Ceyhun hövzəsinə, oradan isə IX-X əsrlərdə Qafqaz və Anadolunun müxtəlif ərazilərinə köçərək Səlcuq və daha sonra Osmanlı dövlətlərini yaratmışlar [3, 93-995; 4, 52-287; 11, 190-205, 13, 315-333, 449-531; 17, 171-198, 203-217].

-Qıpçaq və karluk köçləri nəticəsində Mərkəzi Asiya və Şərqi Avropanın etnik xəritəsi dəyişmiş, türk xalqlarının Qafqaz, Ön Asiya və digər geniş coğrafiyada yayılması baş vermişdir [11, 278-285; 13, 346-351; 10, 6-12].

Köç türk xalqlarının tarixində yalnız coğrafi hərəkət deyil, həm də dövlətçilik və mənəvi dəyərlərə söykənən mürəkkəb bir proses kimi baş vermişdir. Türk xalqlarının qurduqları dövlətlərin idarə sistemi hərbi monarxiya olmuş, dövlət əsasən bir sülalə tərəfindən idarə edilmişdi. Digər xalqların nümayəndələri isə vəzir vəzifəsinə qədər yüksələ bilərdilər.

Tarixin yaxın dövrlərində - XIX-XX əsrlərdə türk dünyasında daha mürəkkəb tarixi-demoqrafik və etnosiyasi proseslər baş vermişdir. XIX əsrdən etibarən Qafqaz və Mərkəzi Asiyada müşahidə olunan etno-demoqrafik proseslər tarixi, siyasi və sosial baxımdan çoxşaxəli xarakter daşıyır. Bu çərçivədə müharibələr, miqrasiya prosesləri və əhali sayının dinamikasındakı dəyişikliklərin təhlili yalnız tarixi səbəb-nəticə əlaqələrini üzə çıxarmır, həm də demoqrafik göstəricilərin formalaşmasına təsir edən sosial-siyasi amilləri müəyyənləşdirməyə imkan verir.

XIX-XX əsrlərdə miqrasiya prosesləri türk dünyasının demoqrafik mənzərəsini əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Tədqiqat zamanı bu dövrdə aşağıdakı proseslər müəyyən edilmişdir:

-Miqrasiya və köçlər: qaçqınlıq, repressiya, deportasiya, etnik qrupların bir regiondan digərinə köçürülməsi;

-Etnik balansın dəyişməsi: müəyyən xalqların say nisbətində azalma və ya artım, regionda etnik eynilik və ya müxtəlifliyin formalaşması;

-Sosial-iqtisadi nəticələr: müharibədən sonra yaranan demoqrafik boşluqlar, şəhərləşmə və kənddən köç axınları;

-Demoqrafik dəyişikliklər: müharibələr nəticəsində əhali itkisi, doğum və ölüm göstəricilərinin dəyişməsi, gender nisbətinin pozulması.

Qafqaz və Mərkəzi Asiya regionları Rusiya imperiyası və sonralar Sovet İttifaqının tərkibində olduğu dövrlərdə ən dərin etno-demoqrafik dəyişikliklərə məruz qalan ərazilər olmuşdur. Hərbi-siyasi hadisələrlə əlaqədar Qafqaz və Mərkəzi Asiyanın müsəlman əhalisinin bir hissəsi Osmanlı və Qacar imperiyalarının ərazilərinə köç etmişdir. Osmanlı imperiyasına köçlərin əsas səbəblərindən biri dini amil idi, çünki sultan eyni zamanda İslam xəlifəsi idi. Qacar dövləti isə etnik baxımdan eyni mənşəli xalqların yaşadığı məkan olduğundan miqrasiya üçün daha yaxın istiqamət sayılırdı. Eyni zamanda, köçürmə siyasəti şəhərlərin etnik tərkibini dəyişmiş, yerli türk əhali iqtisadi və sosial baxımdan sıxışdırılmışdır. Torpaq islahatları və ruslaşdırma siyasəti etnik gərginliyi artırmış, gəlmə və yerli əhali arasında sosial bərabərsizliyi dərinləşdirmişdir. Bu ərazilərə kənar etnosların köçürülməsi, deportasiyalar və silahlı toqquşmalar nəticəsində əhalinin etnik tərkibi, məskunlaşdıqları ərazilər və miqrasiya istiqamətləri əhəmiyyətli dərəcədə dəyişmişdir. Bu səbəbdən də, mövcud dövlətlərin idarəçilik sistemində gəlmə etnosların, xüsusilə rusların iştirakı Rusiya imperiyası və SSRİ rəhbərliyinin maraqlarına uyğun idi [3, 393-430; 14, 139-170; 19, 27-46]. Eyni zamanda regiona köçürülən etnoslar bu gün türk dövlətlərinin etnik tərkibində yer tutmaqda davam edirlər. XIX əsrdən etibarən regionda müşahidə olunan bu proseslər həm tarixi-etno-demoqrafik proseslərin məzmununa, həm də region xalqlarının sosial-siyasi inkişafına təsir göstərmişdir. 1991-ci ildən sonra müstəqil türk dövlətləri tarixi proseslərin yaratdığı yeni siyasi və demoqrafik reallıqlarla qarşılaşmışdır.

Ədəbiyyat siyahısı:

1. *Aslanlı Araz. Tarihten Günümüzde Karabağ Sorunu. Avrasya Dosyası, Azerbaycan Özel Sayısı, 7 (İlkbahar), 2001, s.393-430.*
2. *Bahəddin Ögəl. Böyük hun imperiyası. I-II cildlər. Bakı, 1992.*
3. *Bartold Vasiliy. Orta Asya Dersleri. Ankara, Çağlar Yayınları, 2004, 223 s.*
4. *Erdoğan Merçil. Müslüman-türk devletleri tarihi. İstanbul, Yaylacık Matbaası, 2013*
5. *Faruk Sumər. Oğuzlar. Bakı, 1992*
6. *Feyziyev Cavanşir. Türk dünyası: 5 kitabda. İkinci kitab: Türk xalqları. – Bakı: Mütərcim, 2017. 328 səh.*
7. *Feyziyev Cavanşir. Türk dünyası: 5 kitabda. Üçüncü kitab: Türk dövlətçiliyi tarixi. – Bakı: Mütərcim, 2017. - 328 səh.*
8. *Qumilyov Lev. Etnogenez və yerin biosferi. Bakı, Nurlan, 2005. 551 s.*
9. *Qumilyov Lev. Qədim türklər. Bakı, Gənclik, 1993, 375 s.*
10. *Məmmədli Bəhram, Ənvər Çingizoglu. Oğuz-türkmən tayfaları orta əsr qaynaqlarında. Bakı, Sumqayıt Dövlət Universiteti, 2012. 115 s.*
11. *Muxtarova Əsməd. Türk xalqlarının dövlətçilik tarixi (qədim dövr və orta əsrlər). Dərs vəsaiti. Bakı, Adiloğlu, 2025, 316 s.*
12. *Nesimi Yazıcı. İlk Türk-İslam Devletleri Tarihi. Ankara, 1992, 146 s.*
13. *Nüsrətoğlu Telman, Əkbər N. Nəcəf. Türk dövlətləri və mədəniyyətləri tarixi. Bakı: "Çapar yayınları", 2024. 1128 səh.*

14. Özkul Osman, Vermez Hüseyn. Dağlık Karabağ Göçmenlerinin Sosyo-Ekonomik Sorunları. Bilig, Güz, 2009, Sayı 51, s.139-170.
15. Türkler Ensiklopedisi. 24 ciltte. Ankara, 2002.
16. Yunus Oğuz. Qədim türklər və passionarlıq nəzəriyyəsi L.N.Qumilyovun tədqiqatlarında. Bakı, "Apostrof" Çap Evi, 2012, 192 s.
17. Zeki Validi Toğan. Ümumi türk tarihine giriş. Enderun Kitapevi, 1981, 583 s.
18. Джафаров Юсиф. Гунны и Азербайджан. Bakı, 1993.
19. Сущий С. Я. Русские в странах Средней Азии: геодемографические тренды постсоветского периода // Социологические исследования. 2022. № 8. с. 27-46.

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN SƏRHƏD VƏ ƏRAZİ MƏSƏLƏLƏRİNƏ DAİR

Asəf Hacıyev
Bakı Dövlət Universiteti, Tarix fakültəsinin "Dünya azərbaycanlıları:tarixi-demoqrafiya" ETL-nin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru
asafhajiyev@rambler.ru;
orcid.org 0000-0002-5689-2410

Açar sözlər: *Cənubi Qafqaz, Azərbaycan Xalq Cümhuriyyəti, sərhəd, ərazi*
Keywords: *South Caucasus, Azerbaijan Demokratic Republic, border, territory*

Xalqımızın Rusiyaya qarşı milli azadlıq mübarizəsi nəticəsində 1918-ci il mayın 28-də yaranmış Azərbaycan Xalq Cümhuriyyəti türk-müsəlman Şərqində ilk parlamentli respublika olmaqla yanaşı, dünya tarixində ən demokratik dövlətlərdən biri idi. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı dövrdə sərhəd və ərazilərinin konkretləşdirilməsi zamanı çox ciddi problemlərlə üzləşmişdi. Belə ki, Azərbaycan qonşu ölkələrlə münasibətlərini bir sıra çətinlikləri aradan qaldırdıqdan sonra həll etməli idi. Ən çətin problem sərhədlərlə bağlı idi.

Əvvəlcə onu qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan bir gün sonra Azərbaycan və Ermənistan Milli Şuraları arasında sərhəd məsələləri üzrə danışıqların nəticəsi Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli iclasında müzakirə edildi. İclasda Aleksandropolun (Gümrünün) Türkiyə tərəfindən tutulması ilə əlaqədar Ermənistan hökumətinin İrəvanı özünə siyasi mərkəz seçməsi məsələsi nəzərdən keçirildi. Azərbaycanla Ermənistan arasında konfederasiya ehtimalını nəzərə alaraq, Azərbaycan Milli Şurası səs çoxluğu ilə (siyahıda 28 nəfərdən 20 nəfər iştirak edirdi. 16 nəfər lehinə, 1 nəfər əleyhinə, 3 nəfər bitərəf) İrəvan şəhərini Ermənistan Respublikasının mərkəzi kimi tanımağı mümkün saydı. Qərar qəbul edilərkən səs çoxluğu ilə yanaşı ermənilərin Dağlıq Qarabağa olan əsassız iddialarından imtina etməsi şərti nəzərə alındı. Beləliklə, 1918-ci ilin mayın 29-da İrəvan paytaxt olaraq Ermənistana verildi [6, s.23].

Azərbaycanın sərhəd-ərazi məsələsi ilə əlaqədar 1918-ci ilin noyabrında Əlimərdan bəy Topçubaşovun Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə göndərdiyi xüsusi memoranduma əsasən, Azərbaycan Xalq Cümhuriyyətinin ərazi-

ləri belə qeyd edilirdi: **Bakı quberniyası** (Bura daxil idi - Bakı dairəsi ilə birlikdə Bakı qəzası, Cavad qəzası, Göyçay qəzası, Şamaxı qəzası, Quba qəzası və Lənkəran qəzası), **Yelizavetpol (Gəncə) quberniyası** (Bura daxil idi - Yelizavetpol (Gəncə) qəzası, Cavanşir qəzası, Nuxa qəzası, Ərəş qəzası, Şuşa qəzası, Qaryagin (Cəbrayıl) qəzası, Zəngəzur qəzası, Qazax qəzası (bu ərazinin üçdə birini təşkil edən dağlıq hissəsi Azərbaycan və Ermənistan arasında mübahisəli ərazi kimi qalırdı), **İrəvan quberniyası** (Bura daxil idi - Naxçıvan qəzası, Şərur-Dərələyəz qəzası, Sürməli qəzası, Yeni Bəyazid qəzası, Eçmiədzin və Aleksandropol (Gümrü) qəzalarının bir hissəsi), **Tiflis quberniyası** (Bura daxil idi - Borçalı qəzası, Tiflis və Sığnax qəzalarının bir hissəsi), **Zaqatala mahalı, Dağıstan vilayəti** (Kürə və Samur nahiyələrini əhatə edən ərazinin bir hissəsi, habelə Dərbənd şəhəri və onun ətrafı da daxil olmaqla, Qaytaq Tabasaran qəzasının bir hissəsi). Memorandumda Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin Paris sülh konfransına təqdim etdiyi sənədlərə görə, Azərbaycan Xalq Cümhuriyyətinin həqiqi hakimiyyəti altında olan ərazi Cənubu Qafqaz ərazisinin 38%-ni, Azərbaycan hakimiyyətinin yayıldığı ərazilərlə birlikdə isə 60,7%-ni əhatə etdiyi göstərilirdi [2, s.15].

Dövlət sərhədlərinin müəyyən edilməsində Cənubi Qafqaz respublikaları özlərinə nisbətən yaxın bildikləri, nüfuzlu, bölgədəki problemləri həll etmə gücündə olan bir neçə dövlətə öz layihələrini təqdim etmişdilər. Azərbaycan nümayəndələrinin ərazi-sərhəd məsələləri ilə bağlı Türkiyə və Almaniya tərəfinə təqdim etdikləri layihədə Azərbaycan sərhədlərinin müəyyənləşdirilməsi üçün hazırlanmış həmin layihələrin birinə əsasən Azərbaycan ərazisi 96.502 kv.km. mübahisəsiz ərazi-yə malik idi. Paris sülh konfransının katibliyinə təqdim edilmiş 50 səhifəlik "Qafqaz Azərbaycanı Respublikasının nümayəndəliyinin Paris sülh konfransına memorandumu"nda hökumətin nəzarəti altında olan mübahisəsiz ərazinin 94,137,38 kv.km. olduğu göstərilirdi. Həmin illərdə dərc olunmuş Ünvan - təqvimdə isə Azərbaycanın mübahisəsiz ərazisi 97,297,67 kv.km. mübahisəli ərazilərlə birlikdə isə 113,895,97 kv.km. qeyd edilirdi.

Ümumiyyətlə, ermənilərin sərhəd xəttinin müəyyən edilməsinə dair iddialarına görə, Azərbaycanla Ermənistan arasında sərhəd xətti Gəncə yaxınlığından keçərək Kür çayı boyunca uzanır, sonra isə Qarabağın, Zəngəzur və Cəbrayıl qəzalarının inzibati sərhədləri boyunca Qacarlar dövlətinin sərhədlərinə qovuşurdu. Belə olduğu halda bütün İrəvan quberniyası və Gəncə quberniyasının əksər torpaqları ermənilərə verilməli idi.

Sovet dövründə Azərbaycanın tarixi ərazilərinin qonşu dövlətlərin əraziləri kimi göstərilməsi cəhdlərinə baxmayaraq, bəzi mənbələrdə Azərbaycanın Ermənistanla mübahisəli sərhədləri barədə obyektiv məlumatlar da əksini tapmışdır. Rusiyanın Mərkəzi Dövlət Arxivində Azərbaycan-Ermənistan sərhədlərini əks etdirən "Azərbaycan SSR-nin mübahisəsiz ərazisinin Ermənistanla sərhədinin təsviri" sənədində - Azərbaycanla Ermənistanın sərhədi Sürməli qəzasından Araz çayınadək olan əvvəlki inzibati sərhəddən keçir: Bu sənəddə Ağamzalı, Baş-Gərni və İmirzin kəndləri, daha sonra Yeni-Bəyazid və Şərur-Dərələyəz qəzalarından keçərək Göyçə gö-

lündən dönməklə Gözəl-Dərə kəndi Ermənistana, Daşkənd və Basarkeçər kəndlərinin isə Azərbaycana məxsusluğu qeyd edilir. Sərhəd Göyçə gölünü yarıdan bölür, sonradan Gəncə və İrəvan quberniyalarından keçməklə Çubuğlu kəndi Ermənistana, Göyçə gölünün qalan şərq sahili isə Azərbaycana qalır. Bu bölgü nəticəsində Gəncə quberniyası və Sürməli, Naxçıvan, Şərur-Dərələyəz, İrəvan quberniyalarının bütün qəzaları, eləcə də Kəmərli, Böyük Vedi və Dəvəli kəndləri, həmçinin Yeni Bəyazidin şərq hissəsi Azərbaycan ərazisinə daxildir. Azərbaycan və Ermənistan cümhuriyyətlərinin mövcudluğu dövründə ərazi-sərhəd məsələlərinin çözülməsi səyləri sonadək davam etdirilsə də, ancaq həllini tapmadığına görə hər iki respublikanın sərhədlərinin müdafiəsi üçün müvafiq tədbirlərin görülməsinə əngəllər törətməklə, bolşevik işğalına yol açan səbəblərdən birinə çevrildi.

Azərbaycanla Gürcüstan arasında sərhəd mübahisələri də iki dövlət arasındakı münasibətləri kəskinləşdirmişdi. Belə ki, Gürcüstan hökuməti əhalisi türk-müsəlmanlardan ibarət olan Tiflis quberniyasına daxil edilmiş Azərbaycan torpaqlarını - Borçalı, Qarayazı, Sığnax və Zaqatala mahallarını Azərbaycana qaytarmaqdan imtina edirdi. Gürcüstan Respublikası ilə sərhədlərin müəyyənləşdirilməsi sahəsində Azərbaycan tərəfindən ilk addım 1918-ci il iyunun 26-da Zaqatala dairəsi Milli Şurası bölgənin Azərbaycana birləşməsi haqqında yekdilliklə qərar qəbul etməsi ilə atıldı. İyunun 30-da isə AXC hökuməti özünün müvafiq qərarı ilə Zaqatala dairəsinin Azərbaycanın tərkibinə daxil edilməsini rəsmiləşdirdi. 1918-ci il avqustun 21-də Gürcüstan hökuməti Azərbaycan və Gürcüstan arasında mübahisəli sərhəd məsələlərini həll etmək üçün arbitraj komissiyanın yaradılması haqqında qərar qəbul etdi və avqustun 31-də bu barədə Azərbaycan tərəfinə məlumat verildi [3, s.86]. Lakin çar generalı Denikin ordusunun Dağıstana hücumu və cənuba doğru irəliləməsi Azərbaycan-Gürcüstan əməkdaşlığını həyati əhəmiyyətli məsələyə çevirdi. 1919-cu il iyunun 16-da iki dövlət arasında üç il müddətinə bağlanmış hərbi müdafiə paktına (ittifaqı) görə, Azərbaycanın və Gürcüstanın müstəqilliyi və ərazi bütövlüyü hər hansı dövlət tərəfindən hərbi müdaxiləyə məruz qalardısa, tərəflər birbirinə hər cür hərbi yardım göstərməli idilər [1,s.270]. Azərbaycanın sovetləşməsindən qabaq gizli şəkildə Moskva ilə danışıqlara girərək Rusiya tərəfindən ölkəmizin işğalına bitərəf qalacağına söz verməklə Cümhuriyyət qarşısında hərbi müttəfiqlik öhdəliyinə xəyanət edən Gürcüstan Respublikası 28 aprel istilasından sonra, 1920-ci ilin may ayında Azərbaycanın Qazax, Ağstafa və Zaqatala bölgələrinə qoşun yeritmişdi. Çox maraqlıdır ki, Azərbaycan SSR-nin iştirakı olmadan Rusiya ilə Gürcüstan arasında 1920-ci ilin mayın 12-də Moskvada bağlanmış müqavilə ilə Azərbaycanın Zaqatala bölgəsi və digər tarixi əraziləri "mübahisəli" hesab edilmişdi. Yalnız 1921-ci ilin fevral ayında Gürcüstanda sovet hakimiyyəti qurulduqdan sonra Gürcüstan Zaqatala dairəsinə olan iddiasından əl çəkmişdi. 1922-ci ildə iki sovet respublikası arasında dövlət sərhədlərinin müəyyənləşdirilməsi zamanı Moskva Gürcüstanın maraqlarını əsas götürərək Azərbaycanın tarixi Qarayazı ərazisini iki yerə bölərək yuxarı hissəsini Gürcüstana vermişdi. Düzdür Tifliz qəzasından 79 min 600 desyatin ərazi Azərbaycana qaytarılsa da, 1920-ci illərin ikinci ya-

rısında bir sıra ərazilərimiz Moskvanın təzyiqi ilə Gürcüstana güzəştə gedilmişdi. 1921-ci il iyulun 7-də Rusiya Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin Qafqaz Bürosunun qərarı ilə Gürcüstan SSR-nin iddia etdiyi Lori ərazisi və əhalisinin əksəriyyətini türklər təşkil edən Borçalı qəzasının mərkəzi hissəsi, 1922-ci ildə isə tarixi türk torpaqları olan Axalkələk və Axısxa Gürcüstan SSR-nin tərkibində saxlanılmışdı [1,s.282-284]. Nəticədə Zaqatala mahalı istisna olmaqla, Tiflis quberniyasına məxsus olan torpaqlar yəni, Borçalı, Qarayazı və Sığnax qəzaları (8,685,13 kv.km.) Gürcüstana verildi.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə ərazisi 113,895,97 kv.km təşkil edirdi. Bunun 97,297,67 kv.km-i mübahisəsiz, 16,598,30 kv.km-i isə İrəvan və Tiflis quberniyaları üzrə mübahisəli ərazi hesab edilirdi.

Mübahisəsiz ərazi hesab edilən 97,297,67 kv.km-ə daxil idi - Bakı quberniyası üzrə 39,075,15 kv.km, Gəncə quberniyası üzrə 44,371,29 kv.km, Zaqatala mahalı üzrə 3.992,54 kv.km, İrəvan quberniyası üzrə isə 9.858,69 kv.km təşkil edirdi.

İrəvan quberniyası üzrə mübahisəli ərazi: 17,771,86 kv.km ümumi ərazisi olan İrəvan quberniyasının 7,913,17 kv.km ərazisi mübahisəli hesab edilirdi. Bura İrəvan qəzasının I, II, III və IV poIis sahələri, Eçmiədzin qəzasının II və III polis sahələri, Sürməli qəzasının I, II və III polis sahələri, Yeni Bəyazid qəzasının III polis sahəsinin bir hissəsi daxil idi.

Tiflis quberniyası üzrə mübahisəli ərazi: Tiflis quberniyasının mübahisəli ərazisi 8,685,13 kv.km təşkil edirdi. Bura Tiflis qəzasının II və III polis sahələri, Sığnax qəzasının V polis sahəsi və Borçalı qəzasının I, II, III və IV polis sahələrinin bir hissəsi daxil idi. Ümumilikdə İrəvan və Tiflis quberniyaları üzrə mübahisəli ərazi 16,598,30 kv.km-dir [1, s.12].

Azərbaycan Xalq Cümhuriyyəti dövründə mübahisəsiz və mübahisəli ərazilər

Ərazinin adı	kv.km	Qeyd
Bakı quberniyası	39,075,15	Mübahisəsiz ərazi
Yelizavetpol (Gəncə) quberniyası	44,371,29	Mübahisəsiz ərazi
Zaqatala mahalı	3,992,54	Mübahisəsiz ərazi
İrəvan quberniyası	9,858,69	Mübahisəsiz ərazi
Cəmi	**97,297,67**	**Mübahisəsiz ərazi**
İrəvan quberniyası	7,913,17	Mübahisəli ərazi
Tiflis quberniyası	8,685,13	Mübahisəli ərazi
Cəmi	**16,598,30**	**Mübahisəli ərazi**
Yekun	**113,895,97**	**Ümumi ərazi**

Mənbə: *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II cilddə, I cild. Bakı, "Lider nəşriyyatı", 2004, səh.12*

Azərbaycan Xalq Cümhuriyyətinin Cənub sərhədlərinə gəlincə, bu sərhədlər Türkmənçay müqaviləsində (1828) müəyyən edilmiş xətt boyunca uzanırdı və müstəqil dövlətin qurulmasından sonra da bu sərhədlər əsasən dəyişilməz qalmışdı. Qacarlar dövləti ilə sərhədlərin mühafizəsi məsələləri də daxil olmaqla münasibətlərin nizamlanması sahəsində danışıqlara gəlincə, 1919-cu il noyabrın 1-də Parisdə 4 maddədən ibarət Qacarlar dövlətinin Azərbaycan Xalq Cümhuriyyəti ilə İttifaq haqqında bağlanmış sazişə görə, Rusiyada hansı dövlət forması və quruluşa malik olmasından asılı olmayaraq, Qafqaz Azərbaycanı Azərbaycan nümayəndəliyinin Sülh konfransına təqdim etdiyi tələblərdə və xəritələrdə göstərilən sərhədlərdə qəti surətdə birdəfəlik Rusiyadan ayrılırdı.

Nəticə. Ümumiyyətlə, Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi qısa dövr ərzində ərazisini və sərhədlərini qorumaq sahəsində mühüm işlər gördü. Lakin 1920-ci ildə Cümhuriyyətin devrilməsindən sonra Sovet Rusiyasının yeritdiyi ayrıseçkilik siyasəti nəticəsində Şimali Azərbaycan torpaqlarının mühüm bir hissəsi - İrəvan quberniyasına daxil olan torpaqlar Ermənistanın (həm mübahisəli - 9.858.69 kv.km, həm də mübahisəsiz - 7.913.17 kv.km əraziləri-cəmi 17,771,86 kv.km.), Tiflis quberniyasına daxil olan torpaqlar Gürcüstanın (8,685,13 kv.km.), Dərbənd və onun ətrafları isə Rusiyanın tərkibində qaldı. Bununla da Azərbaycan Xalq Cümhuriyyətinin 27,2 min kv.km. ərazisi Azərbaycan xalqının əlindən alındı və nəticədə yeni yaradılan Azərbaycan Sovet Sosialist Respublikasının sərhədləri 86,6 min kv.km. təşkil etdi. Beləliklə, tarixi Azərbaycan torpaqları hesabına Ermənistanın ərazisi 29,8 min kv.km-ə. Gürcüstanın ərazisi isə 69,7 min kv.km-ə çatdırıldı. Əlbəttə bütün bu mənfur və dəhşətli siyasəti həyata kecirən, Qacarlar dövləti və Osmanlı imperiyası ərazisindən Cənubi Qafqaza, o cümlədən Azərbaycana 1 milyondan çox erməni köçürürək yerləşdirən Rusiya idi [4, s.7]. Bunu XX əsrin əvvələrində Cənubi Qafqazın demoqrafik mənzərəsi ilə bağlı Rusiya mənbələrində - daha doğrusu Qafqaz İpəkçilik Stansiyasının rəhbəri olmuş Nikolay Şavrovun məlumatlarında bir daha görmək olar. Belə ki, N.Şavrov qeyd edir ki,1 milyon 300 mindən artıq ermənin 1 milyondan çoxu bölgənin yerli əhalisi deyil, məhz Rusiya tərəfindən bu ərazilərə köçürülərək məskunlaşdırılmışdır [5, s.60].

Ədəbiyyat siyahısı:

1. Azərbaycan tarixi (ən qədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Bakı, Füyuzat nəşriyyatı, 2024, 447 səh.

2.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II cilddə, I cild. Bakı, "Lider nəşriyyatı", 2004, 440 səh.

3. Nəsibli Nəsib. Azərbaycan Demokratik Respublikasının xarici siyasəti. Bakı, "Qanun nəşriyyatı", 2011,328 səh.

4. Rəhmanzadə Şamil. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (1917-1930-cu illərin əvvəlləri). Bakı, "Aspoliqraf", 2008, 376 səh.

5. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье Предстоящая распродажа Мугани инородцам / [Соч.] Н.Н. Шаврова. — Санкт-Петербург: Рус. собрание, 1911. -78 с.

6.Щепотьев Александр. Доклад о спорных Кавказских территориях, на которые имеет права Азербайджанские тюрки. Баку, 2016, с.88

XIX – XX ƏSRDƏ BAKI ŞƏHƏRİNƏ VƏ ƏHALİSİNƏ DAİR MƏLUMATLAR TARİXİ ƏSƏRLƏRDƏ VƏ MƏNBƏLƏRDƏ

Ulduz Paşayeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" ETL-nin böyük elmi işçisi
star.miri@mail.ru; ulduspashayeva@bsu.edu.az

Açar sözlər: *Bakı, əhali, mənbələr, səyyahlar, kəndlər, müəlliflər*
Keyword: *Baku, population, sources, travelers, villages, authors*

Tarixən Azərbaycanın mərkəz və paytaxt şəhərlərindən biri olan Bakı şəhəri və onun əhalisi həm tarixi xronika yazanların, həm müxtəlif ölkələrdən Azərbaycana gələn elçilərin və səyyahların, həm də sonrakı dövrlərdə tədqiqatçı-tarixçilərin diqqət mərkəzində olmuş, bu mövzuya dair qiymətli məlumatlar verilmişdir. Bu baxımdan XIX-XX əsrin əvvəlləri dövrü də istisna təşkil etmir, əksinə, Şimali Azərbaycanın Rusiya tərəfindən işğalından sonra, xüsusilə neft sənayesinin inkişafı ilə əlaqədar olaraq Bakıya olan maraq və diqqət daha da artmışdı. Şəhərin tarixinin öyrənilməsinin aktuallığı da bu səbəblə izah olunmalıdır.

Əsas hissə: Bakı şəhərinin tarixinin öyrənilməsində misilsiz xidmətləri olan azərbaycanlı alim Sara Aşurbəyli öz tədqiqatları nəticəsində belə bir qənaətə gəlmişdir ki, Bakı şəhəri çox qədim zamanlarda yaranmışdı. Sara Aşurbəylinin "Orta əsrlər Bakısının tarixi oçerki" [1], Tağı Musəvinin "Bakı tarixinə dair orta əsr sənədləri" [3], Qılman İlkinin "Köhnə Bakını tanıyırsanmı?" [4], "Bakı və bakılılar" [5], kitablarında şəhərin əhalisi, tarixi demoqrafiyası haqqında məlumatlar burada yer almışdır. Tarixçi Sara Aşurbəyli yazırdı...: "şübhəsiz I əsrdə artıq Bakı o qədər də böyük olmayan liman şəhəri idi və onun barəsində sonralar ərəblər məlumat vermişlər, onun formalaşması isə daha erkən dövrlərə aiddir. Şəhər ehtimal ki, daha qədim çağlarda yaranmış kiçik bir yaşayış məskəninin bazasında böyüməyə başlamışdı. Deməli, belə güman etmək olar ki, bir antik şəhər olmaq etibarı ilə Bakının 2000 ildən çox yaşı var" [2]. Sara Aşurbəylinin "Bakı şəhərinin orta əsrlər tarixi" adlı tədqiqat əsərində erkən və klassik orta əsrlərdə Bakı neftinin çıxarılması və emalı üzrə mühüm mərkəz olan Bakı şəhərinin sosial-iqtisadi, siyasi, mədəni və müasir dövrədək qalmış memarlıq abidələrindən bəhs etmiş, elm və təsviri incəsənətin inkişafına diqqət yetirilmişdir [2].

Fuad Tağıyevin "İstoriya qoroda Baku v pervoy polovine XIX veka (1806-1859)" monoqrafiyası maraqlı faktlarla zəngindir [14]. Monoqrafiyada tədqiqat obyekti Bakı şəhərinin tarixi, 1806-cı ildə Rusiya imperiyası tərəfindən eyni adlı xanlığın tərkibində fəth edildiyi vaxtdan 1859-cu ilə qədər, yəni şəhərə quberniya mərkəzi statusu verilənə qədər olan tarixidir. Əsərdə XIX əsrin birinci yarısında Bakı şəhərinin sosial-iqtisadi, siyasi və mədəni həyatı ətraflı işıqlandırılmış, Bakı şəhərinin sosial-iqtisadi tarixinin bir çox sahələri, burada yaşamış əhalinin sayı və yerləşməsi haqqında məlumatlar verilmişdir.

Qılman İlkinin "Bakı və bakılılar" kitabının ən maraqlı bölmələrindən biri "Bakı kəndləri" adlanır. Müəllif 1870-ci il siyahısına istinadən 41 kəndin adını çəkir: Bibiheybət, Keşlə, Əhmədli, Zığ, Hövsan, Türkan, Zirə, Qala, Binə, Suraxana, Əmircan, Ramana, Balaxanı, Sabunçu, Bülbülə, Dərnəgül, Binəqədi, Digah, Məhəmmədli, Zabrat, Fatmayi, Novxanı, Saray, Masazır, Corat, Goradil, Pirşağı, Kürdəxana, Maştağa, Nardaran, Bilgəh, Buzovna, Şağan, Mərdəkan, Güzdək, Hökməli, Xırdalan, Xoca Həsən, Pirəkəşkül, Biləcəri, Qobu kəndləri. 1813-cü il məlumatına görə Bakının ən iri kəndi olan Maştağada 582 nəfər, Novxanı kəndində 202 nəfər yaşayırmış, Mərdəkanın əhalisi isə 94 nəfər imiş. Müəllif bu kəndlər və əhalisi haqqında qısa məlumat verir [5].

Təvəkkül Səlimovun Bakı kəndləri seriyasından olan "Türkan", "Qala", "Şüvəlan", "Binə", həmçinin "Abşeron və abşeronlular" və digər kitablarında da Bakı haqqında ətraflı məlumat vardır [6;7;8;9;10].

Hicabə Sadıqova 2016-cı ildə nəşr edilmiş "XIX-XX əsrin əvvəllərində Bakı şəhəri əhalisinin etnik və ictimai tərkibi" adlı əsərində [11], Bakı əhalisinin etnik tərkibi və sosial quruluşu araşdırılmışdı.

Nərgiz Quliyevanın 2011-ci ildə nəşr olunan "XIX-XX əsrlərdə Bakı şəhər əhalisinin ailə və ailə məişəti" adlı monoqrafiyası XIX əsrin sonu - XX əsrin əvvəllərində Bakı şəhər əhalisinin ailə və ailə məişəti, həmçinin şəhərin tarixi, toy və dəfn mərasimləri, ailələrin sosial-mədəni həyatı etnoqrafik baxımdan qısa şərh olunur. Müəllif qeyd edir ki, XIX əsrin sonlarında Bakı dörd hissəyə – İçərişəhər, Bayır şəhəri, Qara şəhər və Ağ şəhər adlandırılan hissələrə bölünürdü: İçərişəhər ən qədim yaşayış məskəni kimi özünəməxsus mədəni-məişət xüsusiyyətlərini saxlayırdı. Bayır şəhər inzibati və ticarət mərkəzi olmaqla yanaşı, həm də ən müxtəlif əhali qruplarının məskunlaşdığı ərazi idi. Burada milyonçuların tikdirdiyi dəbdəbəli saraylar, dükanlar, əyləncə yerləri, inzibati binalar və s. mövcud idi. Sırf sənaye rayonu olan Qara şəhərdə o dövrdə neft emal edən müxtəlif müəssisələr yerləşirdi. Bu rayonun sakinlərini əsasən fəhlələr təşkil edirdi. Ağ şəhərin əhalisi isə həm yerlilərdən, həm də gəlmələrdən ibarət idi [12, s.52].

Mehparə Xəlilovanın "XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıda sənətkarlıq" adlı monoqrafiyası Bakı şəhərindəki sənətkarlığın etnoqrafik tədqiqinə həsr edilmişdir [13].

Problemin ayrı-ayrı tərəflərinin araşdırılmasına hələ çar Rusiyası dövründə başlanmış, bu iş sovet hakimiyyəti illərində davam etdirilmişdir. N.Berezin, Q.Rostovtsev, N.Zeydlis, S.Bronevski, N.Borozdin, Y.Vodarski, İ.Petruşevski, V.Alışevski və başqa müəlliflərin əsərlərində XIX-XX əsrin əvvəllərində Bakı şəhərində gedən demoqrafik proseslər, ilk növbədə, əhalinin etnik və sosial tərkibi haqqında xeyli qiymətli materiallar vardır.

XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanda baş vermiş demoqrafik dəyişikliklərlə əlaqədar D.İ.İsmayılzadənin, E.B.Muradəliyevanın, K.K.Şükürovun, B.A.Lernerin və başqalarının araşdırmalarında da Bakı şəhəri barədə müəyyən məlumatlar verilmişdir. E.B.Muradəliyeva XIX əsrin II yarısında Şimali Azərbaycan şəhərlərinin tarixini, K.K.Şükürov isə XIX-XX əsrin əvvəllərində Azərbaycanda

kəsbkarlıq tarixi problemini və qədim zamanlardan müasir dövrədək əhali problemi məsələlərini tədqiq etmişdilər.

Hələ 1683-cü ildə Bakıda qonaq olan məşhur alman səyyahı Engelbert Kempfer Bakını belə təsvir etmişdir: "Şəhərin yuxarı hissəsində gözəl bir saray vardır ki, bu Şah sarayı adlanır. Saray qayanın üstündə, doğrudan da əzəmətli tikilmişdir...Sarayın qapısına üzbəüz oturmuş iki şir şəkli həkk olunmuşdur. Onların başları üstündə başqa bir heyvan başının şəkli də vardır. Elə bil ki, dəvə başıdır. Belə təsvirlər şəhərin ikinci qapısının üstündə də həkk olunmuşdur". 1826-cı ildə Bakıda altı ay qalmış görkəmli səyyah Zeynalabdin Şirvani də şəhərin konkret təsvirini vermişdir. O yazırdı: "Bakını Badkubə də adlandırırlar. Çünki bu yerdə daim küləklər əsir. Bəzən elə güclü əsir ki, şəhərin böyük tikililərini də xəsarətə uğradır. Buna görə də burada evlərin özülünü yonulmuş daşlardan qoyur, həyətləri və damları qırla örtürlər" [12].

1842-ci ildə Bakıda olmuş Kazan Universitetinin professoru İ.Berezin belə yazırdı "Bakı qalası doğrudan da iki tərəfdən iki cərgə divarla dövrəyə alınmışdır. Dəniz tərəfdən isə divar bir cərgədir. Qaldırma körpüsü vardır. Yaxşı müdafiə olunur. Cənub-qərb tərəfdən isə şəhərin ətrafında təpələr ucalır. Hasar türklərin Dağıstanda hökmranlığından qabaq tikilmişdir. Hazırda bəzi yerləri uçub tökülüb. O, hündür, enli və möhkəmdir...Bakı qalasının iki qapısı vardır: biri şimal-qərbdə Şamaxı qapısı, o biri isə cənub-qərbdə Dağlıq qapısı. Dəniz tərəfdənsə bir neçə girişlər vardır". 1856-cı ildə Bakıda olmuş rus yazıçısı A. F. Pisemski də azərbaycanlılar haqqında xoş sözlər yazmışdı: "Onlar (bakılılar-U.P.) Həştərxan tatarlarına oxşamadıqları halda mənə dedilər ki, tatardırlar. Dağlı, ləzgi xarakteri onların geyimlərində, bədən quruluşlarında və sifətlərinin nəcib hərbçi cizgilərində ifadə olunurdu". A.Anisimovanın 1906-cı ildə çapdan çıxmış "Qafqaz" kitabında azərbaycanlılar barədə aşağıdakı sözləri oxuyuruq: "Azərbaycanlılar öz əxlaq və adətləri ilə gürcülərdən fərqlənirlər... Çox müstəqil xalqdırlar. Hamının sifəti ciddidir. Öz ləyaqətlərini başa düşəndirlər. Bir-birlərinə hörmətlə yanaşırlar. Onlarda elə düzlük görərsən ki, buna heç yerdə rast gəlməzsən. Qonaqpərvərdirlər..." [3, s.67].

Fransız yazıçısı Aleksandr Düma 1858-ci ildə Bakıda olmuş və gördüklərini özünün "Qafqaz səfəri haqqında"kı kitabında geniş təsvir etmişdir: "Bakıya daxil olmaq orta əsrlərin alınmaz qalalarından birinə girmək təsiri bağışlayır. Divarları üç qat olan (burada Düma yanılırdı) qalanın qapıları o qədər dardır ki, üç at qoşulmuş arabanı içəri keçirmək üçün yan atı açmalı olduq. Qapının iki tərəfində xəndəklər qazılmışdı: lazım gələndə bunlara su buraxılırdı. Belə xəndəklər bir-birindən təxminən on-on beş addımlıqda olan divarların arasında da qazılmışdı. Darvazalar açılan kimi asma körpülər xəndəyin üstünə endirilirdi. Gecə şəhər yuxuya getdiyi zaman üzərinə dəmir təbəqələr çəkilmiş darvazalar kip bağlanır və bürcün üstündə gəzişən keşikçilər darvazaları qoruyurdular. Bir sözlə, Bakı möhkəmləndirilmiş feodal şəhərinə çevrilmişdi". 1883-cü ildə rus dramaturqu A.Ostrovski də Bakıda olmuş və gündəliyində Bakının xəzrisindən bəhs edərək yazırdı: "Külək elə əsirdi ki, ayaq üstə durmaq mümkün deyildi. Bu, məşhur Bakı xəzrisi idi. Şəhərin bu başından girib, o başından çıxır və dəhşətli tozanaq qoparırdı. Üz-gözünü nə

qədər gizlətsən də ondan yaxa qurtara bilmirsən. Deyilənlərə görə, burada xəzri hətta ağzı bağlı konserv qutusuna da soxula bilir"...[11].

1898-ci ilin payızında Bakıda olmuş səyyah B.Brandtın də qeydləri çox maraqlıdır: "Bakı ilk nəzərdə adi böyük bir əyalət şəhəri təsiri bağışlayır. Bir və iki mərtəbəli evlər, çirkli küçələr və səkilər...Kerosinlə zəif işıqlandırılan küçələrdə gecələr getmək çox qorxuludur. Lakin bir-iki mərtəbəli evlərlə yanaşı orda-burda əzəmətli evlər və pasajlar, əzəmətli memarlıq nümunələri olan imarətlər də vardır. Neftlə yanan lampalarla yanaşı mağazaları, məhəllələri işıqlandıran iri elektrik fanarları da vardır...Yaşıllıq demək olar ki, yoxdur. Bütün şəhərdə nə bir bağ, nə də bir ağac görərsən. Təkcə şəhərin bağı vardır...". Akademik İ.Qubkin Xəzər dənizi səthinin qalxıb-enməsinin dinamik proseslər nəticəsində baş verdiyini göstərərək, yazırdı: "Suyun altında qalmış şəhər haqqında rəvayətlər əfsanə deyil, həqiqətdir. Bakı limanında olan kiçik bir karvansaranın 700 illik tarixi buna sübutdur..." [3, s.3-5].

Müəlliflərdən V.Veliçkonun 1904-cü ildə Sankt-Peterburqda çap edilmiş külliyyatının birinci cildində azərbaycanlıların həyat və xarakterinə geniş yer ayrılmışdır. O yazırdı: "Azərbaycanlıların qanı, şübhəsiz ki, nəcib qandır. Onlar təbiətcə xeyirxah, cəsur, alicənab, ağıllı, əməyə, əxlaqi inkişafa müqtədir olublar. Azərbaycanlıları tatar adlandırırlar, bu tamamilə səhvdir. ...Əsas mənşəyi etibarilə azərbaycanlılar türkdürlər, qədim oğuzların, səlcuqların qan qohumudurlar...". Fransız yazıçısı Aleksandr Düma Bakıda və Azərbaycanda olduğu zaman azərbaycanlıların insanpərvərlik və xeyirxahlığını yaxından duymuşdu. O, "Qafqaz səfəri" kitabında yazırdı: "Bu xalq (Azərbaycan xalqı) vaxtı ilə müzəffər olmuş və indinin özündə də daxilən döyüşkən olaraq qalır... Azərbaycanlı ilə bir şey barədə sövdələşəndə ondan imzalanmış sənəd tələb etməyə ehtiyac yoxdur".

V.Alışevskinin 1922-ci ildə nəşr etdirdiyi "Qorod Baku i promıslovo-zavodskoy rayon po dannım perepisi 1913 q." [15] əsərini xüsusi qeyd etmək istərdik. Müəllif çoxhissəli əsərində hələ 1913-cü ildə Bakı və onun ətrafında keçirilmiş siyahıyaalmaların nəticələrini ətraflı şəkildə təhlil etmişdir. V.Alışevski çar Rusiyasının müstəmləkəçilik siyasəti dövründə burada reallaşdırılmış siyahıyaalmalarının keçirilməsini ətraflı şəkildə təhlil etmiş və bununla da həm 1903, həm də 1913-cü il Bakı şəhəri üzrə əhali sayımının dövrümüzə kimi gəlib çatmasına xidmət göstərmişdir.

Tarixçi Səidə Əli qızı tədqiqatında qeyd edir: "Çar II Nikolayın 1905-ci il 2 mart tarixli əmrinə əsasən Bakıya göndərilmiş senator Kuzminski Bakı şəhərini və Bakı quberniyasını təftiş etdikdən sonra 686 səhifədən ibarət olan böyük həcmli hesabat tərtib edib çara təqdim etmişdir. Hesabatın materialları ilk dəfə 1905-ci ildə Sankt-Peterburqda, 1906-cı ildə isə Bakıda nəşr olunmuşdur. Senator Kuzminskinin təftişi üzərinə qoyulmuş ali vəzifələr sırasında bu diyarın iqtisadi vəziyyətinin öyrənilməsi xüsusi yer tuturdu"[16]. Beləliklə, XX əsrin əvvəllərində həyata keçirilmiş Kuzminskinin senat təftişinin materialları həmin dövrdə Azərbaycanın real ictimai-siyasi və iqtisadi vəziyyətini öyrənmək üçün qiymətli mənbələrdən biridir.

Beləliklə, Bakı şəhəri və onun əhalisinə olan maraq bu gün də xüsusi aktuallıq kəsb edir. Araşdırmada adları çəkilən müəlliflərin bu sahədə əldə etdiyi uğurlar müasir dövr tarixçilərinin tədqiqatları ilə daha da zənginləşdirilmişdir.

Ədəbiyyat siyahısı:

1. Aşurbəyli S. Orta əsrlər Bakısının tarixi oçerki (VIII-XIX əsrin əvvəlləri). Bakı, "Azərbaycan EA-nın nəşriyyatı", 1964, 336 s.
2. Aşurbəyli S. Bakı şəhərinin tarixi: orta əsrlər dövrü. Bakı, "Avrasiya Press", 2006, 416 s.
3. Musəvi T. Bakı tarixinə dair orta əsr sənədləri. Bakı, "Azərbaycan EA-nın nəşriyyatı", 1967, 152 s.
4. Qılman İ. Köhnə Bakını tanıyırsanmı?. Bakı, 2-ci nəşr, "Şirvannəşr", 2004, 116 s.
5. Qılman İ. Bakı və bakılılar (üçüncü nəşri). Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2006, 384 səh.
6.Səlimov-Şağani T. Qala. Bakı kəndləri seriyası. Bakı, "XXI-Yeni nəşrlər evi", 2002, 80 səh.
7.Səlimov-Şağani T. Türkan. Bakı kəndləri seriyası. Bakı, "XXI-Yeni nəşrlər evi", 2001, 128 səh.
8.Səlimov-Şağani T. Binə. Bakı kəndləri seriyası. Bakı, "XXI-Yeni nəşrlər evi", 2001, 96 səh.
9.Səlimov-Şağani T. Şüvəlan - Bakı kəndləri seriyası. Bakı, "XXI-Yeni nəşrlər evi", 2002, 104 səh.
10. Səlimov T. Abşeron və Abşeronlular. Bakı, "Elm" nəşriyyatı,1993, 304 səh.
11. Sadıqova H. XIX–XX əsrin əvvəllərində Bakı şəhəri əhalisinin etnik və ictimai tərkibi. Bakı, 2016, 28 səh.
12. Quliyeva N. XIX-XX əsrlərdə Bakı şəhər əhalisinin ailə və ailə məişəti. Bakı, "Elm" nəşriyyatı, 2011, 240 səh.
13. Xəlilova M. XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakıda sənətkarlıq. Bakı, "Elm" nəşriyyatı, 2009, 200 səh
14.Tağıyev F. История города Баку в первой половине XIX века (1806-1859). Баку, издательство "Элм", 1999, 196 стр.
15.Алышевский В. г. Баку и промыслово-заводской район по данным переписи 1913 г. Баку: Изд. АзЦСУ, 1922-1923.
16. Səidə Əli qızı. Senator Kuzminskinin təftişının materialları XX əsrin əvvəllərində Bakı və Bakı quberniyasının iqtisadi vəziyyətini öyrənmək üçün mənbə kimi. Dünya azərbaycanlıları: tarix və müasirlik mövzusunda V Beynəlxalq elmi konfransın materialları. 27-28 fevral 2025-ci il. Bakı, "BDU Nəşr Evi",2025, 446 s.

TÜRK ŞƏHƏRİ İRƏVANDA DEMOQRAFİK STRUKTURUN ERMƏNİLƏRİN LEHİNƏ DƏYİŞDİRMƏ FƏALİYYƏTLƏRİ

Günay Aşurova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Dünya azərbaycanlilari: tarixi-demoqrafiya" ETL-nin elmi işçisi
asurovagunai@gmail.com

Açar sözlər: *İrəvan şəhəri, etno-demoqrafik vəziyyət, Rusiya işğalı, Osmanlı-Rusiya müharibəsi, köçürülmə siyasəti*
Keywords*: Irevan city, ethno-demographic situation, Russian occupation, Ottoman-Russian war, resettlement policy.*

İrəvan (Rəvan) şəhəri Ağrı dağının şimalında və Göyçə gölünün cənub qərbində münbit torpaqlarda və Araz çayının sol qolu olan Zəngi çayının sahilində yerləşir. İrəvan şəhərinin yaranma tarixi və bu sözün etimologiyası günümüzdə də mübahisəli məsələlərdəndir. Dağlarla əhatə olunmuş düzənlikdə yerləşən İrəvan, Anadolu, İran və Qafqaz arasında əhəmiyyətli bir keçiddir. Bəzi mənbələr onun adının Arrandan götürülə biləcəyini bildirərkən, bəziləri isə e.ə.782-ci ildə Urartu-

lar tərəfindən Erebuni qalası ilə bağlayırlar. Lakin şəhərin orta əsrlərə qədərki tarixi haqqında heç bir məlumat yoxdur. İslam tarixində şəhərlə bağlı hər hansı məlumat olmasa da, onun yaxınlığında Dəbil şəhəri haqqında tarixi əsərlərdə yer verilmişdir. Hətta VIII əsrin əvvəllərinə qədər ərəblər Qafqazı, bu şəhərdən idarə edirdilər, yəni Dəbil şəhəri Ərəb əmirliyinin mərkəzi olmuşdur [3, 2-3]. Bu səbəbdən də Dəbil şəhərinin müsəlmanlaşma ehtimalı güclüdür. Təbii ki, qeyd etmək lazımdır ki, bəzi tədqiqatçılar Ər-Ranı (Arran, Ərran)- İrəvanla əlaqələndirilməsi, müxtəlif coğrafi məkanlarda yerləşdiyi üçün doğru saymaq olmazdı. Bu coğrafiyanın insanları, ata-baba dinlərinə, adət-ənənələrinə və əfsanələrinə sadiq olduqlarına görə, ehtimal etmək olar ki, İrəvan sözünün yaranması yerli dini əfsanə ilə bağlı ola bilər. İrəvan haqqında daha geniş məlumatlar XIV-XV əsrlər dövrünə aid etmək olar. Əmir Teymurun İrəvanı ələ keçirməsi və Qızıl Orda ilə mübarizəsi zamanı şəhər boşaldıqda, Əmir Sədin başçılığı ilə Mərkəzi Asiyadan bir çox türk tayfaları, xüsusən Sədlilər (Baharlı tayfaları) gəlib burda məşkunlaşdılar. Sədlilərin məskunlaşması və bu ərazilərin coğrafi xüsusiyyətlərinə görə ərazinin Səd Çuxur kimi tanınmasına səbəb olmuşdur. Teymurilərin ardınca İrəvan, Baharlı və Bayandurlu dövlətlərinin tabeliyinə keçərək mədəniyyət mərkəzinə çevrildi. Sonralar şəhərə, Səfəvilər hökmranlıq etdilər. Bu dövrdə bölgədə mərkəzi İrəvan olan Çuxursəəd bəylərbəyliyi yaradıldı. Ustaclı və Qacar tayfalarının bəyləri tərəfindən idarə olunmuşdur. Bir məsələni də qeyd edək ki, 1441-ci ildə Kilikiyadan sürgün edilən erməni katolikosları özlərinə iqamətgah olaraq İrəvan şəhəri yaxınlığında yerləşən Eçmiədzini (Üçkilsəni) seçdilər. Baharlı Cahanşah dövründə baş verən bu hadisə daha çox daxildəki digər xristian təbəələr arasında balans yaratmaq istəyi ilə bağlı idi. Dolaysıyla, İrəvan şəhərin idarəçiliyi və onun gələcək inkişaf istiqamətlərini müəyyənləşdirən əsas etnik güc türklər olmuşdur. Əbu Bəkr Tehranın 1470-1471-ci ildə Bayandurlu hökümdarı Uzun Həsən bəy üçün farsca yazdığı "Kitabı-Diyarbəkriyyə" əsərində Baharlı tayfalarından olan Sədli tayfasının Çuxur Səddə qışladıqlarına dair qeyd vardır [1, 37].

İrəvan şəhərinin xristianlaşdırma cəhdləri. XVIII əsrdən etibarən Rusiya imperiyası isti dənizlərə enmək siyasətini üç əsas istiqamət üzərində təsis etmişdir. Birincisi Balkan bölgəsindən İstanbul və boğazlara enərək burada yenidən xristian-ortodoks hakimiyyətini bərpa etmək; ikincisi Qafqaz üzərində Anadolu torpaqlarına yaxınlaşmaq; sonuncusu isə İran üzərindən Hind okeanına gedən yolu açmaqdır. Bu siyasətin ən önəmli parçası Qafqazda siyasi, hərbi və strateji hakimiyyət qurmaq idi. Çünki Cənubi Qafqaz Avropa ilə Mərkəzi Asiya arasında bir dəhliz rolunu oynamaqla yanaşı, Qacar və Osmanlı dövlətlərinin arasında vacib geosiyasi mövqedədir. Bu səbəbdən ermənilər bu coğrafiyada möhkəmlənmək üçün təbii müttəfiq olaraq görülürdü. Ermənilər gürcülərdən fərqli olaraq Anadolunun şərqində dağınıq bir vəziyyətdə müsəlmanlarla bir yerdə yaşayırdılar. XIX əsrin əvvəllərinə qədər ermənilər qeyd olunan coğrafiyaların heç birində üstünlük təşkil etmirdilər. Rusiya Qafqaz siyasətini həyata keçirmək üçün, burda onlarla əməkdaşlıq edəcək etnik ünsürə ehtiyacı vardı. Rusiya rahat şəkildə nəzarət edə biləcəyi və di-

ni baxımdan yaxın olan ermənilərlə təmas qurması təsadüf olmamışdı. Bu səbəbdən də onların demoqrafik üstünlüyünə ehtiyacı vardı.

Krımın ardınca Rusiya Cənubi Qafqazın ələ keçirməsi ilə birlikdə regionun demoqrafik qurluşunda qəfil dəyişikliklər baş verdi. Osmanlı-Rusiya müharibələrindən sonra Şərqi Anadoludakı ermənilər Rusiyanın təşviqi ilə İrəvana köçürdülər. Rusiyanın nəzarətində olan ərazilərdə ermənilərin yerləşdirilməsinin bir çox səbəbləri var idi. Rusiya hər şeydən əvvəl İran torpaqlarından və Şərqi Anadoludan köçürtdüyü erməni əhalisi vasitəsilə bölgədə uzunmüddətli iqtisadi hərbi və siyasi mənfəət əldə etməyi hədəfləmişdi. Eyni zamanda Rusiyanın ermənilərdən, həm Osmanlı imperiyasına, həm də Qacarlara qarşı diplomatik və siyasi tarazlıq kimi istifadə etmək imkanı olacaqdı. 1828-ci il Türkmənçay müqaviləsi ilə əldə edilən imkanlarla ruslar Qafqazda məskunlaşdırma siyasətini incəliklə həyata keçirə bildilər. Erməni və gürcü generalların sayəsində Rusiyanın bölgədəki nüfuzu tez bir zamanda möhkəmlənmişdi. Bu müqavilədən sonra Cənubi Qafqazın demoqrafik tərkibində əhəmiyyətli dəyişiklik baş verdi. 1828-ci ilə qədər İrəvan əhalisi 100.900 nəfər idi ki, onlardan 81.749 nəfəri müsəlman (77%) və 25.151 nəfəri qeyri-müsəlman (23%) ibarət idi. Kilsənin də təşviqi ilə 40 mindən ibarət 8249 erməni ailəsi Qacarlar ərazisini tərk edərək Rusiya tabeliyində olan İrəvana köçdülər [5, 1021]. 1828-1829-cu illərdə Cənubi Qafqazın demoqrafik strukturunu ermənilərin xeyrinə dəyişdirilməsinə yönəlmiş fəaliyyət nəticəsində ruslar 6946 erməni ailəsinin Osmanlı torpaqlarından İrəvana köçməsinə şərait yaratdılar. Bu ailələrdən 2264-ü Qarsdan, 4315-i Bəyazıtdan idi. Nəzərə alaq ki, bu köç dalğasının ilk mərhələsi idi [6, 79].

Osmanlı imperiyası erməni məsələsinə qarışmamasına israr edən Rusiya dövləti işğal etdiyi ərazilərdə müsəlmanlarla bağlı fərqli yanaşma və təcrübələr tətbiq etmişdi. Rusiya işğalına müqavimət göstərilən hər yerdə müsəlman əhaliyə qarşı sərt siyasət yeritməsi onların öz yerlərini tərk etməsinə səbəb olmuşdu. Rusiya işğal etdiyi ərazilərdə bütün məscidləri və tikililər dərhal ictimailəşdirilib və ya dağıdılıb, müsəlmanların xeyriyyə işlərindən tutmuş dini xidmətlər, məktəblərdən tutmuş maliyyə vəsaitlərinə qədər hər şeyə müdaxilə edilib, hətta onların vəqfləri də müsadirə edilmişdi. Bu səbəbdən Rusiyanın qeyd edilən siyasəti nəticəsində, can, mal və namus təhlükəsi səbəbindən əksər müsəlman ailələr işğal zamanı olduqları əraziləri tərk etmişdilər [4, 460]. Mudros müqaviləsindən sonar yerdə qalanlar isə əsasən qeyri-müsəlmanlar idi. Lakin onlar, kürd tayfalarının hücum edəcəyindən ehtiyat edərək, İrəvan və Tiflis ərazilərini çəkildilər. Yuxarıda qeyd olunan şərtlərlə Pasin, Muş, Hınıs qəzalarından və bura tabe olan dağ kəndlərindən Cənubi Qafqaza getdikləri müəyyən edilən ermənilərə məxsus təsərrüfatların sayı 150 nəfər idi. Lakin onların ardınca rus zabitlərinin təsiri ilə bölgədə 300 erməni ailə də Rusiyanın işğal etdiyi ərazilərə köçdü. Ümumiyyətlə, 1828-1829-cu illərdə Osmanlı imperiyasından təxminən 90.000 nəfər, İrandan isə 40.000 nəfər erməni Cənubi Qafqaza köçürülmüşdür. Çar hərbiçisi N. Şavrov rəsmi olaraq, təqribən 12.400 ermənin köç etdiyini, qeydiyyatsız köçləri də nəzərə aldıqda qeyri-rəsmi rəqəmin 200.000

çata biləcəyini bildirirdi [2, 112]. Onu da qeyd etməliyik ki, İrəvan bölgəsindən türk-müsəlman əhalinin Osmanlı ərazilərinə köç dalğası XIX əsrin əvvəllərindən 1920-ci illərə qədər davam etmişdir. 1860-cı il yanvar ayının 5-də Osmanlı Muhacir Komissiyasının sənədlərində İrəvandan köç etmiş türk-müsəlman əhalinin sayı ilə bağlı məlumat olmasa da, onların ağır vəziyyəti ilə bağlı faktlar vardır. Qars-Ərzurum bölgəsinə köç rtmiş İrəvan əhalisinin geri dönməklə bağlı istəklərinə də Osmanlı hakimiyyəti biganə yanaşmışdır.

Erzurum əyalətindən İrəvan bölgəsinə köç edən ermənilər

Köç mərkəzləri	**Ailə sayı**	**Təxmini adam sayı**
Ərzurum mərkəzi	2.372	11.860
Ərzurumun kəndləri	1.139	5.695
Pasin qəzası	561	2.805
Hınıs qəzası	468	2.340
Tortum qəzası	117	585
Tercan qəzası	33	165
Bayburt qəzası	40	200
Cəmi	4.736	23.650

Osmanlı və Qacarlar imperiyalarından deportasiya edilən ermənilər sayəsində Rusiya, İrəvan və onun ətraf rayonlarında erməni əhalisini xeyli artırdı. Rusiya işğalı zamanı təbəələrin köçünün qarşısını almaq üçün müsəlmanlarla təbəələr arasında yaranan ixtilafların heç vaxt məhkəməyə verilməməsi barədə fərmanlar vermişdi. Belə halların sülh prosesinə xələl gətirəcəyinə düşünən Osmanlı hökuməti peşman olub, Osmanlı torpaqlarında əvvəlki yerlərinə qayıtmaq istəyənlərə lazımi köməklik göstərmələrini istədi. Bundan əlavə II Mahmudun göstərişi ilə geri qayıdanların can və mallarının təhlükəsizliyini təmin etmək və bununla bağlı prosedurları sürətləndirmək məqsədilə marşrut xətt üzrə keçid məntəqələrində polis bölmələri yaratmışdı [5,1022].

1828-1829-cu illər müharibəsi zamanı Cənubi Qafqazda Osmanlı imperiyasına qarşı apardığı müharibədə, erməni əsilli zabitlərindən böyük dəstək alan Rusiya onlardan Osmanlı imperiyasına qarşı istifadə edirdilər. Bu zabit qrupu, Rusiyada təlim keçmiş erməni dostları vasitəsilə yaradılmış dəstələr sonradan bölgənin Rusiyanın tabeliyində qalması, üçün böyük səylər göstərdilər. Bütün bu səylərin nəticəsi idi ki, 1830-cu ildə Osmanlı imperiyasının və Qacarlar dövlətinin bölgədəki inzibati-hərbi qüdrəti tam başa çatdıqdan sonra, Rusiya 1840-ci ildən başlayaraq bölgədə inzibati islahat dövrünü başladı. Cənubi Qafqaza sahib olmaqla Rusiya bu regionla Qərbi Anadolu üzərindən Aralıq dənizinə, cənubda İran üzərindən Hind okeanına və Şərqdə Xəzər dənizi üzərindən Asiyaya çatmaq üçün bir dəhliz yaratmış oldu. XIX əsrin əvvəllərindən etibarən bölgədə müəyyən bir yerdə yerləşdirdiyi erməni əhalisi sayəsində, Rusiya İrəvanı iqtisadi cəhətdən dirçəltmək üçün çox-

lu imkanlar əldə etdi. Bunun nəticəsində də uzunmüddətli perspektivdə Qacar və Osmanlı imperiyasına qarşı güclü hərbi tampon bölgəsi yarada bildi.

Ədəbiyyat siyahısı:

1. Tehranı Əbubəkr. Kitabi-Diyarbəkriyyə, tər.edən Rahilə Şükürova/ elmi redaktor O.Əfəndiyev/ Bakı-Elm nəş, 1998, 336 s.
2. Mustafa Nazim. İrəvan şəhəri, / Bakı-,Red N-MMC, 2020, 292s.
3. Aydoğmuşlu Cihat. 17.yüzyıl seyyahlarına göre Revan şehri, OTAM, 44/ Güz 2018, s.1-18
4. Beşiroğlu İntikam. 19-20. Yüzyıllarda Ermenistandakı Azeri türklerinin göç ettirilmesi ve soykırım gerçekliği, Avrasya dosyası, (Azebaycana özel sayısı) VII/1, 2001, s.454-468
5. Yavur Aslan. Rus istilasından Sovyet Ermenistana Erivan vilayetinin demografik yapısı (1827-1922) Yeni Türkiye (Ermeni Özel sayısı II), 2001, 38,10 s.1017-1028
6. Özcan Tuğrul. Rusiyanın Maverayı-Kafkasyada demografik yapısı (1725-1853) karadeniz araştırmaları Enstitüsü Dergisi, 8/14, 2022, s.75-92

KEÇİLMİŞ YOLDAN ASILLIQ KONTEKSTİNDƏ TÜRKİYƏ AVRASİYAÇILIĞINA BAXIŞ

Elgün Qəhrəmanov
Bakı Dövlət Universitetinin Elmi araşdırmaları bölməsinin müdiri,
tarix üzrə fəlsəfə doktoru
elgun041@gmail.com

Açar sözlər: *Türkiyə Avrasiyaçılığı, Rusiya Avrasiyaçılığı, Yeni Avrasiyaçılıq, Qərb-Türkiyə geosiyasi rəqabəti, Rusiya-Tükiyə qarşıdurması*
Keywords: *Turkish Eurasianism, Russian Eurasianism, New Eurasianism, West-Turkey geopolitical competition, Russia-Turkey conflict*

Türkiyədə istər millətçiliyin istərsə də, Avrasiyaçılığın ortaya çıxmasında Rusiya Avrasiyaçılığı ilə coğrafiya, geosiyasi qavrayış və tarixi proseslər baxımından müxtəlif oxşarlıqlar olduğu bilinməkdədir. Kiyev Rus knyazlığının və Böyük Səlcuq dövlətinin ortaya çıxması, inkişafı və ən güclü vaxtlarında parçalanmasının tarixi oxşarlıqları günümüzdə də müzakirə olunan məsələlərdəndir. Türkiyənin Yeni Avrasiyaçı ideoloqları özlərini "kamalist Avrasiyçılar" kimi qələmə verirlər. Onlar iddia edirlər ki, Avrasiyaçılıq Türkiyənin şərq qonşuları, xüsusilə Rusiya, İran, Mərkəzi Asiyanın türk dövlətləri və hətta Pakistan, Hindistan və Çinlə mədəni, hərbi, siyasi və ticarət ittifaqının qurulmasında böyük rol oynaya bilər. Avrasiya məkanında qərbyönlü siyasətin istənilən növünə düşmən münasibət bəslənilir. Millətçi islamçılıq və Avrasiyaçılıq bir-biri ilə üst-üstə düşür, çünki hər ikisi beynəlxalq nizamda Qərbin hökmranlığına xor baxır, Qərbin liberal, mədəni-sivilizasiya mühasirəsinin təhlükəsini hiss edir və bu təhlükəyə qarşı mübarizənin əsas mütəffiqini Avrasiya məkanında axtarmaqdadır. Türkiyəli islamçılar və avrasiyaçılar artıq post-Qərb dünyasının formalaşma mərhələsində olduğu düşüncəsindədirlər. Onlar 1990-ci illərin birqütblülüyünün sona çatdığını və Qərb dəyərlərinin degenarasiya-

sına görə, tənəzzülün qarşısıalınmaz olduğunu iddia edirdilər. Türk Avrasiyaçılığının əsl əhəmiyyəti daxili siyasi konyukturanın formalaşdırılmasında oynadığı roldur [6,12].

Türkiyənin xarici və təhlükəsizlik siyasəti son illərdə dramatik dəyişikliyə məruz qalmışdı. Türkiyənin Qərbdəki ənənəvi müttəfiqləri, Avropa İttifaqı və ABŞ ilə münasibətləri 2019-cu ildən dəyişməyə başlamışdı. 2015-ci ildən Türkiyənin daxili və xarici siyasi mühitinin dinamiklərinin yenidən qurulması və Suriya böhranı zamanı münasibətlərdə soyuqluğu daha da artırmışdı. Tez-tez anti-Qərb diskursunda çıxış edən prezident Ərdoğan Türkiyənin Şanxay Əməkdaşlıq Təşkilatına üzv ola biləcəyinə eyham vuraraq, Avropa İttifaqından narazılığını bildirmişdi. 2016- ci ildə Türkiyədə uğursuz dövlət çevrilişində ABŞ-ın günahlandırılması, bu fikirlərdən hesab edilir. Ankaranın Rusiya Federasiyası ilə münasibətlərində aydın siyasət fərqlərinə baxmayaraq, əlaqələri yüksələn xətlə davam etməkdədir. Türkiyənin Avropa və ABŞ-dan uzaqlaşmasının təhlükəsizlik iqtisadi və siyasi baxımdan ciddi nəticələri ola bilər. Ankara ilə bir çox Avropa paytaxtları arasıında son illərdə gərginliyin artdığı və NATO-nun təsir gücünün zəiflədiyini güman etmək olar. Təəccüblü deyil ki, Türkiyənin strateji kimliyi ilə bağlı müzakirələr Qərb paytaxtlarında artmışdı [5,19].

Türkiyənin avrasiyaçıları ölkənin daxili siyasi mühtindən hansı rol oynayırlar? Türkiyənin ənənəvi müttəfiqlərindən getdikcə tez-tez ayrılmasına onların töhfəsi nədən ibarətdir? Türkiyədəki avrasiyaçılarla islamçılar arasında hansı ideoloji oxşarlıqlar var? Türkiyənin Avrasiyaçıları milliçilərin bir alt qrupudur. Saylarının az olmasına və zəif seçki göstəricilərinə baxmayaraq, onlar təhlükəsizlik bürokratiyası və məhkəmə sistemi daxilində qeyri-mütənasib təsirə malikdirlər. Türk avrasiyaçılığı, dövlətin xarici və təhlükəsizlik siyasətini formalaşdırmaq gücündə deyil, lakin mövcud hakimiyyətin daxili dinamiklərinin formalaşdırılmasında rolunu göz ardı etmək olmaz. Avrasiyaçılar demokratiya, plüralizm və qanunun aliliyinə çox az əhəmiyyət verirlər.

Sovet İttifaqı dağılmasından sonra Avrasiyaçılığa maraq yenidən artmışdı. Beləliklə rusları "superetnos" hesab edən Lev Qumilyev öz yazılarında rusları Avrasiya çölünün türk-monqol xalqları ilə qohum olduğunu qeyd etmişdir. 1990-ci illərin ortalarında Rusiyada onun əsərləri məhşurlaşmışdı. Bununla yanaşı 1997-ci ildə rusiyalı avrasiyaçı, qatı millətçi Aleksandr Duqinin "Geosiyasətin əsasları: Rusiyanın geosiyasi gələcəyi" adlı əsəri nəşr olundu. Bu kitab Rusiya Baş Qərargahının Akademiyasında dərslik kimi də istifadə edilirdi . Duqin öz kitabında etnik rusların Dublindən Vladivostoka qədər olan torpaqlar üzərində hökmranlığının əvvəlcədən müəyyən edilmiş və təbii bir hadisə olduğunu iddia edirdi [8,114]. Duqinin avrasiyaçılığı klassik avrasiyaçılıqdan bir neçə cəhətinə görə fərqlənir. Yeni Avrasiyaçılıqda Atlantizmin sütunları olan ABŞ və Böyük Britaniya əsas düşmənlər hesab edilir. Rusiyanın qarşısında duran əsas təhlükə kimi Qərbi Avropanı hədəf alan klassik avrasiyaçılardan fərqli olaraq, Duqinin yeni avrasiyaçılığı bir sıra Avropa ölkələri, xüsusən də Almaniyaya Atlantizmə qarşı əməkdaşlıq potensialı kimi bax-

maqdadır. Duqin əvvəlcə Türkiyəyə ABŞ-ın "siyasi-ideoloji mütəmləkəsi" olan və Rusiya ilə İran arasında strateji müttəfiqlik tərəfindən qarşısı alınmalı düşmən kimi baxırdı. Türkiyənin Rusiya ilə münasibətləri dərinləşdikcə və onun anti-Qərb mövqeyini getdikcə daha çox paylaşan Türkiyənin siyasi dairələrində Duqinin nüfuzu artdıqca bu fikir sonradan dəyişəcəkdir. Türk avrasiyaçılığı rus avrasiyaçılığı ilə müqayisədə nisbi olaraq gec yarandığı üçün bəzi dəyişikliklərə məruz qalmışdır. Bütövlükdə türk avrasiyaçılığın bəzi öncülləri bu fikri türk dünyasının birləşməsi üçün əlverişli hesab edirdi.

XX əsrin ilk illərində tatar ziyalısı Yusuf Akçuranın Avropa və Çinə qarşı rus və türk xalqların əməkdaşlığını müdafiə edirdi. Rusiyanın bu təklifə soyuq yanaşması, Yusuf Akçuranı türkçülüyə yönəltmiş oldu. Məhşur türk şairi və yazıçısı Atilla İlhan (1925-2005) geosiyasət və təbiətin əvvəlcədən təyin etdiyi tarixən köklü türk-rus ittifaqı ideyasını məhşurlaşdırdı. Fransada təhsil alan Atilla İlhan, həyatı boyu Türkiyə-Rusiya əməkdaşlığının tərəfdarı olan qatı marksist idi. Onun yazılarında əsrlər boyu davam edən Rusiya-Osmanlı rəqabəti Qərbin sui-qəsd kimi təsvir edilir. 1919-1938-ci illər arasında bolşeviklər və türk kamalistlərin arasında əməkdaşlıq "qızıl dövr" kimi nəzərdən keçirilirdi [1, 46-47]. Onun yazılarında Qərbin Türkiyədəki təsirini tənqid edən islamçı janra bənzər güclü antisemitizm və ksenofobik təsvirlər var. Atilla İlhan həm də islamçılar kimi kütlədən qopmuş və başqa sivilizasiyanın bir hissəsi kimi gördüyü türk ziyalılarını çox bəyənmişdi.

İkinci dünya müharibəsinin başlanğıcında, Türkiyə nasistlərin artan gücündən istifadə etmək niyyətində idi. Ankara Avropada yeni yüksələn güc qarşısında öz mövqeyini qoruduğu bir vaxtda, ölkənin pantürkistləri Sovet hakimiyyəti altında türk xalqlarının qurtuluşu arzusunda olduqları üçün, nasist Almaniyasının yüksəlişində bir fürsət gördülər. Nihal Atsız, Alparslan Türkeş və Şəki Vəlidi Toqan kimi pantürkistləri Türkiyənin İkinci Dünya müharibəsinə nasist Almaniyasının tərəfində girməsinin təşviqində fəallıq göstərdilər. Nihal Atsız Aralıq dənizindən Sakit okeana qədər uzanan bütün türk xalqlarının birliyini müdafiə edirdi. Bu arada Türkəş, Atsızın ideyalarını inkişaf etdirən və onilliklər ərzində əsas millətçi siyasətçiyə çevrilən anti-kommunist zabit idi. Zəki Vəlid Toqan Birinci Dünya müharibəsindən sonra Başqırd azadlıq hərəkatının lideri olsa da, ixtisasca türk tarixi və türkologiyasına həsr olunmuş tarixçi idi [5, 20].

Sovet İttifaqının dağılması Türkiyənin pantürkizm ideyaları Mərkəzi Asiyaya marağını yenidən alovlandırdı. Geniş türk coğrafiyasının açılması Ankaraya həm regionda, həm də Qərb düşərgəsi daxilində geostrateji rolunu artırmaq imkanı verdi. İran İnqilabının yayılmasından qorxan ABŞ xüsusilə yeni müstəqillik qazanmış türk dövlətləri üçün İranın əvəzinə, Türkiyəni bir model kimi tanıtmağa can atırdı. Türkiyə prezidentləri, Turqut Özal və Süleyman Dəmirəlin "Adriatikdən Çin səddinə" qədər uzanan türk dünyası tezisi bü dövrdə yenidən aktuallaşmışdı. Yeni müstəqillik qazanmış türk cümhuriyyətlərinə mədəni və iqtisadi olaraq, Türkiyənin təsirləri artmışdı. XX əsrin 90-ci illərində Türkiyə-Rusiya münasibətləri təkcə Rusiyanı Mərkəzi Asiyada pantürkist dirçəlişlə bağlı narahatlığına görə deyil, həm də

Türkiyənin çeçen davasına dəstəyi və Moskvanın PKK-ya yardımı səbəbindən gərgin idi. 90-ci illərdən Ankara və Moskva Balkandan Qafqaza, Qara dənizdən Mərkəzi Asiyaya qədər bir sıra regionlarda rəqabət aparırdılar [4]. XX əsrin sonlarına doğru vəziyyət dəyişməyə başladı. O zamankı baş nazir Bülənt Ecevitin Demokratik-Sol partiyası Ankaranın ənənəvi Qərb oriyentasiyasında yeni şaxələnmə gətirən region mərkəzli xarici siyasəti həyata keçirdi. O, sosial demokratiyanın Türkiyə siyasətinə gətirilməsində əsas ideoloqu olmuşdur. Onun dövründə Türkiyə XİN İsmayıl Cem də sol-mərkəzçi qüvvələr içərisində əsas fiqur idi. Onun xarici işlər naziri vəzifəsində olduğu dövr, Türkiyə xarici siyasətinin ən uğurlu dövrlərindən hesab olunur. Avrasiya ilə bağlı İsmayıl Cem bildirmişdi: "Türkiyə tarixi və mədəni atributları olan, eləcə də Asiya kimliyi sayəsində Avrasiyanın strateji mərkəzi olmaq üçün möhkəm mövqedədir". Bununla belə vurğulamaq lazımdır ki, o dövrdə Avrasiya ilə əlaqə daha çox Türkiyənin Qərb çağırışına alternativ deyil, onu tamamlayırdı. Məsələn Bakı-Tbilisi-Ceyhan neft kəmərinin son marşrutu üzərində şiddətli strateji rəqabətdə qalib gəlmək üçün Ankara, Vaşinqton tərəfindən güclü şəkildə dəstəkləndi. Bununla belə ilk həyəcan dalğasından sonra, B.Ecevit və İ.Cem Türkiyənin Avrasiya ilə bağlı siyasətinin daha yaxşı formalaşdırılmalı və konseptuallaşdırılmalı olduğunu etiraf etdilər [4, 21]. Bu qarşıdurmadan daha çox Qərbin qazançlı çıxdığını anlayan Ankara və Moskva münasibətləri inkişaf etdirməyə başladılar. 1997-ci ildə Rusiyadan təbii qazı Türkiyəyə daşıyan böyük Trans-Qara dəniz qaz kəməri olan "Mavi Axın" layihəsinin imzalanmasından sonra, 2001-ci ildə iki tərəf arasında "Avrasiyada fəaliyyət planı" imzalandı. Bu tərəfdaşlığın daha da dərinləşməsi üçün qapıları açdı. İkitərəfli əməkdaşlıqdan çoxölçülü tərəfdaşlığa doğru başlıqlı planda tarixi miqyasda dünyada baş verən əsaslı dəyişikliklərin, Türkiyə-Rusiya münasibətlərində dostluq və qarşılıqlı etimad ruhunda hər sahədə ikitərəfli və regional əməkdaşlığın səmərəli inkişaf etdirilməsi imkanları ilə xarakterizə olunan yeni mərhələnin başladığı vurğulanır. Avrasiya yavaş-yavaş Ankaranın Moskva ilə rəqabət meydanı deyil, əksinə hər iki tərəfin əməkdaşlıq edə biləcəyi region kimi nəzərdə tutulacaqdır. AKP-nin ilk illəri İsmayıl Cem-in bölgə mərkəzli, Rusiyaya qarşı anlaşma yönümlü strategiyasının davamı kimi qiymətləndirilməlidir. AKP-nin xarici siyasət kursunun aparıcı simalarından olan Əhməd Davudoğlunun "Strateji dərinlik" kitabında, Türkiyəni Avropanın kənarında deyil, bir çox bölgənin mərkəzində yerləşdirən "Afro-Avrasiya" terminini təqdim etdi və ona bir sıra sivilizasiyaların kəsişməsində yerləşən ölkə kimi daha funksional rol verdi [2,104]. AKP-nin yüksəlişi həm də Vaşinqtonun regiona neokonservativ baxışı ilə bağlı artan narahatlıqlar fonunda Türkiyə dövlətinin Rusiya ilə tərəfdaşlığını dərinləşdirmək əzmi ilə üst-üstə düşdü. Vaşinqton Səddam Hüseyni devirmək üçün, Ankaradan güclü dəstək istəyirdi, lakin həm Türkiyə Silahlı Qüvvələri, həm də siyasi çevrədə İraqdakı kürd amilinə görə belə bir sabitliyi pozan müdaxiləyə dair dərin şübhələrə malik idi. 2003-cü ilin martında TBMM-də öz ərazisindən ABŞ-a İraqa müdaxilə üçün lazımi dəstəyi rədd etdi. Bu hadisələr gedişatında 2004-cü ilin dekabrında Putinin Ankara səfəri heç də təsadüf olmamışdı. Türkiyə-

nin Avrasiyaçıları daha da irəli gedərək bu hadisəni türklərlə slavyanlar arasında qardaşlaşmanın əlaməti kimi şərh etdilər. Buna baxmayaraq, bu illər ərzində də avrasiyaçılıqdan Türkiyənin xarici siyasətinə ciddi təsir göstərən bir ideologiya kimi danışmaq mümkün deyil.

Klassik Avrasiyaçılığın mənşəyi, bolşeviklərin Rusiyanı idarə edə bilməyəcəkləri və beləliklə Rusiyanın yeni ideologiyaya ehtiyac olduğu ehtimalına əsaslanırdı. Bu müəyyən mənada 2002-ci ilin sonunda AKP-nin hakimiyyətə gəlişi ilə yaranmış vəziyyətə bənzəyir. Türk Avrasiyaçılar və ulusçular (dünyəvi solçu, ultramillətçilər) də AKP-ni ölkəni uzun müddət idarə edə bilməyəcəyini və onlara alternativ təqdim etməyə ehtiyac olduğunu düşünürdülər. Türkiyə Yeni Avrasiyaçılığın ortaya çıxması Doğu Perinçekin adı ilə bağlıdır. 2003-cü ilin noyabrında Perinçek Moskvada Beynəlxalq Avrasiya Hərəkatının yaradılmasında yaxından iştirak edib və hərəkatın Ali şurasına üzv seçilib. Yeni Avrasiyaçılığın yüksəlişi Türkiyənin həm daxili, həm də xarici siyasət cəbhələrində paralel inkişaflarla şərtlənmişdi.

Yeni Avrasiyaçılar kimlərdir? İlk növbədə onu qeyd edək ki, millətçilərin hamısı Avrasiyaçı deyil və bütün milliçilər eyni siyasi partiyanı dəstəkləmir. Vətən partiyasının sədri Doğu Perinçek son vaxtlar Avrasiyaçılıq kimi tanınmaqdan çəkinir. Çox ziddiyətli Ergenekon məhkəmələri zamanı Perinçekin Vətən partiyasının adının yüksək rütbətli zabitlər içərisində hallanması ilə də bağlı idi. Millətçi və Yeni Avrasiyaçıların təsnifi təxminən aşağıdakı kimi qruplaşdırmaq olar [3, 241].

-Perinçekistlər qrupu (Aydınlıq qrupu)

-Turançılar, Qərb əleyhdarı, Türkçü dairələr: MHP və İYİ partiya, Ülkücü ocaqlar

-Avrasiya meyilli qeyri-perinçekist millətçilər (Sözcü, ODA TV)

-İslamçı Avrasiyaçılar (TASAM beyin mərkəzi)

Türk Avrasiyaçılığında, Rus Avrasiyaçılığı kimi ideoloji dərinlik yoxdur. İqor Torbakovun qeyd etdiyi kimi, "türk neo-avrasiyaçılığı öz ideoloji və geosiyasi konstruksiyalarında" ciddi məzmun yaratmadı [7, 38]. Türk və rus yeni Avrasiyaçılığını birləşdirən Qərbin və xüsusən də ABŞ-ın rəhbərlik etdiyi qloballaşma layihəsinə alternativ olaraq inkişaf etdirilən bir növ əks-hegemon baxışdır. Türkiyənin müttəfiqləri Ankaranın xarici siyasət davranışı ənənəvi xarici siyasət seçimlərindən getdikcə daha çox fərqləndirdiyinə görə türk avrasiyaçılığı məsələsi son illərdə daha qabarıq şəkildə özünü büruzə verir. AKP-nin yüksəlişindən və Ərəb üsyanlarından sonra, Türkiyənin xarici siyasətinin ən görkəmli xüsusiyyətlərindən biri keçmiş Osmanlı coğrafiyasına artan maraq olmuşdur. Türk siyasi elitası hər zaman Türkiyənin sıradan bir milli dövlət olmadığını xatırladır. Rusiyanın keçmiş Rusiya imperiyası və SSRİ ərazilərində xüsusi rol oynaması fikri, Türkiyənin keçmiş Osmanlı əraziləri ilə uzun və bənzərsiz tarixə malik olması və buna görə də, bu ərazilərə təsir etmək hüququna malik olması anlayışına bənzəyir. Avrasiyaçılar hesab edirlər ki, xarici siyasət məqsədlərinə nail olmaq üçün hərbi gücdən istifadə qanuni alətdir.

Nəticə olaraq deyə bilərik ki, Türk Yeni Avrasiyaçılığı, xarici və təhlükəsizlik siyasəti üstünlükləri üçün də faydalı cəhətləri olsa da, ilk növbədə daxili siyasi məqsədlər üçün alətləşdirilmiş bir ideologiyadır. Yeni Avrasiyaçılıq olsun və ya ol-

masın, Türkiyə çox güman ki, nə Avropaya, nə Yaxın Şərqə, nə də Avrasiyaya aid olmayan unikal kimliyə malik ölkə olaraq qalacaq. Ona görə də Türkiyənin Qərbdən strateji üstünlükləri istəməkdə davam edəcəyi ehtimalı böyükdür. "Tək canavar" bənzətməsinin tarixi çətinliyi hələ də günümüzdə keçərlidir.

Ədəbiyyat siyahısı:

1. İlhan Atilla . Avrasya Kutbu ve Siyaset tarihi üzerine Uyğarlığın yeni yolu Avrasya, İstanbul – Kızılelma yayınevi 1998- 338 s.
2. Davudoğlu Ahmet. Stratejik Derinlik, Türkiyenin uluslararası konumu. İstanbul _ Küre yayınları, 534 s.
3. Kaleci Mehmet. Türkiyede Ülkücü hareket ve Avrasyacılık, Akademik Araştırmalar Dergisi Avrupa özel, kasım 2004, sayı:23, s.235-255
4. Muzaffer Ercan Yılmaz, "Soğuk Savaş Sonrası Dönemde Türk-Rus İlişkileri" (Turkish-Russian Relations in the after-math of the Cold War), Akademik Fener, 2010, https://dergi park.org.tr/en/download/article-file/203474
5. Kınıklıoğlu Suat. Eurasinizm in Turkey, SWP Research Paper 7, March 2022, Berlin p.3-29 https://www.swp-berlin.org /publicatio ns/product s/re sear ch pap ers /20 22 RP 07 Eurasianismİnturkey.pdf
6. Emre Erşen, "The Return of Eurasianism in Turkey", in Turkey's Pivot to Eurasia, ed. Emre Erşen and Seçkin Öktem, htt ps: //www .resea rch gat e.n et/ pub lic ati on /33 335 157 2_The_ Re turn _of_ Euras ia ni sm _in _Turkey_Relations_with_Russia_ a n d _ B e y o nd/citation/download
7. Torbakov İgor. After Empire : Natinalist İmagination and Symbolic Politics in Russia and Eurasia in the Twentieth and Twenty-First Century /https:// www .academia. edu/ 37970843/After_Empire_Nationalist_ Imagination_and_Symbolic_Politics_in_Russia_and_Eurasia _in_the_Twentieth_and_Twenty_First_Century
8. Дугин, А. Основы геополитики. Геополитические будущее России / А.Дугин. –Москва: Аркτогея, –1997. –352 с.

XƏZƏRLƏRİN AZƏRBAYCAN XALQININ ETNOGENEZİNƏ TƏSİRİ

Sevinc Məlikzadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrasının müəllimi, t.ü.f.d.
sc.melikzadeh@ gmail.com

Açar sözlər: *xəzərlər, sabirlər, hunlar, Xilafət, iudaizm, ərəbdilli mənbələr, etnik mənşə*
Keywords: *khazars, sabirs, huns, Caliphate, judaism, arabic-language sources, ethnic origin*

Azərbaycanın qədim etnosları və və onların etnik mənsubiyyəti haqqında tarix elmində müxtəlif nəzəriyyə və fərziyyələr mövcuddur. Ümumiyyətlə, bu etnik mənşə probleminə demək olar ki, bütün qədim xalqların tarixində rast gəlinir. Miladdan öncə və miladın ilk əsrlərində xalqların tez-tez, kütləvi şəkildə yerdəyişmələri hal-hazırda mövcud olan ölkələrin qədim sakinləri haqqında dəqiq fikir söyləməyə imkan vermir. O cümlədən hal-hazırda Azərbaycan ərazisində yaşayan xalqların böyük əksəriyyətini təşkil edən türk etnosunun yerli, yoxsa gəlmə olması haqqında mübahisəli məqamlar qalmaqdadır. Bu nəzəriyyələri isə belə ümumiləş-

dirmək olar. Bir qrup tədqqiatçılar Azərbaycanın qədim türk torpağı olmasını - yəni türklərin bu coğrafiyada aborigen xalq olduğunu qəbul etsələr də digər tədqiqatçılar türk etnoslarının "Xalqların böyük köçü" zamanında Azərbaycanda məskunlaşan hun, sabir, xəzərlərlə əlaqələndirirlər. Digər qrup tədqiqatçılar Azərbaycanda türklərin məskunlaşması prosesini hətta XI-XII əsrlərə – Səlcuq türklərinin Qafqaza gəlişinə qədər gətirib çıxarırlar. Hər üç fikri ümumiləşdirsək belə qərarə gəlmək olar ki, türklər Azərbaycanın qədim sakinləridirlər. Miladdan öncə kimmer-skit-sakların, V-VII əsrlərdə hun, sabir, xəzərlərin gəlişi və bu coğrafiyada məskunlaşması ilə türk etnik amili güclənmiş, XI əsrdə səlcuq türklərinin gəlişi ilə isə Azərbaycan xalqının formalaşması başa çatmışdır. Ümumiyyətlə, türklərin Azərbaycana gəlişinin XI əsrə gətirib çıxarmaq tamamilə yanlış yanaşmadır. Çünki XI əsrdə Azərbaycana gəlmiş səlcuq oğuzları mənbələrdə türk deyil, türkman adlandırılırdı. XII-XIV əsrdə yaşamış tarixçi Fəzlullah Rəşidəddin özünün "Cəmi-ət təvarix" kitabında yazır ki, "*hal-hazırda Rum və Qaramanda olan türkmanlar vaxtilə Toğrul bəyin başçılığı ilə həmin ərazilərə gələnlərdi"* [18, s. 47]. Mahmud Kaşğari də "Divanu lüğəti-t-türk" əsərində türk və türkmanları fərqləndirir [12, s.124].

Həmçinin bu ərazilərin sonradan türkləşməsi prosesini onlarla ərəbdilli mənbələr tamamilə inkar edirlər. Ərəb istilasının erkən dövrünə aid mənbələrdə ərəblər bu coğrafiyaya gəldikdə artıq yerli əhalini türk adlandırmışdılar. Bu baxımdan ərəbdilli mənbə olan "Übeyd ibn Şəriyyə Əl – Cürhuminin əxbarı" əsəri çox qiymətldir. Übeyd ibn Şəriyyə Əməvi xəlifəsi I Müaviyənin (661-680) yaxın müşavirlərindən biri olmuşdur. Müaviyə ilə söhbət edərkən Cürhumi Azərbaycan haqqında məlumatlara çatınca Müaviyə ondan soruşur; *"Sən Allah, Azərbaycan (haqqında) əlaqəniz, təlaşınız və xatirəniz nədir?" Şəriyyə isə cavabında deyir: "Ora türk torpağıdır. Onlar oraya cəmləşərək bir-biri ilə qarışmış və təkmilləşmişlər"* [6, s. 68].

Ümumiyyətlə, dövrün ən etibarlı mənbəsi hesab edilən ərəbdilli mənbələr "Azərbaycan" toponimində ərəblər tərəfindən verildiyini təkzib edirlər. Digər fars mənşəli ərəb tarixçisi Ət-Təbəri türk xalqlarını Azərbaycan türkləri, Xorasan türkləri, Məvarənnəhr türkləri və Dərbənddən şimalda yaşayan xəzərlər və türkdilli xalqlara bölmüşdür [17, s. 21; 4, s.186]. Ərəb istilasına qədərki, Azərbaycan əhalisinin tərkibinə nəzər salsaq burada alban, qarqar, kəngər, bulqar, barsil, qıpçaq, kadusilərin yaşadığını görərik. Onların böyük əksəriyyəti haqqında antik müəlliflərin əsərlərində məlumat verilmişdir. Bu xalqlar hamısı Azərbaycan xalqının etnogenezində mühüm rol oynamışlar [15;16].

Ərəb istilası ərəfəsində Azərbaycan ərazisində türkmənşəli hunlar, sabirlər və xəzərlər məskunlaşmışlar. Onların gəlişini Azərbaycan ərazisinə türklərin ikinci böyük etnik axını adlandırmaq olar. Bu tayfalar yerli türklərlə qaynayıb qarışaraq Azərbaycan xalqının formalaşmasında mühüm rol oynamışlar.

Türk xalqlarının Qafqaza kütləvi axını zamanı bu ərazilər Sasani imperiyasının sərhədləri daxilində idilər. Bu zaman Şimali Azərbaycan (Albaniya) Sasani dövlətində mühüm əhəmiyyətə malik ərazi idi. Buna görə də Sasani hökmdarları I Qubad (488-531) və I Xosrov Ənuşirəvan (531-579) özlərinin şimal sərhədlərini köçəri türklərin basqınlarından qorumaq məqsədilə bir sıra iri istehkamlar və Dər-

bənd səddini çəkdirdilər, burada çoxlu qala və şəhərlər saldırdılar. Özlərinə etnik dayaq yaratmaq üçün Xorasandan, Lahicandan, Təbəristandan, Gilandan və başqa yerlərdən bir sıra irandilli tayfaları şimali-qərbi Albaniyaya, yəni Şirvan ərazisinə köçürdülər [5, s.76; 2, s.26]. Eyni zamanda V-VI əsrlərdə türkmənşəli hunlar və sabirlər Azərbaycan şimal sərhədini aşaraq burada məskunlaşdılar. Hələ III-V əsrlərdən etibarən onlar tez-tez Azərbaycan torpaqlarına daxil olmuş və Cənubi Qafqaz uğrunda Sasanilərlə mübarizə aparmışlar. Hun və sabirlərin yürüşünün ardınca VII əsrin I yarısında Şimali Qafqazdan Azərbaycana xəzərlərin axını başladı [3, s. 96; 9, s. 48; 5, s. 77-78].

Xəzərlərin etnik mənşəyi ilə bağlı bir sıra fikirlər irəli sürülsə də nəticədə bu xalqın türk mənşəli olmasını qəbul edən tədqiqatçılar üstünlük təşkil edir. Xəzərlər haqqında məlumatlarda demək olar ki, dövrün bir çox mənbələrində rast gəlinir. Ərəb, ibrani, latın, yunan qaynaqları xəzərlərin türkmənşəli olduğunu qətiyyətlə təsdiq edir [13;14]. Xəzərlərin adı ilk dəfə qaynaqlarda II-III əsrlərdə çəkilsə də onlar VII əsrdən etibarən qonşu xalqların siyasi həyatında rol oynamağa başlamışlar. Bir sıra mənbələrdə həmin dövrdə Azərbaycanda məskunlaşmış sabirləri də xəzərlər yaxud xəzərlərin bir qolu adlandırmışlar. Qeyd etmək lazımdır ki, Mahmud Kaşğari də "Divanu lüğəti-t-türk" əsərində sabirləri və xəzərləri eyni xalq adlandırır. Xəzərlər Sasan-Bizans müharibəsində iştirak edərək hətta Bizansın müttəfiqi kimi bir neçə dəfə Cənubi Qafqaza yürüş etmişlər. Həmçinin qonşu Albaniya torpaqları da onların yürüşlərinə məruz qalmışdır. Xəzərlərin Albaniyaya yürüşü haqqında Moisey Kalankatlının "Albaniya tarixi" əsərində geniş verilmişdir [10, s.105-118]. Burada Xəzər hökmdarı "türkan" adlandırılırdı. Həmçinin Alban hökmdarı Varaz Trdatın xəzərlərlə mübarizənin mənasız olduğunu başa düşməsi və yürüşlərin qarşısını danışıqlar yolu ilə almaq qərarına gəlməsi də qeyd olunur.

Qafqaz çöllərində Xəzər xaqanlığının yaranması isə VII əsrin 30-cu illərində təsadüf edir. Yeni yaranmış bu dövlət az bir müddətdə Qafqazın və qonşu ərazilərin siyasi tarixində iz qoymağa başlayaraq bu torpaqlara yenicə gəlmiş ərəblərin başlıca rəqibinə çevrildilər [18, s. 25]. Ərəblərin Dərbənddən şimala yürüşünün qarşısını qətiyyətlə alan xəzərlər Azərbaycan uğrunda mübarizəyə qoşulmuşdular [8, s. 15; 11, s.20]. Əsas döyüş meydanının Azərbaycan olduğunu nəzərə alsaq bu Albaniya dövləti (Mehranilər sülaləsi) üçün ağır nəticələrə gətirib çıxarırdı.

VII əsr xəzər-türk etnosunun Albaniyaya axınının zirvəsi hesab oluna bilər. Həmin yüzillikdə onlar Albaniyanın, demək olar ki, bütün əyalətlərində yerləşdilər və yeni-yeni türk məskənləri saldılar [3, s. 111]. Hətta albanlar Albaniyanı "xəzər xaqanının əbədi mülkü" sayırdılar [9, s.61]. Mənbələrdə bir müddət albanların xəzərlərə tabe olduğu və onlara xərac verdikləri haqqında məlumatlar da var. Onların Albaniyaya ilk mütəşəkkil yürüşü isə 662-ci ildə baş vermişdir. Lakin bu yürüş Alban hökmdarı Cavanşir (642-681) tərəfindən dəf edilmişdi. Lakin 664-cü il və 684-cü illərdə baş vermiş xəzər yürüşləri də Albaniya üçün dağıdıcı olmuşdur. Hətta Albaniya xəzərlərin hakimiyyəti altına düşmüşdür [5, s.77-78]. Azərbaycan uğrunda bir əsrdən çox davam edən Xəzər-Ərəb müharibələri sonda sonuncunun qələbəsi ilə başa çatmış xəzərlərin bir hissəsi isə İslam dinini qəbul etmiş və qonşu

ərazilərə iddialarından əl çəkmişdilər. Artıq zəifləmiş Xəzər xaqanlığı tənəzzül dövrünə qədəm qoymuşdur. Türk tayfalarının Dərbənd keçidindən Azərbaycan ərazisinə köçü isə VIII əsrdə də davam etmişdir [7, s.27].

Tarixi ədəbiyyatlarda xəzərlərin dini inancı haqqında da fikirlər müxtəlifdir. İslama qədər onların bütpərəst olduğu qeyd olunur. Lakin bu bütpərəstliydə şamanizm elementləri öz əksini tapmışdı. Bizansın təsiri ilə burada xristianlığın yayılmasına baxmayaraq Xəzər xaqanının iudaizmi (yəhudi dinini) qəbul etmişdi. Xaqanın xristianlığı və İslamı deyil məhz iudaizmi rəsmi din kimi qəbul etməsinin bir sıra səbəbləri var idi. Onların fikrincə xristianlığın qəbulu ölkədə Bizansın, İslamın qəbulu isə Xilafətin təsirinin artması ilə nəticələnə bilərdi. Məhz 737-ci ildə ərəblər tərəfindən ağır məğlubiyyətə uğramış Xəzər xaqanının İslamı qəbul etməsinə baxmayaraq, 3 il sonra iudaizmi rəsmi din elan etməsi də buna sübutdur. Hətta ərəbdilli mənbələrdə Xəzər xaqanının yəhudi dinini qəbul etməsi Ərəb xilafətində Harun ər Rəşidin (786-809) hakimiyyəti dövrünə təsadüf etdiyi göstərilir [3, s.109]. Bu nöqteyi nəzərdən belə qənaətə gəlmək olar ki, bu günki dövrdə də Qafqazda o cümlədən Azərbaycanda yaşayan yəhudilər Xəzər xaqanlığı dövründə iudaizmi qəbul etmiş xəzərlərin varisləridirlər.

Azərbaycan ərazisində məskunlaşmış xəzərlər Azərbaycan türk xalqının formalaşmasında eləcə də, Azərbaycan türk dilinin bəzi dialektlərinin yaranmasında mühüm rol oynamışlar. Ümumiyyətlə, xəzərlər VIII əsrin II yarısınadək Albaniyada əsas faktor olaraq qalırdılar. Hətta Xəzər xaqanlığının süqutundan sonra belə Azərbaycan tarixində onların adına rast gəlinir. Bəzi tədqiqatçıların fikrinə görə, onlar Cənubi Qafqazda bir əsrə yaxın ağalıq etmişlər. Hətta Albaniyanın Qəbələ şəhəri onların inzibati mərkəzi olmuşdur. Ərəb mənbələrində Azərbaycanın şimalı hətta "Xəzər ölkəsi" adlandırılmışdır. Hətta "Xəzər" məfhumunun özünün dilimizdəki "gəzər" və ya "gəz" sözü ilə bağlılığını ehtimal etmək olar. Bu sözün "xəz" və "ər" sözlərindən ibarət olması da mümkündür. Ərəb tarixçisi və coğrafiyaşünası əl-Bəlazuri Azərbaycanın şimalını "Xəzərlər ölkəsi" adlandırmaqla yanaşı Qəbələ şəhərini də Xəzər kimi tədqim edirdi [3, s.112-113]. Xəzərlərin Azərbaycan tarixində izləri uzun müddət qalmışdır. Onlar öz mövcudluqlarını bir sıra Azərbaycan toponimlərində də saxlamışlar. Azərbaycan ərazisində "Xəzərdağ" (Füzulu rayonu), "Xəzəryurd" (Ordubad rayonyu), "Xəzəryaylaq" (Lerik rayonu), "Xəzərsəngər", "Xəzərtəpə kimi" toponimlər Xəzər etnonimini qoruyub saxlamışdır [3, s.113; 1, s.68]. Bu gün də Bakı şəhərinin inzibati rayonlarından biri Xəzər adını daşıyır.

Sonda nəticəyə gəlinmişdir ki, Azərbaycanın qədim etnosları və onların etnik mənsubiyyətin haqqında mövcud olan müxtəlif nəzəriyyələr mövcud olsa da ərəbdilli mənbələrə əsasən söyləmək olar ki, bu ərazidə hələ ərəb işğalından öncə türk xalqları üstünlük təşkil etmiş, türklər bu torpaqların qədim sakinlərindən biri olmuşlar. V-VII əsrlərdə Azərbaycanda məskunlaşmış türkdilli sabir, hun və xəzərlərin isə bilavasitə Azərbaycan xalqının etnogenezinin formalaşmasına təsiri olmuşdur. Bu xalqlar yerli türklərlə qaynayıb-qarışaraq Azərbaycan xalqının formalaşması prosesini sürətləndirmiş, XI əsrdə səlcuq türklərinin gəlişi ilə bu proses başa çatmışdır.

Ədəbiyyat siyahısı:

1. Ağayev R. Ə. Xəzərlər və Azərbaycan xalqının formalaşmasında onların rolu // "Geostrategiya" jurnalı. 2014, № 6, s. 67-72.
2. Ağayev R. Ə. İbn Hövqəlin "Kitab surət əl-ard" əsəri xəzərlər haqqında // Tarix və onun problemləri. 2014, № 2, s. 26-36.
3. Ağayev R. Ə. Ərəb xilafəti dövründə Azərbaycanın əhalisi. Bakı: Turxan, 2017, 344 s.
4. Ağayev R.Ə. Ərəbdilli mənbələr Azərbaycanın Dərbənd şəhəri və onun əhalisi haqqında // Pedoqoji Universitet Xəbərləri. 2014, № 3, s. 180-185.
5. Aşurbəyli S.B. Şirvanşahlar dövləti. Bakı: Avrasiya, 2006, 416 s.
6. Azərbaycan tarixi üzrə qaynaqlar. S.S. Əliyarlının redaktorluğu ilə. Bakı: Çıraq, 2007, 400 s.
7. Azərbaycan tarixi. 7cilddə. II c., Bakı: Elm, 2007, 608s.
8. Bakıxanov A.A. Gülüstani -İrəm. Bakı: Minarə, 2000, 224 s.
9. Bünyadov Z. M. Azərbaycan VII-IX əsrlərdə. Bakı:Şərq-Qərb, 2007, 424 s.
10. Kalankatlı Moisey. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. (Müqəddimə, tərcümə, qeyd və şərhlərin müəllifi akademik Z.M. Bünyadov) Bakı: Avrasiya press, 2006, 296 s.
11. Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, 157s.
12. Kaşğari M. Divanü Luğat-it-Türk. Tərcümesi C.I.Çeviren Besim Atalay. İstanbul: TTk Basımevi, 1985, 530s.
13. Kuzğun S. Hazar ve Karay Türkleri. Ankara: Bilge Kültür Sanat, 2015, 368 s.
14. Sumer F. Oğuzlar (Turkmenlər).Tarihleri, Boy teşkilatı, Destanları. İlavelerle 3. Baskı: Ana yayınları. İstanbul: Milli Egitim basım evi, 1980, 701 s.
15. Toğan Z. V. Ümumi türk tarihine giriş.C.1. En eski devrlerden XVI asra kadar.3. Baskı. İstanbul: Erderun Kitabevi, 1981, 538s.
16. Türkler: [21 ciltde]: red. H.C. Güzel, prof. dr.K.Çiçek, prof.dr. S.Koca. Ankara: Yeni Türkiye yayınları, c. 9. 2002, 1750 s.
17. Асадов Ф.М. Арабские источники о тюрках в раннее средневековье. Баку: Элм, 1993, 202 с.
18. Рашид ад-Дин Ф. Огуз-наме. Перевод с персидского, предисловие, комментарии, примечания и указатели Р.М. Шукюровой, Баку: Элм, 1987. 128с.
19. The Cambridge History of Iran. İn eight volumes, Vol.IV.Cambridge, 1975, 711 s.

MÜASİR DÖVRDƏ TÜRK DÖVLƏTLƏRİ ARASINDA İNTEQRASİYA PROSESLƏRİ

Arzu Abbasova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycanın maddi-mədəniyyət tarixi" ETL-nin əməkdaşı
abbasli0505@mail.ru

Açar sözlər: *Türk dövlətləri, sammit, kooperasiya, inteqrasiya, Türk Dövlətləri Təşkilatı, Orta Dəhliz Təşəbbüsü, institutionalizm.*
Keywords: *Turkic states, summit, cooperation, Organization of Turkic States, Middle Corridor Initiative, institutionalism.*

XIX əsrdən etibarən sürətlənən müasirliklə vəhdətləşmə prosesi XX əsrdə də davam etmiş və Türk xalqlarının inkişaf trayektoriyalarında həm paralel cəhətləri, həm də kəskin fərqləri önə çıxarmışdır. Bu dövrdə Türk toplumlarının siyasi, sosial və iqtisadi inkişaf səviyyələri əsasən onların müstəqillik dərəcələrindən və xarici

təsirlərin intensivliyindən asılı şəkildə formalaşmışdır. Xüsusilə mərkəzi Avrasiya məkanında yaşayan Türk xalqları üçün XX əsr çox zaman xarici hakimiyyət altında keçmiş, bu isə onların siyasi institutlarının, milli kimliklərinin və regional əlaqələrinin inkişafını məhdudlaşdırmışdır.

Əsas hissə: Sovet İttifaqı və Çin kimi böyük güclərin idarəetmə modelləri arasındakı kəskin fərqlər, həmçinin Türk xalqlarının etnik, dil və mədəni müxtəlifliyi səbəbindən, onların tarixi təcrübələrini vahid şəkildə təsnif etmək mümkün deyildir. Bu müxtəlifliyə baxmayaraq, XXI əsrə qədəm qoyan müasir Türk dövlətləri ortaq tarixi yaddaş, mədəni yaxınlıq və strateji maraqlar əsasında inteqrasiya meyillərini gücləndirmiş, siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığı dərinləşdirməyə yönəlmişdir.

Məhz bu baxımdan, müasir dövrdə Türk dövlətləri arasında inteqrasiya proseslərinin araşdırılması yalnız regional həmrəyliyin mahiyyətini deyil, həm də dəyişən qlobal geosiyasi reallıqlarda Türk dünyasının formalaşan strateji mövqeyini anlamaq baxımından xüsusi əhəmiyyət kəsb edir.

Coğrafiya və tarix müxtəlif Türk xalqlarının təcrübələrinə ciddi fərqliliklər gətirmişdir. II Dünya müharibəsi zamanı "etibarsızlıq"da ittiham olunan bir sıra Türk icmaları ağır nəticələrlə üzləşmişdir. 1921-ci ildən sonra öz muxtariyyətinə malik olan Krım tatarları 1944-cü ildə qəfil şəkildə Özbəkistana və Sibirə deportasiya edilmiş, vətənə dönüş hüquqları yalnız 1989-cu ildə tanınmışdır. Daha da faciəvi şəkildə, 1944-cü ildə Sovet Gürcüstanından köçürülən Axısqa türklərinə geri qayıtmaq heç vaxt rəsmən icazə verilməmişdir.

Rusiyanın daxilində yaşayan Çuvaş, Tatar və Başqırd xalqları isə nisbətən daha əlverişli vəziyyətdə olmuş, onların muxtar respublikaları sovet dövründən sonra da mövcudluğunu davam etdirmişdir. Sibir bölgəsində yaşayan Yakutlar (Saxalar) kimi bir çox kiçik Türk xalqları da oxşar mövqedə idi. Sovet milli iyerarxiyasında ən yüksək mövqeni isə SSRİ-nin beş türk xalqları - Azərbaycan, Türkmənistan, Özbəkistan, Qırğızıstan və Qazaxıstan tuturdu.

Findley Karterin də "Dünya Tarixində Türklər" əsərində qeyd etdiyi kimi - İran və Sovet İttifaqı arasında bölünmüş coğrafi vəziyyətə görə Azərbaycan ayrıca kateqoriyada qiymətləndirilməlidir [1].

Bütün bu təzyiqlər, tarixə Türk dövlətlərinin siyasi cəhətdən birləşməsinin və gələcəkdə Türk dövlətləri tərəfindən əsası qoyulacaq xüsusi təşkilatların yaranmasının rüşeymini qoydu.

Türk dövlətləri təşkilatının tarixinə baxdıqda, onun bu günədək bir sıra transformasiya proseslərindən keçdiyi görünür. İlk türk dilli ölkələrin sammiti 30 oktyabr 1992-ci ildə Türkiyə Respublikasının Prezidenti Turgut Özalın təşəbbüsü ilə Ankarada keçirilib [2]. 3 oktyabr 2009-cu ildə Azərbaycanın qədim şəhərlərindən Naxçıvanda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə Türk Dövlətləri Əməkdaşlıq Şurasının yaradılması haqqında saziş imzalayıb [2]. Bu sənəd nəticəsində

Türk dövlətləri arasında tarixi köklərə, ortaq dilə, dinə, mədəniyyətə və adət-ənənələrə əsaslanan əməkdaşlıq mexanizmi formalaşdı.

Türk Şurasının (indiki Türk Dövlətləri Təşkilatı) ilk sammiti 21 oktyabr 2011-ci ildə Qazaxıstanın Almatı şəhərində keçirilib. Təşkilatın məqsədləri üzv dövlətlər arasında siyasi, iqtisadi-ticarət, turizm, nəqliyyat, rəqəmsallaşma və mədəni-humanitar əlaqələrin inkişafı, beynəlxalq münasibətlərdə qarşılıqlı etimad və dəstək mühitinin yaradılması, qardaşlıq və qonşuluq münasibətlərinin möhkəmləndirilməsi olub.

Türk Dövlətləri Təşkilatı (TDT) üzv dövlətlər arasında əməkdaşlıq və inteqrasiyanı gücləndirməyə yönəlmiş diplomatik fəaliyyətini intensivləşdirir. Sammitlər, ikitərəfli görüşlər və çoxtərəfli forumlar üzv ölkələr arasında dialoqu və koordinasiyanı asanlaşdırır. Təşkilatın strateji sənədləri və sammit bəyannamələri regional sabitlik və təhlükəsizlik məsələlərinə diqqət ayırmağı əks etdirir.

Son illərdə keçirilən yüksək səviyyəli görüşlər TDT-nin institusional strukturunun möhkəmlənməsini sürətləndirmiş və uzunmüddətli strateji məqsədlərin müəyyənləşdirilməsinə zəmin yaratmışdır. Məsələn, 3 noyabr 2023-cü il tarixində Qazaxıstanın Astana şəhərində keçirilən 10-cu Sammit "TURKTIME" şüarı altında birgə fəaliyyət və əməkdaşlığa sadiqliyi nümayiş etdirmişdir. Sammit bir sıra mühüm qərarlar, o cümlədən TDT-nin daimi nümayəndələri, yeni bayraqlar və İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) müşahidəçi statusunun verilməsi kimi məsələləri əhatə etmişdir [3].

Bundan əlavə, üzv dövlətlərin media qurumları arasında Mətbuat Alyansı (ATNA) yaradılmış, elm və təhsil sahəsində beynəlxalq əməkdaşlığın inkişafı təşviq edilmiş və ortaq əlifba hazırlanması qərara alınmışdır. Astana sammiti həmçinin maliyyə və investisiya sahəsində regional inteqrasiyanı gücləndirmək məqsədilə şəhəri Türk dünyasının maliyyə mərkəzi kimi müəyyən etmişdir.

Əvvəlki sammitlər, xüsusilə İstanbul (2021), Bişkek (2012), Səmərqənd (2022) və Astana (2023), Türk dövlətləri arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın inkişafında mühüm mərhələlər olub. Təşkilatın əsas məqsədləri üzv ölkələr arasında siyasi və iqtisadi əməkdaşlığı gücləndirmək, regional təhlükəsizliyi təmin etmək və Türk dili və mədəniyyətinin inkişafını dəstəkləməkdir. Eyni zamanda TDT digər beynəlxalq və regional təşkilatlarla, məsələn BMT, İƏT, ÜST, ATƏT, ŞƏT və AB ilə əməkdaşlığı inkişaf etdirir [4].

Son iki ildə Avrasiya məkanında müşahidə olunan geosiyasi dəyişikliklər qlobal nəqliyyat və ticarət marşrutlarının məzmununu ciddi şəkildə yenidən formalaşdırmışdır. Rusiya-Ukrayna müharibəsi, Qırmızı dənizdə Husi qruplarının kommersiya gəmilərinə hücumları və regiondakı ümumi qeyri-sabitlik Şimal marşrutlarının etibarlılığına dair yeni suallar yaratmışdır. Bunun nəticəsi olaraq Şərq-Qərb yük axınının böyük hissəsi cənub istiqamətlərinə yönəlmiş və ənənəvi Şimal Dəhlizinin əhəmiyyəti nəzərəçarpacaq dərəcədə azalmışdır. Bu şəraitdə Transxəzər

Beynəlxalq Nəqliyyat Marşrutu - digər adı ilə Orta Dəhliz - alternativ, daha təhlükəsiz və daha səmərəli nəqliyyat xətti kimi ön plana çıxmışdır.

Orta Dəhliz Çindən başlayaraq Qazaxıstan və ya Türkmənistan vasitəsilə Mərkəzi Asiyadan, daha sonra Xəzər dənizi üzərindən Azərbaycan və Gürcüstan ərazisindən keçərək Türkiyə üzərindən Avropaya uzanan çoxmodal nəqliyyat marşrutudur. Marşrutun ən mühüm üstünlüklərindən biri Şimal Dəhlizi ilə müqayisədə təqribən 3 min kilometr daha qısa olmasıdır. Bu həm tranzit müddətlərini azaldır, həm də Rusiyadan yan keçməklə sanksiya risklərini minimuma endirir.

Nəticə: Son statistik göstəricilər də Orta Dəhlizə artan marağı əks etdirir. 2023-cü ilin ilk doqquz ayında bu xətt üzrə daşınan yük həcmi 1,9 milyon tona çatmış, bu isə əvvəlki illə müqayisədə 89 faiz artım deməkdir. Hazırkı illik buraxıcılıq qabiliyyəti Şimal Dəhlizindən aşağı olsa da, rəqəmsallaşma, dəmir yolu infrastrukturu, liman modernizasiyası və tarif siyasətinin təkmilləşdirilməsi kimi tədbirlər vasitəsilə genişlənmə üçün kifayət qədər potensial mövcuddur.

Cənubi Qafqaz regionu, xüsusilə də Azərbaycan, Orta Dəhliz boyunca yüksələn geostrateji rol oynayır. Azərbaycan həm Avropa ilə Asiya arasında quru bağlantısının mərkəzində yerləşməsi, həm də Xəzər hövzəsinin əsas tranzit ölkəsi olması səbəbindən marşrutun ayrılmaz hissəsinə çevrilmişdir. Bundan əlavə, ölkənin həm Rusiya, həm də İranla sərhədləri olması fonunda - hər iki istiqamətdə sanksiya və siyasi məhdudiyyətlərin mövcudluğu - Azərbaycanı Avropa-Çin quru yolunun praktiki olaraq yeganə təhlükəsiz və etibarlı tranzit nöqtəsinə çevirir.

Orta Dəhlizin inkişafı həm region dövlətləri, həm də daha geniş Avrasiya məkanı üçün iqtisadi və strateji üstünlüklər yaradır. Marşrut yalnız ticarətin şaxələndirilməsinə deyil, həm də regional əməkdaşlığın dərinləşdirilməsinə, logistika xidmətlərinin modernləşdirilməsinə və rəqabətqabiliyyətli nəqliyyat infrastrukturunun formalaşdırılmasına töhfə verir. Bu baxımdan Orta Dəhliz, qlobal təchizat zəncirlərinin dəyişdiyi və yeni risklərin artdığı müasir dövrdə Avrasiyanın əsas nəqliyyat dayaqlarından birinə çevrilməkdədir.

Ədəbiyyat siyahısı:

1. Findley, Carter Vaughn. The Turks in World History. Oxford: Oxford University Press, 2005. 320 s.

2. Guliyev, Vusal (2024) "The Reinvigoration of the Organization of Turkic States amid Ongoing Geopolitical Unrest and Economic Uncertainty," Khazar Journal of Humanities and Social Sciences: Vol. 27: Iss. 2, Article 6.

3. Vorisova, Komilaxon; Nazirov, Mukhtor. Characteristics of Development of Integration Processes Within The Organization of Turkish States. European Science Methodical Journal, ISSN 2938-3641, Volume 1, Issue 3, June 2023, s. 11.

4. "Türk Dili Danışan Dövlətlərin Əməkdaşlıq Şurasının Yaradılması haqqında Saziş." Naxçıvan, Azərbaycan, 3 oktyabr 2009.

XIX ƏSRDƏ QARABAĞIN TARİXİ COĞRAFİYASI: SİYASİ VƏ DEMOQRAFİK DƏYİŞİKLİKLƏR

Elşən Aslanov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru
elshanaslanov@bsu.edu.az;
https://orcid.org/0000-0002-3823-4350

Açar sözlər: *Qarabağ, Tarixi coğrafiya, Türkmənçay Müqaviləsi, Köçürmə siyasəti, Demoqrafik dəyişiklik, Türk etnomədəni məkanı*
Keywords: *Karabakh, Historical geography, Treaty of Turkmenchay, Resettlement policy, Demographic change, Turkic ethno-cultural space*

XIX əsr Qafqaz regionu, xüsusilə də Qarabağ, geosiyasi gərginliklərin və böyük imperiya maraqlarının kəsişdiyi bir dövrü əhatə edir. Bu əsr, Qarabağın Türk etnomədəni məkanından qoparılması, inzibati, siyasi və demoqrafik dəyişikliklərə məruz qalması ilə səciyyələnir. Hazırda bütün Türk dünyası üçün tarixi ədalətin bərpası mənasını daşıyan 44 günlük Vətən müharibəsindəki zəfər və işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işləri fonunda, bu regionun tarixi-coğrafi köklərinin yenidən araşdırılması xüsusi elmi aktuallıq kəsb edir.

Tezisdə XIX əsrdə Qarabağda keçirilən siyasi-inzibati dəyişikliklərin və Rusiya İmperiyasının köçürmə siyasətinin regionun tarixi coğrafiyasına və etnik mənzərəsinə təsiri təhlil edilir. Bu dövrdə Qarabağda süni şəkildə yaradılan coğrafi saxtakarlıqlar (toponimik dəyişikliklər, məskunlaşma siyasəti) böyük Türk etnomədəni məkanının parçalanmasına yönəlmiş və sonrakı dövrdə əsassız ərazi iddiaları üçün zəmin yaratmışdır.

Təqdim olunan tezisdə, XIX əsr mənbələri əsasında Qarabağda aparılan inzibati islahatların və demoqrafik dəyişikliklərin tarixi-coğrafi təhlili aparılır. Regionun inzibati bölgüsünün dəyişdirilməsi və erməni əhalisinin kompakt məskunlaşdırılması siyasəti sadəcə regional hadisə deyil, Qafqazda Türk sivilizasiyasının coğrafi izlərini silmək və bütöv türk-müsəlman coğrafiyasını ikiyə bölmək məqsədi güdən imperiya siyasətinin məqsədyönlü strategiyası kimi qiymətləndirilir.

Qarabağın xanlıqdan komendant idarə üsuluna keçidi. XIX əsrin başlanğıcı Qarabağ regionunun siyasi coğrafiyasında dönüş nöqtəsidir. 1805-ci ilin mayında imzalanmış Kürəkçay müqaviləsi xanlığının müstəqilliyini ləğv etdi. Bu müqavilənin tam mətnin biz Qafqaz Arxeoqrafiya komissiyasın çap edilmiş toplusunda görə bilərik [2, s.705].

Müqavilənin şərtlərinə əsasən Qarabağ xanı İbrahim Xəlil xan İranın və digər bütün dövlətlərin hakimiyyətindən imtina etdiyini rəsmən bəyan edirdi. Burada işlədilən "hər hansı başqa dövlət" ifadəsi əslində regionda mühüm siyasi güc olan Osmanlı imperiyasına işarə edirdi. "Mən yalnız Bütün Rusiyanın Böyük İmperatorunun və onun varislərinin hakimiyyətini tanıyıram" cümləsi isə Qarabağ xanlığının Rusiyaya tabe, yəni vassal statusu daşıdığını açıq şəkildə göstərirdi. Bu müd-

dəa xanlığın ərazi baxımından sərhədlərini dəyişməsə də, onun müstəqil xarici və daxili siyasət yürütmək imkanlarını tam şəkildə aradan qaldıraraq siyasi fəaliyyətini ciddi şəkildə məhdudlaşdırdı [1, s.9].

Kürəkçay müqaviləsi xanlığın müstəqilliyini faktiki olaraq məhdudlaşdırsa da, xanın öz daxili idarəetmə hüququnu qismən saxlayırdı. Rusiya İmperiyası daxilində xanlığın statusunun dəyişməsi prosesi tədricən dərinləşirdi. Bu dərinləşmə ilk növbədə özünü mülkiyyət münasibətlərində göstərməyə başladı. QAKA sənədləri göstərir ki, xan nəslinə məxsus torpaqlar tədricən müsadirə edilərək dövlət mülkiyyətinə çevrilmişdi. General Yermolovun Cəfərqulu ağanın əmlakını müsadirə etməsi bu siyasətin bariz nümunəsidir [4, s.453]. Rusiyanın iqtisadi nəzarəti gücləndirmək və xan nəslinin tədricən məhv edilməsi üçün hətta xan nəslinin şəcərəsini tərtib etmişlər [2, s.695].

Bu yanaşma Qarabağ xanlığının ləğvindən sonra Rusiya siyasətinin iki əsas istiqamətini aydın göstərir. Birinci Rusiyanın yeni idarəetmə sisteminin dayanıqlığı üçün xan sülaləsinin (xüsusilə varisin) siyasi və iqtisadi bazasının tamamilə məhv edilməsinə görə sürgün və əmlakın müsadirə edilməsi yolu ilə zərərsizləşdirilməsi. Ikincisi, Rusiya bir tərəfdən xanın qohumunu (Cəfərqulu ağanı) öz ərazisindən uzaqda saxlayırdı, digər tərəfdən isə onun oğullarını "girov" kimi istifadə edərək hərbi xidmətə cəlb etməklə xan nəslini Rusiya İmperiyasının maraqlarına tabe etməyə çalışırdı. Bu, yerli elitanın hərbi-inzibati sistemə inteqrasiya edilməsinin klassik nümunəsidir.

Rusiya himayəsinə keçən Qarabağ xanlığı, 1822-ci ildə ləğv edildi və xanlıq sistemi komendantların idarə etdiyi "Qarabağ vilayəti" inzibati vahidi ilə əvəz olundu [3, s.850]. Bu, böyük Türk coğrafiyası daxilindəki feodal-inzibati bütövlüyün dağıdılması istiqamətində atılan ilk ciddi coğrafi addım idi. Xanlığın ləğvindən sonra Qarabağın əraziləri Rusiya-İran (1826–1828) və Rusiya-Osmanlı (1828–1829) müharibələrinin nəticəsi olaraq Qafqazda formalaşan yeni geosiyasi mənzərənin mərkəzinə çevrildi.

Kürəkçay müqaviləsi ilə başlanan proses 1822-ci ildə xanlığın ləğvi və Rusiyanın regional idarəçiliyinin tam bərqərar olması ilə yekunlaşdı. Torpaq münasibətlərinin dəyişdirilməsi, xan nəslinin iqtisadi və siyasi bazasının zəiflədilməsi, yerli elitanın imperiya sisteminə inteqrasiya edilməsi və müharibələrdən sonra bölgənin geosiyasi statusunun yenidən formalaşması Qarabağın xanlıqdan vilayətə keçidinin əsas komponentləridir. Bu dövr Cənubi Qafqazın siyasi xəritəsinin yenidən qurulduğu və Qarabağın yeni imperiya idarəetməsi sisteminə daxil olduğu mərhələ kimi xarakterizə olunur.

Demoqrafik dəyişikliklər: Köçürmə siyasəti. Qarabağın tarixi coğrafiyasında baş verən ən kəskin dəyişikliklər məhz demoqrafik proseslərlə bağlı olmuşdur. Zaman keçdikcə aydın görünür ki, bu demoqrafik dəyişikliklər inzibati və siyasi dəyişikliklərlə müqayisədə daha ağır, uzunmüddətli və mənfi nəticələr doğurmuşdur. Erməni əhalisinin Cənubi Qafqaza köçürülməsi ilə bağlı fərman Çar Rusiyasının siyasəti hələ I Pyotrun dövründən başlamışdı. 1724-cü il noyabrın 10-da verilmiş çar fərmanında bildirilirdi ki, erməni xalqının müraciəti nəzərə alınaraq yeni əldə edilmiş fars vilayətlərində onların məskunlaşması üçün münasib torpaqlar ayrılsın və on-

lara elə münasibət göstərilsin ki, narazılıq yaranmasın. Fərmanda həmçinin vurğulanırdı ki, erməni xalqı imperator mərhəmətimizə xüsusi qəbul edilmişdir [5, s.67].

Rus müəlliflərinin özlərinin də etiraf etdiyi kimi, ermənilərin köçürülməsi adi demoqrafik zərurət deyil, əvvəlcədən düşünülmüş və məqsədli bir siyasət idi. Bu siyasətin əsas məqsədi Cənubi Qafqazda xristianlığı möhkəmləndirmək və imkan daxilində müsəlman əhalinin mövqelərini zəiflətməkdən ibarət olmuşdur [5, s.68]. I Pyotrun vəfatından sonra Rusiyanın Qafqazla bağlı planları bir müddət ləngisə də, XIX əsrin əvvəllərindən etibarən Rusiya yenidən regiona qayıdaraq qısa zaman ərzində Cənubi Qafqazı işğal etdi.

1828-ci ildə bağlanan Türkmənçay və 1829-cu ildə imzalanan Ədirnə müqavilələrindən sonra Rusiya imperiyası İran və Osmanlı torpaqlarından on minlərlə ermənini Cənubi Qafqaza köçürməyə başladı. Bu köçürmələr əsasən Qarabağın dağlıq hissələrini, həmçinin İrəvan və Naxçıvan xanlıqlarının ərazilərini əhatə edirdi. 1829–1830-cu illərdə təkcə Bəyazid, Qars və Ərzurum bölgələrindən Zaqafqaziyaya 84 mindən artıq erməni gətirilmişdi. Köçürülənlərə ciddi güzəştlər tətbiq olunmuş, onlar bir neçə il torpaq və dövlət vergilərindən azad edilmiş, maddi ehtiyacı olan ailələrə isə pul yardımı göstərilmişdi [6, s.66].

Köçürülmə prosesi çox vaxt plansız və nizamsız aparılır, boş ərazilərlə yanaşı yerli əhalinin torpaq, su və otlaq kimi resursları hesabına həyata keçirilirdi. Bu isə yerli əhali ilə köçürülənlər arasında gərginliyə səbəb olurdu. Təsadüfi deyil ki, ermənilərlə müsəlmanlar arasında ilk qarşıdurmalar məhz məişət zəminində meydana çıxmışdı.

XX əsrin əvvələrində Cənubi Qafqazın demoqrafik mənzərəsi ilə bağlı Rusiya mənbələrində diqqətçəkən etiraflar yer almağa başlayır. Həmin mənbələrdən birində qeyd olunur ki, Zaqafqaziyada yaşayan 1 milyon 300 mindən artıq ermənin 1 milyondan çoxu bölgənin yerli əhalisi deyil, məhz Rusiya tərəfindən köçürülərək məskunlaşdırılmışdır [8, s.60]. Bu fikrin müəllifi Qafqaz İpəkçilik Stansiyasının rəhbəri olmuş Nikolay Şavrovdur. Onun mövqeyi təsadüfi deyil, çünki Şavrov regionu və burada gedən demoqrafik prosesləri yaxından bilən imperiya məmurlarından biri idi. Bu etiraf Cənubi Qafqazda erməni əhalisinin sayındakı kəskin artımın təbii demoqrafik inkişafla deyil, məqsədyönlü köçürmə və yerləşdirmə siyasəti ilə bağlı olduğunu açıq şəkildə göstərir. Göründüyü kimi XIX əsrdə bölgədə yaranan yeni demoqrafik reallıq süni xarakter daşıyırdı və imperiya maraqlarına uyğun şəkildə formalaşdırılmışdı.

Məhz bu demoqrafik dəyişikliklər sonrakı dövrlərdə Cənubi Qafqazda etnik zəmində baş verən münaqişələrin, o cümlədən ermənilərin ərazi iddialarının meydana çıxmasında həlledici rol oynadı. Əhali sayının və etnik nisbətin dəyişməsi, xüsusilə Qarabağ və İrəvan ətrafında, yeni inzibati-siyasi vahidlərin yaradılması üçün zəmin formalaşdırdı. Çar I Nikolayın 1828-ci il martın 21-də verdiyi fərmanı ilə İşğal edilmiş Naxçıvan və İrəvan xanlıqları əraziləri rəsmi şəkildə "erməni vilayəti" adlandırılmağa başladı. Bu qərar tarixi-etnik reallıqlardan deyil, imperiyanın siyasi məqsədlərindən irəli gəlirdi. Rusiya bu adlandırma vasitəsilə Azərbaycan torpaqlarına süni etnik məzmun yükləyir, bununla da bölgədə sonradan irəli sürülə biləcək ərazi iddiala-

rı üçün hüquqi-siyasi zəmin formalaşdırdı [7, s.273]. 1836-cı ildə həyata keçirilən kilsə islahatları nəticəsində qriqoryan kilsəsinin rolu güclənməyə başladı və erməni anlayışı tədricən etnik deyil, daha çox dini məzmun daşımağa başladı.

Əsrlər boyu türk-müsəlman əhalisinin üstünlük təşkil etdiyi Qarabağ coğrafiyasında etnik tarazlıq süni şəkildə pozuldu. Köçürülmələr guya boş və ya az məskunlaşmış ərazilərə aparılsa da, əslində bu proseslər yerli Türk əhalisinin ənənəvi yaşayış məkanlarının ətrafında həyata keçirilirdi. Bununla paralel olaraq, bölgənin Türk mənşəli toponimləri mərhələli şəkildə dəyişdirildi ki, bu da tarixi-etnik yaddaşın silinməsinə yönəlmiş məqsədli addım idi. Sözügedən demoqrafik və mədəni müdaxilələr müasir dövrdə irəli sürülən erməni ərazi iddialarının ideoloji və tarixi əsasını təşkil etmişdir.

Nəticə. Aparılan tarixi-coğrafi təhlil göstərir ki, XIX əsr Qarabağ və ümumilikdə Cənubi Qafqaz üçün dərin transformasiyalar dövrü olmuşdur. Bu transformasiyalar əsasən Rusiya İmperiyasının regionda həyata keçirdiyi məqsədyönlü inzibati, siyasi və demoqrafik siyasətin nəticəsi idi. Qarabağ xanlığının mərhələli şəkildə ləğv edilməsi, yerli feodal elitanın iqtisadi və siyasi bazasının zəiflədilməsi və imperiya idarəetmə sisteminə tabe etdirilməsi regionun tarixi-siyasi coğrafiyasını köklü şəkildə dəyişdirmişdir.

Xanlıq idarəetməsindən komendant idarə üsuluna keçid Qarabağın yalnız siyasi statusunu deyil, həm də onun tarixi-coğrafi bütövlüyünü sarsıtmışdır. Bu proses paralel şəkildə torpaq münasibətlərinin dəyişdirilməsi, mülkiyyətin müsadirəsi və yerli türk-müsəlman əhalisinin təsir imkanlarının məhdudlaşdırılması ilə müşayiət olunmuşdur. Beləliklə, Qarabağ Rusiya İmperiyasının Cənubi Qafqazdakı geosiyasi maraqlarının mərkəzi elementinə çevrilmişdir.

XIX əsrdə həyata keçirilən kütləvi erməni köçürülməsi isə Qarabağın tarixi coğrafiyasında ən kəskin və uzunmüddətli nəticələrə malik dəyişiklik olmuşdur. Mənbələr açıq şəkildə sübut edir ki, bu köçürmələr təbii demoqrafik proses deyil, imperiyanın dini-siyasi və strateji maraqlarına uyğun planlaşdırılmış siyasət idi. Köçürülmə nəticəsində bölgədə etnik nisbətlər süni şəkildə dəyişdirilmiş, bu isə sonrakı mərhələdə etnik qarşıdurmalar və ərazi iddiaları üçün sosial-demoqrafik zəmin yaratmışdır.

Eyni zamanda, toponimik dəyişikliklər və inzibati bölgülər vasitəsilə Qarabağın Türk etnomədəni yaddaşının zəiflədilməsi istiqamətində ardıcıl addımlar atılmışdır. Tarixi Türk mənşəli coğrafi adların dəyişdirilməsi regionun qədim etnik kimliyinin silinməsinə yönəlmiş ideoloji müdaxilə xarakteri daşımışdır. Bu proseslər XX əsrin əvvəllərindən etibarən erməni iddialarının "tarixi əsas" kimi təqdim edilməsində mühüm rol oynamışdır.

XIX əsrdə Qarabağda aparılan inzibati islahatlar və demoqrafik müdaxilələr Böyük Türk Coğrafiyasının Qafqaz qolunun parçalanmasına xidmət etmiş, Türkiyə ilə Azərbaycan arasında tarixi-coğrafi və etnokulturoloji əlaqələrin zəiflədilməsinə yönəlmişdir. Bu siyasət Cənubi Qafqazda uzunmüddətli geosiyasi gərginliyin əsas səbəblərindən birinə çevrilmişdir.

Yekun olaraq, 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfər XIX əsrdə Qarabağın tarixi coğrafiyasına və etnik strukturuna vurulmuş zərbələrin aradan qaldırılması baxımından dönüş nöqtəsi kimi qiymətləndirilməlidir. Bu Zəfər Qarabağın Türk etnomədəni məkanına qayıdışını təmin etməklə yanaşı, Cənubi Qafqazda yeni geosiyasi reallıqlar yaratmışdır. Azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri Qarabağın tarixi-coğrafi kimliyinin yenidən dirçəldilməsi prosesinin praktik təzahürüdür. Türk Dövlətləri Təşkilatı çərçivəsində güclənən əməkdaşlıq fonunda Qarabağ regionu Türk dünyasının strateji və mədəni inteqrasiyasında mühüm körpü rolunu yenidən bərpa etməkdədir.

Ədəbiyyat siyahısı:

1. *Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 5 Sayı: 9*
2. *Акты собранные Кавказскои Архоаграфическои Комиссей, т. II. Тифлис, 1868, 1238 с.*
3. *Акты собранные Кавказскои Архоаграфическои Комиссей, т. VI. Ч. 2 Тифлис, 1875, 950 с.*
4. *Акты собранные Кавказскои Архоаграфическои Комиссей, т. VII. Тифлис, 1878, 994 с.*
5. *Бутков П. Материалы для новой истории Кавказа, с 1722 по 1803 год [Текст] / П. Г. Буткова. Ч. 1. — Санктпетербург: Типография Императорской академии наук, 1869, 545 с.*
6. *Парсамян В. История армянского народа. 1801-1900 гг. Кн. 1-. — Ереван: Айастан, 1972, 398 с.*
7. *Полное собрание законов Российской империи. Соб. 2-е. Т. 3. Отд. 2-е. 1828. СПб, 1830, 1670 с.*
8. *Шавров Н. Новая угроза русскому делу в Закавказье Предстоящая распродажа Мугани инородцам / [Соч.] Н.Н. Шаврова. — Санкт-Петербург: Рус. собрание, 1911. — 78 с.*

XIX ƏSR MAARİFÇİLƏRİNİN ORTAQ TÜRK DİLİ VƏ TARİXİNƏ YANAŞMALARI: MÜQAYİSƏLİ TƏHLİL

Sevinc Qasımova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının dosenti
qasimovasevinc@mail.ru

Açar sözlər: *Ortaq türk tarixi, maarifçilik hərəkatı, türkçülük ideyaları, böyük islahatçı*
Keywords: *Common Turkish history, enlightenment movement, Turkic ideas, great reformer*

Məlumdur ki, hər bir xalqın tarixində yeniləşmə hərəkatı özünəməxsusluğu ilə seçilir. Qərbdən başlanmış yeni intibah – maarifçilik hərəkatı Şərqə nüfuz etsə də, burada intellektual elita fərqli tarixi şəraitdə əsas hərəkətverici qüvvəyə çevrilirdi. XIX yüzilliyin başlanğıcında Rusiya Cənubi Qafqazı işğal etmiş və Azərbaycan onun müstəmləkəsinə çevrilmişdi. Belə tarixi şəraitdə Azərbaycan aydınları Rusiya işğalını açıqca tənqid edə bilmədiklərindən bu vəziyyətdən çıxış yolunu yalnız xalqın öz ana dilində məktəblərinin açılmasında görürdülər. Buna hər vəchlə mane olan məmurlar xalqın modernləşməsinin imperiyaya hansı acı nəticələr verəcəyini bildiklərindən atılan bütün mütərəqqi addımların qarşısını almağa çalışırdılar. Bu

zaman özünün intellekti və geniş ensiklopedik biliyi ilə seçilən ilk maarifçi aydınımız A.A.Bakıxanov (1794-1847) xalqın maariflənməsi qayğısına qalır, "maarifin məktəbdən başlanması" fikrini 1832-ci ildə hazırladığı məktəb layihəsi ilə reallaşdırmağa çalışırdı. Lakin bu vacib məsələ yerli xalqa pis münasibət bəsləyən alman əsilli Qafqaz canişini Qriqori Vladimiroviç Rozen tərəfindən qısqanclıqla qarşılanır, sözügedən layihəyə etinasızcasına yanaşdığından bu uzun müddət onun arxivində saxlanılır və bu mütərəqqi addım nəticəsiz qalır (1832-ci ilin fevralında A.A.Bakıxanov tərəfindən tərtib edilən "Müsəlman məktəbi təsis edilməsinin layihəsi" hal-hazırda Moskvada Dövlət Tarix Muzeyinin Baron Rozen Fondunda saxlanılır).

Ortaq türk dili və tarixi məsələlərinə diqqət çəkən digər bir aydınımız Mirzə Kazımbəy (1802-1870) Qazan və Peterburq universitetlərində çalışdığı müddətdə maarifçilik yolunda dərsliklərin və dərs vəsaitlərinin dərc olunması işində real addımlar atır. Onun 1839-cu ildə yazdığı "Türk-tatar dilinin qrammatikası", 1841-ci ildə yazdığı "Uyğurlar haqqında tədqiqatlar", 1851-ci ildə "Dərbəndnamə"əsəri haqqında mülahizələri, 1856-cı ildə yazdığı "Müridizm və Şamil", 1865-ci ildə yazdığı "Bab və babilər" əsərləri bu sahədə ən uğurlu addımlardandır. XIX yüzilliyin ortalarından artıq yeni münasibətlərin meydana gəlməsi üçün tarixi şərtlər yetişməkdə idi. Bu zaman Azərbaycanda yeni kapitalist münasibətləri yaranır, xalqın milli şüurunun oyanması, özünüdərk prosesi sürətlənir, milli mətbuat, milli teatr və milli məktəblər yaradılması ideyası daha çox aktuallıq kəsb edirdi. Bir çox aydınlar bu dövrdə xalqın təhsil məsələsinə daha çox önəm verir, nəzəri məsələlərlə yanaşı konkret atdıqları praktik fəaliyyətlərində buna biganə qalmırdılar. Eyni zamanda cəmiyyətdə iki siyasi qüvvənin formalaşması, milli sənaye burjuaziyası ilə ziyalı təbəqəsinin meydana çıxması, onların birləşməsi prosesinin başlanması xalqın milli özünüdərkini daha da dərinləşdirirdi.

Beləliklə, əsrin son rübündə millətin formalaşması, milli hərəkatın yeni mərhələyə daxil olması maarifçilik hərəkatının daha geniş vüsət almasına gətirib çıxarırdı. XIX yüzilliyin sonlarında türk xalqlarının oyanışı daha da güclənir, onlar arasında yeni ideyalar - türkçülük ideyaları yayılırdı. Belə bir mühitdə türk-müsəlman xalqlarının oyanışında, qabaqcıl ideyaların yayılmasında böyük rol oynayan şəxsiyyətlər də yetişirdi. "XIX yüzilliyin ən böyük islahatçısı", "türk dünyasını oyandıran", XIX əsr türk-müsəlman dünyasının böyük düşüncə sahiblərindən biri də İsmayıl bəy Qaspıralı (1851-1914) idi. Onun dünyagörüşünün genezisinə təsir edən bir çox amillər vardı. Bunlardan ən başlıcası Rusiyada təhsil aldığı dövrdə bir sıra milliyətçi düşüncə sahibləri ilə tanışlığı və əlaqəsinin olması idi. O, bunların təsiri ilə rus millətçiliyi ideyaları, liberal və millətçi siyasi cərəyanlarla yaxından tanış olmuşdur. Fransada olduğu müddətdə Avropa mühiti və mədəniyyəti ilə yaxından tanış olmaqla, eyni zamanda fransız dilini mükəmməl öyrənmişdir.

Rusiya imperiyasında türkçülük hərəkatının ideya rəhbəri adını qazanmış və eyni zamanda onun yaradıcısı hesab edilən İ.Qaspıralı türk dünyasının birliyi konsepsiyasını "Dildə, fikirdə, işdə birlik" ideyası kimi formalaşdırmışdır. O, eyni zamanda dünyanın müxtəlif yerlərində yaşayan türk xalqlarını birləşdirmək istəyirdi.

Onun ortaq və ümumtürk ədəbi və siyasi dil birliyi uğrunda mücadiləsi əslində mütəfəkkirin siyasi hədəflərini də müəyyən edirdi. Bununla bağlı görkəmli türk yazar və siyasətçi Ziya Gökalp yazırdı ki, "bütün türklərin eyni lisanda birləşmələrinin qabil olduğuna "Tərcüman"ın vücudu canlı bir dəlildir" [2].

Bu fikir bir daha göstərir ki, ortaq ədəbi türkcənin yaranması dövrün tələblərindən biri idi. Bunu çağdaş dövrümüzdə "Türk birliyi" konsepsiyası bir daha təsdiqləmiş oldu. İ.Qaspıralıya görə, "müsəlmanlar yüksək Avropa mədəniyyətindən məhrum olsalar da öz dinlərində və ondan qaynaqlanan sosial həyatlarında milli kimliklərinə zərər verə biləcək yabançı təsirlərə qarşı çox sağlam, sarsılmaz dirəniş gücünə sahibdirlər". İsmayıl bəy Krım tatarları üçün kimdirsə, Azərbaycan, Osmanlı və Türküstan üçün də eyni dərəcədə millət atasıdır. Məsələn, 1906-cı ildə Qarabağ, yaxud Şuşa "Tərcüman"ın əsas mövzusu idi. Şuşada yerli türklərin qırılmasında, Şuşanın yandırılmasında ermənilərə silahlı dəstək verən general Qoloşçapovun və Kazarovun qanlı cinayətlərinə son qoymağı, onları ordudan qovmağı Qafqaz canişini, ermənipərəst Vorontsovdan tələb edirdi [6, s.16-17].

İ.Qaspıralı "Tərcüman" qəzetinin redaktorluğunu Həsən Səbri Ayvazova etibar etmişdi. Qeyd etmək yerinə düşər ki, ölüm ayağında İsmayıl bəy Qaspıralının vida sözlərini Türk dünyasına çatdıran da məhz onun həm köməkçisi və həm də məsləkdaşı H.Səbri olmuşdu. Onların ən böyük istəyi fikirlərini aydın ifadə edə biləcək türk dilində bir mətbu orqanını yaratmaq idi. Bu məqsədlə o, rəsmi müraciətləri rədd edildikdən sonra Tiflisdə bir növ məlumata bənzəyən vərəqələr yayır, eyni zamanda qəzet üçün icazə almaqla məşğul olurdu. Bununla yanaşı mütəfəkkir İdil boyunda yaşayan müsəlman türkləri arasında təbliğat aparmaqla qəzet üçün abunəçilər də tapmağa çalışırdı. Bütün etdiyi cəhdlər öz bəhrəsini verdikdən sonra 1883-cü ildə rus və türk dilində nəşr olunması şərti ilə qəzet çıxarmaq icazəsini alır. 10 aprel 1883-cü ildə, yəni Kırımın Rusiyaya birləşdirilməsinin 100 illiyi dövründə Baxçasarayda "Tərcüman" adlı qəzeti çıxarmağa nail olmuşdu. "Tərcuman" qəzeti "Əkinçi"dən sonra çar Rusiyası ərazisində nəşr edilən ikinci Türkcə qəzet idi. İsmayıl bəy Qaspıralı 1881-ci ildə rusca nəşr etdirdiyi "Rusiya Müsəlmanları" adlı əsərində göstərirdi ki, "Asiya və Avropanın bir qismində sakin olan böyük bir millət – Türk Tatar milləti var. Bu millət dağınıq, parça-parça, zəif, digər Avropa millətlərinə nisbətən elm, sərvət və mədəniyyətcə çox geridə qalmışdır. Belə davam etsə, əbədi mübarizə qanununa uyğun olaraq məhv olacaq, başqa millətlər tərəfindən udulacaqdır" [4, s.21].

İsmayıl bəy Qaspıralı ilə başlayan bu cərəyan genişlənərək Qazax, Azərbaycan, Türküstan və Türkiyəyə qədər yayılmış, hətta Macarıstanda belə özünə xeyli tərəfdar qazandırmışdı. Rusiyada rus şovinizmi və "Panslavyanizm"inə qarşı Rusiyadakı Türk ziyalıları və açıq görüşlü din adamları "Türkçülük" və "Turançılığ"ı özləri üçün mədəni və siyasi-ideoloji doktrina kimi qəbul etmişdilər. Bütün bunları nəzərə alan tədqiqatçılar göstərirlər ki: "Turançılıq" şüurlu olaraq Rusiyadakı Türklər arasında daha geniş vüsət almışdı. Bu ideyanın bir çox əsasları İsmayıl Bəy Qaspıralı tərəfindən təsbit edilmiş və tətbiqinə başlanılmışdı [3]. "Dildə, fikirdə, işdə

birlik" ideyasını "Tərcüman" qəzetinin baş şüarına çevirən İsmayıl bəy Qaspıralı təkcə yazılar yazmaqla kifayətlənməmiş, Yusuf Akçuranın də qeyd etdiyi kimi: "hər il Türk dünyasının müxtəlif yerlərinə səyahətlər edərək Türkiyə, Qafqaz, Qazan, Türküstan, hətta Litvanı gəzərək oralardakı Türk-tatar aristokratları, zənginləri, alimləri və yoxsulları ilə görüşərək fikir mübadiləsi aparmış, Çindən Almaniyaya, Şimal Buzlu Okeandan Afrikaya və Hind Okeanına qədər Türk və İslam aləminin aydınları ilə eyni məsələlər üzərində yazışmış, xəbərləşmişdi" [1, səh.13]. İ.Qaspıralının yaradıcılığında Azərbaycan maarifçilərindən M.F.Axundzadə, Həsən bəy Zərdabi, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Üzeyir Hacıbəyov, Sultan Məcid Qənizadə, Ünsizadə qardaşları, Cəlil Məmmədquluzadə, Məhəmmədağa Şahtaxtlı, Nəriman Nərimanov kimi xadimlərin geniş əməkdaşlıq telləri mövcuddur. O, Azərbaycanın müxtəlif bölgələrinə getməklə burada fəaliyyətini genişləndirir və maarifçilik toxumunu səpirdi. Onun, M.P.Vaqifin, S.Ə.Şirvaninin, Q.Zakirin şeirləri, Ə.Haqverdiyevin "Dağılan tifaq" komediyası haqqındakı rəy və resenziyaları, həmçinin, dövrün mütərəqqi ideyalı qəzet və jurnallarından - "Əkinçi", "Ziyayi - Qafqaziyyə", "Kəşkül", "Şərqi-Rus", "Həyat", "İrşad", "İqbal", "Molla Nəsrəddin", "Məktəb" və b. Azərbaycan mətbuat nümunələrində ortaq dil və tarix məsələsi ilə bağlı mülahizələri maarifçilik sahəsindəki xidmətlərini bir daha təsdiqləyir.

İ.Qaspıralı Həsən bəy Zərdabinin fəaliyyətini yüksək dəyərləndirərək, onun "Əkinçi"qəzetinin Azərbaycan xalqının tarixində oynadığı rolunu "Farsimi, türkimi" məqaləsində ifadə edərək yazırdı: "Mərhum Həsən bəy Məlikovun təşəbbüsündən bu günə qədər Azərbaycanda türk dili çalışıldı; qəzetlər, teatrlar, risalələr türk dilində nəşr edildi... qardaş-qardaşı gördü, tanıdı, təkrar qucaqlaşdı, birləşdi..." Azərbaycanın görkəmli maarifçi-məktəbdarları, xüsusilə Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Məhəmməd ağa Şaxtaxtlı, Ömər Faiq Nemanzadə, Firidun bəy Köçərli, Abdulla Şaiq, Üzeyir Hacıbəyli, Nəriman Nərimanov, Məmməd Səid Ordubadi, Nəcəf bəy Vəzirov və başqaları "Üsuli-cədid" məktəblərinin açılmasına səy göstərməklə yanaşı, eyni zamanda məktəb təsisçisi kimi çıxış etmişlər. Cədidçilik hərəkatının 1880-ci illərdə Rusiya imperiyasının türk-müsəlman xalqları arasında meydana çıxmasını qeyd etsələr də, XIX əsrin 60-90-cı illərində Azərbaycanda "Yeni üsullu məktəblər" yaranmış və burada müasir Avropa tədris metodları tətbiq olunmağa başlamışdı [9, s.122].

Məqalədə Rusiyada yaşayan türk aydınlarının Azərbaycan maarifçiləri ilə qarşılıqlı əməkdaşlığı, Osmanlı dövlətində yenilikçi aydınların ortaq türk dili və tarixi məsələlərinə diqqət çəkiləcək, bu aydınların "Üsuli-cədid" məktəblərinin yaradılması yolundakı çətinlikləri müqayisəli təhlil ediləcək.

Ədəbiyyat siyahısı:

1.Akçura Yusuf. Türkçülüyün Tarihi. Bakı, 2006, s.144

2.Gökalp Ziya. Türkçülüyün əsasları. Eskişehir, 2019, s.182

3.Kırımer Cafer Seyidahmed. Gaspıralı İsmayıl Bey. İstanbul Matbaacılık ve Neşriyat T.A.Ş., 1934, 248 səh.

4.Məmmədzadə Mirzə Bala. Milli Azərbaycan hərəkatı, Bakı, "Nicat", 1992, 246 səh.
5.Tahirli Abid. Bütün türklərin tərcümanı. Bakı, "Ozan", 2012, 312 səh.
6.Turan Azər. İsmayıl bəy Qaspıralı-"məfkurələr fabriki" Ədəbiyyat qəzeti, 2022, 5 fevral, s. 16-17
7.Köçərli F. Azərbaycan ədəbiyyatı. İki cilddə. I cild. Bakı, "AVRASİYA PRESS", 2005, 560 səh.
8.Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı, Maarif, 1966, 121səh.
9. Şəmsi M. Təbrizdə üsuli-cədid məktəblərinin təsisi tarixindən. Azərbaycan məktəbi, 1983, 148 səh.

TÜRK XALQLARININ ORTAQ TALEYİNDƏ AZƏRBAYCAN LEGİONU: SİYASİ VARİSLİK VƏ GEOSİYASİ GÖZLƏNTİLƏR

Kəmalə Məmmədova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının müəllimi
kamalamammadova@bsu.edu.az;
menbetarix@mail.ru

Açar sözlər: *siyasi mühacirət, türk birliyi ideyası, milli legionlar, siyasi varislik, geosiyasi məğlubiyyət*
Keywords: *political emigration, idea of Turkish unity, national legions, political succession, geopolitical defeat*

XX əsrin 30-cu illərində Avropanın aparıcı dövlətlərinin siyasi dairələrində SSRİ-ni parçalamaq üçün milli məsələdən silah kimi istifadə etmək istəyi, bu ölkələrdə SSRİ-dəki milli problemlərlə məşğul olan xüsusi xidmət və araşdırma mərkəzlərinin fəaliyyəti Sovet İttifaqından olan qeyri-rus mühacir təşkilatları ilə əlaqələrin qurulmasını zəruri edirdi. Xüsusilə Polşa və Almaniya dövlətlərinin hakim dairələri tərəfindən qeyri-rus siyasi mühacirətinin himayə olunması və maliyyələşdirilməsi nə təmənnasız qayğının, nə də bu xalqların istiqlal mücadiləsinə avropalıların bəslədikləri xüsusi rəğbətin təzahürü idi. Əslində bu, Avropa dövlətlərinin SSRİ ilə qarşıdurmada siyasi mühacirətin xidmətlərindən təbii müttəfiq kimi istifadə etmək istəyi idi. Öz növbəsində bu, siyasi mühacir təşkilatları üçün də niyyətlərinin gerçəkləşməsi baxımından önəm daşıyırdı. Çünki onlar gələcək siyasi perspektivlərini SSRİ-nin ən barışmaz rəqibləri hesab olunan Avropa dövlətləri ilə bağlayırdılar. Bu baxımdan türk xalqlarının siyasi mühacirəti, eyni zamanda Azərbaycan siyasi mühacirəti də istisna təşkil etmirdi.

Azərbaycan Xalq Cümhuriyyətini yeganə qanunu dövlət forması sayan, bolşevik işğalını müvəqqəti hesab edən Azərbaycan siyasi mühacirəti Almaniyanın köməyi ilə SSRİ-nin dağılacağına inanaraq, Azərbaycanın müstəqilliyini bərpa etmək məqsədilə Almaniya ilə əməkdaşlığı strateji bir tərəfdaşlıq kimi deyil, taktiki fürsət kimi görürdü. Bu əməkdaşlıq mühacirət tərəfindən "iki şərdən kiçiyini seçmək" və ya "Azərbaycanın düşməni olan Sovet Rusiyasına qarşı" mübarizə kimi qiymətləndirilirdi.

Sovet işğalına qarşı mübarizədə ortaq dil, din və mədəniyyət əsasında əməkdaşlıq edən türk xalqlarının siyasi mühacirət liderləri tərəfindən inkişaf etdirilən "türk birliyi" ideyası və "anti-bolşevizm" hərəkatı sonrakı mərhələdə türk xalqlarından təşkil olunan milli legionların ideoloji fəaliyyəti üçün nəzəri zəmin yaratmışdı. Mühacirlər üçün "türk birliyi" anlayışı mənəvi-ideoloji baxımdan ortaq keçmiş və dil həmrəyliyi, geosiyasi baxımdan SSRİ-yə qarşı vahid "əsir xalqların birliyi", hərbi baxımdan milli legionların ortaq koordinasiyasını ifadə edirdi. Türkdilli xalqların mühacirət rəhbərləri Vətənlərinin istiqlalını böyük türk coğrafiyasının azadlığı və həmrəyliyi kontekstində görürdü.

İkinci dünya müharibəsindən əvvəl ilk olaraq Polşada, daha sonra Fransada fəaliyyət göstərən, Azərbaycan, Türküstan, İdil-Ural və Şimali Qafqaz mühacirlərini vahid antisovet cəbhədə birləşdirən "Prometey" hərəkatının məqsədi SSRİ-ni daxildən milli sərhədlər üzrə parçalamaq və müstəqil dövlətlər yaratmaq idi. II dünya müharibəsi illərində türkdilli xalqların siyasi mühacirləri hərbi əsirlərdən təşkil olunan milli legionları "Prometey" geosiyasi konsepsiyasının hərbi-strateji təzahürü kimi qiymətləndirirdilər.

1934-1939-cu illərdə Berlində nəşr olunan "Qurtuluş" jurnalı fərqli türk xalqlarının mühacirləri arasında körpü və legion hərəkatının müharibədən əvvəlki intellektual bazası rolunu oynamışdı. Bu jurnalda mühacirətin "texniki baxımdan müasirləşmə və hərbi intizam" çağırışları legionun yaradılması üçün həlledici rola malik olmuşdur. Jurnalın 1934-cü ildə nəşr olunan sayılarından birində türk xalqlarının birliyi "*Biz Türküstanlı, İdil-Urallı, Krımlı və Şimali Qafqazlı qardaşlarımızla eyni cəbhədəyik. Qurtuluş yolu Turan qapılarının açılmasından keçir",* bu birlikdə elmi-texnoloji müasirləşmə isə "*Müasir silahlarla silahlanmış Türk orduları öz vətənlərinə dönəndə, onlar təkcə sərhədləri deyil, həm də könülləri birləşdirəcəklər"* şəklində ifadə olunmuşdu [4]. Jurnalın "Avropa silahı ilə Şərq istiqlalını qazanmaq" doktrinasına çevrilən "müasir hərb sənətini öyrənərək istiqlala nail olmaq" çağırışları legionun yaradılması üçün həlledici rol oynamışdı.

Sovet ərazilərinin işğalından sonra Alman hərbi dairələri Qafqaz və Orta Asiyada yerli nüfuzlu şəxslərdən istifadə etməyi planlaşdırırdı. Bu məqsədlə onlar Almaniyanın "Yeni Avropa" planında Türkiyəyə böyük önəm verir və orada yerləşən Qafqaz və Orta Asiya mühacir qruplarının fəallaşdırılmasını zəruri hesab edirdilər [2, 276].

Nasist Almaniyası mühacir təşkilatlarla danışıqları Xarici İşlər Nazirliyi və Şərq Nazirliyi vasitəsi ilə aparırdı. 1942-ci ildə aprel-may aylarında Almaniya Xarici İşlər Nazirliyində Şərq və Qafqaz məsələsi üzrə əsas ekspert, Almaniyanın SSRİ-dəki keçmiş səfir Fridrix Verner fon der Şulenbergin dəvəti ilə Berlinə gedən M.Ə.Rəsulzadə burada Azərbaycan Cümhuriyyətinin müqəddəratı ilə bağlı səlahiyyətli dövlət adamları ilə danışıqlar aparmışdı. Onun faşist Almaniyası ilə apardığı "Adloniada" danışıqlarında Azərbaycanın mövqeyi 12 maddəlik memorandumda ifadə edilmişdi. Memorandumun əsas şərtləri: "azərbaycanlıların alman həbs düşərgələrindən çıxarılması; onların yalnız mülki işlərdə işlədilməsi; milli

Azərbaycan ordusunun yaradılması; ordu başçısının azərbaycanlılar içərisindən seçilməsi; azərbaycanlıların sovet imperiyasında yaşayan digər xalqlara qarşı deyil, yalnız ruslara qarşı vuruşacağı; qoşunlar Azərbaycana girən zaman milli ordunun daxil olmasının təmini və s." [5, 83] idi. "Milli komitələr və legionlar inanırdılar ki, onlar alman orduları ilə birlikdə öz ölkələrinin müstəqilliyi uğrunda vuruşurlar və müharibədən sonra artıq Sovet müstəmləkəsi olmayan azad bir vətəndə yaşayacaqlar. Lakin Almaniyanın keçmiş kansleri Papen bu zaman həmin ölkələrdə almanlar tərəfindən tamamilə idarə olunacaq kukla-marionet hökumətlərin qurulmasından danışırdı" [1, s.76]. Onu da qeyd edək ki, Rusiyanın idarə olunması və inzibati bölgüsü ilə bağlı Almaniyanın Şərq Nazirliyinin yanaşması ilə Xarici İşlər Nazirliyinin yanaşması arasında başlıca prinsipial fərq mövcud idi. Rozenberq qeyri-rus xalqlarının müstəqilliyini müdafiə etməyə meyilli olduğu halda, Ribbentrop-Şulenberq milli azlıqların rus ittifaq dövlətinin tərkibində yer ala biləcəyini düşünürdü. Bu ziddiyyət legionların statusunun müəyyənləşməsində çətinliklər yaradırdı. Alman hərbi dairələri üçün legionlar müvəqqəti və ideoloji cəhətdən yalnız anti-bolşevik məqsəd daşıyan bir qüvvə idi. Alman hərbi dairələri sovet hərbi əsirlərindən milli legionlar təşkil edərkən hərbi, təbliğat və siyasi məqsədlər güdürdü. Hərbi cəhətdən bu məqsəd almanların cəbhələrdəki hərbi itkilərini "kənardan" cəlb edilmiş döyüşçülərlə əvəz etməklə bağlı idi. Təbliğat cəhətdən məqsəd dünyaya SSRİ-dən olan könüllülərin bolşevizmə qarşı mübarizədə almanlar tərəfində vuruşduğunu və sovet ideologiyasının iflasını göstərmək idi. Siyasi-strateji məqsəd baxımından isə SSR-nin türk-müsəlman xalqlarının nümayəndələrindən ibarət bölmələrin Alman ordusunda olması Türkiyənin müharibəyə cəlb edilməsi faktoru kimi nəzərdən keçirilirdi.

Legionlar yaradılarkən sovet işğalına qarşı mübarizədə ortaq dil, din və mədəniyyət əsasında əməkdaşlıq edən türkdilli siyasi mühacirətin liderləri Məhəmməd Əmin Rəsulzadə və türküstanlı Vəli Qəyyum Xan Almaniya Hərbi dairələri qarşısında birgə tələblər irəli sürərək, "legionerlərin "Şərq taburları" (Ostbataillonen) kimi dağıdılmasının qətiyyən əleyhinə idilər. Onlar bu birliklərin vahid milli rəhbərlik tərəfindən idarə olunan "Milli Azadlıq Qüvvələri" (Nationale Befreiungskräfte) statusunda saxlanılmasını və gələcəkdə milli dövlətlərin ordularına çevrilməsini tələb edirdilər" [3, 68]. Lakin legionerlərin böyük əksəriyyətinin sovet hərbi əsirləri olması və onların legionlara qoşulmasında əsirlik düşərgələrindən qurtulmaq ehtiyacının mühüm rol oynaması, ideoloji məqsədlərlə hərbi reallıq arasında ziddiyyət yaradırdı. M.Ə.Rəsulzadənin tələblərinə baxmayaraq alman komandanlığı legionları əsasən "Şərq taburları" (*Ostbataillonen*) kimi istifadə edir, onları Qərb cəbhələrində və ya anti-partizan əməliyyatlarında yerləşdirərək hərbi istismara yol verirdi.

Azərbaycan siyasi mühacirləri legionerlər arasında milli ruhu və Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik ideyasını təbliğ edir, onların dəstəyi ilə Azərbaycan dilində anti-sovet və milli ruhda qəzet və kitabçalar nəşr edilirdi. Hərbi paradlarda legionerlər Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağından istifadə

edir və milli marşları səsləndirirdilər. Andiçmə mərasimlərində milli bayraqların ucaldılması və milli marşların çalınması, bu birliklərin üzvləri üçün andın siyasi əhəmiyyətini Almaniyadan çox, onların öz vətənlərinin gələcək taleyi üzərində fokuslayırdı. Alman komandirləri andın faşist rejiminə xidmət olduğunu düşünsələr də, legionerlər bu ritualda öz müstəqil dövlətçilik arzularının hərbi təsdiqini görürdülər [3, 54-56].

Milli rəmzlər, xüsusilə, legionerlərin qollarındakı üçrəngli bayraq və "Azərbaycan" yazısı sadəcə forma elementi deyildi, milli mənsubiyyəti ifadə edirdi. Bu, legionların Vermaxtın sıravi əsgəri deyil, milli bir hərbi birliyin üzvü olduqlarını simvolizə edirdi. Eyni zamanda bu, siyasi varisliyin hərbi cəhətdən qəbul edilib tanınması idi. Milli Azərbaycan legionu Almaniyaya xidmət etmək uğrunda deyil, siyasi mühacirətin onlara aşıladığı "sovet əsarətindən qurtuluş" ideyası uğrunda vuruşurdu.

Mövzu ilə bağlı aparılan müqayisəli təhlillər göstərir ki, Azərbaycan legionunun II Dünya müharibəsi illərindəki fəaliyyətinin kökündə iki fundamental və ziddiyətli məqsədin toqquşması dayanırdı.

Türkdilli xalqların siyasi mühacirət nümayəndələri ilə birgə anti-bolşevizmə qarşı mübarizə aparan Azərbaycan siyasi mühacirəti, öz müstəqilliyini böyük türk coğrafiyasının azadlığı və həmrəyliyi kontekstində görürdü. Onlar Azərbaycan legionuna Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji varisliyini hərbi formada davam etdirən qüvvə kimi baxırdılar. Azərbaycan Xalq Cümhuriyyətinin milli rəmzlərindən istifadə legionerlər üçün Almaniyaya xidmətdən çox, sovet əsarətindən qurtuluş və milli dövlətçilik arzularının hərbi təsdiqini ifadə edirdi.

Siyasi mühacirlərdən və milli legionlardan hərbi-geosiyasi maraqları üçün istifadə etmək niyyətində olan Nasist Almaniyasının əsas məqsədləri isə SSRİ-yə qarşı aparılan anti-bolşevik təbliğatında onlardan siyasi vasitə kimi faydalanmaq, legionlardan geosiyasi təsir baxımından Türkiyəni müharibəyə cəlb etmək faktoru kimi istifadə etmək, cəbhədəki hərbi itkiləri kompensasiya etmək üçün milli legionları köməkçi qüvvə kimi istismar etmək, müharibədə qalib gələcəyi təqdirdə türkdilli xalqların yaşadıqları ərazilərdə, o cümlədən, Azərbaycanda marionet (kukla) dövlətlər qurmaq idi.

Almaniyanın öz hərbi-geosiyasi maraqlarını güdən taktiki istismarı nəticəsində Azərbaycan legionunun müstəqilliyi bərpa etmək uğrunda ideoloji məqsədi gerçəkləşmədi. Siyasi mühacirətin anti-bolşevizmə qarşı və milli dövlətlərinin azadlığı uğrunda mübarizələrində kiçik millətlərin azadlıq arzularının böyük dövlətlərin geosiyasi oyunlarında necə qurban verildiyi, dövlətlərarası münasibətlərdə ideoloji əməkdaşlıq vəd edilsə də son nəticədə milli maraqların həlledici rol oynadığı bu hadisələr fonunda bir nümunə olaraq ortaya çıxır. Nəticədə, Azərbaycan legionunun fəaliyyəti Azərbaycanın milli-azadlıq hərəkatı tarixində ideya uğrunda hərbi fədakarlığın, siyasi varisl iyin qorunub saxlanılması cəhdinin, lakin eyni zamanda strateji məğlubiyyətin ən mürəkkəb və faciəvi səhifələrindən biridir.

Ədəbiyyat siyahısı:

1. Алтайлы Энвер. Трудный путь к свободе. Рузи Назар: от Красной армии до ЦРУ., s.76 - https://lander.odessa.ua/doc/altayly.pdf

2. Həsənli C. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945). Bakı, "Yazıçı" nəşriyyatı, 2915, 540 s.

3. Hoffmann J. Die Ostlegionen 1941–1943. Turkotataren, Kaukasier, Wolgafinnen im deutschen Heer. – Freiburg i. Br.: Rombach, 1976, 197 p.

4. Qurtuluş" jurnalı, Berlin, 1935, №7

5. Sultanlı V. İstiqlal sevgisi. Bakı, 2014, Elm və Təhsil, 252 s.

TÜRK DÜNYASI: NADİR ŞAHIN AZƏRBAYCAN-TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA MÜQAYİSƏLİ TƏHLİLİ

Səbinə Alıyeva

Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının doktorantı

sabinalyeva@mail.ru

Açar sözlər: *Nadir şah Əfşar, Osmanlı, türk dünyası, Azərbaycan tarixşünaslığı, Türkiyə tarixşünaslığı*

Keywords: *Nadir Shah Afshar, Ottoman Empire, Turkic world, Azerbaijani historiography, Turkish historiography*

Nadir şah Əfşar XVIII əsr türk dünyasının tarixində özünəməxsus xüsusi yer tutan hökmdarlardan biridir. Onun hərbi-siyasi fəaliyyəti yalnız özünün yaratmış olduğu Əfşar imperiyasını Səfəvilər dövlətinin coğrafiyası ilə məhdudlaşdırmamış, Osmanlı dövlətini, Mərkəzi Asiya, Hindistanı öz təsiri altına almışdır [1, s.45]. Nadir şahın yaratdığı Əfşar imperiyası yalnız türk dövlətçilik ənənələrinin davamı olmaqla qalmamış, həmçinin regionda mövcud olan siyasi balansın yenidən formalaşmasına səbəb olmuşdur [3,s.78]. Buna görə də Nadir şah şəxsiyyətinin və fəaliyyətinin türk dünyası kontekstində araşdırılması çağdaş tarixşünaslığımız üçün aktual məsələlərdən biridir.

Nadir şahın fəaliyyətinə dair yanaşmalar Azərbaycan və Türkiyə tarixşünaslığında müəyyən dərəcədə oxşar cəhətlərə malik olsa belə, fərqli ideoloji və metodoloji mövqelər də müşahidə olunur. Vətən tarixşünaslığında Nadir şah Əfşar əsasən dövlətçilik tariximizin mühüm simalarından biri kimi qiymətləndirilir [2,s.112]. Türkiyə tarixşünaslığında isə Nadir şah Əfşar daha çox Osmanlı–Səfəvi, Osmanlı-Əfşar münasibətləri kontekstində, Osmanlı dövlətinin rəqibi kimi təqdim edilir [4,s.56]. Onu da qeyd edək ki, həm əsərlərin adlarında,həm də əsərlərin mətnində həm Səfəvilər dövləti, həmdə Əfşar imperiyası İran adı altında göstərilmişdir. Bütün bu fərqlər Nadir şahın Azərbaycan və Türkiyə tarixşünaslığında müqayisəli təhlilini zəruri edir.

Tezisin yazılmasında əsas məqsədimiz Azərbaycan və Türkiyə tarixşünaslığında Nadir şah Əfşar şəxsiyyətinə və fəaliyyətinə dair yanaşmaları müqayisəli şəkildə təhlil etmək, oxşar və fərqli cəhətləri müəyyənləşdirmək və türk dünyası tarixşünaslığında vahid yanaşma imkanlarını ortaya qoymaqdır.

Nadir şah Əfşar özü Əfşar tayfasına mənsub olub, türklərin etnik və siyasi mühitində formalaşmışdır [5, s.23]. XVIII əsrin ilk yarısında onun siyasi arenaya gəlişi zamanı Səfəvi dövlətinin zəiflədiyi, ölkə ərazisində daxili çəkişmələrin və xarici müdaxilələrin çoxaldığı bir dövrə təsadüf edir [6,s.89]. Nadir şahın hərbi istedadı və siyasi uzaqgörənliyi qısa müddətdə onu regionun ən güclü hökmdarlarından birinə çevirmişdir [7, s.34].

Nadir şahın fəaliyyətini şərtləndirən əsas məsələlərdən biri ondan ibarət idi ki, o, mərkəzləşdirilmiş idarəetməni gücləndirməyə, ordunu yenidən təşkil etməyə və imperiya miqyasında sabitlik yaratmağa çalışmışdır [8, s.67]. Əfşar hökmdarı türk dünyasının dövlətçilik ənənələri ilə dərindən bağlı idi. Osmanlı dövləti ilə apardığı müharibələr, Mərkəzi Asiya, Hindistan yürüşləri Nadir şahın yalnız regional deyil, beynəlxalq miqyasda da siyasi fiqur olduğunu göstərir [9, s.102].

Vətən tarixşünaslığında Nadir şah Əfşar əsasən milli tarix və dövlətçilik baxımından qiymətləndirilir [1, s.120]. Tədqiqatçılarımız Nadir şah Əfşarın Azərbaycan torpaqlarının siyasi taleyində oynadığı rolu, ölkənin ərazi bütövlüyünün qorunmasında və regional güc kimi formalaşmasında xidmətlərini daha qabarıq formada göstərirlər [6, s.78].

Azərbaycan tədqiqatçıları Nadir şah Əfşarın hakimiyyəti dövründə həyata keçirdiyi islahatları, hərbi və inzibati tədbirləri dövlət quruculuğu baxımından təhlil edirlər. Onun Bağdad yürüşləri və Osmanlı ilə münasibətləri milli maraqlar prizmasından dəyərləndirilir [3, s.45]. Çağdaş Vətən tarixşünaslığında Nadir şah Əfşarın fəaliyyətinə daha obyektiv yanaşmalar formalaşmışdır [5, s.112].

Türkiyə tarixşünaslığında Nadir şah Əfşar əsasən Osmanlı–İran (yəni, Osmanlı-Səfəvi, Osmanlı-Əfşar – S.A) münasibətləri kontekstində araşdırılır [2, s.208]. Osmanlı arxiv sənədlərinə əsaslanan tədqiqatlarda Nadir şah Osmanlı dövlətinin əsas siyasi və hərbi rəqiblərindən biri kimi təqdim edilir [10, s.329].

Türkiyə tarixşünaslığında Nadir şahın sünni–şiə münasibətlərində tutduğu mövqeyi və Osmanlı dövləti ilə münasibətləri siyasi maraqlar dairəsində təhlil edilir [11, s.207]. Çağdaş Türkiyə tarixşünaslığında isə Nadir şah Əfşarın regionda türk mənşəli güclü siyasi lider kimi daha balanslı şəkildə qiymətləndirilir [12, s.233].

Müqayisəli təhlil zamanı bizə məlum olur ki, Vətən və Türkiyə tarixşünaslığında Nadir şah Əfşara yanaşmaların formalaşmasında əsas siyasi prioritetlər və milli tarix konsepsiyası mühüm rol oynayır [1, s.45; 2, s.112]. Azərbaycan tarixşünaslığı Nadir şahı milli dövlətçilik tarixinin davamçısı kimi təqdim etdiyi halda [3, s.78], Türkiyə tarixşünaslığı onu daha çox Osmanlı dövlətinin geosiyasi rəqibi kimi dəyərləndirir [10, s.329].

Metodoloji baxımdan Vətən tarixşünaslığında şəxsiyyət və dövlətçilik tariximzə dair yanaşmalar üstünlük təşkil etdiyinə baxmayaraq, Türkiyə tarixşünaslığında siyasi və hadisə münasibətlərə əsaslanan yanaşma daha ön plandadır [11, s.207; 12, s.233]. Bu fərqlər türk dünyası tarixinin vahid şəkildə öyrənilməsində tarixşünaslıq problemlərini ortaya qoyur.

Nadir şahın fəaliyyətinin türk dünyası kontekstində qiymətləndirilməsi ortaq tarixi yaddaşın formalaşmasına, eləcə də müasir inteqrasiya proseslərinin elmi əsaslandırılmasına töhfə verə bilər [9, s.102].

Aparılmış müqayisəli təhlil göstərir ki, Nadir şah Əfşar XVIII əsr türk dünyası tarixində çoxşaxəli və mürəkkəb siyasi fiqur kimi çıxış edir. Azərbaycan və Türkiyə tarixşünaslığında onun fəaliyyətinə dair yanaşmalar fərqli metodoloji və ideoloji çərçivələrdə formalaşsa da, hər iki tərəf Nadir şahın regionun siyasi tarixində mühüm rol oynadığını qəbul edir. Onun türk dünyası tarixindəki rolu danılmazdır [6, s.89]. Azərbaycan tarixşünaslığında Nadir şah daha çox milli dövlətçilik ənənələrinin davamçısı və Azərbaycan mənşəli türk sərkərdəsi kimi qiymətləndirilir. Türkiyə tarixşünaslığında isə onun fəaliyyəti əsasən Osmanlı–İran münasibətləri və geosiyasi rəqabət kontekstində araşdırılır. Hər iki tarixşünaslıq məktəbinin yanaşmalarının sintezi Nadir şah şəxsiyyətinin daha obyektiv və dolğun şəkildə öyrənilməsinə imkan yarada bilər [7, s.34].

Müqayisəli yanaşma göstərir ki, bu fərqlər obyektiv tarixi ziddiyyətlərdən daha çox, milli tarix konsepsiyalarının təsiri ilə bağlıdır. Nadir şahın həyata keçirdiyi hərbi, inzibati və diplomatik tədbirlər onun yalnız bir dövlətin deyil, bütövlükdə türk dünyasının siyasi tarixində iz buraxmış lider olduğunu sübut edir. Onun mərkəzləşdirilmiş idarəetmə siyasəti və ordu islahatları regionda güclü imperiya modelinin formalaşmasına şərait yaratmışdır. Eyni zamanda, Osmanlı dövləti ilə münasibətləri türk dünyasında siyasi balansın dəyişməsinə təsir göstərmişdir.

Tədqiqat nəticəsində aydın olur ki, Azərbaycan və Türkiyə tarixşünaslığının sintez olunmuş şəkildə öyrənilməsi Nadir şah şəxsiyyətinin daha obyektiv qiymətləndirilməsinə imkan yaradır. Bu sintez yanaşma tarixşünaslıqda mövcud olan birtərəfli baxışların aradan qaldırılmasına xidmət edə bilər. Nadir şah Əfşarın türk dünyası kontekstində araşdırılması ortaq tarixi yaddaşın formalaşmasına və müasir türk dövlətləri arasında elmi əməkdaşlığın güclənməsinə töhfə verə bilər. Bu baxımdan mövzu gələcək tədqiqatlar üçün həm nəzəri, həm də praktik baxımdan geniş perspektivlər açır.

Ədəbiyyat siyahısı:

1. *Əfşar, H.C. Azərbaycan Nadir Əfşar dövləti. Bakı: C. Hüseynov, 2014, 256 s.*
2. *Əlizadə, O. XVIII əsrin birinci yarısında Osmanlı–Səfəvi münasibətləri. Bakı: Elm, 2009, 208 s.*
3. *Gözəlova, N.R., Bağırov, Ə.D. XVIII əsrin 30–40-cı illərində Nadir şah Əfşarın Bağdad yürüşləri. Bakı: Elm və Təhsil, 2018, 150 s.*
4. *Həsənzadə, T. XVIII–XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri. Bakı: Elm və Təhsil, 2013, 283 s.*
5. *Hüseynov, E.İ. Azərbaycan Nadir şah Əfşarın hakimiyyəti dövründə. Bakı: Elm, 2013, 224 s.*
6. *Mahmudov, Y., Mustafazadə, T. Nadir şah Əfşar: Tarixin gedişini dəyişdirən sərkərdə. Bakı: Turxan NP, 2019, 248 s.*
7. *Məlikzadə, S. Nadir şah Əfşar "Karmelitlərin Xronikası"nda. Akademik Tarih ve Düşünce Dergisi, 2019, C.6, №5, s. 210–230.*
8. *Mustafazadə, T. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı–Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, 372 s.*

9. Demir, A.D., Ebru, K. Muğan Kurultayı ve Nadir Şah'ın İran tahtına oturması // Nadir Şah'ın Mirası. İstanbul, 2023, s. 329–341.
10. Efendi, S. Risâletü't-Tarih-i Nadir Şah. Red.: M.Y. Ertaş. İstanbul: Kitabevi, 2012, 88 s.
11. Hakyemez, C. Osmanlı–İran ilişkileri ve Sünni–Şii ittifakı. İstanbul: Kitap Yayınevi, 2014, 207 s.
12. Halaçoğlu, A. Avşarlı Nadir Şah ve döneminde Osmanlı–İran mücadeleleri. İsparta: SDÜ SBE, 2001, 233 s.
13. Kafkasyalı, A. İran coğrafyasında Türkler. İstanbul: Bilgeoğuz, 2011, 232 s.

LAYBAX KONQRESİ VƏ OSMANLI: "ŞƏRQ MƏSƏLƏSİ"NDƏ GÜC BALANSI

Gülnarə Sədrəddinova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasının müəllimi
gulnara.s.1389@mail.ru

Açar sözlər: *Laybax konqresi, Osmanlı imperiyası, Şərq məsələsi, Avropa dövlətləri, Rusiya*
Keywords: *The Congress of Laibach, the Ottoman Empire, the Eastern Question, the European Powers, Russia*

XIX əsr Osmanlı imperiyası üçün yalnız siyasi və iqtisadi baxımdan deyil, həm də milli-etnik münasibətlər kontekstində ən çətin və sarsıdıcı dövrlərdən biri olmuşdur. Bu əsrin başlanğıcında baş verən Yunan üsyanı təkcə bir xalqın azadlıq mübarizəsi kimi deyil, eyni zamanda böyük dövlətlərin Osmanlı imperiyasının daxili işlərinə birbaşa müdaxiləsinin açıq göstəricisi kimi tarixə düşmüşdür. Məhz həmin kontekstdə 1821-ci ildə keçirilən Laybax konqresi Avropa monarxiyaları arasında Osmanlı üzərində nəzarət, bölgədə sabitlik və inqilabi hərəkatların qarşısının alınması məsələlərinin müzakirə olunduğu mühüm diplomatik platformaya çevrilmiş, yunan üsyanına münasibət və ümumilikdə "Şərq məsələsi" böyük güclərin siyasi gündəminə rəsmən daxil edilmişdir.

Avropa dövlətlərinin Şərq siyasətinin təməlləri keçmiş dövrlərdə qoyulmuşdu. Lakin XVIII əsrdə bu siyasi platforma daha da formalaşdı. 1787-1792-ci illər Osmanlı-Rusiya və Avstriya müharibəsindən əvvəl çariça II Yekaterina ilə Avstriya imperatoru II İosif arasında Osmanlı dövlətinin bölüşdürülməsi məqsədilə rəsmi şəkildə imzalanan "Yunan layihəsi", həm də Avropa dövlətlərinin "Şərq məsələsi"nin bir hissəsi idi [2, s.203]. Bu strateji planlar yalnız böyük dövlətlərin geosiyasi maraqlarını müəyyənləşdirməklə kifayətlənmir, həm də bölgədə yaşayan xristian xalqların, xüsusilə yunanların siyasi şüurunun formalaşmasına dolayı təsir göstərirdi. XVIII əsrin sonu — XIX əsrin əvvəlləri Avropasında ideoloji mühitin dəyişməsi, maarifçilik ideyalarının və milli özünüdərk proseslərinin güclənməsi Şərq məsələsini təkcə dövlətlərarası rəqabət mövzusu deyil, həm də xalqların milli oyanış sahəsinə çevirdi. Beləliklə, Avropanın böyük dövlətlərinin Şərq siyasəti yunan cəmiyyətində baş qaldıran yeni ideoloji istiqamətlərin formalaşması üçün münbit zəmin yaratdı.

Avropa ölkələrinə təhsil almağa gedən və Fransa burjua inqilabının ideologiyası ilə tanış olan yunanlar öz aralarında həm siyasi sahədə, həm də təhsil, mədəniyyət və incəsənət sahələrində təşkilatlanırdılar. Üsyanda iştirak edənlər arasında Napoleon ordusunda, eləcə də koalisiya ordularında hərbi xidmət göstərən yunanlar çox idi. Xüsusilə, 1797-ci ildə Napoleonun İoniya adalarını işğal etməsindən sonra fransızlar açıq-aşkar yunanlara millətçilik hisslərini və müstəqillik arzularını aşılamağa başladılar. Beləliklə, Avropa ilə sıx əlaqələr qurmuş yunan aristokratlarının atdığı addımlar yalnız fərdi düşüncə səviyyəsində qalmadı, eyni zamanda cəmiyyətin daha geniş təbəqələrində milli özünüdərk prosesini sürətləndirdi. Onlar Avropa maarifçiliyinin, liberalizmin və inqilabi ideyaların təsiri altında yunan xalqının Osmanlı imperiyasındakı mövcud statusuna tənqidi yanaşmağa başladılar. Bu düşüncələr təkcə yazılı əsərlərdə və gizli cəmiyyətlərdə deyil, həm də maarifçilik fəaliyyəti və dini təbliğat vasitəsilə geniş kütlələrə çatdırılırdı.

Yunansevər ictimaiyyətin də təsiri ilə Avropa dövlətləri və Rusiyanın yunan üsyanına diplomatik yanaşması üsyanın gedişatını və nəticələrini müəyyən edən əsas amillərdən biri olacaqdı. Lakin beynəlxalq münasibətlərin aparıcı rol oynayan böyük güclərin öz aralarında ziddiyyətlər var idi. Napoleon müharibələrinin nəticəsində Avropa qitəsində pozulan sərhədləri və qüvvələr balansını yenidən müəyyənləşdirmək məqsədilə, 1815-ci ildə çağırılan Vyana Konqresi Avstriya, Prussiya, Rusiya və Böyük Britaniya tərəfindən yaradılmış, sonradan Fransanın da qoşulması ilə iştirakçı dövlətlərin sayı beşə çatmışdı. Vyana sistemi əsasında XIX əsrin 20-ci illərində keçirilən Troppau (1820), Laybax (1821), Verona (1822) və London (1832) konqresləri ilə formalaşan "Avropa Konserti" və ya "Avropa bərpa dövrü" öz əsasını bu siyasi platformadan almışdı.

Napoleonun Avropada yaratdığı siyasi böhranı aradan qaldırmaq məqsədilə bu dövlətlər tərəfindən təsis edilən "Müqəddəs İttifaq" çərçivəsində böyük güclər, xüsusilə də 1814-1914-cü illər arasında keçirilən bir çox beynəlxalq konfranslarda inqilabi hərəkətlərin qarşısını almaq və siyasi sabitliyi təmin etmək üçün birgə qərarlar qəbul etmişlər. Avstriya kansleri Klemens fon Metternixin təşəbbüsü ilə çağırılan Laybax konqresi 1821-ci il yanvarın 11-də işə başlamış və fevralın 14-də başa çatdırılmışdır. Konqresin iştirakçıları Avstriya, Rusiya, Prussiya, müşahidəçi qismində Böyük Britaniya və Fransa dövlətlərinin, həmçinin Roma papasının nümayəndələri idi. Birbaşa Troppau konqresinin davamı olan Laybax konqresində məqsəd İtaliya və Almaniyada baş qaldıran liberal hərəkatları yatırmaq üçün ortaq tədbirlər görmək idi. Konqresin əsas diqqət mərkəzində Neapol Krallığındakı inqilabi hərəkat idi. Rəsmi olaraq konqres mart ayının əvvəlində bağlansa da, nümayəndələr inqilabların yatırılmasını gözləmək üçün Laybaxda qaldılar.

1821-ci ilin mart ayında Osmanlı imperiyasına qarşı yunan üsyanının başlaması Avropa monarxlarını çətin vəziyyətdə qoydu. Çünki, Müqəddəs İttifaq "inqilabların yatırılması" prinsipini müdafiə edirdi, lakin yunan üsyanı Osmanlı imperiyasına qarşı yönəlmişdi və dini baxımdan "xristian" məzmun daşıyırdı. İngiltərə konqresdə praqmatik mövqe tutaraq Avropa məsələlərinə mümkün qədər bitərəf yanaş-

mağı və zərurət yaranmadıqca hərbi öhdəliklərdən yayınmağı üstün tutdu. Fransa isə yalnız diplomatik müdaxilə hüququnun legitim olduğunu vurğulayaraq Neapol məsələsində hərbi iştirakdan imtina etdi [4, s.83].

Konqres zamanı Rusiya hökuməti bildirmişdi ki, Avropada inqilabların qarşısının alınması və asayişin bərpası üçün ilkin olaraq dinc, kollektiv tədbirlərə üstünlük verilməli, silahlı müdaxiləyə yalnız müstəsna hallarda icazə verilməlidir. Yunanların ənənəvi himayədarı olan Rusiya, konqres zamanı üsyanın başladığı xəbərini eşitdikdə, onları rəsmi şəkildə müdafiə etməyin Vyana sisteminə zidd olduğunu bilsə də, bu məsələdə tamamilə kənarda qala bilmədi. Yunan məsələsi dərhal Rusiyanın, xüsusilə də xarici işlər naziri İ.A.Kapodistriasın diplomatik gündəminin əsas prioritetlərindən birinə çevrildi [5]. Əslində, çar Rusiyası Osmanlıya qarşı yenidən mübarizə aparmaq məqsədilə Yunan üsyanını strateji fürsət kimi qiymətləndirirdi. Rusiyanın əsas məqsədi, yunanların Bizans imperiyasını bərpa etmək ideyasına dəstək vermək bəhanəsi ilə onları öz nüfuz dairəsinə salmaq və Balkanlarda mövqeyini gücləndirmək idi.

Avstriya kansleri Metternix çarı xəbərdar edərək Avropada sabitliyin pozulmasına yol açacaq üsyan və çevrilişlərin dəstəklənməsinin yolverilməz olduğunu açıq şəkildə bildirdi. Konqres iştirakçıları yunan məsələsinin Osmanlı dövlətinin daxili işi kimi qiymətləndirilməsi barədə ortaq qərar qəbul etdilər [1, s.85]. Bu qərardan sonra Rusiya daha ehtiyatla davranmağa məcbur oldu, çünki "Müqəddəs İttifaq"ın birliyini pozacaq istənilən addım Vyana sisteminin əsas prinsiplərinə zidd sayılırdı. Avstriya imperiyası "sabitlik və legitimlik" şüarı altında Osmanlının bütövlüyünü müdafiə edirdi, halbuki Balkan xalqlarının azadlıq hərəkatları Avstriyanın öz çoxmillətli strukturunu da sarsıdan ideoloji nümunəyə çevrilə bilərdi.

Beləliklə, Avropa dövlətləri ilə qarşıdurmadan yayınmağa çalışan və eyni zamanda Balkanlardakı millətçilik hərəkatlarının Rusiyaya sirayət etməsini istəməyən çar I Aleksandr, yunan üsyançıların lideri Aleksandr İpsilantiyə ünvanladığı müraciətdə "gizli bir cəmiyyətin təhriki ilə Osmanlı dövlətinin parçalanmasına və dağılmasına çalışmaq bir imperator üçün cılız hərəkətdir" ifadəsini işlətmişdir [3, s.182]. Ardınca A. İpsilantini rəsmi şəkildə rus ordusundakı hərbi xidmətdən uzaqlaşdırdı. Təbii ki, bu addımlar Rusiyanın üsyanla əlaqəsini inkar etmək və beynəlxalq aləmdə üzərinə yönəlmiş şübhələri aradan qaldırmaq məqsədi daşıyırdı.

Laybax konqresinin işinə yekun vuran sənəd 1821-ci il 12 may tarixli Avstriya, Prussiya və Rusiya tərəfindən imzalanan və "Müqəddəs İttifaq"ın prinsiplərini təsdiq edən birgə deklarasiya oldu.

1827-ci ildə imzalanan London Protokolu ilə Osmanlı imperiyası ilə yunanlar arasındakı qarşıdurma artıq beynəlxalq vasitəçilik mərhələsinə daxil oldu. 1828-1829-cu illər Rusiya-Osmanlı müharibəsinin nəticəsində imzalanan Ədirnə müqaviləsi ilə Rusiya, Yunanıstan üzərində qəyyumluq funksiyasını öz üzərinə götürməyə çalışsa da Avropa dövlətləri buna imkan vermədilər. 1830-cu il fevralın 3-də imzalanan London müqaviləsi ilə rəsmi şəkildə Yunanıstan dövləti quruldu. Bu, Avropada ilk dəfə olaraq xalq üsyanının "Müqəddəs İttifaq"ın üzvləri tərəfindən

beynəlxalq diplomatiya çərçivəsində tanınması demək idi. Üsyana rəhbərlik edən "Filiki Eterya" təşkilatının gizli dəstəkçisi olan Rusiya Yunanıstan dövlətinin müstəqilliyi elan edildikdən sonra da Avropa dövlətlərinin Şərq siyasətinin istiqamətinə təsir göstərən dövlət olaraq qaldı.

Nəticə. Avropa dövlətləri Vyana konqresindən sonra ortaq siyasət yeritməyə başlasalar da əslində bu belə deyildi. Çünki hər bir ölkənin xarici siyasətində əvvəlki dövrlərə gedib çıxan xüsusi maraqları var idi. Yunan üsyanı gedişində böyük dövlətlər arasında ikili siyasətin və rəqabətin təzahürü özünü göstərdi. "Şərq məsələsi"nin formalaşmasında tarixi əhəmiyyət daşıyan Laybax konqresi, eyni zamanda Avropa diplomatiyasındakı ziddiyyətli tərəfləri ortaya qoydu. Müqəddəs İttifaq dövlətləri bir tərəfdən inqilablara qarşı mübarizə aparır, digər tərəfdən Osmanlı imperiyasına qarşı üsyan qaldıran yunanlara münasibətdə dini və strateji maraqlardan çıxış edirdilər. Bu, XIX əsr beynəlxalq münasibətlər sisteminin təməl xüsusiyyətini, maraqların prinsiplər üzərində üstünlüyünü aydın şəkildə ortaya qoymuş oldu.

Ədəbiyyat siyahısı:

1. Kurtoğlu, F. Yunan İstiklal Harbi ve Navarin Müharebesi / F.Kurtoğlu. – İstanbul: Askeri Deniz Matbaası, – 1944. – c.1. – 260 s.

2. Djuvara, Trandafir G., Türkiye'nin Paylaşılması Hakkında Yüz Proje (1281-1913) / çev: Pulat Tacar / – Ankara: Gündoğan yayınları, – 1999. – 381 s.

3. Driault, E. Şark Meselesi / – Ankara: Gazi Üniversitesi Yayınları, – 2003. – 575 s.

4. Tuncer, H. 19. Yüzyılda Osmanlı-Avrupa İlişkileri (1814-1914)/ H.Tuncer.– Ankara: Ümit yayınları, – 2000. – 163 s.

5. Российская внешняя политика и конгрессы в троппау и лайбахе. А.В. Чернов. Кафедра истории России Российский университет дружбы народов ул. Миклухо-Маклая, 10-2, – Россия, – Москва, 117198: [Электронный ресурс] / URL: file:///C:/Users/Zenbook/ Downloads /60973557.pdf.

MÜSTƏQİLLİK DÖVRÜNDƏ TÜRK XALQLARININ ORTAQ QEYRİ-MADDİ MƏDƏNİ İRSİNİN UNESCO-DA MÜHAFİZƏSİ

Nərminə Hüseynova
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Türk xalqalrının tarixi və etnologiyası" şöbəsinin böyük laborantı
narmina.huseynova987@gmail.com

Açar sözlər: *Türk dünyası, Qeyri-maddi mədəni irs, UNESCO, TÜRKSOY, Ortaq mədəniyyət və identiklik*
Keywords: *Turkic World, Intangible Cultural Heritage, UNESCO, TURKSOY, Common Culture and Identity*

Müstəqilliyin bərpası ilə türk xalqları üçün siyasi və iqtisadi suverenliklə yanaşı, uzun illər Sovet ideoloji təsiri altında qalmış mədəni identikliyin bərpası və mühafizəsi də əsas prioritetə çevrilmişdir. Bu yeni mərhələdə, Qeyri-Maddi Mədəni

İrsin (QMİ) qorunması üzrə UNESCO platforması türk dövlətləri üçün milli dəyərləri beynəlxalq səviyyədə tanıtmaq və ortaq türk məkanında mədəni əməkdaşlığı gücləndirmək baxımından strateji əhəmiyyət kəsb etmişdir.

Bu kontekstdə müstəqil türk dövlətlərinin UNESCO çərçivəsində ortaq irsi mühafizə strategiyası, birgə nominasiyalar və təşkilati əməkdaşlıq vasitəsilə yalnız mədəni dəyərlərin qorunmasına deyil, həm də milli kimliyin möhkəmləndirilməsinə və regional transmilli əməkdaşlığın dərinləşdirilməsinə xidmət edən həlledici siyasi-mədəni alətə çevrilmişdir.

Azərbaycanın UNESCO ilə əməkdaşlığı mədəniyyət, təhsil və elm sahələrindəki fəallıqla yanaşı, həm də təşkilatın əsas qərarverici orqanlarında (İcraiyyə Şurası, Silahlı Münaqişələr zamanı Mədəni Mülkiyyətin Qorunması Komitəsi) üzvlük və sədr müavini kimi vəzifələrə seçilməklə regional və beynəlxalq səviyyədə nüfuzunun artmasını əks etdirir. Bu, ölkəmizin UNESCO çərçivəsində sadəcə qəbul edən deyil, həm də fəal siyasət formalaşdıran tərəf olduğunu göstərir.

Tarixi baxımdan bu prosesin başlanğıcı Sovet imperiyasının XX əsrin son onilliyində dağılması ilə əlaqəlidir. Bu hadisə, uzun illər imperiya tərkibində yaşamış türk xalqları üçün milli-mənəvi dirçəliş yolunda geniş imkanlar yaratdı. Məhz bu şəraitdə, eyni soya, dilə, tarixi və mədəni keçmişə malik türklərin mənəvi həyatında gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək məqsədilə 1993-cü ildə TÜRKSOY (Türk Mədəniyyəti Beynəlxalq Təşkilatı) yaradıldı.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın 2004-2022-ci illərdə UNESCO-nun Xoşməramlı Səfiri kimi fəaliyyəti, eyni zamanda ölkə rəhbərliyinin UNESCO-ya olan diqqətini və yüksək səviyyəli dəstəyini simvollaşdırır. Bu strateji dəstək sayəsində 1994-cü ildən fəaliyyət göstərən Milli Komissiya vasitəsilə 30 ildən çox davamlı əməkdaşlıq təmin edilmişdir.

TÜRKSOY-un formalaşması və fəaliyyəti türk xalqları arasında mədəni inteqrasiyanın təşviqində mühüm rol oynayır [1]. Təşkilatın əsas məqsədi müxtəlif coğrafiyalarda yaşayan türk xalqlarının bir-birinin mədəniyyətini tanıması, öyrənməsi və ortaq mədəni irsin öyrənilməsi, qorunması və təbliği istiqamətində bir araya gəlməsidir [1]. Türk dövlətləri başçılarının 1992-ci ildə Ankarada keçirilən Zirvə görüşündən sonra yaranan bu qurum, XXI əsrdə türk dünyası bərabərliyinin yenidən qurulmasında və ortaq irsin mühafizəsi strategiyasının həyata keçirilməsində əsas hərəkətverici qüvvəyə çevrilmişdir.

Mühafizənin strategiya və mexanizmləri. UNESCO, qeyri-maddi mədəni irsin qorunması sahəsində qlobal miqyasda aparıcı platforma rolunu oynayır. Təşkilatın 2003-cü il Konvensiyası əsasında təsis olunmuş Qeyri-Maddi Mədəni İrsin Nümayəndə Siyahısı müxtəlif xalqların mədəni ifadə formalarının tanınması və qorunması üçün hüquqi və simvolik bir zəmin təmin edir. Bu siyahıya daxil edilmə, irsin mənəvi və tarixi dəyərinin beynəlxalq səviyyədə təsdiqlənməsi ilə yanaşı, onun gələcək nəsillərə ötürülməsi üçün zəruri olan institusional mexanizmləri də fəallaşdırır. Türk dövlətlərinin bu platformadan ortaq nominasiyalarla aktiv istifa-

dəsi həm mədəni diplomatiyanı gücləndirir, həm də ümumtürk mədəni identikliyinin inkişafına strateji töhfə verir.

Türk xalqlarının ortaq mədəni irsinin qorunması strategiyası, ilk növbədə, bu irsin beynəlxalq aləmdə tanınması və rəsmi qeydiyyatı ilə bağlıdır. Müstəqilliyini təzəcə qazanmış dövlətlər kimi Azərbaycan və digər türk respublikları bu istiqamətdə fəaliyyət göstərmiş, mədəni irsi kollektiv şəkildə təqdim etməklə onun təkcə milli deyil, həm də ümumtürk və ümumbəşəri bir dəyər kimi qəbul edilməsini təmin etmişlər.

Azərbaycanın fəal iştirakı ilə həyata keçirilən birgə təşəbbüslər bu strateji yanaşmanın uğurlu nümunələrindən sayılır. Məsələn, Novruz bayramı (ilk qeyd: 2009; genişləndirilmiş qeyd: 2016), "Dədə Qorqud/Korkyt Ata/Dede Korkut irsi" (Azərbaycan, Türkiyə və Qazaxıstan ilə birgə, 2018) və "Miniatür sənəti" (Azərbaycan, Türkiyə və Özbəkistanın birgə nominasiyası, 2020) UNESCO-nun Nümayəndə Siyahısına uğurla daxil edilmişdir.

Azərbaycanın UNESCO çərçivəsindəki fəaliyyəti həm milli-mədəni identikliyin gücləndirilməsi, həm də türk xalqları ilə ortaq irsin qorunması baxımından sistematik xarakter daşır. Ölkə müstəqillik dövründən etibarən UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Nümayəndə Siyahısına ümumilikdə iyirmidən çox elementin daxil edilməsinə nail olmuşdur.

Azərbaycan-UNESCO münasibətlərinin ən bariz nəticəsi maddi, qeyri-maddi və sənədli irs sahələrini əhatə edən çoxsaylı qeydiyyatlarla (3 maddi, 19 qeyri-maddi və 3 Dünya Yaddaşı) beynəlxalq tanınmanın təmin edilməsidir. Xüsusilə, Xınalıqlıların Mədəni Landşaftı (2023) və Hirkan meşəsi (2023) kimi son qeydiyyatlar ölkəmizin təbii və mədəni landşaftların kompleks qorunmasına yönəlmiş diqqətini nümayiş etdirir.

Bu irs nümunələrindən bəziləri, məsələn, Muğam (2008), Aşıq sənəti (2009), Ənənəvi xalça toxuculuğu (2010), Tar ifaçılıq sənəti (2012), Kəlağayı sənəti (2014) və Lahıc misgərlik sənəti (2015) Azərbaycanın sırf milli dəyərləri kimi qeydə alınmışdır. Həmçinin, Dolma hazırlama və paylaşma ənənəsi (2017) və Təndirçilik sənəti (2022) kili ənənəvi mətbəx mədəniyyətini əks etdirən elementlər də milli irs kimi beynəlxalq səviyyədə tanınmışdır.

Eyni zamanda, türk dünyasının ortaq dəyərlərinin qorunması strategiyasına uyğun olaraq, bir sıra irs nümunələri türk dövlətləri ilə çoxmillətli şəkildə təqdim edilmişdir. Bunlara Novruz (2009, 2016), Dədə Qorqud irsi (Azərbaycan, Türkiyə və Qazaxıstan ilə birgə, 2018), Miniatür sənəti (Azərbaycan, Türkiyə və Özbəkistan ilə birgə, 2020), həmçinin Çay mədəniyyəti (Azərbaycan və Türkiyə ilə birgə, 2022) kimi son dövr qeydiyyatlar daxildir. Bu birgə təqdimatlar türk xalqları arasında mədəni əməkdaşlığın davamlılığını təsdiqləyir.

Bu birgə qeydiyyat formatı, həm mədəni diplomatiyanı inkişaf etdirir, həm də irsin mənşəyinə dair yarana biləcək potensial mübahisələr qarşısında mühüm bir hüquqi və mədəni qalxan funksiyası yerinə yetirir. Bu nümunələr göstərir ki, Azərbaycanın qeyri-maddi irsin beynəlxalq səviyyədə qorunmasına verdiyi töhfələr, ey-

ni zamanda, ümumtürk mədəni irsinin təbliği və möhkəmləndirilməsi strategiyasının ayrılmaz hissəsidir.

Mühafizə strategiyasının effektivliyi transmilli əməkdaşlıq və sistematik təşviq mexanizmləri ilə dəstəklənir. Bu sahədə TÜRKSOY və Türk Mədəniyyəti və İrsi Fondu (TMİF) kimi təşkilatlar mərkəzi rol oynayır. Onlar qeyri-maddi mədəni irsin qorunması və təbliği məqsədilə ardıcıl və planlı layihələr həyata keçirirlər. Məsələn, 2023-cü ildə Özbəkistanın Səmərqənd şəhərində UNESCO-nun 45-ci Baş Konfransı çərçivəsində TMİF tərəfindən təşkil edilən tədbirdə "Türk Dünyasına Baxış – 2040" strateji sənədlərinə uyğun hazırlanmış "Türk Dünyasının Mədəni Kodu" Kataloqu və "Türk Folklor İrsi" Antologiyası təqdim edilmişdir. Bu cür layihələr türk xalqlarının ortaq mədəni kodunun sistematik şəkildə sənədləşdirilməsi və təqdimatı baxımından xüsusi əhəmiyyət daşır.

Mədəni irsin qorunmasında dil amili də həlledici rol oynayır. Bu kontekstdə, UNESCO Baş Konfransında "15 dekabr – Türk Dili Ailəsi Günü"nün təsis edilməsi, türk xalqlarının ortaq dil dəyərinin beynəlxalq səviyyədə rəsmi tanınması baxımından əlamətdar bir addım idi. Bu qərar, milli kimliyin dil vasitəsilə gücləndirilməsi və tarixi məhdudiyyətlərdən azad olunmasının simvolik bir təsdiqi kimi dəyərləndirilir.

TÜRKSOY-un bu prosesdəki rolu yalnız təşkilati deyil, həm də mənəvi və ideoloji baxımdan böyük əhəmiyyət kəsb edir. Təşkilat yarandığı gündən etibarən ortaq mədəni dəyərlər vasitəsilə türk xalqları arasında dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə xidmət etmişdir. Onun əsas fəaliyyət sahələri arasında Dədə Qorqud, Manas, Nizami, Füzuli, Nəvai kimi ortaq mədəni irs nümunələrinin araşdırılması, təbliği və inteqrasiyası mühüm yer tutur. Təşkilatın "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi kimi tədbirləri ortaq mənəvi irsin indiki nəsillərə çatdırılmasında və kollektiv şüurun formalaşmasında mühüm rol oynayır. Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin qeyd etdiyi kimi: "Təşkilatın əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bugünkü nəsillərə çatdırmaqdan ibarətdir."

TÜRKSOY-un mədəniyyət siyasəti yalnız türk dövlətləri arasında deyil, həm də UNESCO və İSESKO kimi nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq çərçivəsində həyata keçirilir. Bu əməkdaşlıq türk mədəniyyətinin dünya mədəni irsinə inteqrasiyasını daha da dərinləşdirir. Məsələn, "Dədə Qorqud" dastanının 1300 illik yubileyinin həm Azərbaycanda, həm də UNESCO-nun mərkəzi ofisində qeyd olunmasında TÜRKSOY-un fəal iştirakı onun ortaq irsin qorunması və beynəlxalq səviyyədə tanıdılmasındakı həlledici rolunu bir daha nümayiş etdirmişdir.

Nəticə. Müstəqillik dövründə türk xalqlarının UNESCO platformasından məqsədyönlü və sistemli şəkildə istifadə etməsi, ortaq qeyri-maddi mədəni irsin effektiv mühafizəsini təmin etmişdir. Bu strategiya nəticəsində yalnız tarixi-etnoloji dəyərlər qorunmamış, həm də milli identiklik beynəlxalq legitimlik qazanaraq möhkəmlənmişdir. Eyni zamanda, TÜRKSOY [1] və Türk Mədəniyyəti və İrsi Fondu

[6] kimi təşkilatların fəaliyyəti sayəsində bu qeyri-maddi irs nümunələri regional siyasi və iqtisadi inteqrasiyanın mədəni əsasını formalaşdırmışdır.

Gələcək perspektivdə türk dövlətləri UNESCO-da hələ qeydə alınmamış digər ortaq irs elementlərinin — məsələn, ənənəvi türk atçılıq oyunları və ortaq dastanların — mühafizəsi üçün birgə nominasiyaları davam etdirməli, bu yolla transmilli mədəni diplomatiyanı daha da gücləndirməlidirlər. Belə yanaşma, həm ortaq mədəni yaddaşın qorunmasına, həm də türk dünyasının beynəlxalq mədəniyyət sistemində daha fəal iştirakına töhfə verəcəkdir.

Ədəbiyyat siyahısı:

1. Tağısoy Kılavuz G. Türk xalqlarının mədəni irsinin öyrənilməsində TÜRKSOY-un rolu // Mədəniyyət.AZ. – 2019. – № 3. – S. 50–54.
2. UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Reprezentativ Siyahısı, Novruz bayramı nominasiyası (2009, 2016) // Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyası. – https://unesco.mfa.gov.az/az/category/cultural-cooperation/qeyri-maddi-medeni-irs-siyahisi
3. UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Reprezentativ Siyahısı, Dədə Qorqud irsi: Dastan mədəniyyəti, xalq nağılları və musiqisi nominasiyası (2018) // Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyası. – https://unesco.az/index.php/az/articles/news/319.
4. Ədəbiyyat və incəsənət portalı, 05.11.2025-ci il tarixli məlumat //Azərbaycan Milli Kitabxanası. – https://anl.az/down/medeniyyet_2025/medeniyyet_oktyabr_2025.htm
5. Türk Dövlət Başçılarının "Türk Dünyasına Baxış – 2040" Strateji Sənədi. – Türk Dövlətləri Təşkilatı. – https://www.turkicstates.org/u/d/news/5-ek--turk-dunyasi-2040-vizyonu.pdf
6. Türk Mədəniyyəti və İrsi Fondu. Rəsmi məlumatlar. – https://itchf.org/
7. UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Reprezentativ Siyahısı //Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyası. – https://unesco.az/az/categories/intangible_cultural_heritage

AZƏRBAYCANIN MƏDƏNİ DİPLOMATİYASINDA İCESCO-nun ROLU

Sevinc Məmmədova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasının doktorantı
sevincgulshen62@gmail.com
Elmi rəhbər: professor İbrahim Zeynalov

Açar sözlər: *Mədəni əlaqələr, mədəni diplomatiya, xarici siyasət, İCESCO*
Keywords: *Cultural relations, cultural diplomacy, foreign policy, İCESCO*

Mədəniyyət dövlətlərin xarici siyasətində böyük əhəmiyyətə malik olan ünsürdür. Mədəniyyət dövlətlərarası münasibətlərə, o cümlədən dövlət daxili dəyişikliklərə əsaslı təsir göstərir. Dövlətin daxilində mədəni birliyin olması onun xarici siyasətinin formalaşmasında böyük əhəmiyyətə malikdir. Mədəniyyət insanların yaratdığı bütün maddi və mənəvi dəyərlərin, biliklərin, adət və ənənələrin, incəsənə-

tin, əxlaqın, elm və texnikanın, həmçinin həyat tərzi və davranış qaydalarının məcmusudur. XX əsrin ikinci yarısında F. Barqorn tərəfindən dövriyyəyə buraxılan "mədəni diplomatiya" termini müasir beynəlxalq münasibətlərin ayrılmaz hissəsinə çevrilmişdir. Azərbaycan bu konsepsiyanı xarici siyasətinin prioriteti kimi müəyyənləşdirərək, milli maraqlarını "yumşaq güc" vasitəsilə uğurla təbliğ edir [2].

Müasir beynəlxalq münasibətlərdə dövlətlərin nüfuzu təkcə hərbi güclə deyil, həm də "yumşaq güc" (soft power) amili ilə müəyyən edilir. Azərbaycan bu sahədə həm ənənəvi irsi, həm də müasir yaradıcı sənayeni birləşdirən çevik bir strategiya yürüdür. "Bakı Prosesi" və Heydər Əliyev Fondunun xaricdəki bərpa layihələri ölkəmizin humanist simasını gücləndirərək, Azərbaycanı qlobal mədəniyyətlərarası dialoqun mərkəzinə çevirib. Xüsusilə ICESCO ilə 1991-ci ildən qurulan strateji tərəfdaşlıq ölkəmizin İslam dünyasındakı mənəvi liderliyini təsdiq edir [3]. Müasir mərhələdə rəqəmsal diplomatiya və yaradıcı sənayelər (kino, dizayn, caz, kulinariya) bu siyasətin əsas alətləridir. Virtual muzeylər və rəqəmsal sərgilər vasitəsilə Qarabağ irsi və Azərbaycanın haqq səsi qlobal auditoriyaya anlıq çatdırılır.

Beləliklə, Azərbaycan keçmişin təbliği ilə gələcəyə yönəlmiş yaradıcı potensialı sintez edərək, özünü dünyada həm qədim irs sahibi, həm də müasir inkişaf mərkəzi kimi uğurla tanıdır. Münasibətlərin inkişafında ən mühüm dönüş nöqtəsi 2006-cı ilə təsadüf edir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ICESCO-nun Xoşməramlı Səfiri seçilməsi ilə bu əlaqələr keyfiyyətcə yeni, daha dinamik bir mərhələyə qədəm qoydu. Bu təyinat Azərbaycanın tolerantlıq modelinin, mədəniyyətlərarası dialoqa verdiyi töhfənin və islamofobiyaya qarşı qlobal mübarizəsinin beynəlxalq miqyasda tanınması idi. "Gənclər—Sivilizasiyaların Alyansı Naminə" və "Mədəniyyətlərarası Dialoqda Qadınların Rolu" kimi möhtəşəm tədbirlər məhz bu strateji tərəfdaşlığın məhsulu olaraq ölkəmizi Şərqlə Qərb arasında sarsılmaz bir körpü kimi tanıtdı [4]. ICESCO ilə sıx əməkdaşlığın bəhrələri Azərbaycan şəhərlərinin statusunda da özünü göstərmişdir. Bakının (2009) və Naxçıvanın (2018) "İslam Mədəniyyətinin Paytaxtı" elan edilməsi, bu qədim məkanların bəşəri irsə verdiyi töhfələrin rəsmi təsdiqi oldu. Lakin bu fəaliyyətin ən qürurverici zirvəsi 44 günlük Vətən müharibəsindən sonra özünü büruzə verdi. Şuşanın "İslam Dünyasının Mədəniyyət Paytaxtı" elan edilməsi şəhərin tarixi simasının bərpasına, xüsusilə Yuxarı və Aşağı Gövhər Ağa, Saatlı məscidləri kimi inci abidələrin rəqəmsallaşdırılmasına beynəlxalq dəstək təmin etdi [1]. Təşkilatın Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərliyi ilə azad edilmiş ərazilərə səfər edən nümayəndə heyəti erməni vandalizminin və dağıdılmış İslam irsinin real mənzərəsini yerindəcə sənədləşdirərək beynəlxalq hesabatlara daxil etdi. Bu, Azərbaycanın mədəni mülkiyyətinə qarşı törədilən cinayətlərin dünya ictimaiyyətinə çatdırılmasında ICESCO-nun ən güclü diplomatik tribunalardan biri olduğunu bir daha sübut etdi. Bu gün Azərbaycan və ICESCO tərəfdaşlığı artıq yeni üfüqlərə—rəqəmsal texnologiyalar, startaplar və inkluziv inkişaf sahələrinə yönəlib. Bakıda ICESCO-nun Regional Ofisinin açılması bu nüfuzun məntiqi nəticəsidir. Bu mərkəz təkcə abidələrin qorunması ilə deyil, həm də gənc nəsil üçün tex-

nologiya, elm və yaradıcı sənayelər üzrə ortaq proqramların həyata keçirildiyi innovasiya qovşağına çevrilmişdir.

Yekun olaraq qeyd etmək olar ki, Azərbaycan-ICESCO birliyi ölkəmizin həm dünyəvi inkişaf modelini, həm də İslam irsinin sadiq keşikçisi olduğunu dünyaya bəyan edən sarsılmaz bir ittifaqdır. Bu əməkdaşlıq gələcək nəsillər üçün daha firavan, savadlı və mədəniyyətlərin sülh şəraitində birgə yaşadığı bir dünya vəd edir.

Ədəbiyyat siyahısı:

1. "Azərbaycan" qəzeti. 2009 -19 fevral, s.2
2. Mustafa Osman İsmail. Analyzing ICESCO's Capitals of Culture Program: Impacts on Education, Science, and in Comparison to UNESCO and Global Initiatives. International Journal of Religion, Volume: 5 Number 1. Pp 150-169, 2024
3. International Conference "The Youth for Alliance of Civilizations". https://heydar-aliyev-foundation.org/az/content/view/66/2155/%E2%80%9CG% C9%99ncl%C9%99r-sivilizasiyalar% C4%B1n-alyans%C4%B1-namin%C9%99%E2% 80%9D-beyn%C9%99lxalq-konfrans
4. "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum. https://heydar-aliyev-foundation.org/az/content/view/66/2152/%E2%80%9CM%C9% 99d% C9%99niyy %C9%99tl%C9%99raras%C4%B1-dialoqda-qad%C4%B1nlar%C4%B1n-rolunun-geni%C5%9Fl%C9%99ndirilm%C9%99si%E2%80%9D-m%C3%B6vzusunda-beyn%C9%99lxalq-forum

TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ (2009-2023-cü illər)

Rauf Qurbanov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Slavyan ölkələri tarixi" kafedrasının doktorantı
qurbanovrauf7@gmail.com
Elmi rəhbər: prof.Tahir Baxşəliyev, dos. Kəmalə Nəcəfova

Açar sözlər: *Türk Dövlətləri Təşkilatı, Azərbaycan-Rusiya münasibətləri, geosiyasi balans, Türk inteqrasiyası, Cənubi Qafqaz*
Keywords: *Organization of Turkic States, Azerbaijan-Russia relations, geopolitical balance, Turkish integration, South Caucasus*

Bu tədqiqat, Türk Dövlətləri Təşkilatının (TDT) 2009-2023-cü illər arasında təkamülünün Azərbaycan və Rusiya arasındakı münasibətlərə necə təsir etdiyini ətraflı araşdırır. Bu dövrdə TDT, Türk Şurası kimi tanınan məsləhət platformasından daha institusional və strateji yönümlü bir təşkilata çevrilmişdir. Onun güclənməsi türk ölkələri arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığı dərinləşdirmiş, eyni zamanda Türkiyənin Cənubi Qafqaz və Orta Asiyada strateji təsirini artırmışdır. TDT strukturları genişləndikcə, Azərbaycanın digər türk dövlətləri ilə qarşılıqlı əlaqəsi və əməkdaşlığı güclənmiş, regional əlaqə, enerji tranziti və təhlükəsizlik əməkdaşlığında mərkəzi aktor kimi rolunu gücləndirmişdir. Bu inkişaflar geosiyasi

tarazlığa nəzərəçarpacaq dərəcədə təsir göstərmiş və daha vahid türk geosiyasi məkanının yaranmasına töhfə vermişdir. Azərbaycan üçün təşkilat Orta Dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu), artan ticarət inteqrasiyası və Türkiyə və Orta Asiya dövlətləri ilə daha sıx hərbi-siyasi koordinasiya kimi böyük təşəbbüslər vasitəsilə yeni imkanlar yaratmışdır. Lakin, genişlənən türk inteqrasiyası, həmçinin Azərbaycandan Rusiya ilə diqqətli diplomatik tarazlıqda hərəkət etməyi tələb etmişdir. Moskva Bakı üçün əsas siyasi, iqtisadi və təhlükəsizlik tərəfdaşı olaraq qalır, eyni zamanda türk əməkdaşlığının möhkəmlənməsinə strateji maraq və geosiyasi ehtiyatlılığın qarışığı ilə yanaşı baxır. Rusiyanın postsovet məkanında, xüsusən də Cənubi Qafqaz və Orta Asiyada ənənəvi təsiri daha inteqrasiya olunmuş türk blokunun yaranmasını onun regional mövqeyinə birbaşa təsir göstərən bir inkişaf halına gətirir. Balanslaşdırma strategiyası Azərbaycana birbaşa qarşıdurmaya səbəb olmadan hər iki tərəfdaşlıqdan faydalanmağa imkan verib. TDT institusional güclənməsi yeni əməkdaşlıq yollarına, eləcə də regionda strateji rəqabətin incə formalarına töhfə verib. Regional güc dinamikasına, nəqliyyat marşrutlarına və təhlükəsizlik tənzimləmələrinə təsir göstərməklə, TDT Cənubi Qafqazın geosiyasi mühitinin yenidən müəyyənləşdirilməsində əsas rol oynayır və onu 2009-2023-cü illər ərzində Azərbaycan-Rusiya münasibətlərinin ümumi dinamikasında mühüm elementə çevirir.

Əsas hissə: 2009–2023-cü illər arasında Türk dünyasında inteqrasiya proseslərinin sürətlənməsi və Türk Dövlətləri Təşkilatının (TDT) institusional olaraq güclənməsi regionun geosiyasi düzəninə ciddi təsir göstərmişdir. Xüsusilə Cənubi Qafqaz və Mərkəzi Asiyada baş verən siyasi dəyişikliklər, regional güclərin maraqlarının toqquşması və yeni nəqliyyat-kommunikasiya dəhlizlərinin formalaşması TDT-ni mühüm beynəlxalq aktora çevirmişdir. Bu proseslər fonunda Azərbaycan-Rusiya münasibətlərinin transformasiyası diqqət mərkəzində olmuşdur. Azərbaycanın həm Türkiyə ilə strateji ittifaqı, həm də Rusiya ilə siyasi və iqtisadi əməkdaşlığı fonunda TDT-nın inkişafı bu münasibətlərə birbaşa və dolayı təsirlər göstərmişdir. Mövzunun aktuallığı da məhz bu təsirlərin mahiyyətinin araşdırılması ilə bağlıdır. Türk Dövlətləri Təşkilatı 2009-cu ildə imzalanmış Naxçıvan Sazişi əsasında fəaliyyətə başlamış və 2010-cu ildən etibarən Türk Şurası adı ilə işləmişdir. 2021-ci ildə isə təşkilatın adı rəsmi olaraq TDT olaraq dəyişdirilmiş və struktur baxımından daha güclü institusional bazaya sahib olmuşdur [1, s.15]. Təşkilatın əsas məqsədləri siyasi əməkdaşlığın dərinləşdirilməsi, iqtisadi inteqrasiyanın genişləndirilməsi, nəqliyyat və enerji layihələrinin əlaqələndirilməsi, eləcə də türk mədəniyyəti və kimliyinin gücləndirilməsidir. Regionda strateji nəqliyyat-marşrutlarının yenidən formalaşdığı bir dövrdə Orta Dəhlizin önə çıxması TDT-nın geosiyasi çəkisini artırmış, təşkilatı Avrasiyanın tranzit xəritəsində mühüm oyunçuya çevirmişdir. Azərbaycan və Rusiya arasındakı münasibətlər tarixi, siyasi, iqtisadi və təhlükəsizlik aspektlərində çoxşaxəli xarakter daşıyır. Sovet İttifaqının süqutundan sonra iki ölkə arasında münasibətlər bəzən gərginliklərlə yanaşı, daha çox qarşılıqlı maraqlar üzərində qurulmuş əməkdaşlıq formatında inkişaf etmişdir. Enerji sahəsində tə-

rəfdaşlıq, ticarət dövriyyəsinin artması, sərhəd təhlükəsizliyi, regional sabitlik kimi məsələlər münasibətlərin əsas istiqamətlərini təşkil edir. 2020-ci il Qarabağ müharibəsi və ondan sonrakı dövr isə Azərbaycan-Rusiya əlaqələrinə yeni ölçülər əlavə etmiş, Rusiya bölgədə sülhməramlı missiya ilə iştirakçı aktora çevrilmişdir. Belə bir kontekstdə TDT-nın güclənməsi və türk dünyasının siyasi konsolidasiyası Rusiya üçün həm yeni imkanlar, həm də müəyyən narahatlıqlar yaratmışdır.

Bu tədqiqatın əsas məqsədi 2009-2023-cü illər ərzində TDT-nın inkişafının Azərbaycan-Rusiya münasibətlərinə təsir mexanizmlərini müəyyənləşdirmək və həmin təsirlərin siyasi, iqtisadi və təhlükəsizlik ölçülərini təhlil etməkdir. Tədqiqat aşağıdakı suallara cavab axtarır:

- TDT-nın güclənməsi Azərbaycan–Rusiya münasibətlərinin geosiyasi balansına necə təsir etmişdir?
- Türk inteqrasiyasının dərinləşməsi Azərbaycan üçün hansı yeni imkanlar yaratmışdır?
- Orta Dəhliz və digər regional layihələr Rusiya–Azərbaycan iqtisadi əlaqələrinə necə təsir göstərir?
- TDT-nın institusional inkişafı Rusiyanın Cənubi Qafqaz siyasətində hansı dəyişikliklərə səbəb olmuşdur?

Metodologiya əsasən siyasi təhlil, müqayisəli analiz, regional geosiyasi proseslərin qiymətləndirilməsi, elektron resurslar və ekspert-materiallarının araşdırılması əsasında qurulmuşdur. Tədqiqat həm tarixi, həm də müasir faktlara əsaslanaraq TDT–Azerbaycan–Rusiya münasibətlərinin çoxölçülü strukturunu müəyyənləşdirməyə planlamışdır.

Türk Dövlətləri Təşkilatının (TDT) yaranması və inkişafı uzunmüddətli siyasi və regional proseslərin nəticəsi kimi qiymətləndirilə bilər. Təşkilatın əsası 2009-cu ildə Naxçıvanda imzalanmış "Türk Dilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Saziş" ilə qoyulmuşdur. Bu sənəd, türk dövlətləri arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın gücləndirilməsini məqsəd qoyan ilkin hüquqi çərçivə rolunu oynamışdır. 2010-cu ildə Şura rəsmi şəkildə fəaliyyətə başlamış, ilk mərhələdə üzv dövlətlər arasında siyasi dialoq, mədəni və humanitar əlaqələrin möhkəmləndirilməsi prioritet olmuşdur. Bu dövr, təşkilat üçün əsasən "təcrübə toplama" və üzv dövlətlər arasında etimad mühitinin yaradılması mərhələsi kimi xarakterizə olunur. 2010–2020-ci illər arasında təşkilatın fəaliyyət spektri tədricən genişlənmişdir. İlk illərdə daha çox mədəniyyət və təhsil sahəsində əməkdaşlıqla məhdudlaşan fəaliyyət, sonrakı illərdə siyasi koordinasiya, iqtisadi layihələrin təşkili, enerji və nəqliyyat dəhlizlərinin təşviqi və təhlükəsizlik məsələlərini də əhatə etməyə başlamışdır. Bu inkişaf TDT-ni yalnız mədəni və diplomatik platforma deyil, həm də regional inteqrasiyanın mühüm aktoru halına gətirmişdir. Eyni zamanda, bu dövrdə təşkilat üzv dövlətlər arasında strateji əməkdaşlıq və ortaq mövqelərin formalaşmasına da töhfə vermişdir.

2021-ci ildə İstanbul Zirvəsində təşkilatın adı rəsmi olaraq Türk Dövlətləri Təşkilatı (TDT) olaraq dəyişdirilmiş və struktur baxımından daha institusional və stra-

teji bir quruma çevrilmişdir. Bu dəyişiklik təşkilatın inkişafında dönüş nöqtəsi hesab olunur, çünki artıq o, yalnız məsləhətləşmə və mədəni əməkdaşlıq platforması deyil, regional siyasətdə təsir gücünə malik vahid təşkilat olaraq fəaliyyət göstərməyə başlamışdır. Yeni struktur çərçivəsində TDT-nın Katibliyi, institutlararası əməkdaşlıq mexanizmləri, iqtisadi və investisiya fondları, təhlükəsizlik və strateji dialoq formatları daha formal və davamlı xarakter qazanmışdır [2, s.15].

Türk Dövlətləri Təşkilatının tərkibi

TDT-na hazırda üzv olan ölkələr	**Müşahidəçi statusunda olanlar:**
Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan	Türkmənistan, Macarıstan, Şimali Kipr Türk Respublikası (ŞKTR)
TDT-nın fəaliyyətini koordinasiya edən bir sıra institusional qurumlar mövcuddur: Türk Dövlətləri Təşkilatının Katibliyi, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Türk İnvestisiya Fondu, TÜRKSOY (mədəni əməkdaşlıq çərçivəsində paralel qurum).	
Türk Dövlətləri Təşkilatı (TDT) strukturu 1.Dövlət Başçıları Şurası, 2.Xarici İşlər Nazirləri Şurası, 3.Ağsaqqallar Şurası, 4.Yüksək Vəzifəli Şəxslər Komitəsi, 5. Katiblik [5].	

TDT-nın 2009–2023-cü illər ərzində güclənməsi Azərbaycan–Rusiya münasibətlərinə birbaşa və dolayı təsir göstərmişdir. Bu təsirlər siyasi, iqtisadi, təhlükəsizlik və mədəni-humanitar sahələrdə müşahidə olunur və regionun geosiyasi balansını formalaşdırmaqda mühüm rol oynayır. Təşkilatın institutlarının inkişafı və üzv dövlətlər arasındakı inteqrasiyanın dərinləşməsi Azərbaycan üçün yeni imkanlar yaratmaqla yanaşı, Moskva ilə münasibətlərin balanslaşdırılmasını tələb edən strateji mühit yaratmışdır. TDT-nın Azərbaycan–Rusiya münasibətlərinə təsirinin geosiyasi ölçüsü xüsusilə önəmlidir. Türk dövlətlərinin siyasi birliyi və əməkdaşlıq mexanizmləri Cənubi Qafqazda və Mərkəzi Asiyada regional güc balansını dəyişir. Azərbaycan üçün TDT, həm siyasi dəstək, həm də regional təsir vasitəsi kimi çıxış edir, eyni zamanda Türkiyənin strateji mövqeyini gücləndirir. Rusiya isə bu birləşməni diqqətlə izləyir: Türk inteqrasiyası Moskvanın postsovet məkanındakı təsirini müəyyən qədər məhdudlaşdıra və regional diplomatik manevr imkanlarını dəyişdirə bilər. Xüsusilə Mərkəzi Asiya ölkələrində TDT-nın fəaliyyəti Rusiyanın ənənəvi təsir zonalarında balansın dəyişməsinə səbəb olur, bu isə Moskva üçün həm risk, həm də yeni əməkdaşlıq imkanları yaradır. Təhlükəsizlik sahəsində TDT-nın təsiri də nəzərəçarpandır. Regional təhlükəsizlik arxitekturasında Azərbaycan üçün TDT vasitəsilə əlavə manevr və dəstək mexanizmləri formalaşmışdır.

2020-ci il Qarabağ müharibəsi və ondan sonrakı dövrdə Azərbaycanın Türkiyə ilə hərbi əməkdaşlığı TDT daxilində həm siyasi, həm də hərbi birliyin praktiki göstəricisi olmuşdur. Bu isə Azərbaycanın KTMT və Rusiya ilə əlaqələrini balanslaşdırarkən istifadə etdiyi strateji alətlərdən birinə çevrilmişdir. Eyni zamanda TDT-nın hərbi və təhlükəsizlik mexanizmləri Rusiyanın Cənubi Qafqazda mövcud təsirini dolayısı ilə məhdudlaşdırsa da, birgə layihələr və diplomatik koordinasiya sayəsində Rusiya üçün əməkdaşlıq imkanları da yaranmışdır. Beləliklə, TDT-nın güclənməsi yalnız rəqabət yaratmır, həm də qarşılıqlı maraqların müəyyən səviy-

yədə uzlaşdırılmasına şərait yaradır. İqtisadi və nəqliyyat sahəsində TDT-nın təsiri Azərbaycan–Rusiya münasibətlərində strateji əhəmiyyət kəsb edir. Orta Dəhliz (Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu) layihəsi Azərbaycanın regiondakı rolunu artırır və onu Avropa-Asiya ticarət marşrutlarının mərkəzi aktoruna çevirir [4, s.7]. Bu, Şimal-Cənub dəhlizi vasitəsilə Rusiya ilə rəqabət yaradaraq Azərbaycan üçün logistik üstünlüklər təmin edir. Eyni zamanda TDT daxilində iqtisadi inteqrasiyanın dərinləşməsi Rusiya-Azərbaycan ticarət dövriyyəsinə dolayı təsir göstərir: Azərbaycan digər türk dövlətləri ilə əməkdaşlığı genişləndirdikcə, Rusiya ilə ticarət əlaqələrində müəyyən balanslaşdırıcı və alternativ marşrutlar ortaya çıxır. Bu isə Baku üçün həm iqtisadi sərbəstlik, həm də diplomatik çeviklik yaradır. Mədəni-humanitar sahədə TDT-nın təsiri regiondakı siyasi psixologiya və identitet məsələlərinə özünü göstərir.

Türk dünyası kimliyinin güclənməsi Azərbaycan üçün daxili və xarici siyasətdə strateji üstünlük təmin edir. Bu proses eyni zamanda Rusiyanın çoxmillətli ideologiyası ilə müəyyən qarşıdurma və müqayisə yaradır, çünki Moskva üçün türk identitetinin konsolidasiyası həm regional təsir imkanlarını, həm də postsovet məkanda mədəni siyasəti dəyişdirə bilər. TDT-nın mədəni proqramları, təhsil və gənclər layihələri, həmçinin media və humanitar təşəbbüsləri Azərbaycan üçün regional liderlik imici yaratmaqla yanaşı, Rusiyanın mövcud təsir strukturlarını dolayısı ilə yenidən formalaşdırır. Ümumilikdə, TDT-nın Azərbaycan-Rusiya münasibətlərinə təsiri çoxşaxəlidir və strateji balansın vacib amili kimi çıxış edir. Təşkilatın güclənməsi Azərbaycan üçün siyasi dəstək, iqtisadi imkanlar, təhlükəsizlik koordinasiyası və mədəni identitetin təşviqi baxımından mühüm üstünlüklər yaradır, eyni zamanda Moskva ilə münasibətlərdə çevik diplomatik balans tələb edir. TDT-nın institusional və funksional inkişafı, regional layihələrin həyata keçirilməsi və türk dünyası inteqrasiyasının dərinləşməsi Azərbaycan-Rusiya münasibətlərini həm əməkdaşlıq, həm də strateji rəqabət çərçivəsində formalaşdıran ən vacib faktor kimi ortaya çıxarır [3, s. 201].

Nəticə. 2009-2023-cü illər ərzində Türk Dövlətləri Təşkilatının inkişafı Azərbaycan-Rusiya münasibətlərinə çoxşaxəli təsir göstərmişdir. TDT-nın güclənməsi Azərbaycan üçün siyasi dəstək, iqtisadi imkanların genişlənməsi və regional təsir potensialının artırılması kimi mühüm üstünlüklər yaratmışdır. Eyni zamanda təşkilatın fəaliyyəti Rusiya üçün regiondakı mövcud təsir strukturlarını yenidən nəzərdən keçirməyi və strateji adaptasiya imkanlarını araşdırmağı tələb etmişdir. Azərbaycanın çoxşaxəli diplomatiyası bu dövrdə TDT-dən əldə olunan imkanları Rusiya ilə əlaqələrdə balanslaşdırıcı faktor kimi istifadə etməyə imkan vermişdir. Ölkə həm türk dünyası ilə inteqrasiyanı dərinləşdirərək regional mövqeyini gücləndirmiş, həm də Moskva ilə strateji dialoqu qoruyaraq enerji, təhlükəsizlik və nəqliyyat sahələrində sabitliyi təmin etmişdir. Bununla yanaşı, TDT-nın regional təsiri Rusiya üçün müəyyən məhdudiyyətlər də yaratmışdır.

Moskva TDT-nın güclənməsini həm maraq, həm də ehtiyatla izləyərək postsovet məkanındakı balansı qorumaq üçün diplomatik və iqtisadi mexanizmlərdən is-

tifadə etmişdir. Bu kontekstdə Azərbaycan–Rusiya münasibətləri yalnız qarşılıqlı əməkdaşlıq deyil, həm də regional təsir mübarizəsinin bir elementi kimi formalaşmışdır. Ümumiyyətlə, TDT Azərbaycan üçün yeni strateji imkanlar açmış, Rusiya isə dəyişən regional reallığa uyğun adaptasiya prosesinə məcbur olmuşdur. Bu dövr ərzində təşkilat regional siyasətdə artan əhəmiyyətini təsdiqləmiş və Azərbaycan-Rusiya münasibətlərinin dinamikasının formalaşmasında mühüm rol oynamışdır.

Ədəbiyyat siyahısı:

1. Bağırzadə, E. Türk Dünyasinda iqtisadi əməkdaşliq və inkişaf gündəliyi: Türk Dünyasi 2040 vizyonu / "UNEC Ekspert" jurnalı. Bakı: Şərq-Qərb, 2023, s. 14-17.

2. Huseyn, R. Türk dünyasına baxış 2040-ın reallaşdırılmasının iqtisadi inkişafa təsiri / "İqtisadi islahatlar" elmi-analitik jurnalı. Bakı: Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, 2022, s. 12-18.

3. İbrahimov M. Türk Devletleri Teşkilatı - Türkçülükten Turan'a giden yol (tarih və gerçekler)/ X. Beynəlxalq Türk Dünyası araşdırmaları Simpoziumu. Almatı: Qazaxıstan Dövlət Qızlar Pedaqoji Universiteti, 2023, s.187-204.

4. Kəlbizadə, E. TDT-nin dünya geosiyasətində rolu artır. «Xalq» qəz., Bakı, 2024, 17 noyabr.

5. Türk Dövlətləri Təşkilatı // https://economy.gov.az/az/page/beynelxalq-elaqeler/iqtisadi-teskilatlarla-emekdasliq/regional-teskilatlar/turkdilli-dovletlerin-emekdasliq-surasi-tdes . İstinad tarixi: 11.16.2025

MÜASİR TÜRK DÜNYASINDA DİL, GENDER VƏ MƏDƏNİ İNTEQRASİYA: AZƏRBAYCAN VƏ TÜRKİYƏ NÜMUNƏSİNDƏ TARİXİ-MƏDƏNİ DAVAMLILIQ VƏ QƏRB DİLLƏRİ İLƏ MÜQAYİSƏLİ NƏZƏRİ YANAŞMALAR

Nərminə Məmmədova
Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin "Türk filologiyası" kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru
narminamammadova@bsu.edu.az

Açar sözlər: *Türk dünyası, dil və gender, mədəni inteqrasiya, kommunikasiya, dövlətçilik tarixi, diskurs analizi*
Keywords: *Turkic world, language and gender, cultural integration, communication, statehood history, discourse analysis*

Türk dünyası, əsrlər boyu zəngin tarixi və mədəni irsi ilə həm dövlətçilik ənənələrini, həm də dil və kommunikasiya xüsusiyyətlərini qoruyub saxlamışdır. Azərbaycan və Türkiyə kimi əsas nümunələr, bu irsin həm tarixi-mədəni davamlılığını, həm də müasir dövrdəki sosial və diplomatik əlaqələrini göstərir. Müasir dövrdə bu irsin öyrənilməsi, xüsusilə dil və gender diskursu kontekstində, milli identifikasiyanın formalaşması ilə yanaşı beynəlxalq inteqrasiya proseslərinin anlaşılması baxımından böyük əhəmiyyət kəsb edir.

Azərbaycan və Türkiyənin tarixi-mədəni irsi, həm yerli, həm də ümumtürk kontekstdə dil, gender və simvolik mesajların araşdırılması üçün zəngin nümunələr

təqdim edir. Türk dünyasının mədəni davamlıığını və gender diskursunun xüsusiyyətlərini əks etdirən bu nümunələr, diplomatiyada və sosial münasibətlərdə simvolik jestlərin rolunu aydın şəkildə göstərir.

Hədiyyələşmə və simvolik jestlər tarix boyu diplomatiyada həm hörmət, həm də strateji mesaj vermək üçün istifadə olunmuşdur. Məsələn, Şah İsmayıl Xətai və Şirvanşahlar dövründə hədiyyələr həm sülh, həm də etimad mesajı daşıyırdı və bu nümunələr sosial hierarxiya, diplomatk incəlik və etno-mədəni dəyərlərin qorunmasını əks etdirir.

Müasir Türk dünyasında bu tarixi ənənələr, XXI əsr reallıqları, beynəlxalq inteqrasiya və diplomatiya prosesləri ilə birləşərək geniş araşdırma mövzusu təqdim edir. Tezis, Azərbaycan və Türkiyə nümunələrinə əsaslanaraq, Türk dünyasının tarixi-mədəni davamlılığını, gender diskursunun xüsusiyyətlərini və Qərb dillərindəki nəzəri yanaşmalarla müqayisəsini əhatə edir. Eyni zamanda, Qərb dillərindəki nəzəri yanaşmalarla müqayisələr aparmaq, müşahidə edilən fərqlilik və oxşarlqları daha geniş elmi perspektivdə təhlil etməyə imkan verir.

1.Ümumtürk tarixi və Dövlətçilik ənənələri. Türk xalqları, qədim dövrlərdən başlayaraq dövlətçilik ənənələrinə malik olmuş və bu ənənələr hm Orta Asiya, mhəm də Qafqaz, Anadolu və Orta Şərq ərazilərində inkişaf etmişdir.Azərbaycan və Türkiyə isə bu tarixdə strateji mərkəzlər kimi tanınmışdır.

Azərbaycanın tarixi-mədəni irsi, həm Azərbaycan türklərinin formalaşması, həm də ümumtürk kontekstində dövlətçilik və etno-mədəni əlaqələr üçün zəngin mənbədir. Arxeoloji qazıntılar və yazılı mənbələr, xüsusilə qədim şəhər mərkəzləri, qala və saray strukturları, dil və etno-mədəniyyətin qorunmasına dair nümunələr təqdim edir.

Türk dünyasında dövlətçilik ənənələri yalnız siyasi quruluş deyil, həm də sosial və mədəni əlaqələrin formalaşmasında əsas rol oynayıb. Bu baxımdan, Azərbaycanın və Türkiyənin dövlətçilik tarixi, həm regionda diplomatik əlaqələrin, həm də müasir inteqrasiya proseslərinin başa düşülməsi üçün vacibdir.

Müasir dövrdə dövlətçilik irsi yalnız tarii baxımdan deyil, həm də müasir diplomatik və mədəni layihələrin planlamasında önəm daşıyır. Məsələn, TÜRKSOY və Türk Dövlətləri Təşkilatının fəaliyyəti, həm tarixi-mədəni bağlılığın, həm də dövlətlərin qarşılıqlı etimadının qorunmasının göstəricisidir.

2.Dil və gender diskursu:Azərbaycan və Türkiyə nümunələri. Azərbaycan və Türkiyə türkcəsində kişi və qadın nitq üslubları fərqli xüsusiyyətlərə malikdir. Kişi diskursu daha çox birbaşa, sərt tonlu və səlahiyyət göstərən ifadələrlə müşahidə olunur.Qadın diskursu isə, xüsusilə sosial münasibətlərdə, daha yumşaq, emosional və zərif ifadələrlə formalaşır.

Tarixi nümunələrdə diplomatiya və hədiyyələşmə vasitəsilə ilə gender və kommunikasiya əlaqəsi əyani şəkildə görünür. Məsələn, Yavuz Sultan Selim dövründə İran Şahına göndərilən hədiyyə vasitəsilə ilə həm diplomatik mesaj, həm də sivil zəiflik nümayiş etdirilmişdir. Azərbaycan tarixində Şirvanşahlar və Şah İsmayıl Xətainin hədiyyələri də oxşar simvolik mesajlar daşıyırdı.

Diskurs analizi göstərir ki, tonlama, formallıq və praqmatik seçimlər, həm cəmiyyətin sosial nizamını, həm də gender rollarını əks etdirir. Bu yanaşma, həm dilçilik, həm də etno-sosioloji təhlillər üçün zəngin material təqdim edir. Müasir araşdırmalar göstərir ki, gender fərqlilikləri yalnız danışıq tərzində deyil, həm də sosial mədəni normativlərdə və kommunikativ davranışlarda özünü göstərir.

3.Qərb dilləri ilə müqayisəli nəzəri çərçivə. Qərb dillərindəki gender və kommunikasiya nəzəriyyələri (Halliday, Tannen, Butler və s.) Türk dünyasında müşahidə edilən dil-gender davranışlarının müqayisəsi üçün nəzəri baza yaradır.

Məsələn, Halliday-nın funksional dil nəzəriyyəsi və Tannen-in dialoqun gender aspektləri, Azərbaycan və Türkiyə nümunələrindəki tonlama, diskurs strukturu və sosial rolu təhlil etmək üçün tətbiq oluna bilər. Nəticələr göstərir ki, Türk dünyasında həm ümumtürk, həm də regional xüsusiyyətlər mövcuddur və Qərb nəzəriyyələri bu davranışları daha geniş kontekstdə izah edə bilər.

Bundan əlavə, Butlerin gender performativliyi nəzıriyyəsi, Türk dünyasında sosial rolların və hədiyyələşmə davranışlarının yalnız dil baxımından deyil, həm də sosial performans kontekstində araşdırılmasına imkan verir.Bu yanaşma, dil, gender və mədəni dəyərlərin qarşılıqlı təsirini daha geniş perspektivdə təhlil etməyə imkan yaradır.

4. XXI əsr Türk dünyasında İnkişaf prosesləri. Türk Dövlətləri Təşkilatı, TÜRKSOY və ikitərəfli/çoxtərəfli əlaqələr, türk dünyasında siyasi və mədıni inteqrasiyanın əsas mexanizmləridir. 44 günlük Vətən müharibəsi Azərbaycan üçün qələbə ilə nəticələnmiş, həm Azərbaycanın tarixi torpaqlarının geri alınması, həm də Türk dünyasında diplomatik birlik baxımından strateji əhəmiyyət kəsb etmişdir.

Qarabağ və Şərqi Zəngəzurdan dönüş, bərpa və inşaat işləri, həm yerli, həm də regional mədəni və iqtisadi inkişafı gücləndirmişdir. Eyni zamanda, diaspoira və miqrasiya prosesləri Türk dünyasında mədəni və sosial inteqrasiyanın vacib komponentlərindən birdir.

Bu proseslər, həmçinin təhsil, mədəniyyət və kommunikasiya sahəsində yeni imkanlar açır.Azərbaycan və Türkiyə universitetləri arasında əməkdaşlıq layihələri, ortaq mədəni proqramlar və beynəlxalq konfranslar türk dünyasında informasiya və bilik paylaşımının artırılmasına xidmət edir.

5.Kommunikasiya və simvolik mesajlar. Hədiyyələşmə ənənələri, Azərbaycan, Türkiyə və ümumürk tarixində diplomatiya və sosial münasibətlərin ifadəsi üçün vacib vasitə olmuşdur. Tarixi nümunələr, məsələn Şah İsmayılın tərlang quşu hədiyyəsi, Qarabağ xanlığının ipək parçaları və Şirvanşahların qızıl almaları, həm sülh, həm də etimad mesajı daşıyırdı.

"Hər kəs yediyindən ikram edər" ifadəsi, yalnız sosial etika deyil, həm də diplomatik və fəlsəfi yanaşmanın nümunəsidir. Bu, keçmişlə yanaşı, müasir Türk dünyasında cəmiyyətin qarşılıqlı hörmət və paylaşma dəyərlərini əks etdirir.

Nəticə. Dil–gender–mədəni inteqrasiya üçbucağında Türk dünyasının müasir kimliyi, Azərbaycan və Türkiyə nümunələri əsasında aydın görünür. Bu nümunələr ümumtürk mədəni irsinin davamlılığını, sosial və diplomatik davranışların tarixi

köklərini ortaya qoyur. Qərb dilləri ilə müqayisədə Türk dünyasında diskursun spesifik xüsusiyyətləri, hədiyyələşmə və simvolik mesajların dəyəri vurğulanır.

Həmçinin, Azərbaycan və Türkiyədəki tarixi hadisələr, dövlətçilik ənənələri və mədəni dəyərlər, müasir inteqrasiya prosesləri və diaspora təcrübələri ilə birləşdirildikdə, Türk dünyasında ortaq sosial və mədəni zəminin mövcudluğu daha da konkretləşir. Bu təhlil nəticəsində, dil və gender məsələlərinin yalnız akademik deyil, eyni zamanda sosial və diplomatik kontekstdə də önəmli olduğu göstərilir.

Nəticələr gələcək tədqiqatlar üçün innovativ yanaşmaların tətbiqinə imkan yaradır, beynəlxalq inteqrasiya proseslərinin anlaşılmasını dərinləşdirir və Türk dünyasında mədəni həmrəyliyin, dialoq və əməkdaşlığın inkişafı üçün praktik tövsiyələr təqdim edir.Eyni zamanda, bu yanaşma türk dünyasında mədəni identitetin qorunması və moderləşdirilməsi üçün davamlı strategiyaların hazırlanmasına əsas təşkil edir.

Ədəbiyyat siyahısı:

1. Axundov A. Azərbaycan dilində gender diskursu: tarixi və müasir perspektiv. Bakı: Elm və Təhsil, 2018, 312 s.
2. Altun M. Türk dünyasında mədəni inteqrasiya və kommunikasiya. İstanbul: Nobel Akademik, 2020, 256 s.
3. Baş Z. Türk dövlətçilik ənənələri və diplomatiya tarixi. Ankara: Pegem Akademi, 2019, 348 s.
4. Butler J. Gender Trouble: Feminism and the Subversion of Identity. New York: Routledge, 1990, 307 p.
5. Halliday M.A.K. An Introduction to Functional Grammar. London: Edward Arnold, 1994, 523 s.
6. Həsənov R. Azərbaycan və Türkiyə nitq üslublarında gender fərqlilikləri. Bakı: Qafqaz Universiteti Nəşriyyatı, 2017, 189 s.
7. Tannen D. You Just Don't Understand: Women and Men in Conversation. New York: Ballantine Books, 1990, 338 p.
8. Türköne M. Türk dünyasında dövlətçilik və mədəni irs. İstanbul: Kitabevi, 2016, 264 s.
9. Üstün S. 21-ci əsrdə Türk dövlətləri və regional inteqrasiya. Ankara: Türkiye İş Bankası Kültür Yayınları,2021,198 s.
10. Vural B. Türk dili və gender: müasir perspektivlər. İstanbul: Beta Yayınları, 2018, 221 s.
11. Yavuz H. Türk diplomatiyasında simvolik hədiyyələşmə. Ankara: Akçağ Nəşriyyatı, 2015, 175 s.
12. Zeynalova F. Diaspora və mədəni inteqrasiya: Azərbaycan nümunəsi. Bakı: ADA Universiteti Nəşriyyatı,2019, 210 s.
13. Eckert P., McConnell-Ginet S. Language and Gender. Cambridge: Cambridge University Press, 2013, 401 p.
14. Holmes J. An Introduction to Sociolinguistics. London: Pearson Education, 2008, 359 s.
15. Mills S. Gender and Politeness. Cambridge: Cambridge University Press, 2008, 276 s.
16. Gutiérrez R. Lenguaje y género: análisis comparativo. Madrid: Editorial Complutense, 2017, 192 s.
17. Fernández M. Integración cultural y comunicación en contextos históricos. Barcelona: Edicions Universitat de Barcelona, 2015, 228 s.
İnternet mənbələri:
18. Şuşa şəhəri işğaldan azad edildi! // https://beu.edu.az/az/article/susa-seheri-isgaldan-azad-edildi-540. İstinad tarixi: 20.12.2020

VƏTƏN MÜHARİBƏSİ QƏLƏBƏSİNİN ÜMUMTÜRK KİMLİYİNİN QRAMMATİK- SEMANTİK İFADƏSİNƏ TƏSİRİ

Əfsanə Quliyeva
Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin "Türk filologiyası" kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru
sabiraffa@mail.ru

Açar sözlər : *Türk kimliyi, qrammatika, semantika, modal formalar, gələcək zaman*
Keywords: *Turkic identity, grammar, semantics, modality, future tense*

Məqalədə Vətən müharibəsi sonrası Azərbaycan və Türkiyə türkcələrində ortaq türk kimliyinin dil müstəvisində formalaşması qrammatik-semantik aspektdən araşdırılır. Gələcək zaman formalarının paralel inkişafı, modal-normativ konstruksiyaların intensivləşməsi, kollektiv subyekt bildirən strukturların genişlənməsi və analitik fellərin eyni funksional çərçivədə işlənməsi ortaq kimliyin dil vasitəsilə kodlaşdırıldığını göstərir. Hər iki türkcədə müşahidə olunan sintaktik və morfoloji yaxınlaşmalar türk dil sisteminin tarixi semantik sabitliyi ilə yanaşı, müharibə sonrası dövrdə yaranan siyasi və emosional reallıqların dilə təsiri nəticəsində möhkəmlənmişdir. Tədqiqatın nəticələri göstərir ki, ortaq türk kimliyi yalnız ideoloji və tarixi təsəvvür kimi deyil, həm də qrammatik struktur səviyyəsində sabitləşən linqvistik fenomen kimi formalaşır.

Əsas hissə: Vətən müharibəsində qazanılmış qələbə yalnız Azərbaycanın siyasi və hərbi üstünlüyünü təsdiqləmədi, həm də türk dünyasında ortaq kimlik konsepsiyasının güclənməsinə səbəb olan yeni kommunikativ dil mühitinin yaranmasına təkan verdi. Müharibədən sonra Azərbaycan və Türkiyə arasında intensivləşən siyasi, mədəni və humanitar əlaqələr iki türkcə arasında qrammatik-semantik yaxınlaşmanı daha aydın göstərən dil faktlarının formalaşmasına şərait yaratdı. Bu proseslər ortaq türk kimliyinin yalnız ideoloji və ya tarixi deyil, həm də dilçilik baxımından ifadə olunmasını aktuallaşdırdı. Çünki kimlik diskursunun daşıyıcı mexanizmləri məhz leksik-semantik vahidlər və qrammatik modellər vasitəsilə reallaşır. Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsi arasında kökdən gələn struktur yaxınlığı aqqlütinasiya prinsiplərinin, kök-söz sabitliyinin və şəkilçi ardıcıllığının ortaq olmasını şərtləndirdiyindən Vətən müharibəsi sonrası yüksələn "bir millət, iki dövlət" konsepti dil müstəvisində daha güclü qrammatik-sentaktik paralellərlə müşahidə olunmağa başladı. Bu isə milli birlik ideyasının dil strukturunda semantik sabitliklə möhkəmləndiyini göstərir. Bu yanaşma ilə bağlı Ağayev [1, s.112] qrammatik kateqoriyaların sosial gerçəkliklə paralel inkişaf etdiyini xüsusi vurğulayır. Müharibədən sonra intensiv şəkildə istifadə olunan birlik, qardaşlıq, həmrəylik kimi semantik nüvələr Azərbaycan və Türkiyə türkcəsində eyni emosional yükü daşıyan qrammatik modellərlə müşayiət olunmağa başladı. Bu modellər həm modal çalarlı ifadələri, həm də nəticəyə yönəlmiş sintaktik konstruksiyaları gücləndirdi. Beləliklə ortaq kimlik ideyasının dilə qrammatik şəkildə kodlanmasını təmin etdi. Bu

proseslərin tarixi-linqvistik əsasları Zeynalov [9, s.74] tərəfindən ümumtürk sintaktik sabitliyi çərçivəsində izah olunur. Regional geopolitik dəyişikliklər fonunda iki türkcədə nitqin daha çox iradə, niyyət, vaciblik və milli mövqe bildirən modal formalar üzərində qurulması kimlik quruculuğunun qrammatik səviyyəyə daşındığını göstərir. Xüsusilə gələcək zaman formalarının həm rəsmi nitqdə, həm mediada, həm də ictimai diskursda strateji məqsəd ifadə edən vasitəyə çevrilməsi ümumtürk kimliyinin dil vasitəsilə siyasi reallığa transferini nümayiş etdirir və bu istiqamətdə Ergin [16, s.208] modal və zaman kateqoriyalarının milli ideya formalaşdıran semantik funksiyalarını önə çəkir.

Vətən müharibəsi qələbəsindən sonra iki türkcədə paralel şəkildə güclənən milli birlik konsepsiyası dilin strukturunda qrammatik motivasiya ilə müşahidə olunmağa başladı.Bu motivasiya daha çox modal, nəticə bildirən və kollektiv fəaliyyətə çağırış xarakteri daşıyan konstruksiyaların artımında ifadə olundu. Çünki bu tip modellər həm Azərbaycan türkcəsində, həm də Türkiyə türkcəsində ortaq kimlik ideyasını nitqin semantikasında konkretləşdirən əsas mexanizmlərdən biridir. Bu baxımdan Rəcəbov [7, s.65] cəmiyyətin psixoloji vəziyyətinin qrammatik seçimləri formalaşdırdığını xüsusi qeyd edir. Müharibə sonrası ictimai diskursda “gərək”, “mütləq”, “olmalıdır”, “etməliyik” kimi analitik modal vahidlərin intensivləşməsi birlik və həmrəylik ideyasının qrammatik kodlaşdırılması deməkdir və bu, Türkiyə türkcəsində “mecburuz”, “zorundayız”, “etmeliyiz” kimi ekvivalent modellərlə semantik uyğunluq təşkil edir. Bu paralellik Kazımov [6, s.144] tərəfindən agqlütinativ sistemin ortaq funksional təbiəti kimi izah olunur. Qələbədən sonra həm Azərbaycan, həm də Türkiyə rəsmi nitqində gələcəyə yönəlmiş planlaşdırıcı zaman formalarının çoxalması ortaq türk kimliyinin gələcək perspektiv yönlü diskursla qrammatik harmoniyaya daxil olduğunu göstərir. Xüsusilə Azərbaycan türkcəsində “edəcək”, “olacaq”, “görəcəyik” modellərinin Türkiyə türkcəsindəki “yapacağız”, “olacak”, “göreceğiz” formaları ilə tam üst-üstə düşməsi iki dillə bağlı kimlik təsəvvürünün sintaktik səviyyədə yaxınlaşdığını nümayiş etdirir və bu uyğunluq Banguoğlu [14, s.221] tərəfindən türk dillərində gələcək zamanın funksional sabitliyi ilə əlaqələndirilir. Hər iki türkcədə qələbə diskursu nəticəyə yönələn, ardıcıllıq bildirən və səbəb-nəticə əlaqəsini gücləndirən bağlayıcıların da intensiv istifadəsini artırdı; Azərbaycan türkcəsində “ona görə”, “beləliklə”, “nəticədə”, Türkiyə türkcəsində isə “bu nedenle”, “böylece”, “sonuç olarak” kimi modellərin artması ortaq kimlik semantikasının düşüncə strukturu ilə paralel formalaşdığını göstərir və bu baxımdan Cəfərov [3, s.118] sintaktik əlaqələndirmələrin ictimai ideyanın dil daxilində məntiqi ardıcıllığını yaratdığını vurğulayır.

Qələbədən sonra ümumtürk kimliyinin dil müstəvisində daha qabarıq görünməsi həm də iki türkcədə subyektivlik və emosional qiymətləndirmə vasitələrinin aktivləşməsi ilə bağlıdır, çünki hərbi qələbə yalnız siyasi hadisə deyil, həm də kollektiv emosiyanın dilə ötürülməsi baxımından mühüm mərhələdir. Bu, nitqdə qiymətləndirici sifətlərin, vurğulu modal çalarların və emosional tonlu sintaktik ardıcıllıqların artımında özünü göstərir, bu tip dəyişikliklər Hüseynova [5, s.203] tərəfindən

dilin semantik yükünün cəmiyyətin psixoloji vəziyyəti ilə əlaqələndirilməsi prinsipi ilə izah olunur. Azərbaycan türkcəsində müharibədən sonrakı dövrdə "möhkəm dayanmaq", "həmrəy olmaq", "birlikdə addımlamaq" kimi analitik feili birləşmələrin genişlənməsi Türkiyə türkcəsindəki "omuz omuza durmak", "birlik olmak", "aynı yolda yürümek" kimi konstruksiyalarla semantik və qrammatik paralellik yaradır.Bu tip ifadələrdəki analitiklik, hərəkət yönlü məna və birlik semantikası iki türkcənin kimlik yönlü diskursunda eyni strukturu təkrarlayır, bu oxşarlığın əsas mexanizmi Korkmaz [18, s.142] tərəfindən türkcələrin ortaq hərəkət və fəaliyyət bildirən konstruksiyalarının tarixi sabitliyi ilə əlaqələndirilir. Vətən müharibəsindən sonra xüsusilə rəsmi nitq materiallarında müşahidə edilən kollektiv subyekt bildirən cümlə modelləri "xalq olaraq qalib gəldik", "qardaş kimi birləşdik", "Türkiyə ilə çiyin-çiyinə durduq" kimi strukturlar eyni semantik nüvədə Türkiyə türkcəsində "milletçe kazandık", "kardeş gibi bütünleştik", "Azerbaycan'la yan yana durduk" cümlələri ilə paralel şəkildə işlənir və bu paralellik dilin yalnız qrammatik yox, həm də ideoloji səviyyədə ortaq kimlik daşıması deməkdir, bu məsələyə semantik-pragmatik baxış Aksan[13, s.188] tərəfindən dil vahidlərinin milli emosiyanı kodlaşdırma qabiliyyəti kimi şərh olunur.

Vətən müharibəsindən sonra həm Azərbaycan, həm də Türkiyə türkcəsində nitqin strukturunda müşahidə edilən nəzərəçarpan paralelliklər ortaq türk kimliyinin qrammatik şəkildə ifadə olunduğunu göstərir. Çünki hər iki dildə cümlə modellərinin qurulmasında kollektiv subyektin ön plana çəkilməsi milli həmrəyliyin dil üzərindəki təsirinin ən müəyyən göstəricilərindən biridir və bu vəziyyət sintaktik strukturların seçiminə bilavasitə təsir göstərir, bu seçimin əsasını isə Cəfərov [3, s.142] tərəfindən qeyd olunan kommunikativ yönümlü sintaksis prinsipləri təşkil edir. Azərbaycan türkcəsində "biz birlikdə güclüyük", "biz bir millətik", "biz qalib gəldik" kimi kollektiv identiklik bildirən cümlə nümunələri Türkiyə türkcəsində "biz bir milletiz", "biz birlikte güçlüyüz", "biz kazandık" kimi quruluşlarla tam səsləşir və bu uyğunluq yalnız leksik oxşarlıq deyil, həm də qrammatik paralelliyin sistemli təzahürüdür, belə bir paralellik Ergin [16, s.256] tərəfindən türk dillərində cəmiyyət mərkəzli ifadələrin sabit qrammatik çərçivə ilə formalaşması kimi dəyərləndirilir. Qələbə sonrası yaranan ortaq diskurs həmçinin hərəkət bildirən feli konstruksiyaların semantik yüklərinin yaxınlaşmasını şərtləndirir; Azərbaycan türkcəsində "irəliləmək", "dayanmaq", "birləşmək" kimi fellərin birlik konsepsiyası ilə işlənməsi Türkiyə türkcəsində eyni semantik çalarlı "ilerlemek", "durmak", "birleşmek" fellərində öz əksini tapır və bu, ortaq kimlik ideyasının fəaliyyət yönlü qrammatik modellərlə gücləndiyini göstərir, bu istiqamətdə Kazımov [6, s.198] fəaliyyət bildirən fellərin semantik genişlənməsini dilin sosial dinamizmi ilə əlaqələndirir. Eyni zamanda, qələbə diskursunun təsiri ilə hər iki türkcədə milli yaddaş və tarixi qürur bildirən isimlərin artmış intensivliklə işlənməsi müşahidə olunur.Azərbaycan türkcəsində "şəhid", "qəhrəman", "zəfər" kimi sözlər Türkiyə türkcəsindəki "şehit", "kahraman", "zafer" sözləri ilə yalnız fonetik yox, həm də qrammatik və semantik paralellik təşkil edir və bu uyğunluğun ümumtürk dil siste-

mindəki inteqrativ məzmunu Baskakov [10, s.112] tərəfindən türk dillərinin leksik-semantik sabitlik meyli kimi izah edilir.

Müharibədən sonra ortaq türk kimliyinin qrammatik səviyyədə ifadəsi modal konstruksiyaların yeni nəsil istifadəsi ilə də müşahidə olunur. Azərbaycan türkcəsində "etməliyik", "qorumalıyıq", "birləşməliyik", Türkiyə türkcəsində "yapmalıyız", "korumalıyız", "birleşmeliyiz" kimi müsbət yönümlü modal formaların kütləvi işlənməsi milli birlik diskursunun qrammatik şəkildə möhkəmləndiyini göstərir və bu proses Aksan [13, s.202] tərəfindən dilin emosional funksiyasının qrammatik formalar vasitəsilə reallaşması kimi izah olunur. Modal konstruksiyaların bu qədər güclənməsi yalnız normativ və ya çağırış xarakteri daşımır, həm də dilin psixoloji yükünü artırır; çünki cəmiyyətin emosional tonunu dilin qrammatik sistemi daşımağa başlayır və bu, ortaq kimliyi formalaşdıran ən vacib mexanizmlərdən birinə çevrilir.

Qələbədən sonra yarımçıq qalan düşüncə strukturlarını tamamlayan səbəb-nəticə bağlayıcılarının paralel şəkildə güclənməsi də iki türkcədə kimlik diskursunun qrammatik əsaslarını möhkəmləndirir. Azərbaycan türkcəsində "ona görə ki", "çünki", "nəticədə", Türkiyə türkcəsində "çünkü", "bu nedenle", "sonuç olarak" kimi bağlayıcıların artım dinamikası iki toplumun eyni məntiqi ardıcıllıqla danışmağa başladığını göstərir və bu sinxronluq Cəfərov [3, s.125] tərəfindən sintaktik əlaqələndirmələrin milli düşüncə strukturu ilə bağlı izah olunur. Bu səbəb-nəticə ardıcıllığı ortaq türk kimliyinin dil daxilində məntiqi modelini yaradır; yəni dil yalnız fikri ifadə etmir, həm də kimliyin daxilindəki məntiqi qurur. Qələbə sonrası dövrdə ictimai nitqin emosional tonu da iki türkcədə paralel şəkildə dəyişdi; "qürur duyuruq", "iftixar edirik", "haqqımızı bərpa etdik", "adalət bərpa olundu" kimi konstruksiyalar emosional yüklü sintaktik modellər olaraq həm semantik, həm qrammatik baxımdan eyni istiqaməti təkrarlayır və bu eyniyyət Hüseynova [5, s.241] tərəfindən dilin emosional-semantik yükünün qrammatik struktura təsiri kimi qeyd olunur. Bu cür emosional yüklü konstruksiyalar ortaq kimlik qavrayışını yalnız leksik planda deyil, həm də sintaktik ritm və strukturda formalaşdırır.

Hər iki türkcədə qələbə sonrası dövrdə müşahidə edilən xüsusilə diqqətəlayiq qrammatik paralellərdən biri də birinci şəxs cəm formalarının emosional-semantik güclənməsidir.

Azərbaycan türkcəsində "qoruyacağıq", "birliyimizi möhkəmləndirəcəyik", Türkiyə türkcəsində "koruyacağız", "birliğimizi güçlendireceğiz" kimi konstruksiyalar həm gələcək yönlü planlaşdırma, həm birlik ideyasının qrammatik şəkildə ifadəsi, həm də milli məqsəd birliyinin sintaktik kodu kimi çıxış edir. Bu tip gələcək zaman yönümlü strukturların iki türkcədə eyni intensivliklə işlənməsi türk kimliyinin gələcək yönümlü diskurs quruculuğunda qrammatikanın əsas rol oynadığını göstərir və bunu Demir [15, s.166] gələcək zamanın milli davranış strategiyasını əks etdirmə funksiyası ilə izah edir.

Bu müşahidələr göstərir ki, müharibə sonrası Azərbaycan və Türkiyə türkcələrinin qrammatik-semantik yaxınlaşması ortaq türk kimliyinin dil üzərində formalaş-

masının həm nəticəsi, həm də mühüm mexanizmidir. Xüsusilə gələcək zaman formalarının, kollektiv subyekt bildirən modellərin və modal-normativ konstruksiyaların hər iki dildə paralel şəkildə güclənməsi kimliyin yalnız ideoloji deyil, həm də qrammatik səviyyədə kodlaşdırıldığını təsdiqləyir; bu qənaət Zeynalov [9, s.205] tərəfindən türk dillərində sintaktik ardıcıllığın sabitliyi ilə əlaqələndirilir. Azərbaycan və Türkiyə türkcəsində "edəcəyik/yapacağız", "qoruyacağıq/koruyacağız" kimi gələcək yönlü birlik formalarının eyni funksional çərçivədə işlənməsi ortaq məqsəd və fəaliyyət semantikasının dilin strukturunda sabitləşdiyini göstərir.Bu uyğunluq Tekin [19, s.155] tərəfindən ümumtürk hərəkət yönümlü sintaksisinin tarixi davamı kimi təqdim olunur. Müharibədən sonra səbəb-nəticə bağlayıcılarının hər iki dildə artması "beləliklə/böylece", "nəticədə/sonuç olarak" həm düşüncə ardıcıllığında, həm emosional vurğuda paralellik yaradır və bu sinxronluq Cəfərov [3, s.190] tərəfindən sintaktik əlaqələndirmələrin milli ideya quruculuğundakı funksiyası ilə əsaslandırılır.

Beləliklə, Vətən müharibəsindən sonra formalaşan qrammatik-semantik paralellər Azərbaycan və Türkiyə türkcəsində ortaq türk kimliyinin struktur səviyyədə möhkəmlənməsinə şərait yaratmış, dilin həm sosial, həm tarixi, həm də semantik qatında yeni inteqrativ model yaratmışdır.

Ədəbiyyat siyahısı:

1.Ağayev M. Müasir Azərbaycan dili: Morfologiya. Bakı: Elm və Təhsil, 2015, 368 s.
2.Əliyev N. Azərbaycan dilçiliyinə giriş. Bakı: Şərq-Qərb, 2009, 312 s.
3.Cəfərov N. Azərbaycan dilinin sintaksisi. Bakı: Elm və Təhsil, 2013, 284 s.
4.Həsənov R. Dillərin inkişafında dil əlaqələrinin rolu. Bakı: Elm və Təhsil, 2013, 216 s.
5.Hüseynova S. Azərbaycan dilinin semantikası. Bakı: ADPU Nəşriyyatı, 2016, 292 s.
6.Kazımov Q. Azərbaycan dilində söz yaradıcılığı. Bakı: Elm, 2008, 300 s.
7.Rəcəbov Ə. Dil, cəmiyyət, şüur. Bakı: Təhsil, 2012, 260 s.
8.Rüstəmov R. Müasir Azərbaycan dilində köməkçi nitq hissələri. Bakı: BDU Nəşriyyatı, 1996, 220 s.
9.Zeynalov Q. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm, 2011, 340 s.
10.Baskakov N. A. Türk dillərinin təsnifatı. Moskva: Nauka, 1969, 340 s.
11.Clauson G. An Etymological Dictionary of Pre-Thirteenth-Century Turkish. Oxford: Oxford University Press, 1972, 680 s.
12.Johanson L. Turkic Languages. London: Routledge, 2015, 290 s.
13.Aksan D. Her Yönüyle Dil: Ana Çizgileriyle Dilbilim. Ankara: TDK, 2007, 352 s.
14.Banguoğlu T. Türkçenin Grameri. Ankara: TDK Yayınları, 2004, 544 s.
15.Demir N., Yılmaz E. Türk Dili El Kitabı. Ankara: Grafiker, 2010, 520 s.
16.Ergin M. Türk Dil Bilgisi. İstanbul: Bayrak Yayıncılık, 2013, 412 s.
17.Göksel A., Kerslake C. Turkish: A Comprehensive Grammar. London: Routledge, 2005, 600 s.
18.Korkmaz Z. Türkiye Türkçesinin Grameri. Ankara: TDK, 2007, 680 s.
19.Tekin T. Orhon Türkçesi Grameri. Ankara: TDK, 2003, 270 s.

MÜSTƏQİLLİK İLLƏRİNDƏ QAZAXISTAN – AZƏRBAYCAN STRATEJİ TƏRƏFDAŞLIĞI: SİYASİ, İQTİSADİ VƏ MƏDƏNİ ASPEKTLƏR

Əsmər Şükürlü
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin
"Türk xalqları tarixi" kafedrasının doktorantı
asmar.shukurlu@gmail.com
Elmi rəhbər:professor Əsməd Muxtarova

Açar sözlər: *Qazaxıstan, Azərbaycan, siyasi əlaqələr, iqtisadi əməkdaşlıq, mədəni-humanitar əlaqələr*
Keywords: *Kazakhstan, Azerbaijan, political relations, economic cooperation, cultural-humanitarian relations*

Qazaxıstan və Azərbaycan 1991-ci ildə müstəqilliklərini bərpa etdikdən sonra siyasi, iqtisadi və mədəni-humanitar istiqamətlərdə qarşılıqlı əməkdaşlığa əsaslanan strateji tərəfdaşlıq xətti formalaşdırmışdır. İki ölkənin coğrafi mövqeyi, enerji resursları, nəqliyyat kommunikasiya imkanları və ortaq türk kimliyi münasibətlərin inkişafında mühüm rol oynamışdır. Bu əlaqələr yalnız ikitərəfli çərçivədə deyil, bütövlükdə Türk Dünyası inteqrasiyasının inkişafında xüsusi əhəmiyyətə malikdir. Müstəqillik illərində Qazaxıstan-Azərbaycan əlaqələri sabit, qarşılıqlı və çoxtərəfli maraqlara əsaslanan nümunəvi modelə çevrilmişdir.

Bu tədqiqatın məqsədi müstəqillik dövründə Qazaxıstan və Azərbaycan arasında siyasi, iqtisadi, mədəni əlaqələri təhlil etmək, tərəfdaşlığın əsas istiqamətlərini müəyyənləşdirmək və bu əlaqələrin Türk dünyası çərçivəsində oynadığı rolu qiymətləndirməkdir.

Siyasi əlaqələr. Qazaxıstan və Azərbaycan bir-birinin müstəqilliyini 1991-ci ildə tanıdı. İki ölkə 1992-ci il avqustun 30-da diplomatik münasibətlər yaratmalarına baxmayaraq qarşılıqlı münasibətlərin intensiv inkişafı 90-cı ilin ortalarında başlamışdır. 1993-cü ildə Qazaxıstanın Azərbaycanda səfirliyi fəaliyyətə başladı. Azərbaycanın Qazaxıstan ilə siyasi əlaqələri 1991-ci ilin oktyabr ayından 1993-cü il iyun ayına qədər daha çox beynəlxalq və regional təşkilatlar çərçivəsində - çoxtərəfli əməkdaşlıq formasında həyata keçirilirdi. Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonrakı dövrdə artıq Azərbaycan Qazaxıstan ilə qarşılıqlı əlaqələrin inkişafına xüsusi səy göstərməyə başladı və 1996-cı ildə Qazaxıstanla tam həcmdə diplomatik əlaqələr yaradıldı. Azərbaycan Qazaxıstan rəhbərliyi arasında görüşlər keçirilmiş və bu görüşlərdə həmçinin Xəzərin statusuna dair dövlətlərin mövqeyi barəsində müzakirələr olmuşdur. Əsas müzakirə obyekti Qazaxıstan neftinin xarici ölkərə ixracı üçün Azərbaycandan neft kəmərlərinin çəkilməsi olmuşdur [9, s.80].

Qazaxıstan Prezidenti N.Nazarbayevin Azərbaycan Prezidenti Heydər Əliyevin dəvəti ilə 1996-cı il sentyabrın 16-da Azərbaycana ilk rəsmi səfəri baş tutdu. Səfər zamanı Heydər Əliyev və N.Nazarbayevin iştirakı ilə Qazaxıstan və Azərbaycan

nümayəndə heyətləri danışıqlar aparmışdır. Danışıqlar əsasən iki ölkənin siyasi-iqtisadi əməkdaşlığının yeni sahələri haqqında getmişdir. Azərbaycan Prezidenti Heydər Əliyev və Qazaxıstan Prezidenti N.Nazarbayev Xəzər dənizi ilə bağlı məsələlərə dair birgə bəyanat və Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında münasibətlərin əsasları haqqında müqavilə imzalamışdılar. Bundan başqa Azərbaycan Respublikasının Milli Bankı ilə Qazaxıstan Respublikasının Milli Bankı arasında haqq-hesabların təşkili haqqında, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi ilə Qazaxıstan Respublikasının Milli Təhlükəsizlik Komitəsi arasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət haqqında, hava yolları haqqında, avtomobil yolları haqqında, pensiya sahəsində, neft-qaz sahəsində, gənclər və idman sahəsində əməkdaşlıq haqqında, sərmayələrin təşviq olunması və qarşılıqlı müdafiəsi haqqında, Azərbaycan Respublikasının Hökuməti ilə Qazaxıstan Respublikasının hökuməti arasında sazişlər, Qazaxıstan və Azərbaycan Xarici İşlər Nazirlikləri arasında əməkdaşlıq haqqında protokol və digər mühüm sənədlər imzalanmışdır [1].

Azərbaycan Prezidenti Heydər Əliyev 1997-ci il iyunun 10-11-ində Qazaxıstanda rəsmi səfərdə oldu. Prezident Heydər Əliyevin Qazaxıstana səfəri iki ölkə arasında əlaqələrin yeni tarixi mərhələsinə yol açdı. Görüş zamanı iki ölkənin əməkdaşlığının daha da inkişaf etdirilməsi dərinləşdirilməsi haqqında bəyannamə, neftin beynəlxalq bazarlara daşınmasında əməkdaşlıq haqqında memorandum və dövlətlərarası münasibətləri yeni inkişaf mərhələsinə qaldırmaq məqsədilə 17 sənəd imzalandı [2].

2004-cü il martın 1-də Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri zamanı iki ölkə arasında dostluq və strateji tərəfdaşlıq haqqında bəyannamə imzalandı. Bu bəyannaməyə əsasən tərəflər arasında münasibətlər strateji xarakter daşıyır. 2005-ci il mayın 24-də Bakıda iki ölkə başçısı "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə" imzaladı. Azərbaycan Qazaxıstan arasında münasibətlərdə başqa amillərdə mövcuddur - regional təhlükəsizliyə ortaq mövqe, xüsusən qlobal sistemə baxış, beynəlxalq təşkilatlarda əməkdaşlıq, enerji və nəqliyyat sahəsində ortaq layihələr [3]. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin 2022-ci il avqustun 24-də Azərbaycana rəsmi səfəri zamanı "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" imzalandı [4].

Qazaxıstan və Azərbaycan beynəlxalq təşkilatlarda – BMT, ATƏT, İƏT və xüsusilə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində fəal iştirak edir, bir-birinin suverenliyini və ərazi bütövlüyünü dəstəkləyir. Bu əməkdaşlıq yalnız siyasi deyil, həm də Türk Dünyasının vahid strategiyası ilə çıxış etməsinin göstəricisidir [5].

Ümumilikdə, Qazaxıstan – Azərbaycan siyasi əlaqələri güclü, qarşılıqlı etimada əsaslanan və strateji xarakter daşıyan münasibətlərdir. Hər iki ölkə türkdilli inteq-

rasiyasının möhkəmlənməsinə, regional nəqliyyat layihələrinin inkişafına və Xəzər regionunda sabitliyin təmin olunmasına birgə töhfə verir.

İqtisadi əlaqələr. Qazaxıstan və Azərbaycan arasında iqtisadi əlaqələr iki ölkənin strateji tərəfdaşlığının əsas sütunlarından biridir. Xəzər regionunda enerji resursları və nəqliyyat imkanları bu əlaqələrin sürətlə inkişafına şərait yaradır. Qazaxıstan-Azərbaycan iqtisadi əməkdaşlığı əsasən enerji, nəqliyyat-logistika, ticarət və investisiya sahələrində cəmlənir.Xəzər dənizi üzərindən neft-qaz daşınması iqtisadi münasibətlərin mühüm hissəsidir. Qazaxıstan neftinin bir hissəsi Bakı-Tblisi-Ceyhan boru kəməri vasitəsilə dünya bazarlarına çıxarılır.

1990-cı illərin sonu Qazaxıstan neftinin Azərbaycan üzərindən dünya bazarına çıxarılması ilə bağlı danışıqlar aparıldı və enerji əməkdaşlığının təməli qoyuldu. 2006-cı il iyunun 16-da Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında neftin Qazaxıstan, Xəzər dənizi və Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara nəql edilməsinə dəstək verilməsi və şərait yaradılması haqqında" müqavilə imzaladılar.Müqaviləyə əsasən Qazaxıstan rəsmi şəkildə BTC-yə qoşuldu. Qazaxıstan neftinin BTC vasitəsilə Avropaya nəql edilməsi Azərbaycan üçün də mühüm rol oynayır. 2008-ci ildə Qazaxıstanın "Tengiz" yatağıda hasil etdiyi neftin bir hissəsi tankerlərlə Bakıya, Səngəçal terminalına daşınmış və BTC neft boru kəməri ilə Ceyhanda təhvil alındı.2009-cu il neftin ucuzlaşması və yükdaşıma xərclərinin artması nəticəsində Qazaxıstan neftinin BTC vasitəsilə nəqli müvəqqəti olaraq dayandırıldı. 2013-cü ildən isə Qazaxıstan yenidən BTC ilə yükdaşımaları bərpa etdi [10].

Qazaxıstan və Azərbaycan Transxəzər Beynəlxalq Nəqliyyat Marşurutu (Orta Dəhliz) çərçivəsində yükdaşımaların koordinasiyası üçün birgə mexanizmlər yaratdı. Orta Dəhliz türk dünyasının beynəlxalq məkana inteqrasiya olunmasında mühüm rol oynayır. Bu dəhliz Çin-Qazaxıstan sərhəddindən başlayaraq, Qazaxıstandan keçməklə Xəzər dənizi vasitəsilə Azərbaycan və Gürcüstanadək davam edir. Gürcüstandan isə iki istiqamətdə - Türkiyə istiqamətində Avropaya, Qara dəniz vasitəsilə Ukrayna, Rumıniya və Bolqarıstana uzanır. Orta dəhliz vasitəsilə yükdaşımalar Çindən Avropaya orta hesabla 10-12 günə çatır. Bu Dəhliz Qazaxıstan və Azərbaycan arasında iqtisadi əməkdaşlığın inkişaf etməsində xüsusi rola malikdir [14].

Son illərdə Qazaxıstan və Azərbaycan sənaye, kənd təsərrüfatı, logistika sahələrində birgə platformalar yaratmağa başlamışdır. Bu sahədə uğurlu əməkdaşlığın nəticəsidir ki, 2025-ci ilədək Azərbaycanın Qazaxıstan iqtisadiyyatına qoyduğu investisiyalar 225 milyon dolları, Qazaxıstanın isə Azərbaycana yatırımları 136 milyon dolları keçmişdir. İnfrastruktur əməkdaşlığı sahəsində Bakı və Aktau limanları arasında "vahid rəqəmsal logistika platforması"nın qurulması və "vahid gömrük pəncərəsi" sisteminə keçid planlaşdırılır. Bu təşəbbüslər Azərbaycanı Cənubi Qafqazda, Qazaxıstanı isə Orta Asiyada logistika mərkəzinə çevirməyi hədəfləyir [7].

Qazaxıstan – Azərbaycan iqtisadi əlaqələri sabit və dinamik inkişaf edən tərəfdaşlıqdır. Enerji və nəqliyyat sahələri əməkdaşlığın əsasını təşkil etsədə, iki ölkə iqtisadiyyatın müxtəlif sahələrində də qarşılıqlı investisiya və ticarəti genişləndirirlər.

Mədəni əlaqələr. Qazaxıstan və Azərbaycan arasında mədəni əlaqələr qədim tarixi bağlara və ortaq türk kimliyinə əsaslanır. İki ölkə mütəmadi olaraq mədəniyyət günləri, konsertlər, sərgilər və festivallar təşkil edərək incəsənət sahəsində əməkdaşlığı gücləndirir. Azərbaycan-qazax mədəni əlaqələrinin inkişafında ədəbi əlaqələrin inkişafında çox böyük rolu olmuşdur. Abay Kunanbayev (1845-1904) qazax realist ədəbiyyatının görməkli nümayəndəsidir. Öz yaradıcılığında Şərq ölkələrinin mədəniyyəti, ədəbiyyat və tarixin öyrənilməsinə üstünlük verərək Firdovsi, Nizami, Sədi, Nəvai və Fizuli kimi ədiblərin əsərlərini mütaliə etmişdir [8,141]. Yazıçı və şairlər arasındakı ədəbi əlaqə və mübadilələr hər iki türk millətini bir-birinə birləşdirən əsas əmillərdən idi. 1990-ci illərin əvvəllərində qazax xalqının görkəmli şairi, mütəfəkkiri Abay Kunanbayevin anadan olmasının 150 illiyinin, xalq akını Cambulun anadan olmasının 150 illiyinin Azərbaycanda qeyd edilməsi türk xalqlarının birliyinin gücləndirilməsi baxımından çox əhəmiyyətli oldu. Mədəni əməkdaşlıq sahəsində Qazaxıstan-Azərbaycan arasında hökumətlərarası ikitərəfli əlaqələrin yaradılması da mühüm rol oynadı [11].

2011-ci ildə Abay Kunanbayevin şərəfinə xatirə lövhəsinin açılışı oldu. 2011-ci ilin may ayında Bakı Dövlət Universitetində Abay Kunanbayevin adına Qazax Mərkəzi fəaliyyətə başladı. Azərbaycan və qazax xalqları arasındakı mədəni əlaqələri daha da inkişaf etdirmək məqsədilə yaradılan Mərkəzin məqsədi Azərbaycan və Qazaxıstan arasında mədəni və sosial əməkdaşlığın inkişafına yardım göstərmək, Qazaxıstanın mədəniyyəti, tarixi ilə tanış olmaq istəyənləri lazımı materialla təmin etməkdir. Mərkəzin əsas fəaliyyət sahəsinə madəni və sosial tədbirlərin keçirilməsi daxildir. Mərkəzin vacib vəzifələrindən biri də iki ölkənin mədəniyyəti və ənənələri haqqında ətraflı məlumatların daha geniş miqyasda yayılması üçün müxtəlif mövzulu tədbirlər keçirtməkdir. Bu sıraya incəsənət xadimləri, yazıçı, şair və tanınmış xadimlərlə görüşlər daxildir [13].

2020-ci il Türk dünyasında Abay Kunanbayev ili elan edildi. Müasir qazax yazılı ədəbiyyatının banisi, filosof, böyük ictimai xadim və maarifçi Abay Kunanbayevin 175 illik yubileyi Azəybaycanda da qeyd edildi. Abay Kunanbayev ilinin ilk tədbiri Bakı Dövlət Universitetində baş tutdu. Qazaxıstanın Azərbaycandakı Səfirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə qonaqlar BDU nəzdində fəaliyyət göstərən Abay Kunanbayev adına Qazax dili, tarixi və mədəniyyəti mərkəzini ziyarət etdilər. BDU-nun rektoru Elçin Babayev Abay Kunanbayevin qazax və Türk dünyası ədəbiyyatındakı rolunu qeyd etdi. BDU-da "Abay" kitabının təqdimat mərasimi, Qazax xanlığının yaranmasının 500 illiyi və Abay Kunanbayevin 175 illik yubileyi münasibətilə beynəlxalq konfrans keçirildiyini vurğuladı [6].

Əlamətdar hadisələrdən biri də Qazaxıstanın Qarabağdakı kitabxanalara kitab hədiyyə etməsi oldu. Qazaxıstan Füzulidə Azərbaycan üçün Uşaq İncəsənət Mərkəzi tikilmişdir. Bakıda və Sumqayıtda Qazaxıstanın görkəmli mədəniyyət və elm

xadimlərinin adına küçələr salınmış, Abay Kunanbayevin, və Qazaxıstanın digər görkəmli xadimlərinin yubileyləri ilə bağlı anım tədbirləri təşkil olunmuşdur [12].

Nəticə: Qazaxıstan və Azərbaycan arasındakı münasibətlər qarşılıqlı etimada, ortaq tarixi-mədəni köklərə və strateji əməkdaşlığa əsaslanır. Siyasi sahədə tərəflər beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləyir və regionda sabitliyin qorunmasına töhfə verirlər. İqtisadi əlaqələr enerji, nəqliyyat və ticarət sahələrində genişlənir. Mədəni əməkdaşlıq isə ortaq türk irsinə söykənərək xalqlar arasında dostluq və qarşılıqlı anlaşmanı daha da möhkəmləndirir. Bütün bu istiqamətlər Qazaxıstan-Azərbaycan münasibətlərinin davamlı, dinamik və gələcək üçün böyük potensiala malik olduğunu göstərir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan – Qazaxıstan: Ölkələrimiz qonşu, xalqlarımız qardaşdır // Azərbaycan. – 1996. – 17 sentyabr s. 1-4

2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Qazaxıstana rəsmi səfəri // Respublika. – 1997. – 13 iyun. s. 1-2

3.Azərbaycan – Qazaxıstan münasibətləri yeni mərhələyə yüksəlir. https://apa.az/xarici-siyaset/azerbaycan-qazaxistan-munasibetleri-yeni-merheleye-yukselir-758301[Müraciət tarixi: 18.11.2025]

4.Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana səfəri. https://ataturk.az/2022/08/24/qazaxistan-prezidenti-kasim-jomart-tokayevin-az%C9%99rbaycana-s%C9%99f%C9%99ri/ [Müraciət tarixi: 18.11.2025]

5. Azərbaycan-Qazaxıstan münasibətləri: dostluq, etimad və strateji əməkdaşlıq nümunəsi. https://modern.az/az/aktual/540306/azerbaycanqazaxistan-munasibetleri-dostluq-etimad-ve-strateji-emekdasliq-numunesi/ [Müraciət tarixi: 20.11.2025]

6. Abay Kunanbayevin 175 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. http://bsu.edu.az/az/news/abay_kunanbayevin_175_illik_yubileyin_hsr_olunmu_tdbir_keirilib [Müraciət tarixi: 20.11.2025]

7. M.Yaqubzadə. Azərbaycan – Qazaxıstan investisiya əməkdaşlığı genişlənir. https://xalqqazeti.az/az/iqtisadiyyat/243558-azerbaycan-qazaxistan-investisiya-emekdasligi-genislenir [Müraciət tarixi :21.11.2025]

8. Mehdiyeva.N.C. Türk xalqlarının tarixi.Yeni dövr (XIX – XX əsrin əvvəlləri), Bakı, 2010, 352 s.

9. S.F.Ruintən Azərbaycan Türk Dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı, 2005, 212 s.

10. Əsmər Şükürlü. Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan boru kəmərinə qoşulmasının əhəmiyyəti. Tarix və onun problemləri. 2024 №4, s. 164-167

11. V.Ömərov. Azərbaycan – Qazaxıstan mədəni əlaqələri. https://sesqazeti.az/news/mia/382505.html [Müraciət tarixi: 21.11.2025]

12. "Kazinform": Qazaxıstan – Azərbaycan əlaqələri iqtisadi praqmatizm və mənəvi yaxınlığa əsaslanır. https://azertag.az/xeber/kazinform_qazaxistan_azerbaycan_elaqeleri_iqtisadi_praqmatizm_ve_menevi_yaxinliga_esaslanir-3812807 [Müraciət tarixi :24.11.2025]

13.BDU-da Azay Kunanbayev adına mərkəz fəalliyyətə başlamışdır. https://azertag.az/xeber/bdu_da_abay_kunanbayev_adina_merkez_fealiyyete_baslamisdir-522673 [Müraciət tarixi:24.11.2025]

14. Kamal, R. (n.d.). Orta Dəhliz əsas dəhlizə çevrilir. https://www.azerbaijan-news.az/az/posts/detail/orta-dehlizesas-dehlize-cevrilir-1729636064/341762 [Müraciət tarixi:24.11.2025]

XXI ƏSRİN İLK RÜBÜNDƏ AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN ARASINDA İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR

Zəhra Cəfərli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin
"Türk xalqları tarixi" kafedrasının doktorantı
zehradjafarli@gmail.com
Elmi rəhbər: professor Əsməd Muxtarova

Açar sözlər: *Şərq-Qərb dəhlizi, Özbəkistan-Azərbaycan Regionlararası forum, Zəngəzur dəhlizi, Azərbaycan-Özbəkistan münasibətləri*
Keywords: *East-West corridor, Usbekistan-Azerbaijan Interregional Forum, Zangezur Corridor, Azerbaijan-Uzbekistan relations*

Müasir beynəlxalq əlaqələr sistemində Türk dünyasının artmaqda olan əhəmiyyəti bu ölkələr arasında ikitərəfli və çoxtərəfli münasibətlərə diqqət çəkir. Türk dünyasında mərkəzi yer tutan Azərbaycan xarici siyasətində Türk dövlətləri ilə, o cümlədən Özbəkistanla əlaqələrə böyük əhəmiyyət verir. Bu əlaqələr ortaq maraqlarla yanaşı bir kökdən gələn tarixi, mədəni və etnik dəyərlərə əsaslanır. Bu gün Özbəkistan Respublikası Azərbaycan üçün strateji tərəfdaş və müttəfiq rolunda çıxış edir. Öz növbəsində, Azərbaycanın coğrafi mövqeyi Şərq-Qərb dəhlizi çərçivəsində Özbəkistan üçün mühüm əhəmiyyət kəsb edir. Hər iki ölkə arasında siyasi, sosial-iqtisadi, energetika, turizm, nəqliyyat və mədəniyyət sahələrində əlaqələr inkişaf etməkdədir.

Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında diplomatik əlaqələr 1995-ci ildə qurulmuşdur. 1996-cı ildə Azərbaycanın Özbəkistanda, 1998-ci ildə isə Özbəkistanın ölkəmizdə səfirlikləri fəaliyyətə başlamışdır. XXI əsrdə bu əlaqələr prezidentlərin davamlı səfərləri və imzalanan müqavilə və protokollar vasitəsilə yüksək səviyyədə reallaşdırılır.

XXI əsrdə diplomatik münasibətlər. Son illərdə Azərbaycan və Özbəkistan münasibətləri özünün ən yüksək inkişaf mərhələsinə qədəm qoyub. Mərkəzi Asiyanın ən böyük dövlətlərindən olan və sürətlə inkişaf edən Özbəkistan və Azərbaycan arasında münasibətlərin genişlənməsində prezident İlham Əliyevin 2022-ci ildə Özbəkistana etdiyi 3 səfər çox böyük rol oynamışdır. 21-22 iyun tarixlərini əhatə edən səfər zamanı mühüm sahələri əhatə edən 20-ə yaxın sənəd imzalanmışdır. Bu sənədlər arasında global karakter daşıyan "Strateji tərəfdaşlığın dərinləşməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi barədə Bəyannamə" ikitərəfli münasibətlərdə yeni yol xəritəsi hesab oluna bilər [7].

Bu münasibətlərə müsbət təsir göstərən hadisələrdən biri 2024-cü ilin aprelində Gəncədə Özbəkistanın Fəxri konsulluğunun açılması olmuşdur. Bu fəaliyyətin Gəncə ilə Özbəkistanın şəhərləri arasında iqtisadi və mədəni əlaqələrinqurulmasında faydalı olacağı gözlənilir. 2024-cü ilin avqustun 22-də Azərbaycan respublikası prezidentinin Özbəkistana səfəri ikitərəfli əlaqələrin möhkəmlənməsində növbəti addım olmuşdur. Ali Dövlətlərarası Şuranın iclasından sonra dövlət başçılarının iş-

tirakı ilə ikitərəfli sənədlər imzalanmışdır. Sənədlərdə əsasən, 2025-2026-cı illər üçün Xarici İşlər Nazirlikləri arasında əməkdaşlıq proqramı, 2024-2026-cı illər üçün mədəni və humanitar əməkdaşlıq üzrə yol xəritəsi, həmçinin turizm sahəsində fəaliyyət planı və təhsil sahəsində əməkdaşlıq haqda protokollar öz əksini tapmışdır. Səfər çərçivəsində həmçinin Bakı, Şəhrisəbz və Beyləqan, Cizak və Quba şəhərləri arasında əməkdaşlıq sazişləri imzalanıb [10].

2025-ci il noyabrın 16-da Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə prezident İlham Əliyev Azərbaycanı təmsil etmiş və Azərbaycanın Məşvərət Platformasının tamhüquqlu üzvü seçilməsi ilə bağlı sənəd imzalamışdır [12].

Azərbaycan və Özbəkistan arasında iqtisadi əlaqələr. 2001-ci il aprelin 18-də Azərbaycan Respublikası prezidentinin sərəncamı ilə Azərbaycan və Özbəkistan hökumətləri arasında "2001-2010 illər üzrə iqtisadi əməkdaşlıq sazişi" təsdiq edilmişdir. Bu saziş ilə hər iki dövlət iqtisadi və elmi-texniki potensialdan səmərəli istifadə edərək xalqların maddi rifahını yüksəltmək məqsədilə uzunmüddətli iqtisadi əlaqələrin inkişafını dəstəkləyir. Sazişdə həmçinin neft-kimya, aviasiya, avtomobil, tikinti və digər sahələr üzrə əməkdaşlığın inkişafı da öz əksini tapır [8]. 2017-ci ildə Şavkat Mirziyoyev Özbəkistan prezidenti seçildikdən sonra Özbəkistan-Azərbaycan münasibətlərində yeni təkan yaranmışdır. Özbəkistanla Azərbaycan arasında imzalanmış sənədlərin sayının 175-i ötməsi bir çok sahədə əməkdaşlığın qurulmasından xəbər verir. Bu əməkdaşlığın səmərəli nəticələri iqtisadi göstəricilərin artımında özünü göstərir. 2022-ci ildə Özbəkistan və Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi əvvəlki illə müqayisədə 53%, 2023-cü ilin yanvar-sentyabr aylarında isə 36,4% artmışdır. 2025-ci ilin yanvar-may aylarında ticarət dövriyyəsinin ümumi həcmi 214,8 milyon dolları keçib, bu da ötən illə müqayisədə 3,1 dəfə çoxdur. Bu sahədə 2023-cü ilin fevralında Daşkənddə keçirilən Özbəkistan-Azərbaycan Regionlararası Forumu mühür əhəmiyyət kəsb etmişdir. Özbəkistan və Azərbaycanın iri şirkətlərinin 100-dən çox nümayəndəsinin iştirak etdiyi Forum çərçivəsində Birgə İnvestisiya Fondunun yaradılması haqqında saziş imzalanmışdır [11]. Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyətinin 2024-cü ildə Özbəkistana işgüzar səfərində iqtisadi əməkdaşlığın gələcək imkanları haqqında müzakirələr edilmiş, hökumətlərarası komissiyanın 13-cü iclası keçirilmişdir. Sənayeyə birgə investisiya qoyuluşu xüsusi vurğulanmışdır. 2024-cü ilin iyununda yaradılmış Hacıqabul Sənaye parkında birgə layihə çərçivəsində avtomobil istehsal edilir. 2024-cü il iyuluna qədər əməkdaşlıq çərçivəsində 5300-dən çox Chevrolet avtomobili istehsal edilib. İkitərəfli əlaqələrdə digər perspektivli sahə olan enerji sektoru müakirə edilmişdir. Belə ki, SOCAR və Uzbekneftegaz ASC neft-qaz sektorunda birgə layihələrin həyata keçirilməsində əməkdaşlıq edir [4].

Nəqliyyat və logistika sahəsində əməkdaşlıq. Özbəkistan və Azərbaycan nəqliyyat və logistika sahəsində ortaq mövqelərə malikdirlər. Hər iki ölkə bu məsələdə əməkdaşlığı iqtisadiyyatın inkişasfında mühüm amil kimi qiymətləndirirlər. 2022-ci ildə prezident İlham Əliyevin Özbəkistana səfəri həm əməkdaşlıq üçün yeni imkanlar, həm də təbii qaz istehsalına görə dünyada 14.yeri tutan Özbəkistan qazının Azərbay-

can vasitəsilə TANAP və TAP boru xətləri ilə Avropaya ötürülməsi üçün şərait yaratmışdır. 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi zəfər nəticəsində Zəngəzur dəhlizinin açılması Türk dünyasındakı coğrafi parçalanmanı aradan qaldırmışdır [9]. Zəngəzur dəhlizinin inşa layihəsi Qırğızıstan Respublikasının prezidenti Sadır Japarov tərəfindən Asiya və Avropa bazarlarına açılan ən qısa yol olan Çin-Qırğızıstan-Özbəkistan dəmir yolunun strateji davamı kimi qiymətləndirilmişdir.

2024-cü ilin avqustunda Özbəkistan Prezidenti yanında Strateji və Regionlararası Araşdırmalar İnstitutunun şöbə müdiri Bəhrom Sotibeldiyev bildirib ki, Özbəkistan aktiv şəkildə Azərbaycanın infrastrukturundan istifadə etməklə daşınmaları həyata keçirir. Bu istiqamətdə Bakı-Tbilisi-Qars dəmir yolunun imkanlarından istifadə olunur. Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı vasitəsilə yük daşımalarının genişləndirilməsi nəzərdə tutulur. Özbəkistan Bakı limanının ərazisində anbar infrastrukturu yaratmaq və terminal tikmək niyyətindədir [5].

Mədəni-humanitar əlaqələr. Mədəni-humanitar əlaqələrin inkişafında Özbəkistanda 1997-ci ildən bəri keçirilən və Mərkəzi Asiyanın ən böyük festivallarından olan Şərq Təranələri Musiqi Festivalında Azərbaycanın uğurlu iştirakı xüsusi rol oynayır. 2001-ci ildə Azərbaycan Respublikası prezidenti tərəfindən təsdiq edilən "2001-2006 illərdə elm, mədəniyyət və incəsənət sahələrində əməkdaşlıq proqramı" ilə hər iki tərəf təşkil edəcəkləri sərgilərdə incəsənət əsərləri ilə iştirak etmək, mədəniyyət xadimlərinin və ixtisas artırmaq üçün müəllimlərin mübadiləsini həyata keçirmək, birgə seminarlar və konfranslar təşkil etməklə bağlı razılıq əldə etmişdir [8].

Hələ 1945-ci ildən dahi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyan Daşkənd Dövlət Pedaqoji Universitetinin əsas binasının qarşısında 2004-cü ildə bu şairin heykəlinin ucaldılması Azərbaycan-Özbəkistan münasibətlərində mədəni-tarixi yaddaşa böyük əhəmiyyət verildiyini göstərir. 2008-ci ildə böyük özbək mütəfəkkiri Əlişir Nəvainin abidəsinin Bakıda ucaldılması ölkəmiz tərəfindən özbək ədəbiyyatına göstərilən dəyər və hörmətin təcəssümüdür. Özbəkistanın Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Şerzod Farziyev 2012-ci ildə verdiyi müsahibədə qeyd etdiyi kimi özbək və azərbaycanlı gənclərin əməkdaşlığı nəticəsində bir box mədəni tıdbirlər- konsert proqramları, gənc rəssamların sərgiləri keçirilmişdir. 2010-cu ildə Bakıda Özbəkistan gənclərinin mədəniyyət günləri, 2011-ci ildə isə Özbəkistanda Azərbaycan mədəniyyət günləri keçirilmişdir [2].

Günümüzdə Azərbaycan və Özbəkistan həmkarlar ittifaqları arasında genişlənən əlaqələr mədəniyyətin bütün sahələrində özünü göstərir. 2025-ci ilin avqustunda Daşkənddə keçirilən Dostlik bədii yaradıcılıq festivalında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndələri də iştirak etmiş, ölkəmizin incəsənət xadimləri Azərbaycanın zəngin mədəni irsini uğurlu şəkildə təqdim etmişlər [3].

İşğaldan azad edilmiş ərazilərdə Böyük Qayıdışın sürətlə təmin olunması məqsədilə həyata keçirilən quruculuq, abadlıq işlərinin bir çox sahələrində olduğu kimi mədəni sahədə də Özbəkistanla əməkdaşlıq edilir. Qarabağ və Şərqi Zəngəzurun bərpasında Özbəkistanın fəal iştirakı, Füzulidə 960 şagird yerlik Mirzə Uluqbəy adına məktəbin fəaliyyətə başlaması qardaşlıq rəmzi kimi qiymətləndirilir [1].

Nəticə. Müstəqilliyin əldə olunmasından sonra ölkəmizin xarici siyasətdə atdığı mühüm addımlardan biri Türk dünyası ilə inteqrasiya prosesində qurulan əlaqələrdir. Bu baxımdan Özbəkistan Respublikası ilə XX əsrdən etibarən yaradılan diplomatik münasibətlər istər iqtisadiyyatın bərpası və inkişafı, siyasi əlaqələrin möhkəmlənməsi, istərsə də mədəni ortaqlığın qurulması istiqamətində yüksələn xətt üzrə inkişaf edərək XXI əsrdə intensiv ikitərəfli əlaqələrin yaradılması üçün baza rolu oynamışdır. Hər iki ölkənin ortaq maraqları və dərin tarixi qardaşlıq bağları üzərinə qurulmuş bu münasibətlər çərçivəsində imzalanan sənədlər, aparılan müzakirələr əməkdaşlığın gələcəyi üçün yeni perspektivlər açacaqdır.

Ədəbiyyat siyahısı:

1. *Azərbaycan-Özbəkistan birgə müəssisəsi: Xankəndidə tikiş fabriki https://sesqazeti.az/news/politics/1205604.html [23.11.25]*
2. *Azərbaycan-Özbəkistan əlaqələri aydın müəyyən olunmuş strateji prioritetlərə və istiqamətlərə malikdir https://525.az/news/322-azerbaycanla-ozbekistan-elaqeleri-aydin-mueyyen-olunmus-strateji-prioritetlere-ve-istiqametlere-malikdir [23.11.25]*
3. *Azərbaycan və Özbəkistan həmkarlar ittifaqları arasında əlaqələr genişlənir https://www.facebook.com/aesma.edu.az/videos/az%C9%99rbaycan-v%C9%99-özb%C9%99kistan-h%C9%99mkarlar-ittifaqları-arasında-%C9%99laq%C9%99l%C9%99r-genişl%C9%99ndirilir/1854812465096903/ [23.11.25]*
4. *Azərbaycan-Özbəkistan iqtisadi münasibətlərinin inkişafı üçün böyük potensial var https://www.economy.gov.az/az/post/2118/azerbaycan-ozbekistan-iqtisadi-munasibetlerinin-inkisafi-ucun-boyuk-potensial-var [23.11.25]*
5. *Bəhram Sotiboldiyev: Özbəkistan Bakı limanının ərazisində terminal tikmək niyyətindədir https://azerbaijan-news.az/az/posts/detail/behrom-sotiboldiyev-ozbekistan-baki-limaninin-erazisinde-terminal-tikmek-niyyetindedir-1724934525 [23.11.25]*
6. *Özbəkistan-Azərbaycan mədəni-humanitar sahədə əlaqələr https://www.academia.edu/32237713/Özb%25C9%2599kistan_Az%25C9%2599rbaycan_m%25C9%2599d%25C9%2599ni_humanitar_sah%25C9%2599d%25C9%2599_%25C9%2599laq%25C9%2599l%25C9%2599ri [23.11.25]*
7. *Strateji tərəfdaşlığın yeni yüksəliş mərhələsi başlayır. https://www.anl.az/down/meqale/azerbaycan/2022/iyun/803568(meqale).pdf [23.11.25]*
8. *2001-ci il aprelin 18-də Daşkənd şəhərində Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın dördüncü iclası zamanı imzalanmış sənədlər haqqında https://e-qanun.az/framework/4403 [23.11.25]*
9. *Azerbaycan-Özbekistan ilişkilerinde yeni dönem.https://www.setav.org/azerbaycan-ozbekistan-iliskilerinde-yeni-donem [23.11.25]*
10. *Bilateral relations between Uzbekistan and Azerbaijan rise to the level of alliance https://uzbekistan.org/bilateral-relations-between-uzbekistan-and-azerbaijan-rise-to-the-level-of-alliance/4939/ [23.11.25]*
11. *"O'zbekiston- 2030 strategiyasi yosh olimlar nigohida: iqtisodiyot, siyosat va huquq" https://api.uwed.uz/uploads/academic_publications/MpsYzAYhS02NSyPwpWRSNyPZAoE71sb6nSIzMd8A.pdf [23.11.25]*
12. *Завершился визит Президента Ильхама Алиева в Узбекистан. https://president.az/ru/articles/view /70594 [23.11.25]*

ŞAH I TƏHMASİBİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ SƏFƏVİ-BÖYÜK MOĞOL ƏLAQƏLƏRİ

Fərhad Rüstəmzadə
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun doktorantı
ferhadrustemzade@gmail.com
Elmi rəhbər:t.ü.f.d., dosent Əhməd Quliyev

Açar sözlər: *Şah Təhmasib, Məhəmməd Hümayun, Səfəvilər*
Keywords: *Shah Tahmasp, Humayun, Safavid Empire*

XVI əsrin ortalarında Məhəmməd Hümayunun siyasi məğlubiyyətlərdən sonra Səfəvi hüdudlarına sığınması iki dövlət arasında münasibətlərdə yeni mərhələnin başlanğıcı oldu. Şah Təhmasib Hümayunu böyük ehtiramla qarşıladı və onun hakimiyyətini bərpa etmək üçün geniş hərbi və siyasi dəstək göstərdi. Hümayunun şiəliyi qəbul etməsi, Qəndəharın ələ keçirilməsi və Səfəvi–Kürəkani ittifaqının güclənməsi bu münasibətlərin əsas nəticələri idi. Bununla belə, qızılbaş əmirlərinin ehtiyatlı mövqeyi, Qəndəharın təhvil verilməsi ilə bağlı ziddiyyətlər və Hümayunun müvəqqəti tərəddüdləri əlaqələrdə müəyyən həssaslıqlar yaratdı. Nəticədə, Səfəvi dövlətinin köməyi ilə Hümayun Hindistanda taxtını geri qaytardı və iki dövlət arasında diplomatik əlaqələr uzun müddət davam etdi.

Əsas hissə. Şah Təhmasibin hakimiyyəti illəri Səfəvi dövlətinin şərq siyasətinin ən dinamik və çoxşaxəli mərhələlərindən biri olmuşdur. Bu dövrdə Səfəvi dövlətinin Böyük Moğol imperiyası ilə münasibətləri həm geosiyasi reallıqlarla, həm də bölgədə gedən geniş miqyaslı hakimiyyət mübarizələri ilə sıx bağlı idi. Xüsusilə Əfqanıstan–Hindistan istiqaməti iki səltənət üçün strateji zonaya çevrilmiş və Qəndəhar məsələsi bu münasibətlərin mahiyyətini müəyyən edən əsas faktor olmuşdur. Bu prosesdə Osmanlı imperiyasının həm Səfəvi, həm də Moğol tərəflərinə təsir göstərmək cəhdləri də əlaqələrin formalaşmasına əlavə rəng qatmışdır [3, 135]

1530-cu illərin ortalarında Baburi dövlətində hökmdar Məhəmməd Hümayunun zəif hakimiyyəti, qardaşlar arasında parçalanma, Kamran Mirzənin özbaşına fəaliyyətləri Səfəvi–Moğol münasibətlərini gərginləşdirən ilk amillərdən oldu. Xüsusilə Kamran Mirzənin Qəndəhar və Lahoru ələ keçirərək müstəqil siyasət yürütməsi Səfəvi dövləti üçün artıq təhlükə siqnalına çevrilmişdi. Çünki Qəndəharın Moğol nəzarətinə keçməsi təkcə sərhəd təhlükəsizliyinin pozulması deyil, həm də Səfəvi dövlətinin Xorasandan Hindistana uzanan tarixi ticarət və diplomatik yollarının kəsilməsi demək idi [1, 456; 2, 23].

Bu dövrdə Sam Mirzə və Ağzıvar xanın icazəsiz Qəndəhar yürüşü, ardınca məğlubiyyətləri, vəziyyəti daha da kritikləşdirdi. Səfəvi dövlətində mərkəzi hakimiyyətə qarşı itaətsizlik nümunəsi olan bu addım Təhmasibi narazı salmaqla yanaşı, bölgədə Moğol nəzarətinin artmasına şərait yaratdı. Nəticədə Təhmasib hərbi qüvvə ilə Qəndəharı yenidən nəzarətə aldı, lakin bu hadisə Səfəvi–Kürəkani münasibətlərində uzun müddət davam edən gərginlik dövrünün başlanğıcı oldu.

1539–1540-cı illərdə Hümayunun Şirxan Suri qarşısında ardıcıl məğlubiyyətləri onun Hindistanı tərk etməsi ilə nəticələndi. Qanq çayı sahilində baş verən faciəvi döyüş Hümayunun imperiyasını faktiki itirməsinin simvoluna çevrildi. Öz qardaşlarına belə etibar edə bilməyən Hümayun üçün tək çıxış yolu Səfəvi dövlətinə üz tutmaq idi.

Hümayunun Qəzvində Şah Təhmasib tərəfindən qarşılanması region diplomatiyasında mühüm dönüş nöqtəsi oldu. Mənbələrdə Səfəvi sarayında ona göstərilən qonaqpərvərliyin misilsiz olduğu bildirilir. Təhmasib bu qonaqlığı həm öz dövlətinin əzəmətini göstərmək, həm də gələcək danışıqlarda üstün mövqedə olmaq üçün istifadə edirdi.

Hümayunla Təhmasib arasında münasibətlərin ən həssas məqamlarından biri məhz məzhəb məsələsi idi. Səfəvi dövləti özünün legitimlik sütunlarını şiəlik üzərində qurduğu üçün Təhmasib üçün Hümayunun məzhəb dəyişikliyi həm ideoloji uğur, həm də bölgədə öz nüfuzunu gücləndirən siyasi alət idi.

Təhmasiblə Hümayun arasında əldə edilən əsas razılaşma dörd maddədən ibarət idi:

1. Hümayun şiəliyi qəbul edir;
2. Hindistan taxtı yenidən bərpa edildikdən sonra Səfəvi imamlarının adı ilə xütbə oxunur;
3. Qəndəhar alındıqdan sonra Səfəvilərə təhvil verilir;
4. Qəndəhar xəzinəsi tam şəkildə Səfəvi sarayına göndərilir.

Bu şərtlər Səfəvi dövlətinin şərq siyasətini gücləndirir, Hümayuna isə öz taxtını geri almaq üçün ciddi hərbi-siyasi dayaq təmin edirdi.

Bundan sonra Təhmasib Hümayunun yardımına 12 minlik qızılbaş qoşunu göndərdi. Bu hadisə Səfəvi hərbi-siyasi nüfuzunun Hindistan sərhədlərinə qədər yayılmasının ən bariz nümunələrindən biridir [1, 460; 2,235].

1545-ci ildə keçirilən Qəndəhar mühasirəsi nəticəsində şəhər ələ keçirildi. Lakin prosesin sonrakı mərhələsi Səfəvi–Moğol münasibətlərinin ən kritik nöqtəsinə çevrildi:

- Qızılbaş əmirləri Təhmasibin əmrlərinə zidd olaraq Qəndəharı tərk edib geri döndülər;
- Təhmasibin oğlu Sultan Murad Mirzənin ölümü bölgədəki qüvvə balansını dəyişdi;
- Hümayun razılaşmaya xilaf çıxaraq Qəndəharı öz nəzarətinə götürdü;
- Budaq xan Qacar şəhərdən çıxarıldı;
- Hümayun Bayram xanı hakim təyin edib məsələni formal şəkildə Təhmasibin könlünə xoş salmağa çalışdı.

Bu hadisə Təhmasibin ciddi narazılığına səbəb olsa da, şah böyük müharibədən yayınaraq münasibətləri kəsmədi.

1545–1555-ci illərdə qarşılıqlı elçilik mübadiləsi, dostluq məktubları, hədiyyələr və sənətkar dəstələri iki dövlət arasında münasibətlərin yenidən sabitləşdiyini göstərir. Təhmasibin Kamran Mirzəyə qarşı Hümayuna dolayısı dəstək verməsi də bu xəttin davamı idi.

Bu dövrdə Səfəvilər üçün Moğol dövləti Osmanlı–Səfəvi rəqabətində strateji balans yaradan tərəf rolunu oynayırdı.

1556-cı ildə Hümayunun ölümü, Əkbər Şahın taxta çıxması ilə Səfəvi–Moğol münasibətləri yenidən dəyişdi. Əkbər Şah atasının Səfəvilərə verdiyi vədləri yerinə yetirmədi və Qəndəhar məsələsi növbəti dəfə qarşıdurma mənbəyinə çevrildi.

1557-ci ildə Təhmasibin göndərdiyi hərbi yürüş nəticəsində Qəndəhar yenidən Səfəvi nəzarətinə keçdi və Təhmasibin ölümünə qədər Səfəvi səltənətinin tərkibində saxlanıldı.

Nəticə: Hümayun Şahın Səfəvi sarayına sığınması Şah Təhmasibin xarici siyasətində mühüm dönüş nöqtəsi oldu. Səfəvi hökmdarı Hümayuna hərbi-siyasi dəstək verərək onun Hindistanda hakimiyyətini bərpa etməsinə şərait yaratdı və bununla da bölgədə nüfuzunu gücləndirdi. Hümayunun şiəliyi qəbul etməsi və Qəndəharın Səfəvilərə təhvil verilməsi iki dövlət arasında münasibətləri daha da yaxınlaşdırdı. Bununla belə, Qəndəhar məsələsi sonrakı illərdə müəyyən gərginliklər yaratsa da, ümumilikdə tərəflər arasında diplomatik əlaqələr davam etdi. Hadisələrin yekunu göstərdi ki, Şah Təhmasib bu prosesdən həm siyasi, həm dini, həm də strateji baxımdan ciddi üstünlüklər əldə etmişdir.

Ədəbiyyat siyahısı:

1. *Həsən Bəy Rumlu. Əhsənüt-Təvarix (tarixlərin ən yaxşısı), tər. Oqtay Əfəndiyev, Namiq Musalı, 2007, Kastamonu s.661*
2. *Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2007, 344 s.*
3. *Roger Savory – Iran under the Safavids - Cambridge University Press, 1980, p.286*
4. *İsgəndər bəy Münşi. Tarix-i-aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi). I cild. Bakı, 2009, "Təhsil", 792 s.*

MOİSEY KALANKATUKLUNUN KİMLİYİ VƏ ERMƏNI TARİXŞÜNASLIĞINDA TƏHRİFİ PROBLEMİ

Samirə Hadıyeva
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
"Atropatena - Albaniya (Qafqaz) tarixi" şöbəsinin kiçik elmi işçisi
samira1997hadiyeva@gmail.com
Elmi rəhbər: dosent Ellada Bəkirova

Açar sözlər: *Qafqaz Albaniyası, Moisey Kalankatuklu, tarixşünaslıq, erməni, təhrif*
***Keywords*:** *Caucasian Albania, Movses Kalankatuatsi, historiography,* Armenian, distortion

Azərbaycanın erkən orta əsrlər dövrü - xüsusilə də X əsrə qədərki siyasi, dini və etno-mədəni prosesləri barədə fikir söyləməyə imkan verən yeganə yerli yazılı mənbə Moisey Kalankatuklunun "Alban tarixi" əsəridir. Qafqaz Albaniyasının daxili quruluşu, sülalələri, kilsə təşkilatlanması, qonşu dövlətlərlə münasibətləri və bölgənin etnik tərkibi haqqında məlumat verən bu əsər önəmli qaynaq olaraq qəbul edilir. Qafqaz Albaniyasının yazı mədəniyyətinin böyük ölçüdə itməsi fonunda, Kalankatuklunun bu mətni həm hadisələrin yerli müşahidəçisi kimi, həm də Alban kim-

liyini əks etdirən nümunə kimi xüsusi əhəmiyyət daşıyır. Əsərin Qədim Erməni (grabar) dilində qorunub saxlanması onun müəllif kimliyi ətrafında müxtəlif tarixşünaslıq mübahisələri yaratmış olsa da, mətnin məzmunu, hadisələri təsvir tərzi bu mənbəni istər Azərbaycan, istərsə də ümumiyyətlə Cənubi Qafqaz tarixi üçün ən mühüm ilkin mənbələrdən biri səviyyəsinə yüksəldir. Bu araşdırmada xüsusilə müəllifin kimliyi, tarixşünaslıqda mövcud olan mübahisələr, əsərin grabar dilində yazılmasının müəllif kimliyi üzərində yaratdığı yanlış qavrayışlar təhlil olunacaqdır.

"Alban tarixi" əsərin ən qədim nüsxəsi 1279-cu ilə aiddir [9, IV]. İrəvanda yerləşən Mesrop Maştots adına Əlyazmalar İnstitutunda - Matrenedaranda olan 8 nüxsədən üç nüsxə XVII əsrə (1664 və 1676), biri XVIII əsrə (1761), üçü isə XIX əsrə (1839, 1848, 1855) məxsusdur. İlk dəfə olaraq 1841-ci ildə başyepiskop İ. Şahatunyantsın Eçmüədzin və Ermənistan abidələrinə dair kitabında Eçmüədzin kitabxanasında Musa Kalankatukluya aid "Albaniya Tarixi" əsərinin iki nüsxəsinin mövcudluğu bildirilmişdir [8, s.12].

Ancaq nüsxələr arasında uyğunsuzluqlar mövcuddur. Bu nüsxələrin müqayisəsini edən məşhur ermənişünas tarixçi və tərcüməçi T. Ter-Qriqoryanı bir sıra maraqlı nəticələrə gətirmişdir. Məsələn, VII əsrdə hökmdar olmuş Cavanşirin ölümü münasibətilə saray şairi və ritorikçi Dəvdək tərəfindən yazılmış "Ağı"nın həm iki ermənicə nəşrdə, həm də rus dilinə tərcümədə tam şəkildə verilmədiyi aşkar edilmişdir: 1839-cu ildə hazırlanmış 3043 nömrəli nüsxədə olan son 16 bənd digər nüsxələrdə mövcud deyil. Bu boşluğun səbəbi hələ də dəqiqləşdirilməyib. Bu uyğunsuzluqlar tarixi dəqiqliyi çətinləşdirir, müəllifin kimliyi və əsərin tamamlanma tarixi barədə fərqli nəticələrə səbəb olur [8, s.12].

Əsərin adının "Albaniya tarixi"nin adına ilk dəfə erməni katolikosu Ananiyanın (943- 967-ci illər) Xaçına gəlməsi ilə əlaqədar rast gəlinir. O, Xaçına Albaniya katolikosu Qaqikin (948-962-ci illər) dəvətilə 958-ci ildə gəlmişdir. Qaqik xəbər verir ki, "elə əvvəldən olduğu və "Albaniya tarixi"ndə yazıldığı kimi *"orpes ev er i skzbane leal ev karqeal i patmutean Aquanits"* o, Albaniya katolikosluğuna müqəddəs Qriqori adından seçilmişdir [7, s.8]. Növbəti dəfə "Albaniya tarixi"nin adı Uxtanesin X əsrin sonlarında tərtib edilən "Gürcülərlə ermənilər arasında kilsə əlaqələrinin kəsilməsi tarixi" əsərində çəkilir. Uxtanesin 65-ci fəsildə qeyd etdiyi bəzi təfərrüatlar "Albaniya tarixi"ndən *"i patmutene ivreants (daha doğrusu - albanits)"*, yaxud Albaniya tarixçilərindən *"patmaqratsn Albanits"* götürülmüşdür [7, s.9].

Müəllif məsələsi "Albaniya tarixi"nin ən müzakirəli mövzularından biridir. Əsərin müəllifinin və ya müəlliflərinin kimliyi barədə heç bir dəqiq məlumat bizə çatmayıb. Əsər bir qayda olaraq iki Moiseyə - Moisey Kalankatuklu və Moisey Dasxurantsiyə istinad edilir. Bu haqda mülahizələr isə son dərəcə ziddiyyətlidir. Əsərin öz əlyazmaları belə müəlliflik məsələsini aydınlaşdırmağa kömək etmir. Matenadaranda saxlanılan ən qədim nüsxə olan 1279-cu ilə aid 1531 saylı əlyazmada müəllifin adı ümumiyyətlə qeyd olunmayıb. Movses Kaqankatvatsi (Moisey Kalankatuklu)nin müəllif olaraq göstərildiyi ən erkən qeyd isə Matenadarandakı 2646 saylı əlyazmada rast gəlinir; bu nüsxə katib Ghunkianos tərəfindən Üçmüəd-

zində köçürülmüşdür [6, s.915-920]. Təxminən otuz il əvvəl hazırlanmış Kilikya Katolikosluğunun Anteliasdakı 75 saylı əlyazması (təxminən XVIII əsrə aid) isə hələ də dəqiq bir məlumata yer vermir; lakin mətnin tamlığı və hər hansı əlavə və ya dəyişiklik olmaması ilə diqqət çəkir [2, s.XXXVI].

Mülahizələr əsərin öz mətninə əsaslanır; müəllif yazır: "Kaqankaytuk kəndi, həmin Uti vilayətindədir ki, mən özüm də oradanam" [3, s.84]. Bu cümlə müxtəlif tarixçilər tərəfindən fərqli şəkildə şərh edilmişdir. Məsələn, A. Y. Manandyan hesab edir ki, "Kaqankaytuk" təxəllüsü mənbənin yanlış şərhindən yaranmışdır və müəllifi "Utili Moisey" adlandırır. Digər tərəfdən, M. Abeqyan mənbəyə istinad edərək belə güman edir ki, əsərin müəllifi həqiqətən də, öz qeyd etdiyi kimi, Uti vilayətinin Kaqankaytuk kəndindən olan Moiseydi [1, s.521].

T. Ter-Grigoryan XIII. yüzyıl mənbələrində (Mxitar Aniatsi, Gəncəli Kirakos, Mxitar Ayrivankatsi və Alban katolikosu Yesayi) Moisey Kalankatuklu haqqında verilən məlumatlara da toxunmuşdur. O, 1855-ci ildə hazırlanmış 667 nömrəli nüsxənin sonundakı qeyddən çıxış edərək, əsərin müəllifi böyük ehtimalla bir keşiş olduğunu güman etmişdir. Ter-Grigoryan qeyd edir: "Bu nüsxə, Erməni təqviminin 74-cü ilində (625-ci il) Movses Kalankatvatsi adlı bir vardapet tərəfindən hazırlanmışdır" [8, s.14].

Eyni zamanda mətnin sonunda yer alan Alban katolikoslarının siyahısında adı keçən Albaniya Katolikosu IV Movses (987–993) isə əsərin ümumi yazarını müəyyən etmək üçün əlavə arqument hesab edilmişdir. Siyahının onun adı ilə bitməsi, guya tərtibçinin "imzası" kimi yozulmuşdur. Lakin bu fikir, Daxsuranlı və ya Kałankatuklu kimi ləqəbləri izah etmir. Çünki əsərdə IV Movses yalnız "Parisos monastırının rahibliyindən biri " olaraq təqdim olunur; Dasxuran və ya Kałankatuk adlı kənddən olduğu isə heç bir yerdə qeyd edilmir [5, s.50].

XIII əsrdə irəli sürülən üç adlandırmadan Albaniyalı Moisey**,** Dasxurantsi və Kałankatuklu heç biri tam qəbul görməmişdir [5, s.50]. Məşhur ermənişünas alim Ç. Dowsetin yanaşmasına görə, Moisey Dasxurantsi və Kalankatvatsi eyni şəxsdir. Dowset bu qənaətə gəlir ki, "Kalankatvatsi" təxəllüsü Moiseyin Kalankaytukdakı monastırla bağlıdır, "Dasxurantsi" isə onun doğma kəndini göstərir; lakin o, müəlliflikdə Dasxurantsi təxəllüsünə üstünlük verir [3, s.XIX; 4, s.24].

Qafqaz, Ön Asiya və xüsusilə Qafqaz Albaniyası üzrə ən nüfuzlu sovet alimlərindən biri Kamilla Trever qeyd edir ki, əgər həqiqətən də "Albaniya Tarixi"ni toplayan və ya yenidən yazan Moisey Dasxurantsi olsaydı, öz adını əsərə yazması tamamilə təbii olardı, çünki o dövrün müəllifləri adətən əsərlərinə ad qoyurdular. Lakin bütün əlyazmalarda əsər Moisey Kalankatuklunun adı ilə keçir. Bu isə göstərir ki, əsərin əsas müəllifi Kalankatukludur, Dasxurantsi isə yalnız bəzi hissələri sonradan əlavə etmiş ola bilər [8, s.16].

Müəllifin yaşadığı dövr məsələsi də uzun müddət müzakirə mövzusu olmuşdur. Moiseyin VII əsr hadisələrini dəfələrlə "bir şahid kimi" təsvir etməsi səbəbindən bəzi tədqiqatçılar onun VII əsrdə yaşadığını irəli sürmüşdür (Şahnazaryan, Boré, Somal, Emin və başqaları). K. Patkanov isə hesab edir ki, Moisey Kalankatuklu X əsrin sonlarında yaşamış və əsərin III kitabını özü yazmışdır; I və II kitabda isə VII

əsr mənbələrini təkrar etmişdir. Lakin bu yanaşma, mənbələrdəki birinci şəxsin adından verilən təsvirləri tam şəkildə izah etmir [8, s.14].

Lakin fikrimizcə, Kalankatuklu VI əsrdən sonrakı Erməni tarixçilərindən istifadə etməmiş və yalnız çox qədim mənbələrə əsaslanmışdır ki, bu da onun VII əsrdə yaşamış olduğunu göstərir. Həmçinin, I və II kitablarla III kitab arasında dil və üslub fərqləri mövcuddur: ilk iki kitab daha qədim və yerli terminlərlə yazılmış, III kitab isə daha gec dövrün üslubunu əks etdirir. Bu fərqlər III kitabın başqa biri tərəfindən əlavə olunduğunu düşündürür. Müəllif bəzi hadisələri birbaşa şahid kimi təsvir edir ki, bu da onun VII əsrdə yaşamış olduğunu göstərir. Bundan əlavə, Moisey Alban kralı Cavanşiri öz çağdaşı kimi təqdim edir [3, s.113-117].

Moisey Kalankatuklunun etnik kimliyi məsələsi də tarixşünaslıqda uzun illərdir mübahisə mövzusudur. Əsərin müəllifinin şəxsiyyəti ilə bağlı yekdillik olmadığı kimi, onun milli mənsubiyyəti də müxtəlif yanaşmaların predmetidir. Qərb tarixşünaslığında və xüsusilə erməni tarixşünaslığında Moisey Kalankatuklu çox vaxt *şərtsiz şəkildə erməni müəllifi* kimi təqdim olunur. Bu qənaətin formalaşmasında əsas arqument kimi əsərin grabar - qədim erməni dilində yazılması göstərilir. Lakin təkcə dilin özünü müəllifin etnik kimliyinə avtomatik şəkildə bağlamaq həm metodoloji, həm də tarixi baxımdan ciddi mübahisələr doğurur. O, özünü "Kalankatyuk kəndindən Movses" kimi təqdim edir, lakin heç bir yerdə özünü erməni müəllifi adlandırmır. Əksinə, əsərdə Albaniyanın siyasi quruluşu, hökmdarları, kilsə strukturu və tarixi şəxsiyyətləri barədə geniş və detallı təsvirlər onun Alban siyasi və mədəni mühitini çox yaxşı tanıdığını göstərir.

Əsərin yazarı, əsərdə də qeyd edildiyi kimi Uti bölgəsində yerləşən Kalankatyuk kəndinin yerli sakinidir. Erməni tarixçiləri və araşdırmaları bu dövrdə Utinin ermənileşdiyini əsas gətirərək Moisey Kalankatuklunu erməni yazarı kimi təqdim etməyə çalışırlar. Lakin bu yanaşma tarixi faktlarla uyğun gəlmir. Mənbələrdən və arxeoloji məlumatlardan məlum olur ki, Uti və Artsaxın böyük hissəsində alban əhalisi hələ də geniş şəkildə yaşayırdı. Beləliklə, müəllifin Albaniya mənşəli olması ehtimalı daha yüksəkdir.

Erməni tarixşünaslığının Moisey Kalankatuklunu erməni müəllif kimi qələmə verməsi daha çox **ideoloji yanaşma** kimi qiymətləndirilə bilər. Qafqaz Albaniyasına dair yeganə geniş həcmli mənbə olan *Alban Tarixi* üzərinə iddiası həm siyasi, həm kilsə, həm də mədəni aspektlərdə strateji əhəmiyyət daşıyır. Bu yanaşmanın kökündə iki əsas motiv dayanır:

1.Albaniya irsinin erməni tarixinin içində əridilməsi;

2.Qafqaz Albaniyasının tarixi və mədəni mirası üzərində tarixi üstünlük iddiası.

Moisey Kalankatuklunun etnik mənsubiyyəti və "Alban tarixi"nin müəllifliyi məsələsi bu gün elmi ədəbiyyatda yekdilliklə həll olunmuş məsələ hesab edilə bilməz. Müəllifin dilinin ermənicə olması, onun etnik baxımdan da mütləq erməni olduğu anlamına gəlmir; çünki X–XIII əsrlərdə Albaniya bölgəsində fəaliyyət göstərən digər müəlliflərin də müxtəlif səbəblərdən ermənicə yazması geniş yayılmış bir hadisə idi. Bu kontekstdə müəllifin etnik kimliyi barədə onu qəti şəkildə "erməni yazar" kimi

təqdim etməyə çalışan yanaşmalar, xüsusilə erməni tarixşünaslığında formalaşmış müəyyən meyllərlə bağlıdır və obyektiv elmi nəticə kimi qəbul edilə bilməz. Üstəlik, Mxitar Qoş, Gəncəli Kirakos kimi Alban mənşəli olması ehtimal edilən bəzi müəlliflərin də məhz bu cür ziddiyyətli şəkildə "ermənileşdirilməsi" faktı göstərir ki, mövcud təsnifatların bir qismi sonrakı dövrlərin ideoloji şərhlərinin nəticəsidir. Bu səbəbdən Kalankatuklunun mənsubiyyəti məsələsi hələ də yenidən araşdırılmağa ehtiyac duyur və yalnız filoloji, mənbəşünaslıq və tarixi kontekstin birlikdə təhlili əsasında daha obyektiv nəticələr əldə edilə bilər. Beləliklə, bu gün müəllifi yekdilliklə erməni yazar kimi qəbul etmək elmi baxımdan əsaslandırılmış mövqe sayıla bilməz; mövcud təhriflər və birtərəfli yanaşmalar yeni tədqiqatların aparılmasını zəruri edir.

Ədəbiyyat siyahısı:

1.Абегян М. История древнеармянской литературы.т.I,Укумфт, 1948 (на арм.яз.), 605 с.
2.Arakelyan, Varag. 1983. Мовсес Каланкатуаци, История страны Алуанк. Критический текст и предисловие В. Д. Аракеляна [Movses Kałankatuatsi, History of the Country of the Albanians. Ed. by Varag Arakelyan]. Yerevan: Yerevan State University.
3.Dowsett, Charles J. F., The History of the Caucasian Albanians by Movsēs Dasxurançi. Translated (London Oriental Series 8), London / New York / Toronto: Oxford University Press, 1961, p. 255
4.Mammadova F. Caucasian Albania and Albanians. Second edition. Baku, 2021. p. 512
5.Gippert, Jost & Dum-Tragut, Jasmine (eds.), Caucasian Albania: An International Handbook. Berlin / Boston: De Gruyter Mouton, 2023. P. 736.
6.Ter-Vardanean, Georg. 2012b. 2101–2400. General Catalogue of Armenian Manuscripts of the Mashtots Matenadaran.7: Manuscripts 2101–2400. Ed. by Georg Ter-Vardanean. Yerevan: Nairi.
7.Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: "Elm", 2005, 392 s.
8. Тревер К. Очерки по истории и культуре Кавказской Албании IV в. до н. э. – VII в. н. э., Москва–Ленинград: Издательство Академии наук СССР, 1959, 359 с.
9. Патканов К. Предисловие к "Истории Агван". М.Каганкатваци. СПб., 1861., 376 с.

ERMƏNİLƏRİN VERSAL (PARİS) SÜLH KONFRANSINDA TƏLƏBLƏRİ

Xəyalə Ağayeva
AMEA A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun doktorantı
khayalayahyayeva@yahoo.fr;
https://orcid.org/0009-0007-8165-7061
Elmi rəhbər: t.e.d., dosent Vasif Qafarov

Açar sözlər: *Paris (Versal) sülh konfransı, ermənilərin tələbləri, "Böyük Ermənistan" arzusu*
Keywords: *Paris (Versailles) peace conference, demands of Armenians, the dream of "Greater Armenia"*

Kütləvi itki ilə nəticələnmiş Birinci dünya müharibəsindən sonra Avropa, heç bir zaman rastlaşmadığı qarışıqlıq içərisində idi. Parisdə təşkil ediləcək sülh konfransı dünyanın yeni düzəninni müəyyənləşdirəcək, bir sıra məsələlərə aydınlıq gə-

tirməli idi. Amma yeni dövlətlərin sərhədlərini formalaşdırmaq, qalib dövlətlərin bir-biriləri ilə toqquşan istəklərini yerinə yetirmək çox çətin olacaqdı.

Dünyanın hər yerindən otuz iki dövlət konfransa nümayəndə heyəti göndərmişdi, yalnız məğlub dövlətlər təmsil olunmurdular. Konfransda iştirak edən hər bir dövlətin isə öz maraqları var idi.

İngiltərənin baş naziri Lloyd Corc ABŞ prezidenti Vudro Vilson kimi Anadoluda mandatlıq sistemini yaradılmasını istəyirdi. Çünki, müharibə bitməsinə rəğmən, İngiltərə, Osmanlı coğrafiyasında çox sayda hərbi qüvvə saxlmağın maddi yükü altında idi. Digər tərəfdən, İngiltərənin əsil məqsədi Anadoluya hakim olmaqdan ziyadə, ərəb bölgələri üzərində nəzarəti ələ keçirmək idi. Bunun reallaşması üçün isə, Anadolu torpaqlarında mandator dövlət olmaq vəzifəsini öz üzərinə götürməli idi. İngiltərə və Fransanın öz maraqlarını qorumaq məqsədi ilə Anadolu ərazisində bufer zona formalaşdırmaq cəhdləri, Ermənistan məsələsini Paris konfransının gündəm başlıqlarından birinə çevirmişdi [1, s.956].

Ermənilər, böyük dövlətlərin münasibətindən cəsarətlənərək və Vilson prinsiplərini rəhbər tutaraq Anadolunun şərqində Ermənistan dövləti qurulması ideyasını müdafiə edirdilər. Məqsədlərinə çatmaq üçün, siyasi propaqanda fəaliyyətinə üstünlük verərərək səslərini mümkün olduğu qədər gur duyurmaq istəyən ermənilər Parisə üç ayrı heyət göndərmişdilər: Poqos Nubar paşanın rəhbərlik etdiyi "Avropa Milli Erməni Nümayəndəliyi", Avedis Aharonianın rəhbərlik etdiyi "Ermənistan Respublikası Nümayəndəliyi" və erməni patriarxı Monsenyör Terzianın rəhbərlik etdiyi "Din Adamları Nümayəndəliyi" [4, s.34]. Birinci Dünya müharibəsinin yekunlarına həsr olunmuş Versal (Paris) sülh konfransında iştirak edən ermənilərin əsas niyyəti "Böyük Ermınistan" yaratmaq xülyasını gerçəkləşdirmək idi. Onlar bu xülyalarına o qədər inanırdılar ki, Azərbaycan, Gürcüstan və Şimali Qafqaz Dağlı Respublikası nümayəndələrinin birlikdə yaratmaq istədikləri "Qafqaz Konfiderasiyası" təklifini rədd edirdilər.

Erməni nümayəndə heyətləri 21 fevralda İstanbuldan Parisə doğru hərəkət etdilər, ancaq, P.Nubar ilə A.Aharonianın araları yaxşı olmadığından erməni cəmiyyətini ayrı-ayrı təmsil etməyi düşünürdülər. Aharonian konfransa Şərqi Anadoludakı altı vilayətin yanında Qara dənizə açılan sərhəd tələbi ilə gəlmişdi. P.Nubar da altı vilayəti tələb etməkdə idi, ancaq, Aralıq dənizinə açılan qapı olaraq Çukurovaya da göz dikmişdi. Eyni milləti təmsil edən iki heyətin bir-birindən fərqli tələblər ortaya atması manea yaradacağından, erməni kilsəsi onların birləşməsi üçün təzyiq göstərmiş və nəticədə kilsənin düşüncəsi ətrafında birləşən iki təmsilçi birlikdə hərəkətə keçmək qərarını aldılar [6].

Ermənilərin tutduqları bu istiqamət bir sıra güclər, xüsusilə ABŞ tərəfindən dəstəklənirdi. Böyük güclərin 30 fevral 1919-cu ildə Osmanlı dövlətindən qoparılacaq torpaqlar içərisində Ermənistan ifadəsinə yer verməsi ermənilər adına müsbət bir irəliləyiş idi. Bununla bərabər, 26 fevral 1919-cu ildə Onlar Şurasında Ermənistan Nümayəndəliyinə söz haqqının verilməsi, erməni tələblərinin böyük güclərin diq-

qətinə çatdırılması mənasına gəlirdi. İlk çıxış edən Aharonian, İttifaq dövlətləri təmsilçilərinə müharibə zamanı ermənilərin böyük fədakarlıq göstərdiklərini xatırladaraq tələblərinin qəbul edilməsinin lazımlığını diqqətə çatdırdı. Aharonianın böyük güclərdən ilk gözləntisi Ermənistan Respublikasının tanınıb, qalib dövlət statusunda konfransda yer almalarına icazə verilməsi idi. Ancaq, Antanta dövlətləri ermənilərin konfransda daimi nümayəndəlik ilə təmsil olunmalarına razılıq verməd i.

Digəri isə, Ermənistan Respublikasının "Erməni Vilayətləri" ilə birləşdirilməsi idi. O dövrdə dünya ictimaiyyətində bəzi dairələr tərəfindən məqsədli şəkildə istifadə edilən "Erməni Vilayətləri" anlayışı, ermənilərin çoxluq təşkil etdiyi iddia edilən, reallıqda isə azlıqda olduqları altı vilayəti əhatə etməkdə idi [3, s.255].

Aharoniandan sonra söz alıb daha geniş və daha uzun çıxış edən Poqos Nubar, Ermənistan sərhədləri içərisində görmək istədiyi yerləri iki maddə şəklində bu formada vurğulamışdır: 1) Kilikiya, Ərzurum, Bitlis, Van, Diyarbəkir, Harput, Sivas və Qara dənizə çıxış üçün Trabzon Vilayətinin bir hissəsi, 2) Xalqı, Türkiyədəki qardaşları ilə tək bir Ermənistan dövləti damı altında birləşmək istəyən Qafqazdakı Ermənistan Respublikası torpaqları.

Nubar çıxışında, qətliam və sürgünlərdən sonra Ermənistanda erməni qalmadığını və ya qalanların önəmsiz bir azlıq formalaşdırdığı iddiasının doğru olmadığnı və xalqı tamamilə məhv etmək məqsədinə çatmadıqlarını xüsusilə vurğuladı. Bundan başqa o, torpaq tələblərinin qəbul edilməsindən sonra beynəlxalq hüquqa görə, iki müstəqil ölkənin bərabər hüquqlara sahib olduğu bir bölgə (kondominium) qurulmasına müsbət yanaşılmadığından dolayı, Ermənistanı təşkilatlandıra və idarə edə bilməsi üçün tək bir gücün mandatlığına verilməsinin lazımlığını da vurğulayırdı [2, s.83].

Erməni nümayəndəliyi 26 fevralda konfransa aşağıdakı tələbləri özündə əks etdirən momerandum da təqdim etdilər:

1) Qafqaz Ermənistan Respublikasının ərazisi ilə Kilikiya və altı vilayətdən ibarət bir Ermənistan yaradılması;

2) Erməni hökumətinin ABŞ və ya Millətlər Cəmiyyətinin nəzarəti altına alınması;

3) Yeni yarancaq dövlətin 20 il müddətinə müttəfiq dövlətlərdən birinin mandatlığına verilməsi və Osmanlı İmperiyasından 19 mlrd frank təzminat alınaraq onlara verilməsi;

4) Ermənistan, Osmanlı İmperiyasının Düyuni Umumiyesinə (1881-1923-cü illərdə Osmanlı dövlətinin daxili və xarici borclarına nəzarət edən qurum) qatılmağa hazırdır. Mandatlığı qəbul edən dövlətlər yerinə yetirməli idi: türk məmur və hərbiçilərini boşaltmaq, xalqı tərksilah etmək, soyqırımda iştirak edənlərin cəzalandırılması, müsəlman mühacirlərin çıxarılması, zorla müsəlmanlaşdırılan təbəqənin yenidən öz dinlərinə qayıtması, türklərin zorla müsadirə etdikləri əmlakın öz sahiblərinə qaytarılması [5, s.225].

Beləliklə, türklər bu dörd maddəlik momerandum ilə həm Aralıq dənizinə, həm də Qara dənizə çıxışı olan "Böyük Ermənistan" yaratmaq xəyalına düşmüşdülər. Onlar bu əsassız istəklərini müxtəlif qəzet, jurnal və kitablarda dərc etdirərək dünya ictimaiyyətinə çatdırırdılar.

Zaman irəlilədikcə konfransa qatılan dövlətlərin Erməni tələblərinə olan münasibətlərində dəyişikliklər meydana çıxmağa başlamışdı. Konfrans başlayanda ermənilərə bir çox insanın simpatiyası olduğu halda, konfransın sonlarına doğru ermənilərin israrçı mövqeləri, xüsusilə, torpaq iddialarındakı mübaliğələr üzv dövlətlərini narahat etməyə başlamışdı.

Erməni tələblərinə ən çox dəstək verən ölkələr İngiltərə və Fransa idi. Bu iki dövlət, Ermənistan dövlətinin yaradılmasını dəstəkləyirdilər, ancaq, mövcud iqtisadi və hərbi vəziyyətə görə, yeni yaranacaq dövlətin Amerika tərəfindən formalaşdırılması fikrini müdafiə edirdilər. Qeyd edək ki, bu dövlətlər müharibədən qalib ayrılsalar da, son dərəcə ağır iqtisadi vəziyyətdə olduqlarından Ermənistana heç bir dəstək verəcək halda deyildilər.

ABŞ prezidenti V.Vilson erməni tələblərinə isti münasibət bəsləməsinə baxmayaraq, mandatlığın Millətlər Cəmiyyətinin nəzarəti altında olmasının tərəfdarı idi. Ancaq, prezident Vilsonun Millətlər Cəmiyyətinin yaradılması ilə birlikdə ən çox üzərində dayandığı məsələ olan erməni iddiaları və Ermənistan mandatlığı 1920-ci ilin aprel ayında Amerika Senatında rəsmi olaraq rədd edildi. Bu qərarın alınmasında ABŞ prezidenti tərəfindən Yaxın Şərqə araşdırmaya göndərilmiş general G.Habord tərəfindən hazırlanmış hesabat da rol oymanışdır [1, s.956]. ABŞ prezidenti üçün siyasi uğursuzluq olaraq qəbul edilə biləcək Ermənistan mandatlığı məsələsi bu tarixdən sonra gözdən düşdü və Amerika üçün bir daha gündəmə gəlmədi.

Ermənistan iddiaları Antanta dövlətləri tərəfindən də dəstəklənmədi. Sevr müqaviləsinin (19201-ci il 20 avqus) şərtlərinə görə yalnız Van, Ərzurum, Bitlis və Trabzon ermənilərə verildi.Qeyd edək ki, 1923-cü il 24 iyul tarixli Lozanna müqaviləsi ilə bu qərar da qüvvədən düşdü.

Beləliklə, erməni nümayəndəliyi tərəfindən Versal (Paris) sülh konfransında irəli sürülən iddialar qəbul edilmədi və onların "Böyük Ermənistan" yaratmaq arzuları reallaşa bilmədi.

Ədəbiyyat siyahısı:

1. *Akkor.M. 1919 Paris Koferansı ve Ermeniler. Journal of History School 42, 2019, s.942-964*
2. *Dilek.M. Paris Barış Konferansı'nda Ermeni Sorunu. Atatürk Universitesi, 2009, s. 79-97*
3. *Kazamzadeh.F. The Struggle of Transcaucasia (1917-1920), New York, 1951, 369 s*
4. *Mazıcı.N. ABDnin Güney Kafkasya Politikası Olarak Ermenistan Sorunu, 2005, 164s*
5. *Mim.K. Yüz Yılın Kan Davası Ermeni Sorunu, İstanbul, 2003, 110 s*
6. *Uslu.D. The Times Gazetesine Göre Türkler ve Ermeniler (1918-1919), Sakarya, 2012, 379 s*

"ƏKİNÇİ" QƏZETİNİN NÜMAYƏNDƏLƏRİNİN ŞƏXSİ ARXİVİNDƏ AZƏRBAYCAN TARİXİ MƏSƏLƏLƏRİ

Oruc Quliyev
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı,
tarix üzrə fəlsəfə doktoru
oruj_guliev@mail.ru;
https://orcid.org/0009-0004-8463-4517

Açar sözlər: *"Əkinçi" qəzeti, milli mətbuat, şəxsi arxiv, Azərbaycan tarixi*
Keywords: *"Akinchi" newspaper, national press, personal archive, History of Azerbaijan*

XIX əsrin ikinci yarısından başlayaraq türk xalqlarının tarixində baş verən mədəni dirçəlişin əsas göstəricilərindən biri də milli mətbuatın təşəkkülü oldu. "Əkinçi", daha sonra bu ənənənin digər türk xalqlarında davamı olan "Türkistan vilayətinin qəzeti", "Tərcüman" kimi erkən qəzetlərin nəşri həm maarifçilik ideyalarının yayılmasını sürətləndirdi, həm də türk dünyasında vahid ictimai fikrin formalaşmasında aparıcı rol oynadı. XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycan, ümumiyyətlə türk xalqlarının mətbuatının formalaşma və güclənmə mərhələsidir. XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan mətbuatı yaranış, təkamül və təkmilləşmə mərhələlərindən keçərək maarifçilik, milli oyanışa çağırış, siyasi təbliğat vasitəsi funksiyasını yerinə yetirib. Azərbaycan mühərrirləri sivil informasiya cəmiyyətinin formalaşması və söz azadlığı uğrunda yorulmadan mübarizə aparıblar. Azərbaycan mətbuatı həm milli kimliyin müəyyənləşməsi, həm də ictimai fikrin formalaşmasında mühüm rol oynayıb.

XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda mövcud olan mətbuatın tarixi onu yaradanların bioqrafiyası ilə sıx bağlıdır. Əbəs deyil ki, bəzi şəxslərin adlarını çəkdikdə ilk növbədə onların rəhbərlik etdiyi mətbuat orqanı yada düşür. Məsələn, Həsən bəy Zərdabi (Məlikov) – "Əkinçi" qəzeti, Cəlil Məmmədquluzadə – "Molla Nəsrəddin" jurnalı və s.

Azərbaycan milli mətbuatının ilk nümunəsi – "Əkinçi"nin nəşri heç də asan başa gəlməmişdir. Ümumiyyətlə milli mətbuatımızın yaranmasına gedən yol və Azərbaycan dilində ilk qəzetin nəşri çox maraqlı, eyni zamanda qürurverici tarixdir.

Rəsmi olaraq Azərbaycan mətbuatının əsası 22 iyul 1875-ci ildə "Əkinçi" qəzeti ilə qoyulmuşdur. Qəzetin təsisçisi və baş redaktoru publisist, maarifçi-demokrat Həsən bəy Zərdabi (Məlikov) olmuşdur.

Azərbaycan milli mətbuatının ilk nümunəsinin ərsəyə gəlmə prosesini AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondunda qorunan Həsən bəy Zərdabinin şəxsi arxivindəki sənədlərdən aydın izləmək olar. Arxivdə 1873 və 1874-cü illərə aid Qafqaz Senzura Komitəsinin sənədləri mühafizə olunur. 1873-cü ildə göndərilən sənəddə qeyd edilir: *"Bakı realnı məktəbinin müəllimi Həsən bəy Məlikov Bakı qubernatoruna müraciət edərək, bu il sentyabrın 1-dən Bakıda Azərbaycan dilində "Əkinçi" adlı bir qəzet nəşr edilməsinə icazə verilməsini is-*

təyir. Qəzetin yoxlanmasını qubernatorun idarəsində işləyib Azərbaycan dili ilə tanış olan məmurlardan birinə tapşırmaq olar" [2, fond № 3, s.v. 119].

Sənəddən bəllidir ki, əvvəlcə Bakı şəhər qubernatoru qəzetin nəşrinə icazə verilməsi üçün müsbət qərar qəbul etmək istəmişdir. Lakin bir müddət sonra nə isə onun fikrini dəyişməyə vadar etmişdir. Belə ki, 1874-cü il sənədində əvvəlki təliqədən fərqli olaraq, qəzetin Azərbaycan dilində nəşr edilməsinə mane olmaq üçün bəhanə gətirilir: *"Elmi məqalələr yalnız xalqın iqtisadi və ən yaxın mülki məsələlərinə aid olmalıdır. Dəbdə olan siyasi görüşlərlə, yaxud müasir həyatın bütün quruluşunu müzakirə etmək cəhdlərinə yol verilməməlidir. Yalnız yerli ehtiyac və tələblərə həsr olunmuş "baş məqalələr" verilə bilər. Cənab Məlikovun nə düşündüyünü bilmədiyimiz üçün qəzetin bütün proqramı haqqında rəy söyləməkdə çətinlik çəkirik"* [1, fond № 3, s.v. 118].

Rəsmi sənədlərə əsasən, deyə bilərik ki, müstəmləkə siyasəti yürüdən çarizm işğal etdiyi ərazilərdə xalqların öz dillərində mətbuatının olmasına yol vermirdi.

H.Zərdabi Mirzə Fətəli Axundova yazdığı məktubunda qəzetin nəşri sahəsində qarşılaşdığı çətinliklər haqqında belə qeyd etmişdir: *"Siz mənim nəşr etdirmək istədiyim qəzetlə əməkdaşlıq etmək istəyirsiniz. Bu barədə Sizə minnətdarlığımı bildirirəm. Lakin təəssüf ki, qəzetin nəşri ilə bağlı hələ də icazə ala bilmirəm. Sizin canişin nə düşünür bilmirəm, amma mənə elə gəlir ki, o bu məsələyə ciddi yanaşmır. Nə baş verəcəyini yaşayıb görəcəyik. Xahiş edirəm, qəzetin nəşri barədə yeni bir şey öyrənəsiniz. Təbii ki, Qəzetin nəşrinə icazə verilən kimi, nəşr elanını, qəzetləri və afişaları Sizə göndərəcəm"* [5, fond № 3, s.v. 23].

Lakin bütün bu çətinliklərə baxmayaraq, Həsən bəy Zərdabi nəhayət, 22 iyul 1875-ci ildə "Əkinçi" qəzetinin ilk nömrəsinin nəşr etdirməyə nail ola bilmişdir və bununla da, Azərbaycan mətbuatının bünövrəsi qoyulmuşdur.

"Əkinçi" qəzetinin nəşri 29 sentyabr 1877-ci ilə kimi davam etmişdir. Ümumilikdə isə 56 nömrəsi işıq üzü görmüşdür. Qeyd edək ki, qəzetin 1875, 1876 və 1877-ci illərdə dərc edilən əksər nömrələri AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dövri mətbuat arxivində qorunmaqdadır. Qəzetin latın qrafikasına çevrilərək bütün nömrələri bir kitab şəklində Turan Həsənzadə tərəfindən nəşr edilmişdir [3].

Qəzetin dili sadə xalq dilinə yaxın olduğu üçün daha çox sevilmişdir. M.F.Axundzadə hələ 1875-ci ilin 21 aprel tarixində Həsən bəyə ünvanladığı məktubunda qəzetin dilinin anlaşıqlı, çətin ibarələrdən azad, təmiz və düzgün olmasını tövsiyə edirdi. *"Çünki "Əkinçi"qəzeti başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalı idi"* [12, s.27].

Məsələn, qəzetin 5 sentyabr 1875-ci il tarixli 4-cü sayında "Daxiliyyə" başlığı altında Bakı-Tiflis dəmir yolunun çəkilməsi xəbəri oxucuların diqqətinə çatdırılır. Xəbərdə sadə anlaşıqlı dildə oxucuya bu yolun keçəcəyi yerlər, onun xalq üçün əhəmiyyəti və s. barədə oxucuya məlumat verilir: *"Dəmiryolunun xalqa nəfi olmağı məlumdur. Hər kəs beş gün poşt ilə gedilən yolu bir günə rahat gedir. Ondan masəva bizim yerlərimizdən və mallarımızdan hasil olan şeyləri bir az kirayə ilə Tiflis*

və Badkubə şəhərlərinə və qeyri yerlərə aparıb artıq qiymətə satmaq olur. Ona binaən bizim indi az mədaxil götürən yerlərimiz birə-beş artıq mədaxil götürəcək. Əlbəttə, bu xeyirləri hər kəs vaxtında görüb biləcəkdir. İndi onlardan danışmağımıza səbəb oldur ki, bizə məlumdur bir neçə dövlətli kəslər xahiş edirlər dəmiryolu gedən yerlərdə bəyzadələrin məxsusi yerlərin alıb onları dövlət tərəfindən olan mərhəmətdən məhrum etsinlər. Ona binaən vacib bilib bəyzadələrimizi sərhesab edirik ki, məzkur yerlərdə ya onların yavıqlığında olan yerlərini satmayıb dəmiryolu təmir oluncan saxlasınlar ki, ol vaxtda onlar birə-beş artıq qiymətə gedəcək" [3, s.43].

Qəzetlə sıx əməkdaşlıq edənlərdən ziyalılardan biri də şair, pedaqoq Seyid Əzim Şirvani olmuşdur. Onun H.Zərdabi ilə məktublaşmasından öyrənirik ki, iki ədibin müxbir və redaktor arasında olan əməkdaşlıqdan savayı, səmimi dostluq münasibəti də yaranmışdır.

S.Ə.Şirvani H.Zərdabiyə yazdığı məktublardan birində Şamaxıda yeni açılmış məktəb haqqında məlumatlar verilmiş, eyni zamanda maarifləndirici şeirinin "Əkinçi" qəzetində nəşr edilməsi barədə xahiş edilmişdir. Məktubda oxuyuruq: *"Təvəqqe olunur ki, zeyldə mərqum olan əhvalati-cədidə mültəfit olasız. Əgər pəsəndixatir olsa, bu gələn qəzetdə səbt edib, nəşr edəsiz. Çünki Şamaxı uyezdinin rüəsalarından bir neçə nəfər üməra və tüccardan cəm olub, bir qədər pul cəm edib, qubernator İsdaroaselskinin ittilai ilə quberski ruhani məclisinin təhti-nəzarətində bir şkola bina ediblər. Bu halda yaxşı yola gedir. Ümidvar olmaq olur ki, Sizin səliqənizə müvafiq başa gəlsin.*

Bən də həmin şkolada dərs oxumaqdan buyi-xeyir istişmam edib, öz fərzəndi-dilbəndim Mir Cəfər namı həmin şkolaya dərs oxumaq üçün qoymaqdan Şamaxıda avam ün-nasın məzəmmətin öz haqqımda görüb və oğlum Mir Cəfərin avam ünnaç kələnamun məlamətindən, təbiətin rus dərsindən ikrah gördüm. O, biçarə tiflin təbiətindən vahiməni götürmək üçün öz türki lisanımızda çox asan ibarələr ilə bir türki kitab nəzm etmişəm. Həmin kitabdan bu bir neçə əşar ki, bundan sonra yazılacaq yazıb xidmətinizə irsal elədim ki, ta çap edəsiz. Əgər Sizin qəzetin məzmununda olan mətləblərə münasibdirsə, şayəd ki, xalqdan rəfi-vahimə ola" [7, fond № 3, s.v. 97].

Qeyd edək ki, XIX əsrin I yarısında "Zaqafqaziya məktəbləri haqqında Əsasnamə"yə əsasən, Cənubi Qafqazın idarə olunması üçün kadrların hazırlanması məqsədilə Azərbaycanda qəza məktəbləri açılmağa başlamışdır. İlk qəza məktəbi 1830-cu ildə Şuşada açılmışdır. Bu məktəbin açılması ilə Azərbaycanda Avropa tipli dünyəvi təhsilin əsası qoyulmuşdur.

1849-cu ildə isə bölgədə çar hökümətinə sadiq ruhanilər yetişdirmək məqsədilə Bakı, Şamaxı, Şuşa və Gəncədə müsəlman məktəbləri açılmağa başladı.

1865-ci ildə Bakıda ilk gimnaziya açılmaqla rus dilli orta məktəbin əsası qoyulmuş oldu.

13 may 1872-ci il Əsasnaməsinə əsasən, qəza məktəbləri altı illik təhsil verən şəhər məktəblərinə çevrildi. 1874-cü il Əsasnaməsinə görə isə, kəndlərdə ibtidai təhsil verən "xalq məktəbləri" yaradılmağa başlandı.

Bu məktəblərlə yanaşı, XIX əsrin II yarısında Azərbaycanda ilk "üsuli-cədid" məktəbləri də yaradıldı. Şuşada Mir Möhsün Nəvvabın, Naxçıvanda Məmməd Tağı Sidqinin, İrəvanda və Təbrizdə Mirzə Həsən Rüşdiyyənin, Şamaxıda isə 1869-cu ildə Seyid Əzim Şirvaninin rəhbərliyi ilə "üsuli-cədid" məktəbləri açılmışdır. Azərbaycanın məşhur satirik şairi Mirzə Ələkbər Sabir və tanınmış maarifçi, yazıçı Sultan Məcid Qənizadə bu məktəbdə təhsil almışlar.

Seyid Əzimin Həsən bəyə ünvanladığı mənzum məktubunda Şamaxıda açılan həmin məktəb barədə belə məlumat verir:

İndi Şirvanda açmışıq məktəb,
Dərsimiz rusü türkü farsü ərəb.
Zəhmətim çoxdu, hiç nəfim yox,
Leyk həqqə ümidvarəm çox.

S.Ə.Şirvaninin məktubda qeyd etdiyi şeir qəzetin 11 iyun 1876-ci il 11-ci nömrəsində işıq üzü görmüşdür [9].

Bu məktəb H.Zərdabinin maarifçilik görüşlərinə uyğun fəaliyyət göstərən təhsil ocağı idi. Belə ki: *"S.Ə.Şirvaninin "Üsuli-cədid" məktəbi mollaxana və mədrəsələrdən fərqlənirdi. Uşaqlar həsir üzərində deyil, partlarda oturur, yazı lövhəsində yazırdılar. Məktəbdə Azərbaycan, fars və rus dilləri tədris edilir, təbiyyət, coğrafiya və hesabdan məlumat verilirdi. Burada cismani cəza tətbiq olunmurdu"* [4, s.133].

Bundan başqa, S.Ə.Şirvani H.Zərdabiyə ünvanladığı digər məktubunda ermənilərin yerli əhaliyə qarşı atılan böhtanlardan narazılıqlarını ifadə etmiş və yazmış olduğu şeir parçasının "Əkinçi" qəzetində dərc edilməsini xahiş etmişdir.

"Əlavə bu günlərdə Şamaxı çox aramdır və hər yerdən asudədir. Lakin dad Şamaxıda olan ermənilər əlindən. Müsəlmanların adına növbənöv böhtan deməkdən qeyri işləri yoxdur. Ona binaən həqir öz ixlasımızı və padşaha olan sədaqətimizi və erməni tayfasının müsəlmanlar haqqında olan namülayim hərəkətlərini ... öz türki dilimizdə riştəyi-nəzmə çəkib, hüzurunuza irsal qıldım. Ümidvaram ki, əgər layiq olsa, çap edərsiniz. Çünki söz elə sözdür. Amma nəzmdə ziyadə təsir eləmək vardır" [8, fond № 3, s.v. 98].

Qeyd etməliyik ki, S.Ə.Şirvani son dərəcə tolerant şair olmuş və ictimai-siyasi lirikasında bütün xalqlara bərabər gözlə baxmağı təbliğ etmişdir. Məsələn, Səid Ünsüzadəyə ünvanladığı mənzum məktubunda o yazırdı:

Təfavüt qoymayıb hər millətə eylər nəvazişlər.
Yəhudü ermənivü gürcüvü rusü müsəlmani.
Neçə əyyami-möhnət mövsümi-rəncü məşəqqətdə
Tutub cud ilə əl, etmiş nəvaziş xəlqi-Şirvani [6, s.190].

Göründüyü kimi, S.Ə.Şirvani Şirvan əhlinin müsəlman və qeyri-müsəlmana fərq qoymadığından qürurla danışır. Ona görə də ermənilərin bu qonaqpərvərliyə rəğmən, ixtilaf çıxarmaq cəhdləri onu narahat edir. Müsəlman əhaliyə atılan böhtanların mətbuat vasitəsi ilə geniş kütləyə çatdırılmasını istəyir ki, ziyalılar erməni fitnəsindən xəbərdar olub sadə xalqı təxribata uymaqdan çəkindirsinlər.

Məlumdur ki, hələ 1828-ci il Çar Rusiyası və Qacar dövləti arasında bağlanan Türkmənçay müqaviləsi, 1829-cu il Çar Rusiyası və Osmanlılar arasında bağlanan Ədirnə sülhünə əsasən, ermənilərin Azərbaycanın müxtəlif ərazilərinə, əsasən də Naxçıvan İrəvan və Qarabağa kütləvi köçürülməsinə başlandı. Köçürüldükdən sonra ermənilərin yerli əhaliyə qarşı düşmən münasibətləri, şər-böhtan artaraq münaqişə yaratma cəhdləri 1905-1906-cı illərdə erməni-müsəlman, 1918-ci il 31 mart soyqırımına gətirib çıxardı.

"Əkinçi" qəzetinin 18 avqust 1877-ci il tarixli 17-ci sayında Rus-Osmanlı müharibəsi zamanı düşmənə yardım edən üç min ermənin Azərbaycana pənah gətirdiyi xəbərini oxuyuruq: *"Osmanlıdan bizim Qafqaza qaçıb gələn 3 min erməni barəsində yazırlar ki, onları Üçkilsədə bir neçə gün ermənilər paltar, xörək verib saxlayıblar. İndi "Mşak" qəzeti yazır ki, Qarabağda, İrəvanda, Qubada olan erməni mülkədarları zikr olan ermənilərə ixtiyar veriblər ki, onların yerlərində sakin olub, əkin və ziraətə məşğul olsunlar və mədyun olurlar ki, bir neçə il onlardan dəhyek almasınlar"* [3, s.371].

Bu xəbərdən ermənilərin Azərbaycan ərazisinə köç etməsi və yeni erməni icmalarını formalaşdırması aydın olur. Qafqazın ermənileşdirilməsində və Azərbaycanda yeni erməni kaloniyaları yaratmaqda maraqlı olan erməni mülkədarlarının da bu prosesə hər cür maddi dəstək verdiyi görünür. Bu isə çar hökumətinin Qafqazda xristian əhalini süni yolla artırmaq planının bir tərkib hissəsi idi. Bir müddət sonra Qarabağda məskunlaşan ermənilər onlara qucaq açan xalqımıza qarşı amansız müharibə bayrağı qaldıracaqdı. Çar məmurları da, elə çar ordusunun zabitləri də bu qırğınlarda Qafqazda türk-müsəlman əhalinin soyqırımına kömək edəcək, ən sadə halda bu qırğınlara göz yumacaqdılar. Hələlik isə Rusiya-Osmanlı (1877-1878) müharibəsi ərəfəsində imperiyanın sərhədlərinin möhkəmləndirilməsi bəhanəsi ilə İrəvan və ətraf əyalətlərə rus qoşunları yerləşdirilirdi. Həsən bəyin şəxsi arxivində İrəvan quberniyasından Mirzə Məhəmməd Yaqubəlibəyov tərəfindən göndərilən 1876-cı ilə aid bir məktub qorunur. Məktubda rus qoşunlarının İrəvanda yerləşməsindən, şəhərdəki ermənilərin onları necə canfəşanlıqla qarşılamasından bəhs edilir [11, fond № 3, s.v. 54).

Azərbaycanın ilk milli mətbu orqanı olan "Əkinçi" qəzetinin yaradıcısı və redaktoru Həsən bəy Zərdabinin, bu qəzetin ərsəyə gəlməsində xüsusi xidmətləri olan Mirzə Fətəli Axundzadə, Seyid Əzim Şirvani və başqalarının AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə edilən şəxsi arxivlərindəki materialların bir çoxu XIX əsrin ikinci yarısında Azərbaycan tarixinin öyrənilməsi üçün zəngin məxəzdir. Bu sənəd-informasiya resursu təkcə milli mətbuat tariximizin araşdırılması üçün deyil, həm də 1875-1877-ci illərdə Azərbaycanda gedən siyasi, iqtisadi, mədəni hadisələrin ümumi mənzərəsini izləmək, onların xronoqramını hazırlanmaq və yeni baxş bucağından təhlil etmək üçün də imkan yaradır. H.Zərdabi və müasirlərinin məktublaşmasını, redaksiyaya daxil olan məqalələri və müvafiq sənədləri nəzərdən keçirdikdə Azərbaycanın müstəmləkə şəraitində olduğu zaman ziyalılarımızın milli birliyə nail olmaq apardıqları mübarizəsinin şahidi

olur, milli mətbuatın bu mübarizədə necə həlledici rol oynadığını daha aydın görə bilirik. Bütün bu faktlar göstərir ki, "Əkinçi"nin nəşri yalnız Azərbaycanın mədəniyyət tarixində dönüş nöqtəsi olmamış, həm də türk xalqlarının milli-mənəvi dirçəlişinə, maarifçilik ideyalarının genişlənməsinə və modern mətbuat ənənələrinin təşəkkülünə güclü təsir göstərmişdir.

Ədəbiyyat siyahısı:

1. "Əkinçi" qəzeti ilə bağlı təliqə. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 3, saxlama vahidi 118. vərəq – 1.
2. "Əkinçi" qəzeti ilə bağlı təliqə. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 3, saxlama vahidi 119. vərəq – 1.
3. Həsənzadə, T. (tərtibçi). Əkinçi. 1875-1877. Tam mətni. Bakı: Avrasiya Press, 2005, 496 s.
4. Məmmədov, Ə. və Əliyev, V. Şamaxı – təhsil tarixi. Bakı: Zərdabi LTD, 2009, 528 s.
5. Mirzə Fətəli Axundova məktubu (7 iyun, 1873-cü il). AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 3, saxlama vahidi 23. vərəq – 1.
6. Rüstəmov, S. (tərtibçi). Seyid Əzim Şirvani. Seçilmiş əsərləri: [3 cilddə] Bakı: Avrasiya Press, c.2, 2005, 384 s.
7. Seyid Əzim Şirvanidən məktub. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 3, saxlama vahidi 97. vərəq – 2.
8. Seyid Əzim Şirvanidən məktub. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 3, saxlama vahidi 98. vərəq – 2.
9. Şirvani, S.Ə. Şeir. Bakı: Əkinçi. 11 iyun. № 11, – s.2, 1876
10. Vadova, E. (tərtibçi). Həsən bəy Zərdabi (Məlikov). Elmi-köməkçi biblioqrafik göstərici. Bakı: Elm və təhsil, 2016, 410 s.
11. Yaqubəlibəyov Mirzə Məhəmməddən məktub. AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxiv fondu, Fond № 3, saxlama vahidi 54. vərəq – 1.
12. Cavadova E. "Əkinçi" qəzetinin ziyalıları-Mirzə Fətəli Axundzadə. Bakı, AMEA "Elm və həyat" elmi- populyar jurnal, № 3, 2025, 94 s.

DETEKTİV JANRI VƏ KEMEL TOKAYEVİN "SİRLİ İZ" POVESTİNDƏ TARİXİ GERÇƏKLİKLƏR

Xuraman Hümmətova
AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Türk xalqları ədəbiyyatı" şöbəsinin baş elmi işçisi, filologiya elmləri doktoru
hummatovax@mail.ru

***Açar sözlər**: Kemel Tokayev, detektiv janrı, müharibə, sirli iz, qış qaranquşu*
***Keywords**: Kemel Tokayev; detective genre; war; mysterious trace; winter swallow.*

XX əsr qazax dedektiv ədəbiyyatının yaranması və formalaşması Kemel Tokayevin (1923-1986) adı ilə bağlıdır. Kemel Tokayev sovet dönəmi yazıb-yaradan yazıçılardan olmuşdur. Onun yaratdığı ədəbi nümunələr dovrün ictimai və ideoloji gerçəkliklərini bədii boyalarla əks etdirən əsərlərdir. Yaradıcılığı sosializm realizminin nümunələrini əks etdirməsi baxımından sovet ideologiyasina xidmət etməli, cəmiyyətdə baş verənləri ictimai getcəkliklərin fonundan uzaqlaşdırmaq və ya on-

lara qeyri-real don geydirməklə təqdim etməli idi. Bütün bu kimi keyfiyyətlər yazıçının yaradıcı idealı ilə tam əks mövqey təşkil edirdi.

Detektiv ədəbiyyat cəmiyyətdəki reallıqları və həqiqətləri əlvanlığı ilə açıb göstərən bir janrdır. Bu janr sovet cəmiyyətinin prinsiplərinə uymadığı üçün sovetlər dönəmində bir janr kimi formalaşmadı. Bu janrda yazılan əsərlərin olmasına baxmayaraq, onlar əvvəllər başqa-başqa janrlar kontekstinə daxil edilirdi. Bu haqda C. Abdullayev yazır: "Detektiv ədəbiyyat deyil" fikrini şəxsən mən ömrü boyu bircə sanballı əsər yarada bilməyən, ad-sanana görə nəşr etdirdiklərinin hamısı çıxdaş olunan adamlardan dəfələrlə eşitmişəm. "Populyarlıq- keyfiyyət demək deyil" sözlərini mənə o qədər deyiblər, artıq bu çür iddialara alışmışam.Amma müəllifin romanlarına müəyyən bir marağın olmaması da açıq-aydır onun dahiliyindən xəbər vermir. Hətta bədxahları qəzet –jurnallarda Kemel Tokayevin əleyhinə məqalələr təşkil ediblər. Həmin illərdə populyar janrlar –detektiv, fantastika, melodram, macəra- qeyri-rəsmi qadağa altında idi" [1, 9].

Bu janrın başlıca xüsusiyyətlərindən biri onun qəhrəmanları utopik və xəyali insanlar olmayıb, reallıqda yaşayan, cəmiyyətdə törətdiyi əməllərə görə tanınan və fəaliyyət göstərən insanlardır. Bu baxımdan qazax ədəbiyyatında detektiv janrının əsasını qoyan Kemel Tokayevin yaradıcılığı xüsusi əhəmiyyət kəsb edir. Onun yaradıcılığında detektiv janrının ünsürləri tarixi gerçəkliklə əlaqəli şəkildə oxuculara təqdim olunur.

Kemel Tokayev qəhrəmanlarının gücü insan təfəkkürnün bütün qapalı və açıq sərhədlərini qırıb azad bir cəmiyyətə qovuşmaq arzusuna can atan inasanlardır. Onun cəmiyyət və insan problemlərini əks etdirən əsərlərində sovet insanının tale yüklü məsələləri əsas yerlərdən birini tutur. Tokayevin qəhrəmanlarının başlıca müsbət cəhəti cəmiyyət daxilində baş verən proseslərin insan həyatındakı rolu, onların yaşam tərzindəki mövqeyi və ən əsası insan taleyini işıqlandırmasıdır. Əsərlərinin başlıca qayəsi milli dəyərləri qorumaq, vətənin və xalqın taleyini düşünmək, vətənpərvərlik ideyaları uğrunda mübarizə aparmaq, soy-kökə bağlılığı gənc nəsillərə təbliğ etmək, ailə prinsiplərinə sadiq qalmaq və s. bu kimi müsbət keyfiyyətlərin oxuculara təbliğindən ibarətdir. Aktotı Raimkulova müharibə əleyhinə qələmə alınan, insanları sülhə səsləyən "Xüsusi tapşırıq" kitabını "Türk ədəbiyyatının inciləri" seriyasından olduğunu bildirib. "Qazax ədəbiyyatının detektiv janrının banilərindən olan Kemel Tokayev türk mədəniyyətinin və söz sənətinin inkişafına böyük töhfələr verib. O, yazıçılıq fəaliyyəti ilə yanaşı, jurnalistika ilə də məşğul olub, publisistik əsərlərində Qazaxıstanın mühüm mədəni və sosial məsələlərini işıqlandırıb. Bu nəşr Fondun görkəmli yazıçının zəngin yaradıcılığının öyrənilməsinə və ədəbi irsinin təbliğinə verdiyi qiymətli yadigardır. Ümid edirik ki, gələcək nəsillər üçün vacib bir qaynaq olacaq" [6].

Kemel Tokayevin həyatı sovetlərin tərkibində olan xalqların milli və mənəvi dəyərlərindən uzaqlaşdırmaq ideyasının təbliq olunduğu bir dönəmə təsadüf edir. Xalqı öz keçmişindən, adət-ənənsindən, soy-kökündən ayırmaq, onu manqutlaşdırmaq sovet ideologiyasının əsas prinsiplərindən biri kimi qazak xalqının da hə-

yatında dərin iz buraxmışdır. Yazıçının ailəsində şəxsi faciəsinin yaranmasının əsas səbəblərindən biri də sovet quruluşunun apardığı bu kimi siyasi və ideoloji amillər olmuşdur. Bu kimi hadisələr oturaq həyatla məşğul olan qazax xalqının başına gətirilən müsübətlərdən biri, bəlkə də ən əsası idi.

Yazıçının XX əsrin 20-ci illərində, sovet hakimiyyətinin yarandığı ilkin dönəmlərdə ölkənin sərhədlərində baş verən qaçaqmalçılıq, sərhədlərin pozulması, banditizm, cəsusluq kimi hərəkatın ölkə daxilində yaratdığı xoatimz bədii boyalarla təqdim olunur. Müasir ədəbiyyatın əsas prinsiplərindən biri həyatda baş verən hadisələri gerçəklik fonunda oxuculara təqdim etmək və bu hadisələri törədən səbəbləri əlvanlığı ilə açıb göstərməkdir. Odur ki, Kemel Tokayev 1920-ci illərdəki Qazaxıstan çekistlərinin yaradıcılığını əks etdirən kitab yazmaq fikrinə gəlir. Onun qazax xalqının çətin dönəmlərini əks etdirən "Axırıncı zərbə" (Соңғы соққы) əsəri bu baxımdan maraq doğurur.

Əsər real hadisələr əsasında qələmə alınıb. Qazaxıstanda sovet hakimiyyətinə tabe olmaq istəməyən qüvvələrlə hakimiyyət arasında baş verən özbaşnalıqların qarşısını almaq üçün bir qrup çekistin göstərdiyi fəaliyyət öz əksini tapır. O illərdə Qazaxıstanın müxtəlif vilayətlərində hakimiyyət əleyhinə qruplar fəaliyyət göstərirdi. Real faktlar əsasında qələmə alınan əsər Semereçiya vilayətində ataman Dutovun özbaşnalığının qarşısının alınmasında fəal iştirak edən qazax xalqının qəhrəman oğullarının göstərdiyi rəşadətdən bəhs edir. Qırmızı orduya qarşı yaranan qruplara Ataman Dutovun ordusu da qoşulur. Lakin onlar Qırmızı Ordunun hücumunu dəf edə bilməyib geri çəkildilər. Məğlubiyyətə düçar olsalar da, sovet hakimiyyətinə düşmən kəsilənlər onalara qarşı ayağa qalxır, sadə xalq arasında üsyan qaldırdılar. Belə bir çətin dövrdə Qazaxıstanın məğrur çekistləri Oraz Jandosovun rəhbərliyi altında fəaliyyətə başlayırlar. Onların fəaliyyəti sayəsində ölkədə qayda-qanun yaradılır.

Təbii ki, o dönəmdə baş verən bu hadisələri müəllif arxiv materialları əsasında ərsəyə gətirə bilərdi. Odur ki, yazıçı arxiv materiallarının əldə etməkdə çox böyük çətinliklərlə qarşılaşır. Məlumatları əldə etmək heç də asan olmurdu, amma çətinliklərlə qarşılaşan müəllif öz məqsədinə çatmaq üçün əzmlə çalışıb, məqsədinə nail olur. "Cəsus detektivi II Dünya müharibəsindən əvvəl və Soyuq müharibə dövründə faşizmə və kommunizmə qarşı inkişaf etmişdir. Soyuq müharibə dövründə də inkişafını davam etdirmiş və beynəlxalq cinayət təşkilatları, qlobal terror şəbəkələrinin yaranması ilə yenidən vüsət almışdır. Cəsus detektivi mövzusunda qələmə alınmış bədii əsərlərin əsas mövzusu II Dünya müharibəsi və Soyuq müharibə hadisələri olmuş və tarixi dövr bədii formada yenidən canlandırılmışdır" [4].

Kemel Tokayevin yaratdığı obrazlar sadə insanlar, arxa cəbhədə döyüşən polis məmurları, çekistlər, ön cəbhədə düşmənlə üz-üzə döyüşən partizanlardır.

Müəllifin bədii təxəyyülü sayəsində yaratdığı obrazların bənzərsiz siması, onların fəaliyyəti canlı və son dərəcə inandırıcı boyalarla oxuculara çatdırılır. Yazıçı bu obrazlarla yanaşı o dövrün insanlarının həyat tərzi, düşüncələri, istəkləri, hərəkətlərini diqqətdən kənarda qoymurdu. Bütün bunları yaratdığı obrazlarla qarşılıqlı

əlaqədə təqdim edirdi. Əsərindəki süjet-kompozisiya vəhdətini, bədii söz ustalığını, inqilabdan sonrakı dövrün siyasi-ictimai vəziyyətini etibarlı şəkildə çatdıran "polifonik" dialoqların rəngarəngliyini qeyd etməmək olmaz. Bütün bunlar onun əsərlərini həyəcanverici dərəcədə maraqlı edir.

Kemal Tokayevin yaradıcılığında əsas yerlərdən birini müharibə mövzusu tutur. Müharibə zamanı yaranan ədəbiyyatla, müharibədən sonra yaranan ədəbiyyat arasında fərq var. Müharibə bitsə də, onun yaşatdığı travmalar davam edir. Qəfildən baş verib insanda hədsiz qorxu və çarəsizlik hissi yaradan hadisələrin təsirlərinə psixoloji travma və ya sarsıntı deyilir. İnsan həyatında xoşagəlməyən, onu incidən çox hadisələr olur, lakin bunların hamısını psixoloji travma hesab etmək olmaz. Bir hadisəni psixoloji sarsıntı adlandıra bilməyimiz üçün o hadisə mütləq qorxulu, dəhşətli olmalıdır və həmin baş verən hadisədə özümüz və ya yaxınlarımız ölüm təhlükəsi yaşamış olmalıyıq. Yazıçının müharibə mövzusuna müraciət etməsi, gördüyü hadisələri real boyalarla təsvir etməsinin başlıca səbəblərindən biri qardaşının və özünün müharibədə iştirakı, baş verən hadisələri gözləri ilə görməsidir. Kasım Tokayev "Atam haqqında söz" adlı kitabın müqəddiməsində yazır: "Atam müharibəni xatırlayanda həmişə deyərdi ki, döyüş şəraitini çəhrayi rəngdə təsvir edən bədii əsərlərə inanmaq olmaz. Bir çox müəlliflərin sovet əsgər və zabitlərini, guya, qanlı döyüşlərdə qorxu bilməz igidlər kimi "bərli-bəzəkli" təsvir hekayələri onu əsəbləşdirirdi" [7, 45].

Yazıçının müharibə mövzusunda yazdığı əsərlər bir tərəfdən müharibədə gördüklərini əks etdirisə, digər tərəfdən bu əsərlər həm də avtobioqrafik səciyyə daşıyır. Deməli, bu əsərlər Tokayevin özünün və onun taleyinin hekayələridir. Yazıçının özünün və qardaşının müharibədə iştirakı, onların qarşılaşdığı hadisələr əsərlərində öz əksini tapır. Bu baxımdan Kemel Tokayevin müharibə həqiqətlərini əks etdirən əsərləri sənədli əsər kimi tarixin yaddaşında qalmaqdadır. Müharibə təkcə öldürmür, o həm də insanlar üçün bir qorxu, fəlakət qaynağı olaraq bütün həyatları boyunca onlarla birlikdə yaşayır, onları daima təqib edir. Bu qorxu zaman-zaman insanları mənən məhv edir. Müharibə mövzusunda yazdığı əsərlərdə müharibənin törətdiyi fəlakətlər, insanların başına gələn faciələr, bu hadisələrin onların sonrakı həyatlarında buraxdığı izlər, müharibə fəlakətlərin təsiri altında yaşadıqlarını poetik boyalarla əks etdirir. Yazıçının qələmə aldığı həyat həqiqətlərini əks etdirən əsərlərində xalqların və millətlərin dərin qarşılıqlı əlaqəsini əks etdirmək onun yaradıcılığının mühüm hissəsinə çevrilmişdir.

Kemel Tokayevin əsərlərindəki obrazlar, onların tədqiqi, diskursu, həyat həqiqətinin bədii rekreasiyası, dövrün reallıqlarını, personajların şəxsiyyətlərini xüsusi dəqiqliklə və ifadəliliklə çatdırmağa imkan verir.

Müharibə təkcə iki ölkə arasında aparılan bir savaş deyil, doğmaları bir-birindən ayrı salan, müxtəlif taleyli insanları qovuşduran, onları həsrətdə qoyan bir savaşdır.

Əsərlərində yazıçı müharibə obrazını canlı boyalarla təqdim edir. Müharibənin fəlakətlər törədən üzünün necə qəddar olduğunu onun əsərlərində görmək müm-

kündür. Cəbhəyə yeniçə gələn əsgərlər düşmənin ölüm saçan silahlarının insanları necə öz ağuşuna alıb bir anın içində məhv etdiyini görüncə dəhşət içində bağırtıları Kemal Tokayevin xatirəsində illər boyu yaşadı. Ölüm, qan görməyən gənclər bütün bu dəhşətləri gördükdə onların çıxardığı səslər düşmən bombalarının səsindən daha dəhşətli olurdu. Dahi Hüseyn Cavid məşhur "Müharibə və ədəbiyyat" əsərində bildirirdi ki, bu günün müharibəsi sabahın ədəbiyyatına ciddi şəkildə təsir edir və bu təsir keçmişin ədəbiyyatının bu günün müharibəsinə edəcəyi təsirdən daha güclüdür [2].

Yazıçı "Xüsusi tapşırıq" əsərində dörddə bir əsr sonra Ukraynanın paytaxtı ilə görüşünü belə təsvir edir: "Biz Kiyevə doğru uçuruq. Kiyev! Bu şəhər iyirmi ildir əsgərimin xəyallarında məni təqib etdi. İndi necəsən, qədim və əbədi gənc şəhər? Geniş prospektdə necə insanlar gəzir? 1943-cü ildə yeddinci tank polku Radomışla Taras Bulba bulvarına gəldi. O gecə qaranlıq, ətraf dağınıq idi. Ölmüş şəhərin sakitliyini, səssizliyi yalnız tank motorlarının səsi pozurdu. Ruslar və qazaxlar, tatarlar, qırğızlar və özbəklər irəliləyirdilər. Ukraynanın paytaxtı ilə o şəxslər irəliləyirdi ki, onlar Moskva, Stalinqrad, Kurs və Xarkovda faşistləri darmadağın etmişdilər [6].

İllər sonra Kemel Tokayev Frunze Piyada Məktəbində serjant kurslarını bitirdi. Sonra onu Stalinqrad Cəbhəsinin tərkibində olan hərbi hissəyə göndərdilər. On səkkiz yaşında müharibəyə yollanan Kemel Tokayev Stalinqrad döyüşlərində qəhrəmancasına döyüşüb Üç aylıq döyüşlərdən sonra yaralandı, lakin hərbi hospitalda qalmaq istəmədi və Birinci Ukrayna, sonra İkinci Belorusiya Cəbhəsinin tərkibində tank alayı ilə birlikdə Belarus, Ukrayna və Polşanın döyüş meydanlarından keçib, Stalinqradın müdafiəsində iştirak edib. 1944-cü ilin sonunda o, şücaət və igidliyə görə iki Vətən Müharibəsi ordeni və çoxsaylı medallarla təltif edilmişdir. Düşmənə qarşı mübarizədə bir müddətdən sonra ağır yaralanır, hətta həkimlər onun ayağını kəsmək qərarına gəlirlər. Yazıçının xatirələrindən məlum olur ki, onun ayağını müalicə edən gənc həkim sonradan məşhur cərrah İlezorov olub. İnsanın özünə güvəni, sarsılmayan inamı Kemel Tokayevi ömürlük şikəst qalmaqdan məhrum edib. Bu faciə zamanı təkcə həkimin hünəri yox, yazıçının öz cəsarəti, yaşamaq həvəsi, həyat eşqi onu şikəst olmaqdan xilas edir.

"Kemellə birlikdə qardaşı Qasım da hələ II Dünya Müharibəsi başlamazdan əvvəl orduya getdi. O, daha sonra 1942-ci ilin fevralında Reyx yaxınlığında həlak oldu. Onların hər biri bizim üçün böyük nümunədir. Müharibə illərində çox dəhşətlərə sinə gəriblər, dəhşətli sınaqlarından keçiblər. Onlar qorxu və kədərin öhdəsindən gələ biliblər. "Məncə, bunu hər adam bacarmır" [5].

Müharibə mövzusunun bədii ədəbiyyata nüfuzu təkcə müharibə və onun iştirakçılarının obrazlaşması ilə bitmir. Müharibəni görmüş, müharibə dövrünü yaxından və uzaqdan yaşamış insanların sonrakı taleyi Kemel Tokayevin yaradıcılığında simvollaşır.

Kemel Tokayevin müharibə mövzusunda yazdığı əsərlərdən biri də "Sirli iz" povestidir. Povest birbaşa müharibənin içindən, aktiv döyüş əməliyyatı baş verən hadisələr fonunda təqdim edilir. Əsər kəşfiyyat qrupunun rəhbəri Seleymenovun öldürülməsi və düşmən müdafiəsini yarmağa hazırlaşan birləşmələrin atəş fəaliyə-

tinin məxfi hərbi sxeminin itməsi ilə başlayır. Komandirin ölümü və məxfi xəritənin tapılması üçün qərərgahdan mayor Rodionov hadisə yerinə göndərilir.

Mayor Rodionov baş verən hadisəni dəqiqliyi ilə araşdırmağı qərara alır. Müharibənin qızğın çağında bir kəsə sirr vermək, hadisələri ətrafdakılarla müzakirə etmək qadağası, müharibənin əsas qanunlarından biri idi. Buna görə də müharibədə iştirak edən əsgərlər mənəvi-psixoloji cəhətdən çox gərgin və güvənsizdirlər.Hadisə yerinə getmək qərarına gələn mayor öz -özünə sual verir. Bunu kim törətmiş olar? Əsərdə obrazın daxili monoloqu, nəqletmə vasitəsilə onun xarakterini açır. Odur ki, o, mühafizə rəisi leytenant Malyarı yanına çağırır. Baş verən hadisədən məlum olur ki, leytenant Malyarın qardaşı hadisə zamanı həlak olmuş və məxfi xəritə yoxa çıxmışdır. Əsərdə yazıçı müharibədə həlak olan qardaşının və özünün obrazını bu iki fədakar əsgərin simasında canlandırmışdır. Əsər boyunca qardaşların vətənpərvərliyi, ölüm ayağında belə öhdəsinə düşən vəzifəni ləyaqətlə yerinə yetirən gənc əsgərlərin simasında görürük.

Rodionovun leytetentı sorğu-suala tutması, məxfi sənədin oğurlanmasında onun qardaşının əli olması kimi fikirlər müharibə fəlakətin insanlarda yaratdığı qorxu xofu idi. Buna baxmayaraq, Malyarın qardaşına sonsuz inamı, onun satqınlıq etməsi fikri əsla letenant qardaşın ağlına belə gəlmirdi. Əsər boyunca bu da qardaşın qardaşa olan inamından və etimadından xəbər verir. Mayor özü də Malyrın məxfi xəritədən xəbrinin olmadığına inanır, amma qəlbinə dolan şübhələr onda inamsızlıq yaradır. Rodionov hadisəni belə izah edir: "Kapitan Süleymenovun qərargaha gələcəyi vaxt cinayətkara məlum imiş. Onlar kapitandakı xəritəyə qeyd olunmuş sirləri də bilirdilər.Serjant Malyar Süleymenovun ölümcül yaralanmasından istifadə eləyib xəritəni ələ keçirmiş, gizlətmək qərarına gəlmişdir. Amma yolda uğursuzluğa dücür olmuşdur. Şübhəsiz ki, onun yanında bir nəfər də varmış. "O ikinci adam kimdi?"- Mayor -özündən soruşdu, - öldürülənin qardaşı leytenant Malyardı-?" [7, 395].

Müharibənin öz qanunları var. Kimliyindən asılı olmayaraq hamı o qanunlara tabedir. Əsərdə qoyulan problemin əsasını partizan hərəkatında baş verən əhvalat təşkil edir. Əsər boyunca almanların göndərdiyi kəşviyyatçının partizan səngərinə soxulması və orada törəddiyi əməllərdən söhbət gedir.

"Gizli sirr" povestində işlədilən kiçik hadisələr böyük əhvalatların açılmasına xidmət edir. Əhvalatların belə təfərrüatı ilə dəqiq verilməsi yazıçının müharibə zamanı gördüyü hadisələrdən qaynaqlanır. Yazıçı təxəyyülünün dəqiqliyi əsərin finalına qədər oxucunu intizarda saxlaya bilir. Oxucu baş verəcək hadisənin nə qədər içində olsa da, təfərrüata vara bilmir. Mayor serjant Malyarın qəbrini açarkən onun əlinin bərk yumulması diqqətini çəkir, çətinliklə də olsa, o, əsgərin əlini açır və orada olan sarı tüklərin məhs qadına aid olduğunu özü üçün dəqiqləşdirir. Daha sonra maraqlı detallardan biri də siqaret kötükləridir. Rodionov bilirdi ki, neçə müddətdir ki, əsgərlərə "Bleomorkanal" papirosu verilmir, onu ancaq zabitlər çəkir. Mayor öz-özünə fikirləşir ki, bu hadisəni casus tək törədə bilməzdi, ona kim

isə kömək edib. “Malyar qardaşlarının böyüyü də, kiçiyi də satqın ola bilməzdi” [8, 406].

Əsərdə yazıçı təhkiyəsinin formalaşmasına təkan verən amillərdən biri də, personajların öz keçmişlərinə xəyalən səyahəti, önun daxili monoloqu, dünəni və bu günü haqqındakı düşüncələri əsas amillərdən biridir. “Həm daxili monoloqları quran konkret əhvalatların müstəqil təsviri, həm də yeri gəldikcə monoloqlar verilən müəllif şərhləri (özünütəhlil təhlili) qəhrəmanın subyektiv aləminin müəyyən ideya istiqamətində dərkinə kömək edir” [3, 116].

“Mayor qəbri açanda leytenant qardaş laqeyid gözlərlə ona baxırdı. Onun düşüncələri lap uzaqlarda idi. Qardaşı barədə düşünürdü. Fikri indi yarısınacan torpaqla dolmuş səngərdəki qardaşının yox, lap kiçik yaşlarından tanıdığı, çox sevdiyi şanlı, şən həyatserən Mişanın yanında idi. İndi daha blindaja, onun yanına gəlib zarafatlaşmayacaqdı” [8, 394].

Oxucu serjant Malyarı əsər boyunca görmür, onun haqqında heç bir təsəvvürə malik deyil, amma onun haqqındakı tam bilgini anasına yazmış olduğu məktubdan alır. Yazılan məktubdakı səmimi etiraf gənc əsgərin səmimiyyətindən, ailəsinə bağlılığından, qardaşı arasında olan hörmətdən və möhkəm bağlılıqdan xəbər verir. Məktubdakı təfsilat obrazın hansı xarakterli olması, onun görünməyən məqamları, insani keyfiyyətləri haqqında oxucuda fikir formalaşdırır.

Əsərdə təcrübəli, həyat görmüş mayor Rodionov oxuduğu məktubda serjant qardaşın təbii hislərini anası ilə bölüşdüyünü, anasından heç nəyi gizlətmədiyini görüncə, öz əsgərinə etibarı daha da artır. Onun əsgər haqqında satqın, vətən xaini, düşmənlə əlbir olması barədəki təəssüratları alt-üst olur.

Hadisələrin gərgin şəkildə davam etməsi, situasiyanın dərinləşdiyi məqamlarda leytenent Malyar qardaşının xəyanətkar olduğunu, xəritəni oğurlayıb düşmənə sirr verməsinə bəzən özünü inandırır. Odur ki, o, anasına oğlunun vətən xaini olduğu barədə məktub yazmaq qərarına gəlir. Onu bu işdən, yəni anasına məktub yazmaqdan çəkindirən yenə də mayor Rodionov olur. Cəbhədə əsgər haqqında tez qərar vermək, ona ömürlük damğa vurmaq, ölumünə qərar vermək kimi bir iş idi.

“Sirli iz” povestində baş verən əhvalatlar müharibə qanunları ilə idarə olunur. Partizan dəstəsinə soxulmuş cinayətkar bir qadının cəbhə bölgəsində törətdiyi əməllərdən bəhs edən yazıçı əsər boyunca oxucunu intizarda saxlayır. Düşmən qəhrəman döyüşçü Belovanın sənədlərini oğurlayaraq onun adı altında arxa cəbhədə fəaliyyət göstərir. Hamı da bu cəsur qızın Belova olduğuna inanır. Lakin uzun illər həyat təcürbəsi olan peşəkar mayor Rodionov bu qızdan şübhələnməyə başlayır. Bəlkə o, casus Belova yox, qoşunlarımızın arxasına keçməyə cəhd göstərən həmin Qış Qaranquşu –Ley idi? [8, 408].

Yazıçı casus düşmənə simvolik ad vermişdir. Qış Qaranquşu. Kemel Tokayev Qış qaranquşu ifadəsini təsadüfi olaraq işlətmir. Yazıçı bununla oxucuya çatdırmaq istəyir ki, qışda qaranquşlar soyuq məkanda yaşaya bilmizlər. Onlar qışın sərt soyuğuna qərib diyarda tab gətirə bilməz, ölmə məhkum olar.

Kemel Tokayev bədii yaradıcılığında müxtəlif insanların dəyişkən taleyini bəşəri və lokal şəkildə oxuculara çatdırır. Onun yaradıcılığında tək-tək fərdlərin taleyi deyil, çoxsaylı millətlərin, xalqların düşüncələri, arzu və istəkləri dünyagörüşü, həyat tərzi çərçivəsində oxuculara təqdim olunur. Personajlar sisteminin yaradılmasında, onların həyat tərzinə kompleks şəkildə müraciəti yazıcının əsərlərini oxunaqlı və maraqlı edə bilmişdir. Odur ki, Kemel Tokayevin əsərləri müxtəlif dillərə tərcümə olunaraq, çoxsaylı oxucu rəğbəti qazanmışdır.

Ədəbiyyat siyahısı:

1. Abdullayev C. Müqəddəs borc.. Kemel Tokayev. Gecə aşılan atəş. Bakı: Qanun nəşruyyatı. 2022, s.7-10

2. Hüseyn Cavid Müharibə və ədəbiyyat: [Elektron resurs] / – 18.04.2023. URL: https://edebiyyatqazeti.az/news/proza/9567-muharibe-ve-edebiyyat

3. İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm: 60-70-ci illər / M.İmanov. – Bakı: Elm, 1991. s.116

4. Omerbekova M. Подвиги наших земляков: вклад Кемеля Токаева в ВОВ. https://almaty.tv/ru/news/den-pobedy/1927-uos-ardageri-dgazushy-kazak-detektivinin-darabozy-kemel-tokaev-dgayynda

5. Lətifli S. Detektiv nəsrdə müharibə mövzusu (Cəmşgd Əmgrov və Kemel Tokayevgn yaradıcılığı əsasında) Globallashuv davrıda Turkıy tıllar ıntegratsıyası" mavzusidagi xalqaro ilmiy-amaliy konferensiyaning. Özbekistan 24 May, Navoiy, 24 may, s.148-150

6.Raimkulova Aktotı. zertag.az/xeber/turk_dunyasinin_yazichisi_kemel_tokayevin_kitabi_ azerbaycanli_ oxuculara_teqdim_olunub.

7. Tokayev Kl. Gecə aşılan atəş. Bakı: Qanun nəşruyyatı. 2022,413 s.

8. Tokayev K. Sirli iz . Bakı. Qanun nəş. 2022

9. 100-летие писателя Кемеля Токаева. https://aif.ru/culture/person/ego_slovo_bylo_chestnym_100-letie_pisatelya_kemelya_tokaeva. Его слово было честным».

KEMEL TOKAYEVİN "DAMĞALI QIZIL" POVESTİ POLİS DETEKTİVİ KONTEKSTİNDƏ BƏDİİ TƏHLİLİ

Seyidnisə Lətifli
AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun doktorantı
seyidnise.letifli@mail.ru
Elmi rəhbər: fil.f.d.,dos. Aygün Bağırlı

Açar sözlər: *detektiv, polis, Kemel Tokayev, povest, təhlil*
Keywords*: detective, police, Kemel Tokayev, story, analysis*

Kemel Tokayevin "Damğalı qızıl" povesti XX əsr polis detektivi janrının prinsiplərini Qazax ədəbiyyatı kontekstində yeni bədii səviyyədə təqdim edən mühüm əsərlərdən biridir. Əsərin bədii strukturunu, janr xüsusiyyətlərini, obrazların inkişafını və süjet xəttinin kompleksliyini araşdırmaq, həm ədəbiyyatşünaslıq, həm də polis detektivi janrının təhlili üçün əhəmiyyətlidir. Məqalənin məqsədi Tokayevin

povestini polis detektivi kontekstində bədii cəhətdən analiz etmək, janrın spesifik elementlərini və sosial mesajlarını açıqlamaqdır.

Əsərin aktuallığı onun çağdaş cəmiyyətin sosial problemlərinə diqqət yetirməsində özünü göstərir. Cinayət və korrupsiya mövzuları, şəxsi və ictimai məsuliyyət, insanın etik dəyərləri və qanun qarşısındakı mövqeyi müasir oxucu üçün önəmli təhlil sahələri kimi çıxış edir. Bu xüsusiyyətlər "Damğalı qızıl"ı yalnız ədəbiyyatşünaslıq baxımından deyil, həm də sosial elmlər kontekstində qiymətləndirməyə imkan verir.

"Damğalı qızıl" əsərinin mərkəzində kriminal motivlər, cinayət araşdırması və detektiv qəhrəmanın intellektual mübarizəsi dayanır. Polis detektivi mövzusunda tipik olaraq cinayətin baş verməsi, detektivin hadisələri analiz etməsi, sübutların toplanması və nəticədə cinayətin açılması kimi strukturlar mövcuddur. Kemel Tokayevin əsərində isə bu ənənəvi struktura sosial və psixoloji qatlar əlavə olunmuşdur. Məqalədə polis detektivinin xüsusiyyətləri araşdırılmışdır.

Cəmiyyətdə təzahür edən prosesləri müxtəlifliyi, ziddiyyəti, sosiallığı, ictimailiyi və s. fərqli prizmalardan analiz etmək mümkümdür. Təbiidir ki, tarixdə hər dövrü xarakterizə edən aktual problemlər mövcud olmuşdur. Bu problemlərdən biri də dünyada baş verən cinayət hadisələri, bu cinayətlərin araşdırılması, istintaq prosesinin həyata keçirilməsi, cinayətkarın yaxalanması və ədalətin bərqərar olmasıdır. Dünyada baş verən cinayət proseslərinin artması ədəbiyyatda cinayət mövzularının yaranmasına zəmin yaratmışdır. Detektiv əsər cəmiyyətdəki sosial və mədəni dəyişikliklərin qeydə alındığı dinamik sistemdir. Bu mövzuda yazılmış əsərlər nizamsız dünyada əxlaq kodeksini qoruyurlar. Detektiv nəsrin dünya ədəbiyyatında sürətlə formalaşmasında tərcümə əsərlərinin, ədəbiyyatşünasların hazırlamış olduğu ümumi konsepsiya modellərinin tətbiq olunmasının böyük əhəmiyyəti olmuşdur. XIX əsrin ikinci yarısından etibarən dünya ədəbi-tarixi prosesində bir sıra dəyişikliklər baş vermiş, yeni istiqamətlər və janrlar yaranmışdır. Belə bir ədəbi-mədəni prosesin nəticəsində yaranan janrlardan biri də detektiv janrdır. Detektiv nəsrin formalaşma və inkişaf xüsusiyyətləri müxtəlif ölkələrdə fərqlidir. Qazax ədəbiyyatında sovet dövründə detektiv nəsrin əsası Kemel Tokayev tərəfindən qoyulmuşdur.

Kemel Tokayev qazax ədəbiyyatında böyük istedadı və peşəkar bacarığı sayəsində tərcümə və publisistikanı birləşdirərək nəsr sahəsində detektiv janrının əsasını qoyub [1]. Dedektiv janr hadisələrin və kriminal situasiyaların araşdırılmasının və günahkarların axtarışının mürəkkəb yollarını təsvir edir. Yazıçının əsərlərində cinayətkarın tövbəsi, cəmiyyətdə qəribə davranışların ifşası, ədalətsizliklə qanunsuzluq arasındakı ziddiyyətin müəyyən edilməsi, cinayətkarın tutulması başlıca məsələlərdəndir. Müəllifin əsərləri rus və ingilis dillərinə çevrilmiş və oxucular əsasında məşhurluq qazanmışdır.

Kemel Tokayevin 1977-ci ildə yazmış olduğu "Damğalı qızıl" [3] povesti polis detektivinin maraqlı nümunəsidir. Ədib əsərdə obrazların davranışı və danışıq tərzi ilə həyat həqiqətini, onların xarakterlərini məharətlə göstərir, onları düşündürən məsələləri cəsarətlə ortaya qoyur, problemə baxış və konsepsiyalarını obrazlar va-

sitəsilə cəmiyyətə çatdırmışdır. Povestdə müəllif obrazlar arasında konfliktli situasiyalar yaradaraq personajların şəxsiyyətini, hisslərini, düşüncələrini daha aydın üzə çıxmasına şərait yaratmışlar. Müəllifin əsərlərinin ən mühüm dəyəri həyatın aktual problemlərini əsas hekayə xətti ilə əlaqələndirməsi, bununla da insanı tanıması, onun cəmiyyətlə münasibətini məharətlə təsvir etməsidir.

Damğalı qızıl povestində qızıl möhtəkirliyi və qaçaqmalçılığı, qarət və cinayət məsələləri, qanunların pozulmasına şərait yaradan amillər tənqid olunmuşdur. Bu əsər qızıl möhtəkirçiliyi mövzusuna həsr olunmuşdur və burada əsasən insanların qızılı öz mənfəətləri üçün necə yığması, bu amilin cəmiyyətdə yaratdığı neqativ təsirlər və insan münasibətlərinə olan mənfi təsirləri təhlil olunur. Əsərdə möhtəkirçiliklə bağlı mənəvi dəyərlərin itirilməsi, qızılın maddi sərvət kimi əhəmiyyətinin artırılması və bununla bağlı insanların bencilliyi, tamahkarlığı və vicdansız hərəkətləri geniş işıqlandırılır. Qızıl möhtəkirçiliyi təkcə fərdi səviyyədə yox, həm də sosial və iqtisadi problemlərə səbəb olaraq, cəmiyyətin inkişafını əngəlləyən amil kimi təqdim edilir.

Əsər Lyaşkerovun şahidliyi ilə başlayır, lakin o Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşlarına qızıl möhtəkirləri haqqında geniş məlumat verə bilmir. Çünki, hadisə onun həyətində gecə vaxtı baş vermişdi. Tanımadığı bir şəxs zülmət qaranlıqda ona gözlənilmədən qızıl külçələri vermişdi. Bu təsadüfi və sirli görüş Lyaşkerovun həyatında yeni bir mərhələ açır, amma o, qızılların necə və niyə ona verildiyini dəqiq bilmədiyi üçün vəziyyət çaşqınlıq yaratmışdı. Bundan sonra əsərdə mayor Kirsanov, Sergey Yepivafonoviç və podpolkovnik Bessonov bir araya gələrək Lyaşkerovun şahidliyi və onun həyətində aldığı qızıl külçəsi barədə verdiyi məlumatların doğruluğunu müzakirə edirlər. Onlar toplantıda Lyaşkerovun söylədiklərini diqqətlə analiz edir, hadisənin necə baş verdiyini və şahidin etibarlılığını qiymətləndirirlər. Mayor Kirsanov qeyd edir ki, Lyaşkerovun verdiyi məlumatlar çox səthi və qeyri-dəqiqdir, o, qızılların ona necə və niyə verildiyi barədə ətraflı danışmır, bu isə araşdırmanın gedişatında böyük çətinliklər yaradır. Sergey Yepivafonoviç isə Lyaşkerovun sözlərində müəyyən tutarsızlıqlar gördüyünü vurğulayır və bu səbəbdən onun ifadələrinə ehtiyatla yanaşmaq lazım olduğunu bildirir. Podpolkovnik Bessonov isə toplantıda məhz belə qeyri-dəqiqliklərin qızıl möhtəkirçiliyinin gizli şəbəkəsinin ortaya çıxarılmasını çətinləşdirdiyini, ona görə də Lyaşkerovun ifadələrinin dəqiqləşdirilməsi və əlavə sübutların tapılması vacib olduğunu söyləyir. Bu səhnə əsərin gərginliyini artırır və oxucunu mövzu ilə daha dərindən tanış etməyə səsləyir. Lyaşkerovun passiv mövqeyi və məhdud məlumatı qızıl möhtəkirçiliyinin mürəkkəbliyini və gizli xarakterini vurğulayır. Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları isə onun bu hadisə barədə verdiyi az və qeyri-dəqiq məlumatlarla vəziyyəti araşdırmağa çalışırlar. Nəticə də, isə işin izlərinin araşdırılması Şaydos Kanısbayeviçə verildi.

Qızıl külçələrinin ekspertizası zamanı mütəxəssislər müəyyən edirlər ki, külçə başqa bir dövlətə məxsusdur. Lakin külçənin hansı ölkəyə aid olduğu dəqiq məlum olsa da, bu məlumat şifrələnmiş şəkildə saxlanılır və açıq şəkildə açıqlanmır. Bu,

araşdırmanın təhlükəsizlik tədbirləri və diplomatik məxfilik səbəbləri ilə bağlıdır. Bundan sonra onlar bir sual ətrafında düşünürlər: başqa dövlətə məxsus, damğalı qızıl ölkəmizə necə gəlib?. Bu sirr onların işini daha da çətinləşdirir və araşdırmanın gərginliyini artırır, həmçinin oxucuda maraq və təəccüb yaradır. Onların bu sual üzərində düşünməsi vəziyyətin sadəcə daxili möhtəkirçilik deyil, həm də daha böyük, beynəlxalq miqyaslı qanunsuz fəaliyyətlərlə bağlı ola biləcəyini göstərir. Mətndə "buynuz" ifadəsi xüsusi kodlaşdırılmış termin kimi istifadə olunur. Burada maral buynuzlarının yüksək qiymətləndirilməsi və bu məhsulun satışından əldə olunan gəlir vasitəsilə qızıl külçəsinin alınması barədə fikir irəli sürülür. Bu, qeyri-rəsmi iqtisadi fəaliyyətlərin, qaçaqmalçılıqla bağlı olan başqa bir bazarın da mövcudluğunu göstərir. Beləliklə, möhtəkirlik yalnız qızılla məhdudlaşmır, başqa əmtəələrin də qaçaqmalçılığı ilə bağlı ola bilər. Bu məqam əsərin əsas ideyasını zənginləşdirir. Yəni, möhtəkirçilik yalnız təkcə qızıl kimi dəyərli metalın yığılması və qanunsuz satışı ilə məhdudlaşmır, əksinə, müxtəlif qiymətli və nadir əmtəələrin — maral buynuzları kimi qeyri-rəsmi iqtisadiyyata daxil olması ilə də genişlənir. Bu, şəbəkənin çoxşaxəliliyini və beynəlxalq əlaqələrini göstərir. Maral buynuzlarının satışı ilə əldə olunan gəlirin qızıl külçələrinin alınmasına sərf olunması, qaçaqmalçılıq zəncirinin mürəkkəbliyini və cinayətkarların iqtisadi imkanlarının genişliyini ortaya qoyur.

Əsərdə qızıl möhtəkirçiliyi ilə məşğul olan dəstənin başçısı Qazarx-Qureyevdir. O, öz əlaltıları ilə — Taub, Samat, Aqapov, Japarov və Bakiyev əlbir şəkildə işləyir. Dövlət Təhlükəsizlik Komitəsi əməkdaşları qızıl möhtəkirçiliyi ilə məşğul olan dəstənin üzvlərini və onların fəaliyyət dairəsini tam dəqiqliklə müəyyən etmək üçün genişmiqyaslı əməliyyatlara start verir. Əməkdaşlar hər bir üzvün rolunu, əlaqələrini və qaçaqmalçılıq sxemlərini sistemli şəkildə araşdırır, toplanan məlumatları analiz edir, həmçinin əməliyyat zamanı müxtəlif texniki və kəşfiyyat vasitələrindən istifadə edirlər. Əməliyyatlar çərçivəsində əvvəlcə dəstənin əlaltıları – Taub, Samat, Aqapov, Japarov və Bakiyev – tədricən yaxalanır. Onların hər biri ayrı-ayrılıqda ifadə verməyə məcbur edilir və istintaq zamanı şəbəkənin necə qurulduğu, qızılın ölkəyə necə gətirildiyi, qaçaqmalçılığın hansı marşrutlar üzrə həyata keçirildiyi, habelə xarici əlaqələrin miqyası haqqında ətraflı məlumatlar əldə olunur. Əldə olunan sübutlar və ifadələr əsasında Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları növbəti mərhələdə əməliyyatları daha da genişləndirir, qızıl möhtəkirçiliyi şəbəkəsinin digər iştirakçılarını və əlaqədar şəxsləri müəyyən edir. Bu mərhələdə şəbəkənin ölkə daxilindəki və xaricdəki bağlantıları da üzə çıxarılır.

Nəhayət, uzun və çətin araşdırmalar, əməliyyatlar və təqiblər nəticəsində dəstənin başçısı Qazarx-Qureyev tutulur. Bu hadisə dövlət orqanlarının səmərəli işini və möhtəkirliklə mübarizədə qətiyyətini nümayiş etdirir. Eyni zamanda, qızıl möhtəkirçiliyi kimi ciddi cinayətlərə qarşı hüquq-mühafizə orqanlarının genişmiqyaslı və çoxşaxəli əməliyyatların aparılması zəruriliyini vurğulayır.

Polis detektivi mövzusunda yazılan əsərlərdə cinayətkarların əsas xüsusiyyətlərindən biri onların şəxsiyyətlərini və kimliklərini gizlətmək üçün müxtəlif üsullara əl atmalarıdır. Bu, onların tutulmaqdan yayınmaq və istintaqdan gizlənmək üçün

istifadə etdikləri ən mühüm vasitələrdən biridir. Əsərlərdə tez-tez rast gəlinən bu taktikalar arasında saxta sənədlərdən istifadə, geyim dəyişiklikləri, yeni kimliklərin əldə edilməsi və ümumiyyətlə özlərini tanınmaz hala gətirmək yer alır. Bu üsullar cinayətkarların izlərini itirməsi və hüquq-mühafizə orqanlarından yayınması üçün effektiv alətlərdir. Damğalı qızıl" əsərində də bu elementlər bariz şəkildə öz əksini tapır. Məsələn, Japarovun geyimini dəyişməsi onun polis əməkdaşlarından gizlənməsinin əsas yollarından biridir. Geyim dəyişmək, xüsusilə də xarici görünüşü dəyişdirmək cinayətkarların ən sadə, lakin çox təsirli vasitələrindən biridir. Bu üsul onların tanınmaz olmasına və şəxsiyyətlərinin aşkar edilməsinin çətinləşməsinə səbəb olur. Japarov bu yolla təhlükədən qaçaraq müvəqqəti azadlıqda qalmağa nail olur.

Eyni zamanda, Qazarx-Qureyevin kimliyini dəyişməsi daha mürəkkəb və planlı bir hiylədir. O, özünə aid olmayan sənədləri ələ keçirərək və istifadə edərək, saxta şəxsiyyət yaradır. Bu, onun hüquq-mühafizə orqanlarının axtarışından yayınması və fəaliyyətlərini davam etdirməsi üçün həyati əhəmiyyət daşıyır. Bir sözlə, bu nümunələr əsərdə cinayətkarların nə qədər səmərəli və hiyləgər şəkildə özlərini müdafiə etdiyini göstərir. Həmçinin, bu, hüquq-mühafizə orqanlarının işini nə qədər çətinləşdirdiyini və istintaq prosesinin mürəkkəbliyini vurğulayır. Detektiv əsərlərdə belə gizlilik və şəxsiyyət dəyişdirmə motivləri oxucunu heyrətləndirir, gərginliyi artırır.

Əsərin sonunda "Damğalı qızıl" əsərində qızıl möhtəkirliyi və qaçaqmalçılığı ilə məşğul olan Qazarx-Qureyev və onun əlaltıları polis əməkdaşları tərəfindən cinayətə cəlb olunmuşdur. Detektiv nəsrə məxsus sonluqla- xeyrin şər üzərində qələbəsi ilə bitmişdir. Sonluq oxucuya həm də sosial mesaj verir: hansı qədər mürəkkəb və güclü cinayətkar şəbəkələr olsa da, dövlət orqanlarının və cəmiyyətin birliyi ilə ədalət təmin edilə bilər. Əsərdə real həyatdan götürülmüş detallar və hadisələr vasitəsilə kriminal problemlərin həlli, hüquq-mühafizə orqanlarının rolu vurğulanır.

"Damğalı qızıl" əsəri qızıl möhtəkirçiliyi və qaçaqmalçılıq mövzusunu geniş və dərindən işıqlandıran, həmçinin detektiv janrının bütün əsas elementlərini uğurla birləşdirən bir ədəbiyyat nümunəsidir. Əsər vasitəsilə oxucuya yalnız cinayət və onun nəticələri deyil, həm də bu cür qanunsuz fəaliyyətlərin ölkənin iqtisadi və sosial təhlükəsizliyinə vurduğu ciddi zərbə göstərilir. Dövlət Təhlükəsizlik Komitəsi əməkdaşlarının fədakar və sistemli işi, cinayətkarların hiyləgər üsullarını ifşa etməsi və ədalətin bərpa olunması əsərin əsas ideyasını təşkil edir. "Damğalı qızıl" oxucuya xeyir və ədalətin şər üzərində qələbəsinin mümkünlüyünü nümayiş etdirir, bu da əsəri həm maarifləndirici, həm də düşündürücü edir.

Kemel Tokayevin əsərləri müasir qazax nəsrində ənənənin davamlılığını möhkəm şəkildə qoruyub saxlayır və xüsusilə qiymətlidir. Ədiblər ictimaiyyəti davamlı inkişafa can atan cəmiyyətin həyatına öz zəkası, yaradıcılığı, konkret qənaətləri ilə təsir edən, onun istiqamətinə təsir edə bilən əsas qüvvədir. Məhz buna görə də bir ziyalı nümayəndəsinin tarixini öyrənmək, onun yaradıcılıq yolunun formalaşmasını, bununla da ədəbiyyata verdiyi töhfələri təhlil etmək, onun tərbiyəvi cəhətlərini üzə çıxarmaq, onlara qiymət vermək ən mühüm vəzifələrdəndir.

Ədəbiyyat siyahısı:

1. *Аяпова Г. "Development Of The Detective Genre In Kazakh Literature (based on the prose of Kemel Tokayev)." Актуальные научные исследования в современном мире 1-5 (2020): 55-58.*
2. *Chesterton G. "How to write a Detective Story." The Chesterton Review 10.2 (1984): 111-118.*
3. *Gecə açılan atəş: (povestlər). Bakı: Qanun. 2022, 431 s.*
4. *Lətifli S. Kemel Tokayev: Detektivinin təşəkkülü və inkişaf xüsusiyyətləri //Conferences. – 2025. https://doi.org/10.59849/iscapltmt.2024.54*
5. *Lətifli S. Cəmşid Əmirovun "Brilyant məsələsi" vəKemel Tokayevin "Damğalı qızıl" povestlərindəpolis detektivinin əlamətləri. Müqayisəli ədəbiyyatşünaslıq, 2023, s.105-109. DOI: https://doi.org/10.59849/2663-4414.20*
6. *Шакиев М. "Кемел Тоқаев: Қаламгерлік-Тұлғалық Жолының Тарихы". Вестник "Исторические и социально-политические науки" 1.76 (2023).*

QARABAĞIN VƏ ŞƏRQİ ZƏNGƏZURUN İŞĞALDAN AZAD OLUNMASININ ÜMUMTÜRK TARİXİ KONTEKSTDƏ ƏHƏMİYYƏTİ

Jalə İsmayılova
Bakı Avrasiya Universiteti və Bakı Dövlət Universitetinin Tarix fakültəsi,
tarix üzrə fəlsəfə doktoru, dosent
zhala.ismayilova2016@gmail.com

Açar sözlər: *Qarabağ, Vətən müharibəsi, azadlıq, bərpa, ümumtürk tarixi, mədəni irs*
Keywords: *Turkestan; Russian Empire; rebellion; national uprising.*

Qarabağ bölgəsi Azərbaycan üçün yalnız ərazi vahidi deyil, həm də milli kimliyin, tarix və mədəniyyətin mərkəzi hesab olunur. 2020-ci ildə baş vermiş Vətən müharibəsi nəticəsində Qarabağın işğaldan azad olunması yalnız Azərbaycan üçün deyil, ümumtürk dünyası üçün də mühüm hadisə kimi qiymətləndirilir. Bu hadisə həm tarixi ədalətin bərpası, həm də türk xalqları arasında ortaq mədəni və tarixi dəyərlərin qorunması baxımından əhəmiyyətlidir.

Müasir dövrdə türk dünyasının inkişafı və inteqrasiya prosesləri yalnız iqtisadi və siyasi sahələrlə məhdudlaşmır, eyni zamanda mədəni və tarixi birlik faktorları üzərində də formalaşır. Qarabağın azad olunması hadisəsi, ümumtürk tarixində milli dirçəliş nümunəsi kimi qiymətləndirilir və gələcək nəsillər üçün tarixi yaddaşın qorunmasında mühüm rol oynayır.

Bu tezisdə məqsəd, Qarabağın işğaldan azad olunmasının Azərbaycan və ümumtürk tarixi kontekstində əhəmiyyətini araşdırmaq, əldə olunan nəticələrin regional və mədəni perspektivlərini göstərməkdir. Vəzifələr sırasında tarixi kontekstin təqdim edilməsi, işğal dövrünün təsirlərinin təhlili, azadlıq və bərpa proseslərinin izahı və ümumtürk tarixi baxımından hadisənin önəminin dəyərləndirilməsi nəzərdə tutulur.

Tarixi Kontekst. Qarabağ bölgəsi Azərbaycanın tarixi ərazisi olmaqla, qədimdən türk-müsəlman mədəniyyətinin mərkəzlərindən biri olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918–1920) Qarabağ inzibati bölgəsi Azərbaycan

Respublikasının tərkibində sayılırdı və bu ərazi milli inkişaf baxımından strateji əhəmiyyət daşıyırdı. Sovet dönəmində isə 1923-cü ildə Qarabağ Muxtar Vilayəti yaradılmış, bununla da bölgənin inzibati statusu müəyyən edilmişdir.

Tarixi mənbələrə görə, Qarabağ xanlığı 18-ci əsrdə Azərbaycan türklərinin siyasi təşkilatlanmasının nümunəsi olmuşdur [2, s.456]. Burada tikilmiş memarlıq nümunələri, qalalar, məscidlər və digər abidələr türk-müsəlman mədəniyyətinin davamlılığını göstərir [5, s.3-10].

1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, xüsusilə Dağlıq Qarabağ bölgəsində etnik təmizləmə siyasəti nəticəsində bölgədə yaşayan azərbaycanlılar deportasiya olunmuşdur. Yüz minlərlə azərbaycanlı öz yurd-yuvalarını tərk etmək məcburiyyətində qalmış, tarixi-mədəni irs isə ciddi təhdid altında olmuşdur [3, s.284].

Bütün bu tarixi proseslər göstərir ki, Qarabağ bölgəsi yalnız Azərbaycan üçün deyil, ümumtürk mədəni və tarixi irsi üçün də strateji əhəmiyyətə malik olmuşdur.

İşğal dövrü və nəticələri. 1988–1994-cü illər arasında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Qarabağ və ətraf 7 rayon işğal edilmişdir. İşğal zamanı yüz minlərlə azərbaycanlı etnik təmizləmə siyasəti nəticəsində öz evlərini tərk etmək məcburiyyətində qalmışdır. Azərbaycan Respublikası MDTA arxiv məlumatına görə, 1992-ci il ərzində Xankəndi və Şuşa şəhərlərindən təxminən 80 min azərbaycanlı qaçqın düşmüşdür [1, f.44, siy.2, iş 26, vv.3-5].

İşğal dövründə Qarabağın tarixi və mədəni irsi ciddi zərər görmüşdür. Şuşa şəhərində 1992-ci ilin may ayında məscidlər, mədəni abidələr və tarixi binalar dağıdılmış, şəhərin demoqrafik tərkibi dəyişdirilmişdir. Məmmədov M.A. qeyd edir: "Şuşa şəhərinin mədəni irsi işğal dövründə ciddi dağıntılara məruz qalmış, tarixi memarlıq abidələri məqsədli şəkildə məhv edilmişdir" [4, s.14 may].

Ermənistanın ərazi iddiaları yalnız hərbi deyil, həm də informasiya müharibəsi xarakteri daşıyırdı. Tarixi saxtalaşdırmalar nəticəsində Qarabağın Azərbaycan tarixi kontekstindəki rolu yanlış təqdim edilmiş, bölgədə yaşayan azərbaycanlıların hüquqları rədd edilmişdir [3, s.284].

İşğal dövrü həm də ümumtürk dünyası üçün bir sınaq olmuşdur. Türk xalqları arasında tarixi və mədəni əlaqələrin qorunması ehtiyacı bu dövrdə daha aydın görünmüş, diasporada dəstək kampaniyaları genişlənmişdir

Azadlıq və Bərpa prosesləri. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri 44 gün davam edən hərbi əməliyyatlar nəticəsində Qarabağın işğaldan azad edilməsini təmin etmişdir. Azərbaycan Prezidentinin rəsmi məlumatına görə, 8 noyabr 2020-ci il tarixində atəşkəs razılaşması ilə ərazilərin bir hissəsi azad olunmuşdur [6].

Azad edilən ərazilərdə bərpa və quruculuq işləri sürətlə aparılmışdır. Şuşa şəhərində tarixi memarlıq abidələrinin bərpası, məscidlərin və teatr binalarının yenidən istifadəyə verilməsi bu prosesin nümunələrindəndir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il sərəncamına əsasən, Qarabağ bölgəsində sosial infrastrukturun bərpasına və mədəni irsin qorunmasına xüsusi diqqət göstərilmişdir.

Bərpa işləri həm də bölgədə sosial-iqtisadi həyatın bərpasına yönəlmişdir. Məktəblər, xəstəxanalar, yollar və yaşayış məntəqələri yenidən qurulmuş, minlərlə azərbaycanlı öz yurdlarına qayıtmışdır. Bu, milli həmrəyliyin və tarixi haqqın bərpasının real göstəricisi olmuşdur.

Bərpa işlərinin mühüm tərəfi həm də ümumtürk mədəni əlaqələrinin gücləndirilməsidir. Türksoy və digər ümumtürk təşkilatları Qarabağın mədəni irsinin qorunmasında fəal iştirak etmişdir.

Ümumtürk Tarixi Kontekstdə Əhəmiyyəti. Qarabağın işğaldan azad olunması yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası üçün tarixi bir hadisə kimi qiymətləndirilir. Məsələn, Türk Dövlətləri Təşkilatının bəyanatında qeyd olunur: "Azərbaycanın Qarabağ bölgəsində həyata keçirdiyi bərpa və mədəni irsin qorunması layihələri türk dünyasının ortaq mədəni dəyərlərinə töhfə verir" [7].

Tarixi baxımdan, Qarabağ bölgəsi türk xalqları üçün mədəniyyət və dövlətçilik nümunələrinin qorunduğu bir məkandır. Buradakı abidələr, qalalar, məscidlər və teatr binaları Azərbaycan və türk dünyasının ortaq tarixinin göstəriciləridir [2, s.456].

Bundan əlavə, Qarabağın azad olunması türk dövlətləri arasında inteqrasiya proseslərinə də təsir göstərmişdir. İkitərəfli və çoxtərəfli əməkdaşlıq, həmçinin Türksoy və digər mədəni təşkilatlar vasitəsilə bölgədəki mədəni və tarixi irsin qorunması, ümumtürk dünyasında birgə milli şüurun formalaşmasına töhfə verir.

Ümumiyyətlə, Qarabağın işğaldan azad olunması və bərpası hadisəsi göstərir ki, tarixi ədalətin bərpası və mədəni irsin qorunması yalnız milli deyil, regional və ümumtürk miqyasda da

əhəmiyyətlidir .

Ümumtürk Tarixi Kontekstdə Qarabağın Azad Olunması və Türk Dövlətlərinin Fəaliyyəti. 2020-ci il Vətən müharibəsi nəticəsində Qarabağın azad olunması yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası üçün tarixi bir hadisə olmuşdur. Zəfərdən sonra türk dövlətləri və onların yüksək səviyyəli nümayəndələri bölgədə bir sıra diplomatik, mədəni və iqtisadi layihələr həyata keçirmiş, azad olunmuş ərazilərdə tarixi və mədəni irsin qorunması istiqamətində fəaliyyət göstərmişdir. Bu hadisələr ümumtürk həmrəyliyinin güclənməsi, regionda sabitliyin təmin olunması və türk dövlətləri arasında əlaqələrin möhkəmlənməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Türkiyə Respublikasının nümayəndə heyətləri 2021-ci ilin yayında Qarabağa səfər etmiş, Şuşa və Hadrut bölgələrində məktəblər, teatrlar və muzeylər üçün birgə layihələrə start vermişdir. Türkiyə Prezidenti Recep Tayyip Erdoğan və vitse-prezident Cevdet Yılmaz səfər zamanı Qarabağın mədəni və tarixi abidələrinin bərpası üçün konkret maliyyə və texniki dəstək vəd etmiş, regionun mədəni infrastrukturu ilə yaxından tanış olmuşlar. Bu səfərlər Azərbaycan-Türkiyə münasibətlərini daha da möhkəmləndirmiş və azad edilmiş torpaqlarda mədəni irsin qorunması üçün praktiki addımlar atılmasına zəmin yaratmışdır.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev və mədəniyyət naziri 2022-ci ilin sentyabrında Qarabağa səfər etmiş, azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinə dəstək verməyə hazır olduqlarını bəyan etmişlər. Füzuli rayonunda məktəb və uşaq yaradıcılıq mərkəzinin tikintisi Qazaxıstanın layihələrindən biri olmuş, bu layihələr türk xalqları arasında mədəni əlaqələrin gücləndirilməsinə xidmət etmişdir. Həmçinin, Qırğızıstan Prezidenti Sadır Japarov və digər yüksək səviyyəli nümayəndələri Şuşa və ətraf bölgələrə səfərlər edərək bərpa və infrastruktur layihələrini dəstəkləmiş, türk dövlətləri arasında koordinasiyanın inkişafına töhfə vermişlər.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və mədəniyyət nazirləri Qarabağa səfərlər edərək bərpa və mədəni irsin qorunması layihələrində iştirak etmiş, Şuşa Dövlət Musiqi və Dram Teatrının bərpası layihəsini dəstəkləmişlər. Bu layihələr Qarabağın ümumtürk mədəniyyətinin simvolu olduğunu göstərmiş, bölgədə türk dünyasının ortaq mədəni dəyərlərinin qorunmasına xidmət etmişdir. Türkmənistan və digər türk dövlətlərinin nümayəndələri də azad edilmiş ərazilərə rəsmi səfərlər edərək mədəni, təhsil və humanitar layihələrə dəstək göstərmişlər. Bütün bu səfərlər və layihələr Qarabağın yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası üçün ortaq tarixi və mədəni dəyərə malik olduğunu nümayiş etdirmişdir.

2024-cü il iyul ayında Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstan liderləri iştirak etmiş, "Qarabağ Bəyannaməsi" imzalanmışdır. Bəyannamədə türk dünyasının ortaq etnik-tarixi-mədəni köklərinə, Qarabağ və azad olunmuş torpaqların bərpası və inteqrasiyasına birgə dəstək göstərilməsi nəzərdə tutulmuşdur. Bu bəyannamə türk dövlətləri arasında diplomatik və mədəni əməkdaşlıq üçün yeni platforma yaratmış, Qarabağın ümumtürk tarixindəki əhəmiyyətini beynəlxalq səviyyədə təsdiqləmişdir.

Bütün bu fəaliyyətlər göstərir ki, Qarabağın azad olunması və bərpası prosesi yalnız ərazi bütövlüyünün bərpası deyil, həm də türk dünyasında mədəni və tarixi dəyərlərin qorunması, ümumtürk həmrəyliyinin möhkəmləndirilməsi və gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyətlidir. Azad edilmiş torpaqlarda türk dövlətləri tərəfindən həyata keçirilən məktəb, mədəniyyət və infrastruktur layihələri Qarabağın ümumtürk dünyası üçün ortaq simvola çevrilməsinə xidmət edir və bu regionun davamlı inkişafı üçün strateji önəm kəsb edir.

Nəticə. 2020-ci ildə Qarabağın işğaldan azad olunması hadisəsi Azərbaycan üçün milli qürur, türk dünyası üçün isə ortaq tarixi və mədəni irsin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu hadisə yalnız ərazi bütövlüyünün bərpası deyil, eyni zamanda tarixi ədalətin təminatı və milli kimliyin qorunmasıdır.

Azadlıq və bərpa prosesləri nəticəsində Qarabağda mədəni irs bərpa edilmiş, sosial və iqtisadi infrastruktur yenidən qurulmuş, minlərlə azərbaycanlı öz yurduna qayıtmışdır. Bu proseslər həm də ümumtürk dünyasında birgə mədəni və tarixi dəyərlərin qorunmasına nümunə olmuşdur.

Ümumtürk tarixi kontekstdə hadisənin əhəmiyyəti, türk xalqları arasında inteqrasiya və ortaq milli şüurun möhkəmlənməsində özünü göstərir. Qarabağın azad olunması, gələcək nəsillərə tarixi yaddaşın qorunmasını təmin edir və türk dünyasında mədəni irsin inkişafına töhfə verir.

Nəticə etibarilə, Qarabağın işğaldan azad olunması, bərpa və quruculuq işləri, ümumtürk tarixində bir dönüm nöqtəsi kimi qiymətləndirilə bilər.

Ədəbiyyat siyahısı:

1. *Azərbaycan Respublikası MDTA: f.44, siy.2, iş 26, vv.3-5.*
2. *Azərbaycan tarixi. 7 cilddə, IV cild. Bakı: Elm, 2000, 456 s.*
3. *Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 284 s.*
4. *Məmmədov M.A. Faciə janrının tədqiqi. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1966, 14 may.*
5. *Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə. Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. Bakı: Nurlan, 2003, s.3-10.*
6. *Şuşa şəhəri işğaldan azad edildi! // https://beu.edu.az/az/article/susa-seheri-isgaldan-azad-edildi-540. İstinad tarixi: 20.12.2020*
7. *Türk Dövlətləri Təşkilatı, 12 noyabr 2021. https://president.az/az/articles/view/54183*

MƏDƏNİ YADDAŞ VƏ SOSİAL PSİXOLOGİYA: TÜRK DÜNYASINDA KOLLEKTİV KİMLİYİN İNKİŞAFI

Gültəkin Knyazova
Mingəçevir Dövlət Universitetinin "Pedaqogika və Psixologiya" kafedrasının müəllimi
yusifligultekin28@gmail.com;
https://orcid.org/0009000850744821

Açar sözlər: *türk dünyası, mədəni dəyərlər, kollektiv şüur, sosial psixologiya, milli kimlik, ortaq yaddaş*
Keywords: *Turkic world, cultural values, collective consciousness, social psychology, national identity, collective memory*

Bu məqalədə türk dünyasında mədəni dəyərlərin formalaşması və kollektiv şüurun inkişafında psixoloji faktorların rolu elmi-praktik baxımdan təhlil olunur. Tədqiqatda əsas diqqət türk xalqlarının ortaq mədəni kodlarının, mənəvi dəyərlərinin və milli kimlik şüurunun yaranmasında sosial-psixoloji mexanizmlərin təsirinə yönəldilmişdir. Mədəniyyətin sosial psixologiya ilə qarşılıqlı əlaqəsi araşdırılaraq, kollektiv yaddaş, sosial identifikasiya və milli özünüdərk kimi anlayışların türk xalqlarının birliyindəki əhəmiyyəti açıqlanır. Məqalə həm nəzəri, həm də empirik yanaşmalar əsasında kollektiv kimliyin psixoloji əsaslarını müəyyənləşdirir və müasir dövrdə türk dünyasının birliyi üçün bu amillərin strateji əhəmiyyətini vurğulayır.

Giriş: Türk dünyasının mədəni və mənəvi birliyi qədim tarixdən bəri formalaşmış ortaq dəyərlər, dil, din, adət-ənənə və sosial davranış modelləri üzərində qurul-

muşdur [6]. Bu dəyərlər yalnız mədəniyyətin zahiri təzahürləri deyil, həm də türk xalqlarının psixoloji düşüncə tərzini, kollektiv yaddaşını və sosial kimliyini müəyyənləşdirən əsas sütunlardır . XXI əsrdə qloballaşma və informasiya axınının sürətlənməsi fonunda milli-mədəni dəyərlərin qorunması və bu dəyərlər üzərində formalaşan kollektiv şüurun davamlılığı xüsusi əhəmiyyət kəsb edir.

Kollektiv şüur anlayışı ilk dəfə fransız sosioloqu Emil Dürkheym tərəfindən işlədilmişdir [3]. Kollektiv şüur fərdlərin ümumi dəyərlər, inanclar və davranış normaları ətrafında birləşməsi nəticəsində cəmiyyətin mənəvi bütövlüyünü təmin edən sosial-psixoloji mexanizmdir. Türk xalqlarının tarixi inkişafı da məhz bu kollektiv şüurun mədəni dəyərlər vasitəsilə nəsildən-nəslə ötürülməsi nəticəsində mümkün olmuşdur.

Mədəni dəyərlər insanların emosional və idraki davranış sistemini tənzimləyir, onların mənəvi orientasiyasını müəyyənləşdirir və milli kimlik hissini möhkəmləndirir. Psixoloji baxımdan isə bu dəyərlər fərdlərin sosial mühitlə əlaqəsində "biz" duyğusunu formalaşdırır, kollektiv kimliyin əsasını qoyur. Beləliklə, mədəniyyət və psixologiya bir-birini tamamlayan iki fundamental sahə kimi çıxış edir — birincisi cəmiyyətin mənəvi məzmununu, ikincisi isə onun sosial-emosional mexanizmini müəyyənləşdirir.

Mədəni dəyərlər sosial sistemin mənəvi kodu kimi çıxış edir və insanların davranışını, münasibətlərini, sosial inteqrasiyasını tənzimləyir. Mədəniyyətin bu funksiyası yalnız tarixi-mədəni proseslərdə deyil, həm də sosial psixologiyanın əsas qanunauyğunluqlarında öz əksini tapır. Dəyərlər insanların qavrayış sisteminə daxil olur, şəxsiyyətin psixoloji strukturu ilə birləşərək onun davranış motivlərini formalaşdırır [8].

Psixoloji baxımdan dəyərlər insanların emosional oriyentasiyasını müəyyənləşdirir. Məsələn, türk xalqlarında qonaqpərvərlik, cəsarət, ailə bağlarına sadiqlik və böyüyə hörmət kimi dəyərlər yalnız mədəni norma deyil, həm də şəxsiyyətin formalaşmasında mühüm psixoloji təməl rolunu oynayır. Bu dəyərlərin uşaqlıqdan təlqin olunması, sosial öyrənmə mexanizmləri vasitəsilə nəsildən-nəslə ötürülməsi kollektiv psixoloji irsin davamlılığını təmin edir [2].

Sosial psixologiyada dəyərlərin formalaşması prosesi sosial identifikasiya mexanizmi ilə izah edilir. Fərd müəyyən bir qrupa mənsubiyyət hiss edərkən onun dəyərlər sistemini də qəbul edir. Türk xalqlarında bu mənsubiyyət hissi "millət" və "soy" anlayışları ilə eyniləşdirilir. Bu kimlik hissi fərdlərin sosial davranışlarını istiqamətləndirən əsas psixoloji mexanizmdir.

Müasir dövrdə türk dünyasında mədəni inteqrasiya milli kimliyin və ortaq şüurun qorunmasında mühüm strateji rol oynayır. Ortak dəyərlər və mədəni ənənələr fərdlər arasında "biz" duyğusunu gücləndirir və kollektiv identifikasiyanın formalaşmasına təkan verir. Qloballaşma və informasiya texnologiyalarının inkişafı türk xalqları arasında mədəni ünsiyyəti artırsa da, eyni zamanda milli dəyərlərin zəifləmə riski ilə üzləşdirir.

Eyni zamanda, emosional bağlılıq və simvolik identifikasiya, məsələn, bayraq, himn və milli qəhrəman obrazları, kollektiv şüurun psixoloji dayaqlarını gücləndirir və milli birliyin möhkəmlənməsini təmin edir. Mədəni və sosial psixoloji strategiyalar birgə tətbiq edildikdə, türk dünyasında milli və kollektiv identifikasiya uzun müddətli davamlılıq qazanır və gələcək nəsillər üçün möhkəm bir mədəni və mənəvi zəmin yaradır.

Mədəni dəyərlər həm də kollektiv emosional yaddaşın daşıyıcısıdır. Bir xalqın keçmiş tarixi hadisələrə verdiyi emosional münasibət onun gələcəkdəki davranış normalarını formalaşdırır. Türk dünyasında qəhrəmanlıq salnamələri, dastanlar və folklor nümunələri bu emosional yaddaşın qorunmasına xidmət etmişdir. Beləliklə, mədəniyyət yalnız obyektiv dəyərlər toplusu deyil, həm də kollektiv duyğuların ifadə formasıdır [1].

Türk xalqlarının kollektiv şüuru çoxəsrlik tarixi inkişafın məhsuludur. Bu şüur ortaq dil, din, adət-ənənə və mənəvi dəyərlər sistemi üzərində qurulmuşdur. Kollektiv şüurun əsas elementlərindən biri ortaq mədəni simvollardır. Carl Qustav Jungun kollektiv şüuraltı konsepsiyasına görə, hər bir xalqın dərin psixoloji yaddaşında onun mədəni tarixi, simvolları və davranış modelləri yerləşir [5]. Türk xalqlarında bu arxetiplər qəhrəmanlıq, azadlıq, ədalət və təbiətlə harmoniya kimi simvollarla ifadə olunur.

Kollektiv şüurun formalaşmasında ortaq yaddaş (collective memory) mühüm rol oynayır. Sosial psixologiyada ortaq yaddaş cəmiyyətin keçmiş hadisələri seçərək onlara mənəvi məna verməsi kimi dəyərləndirilir. Türk dünyasında bu yaddaş əsasən azadlıq uğrunda mübarizə, qəhrəmanlıq və milli dirçəliş ideyaları ilə bağlıdır. Bu yaddaş həm də gələcək nəsillərdə milli qürur və mənəvi məsuliyyət hissi yaradır.

Kollektiv şüurun qorunması və möhkəmləndirilməsi üçün mədəni kommunikasiya və təhsil mühüm vasitədir. Dil birliyi, ortaq ədəbiyyat nümunələrinin öyrədilməsi və tarixi simvolların paylaşılması psixoloji inteqrasiyanı gücləndirir. Bu proses həm də sosial dəyərlərin qorunması və yenilənməsi baxımından əhəmiyyətlidir.

Kollektiv kimlik fərdlərin "biz" duyğusu ətrafında birləşməsini təmin edən psixoloji və sosial mexanizmlərin sintezidir. Sosial identifikasiya nəzəriyyəsinə görə, insanlar özlərini müəyyən bir qrupa aid hiss etdikdə həmin qrupun dəyərlərini mənimsəyir və qoruyurlar. Türk dünyasında bu identifikasiya prosesi dil, din, tarixi yaddaş və emosional bağlılıq vasitəsilə reallaşır.

Müasir dövrdə kollektiv kimliyin formalaşması həm imkanlar, həm də çağırışlarla müşayiət olunur. İnformasiya texnologiyalarının inkişafı və qloballaşma türk xalqları arasında mədəni ünsiyyətin artmasına şərait yaradır, lakin eyni zamanda milli psixoloji dəyərlərin zəifləməsi təhlükəsini də gətirir [9]. Bu səbəbdən psixoloji baxımdan türk xalqları arasında ortaq mədəni kimliyin qorunması üçün sosial təhsil, mədəni diplomatiya və ortaq media platformalarının formalaşdırılması vacibdir.

Kollektiv kimliyin qorunmasında emosional bağlılıq və simvolik identifikasiya mühüm rol oynayır. Bayraq, himn, milli qəhrəman obrazları və tarixi simvollar kollektiv şüurun psixoloji dayaqlarıdır [5]. Bu simvollar fərdlərin emosional sahəsində mənəvi bütövlüyü möhkəmləndirir, milli qüruru və aidiyyət hissini artırır.

Son illərdə türk dünyasında müşahidə olunan mədəni renessans (TV serialları, musiqi, ədəbiyyat və kino) kollektiv şüurun psixoloji dirçəlişini göstərir. Bu, mədəni dəyərlərin yalnız qorunması deyil, həm də yenilənməsi prosesidir. Beləliklə, müasir dövrdə kollektiv kimliyin qorunması üçün həm psixoloji, həm də mədəni strategiyalar birgə həyata keçirilməlidir.

Vətən müharibəsi və 2020-ci ildə Qarabağ və Şərqi Zəngəzurda qazanılan qələbə türk dünyasında milli-mədəni şüurun güclənməsinə mühüm təsir göstərmişdir. Psixoloji baxımdan, bu hadisə kollektiv qürur və aidiyyət hissini artırmış, uzun illər ərzində zəifləməyə meylli olan milli identifikasiyanı möhkəmləndirmişdir. Müharibə və işğaldan azad edilmə prosesi həm fərdlərin, həm də cəmiyyətin ortaq emosional yaddaşına dərin iz buraxmışdır.

Mədəni baxımdan, işğaldan azad edilmiş bölgələrdə tarixi abidələrin, mədəni simvolların və folklor nümunələrinin bərpası milli kimliyin psixoloji və sosial dayaqlarını gücləndirir]. Bu proses insanların həm keçmişə bağlılığını artırır, həm də gələcək nəsillər üçün mənəvi və mədəni mirası qorumağa imkan verir.

Sosial psixologiyada kollektiv şüurun güclənməsi üçün ortaq təcrübələrin paylaşılması vacibdir. Vətən müharibəsinin qəhrəmanlıq hadisələri, şəhidlərin xatirəsi və uğur simvolları milli birliyin və ortaq identifikasiyanın əsas mexanizmlərini təşkil edir [3]. Bu, həm də sosial kohesiyanı, cəmiyyətin psixoloji dayanıqlığını artıran mühüm faktor kimi çıxış edir.

Müasir dövrdə işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri yalnız iqtisadi deyil, həm də mədəni və psixoloji əhəmiyyətə malikdir. Məktəblərin, mədəniyyət mərkəzlərinin və tarixi abidələrin bərpası vasitəsilə uşaqlar və gənclər milli-mədəni dəyərlər ilə erkən yaşlardan tanış olur, kollektiv şüur və aidiyyət hissi möhkəmlənir.

Nəticə etibarilə, Vətən müharibəsi və işğaldan azad edilmiş ərazilərdə milli-mədəni şüurun dirçəlişi türk dünyasında kollektiv kimliyin qorunması və inkişafında həm psixoloji, həm də sosial baxımdan strateji əhəmiyyət kəsb edir. Bu proses gələcəkdə türk xalqlarının ortaq mədəni dəyərlərinin və mənəvi bütövlüyünün qorunması üçün əsas baza yaradır.

Nəticə: Aparılan tədqiqatlar və analitik təhlillər göstərir ki, türk dünyasında mədəni dəyərlərin və kollektiv şüurun formalaşması yalnız tarixi və mədəni faktorlarla deyil, həm də dərin psixoloji mexanizmlərlə birbaşa bağlıdır [3; 5]. Sosial identifikasiya, emosional yaddaş, mədəni öyrənmə və simvolik düşüncə kimi faktorlar türk xalqlarının birliyini, milli kimliyini və mənəvi bütövlüyünü təmin edir. Bu baxımdan kollektiv şüur, milli-mədəni dəyərlərin qorunmasında və gələcək nəsillərə ötürülməsində mərkəzi rol oynayır.

Müasir dövrdə türk dünyasında kollektiv şüurun möhkəmləndirilməsi bir sıra strateji məsələlərlə sıx bağlıdır. Qloballaşma, diasporanın genişlənməsi, informasiya texnologiyalarının sürətli inkişafı və sosial media mədəniyyətin qorunması və kollektiv identifikasiyanın formalaşması üçün həm imkanlar, həm də çağırışlar ya-

radır. Bu səbəbdən psixoloji və mədəni aspektlər birgə nəzərə alınmalı, milli və ümumtürk kimliyinin inkişafı üçün planlı tədbirlər görülməlidir.

Mədəni dəyərlərin qorunması yalnız tarixi faktların qorunması ilə məhdudlaşmır, həm də fərdlərin sosial davranışları, mənəvi orientasiyası və emosional reaksiyaları üzərində uzunmüddətli təsir göstərir. Bu, kollektiv şüurun formalaşmasının və davamlılığının psixoloji əsasını təşkil edir. Qeyd etmək lazımdır ki, mədəni və psixoloji amillərin qarşılıqlı təsiri olmadan türk xalqlarının ortaq identifikasiyası yalnız formal və institusional səviyyədə qura bilər.

Müasir türk dünyasında kollektiv şüurun inkişafı üçün bir sıra konkret tövsiyələr irəli sürülə bilər:

1. **Təhsil və mədəni proqramlar:** Türk xalqlarının ortaq tarixi və mədəniyyətini əks etdirən tədris proqramları, mədəniyyət dərnəkləri və ortaq layihələr hazırlanmalıdır.
2. **Simvolik və emosional inteqrasiya:** Bayraq, himn, milli qəhrəman obrazları və folklor elementləri vasitəsilə emosional bağlılıq gücləndirilməli, milli qürur və kollektiv mənəvi yaddaş möhkəmləndirilməlidir.
3. **Mədəni diplomatiya və media:** Müasir media vasitələri və ortaq platformalar türk xalqları arasında mədəni və psixoloji inteqrasiyanı artırmaq üçün istifadə.
4. **Empirik tədqiqatların genişləndirilməsi:** Psixoloji və sosial araşdırmalar türk xalqlarının kollektiv şüurunun mövcud vəziyyətini qiymətləndirmək və gələcək strategiyaları müəyyən etmək üçün davamlı aparılmalıdır.

Nəticə etibarilə, türk dünyasında mədəni dəyərlərin qorunması və kollektiv şüurun formalaşdırılması yalnız tarix və mədəniyyətin qorunması ilə bitmir. Bu, həm də milli kimliyin, sosial inteqrasiyanın və gələcək nəsillərin mənəvi inkişafının təmin olunması baxımından strateji əhəmiyyət kəsb edir. Psixoloji və sosial aspektlərin nəzərə alınması olmadan ortaq türk identifikasiyasının davamlı və möhkəm qurulması mümkün deyil. Beləliklə, bu məqalə türk dünyasında mədəni və psixoloji inteqrasiyanın elmi əsaslarını ortaya qoyur və gələcək tədqiqatlar üçün nəzəri baza təqdim edir.

Ədəbiyyat siyahısı:

1. Anderson, B. Imagined Communities: Reflections on the Origin and Spread of Nationalism. London: Verso, 2006, 240 s.

2. Bandura, A. Social Learning Theory. Englewood Cliffs: Prentice Hall, 1977, 247 s.

3. Dürkheym, E. The Rules of Sociological Method. New York: Free Press, 1982, 272 s.

4. Həsənov, R. Türk xalqlarında milli identifikasiya və mədəni dəyərlərin formalaşması. Bakı: Elm, 2020, 312 s.

5. Jung, C. The Archetypes and the Collective Unconscious. Princeton: Princeton University Press, 1968, 451 s.

6. Məmmədov, F. Türk dünyasında mədəniyyət və tarix: sosial-psixoloji təhlil. Bakı: Nurlan, 2019, 284 s.

7. Tajfel, H. Human Groups and Social Categories. Cambridge: Cambridge University Press. 1981, 369 s.

8. Vygotsky, L.S. Mind in Society: The Development of Higher Psychological Processes. Cambridge: Harvard University Press, 1978, 159 s.

9. UNESCO. Global Report on Cultural Diversity and Media. Paris: UNESCO, 2023

DÖRDÜNCÜ SƏNAYE İNQİLABI DÖVRÜNDƏ TÜRK DÖVLƏTLƏRİ: SÜNİ İNTELLEKT ƏSASINDA ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF

Lamiyə Orucova
Mingəçevir Dövlət Universitetinin "Humanitar fənlər" kafedrasının müəllimi
lamiya.orucova@mdu.edu.az

***Açar sözlər**: Türk dünyası, süni intellekt, sənaye 4.0, ölkələrarası əməkdaşlıq, rəqəmsal transformasiya.*
***Keywords**: Turkic world, artificial intelligence, Industry 4.0, inter-state cooperation, digital transformation.*

Giriş. Sənaye 4.0, ümumdünya səviyyəsində iqtisadi quruluşların, idarəetmə yanaşmalarının və sosial sistemlərin transformasiyası ilə nəticələnən yeni dövr kimi qiymətləndirilir. Rəqəmsallaşma, robototexnika, kibertəhlükəsizlik və əsasən süni intellekt bəhs olunan transformasiyanın mühüm inkişaf qüvvələridir. Beynəlxalq rəqabətin gücləndiyi bir zamanda süni intellekt isttiqamətində atılan addımlar dövlətlərin inkişaf etmə səviyyəsinin, iqtisadi potensialının və strateji dəyərinin başlıca meyarlarından birinə çevrilmişdir.

Türk ölkələri də bəhs olunan bu prosesə daxil olaraq, milli və çoxşaxəli birgə fəaliyyət daxilində süni intellekt sahəsində əhəmiyyətli tədbirlər görürlər. Türk dövlətləri arasındakı dijital inteqrasiya addımları, həmçinin hər ölkənin milli süni intellekt siyasətləri regionda innovasiya mühitinin yaranmasını sürətləndirir. Bu baxımdan süni intellekt istiqamətində ortaq tədqiqat mərkəzlərinin qurulması, peşəkar kadrların hazırlanması və rəqəmsal mühitdə əməkdaşlıq xüsusi önəm daşıyır.

"Oxford Insights" qurumunun "Government AI Readiness Index" başlıqlı reytinqi dövlətlərin süni intellektə hazır olma dərəcəsini müəyyənləşdirir. Reytinqin hesabatındaTürk ölkələrində də süni intellektin inkişaf prosesi nəzərə çarpır. Türkiyənin bu baxımdan aparıcı olması aydın şəkildə görünür [1]. 2021-ci ildə Türkiyədə Sənaye və Ticarət Nazirliyi (hazırkı adı ilə Sənaye və Texnologiya Nazirliyi) tərəfindən "Milli Süni İntellekt Strategiyaları" adlı süni intellekt üzrə fəaliyyət planı qəbul edib. Strategiyada süni intellektlə bağlı altı istiqamət müəyyən edilmişdir. Süni intellekt sahəsində yüksək bacarıqlara malik mütəxəssislərin yetişdirilməsi, süni intellekt üçün hüquqi çərçivənin hazırlanması, süni intellekt sahəsində beynəlxalq əməkdaşlıqların genişləndirilməsi, suni intellektin təhsil sisteminə uyğunlaşdırılması kimi mövzulara toxunulan fəaliyyət planında altı əsas istiqamətin dövlət və idarəetmə qərarları ilə dəstəkləndiyi görülməkdədir. "Oxford Insights"ın 2024-cü ilin hesabatında Türkiyə süni intellekt sahəsində 53-cü yerdə qərarlaşaraq türk dövlətləri daxilində ən yüksək göstərici ilə fərqlənib [1]. 2020-ci ildə TÜBİTAK Süni İntellekt İnstitutunun yaradılması süni intellektin ölkə ərazisində inkişaf etdirilməsi ilə bağlı atılan addımların ən bariz nümunəsidir. Ədliyyə, Səhiyyə, Milli Müdafiə Nazirliklərinin tərkibində süni intellekt əsaslı xüsusi şöbələr yaradılmışdır [14]. Türkiyənin süni intel-

lekt sahəsində qlobal arenada üstünlük qazandığı başlıca sektor müdafiə sənayesidir. Günümüzdə süni intellektlə hazırlanan təyyarələr, silahlar və pilotsuz uçuş aparatları hərbin gedişatını dəyişdirən əsas faktorlardır. 2020-ci ildə Azərbaycan–Ermənistan müharibəsində tətbiq edilən Türkiyəyə məxsus TB-2 silahlı pilotsuz uçuş cihazları mübahisəli hava zonasında istifadə edilmişdir. TB-2-nin başqa versiyasının hazırlanması istiqamətində Ukrayna Türkiyə ilə bərabər birgə şirkət qurmuş və ilkin mərhələdə ən azı 48 ədəd cihaz istehsalı nəzərdə tutulmuşdur [8].

Azərbaycan isə "Government AI Readiness Index" adlı reytinq cədvəlində 188 ölkə arasında 111-ci yerdə mövqe tutub. Meyarlara görə, informasiya və infrastruktur quruculuğu istiqamətində 55 bal ilə ən yüksək göstəricini əldə edib [1]. 2025-ci il bu çərçivədən Azərbaycan üçün önəmli bir il oldu. 2025-ci il 19 mart tarixində 2025-2028-ci illər üçün Azərbaycan Respublikasının "Süni İntellekt Strategiyası" qəbul olundu. Strategiya Azərbaycanın süni intellekt üzrə inkişafını gücləndirmək, dijital inkişafı təşviq etmək və beynəlxalq süni intellekt təbii sistemində Azərbaycanın missiyasını möhkəmləndirmək niyyətini ifadə edir [3]. Şübhəsiz ki, süni intellektin effektiv tətbiqini yüksək potensiallı kadrlar olmadan düşünmək qəlizdir. Məhz bu baxımdan Azərbaycanda xüsusi addım atılmışdır. Bakıda 2025-ci ilin sentyabrın 8-də Süni İntellekt Akademiyasının açılışı oldu. "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"na əsasən yaradılan bu akademiyanın başlıca hədəfi süni intellekt sahəsində kadrlar hazırlamaq və rəqəmsal inkişafı sürətləndirməkdir [13]. Həmçinin, bu il "İnformasiya texnologiyası – Süni intellekt – İdarəetmə sistemi" dövlət standartı da təsdiqləndi [4].

Türk Dövlətləri arasında süni intellekt istiqaməti üzrə əməkdaşlığı gücləndirmək vacib məsələlərdən biridir. Xüsusilə əməkdaşlıq baxımından 2025-ci ildə Azərbaycanda önəmli addımlar atılmışdır. 28-31 oktyabr tarixlərində Bakı Dövlət Universtetində Türkiyə Elmlər Akademiyası və Beynəlxalq Türk Akademiyasının bərabər təşkilati rolu ilə Süni İntellekt Etikası üzrə Türk Dünyasının I Beynəlxalq Konfransı keçirilib. Konfransda BDU rektoru Elçin Babayev, Beynəlxalq Türk Akademiyasının rəhbəri Şahin Mustafayev, Türkiyə Elmlər Akademiyasının prezidenti Muzaffer Şeker, Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün kimi şəxslər öz çıxışlarında Türk dünyasında süni intellekt istiqamətində ölkələr arası əməkdaşlığın gücləndirilməsinə, süni intellektin etik prinsiplərinə və tədrisə inteqrasiya olunması metodlarına xüsusi diqqət çəkdilər [6].

Digər bir tərəfdən, TDT-nin himayəsində təşkil olunan Beynəlxalq Türk Akademiyası vasitəsilə "Türk Dünyası 2040 Vizyonu" mətnində yer alan hədəflər istiqamətində hər il üzv dövlətlər arasında "Türk Barometri" adlandırılan əhatəli beynəlxalq tədqiqat icra olunur. 21 aprel 2025-ci ildə Bakıda Sosial Tədqiqatlar və Türk Akademiyasının ortaq təşkilatçılığı əsasında bəhs olunan tədqiqat nəticələrinə həsr olunan beynəlxalq konfrans baş tutub [16]. Konfransda Azərbaycan İqtisad Universtetinin rektoru Ədalət Muradov Türk dövlətlərinin ortaq süni intellekt institunun yaradılması təklifi ilə çıxış edib [17].

Süni intellekt sahəsində araşdırmalara yatırım edən digər bir Türk dövləti isə Qazaxıstandır. Qazaxıstanın Nazarbayev Universiteti tərəfindən 10 fərqli Türk ləhcəsini 95% dəqiqliklə tanıya bilən "ISSAI" adlı süni intellekt dəstəkli bir internet saytı yaradılmışdır [11]. Üstəlik Qazaxıstanda Süni İntellekt və Rəqəmsal İnkişaf Nazirliyi də yaradılıb. Həmçinin burada Beynəlxalq Sİ Mərkəzi "Alem AI" fəaliyyətdədir. Qazaxıstan "Oxford Insights"üzrə reytinqində isə 76-cı yerdədir. Reytinq üzrə ən güclü göstərici 65.93 bal ilə data və infrastruktur quruculuğu sahəsindədir [1].

Prezident Tokayev, 2025-ci ildə Astanada keçirilən "Digital Bridge" beynəlxalq forumunda süni intellekt sahəsində önəmli qərarlar alındığını açıqladı. Tokayev, süni intellekt sahəsində tədqiqat universitetinin yaradıldığını və "Alem.ai" beynəlxalq süni intellekt mərkəzinin qurulduğunu bildirdi [2]. 2025-ci ildə Qazaxıstanın xüsusilə süni intellekt sahəsindəki məqsəd yönümlü adımmları ölkələrarası rəqəmsal əməkdaşlıqların inkişafında da mühüm rol oynayıb. Paytaxt Astanada 2025-ci ilin oktyabrında Qazaxıstan və Azərbaycan prezidentləri arasında baş tutan görüşdə süni intellekt istiqamətində əməkdaşlığın inkişaf etdirilməsiylə bağlı memorandumlar imzalanıb. Həmçinin prezident İlham Əliyev bu səfəri zamanı Astanada "Alem. ai" Beynəlxalq Süni İntellekt Mərkəzini də ziyarət edib [10].

2024-cü il üçün Oxford Insights tərəfindən hazırlanan reytinq cədvəlinə nəzər salsaq, Özbəkistan 188 ölkə arasında dünyada 70-ci yerdə, Mərkəzi Asiyada isə birinci yerdə qərarlaşıb [5]. Özbəkistan Prezidenti hələ 17 fevral 2021-ci ildə "Rəqəmsal Özbəkistan 2030 Strategiyası" adlı fərman imzalayaraq Özbəkistan hökumətinin süni intellekt sahəsindəki işlərə böyük əhəmiyyət verdiyini bəyan etmişdir [12, s.5]. Bundan əlavə, "Süni İntellekt Texnologiyalarının Sürətləndirilməsi" adlı fərmanla süni intellektə əsaslanan həllər yaratmaq üçün Daşkənd İnformasiya Texnologiyaları Universiteti və Rəqəmsal Texnologiyalar və Süni İntellektin İnkişafı üzrə Elmi-Tədqiqat İnstitutu kimi qurumlar aktivləşdirilmişdir [15].

"Oxford Insights"ın 2024-cü ilin hesabatında digər Türk ölkələrinə görə Qırğızıstan və Türkmənistan süni intellekt sahəsində daha az inkişaf gğstəricilərinə malik olaraq 134-cü və 153-cü yerdə qərarlaşıblar [1]. Qırğızıstanın bu istiqamətdə əməkdaşlıq baxımdan atdığı addımlar arasında 9–10 oktyabr 2024-cü tarixlərində Qırğızıstanda keçirilən Türk Dövlətləri Süni İntellekt (AI) Forumu xüsusi yerdədir. Bu forum TDT-yə üzv ölkələrdən və dünyanın müxtəlif regionlarından 200-dən çox rəsmi şəxsi, mütəxəssisi və siyasətçini bir araya gətirmişdir. Forumda süni intellektin rəqəmsal transformasiyadakı rolundan tutmuş, onun dövlət xidmətlərində tətbiqinə qədər bir çox mühüm mövzular müzakirə olunmuşdur. "Yapay Zəka ilə İnkişafın Transformasiyası", "İnnovasiya və İnvestisiya", "Süni İntellekt Qaydaları" kimi mövzular altında təşkil olunan panellərdə bu texnologiya üzrə infrastruktur və innovasiya fəaliyyətləri ətraflı şəkildə müzakirə edilmişdir [9].

Türkmənistanda isə süni intellekt ekosisteminin formalaşması hələ başlanğıc mərhələdədir. Müvafiq sahəni nizamlayan ətraflı milli strategiya planı ictimaiyyətlə paylaşılmamışdır. Fəaliyyət prosesi, əsasən rəqəmsal idarəçilik, təhsil və yeni biznes mühitində tətbiq olunan layihələrlə məhdudlaşır. Məhz, 2024-cü ilin sonunda ölkənin Təhsil Nazirliyinin UNESCO-nun Təhsil üzrə İnformasiya Texnologiyaları İnstitutu (UNESCO IITE) ilə ortaq "2024–2025-ci illər üçün Əməkdaşlıq

Yol Xəritəsi”ni təsdiqləməsi bu sahədə vacib tədbirlərdən biridir. Bu konfransda süni intellekt texnologiyalarının təhsildə tətbiqi, kadr hazırlığı və AI-yə əsasən tədris platformalarının genişləndirilməsi kimi mövzular müzakirə edilmişdir [7]. Buna baxmayaraq, bu layihələrin çoxu hələ pilot mərhələsindədir. Bu səbəbdən Türkmənistanda süni intellekt strategiyaları mövcud vəziyyətdə əsasən konseptual çərçivələr və ön təcrübələr əsasında inkişaf edir. 2024-cü il üzrə “Government AI Readiness Index” reytinqində 188 ölkə arasında 153-cü yerdə mövqe tutması da ölkənin süni intellekt sahəsində hələ ilkin mərhələdə olmasından xəbər verir.

Nəticə və Təkliflər. Tədqiqatın nəticələri göstərir ki, Türk dövlətlərində süni intellekt strategiyaları dördüncü sənaye inqilabının tələbləri ilə bərabər şəkildə formalaşır və regionda ölkələrarası əməkdaşlıq baxımından yeni prespektivlər yaradır. Günümüzdə süni intellekt (Sİ) texnologiyaları türk dünyasında siyasi, sosial və mədəni sahələrdə önəmli transformasiyalar yaratma imkanına malikdir. Türk dövlətləri bu istiqamətdə müəyyən nailiyyətlər qazansalar da, təhlillər göstərir ki, süni intellektin tətbiqi hələ də qabaqcıl ölkələrlə müqayisəli analizdə kifayət qədər geniş deyil. Bu fərqliliklər, başlıca olaraq, mövcud infrastrukturun inkişaf dərəcəsi və yenilik qabiliyyəti ilə əlaqədardır. Buna baxmayaraq, hazırkı vəziyyət paralel şəkildə Türk ölkələri üçün yüksək inkişaf imkanları da təklif edir. İrəlidə daha intensiv əməkdaşlıq və strateji taktikalar bu fərqlilikləri aradan qaldıraraq regionun beynəlxalq rəqabət gücünü sürətləndirməyə yardımçı ola bilər. Bu kontekstdə, Türk ölkələrinin süni intellekt istiqamətində müntəzəm inkişafı önəmli rol oynayır. Mövzuyla bağlı aşağıdakı təkliflər təqdim edilir:

1.Təhsil istiqamətində mübadilə proqramlarının genişləndirilməsi: Azərbaycanın Süni İntellekt Akademiyası, Qazaxıstanın Alem AI Mərkəzi kimi quruluşlar arasında peşəkar kadr-tələbə dəyişim proqramlarının çoxalması bilikli heyət potensialını gücləndirəcək və bölgədə vahid “AI təhsil məkanı” yaradacaq.

2. Müdafiə sahəsində ortaq araşdırma platformalarının yaradılması: Türkiyənin müdafiə sənayesində praktiki bilikləri və digər Türk dövlətlərinin innovativ transformasıya ehtiyacları hesaba alınaraq, müdafiə sənayesi istiqamətində bərabər süni intellekt tədqiqat-inkişaf mərkəzlərinin qurulması və Türkiyə təcrübəsindən faydalanmaq.

3. İnkişaf yatırımları: Türk dövlətləri süni zəka texnologiyalarına investisiyaları artıraraq startap mühitini inkişaf etdirməli və ortaq süni intellekt laboratoriyaları yaratmalıdır.

4. Qanunvericilik və etik yanaşma çərçivəsi: Süni intellektin tətbiq istiqamətində milli qanunvericilik təkminləşdirilməli, “Süni İntellekt Etika Kodeksi” tərtib olunmalıdır. Bu addım etibarlılıq və ictimai etimadın artırılması üçün vacibdir.

Bu təkliflər, Türk dünyasının Sİ istiqamətindəki ortaq səylərinin daha da güclənməsinə və regionun beynəlxalq rəqəmsal mühitdə daha sabit mövqey qazanmasına töhfə verəcək.

Ədəbiyyat siyahısı:

1.Abdullayev, A. Dövlət idarəçiliyi süni intellektə hazırdırmı?. TEDroid. https://tedroid.com/meqale/dovlet-idareciliiyi-suni-intellekt-hazirliq.html (Giriş tarixi: 4 noyabr 2025).
2.Astana Digital Bridge 2025: IT Forumu. (2025). Techxeber.az. https://techxeber.az/az/article/astana-digital-bridge-2025-it-forumu-68dab995736ae6.54510360/ (Giriş tarixi: 15 noyabr 2025).
3.Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2025, 19 mart). Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt strategiyası (Sərəncam No. 530). Mincom. https://mincom.gov.az/storage/pages/3533/azerbaycan-respublikasinin-2025-2028-ci-iller-ucun-suni-intellekt-strategiyasinin-tesdiq-edilmesi-haqqinda.pdf (Giriş tarixi: 11 noyabr 2025).
4.Azərbaycan Standartlaşdırma İnstitutu. (2025, 28 iyul). Ölkədə süni intellekt sahəsində yeni dövlət standartı qəbul edilib. AZSTAND. https://azstand.gov.az/az/xeberler/olkede-suni-intellekt-sahesinde-yeni-dovlet-standarti-qebul-edilib Giriş tarixi: 18 noyabr 2025).
5.Bahriyeva, Ş. B. K. (2025, 11 aprel). İскусственный интеллект в искусстве Узбекистана: Опыт применения, возможности, обучение традиционному искусству [Artificial intelligence in the art of Uzbekistan: Application experience, possibilities, teaching traditional art]. Müasir incəsənət məkanında süni intellekt: problemlər və perspektivlər Beynəlxalq elmi-nəzəri konfrans. https://doi.org/10.25045/ASUCAAI.2025.34
6.Bakı Dövlət Universiteti. (2025, 28 Oktyabr). BDU-da Süni İntellekt Etikası üzrə Türk Dünyasının I Beynəlxalq Konfransı və Payız Məktəbinin açılış mərasimi. BDU xəbər xidməti. http://bsu.edu.az/az/news/bduda_sni_ntellekt_etikas_zr_trk_dnyasnn_i_beynlxalq_konfrans_v_pay_z_mktbinin_al_mrasimi (Giriş tarixi: 18 noyabr 2025).
7.Caspianpost. (2024, 26 dekabr). Turkmenistan explores use of artificial intelligence in education. Caspianpost.com. https://caspianpost.com/turkmenistan/turkmenistan-explores-use-of-artificial-intelligence-in-education (Giriş tarixi: 23 noyabr 2025).
8.Husain, A. AI is Shaping the Future of War. Prism, 9(3), 2021,50-61.
9.Xalq Qəzeti. (2024, 9 oktyabr). Bişkekdə Türk Dövlətlərinin Süni İntellekt Forumu keçirilir. https://xalqqazeti.az/az/dunya/197137-biskekde-turk-dovletlerinin-suni-intellekt (Giriş tarixi: 20 noyabr 2025).
10.Xalq Qəzeti. (2025, 21 oktyabr). Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayev Astanada "Alem.ai" Beynəlxalq Süni İntellekt Mərkəzində olublar. https://xalqqazeti.az/az/resmi-xronika/243508-prezident-ilham-eliyev-prezident-kasim (Giriş tarixi: 20 noyabr 2025).
11.Kavut, S. Toplumların Dijital Dönüşüm Aracı Olarak Yapay Zeka Çalışmaları: Türkiye'nin ve Türk Devletleri Teşkilatının Yapay Zeka Kullanımı Üzerine Bir Analiz. Erciyes İletişim Dergisi, 11(1), 2024, 325-344 https://doi.org/10.17680/erciyesiletisim.1346576
12.Khoshimov PhD, E., & Makhmudaliev, F. Digital Transformation of Corporate Governance in Uzbekistan: Current State, Challenges and Perspectives. International Finance and Accounting, 2020(6), 30.
13.Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. (2025, 8 sentyabr). Azərbaycanda Süni İntellekt Akademiyası fəaliyyətə başlayıb. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. https://mincom.gov.az/az/media/xeberler/azerbaycanda-suni-intellekt-akademiyasi-fealiyyete-baslayib (Giriş tarixi: 20 noyabr 2025).
14.Sanayi ve Teknoloji Bakanlığı. (2021). Ulusal Yapay Zeka Stratejisi 2021-2025, Türkiye Cumhuriyeti. Cumhurbaşkanlığı Dijital Dönüşüm Ofisi- Ulusal Yapay Zekâ Stratejisi 2021-2025.
15.Seven, Z. D., Keskin, A., & Khodjaeva, S. (2025). Gelenekten Yapay Zekaya Özbekistan'da Okul Öncesi Eğitimin Dönüşümü. In H. Karadal & M. Ş. Karadal (Eds.), Yapay Zeka Çağında ,Sosial Tədqiqatlar Mərkəzi. (21 aprel 2025).
16.Sosial Tədqiqatlar Mərkəzində "Türk Barometri" Beynəlxalq konfransı keçirilib. https://stm.az/az/media/press-reliz/xeber?EntID=303 (Giriş tarixi: 22 noyabr 2025).
17.UNEC. (2025, Aprel 21). UNEC rektoru Türk dövlətlərinin vahid süni intellekt institutunun yaradılmasını təklif edib. https://unec.edu.az/unec-rektoru-turk-dovletlerinin-vahid-suni-intellekt-institutunun-yaradilmasini-teklif-edib/ (Giriş tarixi: 22 noyabr 2025).

ORTAÇAĞ NARRATİV QAYNAQLARIDA MOĞOL HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCANDA MƏSKUNLAŞAN TÜRK TAYFALARINA AİD MƏLUMATLARA DAİR

Nurlan Nəsirov
Xəzər Universitetinin "Tarix və arxeologiya departamenti"nin müəllimi,
tarix üzrə fəlsəfə doktoru
nurlan.nasirov@khazar.org

Açar sözlər: *Moğollar, Azərbaycan, Türk tayfaları, Etno-demoqrafik, Narrativ qaynaqlar*
Keywords: *Mongols, Azerbaijan, Turkic tribes, Ethno-demographic, Narrative sources*

XIII–XV əsrlərdə, Moğol imperiyasının tərkib hissəsi olan Azərbaycanda da mühüm geosiyasi və etno-demografik dəyişikliklərə məruz qalmışdır. Moğol hakimiyyəti dövründə bölgədə məskunlaşan türk tayfalarının etnik tərkibi və siyasi rolu ortaçağ narrativ qaynaqlarında müəyyən ölçüdə təsvir olunmuşdur. Bu mənbələr, xüsusilə İbn əl-Əsir, Ş.Nəsəvi, F.Rəşidəddinin , A.Şirazi, H.Qəzvininin, A.Kaşani, M.Naxçıvani, Ə.Səmərqəndi və digər ortaçağ müəlliflərinin əsərləri, Azərbaycan ərazisində türk kökənli tayfalarının məskunlaşmasını, sosial-iqtisadi vəziyyəti və siyasi iştirakına, eləcə də bölgədə türk dilinin və kimliyinin aparıcı mövqeyə sahib olmasına aid mühüm bilgilər təqdim edir.

Bu tədqiqatın məqsədi ortaçağ narrativ qaynaqlarda qeyd olunan dövrdə türk tayfalarının Azərbaycan ərazisində məskunlaşma prosesini sistemləşdirmək, onların Moğol idarəçiliyi altında tutduqları rolu və sonrakı siyasi inkişafdakı əhəmiyyətini ortaya qoymaqdır. Tədqiqatlar göstərir ki, uyğur, kanqlı, qıpçaq, qarluq və digər türkmən tayfaları Moğol hərbi -inzibati strukturların əsas dayaqları olmuş, bölgədə siyasi hadisələrin formalaşmasında mühüm rol oynamış və özlərindən sonra geriyə olduqca zəngin maddi və mənəvi irs buraxmışlar.

1. Giriş. İlk öncə vurğulamaq lazımdır ki, Moğol işğallarına qədər Azərbaycanın əhalisinin əsas hissəsi türk mənşəli tayfalardan ibarət olmuşdu. Regiona hələ m.ö VII əsrdən başlanan türk köçləri erkən orta əsrlərdə daha intensiv şəkil alaraq, Xilafət zamanında özünün ən pik nöqtəsinə çatmışdır. Şübhəsiz, X-XI əsrlərdə oğuz-türkən tayfalarının yeni və genişmiqyaslı miqrasiyası da Azərbaycanda türk nüfuzunun artmasına səbəb olmuşdur. Ancaq, XIII əsrin əvvəllərində başlayan Moğol işğalları bölgədə demoqrafik və etnik strukturun dəyişməsinə səbəb olmuş, yerli türk əhali ilə miqrantlar arasında yeni qarşılıqlı münasibətlər yaranmışdır. Bu prsesinin mahiyyəti və dinamizmini öyrənmək üçün dövrün qaynaqlarında olduqca mühüm məlumatlar mövcuddur.

Bundan əlavə, hesab edirik ki, problemin dərindən öyərnilməsi həm Azərbaycan, həm də ümumtürk tarixi baxımından böyük əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan ərazisində baş verən etnik dəyişikliklərin və tayfa məskunlaşmasının tədqiqi, bəhs edilən dövrdə bölgənin regional tarixinin daha dolğun anlaşılmasına imkan yaradır.

2. Əsas mənbələr və onların elmi əhəmiyyəti. XIII-XIV əsrdə Azərbaycanda baş verən sosial-iqtisadi, siyasi proseslərlə bağlı daha təfsilatlı bilgilərin ilkin qaynaqlarından biri narrativ-salnamə tipli mənbələrdir. Ancaq qeyd etmək lazımdır ki, İlxanlı və Teymurlular zamanında qələmə alınmış tarixi salnamələrdə Azərbaycanda mövcud olan etnik proseslərlə bağlı az və epizodik bilgilər mövcud olsa da, bu məlumatların sistemli şəkildə tədqiqata cəlb edilməsi mövzu ilə bağlı yeni yanaşmaların ortaya çıxarılmasında olduqca böyük elmi əhəmiyyətə sahibdir. Bu qəbil qaynaqlardan F.Rəşiddəddinin "Camiüt-təvarix", A.Şirazinin "Tarix-i Vəssaf", A.Kaşaninin, "Tarix-i Olcaytu", Şabankareyinin, M.Naxçıvanlının, İbn Bəzzazın, Ə.Səmərqəndinin, İbn əl-Əsirin, Ş.Nəsəvinin, Z.Qəzvinin, və s. adlarını qeyd etmək olar.

Bu mənbələr təkcə etnoqrafik məlumatları deyil, həm də siyasi və iqtisadi münasibətlərin təhlilini təmin edir.

3. Moğollar dövründə Azərbaycanda türk tayfalarının məskunlaşması. XIII əsrin 20-ci illərindən başlanan Moğol yürüşləri Azərbaycanın social-iqtisadi və siyasi durumuna ilk öncə neqativ təsir etsə də Moğol ordularının tərkibində gəlmiş yeni toplumlar- bölgədə türklərin etnik mövqeyini gücləndirmişdir. Farsdilli qaynaqlara görə, türk-oğuz mənşəli tayfalar Moğol hərbi və inzibati qurumlarında fəal iştirak etmiş, müxtəlif bölgələrdə məskunlaşaraq yerli əhali ilə qarışmışdır. Qaynaqlarda Moğolların Azərbaycanda məskunlaşmasının ən önəmli səbəbi kimi bölgənin türk-moğol tayfarının həyat tərzinə, yəni *yaylaq və qışlaq* təsərrüfatlarına uyğun təbii resurlara - iqlim, otlaq ehtiyatları ilə zəngin olması ilə izah edilir. Şübhəsiz, Azərbaycanın dünyanın ticarət yollarının qovşağında yerləşməsi, eləcə də, moğollara tabe olan digər yerlərə daha yaxın məsafədə yerləşməsi onların bu yeri əsas metropoliya seçməsinə səbəb olan amillərdir. Ancaq bütün bunlarla yanaşı hesab edirik ki, moğolların Azərbaycanı əsas mərkəz seçmələrinin digər səbəblərindən biri də yerli türk əhalisinin gəlmə türklərlə etnik eyniliyi ilə bağlı ola bilər. Belə ki bu yolla moğollar həm özlərinə rtnik dayaq yaratmış olur, həm də bölgənin türk toplumundan əsgəri resurs kimi istifadə etmiş olurdular. Bu fikrimizi dövrün qaynaqlarında olan bəzi dəlillərdə də əsaslandıra bilərik.

Dövrün qaynalarında hələ *Çingiz xanın (1206-1227)* zamanında *Xarəzmşah sultanı Məhəmmədi (1200-1220)* təqdib etmək üçün göndərilən və tarixi ədəbiyyatlarda *"kəşfiyyat"* yürüşü kimi adlandırılan, *Cebe noyan və Sebutay bahadırın* komandanlığında ilkin yürüş zamanı bölgənin həm yerli əhalisinin etnik tərkibi, həm də moğol ordusunda gələn türk kökənli tayfalarla bağlı məlumatlara rast gəlmək olur. Belə ki, XIII əsrdə qələmə alınmış anonim *"Əcaib əd-dünya"* adlı əsər yazır: *"Aranda olan qədər binanın yaşadığı məhəllədə* ***türk hökmranlığı*** *başqa yerdə yoxdur. Deyirlər ki, orada* ***yüz min türk*** *süvari var*" [1, s.490].

Qaynaqda göstərilən parçadan bəlli olduğu kimi hələ *Moğol yürüşü* ərəfəsində də Azərbaycanın əhalisinin əsas hissəsi *türklərdən* təşkil olunmuşdu. Qeyd etmək lazımıdır ki moğolların birinci yürüşündən sonra bölgədə hakimiyyəti təsis edən sonuncu Xarəzmşah sultanı *Cəlaləddin Mənquberdi (1220-1231)* zamanında Arran əhaslinin türklərdən təşkil olunması onun rəsmi tarixçisi *Şihabəddin Nəsəvi* tərəfindən ərəbcə

qələmə alınmış əsərində açıq şəkildə öz əksini tapmışdır. Nəsəvi yazır ki, *"Qış gələndə İzzəddin Sultana (Xarəzmşah Cəlaləddinə -N.N) xəbər verdi ki,* ***tatarlar*** *Sultanın Mahanda olduğuna əmin olduqları üçün artıq Ucandan onun istiqamətində hərəkət ediblər. O,* ***Arrana*** *qayıtmağı məsləhət gördü, çünki qoşunlar onun dağlarında və kolluqlarında möhkəmlənmişdilər. Üstəlik,* ***orda o qədər türkmən var idi ki, yığışsalar, qarışqa sürüsü, çəyirtkə buludu kimi olardılar"*** [12, s.274].

Bölgəyə ikinci Moğol yürüşü kimi qiymətləndirilən və *Cormağun qorçinin* komandanlıq etdiyi *təxminən 4 tümən (40 minlik)* ordunun tərkibində də türk kökənli tayfalar aşkar etmək mümkündür. Belə ki, dörd tüməndən ibarət olan bu ordunun *bir tümənə*, Türk və müsəlman olan *Məlikşah* adlı komandan rəhbərlik etmiş və onun tüməni *Uyğur, Qarluq, Türkmən və Küçəy adlı Türk tayfaları* və *Qaşğar bölgəsindən olan türklərdən* təşkil olunmuşdu [6, s.2]. Digər tərəfdən, Moğol ordularından qaçan *Oğuz, Qarluq, Qıpçaq, Qanqlı və digər Türk* topluluqları Azərbaycan və Anadoluya köç etdilər [8, s.189].

Dövrün bəzi qaynaqlarında Moğol istilaları nəticəsindən Azərbaycan və İranın bəzi yerli türk tayflarının öz yaşayış yerlərini tərk edərək ətraf ərazilərə köçməsi haqqında məlumatlara rast gəlmək mümkünüdür. Moğol istilaları zamanı yaşamış Zəkəriyyə əl-Qəzvini *Muğan haqqında* verdiyi qısa coğrafi məlumatında bunu xüsusi şəkildə qeyd etmişdir. Müəllif yazır ki: "*Muğan… Ərdəbildən Təbrizə gedən yolun sağında Azərbaycanda kəndləri və çəmənlikləri olan geniş bir vilayət... Hündürlükdə və bol bitki örtüyünə görə* ***türkmənlərin*** *yurdu idi. İndi isə* ***tatarlar*** *onu qışlaq kimi götürüblər və türkmənlər oradan qaçıblar. Əbu Həmid əl-Əndəlusi dedi: "Mən orada çoxlu bölgələri olan böyük bir qala gördüm və onun sakinləri oradan qaçıblar…*" [15, s.567].

Ancaq Z.V. Toqanın da haqlı olaraq vurğuladığı kimi bu məlumatlar heçdə bölgədə bütün türk əhalisinin köçüb başqa yelərə xüsusilə Anadoluya getməsi kimi başa düşülməməlidir. Çünki digər qaynaqlarda Moğol istilaları sonrası bölgədə yenə istər yerli türk, istərsə moğollarla gələn yeni türk qövmlərinin mövcudluğuna dair məlumatlara rast gəlmək mümkündür [9, s.255]. Müəllif İbn əl-Əsirin "əl-Kamil fi-tarix" adlı əsərindən təqdim etdiyi önəmli bir faktla öz fikrini əsaslandırmışdır. Belə ki, qaynağın verdiyi bilgiyə görə moğolların ilk yürüşü zamanı Azərbaycanın yerli türkmənlərindən olan Atabəy İldənizlilərin məmlükü olan **Ağquş** adlı əmir *türk və kürd tayfalarına* öz ətrafında toplayaraq moğol ordusuna qoşulmuşdur. İbn əl-Əsir onun moğol ordusuna qoşulmasını *"Bu türklər tatarlara milliyyətlərinə və cinsinə görə meyl göstərirdilər"*, - deyə izah etmişdir. Qaynaqda təqdim edilən bu fakt həm də Moğol ordusunda kifayət qədər türkmənşəli tayfaların olmasını və buna görə də Azərbaycanın yerli türkmən feodallarının öz soydaşlarına qoşulmalarını açıq şəkildə əks etdirir. Buna bənzər başqa bir fakta biz yenə eyni müəllifin göstərilən əsərində moğolların Dərbənd keçidindən keçərkən *qıpçaq-alan* ittifaqı ilə qarşılaşması zamanı rast gəlirik. Belə ki, Ibn əl-Əsir yazır: *"Onlar (alan-qıpçaq ittifaqı)* ***tatarlarla*** *döyüşdülər və heç bir tərəf digərinə qarşı üstünlük qazana bilmədi. Tatarlar qıpçaqlara xəbər göndərərək dedilər: "Biz və siz bir irqdənik.*

Bu alanlar nə özləri nə də dinləri sizinlə eyni deyil ki onlara kömək edəsiniz. Söz veririk ki, əgər onlarla təklikdə savaşmağı bizə həvalə etsəniz, sizə zərər verməyəcək, istədiyiniz pulu və geyimi sizə gətirəcəyik." [4, s.222].

Qaynaqda göstərilən fakt bir daha təsdiq edir ki moğol işğalı öncəsi Azərbaycanın şimal-şərq xüsusilə Şirvan və Dərbənd ərazisində qıpçaq türkləri mühüm mövqeyə sahib olmuş və moğol ordusunun tərkibində gəlmiş türk tayfaları qıpçaqlarla eyni etnik kimliyə mənsubluğunu əsas gətirərək onları ittifaqa cəlb etməyə çalışmışdılar.

Məsələ ilə bağlı bizə ən dolğun məlumatlar şübhəsiz ki, Türk - Moğol xalqlarının qədim tarixi, onların ulu əcdadları, ayrı-ayrı tayfa və qəbilərinin təsnifatı haqqında unikal məlumatları Fəzlullah Rəşidəddinin "Cami-üt təvarix" əsəri verir. Qaynaqda Moğollar zamanında türklər müxtəlif kateqoriyalarda təqdim edilmişdir. Belə ki, müəllifin təsnifatına görə *1. Moğollar dövründə özünü moğol adlandırılan türk tayfaları, 2. Dövlətləri və hökdmarları olmuş türk tayfaları, 3. Qədim dövlərdə moğol ləqəbi daşımış türk tayfaları* [14, s.40-212]. Qaynağın təsnifatında göstərdiyi tayfaların əksər qəbilə və tayfaların izlərinə istər ortaçağ istərsə də günümüzdə Azərbaycanın müxtəlif bölgələrində rast gəlmək olur.

F.Sümer Azərbaycana moğollarla birlikdə gələn yeni türk toplumlarını öz türklər və türkləmiş moğollar olmaqla iki kateqoriyaya ayırır [7, s.436].

Bundan əlavə Moğollarla birlikdə Azərbaycana gəlmiş yeni türk toplumlarının sayı ilə bağlı qaynaqlarda olan bilgilərin hesablanması nəticəsində tədqiqatçılar tərəfindən müxtəlif rəqəmlər təsbit olunmuşdur. A. Bakıxanov və M.V. Baharlının məlumatlarına görə, Hülakü xanla birlikdə təxminən *200 min türk ailəsi (təqribən bir milyon nəfər)* Azərbaycana gəlmişdir [2, s.86; 3, s.48]. Z. V. Toqan isə dövrün əsas mənbələrindən biri olan Cüveyninin verdiyi bilgilərə əsaslanaraq Hülakü xanın Orta Şərq yürüşünə *280 min nəfərlik* qoşunla gəldiyini bildirir və əvvəlki miqrasiya dalğalarını da nəzərə alaraq bölgəyə ümumilikdə təxminən *iki milyon* nəfərin köç etdiyini ehtimal edir [9, s.251].

4. Türk tayfalarının dövlət idarəçilik sistemində rolu. Farsdilli mənbələr göstərir ki, Moğol idarəçiliyi dövründə Azərbaycan ərazisində türk tayfaları yalnız etnik qruplar kimi deyil, həm də siyasi subyektlər kimi fəaliyyət göstərmişdir. Onlar Moğol ordusunun tərkibində xidmət etmiş, bəzi hallarda yerli ərazilərin idarəçiliyini həyata keçirmiş, həmçinin gələcək Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi kimi türk sülalələrinin yüksəlişinə zəmin yaratmışdır. Bu tayfaların Moğol aristokratiyası ilə əlaqəsi, onların siyasi təsir imkanlarını artırmış və yerli idarəetmədə stabilliyin təmin olunmasında mühüm rol oynamışdır. Tayfalar həm hərbi, həm də inzibati fəaliyyətlərlə Moğol hakimiyyətinin effektivliyini təmin etmiş, bölgədə sosial-siyasi strukturların formalaşmasına töhfə vermişdir. Dövrün farsdilli qaynaqlarında İlxanlılar zamanında uyğur mənşəli hərbiçilərin, xüsusilə Qazan xan, Olcaytu Xudabəndə və Əbu Səid zamanında ən mühüm vəzifələrdə təmsil olunmasına aid kifayət qədər faktlar mövcuddur. Məşhur uyğur əmirlərdən *Əmir Sevinc, Əmir Öğrünc, Əli Padşah, Esen Qutluğ, Mahmud, Bayıtmış, Turmtaz* və s. adlarını qeyd etmək olar. Həmçinin *qıpçaq* kökənli əmirlərdən Əli *Quşçu, Bayıtmış, İlbasmış,* Qarluq mənşəli *Həsən Qarluğ* kimi əmirlər də mühüm dövlət görəvlərində təmsil

olunurdular. İlxanlı hökmarı Olcaytu Xudabəndə (1304-1316) üçün xüsusi tarix əsəri yazan Abdullah Kaşaninin əsərində İlxanın əmirlərinin siyası təqdim edilmişdir. Bu siyahıda olan 25 böyük əmirdən 8-i uyğur kökənlidir. F.Sümerin bu siyahını təhlil etməsi nəticəsində bəlli olur ki bu əmirlərdən daha 2-si (qıpçaq və qarluq kökənli) olmaqla ümumilikdə 10-u türk kökənli idilər. Yəni qaynağın verdiyi məlumat təsdiq edir ki, İlxanlı hökmdarı Olcaytu Xudabəndə dövründə dövləti idarə edən əsas hərbi-siyasi güc türklərin əlində olmuşdur. Ancaq onu da vurğulamaq lazımdır ki, Moğol uluslarında eləcə də İlxanlılarda hər zaman ali hakimiyyət moğol mənşəli daha dəqiq desək Çingiz xanın nəslinə (uruğuna) mənsub olmuşdur. Bu F.Sümerin də haqlı olaraq diqqət çəkidyi kimi Moğollarda qövmi və etnik şüurun qüvvətli olması ilə bağlı idi. Belə ki, moğollar öz mənşələrini ilahi varlıqdan – Tenqridən aldıqları ilə bağlı olaran ən üstun qövb sayır digərlərini onlara tabelik göstərmələrini gözləyirdilər. Bu anlayışa görə Moğollar zamanında türklər dövlət idarəçilik sistemində ən yüksək vəzifələrə yüksəlsələrdə heç vaxt dövlət başçısı ola bilmədilər. Ancaq bu proses moğolların islamı və digər dinləri qəbul etməsi nəticəsində zəiflədi və Moğolların türkləşməsi prosesini sürətləndirdi.

5. **Moğollar dövründən qalmış türkcə yer və yurd adları.** Moğollarla birlikdə Azərbaycan coğrafiyasına gələn türklərlə bağlı məlumatları bu zaman yer və yurd adlarının qaynqalarda hər iki dildə yəni həm moğol həmdə türkcə adlandırılmasında da görmək olur. F.Sümerin də haqlı olaraq vurğuladığı kimi bu faktlar "*fatehlərin bir qisminin moğolca, bir qisminin də türkcə danışdıqlarını" göstərir* [7, 436]. Belə ki, dövrün yazılı qaynaqlarında və günümüzdə də bəzi yer və yurd adları Moğollar dövründə türkcə şəkildə qarşımıza çıxmaqdadır. Bunlardan Xan-Çobanlı, Cəlayir, Qurqan, Sumqayıt, Güngüd, Corat, Zunut, Tanqıt, Elciqan, Uriyad, Onqutlu, Tatar, Tatarlı, Xartaqan, Aratkənd, Çirkin, Damqalı, Dolanlar, Alar, Ələt və s. toponimlərində həmin tayfaların izləri mühafizə olunur [5, 458].

6. Nəticə. Ortaçağ narrativ mənbələr Azərbaycanda türk tayfalarının məskunlaşması, siyasi rolu və etnik strukturda tutduqları mövqe barədə dəyərli məlumatlar təqdim edir. Bu tədqiqat göstərir ki:

1. Moğollar dövründə Azərbaycan ərazisində türklərin etnik mövqeyi əhəmiyyətli dərəcədə artmışdır.

2. Uyğur, Qarluq, Qıpçaq, Oyrat, kimi tayfalar Moğol hərbi və inzibati strukturların əsas dayaqları olmuşdur.

3. Bu tayfaların fəaliyyəti Qarabağ, Arran və eləcədə Azərbaycanın cənubunda -Marağa, Təbriz, Sultaniyyə kimi şəhərlərin mərkəz statusuna yüksəlməsi bölgədə siyasi stabilliyin formalaşmasında mühüm rol oynamışdır.

4. Ortaçağ narrativ qaynaqların sistemləşdirilməsi və bu zaman Azərbaycanda gedən etnopolitik prosesləein dərindən öyrənilməsi həm də ümumtürk tarixi baxımından elmi əhəmiyyət kəsb edir.

Ədəbiyyat siyahısı:

1. Аджаиб ад-дунйā (Чудеса мира): критический текст, перевод с персидского, введение, комментарий и указатели. Смирнова, Л. П. Москва, 1993.

2. Bakıxanov.A.B. Gülüstani İrəm. Bakı: Xatun-Plyus nəşriyyatı, 2010, 304 s

3. Vəlili (Baharlı) M. Azərbaycan coğrafi-təbii, etnoqarafik və iqtisadi mülahizat. Bakı. 1993
4. İbnül-Esir. El-Kamil Fit-Tarih, XII Cilt, Çeviri: Ahmet Ağırakça, İstanbul: Bahar Yayınları, 1985, 468s
5. Piriyev Vaqif. Azərbaycan XIII-XIV əsrlərdə. Bak. Nurlan, 2003.458 s
6. Sümer F. Anadolu'da Moğollar // Selçuklu Araştırmaları Dergisi, S.I, 1971, 303s
7. Sümer, F. "Azerbaycan'ın Türkleşmesi Tarihine Umumi Bir Bakış". BELLETEN 21/83 (1957), s.429-448
8. Keleş E. Moğol İşgali Sırasında Van Gölü Havzası'na Gelen Türk-Moğol Boyları, VAKANÜVİS- Uluslararası Tarih Araştırmaları Dergisi, 3, Sayı/No.1 Bahar, 2018
9. Togan. Z.V. Umumi Türk Tarihine Giriş, İstanbul: Enderun Kitabevi, 3.baskı, 1981, 538s
10. Hamd-allah Mustawfi of Qazwini. The geographical part of the Nuzhat-al Qulub, Translated by G. Le Strange, Leyden: Gibb Memorial, 1919, 322p
11. Hamdullah Mustawfi Qazwini. The Tarikh-i-Guzida, Translate by E.G. Browne, London: Gibb Memorial, 1913, 237p
12. Шихаб ад-Дина Мухаммада ибн Ахмада ан-Насави. Сират ас-султан Джалал ад-Дин Манкбурны (Жизнеописание султана Джалал ад-Дина Манкбурны), пер. З.М. Буниятов, Москва: Наука, 1996, 798
13. ابوالقاسم عبدالله بن محمد القا شانی. تاریخ اولجایتو. به اهتمام: مهین همبلی. تهران: انتشارات زیبا، ۱۳٤۸ ، ۲۸۵ - صعبدالله من فضل الله وصاف. تاریخ وصاف. با هتمام: محمد مهدی اصفهانی. تهران: انتشارات کتابخانه مجلس،۱۲٦۹ ،۷۰۷ ص.
14. رشیدالدین فضل الله همدانی.جامع التواریخ. تصحیح: محمد روشن. تهران: البرز، ۱۳۸۳،۲۶۷۷
15. زكريا بن محمد بن محمود القزويني. عطار البلاد. بيروت: دار صادر، 1960، ص.

8 NOYABR ZƏFƏRİNİN TÜRKİYƏ QƏZETLƏRİNDƏ ƏKS OLUNMASI

Söhrab Mustafayev
Xəzər Universitetinin "Tarix və arxeologiya departamenti" nin müəllimi,
tarix üzrə fəlsəfə doktoru
smustafayev@khazar.org

Açar sözlər: *Qarabağ, Azərbaycan, Türkiyə, Ermənistan, Qəzet, Zəfər*
Keywords: *Karabakh, Azerbaijan, Turkiye, Armenia, Newspaper, Victory*

Birinci Qarabağ müharibəsinin sonunda atəşkəs imzalananda Azərbaycan öz torpaqlarının təxminən 20 faizini itirmişdi. Atəşkəsin imzalandığı 1994-cü ildən 2020-ci ilə qədər keçən dövrdə Azərbaycan dövlətinin və xalqının ən önəmli məqsədi işğal olunmuş torpaqları geri almaq idi. Həm Ümummilli lider Heydər Əliyevin, həm də İlham Əliyevin dövründə uzun müddət aparılan ordu quruculuğu işlərinin birinci hədəfi buna nail olmaq idi.

Ermənistan tərəfinin atəşkəsdən sonra da davam edən təxribatları təmas xəttində zaman zaman gərginliyin artmasına səbəb olmuşdur. 2008, 2012 və 2014-cü ildə baş verən toqquşmalar buna misal göstərilə bilər. İki ölkə arasında 2016-cı ilin 1-5 aprel tarixlərində baş verən Aprel döyüşləri isə o günə qədərki ən güclü atəşkəs pozuntusu kimi qeydə alınmışdır. Bu döyüşlər zamanı Azərbaycan ordusu işğal altındakı bəzi əraziləri azad etmişdir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıqla-

ma vermiş və Türkiyənin Azərbaycana dəstək verməyə hazır olduğunu bildirmişdir [1, s. 94].

Azərbaycana qarşı yönəldilən təhditkar yanaşma artıq iki tərəf arasında müharibəni qaçılmaz hala gətirmişdi. 12 iyul 2020-ci ildə baş verən Tovuz hadisələri təmas xəttində vəziyyəti daha da gərginləşdirdi. Türkiyə; Prezident Rəcəb Tayyib Ərdoğan, Xarici işlər naziri Mevlüt Çavuşoğlu və Milli müdafiə naziri Hulusi Akar kimi ən yüksək səviyyəli rəhbərlərin dilindən Azərbaycana açıq dəstəyini bir daha ifadə etmişdir. Müdafiə sənayesi komitəsinin sədri İsmayıl Dəmir də *müdafiə sənayemiz PUA-larımızdan sursatlarımıza və raketlərimizə, elektron müharibə sistemlərimizə qədər bütün təcrübə, texnologiya və qabiliyyətləri ilə hər zaman Azərbaycanın xidmətindədir* bəyanatını verərək, Türkiyənin Azərbaycana göstərdiyi açıq dəstəyi bir daha ortaya qoymuşdur [2, s. 2]; [3, s. 1].

Erməni topçularının azərbaycanlılara məxsus mülki yerləşkələri bombalaması nəticəsində çox sayda insan yaralandı [4, s. 12]. Nəhayət 27 sentyabr 2020-ci ildə Ali baş komandan İlham Əliyevin əmri ilə bütün cəbhə boyu əks-hücum əməliyyatlarına başlandı. Azərbaycan silahlı qüvvələri 44 gündə otuz ilə yaxın davam edən işğala son qoydu. Müharibə ərzində Azərbaycan ordusu başda Bayraktar TB-2 PUA-lar olmaqla, T-122 Sakarya, T-300 Qasırğa (ÇNRA – çoxlüləli raketatar), MAM-L, MAM-C ağıllı sursatlar və daha bir çox Türkiyə istehsalı silahlardan istifadə etmişdir [5, s. 97]. Bütün bu silah və texnologiyalar Azərbaycan ordusunun 30 illik işğala son qoymasında son dərəcə mühüm rol oynamışdır.

Beləliklə Azərbaycanın ərazi bütövlüyünün böyük hissəsi təmin edildi. Üç il sonra 19 sentyabr 2023-cü ildə isə erməni terror qruplarına qarşı keçirilən antiterror əməliyyatları ilə Azərbaycanın suverenliyi tam şəkildə bərpa olundu. Müharibənin başlandığı ilk gündən Azərbaycana siyasi dəstək verən Türkiyənin media quruluşları da olduqca aktiv şəkildə fəaliyyət göstərirdilər. Həm döyüş meydanlarında, həm də arxa planda Azərbaycanın haqlı mübarizəsinin dünya ictimaiyyətinə çatdırılmasında onların çox böyük rolu olduğunu qeyd etmək lazımdır. Ona görə bu çalışma türk qəzetlərinin böyük xidmətlərinə həsr olunmuşdur.

Yeni Şafak

Şuşa üçün geriyə sayım

Dörd şəhər mərkəzi, üç qəsəbə və 200-dən çox kəndi 28 il sonra işğaldan azad edən Azərbaycan ordusu kritik əhəmiyyətə sahib olan Şuşada zəfərə olduqca yaxınlaşmışdır. Şəhərin stratejik yerlərinə girən Azərbaycan ordusu şəhəri alın Xankəndi istiqamətində irəliləmək istəyir. Bütün cəbhələrdə irəliləyən Azərbaycan ordusu dünən də 16 kəndi erməni işğalından azad etdi. [6, s. 9].

Milli Gazete

28 il sonra Şuşada Allahu Əkbər

Azərbaycanın strateji önəmə sahib Şuşanı işğaldan azad etməsi cəbhə xəttində sevinclə qarşılandı. Azərbaycan Prezidenti sevincli xəbəri verəndə; ***28 il sonra Şuşada azan səsi eşidiləcək*** *deyib. İlham Əliyev bundan başqa deyib ki; zəfər yürüşümüz davam edir, Ermənistan tələblərimizə cavab verməsə sonuna qədər gedəcəyik.*

O, həmçinin bildirib ki; Xocalı qurbanlarının qanı yerdə qalmadı, şəhidlərimizin qisası döyüş meydanında alındı. [7, s. 7].

Dünya

Azərbaycan Dağlıq Qarabağın ikinci böyük şəhəri Şuşanı geri aldı

Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağın strateji önəmə sahib simvol şəhəri Şuşanın erməni silahlı qüvvələrinin işğalından xilas edildiyini elan etdi. 1752-ci ildə Qarabağ xanı Pənahəli xan tərəfindən qurulan Şuşa həm çox sayda tarixi abidəyə sahib olduğu üçün, həm də çox sayda seçilmiş elm və mədəniyyət adamının burada doğulması səbəbi ilə sadəcə Şuşalılar üçün deyil, bütün azərbaycanlılar üçün mühüm bir şəhər olaraq qəbul edilir. Əliyev çıxışında; Şuşa sadəcə Azərbaycanın yox, bütün Qafqazın incisidir. 28 il sonra Şuşada azan səsi eşidiləcək. [8, s.1].

Karar

Azərbaycan strateji Şuşa şəhərini işğaldan xilas etdi

Ermənistan işğal altında tutduğu torpaqlardan qovulur. Azərbaycan ordusu Dağlıq Qarabağın işğaldan azad edilməsində kritik əhəmiyyətə sahib Şuşanı nəzarətə götürdü. Prezident Əliyev xalqa müraciətində; ***Ata vesiyyətini yerinə yetirdim, bundan sonra Şuşada azan səsi eşidiləcək. Zəfər yürüşümüz davam edir*** *dedi. Ankaradan da təbrik mesajları gəldi. Ermənilər Dağlıq Qarabağın mərkəzi olan Xankəndini təxliyə edir.* [9, s.8].

Yeni Akit

Şuşa alındı, ilk azan

Azərbaycan ordusu Qarabağın incisi Şuşanı 28 il sonra erməni işğalından azad edib zəfərlərinə birini daha əlavə etdi. Prezident İlham Əliyev; 28 il sonra Şuşada azan səsi eşidiləcək. Qarabağın qəlbi Şuşa şəhəri 28 il sonra Erməni işğalından azad edildi. Zəfərdən sonra hərbi forma geyinən Azərbaycan Prezidenti İlham Əliyev; ***Zəfər yürüşümüz davam edir. Qisasımızı döyüş meydanında aldıq. Heç bir zaman mülki insanlara qarşı vuruşmadıq. Bugün hayatımda belkə də ən xoşbəxt olduğum günlərdən biridir*** *dedi.*

Şuşanın işğaldan azad edilməsi həm Azərbaycanda, həm də Türkiyədə böyük sevinclə qarşılandı. Azərbaycan və Türkiyə bayraqları ilə meydanları dolduran azərbaycanlılar zəfəri sevinc göz yaşları ilə qeyd etdilər. Diplomatik görüşmələr səbəbi ilə Azərbaycanda olan Türkiyənin Xarici işlər naziri Mevlüt Çavuşoğlu və Milli müdafiə naziri Hulusi Akar Prezident Əliyevlə görüşmüş və zəfərlə bağlı sevinclərini dilə gətirmişdirlər. [10, s.6].

Yeni Şafak

Şuşada zəfər yürüşü

Qafqazın incisi, Azərbaycanın əziz şəhri Şuşa 28 il sonra Ermənistanın işğalından azad edildi. Qarabağdakı böyük zəfəri elan edən Prezident İlham Əliyev; ***Şuşanı xilas etdik, 28 il sonra Şuşada azan səsi eşidiləcək*** *dedi. Bu xəbərdən sonra Azərbaycanda xalq zəfəri qeyd etmək üçün küçələrə axın etdi. Tarixi açıqlamanı hərbi forma ilə edən və sonuna qədər gedəcəklərini ifadə edən İlham Əliyev;* ***Zəfər yürüşümüz davam edir. Hələ işğal altında olan torpaqlarımız var, müharibə davam edir. Ermənistan hakimiyyəti tələblərimizə cavab verməsə sonuna qədər ge-***

dəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada bizi dayanadıracaq bir güc yoxdur *dedi.* [11, s.9].

Cumhuriyet

İki ülkenin zaferi

Dağlıq Qarabağdakı müharibə Rusiyanın vasitəçiliyində Bakı və İrəvanın imzaladığı atəşkəslər dayandı. Əldə olunan razılığa görə Ermənistan rayonları tərk edəcək. Türk silahlı qüvvələrinin atəşkəsə nəzarət mərkəzində olacağını dilə gətirən İlham Əliyev; ***Düşməni torpaqlarımızdan qovduq, diz çökdürdük*** *dedi. Qərb dəstəkli Paşinyan sadəcə özü məğlub olmadı, həmçinin öz ölkəsini də məğlubiyyətə uğratdı. Atəşkəsdən sonra Azərbaycanda bayram havası yaşandı. Azərbaycan və Türkiyə bayraqları ilə zəfər qeyd olundu. Baş nazir Paşinyanın məğlubiyyəti qəbul etməsindən sonra Ermənistanda xalq parlamentə hücum etdi.* [12, s.7].

Milli Gazete

Paşinyan "pes (təslim)" dedi

Ermənistanın baş naziri Paşinyan əvvəlki gecə ordunun zəiflədiyini irəli sürərək məğlubiyyəti qəbul etdi. Paşinyanın açıqlamalarından sonra ermənilər parlament binasına hücum etdi. Paşinyan atəşkəsi; ***acı verici bir qərar almaq məcburiyyətində qaldım*** *deyərək açıqladı. Putin;* ***bu gecədən etibarən atəşkəs başladı. Azərbaycan və Ermənistan kontrol etdiklərə yerlərdə qalacaqlar*** *dedi. Azərbaycan Prezidenti İlham Əliyev;* ***15 noyabra qədər Kəlbəcərin, 20 noyabra qədər Ağdamın, 1 dekabra qədər isə Laçının Azərbaycana geri veriləcəyini*** *açıqladı. İlham Əliyev həmçinin;* ***Dağlıq Qarabağdakı təmas xəttində və Laçın koridorunda yüngül silahlı 1.960 rus əsgərinin və 90 ədəd zirehli piyada texnikanın yerləşəcəyini*** *bildirdi. İlham Əliyev;* ***atəşkəsin Ermənistan üçün hərbi məğlubiyyət mənası daşıdığını*** *dilə gətirdi.* [13, s.7].

Azərbaycan ilə Türkiyənin münasibətlərində yeni dövr: Qələbədən sonra iki ölkə arasındakı münasibətlər daha da möhkəmlənməyə davam etmişdir. 2020-ci il 10 dekabrda Bakıda keçirilən hərbi qələbə paradında İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan bir daha dünyaya birlik və həmrəylik mesajı vermişlər. Hər iki lider Azərbaycanla Türkiyə arasındakı əlaqələrin daha da inkişaf edəcəyini və genişlənəcəyini ifadə etmişlər. Bu fikirlər 2021-ci il 15 iyunda Şuşada imzalanan Bəyannamə ilə rəsmiləşmişdir. Tarixə "Şuşa Bəyannaməsi" adı ilə düşən bu sənəd, iki ölkə və bütün Türk Dünyası üçün yeni bir dövrün başlanğıcını elan edirdi. İmzalanma məkanı kimi Şuşa şəhərinin seçilməsi də xüsusi mənaya malik idi. Şuşa Bəyannaməsi, Azərbaycanla Türkiyə arasındakı münasibətlərin zirvəyə çatması demək idi. Həmin bəyannamədə bildirilirdi ki, hər iki ölkə 13 oktyabr 1921-ci il tarixli Qars Müqaviləsinə sadiq qalır; bununla yanaşı, 9 fevral 1994-cü ildə imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Əməkdaşlıq və Qarşılıqlı Yardım Protokolu" və 16 avqust 2010-cu il tarixli "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım Anlaşması" əsas götürülür.

İki ölkə münasibətlərinin keyfiyyət baxımından müttəfiqlik səviyyəsinə qaldırılmasının iki qardaş xalqın mənafeyinə uyğun olduğu, tərəflərin bütün sahələrdə (ictimai, iqtisadi, siyasi, səhiyyə, mədəniyyət, idman və s.) malik olduqları poten-

sialı birləşdirmələri, regional və qlobal təhlükəsizliyin təmin edilməsində ortaq addımlar atılması, həmçinin regional və beynəlxalq strateji məsələlərdə qarşılıqlı fəaliyyətlərin həyata keçirilməsi, müstəqillik, ərazi bütövlüyü və suverenlik məsələlərində ikitərəfli və çoxtərəfli formatlarda birlik və qarşılıqlı yardım prinsipinin tətbiqi, Türk Dünyasının inkişafı üçün beynəlxalq müstəvidə səylərin birləşdirilməsi kimi məsələlərə yer verilmişdir [14, s.2–8].

Ədəbiyyat siyahısı:

1. Soğancıoğlu, Ş. "İkinci Karabağ Savaşının Türk Basınına Yansımaları: "Cumhuriyet" ve "Sabah" Gazeteleri". Avrasya İncelemeleri jurnalı. XI (1), 2022, 89-120.
2. Habertürk; 16 iyul 2020.
3. Milliyet; 17 iyul 2020.
4. Sözcü; 28 sentyabr 2020.
5. Özdemir, L. "Dağlık Karabağ Meselesinde Değişen Gidişat ve Türkiye'nin Rolü". Birey ve Toplum Sosyal Bilimler jurnalı. XI (2), 2021, 81-107.
6. Yeni Şafak; 8 noyabr 2020.
7. Milli Gazete; 9 noyabr 2020.
8. Dünya; 9 noyabr 2020.
9. Karar; 9 noyabr 2020.
10. Yeni Akit; 9 noyabr 2020.
11. Yeni Şafak; 9 noyabr 2020.
12. Cumhuriyet; 11 noyabr 2020.
13. Milli Gazete; 11 noyabr 2020.
14. Resmî Gazete; №: 31787, 23.03.2022

"AZƏRBAYCAN" QƏZETİNDƏ (1918-1920ci illər) TURAN İDEYASININ POETİK VƏ SİYASİ İFADƏSİ

Odər Əlizadə
Xəzər Universitetinin "Tarix və arxeologiya departamenti"nin
tarix müəllimi, tarix üzrə fəlsəfə doktoru
oder.alizade@khazar.org

Açar sözlər: *Azərbaycan qəzeti, Turan, Turançılıq, Cümhuriyyət, Türk Dünyası*
Keywords: *Azerbaijan newspaper, Turan, Turanism, Republic, Turkic World*

1918-1920-ci illərdə fəaliyyət göstərmiş "Azərbaycan" qəzeti, milli dövlətçiliyin qorunması və təbliği uğrunda yaranmış ideoloji mübarizənin ən mühüm mətbu orqanı idi. Qazetdə ayrı-ayrı yazarlar tərəfindən Turan ideyası həm siyasi, həm də poetik müstəvidə ifadə olunmuşdur. Qəzetin səhifələrində Turançılıq, yalnız romantik bir xəyal deyil, tarixi missiya və siyasi hədəf olaraq təqdim olunur və Azərbaycan istiqlalının qorunması isə bu böyük birliyin başlanğıcı kimi dəyərləndirilirdi. Bu tezisdə "Azərbaycan" qəzetində Turan ideyasının poetik və siyasi ifadə formaları, onun milli şüurun ifadəsindəki yeri göstərilmişdir. Turan anlayışı Azərbaycan Türk aydınları tərəfindən ilk dəfə Əli bəy Turanın (Hüseynzadə) 1904-cü ildə Misirdə nəşr olunan "Türk" qəzetində çap edilmiş qəsidəsində öz əksini tapmışdır

(Akçuraoğlu, 2009, s. 435). Türk dünyasında Turana dair ilk siyasi partiya proqramı isə Nəsib Bəy Yusifbəylinin Türk Ədəmi Mərkəziyyət Partiyasının proqramında ortaya qoyulmuşdur (AXC Ensiklopediyası, 2005, II. Cild, s. 414-415). Daha sonra 1930-cu ilə gəldiyimizdə Turan və Turançılıq anlayışları Rəsulzadənin "Panturanizim Haqqında" əsərində müzakirə edilmişdir (Rəsulzadə, 2020). "Azərbaycan" qazetində Turan anlayışına açıqlıq gətirən Əliabbas Müznib İranilərin, tarixçilikdə Böyük Hun dövləti olaraq da anılan Hiunq-nuların dağılmasından sonra ortaya çıxan boyların yayılışı ilə cənuba axın edən Türkləri Turani, məmləkətlərini də Turan olaraq andıqlarını qeyd edir. (Azərbaycan, XI cild, s. 219). O başqa bir yazısında isə Turan anlayışının keçmiş tarixi bir termin olmadığını, bugünün irqi bir həqiqəti və buna bağlı olaraq bir hədəf olduğunu ifadə edir və bu hədəfin milliyyət fikri ilə mümkün olacağını vurğulayır;

"...bir gün Turan türkləri də başdan-başa titrəyəcək, titrəyərək ayılacaq və bu ayıq türklərin milliyyət fikri ilə yanan sinələri üzərinə yeni Çingizlərin taxtı qurulacaqdır. Qurulacaq, çünki Turan, tarixi bir təbir deyil, irqi bir həqiqətdir. Çünki türklük yaşayan, zində və bərhəyat milliyyətdir." (Azərbaycan, X Cild, s. 465).

Qəzetdə yayımlanan Əhməd Cavadın Çanaqqala qəhrəmanlarından Xəlil Qut Paşaya ithaf etdiyi "Röyasını görmüşdüm" şeirində Turan ideyası həm poetik hədəf, həm də tarixi xilaskar obrazı kimi verilir;

"Unudaraq kor sevdanı
Yaşıl söyüd dallarında,
Mənim gözüm ilk aradı
"O"nu Turan yollarında." (Azərbaycan, I Cild, s. 214).

Şair xalqın ümidsiz qaldığı anlarda belə Turanı "nazlı yar" və zərif, sevilən, lakin əldə edilməsi mücadilə tələb edən milli ideal olaraq düşünür. Şeirdə "Günəşin qara tülə sarılması" türkün taleyində qaranlıq dövrlərə işarədir. Lakin şair "millətimin sərmayəsi tükənməz" deyərək, bu qaranlığın yalnız keçici olduğunu vurğulayır. Turan yollarında "O"nu axtarmaq, türk dünyasının xilası üçün yönəldilən strateji baxışı simvolizə edir. Beləcə, şeir Turanı yalnız romantik xəyal kimi deyil, Xəlil Qut Paşa kimi şəxslərin iştirakı ilə gerçəkləşəcək milli ideal olaraq ucaldır.

Mehmed Əmin bəyin "Ordunun Dastanı" şeirində isə Turan anlayışı türk dünyasının dil, din və tarix birliyi üzərində qurulan böyük siyasət və mənəviyyat idealıdır. Şair Turanı coğrafi sərhədlərlə məhdudlaşdırmayaraq Altaydan Qafqaza qədər türk dilinin yayıldığı bütün məkanları və Kap Burnundan Çinədək milyonlarla müsəlmanı vahid kimlik dairəsində birləşdirir;

"Altaylarda, Qafqazlarda türk diliylə qonuşanlar
Onu Turan ellərinin öz sultanı tanıyorlar." (Azərbaycan qazeti, I Cild, s. 230-232).

Bu birliyin siyasi mərkəzi kimi Osmanlı sultanı göstərilir və o, "Turan ellərinin sultanı" olaraq təqdim olunur. Əsərdə Turan yalnız romantik bir xatirə deyil, müstəmləkəçiliyə və parçalanmaya qarşı bir dirəniş ideologiyasıdır. Balkanların itirilməsi, Qərb və Rusiya təzyiqləri Turan birliyinin zəruriliyini göstərən tarixi dərslər

kimi vurğulanır. Şair bu birliyi həm milli-vətəndaşlıq, həm də ilahi bir missiya səviyyəsinə yüksəldir. Bu mənada, "Ordunun Dastanı"nda Turan, türk dünyasının dövlət, azadlıq və şərəf uğrunda yenidən ayağa qalxmasını hədəfləyən ideoloji proqram kimi verilir.

Mehməd Əmin bəy şeirinin digər hissəsində də Turan anlayışını davam etdirmişdir;

Ey Oğuzun saf qanını daşıyanlar!
Ey gözləri qığılcımlı qəhrəmanlar!
Ey Turanın arslanları!
Hər qüvvətə qaya kimi qarşı durun,
Sınırları aşanları
Qəhr edici ildırımlar kimi vurun.
O silahı parladın ki, ulu əcdad
Bu dəmirlə yüz dövlətə təməl atmış.
Hər iqlimdə uca, şanlı bir səltənət,
Hür və məsud bir türk ömrü parıldatmış. (Azərbaycan, I Cild, s. 284-285).

Bu bənddə şair Turan anlayışını həm tarixi gücün yadigarı, həm də bugünün müqavimət iradəsi kimi göstərir. "Oğuzun saf qanı" deyərək soy birliyini, "Turanın arslanları" deyərək döyüş və şücaəti ucaldır. Keçmişdə "yüz dövlətə təməl atan" əcdadın mirası bu gün də davam etdirilməli olan müqəddəs bir borc kimi təqdim olunur. Qaya kimi durmaq və ildırım kimi vurmaq çağırışları Turanı sadəcə romantik bir arzu yox, real bir siyasi-hərbi hədəf kimi canlandırır. Şeirdə Turan, hür, şanlı və məsud türk ömrünün təcəssümüdür. Yəni şeirdə o bir xəyal yox, tarixin içində yenidən dirçəlməsi gözlənilən böyük varlıqdır. Şeirin davamındakı hissələrdə də Turan nalayışı önə çıxırılır;

Əvət, əlli əsrlik bir ömrü olan türklərin də
Qaç kərə fəth etdikləri şu dünyanın üzərində
Bir vətəni, bir xaqanı,
Bir tarixi, səltənəti, bir şərəfi, hüququ var.
Bir diləyi, bir imanı
Və bunlara can verəcək milyonlarca çocuğu var.
Böyük Turan dühasını parladacaq yeni dünya,
Bu gün bizim alnımızı oxşayan bir milli röya! (Azərbaycan, I cild, s. 339-340).

Bu parçaya görə Turan anlayışı sadəcə keçmişin romantik xatirəsi deyil, türk varlığının bütün tarixi legitimliyinin və gələcəyə dair iddialarının adı olur. Şair türklərin "əlli əsrlik ömrü"nü xatırladaraq, dünyanın müxtəlif coğrafiyalarında qurulan dövlətləri Turan ideyasının tarixi dayağı kimi göstərir. "Bir vətəni, bir xaqanı, bir tarixi, səltənəti, bir şərəfi, hüququ var" misraları ilə bölünmüş türk ellərinin əslində tək bir siyasi iradəyə məxsus olduğunu vurğulayır. Eyni dildə, eyni imanda birləşən milyonlarla türk övladı Turanın canlı varlıq kimi davam etdiyini sübut edir. Son iki misra isə ideyanın mahiyyətini açır. Turan bu gün üçün "milli röya" ola bilər, lakin Şərqin yeni dünyasında parlayacaq "dühadır", yəni sabahın gerçəyi

olmaq potensialı daşıyan, tarixi haqq kimi təqdim olunan böyük bir birləşmə idealıdır.

Qəzetdə yayınlanan Salman Mümtazın "Öyün Millət" şeirində də Turan anlayışı ifadə edilmişdir;

Səmaya doğru toğrul tək sən ey türk oğlu, uç, yüksəl,
Ki, sənsən şanlı övladı şərəfli, əski Turanın. (Azərbaycan, I Cild, s. 436).

Salman Mümtazın "Öyün, millət" şeiri yalnız Qafqaz İslam Ordusunun xilaskarlıq missiyasını tərənnüm edən bir təşəkkür mətni deyil, həm də Turan ideyasının poetik ifadəsidir. Şair Osmanlının Bakını azad etməsini sadəcə siyasi hadisə kimi görmür, bunu bütün türk dünyasının tarixi yüksəlişinin başlanğıcı kimi təqdim edir. Şeirdə millətə ünvanlanan "Öyün", kimi çağırışlar uzun müddət rus zülmü altında əzilmiş xalqın öz kimliyini yenidən dərk etməsini, milli şərəfin bərpasını və Turan ruhunun yenidən canlanmasını hədəfləyir. Beləcə, şeir Bakının qurtuluşunu bu böyük idealın mifik mənşəli başlanğıcı kimi ucaldır.

Turan anlayışının ifadə edildiyi bir başqa şeir isə Arif İrfan Qaraosmanın "Böyük yol, böyük iman şeiridir;

Sırtında iki yol: millət, vatan.
Qəlbində iki böyük iman var:
İntiqam, bəqa.
Olmazsa bunlar
Yanar, qovrular, məhv olar Turan.
Sırtındakı yükünlə tərlərsə üzün,
Vatan öpər səni incə tozlarıyla…
Qəlbindəki imanla titrərsə özün,
Turan qucar səni gözəl qızlarıyla… (Azərbaycan, I cild, s. 468).

Arif İrfan Qaraosmanın bu şeirində Turan anlayışı həm ideoloji hədəf, həm də mənəvi dayaq kimi mərkəzi yer tutur. Şair türk əsgərinin üzərində daşıdığı "yük"ü yalnız hərbi məsuliyyət kimi deyil, Turanın xilası və gələcəyi üçün müqəddəs missiya kimi təqdim edir. Vətən torpağının hər qarışı, düşmən tapdağı altında əzab çəkən türk qadını və qızı Turan idealının zədələnmiş parçaları kimi göstərilir, onları müdafiə etmək türk əsgərinin şərəf borcu hesab olunur. Şair Turanı gələcəkdə qovuşulacaq böyük bir vətən kimi təsvir edir. Əsgərin imanlı ürəyi bu yolun davamını təmin edəcək "böyük iman" kimi verilir.

Yenə Qaraosmanın "Yanmış anamın külləri qarışısında" şeirində Turan motivi ifadə edilmişdir.

"Mən Turana gülümsəyən ümidlərə,
Ciyərimdə düyümlənən öyüdlərə
Bu gün kimi yarın dəxi gedəcəyəm,
Sənincün də bir ovuc qan içəcəyəm.
Rizqim atəş, qismətim qan, hər şeyim qan,
Anam Turan, məşuqəm də yenə Turan!" (Azərbaycan, II cild, s. 350).

Qaraosmanın bu şeiri bir fərdin anası qarşısında diz çökmüş yasından çox, bütöv bir xalqın tapdanmış namusunun fəryadıdır. Yanmış ana obrazı yalnız bir qadının deyil, zorlanmış, talanmış, odlara atılmış türk yurdunun simvoludur. Şeirin əsas ideyası isə Turan sevgisidir. Ananın yandırılmış bədəni bir məkanın fəlakəti olsa da, Turan onun dirçəlişidir. Şairin dilində Turan həm ana qədər doğma, həm məşuqə qədər sevgilidir. Bu paralel bənzətmədə Turan həm başlanğıc, həm son, həm kimlik, həm hədəfdir. Şeir yalnız yandırılmış yurdların ağısı deyil, Turan uğrunda mübarizəyə səsləyən ideoloji manifestdir.

Azərbaycanın işğaldan qurtarılması münasibəti ilə Nuri Paşanın şərəfinə Bakıda verilən ziyafətdə çıxış edən M. Ə. Rəsulzadənin nitqində də Turan anlayışından bəhs edilmişdir. "Azərbaycan" qəzetində verilən və Rəsulzadənin Nuru Paşanın şərəfinə səsləndirdiyi bu nitq, Turan məfkurəsinin yalnız siyasi bir birlik deyil, mənəvi reallıq olduğunu vurğulayan ən güclü ifadələrdən biridir. Rəsulzadəyə görə: "Turan bu gün maddətən qazanılmamışsa da, mənən hasil olmuş, Turan fikri doğmuşdur. Bir kərə doğan fikir bir daha ölməz, bir daha sönməz!" (Azərbaycan, II cild, s. 252-253). Bu sətirlərdə Azərbaycan türklərinin istiqlalını qazanmasını və Osmanlı dövlətinin Azərbaycanın istiqlal savaşında yardımı mənən hasil olmuş Turan fikri olaraq görülür. Yazıda Turan fikri türk xalqlarını bir-birinə yaxınlaşdıran, qardaşlıq və yardımlaşma duyğusunu gücləndirən bir fikir kimi təqdim edir: "Ən qaranlıq gecələrimizdə bizə məşəli-hürriyyət gətirən və ən çətin dəmlərimizdə imdadımıza gələrək bizi xilas edən qardaşlarımızı bizə doğru qoşduran, yolumuzda qurbanlar verdirən iştə bu məfkurə, bu yeni doğmuş əməl günəşidir." Rəsulzadə yazısında "Turan toxumu əkildi. O böyük fikrin ulduzu doğdu." deyərək, ideologiyanın başlanğıcının Azərbaycan istiqlalı olduğunu vurğulayır.

Cəfər Cabbarzadənin "Sevdiyim" şeirində isə Azərbaycan bayrağı bir sevgili obrazında təqdim olunur və bu bədii yanaşma bayrağı adi rəmz olmaqdan çıxarıb milli eşqin, türk dünyası ilə bağlılığın ifadəsinə çevirir;

"Can alıcı bir görkəmlə dağ başında durduqca,
Oxşadıqca bahar yeli açıq-dağınıq tellərin,
Nazlı əlin umuzunda saçlarına vurduqca,
Birər-birər oxşayırsan bütün Turan ellərin.
Altaylardan, Altun dağdan doğma səslər bəkləyir
Yaşıl donlu, mavi gözlü, al duvaqlı sevdiyim." (Azərbaycan, XI cild, s. 454).

Şeir boyunca bayraq təkcə Azərbaycan torpağı üzərində deyil, "bütün Turan elləri" üzərində oxşayan, onları qucaqlamaq istəyən canlı bir varlıq kimi təsvir olunur. "Altaylardan, Altun dağdan doğma səslər" deyilişi isə bayrağın mənasını Cənubi Qafqaz sərhədlərindən çıxararaq Türk dünyasının tamamına yayır. Beləliklə, sevilən gözəl kimi ucaldılan Azərbaycan bayrağı bu şeirdə Turan birliyinin simvoluna çevrilir.

Cəfər Cabbarzadənin "Azərbaycan Bayrağına" şeirində də bayraq təkcə bir dövlət simvolu kimi deyil, bütün Türk dünyasının birləşdirici rəmzi kimi ifadə edilir.

"Ürəyimdə bir dilək var, o da doğru kəsilsin,

O gün olsun bir göy bayraq Turan üstə açılsın!" (Azərbaycan, XI cild, s. 531).

Şair bayrağın rənglərini türk kimliyi (göy), İslam dini (yaşıl) və azadlıq-mədəniyyət idealı (al) ilə əlaqələndirərək Azərbaycan varlığını türk tarixinin və mənəviyyatının davamı kimi təqdim edir. Son misradakı "Bir göy bayraq Turan üstə açılsın!" ifadəsi şeirin əsas ideoloji məntiqini açıqlayır. Azərbaycan istiqlalı, yalnız bir ölkənin deyil, böyük Turan birliyinin başlanğıcı olaraq təqdim edilir. Cabbarzadə bu misralarıyla Azərbaycanın bayrağını Turanın gələcək siyasi və mənəvi varlığının nişanı kimi ucaldır.

Qəzetdə "Akif" imzası ilə yazılan "Gün Doğmadan Məşimeyi-Şəbdən Nələr Doğar" başlıqlı yazıda da Turan anlayışı ifadə edilmişdir:

"Türklərin imanı əskidən daha qüvvətli, əzmləri daha mətin, proqramları daha əsaslıdır. Başlanğıc Azərbaycan, bitginc Turan olacaqdır. Kəndini bilən hər bir türkün röyası da, əyanı da Turandır. Turan bayrağının sallandığı gün dünyanın bəxti dönəcək, bu bayrağın altında türklərin qılınc şakırtısı eşidildiyi an bayrağımızdakı hilal bədr olacaq və bütün aləmi-islam əsarətdən qurtulmuş olacaqdır. Şu halda, arkadaşlar, şümullu düşünəlim, "İrəli, irəli, həp irəli!" şüarından şaşmayaq!" (Azərbaycan, XII cild, s. 538).

Mətn Turan idealını Azərbaycanın milli mübarizəsinin son və böyük hədəfi kimi təqdim edir. Burada Turan türk iman və əzminin qaçınılmaz nəticəsi, tarixi taleyin tamamlanacağı mərhələ kimi göstərilir. Başlanğıc Azərbaycan, son mərhələ isə Turandır. "Turan bayrağının sallandığı gün dünyanın bəxti dönəcək" fikri, bu ideyanın yalnız türklər üçün deyil, bütün insanlıq üçün qurtuluş vəd etdiyini vurğulayır. Mətindəki sonuncu çağırış ifadəsi olan "İrəli, irəli, həp irəli!" sözləri Turançılığı passiv arzudan çıxarıb, çevik, irəliləyən siyasi-ideoloji hərəkat kimi təqdim edir.

Verilən nümunələrdən görüldüyü kimi qəzetin səhifələrində Turan anlayışı yalnız romantik bir xəyaldan ibarət deyil, türk birliyi, istiqlal və azadlıq ideyalarının real siyasi hədəfi kimi təqdim edilmişdir. Əhməd Cavad, M. Ə. Rəsulzadə, Cəfər Cabbarzadə, Salman Mümtaz, Əliabbas Müznib, Arif İrfan Qaraosman və digərlərinin əsərlərində Turan, milli kimliyin, mənəvi dirənişin və gələcək nəsillərə ötürüləcək ideoloji dəyərin ifadəsi olmuşdur. Bu mətbu orqan vasitəsilə Turançılıq ideyası Azərbaycan istiqlal düşüncəsinin əsas dayaqlarından birinə çevrilmiş, milli oyanışın və türk birliyinin mənəvi təməlləri qoyulmuşdur. Beləliklə, "Azərbaycan" qəzeti, Cümhuriyyət dövrünün yalnız bir informasiya vasitəsi deyil, həm də Turan ideyasının ədəbi və siyasi manifestinə çevrilmişdir.

Ədəbiyyat siyahısı:

1.Azərbaycan qazeti (1918-1920), I cild (sentyabr-oktyabr 1918), Transliterasiya; Genceli, M., Ağaoğlu, A. Red. Kerimli, T. Bakı, 2021, 563s.

2.Azərbaycan qazeti (1918-1920), II cild (noyabr 1918), Transliterasiya; Genceli, M., Ağaoğlu, A. Red. Kerimli, T. Bakı, 2021, 632s.

3.Azərbaycan qazeti (1918-1920), X cild (iyul 1919), Transliterasiya; Genceli, M., Ağaoğlu, A. Red. Kerimli, T. Bakı, 2024, 686s.

4.Azərbaycan qazeti (1918-1920), XI cild (avqust 1919), Transliterasiya; Genceli, M., Ağaoğlu, A. Red. Kerimli, T. Bakı, 2024, 612s.

5.Azərbaycan qazeti (1918-1920), XII cild (sentyabr 1919), Transliterasiya; Genceli, M., Ağaoğlu, A. Red. Kerimli, T. Bakı, 2024, 591s.
6.Akçuraoğlu Yusuf, Türk Yılı 1928. Haz., A. Tekin, A. Z. İzgeör, Türk Tarih Kurumu Basımevi, Ankara, 2009. 495s.
7.M. Ə. Rəsulzadə, Panturanizim Haqqında - Qafqaz problemi ilə əlaqədər, Jekoprint, Bakı, 2020. 67s.
8.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, II cild, Lider Nəşriyyatı, Bakı, 2005, 479s.

TÜRK DÖVLƏTLƏRİ BİRLİYİNİN POTENSİALI: GEOSİYASİ REALLIQLAR VƏ İNTEQRASİYA

Ülvü Rəhimli
Qərbi Kaspi Universitetinin "Tarix" kafedrasının müəllimi,
tarix üzrə fəlsəfə doktoru
ulvi.r@wcu.edu.az

Açar sözlər: *Türk Dövlətləri Təşkilatı, geosiyasət, inteqrasiya, pan-türkizm, beynəlxalq əməkdaşlıq*
Keywords: *Organization of Turkic States, geopolitics, integration, pan-Turkism, international cooperation*

XXI əsrdə beynəlxalq münasibətlərin strukturunda baş verən dəyişikliklər regional inteqrasiya proseslərini daha da aktuallaşdırmışdır. Bu kontekstdə Türk Dövlətləri Təşkilatının (TDT) yaranması və inkişafı yalnız mədəni-mənəvi dəyərlərə əsaslanmır, həm də geosiyasi, iqtisadi və təhlükəsizlik baxımından yeni reallıqlar doğurur. Bu təşkilat üzv ölkələr arasında tarixi ortaq kimliyi əsas götürərək, regiondaxili və regionlararası əməkdaşlığın formalaşmasında mühüm rol oynamağa başlamışdır.

Hazırkı geosiyasi mühit – xüsusilə Ukrayna müharibəsi, Çin-Rusiya-Qərb qarşıdurması və enerji böhranı – Türk dövlətlərini daha sıx əməkdaşlığa sövq edir. Azərbaycan, Qazaxıstan, Türkiyə, Özbəkistan və digər üzvlər yalnız mədəni deyil, iqtisadi və təhlükəsizlik sahələrində də ortaq strategiyalar formalaşdırmaqdadır.

Tezisdə TDT-nin struktur imkanları, geosiyasi potensialı, strateji çağırışlar və inteqrasiya ssenariləri təhlil olunur.

Türk Dövlətləri Təşkilatının Yaranması və Strateji Məqsədləri: Türk Dövlətləri Təşkilatı (TDT), 2009-cu ildə **Naxçıvan Sazişi** əsasında təsis edilmiş və əvvəllər *Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası* kimi tanınırdı. Bu təşkilat türk dilli ölkələr arasında həmrəylik və əməkdaşlığı möhkəmləndirmək məqsədi ilə yaradılmışdır [5].

TDT-nin hazırkı üzvləri Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan; müşahidəçi üzvləri isə Macarıstan və Türkmənistandır. Bu qurumun məqsədləri yalnız mədəni və tarixi bağlara əsaslanmır, eyni zamanda siyasi, iqtisadi və strateji platformaların formalaşmasını nəzərdə tutur [4].

TDT-nin fəaliyyət sahələri aşağıdakı kimi ümumiləşdirilə bilər:

Ortaq siyasi-diplomatik təşəbbüslər [2]

Enerji və nəqliyyat sahələrində strateji əməkdaşlıq, xüsusilə **Zəngəzur dəhlizi** və **Orta Dəhliz** layihələri [3]

Təhsil, elm və mədəniyyət sahəsində inteqrasiya – *Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY* kimi institutlar vasitəsilə [6].

Təşkilatın strukturuna Dövlət başçılarının zirvə görüşü, Nazirlər Şurası, Baş katiblik, Türk Ticarət və Sənaye Palatası və müxtəlif ekspert platformaları daxildir [5]. Bu strukturlar təşkilatın koordinasiyalı və davamlı fəaliyyətini təmin edir. Son dövrlərdə qəbul edilmiş **Şuşa Bəyannaməsi** isə Azərbaycan və Türkiyə arasındakı münasibətləri strateji müttəfiqlik səviyyəsinə qaldırmaqla yanaşı, TDT-nin də hüquqi-siyasi əsasını gücləndirən nümunə olmuşdur [2]. Türk Dövlətləri arasında inteqrasiyanın dərinləşməsi yalnız regional səviyyədə deyil, Avrasiya və Çin-Avropa tranzit xəttində də yeni imkanlar yaradır. Bu, xüsusilə "Orta Dəhliz" (Middle Corridor) layihəsinin təşviqində özünü göstərir [3].

Geosiyasi Reallıqlar və Türk Dövlətlərinin Strateji Çağırışları: Türk Dövlətləri Təşkilatı (TDT) regionda yerləşən dövlətlər üçün təkcə tarixi bağlara əsaslanan birlik forması deyil, həm də geosiyasi strateji aktor rolunu oynamaq potensialına malik platformadır. XXI əsrdə dəyişən güc balansı – xüsusilə ABŞ, Çin, Rusiya və Avropa İttifaqı arasında artan rəqabət – türk dövlətlərini birləşdirən strateji maraqlar zəncirini daha da möhkəmləndirmişdir [4].

Türk dövlətlərinin əksəriyyəti enerji, coğrafi keçid və etnik-mədəni baxımdan Avrasiya mərkəzində yerləşən strateji nöqtələrdir. Məsələn, Azərbaycan və Qazaxıstan enerji resursları ilə, Türkiyə və Özbəkistan isə tranzit mövqeyi və sənaye potensialı ilə regional güc mərkəzinə çevrilməkdədir [3]. Bu xüsusiyyətlər onları Qərb və Şərq arasında körpü rolunda çıxış etməyə məcbur edir. Lakin bu geosiyasi üstünlüklər eyni zamanda çağırışları da özündə ehtiva edir:

Rusiya və Çin Faktoru: Rusiya üçün Türk dünyasının güclənməsi, xüsusilə Mərkəzi Asiyada, Moskvanın **"yaxın xarici siyasət"** doktrinasına ziddir. Bu səbəbdən, Rusiya bu inteqrasiya cəhdlərini nəzarətdə saxlamağa çalışır [6]. Çin isə Türk dövlətləri ilə iqtisadi əlaqələri *"Bir Kəmər, Bir Yol" (BRI)* layihəsi çərçivəsində inkişaf etdirir. Lakin bu da bəzi hallarda asimmetrik iqtisadi asılılıq riski yaradır [4].

İnfrastruktur və Əlaqə Problemləri: Türkdilli ölkələr arasında birbaşa quru yolları və enerji şəbəkələri yetərincə inkişaf etməmişdir. Bu, Zəngəzur dəhlizi kimi layihələrin əhəmiyyətini artırır [6].

Siyasi sistem fərqləri və milli maraqların toqquşması TDT ölkələri arasında demokratikləşmə səviyyəsi, xarici siyasət prioritetləri və təhlükəsizlik yanaşmaları fərqlidir. Bu isə vahid qərarların qəbulunu çətinləşdirir [1].

Qərb və NATO münasibətləri: Türkiyə NATO üzvüdür, lakin digər türk dövlətləri Qərb hərbi alyanslarına yaxın deyillər. Bu, təhlükəsizlik üzrə əməkdaşlığın sərhədlərini müəyyən edir [2]. Bu çağırışlar nəzərə alınaraq TDT gələcəkdə öz strateji məqsədlərini yalnız mədəni və tarixi baxımdan deyil, geosiyasi adaptasiya

və çeviklik baxımından da formalaşdırmalıdır. Əks halda, təşkilat yalnız simvolik birlik olaraq qalacaq.

Türk Dövlətləri Arasında Gələcək İnkişaf Perspektivləri və İnkişaf Ssenariləri: Türk Dövlətləri Təşkilatının (TDT) gələcək inkişaf istiqamətləri bir neçə əsas ssenari ətrafında formalaşmaqdadır. Həm geosiyasi reallıqlar, həm də daxili potensial baxımından təşkilat üzv dövlətlərin strateji iradəsinə əsaslanaraq daha dərin inteqrasiyaya doğru irəliləyə bilər.

Ortaq İqtisadi Zona və Ticarət Blokları: TDT çərçivəsində ortaq iqtisadi platformanın yaradılması ideyası son illərdə geniş müzakirə olunur. Bu istiqamətdə ilk addım olaraq Türk Ticarət və Sənaye Palatası təsis edilmiş və ticarət, investisiya, gömrük əməkdaşlığı üçün mexanizmlər hazırlanmaqdadır [1]. Ticarətin vahid valyuta bölgüsündə aparılması hələ müzakirə mərhələsində olsa da "Türk iqtisadi məkanı" ideyası uzunmüddətli hədəf kimi qalır [4].

Ortaq Ordu və Müdafiə Koalisiyası: Azərbaycan və Türkiyə arasında **Şuşa Bəyannaməsi** çərçivəsində hərbi müttəfiqlik hüquqi baza qazanmışdır [2]. Gələcəkdə bu model digər türk dövlətlərinə də genişləndirilə bilər. Hazırda TDT-də hərbi əməkdaşlıq formal səviyyədə olsa da ortaq təlimlər, müdafiə sənayesi kooperasiyası və məlumat mübadiləsi intensivləşməkdədir. Bununla belə, üzv ölkələr arasında hərbi doktrina fərqləri və Rusiya-Çin kimi qonşularla balanslı münasibətlər ehtiyacı bu prosesin ehtiyatlı şəkildə irəliləməsinə səbəb olur [6].

Rəqəmsal İnteqrasiya və Texnoloji Platformalar: Türk dövlətləri arasında rəqəmsal suverenlik və texnoloji əməkdaşlıq məsələləri aktuallaşır. 2023-cü ildə keçirilən Türk Dövlətləri Rəqəmsal İqtisadiyyat Forumu bu istiqamətdə ilk ciddi təşəbbüslərdən biri olmuşdur [5].

Ortaq e-id sistemi (rəqəmsal şəxsiyyət)

Kibertəhlükəsizlik əməkdaşlığı

Türk mərkəzli sosial media və xəbər platformalarının təşviqi

Təhsil, Mədəniyyət və Elmi Proqramlar: Ortaq türk tarixi və dili üzrə dərsliklərin hazırlanması, tələbə mübadilə proqramları (TÜRKÜNİB) və ortaq universitet layihələri türk gəncliyi arasında kollektiv kimliyin formalaşmasına təkan verir [3]. Gələcəkdə ortaq akademik bazalar, elmi nəşrlər və ortaq tədqiqat mərkəzləri daha sistemli şəkildə inkişaf etdirilə bilər.

Gələcəyə dair üç mümkün inkişaf trayektoriyası:

İnteqrasiya modeli	**Təsviri**	**Potensial Çətinliklər**
Maksimum inteqrasiya modeli	Türk dövlətləri arasında iqtisadi və təhlükəsizlik baxımından dərin əməkdaşlıq qurulur; ortaq bazar və regional siyasi platforma yaradılır.	Xarici güclərin təzyiqləri, regional münaqişələrin təsiri
Tədrici inteqrasiya modeli	Əməkdaşlıq mövcud formatda davam edir, ikitərəfli münasibətlər möhkəmlənir və ortaq mədəni təşəbbüslər genişlənir.	Prosesin yavaş irəliləməsi, institusional mexanizmlərin zəifliyi
Simvolik	TDT əsasən mədəni forumlar, diplomatik görüşlər və	Gözləntilərin qarşılanma-

İnteqrasiya modeli	**Təsviri**	**Potensial Çətinliklər**
əməkdaşlıq modeli	tarixə əsaslanan simvolik tədbirlərlə məhdud qalır.	ması, ictimai dəstəyin azalması

Nəticə və tövsiyələr: Türk Dövlətləri Təşkilatı (TDT) XX və XXI əsrlərdə parçalanmış türk coğrafiyasını diplomatik, iqtisadi və mədəni platformada yenidən birləşdirmək potensialına sahib nadir təşəbbüslərdən biridir. Bu tədqiqat əsasında əldə edilən nəticələr aşağıdakı kimi ümumiləşdirilə bilər:

Əsas nəticələr:

1. TDT-nin əsasını yalnız ortaq mədəniyyət deyil, geosiyasi və iqtisadi reallıqlar da təşkil edir. Bunu regional münaqişələrə qarşı vahid münasibət və tranzit layihələrdə koordinasiya sübut edir [3], [4].
2. Təşkilatın güclənməsi təkcə türk dövlətləri üçün deyil, Avrasiya regionunda güc balansını dəyişmək baxımından da əhəmiyyətlidir. Rusiya, Çin və Qərb kimi aktorlarla münasibətləri taraz saxlamaq vacibdir [6].
3. Daxili inteqrasiya imkanları yüksək olsa da siyasi sistem fərqləri və kənar təzyiqlər qərarların yavaşlamasına səbəb olur. Bəzi ölkələrin neytral mövqeyi (məsələn, Türkmənistan) institusional inteqrasiyanı məhdudlaşdırır [1].

Tövsiyələr:

Strateji səviyyədə: TDT çərçivəsində ortaq təhlükəsizlik konsepsiyası hazırlanmalı, humanitar və informasiya təhlükəsizliyi ön plana çəkilməlidir. Ortaq diplomatik təlimlər, think-tank mübadilələri və liderlər üçün təlim proqramları təşkil olunmalıdır.

İqtisadi səviyyədə: Gömrük güzəştləri və sərbəst ticarət zonalarının yaradılması təşviq edilməlidir. Ortaq rəqəmsal ödəmə sistemləri və texnoloji platformalar (məsələn, Türk Pay) hazırlanmalıdır.

Humanitar-mədəni səviyyədə: Türk gəncliyi üçün ortaq "Pan-Türk Erasmus" proqramı yaradılmalı, tələbə və müəllim mübadiləsi artırılmalıdır. Tarix və ədəbiyyat dərsliklərində ortaq mədəni kodlar əks olunmalıdır. TDT-nin uğuru yalnız formal qurumlar və sazişlərə deyil, siyasi iradə, strateji vizyon və dərin ictimai dəstəyə əsaslanmalıdır. Türk dünyasının gələcəyi onun ortaq keçmişini strateji gələcəyə çevirmə bacarığından asılı olacaq.

Ədəbiyyat siyahısı:

1. Dunyamaliyeva, N. International Security and Turkic States Organization. Baltija Publishing. http://baltijapublishing.lv/index.php/bjlss/article/view/2881. (13.11.2025)

2.Gurbanov, R. A New Security Architecture in Türkiye-Azerbaijan Relations. SSOAR. https://www.researchgate.net/publication/392429261_A_New_Security_Architecture_in_Turkiye-Azerbaijan_Relations_Between_2018_and_2023/ (13.11.2025)

3.Kılınç, O. Türkiye's Central Corridor Policy and the Organization of Turkic States. https://dergipark.org.tr/en/download/article-file/4485182 (13.11.2025)

4.Senocak, N. S. Redefining Eurasian Dynamics. https://www.academia.edu /129330476/_Redefining_Eurasian_Dynamics_Russia_T%C3%BCrkiye_and_the_Shaping_of_a_New_Regional_Order_in_a_Multipolar_World_ (13.11.2025)
5.Türk Dövlətləri Təşkilatının rəsmi saytı . https://www.turkicstates.org/az/ (13.11.2025)
6.Ubaydullaev, I. Transformation of Central Asia under the OTS. https://interoncof.com /index.php/turkey/article/view/12832/ (13.11.2025)

SƏFƏVİLƏRİN ETNİK KÖKÜ MƏSƏLƏSİ: ŞEYX SƏFİƏDDİN ƏRDƏBİLİNİN "TÜRK PİRİ" KİMİ TƏSNİFİ

Günel Rəhimli
Qərbi Kaspi Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru
gunelrahimli1@gmail.com**;**
gunel.rehimli.t2024@wcu.edu.az

Açar sözlər: *Şeyx Səfiəddin, Səfəvilər, Türk Piri, türk etnosu, Səfvətüs-səfa*
Keywords: *Sheik Safiaddin, Safavids, Piri Turk, turkic ethnos, Safvatus-Safa*

XVI–XVII əsrlərdə Yaxın Şərq tarixində mühüm siyasi gücə çevrilmiş Səfəvilər dövləti həm dini-siyasi ideologiyası, həm də mədəni irsi ilə Azərbaycan dövlətçiliyinin formalaşmasında həlledici rola malik olmuşdur. Bununla belə, sülalənin etnik mənşəyi müxtəlif dövrlərdə fərqli şəkildə izah edilmiş, xüsusən XIX–XX əsrlərin bəzi tədqiqatlarında Səfəvilərin kökü fars, kürd və ya ərəb etnosuna bağlanmağa cəhd edilmişdir. Lakin mötəbər orta əsr qaynaqları, dövrün salnamələri və müasir araşdırmaların müqayisəli təhlili Səfəvilər dövlətinin qurucularının türk tayfaları olduğunu sübut etməklə yanaşı Səfəvi sülaləsinin mənşəyinin türk etnosuna bağlı olduğunu açıq şəkildə göstərir.

Bu məsələnin araşdırılmasında XIV əsrin aid dövrün əsas mənbələrindən olan Təvəkkül ibn Bəzzazın **"Səfvətüs-səfa"** əsəri xüsusi elmi əhəmiyyət daşıyır. "Səfvətüs-səfa" Şeyx Səfiəddin Ərdəbilinin həyatı və irfani fəaliyyəti ilə bağlı ən əhəmiyyətli məlumatları özündə cəmləşdirən qaynaqdır. Həmin mənbənin bizə verdiyi ən dəyərli məlumat ondan ibarətdir ki, 1300-cü ildə Ərdəbildə Səfəviyyə təriqətinin əsasını qoymuş Şeyx Səfiəddin İshaq əl-Ərdəbiliyə müraciyətlərdə dəfələrlə "Türk Piri" ifadəsindən istifadə edilmişdir.

"Səfvətüs-səfa" ilə yanaşı XVI əsrə aid qaynaqların əksəriyyətində Səfiəddin əl-Ərdəbilinin hələ iyirmi yaşında ikən özünə ruhani rəhbər axtarmaq məqsədi ilə Şiraza gedib-gəlməsi haqqında məlumatlar yer almaqdadır. Burada Ruknəddin Beyzavi, Mövlanə Raziyuddin, Sədi Şirazi, Şeyx Zahirəddin, Əmir Abdullah kimi mütəfəkkirlərlə görüşlərində onlar hər dəfə Şeyxə "Ey Piri Türk" (ey türk piri) deyə müraciət etmişlər [8, s.64-73].

Bu hekayətlər "Səfvətüs-səfa" da belə verilmişdir: Bir gün Şeyx oturmuşdu ki, mehrabın divarı çatladı. Biri ordan çıxıb Şeyxi: "Ey Pir`i Türk!" deyə çağırdı. O zaman Şeyxə "ey türk piri" də deyirdilər. Bu səbəbdən onun üzü çox gözəl və mükəmməl şəkildə görünürdü... Şeyx həmin adamı dinləməyə başladığı vaxt o, Şeyxə

belə dedi: “Türk piri! Hazır ol ki, üç gündən sonra ikindi namazı qılmayacaqsan...” [8, s.67].

Digər bir hekayətdə isə belə göstərilir: - Şeyx Səfiəddin eşitmişdi ki, Şirazda Şeyx Nəcibəddin Bozquş adında məşhur elm adamı yaşayır. O, Nəcibəddin Bozquşun yanında təhsilinə davam etmək üçün Şiraza gəlir. Ancaq bu zaman Nəcibəddin Bozquş vəfat etmişdi. Şeyx Səfiəddin Şirazın məşhurlarından Əmir Abdullahın yanına gəlir və ona Şiraza mürşidi-kamil tələbi ilə gəldiyini bildirir. O, bir müddət sakit qalır, sonra Şeyxə deyir: “Ey Türk piri! Bizim himmət quşumuz bu yerə qədər uçmamışdır... sənin istədiyin mətu bu bazarda ələ gəlməz və bu haldan biz bixəbəriz”Əmir Abdullah onun naümid qaldığını görüb, sözünü davam etdirib ona məsləhət görür: “Ey Türk piri! Aləmin şərqindən qərbədəkin kimsə kim, sənin vaqiələrinin təbirini eyləyə, müşkül işlərini həll qıla kimsə yoxdur, Şeyx İbrahim Zahidi Gilanidən özgə hasil olmaz” [8, s.71-72].

“Səfvətüs-səfa”da göstərilir ki, Şeyx Səfiəddin Ərdəbilə qayıdarkən vidalaşmaq üçün Şeyx Sədinin yanına getdikdə o, öz əshabələrinə deyir: “Bu türk piri səfərə varır, təbərrüklər ilə hədiyyələr həzrətinə isar etmək vacibdir” [8, s.73].

Bu rəvayətlərin məzmunu və Şeyx Səfiəddinə yönələn ardıcıl “Türk Piri” müraciəti onun şəxsi mənəvi nüfuzunu göstərməklə yanaşı, Səfəviyyə təriqətinin ilkin dönəmlərində mövcud olan etno-mədəni mühiti də aydın şəkildə ortaya qoyur. Təvəkkül ibn Bəzzazın “Səfvətüs-səfa” əsərində yer alan bu məlumatlar yalnız təsəvvüf ədəbiyyatına xas hagiqrafik motivlər kimi deyil, həm də XIV əsr Azərbaycan və ətraf bölgələrdə türk mənşəli dini liderlərin mövqeyini təsdiq edən mühüm etno-tarixi dəlillər kimi dəyərləndirilməlidir. Eyni zamanda, digər orta əsr qaynaqları və XVI əsr salnaməçilərinin məlumatları ilə müqayisəli araşdırma bu faktları daha da gücləndirərək, Səfəvi təriqətinin və sonradan formalaşmış Səfəvi dövlətçilik modelinin əsasında türk etnik kimliyinin aparıcı rol oynadığını tarixi materiallarla təsdiq edir.

XVI-XVII əsrlərdə yaşamış tarixçilər “imam-valinin siyasi hakimiyyəti idarə etmək üçün” Allah tərəfindən müəyyən edilməsi prinsipinə uyğun davranaraq Səfəvilərin soyunun seyidliklə başlayan şəcərəsini əsərlərinə daxil etsələr də Səfəvilərin soyca türk olmasını yazaraq tarixi gerçəkliyi göstərmişlər. Səfəvi dövrünün görkəmli Azərbaycan tarixçisi İsgəndər bəy Münşi bu haqda yazır: “ –Ey gənc türk! Mücahidlik, zahidlik və yüksək əhvali-ruhiyyə sayəsində sənin üçün hasil olan [şeylər] mənim bəsirət gözümə çaxmayıb... Bu gün sənin gözündən pərdəni götürüb, səni məqsədə tərəf yönəldə biləcək ilahiyyət elmlərini bilən Şeyx Zahid Gilanidən başqa bir kəs yoxdur” [5, s.50]. Dövrün məşhur tarixçilərindən Molla Kamal, Məhəmməd Yusif Qəzvini, Şeyx Hüseyn bin Abdal Zahidin əsərlərində Şirazda, Gilanda, Hilyəkəranda Şeyx Səfiəddinə “gənc türk”, “türk piri” kimi ifadələri ilə müraciətlərin qeyd olunması Səfəvilərin soykökünün türk olmasının göstəricisidir.

Şeyx Səfiəddinin irfani fikirlərinin formalaşmasımda mühüm xidmətləri olmuş Zahidiyyə təriqətinin rəhbəri Şeyx Zahidi Gilani də Şeyx Səfiəddinə “türk gənci” deyə müraciət etmişdir [2, s.12].

“Səfvətüs-səfa”ya istinad edən Oqtay Əfəndiyev yazır ki: “Şeyx Səfinin səyahətləri haqqındakı rəvayətlərdə (“Səfvətüs-səfa”da) onun dəfələrlə “türkün piri”

(pir-i türk) adlandırıldığını görməmək mümkün deyildir. Bu mənada Şeyx Səfinin fars torpağı olan Şirzada öz müridləri ilə görüşləri və söhbətlərindən bəhs edən hekayədə ona dəfələrlə türk kimi müraciət olunması çox səciyyəvidir"... "Səfəvilər sülaləsinin kürd, yaxud İran mənşəli olması haqqındakı ehtimallar mötəbər mənbələrin məlumatlarına əsaslanmır. Həmçinin Şeyx Səfiəddinin türk etnosuna mənsub olması fikri çətin ki, şübhə doğura bilər" [4, s.35]. Oxşar fikirlər Mirzə Abbaslının araşdırmalarında da yer almışdır [1, s. 289-329].

Müasir dövr Azərbaycan tarixçilərindən Namiq Musalı Səfəvilərin soyunun türk əsilli olduğunu "Aləmara-yi Şah İsmayıl" əsərində qeyd edilən –"Mövlananın zaviyəsinin qapısına çatdıqda və Mövlananın gözü Həzrəti Şeyxin (Səfiəddinin) camalına sataşdıqda onun bir türk oğlu olduğunu gördü" - ifadəsi və buna bənzər digər bir sıra faktlarla əsaslandırmışdır [6, s.89]. Zabil Bayramlının fikrinə görə, Şeyx Səfinin türkcə şeirlər yazması, türkcə "Qara məcmuə" adlı əsərin müəllifi olması kimi faktlar heç şübhəsiz Şeyx Səfinin türk olmasına dəlalət edir [3, s.9].

Səfəvilərin soy məsələsi bəzi siyasi səbəblərə bağlı olaraq çox zaman mübahisə mövzusu olsa da, dövrün qaynaqlarındakı elmi əhəmiyyətli faktlardan və səyahətnamələrdəki Səfəvi sarayında türkcənin işlənməsinə dair məlumatlardan Səfəvilərin türk soyundan gəldikləri faktını aydın müşahidə etmək mümkündür.

Sovet tarixçilərindən V.M Sısoyev Səfəvi dövrünün mötəbər qaynaqlarına istinad etmədiyindən və bu qaynaqlarda sülalənin türk etnik kimliyinə mənsubluğuna dair faktlardan xəbərsiz olduğundan Səfəvilərin fars mənşəli olduqlarını və onların hakimiyyətə gəlməsi ilə ərazidə fars ənənələrinin daha da gücləndiyini qeyd etmişdir [10, s.90]. Lakin digər bir Sovet şərqşünası V. Bartold Səfəvilər dövrünün mənbələri haqqında dəqiq məlumata sahib olduğuna görə Səfəvilərin mənşəyi məsələsinə tarixi gərçəklikdən yanaşır və Səfəvilərin soykökü haqqında yazır: " Bu Ərdəbilli dərvişlər, şübhəsiz ki, fars deyil türk mənşəlidirlər" [9, s.117]. Həmçinin Sovet tarixçisi İ. Petruşevskinin zəngin qaynaq materiallarının müqayisəli təhlili əsasında yazdığı və Səfəvi tarixinə həsr etdiyi əsərlərində Səfəvi sülaləsinin soykökü haqqında elmi əhəmiyyətli faktlar vardır. Onun əsərlərindəki faktlar Səfəvilərin mənşəyini farslaşdırmağa, ərəbləşdirməyə çalışan tarixçilərin fikirlərinin elmi cəhətdən doğru olmadığını sübut edir. O, Səfəvilərin soykökü haqqında yazır: "Səfəvilərin əsli azərbaycanlı idi və ana dilləri Azərbaycan dili olmuşdur. Azərbaycan dili İran, İraq və qismən də Kiçik Asiyanın şərq hissəsində yaşayan tayfalar üçün ədəbi bir dil olmuşdur" [7, s.99-100].

Tarixi qaynaqların, xüsusilə də "Səfvətüs-səfa" kimi erkən dövr mənbələrinin, eləcə də Səfəvi tarixçilərinin və müasir araşdırmaların müqayisəli təhlili göstərir ki, Səfəvilərin türk mənşəli olması tarixi gerçəklikdir. Şeyx Səfiəddinin "Türk Piri" kimi tanıdılması, türk dilində irfani irs yaratması, Səfəvi sarayında türkcənin əsas ünsiyyət vasitəsi kimi geniş işlənməsi bu fikri təsdiqləyən mühüm dəlillərdir. Beləliklə, deyə bilərik ki, Səfəvilərin mənşəyinin fars və ya başqa etnoslarla əlaqələndirilməsi barədə irəli sürülən fikirlər tarixi mənbələrlə üst-üstə düşmür və elmi əsas daşımır. Səfəvilər türk köklü bir sülalə olaraq Azərbaycan tarixinin siyasi və mədəni inkişafında mühüm rol oynamışdır.

Ədəbiyyat siyahısı:

1. Abbaslı, M. Safeviler'in Kökenine Dair // Ankara: Belleten, 1976. c. XL, sayı-156, s. 287- 329.
2. Aləmara-yi Səfəvi. nəşrə hazırladı Yədullah Şükri. Tehran: İttilaat Nəşriyyatı, 1363 (1984), 688 səhifə.
3. Bayramlı, Z.H., Şəbiyev B.Ş.Azərbaycan Səfəvilər dövləti. (XVI-XVII əsrlər) Bakı: Avropa nəşriyyatı, - 2016. - 344 s.
4. Əfəndiyev, O. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərbaycan dövlət nəşriyyatı, 1993. 301s.
5. İsgəndər bəy Münşi. Tarixi-aləmara-yi Abbasi (Abbasın dünyanı bəzəyən tarixi) / tərc. O.Əfəndiyev və N.Musalı. Bakı: Təhsil, c. I. 2009. 792 s.
6. Musalı, N. S. I Şah İsmayılın hakimiyyəti ("Tarixi-aləmara-yi Şah İsmayıl" əsəri əsasında). Bakı: Elm və təhsil, 2011. 482 s.
7. Petruşevski, İ.P. XV əsrdə Azərbaycan dövlətləri. Bakı: Azərbaycan EA Tarix və Fəlsəfə İnstitutunun əsərləri, 1994. c. I, s.48-108.
8. Şeyx Səfi Təzkirəsi ("Səfvətüs-səfa"nın XVI əsr türk tərcüməsi) / tərt. M.Nağısoylu, S.Cabbarlı, R.Şeyxzamanlı Bakı: Nurlan, 2006. 932 s.
9. Бартольд, В.В. Место прикасписких областей в истириии мусульманского мира. Москва: Изд-во Восточной литературы, т. II. 1963. с. 695-779.
10. Сысоев В. М. Начальный курс истории Азербайджана (северного) / В.Сысоев. - Баку: Азерб. Археологический Комитет при Наркомпросе. АССР, 1925. 50 с.

AZƏRBAYCAN TARİXİNİN ÜMUMTÜRK TARİXİ KONTEKSTİNDƏ ÖYRƏNİLMƏSİ MƏSƏLƏLƏRİ (CÜMHURİYYƏT QURUCULARININ ƏSƏRLƏRİ ƏSASINDA)

Salman İbişov
Qərbi Kaspi Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru
salman.ibisov@mail.ru

Açar sözlər: *Azərbaycan Xalq Cumhuriyyəti, Milli oyanış hərəkatı, Məhəmməd Əmin Rəsulzadə, Əhməd bəy Ağoğlu*
Keywords: *Azerbaijan Democratic Republic; National Revival Movement; Mammad Amin Rasulzade; Ahmad bey Aghoglu*

Milli Oyanış hərəkatının ideoloqları və Cümhuriyyət Qurucuları öz əsərlərində dəfələrlə tariximizin(eyni zamanda ədəbiyyat və dil məsələlərinə də) araşdırılması və öyrənilməsi problemlərinə toxunmuşlar. Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Z.Ğöyalp, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə öz əsərlərində Azərbaycan tarixinin ümumtürk tarixi kontekstində öyrənilməsi problemlərini önə çəkir və gələcək tədqiqatçılar üçün yol göstərirdilər. Məhz həmin mənbələr əsasında tərəfimizdən 2018- 2025- ci illərdə bir sıra tədqiqatlar aparılmışdır [6;7;8]. Konfransa təqdim olunan tezisi materialları da məhz onlara əsaslanır.

Məhəmməd Əmin Rəsulzadənin "Bizdən sənin pak ruhuna fatəhələr, rəhmətlər, Unudulmaz xatirə ki, qəlb dolusu hörmətlər" kəlamları ilə başlayan "Müxtəsər Azərbaycan tarixi" kitabının müəllifi Cahangir Zeynaloğlu "Özümüzü tanımalı və başqalarına da tanıtdırmaq üçün" tariximizi dərindən bilməyi tövsiyyə edirdi: "Za-

vallı Azərbaycan şanlı bir keçmişə, aləmşuymul sərvətinə baxmayaraq hər kəscə məhcul qalır, əcnəbilər bir kənara dursun civar müsəlmanlar belə onun keçmişindən, tarixindən bixəbər qalır. Bu yolda yazılmış bəlli başlı bir əsərə belə təsadüf olunmayır. Məhz buna görə tariximizi bilmək, şanlı keçmişimizi öyrənmək və istiqbal üçün də hazırlanmaq özümüzə bir borcdur" [4, s.5].

Tarixi başdan-başa əxlaq üstünlüklərindən ibarət olan və zaman-zaman müxtəlif imperiyalar quran türklər yaratdıqları tarixi əbədiləşdirmək qeydinə qalmamışlar və nəticə etibarı ilə onların tarixi başqa xalqların dilində yazılmış mənbələrdə öz əksini tapmışdır. Burada, Əli bəy Hüseynzadənin söylədiyi kimi "XVIII əsr fransız mütəfəkkiri Monteskyönün türk fatehləri haqda uzaqgörənliklə söylədiyi sözləri xatırlamaq çox yerinə düşərdi". O yazırdı: "Dünyanın heç bir xalqı fatehlik şöhrəti və əzəməti ilə türklərlə yarışa bilməz. Çingiz xanın fütuhatları ilə müqayisədə İsgəndərin qələbələri nədir ki. Bu müzəffər xalqın yalnız tarixçiləri çatmayıb ki, onların ağılagəlməz qələbələrinin şöhrətini yaysınlar, nə qədər ölməz əməllər əbədilik dəfn olunub.Türklər tarixlərini bilmədiyimiz nə qədər dövlətlərin əsasını qoyublar. Bu cəngavər xalq öz gündəlik şöhrəti ilə məşğul olub, əbədi məğlubedilməzliyinə inanıb, keçmiş qələbələrinin əbədiləşdirilməsi qayğısına qətiyyən qalmamışlar" [3, s.41,42].

Ə.Hüseynzadə türklərin keçmişindən və kimliyindən danışarkən qeyd edirdi ki, "Bu məsələ ilə bu gün deyil ,bir neçə əsr əvvəldən bəri məşğul olmaq lazım idi.Keçmişdə əhəmiyyət verilməmiş bu məsələni gələcəyə, uzaq gələcəyə tərk etməyib, heç olmazsa, indi ələ almalıyıq". M.Ə.Rəsulzadə tarixi nitqlərindən birində qeyd edirdi : "Məndən əvvəlki arkadaşımız sizə türklüyün uzaq tarixindən bəhs elədi. Mən sizə sizin də yaşadığınız , bərabər içində bulunduğumuz və kəndimiz yaratdığımız tarixdən söhbət edəcəyəm.Bu da bir türk tarixidir.Türk tarixinin bir parçasıdır" [9, s.138].

O.Vəliyev məlum əsərində M.Ə.Rəsulzadənin milli tarix baxışlarını belə təqdim edir:" Araşdırma kontekstində yanaşdığımız Rəsulzadə C mərhələsində milli tarixin ön şərtlərini hazırlamışdır. Misal üçün, tarixi türk tarixindən qoparmamış, buna əlavə olaraq Azərbaycanın öz kontekstuallığı ilə ayaqlaşmasını təmin etməyə çalışmışdır.Xülasə , Rəsulzadə inşa etməyi planlaşdırdığı millət üçün tarixi qənaəti formalaşdırmağa çalışıb.Bu səbəblə də Azərbaycanın , Qafqazın kontekstini nəzərə alıb [9, s.144]. Rəsulzadə romantik üsulda istifadə ilə keçmişə bağlı orijinal bir tarix anlayışı real gorməmişdir.O, Azərbaycanı müasir türk tarixinin bir hissəsi kimi təğəyyül etmişdir "

Tarix yaradan, lakin ona lazımı qədər sahib çıxmayan və dəyərlərini qoruyub saxlamağa əhəmiyyət verməyən türk xalqları daim bu yanaşmanın zillətini çəkmişlər. Azərbaycan xalqının tarixi də bu baxımdan istisnalıq təşkil etmir. Bu vacib problem XIX əsrin sonları və XX əsrin əvvəllərində Azərbaycanda geniş vüsət almış milli oyanış hərəkatı ideloqlarının daim diqqət mərkəzində olmuş və onlar bu məsələyə kəskinliklə münasibət bildirmişlər. Milli şüurun (milli vicdanın) yaranmasını ləngidən və ümumtürk tarixinin ağır dərdi olan bu məsələyə Ə.Ağaoğlu və M.Ə.Rəsulzadə kimi tarixi şəxsiyyətlərin mülahizələrini oxuculara təqdim etmək istərdik. Ə.Ağaoğlu göstərirdi ki, türklərin özgə dəyərlərə, daha inkişaf etmiş mədəniyyətlərin nailiyyətlərinə və hər cür yeniliyə aşırı duyarlığı, onları assimliyasiya proseslərinin obyektinə çevirmişdir.

Əhməd bəyin qənaətinə görə, məhz bu səbəbdən, İranı fəth etmiş türklər az sonra mədəni cəhətdən farsların içində "ərimişlər". Onlar öz türklüklərini unutmaqla qalmamış, fəth etdikləri xalqların, ilk növbədə ərəblərlə farsların, təhsil sistemini və dilini mənimsəməyə çalışmışlar. Bu sahədəki acınacaqlı durumu təsvir edən Ə.Ağaoğlu yazırdı: "Ədib, şair və tarixçilərimiz fars və ərəbcə yazmağı özlərinə bir şərəf sayırdılar. Türk dili unudulmaq dərəcəsinə çatmışdı! Ədib və şairlərimiz son zamanlara qədər türk qayəsi, türk idealı naminə olaraq qətiyyən nə bir şey aradılar və nə bir şey kəşf etdilər! Hətta bəziləri bu son aylarda fəzr və təkəbbürlə Osmanlı səltənətində hakim sülalədən başqa bir türk ailəsinin belə olmdığını iddia edirdilər!!! Təbii ki, belə qövmdə milli şüurdan əsər-əlamət olmaz".

Ə.Ağaoğlu kimi M.Ə.Rəsulzadə də öz əsərlərində milli intibahı əngəlləyən əsas səbəblərdən biri kimi yuxarı zümrənin öz dilinə və digər dəyərlərinə xor baxmasında görürdü. M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" əsərinin "Ədəbi və milli intibah" bölümündə yazır: "Bu türklər (Azərbaycan tükləri nəzərdə tutulur - S.İ) Azərbaycanı ikiyə bölən Əras nəhrinin iki tərəfində sakin olub və qismən İrana şu və ya bu surətdə bağlı müstəqil bir halda yaşadıqları zaman məhkum bir millət deyil, hakim olaraq yaşayırlardı. Çünki əsrlərdən bəri İranın hakim sinfini türklər təşkil ediyordu. Azərbaycan xəlqi idarəcə gördüyü ağırlığı başqalarından deyil, öz cinsindən gördüyü üçün həqiqi məhkumiyyətini, mənəviyyatca başqa bir hərisin məhkumu olduğunu dərk etmiyordu. O get-gedə farslaşıyordu. Xəvass (yuxarı təbəqə) təhsilini farsca görüyor, fars tərbiyəsi alıyor, fars kibi düşünüyor və kəndisinin doğrudan- döğruya iranlı olduğuna qane oluyordu. Xəlqin hal və əqdini əlində bulunduran, bu xəvass kibi mənəviyyatına hakim olan üləma sinfi dəxi eyni ruhda, eyni tərbiyədə və eyni zehniyyətdə idi. Fars ədəbiyyatına Nizamilər, Xəqanilər, Məhsətilər kibi ustadlar bəxş edən bu torpaqda yetişən Azərbaycan xəvassı pək təbii idi ki, bir zaman Süleyman Qanuninin belə az qala qəbul elədiyi Sədi lisanı qarşısında əriyib kəndiliyindən keçmiş, türk və türkcəyə xor baxmışlardı" [2, s.17].

Ə.Ağaoğlu xüsusi vurğulayırdı ki, "İranı min ildən bəri idarə edən, bir sıra hallarda ona cahanşümul dəyər qazandıran türklərdir. Odur ki ,İranın son minillik tarixi həqiqətən və başdan – başa ümumtürk tarixinin tərkib hissəsidir .Amma təssüf ki, türklər başqa yerlərdə yol verdikləri səhv və yanlışlıqları burada da ortaya qoyublar. İrana rəsmən, həqiqətən hakim olduqları halda, mənəvi hakimiyyətlərini qurmaqda, qoruyub saxlamaqda zəiflik göstəriblər. Hökumət, ordu, ticarət, əkinçilik, hətta sənət və ədəbiyyat nəzarətlərində ikən varlıqlarının ən canlı və ən güclü amili olan dillərini ümumi dilə çevirmək fürsətiniəldən qaçırıblar. Əksinə, özgə xalqın dilini (fars dilini) dövlət dili kimi qəbul ediblər. Vəziyyətin ağası olduqları halda türk adının kök salmasına çalışmayıblar. Yeri gəlmişkən onu da qeyd etmək istərdim ki, dünya mədəniyyət tarixində İranın mühüm yer tutmasına imkan yaradan elmi və ədəbi cərəyanların bir çoxu türk hakimiyyətləri zamanında çıxmışdı.Türklərə qədərki dövrlərdə İranın dünya mədəniyyətinə verdiyi yeganə mühüm əsər Zərdüştün "Zənd Avesta"sı ilə pəhləvi dilində çox da böyük dəyəri olmayan bəzi ikinci dərəcəli dini yazılardır. Hələ də yaddaşlarda yaşayan görkəmli İran şairləri, məsələn Rudəki, Ünsiri, Firdovsi və s. hamısı Qəznəvilər zamanında yetişmiş,

Sultan Mahmudun sarayında toplanmışdılar. İran klassik ədəbiyyatının məlum nümunələri, məsələn Sədilərin, Hafizlərin, Kamal Xocəndinin və başqalarının əsərləri ya Səlcuqlar zamanına və ya da onlardan sonra hakimiyyət sürmüş Atabəylər vaxtına təsadüf təsadüf edir. İrandakı fəlsəfi və dini cərəyanlar da eyni dövrlərə aiddir. Şərq tarixi göstərir ki, əgər türk sülalələrində milli şüur olsaydı, bütün ədəbi-elmi cərəyanlar türkcə yaranardı və bu yolla da türk irqi milliləşərək bütün Şərqə hakim mövqeyə yüksələrdi. Əlişir Nəvainin əsərləri türk dilinin öz təmsilçilərini yetişdirmək və gələcəyə aparmaq qüdrətinə malik olduğunu sübut edir. Amma heyf ki, milli şüur olmamışdı" [8, s.47].

Böyük zəka sahiblərinin bu mülahizələri ümümtürk tarxinin tərkib hissəsi olan Azərbaycan tarixinə xüsusilə şamil olunmalıdı. Məlum olduğu kimi, Azərbaycanda əsrlərlə məktəb və mədrəsələrdə, eləcə də mollaxanalarda təhsil ərəb və fars dillərində aparılırdı. Rusiya işğalı vəziyyəti öz xeyrinə dəyişdi. Ərəb və fars dlində dərs deyən"mirzə"lərə "uçitel" lər də əlavə olundu. XIX əsrdə dilimizi və digər milli-mənəvi dəyərlərimizi qorumaq çətinləşdi. Əvvəllər İran nüfuzunun mənəvi asimliyasiyası (ortaq islam mədəniyyəti və oxşar adət-ənənələr baxımından) hiss olunmurdusa indi vəzyyət xeyli dəyişdi. Azərbaycan işğalçıların xristianlaşdırma və ruslaşdırma siyasətinin hədəfinə çevrildi. Rusiya istilasının mahiyyətinə aydınlıq gətirən M.Ə.Rəsulzadə yazır: Çarizm Azərbaycanı ruslaşdırmaq üçün iki cəbhədən gəliyordu. Bir tərəfdən xəlqin hissiyyəti-diniyyəsini idarə edən üləma və mollaları kəndi kontroluna tabe tutur, digər tərəfdən də milli tərbiyəyə meydan verməyərək xəlqi rus (uşkol) məktəblərində oxumağa icbar ediyordu. Lakin XIX əsrin əvvəllərində xalq siyasi cəhətdən məğlub olmuşsa da, mənən bərbad olmaq istəmirdi.

M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" əsərində yazırdı ki, "Fəqət xəvass (aristokratiya, cəmiyyətin yuxarı zümrəsi İ.S.) yenə yanılmışdı. Vaxtilə Firdovsinin romantizmi, Sədinin dərin hikməti, Hafizin dadlı qəzəlləri qarşısında bayılan "Mirzə" bu dəfə Lermontovun dağlarda uçan ruhu, Puşkinin su kimi axan nitqi, Tolstoyun məsihanə fəlsəfəsinə vurulmuş bir "uçitel" idi. Yenə də M.Ə.Rəsulzadə davam edərək vurğulayırdı ki, "Sənələr (illər) keçdi, bir tərəfdə "mirzə", digər tərəfdə "uçitel" olurdu. Bunlar bir çox zaman anlaşmadılar. Farslaşmış mirzə kimi ruslaşmış uçitel dəxi xəlqin hədsən duyduğu mətləbi bir çox zaman dərk edə bilmədi. Nəhayət, bir çox kəcvaclardan keçildi. Məktəb və mədrəsələrə qarşı üsulsuz mübarizələrdən sonra "uçitel" məqsədi anladı, bildi ki, Sədini də, Tolstoyu da türk xalqına öyrətmək, türkü onlarla aşina etmək həm vacib (lazım), həm faydalıdır. Fəqət bununla bərabər türkü öz Sədisindən, öz Tolstoyundan da məhrum etmək olmaz". Qeyd etmək lazımdır ki, əsərlərində o Rusiya işğalının ağır nəticələrinə dəfələrlə münasibət bildirmişdi. M.Ə.Rəsulzadə yazırdı: "Rus idarəsi yeni istila etdiyi bu məmləkətlərə yüksək bir iqtisad və siyasət kültürü gətirməmişdi. Müstəqil və yarımmüstəqil xanlıqları məhv edərək, çar hökuməti keçmişə aid hər bir istiqlal xatirəsini silib atırdı".

Qeyd etmək lazımdır ki, "rus işğalı nəticəsində nəinki xalqın soyadı inkar edildi, həmçinin ölkənin adının – "Azərbaycan" məfhumunun rəsmi dövlət sənədlərində işlənməsi ləğv olundu və sonralar isə xəritələrdən də silindi. Yalnız 28 may

1918-ci il Azərbaycan adı dövlət anlayışı kimi Xalq Cümhuriyyəti tərəfindən təsdiq olundu. M.Ə.Rəsulzadə 1925-ci ildə İstanbulda oxuduğu mühazirələr zamanı qeyd etmişdi: ”Rusiya idarəsindəki müsəlmanlara “türk”dedirtmək indi artıq qazanılmış bir davadır. Yalnız “türk” kəlməsi deyil, Azərbaycan adı da qazanılmışdır.”

Beləliklə, milli oyanış hərəkatının ən mühüm uğurlarından biri də tariximizin öyrənilməsi istiqamətlərinin - hədəflərinin doğru müəyyənləşdirilməsi olmuşdur. Ə.B.Ağaoğlu, Ə.B.Hüseynzadə, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, C. Zeynaloğlu, H.Baykara, Ə.Cəfəroğlu və digər dahi mütəfəkkirlərin əsərlərinin öyrənilməsi bizə bunu deməyə əsas verir.

Ədəbiyyat siyahısı:

1. *Ağaoğlu Ə.B. Mən kiməm.Bakı-2019,598 səh*
2. *Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı.1990,116 səh*
3. *Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir? Bakı.1997,291 səh*
4. *Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi, Bakı-1992,142 səh*
5. *Goyalp Z. Türkçülüyün əsasları, Bakı-1991,175 səh*
6. *İbişov S.Ə. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması və mücadilə tarixinin aktual problemlərinə dair (Rusiya istilasından milli istiqlala aparan yola qısa tarixi nəzər), İpək yolu jurnalı,№1, 2018,s.47*
7. *İbişov S.Ə. Muğan (Cavad bölgəsi): əhalisi, tarixi coğrafiyası və toponimləri, Bakı 2025- ci il, s.536*
8. *İbişov S.Ə. Əhməd Bəy Ağaoğlu: Tarixi Şəxsiyyət Haqqında Tarixi Qeydlər, İpək Yolu Jurnalı,No.4,2019,səh.5-17*
9. *Vəliyev O. Azərbaycan millətçiliyi, Bakı-2021,198 səh*

AZƏRBAYCAN-TÜRKİYƏ HUMANİTAR ƏLAQƏLƏRİNİN İNSTİTUSİONAL MEXANİZMLƏRİ

Rəvan Məmmədov
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllimi
ravan.mammadov@admiu.edu.az

Açar sözlər; *Azərbaycan, Türkiyə, humanitar, mədəni əlaqələr, TÜRKSOY, TİKA*
Keywords: *Azerbaijan; Turkey; humanitarian; cultural relations; TURKSOY,TIKA*

Azərbaycan ilə Türkiyə arasında diplomatik münasibətlərin qurulması, iki qardaş xalq arasında tarixi, mədəni və dil birliyinə əsaslanan əlaqələrin rəsmi dövlət səviyyəsində inkişafına şərait yaratmışdır. Azərbaycan-Türkiyə mədəni əlaqələrinin normativ-müqavilə əsasları hələ sovet dövrünün sonlarında formalaşmağa başlamışdı. Azərbaycanın müstəqillik əldə etməsindən sonra imzalanan ilk rəsmi sənəd — “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında dostluq, qardaşlıq, əməkdaşlıq və qonşuluq haqqında Saziş” olmuşdur.

Azərbaycan və Türkiyə arasında mədəniyyət sahəsində əməkdaşlıq yalnız formal sazişlərlə məhdudlaşmamış, eyni zamanda konkret mexanizmlərlə də dəstəklənmişdir. Dövlət və qeyri-dövlət institutlarının birgə iştirakı ilə həyata keçirilməsi

nəzərdə tutulan bu fəaliyyətlər, iki ölkənin strateji tərəfdaşlıq münasibətlərində mədəniyyətin əsas istiqamətlərdən biri olduğunu təsdiqləyir.

Azərbaycan və Türkiyə arasında humanitar əməkdaşlığın formalaşmasında və həyata keçirilməsində dövlət qurumlarının koordinasiyası müstəsna əhəmiyyətə malikdir. Qarşılıqlı humanitar əməkdaşlığın inkişaf etdirilməsində məsul olan nazirlik, komitəvə agentliklər arasında mövcud ikitərəfli koordinasiya mexanizmləri onilliklər ərzində inkişaf etmiş, hazırda bir çox səviyyələrdə hökumətlərarası komissiyalardan tutmuş, təhsil və mədəniyyət sahəsində xüsusi razılaşmalara qədər işlək mexanizmlər əsasında fəaliyyət göstərməkdədir.

Buna ilkin misal olaraq hər iki dövlətin xarici siyasət idarələrini göstərə bilərik. Dövlətlərarası humanitar əməkdaşlığın əsas koordinatorları qismində çıxış edən Azərbaycan və Türkiyə xarici işlər nazirlikləri ikitərəfli siyasi məsləhətləşmələr və hökumətlərarası komissiyalar kimi platformalar daxil olmaqla, qarşılıqlı siyasi münasibətlər çərçivəsində mədəni və təhsil mübadiləsinə də nəzarət edirlər [1, s.744]. Dövlətlər arasında əlaqələrin qurulmasinda və möhkəmləndirilməsində diplomatik kanal olaraq səfirliklərin rolu danılmazdır. Belə ki, səfirliklər diplomatik şəbəkədə həlledici düyünlərin açılmasına xidmət edir. Bu çərçivədə də hər iki dövlətdə yerləşən səfirliklər və rəsmi konsulluqlar Azərbaycanla Türkiyə arasında mədəni və təhsil koordinasiyasınının fəaliyyətini daha da asanlaşdırır. Səfirliklərin və rəsmi konsulluqların fəaliyyəti nəticəsində dövlətlər arasında münasibətlər daha da möhkəmlənir.

Mədəniyyət və təhsil sahəsində digər əhəmiyyətli nümunə kimi, birgə hökumətlərarası komissiyaları göstərə bilərik [2; 3]. Azərbaycan-Türkiyə Birgə Mədəniyyət Komissiyası Türkiyə və Azərbaycan arasında mədəni mübadilə və əməkdaşlığı inkişaf etdirmək üçün yaradılmış əməkdaşlıq platformasıdır. Bu komissiya iki ölkənin ortaq mədəni irsinin qorunması və təşviqi, eləcə də mədəni tədbirlərin birgə təşkili kimi fəaliyyətləri əhatə edir. Komissiyanın məqsədi qarşılıqlı mədəni əlaqələri gücləndirmək və iki xalq arasında dostluğu inkişaf etdirməkdir.

Dövlətlər arasında humanitar münasibətlərin inkişafına töhvə verən növbəti mexanizm kimi təhsil nazirliklərinin tətbiq etdiyi akademik əməkdaşlığı və onun əsasında həyata keçirilən fəaliyyətlər toplusunu göstərə bilərik. Belə ki, Azərbaycan-Türkiyə ikitərəfli humanitar münasibətlərinin konkret nəticələrlə bağlı ən əhəmiyyətli ölçülərindən biri onların təhsil sektorunda yaratdıqları əməkdaşlıq olmuşdur. Beləliklə, son otuz il ərzində iki ölkə bu sahədə hərtərəfli əməkdaşlığı möhkəmləndirmək və təhsil institutları arasında əlaqələri asanlaşdırmaq üçün möhkəm hüquqi və institusional çərçivə yaradıb.

Hər iki dövlət arasında humanitar əlaqələrin inkişaf etdirilməsi üçün mədəniyyət nazirliklərinin tətbiq etdiyi mədəniyyət diplomatiyasının da çox böyük əhəmiyyəti vardır. Belə ki, 2024-cü ildən etibarədən dövlətlərarası yaradılmışd Mədəniyyət Komissiyasının birgə iclasları vasitəsilə mədəni koordinasiya daha da gücləndirilib. Bundan başqa, mədəni irsin qorunması sahəsində əməkdaşlıq 2021-ci ilin mart ayında TİKA ilə Azərbaycanın Mədəni İrsin Qorunması üzrə Dövlət Xidməti arasında protokol vasitəsilə rəsmiləşdirilib, bərpa, peşə hazırlığı və ixtisas mübadiləsi məsələlərinə də xüsusi diqqət yetirilir.

Eyni zamanda, mədəniyyət və incəsənət sahəsində 2021-ci ildə əməkdaşlıq protokolu (9 fevral 1994-cü il) və 13 aprel 2004-cü il tarixli oxşar Mədəniyyətlərarası Əməkdaşlıq Protokolu, habelə mədəniyyət mərkəzləri haqqında 2018-ci ildə imzalanmış oxşar sazişlər ölkələr arasında humanitar əlaqələrin ən bariz nümunələridir. Bütün bu fəaliyyətlərin hamısı müvafiq Mədəniyyət nazirlikləri arasında imzalanmış sazişlər olaraq uzun müddət davam edən institusional çərçivənin möhkəmliyinin göstəricisidir [3].

Azərbaycan–Türkiyə mədəniyyət əməkdaşlığı ortaq türk mədəniyyətinin beynəlxalq miqyasda təbliğinə də geniş yol verir. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) bu fəaliyyət üçün əsas platforma kimi çıxış edir. Ölkələrimiz arasındakı mədəni-humanitar əməkdaşlıq sahəsində bütövlükdə Türk dünyasının böyük təşkilatı TÜRKSOY-un rolu əvəzolunmazdır. Bu təşkilat fəaliyyətə başladığı gündən qeyd olunan sahədə inkişaf ildən-ilə artmaqdadır. Türk mədəniyyətinin tanıdılması və Türk dilli ölkələr arasında mədəni bağların inkişafına çalışan beynəlxalq bir təşkilatdır. Öz fəaliyyətini universitetlər, mədəniyyət mərkəzləri, bələdiyyələr və müxtəlif qeyri-hökumət təşkilatları vasitəsilə həyata keçirir. Ümumilikdə Türk dünyasının mənəvi irsinin qorunmasına çalışan təşkilatı Türkdilli ölkələrin UNESKO-su da adlandırırlar. 'Türksoyun yaradılması və fəaliyyət prinsipləri haqqında Müqavilə" sənədi 12 iyul 1993-cü ildə Almatı şəhərində 6 təsisçi-dövlət eyni zamanda təşkilatın daimi üzvləri -Azərbaycan, Qazaxıstan, Türkiyə, Türkmənistan, Qırğızıstan və Özbəkistan respublikaları tərəfindən imzalanmışdır [4]. Təşkilatın yaradılmasında fəal iştirak edən Azərbaycan rəhbərliyi, onun sonrakı fəaliyyətində də aparıcı dövlətlərdən biri oldu. Çünki qurumun gördüyü işlər mədəniyyət sahəsindəki dövlət strategiyamızla səsləşir. Türklərin tarixi keçmişini, milli mədəni irsini, etnik bağlarını öyrənən, təbliğ edən, dünyaya çatdıran bir təşkilatın işi Azərbaycanın da dəstəklədiyi fəaliyyət istiqamətlərindəndir. Diqqətəlayiqdir ki, öz mədəni əhəmiyyətini dərk edərək, çox vaxt Azərbaycanın mədəni ürəyi kimi xatırlanan Şuşa TÜRKSOY-un Daimi Şurasının 2022-ci il martın 31-də Bursa şəhərində keçirilmiş fövqəl toplantısı çərçivəsində 2023-cü il üçün Türk Dünyasının Mədəniyyət Paytaxtı təyin edilmişdir.

Azərbaycan–Türkiyə əməkdaşlığında institusional çərçivələrdən danışdığımız zaman diaspora və müxtəlif mühacirlərin öz təşəbbüsləri ilə yaratdıqları Agentlikləri də vurğulamaq lazımdır. Belə ki, Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi ilə Türkiyənin Xaricdə Yaşayan Türklər və Əlaqəli İcmalar üzrə Prezidentliyi (YTB) arasında əməkdaşlıq ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynamaqdadır.

Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi TİKA Mədəniyyət diplomatiyası kimi Türkiyənin bir çox dövlətlər ilə əlaqələrinin inkişafına böyük töhfələr vermişdir. 1992-ci ildə yaradılan Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA) Türkiyənin ən gözə çarpan beynəlxalq təşkilatlarından biridir. O, ilk növbədə inkişaf əməkdaşlıq agentliyi kimi fəaliyyət göstərməyə başlamışdır. Halhazırda isə TİKA öz portfelinə ardıcıl olaraq mədəni və təhsil layihələrini inteqrasiya edərək, yardım və inkişafdan yumşaq güc alətləri kimi istifadə etməkdədir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra TİKA Bakıda daimi nümayəndəliyini təsis edən ilk xarici qurumlardan biri olmuşdur və onun layihələri təhsil, səhiyyə, peşə təlimi, kənd təsərrüfatı, mədəni irsin qorunması kimi sektorlarını özündə cəmləyir. Ən əhəmiyyətlisi isə, TİKA iki ölkənin ortaq islam və türk irsini simvolizə edən məscid, kitabxana və abidələrin bərpasını da maliyyələşdirmişdir. Belə ki, TİKA-nın ən böyük təşəbbüslərindən biri də Azərbaycan üçün böyük mədəni əhəmiyyətə malik Şuşa şəhərində tarixi abidələrin bərpasıdır. Tİka-nın münaqişədən sonrakı bərpa işlərinə qoşulması Türkiyənin Azərbaycanla həmrəyliyini təkcə vurğulamır, həm də inkişafa yardım çərçivəsində mədəni diplomatiyanı özünə daxil edir

Eyni zamanda akademik araşdırmalardan, media hesabatlarından və təşkilati sənədlərdən əldə olunan ümumi sübutlar göstərir ki, Azərbaycan–Türkiyə əməkdaşlığı dərin institutlaşdırılmış, çoxşaxəli və uzunmüddətli mexanizmləri özündə xarakterizə edir. Beləliklə, əməkdaşlıq dövlət orqanları şəbəkəsini, xüsusi əsasnamələri, nazirliklərarası komissiyaları və səfirlikləri özündə ehtiva edir. Bütün bunlar təhsil, mədəniyyət və diaspor fəaliyyətini əhatə edən hərtərəfli strategiyaya da öz töhfəsini verir.

Ədəbiyyat siyahısı:

1. Ismayilov, S. Azerbaijan-Türkiye: Strategic Cooperation in Science, Education and Culture. Akademik Tarih ve Düşünce Dergisi, 12 , 2025, 742-751. https://dergipark.org.tr/tr/pub/atdd/article/1733549

2. Azerbaijan-Turkiye Joint Cultural Commission convenes for its fourth meeting. https://www.azernews.az/culture/234993 1 December 2025 — Culture section, Azernews.Az AZTR

3. Embassy of Republic of Azerbaijan to the Repubic of Türkiye, Cultural and Humanitarian Cooperation https://ankara.mfa.gov.az/en/category/cultural-and-humanitarian-cooperation/medeni-ve-humanitar-emekdasliq

4. Aslanova E., Bağırova S. Türksoy- türk xalqlarının mədəniyyət və incəsənət birliyi kimi https://www.elibrary.az/docs/JURNAL/jrn2017_422.pdf

QARABAĞ ZƏFƏRİNİN TÜRK DÖVLƏTLƏRİ ARASINDA İNTEQRASİYA PROSESLƏRİNDƏ ƏHƏMİYYƏTİ: NƏTİCƏLƏR VƏ PERSPEKTİVLƏR

Həmid Əhmədli
UNEC tədqiqat fondu, tədqiqatçı
hahmedli@yahoo.com

Açar sözlər: *Azərbaycan, Mərkəzi Asiya, Türk Dövlətləri Təşkilatı, inteqrasiya, Vətən müharibəsi, nəqliyyat-logistika*
Keywords: *Azerbaijan, Central Asia, Organization of Turkic States, integration, Patriotic War, transport-logistics*

Keçən əsrin sonuncu onilliyindən etibarən dünya nizamında baş vermiş tektonik dəyişikliklər Türk dünyasının gələcəyi ilə bağlı müxtəlif fikirlərin ortaya çıxmasına səbəb oldu. Uzun illər müstəmləkə siyasətinin qurbanı olmuş bu ölkələrin 1991-

ci ildən etibarən müstəqilliklərini əldə etməsi Mərkəzi Asiya, o cümlədən Azərbaycanın dövlətçilik tarixində yeni dövrün başlanması hesab olunur. Müstəqilliyin ilk illərində türk dövlətləri arasında rəsmi münasibətlərin yaradılmasına və tədricən inkişaf etdirilməsinə baxmayaraq, münbit geosiyasi durumun yetişməməsi, ölkələrin siyasi hazırlıqsızlığı və kolonial keçmişin yaratmış olduğu qorxular və s. kimi obyektiv səbəblərdən institusional formada dərin əlaqələr yaranmadı. Lakin növbəti onilliklərdə regional çərçivədə geosiyasi düzənin tədricən dəyişməsi və ölkələrarası ikitərəfli əlaqələrin inkişaf səviyyəsi 2009-cu ildə beynəlxalq təşkilatın yaranması ilə nəticələndi. Baş vermiş hadisələrin təhlili onu göstərir ki, hazırda Türk Dövlətləri Təşkilatında dərin inteqrasiya proseslərinin başlanması Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi nailiyyətlə birbaşa bağlıdır. Azərbaycan və Türkiyənin uzun illər birgə fəaliyyətinin uğurla nəticələnməsinin yaratdığı birlik ruhu və azad olunmuş ərazilərin regional və qlobal miqyasda yaratdığı iqtisadi imkanlar türk dövlətləri arasında inteqrasiya prosesinin sürətlənməsinə gətirib çıxarıb.

İnteqrasiya prosesinin önündə duran əngəllər. Türk dövlətləri müstəqilliklərini əldə etdiyi ilk dövrlərdən etibarən ikili və çoxtərəfli münasibətlərdə aktiv olmağa çalışsa da, bu ölkələr arasında birlik modelini əks etdirən və real gücə malik hər hansı təşkilatın yaranması mümkün olmadı. Bunun ən əsas səbəblərindən biri keçmiş ittifaq ölkələrinin yerləşdiyi arealda mövcud geosiyasi vəziyyətin buna imkan tanımaması idi. Belə ki, Sovet İttifaqının dağılmasına baxmayaraq, Qafqaz və Mərkəzi Asiya regionlarında türk dövlətlərindən təşkil olunacaq yeni güc mərkəzinin Rusiya Federasiyası ilə münasibətlərə xələl gətirəcəyi ehtimal olunduğundan lazımi addımların atılmasından çəkinilirdi. Bu baxımdan ilk illərdən etibarən türk dövlətləri arasında dostluq münasibətlərinin yaranmasına baxmayaraq, ciddi siyasi və ya iqtisadi əməkdaşlıqdan söz etmək mümkün deyildi. Lakin eyni zamanda türk dünyası üçün istər tarixi inkişaf istərsə də siyasi və iqtisadi baxımdan starteji əhəmiyyət kəsb Azərbaycanın üzləşdiyi işğal onun xarici siyasətdə manevr imkanlarını zəiflətməklə yanaşı həm də türk dünyasında birləşdirici rol ala bilməməsinə səbəb oldu. Çünki məhz Azərbaycanın sahib olduğu siyasi, mədəni və nəqliyyat-logistika üstünlükləri Anadolu coğrafiyası ilə Mərkəzi Asiya regionunu birləşdirməyə qadir idi və rəsmi Bakının iştirakı olmadan inteqrasiya prosesi gerçəkləşə bilməzdi. Bu baxımdan müstəqilliyin ilk illərindən etibarən torpaqlarımızın işğala məruz qalması Qarabağ məsələsini uzun illər ölkənin daxili və xarici siyasət gündəliyinin başlıca mövzusuna çevirdi. İşğalın yaratdığı yeni status-kvo və regional geosiyasi vəziyyət türk dövlətləri arasında əlaqələrin keyfiyyətinə birbaşa təsir edirdi. Beləliklə, coğrafi olaraq türk dünyasının mərkəzində yerləşən Azərbaycanın ərazi bütövlüyünün pozulması, həmçinin digər türk ölkələrinin üzləşdiyi müxtəlif siyasi-iqtisadi çətinliklər, o cümlədən türk dünyasının mühüm mərkəzləri hesab olunan Türkiyə Respublikası ilə Özbəkistan Respublikası arasında münasibətlərin soyuması və digər səbəblər hər hansısa bir təşkilat daxilində inteqrasiya ideyasının reallaşmasına əngəl təşkil edirdi.

2009-cu ilin oktyabr ayında Naxçıvan şəhərində Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyənin iştirakı ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) adı ilə hökumətlərarası təşkilatın təsis edilməsi ilk ciddi siyasi addım hesab oluna bilər [1]. Təşkilatın sonrakı illər ərzində tədricən inkişaf mərhələsinə qədəm qoyması və yeni üzvlərin qəbulu müşahidə olunsa da, Azərbaycanın Vətən müharibəsində qazandığı qələbə onun fəaliyyətində tarixi dönüş nöqtəsi sayılır.

Vətən müharibəsinin nəticələri və Türk dövlətlərinin aktivləşməsi. 2020-ci ildə Azərbaycanın işğal altında olan ərazilərinin azad olunması ilə başa çatan II Qarabağ müharibəsi yalnız regionda deyil həm də bütöv Avrasiya kontinentində yeni reallıqların yaranmasına gətirib çıxardı. Post-Sovet məkanında bir ilkə imza atan rəsmi Bakının beynəlxalq münasibətlər sistemində artıq kiçik dövlət mövqeyində deyil orta güc olaraq qəbul olunmağa başlaması özü-özlüyündə yeni geosiyasi və geoiqtisadi mənzərə yaratdı. Beləliklə Azərbaycanın Vətən müharibəsində əldə etdiyi qələbənin yartdığı yeni reallıqlar aşağıdakı səbəblərdən türk dövlətlərinin inteqrasiyası proseslərini sürətləndirməyə müvəffəq oldu:

1. Azərbaycan və Türkiyə - uğurlu əməkdaşlıq modeli. Müstəqilliyin bərpa olunduğu ilk illərdən etibarən rəsmi Bakı ilə qardaş Türkiyə Respublikası arasında siyasi, iqtisadi, enerji və təhlükəsizlik başda olmaqla geniş çərçivəni əhatə edən strateji səviyyəli əlaqələr quruldu. Uzun illər ərzində müdafiə sahəsində dərinləşən əlaqələr, Türkiyə Respublikasının Azərbaycanın ordu quruculuğunda fəal iştirakı və II Qarabağ müharibəsi dövründə rəsmi Ankaranın Azərbaycana göstərdiyi diplomatik dəstəklər ölkənin müstəqilliyinin və suverenliyinin gücləndirilməsinə xidmət etdi. Bu baxımdan iki ölkə arasında qardaşlıq hüququna söykənən münasibətlər uğurlu əməkdaşlıq modeli təşkil edərək digər türk dövlətləri üçün də cəlbedicidir. Bu, digər türk dövlətlərinin də bir-biri ilə yalnız ikitərəfli deyil əksinə vahid birlik altıda qarşılıqlı münasibətlərini dərinləşdirməyə sövq etdirən mühüm amil hesab olunur. Təsadüfi deyil ki, məhz 2021-ci ildə Türk Şurasının İstanbulda dövlət başçılarının iştirakı ilə keçirilmiş VIII Zirvə Görüşü zamanı təşkilatın adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatı ilə əvəz edilib [2]. Həmçinin son illərdə Azərbaycanın Türkiyə ilə yaratdığı əməkdaşlıq modelinin eynisinin Mərkəzi Asiya türk ölkələri ilə rəsmi Ankara arasında qurulmağa çalışılması qeyd edilənləri təsdiqləyir. Eyni zamanda Azərbaycan və Türkiyə tandeminin istər regionda istərsə də ondan kənarda hər iki ölkənin maraqları doğrultusunda atdığı birgə addımların oyun dəyişdirici gücdə olduğu artıq hamı tərəfindən qəbul olunur. Cənubi Qafqazda sabitlik və təhlükəsizliyin təmin edilməsi, o cümlədən son illərdə geosiyasi səbəblərdən strateji əhəmiyyət kəsb edən yeni nəqliyyat-logistika dəhlizlərinin qurulması, tranzitin təşkili və təhlükəsizliyinin təmini məhz bu iki ölkənin birgə fəaliyyəti nəticəsində davamlı şəkildə təmin edilir. Azərbaycanın ərazi bütövlüyünü təmin edərək qlobal statusunu gücləndirməsi, rəsmi Ankaranın müttəfiqlik münasibətlərindən çıxış edərək işğalı davam etdirmək niyyətində olan üçüncü qüvvələrin Cənubi Qafqazdakı fəaliyyətlərinin qarşısını alması bölgədə yeni nizamın qurulduğunun əsas göstəricisi idi. Yaranan yeni reallıqlar isə türk dövlətləri arasında əməkdaşlığın daha da irəli aparılması üçün geosiyasi baxımdan uyğun zamanın yetişdiyini göstərirdi.

2. İşğalın bitməsi ilə yaranan iqtisadi fürsətlər. Vətən müharibəsində əldə olunan qələbə Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü təmin etməklə yanaşı həm də regionda yeni nəqliyyat-logistika yollarının fəaliyyətə başlamasına şərait yaratdı. Artıq işğal nəticəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarından keçən nəqliyyat-logistika xəttlərinin yaxın zamanlarda yenidən işə düşməsi yalnız regional deyil həm də qlobal əhəmiyyət daşıyır. Bu baxımdan Zəngəzur dəhlizinin fəaliyyətə başlaması Azərbaycan və Türkiyə ilə yanaşı Mərkəzi Asiya türk dövlətlərinin dünya bazarlarına açılması üçün alternativ və strateji dəhliz olaraq qəbul olunur. Son illərdə Avrasiyada müxtəlif güc mərkəzləri arasında davam edən kəskin rəqabət, o cümlədən Rusiya-Ukrayna müharibəsi səbəbindən şimal istiqamətində qlobal Şərq-Qərb nəqliyyat dəhlizinin fəaliyyətini dayandırması Orta Dəhlizi strateji vacib bölgəyə çevirib. Məhz bu baxımdan Zəngəzur dəhlizinin istifadəyə verilməsilə Azərbaycan üzərindən keçən Orta Dəhlizin ötürücülük qabiliyyəti də artacaq. Türk dövlətləri bu yolla öz mal və xidmətlərinin ixracını, eyni zamanda Çindən Avropaya daşınan yüklərin tranzitini həyata keçirməklə Avrasiya kontinentdə tarixən olduğu kimi yaxın gələcəkdə də ciddi oyunçuya çevriləcək. Baş verən bu yeni dəyişim türk xalqları və dövlətləri arasında iqtisadiyyatın müxtəlif istiqamətlərində, eləcə də nəqliyyat-logistika sahəsində vahid bir güc olaraq birbirilə qarşılıqlı əlaqələrini dərinləşdirməyi, Türk Dövlətləri Təşkilatının çətiri altında inteqrasiya fəaliyyətini sürətləndirməyi tələb edirdi. Təsadüfi deyil ki, məhz Vətən müharibəsindən sonra siyasi, iqtisadi, mədəni və sosial məsələlərlə bağlı TDT-yə üzv ölkələr arasında çoxlu anlaşmalar imzalanıb və müvafiq komissiyalar yaradılıb. Həmçinin qeyd edək ki, Zəngəzur dəhlizinə qoşulmaqla bağlı Qazaxıstan [3] və Özbəkistan Respublikaları rəsmi olaraq açıqlamalar verərək layihənin onlar üçün strateji maraq kəsb etdiyini bildiriblər [4].

Şəkil 1. Azərbaycanın dəmiryolları şəbəkələri [5]



3. Yeni enerji dəhlizi. Son illərdə Avrasiyada davam edən qeyri-stabil vəziyyət və yeni çağırışlar özü ilə bərabər risklər formalaşdırsa da, nəqliyyat sahəsində olduğu kimi, enerji sektorunda da yeni və alternativ dəhlizlərin ortaya çıxmasına səbəb olur. Nümunə olaraq, 2022-ci ildən etibarən Qazaxıstan neftinin Azərbaycan üzərindən dünya bazarlarına çıxarılmasını qeyd etmək olar [6]. Artıq üç ildən çoxdur fəaliyyətə başlayan bu layihə vasitəsi ilə ötürülən neftin həcmi artan dinamikada inkişaf etməkdədir. Eyni zamanda yaxın gələcəkdə Xəzərin şərq sahilində yerləşən türk dövlətlərinin enerji məhsullarının Zəngəzur dəhlizi vasitəsilə yeni bazarla-

ra çıxarılacağı ilə bağlı müzakirələr davam etdirilir. Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev cari ilin avqust ayında ABŞ-da səfərdə olarkən media nümayəndələrinə müsahibəsində də qeyd etmişdi. Sitat: ***"Biz elektrik ötürücü xətləri, fiber-optik xətlər, potensial olaraq Azərbaycanın və Xəzərin digər tayından qonşularımızın enerji resurslarını daşıya biləcək enerji infrastrukturları haqqında düşünürük"*** [7]. Onun sözlərinə görə, Zəngəzur dəhlizi yalnız avtomobil və dəmiryolu nəqliyyatını deyil, iri həcmli infrastruktur layihələrini özündə birləşdirən strateji hab funksiyasını daşıyacaq. Azərbaycana Mərkəzi Asiya ölkələrinin yaşıl enerjisinin Xəzər dənizinin dibi ilə çəkiləcək xətt vasitəsilə nəql edilməsi və sonrakı mərhələdə Zəngəzur vasitəsilə Avropaya çatıdırılması layihəsini nəzərə aldıqda gələcək üçün böyük və real perspektivlərin olduğu anlaşılır.

4. Azərbaycanın aktiv fəaliyyəti. Uzun müddət Qarabağın işğaldan azad edilərək ölkənin ərazi bütövlüyünün və suverenliyinin təmin edilməsi Azərbaycan xarici siyasətində prioritet mövzu təşkil edib. Lakin münaqişənin həllinə nail olmuş rəsmi Bakı bu illər ərzində yürütdüyü balanslı və praqmatik xarici siyasət vektorunun əldə etdiyi böyük təcrübəni tədricən strateji əhəmiyyət kəsb edən istiqamətlərə doğru yönləndirməkdədir. Hazırda Azərbaycan üçün prioritet vektor Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı gücləndirərək böyük türk ailəsinə hərtərəfli inteqrasiyaya nail olmaqdır [8]. Bu barədə ölkə Prezidenti dəfərlərlə çıxışlarında vurğulayıb. Bu baxımdan Azərbaycanın son illərdə Mərkəzi Asiya ölkələri ilə genişlənən münasibətləri müşahidə olunur. Lakin, rəsmi Bakının Mərkəzi Asiya ölkələri ilə bağlı izlədiyi aktiv siyasət yalnız ikitərəfli və ya çoxtərəfli münasibətləri əhatə etmir. Bugün türk dünyasının mərkəzində yerləşən Azərbaycan Respublikası Anadolu coğrafiyası ilə tarixi Türküstan regionunu birləşdirmək məqsədilə siyasi, iqtisadi, mədəni, hərbi və s. sahələrdə birlik modelinin güclənməsi naminə tarixi missiyasını uğurla yerinə yetirməkdədir. Məhz rəsmi Bakının türk dünyasının vahid birlik halında birləşməsi məqsədilə yürütdüyü aktiv siyasət son illərdə nəzərəçarpacaq və ciddi nəticələrin əldə olunmasına səbəb olub. Təsadüfi deyil ki, məhz Azərbaycan Respublikası Prezidenti Mərkəzi Asiya və Türkiyəyə ən çox səfərləri reallaşan siyasi liderdir.

Nəticə. Uzun illər ərzində türk dövlətləri arasında müxtəlif sahələri əhatə edən dərin əməkdaşlığın və sıx əlaqələrin qurulması reallaşa bilməsə də, Azərbaycanın haqq savaşından qalib çıxması, qardaş Türkiyə Reespublikasının hər zaman problemin həlli ilə bağlı rəsmi Bakını dəstəkləməsi türk dünyası ölkələri arasında münasibətlərin yeni səviyyəyə çıxmasına səbəb oldu. Türk dövlətləri arasında bütün sektorları əhatə edən münasibətlərin dərinləşməsi və institusional xarakter alması məhz Qarabağın azadlığı ilə yekunlaşan Vətən müharibəsindən sonraya təsadüf edir. Burada hərbi-siyasi qələbədən savayı işğalın bitməsinin türk dövlətləri üçün yaratdığı iqtisadi fürsətləri də qeyd etmək lazımdır. Bugün türk dünyasının ana siyasi təşkilatı hesab olunan Türk Dövlətləri Təşkilatı artıq tarixi mərhələyə qədəm qoyub. Ölkələr arasında həm ikitərfli həm də TDT çərçivəsində inkişaf etdirilən əməkdaşlıq hazırda türk dövlətləri üçün Avrasiyada yeni geosiyasi güc mərkəzi olaraq formalaşmaq perspektivini reallaşdırmaqdır. Lakin unutmaq lazım deyil ki, inteqrasiya prosesinin reallaşması məhz rəsmi Bakının aktiv xarici siyasət izləməsinin nəticəsidir.

Ədəbiyyat siyahısı:

1. Naxçıvanda Türkdilli Ölkələrin dövlət başçılarının IX zirvə görüşü keçirilmişdir, Azertag.az, 03.10.2009, https://azertag.az/xeber/naxchivan_zirve_gorusu_turkdilli_olkelerin_birliyini_daha_da_guclendirecekdir_naxchivanda_turkdilli_olkelerin_dovlet_baschilarinin_ix_zirve_gorusu_kechirilmisdir-454620

2. Cumhurbaşkanı Erdoğan: Türk Konseyi'nin adı artık Türk Devletleri Teşkilatı'dır, TC İletişim Başkanlığı, 12.11.2021, https://www.iletisim.gov.tr/turkce/haberler/detay/cumhurbaskani-erdogan-turk-konseyimizin-adi-artik-turk-devletleri-teskilatidir

3. Kazakhstan shows support towards Armenia's peace and transport corridor initiatives, Euronews.com, 22.11.2025, https://www.euronews.com/2025/11/22/kazakhstan-shows-support-towards-armenias-peace-and-transport-corridor-initiatives

4. Надеемся в скором времени начать использовать Зангезурский коридор - Хикматулла Рахметов (Эксклюзив), Trend.az, 26.11.2025, https://ru.trend.az/azerbaijan/business/4122415.html

5. Analysis of the development of railway transport in the territory of Azerbaijan over the East-West transport corridor, 2023, https://plmo.cyber.az/2023/papers/21.pdf

6. Azərbaycan-Qazaxıstan Hökumətlərarası Komissiyanın 21-ci iclası keçirilib, Azərbaycan Respublikası Energetika Nazirliyi, 14.10.2025, https://minenergy.gov.az/az/xeberler-arxivi/00633

7. İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibə verib, President.az, 09.08.2025, https://president.az/az/articles/view/69574

8. Andiçmə mərasimində İlham Əliyevin nitqi, President.az, 14.02.2025, https://president.az/az/articles/view/64527

FRANSA-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ OSMANLI BORCLARI MƏSƏLƏSİ

Şəfa Əbdürrəhimova

Azərbaycan Dillər Universitetinin "Qərb ölkələri üzrə regionşünaslıq" kafedrasının baş müəllimi, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı

chafouniya85@yahoo.fr

Elmi rəhbər:professor Tofiq Mustafazadə

Açar sözlər: *Osmanlı borcları, Fransa-Türkiyə münasibətləri, Lozanna Müqaviləsi, diplomatiya, maliyyə tarixi*

Keywords: *Ottoman debts, France-Turkey relations, Treaty of Lausanne, diplomacy, financial history*

XX əsrin əvvəllərində Osmanlı imperiyasının parçalanması və yeni milli dövlətlərin yaranması nəticəsində bir çox maliyyə və diplomatik məsələlər ortaya çıxmışdır. Bu dövrün ən mürəkkəb və strateji məsələlərindən biri Osmanlı dövründən qalan borcların ödənilməsi olmuşdur. Osmanlı borcları Türkiyə Cümhuriyyəti ilə Avropa dövlətləri, xüsusilə Fransa arasında uzunmüddətli danışıqların əsas mövzusu olmuşdur. Bu borclar həm hüquqi, həm iqtisadi, həm də diplomatik baxımdan Türkiyə üçün ağır yük təşkil etmişdir. Fransa isə bu məsələdən öz strateji maraqlarını qorumaq üçün faydalanmışdır.

Lozanna Müqaviləsi (1923) ilə müəyyən hüquqi çərçivə yaradılsa da, borcların məbləği, ödəniş qaydası və vaxtı Türkiyə üçün ciddi maliyyə və diplomatik öhdəlik-

lər yaratmışdır. Fransa isə həm Osmanlı dövründə əldə etdiyi kapitulyasiya üstünlüklərini qorumaq, həm də Türkiyə ilə münasibətlərdə öz maraqlarını maksimum təmin etmək məqsədilə borclar məsələsini strateji alət kimi istifadə etmişdir. Osmanlı imperiyasının ləğvindən sonra onun yerinə qurulan Türkiyə Cumhuriyyətinə Osmanlı dövründən ağır xarici borc yükü miras qalmışdır. Atatürk Türkiyəsində yeni iqtisadi sistemin formalaşdırılması məqsədilə mühüm səylər göstərilmişdir. Lakin ötürülən xarici borclar yeni cumhuriyyət hökumətinin qarşılaşdığı iqtisadi və maliyyə problemləri arasında ən əhəmiyyətli məsələni təşkil etmişdir. Bu borclar yeni iqtisadi təşəbbüslərin həyata keçirilməsinə mane olan əsas amillərdən biri olmuşdur.

Fransa ilə Türkiyə arasındakı ilk rəsmi münasibətlər Milli Mübarizə dövründə, 20 oktyabr 1921-ci il tarixli Ankara müqaviləsi ilə başlamış və Fransa yeni türk dövlətini tanıyan ilk Antanta dövləti olmuşdur [3, s.12]. Lakin Lozanna müqaviləsindən sonra baş verən bəzi hadisələr iki ölkə arasındakı əlaqələrin uzun müddət gərgin olmasına səbəb olmuşdur. Türk–fransız münasibətlərində ən ciddi gərginlik mövzularından biri Osmanlı borclarının ödənilməsi məsələsi olmuşdur. Osmanlı dövlətinin ən çox borc aldığı ölkə Fransa idi və Lozanna müqaviləsinin 46-cı maddəsinə əsasən borcların ödənilməsi ilə bağlı danışıqlar davam etməli idi [2, s.62]. Hələ konfrans zamanı Türkiyə Osmanlı torpaqları üzərində 16 müstəqil dövlətin mövcud olduğunu, alınan borcların bir hissəsinin bu yeni ölkələr üçün istifadə edildiyini və borcların buna uyğun şəkildə paylanmasını tələb etmişdir. Lakin Türkiyənin bu tələbi qəbul edilməmişdir. Osmanlı dövlətinin borclarını yeni qurulan Türkiyə Cümhuriyyətinin ödəməsi həmin dövrdə Türkiyəyə qarşı beynəlxalq mühitin ədalətli olmaması ilə yanaşı, bu məsələdə diplomatik zəifliyin də göstəricisi hesab olunur. Məsələyə misal olaraq, çar Rusiyasının dağılmasından sonra yaranan vəziyyəti göstərmək olar. Dünya müharibəsindən çəkilən və Avropa dövlətlərinə borclu olan Sovet Rusiyasının lideri Lenin belə demişdi: "Mən yeni bir dövlət və rejim qurmuşam. Borclarınızı istəyirsinizsə, gedib çarları tapın" [4, s.10].

Fransanın Ankaradakı səfiri Bruzerin 12 avqust 1926-cı il tarixli diplomatik teleqramı Türkiyənin borc məsələsində kompromis axtarışını, daxildəki siyasi koordinasiya çatışmazlığı və xarici tərəflə ehtiyatlı münasibətin danışıqları çətinləşdirdiyini göstərir. Fransa isə müəyyən məbləğ qəbul edilərsə, rəsmi danışıqları bərpa etməyə hazır idi [1, s.67]. Bu sənəd Türkiyənin beynəlxalq borc siyasətində sərtliklə ehtiyat arasında balans axtarışını, eləcə də Fransa tərəfindən diplomatik təzyiqin yumşaq və ardıcıl formada necə tətbiq olunduğunu göstərir. Osmanlı borcu problemi bu dövrdə Fransa–Türkiyə münasibətlərinin əsas iqtisadi-siyasi mübahisə mövzularından biri olaraq qalırdı.

Kapitulyasiya ənənəsini davam etdirməyə meyilli olan Fransa Türkiyəyə ödəniş məsələsində çətinlik yaratmağa çalışırdı. Osmanlı dövründə kapitulyasiyalardan ən çox faydalanan ölkə Fransa olduğundan ödəniləcək borcların böyük hissəsi məhz bu dövlətə aid idi. Buna görə də, Fransa öz maraqlarını qorumaq məqsədilə kapitulyasiya ənənəsinin davam etdirilməsini təmin edən bir siyasət yürüdürdü. 13 iyun 1928-ci ildə imzalanan müqavilə ilə ödəniş müəyyən bir təqvimə bağlanmış və Os-

manlı dövrü dövlət borcları sistemi ləğv edilmişdir. Əldə olunan razılaşmaya əsasən, Osmanlı imperiyasının 124.634.000 qızıl lirə dəyərindəki borcunun 86.860.000 qızılı Türkiyə Cumhuriyyəti tərəfindən ödənəcəkdi [4, s.10].

1924–1928-ci illərdə Osmanlı borclarından Türkiyə Cümhuriyyətinə düşən payla bağlı müzakirələr davam etdiyi üçün ödənişlər həyata keçirilməmiş, yalnız 1928-ci ildə razılaşma əldə olunmuş və ödənişlərə 1929-cu ildə başlanmışdır. 22 aprel 1933-cü ildə Parisdə yeni borc müqaviləsi imzalanmış və Türkiyənin xeyrinə düzəlişlər edilmişdir [3, s.13].

Türkiyə 1912-ci ildən əvvəlki Osmanlı borclarının 62 faizini, bu tarixdən sonra alınan borcların 73 faizini ödəməyi qəbul etmişdir. Bu borcların məbləği 82.456.977 qızıl lirəsi əsas borc, qalanı isə faiz olmaqla ümumilikdə 107.528.461 qızıl lirə təşkil etmişdir. Bu razılaşmaya görə Türkiyənin ödəniş planı aşağıdakı kimi olmalı idi:

- 1936-cı ilə qədər: hər il 2.000.000 qızıl lirə;
- 1936–1942-ci illər: hər il 2.800.000 qızıl lirə;
- 1942–1947-ci illər: hər il 2.780.000 qızıl lirə;
- 1947–1952-ci illər: hər il 3.180.000 qızıl lirə;
- 1952-ci ildən sonra: hər il 3.400.000 qızıl lirə [5, 118];

1936-cı ildə Türkiyə büdcəsində kifayət qədər vəsait olmasına baxmayaraq, xarici borc servisi üçün valyuta köçürməsində çətinlik yaranacağını öncədən görmüş və yeni valyuta təminatı və ödəniş planı hazırlamışdır. 26 noyabr 1935-ci il tarixində Fransa hökumətinə məktub göndərilmişdir. Nəticədə, Parisdə Fransa ilə 5 illik yeni ödəniş planı razılaşdırılmışdır [5, s.121].

1 yanvar 1936-cı ildən sonrakı ödənişlər fransız-türk ödəniş müqaviləsinə uyğun olaraq, Türkiyəyə valyuta təmin etmək və türk ixrac məhsullarının Fransaya ixracını asanlaşdırmaq məqsədini daşıyırdı.

25 aprel 1944-cü il tarixində Türkiyə Cümhuriyyəti 10 illik erkən ödəniş qərarı qəbul etmiş və ödənişlərin son tarixini 25 may 1954-cü il olaraq müəyyən etmişdir. Beləliklə, Osmanlıdan qalan borcların hamısı erkən ödənişə tabe edilmiş, hətta istiqrazlarını daha erkən almaq istəyən sahibkarlara erkən ödəniş qiymətindən yüksək məbləğlər təklif olunmuşdur. Ödənişlər faktiki olaraq 25 may 1954-cü ildən əvvəl tamamlanmış, hüquqi baxımdan isə proses 25 may 1954-cü ildə sona çatmışdır [2, s.62]. Bu, Türkiyənin maliyyə nüfuzunu gücləndirmiş və 100 il daşıdığı ağır maliyyə yükünü aradan qaldırmışdır.

Osmanlı İmperiyası borclarına görə məsul sayılan ölkələrdən İtaliya, Fələstin, Suriya-Livan, İraq və Ürdün borclarını tamamilə, Yuqoslaviya və Bolqarıstan isə qismən ödədiyi halda, Yunanıstan, Albaniya, Səudiyyə Ərəbistanı və Yəmən heç bir ödəniş etməmişdir.

Osmanlı borcları məsələsi Türkiyə üçün yalnız maliyyə yükü yaratmamış, həm də yeni dövlətin diplomatik bacarıqlarını sınayan strateji bir sınaq olmuşdur. Türkiyənin uzunmüddətli danışıqlar, güzəştlər və erkən ödəniş planları vasitəsilə borcları tamamilə həll etməsi, həm ölkənin maliyyə nüfuzunu gücləndirmiş, həm də 100

illik ağır yükü aradan qaldırmışdır. Fransa ilə münasibətlərdə isə borclar məsələsi diplomatik təzyiq vasitəsi kimi istifadə olunmuş, lakin Türkiyənin səyləri nəticəsində qarşılıqlı razılaşmalar əldə edilmişdir. Bu proses milli dövlətlərin müstəqillik və iqtisadi dayanıqlığını təmin etməsi baxımından əhəmiyyətli tarixi nümunədir.

Nəticə olaraq qeyd edə bilərəm ki, Osmanlı borclarının ödənilməsi yalnız Türkiyə-Fransa münasibətlərində deyil, eyni zamanda digər Avropa və Yaxın Şərq ölkələri ilə əlaqələrdə də nüfuz və etibarlılıq məsələsi idi.

Ədəbiyyat siyahısı:

1. Archives du Ministère des Affaires Étrangères de France (MAE), Série E Levant Turquie, 1918-1929, Turquie. Direction des Affaires Politiques et Commerciales. Carton 324. Dossier 4. Vol. 181. P.67Fransanın Ankaradakı səfiri Bruzerin 12 avqust 1926-cı il tarixli diplomatik teleqramı. saat 12:12

2. Bolat Mahmut. Genel hatlarıyla Atatürk dönemi Türkiyenin ikili ilişkleri, Gazi üniversitesi kırşehir eğitim fakültesi. Cilt 7, Sayı 1, (2006), s. 45-74. https://turkoloji.cu.edu.tr/ATATURK/arastirmalar/ mahmut_bolat_ataturk_donemi_turkiye_ikili_iliskiler.pdf

3. Dinç Sait. Atatürk Döneminde (1920- 1938) Türk Dış Politikasında Gelişmelere Genel Bir Bakış; İkili ve Çok uluslu İlişkiler, https://turkoloji.cu.edu.tr/ATATURK/ arastirmalar/sait_dinc_ataturk_donemi_turk_dis _politikasi.pdf - 30 səh.

4. Keskin Şahin. Atatürk dönemi türk dış politikası, 1923-1938 Türk Dış Politikası, Akademik lisan. - 13 səh.

5. Özdemir Biltekin. Osmanlı Devleti Dış Borçları, 1854-1954 Döneminde Yüzyıl Süren Boyunduruk, Ankara, Eylül 2009, Ankara ticaret odası yayını https://www.academia.edu/34082023/Osmanl%C4%B1_Devleti_D%C4%B1%C5%9F_Bor%C3%A7lar%C4%B1_1854_1954_D%C3%B6neminde_Y%C3%BCzy%C4%B1l_S%C3%BCren_Boyunduruk_Biltekin_%C3%96ZDEM%C4%B0R?utm_source=chatgpt.com - 173 səh.

XX–XXI ƏSRLƏRDƏ TÜRK DÜNYASINDA ETNİK VƏ MƏDƏNİ KİMLİK PROBLEMLƏRİ

Səbinə Muradova
Azərbaycan Dillər Universitetinin "Qərb ölkələri üzrə regionşünaslıq" kafedrasının baş müəllimi
turalsabina99@gmail.com;
https://orcid.org/0000-0002-8095-8731

Açar sözlər: *milli kimlik, etnik, ideologiya, millət, rejim*
Keywords: *national identity; ethnic; ideology; nation; regime.*

XX əsrin əvvəlləri qlobal güc mərkəzlərinin dəyişməsi və böyük imperiyaların (Osmanlı, Rusiya) süqutu ilə, türk xalqlarının kollektiv şüurunda yeni kimlik axtarışlarının başlanğıcını qeyd etdi. Əsrin sonu isə Sovet İttifaqının dağılması nəticəsində Orta Asiya və Cənubi Qafqazda müstəqil Türk dövlətlərinin yaranması ilə identiklik məsələsini yenidən gündəmə gətirdi. XXI əsrdə qloballaşma, informasi-

ya texnologiyaları və transsərhəd siyasi proseslər isə milli, regional və trans-milli türk kimlikləri arasında mürəkkəb münasibətlər yaratmışdır. Bu tədqiqatın əsas problemi odur ki, türk dünyası ortaq dil qrupu, mədəni irs və tarixi köklərə malik olsa da, XX əsrin siyasi quruluşu xüsusilə Sovet İttifaqında etnik sərhədlərin çəkilməsi və XXI əsrin qloballaşma təzyiqləri nəticəsində bu ümumi irsin üzərində bir-birindən fərqlənən, bəzən isə ziddiyyətli milli dövlət və regional identikliklər formalaşmışdır.

Tədqiqatın əsas məqsədi XX-XXI əsrlərdə Türk xalqlarının etnik və mədəni identikliklərinin formalaşmasına təsir edən əsas siyasi, sosial və mədəni faktorları təhlil etməkdir. Nəzəri əsas kimi, Benedict Andersonun "Xəyali İcmalar" konsepsiyası millətin media və təhsil vasitəsilə qurulan sosial bir konstruksiya olduğu və Ernest Gellnerin "Millət və Millətçilik" əsərindəki millətçiliyin sənayeləşmə və modernləşmənin nəticəsi olduğu fikirləri rəhbər tutur. Eyni zamanda, Fredrik Bartın etnik sərhədlərin dinamikliyini və siyasi məqsədlər üçün instrumental şəkildə istifadə edilməsini vurğulayan yanaşması identikliklərin siyasi təhlilinə kömək edir.

XX əsrin əvvəllərində, Türk xalqlarının kimlik məsələsi iki əsas imperiyanın - Osmanlı və Rusiyanın süqutu ilə kəskin şəkildə dəyişdi. Türkiyədə Osmanlı ideologiyasından sekulyar, Qərb yönümlü Türkiyə millətçiliyinə keçid baş verdi. Mustafa Kamal Atatürkün apardığı islahatlar - ərəb qrafikasından latın qrafikasına keçid, türk dilinin saflaşdırılması milli kimliyin əsas daşıyıcıları olan dil və tarixi yaddaşı kökündən dəyişdirdi. Bu, Erik Zürcherin təhlil etdiyi kimi, cəmiyyəti köhnə Osmanlı mədəniyyətindən ayıraraq yeni, müasir Türkiyə kimliyi yaratmağa xidmət edirdi [1, 6-7;37-46].

Rusiya İmperiyası daxilində isə aparılan hərəkat XX əsrin əvvəllərində təhsil, dilin təkmilləşdirilməsi və islamın modernləşdirilməsi yolu ilə Türk xalqları arasında ortaq mədəni birliyə nail olmağa çalışırdı. Bu hərəkat, daha sonra Sovet rejiminin millət siyasətinin bazasına çevriləcək yerli identiklik şüurunun inkişafına təkan verdi [3, 25-40].

1920-ci illərdə Sovet İttifaqının tətbiq etdiyi milli-ərazi delimitasiya siyasəti Türk dünyasının etnik identiklik tarixində ən kritik məqam oldu. Sovet ideologiyası pan-türkizm və pan-islamizm ideyalarını qətiyyətlə rədd edərək, bu böyük regionda fərqli millət-dövlət vahidlərini (Özbəkistan SSR, Qazaxıstan SSR, s.) yaratdı. Bu proses instrumentalizm nəzəriyyəsinin klassik nümunəsidir, çünki etnik fərqlər (dialektlər, qəbilə bağları) siyasi məqsədlər üçün gücləndirildi. Əvvəlcə latınlaşdırma, daha sonra isə 1940-cı illərdə kiril qrafikasına keçid Türk xalqlarının bir-biri ilə mədəni əlaqəsini və ortaq ədəbi irsə çıxışını məhdudlaşdırdı. Hər bir sovet respublikasında ayrıca bir "milli dil" formalaşdırıldı, bu da ümumi türk mədəniyyəti şüurunun zəifləməsinə səbəb oldu. Milli identiklik rəsmi səviyyədə tanınsa da, sovet və rus mədəniyyətinin dominantlığı və ortaq "Sovet Vətənpərvərliyi" ideologiyası yerli mədəniyyətləri kölgədə qoymağa çalışdı.

1991-ci ildə Sovet İttifaqının dağılmasından sonra müstəqil Türk dövlətləri öz milli identikliklərini bərpa etmək və ya yenidən qurmaq prosesinə başladılar. Bu prosesdə fərqli strategiyalar müşahidə olundu [4, 85-110].

Azərbaycançılıq ideologiyası ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülüb. Dünyəvilik, milli dəyərlər və Türk-İslam irsinin sintezini təmin edir. Türkiyə ilə mədəni yaxınlaşma identikliyin mühüm tərkib hissəsi olaraq qalır. Orta Asiya Dövlətləri olan Qazaxıstan, Özbəkistan, Türkmənistan kimi dövlətlər özlərinə məxsus dövlət quruculuğu və regional tarixi fiqurlarını məsələn, Teymur, Qədim Türk xanlarının varisləri üzərində qurdular. Özbəkistan qədim islam mərkəzləri olan Səmərqənd və Buxaranın tarixi irsinə, Qazaxıstan isə köçəri mədəniyyətə və Böyük Çöl irsinə daha çox diqqət yetirdi. Bu, lokal, etno-regional identikliyi ön plana çəkdi. Türkiyədə isə XX əsrin dünyəvi millətçiliyindən kənara çıxan, Türk-İslam sintezinə və Neoosmanlıçılığa əsaslanan identiklik elementləri gücləndi. Bu müstəqil dövlətlər arasındakı fərqlənmə Bartın qeyd etdiyi kimi, etnik qrupların sərhədlərini necə formalaşdırdığını, möhkəmləndirdiyini və siyasi məqsədlər üçün istifadə etdiyini göstərir [2, 14-15].

XXI əsrdə qloballaşma prosesi Türk dünyasının etnik və mədəni identikliyinə həm müsbət, həm də mənfi təsir göstərir. Ən böyük problem mədəni eroziyadır. Qərb mərkəzli kütləvi mədəniyyət musiqi, moda, məişət tərzi gənc nəsil arasında yerli mədəniyyət və dil normalarını sıxışdırır. Xüsusilə diasporlarda yaşayan Türk icmaları ikili identiklik təzyiqi ilə üzləşirlər: bir tərəfdən yerləşdikləri ölkənin mədəniyyətinə inteqrasiya, digər tərəfdən isə kök mədəniyyətini qorumaq öhdəliyi ilə toqquşur. İnternet və sosial media, bir tərəfdən mədəni mübadiləni məsələn, Türk seriallarının və musiqisinin Orta Asiyada yayılması asanlaşdırsa da, digər tərəfdən yerli dillərin təsirini azaldır. İngilis dili və Rus dilinin internetdə üstünlük təşkil etməsi, Türk dillərinin inkişafını məhdudlaşdırır [5, 181-198].

Bu mürəkkəb kimlik mənzərəsində, Türk xalqları arasında ortaq mədəniyyət və siyasi əlaqələri inkişaf etdirmək üçün təşəbbüslər də mövcuddur. Türk Dövlətləri Təşkilatının fəaliyyəti trans-milli Türk identikliyini institusionallaşdırmağın ən vacib nümunəsidir. TDT-nin əsas məqsədləri iqtisadi, siyasi və mədəni inteqrasiyanı dərinləşdirməkdir. Məsələn: Ortaq Türk Əlifbasına keçidlə bağlı müzakirələr və Ortaq Türk Tarixi Dərsliklərinin hazırlanmasıdır. Bu layihələr Andersonun "xəyali icma" konsepsiyasını daha geniş, dövlətlərarası səviyyədə qurmağa cəhd edir. Bu, Türk dövlətlərinin "yumşaq güc" vasitəsilə ümumi mədəni dəyərləri təbliğ etmək və beynəlxalq arenada vahid bir "Türk Dünyası" siyasi fiquru yaratmaq istəyini əks etdirir [4, 85-110].

XX–XXI əsrlərdə Türk Dünyasındakı etnik və mədəni identiklik prosesləri dinamik və ziddiyyətli olmuşdur. Tədqiqatlar göstərir ki, sovet dövrünün etnik sərhədlər siyasəti və milli dillərə müdaxiləsi ortaq Türk identikliyi şüurunun parçalanmasına səbəb olmuş, nəticədə müstəqil milli dövlətlərin lokal kimlikləri güclənmişdir. Müstəqillik dövründə də ortaq trans-milli türk identikliyi ideyası mövcud olsa da, hazırda bu identiklik hər bir dövlətin öz yerli milli kimliyi tərəfindən köl-

gədə qalır. Kimliyin əsas daşıyıcısı hələ də milli dövlət və onun siyasi aparatı olaraq qalır. Qloballaşma və Qərb kütləvi mədəniyyətinin təsiri gənclər arasında yerli dillərə və mədəniyyətlərə olan marağı azaldır, bu da etnik identikliyin qorunması üçün ciddi bir risk yaradır.

Bu tədqiqatın nəticələri əsasında, XX–XXI əsrlərdə Türk Dünyasında kimlik məsələlərinin gələcək elmi araşdırılması üçün bir çox istiqamətlərdə tədqiqatların dərinləşdirilməsi tövsiyə olunur. Müstəqil Türk dövlətləri arasında identikliklərin formalaşması proseslərinin daha fundamental şəkildə müqayisəli təhlilinə üstünlük verilməlidir. Sovet İttifaqının tərkibində olmuş dövlətlərin (Azərbaycan, Özbəkistan, Qazaxıstan) millət quruculuğu prosesləri ilə, bu irsdən kənar inkişaf etmiş Türkiyə Cümhuriyyətinin identiklik siyasəti arasındakı metodoloji fərqlərin sistemli müqayisəsini apararaq bu, milli liderlik kultlarının identikliyin siyasi instrumentalizmindəki rolunu aydınlaşdırmağa kömək edəcək. Latın, kiril və ərəb qrafikalarının türk xalqlarının ortaq mədəniyyətə və bir-birlərinin ədəbiyyatına çıxışına necə təsir etdiyinin dilçilik və sosial-linqvistik metodlarla təhlilini vermək lazımdır. Türk Dövlətləri Təşkilatının fəaliyyətlərinin məsələn, ortaq tarix dərsliklərində konkret olaraq hər bir üzv dövlətin əhalisinin, xüsusilə də gənclərinin, özünü "Türk Dünyası"nın bir hissəsi kimi qəbul etməsinə necə təsir etdiyinin kəmiyyət və keyfiyyət göstəriciləri ilə ölçülməlidir. Qloballaşmanın mədəni eroziyası riskini nəzərə alaraq, identikliyin ən həssas qrupları olan gənc nəsil və diaspor icmalarının identiklik mənzərəsinin dərindən araşdırılması zəruridir. Belə ki, türk dövlətlərindəki gənclər arasında milli identifikasiya səviyyəsi, türkdilli media istehlakı və qərbin qlobal mədəniyyətə inteqrasiya səviyyəsini ölçmək üçün geniş miqyaslı sosial sorğuların keçirilməsi tövsiyə edilir. Ənənəvi etnoqrafik metodlar, dərin müsahibələr, iştirakçı müşahidə vasitəsilə Avropa və Şimali Amerikadakı türk diasporlarının ikinci və üçüncü nəsillərinin özlərini necə yerləşdirdiklərini araşdırmaq məqsədəuyğundur. Tədqiqatlar ikili kimliyin yəni köçkünlük ölkəsi və mənşə ölkəsi kimi formalaşma dinamikasını, dilin qorunması problemlərini və mədəniyyətlərarası konfliktləri fokuslaşdırmalıdır.

Ədəbiyyat siyahısı:

1. Anderson, B. London: Imagined Communities: Reflections on the Origin and Spread of Nationalism, 1983, 224 s.

2. Barth, F. Oslo, Universitetsforlaget. Ethnic Groups and Boundaries: The Social Organization of Culture Difference, 1969. 153 s.

3. Baysu, J. The Geopolitics of the Turkish World. From Pan-Turkism to the Turkish Council, 2019, 232 s.

4. Roy, O. The New Central Asia. The Creation of Nations. New York University Press, 2000, 240 s.

5. Zürcher, E. Turkey. A Modern History. Revised Edition. London, 2004, 416 s.

İŞĞALDAN AZAD EDİLƏN QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURA QAYIDIŞ VƏ BƏRPA-QURUCULUQ İŞLƏRİ

Ülviyyə Poladxanlı - Yaşarlı
Azərbaycan Dillər Universitetinin "Qərb ölkələri üzrə regionşünaslıq" kafedrasının müəllimi
ulviyyepolad4@gmail.com
Elmi rəhbər: professor S. F.Əliyeva

Açar sözlər: *bərpa, alternativ enerji, yenidənqurma, şəhərsalma, Qarabağ*
Keywords: *restoration, alternative energy, reconstruction,urban planning, Karabakh*

2020-ci il Vətən müharibəsindən sonra Azərbaycan Respublikasının qarşısında duran ən mühüm və strateji vəzifələrdən biri işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur bölgələrinin bərpası, müasir standartlara uyğun şəkildə yenidən qurulması və əhalinin təhlükəsiz şəkildə doğma yurdlarına qayıdışının təmin edilməsidir. Otuz ilə yaxın davam edən işğal dövründə bölgənin sosial, iqtisadi və ekoloji strukturu tamamilə dağıdılmış, şəhər və kəndlərin böyük hissəsi yararsız hala salınmış, mədəni irs nümunələri məhv edilmiş və infrastruktur sıradan çıxarılmışdı. Buna görə də Azərbaycan dövləti bərpa prosesini təkcə tikinti və yenidənqurma işi kimi deyil, həm də kompleks reinteqrasiya və uzunmüddətli inkişaf layihəsi kimi planlaşdırır.

İlk öncə yenidənqurma və şəhərsalma anlayışları haqqında sizlərə məlumat vermək istəyirəm. Yenidənqurma – zədələnmiş, dağıdılmış və ya köhnəlmiş ərazilərin, binaların, infrastrukturun və sosial mühitin bərpası və müasirləşdirilməsi prosesidir. Bu anlayış adətən müharibə, təbii fəlakət, uzunmüddətli baxımsızlıq və ya planlı struktur dəyişiklikləri nəticəsində yaranan ehtiyaclardan doğur. Şəhərsalma – şəhər və qəsəbələrin rasional planlaşdırılması, inkişafı, idarə edilməsi və funksional şəkildə təşkilinə yönəlmiş elmi-praktik fəaliyyət sahəsidir. Şəhərsalma həm fiziki, həm sosial, həm də iqtisadi aspektləri əhatə edir.

Ayrılıqda hər iki anlayışın özündə ehtiva etdiyi kompanentləri mövcuddur. Bunlara misal olaraq Fiziki məkanların (yollar, körpülər, yaşayış binaları) bərpası, sosial infranstrukturun bərpası, əhalinin təhlükəsiz yaşayışının təmin olunması, ərazinin əvvəlkindən daha funsional və dayanıqlı vəziyyətə gətirilməsi, bunlar yenidənqurma anlayışının, nəqliyyat sistemlərinin təşkili, yaşayış zonalarının planlaşdırılması, şəhər mühitinin sosial ehtiyaclara uyğunlaşdırılması, bunlar isə şəhərsalmanın kompanenləri olaraq göstərilir.

İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzura qayıdış və bərpa – quruculuq işləri mözusuna gəldikdə bu məsələ dövlətimizin prioritet məsələsi olub, ikinci Qarabağ müharibəsinin uğurlu qələbəsindən sonra Azərbaycan dövlətinin qarşısına qoyduğu ən böyük məsələlərdən biri, azad olunmuş ərazilərdə quruculuq işlərinin başlanması prosesi idi. Ağır, ağrılı bir dövrü artıq geridə qoyub məğrur, qürurlu, başımız dik şəkildə Qarabağı dirçəltməyə, erməni vandallarının törətdikləri dağın-

tıları bərpa etməyə başlanıldı. Cənab Prezident İlham Əliyevin 10 noyabr 2020-ci ildə çıxışı sülh müqaviləsinin bağlanması bu prosesin başlanmasının öncüsü oldu. 26 noyabr 2020-ci il tarixində Cənab Prezidentin göstərişi ilə yenidənqurma və bərpa işlərinin planlanması prosesi başlandı.

İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma və bərpa işlərinin başlanmasının ilk növbədə olunmalı vacib olan prosesi, azad olan ərazilərdə yaşayış məskənləri və yollar çərçivəsində minalardan təmizlənmə prosesinin başlanması idi. Bu proses ərazidə təhlükəsizliyin bərpa olunması, insanların rahat yaşamasının təmini idi. Bu gün biz qeyd etməliyik ki, işğaldan azad edilmiş Qarabağda minalardan təmizlənmə prosesi çox sürətlə aparılıb, ANAMA tərəfindən böyük naliyyətlər əldə olunub.

Azad olunmuş Qarabağın bərpasında minalardan təmizlənmə prosesinin müvəffəqiyyətlə davam etdirilməsi, müxtəlif infrastrukturların qurulmasına mümbit şərait yaratdı. Ərazidə bir çox məktəbin tikilməsi və istifadəyə verilməsi, yaşayış yerlərinin bərpası, dövlət qurumlarının istifadəyə verilməsi ərazidə olan canlanmanın sübutudur. Ən böyük nəaliyyətlərimizdən biridə qarşımıza qoyduğumuz məəqsədlərimizdən biri olan Qarabağ Universititenin fəaliyyətə başlamasıdır. Böyük Qayıdış layihəsinin ən başlıca göstəricisi kimi tarixdə iz qoymuşdur. Həmçinin istifadəyə verilən yaşayış məskənlərinə köç prosesinin sürətlə davam etdirilməsi Qarabağ ərazisində qeyd olunan tarixdə vəd olunan naliyyətlərə çatacağımızdan xəbər verir.

Qarabağda yenidənqurma və bərpa işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanmışdır. İlk növbədə təhlükəsiz yaşam perspektivinin yaradılması daha sonra isə müasir infrastruktur layihələri həyata keçirilən dəmir yollarının bərpası, avtomabil yollarının bərpası, tunellərin çəkilməsi, su elektrik stansiyalarının yaradılması, su təhçizatının tam təmin olunası, "ağıllı kənd" salınması, hava limanlarının istifadəyə verilməsi təmin olunmuşdur. Qarabağ və Şərqi Zəngəurda Böyük qayıdış programının uğurla icra olunduğuna gözlərimizlə şahid oluruq. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndinə, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndinə, 325 ailə (1245 nəfər) Laçın şəhərinə, 258 ailə (928 nəfər) Füzuli şəhərinə, 71 ailə (291 nəfər) Laçın rayonunun Zabux kəndinə köçürülüb. Bu günədək 3425 keçmiş məcburi köçkün doğma yurduna qovuşub.[2]. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq keçmiş məcburi köçkünün geri dönməsi nəzərdə tutulur. İşğaldan azad edilən torpaqlarımızda aparılan mühüm bərpa-quruculuq işləri, həyata keçirilən qayıdış prosesləri dövlətimiz tərəfindən Böyük qayıdış proqramının uğurla icra edilməsinin parlaq göstəricisidir. "Böyük qayıdış proqramı haqqında danışarkən deyə bilərəm ki, həmin proqram bütün azad olunmuş ərazilərin bərpasını əhatə edir. Təkcə bərpa etmək deyil - burada müasir texnologiyalar, "ağıllı şəhər" və "ağıllı kənd"lər inşa olunur. Burada ən müasir şəhərsalma nümunələri istifadə edilir". Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumundakı çıxışında Prezident İlham Əliyevin xüsusi vurğuladığı kimi, bu gün Qarabağ və Şərqi Zəngəzur abadlıq meydanına, cənnətməkana çevrilib [2].

Bunuda nəzərinizə çatdırmaq istərdim ki, yenidənquma və bərpa işlərinin sürətlə davam etməsi iş yerlərinin açılması baxımından, dayanıqlı inkişaf prosesinin öhdəlikləri baxımından vacib məqamlardandır**.** Azad edilmiş bütün torpaqlarda su, günəş, külək enerjilərindən istifadə ediləcək**.** Vətən müharibəsində işğaldan azad edilən ərazilərimizdə təbii şərait, zəngin su ehtiyatları elektrik enerjisi istehsalı üçün geniş imkanlar açır. Yaşıl zonaların yaradılması, alternativ enerjidın istifadə olunması, həmçinin təbiətin qorunmasına dair bir çox layihənin hazırlanması mövcuddur. İşğaldan azad edilmiş ərazilərin bərpası prosesinin mühüm tərkib hissəsi kimi enerji infrastrukturunun qurulması və enerji təhlükəsizliyinin təmin edilməsinə xüsusi əhəmiyyət verilir. Bu hədəfə uyğun olaraq elektrik enerjisinin istehsal güclərinin bərpası çərçivəsində Laçında, Kəlbəcərdə və Suqovuşanda bərpa edilən 20.2 MVt gücündə 4 su elektrik stansiyası artıq istismara verilmişdir.

Eyni zamanda, Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində ümumi gücü Azərbaycan tərəfi üçün 140 MVt (100 MVt "Xudafərin", 40 MVt "Qız Qalası") olmaqla, iki su elektrik stansiyasının tikintisi hazırda davam etdirilir [4]. Bərpa olunan enerji mənbələrinin geniş tətbiqi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən enerji siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Bunuda qeyd etmək lazımdır ki, bərpa olunan enerji prosesinin başlanması, karbon qazı emissiyalarının azalmasına təşviq olunması, həmdə bizim qarşımıza qoyduğumuz məqsədlərimizdəndir. COP 29 çərçivəsində 2030-cu ilə qədər Azərbyacan ərazisində emissiyaların 40% qədər azaldılması hədəflənir [3]. İşğaldan azad olunmuş ərazilərdə iş yerlərinin açılması ərazidə yaşayacaq əhalinin sosial rihafının sağlanması baxımından əlverişli şəraitin hər mənada yaradılması ilə əlaqəlidir. Qeyd olunanları nəzərə aldıqda görə bilirik ki, yenidənqurma işləri ilə yanaşı, ərazinin davamlı inkişafı üçün təməllər möhkəm qoyulmuşdur.

Düşmənin darmadağın etdiyi Qarabağımızda şəhərlərin və kəndlərin bərpası hazırda sürətlə davam etdirilir, Böyük Qayıdış Proqramı çərçivəsində böyük addımlar atılır. Azad olunmuş şəhərlərə və kəndlərə yaxın uç ildə 140 min insanın köçürülməsi planlaşdırılır. Bu isə, eyni zamanda, ölkəmizin ildən-ilə artan iqtisadi gücünün daha bir əyani göstəricisidir.

Ədəbiyyat siyahısı:

1. *Böyük Qayıdış Programı. https://president.az/az/greatreturn 24 noyabr 2020.*
2. *Musayeva Y. Quruculuq Təntənəsi. https://azerbaijan-news.az/az/posts/detail/quruculuq-tentenesi-1700343279. 25 yanvar 2026*
3. *Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade 12 oktyabr 2025*
4. *İşğaldan azad edilmiş ərazilərdə Yaşıl Enerji Zonası https://area.gov.az/az/page/layiheler/yasil-enerji-zonasi/yasil 6yanvar 2021*
5. *Böyük Qayıdış https://azerbaijan.az/information/911. 25 yanvar 2026*
6. *Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi https://e-qanun.az/framework/52757 14 aprel 2025*

SƏFƏVİ SƏFİRLƏRİ İSPANİYA SARAYINDA

Sevinc Qurbanova
Azərbaycan Dillər Universitetinin "Qərb ölkələri üzrə regionşünaslıq" kafedrasının baş müəllimi, AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, sabiq doktorant
sevinc-qurbanova@adu.edu.az
Elmi rəhbər: akademik Yaqub Mahmudov

Açar sözlər: *Səfəvi dövləti, İspaniya, elçilər, əlaqələr, I Şah Abbas*
Keywords: *Safavid Empire, Spain, ambassadors, relations, I Shah Abbas*

Səfəvi dövləti türk-islam dünyasında güclü və təsirli bir siyasi mərkəz kimi meydana çıxaraq Azərbaycan dövlətçilik tarixində xüsusi yer tutmuşdur. Onun xarici siyasətinin əsas istiqamətlərindən biri Osmanlı imperiyası ilə münasibətlər idi. Məhz Osmanlı-Səfəvi rəqabəti Səfəvi dövlətinin Avropa dövlətləri ilə diplomatik əlaqələr qurmasına təşviq edən əsas səbəblərdən biri idi.

Səfəvi dövlətinin qarşılıqlı əlaqə saxladığı Avropa dövlətləri arasında İspaniya xüsusi yer tuturdu. İspaniya ilə Səfəvi dövləti arasında diplomatik əlaqələrin qurulması və inkişafında elçilər mühüm körpü rolu oynayırdı. İki ölkə arasında ticarət və hərbi-siyasi əlaqələrin qurulması və Osmanlı imperiyasına qarşı ittifaqın müzakirəsi baxımından bu missiyalar mühüm əhəmiyyət daşıyırdı. İkitərəfli münasibətlərin inkişafında Səfəvi dövləti tərəfindən göndərilən Hüseynəli bəy Bayat, Allahverdi bəy Türkmən, Dəngiz bəy Rumlu, Pakizə İman Qulu bəy Türkmən və digərləri, İspaniya tərəfindən göndərilən Antonio de Qovea, Luis Pereira de Laserda, Don Qarsiya de Silva və digərlərinin əhəmiyyətli rolu olub. Bu səbəbdən Səfəvi səfirlərinin İspaniya sarayındakı fəaliyyəti iki dövlət arasında siyasi, diplomatik və ticarət münasibətlərinin formalaşmasını anlamaq baxmından mühüm tarixi material təqdim etdiyi üçün mövzu bu gün də öz aktuallığını qorumaqdadır.

Hələ I Şah İsmayılın hakimiyyəti dövründə Osmanlı imperiyasına qarşı Avropa ölkələri, xüsusilə də Müqəddəs Roma imperiyasının imperatoru, həmçinin İspaniya kralı olan V Karl ilə ittifaq bağlamaq məqsədilə xarici elçilər vasitəsilə V Karla məktub göndərilmişdi [3, s.177-178]. Bu cür qarşılıqlı elçi mübadiləsi I Şah Təhmasibin dövründə də davam etmişdi. Səfəvi hökmdarları arasında Məhəmməd Xudabəndənin Portuqaliyaya elçi göndərməsi və onları Osmanlı imperiyasına qarşı çıxış etmək çağırışına baxmayaraq, konkret olaraq İspaniya və Portuqaliyadan cavab almamışdı.

Səfəvi dövləti tarixində İspaniya ilə daha geniş əlaqələr Şah I Abbasın hakimiyyəti dövründə qurulmuşdu. Şah I Abbasın hakimiyyəti dövründə Avropalı hökmdarlarla danışıqlar aparmaq üçün böyük bir elçilik (1599-1602-ci illər) Avropa ölkələrinə, o cümlədən İspaniyaya göndərilmişdi. İki dövlət arasında münasibətlərin əsas istiqaməti Osmanlı imperiyasına qarşı birgə mübarizə aparmaq idi. Bu səbəbdən 1599-cu ilin mayında I Şah Abbas avropalı krallar ilə danışıqlar aparmaq məq-

sədilə Hüseynəli bəy Bayatın rəhbərliyi altında nümayəndə heyətini Avropa ölkələrinə göndərmişdi. Şahın əmri ilə Səfəvi missiyasını Səfəvi sarayındakı ingilis elçilərindən Şerli qardaşlarından Antoni Şerli müşayiət etməli idi [2, s.1; 6, s.50].

I Şah Abbasın Avropaya göndərdiyi elçiliyə Hüseynəli bəy Bayat başçılıq edirdi. Heyətə həmçinin dörd katib, on beş xidmətçi, iki portuqaliyalı rahib, Antoni Şerli və onunla birlikdə on beş ingilis də daxil idi. Təyin olunan nümayəndə heyəti Roma Papası, Almaniya, İngiltərə, Fransa, Venesiya Respublikası, İspaniya, Polşa hökmdarları ilə danışıqlar aparmalı idi. Bu səbəbdən miqyası və məsuliyyətli missiyası səbəbindən görkəmli tarixçi alim Yaqub Mahmudov bu elçi heyətini Böyük elçilik adlandırmışdı [5, s. 280]. Elçilik Avropa hökmdarlarına təqdim etmək üçün otuz iki dəvə yükü həcmində hədiyyələr aparmaqla yanaşı, Qəzvində də əlavə hədiyyələr götürmüşdü. Oruc bəy, Əli Qulu bəy, Həsən Əli bəy və Bünyad bəy səfirliyin katibləri idi [2, s.233-234]. Ümumilikdə elçilik yola düşərkən 42 nəfərdən ibarət olsa da, Praqaya çatdıqda cəmi 20-25 nəfər qalmışdı [7, s.55].

Hüseynəli bəyin rəhbərlik etdiyi nümayəndə heyəti İspaniyada yüksək səviyyədə qarşılanmışdı. Beləki, səfirlik hələ Romada ikən və İspaniyaya yola düşməyə hazırlaşarkən İspaniya kralının Romadakı səfiri səfirlərin yüksək səviyyədə qəbulu üçün müəyyən hazırlıqlar görmüşdü. O dövrdə Valyadolid şəhəri İspaniyanın mərkəzi idi. Səfəvi elçiləri İspaniya ərazisinə daxil olduqdan Barselonadan mərkəz – Valyadolid şəhərinə qədər onları xüsusi nümayəndələr qarşılamış və müşayiət etmişdi. Səfəvi elçilərini sarayda İspan kralı III Filip qəbul etmiş və görüş zamanı I Şah Abbasın məktubu krala təqdim olunmuşdu. [1, s. 86; 6. s. 51]. Məktub vizual xüsusiyyətlərinə görə də seçilirdi. Məktub qızılı və rəngli mürəkkəb ilə yazılmışdır [7, s. 32]. Məktubda I Şah Abbas İspaniya kralına onunla dostluq və müttəfiqlik əlaqələri qurmaq istədiyini bildirirdi. Səfəvi şahının elçiliyi geri qayıdarkən, onunla birlikdə öz elçisini göndərməyi və həmin elçi vasitəsilə I Şah Abbasa təkliflərinə dərhal cavab verməyi də təklif etdi [8, s.177].

Oruc bəyin məlumatına görə, ispan kralı Səfəvi şahının dostluq təklifindən məmnun olduğunu bildirib və məktuba cavabını daha sonra göndərəcəyini bildirmişdi. Səfəvi elçiliyinin İspaniyada yüksək səviyyədə qarşılanması isə XVII əsrin əvvəllərində Aralıq dənizi və Kəngər körfəzi regionlarında Osmanlı, İngiltərə və Hollandiya ilə rəqabət aparan İspaniya krallığının Səfəvi dövləti ilə əlaqələri gücləndirmək marağı ilə bağlı idi [2, s.291]. Hüseynəli bəy Bayat Kral III Filipin cavab məktubunu və onu müşayiət edənlər ilə birlikdə 1601-ci il oktyabrın 11-də Valyadolid şəhərini tərk edərək, gəmi ilə vətənlərinə qayıtmaq üçün Lissabona yola düşmüşdülər. Kral III Filip həmçinin Səfəvi elçilərinə hədiyyələr vermiş və onların yol xərcləri üçün də pul ayırmışdı [4, c.1, s.133] Lakin Hüseynəli bəyin Səfəvi sarayına gəlib Şah I Abbasa səfər haqqında hesabatı geniş işıqlandırılmayıb. Bundan sonra Şah Abbas həmçinin müəyyən zamandan sonra öz elçilərini İspaniyaya ilə danışıqlar və xüsusilə hərbi ittifaq bağlamaq üçün Allahverdi bəy Türkmanı, sonra İmamqulu xan Pakize Türkmanı İspaniya və Portuqaliyaya yola salmışdı. 1608-ci ildə Allahverdi bəy Türkman Antonio de Qovea ilə birlikdə İspaniya səfə-

rindən qayıtmış və Şah I Abbas İspaniya elçisini qəbul etmişdi. Bu görüşdən sonra dərhal onu öz elçisi Dəngiz bəy Rumlu ilə İspaniya və İtaliyaya yola salmışdı [5, s.287-288]. Burda əsas məqsəd İspaniya və İtaliyanı Osmanlıya qarşı müharibəyə çağırmaq idi.

Nəticədə qeyd edə bilərik ki, Səfəvi dövlətinin xarici siyasətində Osmanlı imperiyası ilə münasibətlər əsas istiqamət təşkil etdiyi üçün, Səfəvi hökmdarları Avropa dövlətləri ilə əlaqələri genişləndirmək və Osmanlıya qarşı mümkün müttəfiqlər tapmaq istiqamətində siyasət həyata keçirmişdir. İki dövlət arasında əlaqələrin qurulmasında elçilərin fəaliyyəti həlledici rol oynamışdır. Bu diplomatik missiyalar təkcə siyasi və hərbi məqsədlərə deyil, həm də ticarət əlaqələrinin dərinləşdirilməsinə xidmət etmişdir. Şah I İsmayılın dövründə Avropa istiqamətində əlaqələr qurmaq cəhdlərinin ilk addımları olsa da, məhz Şah I Abbasın hakimiyyəti dövründə bu əlaqələr sistemli xarakter almışdır. Şah I Abbasın təşəbbüsü ilə həyata keçirilən 1599-1602-ci illərin "Böyük Elçilik missiyası" Səfəvi diplomatiyasının ən genişmiqyaslı fəaliyyəti olmuşdur. Hüseynəli bəy Bayatın rəhbərlik etdiyi bu heyət Avropanın bir sıra dövlətləri ilə, o cümlədən İspaniya ilə yüksək səviyyəli danışıqlar aparmışdır. Elçiliyin İspaniyada xüsusi ehtiramla qarşılanması, şahın məktubunun III Filip tərəfindən müsbət qiymətləndirilməsi, hədiyyələrin verilməsi və İspaniyanın da öz növbəsində qarşılıqlı şəkildə Səfəvi sarayına elçilərini göndərməsi onu göstərir ki, İspaniya özü də Osmanlı imperiyası ilə rəqabət fonunda Səfəvilərlə ittifaqa üstünlük verirdi. Nəticədə, Səfəvi səfirlərinin İspaniyada fəaliyyəti dövlətlərarası münasibətlərin qurulması və siyasi maraqların öyrənilməsi baxımından mühüm tarixi və elmi əhəmiyyət kəsb edir.

Ədəbiyyat siyahısı:

1. Baxşəliyev A.B. Səfəvi dövlətinin Portuqaliya və İspaniya ilə münasibətləri // Bakı Universitetinin "Xəbərlər"i, 2009, №1, s. 84-90.

2. Don Juan of Persia: A Shi`Ah Catholic, 1560-1604 / Translated and edited with an introduction by G. Le Strange. New York and London, Publishers Harper and Brothers, 389 p.

3. Эфендиев, О.А. К некоторым вопросам внутренней и внешней политики шаха Исмаила I (1502-1524) // – Баку: Труды Института Истории АН Азербайджанской ССР, –1957. Т. XII, –с. 150-180.

4. Fernandes, L.G. El imperio Luso-Español y la Persia Safávida. Tomo I (1582-1605). Madrid: Fundación Universitaria Española, 2006, 318 p.

5. Mahmudov Y. Azərbaycan diplomatiyası. Bakı, "Təhsil", 2006, 416 səh.

6. Qurbanova S. I Şah Abbasın hakimiyyəti dövründə Səfəvi-İspaniya əlaqələri. Sivilizasiya jurnalı, Bakı Avrasiya Universiteti, Cild 12, N3, 2023 (54), səh.49-54

7. Quliyev Ə. Azərbaycan Səfəvi dövlətinin diplomatiya tarixi məsələləri Venesiya arxiv sənədlərində. "Nəşriyyat" şöbəsi, Bakı, 2023, - 228 s.

8. Gurbanova, S. A. ACTIVITY OF THE EMBASSY HEADED BY HUSEINALY BEY BAYAT IN SPAIN. ВЧЕНІ ЗАПИСКИ, 42022175. // https://hist.vernadskyjournals.in.ua/journals/2022/4_2022/4_2022.pdf#page=185

TÜRK DÜNYASI XXI ƏSRDƏ: MÜASIR REALLIQLAR VƏ GƏLƏCƏYƏ BAXIŞ

Şəfəq Mustafayeva
Azərbaycan Dillər Universitetinin "Şərq ölkələri üzrə regionşünaslıq" kafedrasının müəllimi
shefeg87@mail.ru

Açar sözlər: *Türk dünyası, Türk Dövlətləri Təşkilatı, inteqrasiya, Orta dəhliz, geosiyasi rəqabət*
Keywords: *Turkic world, Organization of Turkic States, integration, middle corridor, geopolitical competition*

XXI əsr qlobal siyasət, iqtisadiyyat və mədəniyyət sahələrində sürətli dəyişikliklərin baş verdiyi bir dövrdür. Bu kontekstdə Türk dünyası – Mərkəzi Asiya, Cənubi Qafqaz, Anadolu və digər türk toplumlarını əhatə edən region – həm regional, həm də qlobal miqyasda mühüm rol oynamaqdadır. Türk dövlətləri siyasi, iqtisadi və mədəni sahələrdə inteqrasiyanı gücləndirərək həm öz sabitliklərini təmin edir, həm də qlobal enerji, nəqliyyat və ticarət sistemində iştiraklarını artırırlar. Türk Dövlətləri Təşkilatı üzv ölkələr arasında iqtisadi əlaqələri dərinləşdirmək, ortaq enerji və nəqliyyat layihələrini həyata keçirmək üçün geniş imkanlar yaradır [1, s. 6.]

Bu tezisin məqsədi XXI əsrdə Türk dünyasının mövcud vəziyyətini, müasir reallıqları təhlil etmək, qarşılaşdıqları çağırışları müəyyən etmək və gələcək inkişaf perspektivlərini elmi əsaslarla araşdırmaq, siyasi, iqtisadi, mədəni inteqrasiya səviyyəsini qiymətləndirməkdir.

Türk Dünyasının müasir reallıqları bunlardır: siyasi inteqrasiya və əməkdaşlıq-Türk dövlətləri XXI əsrdə siyasi inteqrasiya sahəsində əhəmiyyətli irəliləyişlər əldə etmişlər. Türk Dövlətləri Təşkilatı (TDT) [1], TÜRKPA [2] və TÜRKSOY [3] kimi qurumlar siyasi dialoq, humanitar əməkdaşlıq və regional təhlükəsizlik sahəsində əsas platforma rolunu oynayır. Türk Dünyası 2040 vizyonu sənədində qeyd edilir: "Mədəniyyət, akademik və parlament sahələrində əməkdaşlığı inkişaf etdirmək üçün TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu və TÜRKPA kimi türk əməkdaşlıq təşkilatları ilə səmərəli əməkdaşlığın və koordinasiyanın təmin edilir" [4; 7]. Bu təşkilatlar türk dövlətləri arasında qərarların koordinasiyasını artırır, qarşılıqlı etimad mühitini gücləndirir və regional sabitliyi dəstəkləyir. TDT-nin fəaliyyəti türk dövlətlərinin regional və qlobal məsələlərdə ortaq mövqeyinin formalaşdırılmasına, strateji qərarların koordinasiyasına və üzv ölkələr arasında siyasi həmrəyliyin möhkəmləndirilməsinə xidmət edir. TÜRKPA parlamentlərarası diplomatiyanı gücləndirərək qanunvericilik sahəsində təcrübə mübadiləsini, siyasi institutların inkişafını və demokratik idarəetmə mexanizmlərinin təkmilləşdirilməsini təşviq edir.

Ümumilikdə, XXI əsrdə türk dövlətlərinin siyasi inteqrasiyası həm regional güc balansına müsbət təsir göstərir, həm də türk dünyasının beynəlxalq arenada vahid mövqeyinin daha da güclənməsinə şərait yaradır.

İqtisadi inteqrasiya və enerji layihələri- Türk dünyası Avrasiyanın enerji xəritəsində strateji mövqeyə malikdir. TANAP və TAP qaz kəmərləri, Orta Dəhliz layihəsi və Mərkəzi Asiya-Cənubi Qafqaz-Anadolu nəqliyyat dəhlizləri türk dövlətlərinin qlobal enerji və ticarət sistemində rolunu artırır. Eyni zamanda, iqtisadi inteqrasiya türk ölkələrinin bir-birinə asılılığını artırır və regional investisiya imkanlarını genişləndirir. Buna baxmayaraq, iqtisadi sahədə hələ də struktur fərqləri və texnoloji asılılıqlar mövcuddur. Bu isə inteqrasiya prosesinin balanslı şəkildə inkişafını tələb edir.

Mədəni-humanitar əməkdaşlıq-Türk dünyasında mədəni-humanitar sahədə də ciddi irəliləyişlər müşahidə olunur. TÜRKSOY türk xalqlarını birləşdirən ən mühüm mədəni platformalardan biridir. TÜRKSOY-un Türk dünyası üçün əhəmiyyəti bunlardır:

1.Ortaq mədəni kimliyin qorunması və gücləndirilməsi- ortaq dil, tarix, folklor, musiqi və incəsənət nümunələrinin araşdırılması və təbliği türk xalqları arasında ortaq kimlik şüurunu gücləndirir; qərb və digər sivilizasiya mədəniyyətləri arasında assimilyasiya proseslərinin sürətləndirir.

2.Mədəni inteqrasiyanın dərinləşməsi- TÜRKSOY türkdilli dövlətlər arasında mədəni əməkdaşlığı sistemli şəkildə inkişaf etdirən yeganə beynəlxalq qurumlardan biridir. TÜRKSOY-un "Türk Dünyasının Mədəniyyət Paytaxtı" layihəsi, ortaq musiqi, teatr, kino və rəssamlıq festivalları, mədəniyyət günləri və sərgilər kimi fəaliyyəti Türk dünyasının mədəni diplomatiya sahəsində "yumşaq güc"ünü artırır. Ortak mədəniyyətin beynəlxalq səviyyədə tanıdır; UNESCO və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq Qlobal festivallarda Türk mədəniyyətinin təmsil olunması. Bu fəaliyyətlər Türk dünyasının beynəlxalq imicini gücləndirir və onun qlobal mədəni proseslərdəki yerini möhkəmləndirir.

3. Ortak dəyərlərin gələcək nəsillərə ötürülməsi- TÜRKSOY gənclərin və yaradıcı insanların iştirakı ilə müxtəlif layihələr həyata keçirir: Gənc musiqiçilər və rəssamlar üçün yarışmalar; Gənc istedadların beynəlxalq səviyyədə tanıdılması. Bu, ortaq türk dəyərlərinin davamlılığını təmin edir və gələcək nəsillərin mədəni inteqrasiya prosesinə daha fəal qoşulmasına şərait yaradır.

4. Elmi və intellektual əməkdaşlığın inkişafı-TÜRKSOY yalnız mədəniyyət festivalları ilə deyil, həm də elmi tədqiqatlarla məşğul olur. Türk xalqlarının tarixi, dili, ədəbiyyatı və folkloru üzrə ortaq araşdırmalar; Yubileylərin və tarixi şəxsiyyətlərin anılması; Akademik konfranslar və nəşrlər. Bu fəaliyyətlər Türk dünyasının elmi irsinin sistemli şəkildə öyrənilməsinə və yayılmasına töhfə verir.

5.Türk dövlətləri arasında strateji inteqrasiyaya dolayı töhfə- Mədəni inteqrasiya siyasi və iqtisadi inteqrasiyanın əsasıdır. TÜRKSOY: xalqlar arasında qarşılıqlı etimadı artırır,ortaq mənəvi dəyər məkanını möhkəmləndirir,Türk Dövlətləri Təşkilatının gələcəkdə daha sıx əməkdaşlığı üçün sosial-mədəni zəmin yaradır.

TÜRKSOY mədəni əməkdaşlıqla yanaşı, humanitar diplomatiyanın genişlənməsinə, xalqlar arasında qarşılıqlı anlaşma və mənəvi inteqrasiyanın dərinləşdirilməsinə töhfə verir. Bu qurumların fəaliyyəti nəticəsində türk dövlətləri arasında qərarların koordinasiyası genişlənir, regional təhlükəsizliyin təmin olunması istiqa-

mətində yeni əməkdaşlıq mexanizmləri formalaşır və siyasi sabitlik üçün əlverişli mühit yaranır.

Bir sözlə, TÜRKSOY Türk dünyasının mədəni birliyinin əsas dayaqlarından biridir. Onun fəaliyyəti türk xalqlarını bir-birinə daha çox yaxınlaşdırır, ortaq mədəni irsi qoruyur, dünyaya təqdim edir və gələcək inteqrasiya prosesləri üçün möhkəm ideoloji-mədəni baza yaradır. Türk dünyasının XXI əsrdə özünü qlobal mədəni və siyasi məkanda bir güc kimi təsdiqləməsində TÜRKSOY-un rolu danılmazdır. TÜRKSOY, müxtəlif mədəni layihələr, festival və sərgilər vasitəsilə türk dili və mədəniyyətinin qorunmasına və inkişafına töhfə verir. Gənclər mübadiləsi, təhsil proqramları və birgə akademik layihələr ortaq identitetin möhkəmlənməsinə xidmət edir. Bu, Türk dünyasının həm regiondaxili həm də qlobal səviyyədə mədəni təsirinin artmasına səbəb olur.

Bu sadalanan müsbət dinamika ilə birgə Türk dünyasında bir sıra çağırışlar və problemlər də var. Türk Dövlətləri Təşkilatı çərçivəsində nəzərdən keçiriləcək ölkələrin xarici ticarət həcmi, investisiyaları, layihələri artsa da, arzuolunan səviyyədə deyil, regionda gərgin rəqabət var ki, bu da mühüm problemlərdir [6; 380]. Beləki, Türk dünyası inteqrasiya prosesində bu çağırışlarla üzləşir: geosiyasi rəqabət; iqtisadi qeyri-bərabərlik; infrastruktur və nəqliyyat məhdudiyyətləri. Beləki, heosiyasi rəqabət konteksində böyük güclərin – Rusiya, Çin, ABŞ və Avropa Birliyinin – Avrasiya regionundakı maraqları türk dövlətlərinin davranışlarını çoxvektorlu siyasət yürütməyə sövq etdiyini qeyd edə bilərik. İqtisadi qeyri-bərabərlik mövzusunda Türk dövlətləri arasında iqtisadi inkişaf səviyyəsində fərqliliklər mövcudluğunu, struktur islahatlar və texnoloji yeniliklər tələb olunduğunu vurğulaya bilərik. İnfrastruktur və nəqliyyat məhdudiyyətləri anlamında Orta Dəhliz kimi beynəlxalq layihələrin tam funksional işləməsi üçün gömrük prosedurları, nəqliyyat koordinasiyası və enerji infrastrukturu təkmilləşdirilməli olduğununa fokuslana bilərik.

Türk dünyasının gələcək inkişaf perspektivləri aşağıdakı sahələrdə özünü göstərir. Gələcəkdə Çin–Avropa ticarətinin böyük hissəsinin Orta Dəhliz üzərindən keçməsi gözlənilir ki, bu da türk dövlətlərini beynəlxalq ticarətin əsas iştirakçısına çevirəcək. Elektron ticarət, kibertəhlükəsizlik və rəqəmsal infrastruktur sahəsində əməkdaşlıq türk dövlətlərinin iqtisadi və texnoloji gücünü artıracaq. Ortaq hərbi təlimlər, müdafiə sənayesi məhsullarının birgə istehsalı və terrorizmə qarşı koordinasiya inteqrasiyanın strateji dərinliyini artıracaq. Ortaq universitetlər, tədqiqat institutları və türk dili layihələri gələcək nəsillərin inteqrasiya və ortaq identitet formalaşmasına töhfə verəcək.

Türk Dövlətləri Təşkilatının mövcudluğundan "rəqabətqabiliyyətlilik probleminin yaratdığı ehtiyacı" həll etmək üçün istifadə edilməlidir. "Birgə qurulan universitetlər tərəfindən təmin edilən məlumat mübadiləsi, Türkiyə Gömrük İttifaqı üçün infrastrukturun hazırlanması, dəmir yolu xətləri ilə daşımaların yaxşılaşdırılması" bu prosesdə əməkdaşlığı gücləndirəcək [7, 196-199].

Nəticə olaraq qeyd edək ki, Türk dövlətləri siyasi sahədə koordinasiyanı gücləndirmiş və regional təsirini artırmışdır. Enerji və nəqliyyat layihələri türk dövlət-

lərinin qlobal iqtisadi inteqrasiyasını təmin etmişdir. Mədəni-humanitar əməkdaşlıq türk identitkliyin qorunması və güclənməsinə xidmət etmişdir. Geosiyasi və iqtisadi çağırışlar müəyyən edilmiş, onların həlli yolları nəzəri və praktiki baxımdan təhlil edilmişdir. Gələcək perspektivlər üzrə strategiyalar və tövsiyələr hazırlanmışdır ki, bu da Türk dünyasının davamlı inkişafını təmin edə bilər.

Bir sözlə, XXI əsrdə Türk dünyası həm regional, həm də qlobal miqyasda strateji aktor olaraq yüksəlməkdədir. Siyasi koordinasiya, iqtisadi əməkdaşlıq, enerji layihələri və mədəni-humanitar əlaqələrin genişlənməsi inteqrasiya prosesini sürətləndirir. Bununla yanaşı, geosiyasi rəqabət, iqtisadi qeyri-bərabərlik və infrastruktur problemləri inteqrasiyanın davamlılığı üçün diqqət mərkəzində saxlanmalıdır.

Ədəbiyyat siyahısı:

1. Təhməz L. "Türk dünyasının qızıl əsrində müasirçağırışlar və yeni perspektivlər"/ Respublika. - 2024.- 7 noyabr. - № 246.
2. Türk Devletleri Teşkilatı - Organization of Turkic States. https://turkicstates.org/en
3. Türk Devletleri Parlamenter Asamblesi. https://turkpa.org/tr/
4. TÜRKSOY. https://www.turksoy.org
5. Türk Dünyası 2040 Vizyonu// https://turkicstates.org/u/d/news/5-ek--turk-dunyasi-2040-vizyonu.pdf
6. Turan A. "Türk dünyasının siyasi, sosyal ve ekonomik anlamda "sorunları, ihtiyaçları ve potansiyeli", Sosyal beşeri ve idari bilimler alanında uluslararası araştırmalar ıx, Eğitim yayın evi , Türkiyə, İstanbul, 2022 440 s
7. Sultanov, B. (2012). Konuşma, Bağımsızlıklarının 20. Yılında Türk Cumhuriyetleri Uluslararası Toplantıları, Ankara: 2-6 Ekim 2011.

TÜRKİYƏYƏ TƏHSİL VƏ İŞ ÜÇÜN GƏLƏN QAZAXLARIN İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRDƏ ROLU

Aygün Soltanzadə
Azərbaycan Dillər Universitetinin "Şərq ölkələri üzrə regionşünaslıq" kafedrasının müəllimi, Bakı Dövlət Universitetinin Tarix fakültəsinin"Türk xalqları tarixi" kafedrasının dissertantı
aygunsoltanzade1993@mail.ru
Elmi rəhbər: professor Əsməd Muxtarova

Açar sözlər: *təhsil, mədəni əlaqələr, inteqrasiya, Türkiyə, Qazaxıstan.*
Keywords: *education, cultural relations, integration, Turkey, Kazakhstan*

Türkiyə və Qazaxıstan arasında münasibətlər təkcə diplomatik və iqtisadi əməkdaşlıqla məhdudlaşmır; bu əlaqələrin dərinləşməsində ən mühüm elementlərdən biri insan hərəkətliliyi, xüsusən də təhsil və iş məqsədilə Türkiyəyə gələn qazax vətəndaşlarıdır. Bu kütlə həm sosial-mədəni inteqrasiya prosesinin, həm iqtisadi əməkdaşlığın, həm də region daxilində ortaq kimlik quruculuğunun əsas aparıcı qüvvələrindən birinə çevrilmişdir.

1. Təhsil miqrasiyası: Türkiyənin cazibə mərkəzi kimi yüksəlişi. Son onilliklərdə Türkiyə Qazaxıstan gəncləri üçün ən çox seçilən xarici təhsil məkanlarından birinə çevrilmişdir. Bu tendensiyanın bir neçə səbəbi vardır. İlk növbədə, iki ölkə arasında mədəni və dil yaxınlığı qazax gənclərinin adaptasiya prosesini asanlaşdırır. Türk dili qazax dilinə yaxın olduğundan, tələbələr təhsil və gündəlik ünsiyyətdə ciddi dil çətinlikləri yaşamır, bu isə təhsil keyfiyyətinə də müsbət təsir göstərir.

İkinci mühüm amil Türkiyə dövlətinin xarici tələbələr üçün yaratdığı geniş təqaüd imkanlarıdır. Xüsusilə "Türkiyə Bursları" proqramı hər il yüzlərlə qazax tələbəsinin müxtəlif universitetlərdə bakalavr, magistr və doktorantura təhsili almasına şərait yaradır. Bundan başqa, Mövlanə və Erasmus+ kimi mübadilə proqramları iki ölkə arasında akademik mobilliyi gücləndirir. Bu proqramlar vasitəsilə tələbələr yalnız bilik əldə etmir, həm də beynəlxalq elmi mühitdə özlərini inkişaf etdirmək imkanı qazanırlar [3].

Təhsil miqrasiyasının əhəmiyyətli bir tərəfi də qazax tələbələrin Türkiyədə keçirdiyi illərdə qazandıqları sosial kapitaldır. Tələbələr müəllimləri, yerli tələbələr və digər xarici tələbələrlə geniş şəbəkə yaradırlar. Bu sosial şəbəkə sonradan onların peşəkar həyatında mühüm rol oynayır. Türkiyədə təhsil almış qazax gənclərin bəziləri sonradan dövlət qurumlarında, beynəlxalq təşkilatlarda, biznes sektorlarında və elmi müəssisələrdə yüksək vəzifələrdə çalışır və bu da Türkiyə–Qazaxıstan münasibətlərində qeyri-rəsmi diplomatik kanalın formalaşmasına səbəb olur. Beləliklə, təhsil alan qazaxlar zamanla "yumşaq güc" elementinə çevrilərək iki ölkə arasında körpü rolunu oynayırlar [4].

2. İş miqrasiyası: iqtisadi əlaqələrin gücləndirici amili. Türkiyəyə iş məqsədilə gələn qazaxların sayı təhsil üçün gələnlərlə müqayisədə daha az olsa da, bu miqrasiya növü iqtisadi inteqrasiya baxımından xüsusi əhəmiyyət kəsb edir. Qazax işçilər əsasən turizm, xidmət sektoru, tərcüməçilik, ticarət və logistika kimi sahələrdə çalışırlar. Bu sahələrdə qazaxların çalışması bir tərəfdən Türkiyə əmək bazarının tələbini ödəyir, digər tərəfdən qazaxların Türkiyədəki iş təcrübəsi onların peşəkar bacarıqlarının artmasına və gələcəkdə Qazaxıstanda daha rəqabətqabiliyyətli olmasına şərait yaradır [5].

Bundan əlavə, Türkiyədə biznes quran qazax sahibkarlar iki ölkə arasındakı iqtisadi əlaqələrə yeni dinamika gətirir. İstanbul, Antalya, Ankara kimi böyük şəhərlərdə fəaliyyət göstərən qazax şirkətləri ticarət əlaqələrinin genişlənməsinə töhfə verir. Onlar Qazaxıstandan gətirilən məhsulların Türkiyə bazarında tanıdılmasına, Türkiyədən isə Qazaxıstana ixracın artmasına vasitəçilik edirlər. Bu cür transmilli iqtisadi fəaliyyət həm ikitərəfli ticarətin artmasına, həm də ortaq investisiya layihələrinin inkişafına müsbət təsir göstərir.

İş miqrasiyasının sosial tərəfləri də mühümdür. Türkiyədə işləyən qazaxlar öz mədəniyyətlərini yerli insanlara tanıdır, eyni zamanda Türkiyə cəmiyyətinin dəyərləri, iş etikasını və sosial münasibətlər sistemini öyrənirlər. Bu qarşılıqlı təsir mədəni dialoqu gücləndirərək iki ölkə arasında daha dərin təbəqədə anlaşmanın formalaşmasına imkan yaradır.

3. Diaspora fəaliyyətlərinin mədəni-sosial rolu. Türkiyədə formalaşmış qazax diasporası tələbələrdən, işçilərdən və uzunmüddətli məskunlaşan ailələrdən ibarətdir. Bu diasporanın fəaliyyəti iki ölkə arasındakı əlaqələrin mədəni və sosial tərəfini gücləndirən mühüm faktor kimi çıxış edir. Qazax tələbə birlikləri, mədəniyyət dərnəkləri və ictimai təşkilatlar müxtəlif tədbirlər, seminarlar, mədəniyyət günləri və idman proqramları təşkil edərək qazax mədəniyyətini Türkiyədə təbliğ edir. Bu tədbirlər yalnız qazaxların öz mədəni kimliyinin qorunmasına deyil, həm də Türkiyə cəmiyyətində Qazaxıstan haqqında məlumatlılığın artmasına xidmət edir [2].

Bundan əlavə, diaspora yeni gələn qazaxlara adaptasiya prosesində yardım göstərir. Onlara yaşayış, sənədləşmə, universitet və ya iş mühiti ilə bağlı dəstək olur. Bu həm diaspora daxilində həmrəylik yaradır, həm də miqrasiya təcrübəsini daha mütəşəkkil və müsbət hala gətirir.

4. İnsan hərəkətliliyinin regional inteqrasiyaya təsiri. Türkiyəyə təhsil və iş məqsədilə gələn qazaxların fəaliyyəti təkcə ikitərəfli münasibətlərə deyil, həm də Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində inteqrasiya proseslərinə mühüm təsir göstərir. İnsan hərəkətliliyi, xüsusən də gənclər arasında akademik və peşəkar əlaqələrin güclənməsi türk dünyası üçün ortaq kimlik və əməkdaşlıq platformasının yaranmasına xidmət edir. Bu proses TDT-nin gələcəkdə daha güclü sosial bazaya sahib olmasına şərait yaradır [3].

Miqrasiyanın yaratdığı sosial və intellektual kapital regionda sülh, iqtisadi inkişaf və mədəni qarşılıqlı anlaşma üçün uzunmüddətli strategiyanın mühüm elementidir. Təhsil almış və təcrübə qazanmış qazaxlar həm Türkiyədə, həm Qazaxıstanda, həm də digər türk dövlətlərində əməkdaşlıq imkanlarını genişləndirə bilirlər.

Nəticə. Yekun olaraq demək olar ki, Türkiyəyə təhsil və iş üçün gələn qazaxlar iki ölkə arasında strateji əlaqələrin inkişafında mühüm rol oynayır. Onlar həm akademik və intellektual potensialı artırır, həm də iqtisadi fəaliyyətləri ilə iki ölkə arasında qarşılıqlı asılılıq və əməkdaşlıq dərinliyini artırırlar. Qazax diasporasının mədəni və sosial fəaliyyəti isə ortaq türk kimliyinin möhkəmlənməsinə xidmət edir. Bu baxımdan, qazaxların Türkiyədəki varlığı yalnız miqrasiya faktı deyil, həm də Türkiyə–Qazaxıstan münasibətlərinin gələcəyini formalaşdıran mühüm strateji resursdur.

Ədəbiyyat siyahısı:

1.Akdoğan, Y. Türkiye-Orta Asya ilişkilerinde yeni dönem: Türk Konseyi ve bölgesel entegrasyon. Ankara: SETA Yayınları, 2021

2.Gönültaş, B. "Uluslararası öğrenci diasporaları ve kültürel diplomatiya." Uluslararası İlişkiler Dergisi, 18(73), 71–92, 2021

3.Kurban, A. Türk Devletleri Teşkilatı bağlamında Türkiye-Kazakistan ilişkileri. İstanbul: TASAM Yayınları, 2022

4.Kaya, A., & Kentel, F. Uluslararası öğrenciler ve Türkiye'nin yumuşak gücü. İstanbul: İstanbul Bilgi Üniversitesi Yayınları, 2019

5.Öztürk, M., & Balcı, A. "Orta Asya'dan Türkiye'ye işgücü göçü: eğilimlər və təsirlər." Ankara Üniversitesi Siyasal Bilgiler Fakültesi Dergisi, 75(1), 120–140, 2020

OSMANLI İMPERİYASI DÖVRÜNDƏ ƏRƏB MİLLƏTÇİLİYİ

Kəmalə Qurbanlı
Azərbaycan Dillər Universitetinin "Şərq ölkələri üzrə regionşünaslıq" kafedrasının müəllimi
kamalaqurbanli@gmail.com

Açar sözlər: *Osmanlı imperiyası, ərəblər, ərəb üsyanı, ərəb milliyyətçiliyi, 1916-1918*
Keywords: *Ottoman Empire, Arabs, The Arab Revolt, The Arab Nationalism, 1916-1918*

Osmanlı İmperiyası dövründə millətçilik ideyaları Avropada XIX əsrdə, Balkanların böyük bir hissəsi hələ Osmanlı hakimiyyəti altında olarkən ortaya çıxdı. Serb üsyanları Osmanlı İmperiyasında millətçi ideologiya altında mübarizə aparan ilk üsyanlar idi. Daha sonra Monteneqronun dünyəviləşməsi və Qrahovac döyüşündən sonra Monteneqro Knyazlığı yaradıldı.

Yaxın Şərq ərazisinə gəlincə, Osmanlı dövlətinin XVIII-XIX əsrlərdə, xüsusilə, hərbi sahədə zəifləməsilə Avropanın böyük dövlətlərinin Yaxın Şərqə olan maraqlarında canlanma olmuşdur. XIX əsrdə beybəlxalq siyasətdə ərəb məsələsi yox idi. Ərəb vilayətlərində yaşayanlarla bağlı da sənədlərdə ərəb sözü əvəzinə, müsəlmanlar və qeyri-müsəlmanlar ifadələri işlədilirdi. Hansı bölgədən olmaları ilə bağlı ifadələrdə də misal üçün, suriyalı haqqında sadəcə suriyalı demək kifayət edirdi.

Xristian ərəblər ərəb mədəniyyətini və dilini canlandırmaq üçün fəaliyyət göstərməklə yanaşı, Osmanlı İmperiyasından ayrılma ideyasını gündəmə gətirərək müstəqilliyi müdafiə edirdilər. Xristian ərəblər arasında yayılan millətçiliyin ilk illərində onlar dərhal müstəqillik hərəkatına başlamadılar, əksinə, qədim ərəb mədəniyyətini dirçəltməyə meyl etdilər.Müsəlman ərəblər isə separatçı ideyaları müdafiə etməkdənsə, imperiyanın bütövlüyünün qorunub saxlanmasına tərəfdar idilər, lakin yaşadıqları bölgələrdə ərəb dili və mədəniyyətinə daha çox önəm verilməsini tələb edirdilər. Ancaq Suriya ilə müqayisədə İngiltərə administrasiyasının təsiri altında olan Misir ərəbləri millətçilik anlayışını fərqli şəkildə inkişaf etdirmiş və "vətən" anlayışını önə çəkərək ərəb kimliklərini deyil, "Misir" kimliklərini ön plana çıxarmağa çalışmışlar [1].

Ərəb millətçi hərəkatlarının, xüsusən də bu gün Livan kimi tanınan Suriya bölgəsində cəmləşməsinin bir neçə səbəbi var idi. Bunlara bölgədəki missioner məktəbləri tərəfindən verilən Qərb tipli təhsil, Fransız İnqilabının siyasi ideyaları, ərəb dili və ədəbiyyatının dirçəldilməsi cəhdləri, mətbəələrin yaradılması və orada ərəb qəzetlərinin nəşri, livanlı mühacirlərin bir müddət Amerikada yaşadıqdan sonra bölgəyə qayıtmaq və təcrübələrini bölgəyə çatdırmaq istəkləri daxildir. Bu bölgə digər ərəb bölgələrindən təkcə Qərblə daha çox və daha tez-tez təmasda olması ilə deyil, həm də Avropa ilə ticarətin əsasən aparıldığı coğrafi mövqeyinə görə fərqlənirdi. Livandakı xristian ərəblər arasında anti-türk əhval-ruhiyyəsinin inkişafına onların müsəlman türk hakimiyyəti altında okeanda bir ada kimi hiss etmələri böyük təsir göstərmişdir. Xristian ərəblərin bu fikirlərindən fərqli olaraq, müsəlman ərəblərin böyük əksəriyyətinin Osmanlı hakimiyyətini tərk etmək niyyəti yox idi.

II Əbdülhəmidin hakimiyyəti illərində sultanın ən böyük qayğılarından biri də alternativ ərəb xilafətinin yaradılması idi. Nəticə etibarı ilə o, ərəbləri yüksək rüt-

bəli hərbi və inzibati vəzifələrə təyin etməklə və son nəticədə özünün panislamist siyasəti ilə öz tərəfinə çəkməyə çalışırdı. II Əbdülhəmid dövründə sultanın nəzarəti ilə ərəblər arasında millətçilik şüuru çox yavaş inkişaf edirdi. Həqiqətən də, 1877-78-ci illərdə ərəb nümayəndələri birləşdirən və ya fərqləndirən açıq-aşkar ümumi maraq və ya xüsusi "ərəb baxışı" yox idi. Ərəb deputatları özlərini imperiyanın nümayəndələri kimi qəbul edirdilər və birbaşa seçildikləri bölgə ilə maraqlanırdılar.

Osmanlı dövlətinin XVIII-XIX əsrlərdə, xüsusilə, hərbi sahədə zəifləməsilə Avropanın böyük dövlətlərinin Yaxın Şərqə olan maraqlarında canlanma olmuşdur. Avropa dövlətləri Osmanlı İmperiyasının daxili işlərinə qarışmaqla üsyanların genişlənməsinə zəmin hazırlamış və Osmanlı dövlətini zəiflətmişlər. Avropa dövlətlərinin müdaxilələri Osmanlı İmperiyasının mərkəzi hakimiyyətini zəiflətdi, daxili iğtişaşların artmasına və üsyanların daha da artmasına səbəb oldu.

I Dünya Müharibəsi zamanı Osmanlı İmperiyası bəzən qalib, bəzən də uduzmaqla bir neçə cəbhədə vuruşmağa məcbur oldu. İraq cəbhəsindəki mübarizə həm uğur, həm də məğlubiyyət gördü. İngilislər 1914-cü ilin noyabrında İraqa hücuma başladılar. Bundan əvvəl onlar körfəzin işğalı üçün ilkin hazırlıqları tamamlamış və bir neçə tanınmış sima ilə müqavilələr imzalamışdılar. Lakin bu razılaşmaların şiə ruhanilərinə heç bir təsiri olmadı; əksinə, ingilislər İraqı işğal etməyə cəhd edərkən şiələrin güclü müqaviməti ilə üzləşdilər. İngilis qüvvələri əl-Favı işğal etdikdən az sonra şiə din xadimləri qısa zamanda ingilislərə qarşı cihad elan etdilər və İraqda başlayan cihad hərəkatı ilə mücahidlər Bəsrədən gələn ingilislərə qarşı döyüşməyə başladılar.İraq hadisələrindən sonra İngiltərənin İstanbuldakı səfiri İngiltərənin xarici işlər nazirinə teleqram vuraraq, şiələrin müqəddəs şəhərlərindəki Britaniya şuralarının şiə müctəhidlərinə təsir göstərməsi və onları öz tərəfinə çəkməsi lazım olduğunu bildirib və bu hadisələrdən narahatlığını bildirib. Bu cür ingilis yazışmalarından əlavə, Osmanlı İmperiyasından gələn rəsmi yazışmalarda da bu cihad hərəkatı haqqında məlumatlar var [3].

14 iyul 1915-ci il və 10 mart 1916-cı il tarixləri arasında ser Henri Makmahon və Şərif Hüseyn arasında cəmi 10 məktub mübadiləsi aparıldı. Hüseyn, 18 fevral 1916-cı il tarixli məktubunda Makmahondan 50.000 funt sterlinq qızıl, silah, sursat və yemək istədi. McMahon, 10 mart 1916-cı il tarixli cavabında, İngilislərin sorğuları təsdiqlədiyini təsdiqlədi və yazışmaları yekunlaşdırdı. O vaxta qədər rəsmi olaraq Osmanlının tərəfini tutan Hüseyn indi tam əmin idi ki, Üçlü Antantaya etdiyi yardımın mükafatı nəhəng ərəb imperiyası olacaq. Osmanlı hökumətinin onu Məkkə şərifi vəzifəsindən uzaqlaşdıracağı və yerinə Əli Heydər paşanı təyin edəcəyi barədə şayiələr yayılanda, Hüseyn tez bir zamanda müttəfiqlərin hərbi düşərgəsinə qoşulmağa qərar verdi [2].

I Dünya Müharibəsi zamanı Osmanlı İmperiyasının döyüşdüyü cəbhələrdən biri də Hicaz Cəbhəsi idi. Hicaz Cəbhəsindəki döyüşlər ilk növbədə Məkkə əmiri Şərif Hüseynin başçılığı ilə qiyam qaldıran ərəb qəbilələrinə qarşı gedirdi. Üsyançılar ingilislərdən əhəmiyyətli maliyyə, maddi-texniki və silah dəstəyi aldılar, Britaniya kəşfiyyat agentləri də üsyançı liderlərə hərbi məsləhətlər verdilər. Şərif Hüseynin Britaniya rəsmiləri ilə gizli əlaqələri müharibədən əvvəl başlamış və yazışmalar yolu ilə davam etmişdir. Bu yazışmalar aydın şəkildə nümayiş etdirir ki, Şərif Hüseyn ərəb krallığı ilə

xilafəti ərəblərin məskunlaşdığı torpaqlarda birləşdirməyi planlaşdırırdı. Nəhayət, axtardığı dəstəyi tapan Şərif 1916-cı ilin iyununda üsyana başladı.

Şərif Hüseyn Hicazın idarəçiliyinin ona aid olduğunu, atadan oğula keçdiyini iddia etdi və buna görə də Osmanlı İmperiyasının idarəçiliyi ona təhvil verməsini istədi. İstanbul buna qarşı çıxdı və Şərif Əli Heydəri Hüseynin yerinə Hicaz əmiri təyin etdi. Bundan sonra üsyançılar əvvəlcə Məkkəni işğal etdilər. Hüseyn üsyanı bütün Ərəbistan yarımadasına yaymaq üçün hərəkətə keçdi. Üsyançılar Ciddə şəhərini qurudan və dənizdən mühasirəyə aldılar. Yeddi günlük mühasirədən sonra Ciddə üsyançıların əlinə keçdi. Taif iyun ayından sentyabr ayına kimi Hicazın valisi və komandanı Qalip Paşa tərəfindən müdafiə edildi, lakin ehtiyatları tükəndiyi üçün təslim olmaq məcburiyyətində qaldı. Mədinə Hüseynin oğlu Feysəl tərəfindən mühasirəyə alındı. Şəhər iki batalyonlu Mühafizə alayı və köməyə gələn alay tərəfindən uğurla müdafiə olundu [2].

Hicazdakı hadisələr Sina-Fələstin cəbhəsindəki hadisələrlə birbaşa əlaqəli idi. Şərif Hüseyn üsyanı müharibənin sonuna qədər davam etdi, lakin ərəb əhalisi arasında geniş dəstək qazana bilmədi. Üsyanın uğuru və millətçi xarakteri ancaq Osmanlı ordusunun Fələstin cəbhəsindəki məğlubiyyəti ilə mümkün oldu.

Nəticədə, Osmanlı İmperiyası 1918-ci il 30 oktyabr tarixində Antanta dövlətləri ilə müqavilə imzalamışdır. Ərəb üsyanı Osmanlı İmperiyasının məğlubiyyətini sürətləndirsə də, həmçinin, bu torpaqların Avropanın müstəmləkəçi dövlətlərinin nəzarətinə keçməyinə də şərait yaratmış oldu.

Ədəbiyyat siyahısı:

1. Dr. H. Bayram Soy. Arap milliyyetçiliği: Ortaya çıkışından 1918e kadar. 30 s.https://bilig.yesevi.edu.tr/

2. Recep Boztemur. Arap isyanı 1916-1918.19 s. https://dergipark.org.tr/

3. Dünya Savaşı Sırasında Irak Şiilerinin Osmanlı'ya Karşı Tutumu . https*://www.iramcenter.org/1-dunya-savasi-sirasinda-irak-siilerinin-osmanliya-karsi-tutumu-2020*

TÜRK DÖVLƏTLƏRİ ARASINDA MÜASİR İNTEQRASİYA MEXANİZMLƏRİ VƏ REGİONAL ƏMƏKDAŞLIQ PLATFORMALARI

Ramil Niftalıyev
İstanbul Universiteti, PhD
ramil.niftaliyev@ogr.iu.edu.tr

Açar sözlər: *Türk dünyası, Türk Dövlətləri Təşkilatı, inteqrasiya, regional əməkdaşlıq, Avrasiya, geosiyasi proseslər*
Keywords: *Turkic world; Organization of Turkic States; integration; regional cooperation; Eurasia; geopolitical processes.*

XX və XXI əsrlər dünya siyasi sistemində regional inteqrasiya proseslərinin dinamik inkişaf dövrü kimi səciyyələnir. Bu proseslər yalnız Avropa və Amerika kimi inkişaf etmiş regionlarda deyil, həm də Avrasiya qitəsində geniş vüsət almışdır. Avrasiya məkanında mühüm yer tutan Türk dövlətləri tarixi, mədəni və dil birliyi-

nə əsaslanaraq yeni əməkdaşlıq modelləri formalaşdırmaqdadır. Türk xalqları tarixən müxtəlif imperiyaların tərkibində yaşamış, uzun müddət fərqli siyasi-iqtisadi sistemlərin təsiri altında qalmışdır. Lakin müstəqillik dövründə bu xalqlar arasında inteqrasiya prosesi həm geosiyasi, həm də mədəni-sivilizasion baxımdan strateji əhəmiyyət qazanmışdır.

Müasir dövrdə Türk dövlətləri yalnız ortaq mənəvi dəyərlərlə deyil, həm də ortaq iqtisadi maraqlar və təhlükəsizlik çağırışları ilə birləşirlər. Bu inteqrasiya təkcə regional əməkdaşlıq deyil, həm də Avrasiya qitəsində yeni güc balansının formalaşması baxımından mühüm hadisədir.

1.Türk inteqrasiyasının tarixi mərhələləri. SSRİ dövründə Mərkəzi Asiya və Qafqaz respublikaları bir-birindən təcrid olunmuş vəziyyətdə idi, Türkiyə isə Qərb blokunun üzvü kimi NATO çərçivəsində fəaliyyət göstərirdi. Bu səbəbdən türk xalqları arasında əlaqələr siyasi məhdudiyyətlərə məruz qalırdı. Lakin XX əsrin sonlarında SSRİ-nin süqutu ilə türk xalqları arasında yeni münasibətlər mərhələsi başladı. 1991-ci ildən sonra müstəqil olan Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistan üçün Türkiyə təbii strateji tərəfdaş kimi qəbul edildi [2].

1992-ci ildə Ankarada keçirilən Türkdilli Dövlət Başçılarının Zirvəsi türk inteqrasiyasının rəsmi başlanğıcı sayılır. Bu görüşlər əsasında ortaq ideoloji və təşkilati çərçivə formalaşdı, 1990-2000-ci illərdə mədəni-humanitar əməkdaşlıq üstün istiqamət kimi inkişaf etdi. Sonrakı dövrdə iqtisadi, enerji və təhlükəsizlik sahələrində əlaqələrin dərinləşməsi yeni mərhələyə keçidi təmin etdi [15].

2.Türk Dövlətləri Təşkilatının (TDT) formalaşması və rolu. Türk dövlətlərinin qarşılıqlı əlaqələrini institusional səviyyəyə qaldıran əsas qurum Türk Dövlətləri Təşkilatı olmuşdur. 2009-cu ildə Naxçıvanda imzalanan "Naxçıvan Sazişi" ilə yaradılan bu təşkilat ilk vaxtlar "Türk Şurası" adlanırdı, 2021-ci ildə isə onun adı dəyişdirilərək "Türk Dövlətləri Təşkilatı" olmuşdur. TDT-nin əsas üzvləri Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan, müşahidəçi statusuna malik olanlar isə Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Cümhuriyyətidir. Təşkilatın məqsədi üzv ölkələr arasında siyasi, iqtisadi, mədəni və texnoloji sahələrdə əməkdaşlığı inkişaf etdirmək, vahid mövqedən çıxış edən türk dünyası platforması yaratmaqdır. TDT-nin fəaliyyəti geniş istiqamətləri əhatə edir: siyasi koordinasiya, nəqliyyat və logistika, enerji təhlükəsizliyi, gömrük və ticarət, rəqəmsal iqtisadiyyat, mədəniyyət və təhsil, ekoloji davamlılıq və təhlükəsizlik məsələləri. 2011–2024-cü illərdə keçirilmiş zirvə toplantıları təşkilatın çevik və dinamik inkişaf xəttini

Məsələn, Səmərqənd (2022) və Astana (2023) zirvələrində qəbul edilən "Türk Dünyası 2040 Vizyonu" və "Türk Dövrü" konsepsiyası inteqrasiyanın uzunmüddətli strateji hədəflərini müəyyənləşdirmişdir. Prezident İlham Əliyev Astana Zirvəsində qeyd etmişdir ki, "Türk Dövrü" artıq reallığa çevrilməkdədir. Bu ifadə, əslində, türk dövlətlərinin iqtisadi və siyasi gücünün sinxronlaşdırılması prosesini simvolizə edir.

Onun bu fikri Türk dünyasının artıq yalnız regional deyil, qlobal səviyyədə subyekt kimi formalaşdığını göstərir. COVID-19 pandemiyası dövründə keçirilən Fövqəladə Zirvə görüşü isə TDT-nin humanitar koordinasiya imkanlarını nümayiş etdirmişdir [11]. TDT-nin BMT, ATƏT, İƏT və ECO kimi beynəlxalq təşkilatlarla

əməkdaşlıq mexanizmləri onun beynəlxalq nüfuzunu artırmış, türk dövlətlərinin qlobal siyasətdə vahid mövqedən çıxış etməsinə şərait yaratmışdır.

3.Türk dünyasında iqtisadi, siyasi və mədəni əməkdaşlıq təşkilatları. Türk inteqrasiyasının dərinləşməsində yalnız TDT deyil, eyni zamanda bir sıra ixtisaslaşmış təşkilatlar da mühüm rol oynayır: *Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY)* - 1993-cü ildə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə tərəfindən yaradılmışdır. "Türk dünyasının YUNESKO-su" kimi tanınan bu təşkilatın əsas məqsədi ortaq mədəni irsin qorunması, millimədəni dəyərlərin beynəlxalq səviyyədə tanıdılması və gənc nəsillərə ötürülməsidir. TÜRKSOY müxtəlif beynəlxalq festivallar, sərgilər və simpoziumlar vasitəsilə mədəni inteqrasiyanı təşviq edir [18].

Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) - 2008-ci ildə İstanbulda təsis olunmuş, katibliyi Bakıda yerləşən bu qurum parlament diplomatiyasını gücləndirir. Onun fəaliyyəti üzv ölkələrdə qanunvericilik harmonizasiyası və parlamentlərarası əməkdaşlığı təmin edir [13].

Türk Ticarət və Sənaye Palataları Birliyi (TCCI) - 2019-cu ildə yaradılmış iqtisadi platformadır. Bu birlik vasitəsilə üzv ölkələr arasında sərmayə, sahibkarlıq və ticarət əlaqələri inkişaf edir, KOB-ların (kiçik və orta bizneslərin) dəstəklənməsi təşviq olunur [17].

Türk Akademiyası (2012) - Türk xalqlarının ortaq tarixini, dilini və mədəniyyətini araşdıran elmi mərkəz kimi fəaliyyət göstərir. Ortaq dərsliklər, arxeoloji və sosial tədqiqatlar türk kimliyinin elmi əsaslarının möhkəmlənməsinə xidmət edir [14].

Türk Mədəniyyəti və İrsi Fondu (2015) - mərkəzi Bakıda yerləşən bu fond türk mədəni irsinin qorunması, mədəni layihələrin maliyyələşdirilməsi və yaradıcı şəxslərin hüquqlarının müdafiəsini təmin edir [6].

Türk İnvestisiya Fondu (2023) - 2023-cü ildə təsis edilmiş və Türk Dövlətləri arasında ilk birgə maliyyə institutu kimi fəaliyyət göstərir. Ümumi səlahiyyətli kapitalı 600 milyon ABŞ dolları olan fondun məqsədi üzv dövlətlərin iqtisadi potensialını səfərbər etmək, ticarət və investisiya əməkdaşlığını gücləndirmək və regional layihələri dəstəkləməkdir. Fond kənd təsərrüfatı, enerji, turizm, infrastruktur və startap layihələri kimi müxtəlif sahələrdə maliyyə dəstəyi təmin edir [7]. Bu qurumların hər biri türk inteqrasiyasının müxtəlif aspektlərini əhatə edərək vahid institusional sistemin formalaşmasına töhfə verir.

4.Azərbaycan faktorunun strateji rolu. Azərbaycan müasir dövrdə türk dünyasının inteqrasiyasında aparıcı mövqedədir. Azərbaycan Respublikası müstəqillikdən sonra türk birliyini öz milli təhlükəsizlik və xarici siyasət konsepsiyasının əsas istiqamətlərindən biri kimi müəyyən etmişdir. Prezident İlham Əliyev bir neçə çıxışında vurğulamışdır ki, XXI əsrdə Türk dünyası qlobal siyasətin mühüm aktoruna çevrilməkdədir və bu birlik "mədəni mənsubiyyətdən daha çox, strateji müttəfiqlik formatı" kimi qiymətləndirilməlidir. Onun fikrincə, TDT "bölgədə sabitliyin, təhlükəsizliyin və iqtisadi inkişafın əsas dayağına çevrilmək potensialına malikdir."

Bu yanaşma Azərbaycan xarici siyasətinin yalnız mədəni yaxınlıq üzərində deyil, həm də real geosiyasi maraqlar və qarşılıqlı asılılıqlar üzərində qurulduğunu göstərir [11].

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən BTC, TANAP və Cənub Qaz Dəhlizi layihələri türk dövlətlərinin enerji inteqrasiyasını təmin etmiş, Avrasiya enerji xəritəsini dəyişdirmişdir. Eyni zamanda, Zəngəzur dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu və Orta Dəhliz (Transxəzər marşrutu) kimi layihələr türk dövlətlərini Avropa və Asiya arasında strateji körpüyə çevirmişdir [8].

İkinci Qarabağ müharibəsi zamanı türk həmrəyliyinin nümayişi bu inteqrasiyanın siyasi təməllərini möhkəmləndirdi. Türkiyənin siyasi və hərbi dəstəyi, Qazaxıstan və Qırğızıstanın balanslı mövqeyi türk dünyasında ortaq təhlükəsizlik düşüncəsinin möhkəmlənməsinə səbəb oldu [4].

Azərbaycan həm də TDT-nin beynəlxalq əlaqələrinin genişlənməsində fəal rol oynayır. BMT və digər qurumlarla əməkdaşlıqda vahid türk mövqeyinin formalaşdırılması diplomatik baxımdan mühüm nəticələr verməkdədir [5].

5.Geosiyasi reallıqlar və gələcək perspektivlər. Türk dövlətləri Avrasiya qitəsinin geosiyasi mərkəzində, böyük güclərin maraq dairəsində yerləşir. Bu region həm Rusiya, həm Çin, həm də Qərb üçün strateji əhəmiyyət daşıyır. Rusiya–Ukrayna müharibəsi fonunda Mərkəzi Asiya ölkələrinin Moskva ilə münasibətlərində ehtiyatlı siyasət yürütməsi, KTMT və AİİB platformalarında aktivliyin azalması türk inteqrasiyasına yeni təkan vermişdir.

Bu şəraitdə Türk Dövlətləri Təşkilatı yalnız mədəni birlik deyil, həm də enerji təhlükəsizliyi, nəqliyyat, logistika və hərbi-texniki sahələrdə əməkdaşlıq mərkəzinə çevrilməkdədir. "Orta Dəhliz" layihəsinin genişlənməsi Çindən Avropaya qədər olan ticarət marşrutlarında türk ölkələrinə alternativ tranzit üstünlüyü qazandırır.

Azərbaycanın təşəbbüsü ilə qəbul edilən "Türk Yaşıl Vizyonu" və rəqəmsal iqtisadiyyat strategiyaları isə gələcəkdə türk inteqrasiyasının ekoloji və texnoloji istiqamətlərdə də dərinləşəcəyini göstərir [1].

Mədəni inteqrasiya sahəsində də mühüm nailiyyətlər əldə olunmaqdadır. Ortak televiziya layihələri, təhsil mübadilələri, ortaq tarix kitablarının hazırlanması və diaspora təşkilatlarının fəaliyyətinin koordinasiyası türk dünyasının "yumşaq güc" potensialını artırır.

Beləliklə, türk inteqrasiyası artıq sadəcə mədəni yaxınlıqdan ibarət deyil, regional sabitlik və qlobal siyasətdə yeni güc mərkəzi yaratmaq istiqamətində sistemli strategiyaya çevrilmişdir.

Nəticə: Aparılan təhlil göstərir ki, Türk dövlətləri arasında inteqrasiya artıq təsadüfi və mərasim xarakterli əməkdaşlıqdan çıxaraq, sistemli strateji modelə çevrilməkdədir. TDT, TÜRKSOY, TÜRKPA, Türk Akademiyası və Türk İnvestisiya Fondu kimi təşkilatlar bu prosesin struktur dayaq nöqtələridir.

Bu təşkilatlar vasitəsilə türk dövlətləri enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya infrastrukturu, rəqəmsal iqtisadiyyat və humanitar diplomatiya kimi sahələrdə vahid fəaliyyət mexanizmi formalaşdırırlar.

Bununla yanaşı, "Orta Dəhliz" və "Türk Yaşıl Vizyonu" kimi təşəbbüslər Türk dünyasının qlobal ekoloji və iqtisadi gündəmdə fəal oyunçuya çevrildiyini göstərir.

Prezident İlham Əliyevin çıxışlarında qeyd olunduğu kimi, Türk dünyası artıq mədəni kimlik platformasından çıxaraq, regional sabitliyin və inkişafın strateji dayağı rolunu oynayır.

Azərbaycanın təşəbbüsləri və Türkiyənin qlobal təcrübəsi ilə bu birlik Avrasiya məkanında geosiyasi sabitləşdirici qüvvə kimi möhkəmlənməkdədir.

Gələcəkdə TDT-nin fəaliyyətinin hüquqi-institusional əsaslarının dərinləşdirilməsi, vahid iqtisadi zona, ortaq enerji bazarı və elm-təhsil məkanının formalaşdırılması Türk inteqrasiyasının yeni mərhələsinə keçidi təmin edəcəkdir.

Bu baxımdan, Türk birliyi artıq yalnız mədəni miras deyil, eyni zamanda XXI əsrin çoxqütblü beynəlxalq sistemində yeni regional güc mərkəzi modelidir. Türk dövlətlərinin ortaq tarixi və mənəvi dəyərləri bu inteqrasiyanın mənəvi əsasını təşkil etdiyi halda, enerji, nəqliyyat, iqtisadi və təhlükəsizlik platformaları onun strateji sütunlarını formalaşdırır. Nəticə etibarilə, Türk dövlətləri arasında davamlı şəkildə inkişaf edən əməkdaşlıq mexanizmləri Avrasiya məkanında yeni geosiyasi reallığın formalaşması istiqamətində mühüm rol oynamaktadır.

Ədəbiyyat siyahısı:

1. *Azərbaycan - Türk Dövlətlər Təşkilatı (TDT) münasibətləri // https://www.mfa.gov.az/az/category/regional-teskilatlar/azerbaycan-turkdilli-dovletlerin-emekdasliq-surasi-tdes-munasibetleri. İstinad tarixi: 17.10.2025.*
2. *Banuazizi A., Weiner M. The New Geopolitics of Central Asia and Its Borderlands. Indiana University Press, 1994, 284 s.*
3. *Egeresi Z. Azerbaijan and the Turkic World. FOREIGN POLICY REVIEW.*
4. *Gafarlı T. Unlocking the Potential in the South Caucasus: The Zangezur Corridor's Impact on the Trans-Caspian International Transport Route (Middle Corridor). PERCEPTIONS, 2025, 29(2): 148–173.*
5. *Guliyev V. Azerbaijan's Pivotal Role within the Organization of Turkic States. Global Strategies, Caspian-Alpine Society, 2 mart 2025.*
6. *History of the Foundation's Establishment // https://turkicheritage.org. İstinad tarixi: 19.10.2025.*
7. *Integrated Turkic Prosperity // https://www.turkicfund.org/. İstinad tarixi: 17.11.2025.*
8. *Özsoy B. Azerbaijan's Relations with Central Asian Turkic States and Energy Diplomacy. Dergipark.org.tr/1512790, https://doi.org/10.22466/acusbd.1512790, Caucasian Studies, 2024, 10 (Special Issue), 74–91.*
9. *Report On Turkic Economies 2024. Strengthening Transport And Energy Connectivity Among Turkic States, Turkic Academy- ERCNET, May 2025.*
10. *Roy O. The New Central Asia: Geopolitics and the Birth of Nations.I.B. Tauris, Bloomsbury Academic, 2007.*
11. *Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə İlham Əliyevin nitqi // https://president.az/az/articles/view/57856. İstinad tarixi: 17.10.2025.*
12. *Təşkilatın Tarixi // https://www.turkicstates.org/az. İstinad tarixi: 17.10.2025.*
13. *TURKPA // https://turkpa.org/az. İstinad tarixi: 15.10.2025.*
14. *Türk Akademisi Hakkında // https://turkicacademy.org/tu. İstinad tarixi: 17.11.2025.*
15. *Türk Devletleri Teşkilatı 10. Zirve Bildirisi // https://www.turkicstates.org/u/d/haberler/astana-bildirisi-3113-214.pdf.İstinad tarixi: 17.10.2025.*

16. Türk Dövlətləri Təşkilatının rəsmi saytı //https://www.turkicstates.org/az. İstinad tarixi: 17.10.2025.
17. Türk Ticarət və Sənaye Palataları Birliyi //https://www.turkicstates.org/az/partners-detail/tcci. İstinad tarixi: 13.10.2025.
18. TÜRKSOY-un rəsmi saytı //https://www.turksoy.org/az-AZ. İstinad tarixi: 14.11.202

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNDƏ FƏALİYYƏT GÖSTƏRMİŞ AZƏRBAYCANLILAR

Dilqəm Əhmədov
Çapar – Milli İrsin Tədqiqi Mərkəzinin sədri, Dr.
dilgamahmadov@gmail.com

Açar sözlər: *Türkiyə Böyük Millət Məclis, qanunverici struktur, dövlətçilik aparatı, fəaliyyət göstərmiş azərbaycanlılar*
Keywords: *Grand National Assembly of Turkiye; legislative structure; state apparatus; Azerbaijanis who were active in it.*

1918-ci ildə Osmanlı dövlətinin Mudros müqaviləsini imzalaması ilə dövlətin strateji ərazilərinin Antanta qüvvələri tərəfindən faktiki nəzarət altına alınması, İstanbul hökumətinin proseslərə müdaxilə imkanını itirməsi Anadoluda milli müqavimətin mərkəzləşdirilmiş şəkildə təşkilini qaçılmaz etdi. Mustafa Kamal paşanın 1919-cu ildə Samsuna çıxması ilə başlanan və Amasya, Ərzurum, eləcə də Sivas konqresləri ilə institusional çərçivəyə salınan milli hərəkat hakimiyyətin mənbəyinin xalq iradəsi olduğunu elan etdi, nəticədə bu prinsip əsasında yeni qanunverici struktura ehtiyac formalaşdı. 1920-ci ilin martında İstanbulun Antanta qüvvələri tərəfindən işğalı və Osmanlı Məclisi-Məbusanının buraxılması Anadoludakı hərəkatın yeni bir qanunverici orqan yaratmasını şərtləndirdi. Bu səbəbdən bütün Anadolu vilayətlərindən seçilmiş nümayəndələrin iştirakı ilə 23 aprel 1920-də Ankara şəhərində Türkiyə Böyük Millət Məclisi açıldı, bununla da milli mübarizənin siyasi rəhbərlik mərkəzi formalaşdı [3, s.30-31].

TBMM-in ilk dövrü qanunverici və icraedici səlahiyyətlərin məclis daxilində cəmləşdiyi siyasi modellə səciyyələnib. Məclis müzakirələri milli hakimiyyətin birbaşa təcəssümü kimi qəbul edilib və icra funksiyası məclisin seçdiyi İcra Vəkilləri Heyəti vasitəsilə reallaşdırılıb. Bu institutlar hələ formalaşma mərhələsində olsa da, qəbul edilən qərarlar milli suverenliyin praktiki müdafiəsinə yönəlib. İlk dövrdə məclisin fəaliyyəti çoxvektorlu təhdidlər fonunda həyata keçirilib: Daxili qarşıdurmalar və üsyanlar müstəqillik hərəkatının legitimliyini sarsıtmağa yönəlib; yunan ordusunun Qərbi Anadolu istiqamətində irəliləyişi, məclisin hərbi-siyasi gündəmini müəyyənləşdirib; Maliyyə, inzibati və lojistik məhdudiyyətlər yeni dövlət aparatının təşəkkülünü çətinləşdirib.

Bütün bu çətinliklərə baxmayaraq, TBMM milli müdafiəni koordinasiya edən mərkəzi qərarvermə orqanı kimi fəaliyyətini davam etdirib və qısa müddət ərzində dövlətçilik aparatının əsas hüquqi bazasını formalaşdırıb. TBMM-in birinci döv-

ründə formal şəkildə təşkil olunmuş partiya sistemi mövcud olmayıb. Bununla belə deputatların siyasi orientasiyaları, müharibənin strateji idarə olunmasına münasibətləri və dövlət modelinə dair baxışları əsasında müxtəlif fraksiya və qruplaşma meyilləri yaranıb. Mustafa Kamal paşanın liderliyində fəaliyyət göstərən çoxluq milli mübarizənin hərbi-siyasi yükünü daşıyıb. Onların əsas məqsədi milli suverenliyi təmin edən unitar dövlət modelini qurmaq, işğala qarşı mərkəzləşdirilmiş müqaviməti koordinasiya etmək və məclisin ali səlahiyyətini qorumaq olub. Digər bir qrup dini-ənənəvi legitimliyə geniş yer verən, eyni zamanda müharibənin idarə olunmasında daha ehtiyatlı mövqe tutan bir siyasi xətt formalaşdırıb. Bu qrupun bəzi üzvləri İstanbul hökuməti ilə münasibətlərin tam qopması əvəzinə müzakirə imkanlarını qorumağı hədəfləyib. Anadolunun müxtəlif bölgələrindən seçilmiş nümayəndələr arasında mərkəzi hakimiyyətin yetərli şəkildə strukturlaşmasını gözləyən, yerli idarəçilik səlahiyyətlərinin artırılmasını müdafiə edən üzvlər də olub. Bu qruplar məclisdə vahid fraksiya şəklində təşkilatlanmasa da, müzakirələrdə alternativ siyasi baxışların mövcudluğunu təmin edib. Türkiyə Böyük Millət Məclisinin yaranması yalnız işğallara qarşı təşkil edilmiş bir müdafiə təşəbbüsü deyil, eyni zamanda Osmanlı imperiyasının dağılma mərhələsində milli suverenliyə əsaslanan yeni dövlətçilik konsepsiyasının institusional başlanğıcı olub. Məclisin ilk dövrləri, siyasi və hərbi təhdidlərin eyni vaxtda idarə olunduğu, lakin milli iradəyə dayanan legitimlik prinsipinin tədricən möhkəmləndiyi bir proses kimi qiymətləndirilə bilər. Fraksiya və qruplaşma dinamikası isə həmin dövrdə formal partiya sisteminin yoxluğuna rəğmən müxtəlif siyasi baxışların məclisdə geniş təmsil olunduğunu göstərib [5, s.230-233].

TBMM-də fəaliyyət göstərən azərbaycanlılar: Türkiyə Böyük Millət Məclisinin quruluşundan 1950-ci illərə qədər Azərbaycanda doğulmuş bir sıra şəxslər də təmsil olunub. Xüsusilə TBMM-in ilk dövrlərində fəaliyyət göstərən Mustafa Lütfi Azərin, Əhməd bəy Ağaoğlunun fəaliyyətləri önəmli yer tutmaqdadır. Siverek bölgəsindən TBMM-ə qatılan Mustafa Lütfi Azər (Mustafa Lütfi İsmayılov Şirvanski) TBMM-in birinci dönəmində fəaliyyət göstərib. Mustafa Lütfi bəy Şirvani XX əsrin əvvəllərində Azərbaycan və Türkiyədə özünəməxsus yeri olan bir şəxsiyyətdir. Həştərxanda yaşayıb, burada "Şurayi-İslam" cəmiyyətini yaradıb və yeni tipli təhsil müəssisələri, o cümlədən "Darül-ədəb" və qızlar üçün "Nümuneyi-tərəqqi" məktəblərini açıb. Mustafa bəy həmçinin mətbuat sahəsində də fəal olub, 1906-cı ildə "Bürhani-tərəqqi", 1907-ci ildə "Həmiyyət", 1911-ci ildə isə "Haqq" qəzetlərini nəşr etdirib.

Çar hökumətinin təqiblərinə məruz qalmış Mustafa Lütfi bəy bir müddət həbsdə saxlanılıb, azad edildikdən sonra İstanbula qayıdıb. 1912-ci ilin sentyabrında Ergani edadisində müəllim təyin olunub, 1917-ci ilin sentyabrında Urfa Sənaye Məktəbinin müdiri vəzifəsinə gətirilib. 1918-ci ilin mayından isə Siverek edadisində əvvəlcə müavin, bir il sonra müdir olaraq fəaliyyət göstərib. Bu dövrdə onun ictimai-siyasi fəaliyyəti davam edib və 8 iyun 1920-ci ildə Türkiyə Böyük Millət Məclisinə Siverekdən millət vəkili olaraq seçilib.

TBMM-də deputat fəaliyyəti zamanı Mustafa Lütfi bəy maarif və xarici işlər komissiyalarında çalışıb, verdiyi səkkiz qanun təklifindən üçü qəbul olunub, ikisi rədd edilib, üçü isə icra mərhələsində tamamlanmayıb. O, parlamentdə 18 dəfə çı-

xış edib ki, bunlardan üçü gizli iclaslarda olub. 10 iyul 1920-ci ildə Burdur deputatı İsmayıl Sübhi bəyin çıxışına cavab olaraq yunan işğalına qarşı duyduğu hissləri ifadə edib, həm cəsarət, həm də milli şüur nümayiş etdirib. O, Osmanlının ümumi hərbdə uğur qazandığı ölkələri qeyd edərək məclisdə sual ünvanlayıb: "O güclü dövlətlərdən qorxulmayıbsa, indi yüzlərlə il Osmanlı idarəçiliyində qalan ermənilərdən və rumlardanmı qorxacağıq?" [4, s.247].

Mustafa Lütfi bəy bir neçə dəfə özünü Azərbaycan müsəlmanı kimi təqdim edib, Azərbaycanda 80 min nəfərlik İslam Şurası ordusunu quraraq rəhbərlik etdiyini və bir neçə qəzet nəşr etdirdiyini parlamentdə bildirib. Həmçinin Sovet Azərbaycanının rəhbəri Nəriman Nərimanovla yaxın dostluğunu və Həştərxanda üç il birgə fəaliyyətini qeyd edib. Lütfi bəy Azərbaycanın bugünkü vəziyyətinə Türkiyə zabitlərinin rolunu da dilə gətirib. 22 noyabr 1920-ci il tarixli çıxışında Sovet dövründə göstərdiyi fədakarlıq nəticəsində 1328-ci ildə 9 ay həbsdə qaldığını, hüdud xaricinə çıxarıldığını bildirib. Daha sonra isə hazırda Osmanlı vətəndaşı olduğunu və bununla qürur duyduğunu vurğulayıb. Deputatlıq fəaliyyətindən sonra Mustafa Lütfi bəy 1925-ci ilin martında Bursa İmam Xətib Məktəbində tarix və coğrafiya müəllimi olub, eyni zamanda Bursa Oğlan Liseyində farsca və din dərsləri keçib. 1928-ci ilin oktyabrından isə Bursa Qız Müəllim Məktəbində din dərsləri verməyə başlayıb. 1931-ci ildə din dərslərinin proqramdan çıxarılması nəticəsində işini itirib və 1 aprel 1932-ci ildə təqaüdə çıxıb. Ömrünün son illərini Urfada keçirən Mustafa Lütfi Azər 14 avqust 1939-cu ildə bu şəhərdə vəfat edib [6, s.241].

1909-cu ildə İkinci Məşrutiyyət elan edildikdən sonra Türkiyəyə gedən azərbaycanlı ictimai-siyasi xadim Əhməd bəy Ağaoğlu Ziya Gökalp, Yusif Akçura, Məhəmmədəmin Yurdaqulla bərabər "Türk Ocağı"nı qurub. Hətta "Türk Ocağı"nın ilk quruluş toplantısı onun evində baş tutub. 1910-1914-cü illərdə "Xalqa doğru", "Siratülmüstəqim", "Türk yurdu" kimi mətbuat orqanlarında iştirak edib. 1911-1912-ci illərdə İstanbul Universitetində "Türk mədəniyyəti tarixi" kafedrasının müdiri kimi çalışıb. Həmin il "İttihad və Tərəqqi"nin Ümumi Mərkəzinin üzvü olub. Əhməd bəy 1912-ci ildə bir çox türk ziyalısı ilə birlikdə həbs edilib, üç ay Bekirağa məhbəsində saxlanılıb. 1915-ci ildə İstanbulda yaradılan "Rusiya Türk-Tatar Müsəlmanlarının Hüquqlarının Müdafiəsi üzrə Komitə"yə daxil olub [1, s.227].

1915-ci ildə Osmanlı Məclisi-Məbusanına Afyonkarahisardan millət vəkili seçilən Əhməd bəy Ağaoğlu Azərbaycan Cümhuriyyəti dövründə parlamentdə Qarabağ bölgəsini təmsil edib. Daha sonra Osmanlıya qayıdan Ağaoğlu ingilislər tərəfindən həbs olunub, ardınca Malta adasına sürgün edilib. Mustafa Kamal Atatürkün onu xilas etməsindən sonra Türkiyə Cümhuriyyətinə xidmət edən Əhməd bəy Ağaoğlu 1921-1923-cü illərdə Mətbuat ümummüdiri işləyib, "Hakimiyyəti-milliyyə" qəzetinin ümummüdiri və baş redaktoru olub. Elmi və mətbu fəaliyyəti ilə yanaşı siyasi xadim kimi də Türkiyə dövlətinə xidmət edən Ağaoğlu 1923-1931-ci illərdə iki dönəm Qarsın millət vəkili olub. TBMM-dəki fəaliyyəti dövründə Əhməd bəy müxtəlif mövzularda çıxışlar edib, düşüncə və təkliflərini bölüşüb. O, parlamentdə səfərbərlik, tədrisat, büdcə və s. məsələlərlə bağlı çıxışlar edib.

Əhməd Ağaoğlunun qızı Tezer Taşkıran da Kastamonu və Qars bölgəsinin millət vəkili olaraq parlamentdə təmsil olunub [2, s.19-20].

TBMM-də Rza İsmixanov (Yalçın), Abbasəli Çetin, Cengiz Ekinçi kimi Qərbi Azərbaycan bölgələrində doğulmuş şəxslər də yer alıb. Etnik azərbaycanlıların yaşadığı Qars, Iğdır bölgələrini təmsil edən bu şəxslər bölgənin problemlərinin həllində önəmli rol oynayıblar.

Nəticə: Azərbaycanlıların Türkiyə Böyük Millət Məclisindəki fəaliyyətləri Türk dünyasının bütövlüyü baxımından önəmli bir faktordur. Xüsusilə Əhməd bəy Ağaoğlunun timsalında Türkiyənin ilk konstitusiyasının yaradılmasındakı rolu, həm Osmanlı, həm də Türkiyə Cümhuriyyəti parlamentindəki fəaliyyəti Azərbaycan və Türkiyənin ortaq tarixi dəyərləri baxımından əhəmiyyətlidir. Mustafa Lütfi Azərin TBMM-in formalaşdığı ilk illərdəki fəaliyyəti dövrün xarakterinin açıqlanmasına xidmət etməkdədir.

Nəticə etibarilə TBMM-də təmsil olunmuş azərbaycanlıların fəaliyyəti Türk dünyasının ortaq dəyərləri konteksindən önəmlidir.

Ədəbiyyat siyahısı:

1. *Mərdanov Misir, Tahirzadə Ədalət, 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar. I Cild. A. Bakı, 2018, 479 s.*
2. *Naymansoy Günseli, Türk Felsefesinin Öncüllerinden Tezer Taşkıran. Ankara, 2013, 76 s.*
3. *Öztaş, S. Türkiye Büyük Millet Meclisi'nin Açılışı Ve Hükümet Kurulana Kadar İlk Çalışmaları. International Journal of Eurasian Education and Culture, 1(1), 2016, 23-32*
4. *Türkiye Büyük Millet Meclisi. 1. Dönem 2. Cilt 31. Birleşim.*
5. *Tunaya, T. Türkiye Büyük Millet Meclisi Hükümetinin Kuruluşu Ve Siyasî Karakteri. Journal of Istanbul University Law Faculty, 23(3-4), 2011, 227-247*
6. *Üçüncü, U. Siverek Mebusu Mustafa Lütfi (Azer) Bey ve TBMM'deki Faaliyetleri. History Studies, 10(5), 2018, 241-267.*

VƏTƏN MÜHARİBƏSİNDƏ QAZANILAN QƏLƏBƏNİN ÜMUMTÜRK TARİXİ ÜÇÜN ƏHƏMİYYƏTİ VƏ NƏTİCƏSİ

Vüsalə Bəbirova
"Çıraqqala –Şabran" Dövlət Tarix Mədəniyyət Qoruğunun baş fond mühafizi
bebirova83@bk.ru

Açar sözlər: *Tarixi torpaqlarımızın zəbti, 44 günə qazanılan qələbə, Qələbənin tarixi əhəmiyyəti və nəticəsi*
Keywords*: The occupation of our historical lands, The victory achieved in 44 days , The historical significance and consequences of the Victory.*

1990-cı illərin əvvəllərində Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin əhəmiyyətli bir hissəsi, o cümlədən Dağlıq Qarabağ bölgəsi və ətrafındakı 7 rayon (Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Ağdamın xeyli hissəsi) işğal olundu. Təxminən bir milyon azərbaycanlı öz doğma yurdlarından didərgin düşərək məcburi köçkün və qaçqın vəziyyətinə düşdü. İşğal edilmiş

ərazilərdə şəhərlər, kəndlər, tarixi və mədəni abidələr, məscidlər dağıdılaraq böyük ziyan vuruldu. 30 il ərzində həm maddi, həm mənəvi ziyanla üzləşən Azərbaycan xalqı, nəhayət, 2020-ci ildə 44 gün ərzində başda Ali baş komandanımız İlham Əliyev və ətrafında toplaşan rəşadətli ordumuz və bir yumruq ətrafında birləşən Azərbaycan xalqı sayəsində vətən həsrətinə son qoyuldu. İllərlə işğal altında olan torpaqlarımız yenidən özümüzə qaytarıldı. Və o gündən bu günə alınan torpaqlarda prezidentimizin yorulmaz səyi nəticəsində bir çox yenidənqurma işləri həyata keçirildi. Həmvətənlərimiz yenidə öz yurd yuvalarına qovuşdular. Vətən müharibəsində qazanılan qələbə, Azərbaycan dövlətçilik tarixində yeni bir zəfər salnaməsi olmaqla yanaşı, ümumtürk tarixində bir dönüş nöqtəsidir. Bu zəfər türk xalqları arasında birliyi və həmrəyliyi möhkəmləndirdi, tarixi ədaləti bərpa etdi və regionda yeni geostrateji balansı müəyyənləşdirdi [1].

Qələbənin əsas nəticəsi olan Zəngəzur Dəhlizi kimi kommunikasiyaların açılması ilə türk dünyası fiziki olaraq birləşmə yoluna qədəm qoymuşdur. Bu, "Türk Əsri" adlanan yeni bir dövrün başlanğıcının siyasi-tarixi əsasıdır. Qələbə sübut etdi ki, Türk dövlətlərinin birgə fəaliyyəti regionun və beynəlxalq münasibətlərin gələcəyinə təsir edəcək qüdrətli bir gücdür.

Əsas hissə: Azərbaycan torpaqlarının ermənilər tərəfindən zəbt edilməsi uzun tarixə malikdir. Onlar ənənəvi olaraq həmişə özlərinə havadarlar tapmış, regionda yad qüvvələrin maraqlarına qulluq edərək, qonşularını satmış, bunun müqabilində isə özlərinə müxtəlif mükafatlar almışlar. Tarixin bütün dərinliyinə diqqət yönəltdikdə onların xəyanətkar və satqın xarakterlərini və müvafiq olan əməllərini müşahidə etmək mümkündür. Öz qərəzli məqsədləri xatirinə istənilən xəyanətə qol qoymaq, tarixi saxtalaşdırmaq bu millətin öndə gedənlərinin ən səciyyəvi cəhətidir.

Ermənilər həmişə türk torpaqlarına can atıblar. Fürsət düşəndə isə bu arzularını həyata keçirməyə başlayıblar. Rusiya imperiyasının Cənubi Qafqaza ekspansiyası zamanı ermənilərin diqqət çəkməsi təsadüfi deyildi. Rusiyanın Cənubi Qafqazda möhkəmləndirmək məqsədlərində erməni amilinə üstünlük verməsi onların kütləvi şəkildə buraya köçürülməsi və Azərbaycan torpaqlarında kök salması üçün əlverişli şərait yaratdı. XIX əsrin əvvəlində Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalı ilə ermənilərin fasiləsiz olaraq Cənubi Qafqaza köçürülməsinə başlanıldı və burada onların sayının süni şəkildə artmasının əsası qoyuldu.

XIX əsrin əvvəlində Cənubu Qafqazın Rusiya imperiyasına birləşdirildiyi gündən əgər müsəlman əhalinin yaşadığı ərazilər işğalın obyekti idisə, bu ərazilərə köçürülmüş ermənilər işğalçı siyasətin həyata keçirmiş , onun hesabına yaşamış, vardövlət sahibi olmuş, mülklər əldə etmiş, dövlət vəzifələri tutmuşlar. Əhali həm dövlət qurumları, həm kilsə tərəfindən millətçilik ruhunda ideoloji təbliğatla əhatə olunur, vaxtaşırı etnik zəmində münaqişələrə cəlb olunurdular.

XX əsrin əvvəllərində erməni-azərbaycanlı qarşıdurması daha intensiv xarakter alır, vaxtaşırı silahlı toqquşmalara gətirib çıxarırdı. Silahlı toqquşmaların baş verdiyi zaman isə onun daha qlobal problemlə bağlı olduğunu görməmək mümkün deyildir. 1905-ci ildən başlanan 2020-ci ilədək davam edən erməni-müsəlman qırğınının bir

əsas səbəbi olmuşdur, o da Azərbaycanın torpaqlarını ələ keçirmək, bu ölkənin sərvətlərini, o cümlədən neftini əldən verməmək, xalqın azadlıq iradəsini sındırmaq...

Erməni millətçiləri rus imperiyasının dəstəyi sayəsində müxtəlif vaxtlarda tarixi Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı qətillər və talanlar təşkil edilmişdi.

Son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti Azərbaycan tarixinin faciələrlə, o cümlədən qanlı hadisələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir. Bu millətçi –şovinist siyasətin əsas məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaqla əzəli Azərbaycan ərazilərində ermənilərin uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaq olmuşdur [2].

1917-ci ilin əvvəllərində 1918-ci mart ayına qədər olan dövrdə İrəvan quberniyasında 197 kənd, Zəngəzur qəzasında 109, Qarabağda 157 kənd dağıdılmış digər bölgələrdə 60 yaşayış məskəni məhv edilmiş, yandırılmış və viran qoyulmuşdu. Ermənilərin silahlı hücumu nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında 16 mindən çox insan xüsusi qəddarlıqla qətlə yetirilmiş, 167 kənd dağıdılmışdır ki, onlardan 35-i hazırda mövcud deyil. Erməni Daşnak dəstələrinin Quba qəzasında azərbaycanlıları kütləvi şəkildə qətlə yetirmələrinə dair aşkar edilmiş faktlar son vaxtlar bir daha sübuta yetirilmişdir. Belə ki, 2007-ci ildə Quba şəhərində kütləvi məzarlıqların aşkar edilməsi erməni vandalizmini təsdiqləyən faktlardır. Məzarlığın tədqiqi zamanı 1918–ci ildə erməni silahlı birləşmələrinin Qubaya hücumu zamanı insanların hər cür zorakılığa məruz qalaraq qəddarlıqla qətlə yetirilməsi və həmin məzarlığın sonradan kütləvi şəkildə basdırılmış yerli sakinlərə məxsus olduğu müəyyən edilmişdir. Onu da qeyd etmək lazımdır ki, Amazaspının rəhbərliyi ilə erməni hərbi birləşmələri Qubada türk- müsəlman əhalisi ilə yanaşı yəhudilərə qarşı da qırğınlar törətmişlər. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, 1918-1919-cu illərdə Qubada erməni tərəfindən 300 nəfərə qədər yəhudi qətlə yetirilmişdir. Bundan əlavə Azərbaycanın yüzlərlə yaşayış məntəqəsi, o cümlədən Qarabağda 150 dən çox kənd dağıdılmış və yandırılmış, eləcə də Şuşada azərbaycanlılara qarşı amansız qırğınlar törədilmişdir [5].

Erməni daşnakları tərəfindən 1918-ci ilin mart-aprel aylarında Bakıda və digər Azərbaycan ərazilərində 50 minə yaxın insan xüsusi işgəncələrlə qətlə yetirilmişdir. Zəngəzur qəzasında 10 mindən çox, Şamaxı qəzasında 10 min 270 nəfər, şəhərlə birlikdə isə 18 min 270 nəfər azərbaycanlı amansızlıqla öldürülmüşdür.

1919-cu ilin yanvarında daşnak Ermənistan hökuməti Qarabağla əlaqədar Azərbaycana qarşı ərazi iddiası irəli sürdü. Bununla da, Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi üçün ilk rəsmi cəhd edildi. Problemi dinc vasitələrlə həll etmək üçün Azərbaycan hökuməti dəfələrlə təkliflərlə çıxış etsə də, daşnakların tutduğu mövqe bu təkliflərin həyata keçirilməsinə mane oldu.

Ərazi bütövlüyünü qoruyub saxlamağı və öz vətəndaşlarının təhlükəsizliyini təmin etməyi özünün başlıca vəzifəsi hesab edən Azərbaycan Xalq Cümhuriyyəti Ermənistan Respublikasının ərazi iddialarını qəti şəkildə rədd etdi. Azərbaycan parlamenti "Qarabağ" məsələsini müzakirə edərək separatçılıq hərəkatının qarşısını almaq üçün əməli tədbirlər həyata keçirməyə başladı. Bu məqsədlə Azərbaycan

hökuməti 1919-cu ilin yanvarın 15-də Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb, mərkəzi Şuşa şəhəri olmaqla həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğunu yaratdı və Xosrov bəy Sultanov general –qubernator təyin edildi. Azərbaycan hökuməti ona tapşırdı ki, orada qayda-qanun yaratsın və yerli hakimiyyəti təşkil etsin. Və belə də oldu...

İllər sonra yenidən 1985-ci ildə SSRİ-də ermənipərəst Mixail Qorbaçovun hakimiyyətə gəlməsi ilə erməni separatçıları növbəti dəfə fəallaşdılar. Bu dəfə sovet rəhbərliyinin silahlı erməni separatçı terrorçularını himayə və müdafiə etdikləri daha tez aşkara çıxdı. Dağlıq Qarabağ Muxtar vilayətini Ermənistana ilhaq etmək planını həyata keçirmək üçün M.Qorbaçov ilk addım olaraq 1987-ci ildə onun qarşısında ən böyük maneə olan Heydər Əliyevi sovet rəhbərliyində tutduğu vəzifədən uzaqlaşdırdı. Bu amil Moskvanın birbaşa ermənipərəst mövqe tutacağını göstərdi. Bundan az sonra əvvəllər gizli fəaliyyət göstərən İrəvandakı erməni millətçi "Qarabağ komitəsi", Xankəndidəki "Krunk" təşkilatı yenidən açıq fəaliyyətə keçdi. Beləliklə, Qarabağın dağlıq hissəsinin işğalı üçün separatçı - terrorçuluq fəaliyyəti başlandı [3].

Ermənistan qanunsuz və əsassız ərazi iddialarının reallaşdırılması məqsədilə 1991-ci ilin sonu- 1992-ci ilin əvvəlində Azərbaycana qarşı tam miqyaslı müharibəyə başlamışdır. Nəticədə, Azərbaycan ərazisinin əhəmiyyətli bir hissəsi Ermənistan tərəfindən işğal edilmişdir. Müharibə nəticəsində on minlərlə insan həyatını itirmiş, şəhərlər, qəsəbələr və kəndlər dağıdılmışdır. Bütün işğal olunmuş ərazilərdə 700 mindən çox azərbaycanlı etnik təmizliyə məruz qalmışdır. Həmçinin, 1980-ci illərin sonunda Ermənistanda vaxtı ilə sayı yarım milyon olmuş və həmin dövrə təxminən 250 000 qalmış azərbaycanlı da öz əzəli torpaqlarından vəhşicəsinə qovuldu. Onlar Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində, ölkənin digər şəhər və rayonlarında yaşayış üçün yararsız binalarda, yataqxanalarda, sanatoriya korpuslarında, məktəb binalarında yerləşdirilmişlər. Öz isti yuvalarından, doğma yurdlarından məcbur ayrılaraq belə bir ağır şəraitdə yaşamaq fikri belə insana çətindir, nəinki onu yaşamaq. İllərlə vətən həsrəti çəkərək, öz yurd yuvalarına qovuşmaq arzusu ilə alışıb yanan məcburi köçkünlər nəhayət ki 30 ildən sonra bu arzularına çatdılar. Ali Baş komandanın sarsılmaz iradəsinin, bir yumruğa çevrilmiş xalqımızın birliyinin, hər daşı, hər qarışı uğrunda canından keçən şəhidlərimizin müqəddəs ruhunun və o torpaqlara can atan qazilərimizin rəşadəti sayəsində öz doğma yurdlarına qovuşdu. Məcburi köçkünlərimizin 30 illik həsrət yükünü çiyinlərində gəzdirən bir xalq üçün atılan bu addım qətiyyət və qürur hekayəsidir.

Artıq səbr kasası dolmuş Azərbaycan xalqı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin əmri ilə Azərbaycan Silahlı Qüvvələrinin əks hücum əməliyyatı başlandı. Azərbaycan ordusu II Qarabağ müharibəsində "Dəmir Yumruq" adını alan planı həyata keçirməyə başladı. Uğurla başlayıb Zəfərlə bitən bu plan xalqımızın qüdrətini bütün dünyaya bəyan etdi. İllər ərzində alınan torpaqlar 44 günə geri qaytarıldı.

2020-ci ilin 44 günlük Vətən müharibəsi, həmçinin Azərbaycan Respublikasının müasir tarixinə qızıl hərflərlə yazılmış, Cənubi Qafqazda yeni siyasi–tarixi re-

allıqlar yaratmış tarixi bir zəfərdir. Bu qələbə təkcə Azərbaycanın 30 illik işğal altındakı torpaqlarını azad etməsi, ərazi bütövlüyünü bərpa etməsi demək deyil, eyni zamanda ,ümumtürk tarix və türk dünyası üçün müstəsna əhəmiyyətə malik bir hadisə - qətiyyət, rəşadət, birlik və fədakarlıq simvoludur. Bu məqalə Vətən müharibəsi zəfərinin türk birliyinə, regionda geostrateji mövqeyə və türk dövlətlərinin beynəlxalq nüfuzuna təsirini elmi-tarixi aspektdən təhlil edir [4].

Vətən müharibəsindəki qələbə türk dünyasının kollektiv yaddaşında dərin iz buraxaraq, aşağıdakı əsas tarixi əhəmiyyətlərə malikdir:

Milli Qürurun və Özünütəsdiqin Bərpası : 30 il davam edən işğal türk dünyasının bir hissəsi olan Azərbaycan xalqı üçün mənəvi ağırlıq idi. Bu zəfər Azərbaycanın qüdrətini, xalq-ordu-dövlət birliyinin bütün dünyaya nümayiş etdirdi. Bu türk kimliyinin, döyüş ruhunun və ədalətli mübarizə əzminin təntənəsi kimi bütün türk xalqlarının qürur hissini gücləndirdi. Bu böyük Zəfər bütün türk dünyasında böyük sevinclə qarşılandı. Bu qələbə türk xalqlarının ortaq tarixində yeni bir şanlı səhifə açaraq, milli qürur hissini gücləndirdi və öz aralarındakı birliyin və həmrəyliyin vacibliyini bir daha ön plana çıxardı.

"**Dəmir Yumruq" Birliyi rəmzi:** Prezident İlham Əliyevin qeyd etdiyi "Dəmir Yumruq" təkcə Azərbaycan xalqının birliyini deyil, həm də müharibə boyunca Türkiyə Respublikasının verdiyi qeyd-şərtsiz mənəvi-siyasi dəstək sayəsində yaranmış Türk Birliyinin simvoluna çevrildi. Türkiyənin açıq dəstəyi "Bir millət, iki dövlət" kəlamının təkcə sözdə deyil, əməldə də gerçək olduğunu nümayiş etdirdi. Bu, digər türk dövlətləri üçün də strateji bir örnək oldu.

Ortaq mədəni irsə sahib çıxmaq: İşğal altında olan ərazilərin azad edilməsi, türk –islam mədəniyyətinə aid abidələrin (məscidlər, tarixi yerlər) bərpasına və qorunmasına şərait yaratdı. Bu türk xalqının ortaq tarixi və mədəni irsinə sahib çıxmaq baxımdan da böyük əhəmiyyət daşıyır.

Tarixi ədalətin bərpası: Qələbə beynəlxalq hüququn kobud şəkildə pozulmasına və ədalətsiyliyə son qoydu. Bu türk xalqlarının əzəli torpaqlarının (Qarabağ və Şərqi Zəngəzur) azad edilməsi ilə tarixi ədalətin bərpasının mümkün olduğunu göstərdi. İşğalçı ideologiyaların, mif və utopik xülyaların (Ohanyan səddi kimi) məhv edilməsi türk dünyasının real gücünün sübutu oldu.

Beynəlxalq hüququn bərpası: Azərbaycan BMT Təhlükəsizlik Şurasının illərlə icra olunmayan qətnamələrini təkbaşına, döyüş meydanında həyata keçirərək beynəlxalq hüququn aliliyini təmin edilməsinin mümkünlüyünü göstərdi. Bu beynəlxalq arenada türk dünyasına müsbət enerji ötürdü.

Vətən müharibəsi qələbəsinin əsas nəticələri: Qazanılan zəfər türk dünyasının gələcək inkişaf strategiyasına və beynəlxalq əlaqələrinə bir sıra fundamental nəticələr gətirdi: Ən mühüm geostrateji nəticələrdən biri, regional kommunikasiyaların açılmasıdır ki, bunun da əsasını Zəngəzur Dəhlizi təşkil edir. Zəngəzur Dəhlizi Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birbaşa birləşdirməklə, bütün türk dövlətləri arasında quru əlaqəsinin yaradılmasına imkan verir. Bu, Xəzər dənizi hövzəsindən Anadoluyadək uzanan türk coğrafiyasında iqtisadi, mədəni və siyasi inteqrasiyasının sürətlənməsinə xidmət

edir. Dəhliz eyni zamanda, ”Orta Dəhliz” (Transxəzər Beynəlxalq Nəqliyyat Marşurutu) layihəsinin əsas tərkib hissəsi kimi Asiya və Avropa arasında yeni və etibarlı bir nəqliyyat qovşağı yaradır. Bu türk dövlətlərinin qlobal ticarət şəbəkəsində mövqeyini əhəmiyyətli dərəcədə yüksəldir.

Siyasi və Həmrəylik: Vətən müharibəsi qələbəsindən sonra Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (hazırda Türk Dövlətləri Təşkilatları)çərçivəsində əməkdaşlıq yeni səviyyəyə yüksəldi.2021-ci ildə İstanbulda keçirilən VIII Zirvə görüşündə Qələbənin bütün türk dünyasının zəfəri kimi qeyd olunması, həmçinin Azərbaycan prezidentinin Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi bunun siyasi təsdiqidir. Qələbə Azərbaycanın və ümumilikdə Türk dövlətlərinin beynəlxalq səhnədə mövqeyini gücləndirdi. Regionda yeni reallıqların formalaşmasında Azərbaycan-Türkiyə tandeminin həlledici rolu, Türk dövlətlərinin regional layihələrin (enerji, nəqliyyat) tənzimləyicisi kimi nüfuzunu artırdı.

Beləliklə, 2020 –ci ilin Tarixi Zəfəri təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpası deyil, həm də bütün türk xalqlarının birliyini ,gücünü və gələcəyə inamını simvolizə edən bir hadisədir.

Ədəbiyyat siyahısı:

1. Əliyev Aqşin. Vətən müharibəsi-Zəfər tarixi. Bakı, 2021,234 səh.
2. Azərbaycan tarixi (XX–XXI əsrlər). Bakı, Elm, 2018,.
3.Münaqişə başlayır. http://e-derslik.edu.az/books/592/units/unit-1/page7.xhtml
4. Ağalarov Pərviz, Quliyev Niyaməddin, Cabbarov Hafiz, Talıblı Talıb, Tanrıverdi Ramil. ”Zəfər tarixi “ dərslik. Bakı, “Şərq-Qərb” Açıq Səhmdar Cəmiyyəti, 130 səh.
5.Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi. https://1905.az/31-mart-soyqirimi-erm%C9%99nistanin-az%C9%99rbaycanlilara-qarsi-etnik-t%C9%99mizl%C9%99m%C9%99-siyas%C9%99tinin-%C9%99n-qanli-s%C9%99hif%C9%99sidir/

ORTA ƏSRLƏRDƏ TÜRK XALQLARI MƏDƏNİYYƏTİNİN ƏSAS QAYƏSİ

Səmra Hacıyeva
"Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğunun böyük elmi işçisi
semra.leyla@mail.ru

Açar sözlər: *Cəmiyyət, sosial təbəqələr, ticarət, geyim, memarlıq, kənd təsərrüfatı və heyvandarlıq, təhsil sistemi və mədrəsələr*
Keywords*: Society, social classes, trade, clothing, architecture, agriculture and livestock, education system and madrasas*

Giriş: İslam dininin yayılması ilə birlikdə başda Abbasilər sülaləsi olmaqla Türk xalqları İslam ordularında könüllü və ya muzdlu xidmət etməyə başladılar. Mənbələr göstərir ki, xüsusilə Samarra şəhərinn bütünlüklə türklər üçün tikildiyini, qədim inanclarını qoruyub saxlayan türklər üçün məscid və ibadət yerlərinin olduğunu göstərir [14, s.45]. Zaman keçdikcə türklər kütləvi şəkildə müsəlman olmağa

(İslamı qəbul etməyə) başladılar və Misirdə türk sülaləsi olan tulunilər ilk Türk-İslam dövlətini yaratdılar [8, s.112]. Tulunilər sülaləsindən sonra ikinci Türk-İslam dövlətini Suriya və Misirdə İxşidilər sülaləsi (ərəb: el-İxşıdiyyun 935-969) yaratdı. Türk hərbçilərin çoxluq təşkil etdiyi İslam orduları İran və şərqinə etdikləri səfərlər zamanı buralarda yaşayan və əksəriyyətini türklərin təşkil etdiyi əhalini müsəlmanlaşdırmağa başladılar. Bu bölgələrdə yaşayan Qarluq türkləri 840-cı ildə Qaraxanlılar adlı bir dövlət qurdu. Qaraxanlılar 960-cı ildə toplu şəkildə İslam dinini qəbul edərək bir İslam dövləti oldular [3, s.28]. Bundan sonra isə adını Qəznə şəhərindən alan Qəznəvilər Əfqanıstanda bir Türk-İslam dövlətinin təməlini qoydular.

Əsas hissə: Oğuzların Üç Ox qolunun Qınıq boyundan olan səlcuqlar da İslam dinini qəbul edərək böyük bir imperiya yaratdılar və istər din, istər elm, istərsə də incəsənət və mədəniyyət sahəsində orta əsrlərə damğasını vuracaq Səlcuqlar dövrünü başlatdılar [5, s.201].

Artıq Əfqanıstandan Misirə qədər türklərin hakim olduğu, İslam dininin qəbul edildiyi və bir çox Türk dövlətlərinin yaşadığı torpaqlar İslam dini ilə türk mədəniyyətinin birləşməsini ortaya qoydu.

Qaraxanilər, Qəznəvilər və Səlcuqlar saraylarından bilindiyi kimi türklər İslam dini ilə birlikdə keçmiş adət-ənənələrini də yaşadırdılar. Qəznəvilər sarayında aşkar edilmiş divar şəkillərində uyğurların divar şəkillərinə bənzərlik nəzərə çarpacaq qədərdir [7, s.84]. Sarayların zəngin daxili bəzəyi əsasən suvaq və daşdan hazırlanmış insan və heyvan fiqurları və bitki ornamentləri ilə bəzədilib. memarlıq dizaynları və bəzək əşyaları saray həyatının son dərəcə parlaq olduğunu sübut edir. Su kənarlarında inşa edilən bu saraylar həm də gözəl mənzərələrə malikdirlər. Bir türk evindən çox da fərqi olmayan saraylar bəzəkləri və həyat tərzi ilə səlcuqlara qədər gəlib çatmış və Anadoluya da gözəl nümunələrini ötürmüşdür. Türklərdə saraylar iki hissəyə ayrılırdı: birinci, hökmdarın yaşadığı evdir ki, buraya "Hərəm" adı verilirdi. İkinci hissə isə dövlət işlərinin həyata keçirildiyi "Divan" adlı yerdir ki, burada hökmdar dövlət işlərini görür, qonaqlarını qarşılayırdı.

Nizam-ül Mülkün "Siyasətnamə", Yusif Has Hacibin "Kutadgu Bilig", Mahmud Qaşqarinin "Divan-i Lüğat-it Türk" əsərlərində orta əsrlər türk və müsəlman həyat tərzinin zənginliyini göstərən məlumatlar olduqca çoxdur. Bu əsərlərdə türklərin dili, xalqın və sarayın sosial həyat tərzi, adət-ənənələri, geyimləri haqqında yetəri qədər məlumat əldə edilməkdədir [6; 9; 15].

İnsanlar şəhərlərdə və ya kəndlərdə yaşayırdılar. Şəhərlərdə yaşayan insanlar əsasən idarəçilər, ticarət və sənətkarlıq sahibləri, mədrəsələrdə dərs deyən müəllimlər və onların tələbələri, "darüş-şəfa" adlanan xəstəxanalarda çalışan səhiyyə işçiləri və xalqdan ibarət idi. Şəhərlərin ətrafında qoruyucu bir divar olan bir şəhər divarı var idi. Divarın içi "içlik", çölü isə "daşlik" adlanırdı.

Kəndlərdə isə iki qrup var idi: oturaq kəndlilər və köçəri kəndlilər. Oturaq kəndlilər əkinçiliklə məşğul olurdular. Köçərilər heyvandarlıqla məşğul olur və fəsildən asılı olaraq iki fərqli yerdə - yay otlaqlarında və qış otlaqlarında yaşayırdılar.

Dərbəndlər və karvan yolları üzərində salınmış şəhərlər ticarətin əhəmiyyətini artırırdı. Dəmirçilik və atçılıq türklərin imtina edə bilmədiyi ən məşhur peşələr arasında idi.

Cəmiyyət: Səlcuqlar dövrünün türk cəmiyyətini üç əsas qrupda qiymətləndirmək doğru olardı.

I-Tayfa: Millət anlayışının qarşılığı olan "tayfa" sözü Divan-i Lüğət-it Türkdə tez-tez təkrarlanan bir kəlmədir. Bəylərin "tayfa"ya verdikləri qiymət, sıxıntıları, qarşılaşdıqları çətinliklər və sevincləri hər zaman dilə gətirilmişdir. "Tayfa"ların arasında heç bir sinfi- ayrı-seçkilik olmamışdır. Zaman-zaman qəbilənin ehtiyaclarını və problemlərini müzakirə etmək üçün "Tirnek" adlanan görüşlər keçirilirdi. Bu görüşlərdə problemlərin həlli yolları axtarılmış, hər kəs fikirlərini bildirmişdir. Bir baxımdan xalq səsverməsi və ya konqres adlandıra biləcəyimiz bu görüş nəticəsində demokratik bir qərarın ortaya çıxacağı şübhəsiz idi [6, s.156].

II-Boy: "Boy" "budun"dan daha kiçik bir cəmiyyət idi. Qəbilə kimi də adlandıra biləcəyimiz "boy"lar birləşərək "budun"u yaradırdılar. Oğuzlar da 24 boydan əmələ gəlmişdirlər [12, s.72].

III-Ailə: Ana, ata və uşaqlardan əmələ gələn cəmiyyətin ən kiçik birliyi səlcuqların dövründə tamamilə sağlam təməllərə bağlı idi. Ailə münasibətləri və qohumluq dərəcələri qatı şəkildə qorunurdu [15, s.104]. Oğul evlənib övlad sahibi olsa belə ailədən ayrıla bilməzdi. Ailədə qadının sözü də keçərli olsa belə, kişiyə "bəy" deyilir və ailənin başçısı olaraq bilinirdi. Türklər evlənmək sözünü qovuşmaq olaraq işlədirdilər. Evlilik əməliyyatlarında "Arkucu" və ya "Savcı" adlı vasitəçilər işləyirdi. Elçilər vasitəsilə razılaşan ailələrdə oğlan tərəfi "Aldum", qız tərəfi isə "Virdüm" deyilirdi. Oğlan tərəfi qız atasına hədiyyə olaraq bir at verirdi ki, buna "Başlıq", anasına isə süd haqqı olaraq bir geyim hədiyyə edilirdi ki, buna da "Südlük" deyilirdi. Oğlan tərəfinin qayına verdiyi hədiyyəyə "Ağırlıq", baldıza verdiyi geyimlərə isə "Yandış" deyilirdi. Gəlinin cehizinə isə "Sep" adı verilirdi. Şübhəsiz ki, evlənmədə toy edilir, "Küden" adlandırılan ziyafət keçirilir. Toyda rəqs edənlərin üzərinə pul səpilirdi ki, bu adət də "şabaş" adlandırılırdı. Toyda qudaların birbirinə hədiyyə vermə adəti isə "Tünğür" adlandırılırdı. Bəyin köməkçisinə "Sağdıç", gəlinin köməkçisinə isə "Eget" deyilirdi. Türklər arasında qohumluq münasibətləri son dərəcə möhkəm idi. Qardaşa "karındaş", böyük oğula "tun oğul", böyük qıza "tun qız" deyilirdi. Gəlin böyük qayına "İçi", böyük baldıza isə "Eçe, Eke və ya Eze", kiçik baldıza isə "İni" və ya "Singil" deyirdi. Oğlan isə kiçik qayına "Yurç", kiçik baldıza "Baldız", böyük baldızın yoldaşına isə "Yeznə" deyirdi. Dayıya "Tegay", bibiyə "Kükü", xalaya isə "Bibi" deyilirdi. Səlcuqlarda övladlığa götürmə kimi adət də olmuşdur. Övladlığa götürülmüş uşağa "Tutuncu oğul" deyilirdi. Süd qardaşa (bacıya) isə "Emikdeş" deyilirdi.

Sosial təbəqələr: Səlcuqlar dövründə insanlar "Bəylər" və "Xalq" olmaqla iki qrupa ayrılmışdı. Bəylər sonsuz güc sahibi idilər və "Budun" ilə "Boy"un bütün məsuliyyəti onların üzərində idi. İnsanların dərdləri ilə maraqlanır, onları tez-tez bir yerə yığırdılar. Bəylər "Budun" içərisindən nailiyyətlərini nümayiş etdirərək

"Bəy" olurdular. Bəylər xalqın problemləri ilə maraqlanır, oğurluq və ya bənzəri hadisələrdə müdaxilə edər, günahkarları tapıb cəzalandırar və xalqa məlumat verərdi. Döyüşlər zamanı özünə bağlı "Boy"lardan bir ordu yaradırdılar.

Xalq arasında ən mühüm qrup sənətkarlar idi. Peşələr arasında ən məşhurları "Tarığçı" adlanan kənd təsərrüfatı ilə məşğul olanlardır. Dəyirmançılara "Üğitçi", çörəkçilərə "Ekmekçi", heyvandarlıqla məşğul olanlara "İgdişçi", qəssablara "Etçi", südçülərə "Koy Sağkuçı", aşpazlara "Sağçı", dərzilərə "Yiçi", ayaqqabı istehsal edənlərə "Etükçi", torpaqdan qab-qaşıq düzəldənlərə "Ayakçı", toxuculara "Közek",bəzək və naxış edənlərə "Bedizci", dərman düzəldib satanlara "Emçi", at sürənlərə "At sürgüçi", məktub aparıb gətirənlərə "Yazığçı" deyilirdi [6, s.312]. Türklərin ən mühüm peşələrindən biri də "Temürçi" adlandırılan dəmirçilikdir. Dəmirçilər qılınc, bıçaq, mizraq və sair silahlar istehsal edir, dəmirdən hər cür əşyalar emal edirdilər. Yay emal edənlərə "Kurguçı", ox emal edənlərə "Okçı" deyilirdi. Bəzən ox ucları daşa dəyərək ucları əyilirdi. Ucu əyilmiş, kəskinliyi getmiş oxlara "Tığ Ok" deyilirdi. Bunlar oxçular tərəfindən düzəldilirdi. Muzdlu işləyən şüşə ustalarına "Terçi" deyilirdi. Bələdçilər isə "Yorçı" adlandırılırdılar. Türklərdə dövlətin kömək etdiyi kasıb və işsiz təbəqə də mövcu idi ki, onlara "Çıgay" deyilirdi. Hər nə qədər dövlətin köməyi olsa da xalq arasında "Qaraçı" və "Umduçı" adlandırılan dilənçilər də var idi. Cadugər və sehrbazlara isə "Yelviçi" deyilirdi.

Ticarət: Orta əsrlərdə türk cəmiyyətində sənətkarların yanında tacirlər də var idi. Başda ipək, pambıq, yun, keçə, xalı, kilim və digər toxumalar, dəri və dəri məhsulları, odun, odun kömürü, canlı heyvan və heyvan məhsulları, taxıl və taxıl məhsullarıbazarlarda satılırdı.Bəzən bu məhsullar karvan yolları ilə başqa ölkələrə də ixrac edilirdi. Xüsusilə, səlcuqlar dövründə karvan yolları və karvansaraylar qorunmuş, tacirlərə və karvanlarına gələcək ziyanları qarşılayacaq bir sığorta sistemi təşkil edilmişdi.

Geyim: Divani-Lüğət-it Türkdən əldə etdiyimiz məlumata əsasən, orta əsr türk boylarının hər biri bir-birindən fərqli geyim tərzinə sahib olmuşlar. Oğuz, Qarluq, Çiğil, Qıpçaq, Yağma, Kengeç, Oğraq kimi türk boyları geyimləri ilə bir-birindən fərqlənsələr də ərəb və ya xristian cəmiyyətinin geyimləri ilə də heç bir əlaqəsi yox idi. Başlarına əvvəllər "Börk" keçirirdilər, sonralar isə ərəblərdən təsirlənərək "Sarıq" sarırdılar. Üstlərinə müxtəlif köynəklər geyinərdilər. Kürəklərinə üç hissəli əba, üstündən bellərinə qurşaq, bəzən isə keçmiş adətlərinə bağlı olaraq gümüş və ya qızıl toqqalı kəmər bağlayırdılar. Ayaqlarına çarıq və ya ayaqqabı geyinərdilər. İpək, yun, pambıq və dəridən emal edilən bu geyimlərin rəng və bəzəklərinə görə hər birinin ayrı bir adı vardır. Əllərinə əlcək keçirən türklər müxtəlif rəngli əl dəstmalları da istifadə edirdilər.

Memarlıq: Səlcuqlar dövründə türklər evlərini çiy və bişmiş kərpicdən inşa edirdilər. Əvvəlcə torpaq qazılaraq bünövrə atılırdı, bu bünövrənin içərisi daşla möhkəmləndirilirdi. Bünövrənin üzərinə çox vaxt kərpicdən divarlar hörülürdü. Divarları möhkəmləndirmək üçün bəzən taxtadan da istifadə olunurdu. Qapı, tavan, tavanı tutan dirəklər taxtadan hazırlanırdı. Evin üstü düz dam formasında inşa

edilirdi. Bəzən kafel və plitələrlə örtülü dama qoyulan dirəklər "Ev Oxu" və ya "Ox" deyirdilər. Ümumiyyətlə, birmərtəbəli inşa edilən evlərin çox olmasına baxmayaraq, Qəznə şəhərində 5-6 mərtəbəli evlərə də rast gəlinir. evlər evyan şobesi (ev ofisi) dediyimiz formada inşa edilirdi. "Beçküm" adlandırılan bir yer olurdu ki, günlük həyatlarının çoxunu burada keçirirdilər. Bu evlərdə "Aşlık" adı verilən mətbəx soba və divarlarda da "Serü" adlanlandırılan rəflərə malik idi. Rəflərdə ev sahibinin maddi vəziyyətinə uyğun olaraq mis və ya gildən hazırlanmış yemək qabları var idi. Su, şərab, müxtəlif meyvə suları və kımız (at südü) üçün at və ya dəvə dərisindən çuvallar, üzərində xəmir yayan oxlovlar, səhən, sini, boşqab, ləyən, qazan, tava, stəkan və qaşıqlar mətbəxdə istifadə edilən əşyalardandır. Bundan əlavə isti aylarda yeməkləri qoruduqları buzxanalar olurdu. Buzxanaların 1000 illər keçsə də eyni adla adlandırılması da diqqət cəlb edən məsələlərdəndir.

Hər bir otaqda "Töre" və ya "Tör" adlandırılan taxtlar var idi. Taxtların üzərinə xalça, kilim və ya keçə sərilirdi. Əgər evin gəlini var idisə, evin ən gözəl otağı gəlinə ayrılırdı. İpək və naxışlarla bəzədilmiş otağa "Münderü" deyilirdi. Pəncərələri adətən ipək tüllə örtülü olmuşdur. İçərisi naxışlarla bəzədilmiş evlərə "Bedizliğ Ev" deyilirdi ki, bu evlər hədsiz çox yayılmışdır [11, s.55]. Ev bəzədilməsi sadəcə naxışlarla deyil, hələ də Anadoluda məşhur olan adətlərdə olduğu kimi, xalçalar, kilimlər, rəngli toxumalar, keçələrlə də edilirdi. Ev əşyası olaraq, üzərinə oturulan və ya yatılan, ipək parçalarla üzlənmiş döşəklərin içləri yunla doldurulurdu. Yorğan isə sadəcə yatarkən istifadə olunurdu. Yastıqların kənarına güpur işlənilirdi.

İşıqlandırma vasitəsi kimi çox evlərdə yağla istifadə edilən çıraqlardan işlədilsə də, bəzi evlərdə "Tünğşü" adlandırılan şamdanlardan da istifadə edilirdi.

Ədəbiyyat siyahısı:

1. *Arnold, W.T. The Library of A.Chester Beauty, London, 1936, s.12-45*
2. *Aslanapa,O. Kırım ve Kuzey Azərbaycanda Türk əsərləri, İstanbul, 1979, s.88-112*
3. *Genç R. Karahanlı Devlet Teşkilatı. İstanbul, 1981, 373 s.*
4. *Konukçu E.Hindistanda Türk Devletler. Doğuştan günümüze büyük İslam tarihi, C.IX, İstanbul, 1989, 620 s.*
5. *Köymen M.A. Büyük Selcuklu Tarihi. Ankara, 1954, 374 s.*
6. *Mahmud Qaşqari. Divan-ı Lüğət-it Türk. İstanbul, 1939-1941,C I-III, 520 s.*
7. *Merçil E. Gazneliler Devleti Tarihi. Ankara, 1987, 148 s.*
8. *Merçil E. Müslüman-Türk Devletleri Tarihi. Ankara, 1993, 377 s.*
9. *Nizam-ül Mülk. Siyasətnamə. Çıraq nəşriyyat, 2008, 273 s.*
10. *Ocak A.Y. Danişmendname, Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi, VII-478-480*
11. *Ögel S. Anadolu Selcuklu sanatıüzerine görüşler. İstanbul, 1986, s.45-78*
12. *Sümer F. Oğuzlar. Ankara, 1967, 521 s.*
13. *Süslü Ö. Tasvirlere göre Anadolu Selçuklu Kıyafetleri. Ankara, 1989, s.15-40*
14. *Yıldız H.D. İslamiyyet ve Türkler. İstanbul, 1976, s.40-75*
15. *Balasaqunlu Y. Qutadqu Bilik. Bakı, 1994, 491 s.*
16. *Wilber D. The Architecture of İslamic İran, The II Khanid Period. Princeton, 1956, s.200-234*

QACARLAR DÖVRÜNDƏ DEMOKRATİK HAQLAR UĞRUNDA MÜBARİZƏ: MİRZƏ YUSİF XAN TƏBRİZİ NÜMUNƏSİ

Əli Fərhadov
Milli Azərbaycan Tarixi Muzeyi, tarix üzrə fəlsəfə doktoru, dosent
ali_farhadov@yahoo.com

Açar sözlər: *Mirzə Yusif xan Təbrizi, Qacarlar, şah rejimi, konstitusiya*
Keywords: *Mirza Yousuf Khan Tabrizi, Qajars, Shah regime, Constitution*

XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda və Cənubi Azərbaycanda Qacar şah rejiminə qarşı xalq azadlıq hərəkatı vüsət almışdır. Bu dövrdə babilik və bəhailik hərəkatının xadimləri ilə bərabər, azərbaycanlı müsəlman mütəfəkkirləri - C.Əfqani, M.Ə.Talıbov, Z.Marağayi kimi ziyalılar islami, demokratik ideyaları və maarifçiliyi yayırdılar. Onlar Qacar şah rejiminə və xüsusilə şahpərəst mürtəce din xadimlərinə qarşı mübarizədə mühüm rol oynamışdılar. XIX əsrdə babilər və bəhailərin din azadlığı uğrunda mücadiləsi, daha sonra C.Əfqaninin tütün qiyamında Nəsrəddin şah rejiminə və Qərb imperializminə qarşı mübarizəsi, islam vəhdəti və islam birliyi siyasəti, daha sonra M.F.Axundzadə, Mirzə Mülküm xan, M.Ə.Talıbov, Z.Marağayi kimi ziyalıların müstəbid Qacar məmurlarına qarşı maarifçi fəaliyyətləri, yazdıqları əsərlər millidini maarifçiliyə böyük xidmət etdi. Onlar müsəlman dünyasında despotizmə, korrupsiyaya və dini fanatizmə qarşı mübarizədə böyük rol oynadılar. Onların əsərləri konstitusiya inqilabı və maarifçilik kimi bir çox mövzuda mühüm töhfələr vermişdir. C.Əfqani, M.Ə.Talıbov, Z.Marağayi kimi mütəfəkkirlərin yaradıcılığı və fəaliyyətləri XX əsrin əvvəllərində İran və Azərbaycan xalqlarının məşrutə inqilabı, demokratik azadlıqlar, konstitusiya quruculuğu və ictimai-siyasi, mədəni inkişafı üçün böyük töhfə vermişdir. Belə mütəfəkkirlərdən biri də təbrizli mütəfəkkir Mirzə Yusif xan Müstəşarüddövlə Təbrizidir (1823-1895).

Mirzə Yusif xan Təbrizdə tacir ailəsində anadan olmuş, mükəmməl dini-dünyəvi təhsil almış, daha sonra Təbrizdəki Britaniya konsulluğunda katib kimi çalışmağa başlamışdır. Xarici İşlər Nazirliyində xidmətə başlayan Mirzə Yusif xan Qacar dövlətinin Həştərxanda, Tiflisdə, Parisdə diplomatik nümayəndəsi və ədliyyə naziri kimi fəaliyyət göstərmişdir. O, İranın ictimai-siyasi problemlərini dilə gətirən və həll etməyə çalışan görkəmli maarifçi idi. Mirzə Yusif xan İranda konstitusiya və demokratik ideyaları, din xadimlərinin siyasətə qarışmaması gərəkdiyini irəli sürən ilk mütəfəkkir idi [15, c.5, 31]. O, "Yek kəlmə" ("Bir kəlmə") əsərində konstitusiya tələbini irəli sürmüş, "Əxtər" qəzetində İrandakı istibdad rejimini tənqid edən məqalələr yazmışdı. O, vəliəhd Müzəffərəddin Mirzəyə və Nəsrəddin şaha belə yazırdı: "Nə qədər ki, İranda zülm və şəxsiyyət məhrumiyyəti hökm sürür, İran tərəqqi və əmin-amanlıqdan çox uzaq olacaq və ayaqlarda sürünəcək. İranda qanun hökm sürməli, hamı bu qanuna tabe olmalıdır, insanlar qanun qarşısında bərabər olmalıdır. Qanun qarşısında şah və gəda bərabərdir" [6, s.338-339].

Mirzə Yusif xan "Yek kəlmə" əsərində 1789-cu il tarixli fransız dilində olan "İnsan və vətəndaş hüquqları haqqında bəyannamə"sinin farsca tərcüməsini vermiş, dövlətin əsasının milli iradə olduğunu bildirmişdi [10, s.72]. Din azadlığını müdafiə edən Mirzə Yusif xan fiqhdə (islam hüququ) qeyri-müsəlmanlar və müsəlmanlar üçün fərqli hökmlər qoyulmasını tənqid etmiş, bütün vətəndaşları bərabər hüquqlu sayan fransız qanunları üstün saymışdır [13, s.31]. Burada mütəfəkkirin dünyəvi qanunları şəriətin üzərində saydığı məlum olur [15, c.30]. Lakin islam hüququna görə müsəlmanlarla qeyri-müsəlmanlar vergi, nikah, ibadət, seçki və s. hüquqi məsələlərdə şəriət qarşısında bərabər ola bilməzdilər [9, s.418-427]. "Bu iki tayfanın (kafirlərin və möminlərin) vəziyyəti korla karın, görənlə eşidənin vəziyyəti kimidir. Onlar eyni ola bilərlərmi?" [8, s.189] deyən Quranın "Hud" surəsinin 24-cü ayətində, "Kitab əhlindən haqq dini (islamı) qəbul etməyənlərlə cizyə verincəyə qədər vuruşun" [8, s.161] deyən "Tövbə" surəsinin 29-cu ayətində və s. ayətlərdə bunun əsasları qoyulmuşdur. Mirzə Yusif xan Avropa ölkələrinin İrandan üstünlüyünün səbəbini konstitusiyada görmüş, şəriətin bunu əmr etdiyini bildirmişdir. Ona görə ölkə bir nəfərin - hökmdar və ya müctəhidin arzu və istəkləri ilə deyil, xalqın seçdiyi nümayəndələr vasitəsilə idarə edilməlidir. O, bu fikirlərini sübut üçün hədis və Quran ayələrindən nümunələr vermiş, Quranın "Şura" prinsipinin buna işarə etdiyini göstərmişdir. Mütəfəkkirin bu fikirləri XX əsrin əvvəlində məşrutəni dəstəkləyən mütərəqqi ruhanilərin və digər ziyalıların əsas dayaq nöqtəsi olmuşdur [14, s.84, 86, 88]. Vəliəhd Müzəffərəddin Mirzəyə - "İranı qanunlar deyil, saraydakıların arzuları idarə edir" [7, s.64] deyən Mirzə Yusif xan illərlə həbs və sürgün həyatı yaşamış, 1895-ci ildə Qəzvin həbsxanasında ölmüşdü [6, s.341; 12, s.234-235]. M.F.Axundzadə Mirzə Yusif xanın "Yek kəlmə" əsərini yüksək qiymətləndirmiş, lakin onun "ölmüş millət üçün" yazıldığını göstərmişdir. Fətəli Şah Qacarın oğlu Cəlaləddin Mirzə Mirzə Yusif Təbriziyə yüksək dəyər vermiş və belə demişdir: "Əgər İranda beş nəfər ağıllı adam olarsa, onlardan biri sizsiniz və əgər iki nəfər olsa, yenə də biri sizsiniz" [6, s.340].

O, Azərbaycan filosofu Mirzə Fətəli Axundzadənin maarifçi fikirlərini, əlifba islahatını müdafiə etmiş, lakin əlifba islahatından əvvəl İranın daha mühüm problemlərinin olduğunu qeyd etmişdi. Mirzə Yusif xan 1869-cu ildə M.F.Axundzadəyə yazdığı məktubda Parisdə şərqşünas Mirzə Kazımbəylə görüşdüyünü və Axundzadənin yaratdığı yeni əlifba nümunəsini ona verdiyini qeyd edir, bildirirdi ki, Mirzə Kazımbəy - "Bərəkallah, Kəmalüddövlə!" deyərək, "Kəmalüddövlə məktubları"nı yüksək qiymətləndirib. Lakin Mirzə Yusif xan islama qarşı xristianlığın və babiliyin təbliğini apardığı üçün şərqşünas Mirzə Kazımbəyi tənqid etmiş, onun bu mövqeyini "lovğalıq və təkəbbürlülük" adlandırmışdı [16, c.115]. Mirzə Kazımbəy mövzunun obyektiv tədqiqi üçün tərəfkeşlik etmədiyini, tənqidlərində həqiqəti ifadə etdiyini bildirmişdi [16, c.69].

M.F.Axundzadə Mirzə Yusif xana məktublarında İranın məhkəmə sistemini tənqid edir, qeyd edirdi ki, İranda ədalətin təmini üçün şiə ruhaniləri məhkəmə sistemindən uzaqlaşdırılmalıdır. O, bu xüsusda Qafqaz şeyxülislamı Əhməd Salyaninin Mirzə Yusif xana salamlarını və dəstəyini bildirirdi [2, s.253, 255]. Lakin M.F.Axundzadə şiə

fiqhi ilə Avropa hüquq sistemini sintez etməyə çalışan Mirzə Yusif xanı tənqid edir və hüquq sahəsində dinin rədd edilməsini tövsiyə edirdi [3, s.186-190].

M.F.Axundzadə göstərirdi ki, "zalim molla və vaiz"dən qaynaqlanan dini problemləri, cahilliyi, məzhəbçiliyi yox etmək üçün "Kəmalüddövlə məktubları" İranda geniş yayılmalıdır [2, s.270]. M.F.Axundzadə "Tənqidi qeydlər" adlı məqaləsində zalım şahların şəxsiyyətini və mənfur hərəkətlərini mədh edən İran saray tarixçilərini tənqid etmişdi [4, s.290]. Mütəfəkkir əsərlərinin İranda və ya Hindistanda nəşri üçün Mirzə Yusif xandan kömək istəyir, zərdüştilərin Tehrandakı rəhbəri Manukçi Sahibin ona kömək edəcəyini bildirirdi [2, s.252-253]. M.Tərbiyət qeyd edir ki, Mirzə Yusif xanın 1885-ci ildə nəşr olunmuş "İslahi-xətti-islam" ("Müsəlman yazısının islah edilməsi") adlı əsəri olub. "Əxtər" qəzetinin 1879-cu il 22-ci nömrəsində Mirzə Yusif xanın əlifba islahatı haqqında məlumat verilmiş, bu islahatın avropalıları təqlid deyil, müsəlmanları inkişaf məqsədi güddüyü bildirilmişdi [11, s.6, 342; 12, s.32].

Nəsrəddin şah ilk Avropa səyahətindən sonra bir bəyannamə nəşr edərək təbəənin can və malının toxunulmazlığını elan etdi. Lakin səyahətdən sonrakı ilk günlərində onu əyləndirməyə çalışan təlxəyinin başını hamının gözü önündə kəsdirdi. Şahın nazirlərə nəzarət üçün təsis etdiyi Dövlət Şurası qurulduğu gündən "xamuşan" (səssizlər-Ə.F.) ləqəbini daşıyırdı. Heç kimdə etiraz etmək qüdrəti yox idi [1, s.134-135]. Mirzə Yusif xanın şah rejimini tənqid və konstitusiya üsul-idarəsini müdafiə etdiyi "Yek kəlmə" kitabı müəllifin başına dəfələrlə vurularaq kor edilmiş, mütəfəkkir işgəncələrə məruz qalmışdır [7, s.65]. Şahpərəst alim və şairlər isə "padşah - Allahın yerdəki kölgəsidir, əgər o, adildirsə, onun salamatlığı üçün, əgər zalım isə onun islahı üçün dua etmək lazımdır" deyərək, şaha qeyd-şərtsiz itaətkarlığı təbliğ edirdilər [5, s.368; 11, s.380].

Nəticə olaraq deyə bilərik ki, Mirzə Yusif xan Müstəşarüddövlə Təbrizinin fəaliyyəti, onun qanunun aliliyi, vətəndaş bərabərliyi və dünyəvilik mövzusundakı ideyaları İran və Azərbaycan cəmiyyətində demokratik mühiti formalaşdırmış, C.Əfqani, Mirzə Mülküm xan, M.Ə.Talıbov, Z.Marağayi kimi mütəfəkkirlərin mübarizəsi ilə birlikdə şah despotizminə qarşı məşrutə inqilabının əsasını qoymuşdur. Onların mübarizəsi, regionda ictimai-siyasi və mədəni inkişaf üçün zəruri olan demokratik proseslərin təməlini qoydu.

Ədəbiyyat siyahısı:

1. Ağaoğlu, Ə. Seçilmiş əsərləri / tərt. ed. V.Quliyev, Ə.Mirəhmədov. Bakı: Şərq-Qərb, 2007, 392 s.

2. Axundzadə, M.F. Əsərləri, 3 cilddə, II cild, / tərt. ed. H.Məmmədzadə. Bakı: Şərq-Qərb, 2005, 376 s.

3. Algar, H. Ahundzade Mirza Feth Ali // TDV İslam Ansiklopedisi, II cild. İstanbul: TDV yay., 1989, s.186-190.

4. Azərbaycan tarixi: (7 cilddə). IV cild / məsul red. M.İsmayılov. Bakı: Elm, 2007, 552 s.

5. Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917), I cild / məsul red: S.Bayramzadə. Bakı: Elm, 2021, 416 s.

6. Həsənzadə, T. XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər: Mehdi Bamdadın "Tarixi-ricali-İran" əsəri əsasında. Bakı: Nurlan, 2007, 320 s.

7. Kabiri, S. İran modernleşmesi bağlamında sosyolojinin doğuşu ve kurumlaşması. İstanbul: İstanbul Üniversitesi yay., 2019, 307 s.

8. Qur`ani-Kərim / tərc. ed. Z.Bünyadov, V.Məmmədəliyev. Bakı: Azərnəşr, 1992, 719 s.
9. Özel, A. Gayri müslim // TDV İslam Ansiklopedisi:, XIII cild. İstanbul: TDV yay., 1996, s.418-427.
10. Tabriz, A.A. Aydınların, dini liderler ve esnafın İranın yakın dönem toplumsal hareketlerindeki ve devrimlerindeki rollerinin incelenmesi. Ankara: Ankara Üniversitesi yay., 2004, 256 s.
11. Tərbiyət, M. Daneşməndan-e Azərbaycan. Tehran, 1314, 414 s.
12. Tərbiyət, M. Danişməndani-Azərbaycan. Bakı: Azərnəşr, 1967, 464 s.
13. Tığlı, A. İranda yenilikçi dini düşünce hareketi. İstanbul: İstanbul Üniversitesi yay., 2012, 319 s.
14. Uyar, M. İranda modernleşme ve din adamları. İstanbul: Emre yay., 2008, 331 s.
15. Бабаева, Н.Р. Из истории общественно-политической мысли Южного Азербайджана (последняя четверть XIX - начало XX в.). Баку: Иршад, 1995, 43 с.
16. Рзаев, А.К. Мухаммед Али Мирза Казем-Бек. Москва: Наука, 1989, 199 с.

44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNİN ÜMUMTÜRK TARİXİ VƏ REGİONAL ƏHƏMİYYƏTİ

Türkan Qurbanova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Xüsusi təhsil" kafedrasının müəllimi
turkan.qurbanova@adpu.edu.az;
orcid kod 0009-0009-2661-6667

Açar sözlər: *zəfər günü, silahlı qüvvələr, milli və beynəlxalq diplomatiya, strateji zəmin, qələbə*
Keywords: *Victory Day, armed forces, national and international diplomacy, strategic background, victory*

2020-ci ilin sentyabr-noyabr aylarında baş vermiş 44 günlük Vətən müharibəsi Azərbaycan tarixində və ümumtürk tarixində dönüş nöqtəsi hesab olunur. Müharibə nəticəsində Ermənistan tərəfindən işğal edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqları azad edilmiş, Azərbaycanın ərazi bütövlüyü bərpa edilmişdir. Bu qələbə yalnız hərbi və siyasi uğur deyil, həm də Türk dünyasında milli həmrəylik və ortaq tarixi irsin qorunması baxımından strateji hadisədir. Müharibə, regionda sülh və sabitliyin təmin olunması, milli və beynəlxalq diplomatiya sahəsində Azərbaycanın mövqeyinin güclənməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

44 günlük müharibə Azərbaycanın milli tarixində əlamətdar bir mərhələdir. Bu qələbə nəticəsində işğal altında olan ərazilər azad edilmiş, ərazi bütövlüyü bərpa olunmuşdur. Qarabağın və Şərqi Zəngəzurun azad olunması Azərbaycan xalqının dövlətçilik ənənələrinin qorunması və milli kimliyin güclənməsi baxımından mühüm hadisədir. Azərbaycanın əldə etdiyi bu uğur, Türk dünyasında digər dövlətlər üçün də nümunə olmuşdur. Müharibə, həm də Türk xalqlarının ortaq tarixi və mədəni dəyərlərinin qorunmasının vacibliyini nümayiş etdirmişdir.Müharibə zamanı Azərbaycan Silahlı Qüvvələri yüksək hərbi hazırlığı və düzgün taktiki qərarları ilə fərqlənmişdir. Əməliyyatlar koordinasiyalı şəkildə aparılmış, strateji yüksəkliklər və mühüm şəhər və kəndlər qısa müddət ərzində azad edilmişdir. Hərbi əməliyyatların uğuru yalnız texnologiya və silah vasitələrinin effektivliyindən deyil, həm də komandir heyətinin peşəkarlığı və əsgərlərin yüksək motivasiyasından qaynaqlan-

mışdır. Bu uğurlar Azərbaycanın gələcək hərbi strategiyalarının planlanmasında nümunə olacaqdır. Müharibənin diplomatik nəticələri geniş miqyasda hiss olunmuşdur. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT və Avropa İttifaqı münaqişəyə diqqət yetirmiş və Azərbaycanın haqq işinə dəstək vermişdir. Türk Dövlətləri Təşkilatı (TDT) və digər türk dövlətləri Azərbaycanın haqlı mövqeyini dəstəkləyərək, bölgədə ortaq təhlükələrə qarşı birgə mövqe nümayiş etdirmişdir. Azərbaycanın qələbəsi diplomatik səviyyədə regionda sabitliyin qorunmasına xidmət etmiş və beynəlxalq hüququn bərpası baxımından əhəmiyyətli addım olmuşdur. Həmçinin müharibə nəticəsində Ermənistanın işğalçı siyasətinin beynəlxalq səviyyədə ifşa olunması, diplomatik və iqtisadi sahədə Azərbaycanın mövqeyinin güclənməsi üçün strateji zəmindir [1, s.19].

Azad edilmiş ərazilərdə mədəni irsin qorunması, tarixi abidələrin bərpası və muzeylərin yenidən fəaliyyətə başlaması prioritetdir. Bu tədbirlər milli yaddaşın qorunmasına və gələcək nəsillərə ötürülməsinə xidmət edir. Mədəni bərpa layihələri yalnız yerli əhalinin həyat səviyyəsini artırmaqla kifayətlənmir, həm də Türk dünyasında ortaq mədəni dəyərlərin qorunmasını təmin edir. Elmi sahədə isə müharibə, tarixi sənədlərin, faktların və hərbi əməliyyatların öyrənilməsi üçün yeni tədqiqat imkanları yaratmışdır. Tarixçilər, politoloqlar və sosioloqlar üçün bu məlumatlar Türk dünyasının ortaq tarixinin öyrənilməsinə töhfə verir və gələcək akademik işlər üçün zəngin mənbə təmin edir [2, s.9-10].

44 günlük müharibə regionda təhlükəsizlik və strateji balansın bərpasında mühüm rol oynamışdır. Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə həyata keçirilən infrastruktur və sosial layihələr bölgədə davamlı sabitliyin qorunmasına xidmət edir. Strateji yüksəkliklərin və kommunikasiya xətlərinin ələ keçirilməsi, təhlükəsizlik zonasının yaradılması regionda potensial münaqişələrin qarşısını alır. Eyni zamanda, bu uğurlar digər Türk dövlətləri üçün nümunə olmuş, regionda hərbi və diplomatik əməkdaşlığın möhkəmlənməsinə şərait yaratmışdır. Gələcəkdə bu ərazilərin inkişafı və inteqrasiya layihələri regional sabitliyi gücləndirəcək və ümumtürk həmrəyliyini daha da möhkəmləndirəcəkdir.

Oktyabrın 28-dən noyabrın 7-dək olan müddətdə 53 kəndi və bir neçə strateji yüksəkliyi azad edən Azərbaycan Ordusunun növbəti hədəfi qədim Şuşa şəhəri idi. Qəhrəman ordumuz Azərbaycanın və dünya hərb tarixinin şanlı səhifələrindən birini təşkil edən çətin Şuşa əməliyyatını uğurla başa çatdıraraq bu şəhəri işğaldan azad etdi. Belə ki, ərazinin və seçilən marşrutun nəqliyyat vasitələri üçün uyğun olmaması, eləcə də düşmənin gözləmədiyi istiqamətdən zərbə endirilməsi üçün Azərbaycan Ordusunun komandanlığı cəsarətli qərar qəbul etdi. Qəhrəman əsgər və zabitlərimiz Şuşaya Qarabağın sıx meşələrində onlarla kilometr uzunluğunda yeni yol açdı. Sonradan Müzəffər Ali Baş Komandanımız tərəfindən Zəfər yolu adlandırılacaq bu yolla hərəkət edən Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri Şuşanın sıldırım qayalarına dırmaşaraq, yaralı döyüş yoldaşlarını çiyinlərində daşıyaraq bir neçə istiqamətdən şəhərə daxil oldular. İşğaldan azad edilmiş Daşaltı kəndindəki hərbi bölmələrin atəş dəstəyi ilə Azərbaycan Ordusunun dağ piyadaları qəfil pusquya salınmış erməni əsgərlərinin sonuncu müqavimətini də qırdı [3, s.21-22].

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızın otuz ilə yaxın həsrətlə gözlədiyi bu şad xəbəri Azərbaycan vətəndaşlarına noyabrın 8-də sübh tezdən Şəhidlər xiyabanından çatdırdı: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq... Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" [1].

Şuşanın azad edilməsi Ermənistan ordusunun müqavimət gücünü tamamilə sarsıtdı. Nəticədə bu əməliyyatdan bir gün sonra – noyabrın 9-da Azərbaycan Ordusu daha 71 kəndi, bir qəsəbəni və 8 strateji yüksəkliyi düşməndən təmizlədi. Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək ümumilikdə 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Bu, dünyanın müasir hərb tarixində misli görünməmiş uğurlu hərbi əməliyyat idi. Ermənistan ordusu demək olar ki, məhv edildi, düşmənin 3,8 milyard dollarlıq silah-sursatı sıradan çıxarıldı.

44 günlük müharibə Türk dünyasında milli həmrəylik və ortaq mədəniyyətin qorunmasının simvolu kimi dəyərləndirilir. Müharibənin nəticələri gələcək nəsillər üçün dövlətçilik və milli iradə dərsi olacaqdır. Azad edilmiş ərazilərdə aparılan bərpa və inkişaf işləri, sosial və mədəni layihələr türk dövlətləri arasında inteqrasiyanın güclənməsinə şərait yaradır. Bu hadisə həm də beynəlxalq səviyyədə türk dünyasının ortaq tarix və mədəniyyətini ön plana çıxarır. Gələcək nəsillər üçün 44 günlük Vətən müharibəsi həm qürur mənbəyi, həm də milli və ümumtürk həmrəyliyinin simvolu olaraq yadda qalacaqdır [4].

44 günlük Vətən müharibəsi yalnız Azərbaycanın tarixi qələbəsi deyil, həm də türk dünyasının ortaq tarixinin möhkəmlənməsi, regionda davamlı sülhün təmin olunması və gələcək nəsillərə milli həmrəyliyin simvolu kimi tarixi hadisədir. Qələbə, Türk dünyasında ortaq tarix və mədəni irsin qorunması baxımından fundamental əhəmiyyət daşıyır. Həm hərbi, həm diplomatik, həm də mədəni sahələrdə əldə olunan uğurlar gələcək nəsillərə örnək olacaqdır.

Ədəbiyyat siyahısı:

1. Əliyev İ. 44 günlük Vətən müharibəsi: siyasi və hərbi nəticələr. Bakı: Elm nəşriyyatı, 2021

2. Məmmədov R. Qarabağın azad olunması və Türk dünyası. Bakı: Tarix İnstitutu nəşriyyatı, 2022, 444 s.

3. Həsənov F. Türk dünyasında regional təhlükəsizlik və əməkdaşlıq. Bakı: Qanun nəşriyyatı, 2023

4.Azərbaycan Respublikasının Müdafiə Nazirliyi. "44 günlük Vətən müharibəsi haqqında məlumatlar". https://mod.gov.az/az, 10.01.2025

HUN İMPERİYASININ CƏNUB-ŞƏRQİ AVROPADA ETNO-SİYASİ TƏSİRİ: ROMA–HUN QARŞIDURMASI VƏ AVROPANIN YENİ ETNİK XƏRİTƏSİNİN FORMALAŞMASI

Saida İsmayılzadə
Gəncə Dövlət Universitetinin "Ümumi tarix" kafedrasının müəllimi,
tarix üzrə fəlsəfə doktoru, dosent
ORCID: 0000-0002-2877-8944;
saida.ismailzade@mail.ru

Açar sözlər: *Alanlar, Avarlar, Atilla, Bulqarlar, Qəvimlər Köçü*
Keywords: *Alans, Attila, Avars, Bulgars, Great Migration*

IV–V əsrlərdə Avrasiyada baş verən "Qəvimlər köçü" qitənin demoqrafik və siyasi xəritəsini dəyişdirən əsas proseslərdən biri idi. Bu dalğanın ən mühüm səbəblərindən biri Hun tayfa ittifaqlarının Qara dənizin şimalından Avropanın mərkəzinə doğru irəliləməsi olmuşdur ki, bu da Roma imperiyasının zəifləməsini sürətləndirmişdir [6, s.112; 7, s.29].

Hunların Avropaya daxil olması Alan, Ostroqoqlar və Vizigotların öz yurdlarını tərk etməsinə, Roma sərhədlərinə yönəlməsinə və Qərbi Roma imperiyasında hərbi-siyasi böhranın dərinləşməsinə səbəb oldu. Grousset yazır ki, hun yürüşləri Avropanın etnik xəritəsini dəyişərək yeni siyasi güclərin yaranmasına şərait yaratdı [6, s.87–90]. Heather isə Hun təzyiqinin Roma daxilində hərbi, iqtisadi və psixoloji böhran yaratdığını göstərir [7, s. 28–31].

Qəvimlər köçü həm də etnoslar arasında təmasları artıran, mədəni inteqrasiya və yeni siyasi birliklərin formalaşmasına imkan yaradan proses idi. Hunların diplomatik strategiyası, vergi sistemi və federativ modeli həm Avropa dövlətçiliyinə, həm də sonrakı türk mənşəli siyasi qurumlara təsir etmişdir [5, s.74–76; 11, s.46].

Atilla dövrü Hun imperiyasının ən güclü mərhələsi sayılır. Onun Balkan, Pannoniya və Qalye yürüşləri Avropanın siyasi tarazlığını dəyişdirmiş, Roma ilə münasibətlərin yeni mərhələsini yaratmış və german-slavyan tayfalarının məskunlaşma arealına təsir göstərmişdir [12, s.78–82; 14, s.19–22].

Hunların ilk böyük irəliləyişi IV əsrin sonunda alanlarla toqquşma ilə başladı. Hun süvarilərinin üstünlüyü alanlari tabe olmağa və ya Qərbə çəkilməyə məcbur etdi [6, s.91–96]. Bu, german tayfalarının migrasiya zəncirini də hərəkətə gətirdi. Ostroqoqlar hun hakimiyyətinə tabe oldular [7, s.30–33], Vizigotların 376-cı ildə Roma sərhədini keçməsi isə Avropa tarixində dönüş nöqtəsi oldu [4, s.79].

Hunların Kiçik Asiyadan Qara dəniz çöllərinə doğru hərəkəti domino effekti yaradaraq Avropanın siyasi sistemini silkələdi və Qərbi Romanın dağılma prosesini sürətləndirdi [16, s.4–7]. Artamonov qeyd edir ki, Hun təzyiqi olmasaydı german tayfalarının bu qədər genişmiqyaslı hərəkəti mümkün olmazdı [1, s.211–214]. Musset isə Qəvimlər köçünü Avropada orta əsrlərə keçidi sürətləndirən əsas mexanizm adlandırır [10, s.3–5].

Hun təzyiqi Roma imperiyasını dörd əsas istiqamətdə zəiflətdi:

1. **Hərbi çöküş:** legionların german federatları ilə əvəzlənməsi [4, s.81–84].
2. **İqtisadi asılılıq:** Şərqi Romanın hunlara ödədiyi yüksək vergi [6, s.104].
3. **Siyasi legitimlik itkisi:** təhlükələr qarşısında acizlik.
4. **Etnik balansın pozulması:** german tayfalarının məskunlaşması romanizasiyanı zəiflətdi.

Sinorun sözləri ilə: Hunların Avropaya gəlişi Roma çöküşünü "təbii ritmdən qat-qat sürətləndirən katalizator" idi [14, s.17].

Beləliklə, Hunların fəaliyyəti Qərbi Roma imperiyasının dağılmasını, german krallıqlarının yaranmasını və Avropada orta əsr dövlətçilik modelinin formalaşmasını müəyyən edən həlledici faktor olmuşdur.

- **Roma–Hun münasibətləri: qarşıdurma və diplomatiya.** Roma–Hun münasibətləri həm hərbi, həm də diplomatik xətt üzrə formalaşırdı. Hunların Avropada real siyasi güc kimi tanınması Uldızın Balkan yürüşləri ilə başladı; bu yürüşlər Roma üçün ciddi təhlükə yaratdı [7, s.28–29]. Rua dövründə Hun dövləti mərkəzləşərək federativ xarakter aldı və Roma ilə münasibətlərdə sistemli vergi siyasəti tətbiq olundu [6, s.102–103].

Atilla dövrü bu münasibətlərin ən gərgin mərhələsidir. O, həm sərkərdə, həm də diplomatik lider kimi Hun imperiyasını Avropanın əsas siyasi gücünə çevirdi [7, s.30–33]. Hun–Roma qarşıdurması təkcə yürüşlərlə deyil, Roma ordusunun müdafiə zəifliyini üzə çıxaran ardıcıl Balkan kampaniyaları ilə səciyyələnirdi [6, s.104–106]. Qalye (451) və İtaliya (452) yürüşləri Romada geniş psixoloji sarsıntı yaratdı və imperiyanın müdafiə imkanlarının tükəndiyini göstərdi [4, s.88–91].

Bu qarşıdurmalar nəticəsində Roma əyalətlərində vergi yığımı çətinləşdi, hərbi xərclər artdı, əhali köç etməyə başladı və siyasi sabitlik pozuldu [14, s.17–19]. Hun diplomatiyası əsasən iki üsula əsaslanırdı: güc nümayişi və iqtisadi təzyiq. Şərqi Roma Hunlara ödədiyi vergini Rua dövründən Atilla dövrünə qədər iki dəfədən çox artırmışdı [6, s. 103].

Diplomatik sistem üç prinsip üzərində qurulurdu:

1. Təhdid – danışıqlar – güzəşt modeli;
2. müqavilələrin ciddi nəzarətdə saxlanılması;
3. geniş elçilər şəbəkəsi [12, s.79–80].

Atillanın adı Romada təkcə hərbi təhlükə deyil, həm də siyasi alternativ kimi qəbul edilir, onun fəaliyyəti Roma cəmiyyətində psixoloji təzyiq yaradırdı [7, s.31].

Atilla dövründə siyasi yüksəliş. Atilla və Bleda dövründə Hun dövləti daha mərkəzləşmiş siyasi quruma çevrildi; 434-cü il Margus müqaviləsi Roma tərəfindən hunlara verilən ilk böyük güzəşt idi [6, s.103–104]. 445-ci ildən sonra Atilla tək hakim kimi imperiyanı ən güclü mərhələsinə gətirdi [7, s.30–31].

441–447-ci illərdə Balkan yürüşləri Şərqi Romanın müdafiə xəttini dağıtdı və imperiyanı yüksək vergi ödəməyə məcbur etdi [4, s.85–89; 6, s.104–107]. Bu dövrdə Ostroqoqlar və digər german tayfaları Hun hakimiyyətinə tabe olaraq Atillanın siyasi nüfuzunu artırdılar [11, s.49–52]. Atillanın Qalye (451) və İtaliya (452)

yürüşləri Avropanın siyasi tarazlığını dəyişdirən əsas hadisələr idi. Katalaun döyüşü Romanın son böyük səfərbərliyi sayılır [7, s.31–33], Aquileianın dağıdılması isə Roma sisteminin sarsıntısını açıq şəkildə göstərirdi [10, s.5–7].

Atilla dövrünün təsirləri belə ümumiləşdirilir:

1. Roma ordusunda struktur dəyişiklikləri — legionlar german federatları ilə əvəz olundu [4, s.81–82];
2. german tayfalarının yeni ərazilərə yönəlməsi sürətləndi [7, s.29–30];
3. Roma diplomatiyası hunlara asılı tərəf kimi davranmağa başladı [6, s.103];
4. Atilla Avropa yaddaşında mərkəzi hakimiyyət simvoluna çevrildi [12, s.472].

Nəticədə Atilla dövrü Hun imperiyasının ən yüksək güc mərhələsi olaraq Avropanın siyasi xəritəsini yenidən formalaşdırdı.

- **Hun dövlətinin etno-siyasi mirası.** Hunların IV–V əsrlərdə Avropaya daxil olması qitənin etnik və siyasi xəritəsini köklü şəkildə dəyişdirdi. Hunların Qara dəniz bozkırlarından Balkanlara və Mərkəzi Avropaya irəliləməsi german və irandilli tayfaların genişmiqyaslı köçünə səbəb oldu və Avropada yeni etnik düzən formalaşdı. Vizigot, ostroqoqlar, vandallar və digər german tayfalarının yeni ərazilərə hərəkəti məhz hun təzyiqinin nəticəsi idi [7, s. 29–31]. Pohlun fikrincə, hun süvari hərbi modeli bu tayfaları həm hərbi, həm də siyasi baxımdan yenidən təşkilatlanmağa məcbur etmişdir [11, s.55–57].

Slavyan tayfaları Hun imperiyasının zəifləməsi ilə yaranan boşluqdan istifadə edərək V–VI əsrlərdə daha geniş məkanlara yayıldılar [10, s.6]. Alanlar isə hun yürüşləri nəticəsində iki qrupa bölündü: bir hissə un hakimiyyətində qaldı, digər hissə Qalaya və İspaniyaya çəkilərək vandallarla siyasi ittifaqlar qurdu [6, s.92–96].

Hunlardan sonra Avropada onların siyasi və mədəni ənənələrini davam etdirən bir sıra türkdilli dövlətlər meydana çıxdı. **Avar Kağanlığı** hun döyüş taktikası və federativ modelini qoruyaraq VI–VIII əsrlərdə bölgənin ən güclü siyasi qüvvəsinə çevrildi [11, s.112–118]. **Proto-Bulqarlar** hun-oğur elementli siyasi quruluş üzərində təşkilatlanmış və Avropada yeni türk dövlətçiliyinin əsasını qoymuşdular [3, s.35–45]. **Macarlar** da erkən dövrdə hun-oğur siyasi strukturlarından təsirlənmiş və Atillanı öz əcdadı kimi qəbul etmişdilər [13, s.78–83].

Atilla 453-cü ildə vəfat etdikdən sonra Hun dövləti daxili parçalanma ilə üzləşdi; Ellak, Dengizix və Ernax arasında vahid idarəetmə mümkün olmadı [5, s.155–158]. 455–469-cu illərdə Gepidlər, Ostroqoqlar və digər german tayfaları müstəqillik qazanaraq Hun konfederasiyasının dağılmasına səbəb oldular [7, s.31–33]. Bunun ardınca bölgədə etnik konsolidasiya baş verdi: türkdilli qruplar kiçik birliklərə parçalandı, german tayfaları yeni krallıqlar yaratdı, slavyanlar isə Balkanlarda geniş yayıldı [10, s.5–7].

Hunların Avropada buraxdığı izlər yalnız siyasi deyil, həm də mədəni və hərbi sahələrdə özünü göstərir. Pritsak yazır ki, hun-oğur elementləri avar, bolqar və macar maddi mədəniyyətində açıq izlər qoymuşdur [12, s.456–472]. Onların davamlı izləri əsasən dörd istiqamətdə görünür:

1. **Hərbi ənənələr:** süvari taktikası Avar, bulqar və macar ordularında davam etmişdir [11, s.120–125].

2. **Toponimlər:** Macarıstan, Bolqarıstan və Pannoniya bölgəsində türk mənşəli adlar qorunub saxlanmışdır.

3. **Maddi-mədəni davamlılıq:** dəfn adətləri, silah istehsalı və döyüş üslubu Avropa hun varislərində öz əksini tapmışdır [1, s.245–250].

4. **Etnik yaddaş:** Atilla və Hun dövləti macar və bolqar tarixi şüurunda "əcdad mirası" kimi qəbul edilir [13, s.89].

Beləliklə, Hun dövləti qısaömürlü imperiya kimi görünməsinə baxmayaraq, Avropanın uzunmüddətli etno-siyasi inkişafında həlledici rol oynamış və orta əsrlər Avropasının formalaşmasına dərin şəkildə təsir göstərmişdir.

Nəticə. Hunların Avropaya gəlişi sadəcə tarixin bir epizodu deyil, bütöv bir sivilizasiya modelinin Avrasiyanın qərb sərhədlərinə qədər uzanan təsirinin parlaq təcəssümüdür. Qəvimlər Köçünün başlatdığı böyük etnik dalğanın mərkəzində dayanmış Hun dövləti, qitənin siyasi coğrafiyasını yenidən şəkilləndirərək Roma kimi nəhəng imperiyanı müdafiə və legitimlik böhranına salmış, Avropanın etnik xəritəsini isə əsrlər boyu dəyişdirə bilməyəcəyi bir ritmə sürükləmişdir. Atillanın Balkanlardan Qalyaya, oradan İtaliyaya qədər uzanan yürüşləri Roma dünyasının son nəfəsini sürətləndirən, Avropa orta əsrlərinin səhifələrini açan simvolik bir keçid rolunu oynadı.

Hunların siyasi və hərbi gücü yalnız dağıdıcı xarakter daşımırdı; əksinə, onların diplomatik strategiyası, vergi mexanizmləri, tayfa ittifaqlarını vahid struktur altında birləşdirmə qabiliyyəti və mərkəzləşmiş idarəetmə forması Avropa siyasi düşüncəsinə yeni elementlər gətirdi. Hun dövlətçiliyi qitədə gələcək türk mənşəli siyasi qurumların – Avarların, bulqarların, macarların – formalaşması üçün zəmin yaratdı və bu siyasi varislər hun ənənəsini əsrlər boyunca yaşatmağa davam etdilər.

Bu gün Avropanın etno-mədəni mənzərəsində, maddi mədəniyyət nümunələrində, hərbi ənənələrdə və hətta bəzi xalq yaddaşlarında belə hunların izinə rast gəlmək mümkündür. Bu izlər göstərir ki, Hunlar yalnız keçmişdə qalmış "köçəri imperiya" deyil, Avropa tarixinin ən mühüm dönüş nöqtələrindən birini formalaşdıran, qitənin taleyini və inkişaf xəttini kəskin şəkildə dəyişdirən güclü tarixi amildir.

Beləliklə, Hun dövləti Avropanın siyasi nizamında tükənib yoxa çıxan bir dalğa kimi deyil, ardınca gələn əsrlərin dövlətçilik modellərinə, etnik proseslərinə və mədəni kimliklərinə yol açan sivilizasiya katalizatoru kimi dəyərləndirilməlidir. Bu məqalənin araşdırdığı dörd əsrlik tarixi dinamika bir daha sübut edir ki, hunların Avropadakı fəaliyyəti nə təkcə keçmişin tozlu xronikalarında, nə də mifoloji yaddaşda qalmış hadisədir – o, bu günün Avropasına qədər uzanan genişmiqyaslı bir tarixi mirasdır.

Ədəbiyyat siyahısı:

1. Артаманов, М. И. История хазар. Москва: Наука, 1962, 480 s.

2. Balint, Cs. "Avarların erkən tarixi və arxeologiyası." Acta Archaeologica Academiae Scientiarum Hungaricae, 1989, № 41, s. 45–78.

3. Beševliev, V. "Protobulqarların erkən tarixi haqqında qeydlər." Bulgarian Historical Review, 1970, № 2, s. 33–52.
4. Curta, F. "The Steppe Peoples and the Balkans (5th–7th centuries)." East Central Europe, 2014, № 41, s. 75–112.
5. Golden, P. B. An Introduction to the History of the Turkic Peoples. Wiesbaden: Harrassowitz, 1992, 483 s.
6. Grousset, R. The Empire of the Steppes: A History of Central Asia. New Brunswick: Rutgers University Press, 1970, 600 s.
7. Heather, P. "The Huns and the End of the Roman Empire." Journal of Roman Studies, 1995, № 85, s. 27–44.
8. Işıltan, F. Avrupa Hunları Tarihi. Ankara: Türk Tarih Kurumu, 1978, 310 s.
9. Казаков, Е. Р. "Археологические материалы по истории авар." Советская Археология, 1971, № 4, s. 15–37.
10. Musset, L. "The Germanic and Steppe Migrations." Past and Present, 1965, № 32, s. 3–26.
11. Pohl, W. The Avars: A Steppe Empire in Central Europe. Ithaca: Cornell University Press, 2018, 662 s.
12. Pritsak, O. "The Hunnic Language of the Attila Clan." Harvard Ukrainian Studies, 1982, № 6, s. 428–476.
13. Róna-Tas, A. Hungarians and Europe in the Early Middle Ages. Budapest: CEU Press, 1999, 532 s.
14. Sinor, D. "The Hun Period in the West." Journal of Asian History, 1977, № 11, s. 1–31.
Zimonyi, I. Muslim Sources on the Magyars in the Second Half of the 9t

TÜRK DÜNYASI VƏ HEYDƏR ƏLİYEV FENOMENİ

Nazim Məmmədov
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Qarabağ müharibəsinin tarixi və Böyük Qayıdış hərəkatı" şöbəsinin baş elmi işçisi, tarix elmləri doktoru, professor
mamedov-n@yahoo.com

Açar sözlər: *Heydər Əliyev, Azərbaycan, Türk dünyası, türk mədəniyyəti, TÜRKSOY*
Keywords: *Heydar Aliyev; Azerbaijan; Turkic world; Turkic culture; TURKSOY*

1990-cı illərdən sonra Rusiya Federasiyasında baş verən ictimai-siyasi dəyişikliklər həmin ölkədə olan türk dövlət qurumlarına bir sıra mühüm sahələrdə müstəqil fəaliyyət göstərmək imkanı yaratmışdır. Türk dünyası liderlərindən biri heydər Əliyev Türk dünyası birliyinin milli məsələlərdə əhəmiyyətini yüksək qiymətləndirərək Türk dünyası birliyinin yaradılması dövlətimizin milli strategiyasına çevirmişdir.

Türk dünyası birliyi diplomatiyanın vacib atributuna çevrilmişdir. Türk dünyası birliyinin təşkilatlanma prosesi Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ildən başlanmışdı. Onların 1990-cı və 1997-ci illərdə İstanbulda, 1997-ci ildə Loc-Ancelesdə və 1998-ci ildə Vaşinqtonda konqresləri baş tutmuşdur [1].

Heydər Əliyevin təşəbbüsü ilə xalqa aşılanırdı ki, o, böyük türk mədəniyyətinin, Nizami, Xaqani, İbn Sina, Qurbani, Xətai, Yunus İmrə, Nəsimi, Füzuli, Nəvai, Tusi, Bəhmənyar, Vaqif, Sabir, Şəhriyar və başqalarının varisidir. Türk dövlət və

toplumlarının dostluq və iş birliyinə, xüsusən mədəni əlaqələrin inkişafına həsr olunmuş toplantıları keçirilirdi [2, s.94].

1996-cı ilin oktyabrında "Türkiyə-Azərbaycan Dostluq Vəqfi" təsis edildi. 2001-ci ilin mart ayında Heydər Əliyevin Fərmanı ilə "Azərbaycan Atatürk Mərkəzi" yaradıldı. 1990-cı illərin ortalarında Asiya Mədəniyyət və İnkişaf İnstitutunun Azərbaycan filialı təşkil olundu. Onun Altay xalqları ilə əlaqə mərkəzi təsis edildi [3].

Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ilin noyabr ayında Bakıda Türk dünyası yazıçılarının III qurultayı keçirildi. Türkdilli xalqlar birlikdə "Manas dastanı"nın min illiyini, böyük qazax şairi və filosofu Abayın 150 illiyini, Özbəkistanın böyük dövlət xadimi Əmir Teymurun 660 illiyini, Füzulinin 500 illiyini, Şeyx Şamilin 200 illiyini geniş qeyd etdilər. 1997-ci ilin aprel ayında Prezident Heydər Əliyev Azərbaycan xalqının milli tarix və mədəniyyət qaynaqlarından biri olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyini geniş qeyd edilməsi haqqında Fərman verdi. Yubiley Türk dünyasında böyük təntənə ilə qeyd olundu [4].

Türk dünyasının dahi şəxsiyyəti Heydər Əliyevin 2001-ci il mayın 23-də Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi haqqında verdiyi sərəncamdan sonra Türk birliyinin yaradılması üçün ciddi təşkilatçılıq işlərinə start verildi. Heydər Əliyevin yuxarıda adıgedən sərəncama müvafiq olaraq 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I qurultayının keçirildi. Qurultayda 37 ölkədən gəlmiş 1105 nümayəndə, 906 nəfər qonaq iştirak edirdi [5, s.85].

Dünya siyasətçisi Heydər Əliyevin birbaşa rəhbərliyi ilə keçirilən milli tariximizdə yeni bir mərhələnin əsasını qoyan qurultay göstərdi ki, qüdrətli Azərbaycana gedən yol bütün azərbaycanlıların milli birliyindən keçir. Qurultay dünyanın müxtəlif qütblərinə səpələnmiş soydaşlarımızın bir araya gətirilməsi vəzifəsinin həyata keçirilməsi istiqamətində atılmış ilk ciddi və qəti bir addım idi. Heydər Əliyev minillik tariximizdə Dünya Azərbaycanlılarını ilk dəfə bir araya gətirən böyük dövlət xadimi oldu. Azərbaycan dövləti Dünya Azərbaycanlılarının I qurultayının tarixi qərarlarının əməli surətdə həyata keçirilməsi üçün bir sıra tədbirlər həyata keçirdi. Milli Məclis "Xaricdə yaşayan azərbaycanlılara münasibətdə Azərbaycan Respublikasının dövlət siyasəti haqqında" qanun qəbul etdi. 2002-ci il iyulun 5-də xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi yaradıldı. 2008-ci ildə isə bu quruma Diaspora ilə iş üzrə Dövlət Komitəsi adı verildi" [6].

Türk dünyasının yaranması əhəmiyyətini xüsusi olaraq qeyd edən Ümummilli lider Heydər Əliyev çıxışlarından birində demişdir: "Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr verməк iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoyulması türk dünyasının gələcəyinə işıqlı ümidlər yaradır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir".

Qurultay nümayəndələrin təşkil etdikləri "İnsan hüquqları və beynəlxalq əlaqələr", "Ermənistanın Azərbaycana təcavüzünün aradan qaldırılması", "Mədəniyyət", "Elm və təhsil", "Ana dili və Azərbaycanşünaslıq", "İqtisadi əlaqələr", "Gənclər və id-

man məsələləri", "Kütləvi informasiya vasitələri və informasiya mübadiləsi" komissarları tərəfindən hazırlanmış sənədlər əsasında qurultayda qətnamə, Bütün Dünya Azərbaycanlılarına Müraciət, Ermənistan və Azərbaycan Dağlıq Qarabağ problemi ilə əlaqədar dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət rəhbərlərinə və parlamentlərinə, Azərbaycan Respublikası Prezidenti cənab Heydər Əliyevə, habelə 2001-ci il sentyabrın 11-də ABŞ-da törədilmiş qanlı terror hadisəsi ilə bağlı Amerika xalqına müraciətlər qəbul edildi. Qurultayda "Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şurası" və onun idarə heyəti seçildi [7, s.182].

Türk xalqlarının ortaq mədəniyyətlərinin paritet əsaslarda birləşdirən bir qurumun yaradılması yola saldığımız əsrin sonlarına yaxın olduqca zəruri idi. Belə bir təşkilat Türk Mədəniyyətinin və İncəsənətinin Birgə İnkişafı üzrə Beynəlxalq Təşkilat (TÜRKSOY) oldu. TÜRKSOY-un əsası türkdilli dövlətlərin mədəniyyət nazirlərinin İstanbul (Türkiyə) görüşündə qoyulmuşdur. 1993-cü ildə təşkilatın 6 təsisçi və tamhüquqlu üzvü olan türk dövlətləri – Azərbaycan, Qazaxıstan, Türkmənistan, Türkiyə və Özbəkistan tərəfindən "TÜRKSOY-un yaradılması və fəaliyyət prinsipləri haqqında" müqavilə imzalandı [8]. TÜRKSOY-un əsas məqsəd və vəzifələri aşağıdakılardan ibarətdir: türkdilli ölkələr, xalqlar və icmalar arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişafı; türk xalqlarının mədəni dəyərlərinin tədqiqi, araşdırılması, qorunması və inkişaf etdirilməsi; onların dünya miqyasında təbliği; vahid mədəniyyət məkanının yaradılması, tarixi, siyasi və coğrafi şəraitlə bağlı problemlərin həlli; türk dünyasının ortaq mədəni dəyərlərinin, tarix, mədəniyyət və memarlıq abidələrinin təyin olunması, sistemləşdirilməsi, onların qorunması sahəsində tədbirlərin keçirilməsi; türk xalqlarının milli mədəniyyətinin inkişafı prosesinin sürətləndirilməsi, onların bədii unikallığının və özünəməxsusluğunun dirçəldilməsi və yeniləşdirilməsi; türk dil qruplarının dillərinin və əlifbalarının yaxınlaşması, latın qrafikasına və ümumi dil mühitinə keçirilməsi; türkdilli ölkələrin mədəniyyət və incəsənəti üzrə Beynəlxalq İnformasiya Mərkəzi və arxivinin yaradılması.

TÜRKSOY türkdilli ölkələrin mədəni əlaqələrinin inkişafında regional rəhbərliyi həyata keçirir. Birliyin bütün üzvlərinə dövlət strukturlarının siyasi yönümündən asılı olmayaraq mədəniyyət əməkdaşlığı üçün bərabər şərait yaradır. Fəaliyyət növünə, məqsəd və vəzifələrinə görə TÜRKSOY UNESCO strukturlarına yaxındır. Bu birlik artıq türkdilli ölkələrin ictimai-siyasi və mədəni həyatında özünü doğrultmuş bir qurumdur. TÜRKSOY çərçivəsində türkdilli ölkələrin mədəniyyət və incəsənət xadimlərinin iştirak etdiyi iri beynəlxalq tədbirlər keçirilir. Bunlara musiqi və teatr festivallarını, tətbiqi incəsənət sərgilərini, müsabiqələri, yubiley mərasimlərini, kitab və təqvim nəşrlərini misal göstərmək olar. Yarandığı vaxtdan etibarən TÜRKSOY-un fəaliyyəti türkdilli ölkələr arasında siyasi, ticarət-iqtisadi və mədəni-humanitar əlaqələrin möhkəmləndirilməsinə mühüm təsir etmişdir.

Türkdilli ölkələr arasında bu cür əlaqələrin genişlənməsində TRT-Avaz ictimai televiziya kanalının açılması xüsusi əhəmiyyətə malikdir. 2009-cu il 21 martda – Novruz bayramının qeyd olunduğu gün fəaliyyətə başlayan bu kanal Mərkəzi Asiya, Qafqaz və Balkanlarda türkdilli xalqlar arasında yayımlanmaqdadır. Kanal va-

sitəsilə Azərbaycan, qazax, türkmən və özbək dillərində mədəniyyət, sənədli və musiqi proqramları, türk ölkələrində istehsal olunmuş filmlər də təbliğ edilir. TRT-Avaz televiziya kanalı ortaq türkcənin təbliğini də nəzərdə tutur. Televiziya kanalının açılışında iştirak edən Türkiyə Prezidenti çıxış edərək: "Türk-Avaz bütün türk dünyasına – 250 milyon insana səslənəcək" – fikrini ifadə etmişdir [9].

Qeyd edək ki, Müstəqil Azərbaycan Respublikasının xarici siyasətində Türk Dünyasının birliyini yaratmaq vacib elementlərdən birini təşkil edirdi. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Konstitusiyasında da xaricdə yaşayan soydaşlarımız diqqət mərkəzində saxlanılmışdır. Məsələn, Konstitusiyanın müvafiq maddələrinin (Maddə 1,II. Maddə 73, III.) bəndlərinə görə "Azərbaycan xalqı Azərbaycan Respublikası ərazisində və ondan kənarda yaşayan, Azərbaycan dövlətinə və onun qanunlarına tabe sayılan Azərbaycan Respublikası vətəndaşlarından ibarətdir" və ya "Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir". Bir faktı da qeyd edək ki, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Əsasnaməsində vəzifələr və funksiyalar sırasında Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin xaricdə hüquq və maraqlarının təmin edilməsi ilə yanaşı, xaricdə yaşayan həmvətənlərlə əlaqələrin və əməkdaşlığın inkişafı kimi məsələdə nəzərdə tutulmuşdur [10, s.22]. Bu da xaricdə yaşayan soydaşlarımızın mənafeyinin və əsas azadlıqlarının təmin edilməsi məsələsinin Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetlərdən biri olduğunu sübut edir.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan Türk dünyasının birliyinin formalaşması Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş və fəaliyyət miqyası genişləndirilmişdir. Belə ki İlham Əliyevin rəhbərliyi altında dünya azərbaycanlılarının birliyinin möhkəmləndirilməsində 2006-cı il martın 16-da keçirilmiş II qurultay böyük rol oynadı [11, s.91]. Qurultay xaricdə yaşayan azərbaycanlıların problem və qayğılarını, onların birliyi və təşkilatlanması sahəsindəki mövcud vəziyyəti təhlil etdi. Qurultayda xaricdə yaşayan azərbaycanlıların ölkəmizlə əlaqələrinin daha da möhkəmləndirilməsinə, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına, diaspor quruculuğu işinin təkmilləşdirilməsinə dair qərarlar qəbul edildi. Dünya Azərbaycanlılarının II qurultayı müxtəlif ölkələrdə yaşayan soydaşlarımızın bir bayraq altında birləşməsi istiqamətində irəliyə doğru atılmış növbəti bir qətiyyətli addım oldu. Dünya Azərbaycanlılarının bir bayraq altında birləşməsi istiqamətində irəliyə doğru növbəti addım 2011-ci ilin iyulunda atıldı. Bakıda Dünya Azərbaycanlılarının üçüncü qurultayı keçirildi [12, s.316]. Qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının sədri seçildi. Bu gün müstəqil Azərbaycan Respublikasının ayrı-ayrı dövlətlərlə münasibətlərinin inkişafında, mövcud əlaqələrin möhkəmləndirilməsində və müvafiq əlaqələrin qurulmasında Türk dünyası vahid birlik nümayiş etdirir.

Müasir dövrdə bütün maneələrə baxmayaraq, qlobal inteqrasiya şəraitində türk dövlətləri birliyi modeli müstəqil, müəyyən mənada, alternativ xassəli sistem kimi ortaya çıxmaqla, əslində indiyədək gedilməyən yol üçün zəmin formalaşdırır. Bu sistem yeni dünya düzənində türk toplumunun vahid orqanizm halında fəaliyyət göstərməsi zərurətini doğurur. Bunun üçün isə mənəvi birlik mütləqdir. Hazırda Türk Dövlətləri Təşkilatının fəaliyyəti və nüfuzunu gücləndirməsi məhz bu birlik baxımından son dərəcə vacibdir. Ortaq türk dəyərləri, prinsip etibarilə, vahid təbiətə malikdir. Onlar təbliğ olunmalıdır. Hazırda Azərbaycan və Türkiyə bu istiqamətdə böyük işlər görür. Nəticədə beynəlxalq arenada türkdilli ölkələr arasındakı əlaqələr sağlam təməllər üzərində qurulur. Həmçinin bu ölkələrdə yaşayan millətlərin anlayış və dialoq mədəni yaxınlıq kimi ortaqlıqlara sadiqliyi əsas tutulur, qarşılıqlı fəaliyyətin aspektlərini müəyyənləşdirilir.

Sabitləşdirici rol oynayan, Böyük Türk dünyasının əbədi təməlini qoyan, regionda əməkdaşlıq və təhlükəsizliyə təminat yaradan və çoxşaxəli, analoqu olmayan "Şuşa Bəyannaməsi"nin qəbul edilməsi çox böyük əhəmiyyətə malik tarixi hadisə idi.

Bu bəyannamə Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Onun digər tarixi əhəmiyyəti də bütün dünyada sayılıb tanınan zəngin və yüksək Türk mədəniyyəti və incəsənətinin qorunub saxlanması və daha genişlənməsindən ibarətdir. Tərəflər Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcək Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər.

Bəyannamə dünyanın müxtəlif qütblərinə səpələnmiş soydaşlarımızın, eləcə də 300 milyonluq türk dünyasının bir araya gəlməsinə rəvac verəcək Şuşa Bəyannaməsi ilə Qafqazda Türk amili önə çıxdı.

Qeyd etdiyimiz kimi, Azərbaycan Türkiyə ilə yanaşı, türk dünyasının bütövlük faktoru qismində çıxış edir. Bu xüsusda meydana çıxan başlıca məsələ bütöv Azərbaycan məsələsidir. Zaman və şərait bunu yalnız ideya çərçivələri ilə məhdudlaşdırmaqdan çıxmaqdadır. Zaman bütöv Azərbaycan türk birliyinin tərkib hissəsi, beynəlxalq siyasətin avanqardı, beynəlxalq hüququn subyekti kimi vurğulamaq perspektivinə köklənib. Bu isə onu deməyə əsas verir ki, türk dövlətlərinin qlobal və regional miqyaslarda konsolidasiyası yalnız məcburiyyət deyil, eyni zamanda siyasi zərurətidir. Hazırda dünyada baş verən proseslər onu göstərir ki, türk dünyası vahid konsepsiya daxilindəki milli siyasətlə bəşəri amallara xidmətin harmoniyasını tapa və öz iradəsini ortaya qoyan yerdən nüfuzlu qlobal gücə çevrilə bilər. Bunun üçün ümumtürk təşkilatlanmasının qlobal və beynəlxalq siyasətin əsas fundamental istiqamətlərinə transformasiyasını həyata keçirmək başlıca vəzifədir. Təbii ki tarixi-siyasi imkanların yüksək səviyyədə dəyərləndirilməsi də, buraya daxildir. Həmin imkanlar sırasında beynəlxalq təhlükəsizliyin Türk Dövlətləri Birliyi

dayağının daha da möhkəmləndirilməsindən tutulmuş, ümumən Avrasiyanın qlobal siyasi məkan bütövlüyünü qazanaraq, dünyanın ən inkişaf etmiş regionuna çevrilməsinədək bir sıra məqamların nəzərə alınması müstəsna əhəmiyyətə malikdir. Qeyd edək ki, 15 dekabr 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib. Prezident İlham Əliyev Kubanıçbek Ömüralıyevi Türk Dövlətləri Təşkilatının Baş katibi seçilməsi münasibətilə təbrik etdi, ona təşkilatın üzv dövlətləri arasında qarşılıqlı fəaliyyətin daha da gücləndirilməsi istiqamətindəki işində uğurlar arzuladı və əminliyini bildirdi ki, o, təşkilat çərçivəsində sıx əməkdaşlığın həyata keçirilməsində səylərini əsirgəməyəcək.

Türk Dövlətləri Təşkilatının fəaliyyətinə toxunan Prezident İlham Əliyev təşkilatın beynəlxalq səviyyədə önəminin artdığını məmnunluqla qeyd etdi, bunun üzv və müşahidəçi dövlətlərin beynəlxalq nüfuzunun və iqtisadi potensialının artmasına xidmət etdiyini bildirdi, bu baxımdan 2022-ci il noyabr ayında Təşkilatın Səmərqənddə keçirilən IX Zirvə Görüşünün əhəmiyyətini vurğuladı. Prezident İlham Əliyev Kubanıçbek Ömüralıyevin Türk Dövlətləri Təşkilatının Baş katibi kimi azərbaycanlı həmkarları ilə sıx təmasda olacağına əminliyini bildirdi. Kubanıçbek Ömüralıyev xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi və TDT-ni yaradan dövlətlər sırasında ilk ölkə olaraq Azərbaycana səfər etməsindən məmnunluğunu bildirdi və təşkilatın fəaliyyətinin güclənməsində Azərbaycanın fəal rolunu xüsusi vurğuladı.

Türk Dövlətləri Təşkilatının Baş katibi vurğuladı ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın Qələbəsi və ərazilərin işğaldan azad edilməsi təkcə ölkə üçün deyil, bütün türk dünyası üçün böyük önəm daşıdığını qeyd etdi. Kubanıçbek Ömüralıyev üzv dövlətlərin dil və mədəniyyət baxımından ümumi köklərə malik olduğunu qeyd edərək əməkdaşlığın gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

Nəticə: Beləliklə, Türkiyə Cümhuriyyətinin nəinki regionda, eləcə də dünyada aparıcı rola malik olması, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmlənməsi, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi, dövlət səviyyəsində Azərbaycanın haqq səsinin bütün dünyaya çatdırılması istiqamətində görülən işlər, eləcə də Orta Asiya dövlətlərinilə siyasi, iqtisadi və mədəni əlaqələrin inkişafı, əsarət altında olan türk xalqlarının məsələlərinin gündəmə gətirilməsi, onların həlli yolunda atılan addımlar türk dövlətlərini və xalqlarını həm siyasi, həm də mənəvi baxımdan yaxınlaşdırdı. Bu siyasi gedişlər bir zamanlar soyköklərini unutdurmağa çalışdırdıqları türk xalqlarını "türkün türkdən başqa dostu yoxdur" amalı altında birləşdirdi. Artıq türklərin əsas məqsədi bu amal altında öz birlikərini qurmaq, bir zamanlar dünyaya meydan oxuyan qüdrətli türklərin "küllərindən yenidən döğduğunu", varlığını və ədalətini göstərməkdir.

Ədəbiyyat siyahısı:

1.Türk dünyası təşkilatlanır. "Xalq qəzeti", 13 noyabr 1998-ci il (№32).
2.Azərbaycan diasporuna dövlət qayğısı. Bakı, 2003, s.94.

3.Əliyev Z. Türkdilli xalqların diasporları. Bakı, 2009, 296 s.
4.ARDİDK-nın Cari Arxivi. 2004-2011-ci illər hesabatları.
5.Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı, 2002, s.85.
6. ARDİDK-nın Cari Arxivi. 2002-2008-ci illər hesabatları.
7.Azərbaycan diasporuna dövlət qayğısı. Bakı, 2009, s.182.
8.Türksoyun yaranması və fəaliyyəti haqqında müqavilə. "Ədəbiyyat". 16.08.1994.
9.Baharlı Y. Müasir tarixdə lobbi amili. "Palitra" qəzeti, 22.12.2009.
10.Azərbaycan Respublikası Konstitusiyası. Bakı, 2009, s.22.
11.Dünya Azərbaycanlılarının II qurultayı. Bakı, 2006, s.91.
12.İbrahimli X. Azərbaycanın siyasi mühacirəti. Bakı, 2012, s.316.

TÜRK DÜNYASININ ŞƏXSİYYƏTLƏRİ: T. MAKİNSKİNİN RƏSMİ FƏALİYYƏTİ

Nigar Camalova
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru
n.abushova@gmail.com

Açar sözlər: Azərbaycan, Ermənistan, diplomatik nümayəndə, İrəvan
Keywords: Azerbaijan, Armenia, diplomatic representative, Iravan

Giriş. Günümüzdə Azərbaycan-Ermənistan münasibətləri nəinki regionda, həmçinin türk dünyasında da aktual məsələlərdən biridir. 2020-ci il sentyabr-noyabr 44 günlük Qarabağ müharibəsi [27, s.194, 258, 274], 2023-cü il 19-20 sentyabr antiterror əməliyyatı [24, s.309-328] nəticəsində Azərbaycan Respublikasının suverenliyinin uzun fasilədən sonra bərpa edilməsi dünyanın siyasi və ictimai həyatında gündəlikdə olan məsələlər kimi yadda qaldı və hər iki ölkə arasında yaradılacaq gələcək sülh naminə atılacaq addımları da aktual etdi. 1920-ci il 2 mart-15 may tarixlərində Azərbaycanın Ermənistandakı diplomatik nümayəndəsi olmuş Teymur Makinskinin fəaliyyətinin araşdırılması nəinki Azərbaycan, eləcə də türk dünyasının tarixşünaslığında tarixi analogiyaların aparılmasına, Azərbaycanın xarici əlaqələrinin tarixi aspektdən təhlilinə töhfə ola bilər.

T.Makinskinin həyat və fəaliyyəti ilə bağlı bir sıra araşdırmaların olmasına baxmayaraq bu tədqiqat işində onun rəsmi fəaliyyəti ümumiləşdirilmiş və geniş işıqlandırılmışdır. T.Makinski barədə yeni faktlar (1921-ci ildə Türkiyəyə mühacir etməsi, Türkiyədə siyasi mühacir kimi fəaliyyəti) aşkara çıxarılmış, mövcud məlumatlara aid yeni materiallar (Azərbaycan qəzetinin 1920-ci il rusca buraxılışları, V.Virabyanın yazıları, Arxiv sənədləri) təhlil edilmişdir.

T.Makinski kimdir? Makinskilər nəsli həm İrəvanın, həm də bütün Türk dünyasının ziyalı və savadlı nümayəndələri sırasında olmuş, bu nəsildən olan şəxslər dövlət işlərində yaxından iştirak etmişdi. Makinskilərin ulu babası hesab olunan İbrahim bəy Bayat tayfasına mənsub olub Maku şəhərində yaşamışdır. İbrahim bəyin oğlu Mustafa bəyin oğlu Əhməd sultan 1747-ci ildə Nadir şahın ölümündən

sonra Makuda xanlıq yaratmış [13, s.3-4]. Makinskilər nəslindən olan şəxslər XIX – XX əsrin əvvəllərində rus dövlət idarələrində də fəaliyyət göstərirdilər (saray müşaviri Əhməd xan Süleyman xan oğlu Makinski, polis pristavı Rəşid xan Makinski) [15, s.960-961; 21, s.147; 22, s. 14, 81, 171, 219; 13, s.4-5]. Makinskilərin dövlət idarəçiliyində ən fəal olduğu dövr Azərbaycan Xalq Cümhuriyyətinin vaxtına təsadüf edir. Əli xan Pənah xan oğlu Makinski, Şükür xan Makinski, Teymur Makinskinin qardaşı Zülfüqar Makinski, Abbasəli bəy Makinski həmin dövrdə müxtəlif dövlət idarələrində çalışmışdılar. Makinskilər nəslinin nümayəndələrindən biri də Teymur bəy Məhəmmədqulu xan oğlu Makinski olmuşdur. İrəvanda yaşayan Maku xanlarının və İrəvan xanlarına mənsub İrəvanskilərin nəslindən olan T. Makinski 1874-cü ildə İrəvan şəhərində doğulmuşdu. Bu səbəbdən T.Makinskiyə aid bəzi sənədlərdə adının qarşısında xan titulu yazılırdı [13, s.9; 21]. O, İrəvan gimnaziyasında təhsil almış, 1916-cı ildə Varşava Universitetinin hüquq fakültəsini birinci dərəcəli diplomla bitirmişdi. T.Makinski Zaqafqaziya seyminin Müsəlman fraksiyasının, Zaqafqaziya Federasiyasının süqutundan sonra (1918, 26 may) Azərbaycan Milli Şurasının, daha sonra Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü olmuş, 1918-ci ilin iyun-oktyabr aylarında Azərbaycan hökuməti ədliyyə nazirinin müavini, oktyabrın 20-dən dekabrın sonunadək Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan hökuməti yanında diplomatik nümayəndəliyində fəaliyyət göstərmişdi. Daha sonra o, Fətəli xan Xoyskinin 3-cü hökumət kabinəsində ədliyyə naziri vəzifəsini (26 dekabr 1918 – 14 mart 1919) icra etmiş, İrəvan quberniyasında yaşayan azərbaycanlıların erməni zülmündən qorunması məqsədilə 1919-cu ilin yanvarında Bakıda təsis edilmiş İrəvan Quberniyası Həmyerliləri Cəmiyyəti İdarə Heyətinin sədri seçilmiş, 1919-cu ilin iyunundan 1920-ci ilin yanvarına qədər Azərbaycan hərbi məhkəməsinin sədri olmuşdu. T.Makinski 1920-ci ilin martından ("Azərbaycan" qəzetinin (rusca) 1920-ci il martın 2-də çap edilən nömrəsində hərbi məhkəmənin sədri Teymur bəy Makinskinin Ermənistan hökuməti yanında Azərbaycan Respublikasının diplomatik nümayəndəsi təyin edilməsi barədə xəbər dərc edilib) [7]. Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan hökuməti yanında diplomatik nümayəndəsi olmuş, may ayının 15-dək bu vəzifəni yerinə yetirmişdi [20; 30, s.371-373; 10, s.175; 11]. Səfirlik etdiyi qısa zaman aralığında T.Makinskinin fəaliyyətləri sırasında iki ölkə arasında münasibətlərin inkişafında iştirakdan başqa Ermənistanda yaşayan, Naxçıvan və Zəngibasarda olan azərbaycanlıların hüquqlarının müdafiəsi və onlara pul, ərzaq və s. zəruri vasitələrlə yardım edilməsini təşkil etmək də olmuşdur. 1920-ci il mayın sonunda Tiflisdə olan T.Makinski iyulun 12-dək Azərbaycanın Gürcüstanda diplomatik nümayəndəsi kimi fəaliyyət göstərdi. İyulun 12-də Azərbaycan Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun qərarı ilə o, vəzifəsindən uzaqlaşdırılmışdı [18, s.231; 14, s.106]. Daha sonra T.Makinski Gürcüstanda Azərbaycan SSR-in konsulu vəzifəsini icra etmişdir. 1920-ci il 22 sentyabr tarixli Azərbaycan SSR-in Gürcüstanda missiya və Konsulluğunun şəxsi heyətinin siyahısında T.Makinskinin də adı var idi. O, konsul vəzifəsini icra edirdi [1].

1920-1921-ci illərdə Cənubi Qafqaz Sovetləşəndən sonra mühacirət edən çoxlu sayda elm və dövlət adamları sırasında Makinskilərin nümayəndələri də var idi. T.Makinski də 1921-ci ilin martında Türkiyəyə mühacirət etmişdi [8, s.447] və İstanbulda yaşayan Azərbaycan ictimai-siyasi xadimləri-mühacirlərin Birləşmiş Qrupunun üzvü idi. Bu qrupun üzvüləri 1924-cü il dekabrın 14-də Ə.M.Topçubaşova (Parisdə idi) bütün ictimai-siyasi, antibolşevik qüvvələri birləşdirmək, Qafqaz Konfederasiyası, Parisdəki Azərbaycan Nümayəndə Heyətini yeganə hüquqi təşkilat olaraq qəbul etmək kimi məsələləri ehtiva edən məktub ünvanlamışdı. Həmin məktubu imzalayanlar arasında T.Makinski də var idi [9, s.161-162; 30, s.288-289].

Makinskilər nəslinin nümayəndələri xanlıq dövründən etibarən müxtəlif dövlət işlərində yüksək vəzifələrdə təmsil olunmuşdu. T.Makinski də bu nəslin nümayəndəsi kimi müxtəlif dövlət işlərində işləmiş və ona dövlət tərəfindən səfir kimi etimad göstərilmişdir.

T.Makinskinin dövlət səviyyəsində fəaliyyəti. Qeyd edildiyi kimi, T.Makinski müxtəlif dövlət işlərində, həmçinin Azərbaycanın Ermənistandakı səfiri kimi fəaliyyət göstərmişdi. T.Makinski Ədliyyə naziri olan vaxt 1919-cu il yanvarın 2-də Ermənistanda yaşayan və sıxışdırmalara məruz qalan azərbaycanlıların problemlərini həll etmək məqsədilə İrəvanda Ermənistanda yaşayan müsəlman ictimai xadimlərinin toplantısı keçirildi. İclasda Ermənistan hökumətinin azərbaycanlılara münasibətindən narazılıq ifadə olundu və qərar qəbul edildi ki, erməni silahlı dəstələrinin qanunsuzluqlarına qarşı ciddi tədbirlərin görülməsi üçün Qafqazdakı ingilis generalı V.Tomsona və Ermənistan hökumətinə müraciət edilsin. İclasda, həmçinin T.Makinski, Palabəy Bayrambəyov, Rəşid bəy İsmayılov və Əziz bəy Sultanovdan ibarət heyətin Tomsonla görüşmələri üçün Bakıya göndərilməsi qərara alındı [29, s.88]. 2 yanvar İrəvan iclasından sonra 1919-cu il yanvarın 4-də İrəvanda azərbaycanlıların vəziyyəti haqqında məruzə hazırlanır. Məruzəni imzalayanlar arasında T.Makinski və Ə.Makinski də var idi. Məruzə parlamentin 7-ci iclasında (8 yanvar 1919) oxunur. Məruzədən məlum olur ki, 1917-ci ilin dekabrından 1918-ci ilin iyununadək 200-dən çox kənd dağıdılmış, bu kəndlərin azərbaycanlı sakinləri öldürülmüşdü. Məruzədə erməni qoşunlarının Sürməli qəzasını təmamən, İrəvan, Şərur və Eçmiədzin qəzalarının müsəlmanlar ilə məskun mahallarını işğal edib Naxçıvan tərəfə yürüş etdikləri, müsəlmanları qismən öldürüb, qismən kəndlərindən çıxarıb İrana hicrət etməyə məcbur buraxıldığı yazılır, parlamentin sədrindən İrəvan müsəlmanlarının xilası üçün tədbir görülməsini xahiş edilirdi [4, s.67].

T.Makinski AXC Himayədarlıq nazirliyinin Ermənistandakı müvəkkili kimi 1919-cu il noyabrın 11-də AXC Himayəçilik Nazirliyinə etdiyi məruzədə 500 min azərbaycanlının yoxsula çevrildiyini, İrəvan şəhəri və Zəngibasarın kəndlərində 200 mindən çox əhalinin talan və qırğınlara məruz qaldığını (100-120 min arası öldürülüb), qalan 58 min azərbaycanlıya ərzaq yardımının lazım olduğunu bildirmişdi [16, s.2601; 22, s.92-93; 17, s.45-46; 26, s.10-11].

T.Makinski qaçqınlara yardım üçün onları 3 kateqoriyaya bölməyi təklif edirdi: 1. İrəvan, Zəngibasar və Eçmiədzin qəzaları və Sürməli qəzasının ikinci sektorun-

da yaşayanlar; 2. Şərur rayonu və Naxçıvan qəzasında yaşayanlar; 3. Sürməli qəzasının üçüncü sektoru və Kağızman mahalında yaşayanlar [17, s.46].

Erməni dilini də yaxşı bilən T.Makinski mart 1920-ci ildə Ermənistan Respublikasında AXC-nin diplomatik nümayəndəsi təyin edilir. Səfir işlədiyi müddətdə Ermənistan xüsusi xidmət orqanları onun fəaliyyətini izləyir, şifrəli teleqramlarını ələ keçirərək deşifrə edirdilər. T.Makinskinin fəaliyyətində nöqsan axtaran Ermənistan hökuməti onu məhkəmədə mühakimə etməyi planlaşdırırdı. Belə ki, AXC hökuməti Zəngibasardakı azərbaycanlı əhaliyə ərzaq yardımı etmək üçün 60000 rubl pul göndərmişdi. Aprelin 4-də Cəfərabad (indiki Arqavand) kəndi ərazisində Ermənistan hökuməti həmin pulu ələ keçirdi və xidməti maşının sürücüsü (İvanenko) və 3 nəfər əməkdaş (Məşədi Məmmədov, Məşədi Hüseyn oğlu, Hüseyn Vəli oğlu, Musa Məşədi Məmməd oğlu) Eçmiədzin quberniya milisi Hambardzum Hakopyan tərəfindən həbs edildi. Pulun ünvana çatdırılması T.Makinski vasitəsilə həyata keçirilməli idi. Mayın 26-da Ermənistan baş naziri Al.Xatisyan xarici işlər naziri H.Ohancanyana göndərdiyi məktubunda həbs edilənlərin dindirildiyini və məhkəməyə çıxarılmağa hazırlaşıldığını bildirirdi [19; 28, s.76; 12].

Erməni hakimiyyəti AXC-nin Ermənistandakı səfirliyinin əməkdaşlarını, o cümlədən Makinskini casusluqda ittiham edir, onların fəaliyyətinin Ermənistanın rayonlarında hökumət əleyhinə hərəkatlar təşkil etmək və Ermənistan Respublikasında dövlətçiliyin əsaslarını sarsıtmaq, Zəngibasarda qarşıdurmanı daha da dərinləşdirmək, erməni məmurlarının nüfuzunu sarsıtmaq, onları devirmək və Zangibassar rayonunu Azərbaycana birləşdirmək məqsədi daşıdığını iddia edirdilər [28, s.76].

AXC tərəfi isə Zəngibasarın azərbaycanlı əhalisini erməni silahlı dəstələri (Ermənistan tərəfi onların Ermənistan dövlətinə tabe olmadığını iddia edirdi) və Ermənistan ordusu tərəfindən həyata keçirilən qırğın və talanlardan qorumaq və ərzaq yardımı etmək niyyətini ifadə edirdi. Azərbaycanlıların Ermənistan ərazisində sıxışdırıldığı, soyqırımı və etnik təmizləməyə məruz qalındığı barədə arxiv sənədləri [2; 3] və elmi-tədqiqat materialları mövcuddur.

AXC ilə Ermənistan Respublikası arasında gedən yazışmalar ya diplomatik nümayəndə vasitəsilə həyata keçirilir, ya da yazışmanın bir nüsxəsi diplomatik nümayəndəyə göndərilirdi. AXC XİN F.Xoyskinin Ermənistan Respublikası XİN-yə göndərdiyi 6 aprel 1920-ci il notasının 1 nüsxəsi T.Makinskiyə göndərilmişdi. Nota Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisi Yaradulla kəndinə 5 apreldə səhər saatlarından başlayan hücumu barədə idi. Hücum nəticəsində kənd dağıdılmışdı. Notada hücuma etiraz edilir və dərhal tədbir görülməsi tələb olunurdu [5].

AXC XİN F.Xoyski Ermənistan Respublikası XİN-ə göndərdiyi 14 aprel 2020-ci il tarixli teleqramda 4 apreldə diplomatik nümayəndə tərəfindən göndərilən məlumata istinad edilirdi: “Diplomatik missiyamızın xəbər verdiyi kimi, 4 apreldə Eçmiədzin yolunda missiyamız pulları ilə birgə Ermənistan hakimiyyəti tərəfindən saxlanılıb, onlara və sürücüyə qarşı süni ittihamlar irəli sürülüb. Ermənistan hakimiyyətinin bu hərəkəti beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasıdır. Ona görə də xahiş edirəm, missiya üzvülərini və sürücünü azad etmək, avto-

mobili və pulları geri qaytarmaq barədə təcili əmr verəsiniz" [6]. Teleqrama Ermənistan XİN Al. Xatisov cavab verdi ki, "prokurorluq tərəfindən məsuliyyətə cəlb edilən şəxslər Ermənistan ərazisində dövlətə qarşı cinayət törətdiklərinə görə həm Ermənistanda, həm də Azərbaycanda qüvvədə olan Cinayət Prosessual Məcəlləsinin 230-cu maddəsi əsasında cinayət məsuliyyətinə cəlb olunublar. Beynəlxalq hüququn normalarının kobud şəkildə pozulması iddianız əsassızdır. Yuxarıda qeyd olunanları nəzərə alaraq təəssüf ki, adları çəkilən şəxslərin azadlığa buraxılması ilə bağlı xahişinizi yerinə yetirə bilməyəcəm" [6].

AXC XİN cavabı: "Ermənistan hakimiyyəti tərəfindən dövlətə qarşı cinayət ittihamı ilə saxlanılan Azərbaycan diplomatik nümayəndəliyinə aid heyət üzvüləri və sürücünün saxlanılması qanunsuzdur. Azərbaycan diplomatik missiyasına daxil olan bu şəxslər yalnız Azərbaycan hökuməti tərəfindən Azərbaycan Respublikasına münasibətdə dövlətə qarşı cinayəttə ittiham edilə bilərlər. Mən təkrar xahiş edirəm ki, beynəlxalq qaydalara uyğun olaraq diplomatik nümayəndəliyimizə məxsus bayraqla birgə avtomobilin, sürücü də daxil olmaqla heyət üzvülərinin, pulun geri qaytarılması üçün təxirəsalınmaz tədbir görəsiniz" [6].

AXC-nin tələbləri yerinə yetirilmir. AXC hökuməti də cavab olaraq Bakıdakı Ermənistan diplomatik nümayəndəliyinin heyətini həps edir. Yalnız heyətlərin qarşılıqlı mübadiləsindən sonra hər iki ölkənin nümayəndələri azad edildilər [28, s.77].

AXC xarici işlər nazirinin müavini Məmməd xan Təkinskinin T.Makinskiyə göndərdiyi 27 aprel 1920-ci il tarixli məktubunda bildirirdi ki, "Azərbaycan hökuməti məlumat almışdır ki, aprelin 25-dən Novo-Bəyazid ermənіləri Basarkeçərin Şişqaya kəndinə hücum edərək sakinlərini öldürmüş, Cil kəndi üzərinə hücuma keçmişlər. Ermənilərin hücumlarının qarşısının alınması üçün dərhal tədbirlər görülsün və bu barədə beynəlxalq komissiyaya məlumat verilsin" [23].

AXC-nin süqutu tədbir görülməsini mümkünsüz etdi və T.Makinski də bir müddət sonra Ermənistanı tərk edərək mayın 28-də Tiflisə gəldi. T.Makinski Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Ermənistanda AXC diplomatik nümayəndəliyinə və şəxsən özünə qarşı münasibətin mənfi yöndə dəyişdiyini bildirmişdi [26, s.80].

1920-ci il mayın 15-də AXC-nin Ermənistandakı səfirliyinin fəaliyyətinə son verilsə də Ermənistan Respublikasının Azərbaycandakı səfiri Martiros Arutyunyan 1920-ci ilin noyabrınadək, yəni Ermənistanda Sovet hakimiyyəti qurulanadək fəaliyyət göstərdi. M.Arutyunyan 1920-ci ilin fevralında Tiqran Bekzadyanın yerinə Ermənistanın Azərbaycanda diplomatik nümayəndəsi təyin edilmişdi. T.Makinskidən sonra Azərbaycan SSR-in Ermənistanda səfiri Boris Leqran təyin edildi [25, s.106].

T.Makinski istər dövlət vəzifələrində, istərsə də səfir kimi öz öhdəliklərini yerinə yetirməyə cəhd göstərmiş və ona tapşırılan işlərin öhdəsindən gəlmişdir.

Nəticə. Beləliklə, T.Makinskinin həm müxtəlif dövlət işlərində, həm də Ermənistanda diplomatik nümayəndə kimi fəaliyyəti əsasən azərbaycanlıların hüquqlarının qorunması, canlarının və əmlaklarının xilasından ibarət olmuşdur. Ermənistan tərəfindən sıxışdırılan azərbaycanlılara Azərbaycan hökuməti tərəfindən yardımların çatdırılması, qaçqınların vəziyyətinin yaxşılaşdırılması istiqamətində T.Makins-

ki mümkün olan vasitələrdən istifadə etmiş, lakin sonda Ermənistan hakimiyyəti tərəfindən onun bu fəaliyyəti düzgün hesab edilməmiş, həbs təhlükəsi səbəbindən diplomatik missiya məcburi başa çatdırılmışdı. Lakin məqalədə də qeyd edildiyi kimi, beynəlxalq hüququn prinsipləri baxımından T.Makinskinin fəaliyyətində cinayət tərkibi olmamışdır.

Ədəbiyyat siyahısı:

Arxiv materialları

1. *ARDA. F.28, siyahı 1, iş 38. 3 vərəq*
2. *ARDA, F.970, siyahı1, iş 104, 3 vərəq*
3. *ARDA, F.970, siyahı 1, iş 150, 2 vərəq*
4. *Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). Cild 1. Bakı, Azərbaycan nəşriyyatı, 1998, pdf. 427 s.*
5. *Газета "Азербайджан" 9-го апреля 1920 (ARDA)*
6. *Газета "Азербайджан" 25-го апреля 1920 (ARDA)*
7. *Газета "Азербайджан" 2-го марта 1920 (ARDA)*
8. *Топчибаши А. М. Парижский архив 1919–1940. В четырех книгах, Книга вторая 1921–1923, Сост-ли и перевод Г. Мамулиа и Р. Абуталыбов. Научный ред. И. Агакишиев., М.: Худож. лит., 2016, 576 с.*
9. *Топчибаши А. М. Парижский архив 1919–1940. В четырех книгах, Книга третья 1924-1930, Сост-ли и перевод Г. Мамулиа и Р. Абуталыбов. Научный ред. И. Агакишиев, М.: Худож. лит., 2017, 720 с.*

Elmi ədəbiyyat

10. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Cild 2. Red. hey. sədri Y.M.Mahmudov, Bakı, LİDER nəşriyyat, 2005. 480 s.*
11. *Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları. Azərbaycan Milli Kitabxanasının rəsmi saytı. URL: https://anl.az/el/emb/Cumhuriyyet/AXC_qurucular.pdf i.t. 21.08.2025.*
12. *Cümhuriyyət-100: Ermənistan prokurorluğunun axtarışa verdiyi azərbaycanlı diplomat – Teymur xan Makinski. 17.07.2018. AZƏRTAC agentliyinin rəsmi saytı. URL: https://azertag.az/xeber/cumhuriyyet_100_ermenistan_prokurorlugunun_axtarisa_verdiyi_azerbaycanli_diplomat___teymur_xan_makinski-1180363 i.t. 26.08.2025.*
13. *Çingizoğlu Ənvər. Makinskilər. "Soy" dərgisi, № 3 (47), 2011, s.3-12.*
14. *Habibbayli Samira. Azerbaijan – Georgian Relations in the Early 20th Century. International Journal of Social Sciences Caucasus International University Volume 4, Issue 1. July 2024, p.102-108.*
15. *Həsənov Hacı. XIX Əsrin Ortaları – XX Əsrin Əvvəllərində İrəvan Quberniyasında İnzibati-Ərazi Bölgüsü və Etnodemoqrafik Proseslərə Dair. Akademik Tarih ve Düşünce Dergisi Cilt:9 / Sayı:3 Eylül 2022, s. 946-963.*
16. *Xanməmmədova Nərmin. 2019. Transkafkasyada (Güney Kafkasya) Devletlerarası İlişkiler ve Mülteci Sorunları (1918-1920). Akademik Tarih ve Düşünce Dergisi. Türkiye, 2019, № 6(4), s. 2589-2604.*
17. *Ismayılov Kamran. Accommodation of refugees from Caucasian Armenia in the ADR (1918-1920). Azerbaijan Democratic Republic-100. İRS, 1-2 (33-34), Spring 2018, p. 42-47.*
18. *Qasımov Musa. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər. Bakı, Qanun, 1998, 360 s.*
19. *Mustafa Nazim. Diplomat Teymur bəy Makinski. Ermənistan hökuməti onu həbs etmək üçün cinayət işi açmışdı. "Azərbaycan" qəzeti, 01 iyun 2018-ci il, s.10.*
20. *Mustafa Nazim. Xalq Cümhuriyyəti dövründə Azərbaycanın Ermənistandakı daimi nümayəndəliyinin fəaliyyəti. Ermənistan rəhbərliyi Azərbaycan diplomatlarını quldurların əli ilə qarət edirdi. "Xalq qəzeti", 2015. 30 may. N 114, s.8;*

21. Mustafa Nazim. İrevan (Revan) şehrinde türk halk törenleri ve tiyatro kültürü. I Uluslararası Kafkasya Halk Kültürü" kongresi, 09-11 Ekim 2017 Kars, s.145-150.
22. Mustafa Nazim. İrevan şehri. Türk-İslam varlığı nasıl yok edildi. Ankara, Berikan Ofset Matbaa, 2015, 268 s.
23. Mustafa Nazim. Qərbi Azərbaycan "Azərbaycan" (rusca) qəzetinin səhifələrində. "Azərbaycan" qəzetinin rəsmi saytı. URL: https://www.azerbaijan-news.az/az/posts/detail/qerbi-azerbaycan-azerbaycan-rusca-qezetinin-sehifelerinde-1694499281 i.t. 26.08.2025.
24. Mustafayev Ədalət. Qarabağ müharibəsi: Geosiyasi və tarixi kontekst. Bakı, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu "Nəşriyyat" şöbəsi, 2025, 346 s.
25. Niftaliyev İlgar.. Derived from the history of Azerbaijani Diplomatic Mission in Armenia (1918-1920). İrs jurnalı. 2019, № 2-3 (39-40), s.104-107.
26. Нифталиев Ильгар. Геноцид Азербайджанцев в Иравaнской Губернии (1918-1920). Баку, Элм, 2017, 186 с.
27. Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru (27 sentyabr - 10 noyabr 2020-ci il). layihə rəhbəri Əzizov Eldar, elmi red. Şükürov Kərim. Bakı, "Şərq-Qərb", 2021, 444 s.
28. Virabyan Vanik. Revealing The Khan Tekinsky Conspiracy (from the history of counterintelligence of the First Republic of Armenia). Yerevan: Fundamental Armenology № 1 (13) 2021, p.51-79.
29. Virabyan, Vanik. The Suppression Of The 1919 Anti Armenian Unrest Of The Muslim Population In The Zod-Basargechar Region And The Restoration Of The Territorial Integrity Of Republic Of Armenia InThe Context Of The Activity Of Colonel Clive Temperley, The Military And Political Representative Of Great Britain. Fundamental Armenology. Yerevan, 2022, № 2 (16), p. 79-113.
30. Yaqublu Nəsiman. Cümhuriyyət qurucuları. Bakı, Nurlar, 2018, 504 s.

AĞABALA QULİYEVİN ŞƏHƏR ÖZÜNÜİDARƏSİNDƏ İŞTİRAKI VƏ SİYASİ FƏALİYYƏTİNƏ DAİR (1904-1917-ci illər)

Xuraman Vəliyeva
AMEA A.A. Bakıxanov adına "Tarix və Etnologiya İnstitutu "Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsinin aparıcı elmi işçisi, t.ü.f.d.
Vəfa Əliyeva
AMEA A.A. Bakıxanov adına "Tarix və Etnologiya İnstitutu
"Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi" şöbəsinin dissertantı
vfa.aliyeva85@mail.ru

Açar sözlər: *Ağabala Quliyev, Bakı Şəhər Duması, Birinci rus inqilabı, "Yakor" cəmiyyəti, ictimai-siyasi fəallıq*
Keywords: *Agabala Guliyev, Baku City Duma, First Russian Revolution, Anchor Society, socio-political activity*

Məqalənin əsas ideyası Ağabala Quliyevin çoxşaxəli ictimai-siyasi fəaliyyətinin mühüm istiqamətlərini bərpa etməkdir. Tədqiqat onun təkcə "dəyirmanlar kralı" kimi deyil, həm də 14 il fasiləsiz Bakı Şəhər Dumasının deputatı kimi fəaliyyətini ortaya qoyur. Əsas diqqət onun ənənəvi müsəlman dəyərlərindən qaynaqlanan mühafizəkar və monarxiyaya sadiq siyasi dünyagörüşünə yönəlmişdir.

Məqalənin aktuallığı, müasir Azərbaycanda milli burjuaziyanın tarixi rolunun və ictimai-siyasi irsinin yenidən gözdən keçirilməsi və qiymətləndirilməsi kon-

tekstindədir. Ağabala Quliyevin nümunəsi, tarixin dönüş dövrlərində ənənə ilə modernləşmə, dini dəyərlər ilə siyasi seçimlər arasındakı qarşılıqlı əlaqəni daha dolğun anlamaq baxımlndan aktuallıq kəsb edir.

Tədqiqatın elmi əhəmiyyəti arxiv və dövri mətbuatın materialları əsasında XX əsrin əvvəllərində Azərbaycan burjuaziyasının nüfuzlu nümayəndəsi olan Ağabala Quliyevin ictimai-siyasi fəaliyyətinin mahiyyət xüsusiyyətlərinin aşkara çıxarılmasından ibarətdir. Məqalə xüsusilə də Bakı şəhər özünüidarəetmə qurumunun fəaliyyətinin bəzi az məlum tərəflərinə aydınlıq gətirir. Tədqiqatda A. Quliyevin Bakı şəhər dumasında fəaliyyətinin indiyədək az öyrənilmiş aspektlərinin araşdırılması onun məziyyətlərindən sayıla bilər.

Məqalədə əsas yenilik arxiv sənədləri və mətbuat məlumatları əsasında Ağabala Quliyevin siyasi əqidəsi və fəaliyyət motivləri haqqında orijinal mülahizələrin irəli sürülməsindədir. Məqalədə A. Quliyevin monarxist əqidəsinin təkamülü izlənilmiş, təkcə 1905-1907-ci illər inqilabı dövründə deyil, həm də 1917-ci il Fevral və Oktyabr inqilabları arasındakı dövrdə onun siyasi davranışı təhlil edilmişdir. A. Quliyevin 1917-ci ildə "müsəlmanlıq" seçki blokuna daxil olmasının onun ideoloji inkişafının məntiqi nəticəsi kimi şərh edilməsi də yenilikçi yanaşmadır.

XIX-əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda milli burjuaziyanın bütöv pleyadası sadəcə sosial-iqtisadi sahədə deyil, həmçinin ictimai, siyasi və mədəni sferalarda da nüfuzlu söz sahibinə çevrilmişdi. O dönəmin coşqun inkişaf edən ictimai proseslərinə müxtəlif sərvət sahibləri yetərincə fəal şəkildə qatılmaqla, xeyriyyəçi kimi geniş fəaliyyət göstərməklə Azərbaycan türklərinin konsolidasiyasına, onun siyasi şüurunun yüksəlişinə bilavasitə, yaxud da dolayı surətdə töhfələrini vermişlər. Belə parlaq şəxslərdən biri də görkəmli Azərbaycan sahibkarı, Şimali Azərbaycanda unüyütmə sənayesinin inkişafında fövqəladə xidmətləri olmuş Ağabala Quliyev idi. "Dəyirmanlar kralı" ünvanını almış bu şəxs, təkcə sahibkarlıq fəaliyyəti ilə tanınmayaraq, həmçinin ictimai-siyasi sahədə də özünü reallaşdırmağı bacarmışdı. Təqdim olunan məqalə A. Quliyevin 1917-ci ilin oktyabrınadək ictimai-siyasi fəaliyyətinin əsas xüsusiyyətlərini müəyyənləşdirmək cəhdini təmsil edir.

İlk növbədə qeyd edərdik ki, A. Quliyev fasiləsiz olaraq 14 il Bakı Şəhər Dumasının qlasnısı (deputatı) olmuşdur. O, ilk dəfə 1904-cü ildə Bakı şəhər ictimai idarəsinin (1905-ci ildən isə Bakı Şəhər Duması adlanır) qlasnısı seçilmişdi [6, s.189]. O, həmin ildə upravaya (şəhər idarəsinə) seçilən 48 qlasnıdan biri idi. Qeyd etmək lazımdır ki, Bakı şəhər idarəsinin qlasnılarından əksəriyyəti, 27 nəfəri Azərbaycan ziyalıları və milli burjuaziyasının nümayəndələri idilər [9, s.188-189]. Ağabala Quliyev 1917-ci ilə kimi fasiləsiz olaraq Dumanın qlasnısı olmuşdu [5, s.173]. O eyni zamanda 1914-cü ildə Bakı quberniyası üzrə Həbsxanalara Qəyyumluq Komitəsinin üzvü seçilməklə [7, s.506], bu vəzifəni 1917-ci ilə kimi həyata keçirmişdi [5, s.693].

Qeyd etmək lazımdır ki, Ağabala Quliyevin Bakı şəhər dumasının qlasnısı seçildiyi ilk dönəm imperiyanın inqilabi dalğalarla çalxalandığı son dərəcə qeyri-sa-

bit dövrünə təsadüf edirdi. Bununla belə Ağabala Quliyev duma üzvlüyünün elə ilk başlanğıcından şəhərin ictimai-siyasi həyatında daim yaxından iştirak etməklə, dumanın iclaslarında da müxtəlif komitələrin üzvü kimi xüsusi fəallıq nümayiş etdirmişdi.

Birinci rus inqilabı ərəfəsində imperiyanın ucqarlarında da ictimai-siyasi vəziyyət son dərəcə gərginləşmişdi. Petroqraddakı inqilabi hadisələr Qafqazı da, öz əhatə dairəsinə almışdı. İnqilabın zirvə məqamında, 1905-ci il oktyabrın sonlarında Bakıda qaragüruhçu "Lövbər" (Yakor) cəmiyyəti yaradıldı. Onun təşkilatçıları Tiflis rayon məhkəməsinin keçmiş sədri F.A.Bıkov, Bakının keçmiş polis rəisi Deminski və başqaları idi. Cəmiyyətin sədri F.A.Bıkov idi. Cəmiyyətin nizamnaməsində göstərilirdi ki, "Yakor" cəmiyyəti Bakıda "millətindən, mənşəyindən və dinindən asılı olmayaraq, öz vətənini sevən, azad, konstitusion, vahid və bölünməz dövlətin monarxı kimi çara sadiq olan Rusiya vətəndaşlarını birləşdirmək məqsədilə yaradılmışdır. Cəmiyyət 17 oktyabr 1905-ci il Manifesti əsasında Rusiya xalqlarının birliyinə can atır. Bu cəmiyyətə maddi yardım göstərən azərbaycanlı sahibkarlarının içərisində Ağabala Quliyev, Murtuza Muxtarov və Q.A.Aşurovun da adları çəkilir [8, s.236-237]. Burada bir məqama aydınlıq gətirmək istərdik. Ağabala Quliyev siyasi əqidəcə monarxist idi. O, məhz monarxiya üsul-idarəsinin dövlət idarəetməsinin ən optimal forması olmasına sidq ürəklə inanırdı. Bu, onunla əlaqədar idi ki, Ağabala Quliyev ənənəvi və mühafizəkar mühitdə formalaşmış, onun dünyagörüşü də sırf bu mühitin dəyər və normaları əsasında təşəkkül tapmışdı. Ona görə də o, hər hansı zorakılıqla ictimai quruluşun dəyişdirilməsinin qatı əleyhinə çıxır, dəyişikliklərin tədrici təkamül yolu ilə həyata keçirilməsinin cəmiyyətin və dövlətin inkişafı baxımından daha əlverişli olması fikrində dururdu. Üstəlik, bütün dəyişikliklər monarxın mütləq hakimiyyətini əsla sarsıtmamalı idi, belə ki, hökmdar ənənəvi İslam siyasi fəsləfəsinə uyğun olaraq, Allahın yerdə kölgəsi sayılırdı. Başqa sözlə, monarxın hakimiyyəti bir növ ilahi hökmə uyğun gerçəkləşdirilirdi. Ona görə də köhnə siyasi düzənə qarşı çıxmaq bir növ Allahın iradəsinə və təsbit etdiyi nizama qarşı çıxmaq demək idi. Elə A. Quliyevin monarxist baxışları, ilk növbədə inqilabın qarşısını saxlamağı hədəfləyən qaragüruhçuları himayə etməsi bu dünyagörünüşündən irəli gəlirdi. O, gələcəkdə də taleyüklü dönəmlərdə bu əqidəsinə daim sadiq qalmışdı.

Yüksələn fəhlə çıxışlarına qarşı mübarizə məqsədilə 1905-ci ilin iyununda Bakı şəhər dumasının qapalı iclasında "Əhalinin Sakitləşdirilməsi üzrə Komitə" adlanan qurumun yaradılması üçün komissiya seçildi. Komissiya belə nəticəyə gəlir ki, Komitə "hakimiyyət orqanlarının razılığı ilə" fəaliyyət göstərməlidir. Komitənin üzvləri Bakı şəhər duması tərəfindən həm ictimaiyyət, həm də Bakı əhalisi arasından seçilməli idi. Komitə öz tərkibinə köməyini faydalı və zəruri hesab edəcək şəxsləri dəvət edə bilərdi. Nəticədə Bakı şəhər rəisi vəzifəsini icra edən K.Səfərəliyevin sədrliyi ilə yaradılan komitə əsasən burjuaziya və burjua ziyalılarının nümayəndələrindən təşkil olunmuşdu. Onun 28 nəfərdən ibarət tərkibində Azərbaycan burjuaziyasının nümayəndələrindən İ.Hacıyev, H.A.Aşurov, H.B.Aşurov, İ.Hacins-

ki, K.A.Zərbəliyev, Y.Səfərəliyev, A.Səlimxanov, M.Əsadullayev, publisistlər Ə.M. Topçubaşov, Ə. Ağayev, komitənin üzvlüyünə namizədlər arasında M.Muxtarov, A.Quliyev, N.Əmiraslanov var idi [15, s.85-86; 3, s.59-60].

Komitənin proqramında göstərilirdi ki, onun üzvlərinin hər biri öz şəxsi, mənəvi təsiri və sözü ilə cəmiyyətin müəyyən təbəqələri arasında dinc əhval-ruhiyyə yaymalıdır. Bu qurumun apardığı izahedici iş nəticələrindən asılı olmayaraq ayrı-ayrı toqquşmaların ümumi həyəcana və düşmənçiliyə gətirib çıxarmağının qarşısını almaq məqsədi güdürdü. Komitənin proqramında həmçinin dövlət orqanlarının icazəsi ilə rus, azərbaycan və erməni dillərində vərəqələrin hazırlanması və yayılması, əhali arasında yanlış təsəvvür yaradan və ya yarada bilən faktlara və şayiələrə mətbuatda aydınlıq gətirilməsi kimi fəaliyyətlər də yer almışdı [12, v.17].

Ağabala Quliyev 1905-ci ilin avqust ayında Bakı şəhərində ermənilər tərəfindən müsəlman-türklərə qarşı törədilmiş qırğından sonra ermənilərlə azərbaycanlıların barışması üçün Qafqaz administrasiyasının və şəxsən qubernatorun təşəbbüslərində yaxından iştirak etmişdi. Belə ki, yerində vəziyyətlə tanış olmaq məqsədilə 1905-ci ilin sentyabrın 7-də Bakıya gələn Qafqaz canişini Vorontsov-Daşkovun təklifi ilə yaranmış vəziyyəti müzakirə edərək çıxış yolu axtarmaq məqsədilə erməni tərəfini danışıqlara dəvət edən bəyənatı imzalayan azərbaycanlı sahibkarlar və ziyalıların arasında İsmayıl bəy Səfərəliyev, İsrafil Hacıyev, Əlimərdan bəy Topçubaşov, Əsədulla Əhmədov, Əhməd bəy Ağayev, İsa bəy Hacınski, Hacı Aslan Aşurov, Hacıbaba Aşurov, Məmməd Həsən Hacınski, Həsənağa Həsənov, Mirzə Əsədullayev kimi görkəmli şəxsiyyətlərlə yanaşı, Ağabala Quliyevin də adına rast gəlinir [10, s. 54].

İnqilabi hərəkatın yüksəlişi qarşısında çarizmin verdiyi 17 oktyabr manifesti Şimali Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələri tərəfindən coşqu ilə qarşılandı. Oktyabrın 25-də qubernatorun manifestin mahiyyətini "izah edən" elanı dərc olundu. Əhalini riyakarlıqla "sakit və dinc fəaliyyətə" çağıran qubernator mütləqiyyətə qarşı çıxanları sərt tədbirlərlə hədələyirdi. Bunun ardınca Bakı general-qubernatorunun "bütün küçə nümayişlərini və toplanmalarını, axşam saat 8-dən sonra evdən çıxmağı, odlu və soyuq silahların gəzdirilməsini" qadağan edən elanı yayıldı [14, v.78-79].

Bununla bağlı 1905-ci ilin noyabr ayında Bakı şəhərində ziyalıların və burjuaziyanın nümayəndələrinin iştirakı ilə mitinqlər keçirildi. İmperiyanın paytaxtında baş verən hadisələrlə bağlı həmin ilin noyabrın 18- də Bakı şəhər dumasının zalında keçirilən ilk mitinqində çıxış edən A.Quliyev əhalini "xalqın xeyrinə qeyriməhdud hakimiyyətindən könüllü şəkildə imtina edən çara təşəkkür etməyə, çarı sevməyə, Qurani-Kərimə istinad edərək müsəlmanları xalqa azadlıq verən monarxı dəstəkləməyə" çağırmışdı [15, s.119-120]. Bu çağırış Quliyevin yuxarıda bəhs etdiyimiz əqidəsinin bariz şəkildə ifadəsi idi.

Yığıncaqda mitinqlərin vaxtaşırı təşkil olunması üzrə Nəcəf bəy Vəzirov, Ə.Ağayev, Məmmədhəsənbəy Hacınski, Qarabəy Qarabəyovla, Həsən bəy Ağayev

və Ağabala Quliyevin daxil olduğu komissiyanın seçilməsi barədə qərar qəbul olundu [3, s.59].

1905-ci ilin sentyabrında Bakı şəhərinin Petrovsk meydanında aclıqdan əziyyət çəkənlərə çörəyin paylanılması tədbiri keçirilmişdi. Həmin tədbirdə milli burjuaziyanın Ş. Əsədullayev, H.Z.Tağıyev, Həsənağa Həsənov kimi nümayəndələri ilə yanaşı Ağabala Quliyev də iştirak etmişdi [3, s.59].

Heç təsadüfi deyildi ki, 1905-ci ilin noyabr ayında Bakı şəhər Dumasının zalında keçirilmiş mitinqdə çıxış edən Ağabala Quliyev müsəlmanları çara səcdə etməyə çağırmışdı.

Ağabala Quliyev 1907-1911-ci illər üçün Bakı şəhər dumasına seçilmiş 47 azərbaycanlı deputatdan biri olmuşdu [2, s.54]. 1911-ci ilin dekabrın 22-də Bakı şəhər dumasına keçirilmiş növbəti seçkilər nəticəsində dumaya düşmüş 38 azərbaycanlı deputatın arasında Ağabala Quliyev də var idi. Dumanın 1912-ci il 14 mart tarixli iclasında Ağabala Quliyev "Yoxsulları himayə" duma komissiyasının üzvü seçilmişdi. Bu komissiyanın 12 üzvündən 6-ı azərbaycanlı idilər [2, s.59-61]. Qeyd etmək lazımdır ki, Ağabala Quliyev əvvəlki şəhər dumalarının fəaliyyəti zamanı heç bir komissiyada təmsil olunmamışdı.

Bu müddətdə o, dumanın iclaslarında şəhərin ictimai-siyasi və iqtisadi həyatı ilə bağlı məsələlərin müzakirəsində fəal iştirak etmişdi. Həmin vaxtlar şəhər dumasında qızğın şəkildə müzakirə olunan məsələlərdən biri də Şollar suyunun tərkibinin müzakirəsi ilə bağlı idi. Şəhər dumasının 1912-ci il sentyabrın 29-da keçirilən iclası xüsusi olaraq Şollar suyunun tərkibinin tədqiqinə həsr olunmuşdu. O dövrdə su alveri ilə məşğul olanlar yerli qəzetləri ələ alaraq onların vasitəsilə Şollar suyunun guya həddindən artıq cod, kimyəvi tərkibinə görə yararsız və malyariya bakteriyalarının yayıcısı olduğunu təbliğ edir, suyu əhalinin gözündən salaraq kəmərin çəkilməsinə mane olurdular. Kapitalistlər su kəməri çəkilməsinin özləri üçün sərfəli olmayacağını nəzərə alaraq belə bir şayiə yayırdılar ki, guya Şollar suyu içmək üçün yararsızdır. Bütün bunlarla əlaqədar olaraq bu məsələ ətrafında gedən müzakirələrdə dumanın azərbaycanlı deputatları yaxından iştirak edirdilər. Bu iclasda çıxış edən M.Əzizbəyov, İ.Hacınski və M.Əsədullayev qeyd edirdilər kı, bu məsələyə sırf tacir nöqteyi nəzərindən yanaşmaq olmaz. Duma Şollar suyunun xəstəlik yoluxdurucu olması barədə əhali arasında yayılmış şayiəni aradan qaldırmalıdır. Dumanın azərbaycanlı deputatı A.QuIiyev 1913-cü ilin birinci yarısında Dumaya təqdim etdiyi ərizədə Şollar su mənbəyində suyun çatışmazlığından narahat olduğunu bildirərək, məsələni hərtərəfli müzakirə etmək üçün Dumanın xüsusi iclasının çağırılmasını xahiş edirdi. O, hesab edirdi ki, məsələni yerindəcə hərtərəfli öyrənmək və həll etmək üçün Şollara yeni səfər təşkil etmək vacibdir [2, s. 109].

1914-cü ilin iyulunda Birinci Dünya müharibəsinin başlanması ilə əlaqədar xəstə və yaralı əsgərlərə yardımın təşkili üçün Şəhər Dumasının Komissiyası yaradıldı. Bu, Şəhər Duması proqramının həyata keçirilməsi yaralı və xəstə əsgərlərə yardım göstərmək, xəstəxanalar və təcili yardım qatarlarını təchiz etmək, cəbhəyə səfərbər edilmiş ehtiyatda olan əsgərlərin ailələrinə kömək etmək üçün vəsait topla-

maq məqsədi daşıyan ilk irimiqyaslı tədbirlərdən biri idi. Aksiya yalnız könüllü xarakter daşıyırdı, əhalinin bütün təbəqələri buna reaksiya verir, çox vaxt bu yardımın verilməsinin təşəbbüskarı kimi çıxış edirdilər. Belə ki, Bakının iri dəyirmanlarının sahibi Ağabala Quliyevin şəhər kontorunun işçiləri hər ay maaşlarının 2 faizini müharibədən əziyyət çəkən əsgər ailələrinin xeyrinə tutmaq istəyini bildiriblər [11, s. 42].

1917-ci ilin fevral inqilabından sonra imperiyanın müxtəlif yerlərində monarxist qüvvələr hakimiyyətdən devrilmiş çarın müdafiəsinə qalxırdılar. Oxşar hadisələr Cənubi Qafqazın iri şəhərlərində, o cümlədən Bakıda baş vermişdi. Bakıda qeydə alınmış belə hadisə barədə məlumat verilir ki, Bakı qaragüruhçusu keşiş Ekzar Qruzi, maarif inspektoru Saxnovski, milyonçu Ağabala Quliyev, şəhər qoçularından Hacı Aslan Aşurov, Bakı texniki məktəbinin direktoru Bajenov Aleksandro-Nevskidən ibarət taxtdan salınmış çar II Nikolaya səcdə edən bir qrup katedral "Qızıllı" kilsənin həyətinə yığışıb matəm mərasimi keçirdilər [16, s. 200].

O dövrün məlumatlarına əsasən, inqilabi proseslərin təsiri ilə Bakını bürümüş fəhlə hərəkatı Ağabala Quliyevin müəssisələrindən də yan keçməmişdi. 1917-ci ilin yazında A.Quliyevin dəyirmanında rəhbərliklə fəhlələr arasında baş vermiş narazılıq sonda fəhlələrin tələblərinin qəbul edilməsi ilə nizamlanmışdı. "Kaspi" qəzetinin həmin nömrəsində getmiş məlumatdan bəlli olur ki, siyasi iğtişaşlardan yararlanan cinayətkar ünsürlər A.Quliyevin dəyirmanından 2500 rubl məbləğində avadanlıq oğurlamışdılar [13, s. 5].

1917-ci ilin oktyabrın 29-da Bakı şəhər dumasına keçiriləcək seçkilərdə müsəlmanlar tərəfindən iki siyahı verilmişdir. Bunlardan birincisi milli komitədən ayrılmış "müsəlmanlıq" adıyla ortaya çıxmış firqənin 9 nömrəli siyahısıdır. Bu siyahı üzrə namizədliyi irəli sürülmüş 39 nəfərdən biri də Ağabala Quliyev idi [4].

Bu barədə "Açıq söz" qəzetində yazılırdı ki, müsəlmanlar tərəfindən bələdiyyə seçkisi üçün verilmiş iki siyahıdan birincisi Milli komitədən ayrılmış "müsəlmanlıq" adıyla ortaya çıxmış firqənin 9 nömrəli siyahısıdır. İkincisi də Milli komitə tərəfindən çıxarılmış 12 nömrəli siyahıdır. "Müsəlmanlıq" adını daşıyan firqə deyir ki, o yalnız firqə deyil, müsəlmanlığın pənahı və Quranın da müdafiəçisidir. Milli komitə müsəlmanlıqla Quranı firqə malı bilməyib, hamı üçün möhtərəm və əziz bilir. Demək ki, siyahımızdan 9-su yalnız siyasət deyil, şəriətmədarlıq da edir. 12-ci nömrə isə millətin siyasi və fəal qüvvələrini birləşdirmək vasitəsilə müsəlmanların dumadakı şəhər işləri və milli məktəblərini müdafiə etmək istəyir. Biz bu iki siyahının adamlarını adbaad aşağıya yazırıq. Qoy şəriətmədarlarla millətpərvərlər arasında millət özü hakim olsun". Gələcəkdə "İttihad" partiyasının əsasını təşkil edəcək 9-cu nömrəli siyahıya yer almış 39 azərbaycanlı xadimlərdən biri də Ağabala Quliyev idi [1].

Nəticə: A. Quliyevin ictimai-siyasi fəaliyyətinə yekun vuraraq söyləyə bilərik ki, o, son dərəcə mühafizəkar və monarxist siyasi əqidəyə sahib idi. Daha öncə də qeyd etdiyimiz kimi, A. Quliyevin şəxsiyyət kimi formalaşdığı mühit, onun sosial vəziyyəti dünyagörüşünün təşəkkülündə əhəmiyyətli rol oynamışdı. A. Quliyev

ənənəvi müsəlman cəmiyyətinin dəyər və normalarının daşıyıcısı kimi, siyasi quruluşa da, sözügedən dəyərlər süzgəcindən yanaşırdı. Ona görə də o, kəskin inqilabi dəyişikliklərin qatı əleyhinə çıxaraq, monarxın lütfkarlığı ilə tədrici dəyişikliklərə tərəfdar idi. Özü də bu cür dəyişikliklər cəmiyyətin hərtərəfli transformasiyasına gətirib çıxarmamalı idi. Məhz mühafizəkarlığı A. Quliyevi sağ-monarxist düşərgəyə meyillənməsini şərtləndirmişdi.

1917-ci ilin Fevral inqilabı sonrası A. Quliyev öz əqidəsinə xilaf çıxmayaraq, mühafizəkar əqidəsinə sadiq qalır. Biz Oktyabr çevrilişi ərəfəsində A. Quliyevin ümmətçi seçki blokunda olmasını təsadüfi saymayaraq, bunun məhz əvvəlki siyasi əqidə və davranışının məntiqi nəticəsi olduğunu güman edirik.

Ədəbiyyat siyahısı:

1. *Bakı xəbərləri // "Açıq söz" qəzeti. – 1917, 23 oktyabr, №595.*
2. *Cəfərli.C Azərbaycanlı deputatların Bakı şəhər dumasında çıxışı / Tarix elmləri namizədi elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiya. – Bakı, 2004. – 148 s.*
3. *Hüseynova.K Ağabala Quliyevin Bakı şəhərinin ictimai həyatında roluna dair // Tarix və onun problemləri, – 2013, № 3, – s. 57-62*
4. *On iki nömrəli siyahı // "Açıq söz" qəzeti. – 1917, 23 oktyabr, №595*
5. *Адрес-календарь. Кавказский календарь на 1917 год. / Под ред. Н.П. Стельмащука. – Тифлис: Типография Канцелярии Наместника на Кавказе, – 1916. – 1609 с.*
6. *Адрес-календарь. Кавказский календарь на 1905 год / Под ред. Е. Кондратенко. – Тифлис: Типография А.В.Кутателадзе, – 1904. – 842 с.*
7. *Адрес-календарь. Кавказский календарь на 1915 год. / Под ред. А.А.Ельзенгера и Н.П.Стельмащука. – Тифлис: Типография Канцелярии Наместника на Кавказе, – 1914. – 1291 с.*
8. *Багирова, И.С. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917) / И.С. Багирова. – Баку, «Элм», – 1997. – 336 с.*
9. *Губернские, уездные и городские управления. Бакинская губерния. Кавказский календар на 1905-й годъ. Адрес-календарь. – Тифлис: Типография Канцелярии Наместника Е. И. В. иа Кавказе, – 1904. – с. 179-193*
10. *Джаббаров, Ф. Августовская резня 1905 года и вопрос примирения армян и азербайджанцев в политике наместника Кавказа И.И.Воронцова-Дашкова // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası, – 2017, № 3, – s. 52-61*
11. *Дулаева, З., Мамедов М. Баку в годы Первой мировой войны // Azərbaycan Birinci Dünya Müharibəsi dövründə. Elmi məqalələr toplusu. – Bakı: Ziya, – 2014. – s. 32-57*
12. *Заключение комиссии Бакинской городской думы для организации Комитета умиротвения. 1905 г // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 484, siyahı №1, iş №43, vərəq – 17*
13. *На мельнице А.Б.Гулиева // Газета «Каспий», – 1917.7-е апреля №76, – с. 5*
14. *Объявление временного генерал-губернатора г. Баку и Бакинской губернии. 1905 г. // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 484, siyahı №1, iş №57, vərəq – 78-79*
15. *Сеидзаде, Д.Б. Из истории Азербайджанской буржуазии в начале 20-го века / Д.Б. Сеидзаде. – Баку: Элм, – 1978. – 146 с.*
16. *Сулейманов, М. Дни минувшие / М. Сулейманов. – Баку: Азербайджанское Государственное Издательство, – 1990. – 344 с.*

İSLAMDAN ÖNCƏKİ TÜRK POEZİYASI VƏ İLK TÜRK ŞAİRLƏRİ

Bəxtiyar Tuncay
AMEA A. A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun
"Türk xalqlarının tarixi və etnologiyası" şöbəsinin əməkdaşı
bextiyar.tuncay@yahoo.com;
https://orcid.org/0009-0006-8949-823X

Açar sözlər: *buddizm, manixeyizm, saklar, Kuşan, Türk poeziyası, Mani*
Keywords: *Buddhism, Manichaeism, Saka, Kushan, Turkic poetry, Mani*

Dövrümüzədək qədim brahmi, manixey, soqd və uyğur əlifbaları ilə türkcə yazılan çox sayda ədəbi, dini, fəlsəfi və elmi əsər yetişmişdir. Sözügedən əsərlərin önəmli hissəsi buddist və manixeist dini ilə bağlı olan əsərlərdir. Bu dini təlimlərin əsasının saklar, başqa sözlə, qədim türklər tərəfindən qoyulduğu məlumdur. Bu səbədən də onlarda qədim Türk inanclarının (Tenqriçilik və şamanizmin) izlərinə də sıx-sıx rast gəlinməkdəir.

Türk dilində qələmə alınmış buddist və manexeist mətnlərin müəyyən bir hissəsi günümüzədək uyğur əlifbasında yetişmişdir. Şübhəsiz ki, sözügedən mətnlərin heç də hamısını brahmi və manixey əlifbalarından uyğur əlifbasına çevrilmiş mətnlər hesab etmək doğru olmaz. Onların bir qismi çox-çox sonrakı əsrlərdə bilavasitə uyğurlar tərəfindən yaradılmışdır. Eləcə də bəzi ədəbi-fəlsəfi əsərlərin, xüsusən də şeirlərin [1; 2; 3; 4; 6; 7; 9; 10; 11; 12; 13; 14; 15; 16] müəlliflərinin buddist saklar və kuşanlılar, başqa sözlə, ağ hunlar və eftalitlər olduğunu söyləmək üçün əlimizdə ciddi əsaslar var.

Bu şeirlər içərisində Atsanq Kalam Keysinin iki şeiri də var ki, onların məhz saklara aid olduğu və Şakı Muninin (Buddanın) dövrünə çox yaxın bir dövrdə yazıldığı heç bir şübhə oyatmır və onların məhz sak dili və ədəbiyyatı nümunəsi olduğunu sübut etmək heç bir çətinlik törətmir. Bu işdə bizə Buddanın Türk mətnlərində rast gəlinən gerçək adı olan Burxan adı yardımçı olur və məhz bu antroponim bizə bir çox gizli gerçəkləri anlamağa imkan yaradır" [17, s. 131-132].

Buddist məzmunli Türk mətnlərində Buddanın gerçək adı "Burxan"dır [19, s. 127].

Eyni ada türk-şaman mifoloji mətnlərində də rast gəlmək mümkündür və həmin "Tanrı" adının sinonimi kimi işlənir. N. F. Katanovun yazdılarından belə anlaşılır ki, "tıvalılar inanmışlar ki, ən yuxarı dünyada Burxan (Tanrı) yaşayır. İnsanların sahib olduqları hər şeyi, o cümlədən övladları o verir. Burxan insanlara pislik edən şər ruhları məhv etmək üçün orta dünyaya ildırım və şimşəklər göndərməklə müdaxilə edir" [8, s. 47; 17, s. 132-133]. "Altun Yaruq"da da Burxan "tanrılar tanrısı" kimi vəsf edilir: "Anta ötrü tenqri tenqrisi Burkan inça tipyarlıkadı Ananta...", yəni "Ondan ötrü tanrılar tanrısı Burxan Ananda belə söylədi..." [5, s. 297].

Məlum olduğu kimi, "Budda buddizmin əsasını qoymuş şəxsin gerçək adı deyil, ona verilmiş ləqəbdir. Belə hesab edilir ki, onun əsil adı Qautama olmuşdur [18, I,

444]. Türk mətinlərində isə onun gerçək adı Burxandır. Astanq Kalam Keysinin şeirlərindən isə onun oğlunun adını öyrənirik" [17, s. 134]:

"Burkan oğlu Tolpı Tüzün Uğan arşınınq
Bulunçus yiq ödqilərin üğmiş şlokda
Burk-şark kılıp on edqüsin mən-Astanq özüm
Buyan küsüş özə köşmüş taksut başladı" [5, s. 210].

Bir sak, başqa sözlə, Türk şahzadəsi olan "Burxan özünü peyğəmbər elan edəndə onun 29 yaşı var idi. Təbii ki, o, həmin dövrə qədər evlənməmiş və övlad sahibi olmamış ola bilməzdi, çünki o, şahzadə idi və şah nəslini davam etdirməklə mükəlləf idi" [17, s. 134].

Burxanın (Buddanın) oğlunun türkcə olan gerçək adına yalnız Astanq Kalam Keysinin ona həsr etdiyi şerlərində rast gəlinməkdədir:

"...Alka üç ödki utmışlarnınq yorığları
Arış, arığ kut kolunçuğ tolun bütkərip
Ayağuluğ Tolpı Tüzün yolı özə
Adruk, uluğ tuyunmakığ tuyunayın" [5, s. 202].

"Tolpı Tüzün" (hind mətnlərində "Drona") "adına digər ədəbi nümunələrdə rast gəlinmir. Bu da təbiidir. digər dinlərdə olduğu kimi, buddizmdə də peyğəmbərin övladı olmaq həmin şəxsə başqaları qarşısında heç bir üstünlük vermir. İnsanların üstünlük dərəcələri onların imanının səviyyəsi ilə ölçülür. Elə bu üzdən də Burxan oğlu Tolpı Tüzün Uğan barədə mədhiyyələr yazmağa heç bir ehtiyac olmamışdır və üstəlik də bu, Budda dininin vacibiyyətləri sırasına daxil deyildir.

Şeirlərin məzmunundan göründüyü kimi, Burxanın oğlu buddizm dininin böyük din adamlarından biri kimi tanınmışdır. Fəqət hər dövrdə belələrinin sayı o qədər çox olmuşdur ki, onların hər birini yalnız öz müasirləri və ardıcılları mədh etmişlər. Hər dövrdə mədh edilən yalnız Buddanın (Burxanın) özü idi. Odur ki, Tolpı Tüzün Uğanı tərifləyərək göylərə qaldıran Atsanq Kalam Keysi, şübhəsiz ki, onun müasiri olmalıydı.

Deməli, Astanq Kalam Keysi Buddanın (Burxanın) oğlunun müasiri olmuşdur, yəni e.ə. V əsrdə yaşamışdır və onun şeirləri də e.ə. V əsr sak dilinin və ədəbiyyatının nümunəsidir. Hər halda, o, şeirini yazanda artıq Burxan (Budda) həyatda yox idi. (O, səksən yaşında ölmüşdür). Bu, aşağıdakı misralardan məlum olur" [17, s. 135]:

"Sarvaartasıdı tiqin ad önqdünlüq
Səkiz on yaş yaşamışın körkitmiş erür.
Sartavahı yolçu yirçi aşiça yimə
Sanı yüz minq koldınayut yıl, ay yaşayur" [5, s. 211].

Təqdim etdiyimiz nümunələrdən belə aydın olur ki, bu poetik "misraların sonları öz aralarında qafiyələnmir. Yəni bu şeirlər sonuyumlu yox, önuyumludur. Eyni halı Pratyaya Şiri və Kiki kimi digər buddist şairlərin də əsərlərində müşahidə etmək mümkündür" [17, s. 136].

Pratyaya Şirinin aşağıdakı misraları deyilənlərə ən gözəl misaldır:

“Utmışlarnınq vısayı Buda Avatansana
Uluğ kölünqü sundurta uz tiripnomlamış,
Uğanlarnınğ on kut kolunç yozığı bu nomuğ
Una ani iyin kəziqçə okıdı sözlərim” [5, s. 193].

Eyni halla Kikinin aşağıdakı şeirində də ratlaşırıq:

“Etüzlərinqə yaraşı
Erdiniliq idiq tüməkin
Enqəyü yoz yoçan yarudur
Esrinqü yaruklar önmişin...” [5, s. 219].

Çısuya Tutunqun şeirlərində isə fərqli mənzərə ilə üzləşirik. Belə ki, onun şeirləri üçün həm ön uyumluluq, həm də sonuyumluluq xarakterikdir. Bu xüsusiyyət onun əsərlərini Atsanq Kalam Keysi, Pratyaya Şiri və Kikinin şeirlərindən fərqləndirən əsas cəhətdir:

“Önq başlap, adkanğularka biliqlər kaçar,
Öküş kara, ayığ yolluğ uruğuğ saçar.
Öqlüq kişi istimtutçı yaşmaksız baçar,
Öşəliksiz yiq nirvanınğ kapığın açar.
Burkan kənti könqül erür, könqül ok Burkan,
Bulamı mat bölsər bolur sansarta turğan,
Brdulmasar ikiqükə bulup ol nırvan,
Bu bir sözni setirək boldı bakışta sorqan” [5, s. 187].

Diqqətlə nəzər salsaq, görərik ki, “Çışuya Tutunqun şeirini digərlərindən fərqləndirən başqa bir cəhət isə şivə fərqidir. Məsələn, təqdim olunan nümunənin ikinci beytinin ikinci sözü "özü" mənasında işlənən "kənti" (kəndi) kəlməsidir. Halbuki, Atsanq Kalam Keysidə "özüm" termini işlənməkdədir... Ortada açıq-aydın bir forma və çox çüzi bir şivə fərqi var. Bu isə Atsanq Kalam Keysi, Pratyaya Şiri və Kikinin şerlərini “Sak ədəbiyyatı” (e.ə.Vl-ll əsrlər) kateqoriyasına, Çışuya Tutunqun şeirlərini isə bir neçə əsr sonrakı dövrün məhsulu olan “Kuşan (Ağ Hun) ədəbiyyatı” (e.ə. II-b.e. IV əsrlər) kateqoriyasına aid etməmizə imkan verir” [17, s.137].

İslamdan öncəki Türk poeziyasından söz açarkən özünü peyğəmbər elan edən, dinini yaymaq üçün xüsusi bir əlifba (manixey əlifbası) icad edən tanınmış şair, mühəndis və rəssam Manini də unutmamalıyıq. III əsrdə yaşayıb yaradan bu şəxs Babildə dünyaya göz açsa da, atasının əslən Cənubi Azərbaycanın Həmədan şəhərindən bir Parfiya (skif) şahzadəsi olduğu məlumdur. O da məlumdur ki, dövrümüzədək manixey əlifbasında yetişən bütün mətnlər, istisnasız olaraq, türkcədir. Bu sırada Maninin öz qələminə məxsus olduğu heç bir şübhə doğurmayan, elmi ədəbiyyatda “Nom” (Qayda) və ya “Tanrı Bitigi” (Tanrı Kitabı) adı ilə məşhur olan kitabın adını da xüsusi çəkməliyik.

Aşağıdakı şeir parçasında həm “Nom”, həm də “Tanrı Bitigi” terminlərinə rast gəlirik ki, bu fakt həmin parçanın sözügedən kitabdan kiçik bir hissə olduğunu və bilavasitə Maninin qələminə məxsus olduğunu söyləməyə əsas verir:

"Tüzün, bilgə kişilər, üriləlim,
Tenqrinin Bitigin biz işidəlim.
Törən iliq tenqrilərkə tapınalım,
Tört uluq emgəkdə kurtulalım.
Tört iliq tenqrilərdə tanızmalar,
Tünqri Nomun todaqmalar..."
Çağdaş türkcəmizdə:
"Düzülün, bilikli kişilər, nəfəs dərlim,
Tanrının kitabını biz eşidəlim.
Təntənə ilə tanrılara tapınalım,
Dörd ulu əzabdab biz qurtulalım.
Dörd... (?) tanrıları tanımayanlar,
Tanrı qaydasına uymazlar..." [5, s. 125-127].

Beləliklə, İslamdan öncə çox zəngin bir Türk poeziyasının olduğunu görməkdəyik**.**

Qaynaqça:

1. Bang W. und A. von Gabian. uigurische Studien. l. Das sündenbekenntnis aus dem Suvarnaprabhaşa, Ujb., Bd. X, H.3, 1930.
2. Bang W. und A. von Gabian. Türkische Turfan-Texte. lV, Ein uigurische Sündebekenntnis. SPAW, 1930a, XXlV.
3. Bang W. und A. von Gabian. Türkische Turfan-Texte. V, Aus buddhischen Schriften, SPAW, 1931, XlV.
4. Bang W. mit A. von Gabian und G.R.Rachmeti. Türkische Turfan-Texte. Vl, Das buddhische Sutra Sakiz yükmak, SPAW, 1934, X.
5. Cəfərov N. Qədim türk ədəbiyyatı. "AzAtaM", B., 2004.
6. Gabian A., von. Die uigurische Überzetzung der Biographie Hüen-tsangs. SPAW, 1935.
7. Gabian A., von. Türkische Turfan-Texte. X, Das Avadana des damons Atavaka. Bearbeitet von Tadeusz Kowalski? ADAW, 1958, №1.
8. Катанов Н. Ф. Образцы народной литературы тюркских племен изданные В. Радловым. Наречие урйанхайцев (сойотов), абаканских татар и карагасов. Тексты, собранные и переводенные Н. Ф. Катановым. Спб.: Изд-во АН, 1907.
9. Müller F.W.K. Uigurika ll. APAW, 1910. Abh. III.
10. Müller F.W.K. Uigurika lll. Uigurische Avadana-Bruchstüke (l-Vlll). APAW, 1922. №2.
11. Müller F.W.K. Uigurika lV. Herausgegeben von A. von. Gabian. APAW, 1931, XXlV.
12. Ögəl B. Böyük Hun imperiyası. I-II c.,"Gənclik", B., 1992.
13. Pelliot P. La version euigoure de l"histoe des princes kalyanamakra et Papamkara. T"oung Pao, v, XV, Leide,1914.
14. Radloff W. Tişastvustik. Ein in türkischer Sprache bearbeitetes buddhistisches Sutra. BB, Xll, St.-Petersb., 1910.
15. Suvarnaprabhasa, (Сутра Золотого блеска). Текст уйгурской редакции. Издали В.В.
16. Tekin Ş. Kuanşi im Pusar (Ses işiten ilah). Vap huaki atlığ nom çeçeki sudur... Atatürk Universitesi yayınları, araştırmaları serisi, edebiyat və filoloji, №2, Erzurum, 1960.
17. Tuncay B. Sakların tarixi, dili və ədəbiyyatı // "Turuz" Dil ve Edebiyat Kütübhanesi, 2012 (https://turuz.com/book/title/Sakalar%C4%B1n+Tarixi+Dili+V%C9%99+%C6%8Fd%C9%99biyat%C4%B1-B%C9%99xtiyar+Tuncay).
18. Yeni Türk Ansiklopedisi. 12 c. "Ötüken", Ankara, 1985.
19. Древнетюркский словарь. Ленинград, «Наука», 1969.

TÜRK DÖVLƏTLƏRİNİN ZƏFƏRDƏN SONRA QARABAĞDA QURUCULUQ DƏSTƏYİ: TARİX, HƏMRƏYLİK VƏ GƏLƏCƏK

Fidan Şahmalıyeva
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun elmi işçisi, doktorant
sahmaliyevafidan96@gmail.com
Elmi rəhbər: t.e.d. Güllü Yoloğlu

Açar sözlər: *Zəfər, Qarabağ, türk dövlətləri, həmrəylik, quruculuq, gələcək*
Keywords: *Victory, Karabakh, Turkish states, solidarity, reconstruction, future*

8 noyabr 2020-ci ildə Şuşa şəhərinin düşmən işğalından azad olunması ilə Azərbaycan 44 günlük Vətən müharibəsini zəfərlə başa vurdu. Bu zəfər Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə yanaşı, eyni zamanda bütün türk dünyasında həmrəylik ruhunu gücləndirdi. Qeyd edək ki, Qarabağın tarixi irsi və strateji əhəmiyyəti onu yalnız Azərbaycanın deyil, ümumtürk sivilizasiyasının bir hissəsinə çevirir. Azərbaycanın qazandığı bu şanlı zəfər təkcə hərbi qələbə deyil, həm də qardaşlıq, əməkdaşlıq və ortaq dəyərlərin təzahürü oldu. Bu kontekstdə türk dövlətlərinin Qarabağın bərpasında iştirakı yalnız iqtisadi və sosial dəstək deyil, həm də mənəvi və siyasi həmrəyliyin göstəricisidir.

Azərbaycanın türk dövlətləri ilə əlaqələri əsrlərə söykənən ortaq tarix, dil, mədəniyyət və mənəvi dəyərlər əsasında formalaşmışdır. Bu əlaqələr siyasi, iqtisadi, mənəvi və strateji maraqların uzlaşması ilə möhkəmlənmişdir. XX əsrin sonlarında SSRİ-nin dağılması nəticəsində müstəqillik qazanmış türk respublikaları ilə Azərbaycan Respublikası arasında yeni mərhələ başlamışdır. Bu istiqamətdə Türk dövlətlərinin Daimi Mədəniyyət Nazirləri Şurası (TÜRKSOY) əhəmiyyətli rol oynayır. Qeyd edək ki, Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan Respublikalarının Mədəniyyət Nazirlərinin təşəbbüsü ilə 1992-ci ildə İstanbulda və Bakıda keçirilən görüşlərdə bu təşkilatın yaradılması barədə razılıq əldə edilmişdir [4, s.197]. Türk dövlətləri ilə əlaqələrin rəsmi şəkildə əsasını qoyan Türk Dövlətləri Təşkilatının formalaşmasında və fəaliyyətində Azərbaycan mühüm rol oynayır. Bu münasibətlərin əsas istiqamətlərini dövlətlər arasında ticarət dövriyyəsinin artması, enerji layihələri, nəqliyyat-logistika əməkdaşlığı, o cümlədən, təhsil və mədəniyyət sahələrində birgə proqramlar təşkil edir. Qələbədən sonra Cənubi Qafqazda enerji və nəqliyyat sahəsində yeni geosiyasi imkanlar yarandı. Bu da Asiya və Avropa arasında logistika imkanlarını genişləndirir. Qeyd edək ki, Zəngəzur dəhlizi ideyası türk dünyasını birləşdirən mühüm strateji xətt hesab olunur. Bu dəhliz Azərbaycanın Naxçıvanla əlaqəsini təmin edir, Türkiyə-Xəzər-Orta Asiya istiqamətində alternativ nəqliyyat xəttini formalaşdırır.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı zəfər, türk dünyasının birlik ruhunu daha da gücləndirdi. Türk dünyasına liderlik edən Türkiyənin Azərbaycana dəstəyi mühüm əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan və

Türkiyə münasibətləri 2020-ci ildən sonra daha da dərinləşərək qardaşlıqdan strateji müttəfiqliyə keçdi. İki ölkə arasında 15 iyun 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi siyasi və tarixi əhəmiyyətə malikdir [6, s.738]. Azərbaycan xalqının Ümumilli lideri Heydər Əliyevin "bir millət iki dövlət" və Türkiyə Cumhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə səciyyələnən Azərbaycan-Türkiyə əlaqələri məhz Şuşa Bəyannaməsinin imzalandığı gün özünün ən yüksək zirvəsinə qalxdı və yeni bir mərhələnin başlanğıcını qoydu. Bu bəyannamə iki ölkə arasında hərbi-siyasi əlaqələrin hüquqi əsasını daha da gücləndirdi. Ermənistanın 30 illik işğalçılıq siyasətinə son qoyulmasında, işğal altında olan torpaqlarımızın azad olunmasında, ərazi bütövlüyümüzün bərpasında Türkiyənin mənəvi - siyasi dəstəyi xüsusi rol oynadı.

Qarabağda aparılan bərpa işlərində Türkiyənin rolu mühüm əhəmiyyət kəsb edir. Belə ki, Füzuli və Zəngilan Beynəlxalq Hava Limanlarının layihələri Türkiyə şirkətləri tərəfindən həyata keçirilmiş və bölgənin iqtisadi potensialını artırmışdır. 2021-ci ilin oktyabrında Füzuli Beynəlxalq Hava Limanının, 2022-ci ilin oktyabrında isə Zəngilan Beynəlxalq Hava limanının rəsmi açılış mərasimlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak etmişlər. O cümlədən, Türkiyə Azərbaycana mədəni sahədə də öz dəstəyini göstərmişdir. Şuşa şəhərində Yuxarı Gövhər Ağa Məscidi, Aşağı Gövhər ağa Məscidi, Saatlı Məscidinin bərpası layihələrinə Türkiyədən olan mütəxəssislər də cəlb olunmuşlar. Türkiyə Qarabağda bir çox yollar, körpülər, tunellər inşa edir. Ağdam şəhərində sənaye parkları və Füzuli şəhərində infrastruktur layihələrində Türkiyə şirkətləri fəal iştirak edirlər.

Qarabağın bərpasına xüsusi diqqət göstərən türk dövlətlərindən biri də Özbəkistan Respublikasıdır. Füzuli şəhərində istifadəyə verilən Mirzə Uluqbəy adına Füzuli şəhər 1 nömrəli tam orta məktəb bu əməkdaşlığın konkret nümunəsidir. Bu, Qarabağın bərpası işində xarici dövlətin ilk hədiyyəsi idi. 960 şagird yerlik üçün nəzərdə tutulmuş məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, yeməkxana, kitabxana, məktəbin həyətyanı ərazisində futbol meydançası mövcuddur [3]. 2023-cü ilin avqustunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev məktəbin açılış mərasimində birlikdə iştirak etmişlər. Qeyd edək ki, 2024-cü ilin noyabrında Azərbaycan və Özbəkistan Prezidentlərinin iştirakı ilə Xankəndi şəhərində böyük tikiş fabrikinin videobağlantı vasitəsilə açılış mərasimi olmuşdur. Bununla da, bölgədə iqtisadi fəallıq artdı və yeni iş yerləri açıldı.

Qazaxıstan Respublikası Vətən müharibəsindən sonra Qarabağın dirçəlişi prosesinə təhsil sahəsində ciddi töhfələr verir. Buna Qazaxıstan tərəfindən Füzuli şəhərində inşa edilmiş Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzini nümunə göstərmək olar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım - Jomart Tokayev 12 mart 2024-cü ildə Füzuli şəhərində Kurmanqazı adına Uşaq yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak etmişlər [7, s.140]. 600 şagirdin təhsil alması üçün nəzərdə tutulmuş yaradıcılıq mərkəzinin açılış mərasimi za-

manı Prezident İlham Əliyev çıxışında qeyd etmişdir ki, bu mərkəz Qazaxıstan ilə Azərbaycan arasında dostluq və qardaşlıq mərkəzi rolunu oynayacaqdır [1]. Qeyd edək ki, hər iki dövlət bir çox sahələrdə, o cümlədən tranzit və nəqliyyat əməkdaşlığının gücləndirilməsi istiqamətində fəal əməkdaşlıq edirlər.

Qırğız Respublikası da Qarabağa dəstək göstərən dövlətlər sırasındadır. Buna Qırğız Respublikası tərəfindən Ağdam rayonunda tikilən məktəb bariz nümunədir. Belə ki, 2025-ci ilin iyulunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin və Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin açılış mərasimini həyata keçirmişlər. Məktəb 528 şagirdin təhsil alması üçün nəzərdə tutulub [2].

Türkmənistan Respublikasının da Qarabağın bərpasında xüsusi rolu vardır. Buna Türkmənistan tərəfindən Füzulidə inşa ediləcək məscidi nümunə göstərmək olar. 7 oktyabr 2025-ci ildə Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının XII Zirvə Görüşündə iştirak edən digər dövlət və hökumət başçıları Türkmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməlini qoyublar. Türkmənistan tərəfindən Füzulidə inşa ediləcək məscid kompleksinin ümumi ərazisinin 1 hektardan çox olması nəzərdə tutulur. Məscid binasında hər biri 40 metr olmaqla 2 minarə inşa ediləcək və əsas günbəzin hündürlüyü isə 30 metr təşkil edəcəkdir. Burada eyni vaxtda 500 nəfərin ibadət etməsi mümkün olacaqdır [5].

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 15 noyabr 2025-ci ildə Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət başçılarının VII Məşvərət Görüşündə iştirak edib. Qarşılıqlı sıx səfərlər, əməkdaşlıq əlaqələri və artan ticarət dövriyyəsi, eləcə də iqtisadi əlaqələrin müxtəlif sahələrdə dərinləşməsi onu deməyə əsas verir ki, bu region yalnız vahid tarixi-coğrafi məkan deyil, həm də bu gün eyni mövqedən çıxış edən inteqrasiyalaşmış bir birlik kimi formalaşır.

Bütün bunlar onu göstərir ki, türk dövlətlərinin Qarabağa dəstəyi gələcəkdə türk dünyasının inteqrasiyasını və geosiyasi nüfuzunu artıran əsas amillərdən biri kimi xüsusi əhəmiyyət daşıyır. Qarabağda həyata keçirilən hər bir addım yalnız bu günümüz deyil, gələcək nəsillər üçün də nümunə olacaqdır.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan və Qazaxıstan prezidentləri Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər, 2024, https://president.az/az/articles/view/65310. 11.10.2025. Saat- 11:54.

2. Azərbaycan və Qırğızıstan prezidentləri Ağdamın Xıdırlı kənd tam orta məktəbinin təməlini qoyublar. https://www.youtube.com/watch?v=G-KfBGChQmY. 11.11.2025. Saat- 12:02.

3. Elxan Salahov, Qarabağın bərpasına qardaş hədiyyəsi. Vətən səsi, Onlayn qəzet, 2023, https://vetensesi.az/page/19/news/13464. 11.10.2025. Saat- 11:51.

4. Mahir İbrahimov. Türk Devletleri Teşkilatı – Türkçülükden Turana Giden Yol (Tarih ve Gerçekler), X Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu, 14-16 iyun, 2023, Almatı-Qazaxıstan, s.187-204.

5. Türmənistan tərəfindən Füzulidə tikiləcək məscidin onlayn formatda təməli qoyulub. Azərtac, https://azertag.az/xeber/turkmenistan_terefinden_fuzulide_tikilecek_mescidin_onlayn_formatda_temeli_qoyulub_video-3790055. 11.11.2025. Saat- 12:08.
6. Durdu Mehmet Özdemir, Gökmen Kantar. Şuşa Beyannamesinin Önemi ve Olası Etkileri. Dergipark, Manas Sosyal Araştırmalar Dergisi, 2023-cü il, Cild 12, №2, s.733-744.
7. Гюллю Йологлу. Азербайджано-Казахстанские Отношения. В Прошлом и Настоящем, Баку-2025. с.154.

BEYNƏLXALQ TÜRK MƏDƏNİYYƏTİ TƏŞKİLATININ (TÜRKSOY) TÜRK DÜNYASI ÜÇÜN ƏHƏMİYYƏTİ VƏ ONUN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

Nərmin Əhmədli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Slavyan ölkələri tarixi" kafedrasının doktorantı
ehmedlinermin1@gmail.com
Elmi rəhbər: t.ü.e.d., professor Fazil Baxşəliyev

Açar sözlər: *Türk xalqları, mədəniyyət, TÜRKSOY, birlik, inkişaf*
Keywords: *Turkic peoples, culture, TURKSOY, unity, development*

SSRİ-in dağılmasından sonra müstəqillik qazanan türk dövlətləri qardaşlıq bağlarının güclənməsi üçün İsmayıl bəy Qaspiranlının "dildə, fikirdə və işdə birlik" ifadəsini özlərinə şüar edərək yaxınlaşmağa başladılar. Bu yolda görülən işlər içərisində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY-un) rolu böyükdür. Azərbaycan Respublikası, Türkiyə Respublikası, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası, Özbəkistan Respublikası və Türkmənistan tərəfindən 1993-cü il 13 iyul tarixində Qazaxıstanın Almatı şəhərində TÜRKSOY-un yaradılması haqqında razılaşma imzalanmışdı. Bu təşkilata sonradan Şimali Kipr Türk Respublikası, Rusiya Federasiyasının tabeliyində olan müxtar respublikalar (Altay, Tatarıstan və s.) daxil olmuşdular. Bu təşkilat bugün türk dövlətlərinin inkişafında və qarşılıqlı fəaliyyətlərində çox mühüm yer tutmaqdadır.

TÜRKSOY-un əhəmiyyəti türk dünyası üçün böyükdür. Belə ki, türk dünyasının UNESCO-su (United Nations Educational, Scientific and Cultural Organization) hesab edilən TÜRKSOY türk xalqlarının qardaşlığını və birliyini türk dünyasının mədəniyyətini inkişaf etdirərək gücləndirməyi hədəfləməkdədir [3, s.167].

TÜRKSOY-un qarşıya qoyduğu məqsədlər onun türk dünyası üçün çox önəmli olduğunu göstərməkdədir. Bu məqsədlər 1994-cü ilə aid "TÜRKSOY-un yaradılması və fəaliyyət prinsipləri haqqında razılaşmanın təsdiqlənməsi" barədə qanunda öz əksini tapmışdı. Bu məqsədlər içərisində xüsusi yer tutanlar bunlardır: 1. Türk mənşəli və türk dili danışan, türk ölkələri və xalqlarının bir-birini daha yaxşı başa düşməsini təmin etmək; 2. Türk mədəniyyətinin bütün insanlıq mədəniyyətinin formalaşmasında vacib yer tutduğunu göstərmək; 3. Türk dilində danışan ölkə və

xalqların mədəniyyətinin qorunması, yenidən canlandırılması, inkişaf etdirilməsini təmin etmək; 4. Gələcək nəsillərə milli dəyərləri öyrətmək[6]. Bunlardan başqa təşkilatın məqsədləri arasında teatr, opera, musiqi, xalq rəqsləri kmi məsələlərdə tədbirlər, festivallar hazırlamaq da vardır. Həmçinin bu sıraya ümumi türk dilinin, tarixinin, mədəniyyətinin inkişaf etməsində böyük işlər görmüş insanların ildönümü münasibətilə tədbirlər təşkil edilməsini də daxil etmək olar.

TÜRKSOY-un əhəmiyyəti haqqında dövlət başçıları fikir bildirmişdilər. Məsələn: Qazaxıstan Respublikasının keçmiş prezidenti N.Nazarbayev TÜRKSOY-un heyətini nəzərdə tutaraq demişdir: "Türk dünyasındakı ölkələrin prezidentləri olaraq bizlər dövlətlərimizi bir-birinə yaxınlaşdırdıq, sizlər isə mədəniyyət və sənət üzərində xalqlarımızı yaxınlaşdırmalısınız". Həmçinin 2002-ci ildə Qırğızıstan Respublikasının keçmiş prezidenti A.Akayev TÜRKSOY-un yaradılmasının ildönümü münasibəti ilə etdiyi təbrikdə bu təşkilatın türk mədəniyyətinin qorunmasına, o cümlədən inkişaf etdirilməsindəki əhəmiyyətli rolunu xüsusilə vurğulamışdı [3, s.170]. TÜRKSOY-a Ulu Öndər Heydər Əliyev də yüksək qiymət vermişdi. Ümumilli lider 2003-cü ildə TÜRKSOY-un üzvü olan ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurasının XIX İclasında çıxış edərkən bildirmişdir: ".... TÜRKSOY hamını birləşdirir. Ona görə biz sizin təşkilata çox diqqət yetirir, əhəmiyyət veririk" [5, s.8]. Ulu öndərin bu sözlərindən aydın olur ki, bu təşkilat türk xalqlarının birliyinin güclənməsində və inkişaf etməsində mühüm rol oynamaqdadır.

Yuxarıda qeyd olunan şəxsiyyətlərlə yanaşı TÜRKSOY-un əhəmiyyətini Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev də vurğulamışdır. Məsələn: Prezident İ.Əliyev 2015-ci ildə Qazaxıstan Respublikasının Astana şəhərində Türk Dilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) V Sammitində olan çıxışında humanitar sahədə mövcud olan əlaqələrin gücləndirilməsinin vacibliyini bildirmiş və bu baxımdan TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirdiyini vurğulamışdı. Cənab Prezident İ.Əliyevin TÜRKSOY-a verdiyi dəyəri və əhəmiyyəti bu təşkilat özü də yüksək qiymətləndirmişdir. Məsələn: 16 Sentyabr 2009-cu ildə TÜRKSOY-un Baş Katibi D.Kaseinov Bakıda Prezident İ.Əliyev ilə görüşündə təşkilata verdiyi dəstək üçün öz təşəkkürünü bildirmişdi. Həmçinin bunu da qeyd etmək istərdim ki, 2012-ci il mart ayının 9-da Prezident İ.Əliyev D.Kaseinovun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam vermişdi [5, s.34-35]. Göstərilən bu faktlar Azərbaycannın TÜRKSOY ilə münasibətlərinin yüksək səviyyədə inkişaf etdiyini göstərməkdədir. Ümumiyyətlə, bir məsələni qeyd etmək vacibdir ki, Azərbaycan Respublikası türk dövlətlər ilə əlaqələrin qurulması və inkişafında hər zaman mühüm addımlar atmışdır və buna da davam etməkdədir.

TÜRKSOY-un fəaliyyəti də türk dünyasında önəmli yer tutur. Bu təşkilatın fəaliyyəti Mədəniyyət Nazirləri Daimi Şurası tərəfindən müəyyən edilir. Bu şuraya Baş Katib rəhbərlik edir və şura hər il təşkil edilir. Keçmiş mədəniyyət nazirimiz P.Bülbüloğlu 1993-cü ildə bu təşkilatın ilk Baş Katibi olmuşdur. 2008-ci ildən etibarən bu təşkilata Qazaxıstan Respublikasının musiqi xadimi D.Kaseinov Baş Katib seçilmişdir. TÜRKSOY-a 2022-ci ilin mart ayında Qırğızıstan Respublikasın-

dan olan S.Raev başçı seçilmişdi. TÜRKSOY-un fəaliyyətini genişlənməsində vacib amillərdən biri onun digər qurumlarla əməkdaşlıq etməsidir. Belə ki, 1996-cı ildə UNESCO ilə əlaqələr qurulmuşdu. Bundan başqa bu təşkilat Beynəlxalq Türk Akademiyası, Türk Dövlətləri Təşkilatı və s. münasibət qurmuşdur[1].

TÜRKSOY-un fəaliyyətinin ilk illərində, yəni 1993-cü ildən 2006-cı ilə qədər üzv ölkələr arasında qarşılıqlı tanışma məsələsi önəmli yer tutmuşdur. Çünki müstəqilliklərini qazandıqları vaxtdan sonra ölkələrin öz kökləri ilə tanış olması, üzv ölkələr arasındakı özgələşmənin aradan qaldırılmasına doğru addımlar atılmışdı. Məsələn: Dədə-Qorquddan Koroğluya, Manasdan Abaya qədər çoxlu ortaq mədəni şəxsiyyət və dəyərlər yenidən canlandırılmışdır [7, s.267]. Qədim türk dastanları və eposlarının araşdırılması həm türk xalqlarının birliyini artırır, həm də onlarının qədim tarixə malik olduğunu göstərir.

Bu təşkilatın fəaliyyətində ən önəmli məsələlərdən biri isə Türk Dünyasının Mədəniyyət Paytaxtının müəyyən edilməsidir. Bu formada TÜRKSOY türklərin mədəniyyətini, memarlığının, turizmini və s. dünyaya tanıdaraq bu haqda məlumat əldə etməklərini təmin etməkdədir. Türk Dünyası Mədəniyyət Paytaxtının müəyyən edilməsi 2012-ci ildən başlanmışdır və hər il seçilməkdədir. Elə həmin ildə paytaxt olaraq Qazaxıstan Respublikasının Astana şəhəri müəyyən edilmişdi. 2013-cü ildə Türkiyə Respublikasında yerləşən Əskişehir paytaxt olaraq seçilmişdi [2, s.489]. 2016-cı ildə Şəki şəhəri Türk Dünyasının Mədəniyyət paytaxtı seçilmişdi. 2022-ci ildə Türkiyənin Bursa şəhərində TÜRKSOY-a üzv ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurasının növbədən kənar iclasında öz memarlığına və şəhərsalmasına görə 270 ildən artıq tarixə malik olan Şuşa şəhəri Türk Dünyası Mədəniyyət Paytaxtı elan edilmişdir [4]. 2024-cü ildə Türkmənistanın Anev şəhəri, 2025-ci ildə isə Qazaxıstanın Aktau şəhəri seçilmişdi [3, s.168].

O cümlədən yuxarıda qeyd edildiyi kimi TÜRKSOY türk dünyasındakı önəmli şəxsləri də unutmur. Həmin şəxslər üçün anım günləri və tədbirlər təşkil edilir. Məsələn: 100-cü ildönümü münasibəti ilə Qazax xalq qəhrəmanı, bəstəkar N.Atabayoğlu, 125-ci ildönümü münasibəti ilə Qırğızıstanın xalq sənətçisi A.Oganbayev və digər tədbirlər təşkil edilmişdi. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı tərəfindən Azərbaycanın görkəmli şəxsiyyətlərinin də ildönümlərinə aid tədbirlər təşkil edilir. Belə ki, Rəsul Rzanın 100-cü ildönümünə həsr olunmuş tədbir 2010-cu ildə keçirilmişdir. 2012-ci ildə Əhməd Cavadın 120-ci ildönümü qeyd edilmişdi. Eyni ildə Hüseyn Cavidin 130 illiyinə aid tədbir keçirilmişdir. 2014-cü ildə Əli bəy Hüseyzadənin 150 illiyi keçirilmişdir. 2016-cı ildə Səməd Vurğunun 150 illiyinə həsr olunmuş tədbir təşkil edilmişdir [5, s.66,96, 100,104]. Bu tədbirlər türk xalqlarının böyük şəxsiyyətlərinin yaradıcılıqlarının, fəaliyyətlərinin tanınmasında çox mühüm rola malikdir. O cümlədən bu formada həmin şəxsiyyətlərin öz fəaliyyətləri ilə ölməzlik qazandıqları bəlli olur.

TÜRKSOY-un fəaliyyətidəki digər önəmli məsələ isə sənətkarların görüşlərinin keçirilməsidir. Məsələn: 2021-ci ildə təşkil edilən şairlərin görüşündə Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Başkürdistan, Şimali Makedoniya-

dan olan şəxslər iştirak etmişdi. Bu görüşlər hər il fərqli ölkələrdə təşkil edilməkdədir. Həmçinin bu təşkilat tərəfindən festivallar və konsertlərdə təşkil edilir. Məsələn: TÜRKSOY və Qırğızıstan tərəfindən hazırlanmış "Birinci Supara: Türk Xalqlarının Ənənəvi Mətbəxinin Etno Festivalı"-da türk xalqlarının başçıları iştirak etmişdir. Həmçinin təşkilat tərəfindən konsertlər də təşkil edilir. Buna nümunə kimi 2012-ci ildə Bakıda keçirilən "Türk Dünyası Sarı Gəlin Konserti"-ni göstərmək olar [5, s.148]. O cümlədən TÜRKSOY türk mədəniyyətini tanıtmaq üçün müxtəlif nəşrlər etməkdədir. Məsələn: Azərbaycan Respublikası, Özbəkistan Respublikası, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası və Türkmənistanın müstəqilliklərinin 20-ci il dönümünə həsr olunmuş jurnalları TÜRKSOY tərəfindən hazırlanmışdır. Həmçinin bu jurnallar 3 dildə yayımlanmışdır [3, s.169].

Avrasiyanın geniş bölgəsində bir çox xalqın bayram etdiyi, baharın gəlişini göstərən Novruz TÜRKSOY-un fəaliyyətində mühüm yer tutur. Məhz bu təşkilatın UNESCO ilə münasibətlər qurması Novruz bayramının Qeyri-maddi mədəni irs siyahısına salınmasına öz töhfəsini vermişdir. Bu bayram bugün Almaniya, Avstriya, İngiltərə, ABŞ və başqa ölkələrdə də qeyd edilir.

TÜRKSOY çərçivəsində Azərbaycan, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkiyə, Türkmənistan mədəniyyətlərini bir-birinə tanıtmaq üçün "Mədəniyyətlərin Bir-biri ilə İnteqrasiyası" çərçivəsində restoranlar, "Mədəniyyət Evləri" yaradırlar [7, s.267].

Ümumiyyətlə, TÜRKSOY-un əhəmiyyəti türk dünyası üçün çox böyükdür. Bu təşkilatın fəaliyyəti türk xalqlarının mədəniyyətinin inkişaf etməsində və türk xalqlarının yaxınlaşmasında əhəmiyyətli rola malikdir. Bununla yanaşı məhz TÜRKSOY türklərin mədəniyyətinin dünyada tanınması məsələsində də mühüm rolu vardır. Bu məsələdə təşkil edilən tədbirlərin əhəmiyyəti böyükdür.

Ədəbiyyat siyahısı:

1. Bu gün TÜRKSOY-un yaradılmasının 30 ili tamam olur// https://azertag.az/xeber/-bu_gun_turksoy_un_yaradilmasinin_30_ili_tamam_olur-2691388 . 16.11.2025

2. E.Sevin. TÜRKSOY üzerinde Türk komu diplomasisinin dış politikaya etkisine bir bakış// Türk Dış Politikası ve kamu diplomasisi. Ankara, 2015, s.467-498

3. F.Ozar. TÜRKSOY-un Türk kültür diplomasisine KATKILARI ve geleceği// XI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu. Bakı, 2024, s.165-174

4. Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı// https://president.az/az/articles/view/58115 . 16.11.2025

5. TÜRKSOY-Azərbaycan. Ankara, 2016, 221s.

6. TÜRKSOY-un Kuruluşu ve fealiyyet ilkeleri hakkında anlaşmanın onaylanmasının uygun bulunduğuna dair kanun// https://share.google/ncVXFly4PQ6S550Ux .17.11.2025

7. 3. Uluslarası türk dünyası turizm sempozyumu. Bişkek, 2017, 1282 s.

TARİXİ DÜNYAGÖRÜŞÜN FƏLSƏFİ ƏSASLARINA DAİR

Aytac Nəcəfli
Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin
"Fəlsəfə" kafedrasının I kurs doktorantı
necefliaytac1999@mail.ru
Elmi rəhbər: f.ü.f.d. Nəzakət Kərimova

Açar sözlər: *tarixi proses, ilk təsəvvürlər, humanitar elmlər, təbiət elmləri, obyektivlik problemi*
Keywords: *historical process, first ideas, humanities, natural sciences, problem of objectivity*

Humanitar elmlərin fəlsəfi əsasları haqqında ilk fikirlər müasir dövrün tarix fəlsəfəsi əsasında formalaşmışdır. Tarix fəlsəfəsinin əhatə dairəsini təşkil edən problemlər qədim yunan-Roma fəlsəfəsinə (antik fəlsəfə) tamamilə yad idi. "Tarixin atası" Herodot üçün tarix sadəcə olaraq müxtəlif xalqların bir-biri ilə əlaqəsi olmayan adət-ənənələrini, həyat tərzini və peşələrini təsvir edən hekayələr toplusu idi. Tarixə bütün bəşəriyyəti əhatə edən vahid proses kimi yanaşmaq qədim mədəniyyətə tamamilə yad dünyagörüşünün məhsuludur və bu dünyagörüşünün əsasları əsrimizin ilk əsrlərində xristian monoteizmi əsasında formalaşmağa başlamışdır [7, s.6].

Sokratdan əvvəlki sistemlər V əsrin ikinci yarısında skeptik hərəkatla qarşılaşdılar ki, onun da ən mühüm siması sofistlərin başçısı Protaqor idi. "Sofist" sözü ilkin olaraq mənfi məna daşımırdı; demək olar ki, bizim indi "professor" dediyimiz şeyin sinonimi idi. Sofist gənclərə praktiki həyatda faydalı hesab edilən şeyləri öyrətməklə pul qazanan adam idi. Bu cür təhsilə ictimai dəstək olmadığı üçün sofistlər yalnız şəxsi imkanları olanlara və ya valideynlərinin imkanı olanlara dərs deyirdilər. Bu vəziyyət onlara müəyyən sinfi təəssübkeşlik bəxş etdi və bu, dövrün siyasi şəraiti ilə daha da gücləndi. Afinada və bir çox başqa şəhərlərdə demokratiya siyasi cəhətdən qalib gəlmişdi, lakin köhnə aristokrat ailələrə mənsub olanların sərvətini azaltmaq üçün heç bir iş görülməmişdi. Ümumiyyətlə, bizə ellinizm mədəniyyəti kimi görünənləri təcəssüm etdirənlər varlılar idi: onlar savadlı idilər və asudə vaxtları olurdu, səyahətlər onların ənənəvi qərəzlərinin kəskinliyini azaldıb, mübahisələrə ayırdıqları vaxt isə intellektlərini kəskinləşdirib [2, s.73].

Tarixi şüurun mövcudluğunun ilkin şərti keçmiş, indi və gələcək arasındakı keyfiyyət fərqinin dərk edilməsidir. Buna görə də, Allahın Oğlunun İsa Məsihin simasında təcəssümünü o vaxtdan əvvəl baş verən bütün hadisələrdən əsaslı şəkildə fərqləndirən xristian dini dünyagörüşüdür. Bu hadisənin baş verməsi ilə zaman keyfiyyətcə iki fərqli hissəyə bölünür: bu hadisədən əvvəl keçmişdə olanlar və gələcəkdə olacaqlar. Beləliklə, Tanrının təcəssümü zaman oxunda başlanğıcın əsas hadisəsi kimi başa düşülür və onun dərk edilməsi bəşəriyyətin bütün keçmişinin tarixi araşdırılmasını tələb edir [3].

Xristian dini dünyagörüşü çərçivəsində yüksələn xətt üzrə keçmişdən gələcəyə doğru istiqamətlənmiş zaman haqqında yeni təsəvvürlərin meydana çıxması ilə in-

san və cəmiyyət həyatına tarixi proses kimi yanaşma meydana çıxdı. Tarix fəlsəfəsi, ilk dəfə olaraq, məhz bu yanaşma çərçivəsində formalaşdı. Onun ilk nümunəsini erkən orta əsrlərin görkəmli xristian ilahiyyatçısı və dini fəlsəfənin yaradıcılarından biri olan Avreli Avqustin (Müqəddəs Avqustin) irəli sürdü.

XV-XVI əsrlərdən başlayaraq, Avropada sənətkarlığın və ticarətin inkişafı, eləcə də kapitalist münasibətlərinin tədricən təşəkkül tapması iri şəhərlərin meydana çıxmasına səbəb oldu. Orta əsrlər aqrar cəmiyyətinin zamanın gedişinə etinasız münasibətindən fərqli olaraq, iri şəhərlərdə sosial-iqtisadi və mədəni həyat templəri kəskin şəkildə yüksəlməyə başladı. Dəyişkənlik və inkişaf ideyaları şüurlara getdikcə daha çox nüfuz edir, bu isə öz növbəsində orta əsrlərdə dini dünyagörüşü zəminində formalaşmış tarixi proses haqqında təsəvvürlərin geniş yayılması üçün əlverişli sosiomədəni mühit yaradırdı.

Əsrlər boyu, paradoksları həll etmək, konseptual çaşqınlıqlardan qaçmaq və ya empirik çıxılmaz vəziyyətdən qaçmaq üçün bir fənnin əsas fərziyyələrinin yenidən nəzərdən keçirilməsinin mütəfəkkirin daha çox alim, filosof və ya ilahiyyatçı kimi tanınmasından asılı olmayaraq həm fəlsəfə, həm də intizamın özü üçün mərkəzi əhəmiyyət kəsb etdiyi müntəzəm olaraq qəbul edilmişdir.

Dünyəvi fəaliyyət formalarının inkişafı Avropada tədricən elmi düşüncənin əsaslarının təşəkkül tapması üçün münbit zəmin yaratdı. Cəmiyyətin mənəvi-intellektual və sosial-iqtisadi həyat sferalarında baş verən köklü dəyişikliklər öz nəticələrini çox gözlətmədi: XVII əsrdən başlayaraq, Avropada kilsənin göstərişlərinə deyil, rasional düşüncəyə istiqamət götürmüş dünyəvi cəmiyyət formalaşmağa başladı.

Rasional-elmi düşüncəyə istinad edən dünyəvi cəmiyyətin meydana çıxması orta əsrlərdə dini dünyagörüşü zəminində formalaşmış tarix fəlsəfəsinin məzmununda əsaslı dəyişikliklər yaratdı. Yeni dövrün tarix fəlsəfəsinin nümayəndələri dini tarix fəlsəfəsinin bəşəriyyətin tarixinə istiqamətlənmiş proses kimi yanaşmasını mənimsəsə də, bu prosesin mahiyyəti haqqında öz sələflərindən tamamilə fərqli ideyalar irəli sürdülər. Bu fərq ilk növbədə onların müasiri olduğu cəmiyyətin dünyəvi xarakteri və rasional düşüncə zəminində meydana çıxmış elmlərin dövrün dünyagörüşünə ciddi təsiri ilə şərtlənirdi. Yeni dövrün tarix fəlsəfəsi bəşəriyyətin tarixini və təkamül xüsusiyyətlərini dinə istinadən deyil, o dövrün elmi nəzəriyyələrinə əsaslanaraq, təbii səbəblərlə izah etməyə çalışırdı.

Yeni dövr elminin qısa bir zaman kəsiyində keçdiyi böyük inkişaf yolu dövrün dünyagörüşündə elmin misilsiz bir nüfuz qazanmasına səbəb oldu. Elmin cəlbedici nailiyyətləri məntiqi təhlil, mücərrədləşdirmə, induksiya və deduksiya kimi təfəkkür metodları sayəsində əldə edildiyinə görə təfəkkürün, ümumiyyətlə, insan ağlının fövqəladə imkanları haqqında ideyalar geniş yayılmağa başladı. Ağılın sərhədsiz inkişaf potensialı haqqında təsəvvürlər XVIII əsrdə Avropada Maarifçilik ideologiyasının təşəkkül tapmasına səbəb oldu.

Maarifçilər əmin idi ki, mədəni və sosial gerçəkliyin inkişafı ağılın, onun daşıyıcıları olan elmin və maarifin tərəqqisi ilə şərtlənir. Maarifçilik ideyalarından çı-

xış edən tarix fəlsəfəsi üçün tarixi prosesin daim yüksələn xətt üzrə baş verən inkişafda olduğunu hökm edən tərəqqi konsepsiyası səciyyəvi idi. Yeni dövrün tarix fəlsəfəsinin nümayəndələri əmin idilər ki, bütün bəşəriyyət üçün ümumi olan tarixi tərəqqi prosesinin gerçək həyatda rastlaşdığı çətinliklər insanların bu sahədə biliklərinin qıtlığından, bu sonuncu isə öz növbəsində humanitar elmlərin son dərəcə zəif inkişaf etməsindən irəli gəlir. Mədəni-tarixi tərəqqinin qarşılaşdığı ziddiyyətləri aradan qaldırmaq üçün humanitar elmlərin inkişafını qabaqcıl təbiət elmlərinin fəth etdikləri zirvəyə çatdırmaq lazımdır. Bu məqsədlə humanitar elmlər təbiət elmlərinin metodologiyasını mənimsəməklə və onların aşkar etdiyi nəzəri prinsiplərə söykənməklə özlərinin elmi strukturunu formalaşdırmalıdır. Maarifçiliyin tarix fəlsəfəsini qabarıq şəkildə ifadə edən J. Kondorse bəşəriyyətin tərəqqisi haqqında maarifçilik ideyalarını təbiət elmlərinin aşkar tərəqqisinə istinad edərək əsaslandırmağa çalışırdı [5, s.245-246]. Y.Habermas bu cür cəhdlərin zəkanı "öz daxili məntiqi üzrə inkişaf edən bir qüvvə" kimi anlayan təsəvvürlərdən qaynaqlandığını qeyd edirdi [6, s.151]. Beləliklə, tarix fəlsəfəsi təbiətşünaslığı humanitar elmlərin inkişafı üçün örnək olan bir model kimi görürdü.

Təbiət elmlərindən hansının bir model kimi qəbul edilməsindən asılı olaraq, XVIII-XIX əsrlərin tarix fəlsəfəsində bir sıra naturalist məktəblər meydana çıxdı. Ən geniş yayılmış məktəblərdən biri Nyutonun yaratdığı klassik mexanikanı humanitar elmlər üçün model hesab edən mexaniki məktəb idi. Bu məktəbin nümayəndələri insan və cəmiyyət haqqında elmləri Nyuton mexanikasının anlayış və prinsiplərindən çıxış etməklə yaratmağı təklif edirdilər.Coğrafi determinizm məktəbi müvafiq cəmiyyətdə cərəyan edən sosial-siyasi və mədəni proseslərin mahiyyətini anlamaq üçün təbii-coğrafi mühitin xüsusiyyətlərinə müraciət etməyi və bu zaman coğrafiya elmini bir örnək olaraq qəbul etməyi zəruri hesab edirdilər. Naturalist məktəblərin böyük bir qrupu humanitar elmlərin nəzəri-metodoloji əsaslarını biologiyanın verdiyi biliklərə istinad etməklə formalaşdırmağın daha məqsədəuyğun olduğunu iddia edirdilər.

Naturalist məktəbin nümayəndələri humanitar elmlərin nəzəri və metodoloji əsaslarını elmi zəmin üzərinə köçürmək istəsələr də, onların rəhbər tutduqları "elm" anlayışı təbiət elmləri zəminində formalaşmış və sosial-humanitar gerçəkliyə adekvat olmayan təsəvvürlərlə kifayətlənirdi. Naturalist məktəblərin yol verdiyi bu ciddi səhvin mənbəyi sosial-tarixi gerçəkliyin varlığın təbiətdən mahiyyətcə fərqli bir forması olduğunun dərk edilməməsi ilə bağlı idi. Bu fərqi daha dərindən dərk edə bilmək üçün ilk növbədə təbiət elmləri ilə humanitar elmlərin predmetlərini qarşılaşdırmaq lazımdır. İlk dəfə olaraq bu problemləri qoyub sistematik şəkildə həll etməyə çalışanlar XIX əsrin ikinci yarısında meydana gəlmiş "həyat" fəlsəfəsinin nümayəndəsi V.Diltey və neokantçıların Baden məktəbi oldu

"Həyat" fəlsəfəsinin təmsilçiləri, o cümlədən V.Diltey cəmiyyəti və tarixi gerçəkliyi həyatın sosial və mədəni-tarixi strukturlar formasında davamı kimi mənimsəyərək, onun təbiətini də bu zəmində anlamağa çalışırdı. O, pozitivizmin elmlərin metodoloji yekcinsliyini hökm edən və mahiyyətcə naturalist məzmun daşıyan ide-

yalarını rədd edərək, onları təbiət və ruh haqqında elmlər olmaqla iki yerə bölürdü.

İnsanların bütün fəaliyyət formaları şüurlu səciyyə daşıdığına və qarşılarına qoyduqları məqsədlərdən irəli gəldiyinə görə V.Diltey hesab edirdi ki, sosial-tarixi gerçəklik öz mahiyyəti etibarı ilə insana münasibətdə xarici bir şey deyil, onun bütöv bir tam olan fərdi psixoloji həyatı ilə birbaşa bağlıdır. Əslində sosial-tarixi və mənəvi həyatın bütün formaları insanın daxili mənəvi-psixoloji həyatının obyektivləşmiş ifadələrindən başqa bir şey deyil. Sosial həyatın məzmununu təşkil edənləri insan dəfələrlə daxilən yaşamışdır və buna görə də sosial-tarixi gerçəklik mahiyyətcə ona yad deyildir. Bu səbəbdən də sosial həyatın daxili əlaqə və münasibətlərini dərk etmək üçün bizim öz birbaşa daxili yaşantılarımızdan fərqli aralıq vasitələrə – təfəkkürün sintetik fəaliyyətinin yaratdığı fərziyyələrə ehtiyacımız yoxdur.

Ruh haqqında elmlərin verdiyi biliklərin əsl mənbəyini rasional-məntiqi təfəkkür deyil, insanın birbaşa duyğuları, təcrübələri təşkil etdiyinə görə onlar səhihdirlər və həqiqəti ifadə edirlər. İnsanın mənəvi dünyasını təşkil edən daxili yaşantılarını rasional-məntiqi formullarda ifadə etmək mümkünsüz olduğuna görə humanitar-elmi bilik, təbii-elmi bilikdən fərqli olaraq, mahiyyətcə irrasionaldır. Humanitar-elmi idrakın fərqləndirici xüsusiyyətlərini ifadə etmək üçün Diltey "anlama" terminini daxil edir. Bu termin vasitəsilə o, iki fərqli idrak növü arasındakı prinsipial fərqi səciyyələndirir: "Təbiəti biz izah edirik, mənəvi həyatı isə anlayırıq" [5, s.8].

Həm "həyat" fəlsəfəsi, həm də neokantçılar biliyin elmilik meyarını onların ümum-əhəmiyyətlilik (ümumqəbuledilənlik) və mühümlük kimi anladıqları obyektivlikdə görürdülər. V.Dilteyə görə, təbiətşünaslıqda bu meyar təfəkkürün immanent mexanizmlərinin biliyə verdiyi nəzəri forma vasitəsilə təmin olunur. Bu mexanizmlər insanların subyektiv səciyyə daşıyan fərdi-psixoloji xüsusiyyətlərindən asılı olmadığına görə obyektivdirlər. Neokantçılar isə hesab edirdilər ki, təbii-elmi biliyin obyektivliyi təbiətşünaslığın istinad etdiyi nomotetik (ümumiləşdirici) metodlar vasitəsi ilə əldə edilir. Lakin humanitar elmlərə gəldikdə həm həyat fəlsəfəsi, həm də neokantçılar ciddi problemlə üzləşirlər. Dilteyə görə, humanitar-elmi biliyin mənbəyini son nəticədə insanın daxili psixoloji yaşantıları təşkil etsə də, hər bir insan vahid bəşəriyyətə və tarixə mənsub olduğuna görə onun mənəvi aləmindən qaynaqlanan humanitar bilik obyektiv səciyyə daşıyır. Lakin insanların psixoloji yaşantıları həmişə subyektivdir, onda bu subyektiv yaşantılar əsasında obyektiv bilik necə yaranır? Dilteyin fəlsəfəsində bu problem həll edilməmiş qalır. Digər tərəfdən, Dilteyə görə, mahiyyətcə insanın fərdi-psixoloji yaşantılarının təzahürləri olan sosiomədəni gerçəkliyi təşkil edən saysız-hesabsız hadisələr arasından mühüm olanı humanitar elmlər necə seçib ayırır? Bu sual da onun fəlsəfəsində açıq qalır [7, s. 8].

Neokantçılar bu problemlərə daha fundamental perspektivdən yanaşmağa cəhd edirdilər. Humanitar elmlərdə obyektivlik problemi onların fundamental sualının

üzvi hissəsidir: "mədəniyyət elmləri"nin (humanitar elmlərin) mümkünlüyü. Humanitar elmləri doğuran maraqlar və məqsədlər reallığın fərdi və təkrar olunmayan tərəflərini seçmək və fərqləndirmək məqsədi daşıyır. Onlar hesab edirlər ki, maraqlar və məqsədlər reallığın tərkib hissələridir, o cümlədən insandan yuxarıda dayanan, onun qarşısına məqsəd qoyan və onu fəaliyyətə sövq edən ali reallıqdır. Dəyərlər səltənəti mütləq reallıqdır, yəni zamanla başlanğıcı və sonu olmayan əbədidir. Dəyərlər dünyası insana fəaliyyətinin bütün sahələrində tələblər qoyur. Elmi fəaliyyətin zərurəti həqiqi bilik verməkdir. Həqiqət dəyərlər aləminin elmi fəaliyyətə qoyduğu tələb olduğundan onun məzmunu insanlardan asılı deyil və ona görə də obyektiv xarakter daşıyır. Humanist və elmi biliyin obyektivliyi həqiqətə çatmaq səyi ilə dəqiq təmin edilir . Neokantçılara görə, humanitar elmlər sosial-mədəni reallığı təşkil edən saysız-hesabsız fenomenlərdən dəyərləri təcəssüm etdirən və reallaşdıranları seçir və təcrid edir; bunlar elmi biliklərin məzmununda öz əksini tapır. Lakin dəyərlərin reallığa nüfuz etmədən və inteqrasiya olmadan həyata keçirilməsi mümkün deyil. Neokantçılar inanırlar ki, dəyərlər reallıqdan yuxarı transsendent dünyaya aiddir. Bəs, dəyərlər və reallıq necə birləşir? Neokantçılar üçün bu həll olunmayan problemdir: dəyərlərin reallıqla inteqrasiyası humanitar elmlərin mövcudluğu üçün ilkin şərt olsa da, Rikert etiraf edir ki, "onların necə inteqrasiyası həmişəlik çətin sual olaraq qalır" [1, s. 249].

Humanitar elmlərdə metodoloji paradiqma öz başlanğıcını tarix fəlsəfəsinin təşəkkül tapmasından götürür. Yeni Dövrün tarix fəlsəfəsinə təbiətşünaslığın heyranedici nailiyyətləri son dərəcə böyük təsir göstərdiyinə görə, humanitar elmlərin inkişafının ilk mərhələsi üçün təbiət elmlərinə istiqmətlənmiş naturalist metodologiya səciyyəvi idi. Sonralar maarifçilərin tərəqqi konsepsiyasının və təkamül ideyalarının təsiri altında sosial-tarixi gerçəkliyə naturalist yanaşma universal evolyusionizm ideyaları ilə qovuşur. Lakin ilk növbədə, "həyat" fəlsəfəsi və neokantçıların, sonralar isə lokal sivilizasiyalar konsepsiyasının təsiri altında universal təkamül metodologiyasının sosial gerçəkliyə adekvat olmadığı dərk edildi. Bu istiqamətdə Popperin, Qadamerin və strukturalistlərin xidmətləri xüsusi qeyd olunmalıdır.

Ədəbiyyat siyahısı:

1. Бакрадзе К.С. Избранные философские труды в 4 т. Т. 3. - Тбилиси: Издательство Тбилисского Университета, - 1973.- 392 с.

2. Bertrand Russell. The History of Western Philosophy. – New York: Stratford Press INC, - 1967. - 955 p.

3. Гуревич А.Я. Категории средневековой культуры. - Москва: Искусство, - 1972. - 320 с.

4. Дильтей В. Описательная психология. Санкт - Петербург: Алетейя, - 1996. - 160 с.

5. Кондорсе Ж.А. Эскиз исторической картины прогресса человеческого разума. Москва: Соцэкономгиз, - 1936. - 265 с.

6. Habermas J. The Theory of Communicative Action. Vol. 1. Reason and the Rationalization of Society. - Boston: Beacon Press, - 1984. - 465 p.

7. Məmmədəliyev Z. Humanitar elmlərdə metodoloji paradiqmaların təkamülü // Sivilizasiya. - Avrasiya Universitetinin nəşriyyatı, - cild 10 №4 2021 (49), - s. 6-14

QARABAĞIN DAŞ BÜTLƏRİNİN ETNİK-MƏDƏNİ MƏNSUBİYYƏTİNƏ DAİR

Tarix Dostiyev
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və Etnoqrafiya" kafedrasının müdiri, tarix elmləri doktoru
dostiyev.tarikh@mail.ru

Açar sözlər: *Albaniya, Qarabağ, etno-mədəni proseslər, antropomorf heykəllər, büt, bütpərəstlik*
Keywords*: Albania, Garabag, ethno-cultural processes, anthropomorphic stelae, idol, paganism*

İlk orta əsrlər Qafqaz regionunda, o cümlədən Albaniyada mürəkkəb hərbi-siyasi və etnik-mədəni proseslərlə əlamətdar oldu. Sasanilərin köçürmə siyasəti, şimaldan köçəri tayfalarının axınları, Bizans imperiyasının Cənubi Qafqazı öz nüfuz dairəsinə daxil etmək cəhdləri regionda etnokonfisional proseslərin mürəkkəbləşməsini şərtləndirdi. Albaniyanın polietnik tərkibində türk etnosu üstünlük təşkil edirdi. İlk orta əsrlərdə Albaniya həm də konfessional rəngarəngliyi ilə fərqlənirdi [2]. Sasani şahları ideoloji təsir məqsədi ilə yerli əhali arasında zərdüştlüyün yayılması, hakim ideologiyaya çevrilməsinə böyük səylər göstərirdi. Sasanilərin zərdüştlüyü yaymaq siyasəti uğursuzluğa düçar olsa da, Albaniyaya köçürdükləri irandilli tayfalar zərdüşt dininin daşıyıcıları idilər. Dərbənd istehkamları üzərində zərdüşt rəmzlərinə rast gəlinməsi, söz yox ki, sasanilərin İrandan buraya köçürdüyi əhali, sasani hərbçilərinin mövcudluğunun və fəaliyyətinin nəticəsidir. Dərbənd yaxınlığında aşkarlanmış, V-VII yüzilliklərə aid "daxma" tipli zərdüşt qaya dəfn kompleksi də, görünür, sasani hərbçilərinə məxsusdur [11, 51–63]. Zərdüştlüklə bağlı tapıntılar arasında Sasani istehsalı olan qliptika məmulatı daha çoxdur. Gliptika məmulatı üzərində ayinlərlə bağlı sujetlər: kahinlərin çiçəklə, altıguşəli ulduzla və ya qurbangahın qarşısında dua edərkən şəkilləri, bəzən isə üstündə yanar atəşli və ya onsuz qurbangah təsvirləri geniş yayılmışdır [9, 49-56; 16, 24-25]. Hesab edilir ki, ideoloji yükə malik bu möhür-gemmalar şəxsi möhürlərdən daha çox gözmuncuğu, hifzedici kimi istifadə edilirdi [16, 27]. 1972-ci ildə Füzuli rayonunda arxeoloq Qüdrət İsmayılzadə tərəfindən tədqiq edilmiş Yedditəpə nekropolunun IV-VI əsrlərə aid daş qutu qəbirlərindən xeyli qliptika məmulatının tapılması və onların üzərində zərdüştlüklə bağlı sujetlər olmasını təsadüfi hesab etmək olmaz [14, 72-73].

Tədqiqatçıların fikrincə, Qafqazda xristianlığın yayılıb möhkəmlənmə vasitələri və yolları məhz Albaniya ilə bağlıdır, Şəki rayonunun Kiş kəndində yerləşən, təməli I əsrdə qoyulmuş kilsə Qafqazın xristianlıq tarixində ən qədim məbəddir [15, 44; 24, 157]. 326-cı ildən xristianlıq Albaniyada rəsmi din statusu almışdı [24, 157]. Erkən orta əsrlərdə Alban hökmdarlarının daxili və xarici siyasətində xristian dininin yayılması və alban kilsəsinin mövqelərinin möhkəmlənməsi mühüm istiqamətlərdən idi. Alban mədəni irsinin xristian qatının öyrənilməsində Qarabağ və Şərqi Zəngəzur bölgəsinin Amaras, Ağoğlan, Müqəddəs Yelisey məbədləri, Xudavəng, Gəncəsər monastırları və digər xristian maddi mədəniyyət kateqoriyaları xü-

susi əhəmiyyət kəsb edir. Alban Kilsəsi avtokefal idi, kilsə-inzibatı quruluş etibarı ilə yepiskopluqlara – yeparxiyalara bölünürdü.Tədqiq olunan dövrdə 15 yeparxiyanın fəaliyyət göstərdiyi bildirilir. Bərdə arxiyeparxiyası bir neçə kilsə məclisini təşkil etmişdi. Hun yeparxiyası da alban kilsəsinə tabe idi [13, 122-133]. Kilsə xidməti və mərasimlərinin alban dilində aparılması IV-VII əsrlərdə alban əlifbasında tərtib edilmiş yüz səhifədən çox alban liturgiya (leksionar) mətninin 1996-cı ildə Sinayda Müqəddəs Yekaterina monastırında tapılması ilə təsdiq olundu [7].

Alban kilsəsinin mövqelərinin kifayət qədər güclü olduğu Qarabağ bölgəsində bütpərəstlik müəyyən dərəcədə qalmaqda idi. Alban tarixçisi Musa Kalankatuklu Albaniyada xristianlığın rəsmi din olmasına baxmayaraq IV-VII əsrlərdə bütpərəstliyin qalması haqqında məlumat verir (4, I kitab, 24 və 25-ci fəsillər). Bunu Qarabağda IV-VII əsrlərə aid daş antropomorf heykəllərin – daş bütlərin aşkarlanması təsdiqləyir. Arxeoloq Rəşid Göyüşov 1966-cı ildə Azərbaycan SSR EA Məruzələrində Qarabağ ərazisindən tapılan daş bütlər haqqında dərc edilmiş məqaləsi Azərbaycan alimlərinin bu istiqamətdə ilk araşdırmalarından biri hesab oluna bilər [5, 77-79].

Keçən əsrin 70-ci illərində Ağdam rayonun Govurqala abidəsində arxeoloji qazıntılar aparan ekspedisiya abidənin yaxınlığında daşdan yonulmuş ilk orta əsrlərə aid antropomorf büt də qeydə alınmışdı. Bu büt iki qazıma kəmərlə üç hissəyə ayrılıb. Üst, baş hissə yarımelleps formada olub, burun "V" hərfi formasında diqqətə çatdırılmışdır. Qaş, göz və ağız bildirilməyib. Bütün orta, gövdə hissəsində, yuxarıya, sifətə doğru qatlanmış, sinəyə qoyulmuş əllər qabarıq bildirilmişdir. Torpağa basdırılmış alt hissə yonulmamış, hamarlanmamışdı [10, 446-447]. Akademik Rasim Əfəndi ilk orta əsr antropomorf heykəllərin emosional-psixoloji təsir gücündən bəhs edərək yazırdı: "Çox sxematik, real proporsiyalardan xeyli kənar bir tərzdə yonulub düzəldilməsinə baxmayaraq, bu plastik sənət nümunələri öz əzəmətli görünüşü ilə insana güclü təsir bağışlayır. İndi təsəvvür etmək olar ki, azı min beş yüz il bundan əvvəl yolayrıcı və ya hündür təpə üzərinə qoyulmuş bu heykəllər öz dövrünün adamlarına necə təsir göstərmişdir" [3, 39]. Qeyd edək ki, Qarabağın antropomorf heykəlləri – bütlər düzbucaqlıya yaxın, uzunsov stella olub iki üfüqi qazıma kəmərlə üç hissəyə bölünür: baş, bədən və çanaq sümükdən aşağı. Bütlərin ölçüləri: eni əsasən 30-70 sm, hündürlüyü 1,2-1,4 m, qalınlığı 20-40 sm arasında dəyişir. Bəzən daha böyük ölçülü, hündürlüyü 2-2,5 m olan bütlərə də rast gəlinir [8, 248; 19, 95].

Qarabağda Azərbaycan arxeoloqları 1964-1987-ci illərdə IV-VII əsrlərə aid olunan 19 daş büt aşkarlamışdılar [22]. Bu abidələr Ağdam rayonunun Mollalar, Şəfibəyli, Suma, Güllücə, Ağdərə rayonunun Canyataq, Tərtər rayonunun Seysulan kəndlərinin ərazilərində qeydə alınmışdı. Füzuli rayonunun Araz Yarləvəndi kəndində təsərrüfat işləri zamanı büt parçalanmış halda aşkarlanmışdı. Sığnaq yaşayış yerində isə daş bütlərin hazırlandığı emalatxana üzə çıxarılmışdır [22, 438; 23, 100-104]. Ağdərə rayonunun Canyataq kəndində aşkarlanmış 7 daş bütdən biri, arxeoloq Rəşid Göyüşovun 1964-cü ildə Bakıya gətirdiyi büt hazırda İçərişəhərdə Qız qalası yaxınlığında nümayiş etdirilir [23, 103]. Vaxtilə antropomorf heykəllər kurqanların üstündə və ya ibadətgahda olmuşdu. Şatırlı antropomorf heykəlini -

bütünü tədqiq edən M.Xəlilov vaxtilə həmin ərazidə ibadətgah olması ehtimalını irəli sürmüşdür [22, 439].


Alban bütləri üçün monolit daşdan stela formasında yonulması, ayaqların və boynun bildirilməməsi, əllərin gövdədə qabarıq göstərilməsi səciyyəvidir. Görünür, bu qanuniləşdirilmiş xüsusiyyətlər kultun ideoloji xüsusiyyətləri ilə bağlı olmuşdur [23, 102]. Tədqiqatçılar Qarabağ heykəllərinin ikonoqrafiya və yonulma üslubunda qədim türk heykəlləri ilə oxşarlığını yekdilliklə qeyd edirlər [22, 102].



1



2



3

Şəkil 1-3. Qarabağın daş bütləri

Erməni işğalı dövründə, XX əsrin son – XXI əsrin ilk iki onilliyində Qarabağda daş bütlərin aşkarlanması davam etmiş, XXI əsrin birinci rübünə Qarabağda bütövlükdə 30-dan artıq büt qeydə alınıb. Xocavənd rayonunda aparılan arxeoloji qazıntılar zamanı üzə çıxarılmış daş bütlərin etnik atribusiyası üzrə erməni arxeoloqlar qeyri-müəyyən, ziddiyyətli fikir söyləməklə, bu abidələrin özgəninləşdirilməsinə meyllidirlər. H.Petrosyan və A.Muradyan 2022-ci ildə Yerevanda çap olunmuş "Под прицелом - культурное наследие Арцаха" adlı kiçik həcmli kitabda Azərbaycan alimlərini saxtakarlıqda, Qarabağda erməni irsini məhv etməkdə günahlandırırlar, Arsaxda ermənilərin və erməni mədəniyyətinin mövcudluğunu guya Tiqranakert qazıntıları maddi dəlillərlə sübut etdiyini, Artsax və ona bitişik Utik Böyük Ermənistanın şimal-şərq bölgələri olduğunu bildirirlər [19, 4-7]. Erməni tədqiqatçılar edirlər ki, Artsax e.ə.II-I minilliklərə aid müxtəlif arxeoloji mənbələrin mövcudluğu ilə seçilir və bütlər bu müxtəlifliyin təzahürlərindən biridir. Onların fikrincə, Artsaxın antropomorf daş heykəlləri regionun xristianlıqdan əvvəlki mədəniyyətinin vacib komponentlərindən biridir, Azərbaycan alimləri onların yayılmasını alban etnomədəni substratının mövcudluğu ilə əlaqələndirməyə çalışırlar

[18, 94]. Qarabağın alban arxeoloji irsinə qarşı mədəni soyqırımı aparmış erməni alimlərinin antropomorf heykəllərin "öyrənilməsi, dəqiq tarixlənməsi və etnomədəni mənsubiyyətinin müəyyən edilməsi təkcə elmi maraq doğurmur, həm də Azərbaycan saxtakarlıqlarına qarşı çıxmaq üçün fürsət yaradır" [18, 94] fikri hətta 44 günlük müharibədən, Azərbaycan Respublikasının suverenliyinin tam bərpasından sonra bu tədqiqatçıların tarixi olduğu kimi qəbul etmək iqtidarında olmadıqlarını, xəyallarla yaşadıqlarını, qonşu xalqların, ilk növbədə Azərbaycan xalqının mədəni irsini mənimsəmək, özgəninləşdirmək istəyinin təzahürüdür. N.Yerayan bir məqaləsində daş heykəllərin – bütlərin e.ə. VIII-VII əsrlərdə Qarabağda yayılmasını kimmer və skif tayfalarının Qərbi Asiya ilə münasibətləri əlaqələndirdiyi halda [8, 254], daha sonra antropomorf stellerin etnik mənşəyinə yenidən dolaşıqlıq salaraq bildirir ki, "Bəzi ikonoqrafik fərqlərə baxmayaraq bu abidələrin ortaq mədəni mənsubiyyəti göz önündədir. Bəzi tədqiqatçılar iddia edirlər ki, skiflər qədim Şərq stellərini köçürmüşlər. Bu halda skiflərin qədim İran adətini qəbul etməsindən danışa bilərik. Ola bilsin ki, hərbi yürüşlər və digər əlaqələr nəticəsində kimmerlər və sarmatlar bu stellaları görüb sonradan bəzi konseptual və vizial dəyişikliklər etməklə öz stellərini yaradıblar. İlkin müşahidələr erkən İran stellərinin Artsax, Şimali Qafqaz və digər bölgələrdəki oxşar abidələrə təsirini qeyd etmək üçün yetərlidir" [12, 70]. Bununla erməni tədqiqatçı daşdan yonulmuş antropomorf heykəllərin mənşəyini İran dəfn adəti ilə əlaqələndirməyə, son nəticədə Qarabağdakı qeydə alınan antropomorf heykəllərin türk etnosuna mənsubluğunu şübhə altına almağa səy göstərir. İlk növbədə erməni tədqiqatçı İranın daşdan yonulmuş antropomorf heykəlləri dedikdə Cənubu Azərbaycanda Ərdəbil yaxınlığında, Meşkinşəhrdə qeydə alınan erkən dəmir dövrünə aid stelləri nəzərdə tutur. Etnik mənsubiyyətcə həmin daş stellərin İran mənşəli olmasına dəlalət edən elmi əsas yoxdur. İstər Ərdəbil yaxınlığında Meşkinşəhrdə, istərsə də Anadoluda Hakkaridəki daş antropomorf heykəllər qədim türk örnəklərindən hesab olunur [1, 72]. Bu məsələ ilə bağlı S. Ter-Avetisyanın 1934-cü ildə Tiflisdə dərc olunmuş məqaləsi də diqqəti çəkir. S. Ter-Avetisyan həmin əsərində E.Reslerin Qarabağda apardığı arxeoloji qazıntıların hesabatına məşhur alman antropoloqu Virxovun münasibətinə istinad edirək yazır: "...Virxovun fikrincə, Qarabağ kurqanları Dağlıq Ermənistan və ya daha döğrusu, Cənubi Qafqazın yaradıcılıq məhsulu deyil və bu kurqanların hələ kəşf edilməmiş başqa bir mədəni mühitə mənsubluğu şübhə doğurmur". Daha sonra S.Ter-Avetisyan, sözü gedən, kurqanarın etnik mənsubiyyətini müəyyənləşdirməyə səy göstərərək onları skiflərin və ya sakların mədəniyyəti ilə əlaqələndirir və fikirlərini N.Y.Marra istinad etməklə gücləndirir [20, 19-24]. N.Y.Marr bir əsr əvvəl, 1922-ci ildə dərc olunan topludakı skif terminə dair məqaləsində Qarabağ kurqanlarının skiflərə mənsubluğunu irəli sürmüşdi. O, kurqanların xarici görünüşü, daxili məzmunu, dini ayin və s. skif mənsubiyyətini təsdiqlədiyini bildirir [17, 70-74].

Azərbaycan arxeoloqları Qarabağda skif mədəniyyətinin izlərinin mövcudluğunu inkar etmirlər və skif tayfalarını türk mənşəli hesab edirlər. Tədqiqatçılar daş bütlərin təyinatından bəhs edərkən onların məzar daşı və ya sitayiş obyekti kimi dəfn kurqanının zirvəsində və ibadətgahın mərkəzində yerləşdirdirildiyi bildirirlər. Professor

Q.A.Fyodorov-Davıdov inandırıcı şəkildə daş bütlərin – "daş babalar"ın türkdilli tayfalara məxsusluğunu, əcdadları simvolizə edən bu daş heykəllərin yüksək sahələrdə ucaldıldığını bildirir. Türk xalqlarının görkəmli tədqiqatçısı fikrini təsdiqləmək üçün Nizami Gəncəvinin "İskəndərnamə"poemasına müraciət edir, qıpçaqların "daş babalar"a sitayış etmələrinin təsvirini sitat gətirir [21, 191]. Böyük Azərbaycan şairi "İskəndərnamə" poemasının Şərəfnamə hissəsində "İskəndərin Qıpçaq çölünə çatması" hekayəsində qıpçaqların daş bütə sitayişini belə təsvir edir:

O yerdən keçərkən daim qıpçaqlar,
Pir deyib başını səcdəyə qoyar.
Hər atlı, piyada o yoldan gedir,
Heykələ pir deyə, pərəstiş edir.
Atını sürərkən daşa, pir deyə,
Edir oxluğundan bir ox hədiyyə.
Çobanlar sürüylə keçərkən ordan,
Verər o heykələ bir qoyun qurban [6, 317].

Alman arxeoloqu Andreas Şaxner Astara diyarşünaslıq muzeyində mühafizə olunan bir daş stela nümunəsinə həsr olunan məqaləsində daş bütlərin e.ə. III minilliyin sonlarından, eləcə də e.ə. II-I miniliklərdə Avrasiya düzlərində, Şimali Qafqazda, Cənubi Qafqazda, İran Azərbaycanında və Şərqi Anadoluda əcdadlara sitayişi ehtiva etdiyini və antropomorf fiqurların kişi fiquru biçimində yonulması atalara sütayişin mövcudluğunu təsdiqlədiyini bildirir [6a, 36-37].

Yuxarıda qeyd olunanları yekunlaşdıraraq belə qənaətə gələ bilərik ki, Avrasiya çöllərində e.ə. III minilliyin sonlarından orta əsrlərədək türk mənşəli tayfalarda antropomorf heykəllərin yonulması davam etmişdir. Qarabağın antropomorf daş heykəllərinin – daş bütlərinin Avrasiya düzlərinin "daş babalar" adlandırılan bütlərlə eyniyyət təşkil edir və Azərbaycan arxeoloqlarının problemə obyektiv yanaşmasını təsdiqləməyə imkan verir.

Ədəbiyyat siyahısı:

1. Ağasıoğlu F. Daşbaba. Bakı, 2013. –138 s.
2. Dostiyev T.M. Ərəb işğalı ərəfəsində Albaniyada etnik-mədəni durum // Dünya azərbaycanlıları: tarix və müasirlik. Elmi-nəzəri toplu.Bakı, 2022 /2023, s. 5-12.
3. Əfəndi R. Azərbaycan incəsənəti. Bakı: "Şərq-Qərb", 2007. 160 s. + 112 s. (illüst.)
4. Kalankatuklu M. Albaniya tarixi. Bakı: Elm, 1993. – 272 c.
5. Göyüşov R.B. Yeni tipli daş bütlər: Dağlıq Qarabağ və Ağdam ərazisində arxeoloji tədqiqat nəticəsində tapılan bir sıra yeni tipli daş bütlər haqqında // Azərbaycan SSR EA Məruzələri, 1966, cild XXII, №6, s. 77-79.
6. Nizami Gəncəvi. İskəndərnamə. Şərəfnamə. Bakı: "Lider nəşriyyat", 2004. – 432 s.
6a. Schachner A. Azərbaycan Astara Müzesi ndeki bir stel orneöinde M.O. 2 Binde Hazar Denizi ile Van Gölü arasındakı Yontu Sanatı // Azərbayan arxeologiyası, 2018, №2, s. 23-52
7. Gippert J., Schulze W., Aleksidze Z., Mahé J.P. (eds) The Caucasian Albanian Palimpsests of Mount Sinai. 2 vols. Turnhout: Brepols, 2009. –530 p.
8. Yeranyan N., Main Results of the Study of Anthropomorphic Stelae in Artsakh // Archaeology of Armenia in regional context, Yerevan: Publishing House of the IAE, 2021. C. 248 - 254.

9. Бабаев И.А. К вопросу о взаимосвязях Кавказской Албании с Сасанидским Ираном (по материалам глиптики и нумизматики) // Искусство и археология Ирана. Доклады Всесоюзной конференции (1969). Москва, 1971, с. 49-56.
10. Ваидов Р.М., Геюшев Р.Б., Гулиев Н.М. Новые находки каменных баб в Азербайджане // Археологические открытия 1973 года. Москва: Наука, 1974, с. 446-447.
11. Гаджиев М.С. Зороастрийский погребальный комплекс близ Дербента // Российская археология. 2007, № 4. С. 51–63
12. Еранян Н. К вопросам этнокультурной принадлежности антропоморфных изваяний Арцахских степей // Армянский гуманитарный вестник, 2023, № 1 (10), с. 62-71.
13. Игумен Алексий (Никоноров). Епархии Албанской Церкви к VI века // Этнокультурное наследие Кавказской Албании (сборник статей), № 2. Баку, 2021, с. 122-133.
14. Исмаилзаде Г.С. Новое в археологии раннесредневекового Азербайджана //Azərbaycan arxeologiyası, 2011, №2, с.68-76
15. Китинов Б.У. Взаимодействие цивилизаций в Каспийско-Центральноазиатском регионе: Учеб. пособие. Москва: РУДН, 2008. –208 с.
16. Луконин В.Г. Искусство Сасанидского Ирана. Москва: Наука, 1969. – 244 с.
17. Марр Н.Я. Термин «скиф» // Яфетический сборник.Т. 1. Петербург, 1922, с. 70-74
18. Петросян Г., Еранян Н. Монументальная культура Арцаха. Ереван, 2022. –232 с.
19. Петросян Г., Мурадян А. Под прицелом - культурное наследие Арцаха. Ереван, 2022. – 56 с.
20. Тер-Аветисян С. Памятники древности Карабаха и скифская проблема. Известия научно-исследовательского института кавказоведения. Тифлис 1934. –28 с.
21. Федоров-Давыдов Г.А. Кочевники Восточной Европы под властью золотоордынских ханов. Археологические памятники. Москва: Изд-во Московского университета, 1966. –276 с.
22. Халилов М.Дж. Исследование каменных изваяний Карабаха // Археологические открытия 1982. Москва: Наука, 1984. С. 438-439.
23. Халилов М. Антропоморфные каменные изваяния Карабаха // Azərbaycan arxeologiyası, 2004, № 1-4, с. 100-104.
24. Халилов М.Дж. Христианские памятники Албании IV-X веков // Религии Центральной Азии и Азербайджана. Т. IV. Христианство. Самарканд: МИЦАИ, 2018, с. 157-227.

TÜRK DÖVLƏTLƏRİNİN SİKKƏ ZƏRBİNİN ÖZƏLLİKLƏRİ VƏ AZƏRBAYCAN

Qənirə Pirquliyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və Etnoqrafiya" kafedrası, t.ü.f.d., dosent
p_qanira@hotmail.com

Açar sözlər: *sikkələr və dövlət ideologiyası, sikkə zərbi ənənəsi, türk dövlətlərinin iqtisadi əlaqələri, dövlətçilik modeli və zərbxanalar*
Keywords: *coins and State ideology; Tradition of Coinage; Economic Relations of the Turkic States; Statehood Model and Mints*

Azərbaycan ərazisi tarixən mühüm ticarət yollarının kəsişməsində yerləşdiyi üçün əmtəə-pul münasibətləri və sikkə zərbi mədəniyyəti burada erkən inkişaf etmişdir. Ərazidə hökm sürmüş müxtəlif türk dövlətlərinin zərb etdirdikləri sikkələr yalnız iqtisadi mübadilə vasitəsi deyil, həm də siyasi hakimiyyətin legitimliyini

təsdiq edən rəmz, dövlət ideologiyasının daşıyıcısı, dini baxışların təbliğ vasitəsi və mədəni kimliyin göstəricisi kimi çıxış etmişdir. Bu baxımdan xüsusilə erkən orta əsr Azərbaycan numizmatik materialları türk dövlətçilik təfəkkürünün, dövlət titul sisteminin, ideoloji simvolların və bədii ornamentikanın özünəməxsus xüsusiyyətlərini əks etdirir.

Sikkələrin tədqiqi dövlətçiliyin əsas göstəricilərindən biri olan iqtisadi sistemin strukturu, ticarət əlaqələrinin miqyası, vergi münasibətləri, zərbxanaların yerləşmə coğrafiyası, metal tərkibi və pul islahatlarının mahiyyəti barədə dəyərli məlumatlar verir. Göstərilən aspektlərdən Azərbaycan sikkələrinin türk numizmatik ənənəsi çərçivəsində öyrənilməsi tarixi-iqtisadi, tarixi-siyasi və mədəniyyətşünaslıq problemlərinin araşdırılmasında xüsusi əhəmiyyət daşıyır. Araşdırmada türklərin pul işi tarixində Azərbaycanda sikkə zərbi ənənələrinin formalaşması, inkişaf mərhələləri və özünəməxsus cəhətləri təhlil edilir. Məqsəd Azərbaycan ərazisində hakim olmuş sülalələrin nümayəndələrinin - hökmdarların pul sisteminin ümumi türk-islam numizmatik ənənəsi daxilində yerini göstərmək, eyni zamanda ölkəmizə məxsus fərqləndirici xüsusiyyətləri müəyyənləşdirməkdir.

Tədqiqatın mənbə bazası arxeoloji tapıntılar, numizmatik materialların kataloqları, muzey fondlarında saxlanılan sikkə nümunələri, həmçinin Azərbaycan, Türkiyə, Rusiya və bəzi Avropa müəlliflərinin elmi araşdırmaları əsasında formalaşdırılmışdır. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, Azərbaycan ərazisində zərb edilmiş sikkələr ilk dəfə olaraq türk dövlətçilik modeli, ideoloji simvolizm, dövlət titul sistemi, mədəniyyət kodları və numizmatik bədii-estetik üslub prizmasından kompleks şəkildə təhlil edilir. Bundan əlavə, məqalədə Azərbaycan sikkələri yalnız region daxilində deyil, həm də ümumi türk numizmatik irsi kontekstində müqayisəli şəkildə qiymətləndirilərək onların türk dövlətçilik ənənəsinin inkişafına verdiyi töhfə müəyyənləşdirilir.

Beləliklə, Türk dövlətlərinin pul və sikkə ənənəsi uzun və çoxşaxəli inkişaf yolu keçmişdir. Türk dövlətçiliyi tarixində pul sistemi təkcə iqtisadi münasibətlərin tənzimlənməsi vasitəsi kimi deyil, həm də siyasi hakimiyyətin rəmzi, dövlət legitimliyinin təsdiqi, hakim sülalənin mənsub olduğu tayfanın simvolu və dini-ideoloji fikirlərin təbliğ forması kimi çıxış etmişdir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu dövlətlərdə sikkə zərbinin inkişafı dövlətçilik institutlarının möhkəmlənməsi ilə paralel formalaşmışdır.

Türk dünyasında pul dövriyyəsinə dair ən ilkin məlumatlar, Kuşan və Göytürk (VI–VIII əsrlər) dövrünə aiddir. Göytürklərin iqtisadi münasibətləri əsasən ticarət, vergi və hərbi qənimət üzərində qurulduğundan sikkə istifadəsi məhdud xarakter daşıyırdı. Bununla belə, arxeoloji tapıntılar göstərir ki, Göytürklər, Çin Tang sülaləsinə məxsus sikkələrdən geniş şəkildə istifadə etmiş, bəzi hallarda isə onları öz möhürləri ilə yenidən zərb etmişlər. Bu, türk dövlətlərinin erkən dövrdə pul dövriyyəsi sisteminə qoşulması barədə mühüm göstəricidir. Göytürklərdə pulun əsas funksiyası ticarət mübadiləsi ilə bağlı olsa da, bu dövrdə dövlət hakimiyyətinin rəmzi kimi sikkə anlayışı yeni formalaşmağa başlayırdı. Şimal İpək Yoluna nəza-

rət edən Göytürklər ticarət əlaqələrinin genişlənməsi səbəbindən sikkə dövriyyəsini zəruri etmiş, beləliklə də sonrakı türk dövlətlərinin pul sisteminin təməli qoyulmuşdur [2;10].

Türk pul mədəniyyətinin inkişafında mühüm mərhələ Uygur xaqanlığı dövrü ilə bağlıdır. Uygurlar oturaq mədəniyyətə keçidi sürətləndirərək şəhər mədəniyyəti və ticarət münasibətlərini gücləndirdilər. Bu dövrdə kağız pulun ilkin formalarının meydana çıxması barədə məlumatlar da mövcuddur. Bununla yanaşı, Uyğurlar sikkədən daha çox mübadilə iqtisadiyyatı və vergi sistemi ilə fəaliyyət göstərsələr də, şəhər ticarətinin genişlənməsində pulun rolunu artırmışlar [3]. Türk numizmatik ənənəsinin formalaşmasında mühüm "dönüş nöqtəsi" Qaraxanlı dövləti (X–XI əsr) olmuşdur. Qaraxanlılar İslam dinini qəbul etdikdən sonra ərəb qrafikası sikkə yazılarında tətbiq olunmağa başlandı və sikkələrdə Quran ayələri, İslam dini formulaları və hökmdar titul sistemi formalaşdı. Bu dövrdə türk-islam numizmatik mədəniyyətinin əsası qoyuldu.

Türk sikkə mədəniyyətinin dövlətçilik müstəvisində formalaşması Böyük Səlcuqlar imperiyası (XI–XII əsrlər) dövrünə təsadüf edir. Səlcuqlar siyasi-inzibati sistemi mərkəzləşdirərək sikkə zərbini dövlət hakimiyyətinin əsas atributlarından birinə çevirdilər. Sikkələrdə hökmdar titulunun islam xəlifəsi ilə əlaqələndirilməsi, "sultan" titulunun rəsmiləşdirilməsi və dövlət ideologiyasının əks etdirilməsi məhz bu dövrdə sabit ənənə halı aldı. Səlcuqluların sikkələri həm Şərq, həm də Qərb ticarət yollarında geniş dövriyyəyə daxil olaraq, türk pul sisteminin beynəlxalq səviyyədə tanınmasını təmin etdi [5; 9]. Bu ənənə sonradan Azərbaycan dövlətləri tərəfindən də qəbul edildi və inkişaf etdirildi.

Səlcuqlulardan sonra türk pul mədəniyyətinin inkişafında mühüm mərhələ Anadolu Səlcuqları dövləti (XI–XIV əsrlər) ilə bağlıdır. Dövlətin yerləşdiyi coğrafiya — Şərqi Aralıq dənizi və Kiçik Asiya — beynəlxalq ticarət üçün əlverişli idi və bu səbəbdən sikkə zərbi burada həm miqyas, həm də üslub baxımından inkişaf etdi. Anadolu Səlcuq sikkələrinin başlıca xüsusiyyətləri sırasında ərəb, fars və türk titul sisteminin paralel işlənməsi; xristian Avropası və Bizansla ticarət əlaqələrinə uyğun olaraq ikonoqrafik təsvirlərin (şir, qartal, ulduz, günəş simvolları) tətbiqi; yerli zərbxanaların sayının çox olması və regional iqtisadi mərkəzlərin formalaşmasını xüsusi olaraq qeyd etmək lazımdır. Bu dövrdə mövcud türk dövlətlərində həm islam numizmatik ənənəsi qorunur, həm də Bizans təsirləri ilə bədii üslub zənginləşirdi.Bu proses sonradan Azərbaycan ərazisində də təsirini göstərmiş və xüsusilə yerli baharlı-bayandırlı, yəni Qaraqoyunlu–Ağqoyunluların hakimiyyəti zamanı ikonoqrafik elementlərin dirçəlişinə zəmin yaratmışdır [4, s.183-189; 6].

Xarəzmşahlar dövləti (XII–XIII əsrlər) türk-islam numizmatik ənənəsinin növbəti inkişaf mərhələsini təşkil edir. Xarəzmşah Arslan və xüsusilə Alaəddin Məhəmməd dövründə sikkələrdə hökmdarın titul sisteminin daha mürəkkəb və tam forması tətbiq olunmuş, həm dini, həm də siyasi legitimliyi ifadə edən uzun titul formulları meydana çıxmışdır. Xarəzmşah sikkələrinin ikonoqrafiyası çox sadə olsa da, titul və yazı mətnləri sonrakı türk dövlətləri üçün nümunə olmuşdur. Türk

sikkələrində uzun titul epiteti, dini legitimlik, şəhər zərbxanası modeli məhz bu dövrdə sabitləşmişdir [3].

XIII əsrdə Moğol istilaları türk-islam dövlətlərinin iqtisadi sistemini zəiflətmiş, bir çox zərbxanalar fəaliyyətini dayandırmışdır. Bununla belə, Hülakülər-Elxanilər dövründə (XIII–XIV əsrlər) sikkə zərbi mərkəzləşdirilmiş qaydada yenidən quruldu və pul islahatı aparıldı. Yeni sikkələrdə ərəb-fars titul sistemi qorunsa da, bəzi sikkələrdə uyğur türk yazısı və türk komponentləri də müşahidə olunur. Əslində bu dövr, türk dövlətlərinin pul sisteminin yenidən formalaşması və vahid iqtisadi məkanın bərpası baxımından mühüm keçid mərhələsi oldu.

Beləliklə, yuxarıda sadalanan tarixi mərhələlər türk pul və sikkə mədəniyyətinin zəngin bir inkişaf yolunu göstərir. Bu proses təkamül xarakteri daşıyaraq, bir neçə mərhələdən keçmişdir. Göytürk və Uygur dövrlərində pul daha çox ticarət mübadiləsi və vergi münasibətləri ilə bağlı olsa da, Qaraxanilər dövründən etibarən sikkə zərbi türk-islam dövlətçilik modelinin mühüm atributu halına gəlmişdir. Səlcuqların mərkəzləşdirilmiş idarəçilik sistemi pul siyasətini dövlət ideologiyası ilə paralel şəkildə inkişaf etdirmiş, Anadolu Səlcuqları və Xarəzmşahlar bu ənənəni həm iqtisadi, həm də bədii-estetik baxımdan zənginləşdirmişlər.Türk dövlətlərinin pul sistemi XIII–XIV əsrlərdə baş verən Moğol istilalarından ciddi zərər görsə də, Elxanlı dövründə zərbxanaların yenidən bərpası və mütəmadi olaraq, pul islahatlarının aparılması nəticəsində sikkə zərbi ənənəsi davam etdirilmişdir. Bu mərhələdə türk-islam numizmatik modeli artıq ümumxalq təsəvvüründə dövlət hakimiyyətinin ayrılmaz rəmzi kimi möhkəmlənmişdir [3].

Azərbaycan ərazisi coğrafi mövqeyinə görə qədim dövrlərdən etibarən beynəlxalq ticarət yollarının keçdiyi region olmuş və bu amil pul münasibətlərinin formalaşmasına bilavasitə təsir göstərmişdir. Burada sikkə dövriyyəsi tarixən müxtəlif mədəniyyətlərin iqtisadi sistemləri ilə təmasda inkişaf etmiş, ilkin mərhələdə xarici imperiyaların sikkələri dövriyyədə olsa da, zamanla yerli zərbxana ənənəsi də meydana çıxmışdır. Belə ki, eramızdan əvvəl VI–IV əsrlərdən başlayaraq Azərbaycan ərazisində müxtəlif dövlətlərin, xüsusilə, Əhəmənilər, Makedoniya və Selevkilərin sikkələri dövriyyədə olmuşdur. Antik dövrdə yerli tayfa ittifaqları öz adına sikkə zərb etməsə də, bölgədə ticarət mərkəzlərinin mövcudluğu sikkə mübadiləsini zəruri etmişdir. Albaniya və Atropatena dövrlərində isə artıq yerli hakimiyyətin nəzarəti ilə məhdud miqyaslı sikkə zərbi müşahidə olunur. Albaniya dövləti (e.ə. I əsr – e. VII əsr) dövrünə aid tapıntılar göstərir ki, müəyyən şəhərlərdə yerli zərbxanalar fəaliyyət göstərmiş və sikkələrdə hökmdar adları ilə yanaşı yerli mədəniyyətin izləri də əks olunmuşdur. Bu isə Azərbaycan ərazisində dövlət hakimiyyətinin atributu kimi sikkə zərbinin ilk nümunələrinin ortaya çıxdığını göstərir. Antik dövrün güclü dövlətlərindən olan Selevkilər və Parfiya zamanı Azərbaycan zərbxanalarında "oxşatma" sikkələr zərb edilərək, mərkəzi hakimiyyətlərin icazəsi ilə dövriyyəyə buraxılmışdı.Bu zaman ərazimizdə qədim türk parn-part əlifbası ilə yazıların sikkələrin-draxmaların aversində yer aldığı Parfiya sikkələri daha çox aşkar edilməkdədir. Sasanilərin Parfiya üzərində qələbəsindən sonra V əsrin son

onilliklərinə qədər ehtimal ki, həm Parfiya, həm də sasanilərin yeni sikkələri ticarət münasibətlərinin əsas dəyər vahidi olaraq istifadə edilməkdəydi. Sasani-Roma müharibələrinin nəticələrindən biri də mərkəzdə hakimiyyətin zəifləməsinin baş verməsi və işğal edilən yerlərə gümüş sikkələrin göndərilməsinin çatışmazlığı və digər səbəblərdən məhz V əsrin sonu-VI əsrin əvvəllərindən bəzi Azərbaycan şəhərlərinə yerli zərbxanalarda sikkələr zərb edib rəsmi tədavülə buraxmağa icazə verildi. Bununla da bizlər ilk dəfə sikkələrdə türklərə aid olan ay-ulduz işarəsi ilə birgə Bakının, Naxçıvanın, Dərbəndin, Bərdənin, Gəncənin adı olan sikkələrə rast gəlirik.Bu artıq şəhər zərbxanalarının statusunun artması və ən vacibi- istehsal olunan Azərbaycan sikkələrinin sasanilərin imperiyası daxilində və xarici ölkələrlə ticarətdə istifadəsi faktını dəqiqləşdirir [8, s.123].

Erkən orta əsrlər (VII–IX əsrlər) dövründə Azərbaycan ərazisi Ərəb xilafətinin tərkibinə daxil olduğundan, burada ilk öncə sasani-ərəb, sonra Əməvi və Abbasi sikkələri dövriyyədə olmuşdur. Lakin diqqətdən yayınmamalıdır ki, bu dövr Azərbaycan sikkə mədəniyyətinin formalaşması üçün həm də mühüm baza yaratdı. Belə ki, bölgədə xeyli sayda yeni zərbxanalar fəaliyyətə başladı; ərəb qrafikası və Islam titul sistemi yerli numizmatik ənənəyə daxil oldu; sikkə zərbi dövlət hakimiyyətinin iqtisadi atributu kimi qəbul edildi. VIII əsrin sonlarından etibarən- XI əsrin əvvəllərinə qədər Xilafətin zəifləməsi nəticəsində Azərbaycanda yerli zərbxanaları olan Şamaxı, Gəncə, Bərdə, Təbriz, Ərdəbil bu dövrdə mühüm iqtisadi mərkəzlər idi. IX əsrin sonlarından başlayaraq Azərbaycanın idarəçiliyi yerli türk sülalələrindən Sacilərə, Salarilərə, sonra Rəvvadilər və Şəddadilərə keçdi və bu sülalələrin hakim şəxsləri öz adına sikkə zərb etməyə başladılar. Bu, Azərbaycan numizmatikasında dönüş nöqtəsi hesab edilir, çünki sikkə artıq müstəqil hakimiyyət iddiasının nümayişi kimi çıxış etməyə başladı.İlk dəfə Əməvilərdən sonra Sacilər və Salarilər sikkələrin zərb yerini ayrı-ayrı şəhər adları ilə deyil, dövlətin -Azərbaycan adı ilə göstərdilər.Həmin dövr sikkələrinin əsas xüsusiyyətləri sırasında sikkələrin aversində legitim olan hökmdarın adı və titulunun qeyd edilməsi; zərbxana adının və zərb tarixinin göstərilməsi; islam dini formulalarının tətbiqi və bəzən yerli siyasi nüfuzun ifadə olunmasını qeyd etmək lazımdır. Məsələn, sikkələrdəki "əl-əmir", "əd-dövle", "əl-Fəth" kimi titul formulları hökmdarın həm siyasi, həm də dini legitimlik iddiasını ifadə edirdi. Bu isə sikkənin yalnız iqtisadi deyil, ideoloji sənəd kimi funksiyasını gücləndirirdi. "Gümüş böhranını" çox ağır nəticələrlə keçirən Azərbaycanda XI əsrdən etibarən sikkə zərbi mədəniyyəti daha sistemli xarakter almağa başladı. Bu proses ilk növbədə bölgədə siyasi güclərin artması, ticarət əlaqələrinin genişlənməsi və şəhər mədəniyyətinin inkişafı ilə bağlı idi. XI əsrin ortalarından etibarən Azərbaycan Səlcuq hakimiyyətinin təsiri altında olsa da, yerli hakimiyyətlər öz adlarına sikkə zərbini davam etdirirdilər.Bu dövr sikkələrinin əsas əlamətləri: hökmdar titulunun Səlcuq Sultanına münasibətdə uyğun formada verilməsi; bəzi sikkələrdə həm yerli hökmdarın, həm də sultanın adının qeyd edilməsi; zərbxana mədəniyyətinin genişlənməsi və şəhərlərin iqtisadi nüfuzunun artması idi. Məsələn, Şəddadilər dövründə paytaxt Gəncə şəhəri mühüm zərbxana mərkəzi

kimi fəaliyyət göstərmiş və buradan zərb olunan sikkələr Qafqazın digər bölgələrində də dövriyyədə olmuşdur. Bu fakt həmin dövrdə Azərbaycanın regional iqtisadi inteqrasiya prosesinə qoşulduğunu göstərir [8, s.156-168].

Məhz bu yetkin və münbit zəmin üzərində Azərbaycan ərazisində Atabəylər-Eldənizlər dövləti türk-islam numizmatik ənənəsini qəbul etmiş, lakin onu yerli siyasət, müstəqillik iddiası və regional iqtisadiyyat tələblərinə uyğun şəkildə inkişaf etdirmişdir.Bu səbəbdən Atabəylər sikkələrinə artıq yalnız iqtisadi alət deyil, həm də ikiqat legitimlik modeli (Sultan + Atabəy) ilə seçilən siyasi-ideoloji sənəd kimi qəbul edilə bilər. Belə ki, Atabəylər-Eldəgizlər dövləti meydana çıxdığı zaman türk pul mədəniyyəti artıq formalaşmış ideoloji baza üzərində dayanırdı. Eldəgizlər bu ənənəni qəbul etməklə yanaşı, ona özünəməxsus siyasi məna verərək, Azərbaycan numizmatik mədəniyyətinin müstəqil xəttini yaratmışlar. Bu, onların sikkələrində həm Səlcuq sultanına bağlılıq, həm də regional hakimiyyət iddiasının paralel ifadəsi ilə özünü göstərir.

Azərbaycan numizmatikasında xüsusi yer tutan Şirvanşahlar dövləti IX əsrin sonlarından-XVI əsrin əvvəllərinədək uzunmüddətli hakimiyyətə malik olmuş və bu müddətdə zəngin sikkə zərbi ənənəsi yaratmışdır. Şirvanşah sülaləsinin siyasi müstəqillik siyasəti sikkələrdə özünü xüsusilə qabarıq göstərmişdir. Onların zərb etdikləri sikkələrdə hökmdarın adı ilə yanaşı "şirvanşah"; Kəsranilər və Dərbəndilər zamanında kaan-xaqan titulunun ardıcıl və sabit şəkildə tətbiqi diqqət çəkir. Bu titullar yalnız dövlətin öz suverenliyini vurğulamaq üçün istifadə etdiyi ideoloji vasitə deyildi, həm də türk komponentinin gücünün göstəricisi hesab olunur. Burada ilk dəfə olaraq sikkə dövlət müstəqilliyinin rəmzi, həm də mədəni kimliyin daşıyıcısı funksiyasını daşıyırdı. Şirvanşahlar dövlət idarəçiliyində yerli mədəni komponentlərin güclənməsi numizmatik materiallarda birbaşa öz əksini tapmışdır. Şirvanşahlar, xüsusilə XI–XII əsrlərdə Səlcuqların təsiri altında olsalar da, bir çox sikkədə yalnız öz adlarını və "Şirvanşah" titulunu ön plana çıxarmışdılar. Bu fakt öz növbəsində Azərbaycan numizmatikasında "regional müstəqillik modeli" adlandırıla biləcək özəl ənənəni yaratmışdır. Bu xüsusiyyətə görə Şirvanşah sikkələri həm türk-islam, həm Qafqaz, həm də yerli Azərbaycan numizmatik irsinin sintezini əks etdirən orijinal numizmatik xətt hesab edilir [7, s.2-9].

Azərbaycanda monqol işğalının başa çatması ilə idarəçiliyin yerli türk baharlı, bayandırlı, səfəvi, əfşarlar tərəfindən idarə edilməsi xalqımızın pul zərbi tarixində türkçülük əlamətlərinin daha çox və aydın yer almasını izləməyə imkan verir. Belə ki, adıçəkilən sülalələrin dövləti idarə etdikləri zaman demək olar ki, hər bir hökmdar öz pul islahatını həyata keçirmiş və əvvəldən sona qədər sikkələrdəki möhürlər rəsmi tamğalar yalnız özlərinə aid olmuşdur. Azərbaycan türk boylarına aid olan bu tamğalar biri digərindən seçilirdi. Şirvanşahlar tərəfindən sikkə işi ənənəsinə çevrilən hakim sülalənin əsas titulu Səfəvilər zamanı davam etdirilmişdi. Belə ki, sikkələrin aversinin sonuncu sözü "səfəvi" kəlməsidir.Sikkələrin reversində əsasən son kəlmə "sözümüz" kimi zərb edilmişdi. Qeyd etmək lazımdır ki, bu kəlmə ilk dəfə Əmir Teymurun pul islahatından sonra sikkələrdə zərb edilməyə

başlamışdı.Orta əsrlərin sxolastik düşüncə tərzində söz-sözümü- qanun kimi qəbul edilirdi.Bu kəlmənin zərb edilməsi sikkənin saxta olmamasının əsas sübutu hesab olunurdu [1, s.90; 8, s.187].

Nəticədə qeyd etmək lazımdır ki, Azərbaycanın sikkə tarixində antik dövrdən son xanlıqlar zamanı daxil olmaqla hakim sinif hər zaman etnik kökünü cürbəcür simvollar, işarələr, sözlər, möhürlər vasitəsilə dünya iqtisadi münasibətlərində göstərmişlər.Bu baxımdan Azərbaycan türkçülüyünün özəlliklərinin araşdırılması zamanı numizmatik materiallar kifayət qədər mühüm mənbə hesab oluna bilər.

Ədəbiyyat siyahısı:

1. *Алиева Г. Материалы к каталогу монет Тимура, чеканенных в городах Западного Ирана и Азербайджана. \\ Нумизматика Узбекистана\\ том I.Ташкент, «Фан», 1990, с.83-90*
2. *Ahmed Tevhid. Meskûkât-ı Kadim-i İslamiye Kataloğu.4. kısım. İstanbul, 1321.s.6-38*
3. *Litvinsky B.A. History of Civilization of Central Asia. Vol. III, Ed. Unesco, 1976*
4. *Çetin K. İran'dan Anadolu'ya Selçuklu Paraları (Selçuklu sikkelerinin özellikleri ve İran'dan Anadolu'ya görülen değişikler). TAED, 29, Ərzrum, 2007, s.183–194. dergipark.org.trdergipark.org.tr*
5. *Dinc A., Çakır R., Tanrikuliev Y., Öztürk N. The importance of Silk Road, and Merv in the great Seljuk state's commercial life. African Journal of Business Management, 6(11), 2012, 4310–4316. researchgate.net*
6. *Parlar G. Orta Çağ'da Anadolu'da hüküm süren beyliklerin sikkelerinin karakteristik özellikleri. Anadolu Üniversitesi, Merkezi Kütüphane.2015. ayk.gov.trayk.gov.tr*
7. *Pirquliyeva Q. Bir Şirvanşah dəfinəsi. Bakı, "Afpoliqraf", 2015, s.2-9*
8. *Pirquliyeva Q., Cəfərov M. Numizmatika. Bakı,"Fuyuzat", 2024, 163 səh.*
9. *Seljuk coins shed light on history. Hürriyet Daily News, 31 July 2024. hurriyetdailynews.comhurriyetdailynews.com*
10. *Türkiyənin UNESCO İpək Yolu Portalı. (t.y.). Türkiye: Silk Roads in Anatolia. UNESCO Silk Road Programme. en.unesco.org*

SKİF HƏRB SƏNƏTİNİN ÜMUMTÜRK XÜSUSİYYƏTLƏRİ

Hicran Mahmudova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və Etnoqrafiya" kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru
hicranmahmudova@bsu.edu.az

Açar sözlər: *skiflər, hərb sənəti, ox-kaman, akinak, döyüş taktikası*
Keywords: *Scythians, martial arts, bow and arrow, akinakes, combat tactics*

Skiflər (İskitlər) e.ə. I minilliyin ən qüdrətli atlı toplumlarından biri kimi Avrasiya çöllərində geniş siyasi və hərbi təsir gücünə malik olmuşlar. Onların hərb sənəti yalnız antik yunan müəlliflərinin əsərlərində deyil, həm də minlərlə kurqan, silah kompleksləri, at dəfnləri, metaldan hazırlanmış hərbi xarakterli sənət nümunələri, heyvani - zoomorf üslublu bəzək əşyaları vasitəsilə aydın şəkildə öyrənilmişdir. Müasir tədqiqatlar skiflərin polietnik tərkibli olduqlarını, eyni zamanda

əsasən prototürk və ya türk mənşəli komponentlərə malik olduğunu, onların hərbi mədəniyyətinin isə ümumtürk sivilizasiyasının formalaşmasında həlledici mərhələ olduğunu göstərir [1, 11-12]

Skif mədəniyyətinin əsasını təşkil edən mobil həyat tərzi, atçılıq, kompozit yay texnologiyası, kurqan ənənəsi, qurban ritualları, hərbi aristokratiya və heyvani üslub kimi elementlər türklərin hun, göytürk, oğuz və qıpçaq dövrlərində də geniş şəkildə davam etmişdir. Buna görə də skif hərbi sistemi yalnız antik döyüş mədəniyyətinin nümunəsi deyil, həm də türk hərb ənənəsinin ilkin və formalaşdırıcı mərhələsi kimi qəbul etmək mümkündür.

Skiflərin hərb işinin ümumtürk mədəni kompleksi ilə bağlılığını sübut edən əsas mənbələr arxeoloji materiallardır. Bu materiallar e. ə. VIII–III əsrlər arasında Avrasiya çöllərində vahid hərbi-mədəni modelin mövcud olduğunu göstərir. Bildiyimiz kimi, kurqanlar skiflərin həm dini, həm sosial, həm də hərbi baxımdan ən mühüm abidələridir. Onların daxili və xarici quruluşu və dəfn avadanlılqları Altay, Tuva, Qazaxıstan, Azərbaycan və Cənubi Rusiyada aşkar edilmiş bir sıra kurqanlarla uyğunluq təşkil edir. Belə ki, Pazırık, Arjan-2 və Berel kurqanları kimi abidələrdən zirehli at dəfnləri, kompozit yaylar və ox dəstləri, akinak tipli qılınclar, döyüş kəməri dəstləri və metaldan heyvani üslubda hazırlanmış silah qalıqları aşkar olunmuşdur. Bu nümunələr məhz türk kurqanlarında müşahidə edilən inventarlara tam uyğundur. Azərbaycan ərazisində də Qarabağ, Qarayazı, Muğan, Gəncə-Qazax bölgəsindəki kurqanlar eyni morfoloji və mədəni xüsusiyyətləri daşıyır [3, 55-58]. Maraqlıdır ki, hərbi ləvazimatların əksəriyyətində skif incəsənətinin əsasını təşkil edən heyvani üslubda işlənmiş maral, qurd, qartal və digər yırtıcıların dinamik təsvirlərini əhatə edir. Xüsusilə qeyd etmək lazımdır ki, bu üslub göytürk dövründə Orxon-Yenisey abidələrində, oğuz və qıpçaq metal sənətində də davam etmişdir. Qurd motivi xüsusilə skif-türk mifik sistemində eyni mənşəyə işarə edir.

Skiflərdə hərbi təşkilatlanma ictimai-siyasi quruluşla sıx bağlı idi. Hərbi idarəçilikdə aristokrat döyüşçü təbəqəsi aparıcı rol oynayırdı. Bu sistem hun, göytürk və oğuzlarda mövcud olan onluq idarəçilik sisteminin ilkin forması kimi dəyərləndirilə bilər [3;5].

Arxeoloji materiallar skif cəmiyyətinin mərkəzləşmiş, komandanlıq strukturuna malik olduğunu göstərir. Belə ki, böyük kurqanlar əsasən tayfa başçısı, eyni zamanda hərbi başçı hesab olunan döyüşçülərə məxsusdur. Onların yanında mühafizəçilər, xidmətçilər və bəzən ailə üzvləri dəfn olunurdu və qazıntılar zamanı döyüş kəməri dəstləri, qızıl zireh lövhəcikləri və dəbilqələr yüksək statusu göstərirdi. Bu struktura türklərdəki bəylər sinfi, alp ənənəsi və sərkərdəlik sistemi tam uyğundur. Atlı döyüş skif hərb mədəniyyətinin əsasını təşkil edirdi və bu xüsusiyyət türklərdə də ən güclü hərbi metod kimi min illər boyu davam etmişdir. Skif kurqanlarında at dəfnləri həm rituallaşmış, həm də hərbi status göstəricisi idi. Pazırık, başadar, Berel və Şibyə kurqanlarında şox sayda atın zirehli və yəhərli şəkildə dəfni skiflərin atla bağlı yüksək mədəniyyətini göstərir [4, 38-39]. Eyni

adət Azərbaycan kurqanlarında at skeletləri və qoşqu avadanlıqlarında izlənilir. Arxeoloji materiallara əsasən skif yəhərləri dörd buynuzlu erkən türk yəhərləri ilə eyni konstruksiyaya malikdir. Qurd və maral başlı dəmir və tunc qoşqu bəzəkləri türklərin totemik sisteminə uyğunluq təşkil edir. Skif silah inventarı onların mobil döyüş sistemini göstərən ən mühüm arxeoloji sübutlardandır. Skiflərin kompozit yayı yüksək elastiklik və dəqiqlik təmin etdiyi üçün sonralar hunlarda və göytürklərdə daha da inkişaf etdirildi.. Akinak adlı qısa qılınc bütün skif kurqanlarında rast gəlinir. Bu qılınc forması hun, erkən türk və qıpçaq qılıncları ilə demək olar ki, eynidir. Tovuzun Qazıqulu nekropolundan dəmir akinak və 6 əsəd ox ucluğu aşkar olunmuşdur [2, 193-200] Skiflərin üçqanadlı ox ucluqları Azərbaycanın, Tuva və Altayın tapıntılarında eyni tipdədir. Bu oxlar türk oxçuluğunun formalaşmasının da əsas mərhələsidir.

Skif zirehləri yüngül, elastik və mobil idi. Pullu metal lövhələrdən ibarət zireh modeli türklərin dəfələrlə istifadə etdiyi zireh tipidir. Skif döyüş sisteminin taktik modelləri antik mənbələrdə geniş təsvir olunmuş və arxeoloji materiallarla təsdiqlənmişdir. Bu taktika türklərin "yalğan hücum" sistemi ilə eynidir [5]. Atlı döyüşçülər geri çəkilərək düşməni tələyə salırdı. Skif hücumları qəfil, sürətli və yön dəyişən olurdu. Bu taktika türk akınçı sisteminin ilkin formasını təşkil edir. Skif döyüşçüləri yüngül silahlanırdı, bu isə onlara sürətli yön dəyişmə və çeviklik verirdi. Bu model sonralar hun və göytürk ordusunun əsas üstünlüyü idi. Azərbaycan ərazisində skif hərb mədəniyyətinin izləri qeydə alınmışdır. Azərbaycan skif hərb sisteminin mühüm sahələrindən biri olmuşdur. Şəmkir nekropolunda, Şəkinin Yonvcalı kurqanlarında üçqanadlı ox ucluqları, akinaklar, kəmər dəstləri, maral fiqurları aşkar edilmişdir [1, 22-23].

Muğan kurqanlarında kompozit yay fraqmentləri, dəmir silahlar, at qoşqusu detallarında qurd təsvirləri tapılmışdır. Gəncə-Qazax bölgəsində pullu zireh hissələri, qızıl və tunc zoomorf fiqurlar, skif tipli dəbilqə fraqmentləri məlumdur.

Skif hərb sənəti ümumtürk hərbi mədəniyyətinin ən qədim və formalaşdırıcı nümunələrindən biridir. Arxeoloji materiallar – kurqanlar, at dəfnləri, silah kompleksləri, ox ucluqları, zirehlər, zoomorf üslublu metal sənəti – skiflərin türk bozkır sivilizasiyasının ayrılmaz hissəsi olduğunu bir daha sübut edir. Skif-türk kontinuiteti Avrasiyanın hərbi tarixinin əsas istiqamətlərindən biri olmuş və sonrakı türk dövlətlərinin savaş sisteminə böyük təsir göstərmişdir.

Ədəbiyyat siyahısı:

1. Həsənov Z. Skiflər və onların Azərbaycan tarixində yeri // tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2023, 57 s.

2. Nəcəfov Ş. Qazıqulu nekropolundan aşkar edilən skif tipli ox ucluqları // AMEA-nın Xəbərləri, tarix, Fəlsəfə, hüquq seriyası. Bakı 2010, N1-2, s.192-200

3. Mahmudova H. İskit-Sibir dünyası və Azərbaycan. Bakı, Ekoprint, 2029, 220 s

4. Баркова Л.Л. Курган Шибе и вопросы его датировки. //Материалы и исследования по археологии СССР. / АСГЭ. Вып. 19. Л.: 1978. С. 37-44

5.Скифы – тюрки //https://neolurk.org/wiki/%D0%A1%D0%BA% D0%B8 %D1%84 % D1%8BE2%80%94 %D1%82%D1%8E%D1%80%D0%BA%D0%B8

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN XALQ RƏQSLƏRİNDƏ ÜMUMTÜRK MOTİVLƏRİ

Fəxriyyə Həvilova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və Etnoqrafiya" kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru
fexriyyehavilova@mail.ru

Açar sözlər: *ümumtürk, türk xalqları, ənənə, mədəni dəyərlər, xarakterik xüsusiyyətlər*
Keywords: *All-Turk, Turkic peoples, tradition, cultural values, characteristic features*

Azərbaycanlılar, Anadolu türkləri, qazax, qırğız, uyğur, türkmən, altay, yakut və digər türk xalqlarının ortaq tarixi köklərə və bənzər mifoloji düşüncə tərzinə malik olması xalq rəqslərinin motivlərində özünü aydın şəkildə büruzə verir. Sözügedən xalqların həyat fəaliyyəti və mədəni dəyərləri arasındakı yaxınlıq ümumtürk elementlərin, həmçinin ortaq musiqi-rəqs ənənələrinin meydana çıxmasına səbəb olmuşdur.

Bütün türk xalqlarında müxtəlif adlarla, məsələn: azərbaycanlılarda "yallı", türklərdə "halay", qazax və qırğızlarda "kara jorlu", "aiytay", türkmənlərdə "küştdepdi" adı altında tanınan rəqslərdə olan kollektiv ritmik addımlar ümumtürk motividir. Bu kollektiv rəqslər zamanı əllərin bir-birindən tutulması birliyə çağırış mənasını verir.

Türk xalqlarının köçəri həyat tərzi rəqslərdə ritm, dinamika və hərəkətlərdə əks olunur. At sürmə jestləri, dövrəvi hərəkətlər – köç marşını simvolizə edir. Ritmik yeriş və qaçış elementləri kimi motivlər Azərbaycanlıların "Köçəri", Qazaxların "Kara Jorga", Altay rəqslərində açıq şəkildə özünü göstərir.

Türk xalqlarında mövcud olan bir çox rəqslər özünün döyüş hərəkətləri və jestləri ilə fərqlənirlər. Azərbaycanlılarda "Cəngi", qazaxlarda "Batırlar rəqsi", türklərdə "Zeybek" adlanan ağır igidlik rəqslərinin xarakterik xüsusiyyətləri mövcud olmuşdur. Belə ki, rəqs olunarkən geniş addımlar, qolların yuxarıya doğru açılması, qəhrəmanlıq, kollektiv güc, həmrəylik, el birliyi və azadlığı özündə əks etdirən çökmə, dövrə vurma, addım atma və s. kimi hərəkətlər türk xalq ənənələrində igidlik göstəricisidir. "Halay", "yallı", "zeybek" kimi rəqslərdə ayağın güclə yerə vurulması qədim türk inanclarında "torpağı oyatmaq" kimi başa düşülür. Bu rəqslərdə qolun dairəvi hərəkətləri səmavi dövranı, kainatın fırlanmasını simvalizə edir. Rəqslərdə əllərin yana və yuxarıya doğru açılması qədim türklərin quş kultu (xüsusən şahin və qartal) ilə bağlılığını göstərir. Həmçinin bu kimi hərəkətlər azadlıq, ucalıq və ruhun gücü kimi başa düşülür.

Etnoqrafik tədqiqatlara əsaslanaraq qeyd edə bilərik ki, "halay" sözü etimoloji baxımdan müxtəlif mənalar verir. Tədqiqatçı A.Abduləliyevin söylədiklərinə görə, "halay"a bəzən "alay" da deyilir. "Halay" sözü iki tərkib hissəsindən ibarətdir: hal-al. Hal (al) türk xalqlarının mifologiyasında mifik varlıqdır. Halayın ikinci tərkibi "ay" türk xalqlarının dilində işlədilmiş arxaiq söz olan "aymaq", (demək,

söyləmək), "aydır" (dedi, söylədi) fellərinin köküdür» [1, 65-66]. Digər bir tədqiqatçının fikrinə görə "Halay", "hal" sözü, hal nəğməsi deməkdir [5, 11]. Ümumiyyətlə etnoqrafik tədqiqatlara diqqət yetirsək "hal", "hal anası" ilə bağlı çoxlu rəvayətlər mövcuddur [3, 219].

Qadın rəqslərində əllərin süzücü hərəkəri, barmaqların çox incə və zərif şəkildə bükülüb açılması, sağa-sola dalğavari hərəkətləri Azərbaycanda oynanılan "İnnabı" rəqsində, həmçinin uyğur, Anadolu rəqslərində geniş şəkildə özünü göstərir. Bu cür hərəkətlər zəriflik, incəlik, gözəllik və qadın şəfqəti kimi motivləri özündə cəmləşdirir. Yeri gəlmişkən qeyd edək ki, "İnnabı" rəqsi Qarabağ və Şərqi Zəngəzurda geniş yayılmış qadın rəqslərindən hesab olunur.

Azərbaycanın ən zəngin rəqs məktəblərindən biri məhz Qarabağ və Şərqi Zəngəzurda yaranmıdır. Bu bölgələrdə oynanılan rəqslər ritm, hərəkət sistemi və jestlər baxımından ümumtürk xüsusiyyətlərini daşımış və özünəməxsus Qarabağ üslubunu, həmçinin dağlıq bölgələrin xarakterik xüsusiyyətlərini qoruyub saxlamışdır. Bu baxımdan qeyd etmək lazımdır ki, Qarabağ və Şərqi Zəngəzur rəqs məktəbləri bir-birinə çox yaxın olsalar da musiqi ritmi, jestlər, addım texnikası və xarakter baxımından müəyyən fərqləndirici xüsusiyyətlərlə özünü göstərir. Qarabağ rəqslərində musiqinin muğamla bağlılığı nəticəsində rəqs hərəkətləri daha axıcı, o cümlədən daha nəfis olur. Bu rəqslərdə əsasən zəriflik, incəlik və yumşaqlıq sezildiyi halda, Şərqi Zəngəzur dağ bölgəsi olduğu üçün rəqslər daha sərt, ritmik və enerjili olmuşdur. Bu rəqslər əsasən "yer döymə" tipindədir. Kişi rəqslərində igidlik, qəhrəmanlıq və güc kimi amillər daha cox özünü biruzə verir.

Qarabağda çox geniş yayılmış "Qarabağ yallıları" qədim tarixə malik olmuş türklərin Anadolu-Qafqaz-Mərkəzi Asiya istiqamətində yayılması ilə bağlı olmuşdur. Tarixi min illərlə ölçülən, çoxqatlı bir mədəni prosesi özündə əks etdirən "yallı" qədim ritual rəqslərinin davamı, həm də Qarabağın musiqi-mədəni inkişafının məhsulu hesab edilə bilər. Bu gün oynanılan yallılar qədim ənənələri özündə əks etdirir.

Tədqiqatçı A.Əsgərov bildirir ki, yallılar günəş, tanrı adına daiəvi icra olunan ayin olub, qədim inancları əks etdirir [8]. Bu rəqslərdə kollektiv hərəkət, dairəvi formada rəqs, ayaqla yeri döymə və əl-ələ tutma kimi ümumtürk elementləri özünü göstərir. Bütövlükdə yallıları qadın və kişi birgə və yaxud tək şəkildə rəqs edə bilirdi. Bu yallılar əsasən icma birliyinin nümayiş etdirilməsi, qoruyucu ayinləri icra edərkən və ya mövsümi mərasimlər zamanı oynanılırdı. Bölgənin səciyyəvi rəqslərindən hesab olunan "Qarabağ yallıları", bunlardan "Ceyranı", "Tərəkəmə" "Uzundərə", "Köçəri", "Mələk yallısı" demək olar ki, toyların və el şənliklərinin əsas hissəsini təşkil etmişdi.

Yallı sözünün etimalogiyasına diqqət etsək tədqiqatçı K.Həsənovun söylədiklərinə istinadən deyə bilərik ki, "yal" cərgədir, zəncir xəttidir. Yallını oynayanlar bir və ya iki cərgədə, bəzən də bir neçə cərgədə dururlar. Vaxtilə başqa adı olmuş bu rəqs, tədricən Azərbaycan dilinin əmələ gəlməsi ilə əlaqədar olaraq öz hərəkət

düzümünə, quruluşuna görə yeni ad "Yallı" (yəni cərgəyə duranlar) adı kəsb etmişdir [4, 21].

Qarabağa aid ən məhşur rəqslərdən danışarkən "Cəngi"nin də adını qeyd edə bilərik ki, kişilər tərəfindən oynanılır, kəskin hərəkətlərlə müşayət olunur, igidlik, döyüş və qəhrəmanlıq ifadə edən rəqs hesab olunur. "İnnabı" - Qarabağın ən zərif rəqslərdən biridir, "Vəznəli" - cütlüklə oynanılan, oynaq, ritmik rəqsdir ki, Qarabağ toylarının ənənəvi hissəsini təşkil edir, "Mirzəyi" - ənənəvi Qarabağ melodik xəttini özündə əks etdirir. Əsasən yaşlı qadın və kişilər tərəfindən oynanılır, ağır, aram rəqslərdən hesab olunur [4,16]. "Sari gəlin" və "Süsənbər" adlı rəqslər də Qarabağa xas incə və lirik ifa tərzi ilə seçilirlər.

Tədqiqatçı B.Hüseynli qeyd etmişdir ki, XIX əsrdə Azərbaycanın bir çox rayonlarında, xüsusilə Qarabağ şənliklərində dəstgah şəklində ifa olunmuş çoxhissəli rəqslər, o cümlədən "Çaharzən" adlanan rəqs dəsgahı da geniş yayılmışdır [7].

Şərqi Zəngəzurun rəqsləri Qarabağ rəqs məktəbi ilə bir başa bağlıdır, həmçinin dağlıq bölgələrə məxsus özəl xüsusiyyətləri özündə cəmləşdirir. Belə ki, "Laçın yallısı", "Laçın güləş rəqsi", "Laçın tərəkəməsi" dağlıq bölgəyə xas olan sərt addım və hərəkətləri, o cümlədən çevik dönüşləri özündə əks etdirir. Cəbrayıl rəqslərindən: "Cəbrayıl yallısı", "Cəbrayıl tərəkəməsi"nin adını çəkə bilərik ki, burada həssas melodiya və yumşaq ritm özünü göstərir. Zəngilan və Qubadlı rəqsləri də əsasən tərəkəmə üsulunda, surətli ritmlə oynanılır. Kəlbəcərin "Dəhnə", "Mərasim yallıları" kimi rəqsləri mərasim musiqilərindən yadigar qalmışdır.

Ümumtürk elementləri hesab olunan halay-yallı, döyüş jestləri, köçəri ritmlər, güclü zurna, nağaranın ifa edilməsi, zərif qadın rəqsləri, igidlik göstəricisi olan kişilərin sərt rəqsləri, o cümlədən el şənliklərində indi də oynanılan kollektiv yallılar bu bölgənin rəqslərində olan ortaq xüsusiyyətləri özündə əks etdirir.

Nəticə etibarilə qeyd edə bilərik ki, Qarabağ rəqsləri öz zərif və melodik olması ilə, sərt, ritmik və dağ üslubunu özündə qoruyub saxlamış Şərqi Zəngəzur rəqslərindən fərqlənsə də bu rəqslərin hər birində ayrı-ayrılıqda ümumtürk motivləri qorunub saxlanılmış və hal-hazırda da özünü əks etdirməkdədir.

Ədəbiyyat siyahısı:

1. Abdulәliyev A. "Halayın əmək folkloru konteksində tədqiqinə dair", Azərbaycan milli musiqisinin tədqiqi problemləri. (I respublika elmi konfransının materialları. Bakı, 17-19 dekabr, 1991) Bakı 1992

2. Bəhmənli R.B. Azərbaycan xalq rəqsləri. Bakı-Adiloğlu, 2002, s. 158

3. Həvilov.H. Azərbaycan etnoqrafiyası. Bakı-Elm. 1991. 256 c)

4. Həsənov K. Qədim Azərbaycan xalq rəqsləri. Bakı-İşıq. 1983. 60 s.

5. Fərzəliyeva S. Azərbaycanın cənub-şərq bölgəsinin "Halay" rəqs mahnıları. Dərs vəsaiti. Bakı-Mütərcim. 2014. 216 s.

6. Rəqs-milli mənəvi dəyərlərimizin əyləncəli və zövqlü ifadəsi. Respublika uşaq Kitabxanası, 2023, 34 s.

7. Azərbaycan ənənəvi musiqisi.https://enene.musiqi-dünya.az/xalq reqs.html.

8.Naxçıvan musiqi mədəniyyətində yallı rəqsi. Pdf. https://www.anl.az/down/meqale/musiqi_dunyasi/2018/1-74/700419

TÜRK DASTANLARINDA OZAN-AŞIQ SƏNƏTİNİN ETNOQRAFİK TƏHLİLİ (ZƏNGƏZUR MATERİALLARI ƏSASINDA)

Əmanət Əsədova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və Etnoqrafiya" kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru
emanetesedova@mail.ru

Açar sözlər: *dastan, aşıq, Zəngəzur, ozan, oğuz, saz*
Keywords: *epic, ashik, Zangezur, ozan, Oghuz, saz*

Müstəqil Azərbaycanımızın inkişafında və müasir dövlət quruculuğunda beynəlxalq prinsip və təcrübə ilə yanaşı xalqımızın qədim tarixi irsinə, milli-mənəvi dəyərlərinə istinad xüsusi əhəmiyyət daşıyır. Milli mədəniyyətin qorunması və inkişafı həm də milli dövlətçiliyin möhkəmləndirilməsi deməkdir. Aşıq yaradıcılığı zəngin milli, əxlaqi və mənəvi dəyərlər sistemi ilə bəşər sivilizasiyasına əvəzsiz töhfələr vermiş xalqımızın mədəniyyətini dərin türk köklərinə bağlayır. Araşdırmalar göstərir ki, aşıq sənətinin türk dünyasında ən çox inkişaf etdiyi məkan elə Azərbaycandır. Etnoqrafik müşahidələr aşıq sənəntinini daha çox maldar tayfalar arasında yarandığını söyləməyə imkan verir. E.ə. IV-III minilliklərdə Azərbaycanda yaşayan köçmə maldar tayfalar arasında aşıq sənətinin intişar etməsi üçün hər cür şəraitin olduğunu düşünmək məntiqə tam uyğundur.

Müasir aşığın əcdadları sayılan şamanlar, varsaqlar, ozanlar, yanşaqlar tarixən bir-birini əvəz edərək bu günkü aşıq sənətini ərsəyə gətirmişlər. Bu adlar içərisində ən qədimi təbiidir ki şamanlardır. Şamanlıq qədim türk tayfalarının ilk dini görüşləri sayılır. Onlar dəf, zil, davul çalaraq rəqs edir, türkü söyləyir, ayin icra edirdilər. Aşıq sənəti ilə şamanlıq arasında bir yaxınlıq və doğmalıq aydın hiss edilir. Şaman varsağa, ozana keçmək üçün körpü rolu oynamışdır. Göründüyü kimi aşıq sənətinin inkişaf mərhələsində varsaqların rolu az olmamışdır. "Varsaq"- söz sahibi, söz ustası, çalan-oynayan, sənətkar, aktyor kimi tanınır. Aşıq sənəti tarixin müəyyən dövrlərində ozan sənəti, yanşaq sənəti və aşıq sənəti kimi mərhələlərdən keçmişdir [5].

Ozanlıq özünün yetkin mərhələsini Dədə Qorqudun timsalında tapmışdır. Dədə Qorqud özündən əvvəl yaşamış ozanların bədii nailiyyətlərini, başlıcası isə, dastançılığı sistemləşdirdi.

"Kitabi Dədə Qorqud" dastanında xalqın müqəddəslik zirvəsinə yüksəltdiyi, səcdə etdiyi ozan Dədə Qorquddur. O islamı məvhum "pir", "övliya", "dədə" yox, daha çox qan-şaman ənənələri ilə sıx bağlı olan "Ata" ayamalı kişidir [3]. İndi olduğu kimi o dövrdə də yaradıcı və həvəskar ozanlar olmuşdur. Tarixən ozanları, aşıqları el saxlamış, məclislərdə oxumaqları, məclisi aparmaları, şənləndirmələri müqabilində onlara nəmər vermiş, onların qabiliyyətlərini, bacarıqlarını yüksək qiymətləndirmişlər. Elə obaya ilham verən, qəhrəmanlıqlara səsləyən, yaxşı işə xeyir-dua verən, pis iş göräni cəzalandıran da ozandır. Heç bir məclis ozansız keçmə-

miş, onun xeyir-duası olmadan başa çatmırdı. Onun xeyir-duası ağsaqqal babaların, ağbirçək nənələrin indi də eşitdiyimiz xeyir-dualarını xatırladır. Ozan-aşıq həm də cəmiyyətin ağsaqqalı, alimi, müdrik şəxsiyyətidir. Xalqın xoş günündə də, dar günündə də o öndədir. Adqoyma funksiyası, yaxşı iş görənin mükafatlandırılması, öyülməsi, pis iş görənin cəzalandırılması da onun səlahiyyətinə daxildir. Onun Oğuz cəmiyyətində rolu, mötəbərliyi min ildən artıq vaxt keçməsinə baxmayaraq, dəyişməyib, mənəvi, mədəni varislik özünü açıq şəkildə günümüzdə də göstərməkdədir. keçmiş yaxın əsrlərdə kənd yerində təhsilli adamın etimadı xalq arasında aşıqdan az olur. Kənd, alim adamdan daha çox aşığa-sadə xalq müğənnisinə, şairə inanır". Aşıqlar kənd əhalisinin həm alimi, həm məsləhətçisi, həm də başçısıdır. Aşıq bir işi qərara almışsa, həmin qərar qanundur, bu qanunu pozmağa heç kimin ixtiyarı yoxdur. Toy zamanı vəzirələri və xərcləri aşıq bölüşdürür. Aşığın göstərişi ilə təzə evlənənlərə sapdan tutmuş çadıradək ev əmlakını, ev heyvanlarını kəndin adamları verirlər".

XVI əsrdən ozan sənəti aşıq sənətinə transformasiya olunmuş, ozanı aşıq, qopuzu isə saz əvəz etmişdir. Ozan adının sonralar aşıq adı ilə əvəz olmasını müsəlman Şərqində geniş yayılmış eşq fəlsəfəsi aşılayan lirikanın təsiri ilə bağlayırlar. Şərq lirikasında "aşiq" anlayışı özlüyündə eşq yolçusu, ilahi eşqə tapınan mənası daşıyırdı. Aşiq üçün varlığın canı, vəhdəti Tanrı eşqinə bağlıdır. Bunun üçün eşqin dönməz yolçusu, cəfakeş olmaq gərəkdir. Aşıq aşiqlərin qəlbini, yolunu işıqlandıran Tanrı işığı sayılırdı.

Kökləri qədimlərə gedib çıxan aşıq sənəti sinkretikdir. Bu sənətdə incəsənətin bir neçə növü birləşir: poeziya, rəqs, dram elementləri, bədahətən şeriyyət və musiqili improvizə. Bu çoxşaxəli, qollu-budaqlı sənətdə musiqi, ifaçılıq, rəqs və şeir bir-birini tamamlayır. Ona görə də aşıq sənəti şərəfli olduğu qədər də çətin, mürəkkəb və son dərəcə ustalıq, həssaslıq, mahirlik tələb edən sənətdir. Öz sosial təbiətinə görə aşıq, bir qayda olaraq, kəndli kütlələri içərisindən yetişirdi. Xalqın istək və arzularının tərcümanı olan aşıq el arasında "xalq aşığı", "haqq aşığı", "ustad" deyə dəyərləndirilir, "aşığın səsi haqqın səsidir", "aşıq elin anasıdır", "aşıq elin yaraşığıdır", "aşıq elin həm təbibi, həm məlhəmidir" deyə tərifləmişdir.

Sənətkarlıq xüsusiyyətlərinə görə aşıqlar üç qrupa bölünürlər. Birinci qrup ustad aşıqlardır ki onlar saz-söz sənətkarları kimi öz fəaliyyətlərində həm şair, həm bəstəkar, həm müğənni, çalğıçı, rəqqas, aktyor, müdrik müəllimlik kimi funksiyaları kompleks halda icra edirlər. İkinci ifaçı aşıqlar – qədim saz-söz ənənələrini yaşadan və onu xalq arasında yayan sənət ustalarıdırlar. Üçüncü qrup el şairləri – şair aşiqlardır ki yalnız şer nümunələri yaradaraq söz ustaları kimi tanınırlar [3].

Zəngəzur aşıq mühiti Azərbaycan folklor-musiqi xəzinəsinin mühüm tərkib hissəsidir. Onun musiqi, poetik və epik ənənələri regionun sosial həyatını, tarixini və mədəni davranış modellərini əks etdirir. Bu mühitin öyrənilməsi həm etnoqrafiya, həm musiqişünaslıq, həm də folklor nəzəriyyəsi üçün dəyərli mənbədir. Zəngəzur aşıqlarının dastan repertuarında həm ümumtürk epik köklü əsərlər, həm də lokal süjetlər geniş yer tutur. Ən çox yayılan dastanlar: "Aşıq Qərib", "Əsli və Kərəm",

"Şah İsmayıl" və "Gorus gözəli", "Qırxların Sirri", "Əhmədin dastanı" kimi lokal dastanlardır. **"**Aşıq Qərib**"** dastanıın – Zəngəzur variantı daha çox dramatik epizodlar və qəhrəmanın sınaq motivləri ilə zəngindirsə "Əsli və Kərəm"-in Zəngəzur ifası lirizmi ilə seçilir. "Şah İsmayıl" dastanında isə bölgəyə məxsus qəhrəmanlıq əlavələri vardır. Bu havalar həm toy mərasimlərində, həm də el mərasimlərində ifa edilərək regionun emosional-mədəni kodunu formalaşdırmışdır [2]. Zəngəzur qədim türk tayfa birliklərinin məskunlaşdığı, elat həyatının dominant olduğu bir bölgə kimi folklor-musiqi yaradıcılığının inkişafı üçün əlverişli şərait yaratmışdır. XII–XVI əsrlərdən etibarən Qarabağ-Zəngəzur elatlarının mürəkkəb köç marşrutları (Laçın–Gorus–Göyçə–Qubadlı istiqamətləri) müxtəlif musiqi üslublarının təması üçün geniş platforma olmuşdur. Bu arealda aşıq eyni zamanda nağılçı, el nəğməkarı, dastan bilicisi, toy aparıcısı və icma mediatoru funksiyalarını həyata keçirirdi [1].

Zəngəzur aşıq mühiti Azərbaycan aşıq sənətinin regional qollarından biri kimi Qarabağ mədəni arealı çərçivəsində formalaşmış və uzun müddət özünəməxsus poetik-musiqi xüsusiyyətləri ilə tanınmışdır. Tarixi Zəngəzur mahalı — Laçın, Qubadlı, Zəngilan, Göyçə və Qərbi Zəngəzurun bir sıra hissələrini əhatə edən bu region — elat təsərrüfatı, sərt dağ-coğrafiya və köç yolları fonunda zəngin folklor irsini qoruyub saxlamışdır. Bu mühitin aşıqları həm musiqi repertuarına, həm dastan ənənəsinə, həm də sosial-funksional mədəni institut kimi el həyatına mühüm təsir göstərmişlər.

1988–1993-cü illərdə erməni işğalından sonra Zəngəzur aşıq mühitinin bir hissəsi köç yollarına düşməli oldu. Bununla belə bölgənin lokal xarakterik ənənələri Laçın, Qubadlı, Zəngilan icmaları və həmçinin Bakı, Sumqayıt aşıq ocaqları tərəfindən davam etdirilib. Zəngəzur toy şənliklərində "yallı ilə aşıq havalarının növbələşməsi" ənənəsi xüsusi yer tutur. El mərasimlərində bütün gecə uzunu dastan danışmaq - "gecə məclisi", "el söhbəti" bir qayda halını almışdır. Zəngəzur aşıqlarının ifasında cümlələrin aydın bölünməsi, sakit, melodik və lirizmə üstünlük verilməsi özünəməxsus xüsusiyyət kimi dəyərləndirilir [4]. Bölgədə aşıqların ifa ənənəsində tək aşıq və duet forması geniş yayılıb.

Azərbaycançılıq ruhunun aşılanmasında mühüm rol oynayan aşıqlıq sənətinə ölkəmizdə dövlət səviyyəsində qayğı göstərilir. Ulu Öndər aşıqlıq sənətinə yüksək qiymət verdiyi kimi, onun layiqli siyasi varisi ölkə Prezidenti cənab İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, ölkənin birinci xanımı Mehriban xanım Əliyeva da onu yüksək dəyərləndirir. Məhz Mehriban Əliyevanın təşəbbüsü ilə aşıq sənəti YUNESKO səviyyəsində bəşəriyyətin qiymətli mədəni irsi kimi tanınır.

Ədəbiyyat siyahısı:

1. Bayramov, Ş. Aşıq Sədnik və Zəngəzur məktəbi. Gəncə, 1996.
2. Əliyev, M. Azərbaycan aşıq sənətinin regional xüsusiyyətləri. Bakı: Elm, 1998.
3. Hüseynov, R. Aşıq məktəbləri. Bakı, 2012.
4. Məmmədli, Q. Qarabağ-Zəngəzur elat mədəniyyəti. Bakı: Şərq-Qərb, 2004.
5. Məmmədov, Ə. Azərbaycan dastançılıq ənənəsi. Bakı, 2003.

FAYANS MƏMULATI AZƏRBAYCANIN SƏLCUQ DÖVRÜ TİCARƏTİNİN GÖSTƏRİCİSİ KİMİ

Mircavid Ağalarov
AMEA Arxeologiya və Antropologiya İnstitutu, elmi işçi

***Açar sözlər**: Aran şəhərləri, Şirvan şəhərləri, siluet naxışlı fayans, minai naxışlı fayans, İpək Yolu*
***Keywords**: Aran cities; Shirvan cities; silhouette-patterned tiles; mina'i-patterned tiles; Silk Road*

Fayans dedikdə, tərkibi əsasən silikat əsaslı ağ gildən ibarət və yüksək temperaturlu bişirmə nəticəsində şüşəvari quruluşa malik keramika məmulatı nəzərdə tutulur [13, s.570]. Fayanslar texnoloji xüsusiyyətlərinə, kimyəvi tərkibinə və istehsal mərhələlərinə görə qırmızı gildən hazırlanmış adi keramika məmulatından fərqlənir; onların gövdəsi daha yüngül, məsaməlilik dərəcəsi daha aşağı və rəng çalarları ağdan çəhrayı rəngə qədər dəyişə bilir. Bu xüsusiyyətlər həm dekor tətbiqinə, həm də şiraltı və şirüstü texnikaların geniş inkişafına imkan yaradırdı [10, s.32].

Fayans istehsalının ilkin formalaşması Abbasilər dövrünə - IX əsrə aid edilir. Bu mərhələdə həm texnologiyanın, həm də dekorativ üslubların standartlaşması müşahidə olunmağa başlayır [11, s.7]. Lakin fayans istehsalının tam texnoloji formalaşması, həmçinin dekorativ motivlərin sistemli şəkildə inkişafı əsasən Səlcuqlar dövründə baş verir. Bu dövr fayans sənətinin Yaxın Şərqdə ən yüksək inkişaf mərhələsi hesab olunur və həm material seçimi, həm rəng palitrası, həm də dekorasiya metodları baxımından mühüm yeniliklərlə xarakterizə olunur.

Azərbaycandan aşkarlanmış Səlcuq dövrü fayans məmulatı dekorativ xüsusiyyətlərinə görə üç əsas kateqoriyaya bölünür: saya (naxışsız), şiraltı naxışlı və şirüstü naxışlı fayanslar. Saya nümunələr firuzəyi, mavi, şabalıdı və digər sadə rəng çalarlarında şirlə örtülmüş, dekor tətbiq edilməmiş məmulatlardır. Şiraltı naxışlı fayanslar isə müxtəlif texnologiya və dekor üsullarını özündə birləşdirirdi: cızma, çərtmə, boya ilə işləmə, dəlmə, qəlibdə formalaşdırma, basma naxışlı və s. Bu texnikalar sayəsində naxışlar şir qatının altında sabitləşir və yüksək davamlılıq əldə edirdi. Şirüstü naxışlı fayanslar zərfayans və minai tipli fayans məmulatlarla təmsil olunur.

Azərbaycan ərazisində aşkarlanmış fayans məmulatın mənşəyi barədə mütəxəssislər arasında fikir ayrılığı mövcuddur [5, s.106]. Bununla belə, ümumi statistik paya, texnoloji göstəricilərə, xammalın xarakterinə və tipoloji oxşarlıqlara əsasən, tapılan fayansların böyük əksəriyyətinin yerli istehsal məhsulu olduğu daha məntiqli görünür. Bununla yanaşı, minai, siluet naxışlı qruplar kimi müəyyən kateqoriyalar yerli istehsaldan çox, idxal olunmuş məmulat təsiri bağışlayır [12, s.285]. Bu qənaətə həmin nümunələrin statistik payı, kompozisiya xüsusiyyətləri, texniki icra tərzi və regional paralelləri əsas verir.

Siluet naxışlı fayanslar Azərbaycanın Astara rayonu abidələrindən, Şəmkir, Gəncə, Beyləqan və Naxçıvan kimi mühüm orta əsr şəhər yerlərindən aşkar edilmişdir [3, s.315]. Azərbaycanın digər orta əsr abidələrindən bu tip məmulatların qeydə alınmaması onların yayılmasının məhz müəyyən ticarət mərkəzləri və karvan yolları ilə sıx bağlı olduğunu göstərir. Eyni tip fayansların Qərbi Azərbaycan (indiki Ermənistan Respublikası) ərazisində yerləşən Dəbil şəhər yerindən aşkar olunması [8, 270] bu fayansların regionda geniş ticarət dövriyyəsinə

daxil olduğunu təsdiqləyən mühüm faktorlardandır. Siluet naxışlı fayans məmulatının aşkar edildiyi bütün şəhər yerlərinin Böyük İpək Yolunun əsas istiqamətləri üzərində yerləşməsi onların məhz uzaq məsafəli ticarət əlaqələri vasitəsilə yayılmasına işarə edir. Oxşar sözləri minai tipli fayans məmulatı haqqında da söyləmək mümkündür (Xəritə 1).

Cənubi Azərbaycan istiqamətindən daxil olan karvan yolu Araz çayını keçərək Beyləqan, Yunan və digər şəhərləri keçib Bərdəyə çatırdı. Bərdə bu yolun əsas tranzit mərkəzlərindən biri kimi üç istiqamətə şaxələnirdi: bir qolu Şamaxıya, biri Gəncə–Tiflis xəttinə, digəri isə Naxçıvana doğru uzanırdı [4, s.150-207]. Bu marşrut üzərində yerləşən şəhər yerlərindən Beyləqandan (Örənqala) siluet naxışlı fayansların aşkar edilməsi, buranın ticarət dövriyyəsində oynadığı rol ilə bağlıdır. Beyləqandan aşkarlanmış siluet naxışlı nümunələr incəliyi və texniki keyfiyyəti ilə seçilir. Azərbaycanın arxeoloji materialları arasında məlum olan yeganə gülabdan formalı tam siluet naxışlı qab da məhz Beyləqan qazıntılarından qeydə alınmışdır. Buradan minai tipli fayansların da əldə olunması şəhərin müxtəlif növ idxal keramika ilə təmasda olduğunu göstərir [1, s.132]. Lakin Beyləqanda minai naxışlı fayansların sayca az və əsasən kiçik fraqmentlərdən ibarət olması bu məmulatların burada məhdud miqdarda dövriyyədə olduğunu ehtimal etdirir.



Xəritə 1 Minai naxışlı fayans aşkarlanmış şəhər yerləri. Xəritə müəllif tərəfindən QGis proqramında yaradılmışdır

Bərdə şəhərindən siluet naxışlı fayansların hələlik aşkar edilməməsi buradakı tədqiqatların xilasetmə xarakterli və məhdud sahədə aparılması ilə izah olunur. Mövcud məlumatlar və şəhərin ticarət funksiyası nəzərə alındıqda, Bərdə şəhər yerində də belə nümunələrin mövcudluğunu gözləməyə tam əsas vardır. Bu qənaəti dəstəkləyən əsas faktorlardan biri Bərdədən minai naxışlı fayans nümunələrinin [2, s.203] aşkar edilməsidir ki, bu da şəhərin yüksək keyfiyyətli idxal keramika məmulatı ilə təmasda olduğunu göstərir.

Bərdədən ayrılan karvan yollarından biri Gəncə–Tiflis istiqaməti idi və bu xətt üzərində yerləşən Şəmkir şəhər yeri sistemli şəkildə tədqiq edilmişdir. Gəncə şəhər yerində isə fərqli illərdə arxeoloji tədqiqat işləri aparılsa da, bu tədqiqat işləri sistemli olmayıb, bir neçə mövsümlük qazıntılardan ibarət olmuşdurlar. Hər iki abidədən həm minai, həm də siluet naxışlı fayansların qeydə alınması bu şəhərlərin

Səlcuq dövründə idxal keramika ilə sıx təmasda olduğunu göstərir. Xüsusilə Şəmkir şəhər yerindən aşkarlanmış minai naxışlı fayanslar yüksək texniki icra və zəngin dekorativ xüsusiyyətləri ilə seçilir. Hazırda Azərbaycanda ən zəngin minai fayans kolleksiyası məhz Şəmkirə məxsusdur [6, s.85]. Bu nümunələrin əksəriyyətinin Narınqala ərazisindən aşkar olunması həmin sahənin şəhərin inzibati və elitar funksiyalarını daşıyan hissəsi olduğunu göstərir.

Cənub istiqamətinə – Naxçıvan şəhəri tərəfə nəzər saldıqda da oxşar mənzərə müşahidə olunur. Bu istiqamətdə yerləşən Naxçıvan və Xaraba Gilan şəhər yerlərindən həm siluet, həm də minai naxışlı fayanslar aşkar edilmişdir [9, s.88]. Bundan əlavə, eyni istiqamətin davamı kimi, regionun mühüm mərkəzlərindən olan Dəbil şəhər yerində də bu fayans növləri geniş şəkildə qeydə alınmışdır ki, bu da ticarət əlaqələrinin Cənubi Qafqaz boyunca davamlı və çoxşaxəli olduğunu göstərir.

Bərdədən çıxan üçüncü istiqamət Şamaxı xətti idi. Bu yol karvanları Qəbələ və Şabran kimi şəhərlərdən keçirərək Şimali Qafqaza aparırdı. Maraqlı cəhət ondan ibarətdir ki, bu marşrut üzərində yerləşən Şamaxı, Qəbələ və Şabrandan nə minai, nə də siluet naxışlı fayans nümunələri aşkarlanmışdır. Burada yeganə istisna Dərbənd şəhəridir. Arxeoloji qazıntılar nəticəsində Dərbənd şəhər yerindən hər iki tip fayansın aşkar olunması [7, s.15] şəhərin həm ticarət, həm də siyasi-strateji mərkəz kimi xüsusi mövqeyə malik olduğunu sübut edir.

Astara rayonu ərazisində siluet və minai naxışlı fayansların aşkarlanması da xüsusi diqqət çəkir. Bu ərazidə genişmiqyaslı arxeoloji qazıntılar aparılmasa da, yerüstü materiallar arasında zəngin fayans nümunələrinin mövcudluğu burada inkişaf etmiş şəhər mədəniyyətinin formalaşdığını göstərir. Həmçinin bu tapıntılar Astaranın orta əsrlər boyunca Xəzərsahili və İran istiqamətində geniş ticarət əlaqələrinə malik olduğunu təsdiqləyir.

Bütün bu məlumatlar göstərir ki, Səlcuq dövrü ərzində Azərbaycanın Aran şəhərləri ticarətdə fəal rol oynamışdır. Azərbaycan Atabəyləri dövləti ilə sıx iqtisadi əlaqələrə malik Rey, Kaşan kimi iri İran şəhərlərində istehsal olunan minai və siluet naxışlı fayans məmulatları Azərbaycanın şəhər mərkəzlərinə ixrac olunurdu. Beləliklə, bu fayans növləri bölgənin ticarət əlaqələrinin vizual və maddi göstəriciləri kimi qiymətləndirilə bilər.

Bundan əlavə, minai naxışlı fayansların əsasən Şəmkir şəhər yerinin Narınqala hissəsindən aşkar olunması şəhərdaxili ticarət əmtəələrinin yayılma dinamikasına dair mühüm məlumat verir. Narınqala ərazisinin idarəedici zümrənin və zadəgan təbəqəsinin yaşayış sahəsi olduğunu nəzərə alsaq, yüksək keyfiyyətli idxal fayanslara olan tələbatın məhz bu sosial qrup tərəfindən formalaşdırıldığı qənaətinə gəlmək mümkündür.

Ədəbiyyat siyahısı:

1. Ağalarov M. Orta əsr Beyləqan (Örənqala) şəhər yerindən tapılmış minai tipli fayans məmulatı // Milli Azərbaycan Tarixi Muzeyi-2023, səh. 123-133

2. Ağalarov M. Bərdə şəhərindən aşkarlanmış fayans nümunələri// Milli Azərbaycan Tarixi Muzeyi-2024, səh. 197-205

3. Aghalarov M. Silhouette stone paste wares of Azerbaijan: Typology and Issues of Origin // Археология Казахстана, 2025, 27 (1), 314-325.

4. Азербайджан на Шелковом пути / Под редакцией акад. Ш.М. Мустафаева. – Баку: Издательство "Təhsil", – 2020. – 384 с.

5. Dostiyev, T. Orta əsr Şəmkir şəhərində fayans qablar istehsalına dair // Bakı Universitetinin Xəbərləri, İctimai elmlər seriyası. – 2017. – №1. – s. 105–113.
6. Dostiyev, T.M. Şəmkir şəhər yerindən tapılmış "minai" tipli fayans qablar // Azərbaycan Arxeologiyası. – 2015. – №1. – s. 82–92.
7. Гаджиев, М.С. Дербент – памятник мировой истории и культуры // Вестник Института ИАЭ. – 2015. – №1. – s. 5–20
8. Двин IV. Город Двин и его раскопки (1981–1985) / Под ред. А.А. Калантарян. – Ереван: Изд. Гитутюн, 1981. – 294 с.
9. Ибрагимов, Б.И. Средневековый город Киран. – Баку–Москва: Московская типография, – 2000. – 176 с.
10. Кверфельдт, Э.К. Керамика Ближнего Востока: Ру-ководство к распознанию и определению керамических изделий. – Ленинград: Гос.Ермитаж, – 1947. – 146 с.
11. Matin, M., Ownby, M. Early stonepaste ceramic technology in Fustat, Egypt // Journal of Archaeological Science: Reports, – 2023, 50, – p. 1–9.
12. Mc.Clary R. P. Mina'i Ware: A Reassessment and Comprehensive Study of Iranian Polychrome Overglaze Wares through Sherds. Edinburgh: Edinburgh University Press, 2024. — 360 s.
13. Tite, M.S. The technological development of stonepaste ceramics from the Islamic Middle East / M.S. Tite, S. Wolf, R.B. Mason // Journal of Archaeological Science. – 2011. – 38. – p. 570–580.

TAĞLAR MAĞARASINDA ARXEOLOJİ TƏDQİQATLARIN BƏRPASI: QARŞIDA DURAN VƏZIFƏLƏR VƏ İLKİN NƏTİCƏLƏR

Azad Zeynalov
AMEA Arxeologiya və Antropologiya İnstitutu AR ETN Təbiət Tarixi Muzeyi aparıcı elmi işçi, t.ü.f.d., dosent
azykh1960@gmail.com

Yoshihiro Nishiaki
Tokio Universiteti Muzeyi, Tokio, Yaponiya. Direktor, professor
nishiaki@um.u-tokyo.ac.jp

Yaqub Məmmədov
AMEA Arxeologiya və Antropologiya İnstitutu, Xəzər Universiteti, Tarix və arxeologiya departamenti, aparıcı elmi işçi, t.ü.f.d.
yaqubamea@gmail.com

Ülviyyə Səfərova
AMEA Arxeologiya və Antropologiya İnstitutu, Xəzər Universiteti, Tarix və arxeologiya departamenti, elmi işçi
samkhet@mail.ru

Pərivəs Babai
AMEA Arxeologiya və Antropologiya İnstitutu, elmi işçi
peri.babai2020@gmail.com

Açar sözlər: *Orta paleolit, neandertal, Tağlar mağarası, Cənubi Qafqaz*
Keywords: *Middle Paleolithic, Neanderthal, Taghlar cave, The South Caucasus*

Cənub-Qərbi Asiya regionu Afrika, Asiya və Avropanın kəsişməsində yerləşən özünəməxsus coğrafi mövqeyinə görə orta paleolit dövrünün mədəni və antropoloji dinamikasını öyrənmək üçün əsas bölgə kimi seçilir. Çox güman ki, tarixdən əv-

vəlki insan qrupları bu bölgədə təmasda olmuş, birləşmiş və bir-birlərini əvəzləmişdilər. Cənub-Qərbi Asiyanın şimal kənarında yerləşən Cənubi Qafqaz da bu bölgənin bir hissəsini təşkil edir. Bununla belə, bu kontekstdə əvvəlki paleolit tədqiqatları əsasən Levant bölgəsinə yönəlmişdir. Çünki Aralıq dənizi ilə daxili səhra arasında sıxışdırılmış bu dar şimal-cənub zolağı orta və üst paleolit dövrünə aid çoxsaylı insan məskənlərini özündə cəmləşdirmişdir. Buna görə də Avrasiyada müasir insanın yayılması ilə bağlı tədqiqatlarda Cənubi Qafqaz bölgəsinin əhəmiyyəti böyükdür. Bu region, Cənub-Qərbi Asiyanın orta və üst paleolit dövrünə dair bəşər tarixinin mürəkkəb inkişaf trayektoriyasını tərtib etməkdə mövcud boşluğu doldura biləcək əhəmiyyətli məlumatlar təqdim edə bilər.

Azərbaycanda bu problemi həll etmək üçün Azərbaycan–Yaponiya birgə arxeoloji ekspedisiyası 2016–2023-cü illərdə Damcılı mağarasında, 2023-cü ildə isə Daşsalahlı və Tağlar mağaralarında tədqiqatlar aparmışdır [5]. 2024-cü ildən etibarən tam miqyaslı tədqiqat üçün Tağlar mağarası seçilmişdir.

Tağlar mağarası Azərbaycanın cənub-qərbində, Füzuli şəhərindən təxminən 20 km qərbdə, Xocavənd rayonu ərazisində yerləşir. Tağlar mağarasından təqribən 3 km şərqdə isə unikal Azıx mağarası yerləşir.

Bu mağara 1960-cı ildə M. Hüseynov tərəfindən aşkar edilmiş və 1964-cü ildən 1986-cı ilə qədər fasilələrlə ümumilikdə 12 il ərzində qazıntılar aparılmışdır. 1980-ci ildə qazıntılara Ə. Cəfərov rəhbərlik etmişdir. Bu qazıntılar nəticəsində 6 metrdən çox qalınlığa malik orta paleolit dövrünə aid 6 mədəni təbəqə aşkar olunmuşdur**.** İşğal dövründə kiçik miqyaslı, qeyri-qanuni qazıntılar aparılsa da, nəticələr dərc edilməmişdir. 2020-ci ildən sonra Qarabağda arxeoloji tədqiqatlar yeni bir mərhələyə qədəm qoydu. Bu kontekstdə biz Tağlar mağarasında 2023-cü ildə ilkin, 2024–2025-ci illərdə isə daha əsaslı tədqiqatlar apara bildik.

Tağlar mağarasına marağımız ikiqat idi:

Birincisi, Tağlar mağarasının orta paleolit çöküntüləri Cənubi Qafqazda paleolit dövrünə aid yerlər üçün olduqca sıxdır. Holosenə aid olan və qalınlığı 20 sm-dən az olan I təbəqədən başqa, əsas süxurda orta paleolitin əsas litoloji təbəqələri (II–VI təbəqələr) 5 metrdən çox qalınlıqda toplanmışdır [7]. Buna görə də Tağlar mağarası Cənubi Qafqazda Neandertal mədəniyyətinin uzunmüddətli inkişafını araşdırmaq üçün nadir bir fürsət yaradır.

İkincisi, orta paleolitin son mərhələsinə aid olan II təbəqə ilkin nəşrlərdə (Джафаров, 1983) orta paleolit dövrünə aid hesab olunurdu; lakin sonrakı yazılarda, mustye sənayesi üstünlük təşkil etsə də [8, c.179], bu təbəqə üst paleolit dövrünə aid edilmişdir [9]. Ehtimal ki, bu təbəqəyə III təbəqənin materialları qatılmışdır. 2025-ci ilin qazıntıları bu iki təbəqəni ayıran sərhədi dəqiqliklə aşkarlanmışdır və mağaranın II təbəqəsindən (hələlik çox kiçik sahədə) yalnız üst paleolitə aid artefaktlar aşkarlanmışdır. Əgər bu təsdiqlənsə, Tağlar mağarasındakı tədqiqatlar Cənubi Qafqazda orta paleolitdən üst paleolitə keçidin dərk edilməsinə mühüm töhfə verəcəkdir.

Geocoğrafi təhlil. Rəqəmsal yüksəklik modelini yaratmaq məqsədilə dron vasitəsilə mağaranın geomorfoloji tədqiqatı həyata keçirilmişdir. Mağaranın müasir geomorfoloji quruluşu, qarşısından keçən üç magistral yolun təsiri nəticəsində ciddi şəkildə dəyişmişdir. Buna baxmayaraq, əldə etdiyimiz məlumatlar göstərir ki,

mağara Quruçay çayının müasir yatağından təxminən 30 metr yuxarıda, dəniz səviyyəsindən isə 712 metr yüksəklikdə yerləşir. Tağlar 50 m eninə uzanan və 6 karst boşluqlarından ibarət mağaradır. Tədqiqatlar mağaranın şərqində yerləşən zalda aparılırdı. Maksimum hündürlüyü 6 metrdir. Əsas zal təqribən 8 m enində və 10 m dərinliyində olub. Döşəmədən hündürlüyü 5,5 metrə qədərdir. 1964-cü ildə qazıntılara başlanarkən çöküntülərin səthdən təxminən 1 metr qalınlıqda olduğu düşünülürdü. M. Hüseynov tərəfindən digər zalda aparılan ilkin araşdırmalar nəticəsində az sayda orta paleolit artefaktları aşkar olunmuşdur. Buna görə də bu mağaranın demək olar ki, bütün ərazisi orta paleolit homininləri tərəfindən istifadə edilmişdir.

Bununla belə, 2024–2025-ci illərdə araşdırmamız, orta paleolit dövrünün ən intensiv insan məskunlaşmasını əks etdirən bu sistemin şərq ucunda yerləşən ən böyük zala fokuslanmışdır.

Əvvəlki tədqiqatlar çərçivəsində mağara yataqlarının təxminən üçdə ikisi artıq qazılmışdır. Hazırda mağaranın mərkəzi hissəsindəki dərin boşluq, 1960–1986-cı illərdə aparılan genişmiqyaslı qazıntıları əks etdirir. Bununla belə, 2023-cü ildə aparılan ilkin araşdırmalar göstərdi ki, şərq mağara divarı boyunca ilkin yataqlar hələ də qalır. Lakin ərazi 1980-ci illərin ortalarından bəri qorunmadığı üçün bu divarın yuxarı hissəsinin böyük bir qismi çökərək mağaranın daxili hissəsini çöküntülərlə doldurmuşdur. Qazılmış və qazılmamış ərazilər arasındakı sərhədi müəyyənləşdirmək üçün divar boyu dağılmış və ya pozulmuş çöküntülər təmizlənmişdir.

Stratiqafik qruluş. Qazıntı və kvadratların təmizlənməsi əvvəlki stratiqrafik bölmələrin etibarlılığını təsdiqlədi.

I təbəqə. Holosen təbəqəsi bizim qazıntılar zamanı nadir hallarda müəyyən edilmişdir. Lakin şərq divarındakı boşluqlarda, əsasən heyvan peyinləri ilə təmsil olunan qalıqlar müşahidə edilmişdir.

II təbəqə. İkinci təbəqə açıq qəhvəyi-boz çöküntülərlə fərqlənir. Mağara ağzına daha yaxın olan çöküntülər isə çox güman ki, su fəaliyyəti nəticəsində güclü şəkildə daşlaşmaya məruz qalmışdır. Bununla belə, arxeoloji tapıntılar mağaranın daxili divarına daha yaxın hissədən toplanmışdır.

III təbəqə. Bu təbəqə 30–80 sm qalınlığında solğun yaşılımtıl-boz gil torpaqdan ibarətdir. Çöküntülər homogen və yığcamdır. Mağaranın ortasında bir neçə ocaq yeri müəyyən edilsə də, mağaranın ağzı və arxa hissələrində insan fəaliyyəti ilə bağlı çox az dəlil müşahidə olunmuşdur. Bu ərazilərdə daşdan hazırlanmış əşyalar və heyvan qalıqları nadir hallarda rast gəlinir.

IV təbəqə. Sarımtıl-solğun və az əhəngli gilli torpaqdır. Bu təbəqə Tağlar mağarasında orta Paleolit çöküntülərinin əsas hissəsini təşkil edir və qalınlığı təxminən 2 metrdir. O, IVa və IVb alt təbəqələrinə bölünür; sonuncusu orqanik qalıqlarla əhəmiyyətli dərəcədə zəngindir və materialında daha az karbonat tərkibi müşahidə olunur. Üst-üstə yerləşmiş çoxsaylı ocaq laylari aşkar edilmişdir. IVa təbəqəsinin çöküntüləri bilavasitə mağaranın daxili hissələrinin döşəməsi üzərində müəyyən edilmişdir. Buna görə də alt təbəqələr yalnız mağara ağzına yaxın ərazilərdə aşkar edilmişdir. IVb təbəqəsinin dibində, mağara ağzının yaxınlığında qaya çökməsinin izləri müəyyən edilmişdir. Görünür, bu, mağaranın ağzında yerləşən nəhəng qayanın damdan düşdüyü dövrə aiddir.

V təbəqə. Bu təbəqə yaşılımtıl-palçıqlı, qalınlığı təxminən 1 metr olan gillicə torpaq təbəqəsindən ibarətdir. IV təbəqə ilə müqayisədə burada ocaq yerləri və orqanik qalıqlar çox az müəyyən edilmişdir. Bunun əksinə olaraq, qaya qırıqları geniş yayılmışdır.

VI təbəqə. VI təbəqə mağaranın girişində yüksək dərəcədə bərkimiş brekçiya ilə dolu gilli torpaq ilə xarakterizə olunur. O, qazıntı sahəsindəki daş qaya üzərində yerləşirdi. V təbəqəyə bənzər olaraq, burada ocaqlar və orqanik qalıqlar çox az müəyyən edilmişdir. Əsas qaya yatağı giriş hissəsində aşağıya doğru kəskin şəkildə azalırdı. Bu isə qazıntı xəndəyi mağara terrasına qədər genişləndirildikdə, daha qədim çöküntülərin də bərpa oluna biləcəyi ehtimalını göstərir.

Əldə edilmiş materiallar. Aparılan qazıntılar nəticəsində təxminən iki mindən artıq daş artefakt aşkar edilmişdir. Bunların üçdə biri II–V təbəqələrin əsas kontekstlərindən əldə olunmuşdur. Əvvəlki tədqiqatlar daş sənayesində xronoloji dəyişikliklərin ola biləcəyini göstərmişdir. Tədqiqatımızın əsas məqsədi belə dəyişiklikləri müəyyən etmək olmuşdur. Bu günə qədər daş sənayesi ilə bağlı ən azı üç ilkin müşahidəni qeyd etmək mümkündür.

Birincisi, daş kolleksiyası Levallua texnikasına əsaslanan mustye tipli sənayeni təmsil edir və yan qaşovlar ilə fasetlə kəsilmiş artefaktlarla xarakterizə olunur. Ümumilikdə, daha əvvəl qeyd edildiyi kimi, bu materiallar Zagros mustye mədəniyyəti adlandırılan sənayeyə bənzəyir.

İkincisi, 2024 və 2025-ci illərdə aparılan qazıntılar nəticəsində əldə olunan materiallarda nüvələrin və kiçik qırıntıların nadirliyi diqqət çəkir. Bu müşahidə mağarada insan məskənlərinin müvəqqəti xarakter daşıdığı təəssüratını yaradır.

II–VI təbəqələr üzrə çöküntülərin mütləq yaşını təyin etmək məqsədilə sistematik nümunələr götürülmüşdür. III–VI təbəqələrin üst qatlarından optik stimullaşdırılmış lüminesans (OSL) analizi üçün 20 dən artıq nümunə götürülmüşdür. Eyni zamanda, II təbəqədən radiokarbon təyini məqsədilə heyvan sümükləri götürülmüşdür.

Beləliklə, Tağlar mağarasında aparılan qazıntılar aşağıdakı nəticələri ortaya çıxardı: 1964–1986-cı illərdə mərkəzi ərazidə aparılan qazıntıların əsas qayaya qədər çatdığı təsdiqlənmişdir. Stratiqrafik eninə kəsiyin yalnız kiçik bir hissəsi müəyyən edilsə də, 2024-cü il mövsümündə aparılan tədqiqatlar mağaranın şərq divarı boyunca 8 metr uzunluğunda şimal-cənub istiqamətli stratiqrafiyanı aşkar etmişdir ki, bu da onun əsas mədəni ardıcıllığının müəyyənləşdirilməsinə kömək etmişdir.

Qazıntımız göstərdi ki, mağaranın şərq divarı boyunca hələ də çoxlu miqdarda qazılmamış çöküntü mövcuddur. Qazıntılar zamanı bir sıra ocaq yeri, çoxlu daş artefakt və heyvan qalıqları aşkar edilmişdir.

Ümumi şəkildə yanaşdıqda, neandertalların bölgəyə gəliş tarixini, daş sənayesinin sonrakı inkişafını və dolanışıq strategiyalarını araşdırmaq mümkün olur. Biz bu məsələləri müasir analitik üsullarla təhlil etməyi planlaşdırırıq. Tədqiqat növbəti illərdə də davam etdiriləcək. Bu analizlərin birgə nəticələri Cənubi Qafqazda neandertalların mənşəyi və inkişafı ilə bağlı araşdırmalara mühüm töhfə verəcəkdir.

Ədəbiyyat siyahısı:

1. *Azərbaycan Arxeologiyası [6 cilddə] –Bakı: Şərq–Qərb, – c. 1. –2008.–448 s.*

2. Zeynalov A, Nishiaki Y, Məmmədov Y, Səfərova Ü, Babai B. 2024-cü ildə Azərbaycan-Yaponiya birgə paleolit arxeoloji ekspedisiyasının Tağlar mağarasında apardığı çöl-tədqiqat işlərinin nəticələrinə dair / Azərbaycanda arxeoloji və antropoloji tədqiqatlar: nəticələr və perspektivlər Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş Elmi Sessiyanin tezisləri, Baki 2025, s. 10-13.

3. Zeynalov, A., Y. Nishiaki and Y. Mammadov. Azykh and Taglar Caves in the Karabakh. Baku: Ministry of Culture and Tourism, Azerbaijan. 2025. 23 p.

4. Nishiaki, Y., A. Zeynalov and M. Mammadov. The Middle Paleolithic lithic industry of Taglar Cave, Azerbaijan, in the South Caucasus / The 12th Meeting of the Asian Paleolithic Association. Sendai, June 20–24, 2025.

5. Nishiaki, Y., Zeynalov A., Y. Mammadov Y and Safarova U. Resumption of the excavations of the Middle Paleolithic Taglar Cave, Karabakh / Theses of the International Scientific Conference dedicated of the 90th anniversary of professor Gudrat İsmayılzadeh on "The Cultural Heritage of Karabakh and Zangezur in Archaeological and Ethnographic Studies". Baku, 2024. p.11-12.

6. Гусейнов, М. М. 2010. Древний палеолит Азербайджана / М.М. Гусейнов. – Баку: Тек Нур, – 2010. – с. 202.


7. Джафаров, А.К., 1983. Мустьерская культура Азербайджана (по материалам Тагларской пещеры) / Баку: Элм, –1983, 97 с.

8. Джафаров, А.Г., 1999. Средний палеолит Азербайджана / Баку: Элм, –1999, 228 с.

9. Джафаров, А.К., Палеолитическая стоянка Таглар в Азербайджане // IRS Heritage, 2017. № 6, с. 17-21



Şəkil 1. Tağlar mağarasının ümumi görünüşü



Şəkil 2. Tağlar mağarasının qazıntı planı.



Şəlikil 3. Tağlar mağarasından orta paleolit dövrünə aid daş artefaktlar

CEYRANÇÖL – TÜRK KÖKƏNLİ QƏDİM MƏDƏNİYYƏTLƏRİN TARİX YADDAŞI

Şamil Nəcəfov
AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent
shamil_necefov@mail.ru; ORCID ID: https://orcid.org/0000-0001-8834-7188

Musa Mursaquliyev
"Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun direktoru, BDU-nun Qazax filialının tarix müəllimi
mursaqulov@gmail.com; ORCID ID: https://orcid.org/0000-0003-4438-5152

Səadət Əliyeva
"Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru, BDU-nun Qazax filialının müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru
mursaqulova@gmail.com;
ORCID ID: https://orcid.org/0000-0002-5370-3178

Açar sözlər: *Ceyrançöl, türk tayfaları, kurqan mədəniyyəti, köç yolları, arxeoloji tədqiqatlar*
Keywords: *Jeyranchol, Turkic tribes, Kurgan culture, migration routes, archaeological research*

Giriş: Ceyrançöl düzənliyi Azərbaycan tarixinin ən qədim maddi-mədəniyyət incilərini özündə birləşdirən, türk tayfalarının uzunmüddətli məskunlaşma və köç istiqamətlərini izləməyə imkan verən mühüm tarixi-arxeoloji və coğrafi ərazidir. Bu bölgədə aparılmış tədqiqatlar göstərir ki, Ceyrançöl təkcə təbii-coğrafi baxımdan deyil, həm də mədəni-tarixi baxımdan Cənubi Qafqazla Mərkəzi Asiya arasındakı əlaqə körpüsünü təşkil etmişdir. Burada yerləşən çoxsaylı kurqanlar orta və son tunc, erkən dəmir dövrlərinə aid olmaqla, bir çox qədim türk tayfalarının yaşayış tərzini, dini inanclarını və sosial quruluşunu əks etdirir. Kurqanların plan quruluşu, dəfn adətləri və əldə edilən maddi-mədəniyyət nümunələri Anadolu, Orta Asiya, Altay və Cənub Azərbaycan ərazisindəki analoji abidələrlə oxşar paralellərə məxsusdur ki, bu da həmin kurqanları yaratmış tayfaların mədəni mənsubiyyəti və miqrasiya yolları haqqında mühüm elmi nəticələr çıxarmağa imkan verir.

Ceyrançöl ərazisi eyni zamanda qədim köç yollarının üzərində yerləşdiyindən, buradan keçən tayfalar bölgənin etno-mədəni tərkibinin formalaşmasında mühüm rol oynamışlar. Buradakı kurqanlar yalnız dəfn abidəsi kimi deyil, həm də ideoloji və sosial statusun göstəricisi kimi dəyərləndirilir. Tezisdə Ceyrançöl kurqanlarında arxeoloji araşdırmalar, onların türk tayfalarının tarixi kökləri və köç marşrutları ilə əlaqəsi elmi əsaslarla təhlil olunur. Nəticə olaraq Ceyrançöl ərazisinin Azərbaycan və ümumtürk mədəniyyəti konteksində tarixi-siyasi rolu və mədəniyyətlərin inkişafında xüsusi aralıq rolu bir daha təsdiqlənir.


Əsas hissə: Azərbaycan Respublikası Cənubi Qafqazda, Avropa və Asiya qitələrinin kəsişməsində yerləşən qədim bir ölkədir. Azərbaycanın qonşu ölkələrlə sərhədi əsasən tarixi varisliklə müəyyən edilib və bəzi yerlərdə təbii relyef xətləri boyunca keçir. Belə təbii relyef xətlərin biri də Keşikçidağ mağaralar kompleksinin yerləşdiyi Ceyrançöl düzüdür. Tarixi-coğrafi baxımdan Ceyrançöl düzənliyi alçaq dağlıq tirələrdən, vadilərdən və yaylalardan ibarətdir [1]. Bu tarixi areal qədim İpək yolunun üzərində yerləşir. Anadoludan başlayan ticarət - Böyük İpək yolu ilə hərəkət edən karvanlar Dərbənddən, Naxçıvandan ölkəmizə daxil olaraq Xəzərin şimal və cənub hissələrinin keçərək uzanıb gələn bir ticarət yolu ilə Ceyrançöldə karvanlarını dincə qoymuşlar. Çünki burada heyvanların otlaması üçün təbii yem bazası mövcud olmuşdur. Bu xüsusiyyəti "Karvan dərəsi", "Sarıyoxuş" dərəsi, Tavatəpə, Keşikçidağ kimi abidələr həm adında, həm dəfn abidələrində saxlayır.

Ceyrançöl coğrafi baxımdan olduqca əlverişli bir məkanda, Kür və Qanıx çaylarının ətrafında ucsuz-bucaqsız çöllüklərdə yerləşir. Qədim zamanlardan bu torpaqlar maldar əhali tərəfindən qışlaq yeri kimi geniş istifadə edilmişdir [2, s.19-25]. Digər ərazilərdən bu torpaqlara qışlaq maldarlığını inkişaf etdirmək üçün xeyli sayda türk tayfalar gəlmiş, özlərinə məskən salmışlar. Bu da Ceyrançöldə açıq yaşayış düşərgələrinin, yüzlərlə kurqanların mövcudluğuna zəmin yaratmışdır.

"Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun ərazisində, Ceyrançöl düzənliyində kurqan qəbirlərinin qazıntısına 2011-ci ildən başlanılmışdır. N.Ə.Müseyiblinin rəhbərlik etdiyi arxeoloji ekspedisiya qrupu Ceyrançöldə yerləşən Keşikçidağ kurqanlar vadisində yerləşən kurqanlarda elmi tədqiqat və arxeoloji qazıntı işləri aparmışdır.

Arxeoloji tədqiqat işləri zamanı mağara, açıq düşərgələr, kiçik yaşayış yerləri və nəhayət qəbir abidələrindən aşkarlanmış tarixin müxtəlif dövrlərə aid maddi - mədəniyyət qalıqları, xüsusilə, saxsı və metal materiallar antik və bütövlükdə orta əsrlər dövründə Keşikçidağ ərazisində yaşayışın ardıcıl olaraq davam etdiyini müəyyənləşdirməyə imkan vermişdir. Yaylaq – qışlaq maldarlığı ilə məşğul olan qədim tayfaların dəfn adətlərində xatirat qəbirləri geniş yayılmışdır Bütün bunlar isə xalqımızın maddi - mədəniyyətindəki eyniliyi, ardıcıllığı və varisliliyi izləməyə şərait yaratmışdır.

Şəkil 1: *Keşikçidağ kurqanlar vadisi. 2024-cü*





il 20 noyabr.Yovşanlıdərə 1 saylı kurqan.

Şəkil 2:*Candargöl 1 saylı kurqan 2024-cü il avqust ayı*

Son dövrlərdə isə Candargöl, Sarıyoxuş, Qarasoy, Ceyrançuxur, Karvan dərəsi, Qaltan dərəsi və s. yerlərdə aparılan arxeoloji tədqiqat işləri zamanı tunc və erkən dəmir dövrlərinə aid xeyli kurqan qazılmış və yeni nadir artefaktlar aşkar edilmişdir.

Keşikçidağ mağaralar kompleksinin yerləşdiyi Ceyrançöl düzü minilliklər ərzində müxtəlif mədəniyyətin izlərini özündə saxlayır və yaşadır. Qatardağ silsiləsinin Ceyrançöl adlanan qumsal dağların qayalıqları üzərində yerləşən bu kompleks, Qafqaz Albaniyasının qədim mədəni irsini özündə yaşadan bir yer olaraq, tarixin izlərini günümüzə qədər daşıyır. Ceyrançölün gözəl mənzərələri arasında yerləşən bu mağaralar, yalnız arxeoloji tapıntı yeri deyil, həm də qədim insanların gündəlik həyatını, inanclarını və mədəniyyətini əks etdirən bir məkandır. "Keşikçidağ" mağaralar kompleksində yerləşən, yerli əhali tərəfindən "Qüdrət" bulağı kimi tanınan ziyarətgah yerli sakinlərin qədim tarixə malik olan mənşəyini, mədəniyyətini, dini-etnik xüsusiyyətlərini özündə əks etdirir. Mağaraların şərqində yerləşən bu bulaq yüzilliklərin tarixi etnoqrafik pasport göstəricisidir.

"Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğu tarixi abidələri ilə yanaşı, arxeoloqların araşdırmalarına əsaslanan bir çox qədim yaşayış məskənləri ilə də zəngindir. Burada, atəşpərəstlik, bütpərəstlik, xristianlıq və digər dini inancların izlərini görmək mümkündür. Kompleks arxeoloji əhəmiyyət daşımaqla yanaşı, mədəni irsimizi qorumaq və gələcək nəsillərə çatdırmaq baxımından da önəmlidir. Görünür, məkan seçimində Keşikçidağ silsiləsinin sərt, günəş altında yanmış, hələ antik müəlliflər tərəfindən tənha və susuz kimi qələmə verilən təbiətinin Yaxın Şərq təbiətinə bənzərliyi rol oynamışdır. Bu torpaqların quraqlıq olmasına sübut bu günümüzə kimi gəlib çatmış qayalıq süxurlarında qazılmış çalalar (yalaqlar və su saxlanc yerləri) ola bilər. Rahiblər buraya yağış sularından ehtiyat toplayırdılar. Onlar bu suları saxlaya və içmək üçün yararlı hala gətirməyin yolunu bilirdilər. Məlumdur ki, hələ erkən orta əsrlər dövründə Suriya zahid asketizmi cismin sərt formada üzülməsi, dünya nemətlərindən imtina, ruhun təmizliyinə nail olmaq və Tanrıdan mərhəmət qazanmaq ümidi ilə yarıac ömür sürməsi prinsipləri ilə çox məşhur olmuşdur.

Mağara-hücrələrin döşəməsində, divarlarında qumdaşını çapmaq və dərinləşdirmək yolu ilə açılmış, ola bilsin bu monastırı idarə etmiş din adamlarının dəfn olunduqları, üstü lay daşla örtülü məzar tipi arxeoloji mağara-məbədlər mövcuddur.

Geoloqların araşdırmalarına əsasən Palezoyun son mərhələsinə aid olan Keşikçidağ qayaları asan aşınır və səpələnir. Bu səbəbdən də, əksər yarımdağılmış və yaxud nisbətən bütöv qalmış obyektlərə – qaya mağaralarına, rahib hücrələrinə, kilsələrə və köməkçi tikililərə keçid olduqca çətinləşmişdir. V-VI əsrlərdə xristianlığın yayılması ilə bu mağaralarda həyat yenidən canlanmışdır. Xristian rahibləri üçün bu mağaralar, təbiət ilə mənəvi bağ yaratmaq məqsədi daşıyan məkanlara çevrilirdi. Əsrlər boyu dini ritual və tərkidünyalığın məkanı kimi tanınan bu yerlər, müxtəlif dini qrupların birlikdə yaşadığı məskən olmuşdur. Belə ki, bunu mağaralarda aparılmış arxeoloji qazıntı işləri nəticəsində əldə olunmuş tapıntılar və tarixi faktlar bir daha sübuta yetirir. Ağgöldən (Candargöl) başlayaraq Qazangölədək uzanan böyük çöl özündə minilliklərin tarixi yaddaşını saxlayır.



Şəkil 3: *Keşikçidağ mağaralar kompleksi*

Ceyrançöldə ucsuz-bucaqsız düzənlikdə təbiətin yaratdığı mənzərələrin fonunda alçaq, yastı, bəzən nizamla düzülmüş, bəzən isə pərakəndə səpələnmiş təpəliklər nəzərdən yayınmır. Bu təpələr təbiətin yaratdığı relyef xüsusiyyətləri deyil, qədim insanların dini dünyagörüşünün təzahürü olaraq dəfn adətlərinin icra olunduğu yerlər – kurqan qəbirləridir. Ceyrançöl düzənliyində insanların başlıca və yeganə təsərrüfat fəaliyyəti olan yaylaq-qışlaq maldarlığı tunc dövründən üzü bəri dəyişməz olaraq qalmaqdadır. Əhali yay aylarında zəngin otlaq sahələri olan düzənliyə heyvanlarını sürüb gətirmiş, otlaqlardan istifadə etmiş, bu müddətdə burada mövsümi yaşayış düşərgələri qurmuş, qış aylarında isə Kür böyü daimi yaşayış yerlərinə qayıtmışlar. Lakin hazırda insanlar ilin bütün fəsillərində burada maldarlıq təsərrüfatı ilə məşğul olurlar. Həmçinin Ceyrançöldə yerləşən kurqanlarda aparılan arxeoloji qazıntılar bölgənin tunc dövrünün sonları və dəmir dövrünün başlanğıcına məxsus maddi mədəniyyətini öyrənmək baxımından çox əhəmiyyətlidir. Kurqanların sahəsi, strukturu, kurqanaltı qəbir kameralarının quruluşu, dəfn qaydası və əldə edilən artefaktların tipoloji eyni zamanda analoji təhlili bu kurqanları son tunc-erkən dəmir dövrünə (e.ə. II minlliyin sonu-I minilliyin əvvəli) aid etməyə imkan verir. Ərazinin Xocalı-Gədəbəy mədəniyyətinin daşıyıcıları olan qədim sakinləri kurqan mədəniyyətinin bu arealda geniş yayılmasını təmin etmiş, dəfnlərini əsasən kurqan qəbirlərində icra etmişlər. Keşikçidağdan aşkar olunmuş dulus məmulatları üzərindəki bəzək motivləri, naxışlar Gəncə-Qazax bölgəsinin tunc dövrü materialları ilə kompleks eynilik təşkil edir. Bu cür təsvirlərin tunc və antik dövr materiallarında aşkarlanması maddi mədəniyyətdə ənənəviliyi, varisliyi və bu ərazilərin xalqımıza məxsus daimi yaşayış yerləri olduğunu təsdiq edir.

"Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunda elmi tədqiqatların aparılması və mədəni irsin qorunması məqsədilə ardıcıl olaraq 5 il ərzində yay məktəbi layihəsi həyata keçirilmişdir. Bu layihələr, gənc tədqiqatçıların və tələbələrin arxeologiya, tarix və mədəniyyət sahəsində biliklərini artırmaq üçün yaradılmışdır. Yay məktəblərində iştirak edən gənclər, "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun ərazisində yerləşən kurqanların tədqiqi ilə məşğul olmuş, müxtəlif tapıntılarla dərindən maraqlanmışlar. Tədqiqatların məqsədi, bölgənin tarixi, mədəni irsi və ar-

xeoloji tapıntılarını öyrənmək, eləcə də bu irsin qorunması və gələcək nəsillərə çatdırılması üçün yeni biliklərin əldə edilməsidir.



Şəkil 4: *"Keşikçidağda elmi arxeoloji qazıntılar və yay məktəbi 5" layihəsi çərçivəsində masterklass*

Müxtəlif yerlərdə kurqan qəbirlərinin qazıntısı fərqli dəfn adətlərini ortaya çıxarmışdır. Aparılmış arxeoloji qazıntılar nəticəsində taxt üzərində tayfa başçısının skeleti, yanında isə obsidian və çaxmaqdaşından ox ucluqları, son tunc dövrü üçün xarakterik olan tuncdan qılınc, digəri isə tayfa başçısına məxsus olduğu ehtimal edilən, üzərində xüsusi işarələr olan steatit daşından hazırlanmış möhür tapılmışdır (Sarıyoxuş kurqanı). Tapıntı Azərbaycan arxeologiyasında nadir nümunələrdən sayılır [3;4]. Sarıyoxuşda digər kurqanda qəbilə başçısının yaxın silahdaşı olduğu və döyüşdə öldüyü ehtimal edilən insan skeletinə rast gəlinmişdir ki, bunu da onun başından daxil olub çənəsindən çıxan ləçəkvari tunc ox ucluğu bir daha sübut edir. Son illərin qazıntıları əsasən son tunc dövrünə aid edilən kromlex formalı kurqanlarda aparılmış, tunc xəncərlər, obsidian, çaxmaqdaşı və tuncdan ox ucluqları, geyim aksesuarları, saxsı, əqiq və metaldan muncuqlar, qadın və kişi skeletləri, fraqmentləşmiş halda saxsı küp fraqmentləri, skiflərə məxsus qızıldan zinət əşyaları, tunc ox ucluqları, Aralıq dənizi hövzəsindən gətirildiyi ehtimal edilən balıqqulaqları (kaorilər), əqiq və pasta muncuqlar, tuncdan at bəzəkləri, skeletin ayaq hissəsinə balıqqulağılar taxılmış tunc bilərzik, xüsusi bəzədilmiş instruksiyalı qablar və s. aşkar edilmişdir.



Şəkil 5: *Cənubi Qafqaz regionunda nadir tapıntılardan olan Orta tunc dövrünə aid dördtilli nizə ucluğu.*

Aşkarlanmış artefaktlar üzərində aparılmış elmi tədqiqatlar nəticəsində əldə edilən radiokarbon analizləri onların orta tunc dövrünə (e.ə. II minillik) və son tunc-erkən dəmir dövrünə (e.ə. II minilliyin sonu - I minilliyin əvvəli) aid olduğunu təsdiqləmişdir. Tədqiqat prosesində nümunələr həm ABŞ laboratoriyasında (Mayami, Beta Radiokarbon), həm də Almaniyada fəaliyyət göstərən müvafiq elmi-tədqiqat mərkəzində (qoruğun daxili imkanları hesabına) analiz olunmuş, hər iki laboratoriyada aparılan ölçmələr bir-birini tamamlayan etibarlı forstidlər-nəticələr vermişdir [5].

Radiokarbon analizinin tətbiqi artefaktların xronologiyasının dəqiq müəyyənləşdirilməsi, onların mədəni kontekstdə yerləşdirilməsi və bölgədəki arxeoloji proseslərin dinamikasının anlaşılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Analizlər göstərmişdir ki, aşkarlanmış maddi-mədəniyyət nümunələri həmin dövrün təsərrüfat modeli, yaşayış mühiti və texnoloji inkişaf səviyyəsi haqqında dəyərli məlumatlar təqdim edir. Bu artefaktlar bölgənin həmin mərhələdə intensiv mədəni inkişaf və genişmiqyaslı yaşayış proseslərinə sahib olduğunu ortaya qoyur. Nəticələr həm lokal arxeoloji mənzərənin dəqiqləşdirilməsinə, həm də Qafqazın tunc dövrü üzrə ümumi xronoloji ardıcıllığın yenidən qiymətləndirilməsinə imkan yaradır. Beləliklə, radiokarbon analizlərinin nəticələri aşkarlanmış tapıntıların elmi dövriyyəyə yüksək etibarlılıqla daxil edilməsinə və onların arxeoloji irs kontekstində dəyərinin daha dolğun şəkildə müəyyənləşdirilməsinə şərait yaratmışdır.

Keşikçidağ, yalnız unikal bir tarixi abidə deyil, həm də Azərbaycanın mədəniyyətini və tarixi irsini qoruyan bir mərkəzdir [6, s.6-19]. Bu kompleks, özündə min illər boyu insanları bir araya gətirən, mədəniyyətlərin bir-birini zənginləşdirdiyi, culğalaşdığı, dialoq tapdığı bir məkan olaraq qalır. Keşikçidağ kurqanları və mağaraları, tarixi və mədəni dəyərlərin öyrənilməsi üçün açıq bir pəncərədir. Buradakı qədim abidələr, xalqımızın mədəni irsinin yaşadılması və gələcək nəsillərə çatdırılması üçün vacib bir vasitədir. Məkandakı kurqanlar, yalnız bir qəbir kompleksindən ibarət deyil, eyni zamanda onların arxasında duran mədəniyyətin, inanc sisteminin və sosial həyatın dərin izlərini özündə daşıyır. Keşikçidağ, bu dərin tarixi və mədəni irsi ilə Azərbaycanın mədəniyyət xəzinəsinə əhəmiyyətli bir töhfə verir. Gənc tədqiqatçıların burada keçirdikləri yay məktəbləri, yalnız bilik mübadiləsi deyil, eyni zamanda mədəni irsin qorunması, yeni nəslin tarixi dəyərlərə bağlılığının artırılması üçün vacib bir addımdır. Bu cür təşəbbüslər, mədəni irsimizi gələcək nəsillərə daha yaxşı bir şəkildə çatdırmağı hədəfləyir. Keşikçidağ, həm tarixi, həm də mədəni dəyərləri ilə Azərbaycanın irsini yaşatmaq üçün müstəsna bir yerdir və burada həyata keçirilən elmi tədqiqatlar, mədəni irsin qorunması üçün əsaslı bir zəmin yaradır.

Ədəbiyyat siyahısı:

1. M.Müseyibov M.A., Süleymanov M.Ə. Ceyrançöl alçaq dağlığının təbii landşaftı (red. N.Ş.Şirinov). Azərb SSR EA, Coğrafiya İnstitutu. Bakı: Elm, 1975, 133 s.

2. Mansurov M.M. Ceyrançöl arxeoloji ekspedisiyasının 2009-cu il çöl-tədqiqat işlərinin ilkin nəticələri. AMEA AEİ. Azərbaycanda arxeoloji tədqiqatlar. Bakı: Xəzər Universiteti, 2010

3. Qasımov P.P."Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun ərazisində aparılmış arxeoloji tədqiqatların tədqiqatların və arxeoloji xilasetmə işlərinin (2020-ci il dekabr-2021-ci il yanvar) hesabatı. AMEA AAİ. Bakı, 2021, 85 s.

4. Qasımov P.P. "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun "Keşikçidağda elmi arxeoloji qazıntılar və Yay Məktəbi" layihəsi çərçivəsində aparılmış arxeoloji qazıntıların (2021 ci il iyun-iyul) hesabatı. AMEA AAİ. Bakı, 2021, 115 s.
5. Nəcəfov Ş.Ə. Ağstafa rayonu ərazisində Keşikçidağ Dövlət tarix-mədəniyyət qoruğunda və Qazax rayonu ərazisində Avey Dövlət tarix- mədəniyyət qoruğunda aparılmış arxeoloji tədqiqat işlərinin geniş elmi hesabatı (20 may-03 iyul 2024 il). AMEA AAİ. Bakı, 2024
6. Наджи Ф. Кешикчидаг. Научно - популярный журнал "Yol". Баку, 2009, №3 (16)

AZƏRBAYCANIN SƏLCUQLU DÖVRÜ TOREVTİKA MƏMULATININ ORTAQ TÜRK MƏDƏNİYYƏT SİSTEMİNDƏ YERİ

Aida İsmayılova
Milli Azərbaycan Tarixi Muzeyi, böyük elmi işçi, tarix üzrə fəlsəfə doktoru
aidaismailova4@gmail.com

Açar sözlər: *maddi mədəniyyət, Səlcuq dövrü, torevtika, məmulat, ortaq türk maddi irsi*
Keywords*: material culture, Seldjukides period, toreutics, objects, common Turkic material heritage*

Azərbaycanın XI–XIII əsrin əvvəllərini əhatə edən Səlcuqlu dövrü siyasi sabitliyin möhkəmlənməsi, şəhər mədəniyyətinin inkişafı və maddi mədəniyyətin yeni bədii-texniki çalarlarla zənginləşməsi ilə səciyyələnir. Bu mərhələ yalnız regionun daxili sosial-iqtisadi dinamizmini deyil, həm də onun geniş türk dünyası ilə inteqrasiya proseslərini aydın şəkildə əks etdirir. Səlcuqluların siyasi hakimiyyəti Azərbaycan ərazisində Oğuz-türk etnosunun möhkəmlənməsinə, dil və mədəniyyət mühitinin türkləşməsinə, eyni zamanda Orta Asiya–Anadolu xəttində formalaşan ümumtürk mədəni sisteminin yerli maddi mədəniyyətdə daha aydın görünməsinə şərait yaratdı. Bu baxımdan, dövrün arxeoloji materialları, xüsusilə də metal məmulatı və torevtika nümunələri Azərbaycan cəmiyyətində baş verən etnomədəni sintez proseslərini tədqiq etmək üçün mühüm mənbə rolunu oynayır.

Torevtika Səlcuqlu dövrü Azərbaycan mədəniyyətində həm funksional, həm də simvolik mahiyyət daşıyan sənət sahələrindən biri olmuşdur. Gündəlik məişət əşyaları, hərbi ləvazimat, dini-ritual əşyalar və zərgərlik məmulatı üzərindəki ornamentlər, ikonoqrafik təsvirlər və texniki işlənmə xüsusiyyətləri dövrün estetik düşüncə tərzini, sosial strukturlarını, mədəni təbəqələşməsini və türk kimlik kodlarını əks etdirir. Bu əşyalar vasitəsilə həm yerli istehsal ənənələrinin ardıcıllığı, ortaq Türk dünyasına aid bədii motivlərin regionda necə adaptasiya olunduğunu müşahidə etmək mümkündür. Səlcuqlu dövrü Azərbaycan torevtikasında zoomorf, bitki ornamentləri, simvolik-mifoloji işarələr, geometrik kompozisiyalar və islam estetik prinsiplərinin qarşılıqlı vəhdəti regional üslubun formalaşmasında mühüm rol oynamışdır.

Mövzunun aktuallığı bir neçə məsələ ilə izah olunur. Birincisi, Səlcuqlu dövrünə aid metal məmulatı Azərbaycanda türk etnomədəni ənənələrinin material izlərini daha aydın şəkildə izləməyə imkan verir. İkincisi, Azərbaycan arxeoloji tapıntılarının bir çoxu Orta Asiya və Anadolu Səlcuqlu sənət nümunələri ilə paralel bədii xüsusiyyətlərə malikdir, lakin hələlik bu paralellər sistemli şəkildə müqayisəli təhlil edil-

məmişdir. Üçüncüsü, torevtika məmulatı vasitəsilə regionun siyasi-iqtisadi əlaqələri, sənətkarların fəaliyyəti, istehsal mərkəzlərinin formalaşması və türk mədəniyyətinin lokal adaptasiya mexanizmləri kimi məsələləri də araşdırmaq mümkündür.

Tədqiqatın məqsədi Azərbaycanın Səlcuqlu dövrü torevtika nümunələrinin arxeoloji və bədii xüsusiyyətlərini müəyyənləşdirmək, onların ümumtürk mədəniyyət sistemi içərisində yerini aydınlaşdırmaq və motivlərin genezisini izah etməkdir. Məqalə həm arxeoloji materialların analizi, həm ikonografik və texniki xüsusiyyətlərin tədqiqi, həm də müqayisəli yanaşma yolu ilə Azərbaycan Səlcuqlu dövrü metal məmulatının türk mədəni kontekstində funksional və estetik rolunu ortaya qoymağı hədəfləyir.

Burada təqdim olunan araşdırma Səlcuqlu dövrü Azərbaycan torevtikasının yalnız yerli sənət inkişafının bir mərhələsi olmadığını, həm də geniş miqyaslı türk mədəniyyət sisteminin regional təzahür forması olduğunu göstərmək məqsədi daşıyır. Bu aspektdən mövzu həm Azərbaycan arxeologiyası, həm orta əsrlər tarixi, həm də türk-islam mədəni irsinin inteqrativ tədqiqi baxımından xüsusi elmi əhəmiyyət kəsb edir.

Azərbaycanda Səlcuq dövrünə aid torevtika məmulatı Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondunda qorunur və ekspozisiyasında sərgilənir. Onlar içərisində tunc qazanları, onların tutacaqlarını, şamdanları və həvəngdəstəni qeyd edə bilərik. MATM-ın ekspozisiyasında sərgilənən Səlcuq dövrünə aid digər maraqlı eksponat həvəngdəstədir. Həvəngdəstənin ağzının diametri-17,5 sm, hündürlüyü-16 sm, oturacağının diametri-16 sm-dir. Naxçıvanda hazırlanan bu maddi mədəniyyət nümunəsinin oturacağı üzük qaşı, gövdəsi silindrik formalı olub, ağzı kənara qatlanmışdır. Həvəngdəstənin üzərində maraqlı ornamentlər vardır. Qabın səthi həkk etmə və zərb etmə üsulu ilə bəzədilmişdir. Altlığında və gövdəyə keçən hissəsində ensiz nəbati və həndəsi elementlərdən ibarət naxışı vardır. Qabın üzərində həkk edilmiş "səlcuq zənciri" xüsusi vurğulanmışdır. Həvəngdəstənin gövdəsini qurşaq əhatə edir, orada yazılar və içərisində quş təsviri olan medalyon verilmişdir. Quş profildən, nəbati fonda təsvir olunmuşdur. Təsvirə diqqətlə baxdıqda onun göyərçin olduğu görünür. Müsəlman Şərqində və Bizansın tətbiqi incəsənətində göyərçinin təsvir olunması çox geniş yaylmışdı. Belə ki, göyərçin qədim dinlərlə bağlı olub, amma islam dinində o ölümsüzlüyün rəmzi olub, "cənnət quşu" hesab edilib [5, s.202]. Təsadüfi deyil ki, göyərçin quşunun təsvirlərinə tətbiqi incəsənətin bütün sahələrində- keramika, toxuculuq məmulatları üzərində, miniatürlərdə və s. rast gəlinir. Ümumiyyətlə, diqqət yetirsək, Səlcuq dövrünə aid keramika nümunələri üzərində də quş təsvirlərinə çox rast gəlinir. Həvəngdəstənin üzərində kufi xətti ilə dini məzmunlu yazı yazılmışdır. Yazının anlamı aşağıdakı kimidir:

1.Allah hamını qoruyandır.

2.Allah çox qüvvətlidir.

3. Babam haqqıdır.

4.Vəli (vəzifəli şəxs, şah) qızıldır.

5. Min-min əhsən olsun (tərifləmək) [2, s.17-18; 3, s.278-285].

Biz burada türk mədəniyyəti ilə yanaşı islam dininin də təsir və izlərini də görürük. Qabın üzərində Alahın adının həkk olunması birbaşa bunun göstəricisidir. Formaca bənzər həvəngdəstə Türkmənistan ərazisində də tapılmışdır və xronolji ba-

xımdan isə XI-XII əsrlərə aiddir [6, s.141]. Qeyd edək ki, həvəngdəstələrin üzərlərindəki ornamentlərdə müəyyən fərqlər var. Bununla belə "səlcuq zənciri" elementini biz dövrün bir çox maddi mədəniyyət nümunələri üzərində rast gəlirik. Bir məqamı da qeyd etmək yerinə düşər ki, üzərində "səlcuq zənciri" olan memarlıq abidələrinə təkcə Azərbaycanda deyil, Dağıstan, Türkiyə, Krım, Mərkəzi Asiyada da rast gəlinir. Nümunə olaraq Krımda, Baxçasarayda yerləşən Xan mavzoleyinin fasadında da görmək olar. M. Mammayev yazır ki, bu naxış elementi Dağıstan ərazisinə Şirvan ərazisindən daxil olub və o, lokal xüsusiyyətləri də özündə əks etdirərək istifadə edilmişdi [6, s.125-149]. Səlcuq zənciri" naxış elementinin adına "kitabə" şəklində də rast gəlinir. Göründüyü kimi bu naxış elementi müxtəlif maddi mədəniyyət nümunələri üzərində yayğın şəkildə tətbiq edilib. Böyük ehtimalla naxışın "səlcuq zənciri" adlanması da təsadüfi olmayıb, məhz Səlcuq axınlarından sonra geniş yayılması buna səbəb olub. Həmin dövrdən başlayaraq yayılan naxış elementi sonradan da müxtəlif abidələrdə öz əksini tapır [4, s.124-125].

Milli Azərbaycan Tarixi Muzeyində qorunan tunc qazanların tutacaqları çox maraqlıdır. Onlar at yəhərini xatırladan formadadır. Bənzər formalı tutacaqlar hələ e.ə. VII-V əsrlərə aid skiflərə aid tunc qazanlarda da var . Səlcuq dövrünə aid qazanlarda isə o daha təkmilləşmiş formadadır [10].

Bu qazanlardan birinin üzərində medalyonun içərisində qıvrılmış qoç buynuzu təsviri var. Qıvrılmış qoç buynuzunu xatırladan təsvir də Azərbaycanın tətbiqi incəsənətində geniş şəkildə istifadə olunan motivdir. Belə ki, qoç xalq arasında qələbə və bolluq rəmzi kimi qəbul olunmmuşdur.Qoç buynuzu formalı təsvirlərin tarixi inkişaf yoluna nəzər salınsa,onun ən qədim nümunələrinə Altayda və Mərkəzi Asiyada müxtəlif dövrlərdə yaradılmış sənət əsərlərində rast gələrik [1, s.70; 8, s. 89-90].

Mərkəzi Asiyadan başqa Böyük Səlcuqlu dövlətinin mərkəzlərindən olan Anadoluda da demək olar ki bənzər motivli torevtika məmulatına rast gəlinir. Onların əksəriyyəti Kayseri şəhərində yerləşən Səlcuqlu Mədəniyyəti muzeyində qorunur və ekspozisiyasında sərgilənir. Orada qorunan tunc qazanlar, şamdanlar, kuzələr istər forma, istərsə də üzərlərindəki təsvirlərə görə Mərkəzi Asiya, Əfqanıstan, həm də Azərbaycandan aşkar olunmuş nümunələrlə demək olar ki eynidir [9].

Azərbaycanın Səlcuqlu dövrü torevtika məmulatı həm yerli sənətkarlıq ənənələrinin, həm də daha geniş coğrafiyanı əhatə edən ortaq Türk mədəniyyət sisteminin mühüm tərkib hissəsidir. MATM-in fondlarında qorunan tunc qazanlar, həvəngdəstə, açar və digər metal məmulatları üzərində rast gəlinən ornamental motivlər, zoomorf və nəbati təsvirlər, epiqrafik yazılar bu vahid estetik dünyanın canlı izlərini əks etdirir. Buta, qoç buynuzu, S-formalı əjdaha, medalyon içərisindəki işarələr kimi motivlərin müxtəlif Türk xalqlarının sənətində geniş yayılması bu məmulatların kök etibarilə ümumi mədəni kodlara bağlı olduğunu göstərir.

Azərbaycan Səlcuq dövrü metal sənəti həm Mərkəzi Asiya, həm Qafqaz, həm də Anadolu ilə paralelliklər ortaya qoyaraq vahid bədii dilin regional xüsusiyyətlərlə zənginləşdirilmiş forması kimi çıxış edir. Bir tərəfdən Şirvan ustalarının yerli texniki təcrübəsi, digər tərəfdən isə Səlcuq imperiyası daxilində intensiv ticarət və mədəni əlaqələr bu sənətin inkişafında mühüm rol oynamışdır.

Araşdırılan nümunələr göstərir ki, Azərbaycanın metal işləmə ənənəsi yalnız utilitar funksiyanı deyil, həm də simvolik və estetik məzmunu daşıyırdı. Bu məmulatlar dövrün ideoloji təsəvvürlərini, kosmoqonik baxışlarını, dini düşüncələrini, həmçinin sosial status anlayışlarını özündə cəmləşdirir.

Beləliklə, Səlcuqlu dövrü Azərbaycan torevtikası ortaq Türk mədəniyyət sisteminin ayrılmaz hissəsi olmaqla yanaşı, bu sistemin müxtəlif regionlarda necə zənginləşdiyini, yerli xüsusiyyətlərlə necə tamamlandığını nümayiş etdirir. Bu maddi mədəniyyət nümunələri həm tarixi-mədəni irsin mühüm faktoru, həm də Türk dünyasının bədii-estetik birliyinin elmi əsaslarla araşdırılması üçün dəyərli mənbədir.

Ədəbiyyat siyahısı:

1. Əfəndi R. Azərbaycan el sənəti (parça,tikmə,xalça). Bakı, 1971. 76 s.
2. Əliyeva H. Selçuklular dönemine ait metalişleme sanatı. /I Uluslararası Selçuklu Sempozyumu Kayseri 2010. s.17-18.
3. İsmayılova A. Azərbaycanın səlcuq dövrü torevtika məmulatı. Milli Azərbaycan Tarix Muzeyi. Bakı, 2014. s.178-185.
4. İsmayılova A. Azərbaycanın dekorativ-tətbiqi sənətində "Səlcuq zənciri" naxış elementi haqqında (MATM-ın materialları əsasında). // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş "Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, mühafizəsi və bərpası". II Respublika Elmi konfransının materialları. Bakı, 2018. s.121-126.
5. Достиев. Т. М. Поливная керамика средневекого города Шабрана (XI-XIII вв.) Советская археология,1989,№ 3. с.193-206.
6. Маммаев. М. Дагестано-Азербайджанские художественные связи в средние века (по данным декоративно-прикладного искусства и архитектуры). ВЕСТНИК ИНСТИТУТА ИАЭ. 2014. № 1. С. 125–149.
7. Художественная культура Ценьтральной Азиш и Азербайджана IX-XV веков. Т. III. Торевтика. Самарканд-Ташкент, 2012.
8. Эфенди. Р. Эмблематика и символика в декоративно-прикладном искусстве Азербайджана/ Известия Академии Наук Азербайджанской ССР. Серия литературы, языка и искусства. 1967, № 2. с.86-94.
9. https://www.selcuklumuzesi.com/ustmenu.asp?id=2&sid=2 24.11.2025
10. https://kuzbasskray.ru/vystavki-i-sobytiya/internet-proekt-istoriya-odnogo-eksponata/kotelskifskiy.php 24.11. 2025

ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANDA DİNİ TİKİLİLƏRİN ETNOQRAFİK XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Tural Şiriyev
Milli Azərbaycan Tarixi Muzeyi, aparıcı elmi işçi, t.ü.f.d., dosent
tural.shiriyev@mail.ru

Açar sözlər: *ictimai tikililər, məscid, mədrəsə, xanəgah, türbə*
Keywords: *public buildings, mosque, madrasa, khanegah, mausoleum*

Orta əsrlərdə İslamın təsiri memarlıqda özünü qabarıq göstərirdi, tikililərin həm yeni növləri meydana gəlir, həm də abidələr müsəlman ənənələrinə xas olan yeni üslubda inşa edilirdi. Dini tikililər sırasında əsas yeri məscidlər, mədrəsələr, xanə-

gahlar, xatirə kompleksləri və türbələr tuturdu. Tədqiqatlar göstərir ki, orta əsrlərdə Azərbaycanda bu tikililər təkcə dini xarakter daşımamış, eyni zamanda ölkənin mədəni, maarif və siyasi həyatında mühüm rol oynamışdır.

İslam dini yayıldıqdan sonra ictimai tikililərlə yanaşı, evlərin yerləşmə qaydalarında da bəzi dəyişikliklər meydana gəldi. İslam şəriətində belə bir tələb olmasa da, qəbul edilmiş ənənəyə görə evlərin ön tərəfi müsəlmanlar üçün qibləyə tərəf, yəni Məkkə şəhəri istiqamətində olmalı idi. Əhalinin inancına görə, üzü qiblə istiqamətində tikilməyən evdə xeyir-bərəkət olmazdı. Orta əsrlərdə bu qayda təkcə evlərə aid deyildi. Məscidlər, türbələr, xatirə kompleksləri, ziyarətgahlar, mədrəsələr və başqa dini tikililər də qiblə istiqamətində olmalı idi. Qeyd edək ki, belə qaydaya müasir dövrdə də əməl olunur.

Orta əsrlərdə müsəlman dünyasının memarlıq abidələri və şəhərsalma elementləri sırasında dini tikililər əsas yer tuturdu. İslam dinini qəbul etmiş yerli feodallar öz hakimiyyətlərini möhkəmləndirmək məqsədilə müdafiə istehkamları, qalalar və digər mülki binalarla yanaşı, bir sıra dini xarakter daşıyan abidələrin, komplekslərin inşa edilməsinə də diqqət göstərirdilər. Mülki binalarda olduğu kimi, məscid, mədrəsə, xanəgah, türbə kimi dini tikililərin inşasında da çatma tağlar, günbəzlər, şəbəkəli pəncərə və başqa elementlərə yer verilirdi [1, s.66].

Məscidlər orta əsrlər müsəlman Şərqində, eləcə də Azərbaycanda dini təyinatlı tikililər arasında xüsusi yer tuturdu.

Müsəlman dünyagörüşündə "Allahın evi" hesab edilən məscidlər digər ictimai tikililərdən fərqli olaraq, həm dövlət, həm də əhali tərəfindən qorunurdu. Orta əsrlərdə, adətən, məscidlərdən vergi alınmaması da bununla bağlı idi. Məscidlərə olan qayğı vəqf və nəzirlər hesabına olsa da, onun təmir edilməsində və abadlaşdırılmasında el-oba iməciliklər təşkil edib əlindən gələni əsirgəməzdi [10, s.162].

Orta əsrlərdə Qurban bayramı üçün nəzərdə tutulan açıq meydanlı ümumşəhər məscidi müsəlla-məscidlər adlanırdı. "Müsəlla" istilahı İslam terminologiyasında bayram və cənazə namazlarının qılındığı yer mənasını ifadə etməklə yanaşı, bütövlükdə "namaz qılınan yer (namazgah)" və "dua yeri" anlamını da daşımışdır [13, s.357]. Orta əsrlərdə müsəlla-məscidlər, görünür, gündəlik ibadətlərin icra olunduğu məkan funksiyasını daşımadığı üçün şəhər mərkəzlərində deyil, adətən, kənar yerlərdə tikilirdi. Belə məscidlər həm də müsəlmanların kütləvi şəkildə qeyd etdikləri böyük bayramlarda qılınan camaat namazları üçün nəzərdə tutulduğuna görə hasara alınmış geniş bir ərazini əhatə edirdi [5, s.34].

Müsəlmanlar məscidə daxil olmanın bəzi ədəb qaydalarına riayət etməyi də özlərinə borc bilirdilər. Belə ki, təmiz və mümkün olduğu qədər yaxşı geyinmək, qadınlarda baş örtüyünün olması, ayaqqabıların çıxarılmasından sonra məscidə sağ ayaqla daxil olub, sol ayaqla çıxmaq və digər qaydalara riayət etməyə əhəmiyyət verilirdi.

Bu gün olduğu kimi, keçmişdə də məscidlərin əsas funksiyası namaz qılmaq və digər dini ritualları icra etmək idi. Bundan başqa, keçmişdə məscid dünyasını dəyişən insanların yola salındığı yer olmaqla yanaşı, eyni zamanda yeni ailə quranların kəbin kəsdirməsi üçün müraciət etdikləri məkan sayılırdı. Keçmişdə camaat arasında ortaya çıxan müxtəlif mübahisəli məsələlər, ictimai problemlər də bir çox

hallarda məscidlərdə müzakirə olunur, həllini tapırdı. Bu da bir həqiqətdir ki, hələ İslamın ilk dövrlərindən məscid həm də dövlətin idarə edildiyi mərkəz və yuxarıda qeyd etdiyimiz kimi, elm, təsil və mədəniyyət ocağı olmuşdur.

Səfəvi dövrünə dair mənbələr XVII-XVIII əsrlərdə də ölkədə məscid inşa etmək ənənəsinin geniş yayıldığını göstərir. J.Şarden yazır ki, müsəlmanlar arasındakı inanca görə, məscid tikdirmək Allah qarşısında böyük savab hesab olunduğu üçün xoşbəxtlik sayılırdı. Əhli-beytə məxsus hədislərdə qeyd olunur ki, kim məscid tiksə, Allah onun üçün behiştdə ev tikdirər. Bu səbəbdən imkanlı şəxslər məscid tikdirməyə çalışırlar [19, s.15].

Qeyd edək ki, keçmişdə məscid minarələri, adətən, azan vermək üçün istifadə edilirdi. Bu səbəbdən müəzzinin yuxarı qalxması üçün minarənin içərisində dairəvi pilləkənlər qurulurdu. Məlumatçılar qeyd edir ki, kənd məscidlərində minarə olmadığı üçün bəzən müəzzin azan vermək üçün hündür bir ağaca çıxardı. Azan təkcə namaz vaxtları üçün verilmirdi. Adətə görə, kənd sakinlərindən biri vəfat etdikdən sonra da azan verilərdi ki, bütün kənd əhalisi bu hadisədən xəbərdar olsun və dəfn üçün köməyə gəlsin.

Yuxarıda qeyd etdiyimiz kimi, orta əsrlərdə məscidlər təkcə ibadət üçün nəzərdə tutulmurdu, eyni zamanda onun içərisində keçirilən tədbirlər insanlar arasında ünsiyyəti gücləndirmək məqsədi daşıyırdı. İnsanlar, adətən, məşvərət üçün məscidə yığışardılar [2, s.77]. İslam ölkələrində cəmiyyətin hərtərəfli formalaşmasında mürəkkəb və çoxsaylı funksiya yerinə yetirən məscidlər dini mərkəzlər arasında daha önəmli yer tuturdu. Məscidlərdə keçirilən ictimai tədbirlər, mərasimlər və mənəvi, əxlaqi təbliğatlar insanlar arasında birlik yaratmağa, cəmiyyətdə elm və təhsil mühiti, nizam-intizam yaratmağa kömək edirdi.

Orta əsrlərdə məhəllə, kənd və came məscidləri qohumluq, qonşuluq münasibətlərini möhkəmləndirmək, insanlar arasında qarşılıqlı yardımlaşma işini öz üzərinə götürürdü. Əhali öz sosial problemlərini, müxtəlif ictimai məsələləri məsciddə toplaşaraq müzakirə edir və ağsaqqalların köməyi ilə həll edirdi. Məscidlər ibadət və digər dini maraqların qorunduğu yer olmaqla yanaşı, həm də hakim təbəqənin dini-ideoloji siyasətini təbliğ edən mərkəzə çevrilmişdi. Burada dini mərasimlərin keçirilməsi və ictimai məsələlərin müzakirəsi ilə yanaşı, həm də dövlət əhəmiyyətli məsələlər müzakirə olunurdu [10, s.162].

Keçmişdə məscid bir sıra dini məzmunlu adət-ənənələrin, mərasimlərin icra olunduğu əsas məkan idi. Etnoqrafik mənbələrə əsasən, məscidlərdə təşkil edilən məhərrəmlik mərasimlərinin özünəməxsus ənənələri var idi. Belə ki, məhz məscid daxilində keçirilən məhərrəmlik mərasimində adətə görə, məclisə daxil olan şəxs xüsusi hazırlanmış şərbət suyundan təbərrük kimi içərdi. İnanca görə, belə bir təbərrük suyu məclisin xeyir-bərəkətindən irəli gələrək, mənəvi və fiziki xəstəliklərin sağalma vasitəsi və eyni zamanda savab hesab edilirdi. Belə məclislər də məqtəllər də oxunar, mərsiyələr deyilərdi. Qeyd edək ki, məsciddən kənarda icra edilən rituallar həm forma, həm də məzmunca fərlənirdi. Meydanlarda qurulan və küçə

yürüşləri ilə müşayiət olunan mərasimlərdə, əsasən, dini şüarlar səsləndirilər və müxtəlif səhnələr dramatikləşdirilərdi.

Azərbaycanda qeyd edilən dini məzmunlu bayramlar sırasında İslam tarixinin bir sıra mühüm hadisələri ilə bağlı olan Mövlud, Məbəs, Merac və Qədir-xum bayramları da özünəməxsus yer tutmuşdur. İlkin qaynaqlara əsasən aparılan tədqiqat göstərir ki, əsasən, məscidlərdə keçirilən belə bayram məclislərində ehsanlar verilir və ondan yaxın ətrafda yaşayan yoxsul ailələrə də paylanardı. Səfəvilər dövrünə dair qaynaqlarda verilən məlumatlara görə, Merac bayramı günü, adətən, məscidlərdə dualar oxunar və söylənən moizələrdə Peyğəmbərin mənəvi-əxlaqi irsi təbliğ edilərdi. Bir sıra türk xalqlarında daha geniş keçirilən belə günlərdə namaz qılmaq, oruc tutmaq, qohum-qonşu ilə təbrikləşmək və onlara halva-çörək paylamaq bayramla əlaqədar adət və qaydalardan idi [14, s.51]. Mövlud bayramları da, adətən, məscidlərdə keçirilər və mərasimə toplaşanlar üçün süfrə açılar, hər bölgədə yemək öynəsinə uyğun ehsanlar verilərdi. Əksər bölgələrdə bayram süfrəsində, adətən, aş və şərbət verilirdi [9, s.153]. Xalq inamına görə, verilən ehsanlar təbərrük sayıldığı üçün hamı ehsan yeməklərindən yeməklə, həm də savab qazanmağa çalışırdı [12, s.169-170].

Qeyd olunanlar göstərir ki, keçmişdə məscidlər təkcə ibadət yeri olmamış, eyni zamanda, xalqın formalaşdırdığı bir çox etnoqrafik ənənələrin də ifadə olunduğu ictimai məkanlardan biri olmuşdur. Belə etnoqrafik ənənələrin, bilavasitə, dini motivlər üzərində formalaşması İslamın ictimai xarakterini və onun xalqın mədəni həyatına təsir imkanlarının güclü olduğunu göstərirdi. Müasir dövrdən fərqli olaraq, orta əsrlərdə bu bayramların ümumxalq səciyyəsini göstərən əsas cəhət onların bu və ya digər məzhəbə aid olunmaması və ölkədə bütün müsəlmanların ortaq ənənələri kimi özlərinə yer tutması idi.

Orta əsrlərdə elmlərin inkişafı cəmiyyətin ümumi mədəni səviyyəsinin artması üçün zəmin yaradırdı. Fəal mədəni həyatın təşkiledici mərkəzləri məscidlər və onların nəzdində fəaliyyət göstərən mədrəsələr idi. Burada təbiət, din və fəlsəfə elmləri üzrə tədqiqatlar aparılırdı [7, s.154]. İslamda ziddiyyətli fikirlərin artması da çoxsaylı mədrəsələrin təsis olunmasını labüd və zəruri edirdi.

Orta əsrlərdə məktəb və mədrəsələr Azərbaycanda başlıca tədris ocaqları idi. Məktəblər xüsusi təhsil müəssisələri olduğu üçün məscidlərlə bilavasitə bağlı olmadığı halda, mədrəsələr, əsasən, məscidlərə bağlı idi. Məktəbi bitirən şagirdlərin bir qismi təhsilini davam etdirmək üçün mədrəsələrə daxil olurdular.

Məscidlərin funksional əhəmiyyəti, onların mədəni-maarif mərkəzlərindən biri olması müxtəlif dövrlərdə Azərbaycana gəlmiş Avropa səyyahlarının, tacirlərinin və diplomatlarının da diqqətini cəlb etmişdi. Daha çox ilahiyyat sahəsində mübahisəli fikirlərin artması mədrəsələrin meydana gəlməsinə şərait yaradırdı. Allahın evi sayılan məsciddə mübahisə etməyi doğru hesab etməyən alimlər müstəqil dini müəssisələr – mədrəsələr təşkil edirdilər [4, s.338].

Bəzi hallarda mədrəsələr artıq mövcud olan daha qədim cümə məscidlərinin nəzdində inşa edilir və beləliklə, kompleks yaradırdı. Bu cür komplekslərə misal olaraq Gəncə,Dərbənd və Şamaxı şəhərlərindəki cümə məscidləri ətrafında yara-

dılmış kompleksləri göstərmək olar [15, s.33]. Qeyd edək ki, ibtidai təhsil, bir qayda olaraq, məhəllə məscidlərinin nəzdindəki mədrəsələrdə, ali təhsil isə came məscidlərin nəzdində fəaliyyət göstərən mədrəsələrdə təşkil edilirdi. Mədrəsələrin məscid komplekslərinə daxil edilməsinin digər bir səbəbi isə mədrəsələrin maliyyəsini aid olduğu məscidin vəqfləri hesabına təmin etmək ehtiyacından irəli gəlirdi [3, s.28]. Lakin müstəqil fəaliyyət göstərən böyük mədrəsələr məscidlər kimi vəqf gəlirləri ilə təmin olunurdu. Belə vəqf əmlaklarına kəndlərdə əkilən torpaqlar, bağlar, üzümlüklər, dəyirmanlar, şəhərlərdə isə dükanlar, bazar və başqa gəlir yerləri daxil idi. Bundan başqa tacirlər və sənətkarlar da mədrəsələrə icarə pulu kimi vəsait verirdilər. Bu vəqflərdən gələn gəlir müdərris, onların köməkçiləri və digər xidmətçilərə verilirdi [4, s.342].

Orta əsrlərdə mövcud olan bəzi təriqət ardıcılları məscidlərə getmir, özlərinə aid ayinləri, zikrləri icra etmək üçün ayrıca xanəgahlar, təkyələr, zaviyələr inşa edir, bəzən elə orada yaşayırdılar. Xanəgahların meydana gəlməsi sufilik təlimlərinin bu və ya digər məzmunlu fəaliyyəti ilə bağlı olmuşdur. Azərbaycanda nemətullahiyyə, xəlvətiyyə, söhrəvərdiyyə, səfəviyyə, qələndəriyyə və digər təriqətlərə aid xanəgahlar haqda mənbələrdə çoxsaylı məlumatlara rast gəlmək mümkündür.

Xanəgahlar Böyük İpək yolu üzərində ödənişsiz mehmanxana, yeməkxana, dərsxana, kitabxana, şəfaxana rolunu oynayırdı" [6, s.125]. Odur ki, belə xanəgahlar karvansara ilə eyni kompleksə daxil olurdu. Buna misal olaraq Ərdəbil şəhərindən Şamaxıya gedən qədim karvan yolunun üzərində yerləşən Pir Mərdəkan xanəgahını, Pirsaat çayı üzərindəki Pir Hüseyn xanəgahını və başqa xanəgahları göstərmək olar.

Bəzən xanəgah şeyxi mədrəsələrdə müdərrislik də edirdi [4, s.361]. Mədrəsələrin bəziləri xanəgahlarda fəaliyyət göstərirdi. Burada təhsil alan tələbələrə ət, çörək, ayda bir dəfə şirniyyat, yağ, sabun və s. verilirdi. Bəzi xanəgahlarda isə yetim uşaqlar üçün mədrəsələr tikilirdi. Burada təhsil alan yetim uşaqlara da gündəlik çörək və digər ərzaqlar verilirdi [4, s.337].

Bəzi təriqətlərə mənsub xanəgahlarda rəqs mərasimləri də keçirilirdi. Belə mərasimlərdə sufi rəqslərinə tamaşa etmək üçün iştirak edənlər çox olurdu. Belə mərasimlər, adətən, hər gün günorta namazından sonra qurulardı [16, s.174].

Sufilərin bir qismi özlərini yaşadığı cəmiyyətdən təcrid edib xanəgahlarda yaşayırdı. Buna görə də xanəgah kompleksinə burada yaşamaq üçün hücrələr (kiçik otaqlar), ibadət və ayinlərin icrası üçün məscid, zikrxana, məclislər üçün camaatxana, qırx günlük pəhrizlər üçün çilləxana, tədris və bir sıra yardımçı-təsərrüfat otaqları daxil edilirdi. Xanəgah komplekslərinə daxil olan tikililər arasında hamamlara da təsadüf edilirdi. Hamamın kompleks nəzdində tikilməsi xanəgah üzvləri üçün daha əlverişli idi: ictimai hamamlardan istifadə etmək məcburiyyətindən azad olan sufilər, buradan pulsuz yararlanma imkanı əldə edirdilər [10, s.194].

Digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da xanəgahlarda yaşayan sufi-dərvişlərin gündəlik yeməkləri və digər yaşayış vasitələri əhali tərəfindən verilirdi. XIV əsrin ərəb səyyahı İbn Bətutə Misir xanəgahları haqqında məlumat verərək yazır ki, xanəgah dərvişlərinə 20-30 dirhəm pul, yay və qış paltarları və

başqa ləvazimatlar verilirdi. Xanəgah xidmətçisi hər gün səhər dərvişlərin yanına gəlir və onların arzu etdikləri yeməklərin sifarişini alırdı [16, s.27]. Ağqoyunlu hökmdarı Uzun Həsənin dövründə (1423-1478) Azərbaycanda olmuş venesiyalı səyyahların məlumatlarında qeyd olunur ki, bəzi hallarda xanəgahın xərci dövlət xəzinəsindən ödənilirdi [18, s.157].

Orta əsrlərdə Azərbaycanda mövcud olan ənənəvi tikililər arasında ziyarətgah funksiyası daşıyan abidələr də özünəməxsus yer tuturdu. Bu dövrdə yüksək nüfuzlu din xadimlərinin, təriqət şeyxlərinin, övliyaların məzarları üzərində inşa edilmiş və ziyarətgaha çevrilmiş türbələr, imamzadələr və digər tikililərin mövcudluğu İslamın xalqın maddi mədəniyyətinə təsirini əks etdirən başlıca amillərdən idi. Uzun əsrlər boyu xalqın inanc sistemində, onun mənəvi dünyasında özünəməxsus yeri olan ziyarətgahlar dini görüşlərin cəmiyyət üzərində təsirinin nisbətən güclü olduğu orta əsrlərdə sosial-ictimai münasibətlərin möhkəmlənməsində və eləcə də mədəni həyatda mühüm rol oynamışdır.

Azərbaycanda ziyarətgahlar həmişə insanların and yeri olmuşdur. Məlumatçılar qeyd edir ki, keçmişdə də müqəddəs ziyarətgahların ehtiramını qorumaq məsələsinə olduqca diqqət göstərilirdi. Bəzi müəlliflərin qeyd etdiyi kimi, hətta müqəssirlər, təqib olunan şəxslər də ziyarətgaha sığındığı müddətdə amanda olur və onlara toxunmaq, zərər vurmaq doğru hesab edilmirdi [11, s.4]. Yolunu azanlar, yaxud uzaq səfərə çıxmış şəxslər də gecə qalmaq üçün əmin-amanlıq yeri kimi məscidlərə, bəzən də türbələrə üz tutardılar.

Xanəgah, türbə və imamzadə kimi dini abidələrin əsasında meydana gələn ziyarətgahlar xalqın maddi-mədəni irsinin, inşaat ənənələrinin əsas göstəricilərindən olmuşdur. Eyni zamanda dini ocaqlar sosial və ideoloji funksiya daşımaqla, orta əsrlərdə ictimai münasibətlərə təsir göstərir, mədəniyyət və maarif mərkəzləri sayılırdı. Odur ki, dini-tarixi abidələrin tədqiq edilməsi orta əsrlərdə Azərbaycanda ictimai-mədəni, sosial və məişət münasibətlərinin öyrənilməsində də mühüm əhəmiyyət daşıyır.

Beləliklə, orta əsrlərdə maddi mədəniyyətin əsas sahələrindən olan ictimai tikililər – məscidlər, xanəgahlar, o cümlədən türbələr xalqın mənəvi mədəniyyətində də mühüm rol oynamış, müxtəlif adət-ənənələrin icra olunduğu məkanlar olmaqla, sosial-ictimai və mədəni münasibətlərin inkişafında özünəməxsus yer tutmuşdur.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan arxeologiyası. VI cilddə, VI c., Bakı: 2008, - 632 s.

2. Dadaşzadə M. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı, "Elm", 1985.

3. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: "ABU", 2001, - 320 s.

4. Əliyeva N.A. İslam mədəniyyəti və Azərbaycan (VII-XIII əsrin əvvəlləri). Bakı: "Elm və təhsil", 2017, - 488 s.

5. Əmənzadə R. Azərbaycan memarlıq abidələrinin tipologiyası: XI-XVII əsrlər. Bakı: "Xəzər Universiteti", 2016, - 144 s.

6. Xəlilli F.S. Tarixi İpək yolu: Şamaxı və Ağsu arasında xanəgahlar. / "Türkdilli xalqların elmi-mədəni əlaqələri müasir mərhələdə: tarixi ənənə və perspektivlər" Respublika elmi konfransının materialları (29-30 oktyabr 2021-ci il, Şamaxı – Azərbaycan). Bakı: "Müəllim", 2021, - s.124-128.

7. İslam: Tarix. Fəlsəfə. İbadətlər. Bakı: "Elm", 1994, - 336 s.
8. Qarayeva N. Hamam mədəniyyəti. Kitab-aibom (Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında). Bakı: "Təhsil", 2022, - 128 s.
9. Məmmədova İ. Azərbaycanda qarşılıqlı yardım formaları (tarixi-etnoqrafik tədqiqat). Bakı, "Elm", 2011, - 216+24 s.
10. Məmmədova İ.G. Təbriz şəhərinin maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı: "Çaşıoğlu", 2016. - 500 s.
11. Səfərli H., Cəfərov H. Naxçıvan ziyarətgahları. Bakı: "Qorqud", 1998, - 84 s.
12. Şiriyev T.M. Orta əsrlərdə Azərbaycanda keçirilən bəzi dini bayramlar haqqında. Milli Azərbaycan Tarixi Muzeyi – 2019. Bakı: "Elm və təhsil", 2019, - s.167-174.
13. Bözkurt N. Namazgâh. TDV İslam Ansiklopedisi. İstanbul, 2006, cilt 32, - s.357-358.
14. Erbaş M. Türk toplumundaki Kur`an okuma, dinleme ve öğrenme algısına eleştirel bir bakış. Bakı Dövlət Universiteti İlahiyyat Fakültəsinin Elmi Məcmuəsi. №10, 2008, - s.37-63.
15. Саламзаде А.В. Архитектура Азербайджана XVI-XIX вв. Бакı: 1964, - 253 s.
16. Ibn Batuta. The Travels of Ibn Battuta: in the Near East, Asia and Africa, 1325-1354., 2004.
17. The Travels of Ibn Battuta: in the Near East, Asia and Africa, 1325-1354.
18. Səfərnamehaye veniziyan dər İran. Tehran: 1346.
19. Səyahətnameye Şardən. Tehran: 1335.

TÜRKDİLLİ XALQLARIN TARİXİ-MƏDƏNİ ƏLAQƏLƏRİNİN SƏRGİLƏRDƏ ƏKSİ

Nərgiz Əliyeva
Milli Azərbaycan Tarixi Muzeyi, tarix elmləri doktoru

Açar sözlər: türkdilli xalqlar, tarix, mədəniyyət, muzey, fond, sərgi
Keyword: Turkic-speaking peoples; history; culture; museum; collection; exhibition.

Türkdilli xalqların tarixi və mədəni əlaqələri minilliklər boyu ümumi etnik köklər, dil, inanc və mədəniyyət birliyi üzərində formalaşmışdır. Bu əlaqələr yalnız ədəbiyyat və incəsənətdə deyil, həm də muzey ekspozisiyaları və beynəlxalq sərgilərdə aydın şəkildə nümayiş etdirilir. Tədqiqatda göstərildiyi kimi, bu mədəni bağların sərgilərdə təqdimatı türkdilli xalqların ortaq dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Altay-Sayan bölgəsində yaşamış qədim türklərin mədəniyyəti dünya mədəni irsinin mühüm qolunu təşkil edir. E.ə. I minilliyin ortalarından eramızın I minilliyinin ortalarına qədər formalaşan Saka, Hun, Göytürk və Uyğur dövrləri türk mədəniyyətinin ilkin mərhələlərini əks etdirir.

Qədim dastanlar — "Dünyanın yaranması haqqında", "Boz qurd", "Oğuz Kağan", "Ərgənəkon", "Köç" və digərləri — türk xalqlarının mifoloji düşüncəsini, dövlətçilik ənənələrini, etnogenezini və estetik dünyagörüşünü əks etdirir. Bu dastanlar həm də türk xalqlarının özünütəsdiq ideyasının və milli yaddaşının formalaşmasında mühüm rol oynamışdır.

İslamın qəbulundan sonra türkdilli xalqlar arasında mədəni və elmi inteqrasiya yeni mərhələyə qədəm qoydu. Mahmud Kaşğarinin "Divanü Lüğat-it-Türk" əsəri bu birliyin dil əsaslarını təsbit etdi. Xaqani, Qətran Təbrizi, Nizami Gəncəvi kimi

Azərbaycan ədibləri türk dünyasının mədəni inteqrasiyasına dəyərli töhfələr verdilər. Azərbaycanın görkəmli şairi Xəqaninin Yaxın və Orta Şərq ölkələrinin şairləri ilə yazışmaları mövcuddur. Qətran Təbrizinin (1030-1108) iki qəsidəsində Xarəzm haqqında məlumat verilir [3, s.48-58].

Rəssamlıq sahəsində Kəmaləddin Behzad və Pir Səid Əhməd Təbrizinin yaradıcılığı, Şah İsmayıl Xətainin himayədarlığı ilə yaranmış sənət mühiti Azərbaycanla Orta Asiya və İran türk mədəniyyətləri arasında körpü rolunu oynamışdır. Azərbaycan memarı L.Bretanitskiyə görə, Azərbaycan Səfəvilər dövlətinin banisi Şah İsmayılın döyüşdən əvvəl Səfəvilər dövlətinin böyük bir xəzinəsi kimi Cəmaləddin Behzadı arxa cəbhəyə göndərilməsi haqqında əmr verməsi barədə rəvayət hələ orta əsrlərdə qarşılıqlı əlaqələrin mövcud olmasını göstərir [7].

XX əsrin əvvəllərində Azərbaycan türkləri faciəvi hadisələrlə üzləşdi. 1918-ci il mart soyqırımı zamanı erməni silahlı dəstələrinin törətdiyi qətliamlar türk xalqları arasında həmrəyliyin vacibliyini bir daha göstərdi. Qafqaz İslam Ordusu — Nuri Paşa və Əliağa Şıxlinskinin rəhbərliyi ilə — Azərbaycanı erməni-bolşevik qüvvələrinin işğalından xilas etdi.

Milli Azərbaycan Tarixi Muzeyində bu dövrə aid sərgilərdə həmin hadisələri əks etdirən unikal eksponatlar, o cümlədən Osmanlı imperiyasının mükafat nişanları və hərbi medallar saxlanılır. Bu sərgilər türk xalqları birliyinin tarixdəki izlərini əyani şəkildə nümayiş etdirir.

Sovet dövründə ideoloji məhdudiyyətlərə baxmayaraq, türkdilli xalqlar arasında mədəni münasibətlər tamamilə kəsilmədi. 1920–1980-ci illərdə Azərbaycan, Türkmənistan, Özbəkistan, Qazaxıstan və Qırğızıstan arasında incəsənət, ədəbiyyat və muzey mübadilələri həyata keçirilmişdir. 1922-ci ildə Daşkənddə "Molla Nəsrəddinin kiçik qardaşı" adlandırılan"Müştüm" satirik jurnalının baş redaktorunun qeyd etdiyi kimi jurnal 1924-1927-ci illərdə hər şeyi "Molla Nəsrəddin"dən öyrənmişdi [1, s.175].

Azərbaycan muzeylərinə türkmən xalçaları, qazax ağac oymaları, özbək bədii keramika nümunələri, İran türklərindən gümüş medalyonlar və portretlər hədiyyə edilmişdir. Bu eksponatlar türk xalqlarının milli-mədəni irsinin təbliğində mühüm rol oynamışdır.

Azərbaycan rəssamı Mikayıl Abdullayevin "Əbu Əli İbn Sina" və "Səmərqənd farforu" əsərləri, memar Fuad Əbdürrəhmanovun Buxara üçün hazırladığı abidə layihəsi bu dövrdəki qarşılıqlı sənət əlaqələrinin bariz nümunələridir.

SSRİ-nin dağılmasından sonra türkdilli xalqlar öz mədəni və siyasi tarixlərini yenidən araşdırmaq imkanı qazandılar. Türkologiyada əvvəlki məhdudiyyətlər aradan qalxdı, inteqrasiyaya yönəlik yeni elmi strategiyalar hazırlandı.

Türkdilli dövlətlər arasında yaradılmış beynəlxalq təşkilatlar (məsələn, Türk Dövlətləri Təşkilatı) mədəni əməkdaşlığın genişlənməsinə şərait yaratdı. Azərbaycanın bu istiqamətdə atdığı addımlar, xüsusilə Milli Azərbaycan Tarixi Muzeyinin təşəbbüsləri, ortaq mədəni irsin araşdırılması və təbliği baxımından mühüm rol oynadı.

Muzeylər tarixi-mədəni əlaqələrin qorunması və ictimai yaddaşın formalaşmasında birləşdirici halqa funksiyasını yerinə yetirir. Muzey eksponatlarının elmi əsaslarla seçilməsi, düzgün ekspozisiya tərtibatı və sərgilərin tematik ardıcıllığı milli-mədəni kimliyin təbliği üçün zəruridir.

2014-cü ildə Milli Azərbaycan Tarixi Muzeyində açılmış "Dost ellərin hədiyyələri" sərgisi türkdilli respublikalar arasında mədəni əlaqələrin simvoluna çevrilmişdir. Sərgidə Türkiyə, Qazaxıstan və Özbəkistandan gətirilmiş xatirə əşyaları, sənət nümunələri və hədiyyələr nümayiş olunmuşdur. Sərginin materialları "Dost ellərin hədiyyələri" adlı kataloqda [2] öz əksini tapmışdır.

1919-cu ildə Paris Sülh Konfransının iştirakçısı olmuş İbrahim bəy Heydərova məxsus, Mina xanım Tansel tərəfindən muzeyə bağışlanmış xəncər —türk xalqları arasında tarixi bağların dəyərli simvolu kimi diqqətəlayiq eksponatlardan biridir.

Müasir dövrdə türkdilli xalqların tarix və mədəniyyətini əks etdirən sərgilər elmi, estetik və texnoloji baxımdan mükəmməl olmalıdır. Sərgilərin təşkilində əsas meyarlar bunlardır: 1. Tarixi ardıcıllığın qorunması — eksponatlar dövrlərə və mövzulara görə sistemləşdirilməlidir; 2. Elmi əsaslılıq — hər eksponatın mənşəyi, funksiyası və analoqları haqqında dolğun məlumat verilməlidir; 3. Vizual cəlbedicilik — sərgi həm maarifləndirici, həm də estetik baxımdan maraq doğurmalıdır; 4. Məkan optimallaşdırması — sərgi sahəsi məhdud olduqda ən təmsilçi və mənalı eksponatlar seçilməlidir; 5. Multimedia təqdimatları — videomateriallar və rəqəmsal arxivlər vasitəsilə sərgi məlumatlarının yaddaşda qalması təmin edilməlidir. Sərgilərin videoya çəkilərək Neqativ fondunda saxlanması isə gələcək üçün yaddaşlarda daha qalıcı olmasına kömək edə bilər.

Azərbaycan və digər türkdilli xalqların ortaq etnik kökləri dil, folklor, toponimika və arxeoloji tapıntılarda da əks olunur. Məsələn, Mingəçevirdən tapılmış tovuzquşu təsvirli daşlar, Türkiyənin Bartın bölgəsindəki gümüş fincan və Özbəkistandakı Göy Qılılğan qala tapıntıları ilə eyni motivlərə malikdir. Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında türk xalqları arasındakı qarşılıqlı iqtisadi, siyasi və mədəni əlaqələri təsdiq edən tarixi faktlar da yetərincədir.

Eyni zamanda, güləş (türk: güreş, qazax: küreşi, qırğız: kürəş, özbək: küräş) kimi qədim idman növləri də ortaq mədəniyyətin nümunələrindəndir. Milli Azərbaycan Tarixi Muzeyində saxlanan XVII–XIX əsrlərə aid pəhləvan geyimləri və idman avadanlıqları bu sahədə beynəlxalq sərgilər üçün unikal materialdır. Güləş yalnız kişilərin məşğul olduğu döyüş idman növüdür. Güləş vasitələri rəqibin tutulması, tarazlığından salınması və yerə atılması texnikalarıdır. Pəhləvanlar yalnız dəri şalvar geyinirdilər, omba nahiyəsindən möhkəm bərkidilmiş və dizə qədər uzanırdı. Muzeyin Etnoqrafiya fondundakı XIX əsrə aid güləşçi şalvarının üzərində sarı və göy rəngli saplarla işlənmiş günəş, ulduz, dalğavari xətlər və s. təsvirlər vardır [4]. Muzey ekspozisiyasında orta əsrlər dövrünə aid unikal idman avadanlıqlarından digəri isə millərdir [5]. İki milin çəkisi 30 kq-dır. Muzeyin Etnoqrafiya fondunda XVII əsr dəbilqəsi üzərində güləş təsviri verilmişdir [6].

Nəticə olaraq deyə bilərik ki, türkdilli xalqların ortaq tarixi və mədəni irsi - onların minillər boyu formalaşmış dil, inanc və sənət birliyinin təzahürüdür. Bu irsin sərgilər vasitəsilə təqdim olunması yalnız keçmişin qorunması deyil, həm də müasir türk dünyası arasında mənəvi birliyin gücləndirilməsinə xidmət edir. Muzeylərin epspozisiya və sərgiləri bu birliyin "canlı arxivləri" kimi fəaliyyət göstərir. Onların elmi, estetik və texnoloji səviyyədə təşkili türk xalqlarının ümumbəşəri mədəni irsdəki yerini layiqincə nümayiş etdirməyə imkan verir. Beləliklə, məlum olur ki, türkdilli xalqların tari-

xi-mədəni əlaqələrinin sərgilərdə təzahürü təkcə elmi faktların nümayişi deyil, həm də xalqların ortaq yaddaşının və gələcək inteqrasiyasının əsas dayaqlarındandır.

Ədəbiyyat siyahısı:

1. Əliyev Q. "Molla Nəsrəddin və özbək həyatı" // "Azərbaycan", 1966, № 7, s.175.
2. Dost ellərin hədiyyələri (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında). Bakı: Ziya, 2014, 172 s.
3. Kəndli Q. Şirvani və Xarəzmşahlar ocağı // Страницы азербайджане-узбекских литературных взаимосвязей. Баку: Элм, 1983, с.48-58.
4. Milli Azərbaycan Tarixi Muzeyi (MATM), Etnoqrafiya fondu, İnv. № 9179.
5. MATM, Etnoqrafiya fondu, İnv. № 9180.
6. MATM, Etnoqrafiya fondu, İnv. № 373.
7. Бретаницкий Л.С. Зодчество Азербайджана XII-XV веков и его место в архитектуре Переднего Востока. Москва: Искусство, 1966, 520 с.

TÜRK DÜNYASININ ARXEOLOJİ İRSİNDƏ GƏNCƏNİN DEKORATİV KƏRPİC VƏ KAŞI ƏNƏNƏLƏRİ

Vüsalə Beydullazadə
AMEA Arxeologiya və Antropologiya İnstitutu, doktorant, elmi işçi
vbeydullazade@gmail.com

Açar sözlər: *dekorativ kərpic, kaşı, Gəncə, kaşı, dekorasiya*
Keywords: *decorative brick; tile; Ganja; tile; decoration*

Gəncənin orta əsr kərpic və kaşıların morfoloji və texnoloji təhlili göstərir ki, onlar, yalnız tikinti materialı kimi deyil, həm də memarlıqda üslubun bədii komponenti kimi də çıxış edirlər. Fasad və portallarda, tağaltı konstruksiyalarda, minarələrdə, ictimai və dini tikililərin interyerində istifadə olunan dekorativ kərpiclər şəhərin estetik memarlıq kimliyini təşkil edir. Gəncə memarlığının bədii xüsusiyyətlərini tam şəkildə əks etdirən şirli kaşıların firuzəyi və yaşıl rəng çalarları, nəbati və həndəsi naxışlardır. Məqalədə, kərpiclərin və kaşıların tərkibi, ölçüləri, forması, naxışlanması və istehsal texnikası araşdırılır. Kərpiclərin konstruktiv, dekorativ və hibrid funksiyaları müəyyənləşdirilir, kaşıların tətbiq yeri və bədii tərtibatı təhlil edilir. Tədqiqatda analoji, müqayisəli təhlil, tipoloji təhlil və memarlıq konstruktiv təhlil üsullarından istifadə edilmişdir.

IX-XI əsrlərdə şəhərsalmanın miqyasının genişlənməsi Azərbaycanda inşaat texnikasının yüksək tərəqqisini, memarlıq dekorunun tətbiqini və çeşid zənginliyini şərtləndirmişdi [1, s.29]. Tədqiqatın məqsədi, Gəncə şəhərində aşkarlanmış kərpic və kaşı nümunələrinin material, texnologiya, formalaşdırılma üsulu, ornamentika və funksional təyinat baxımından hərtərəfli təhlili əsasında orta əsr Türk dünyası və Azərbaycan memarlığının keramika mədəniyyətində Gəncənin yerini müəyyən etməkdən ibarətdir.

Böyük konstruktiv-texniki, iqdisadi, eləcə də dekorativ imkanları olan bişmiş kərpic XI-XIII yüzillərdə Azərbaycanın regionlarında başlıca inşaat materialı olmuşdur. Bişmiş kərpic xoş rənginə, gözəl fakturasına, biçim rəngarəngliyinə, at-

mosfer təsirlərinə dözümünə görə əsas üzlük materialı olaraq sənətkara zəngin bəzək çeşniləri yaratmaq imkanı vermişdir [2, s.184].

Bişmiş kərpic, digər inşaat materialları ilə müqayisədə, həm ucuz başa gəldiyinə, həm də keyfiyyətli olduğuna görə bütün bölgələrdə geniş yayılmışdı. Sadə bişmiş kərpicin təbii rəngi divar səthlərinə bədii-estetik dəyər qazandırır, şirli kərpicin istifadəsi isə memarlıq baxımından əlavə zəriflik verir, əhəng sərfini azaldır və fasadın təmirinin uzunömürlülüyünü artırırdı. Memarlıq abidələri ətrafında aparılan arxeoloji tədqiqatlar nəticəsində bişmiş kərpicin tətbiqinə dair əhəmiyyətli məlumatlar əldə edilmişdir [3, s.12].

Gəncə kərpicləri öz unikallığı ilə seçilir. 19x14x16x2,5 sm ölçülü kərpiclərin səthi boz, gilinin rəngi isə narıncıdır. Kərpicdə ornamentin kompozisiyası səth boyunca diaqonal istiqamətdə çəkilmiş paralel relyef xətlərin kəsişməsindən yaranmışdır. Bu tip relyefli səth forması kərpicin həm dekorativ, həm də texniki funksiyanı gücləndirir. Nəticə etibarilə bir tərəfdən fasad səthində işıq-kölgə effekti yaratmış, digər tərəfdən isə kərpiclər arasında suvaq materialının daha möhkəm yapışmasını təmin etmişdir (I tablo, şəkil 1).

Başqa bir boz rəngli dekorativ kərpic nümunəsi hörgü elementi deyil, profilə salınmış memarlıq detalına aiddir. Ehtimal ki, 18x17x4 sm ölçülü bu kərpic, pəncərə və ya taxça çərçivəsinin, tağlı konstruksiyasının bir hissəsinə aiddir. Kərpicin gövdə hissəsində oyma üsulu ilə salınmış, qum saatına bənzər bir təsvir vardır (I tablo, şəkil 2).

Sadə formalı, 19x13,5x4 sm ölçülü, qırmızı gilli və məsaməli kərpic nümunəsi texnoloji baxımdan diqqətəlayiqdir. Bu kərpic nümunəsi sadəcə tikinti məqsədli deyil, möhkəmləndirici və bağlayıcı funksiyalı element olaraq istifadə olunub. Qırmızı gilli olub yaxşı bişirilmişdir, səthində olan relyefli xətt və yarıq formalı çıxıntı diqqəti cəlb edir. Bu relyefli xətlər hörgü zamanı kərpiclər arasında məhlulun daha sıx yapışmasını təmin etmişdir (I tablo, şəkil 5). Fraqmentin forması və səthindəki relyef izi ondan aralıq və ya bünövrə kərpici kimi istifadə olunduğunu göstərir. Belə kərpiclər adətən böyük divar hörgülərində və günbəzaltı konstruksiyalarda tətbiq edilir, məqsəd isə təzyiqi paylamaq və suvağın mexaniki tutumunu artırmaq olur.

Digər bir məsaməli kərpic nümunəsi kvadrat formalı olub üzərində deşikləri vardır. Səthindəki "X" formalı və kəsişən relyef xətləri onu adi kərpicdən fərqləndirir və onun ornamentli dekorativ-funksional kərpiclər qrupuna aid olduğunu göstərir. Səthin mərkəzindən iki istiqamətdə keçən dərin relyef izləri onun ya qəlibdə formalaşdırıldığını, ya da taxta ştampla basıldığını göstərir. Belə ornamentlər, adətən, divarların yuxarı qatında və ya portalların yan haşiyələrində ritmik bəzək quruluşu yaradırdı. Nümunə, 15x14,5x5 sm ölçülərdə olub, Gəncədə orta əsrlərdə tətbiq edilən dekorativ-funksional inşaat keramikasının texnoloji və estetik xüsusiyyətlərini əks etdirir (I tablo, şəkil 3).

Başqa bir nümunə düzbucaqlı, səthində dərin relyeflə formalaşdırılmış diaqonal və bucaqlı xətt sistemi olan, ritmik-geometrik bəzək motivli kərpicdir. Ornament dərin oyma üsulu ilə salınmış, yəni həcmi azalan sahələr relyef səviyyəsində ayrılmışdır. Kompozisiyanın bucaqlı quruluşu səthdə dinamik işıq və kölgə effekti yaradır (I tablo, şəkil 4).

Nümunələrdən biri formasına, texnoloji xüsusiyyətlərinə görə memarlıq bəzəyi üçün hazırlanmış dekorativ kərpicdir. 20x13,5x4,5 sm ölçülü, yarımprofilli və ya tacvari formalı kərpicin yuxarı hissəsi dalğavari, alt hissəsi isə düz konturludur. Kərpicin səthində şaquli və dioqanal istiqamətdə uzanan relyef izləri görünür. Analoji formalı kərpiclər memarlıqda profil elementləri (tağ, karniz, friz və s.) kimi istifadə olunurdu. Qəliblə hazırlanmış, sıx strukturlu, dalğavari dekorativ profil kərpicidir (I tablo, şəkil 6).

Maraqlı bir nümunə narıncı-qırmızı rəngli olub digərlərindən fərqlənir. Kərpicin üz səthində qabarıq-plastik relyeflə işlənmiş, simmetrik, bitki mənşəli ornament izləri görünür. Relyefin dərinliyi 0,5–0,8 sm arasında dəyişir. Kütlənin sıxlığı və az məsaməliliyi kərpicin xarici dekorativ üzlük kimi istifadə olunduğunu təsdiq edir. Ornament qəliblə formalaşdırılmış, bıçaq ucu və ya biz alətlə korreksiya verilmişdir. Üzərindəki təsvir həm bitkini, həm də heyvanı xatırladır (I tablo, şəkil 7).

Azərbaycanın orta əsr şəhərləri arasında Gəncə öz zəngin memarlıq ənənələri, inkişaf etmiş sənətkarlıq mədəniyyəti və xüsusilə keramika istehsalı ilə seçilir. Arxeoloji qazıntılar nəticəsində şəhərdən aşkar edilən inşaat keramikası, o cümlədən kaşı nümunələri Gəncənin Yaxın və Orta Şərq memarlıq mühitində tutduğu əhəmiyyətli yeri aydın göstərir. Şirli kaşı fraqmentləri şəhər memarlığında həm funksional, həm də estetik məqsədlə geniş tətbiq olunmuşdur.

Özbəkistanın bir çox memarlıq abidələrində, xüsusilə Səmərqənd şəhərində yerləşən Gur-Əmir türbəsi və Şah-i-Zinda kompleksi (XIV-XV əsrlər) kimi nümunələrdə mürəkkəb mozaik kaşı örtüyü müşahidə olunur. Bu mozaik kompozisiyalar geniş rəng çeşidlərini özündə birləşdirərək heyranedici vizual harmoniya yaradır [5, s.14]. Eyni anda monoxrom və polixrom kaşıların tətbiqi tikililərin estetik dəyərini artırmaqla bərabər mədəni irsin rəngarəngliyini də əks etdirir. Gəncədə və burada istifadə olunan şirli kərpiclər eynilik təşkil edir. Rəng palitrasında da firuzəyi və tünd göy rənglərdə oxşarlıq var.

Konyada yerləşən Kataray mədrəsəsində (XIII əsr) istifadə edilən firuzəyi, göy rəngli kaşılarla Gəncə kaşılarının uyğunluğu var. Kaşı lövhələri kəsilərək, yonularaq və kənarları düzəldilərək istənilən motiv və yazı formaları əldə edilmişdir. Digər bir qrup kaşılar isə relyefli naxışlar alınması üçün xüsusi qəliblərdə tökmə və ya preslənmə yolu ilə hazırlanmışdır [6, s.9].

Səlcuq memarlıq abidələrində ənənəvi dekorativ ünsür kimi tətbiq olunan kaşılar mozaik texnikası adlandırılan üsluba aiddir. Bu zaman kaşı lövhələri istənilən ölçü və formada kəsilir, yonulur və oyularaq kiçik hissələr halına gətirilir. Daha sonra bu parçalar hazırlanacaq ornament kompozisiyasına uyğun şəkildə qəlibin üzərinə düzülür və sabitləşdirilir. Hazırlanacaq geniş lövhənin kənarları çərçivə çubuqları ilə haşiyələnir. İlk mərhələdə incə, keyfiyyətli və nisbətən duru alçı tökülərək bu parçalar bir bütöv hala çevrilir. Qismən quruduqdan sonra lövhə qəlibdən çıxarılır [7, s.12]. Bu abidədə minarələrdə istifadə edilmiş bişmiş kərpiclərin və kaşıların müəyyən bənzərlikləri var.

İsaq Cəfərzadə Gəncə şəhərindən aşkarlanan keramikanı on iki qrupa ayırmışdır. Bu qruplardan biri də inşaat keramikasıdır. Dekorativ kərpic və mavi, yaşıl, fi-

ruzəyi, bənövşəyi rənglərdə olan kaşılar icrtimai, dini və memorial tikililərindən əldə edilmişdi [4, s. 152].

Gəncədə aşkarlanan kaşılardan Azərbaycan Milli Tarix Muzeyi fondunda mühafizə edilən kaşı nümunələri diqqəti cəlb edir. Onlardan biri qeyri-müntəzəm formalı, 6x6,5 sm ölçülü, bucaq hissəsində ulduzvari və ya çoxbucaqlı kompozisiyanın elementi görünür. Relyefik ulduzaoxşar formasına görə həndəsi və ya epiqrafik kompozisiyanın mərkəzi elementi ola bilər. Bu fraqment orta əsr Azərbaycan memarlığının yüksək texnoloji və estetik səviyyəsini nümayiş etdirən nadir nümunələrdən biridir (I tablo, şəkil 7).

Digər bir fraqment oval konturlu, 7,2x4,8 sm ölçülərdə olub, bir kənarı qabarıq və nazikləşən profillidir. Gili qırmızımtıl-qəhvəyi rənglidir, qəlibdə formalaşdırılmış, sonra üzərinə bir qat şir çəkilərək tək mərhələli bişirmə texnikası tətbiq edilmişdir. Nazik şir təbəqəsinin bəzi yerlərində çatlama və kiçik boşluqlar yaranmışdır. Floral motiv forması (yarpaqvari, damarlı strukturlar) və onun üstündəki tündyaşıl tonun parıltısı həm bitki simvolikasını, həm də təbii həyat və yenilənmə ideyasını ifadə edir (I tablo, şəkil 8).

Şirli kərpic nümunəsi 16,2x3x4 sm ölçülü, düzbucaqlı prizmatik formalıdır, yəni orijinalda bu element üzlük kərpic və ya kaşı zolağı şəklində istifadə olunub. Üst səth tamamilə firuzəyi şirlə örtülmüş, kənarlarda şir nazikləşərək qopmuşdur. Bu fraqmentdə dekor motivi yoxdur, monoxrom firuzəyi şir memarlıqda vahid rəng səthi yaratmaq üçün istifadə edilən üzlük kərpiclər qrupuna aiddir. Belə nümunələr çox vaxt epiqrafik zolaqların fonu, müqəddəs yazıların və ya kufi ornamentlərin arxa səthi kimi tətbiq olunurdu (II tablo, şəkil 1).

Başqa bir kaşı fraqmenti düzbucaqlı olub, kənarları sınmış vəziyyətdədir. Səthində qalın, lakin bərabər yayılmamış şir qatı vardır. Şir qatında fərqli rəng çalarları izlənir. Fraqmentdə konkret ornament və ya relyef yoxdur, səth forması və qalın şir qatı onu monoxrom üzlük kaşılar qrupuna aid edir. Bu cür kaşılar memarlıqda divarların rəngli ritmini yaratmaq, həmçinin epiqrafik kompozisiyaların fonu kimi istifadə edilirdi (II tablo, şəkil 2).

Açıq firuzəyi rəngli şirli kərpicin forması düzbucaqlıdır, ölçüsü 15x4,7x4 sm, kənarlarında azacıq aşınma və qopma izlənir. Səthdəki şir bərabər şəkildə yayılıb, parıltısını qismən qoruyub. Keyfiyyətli bişirildiyi aydın görünür. Bu fraqment texnoloji yetkinliyi və rəng sabitliyi ilə seçilən yüksək keyfiyyətli monoxrom firuzəyi şirli üzlük kərpicdir (II tablo, şəkil 3).

Qırmızı gilli, yaşıl şirli, 6x6,1 sm ölçülü kaşının hamar səthinə relyefli ornament çəkilmiş və çoxrəngli şir tətbiq edilmişdir. Rəng palitrası yaşıl, sarı tonlardan ibarətdir. Kənar hissələrdə ardıcıl dairəvi damcı formalı sədd çəkilmişdir ki, bu da həm tərkibin çərçivəsini tamamlayır, həm də işin ornamental balansını təmin edir. Bu kaşı nümunəsi, həm bədii zövqün, həm də istehsal texnologiyasının inkişaf səviyyəsinin göstəricisidir (II tablo, şəkil 5).

Qırmızı gilli kaşı fraqmentinin səthinə nazik anqob qatından sonra parlaqlığını qoruyub saxlamış yaşıl rəngli şir çəkilmişdir. Bəzəyi yüksək relyefli bir xəttdən və onun daxilində qismən qabarıq nəbati motivdən ibarətdir. Nəbati naxışlar islimi üs-

lubunun sadələşdirilmiş formasıdır. Ornament relyefin qabarıq hissəsində cızılaraq deyil, formadan əvvəl qəlib vasitəsilə yaradılıb (II tablo, şəkil 6).

Açıq bozumtul rəngli kaşı fraqmentinin üzərinə ağ anqob qatı çəkilmiş və sonra sarımtıl şəffaf şirlə örtülmüşdür. Əvvəlki dövrlərin çoxrəngli və relyefli ornamentlərindən fərqli olaraq, burada səthin işıq-rəng harmoniyası və şəffaf şir altındakı dekorativ dinamika əsas bədii ifadə vasitəsinə çevrilmişdir. Belə nümunələr həm texnoloji bacarığın, həm də estetik minimalizmin inkişaf səviyyəsini göstərir (II tablo, şəkil 6).

Qırmızı gilli bir kaşı fraqmenti qalın mavi rəngli, üzərində qopmalar, ağarmalar, çatlar izlənən şir qatı ilə örtülmüşdü. Fraqmentin səthindəki relyefik izlər onun qəlibdə hazırlandığını göstərir. Bu zaman gilə qəliblə naxış salınır, sonra bişirmədən əvvəl və ya sonra şir çəkilirdi (II tablo, şəkil 4).

Kaşı parçaları ilə yanaşı kərpiclərin də kompozisiyaya daxil edildiyi, yəni kərpicli kaşı mozaiklərində də bu qayda dəyişmir. Bununla yanaşı, relyefli kərpiclərin kaşı parçaları ilə birlikdə yaratdıqları kompozisiyaların da eyni prinsipi qoruduğu müşahidə olunur [8, s.146].

Gəncədə yerləşən həm "Yaşıl məscid", həm də İmamzadə türbəsi (XIII əsr) kimi tanınan binanın inşasında və dekorasiyasında adi bişmiş kərpicdən və firuzəyi, göy rəngli şirli kərpiclərdən istifadə edilmişdir [9, s.17].

Tədqiqatın nəticələri göstərir ki, Gəncə kərpicləri funksional baxımdan üç istiqamətdə inkişaf etmişdir: konstruktiv, dekorativ və hibrid (dekorativ-konstruktiv). Relyef xətlərin işıq–kölgə effekti yaratması, ornamentlərin qəlib və oyma texnikası ilə icrası, səthin məsaməliliyi və kərpicin formalaşdırılma üsulu şəhər memarlığında həm texniki stabilliyi, həm də bədii ifadəliliyi təmin etmişdir. Kaşı nümunələrinin firuzəyi, yaşıl və mavi rəng çalarları, nəbati və həndəsi motivləri Gəncə memarlıq məktəbinin Yaxın və Orta Şərq ənənələri ilə paralel inkişaf etdiyini, lakin öz lokal xüsusiyyətlərini qoruduğunu göstərir. Gəncə materiallarının Səmərqənd, Konya, Səlcuq və digər türk-islam mədəniyyət məkanlarının kaşı sənəti ilə texniki və estetik baxımdan yaxınlığı olsa da, ornament plastikasının daha sadə və funksional yönümlü olması ilə onlardan fərqlənir.

Tədqiqatın nəticələri sübut edir ki, Gəncə şəhərinin inşaat keramikası, yalnız yerli memarlığın konstruktiv bazasını formalaşdırmamış, həm də şəhərin estetik kimliyinin əsas daşıyıcılarından birinə çevrilmişdir. Şəhərdən əldə edilən kərpic və kaşı nümunələri Azərbaycan orta əsr memarlığının regional müxtəlifliyini, texnoloji inkişaf mərhələlərini və dekorativ sənət ənənələrinin zənginliyini əks etdirən mühüm arxeoloji və memarlıq mənbəyi kimi qiymətləndirilməlidir.

Ədəbiyyat siyahısı:

1. *Əfəndi R.S. Azərbaycan İncəsənəti. Bakı: ŞƏRQ-QƏRB, 2007, 262 s.*
2. *Qiyasi C.Ə.. Nizami dövrü memarlıq abidələri. - Bakı: İşıq, - 1991, - 258 s.*
3. *Məmmədzadə K.M. Azərbaycanda inşaat sənəti. Bakı: Elm, 1978, 207 s.*
4. *Dostiyev T., Iskanderova A. The Glazed Ceramics of Medieval Ganja (in the collection of the National Museum of History of Azerbaijan). Astana – Baku – Samarkand, 2024. – 496 p.*
5. *Jurayeva E., Karimova N. Colors in the Decorations of Architectural Monuments in Uzbekistan, Central asian journal of arts and design, 2023. Pp.12-16*

6. Mahmut A. Konyada Karatay medresesi rölöve ve mimarisi //Türk Arkeoloji Dergisi. – 1970. – No. 30. – pp. 5-28.
7. Mahmut A. Konya'da İnce Minareli Medresenin Rölöve ve Mimarisi //Türk Arkeoloji Dergisi. – 1970.
8. Ayduslu N. Anadolu'da tek örnek: rölyef tuğlalı çini mozaik (erzurum çifte minareli medrese), ekev akademi dergisi Yıl: 15 Sayı: 49, Güz 2011, s141-151
9. Историко-археологический очерк старой Ганджи (Родина Низами). Баку, 1949. С. 104.


1.


2.


3.


4.


5.


6.



7.




8.




9.

I Tablo.



1.



2.









4.

II Tablo.

“TÜRK DÖVRÜ” MADDİ-MƏDƏNİ İRSİNİN ARXEOLOJİ TƏDQİQİ PROBLEMİ

Orxan Zamanov
AMEA Arxeologiya və Antropologiya İnstitutu,
Elmi Ekspozisiyanın Təşkili Şöbəsi
Xəzər Universiteti, Humanitar, Sosial və Təhsil Elmləri Fakültəsi,
Tarix və Arxeologiya Departamenti
orkhanzamanov@anas.az; orkhan.zamanov@khazar.org
ORCID: 0000-0001-9367-6736;

Açar sözlər: Türk dövrü, Türk arxeologiyası, Türk maddi-mədəni irsi, qədim türk yazılı abidələri, arxeoloji irs
Keywords: Turkic period, Turkic archaeology, Turkic material cultural heritage, ancient Turkic written monuments, archaeological heritage

Giriş. “Türk dövrü” maddi-mədəni irsinin arxeoloji tədqiqi müxtəlif elmi sahələrin kəsişməsində yaranan müasir tədqiqat istiqamətidir. Bu anlayış, müxtəlif ölkələrdə “Türk dönemi”, «Turkic period, Turan devri, proto-Turkic archaeological

horizon və Тюркский период» kimi fərqli terminlərlə ifadə olunur. Terminoloji çoxluğun mövcudluğu təsadüfi deyil. Fərqli elmi məktəblər, ideoloji yanaşmalar və regional tarixşünaslıq ənənələri "Türk dövrü"nün başlanğıcı, inkişaf mərhələləri və coğrafi sərhədləri barədə fərqli fikirlər formalaşdırmışdır. Bununla belə, bu anlayışın mərkəzində VI–VIII əsrlər arasında mövcud olmuş I və II Göytürk xaqanlıqlarının tarixi və mədəni sistemi dayanır. Arxeoloji cəhətdən bu dövr atçılıqla bağlı dəfn adətləri, kurqanların tipologiyası, balbalların istifadəsi, Orxon-Yenisey yazılı abidələrinin yayılması, metal sənətinin inkişaf səviyyəsi, hərbi-siyasi strukturların maddi əks olunması kimi kompleks atributlarla xarakterizə olunur [4, 6, 7, 8, 9, 11, 16, 18, 19, 33].

Mövzunun elmi aktuallığı son illərdə türk dövlətləri arasında inteqrasiya proseslərinin güclənməsi, Türk Akademiyası, TÜRKSOY, TÜBA, AMEA və Qazaxıstan Milli Elmlər Akademiyası kimi qurumların türk irsinin araşdırılması və qorunması ilə bağlı proqramları ilə daha da artmışdır. Dünya miqyasında UNESCO tərəfindən türkdilli xalqların irsinə dair aparılan inventarlaşdırma və siyahılaşdırma işləri də "Türk dövrü" maddi-mədəni irsinin elmi baxımdan tədqiqini vacib edir. Problemin mahiyyəti isə bir sıra fundamental çətinliklərlə bağlıdır: müxtəlif ölkələrdə "Türk dövrü"nün xronoloji sərhədlərinin fərqli müəyyən edilməsi; mənbəşünaslıq materiallarının bərabər paylanmaması; arxeoloji məktəblərin metodoloji parçalanması; siyasi-ideoloji amillərin elmi şərh üzərində təsir imkanları; etnik komponentlərin arxeoloji materialda identifikasiyasının çətinliyi və s.

1. "Türk dövrü" anlayışının elmi tərifi və terminologiyası. "Türk dövrü" ifadəsi yalnız siyasi tarix kateqoriyası deyil, həm də kompleks arxeoloji-mədəni sistemdir. Arxeologiya, antropologiya, tarix, etnoqrafiya və dilçilik sahələrində bu anlayış fərqli semantik yüklərə malikdir. Arxeoloji yanaşmada "Türk dövrü" VI–VIII əsrlər Göytürk dövlətlərinin adı ilə bağlı siyasi-etnik mərkəzləşmə dövrünü ifadə edir və türkoloji mədəniyyət komplekslərinin yaranması ilə səciyyələnir. Antropologiyada bu termin monqoloid və Cənubi Sibir antropoloji tipinin komponenti, lakin regional variasiyalara malik polietnik populyasiyaların formalaşması ilə izah olunur. Tarixşünaslıqda "Türk dövrü" Orxon kitabələrində əksini tapan dövlətçilik modeli, siyasi fəaliyyətlər və Orta Asiya çöllərinin geosiyasi quruluşu ilə əlaqələndirilir. Etnoqrafiyada isə köçəri (nomadik) həyat tərzinin institusional strukturları, hərbi-sosial təşkilatlanma və mifik-ideoloji sistemlərin maddi ifadələri ön plana çıxır [4, 5, 6, 7, 8, 10, 14, 16, 18, 19, 20, 21, 26, 28, 29, 30, 31, 32, 33].

Terminologiyanın müxtəlifliyi həm coğrafi, həm də metodoloji fərqlərlə bağlıdır. Məsələn, Macarıstan elmi ədəbiyyatında "Turan devri" və "proto-Turkic horizon" terminləri daha çox yayılmışdır. Rusiya və Qazaxıstan tədqiqatlarında "Тюркский период" anlayışı kurqan mədəniyyətlərinin ardıcıl inkişaf xətti ilə əlaqələndirilir və Altay–Sibir regionu mərkəz götürülür. Türkiyə arxeologiyasında isə "Türk dönemi" daha geniş semantik yükə malik olub həm Göytürk, həm də sonrakı Uyğur və Qarluq mərhələlərini də əhatə edir. Bu müxtəliflik göstərir ki, "Türk dövrü" təkcə bir tarix mərhələsi deyil, həm də elmi məktəblər arasında fərqli in-

terpretasiyaların mövcud olduğu çoxlaylı bir anlayışdır. Müasir tədqiqatların və beynəlxalq əməkdaşlığın əsas məqsədi bu anlayışın vahid elmi-metodoloji çərçivədə daha dolğun izahını verməkdir [6, 7, 8, 9, 11, 14, 16, 18, 19, 20, 28, 29, 30, 33].

2. Türk maddi-mədəni irsinin arxeoloji markerləri. "Türk dövrü"nün arxeoloji tədqiqinin mərkəzində maddi-mədəni atributların identifikasiyası dayanır. Türk markerləri bir neçə əsas qrupa bölünür:

1. Kurqan tipologiyası və dəfn adətləri.
2. Atçılıq və hərb mədəniyyəti.
3. Balballar və daş heykəllər.
4. Runik yazılı abidələr.
5. Damğalar və simvolika.

Bu markerlərin arxeoloji tədqiqi türk etnosunun formalaşması, köç yolları və siyasi təşkilatlanma prosesləri haqqında geniş məlumat verir. Lakin bu atributların hamısının "türk etnik kimliyi" ilə birbaşa əlaqələndirilməsi metodoloji baxımdan ehtiyatlı yanaşma tələb edir [3, 4, 6, 7, 8, 10, 13, 15, 18, 23, 24, 25, 26, 28, 29, 30, 33, 34].

3. "Türk dövrü" arxeologiyasının xronoloji və mənbəşünaslıq problemləri. "Türk dövrü" arxeologiyasının əsas problemlərindən biri xronoloji sərhədlərin müxtəlifliyidir. Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstanda VI–VIII əsrlər "klassik türk dövrü" kimi qəbul olunsa da, Rusiya və Çin elmi məktəblərində bu sərhədlər daha geniş götürülür. Bəzi tədqiqatçılar "proto-türk" mərhələsini e.ə. II minilliyə qədər geri çəkirlər ki, bu da arxeoloji və dilçilik materiallarının fərqli interpretasiyasından qaynaqlanır [6, 7, 8, 9, 12, 13, 14, 16, 18, 19, 20, 21, 22, 26, 27, 28, 29].

Mənbəşünaslıq problemləri xüsusilə əhəmiyyətli yer tutur. Türk dövrünə aid yerli xarakterli yazılı mənbələr əsasən Orxon kitabələri (Orxon-Yenisey yazıları, Runik yazılar) ilə məhdudlaşır. Bu isə tədqiqatın böyük hissəsinin arxeoloji materiallara əsaslanmasını zəruri edir. Arxeoloji və antropoloji materialın regionlar üzrə qeyri-bərabər paylanması (Altay–Sibir zonasında daha zəngin, Cənubi Qafqazda isə məhdud olması) tədqiqat çətinlikləri yaradır [4, 5, 6, 8, 10, 15, 19, 28, 29, 30, 33].

Metodoloji parçalanma da ciddi problemdir: Avropa və Macarıstan məktəbləri türk mədəni komplekslərini daha geniş "bozqır arxeologiyası" (çöl/step arxeologiyası) kontekstində şərh edir. Rusiya məktəbi tipoloji-morfoloji yanaşmanı üstün tutur. Türkiyə və Azərbaycan tədqiqatlarında isə dövlətçilik, dil və etnik markerlərə daha çox önəm verilir. Bu müxtəliflik vahid konseptual çərçivənin formalaşdırılmasını çətinləşdirir [1, 2, 3, 4, 6, 7, 8, 9, 11, 14, 16, 22, 27, 31, 32].

Nəticə."Türk dövrü" maddi-mədəni irsinin arxeoloji tədqiqi fərqli elmi məktəblərin metodologiyalarını birləşdirən, geniş coğrafi məkanı və çoxlaylı mədəni sistemləri əhatə edən kompleks araşdırma sahəsidir. Məqalədə bu anlayışın elmi tərifi, türk markerlərinin identifikasiyası, xronoloji və metodoloji problemlər sistemləşdirilmiş şəkildə təqdim olundu. Müasir dövrdə türk dövlətləri arasında elmi əməkdaşlığın artması bu tədqiqat sahəsinin inkişafına yeni perspektivlər açır. Birgə arxeoloji layihələr, arxivlərin rəqəmsallaşdırılması, elmi məlumat mübadiləsi və

metodoloji standartların vahidləşdirilməsi gələcək tədqiqatlar üçün əsas istiqamətlər kimi qiymətləndirilə bilər [8, 11, 17, 18, 29, 33].

Ədəbiyyat siyahısı:

1. *Akurgal E. Die Kunst Anatoliens von Homer bis Alexander. Berlin: W. de Gruyter, 1961, 350 pp.*
2. *Akurgal, Ekrem. Ancient Civilizations and ruins of Turkey. Istanbul. Net. 2001. 367 pp.*
3. *Archaeology: The Whole Story. General ed. Paul Bahl. London, Thames and Hudson, 2017. 576 p.*
4. *Dostiyev T.M. Arxeologiya. Dərslik. Bakı, "Elm və təhsil", 2021. 396 s.*
5. *Əsədov F. Xəzərlər və Azərbaycan. Bakı, "Elm və təhsil", 2018. 240 s.*
6. *Golden, P. B. An Introduction to the History of the Turkic Peoples. Wiesbaden: Harrassowitz, 1992.*
7. *Juhász, P. From the Sea of the Steppe to the Island of the Carpathians. Doktora tezi, University of Szeged, 2019.*
8. *Konstantinov, N., & Soenov, V. History and culture of the early Türkic period: A review of archaeological monuments in the Russian Altai from the 4th–6th century AD. Archaeological Research in Asia, 16, 2018, s. 103–115.*
9. *Obrusanszky, B. The ancient steppe values and mindset. Türkbilig, 39, 2020, s. 107–119.*
10. *Orxon-Yenisey abidələri. Əbülfəz Rəcəbov və Yunis Məmmədov. Bakı, Yazıçı, 1993, 400 s.*
11. *Özdoğan, M. Türk Arkeolojisinin Sorunları ve Koruma Politikaları. İstanbul: Arkeoloji ve Sanat Yayınları, 2001.*
12. *Parfiya – Orta Dünyanın memarları. Əkbər N.Nəcəf və Rizvan Hüseynov. Bakı, Kosmo, 2022. 328 s.*
13. *Quliyev F.E. Azərbaycanın kurqan qəbirlərində at dəfni. Bakı: Elm, 2008. 300 s.*
14. *Qumilyov L.N. Qədim Türklər. Bakı, Gənclik, 1993. 536 s.*
15. *Qurbanov A. Damğalar, rəmzlər, mənimsəmələr. Bakı, 2013, 106 s.*
16. *Savelyev, A. Early nomads of the Eastern Steppe and their tentative connections to the world of the Huns and beyond. 2020.*
17. *Sevin V. Anadolu Arkeolojisi. Başlangiçtan Perslere kadar. İstanbul, DER, 2003, 308 y.*
18. *Spengler, R. N., Ventresca Miller, A., Schmaus, T., Motuzaite Matuzeviciute, G., Miller, B. K., Wilkin, S., Taylor, W. T. T., Li, Y., Roberts, P., & Boivin, N. An Imagined Past? Nomadic Narratives in Central Asian Archaeology. Current Anthropology, 62(3), 2021, 251–283.*
19. *Stark, S. Archaeological Traces of Early Turks in Transoxiana. In: C. Baumer & M. Miyajima (eds.), Central Asia in Antiquity, 2008.*
20. *Tishkin, A. A., & Seregin, N. N. Turkic enclosures of the Mongolian Altai. In: Acta Archaeologica Academiae Scientiarum Hungaricae, 2022.*
21. *Zamanov O.A. Müharibə, onun mənşəyi və öyrənilməsi (tarixşünaslıq və mənbəşünaslıq). //Azərbaycan Arxeologiyası, Cild 20. N1, 2017. Səh. 17-40*
22. *Ахундова Н.Ч., Гусейн-заде Р.А. Кавказ и великие тюркские империи. Баку, 2012. 294 с.*
23. *Военное дело древнего населения Северной Азии. /отв.редакторы В.Е. Медведев и Ю.С. Худяков. Новосибирск, Наука, 1987, 222 с.*
24. *Военное дело древнего населения юга Сибири и Дальнего Востока./отв.редакторы В.Е. Медведев и Ю.С. Худяков. Новосибирск, Наука, 1993, 233 с.*
25. *Военное дело древних племен Сибири и Централной Азии./отв.ред. Ю.С. Худяков. Новосибирск, Наука, 1981, 198 с.*
26. *Гасанов З.Г. Социально-культурные ценности скифов: древних ашгузов/ ишгузов/ гузов – Астана: ТОО «Prosper Print», 2013, 392 с.*
27. *Гусейн-заде Р.А. Сельджукская эпоха истории Кавказа. Москва, Kremlin Multimedia, 2012, 186 с.*

28. Гусейн-заде Р.А. Тюрки Дешт-и-Кипчака и Окружающий мир. Симбиоз кочевой степи и оседлого оазиса. Баку, 2019. 248 с.
29. Мартынов А.И. Археология. Учеб. для бакалавров. 7-е изд. Москва, Юрайт, 2012. 460 с.
30. Мартынов А.И. Археология: Учебник. 5-е изд., перераб. Москва: Высш.шк., 2005, 447 с.
31. Нефедов С. А. Факторный анализ исторического процесса. История Востока. Москва: Изд. дом «Территория будущего», 2008, 752 с.
32. Нефедов С.А. Факторный анализ исторического процесса. Исторический опыт традиционных обществ Востока. Москва, Академический проект, 2019, 675 с.
33. Тюркское наследие Евразии VI-VIII вв./Науч.ред. А.Досымбаева. Алматы: 2012. 228 с.
34. Худяков Ю.С. Вооружение кочевников Южной Сибири и Централной Азии в эпоху развитого средневековья. Новосибирск, Изд-во ИАЭ СО РАН, 1997, 160 с.

SON TUNC – ERKƏN DƏMİR DÖVRÜNDƏ DƏFN ADƏTLƏRİ VƏ SOSİAL STRUKTUR: AZƏRBAYCAN VƏ ANADOLU ARASINDA MÜQAYİSƏLİ ANTROPOLOJİ TƏHLİL

Ülkər Allahverdiyeva
Azərbaycan Milli Elmlər Akademiyası, Ankara Universiteti
Antropologiya ixtisası üzrə doktorant
Ulkar.Allahverdiyeva@Arxeologiya.Az

Açar sözlər: *Son Tunc-Erkən Dəmir dövrü, dəfn adətləri, Azərbaycan və Anadolu, sosial strukturlar, mədəni qarşılıqlı təsir*
Keywords: *Late Bronze – Early Iron Age, burial practices, Azerbaijan and Anatolia, social structures, cultural interactions*

Son Tunc-Erkən Dəmir dövrü Cənubi Qafqaz və Anadolunun arxeoloji mənzərəsində dərin sosial-iqtisadi və ideoloji dəyişikliklərin meydana gəldiyi bir mərhələ kimi xarakterizə olunur. Bu dövrdə ictimai münasibətlərin mürəkkəbləşməsi, iqtisadi istehsalın yeni formalarının yaranması və siyasi güc strukturlarının formalaşması öz əksini maddi mədəniyyətin bütün sahələrində, xüsusilə də dəfn adətlərində tapmışdır. Dəfn ənənələri yalnız ölüm anlayışının simvolik təzahürü deyil, eyni zamanda toplumların sosial strukturu, iqtisadi rolları, identiklik formaları və mədəni əlaqələri haqqında mühüm məlumat mənbəyidir. Buna görə də dəfn praktikalarının təhlili antropologiya və arxeologiyanın kəsişdiyi ən məhsuldar tədqiqat istiqamətlərindən biri hesab olunur.

Azərbaycan və Anadolu regionları Son Tunc-Erkən Dəmir dövründə həm lokal mədəni inkişafların, həm də geniş miqyaslı mədəni qarşılıqlı təsirlərin müşahidə olunduğu ərazilərdir. Coğrafi mövqelər, ticarət yolları və erkən siyasi qurumların formalaşması bu iki region arasında bir sıra paralellərin yaranmasına şərait yaratmışdır. Bu paralellər xüsusilə dəfn adətlərinin arxitekturasında, hədiyyə kompleksində, rituallarla bağlı davranış modellərində və ölüyə münasibətin ideoloji çərçivəsində özünü göstərir. Hər iki bölgədə küp qəbirdə dəfn ənənəsinin yayılması, kurqan tipli strukturların mövcudluğu, hədiyyələrin sosial status göstəricisi kimi

istifadə olunması və yaş-cins qruplarına görə dəfn fərqlilikləri eyni mədəni proseslərin izlərini əks etdirir. Tədqiqat Azərbaycan arxeologiyası üzrə klassik və müasir nəşrlərə (Mingeçevir, Zəyəmçay, Üzərliktəpə, Kükü, Qarabulaq, Plovdağ, Şahtaxtı və s. materialları) [3; 7; 11], eləcə də Anadolu arxeologiyası üzrə Troya, Panaztepe, Beşiktepe, Milet və digər nekropollarda aparılmış tədqiqatlara əsaslanır [8; 19; 9].

Bu tədqiqatın məqsədi Son Tunc-Erkən Dəmir dövründə Azərbaycan və Anadolu ərazilərində dəfn adətlərinin antropoloji baxımdan müqayisəli təhlilini aparmaq, bu ənənələrin sosial struktur daxilində oynadığı rolu müəyyənləşdirmək və mədəni paralellərin mahiyyətini aydınlaşdırmaqdır. Qəbir arxitekturası, dəfn formaları və hədiyyə komplekslərinin müqayisəsi əsasında həm lokal xüsusiyyətlər, həm də bölgələrarası qarşılıqlı təsirlərin xarakteri dəyərləndirilir. Tədqiqat arxeoloji kontekstlərin antropoloji interpretasiyası üzərində qurulduğundan, diqqət əsasən sosial və simvolik aspektlərin izahına yönəlir. Bu yanaşma çərçivəsində dəfn adətləri yalnız maddi kompleks kimi deyil, həm də cəmiyyətin dünyagörüşünü, sosial iyerarxiyasını, qrup identikliyini və kollektiv yaddaşı formalaşdıran mədəni mexanizm kimi qiymətləndirilir. Azərbaycan və Anadolu materiallarının müqayisəli təhlili həmin dövrün mədəni dinamikasını daha geniş regional kontekstdə anlamağa imkan verir və bu toplumların sosial strukturu barədə yeni antropoloji nəticələrin əldə edilməsinə şərait yaradır. Bu yanaşma, yalnız məzarların maddi komponentlərinin deyil, həmin komponentləri yaradan cəmiyyətlərin sosial quruluşunun, simvolik dünyagörüşünün və kollektiv xarakteristikasının araşdırılmasını nəzərdə tutur. Bu səbəbdən də Son Tunc-Erkən Dəmir dövrü üçün dəfn praktikasının tədqiqi bir neçə nəzəri istiqamətin inteqrasiyasını tələb edir.

Son Tunc-Erkən Dəmir dövrünün dəfn adətlərini izah etmək üçün ən funksional metodoloji çərçivə ritual antropologiyasının klassik nəzəriyyələrinə əsaslanır. Bu kontekstdə nəzərə çarpan bir neçə analitik istiqamətə nəzər salsaq ilk qarşımıza çıxan Van Gennep-in keçid mərasimləri nəzəriyyəsidir. Bu nəzəriyyəyə görə, ölüm yalnız bioloji proses deyil, həm də sosial keçiddir. Belə ki bu nəzəriyyədə təsvir edilən ayrılma, liminal və yenidən birləşmə mərhələləri Son Tunc-Erkən Dəmir dövrü dəfn komplekslərində öz əksini tapır. Cəsədin hazırlanması, hədiyyələrin seçimi və basdırmanın tamamlanması mərhələləri keçidin strukturlaşdırılmış ardıcıllığını göstərir. Bu isə ölən şəxs üçün bir növ yeni sosial statusun formalaşması ilə nəticələnir [21].

Hertz isə ölümün cəmiyyətdə yaratdığı təsiri kollektiv böhran kimi açıqlayır. Bu fikrə görə, dəfn mərasimləri cəmiyyətin öz normativ sistemini yenidən bərpa etməsi üçün həyata keçirilən sosial təkrarqurma aktıdır. Bu yanaşma Son Tunc-Erkən Dəmir dövründə geniş yayılmış kollektiv ritual davranışları — məsələn, kurqanların monumental xarakterini, heyvanların qurban edilməsi və differensial hədiyyə seçimini izah etməyə imkan verir. Nəzəriyyəyə görə, bu praktikalar ölən fərdin sosial yaddaşda yerləşdirilməsi qədər, icmanın öz daxilində nizamın bərpasına da xidmət edir [10].

Victor Turner-in liminallıq modeli isə bu prosesi daha da dinamik şəkildə şərh edir. Turner liminal mərhələni strukturdan kənar olan aralıq vəziyyət kimi izah edir; bu vəziyyətdə fərd nə əvvəlki statusunu saxlayır, nə də yeni statusa tam daxil olur. Bu hal Son Tunc-Erkən Dəmir dövründə, xüsusilə də dəfn formalarında, müəyyən fərdlərin xüsusi inventarla təmin olunmasında və ritual təkrarlanmaların çoxpilləli xarakterində özünü göstərir. Turner-in fikrincə, dəfn mərasimləri icma daxilində müvəqqəti, lakin güclü sosial yaxınlaşma yaradır, kollektiv identikliyi möhkəmləndirir. Kurqan və ya daş qutu qəbir tikintisinin kollektiv əmək tələb etməsi və bunun icma səviyyəsində həyata keçirilməsi də məhz icmadaxili münasibətin arxeoloji əksi hesab oluna bilər. Həmçinin, dəfn kontekstində istifadə olunan əşyalar, xüsusi məkan seçilməsi və bu kimi davranış formaları da sosial kimliklərin və kollektiv təcrübələrin səhnələşdirilmiş ifadəsi rolunu oynayır. Turner-in yanaşmasına görə, ritual zamanı istifadə olunan əşyalar nəinki sosial reallığı təsvir edir, həm də onu aktiv şəkildə yaradır və təkrarlayır. Bu, dəfn mərasimini performativ fəaliyyət kimi anlamağa imkan verir [18].

Bu nəzəri çərçivələr Azərbaycan və Anadolu arxeoloji materialına tətbiq edildikdə, bir sıra simvolik paradiqmalar daha aydın görünür. Məsələn, heyvan qurbanı (xüsusilə qoyun, keçi və at) yalnız qida və ya təsadüfi müşayiət elementi deyil, qurban simvolizminin, müqəddəsləşdirmə və keçid rituallarının ayrılmaz hissəsidir. Həmçinin, küp qəbirlərdəki yenidən doğuluş simvolizmi, qapalı məkanın qoruyucu ana bətnini təmsil etməsi ilə əlaqələndirilə bilər; bu isə ölünün ikinci həyat üçün metaforik şəkildə hazırlanması mənasına gəlir. Silah hədiyyələrinin müəyyən fərdlərin məzarlarında üstünlük təşkil etməsi isə həm sosial statusun, həm də genderlə bağlı rolların simvolik kodlanmasına işarə edir; başqa sözlə, bunlar fərdin liminal mərhələdən keçidinin ictimai səviyyədə tanınmasını təmin edən dominant simvollardır.

Beləliklə, bütün bu simvolik-antropoloji yanaşmalar Son Tunc-Erkən Dəmir dövrü Azərbaycan və Anadolu cəmiyyətlərində dəfn praktikasının yalnız arxeoloji material baxımından deyil, həm də mədəni aspektdə başa düşülməsinə imkan yaradır. Nəticədə, dəfn mərasimləri və maddi obyektlərin simvolik şərhi bu dövrdə cəmiyyətlərin ideoloji dünyagörüşünü kodlayan, sosial strukturu bərpa edən və kollektiv yaddaşı formalaşdıran ən mühüm rituallardan biri kimi ortaya çıxır. Həmçinin, bu nəzəri bazalar Son Tunc-Erkən Dəmir dövründə Cənubi Qafqaz və Anadolunun qarşılıqlı təsir zonası olduğunu, mədəni proseslərin təkcə lokal deyil, həm də geniş regional dinamikaya söykəndiyini göstərir.

Müqayisəli təhlil və mədəni paralellərə nəzər saldıqda isə Son Tunc-Erkən Dəmir dövrü Azərbaycan və Anadolu regionlarında sosial-iqtisadi və ideoloji baxımdan dərin dəyişikliklərlə səciyyələnir. Dəfn formalarının və hədiyyə komplekslərinin müqayisəli təhlili göstərir ki, hər iki regionda e.ə. II minilliyin sonlarından başlayaraq oxşar sosial modellər və rituallarla ifadə olunan mədəni paralellər meydana çıxmışdır. Bunu daha aydın görmək üçün məzar tipləri və konstruktiv xüsusiyyətləri dəyərləndirsək, Azərbaycan ərazisində kurqan tipli qəbirlərin bu dövrdə

əsas dəfn formalarından biri olduğunu görmüş olarıq. Bu tip qəbirlərdə daş konstruksiya, örtük qatları və bəzən də toplu dəfn halları da müşahidə olunur. Bu da ailə və ya qrup əsaslı sosial quruluşun izlərini əks etdirir [4; 7; 2; 12]. Kurqanların yayılması sosial iyerarxiyanın formalaşmaqda olduğunu göstərməklə yanaşı, həmçinin, kollektiv yaddaşın mədəni simvolu olaraq da özünü göstərir. Anadoluda isə kurqan ənənəsi e.ə. II minilliyin ortalarından etibarən müşahidə edilir [6; 20]. Bu fakt iki region arasında ideoloji və mədəni qarşılıqlı təsirin varlığını göstərən mühüm əlamətlərdən hesab oluna bilər. Bundan başqa, bu dövrdə Anadoluda, xüsusi ilə də Troya, Panaztepe və Beşiktepe kimi abidələrdə küp qəbirlər üstünlük təşkil etmişdir. Bu dəfnlərin, əsasən, uşaqlar, bəzən isə böyüklər üçün istifadə olunduğu müşahidə olunur [15; 9]. Dəfn formalarına daha detallı baxdıqda isə hər iki bölgədə həm bükülü (hoker), həm də dorsal vəziyyətdə dəfn formaları müşahidə edildiyini görərik. Uşaq dəfnlərinin isə əksəriyyət etibarı ilə yetişkin fərdlə birlikdə olması, müəyyən mənada, fərdin sosial statusunun tam formalaşmadığını simvolik şəkildə ifadə edə bilər. Bununla yanaşı, həm Azərbaycanda, həm də Anadoluda, tək, cüt və toplu dəfn formalarının eyni dövrdə mövcudluğu da sosial dinamikanın və ritual variasiyaların göstəricisidir. Bundan başqa, Anadolu regionunda kremasiya praktikası daha geniş yayılmışdır. Urne tipli dəfnlər və yandırılma mərasimləri ölümün təmizlənmə və keçid mərhələləri kimi qəbul edildiyini göstərir.

Sosial struktur və bunun məzar hədiyyələrində əksi məsələsinə gəldikdə, Son Tunc dövründə hər iki regionda sosial bərabərsizliyin dərinləşdiyi müşahidə olunur. Azərbaycan kurqanlarında silah, bəzək əşyalarının və heyvan qurbanlarının bolluğu, Anadoludakı otaq və küp qəbirlərdə isə zəngin metal və keramika hədiyyələrinə rast gəlinməsi, eyni sosial prosesin fərqli formalarını təmsil edir. Bəzi məzarlarda çoxsaylı və qiymətli hədiyyələrin mövcudluğu, digərlərində isə hədiyyələrin ya çox az ya da heç olmaması sosial iyerarxiyanın formalaşdığını da sübut edir. Qəbir əşyaları olaraq, keramik qablar, tunc silahlar, bəzək əşyaları həm Azərbaycanda, həm də Anadoluda əsas dəfn hədiyyələri qrupuna daxildir. Hədiyyələrin funksional və simvolik fərqləri bu regionlarda sosial rol bölgüsünü əks etdirir: silah və metal məmulatlar kişi identikliyini, məişət, təsərrüfat vasitələri və bəzək əşyaları isə qadın sosial funksiyalarını təmsil edir. Hər iki bölgədə heyvan qurbanlarına da (xüsusilə at və iri buynuzlu mal-qara) rast gəlinməsi ideoloji inancın və iqtisadi gücün simvolik ifadəsidir. Bununla yanaşı, regional fərqliliklər də mövcuddur ki, bu da Azərbaycanda geniş yayılmış dəfn növü olan kurqanların kollektiv xarakteri ilə Anadolu küp dəfnlərinin sosial fərdi xarakteri təşkilatlanma modellərindəki mədəni fərqləri əks etdirir. Bu fərqlər, eyni mədəni çevrədə belə, ideoloji və sosial təcrübələrin müxtəlif inkişaf yollarını göstərir.

Nəticədə, Azərbaycan və Anadolu regionlarında Son Tunc-Erkən Dəmir dövrünə aid dəfn adətlərinin müqayisəsi nəticəsində aydın olur ki, bu dövrdə mədəni əlaqələr intensiv olmuş, lakin hər iki region özünəməxsus sosial və ideoloji xüsusiyyətlərini qoruyub saxlamışdır. Kurqan ənənəsinin Azərbaycan ərazisində geniş, Anadoluda isə məhdud olması [7; 8]; əksinə, kremasiya və pithos dəfnlərinin Ana-

doluda tez-tez, Azərbaycanda zəif müşahidə olunması [6; 17] regional olaraq lokal mədəni elementlərin mövcudluğunu göstərir. Lakin bu fərqlər yalnız coğrafi deyil, həm də sosial struktur ayrımını əks etdirir. Hər iki regionda hədiyyə bolluğunun sosial statusla əlaqələndirilməsi [11; 19], ritual heyvan qurbanlarının ideoloji məna daşıması [14; 2] və məzar arxitekturasının təbəqələşməni simvolizə etməsi [5] cəmiyyətlərin inkişaf mərhələsini anlamaq üçün mühüm göstəricilərdir. Bu xüsusiyyətlər həm Azərbaycan, həm də Anadolu toplumlarında sosial iyerarxiyanın möhkəmləndiyini və ölüm rituallarının bu strukturun təsdiqlənməsi üçün istifadə edildiyini göstərir.

Regionlararası paralellər həm də maddi mədəniyyət səviyyəsində müşahidə edilir. Belə ki, keramika formalarının, bəzək əşyalarının və metal işləmə ənənələrinin iki bölgədə oxşar inkişaf trayektoriyası nümayiş etdirməsi, ticarət əlaqələrinin və mədəni ötürülmənin əhəmiyyətini ortaya qoyur. Lakin paralellərlə yanaşı mühüm lokal fərqlərin də mövcudluğu - məsələn, Azərbaycanda kollektiv kurqan dəfnlərinin, Anadoluda isə fərdi pithos dəfnlərinin üstünlük təşkil etməsi [13; 16] - bu dövr toplumlarının sosial təşkilatlanmasının eyni mədəni çevrədə olsa belə fərqli istiqamətlərdə inkişaf etdiyini göstərir. Antropoloji çərçivədən yanaşdıqda, dəfn adətlərinin ritual, simvolik və struktur funksiyaları bu dövr cəmiyyətlərinin öz daxilindəki dəyərlər sistemini, kollektiv yaddaşını və dünyagörüşünü aydınlaşdırır. Van Gennep-in keçid mərasimləri modeli, Hertz-in ölümün sosial təbiəti ilə bağlı klassik izahı və Turner-in liminallıq-simvolizm yanaşması Son Tunc-Erkən Dəmir dövrü dəfn komplekslərində görünən davranışların ideoloji əsaslarını açıqlamağa imkan verir. Bu nəzəri çərçivələr arxeoloji materialla birlikdə tətbiq edildikdə, həmin dövrdə ölüyə münasibətin həm sosial nizamın qorunması, həm də kollektiv kimliyin yenidən istehsalı üçün mühüm vasitə olduğu aydın görünür. Beləliklə, dəfn adətlərinin antropoloji təhlili Azərbaycan və Anadolu cəmiyyətlərinin e.ə. II minillikdə sosial təşkilatlanmasının səviyyəsini, mədəni qarşılıqlı təsirin dərəcəsini və ölüm anlayışına verilən ideoloji məzmunu bərpa etməyə imkan verir. Bu tədqiqat göstərir ki, Azərbaycan və Anadolu cəmiyyətlərinin sosial təşkilatlanmasının səviyyəsi, mədəni qarşılıqlı təsirin dərəcəsi və ölüm anlayışına verilən ideoloji məzmun hər iki regionda geniş mədəni dünyaya inteqrasiya olunmuş olsa da, dəfn rituallarını vasitəsilə öz lokal identikliklərini qorumağa davam etmişdir; məhz bu baxımdan dəfn ənənələri həmin dövrün ən əhəmiyyətli və etibarlı sosial-tarixi göstəricilərindən biri kimi çıxış edir.

Ədəbiyyat siyahısı:

1. *Abibullayev, O. A. Materialı Şahtahtinskogo Pogrebeniya. İzvestiya AN Azerbaydzhanskoy SSR, №5, 1961, s.27–36.*
2. *Abibullayev, O. A. Eneolit i Bronza na Territorii Naxiçevanskoy ASSR. Bakı: Elm nəşrləri, 1982.*
3. *Ağayev, Q. H. Şahtaxtının dörd tunc dövrü qəbir abidəsi haqqında. Arxeologiya və Etnoqrafiya Elmlərinin Son Nəticələrinə Həsr Olunmuş Elmi Konfransın Materialları, Bakı: Elm, 1992, s.98–101.*
4. *Axundov, D. A. Arhitektura Drevnego i Rannesrednevekovogo Azerbaydjana. Bakı: Azərnəşr, 1986.*
5. *Akurgal, E. Anadolu Kültür Tarihi. İstanbul: TÜBİTAK Yayınları, 2002.*
6. *Akyurt, M. İ. M.Ö. 2. Binde Anadolu'da Ölü Gömme Adetleri. Ankara: Türk Tarih Kurumu, 1998.*

7. Baxşəliyev, V. Azərbaycan Arxeologiyası. I cild. Bakı: Elm nəşrləri, 2006.
8. Becks, R. Troia Son Tunç Çağı. Arkeo Atlas Yaşayan Geçmişin Dergisi, 2004.
9. Erkanal, A., Erkanal, H. A New Archaeological Excavation in Western Anatolia. TR, 1, 1986, s.67–76.
10. Hertz, R. Death and the Right Hand. London: Cohen & West, 1960.
11. İbrahimov, B. İ. Plovdağ 1 nekropolu dəfn adətinin bəzi xüsusiyyətləri haqqında. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, 155–157, Bakı: Nafta-Press, 2005.
12. İbrahimov, B. İ. Plovdağ 2 nekropolu. KST 2003–2004, Bakı: Elm nəşrləri, 31–32, 2005.
13. Museyibli, N. A. Zəyəmçay nekropolunun qəbir abidələri. Azərbaycan Arxeologiyası, 2, 2009, s.45–47.
14. Ökse, T. Eski Çağdan Günümüze Ölü Gömme ve Anma Gelenekleri. Türk Arkeoloji ve Etnografya Dergisi, 5, 2005.
15. Özgüç, T. Ön Tarihte Anadolu'da Ölü Gömme Adetleri. Ankara: Türk Tarih Kurumu Basımevi, 1948.
16. Seeher, J. Tarih Öncesi Çağlarda Ölüm ve Gömü. Arkeoloji ve Sanat Dergisi, 59, 1993.
17. Seyidov, M. M. Naxçıvan ərazisində Son Tunc və Erkən Dəmir Dövrü mədəniyyəti. Bakı: Bakı Universiteti nəşrləri, 2012.
18. Turner, V. The Forest of Symbols: Aspects of Ndembu Ritual. Ithaca: Cornell University Press, 1967.
19. Ünlüoğlu, B. The Middle and Late Bronze Age. Arkeo Atlas Yaşayan Geçmişin Dergisi, 3, 2004, s.157.
20. Üstüner, A. C. Tunç Çağında Anadolu'da bir Aydınlık. Türk Dünyası Tarih Kültür Dergisi, Ağustos 2003, 3–4.
21. Van Gennep, A. The Rites of Passage. Chicago: University of Chicago Press, 1960.

GORANBOYUN GÖL YERİ QƏDİM YAŞAYIŞ YERİ

Müzəffər Hüseynov
AMEA Arxeologiya və Antropologiya İnstitutu "Orta və Son Tunc dövrü arxeologiyası" şöbəsinin müdiri, t.ü.f.d. dosent.
muzaffarhuseynov@yahoo.com

Açar sözlər: *Göl Yeri, arxeologiya, Eneolit, İlk Tunc dövrü, yaşayış yeri, Goranboy, Tatarlı.*
Keywords: *Gel Yeri, archaeology, Eneolithic, Early Bronze Age, settlement, Goranboy, Tatarlı.*

Giriş. Azərbaycan ərazisi bütün tarixi mərhələlərə aid zəngin arxeoloji irsi ilə seçilir. Respublika ərazisində müxtəlif dövrləri əhatə edən çoxsaylı yaşayış yerləri, qəbir abidələri və maddi mədəniyyət nümunələri qeydə alınmışdır. Bu baxımdan Azərbaycanın arxeoloji baxımdan ən zəngin bölgələrindən biri də Goranboy rayonudur. Bölgədə aparılmış arxeoloji tədqiqatlar nəticəsində müxtəlif xronoloji mərhələlərə aid bir sıra mühüm abidələr aşkar edilmişdir. Həmin abidələrdən biri də Tatarlı kəndi yaxınlığında yerləşən Göl Yeri Eneolit və İlk Tunc dövrlərinə aid qədim yaşayış yeridir. Abidə ümumilikdə təxminən 2,5 hektar sahəni əhatə edir [10, s. 70]. Oval formalı və cənub-şərq istiqamətində maili relyefə malik olan yaşayış yerinin şimal-qərb hissəsi nisbətən yüksək olub 7–8 metrədək qalxır. Abidənin mü-

əyyən dərəcədə zədələnməsinə baxmayaraq, ümumi sahəsi əsasən qorunub saxlanılmışdır.

Göl Yeri yaşayış yeri 2009-cu ildə Müzəffər Hüseynov tərəfindən aşkar edilmiş, sonrakı illərdə aparılmış sistemli arxeoloji qazıntılar nəticəsində 950 m² sahədə tədqiqat işləri həyata keçirilmişdir (Tablo 1.1). Qazıntılar zamanı yaşayış yerinin səthindən və mədəni təbəqələrindən Eneolit və İlk Tunc dövrlərinə aid zəngin maddi mədəniyyət nümunələri – müxtəlif tipli saxsı qablar, daş alətlər, obsidian və çaxmaqdaşından hazırlanmış məmulat, oraq dişləri, əmək alətləri və digər artefaktlar əldə olunmuşdur. Bundan əlavə, çoxsaylı təsərrüfat quyuları, ocaq yerləri və Eneolit dövrünə aid yarımqazma tipli yaşayış tikililəri aşkar edilmişdir. Göl Yeri abidəsinin sistemli şəkildə tədqiqi Cənubi Qafqazda Eneolit və İlk Tunc dövrü mədəniyyətlərinin sosial-iqtisadi strukturu, təsərrüfat sistemi və maddi mədəniyyət xüsusiyyətlərinin öyrənilməsi baxımından xüsusi elmi əhəmiyyətə malikdir.

Təsərrüfat quyuları və ocaq yerləri. Göl Yeri yaşayış yerində aparılan qazıntılar zamanı 50-dən artıq təsərrüfat quyusu qeydə alınmışdır (Plan-1). Quyular yaşayış yerinin demək olar ki, bütün sahələrində aşkar edilmiş və əsasən 50–70 sm dərinlikdən başlayaraq mədəni təbəqədə üzə çıxmışdır. Onlar forma baxımından müxtəlifdir: əksəriyyəti dairəvi, bir qismi isə oval formalıdır. Quyuların dərinliyi 50–120 sm, diametrləri 1,50–2,20 m arasında dəyişir. Bəzi təsərrüfat quyuları iki və ya üç hissədən ibarət olub, içəridən pilləli formada hazırlanmışdır. Belə hallarda quyunun bir hissəsi digərindən daha dərin olur ki, bu da onların müxtəlif təyinatlı istifadə edildiyini göstərir. Quyuların daxili kül qarışıq torpaqla dolmuşdur və bu laydan keramika fraqmentləri, daş və obsidian alətlər, çaxmaqdaşından hazırlanmış məmulatlar, həmçinin osteoloji materiallar aşkar edilmişdir. Bəzi quyulardan bütöv saxsı qablar əldə olunmuşdur [10, s. 70-71].

Yaşayış yerinin digər mühüm kompleksi ocaq yerləridir. Ocaqlar dairəvi və ya oval formalı olub, diametrləri 90 sm-dən 1,50 m-ə qədər dəyişir. Onların içindən 15–30 sm qalınlığında kül layı təmizlənmişdir. Kül qatından müxtəlif saxsı fraqmentləri, çay daşları, yanmış və yanmamış heyvan sümükləri və digər materiallar tapılmışdır. Ocaq strukturu Göl Yeri əhalisinin qida bişirmə, təsərrüfat fəaliyyəti və ritual xarakterli mərasimlər zamanı bu ocaqlardan istifadə etdiyini göstərir.

Eneolit dövrünə aid yarımqazma evlərdə də ocaq yerləri müəyyən edilmişdir. Bu ocaqların ətrafında yanğın izləri, yanmış gil parçaları və kül qatları qeydə alınmışdır ki, bu da həmin yaşayış sahələrinin uzunmüddətli istifadə olunduğunu göstərir.

Yaşayış yerinin qərbində qeydə alınmış və üçquyu tipli xüsusi quruluşu ilə seçilən sahənin ritual xarakterli olduğu ehtimal edilir. Dairəvi formada olan quyunun şimal hissəsində əhəngdaşından yonulmuş başdaşı aşkar edilmişdir. Qarşı tərəfdə isə iri çay daşından yonulmuş, yəhər formalı daş yerləşdirilmişdir. Bu kombinasiyanın dini-ritual tədbirlərlə bağlı olduğu ehtimal olunur.

Nəticə etibarilə, Göl Yeri yaşayış yerində aşkar edilmiş təsərrüfat quyuları və ocaq kompleksləri Eneolit və İlk Tunc dövrü əhalisinin həm gündəlik, həm də ritual fəaliyyətlərini əks etdirir.

Keramika. Göl Yeri yaşayış yerindən aşkar edilmiş keramika materialları Eneolit və İlk Tunc dövrlərinə aid olub, texniki xüsusiyyətləri və formal müxtəlifliyi ilə həmin dövrlərin dulusçuluq ənənələrini əks etdirir.

Eneolit dövrünə aid keramika. Bu dövrə aid qablar bitki qarışıq gil kütləsindən hazırlanmış, əsasən saxsısı qonur və boz rənglidir. Qabların bir qismində buynuzvari və qulaqcıq formalı çıxıntılar müşahidə edilir. Yarımqazmadan aşkar edilmiş qazan tipli qablar geniş ağızlı, düz oturacaqlı və xaricə meyilli ağız kənarına malikdir (Tablo 1.4). Dairəvi qulplar Eneolit dövrü üçün nadir olmaqla, Göl Yerinin elmi əhəmiyyətini artırır.

İlk Tunc dövrünə aid keramika. İlk Tunc dövründə saxsı kompleksi daha zəngindir. Boz, qara, qırmızımtıl və qonur rəngli iri küplər, küpələr, tavalar, xeyrələr və kasalar geniş yayılmışdır. Bir çox qablar yaxşı bişirilmiş, bəzilərinin səthi anqoblanmış və cilalanmışdır.

Küpələr 3 qrupa bölünür:

1. Dar boğazlı küpələr
2. Geniş ağızlı, şar gövdəli küpələr
3. Bikonik gövdəli küpələr

Küpələrdə yarımşar formalı qulplar geniş yayılmışdır (Tablo 1.5-6). Bəzi nümunələr üç qulplu olub, xüsusi təyinatlı qab kimi qiymətləndirilir.

Tavalar uzunmüddətli od təsiri ilə yaxşı bişmiş, bəzilərinin üzərində his təbəqəsi qalmışdır .

Bu tip keramika nümunələrinə Azərbaycanın digər abidələrində də təsadüf edilmişdir. Dübəndi, Üçtəpə kurqanından, Əliköməktəpə, Leylatəpə, Polutəpə, Alxantəpə, Göytəpə [15, s.149]. yaşayış yerlərindən tavaların müxtəlif formalarına rast gəlmək mümkündür.

Kasalar nazik divarlı olub qulpsuzdur. Onların analoqları Şərqi Anadolunun Hacınebi və Arslantəpə abidələrində geniş yayılmışdır. Göl yeri yaşayış yerindən aşkar edilmiş kasaların yaxın analogiyasına Şərqi Anadolunun həmdövr abidələrində görə bilərik. Hacınebi [23, s.126], Arslantəpə [24, s. 439-471], abidələrində bu tip saxsı məmulatı çoxluq təşkil edir.

Miniatür qablar (3,5–4,5 sm) fincan və kiçik küpə tipində olub ritual və ya uşaq oyuncağı funksiyası daşımış ola bilər (Tablo 2.1).

Süzgəc tipli qablar əl ilə hazırlanmış, gövdələrində nizamsız deşiklər açılmışdır. Bu tip qablar Çayönü, Aruxlu, Maştots-Blur kimi abidələrlə paralellər təşkil edir.

Oxşar saxsı nümunələrinə Aruxludan, Ararat vadisində olan abidələrdə də-Terteri-Dzor, Maştots-Blur abidəsi keramikalarında [21, s. 126] rast gəlinir.

Anadolunun Çayönü abidəsində tapılan keramika içərisində də, süzgəc tipli qablara rast gəlinmişdir [25, s. 87-103].

Qapaqlar (qalınlığı 1,4–2,6 sm) yanmaya məruz qalmış və mərkəzində yarımşar qulpa sahibdir.

Diskşəkilli gil əşyalar toxuculuq və ipburma işlərində istifadə edilmiş ola bilər (Tablo 2.3).

Naxışlama: Eneolit dövrü qablarında daraqvari alətin izləri geniş yayılmışdır. Daraqvari alətlə işləmələr Naxçıvanın I kültəpə, Xələc, Sədərək [5, s. 182] yaşayış yerlərində də müşahidə olunur.

Zoomorf fiqurlar. Yaşayış yerindən 2 ədəd zoomorf fiqur aşkar edilmişdir [10, s.73]. Fiqurlardan birinin boyun hissəsində kiçik oyuq açılmışdır (Tablo 2. 4-5).

Təkər modelləri. Saxsı məmulatına biri böyük, digər kiçik təkər modellərini də aid etmək olar. Böyük ölçülü təkər modelinin mərkəzi ox keçən hissəsi qabarıqdır (Tablo 2.6). Diametri 12 sm olan təkər modelinin ox keçən hissədəki oyuğun diametri 0,7 sm-dir [8, s.72]

Sümük məmulatı. Əsasən bizlər üstünlük təşkil edir və iri və xırdabuynuzlu heyvanların lülə sümüklərindən hazırlanmışdır (Tablo 2.12). Sümükdən hazırlanmış boru formalı bəzək əşyası və daş muncuqlar da aşkarlanmışdır. İ.H.Nərimanov sümükdən olan əşyaların hazırlanmasını əkinçilik təsərrüfatının inkişafı və eləcə də dəridən olan geyim və əşyaların geniş istifadə edilməsi ilə əlaqələndirmişdir [18, s. 108], Sümük alətlər Aruxludan, Texutdan və digər yaşayış yerlərindən də aşkar edilmişdir [17, s. 27-40].

Metal məmulatı. Tapılmış üç metal əşya – gümüş sırğa, tunc kəsici alət və tunc deşmə aləti – xüsusi elmi əhəmiyyətə malikdir (Tablo 2.11). Gümüş sırğa ilan başı formalıdır.

Daş məmulatı. Aşkar edilmiş daş alətlər arasında dən daşları, sürtgəclər, döyüm alətləri, həvənglər (Tablo 2.7), obsidian və çaxmaqdaşından hazırlanmış kəsici alətlər (Tablo 2.8) üstünlük təşkil edir.

Dən daşlarının bir qismi qayıqvari olub, səthində aşınma izləri müşahidə edilir. Sürtgəclər müxtəlif formalı olub ikiüzlü işlək səthə malikdir. Dəstə tipli alətlər qayalıq daşlardan hazırlanmış və yaxşı cilalanmışdır. Obsidian oraq dişlərinin bir qismində bitum izləri saxlanmışdır. Dən üyüdülməsi alətləri-dən daşları (alt və üst dən daşları) və həvəngdəstənin oxşarı Naxçıvanın eneolit və tunc dövrü abidələrinin demək olar ki, hamısından aşkar edilmişdir [11, s.28-120]. Naxçıvanın I Kültəpə [12, s.52-61], Sədərək [4, s.61-65], Govurqala [14, s.44], Damlama [22, s.32-33], II Kültəpə [12, s.77-106], Maxta [1, s.76-81], Ovçulartəpəsi [2, s.6-19], Qızılburun [13, s.16], və digər abidələrdən məlumdur. Yaşayış yerindən aşkar edilmiş sürtgəclərin yaxın analogiyasına Tovuz rayonu ərazisində Xocaxan yaşayış yerindən [9, s.42-46], Naxçıvanın I Kültəpə [6, s.45], Qazax rayonu və Mil-Qarabağ düzənliyi ərazisindəki həmdövr abidələrdən-Baba-Dərviş [19, s.9-10], Qarabağın tunc dövrü arxeoloji abidələrində[3], Şomutəpə, Töyrətəpə, Qarğalartəpə, İlantəpə və s. ərazilərdən də rast gəlinmişdir [20, s.5-7], Əzmədə istifadə olunan belə daş əmək alətləri Gürcüstan və Ermənistanın eneolit və tunc dövrü abidələrindən də məlumdur [16, s.241].

Qəbirlər; Göl Yeri yaşayış yerində aparılan qazıntılarda İlk Tunc dövrünə aid biri düzbucaqlı, üçü isə quyu tipli olmaqla dörd qəbir aşkar edilmişdir (Tablo 1. 2-3).

1 saylı qəbir. Düzbucaqlı torpaq qəbirdir. Skelet sol yanı üstə, şimal–cənub istiqamətində, üzü şərqə tərəf dəfn edilmişdir. Skeletin bükülü vəziyyətdə uzunluğu 1,40 m olub, ümumi boyu təxminən 1,90 m-dir [8, s.74].

2–3 saylı qəbirlər. Bu qəbirlər bir-birinə bağlı üç dairəvi quyudan ibarət olub, Kür–Araz mədəniyyətinin erkən mərhələlərinə xas nadir quyu dəfn kompleksidir. İki quyuda skeletlər sol yanı üstə dəfn edilmiş, üçüncü quyudan isə yalnız inventar əldə edilmişdir. Müşayiət materialı zəngindir [10, s. 76]. Skeletlərin ətrafındn müxtəli minerallardan hazırlanmış bəzək əşyaları aşkar edilmişdir (Tablo 2.10).

4 saylı qəbir. Diametri 1,70 m olan bu quyu qəbri skeletin sol yanı üstə dəfn edilməsi və zəngin inventarı ilə fərqlənir.

Nəticə. Goranboy rayonu Tatarlı kəndi yaxınlığında yerləşən Göl Yeri qədim yaşayış yerində aparılmış arxeoloji tədqiqatlar nəticəsində Eneolit və İlk Tunc dövrlərinə (e.ə. V–III minilliklər) aid zəngin və çoxşaxəli maddi mədəniyyət kompleksi aşkar edilmişdir

Aşkar olunmuş təsərrüfat quyuları, ocaq yerləri və yarımqazma tipli ev qalıqları burada uzunmüddətli və oturaq yaşayışın mövcudluğunu göstərir. Keramika materiallarının tipoloji və texnoloji xüsusiyyətləri – anqoblu və cilalanmış qablar, dar və geniş boğazlı küpələr, bikonik formalar, süzgəc tipli qablar və miniatür məmulat – bölgədə dulusçuluq ənənələrinin yüksək inkişaf səviyyəsini təsdiqləyir və Cənubi Qafqaz–Şərqi Anadolu mədəni əlaqələrini əks etdirir.

Daş, obsidian və sümük alətlərin geniş yayılması əkinçilik və maldarlığa əsaslanan təsərrüfat strukturunu göstərir. Metal məmulatın (gümüş və tunc əşyalar) mövcudluğu isə erkən metallurgiya ənənələrinin formalaşdığını sübut edir.

Qəbir kompleksləri, xüsusilə quyu tipli dəfnlər və zəngin inventar, Kür–Araz mədəniyyətinin erkən mərhələlərinə xas dəfn adətlərinin lokal xüsusiyyətlərini ortaya qoyur.

Beləliklə, Göl Yeri yaşayış yeri Eneolitdən İlk Tunc dövrünə keçid prosesinin, erkən əkinçi-maldar icmaların sosial-iqtisadi və ideoloji inkişafının öyrənilməsi baxımından mühüm arxeoloji mərkəz kimi qiymətləndirilə bilər.

Ədəbiyyat siyahısı:

1. Aşurov S.H. Maxta tunc dövrü yaşayış yerləri. Azərbaycan EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1991, №4, s. 76-81.

2. Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar (2001–2002). Bakı, 2003, 120 s.

3. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı və I minilliyin əvvəllərində. Bakı: Elm, 2000, 187 s.

4. Cəfərov H.F. Şəmkirin qədim arxeoloji abidələri. Şəmkir arxeoloji irsi, Bakı, 2008.

5. Seyidov A., Baxşəliyev V. Sədərək. Bakı, 2011, 184 s.

6. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı, 1959, 134 s.

7. Hüseynov M.M., İsmayılov Q.S., Quliyev N.M. Azərbaycanın arxeoloji abidələri. Bakı, 1981.

8. Hüseynov M.M. Cəlilov B.M. Xocaxan qədim yaşayış yeri. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası. Bakı 2007. №2. S 42-46.
9. Hüseynov M.M. Kazımov Ə. Goranboy-Göl yeri qədim yaşayış yerində arxeoloji tədqiqatlar.. Azərbaycanda arxeoloji tədqiqatlar 2009. Bakı 2010, s. 70-75.
10. Hüseynov M.M. Kazımov Ə. Göl Yeri yaşayış yerində 2010-cu ildə aparılan arxeoloji tədqiqatlar. Azərbaycanda arxeoloji tədqiqatlar 2010. Bakı 2011, s. 70-78.
11. Hüseynov M.M. Naxçıvanın qədim əkinçilik mədəniyyəti (e.ə. VI-I minilliklər) Bakı-2018. 301 s.
12. Абибуллаев О.А. Энеолит и бронза Нахичеванской АССР. Баку, 1982, 314 s.
13. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку: Элм, 1991, 256 s.
14. Агаев Г. Археологические исследования Гявургала. Баку, 1985, s. 44.
15. Ахундов Т., Махмудова В. Южный Кавказ… Баку, 2008.
16. Джапаридзе О.М., Джавахишвили Л.И. Культуры древнейшего земледелия Грузии. Тбилиси, 1971, 216 s.
17. Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. Ленинград, 1970, 191 s.
18. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана. Баку: Элм, 1987, 260 s.
19. Исмаилов Г.С. Археологические исследования поселения Баба–Дервиш. Баку, 1978, 102 s.
20. Нариманов И.Г. О земледелии энеолита в Азербайджане. СА, 1971, №3, s. 3-14.
21. Куфтин В.А. «Урартский колумбарий…», Тбилиси, 1944, s. 1-171.
22. Сеидов М.М. Исследование населения Дамлама. Баку, 1988, 32-33.
23. Pearce J. The Late Chalcolithic sequence at Hacinebi Tepe… Paris, 2000.
24. Frangipane M. The Late Chalcolithic/EB I sequence at Arslantepe… Paris, 2000.
25. Özdoğan M., Özdoğan A. Pre-Halafian pottery of Southeastern Anatolia… Roma, 1993.



Plan-1



1



2



3



4



5



6

Tablo 1.




1



2



3



4



5



6



7



8



9



10



11



12

Tablo 2.

ALBANİYANIN İLK ORTA ƏSR BƏRDİC VƏ ABXAZ ŞƏHƏRLƏRİNİN LOKALLAŞDIRILMASI VƏ TARİXİ-ARXEOLOJİ TƏDQİQİ MƏSƏLƏSİ (MƏNBƏ MƏLUMATLARI VƏ TARİXİ-ARXEOLOJİ TƏDQİQATLAR ƏSASINDA)

Cavid Bağırzadə
Gəncə Dövlət Universiteti, tarix üzrə fəlsəfə doktoru, dosent
cavid.bagirzade@gdu.edu.az

Açar sözlər: *Qarabağ, Bərdə, Dərbənd, Bərdə – Dərbənd yolu, Bərdic, Abxaz.*
Keywords: *Garabagh, Barda, Darband, Barda – Darband road, Bardij, el-Abkhaz*

Arranın mühüm qovşaqlarından biri də Bərdəni Bab-əl-Əbvab – Dərbənd birləşdirirdi. Bərdədən çıxan yolçular bu yolu başa vuranacan on beş poçt-gömrük məntəqəsindən keçməli olurdular [10, s.119]. Ərəb coğrafiyaşünas-səyyahlarının bu ticarət-karvan yolu ilə bağlı verdikləri məlumatlar haqqında tədqiqatçılardan Ziya Bünyadov, Nailə Vəlixanlı və Sara Aşurbəyli bəhs etmişdir [3, s.186; 9, s.47, s.91, s.114, s.136; 1, s.119-124]. Ərəb müəllifləri Bərdə-Dərbənd yolundan bəhs edərkən bu yolun üstündə yeləşən yaşayış məntəqələri və şəhərlər arasındakı məsafələri də göstərmişlər. Göstərilən məsafələr müxtəlif ölçülər və rəqəmlərlə ifadə edilmişdir ki, onların qeydi-dəqiqliyi və ya ziddiyyətli olduğu təhlillərdən aydın olur. Ərəb müəlliflərinin Bərdə-Dərbənd ticarət-karvan yolunun üstündə xatırladıqları yaşayış məntəqələrinin hamısı Kür çayından şimalda yerləşirdi ki, bunlar da Şirvan bölgəsinin ilk orta əsr yaşayış məntəqələrindən bir qismi idi. Bərdə-Dərbənd ticarət-karvan yolu haqqında məlumatların yer aldığı yazılı mənbələrin mənsub olduğu əsrlərin müxtəlif olmasına baxmayaraq, məlumdur ki, bu ticarət yolu antik və ilk orta əsrlər dövründə də mövcud olmuşdur.

Ərəb müəlliflərindən İbn Xordadbeh Bərdədən Tiflisə 10 sikkə, Dərbəndə 15 sikkə (bir sikkə təxminən 15-20 km, bir fərsəx təxminən 6-8 km, bir mərhələ təxminən 25 km, bir mil təxminən 2 km, bir gün təxminən 50 km, bir bərid isə təxminən 24-32 km-dir [9, s.11]). Dəbilə 7 sikkə məsafə olduğunu göstərmişdir [9, s.18]. Göründüyü kimi, göstərilmiş məsafələr qeyri-dəqiqdir. Qudama ibn Cəfər də Bərdədən Dərbəndə 15 sikkə məsafə olduğunu yazmışdır [3, s.186; 9, s.47]. Qudama ibn Cəfər, İbn Xordadbehdən fərqli olaraq Bərdədən Şəmkirə 6 sikkə, oradan da Tiflisə 10 sikkə, beləliklə Bərdədən Tiflisə 16 sikkə məsafə [3, s.186; 9, s.47] olduğunu yazır ki, onun da göstərdiyi məsafələr də qeyri-dəqiqdir. Belə ki, Bərdədən Tiflisə 16 sikkə olduğu halda, daha uzaqda olan Dərbəndə 15 sikkə ola bilməzdi. Ərəb müəlliflərinin yaşayış yerləri arasındakı göstərmiş olduqları məsafələr təhlillərdən məlum olur ki, qeyri-dəqiqdir.

Bərdə-Dərbənd yolu haqqında təfərrüatı ilə məlumat verən ərəb müəlliflərindən əl-İstəxri, İbn Havqəl və əl-Müqəddəsi bu yolun üstündə yerləşən yaşayış məntəqələrinin adlarını çəkmiş, onların coğrafi mövqeyi haqqında da məlumatlar vermişlər [3, s.186; 9, s.91, s.114, s.136]. Ərəb müəlliflərinin verdiyi məlumatlar Şir-

van bölgəsinin ilk orta əsr yaşayış yerlərinin lokallaşdırılmasında müstəsna əhəmiyyət daşıyır. Yeri gəlmişkən qeyd edək ki, Şirvan bölgəsində yerləşən və müxtəlif yazılı mənbələrdə adları çəkilən Şirvan, Abxaz kimi şəhərlər lokallaşdırılmamış və ya onların lokallaşdırılması ilə bağlı tədqiqatçılar arasında müxtəlif fikirlər yaranmışdı.

Bərdə-Dərbənd ticarət-karvan yolu təkcə Dərbənd şəhərinədək uzanmamışdır. Dərbənddən bu yol şimala, Volqaboyu əraziyə getmiş, digər tərəfdən də məlum olduğu kimi, Xəzərin şimalından Orta Asiyaya, oradan da keçməklə Çinə qədər uzanmışdır. Başqa sözlə, bu yol tarixi "İpək yolu"nun bir hissəsi olmuşdur. Bu beynəlxalq tranzit yolunun Bərdə-Dərbənd hissəsi isə həm də ölkənin – Albaniyanın daxili karvan yollarından biri olmuşdur. Bərdə-Dərbənd yolu ilk orta əsrlər dövründə Azərbaycanın Qarabağ və Şirvan bölgələrinin yaşayış məntəqələri arasında iqtisadi-ticarət və mədəni əlaqələrini həyata keçirmişdir.

Ərəb müəllifləri bir qayda olaraq Bərdə-Dərbənd yolunun keçdiyi yaşayış məntəqələrini belə sıralamışlar: Bərdə – Bərdic – Şamaxı – Şərvan – Laican və ya əl-Abxaz (ərəb müəlliflərindən əl-İstəxri Şərvan ilə Samur körpüsünün arasında əl-Abxazı, İbn Havqəl Laicanı, əl-Müqəddəsi əl-Abxazı, əl-İdrisi isə Laicanı göstərmişdir. Laican çox güman ki, mahalın adı, əl-Abxaz isə yaşayış məntəqəsinin adı olmuşdur. "Hüdud əl-aləm"də Lizan (Layzan) vilayətinin adı çəkilir. – C.B.) – Samur körpüsü – Bab ül-Əbvab (Dərbənd) [3, s.186; 9, s.91, s.114, s.136]. Bu yaşayış məntəqələri içərisində diqqət yetirəcəyimiz, daha doğrusu lokallaşıdırlması ilə bağlı fikir söyləyəcəyimiz şəhərlər Bərdic və əl-Abxazdır.

Qafqaz Albaniyasının ilk orta əsrlər dövründə aid şəhərlərindən biri də Bərdic olmuşdur. Bərdic şəhəri və onun lokallaşdırılması haqqında tədqiqatçılar bəhs etmişdir. Yazılı qaynaqlarda Bərdic şəhəri bəzən Bərzənc kimi də ifadə edilmişdir. Ərəb müəlliflərinin əsərlərini tədqiq etmiş görkəmli şərqşünas Nikolay Karaulov Bərdic toponimini Bərzənclə eyniləşdirmişdir [4, s.57]. Akademik Ziya Bünyadov Bərdədən sonra yolun üstündə ilk böyük yaşayış məntəqəsi kimi Bərdic-Bərzəncdən eyni yaşayış yeri kimi bəhs etmişdir [3, s.186]. Yaqut əl-Həməvi Bərdiclə Bərzəncin ayrı-ayrı yaşayış məntəqələri olduğunu göstərmişdir [11, s.9]. Belə hesab etmək olar ki, ərəb müəlliflərinin əsərlərində bəzən Bərdic, bəzən də Bərzənc kimi bəhs edilmiş yaşayış məntəqəsi eyni yerdir. Çünki müəlliflər bir qayda olaraq Bərdədən sonra yolun üstündə ilk böyük şəhərin Kürün sahilində olduğunu yazmışlar ki, Bərdic və ya Bərzənc deyə bəhs etdikləri yaşayış yeri haqqında verdikləri məlumatlar eyni bir yaşayış məntəqəsindən bəhs olunduğunu göstərir.

Sara Aşurbəyli də Bərdiclə Bərzənci eyniləşdirmişdir [1, s.119, s.123]. Akademik Nailə Vəlixanlı da belə bir qənaətə gəlir ki, Bərdiclə Bərzənc eyni yaşayış məntəqəsidir. X əsrdə Arranda olmuş ərəb səyyahları Bərdicin adını ölkənin kiçik, abad şəhərləri sırasında çəkirlər [10, s.120]. Əl-İstəxri Azərbaycan şəhərlərindən bəhs edərkən yazır ki, Beyləqan, Varsan, Bərdic, Bərzənd, Şamaxı, Şirvan, Abxaz, Şabran, Qəbələ, Şəki, Gəncə, Şəmkir və Hunan böyüklükdə bir-birinə bənzəyən kiçik şəhərlərdir. Bunlar münbit torpaqlı və hər şeyi bol olan yerlərdir [2, s.113]. Əl-

Müqəddəsi Azərbaycan (Arran) şəhərlərindən bəhs edərkən Bərdic şəhərinin adını Bərdə, Tiflis, Hunan, Şəmkir, Gəncə, Şamaxı, Şabran, Bakı, Dərbənd Qəbələ, Şəki, əl-Abxaz ilə bir çəkir [9, s.130]. Bu məlumatlardan aydın olur ki, Bərdic şəhəri eyni dövrdə Azərbaycanın digər tarixi şəhərlərindən fərqlənməmiş, sturkturuna və böyüklüyünə görə onlardan biri olmuşdur.

İbn Havqəl Bərdic şəhərinin Kür çayının sahilində yerləşən böyük və ya mühüm bir ticarət şəhəri olmasını göstərmişdir [3, s.186; 9, s.114]. Bərdic şəhəri Bərdənin Əl-İstəxri və İbn Havqələ görə 18 fərsəxliyində [3, s.186; 9, s.91, s.114; 2, s.114] (yəni təxminən 108-126 km-liyində.), Əl-Müqəddəsiyə görə 1 mərhələsində [3, s.186; 9, s.136] (təxminən 25 km-liyində), Əl-İdrisiyə görə isə 54 mil (təxminən 108 km-liyində) məsafəsində [3, s.186; 9, s.150] yerləşirdi. Əl-Müqəddəsi Bərdədən Yunana, Kalkatusa, Gəncəyə və nəhayət Bərdicə eyni məsafənin olduğunu göstərmişdir [3, s.186; 9, s.136]. Məlumatlardan aydın olur ki, Bərdə şəhərindən şimala doğru Kür çayınadək, eləcə də Kürün sol sahilindəki yaşayış məntəqələri içərisində ilk böyük və mühüm ticarət şəhəri Bərdic olmuşdur. Bərdic şəhərini Kür çayının sol sahilindəki ərazidə, çayın sahilində axtarmaq lazımdır. Bərdic haqqında mənbələrdəki məlumatlar və coğrafi təsvirlər onu ilk orta əsrlər dövründə böyük şəhər yeri olan, mühüm ticarət mərkəzi olmuş, hazırda Mingəçevir gölünün (su anbarının) altında qalmış arxeoloji abidələrdə (elmi ədəbiyyatda qədim Mingəçevir şəhəri adı ilə öz əksini tapmışdır. – C.B.) lokallaşdırmağa əsas verir. Ziddiyətli məqam yalnız mənbələrdə göstərilmiş məsafələrdədir. Qeyd edək ki, Yaqut əl-Həməvi də Bərdic şəhəri haqqında məlumat vermiş, onu Bərdə şəhərinin 14 fərsəxliyində olduğunu yazmışdır [11, s.9]. Əl-Müqəddəsi və Yaqut əl-Həməvinin Bərdic şəhəri ilə Bərdə arasındakı göstərdiyi məsəfə daha həqiqətə uyğundur. Belə ki, Əl-İstəxri və İbn Havqəlin göstərdikləri məsafələrə görə Kür çayının sahilində yerləşən Bərdic Bərdədən 18 fərsəx uzaqlıqda yerləşir ki, buradan da Şamaxıya 14 fərsəxdir, Əl-İdrisi isə Bərdədən Bərdicə 54 mil, oradan Şamaxıya 42 mil olduğunu yazmışdır. Bu göstərilmiş məsafələr coğrafi baxımdan da həqiqətə uyğun deyildir. Məlum olduğu kimi, Kür çayı istər şərq (Zərdab rayonu istiqamətində), istərsə də şimal (Yevlax və Mingəçevir istiqamətində) istiqamətindən Bərdə şəhərinə yaxındır. Deməli Kür çayı sahilində olan Bərdic şəhəri də Bərdəyə yaxın olmalıdır. Şamaxı şəhəri isə Kür çayına heç də yaxın məsafədə deyildir. Yəni Bərdədən Kür çayı sahilində olan Bərdicə 18 fərsəx olduğu halda, oradan Şamaxıya 14 fərsəx ola bilməzdi. Bu coğrafi baxımdan da mümkün deyil. Bir daha ərəb müəlliflərindən Əl-İstəxri, İbn Havqəl və Əl-İdrisinin qeyd etdiyimiz kimi, göstərmiş olduqları məsafə ziddiyyətli və qeyri-dəqiqdir. Beləliklə, yazılı mənbələrdəki məsafələrin və Bərdic şəhərinin coğrafi mövqeyi haqqında verilmiş məlumatların təhlili yuxarıda göstərdiyimiz kimi, bir daha qeyd edək ki, Bərdic şəhərinin Kür çayının sahilində, onun suları ilə əhatə olunmuş bir yerdə, qədim Mingəçevir şəhəri yerində, 1945-1953-cü illərdə inşa edilmiş Mingəçevir gölünün (su elektirik stansiyasının) suları altında qalmış şəhər xarabalığında, buradakı Sudağılan arxeoloji abidələrində lo-

kallaşdırmağa əsas verir. Təsadüfi deyildi ki, mənbədəki təsvirdə Kürün suları ilə əhatə olunmuş Bərdic Sudağılanla coğrafi oxşarlıq təşkil edir.

Bərdic şəhərinin yeri ilə bağlı digər ərəb müəllifi əl-Bəlazuri "Kitab fütuh əl-buldən" əsərində məlumat var. O, yazır ki, sərkərdə Salman ibn Rəbiyyə əl-Bəhili Bərdə şəhərini, Arranın (Qafqaz Albaniyasının) bir çox yerlərini, qədim Şəmkir şəhərini tutduqdan sonra Bərdicdən o tərəfə, Kürü keçdi, Qəbələ şəhərini tutdu [2, s.68-69]. Salman ibn Rəbiyyə əl-Bəhilinin komandanlığı altında ərəb qoşunları hicri 32-ci (miladi 652-653-cü) ildə Azərbaycana (Qafqaz Albaniyasına) yürüş etmişdir [10, s.28]. Bu məlumatdan bir daha aydın olur ki, ərəb qoşunları Şəmkir şəhərindən Kür çayı boyunca şərqə doğru hərəkət etmiş, indiki Mingəçevir gölünün suları altında qalmış Bərdic şəhəri tərəfdə Kür çayını keçərək Qəbələni tutmaq üçün şimala doğru getmişlər.

Bərdic şəhərini lokallaşdırmağa çalışan Taleh Əliyev onu Bərdə şəhərindən şərqdə, müasir Zərdab rayonu ərazisində, Kürün sol sahilində yerləşdirmişdir [4, s.57-58]. Taleh Əliyevin Bərdic şəhərini lokallaşdırdığı arxeoloji abidələrin ilk orta əsrlər dövründə kənd tipli, IX-XIII əsrlərdə isə şəhər tipli olduğunu müəllif özü belə qeyd etmişdir [4, s.57]. Bərdic şəhəri haqqında məlumat verən yazılı mənbələrin dövründə kənd tipli yaşayış məntəqəsi olmuş bir məkanda mühüm ticarət şəhəri kimi xarakterizə edilən bir şəhəri lokallaşdırmaq fikrimizcə, həqiqətə uyğun deyildir. Çünki IX-X əsrlərdə yaşamış müəlliflərin əsərlərində mühüm ticarət şəhəri kimi xarkterizə olunursa, deməli bu şəhər ən azından ilk orta əsrlərdə inkişaf etmiş şəhərlərdən biri olmuşdur. Digər tərəfdən yuxarıda bəhs etdiyimiz kimi, Salam ibn Rəbiyyə əl-Bəhilinin komandanlığı ilə ərəb qoşunları 652/653-cü ildə Bərdic şəhəri tərəfdə Kür çayını keçmişlər. Yəni artıq ilk orta əsrlər dövründə, VII əsrdə Bərdic ticarət-karvan yollarının üstündə yerləşən mühüm ticarət şəhəri idi. Taleh Əliyevin Bərdic şəhərini lokallaşdırdığı arxeoloji abidə isə qeyd etdiyimiz kimi, kənd-tipli yaşayış yeri olmuşdur. Digər tərəfdən də xəritəyə diqqət yetirsək, aydın şəkildə görərik ki, Bərdədən Dərbəndə getmək üçün şərqə, yəni Zərdab istiqamətində deyil, şimala və şimal-şərqə doğru, Mingəçevir-Ağdaş-İsmayıllı-Ağsu-Şamaxı-Dərbənd maşrutu ilə hərəkət etmək lazımdır. Digər tərəfdən də Salman ibn Rəbiyyə əl-Bəhili Şəmkirdən gələrkən Mingəçevir şəhəri yaxınlığındakı şəhərdən keçib yolunu uzadaraq indiki Zərdab rayonu ərazisinə gəlib, buradan Qəbələ istiqamətinə getməzdi. Salman ibn Rəbiyyə əl-Bəhili Şəmkirdən müasir Mingəçevir şəhərinin yaxınlığında yerləşmiş Bərdic şəhərinə gəlmiş, orada Kür çayını keçərək Ərəş-Qəbələ istiqamətində hərəkət etmişdi.

Buna görə də bir daha qeyd edək ki, Bərdic şəhərinin Zərdab rayonu ərazisində lokallaşdılmasını mənbə məlumatları, coğrafi amillər və arxeoloji abidələr təsdiq etmir.

Bərdə – Dərbənd yolu Bərdə şəhərindən şimala doğru istiqamət almış, Bərdədən şimal istiqamətdə Kürü keçərək qədim Mingəçevir ərazisinə (qeyd etdiyimiz kimi, bu abidələrdə Bərdic şəhərini lokallaşdırırırq. – C.B.), oradan indiki Xaldan istiqamətində (tədqiqatlardan da məlumdur ki, Xaldan qəsəbəsi yaxınlığında, Əli-

can çayının sahilində qədim yaşayış yeri olmuşdur. Bu yaşayış yerində inkişaf etmiş orta əsrlər dövründə Ərəş şəhəri formalaşmışdır. – C.B.), oradan da müasir Ağdaş (Ağdaş rayonu ərazisindəki Surxab şəhər-qalası)-Göyçay-İsmayıllı-Ağsu-Şamaxı rayonları ərazisindən keçməklə Şamaxı-Şabran-Abxaz istiqamətinə, oradan da Dərbəndə doğru uzanmışdır. Çox güman ki, bu yolun üstündə yerləşən qədim yaşayış yerində – Xaldanın yaxınlığındakı orta əsr Ərəş şəhərinin yerində yol haçalanmış, yolun bir qolu Şəki istiqamətində uzanmışdır. Ərəşdən Ağdaş rayonu ərazisindəki Surxab qalasına gələn yol da burada haçalanaraq bir qolu Qəbələ istiqamətinə getmiş, digəri əsas yol isə Şamaxı istiqamətində davam etmişdir.

Bərdə-Dərbənd yolunun üstündə yerləşən və lokallaşdırılması ilə bağlı tədqiqatçılar arasında müxtəlif fikirlərin irəli sürüldüyü əl-Abxaz şəhəri yuxarıda göstərdiyimiz kimi, yazılı mənbələrdə Azərbaycanın digər ilk orta əsr şəhərləri ilə eyni böyüklükdə olması göstərilmişdir. Əl-Müqəddəsi Abxaz yerləşdiyi vilayətin şəhərləri kimi çox səfalı yerdə yerləşdiyini yazmışdır [9, s.132]. Nailə Vəlixanlı Bərdə-Dərbənd yolu üstündə yerləşən bu şəhərin ərəb müəlliflərinin əsərlərində həm də Laican kimi ifadə edilməsini təhlil edərək göstərir ki, Abxaz elə Laican olmalıdır [9, s.99; 10, s.122]. Sara Aşurbəyli yazılı mənbələrin yaşayış məntəqələri arasındakı göstərdikləri məsafələri təhlil edərək Abxaz şəhərini indiki Qubanın yerində və ya onun yaxınlığında lokallaşdırır. Tədqiqatçı yazır ki, Abxaz və Məsqət adlarının eyni məxəzdə bir yerdə rast gəlinməməsi hər iki toponimin eyni yerə aid olduğunu güman etməyə imkan verir. XVI əsrədək mənbələrdə Məsud ibn Namdar istisna olmaqla (Quva şəkilində), Quba adına rast gəlinmir. Güman etmək olar ki, X əsrdən XVI əsrədək Abxaz adı Qubaya və eyni zamanda Məsqət adlanan, yaxud Məsqətin tərkibinə daxil olan vilayətə aid olmuşdur [1, s.120]. Moisey Kalankatuklu ərəb sərkərdəsi Cərrah ibn Abdullah əl-Həkəminin Xəzərlərin üzərinə ikinci yürüşündən bəhs edərkən Albaniyanın şimalında Axbaz mahalının adını çəkir [Moisey Kalankatuklu, III kitab, 13 fəsil, 7, s.191]. Ərəb coğrafiyaşünaslarının əsərlərini tədqiq etmiş Nikolay Karaulov da Abxazı Quba şəhəri ilə eyniləşdirir və ya onun yaxınlığında olması fikrini irəli sürmüşdür [10, s.122]. Akademik Nailə Vəlixanlı belə hesab edir ki, Abxaz şəhərini indiki Xaçmaz və ya Qusar rayonları ərazisində axtarmaq lazımdır [10, s.122]. Tədqiqatçı Cabbar Xəlilov bu şəhəri Qusar rayonu ərazisindəki Enix (Əniq) qalası ilə eyniləşdirir. Başqa bir fikirə görə Abxazın Xaçmaz ətrafında yerləşdiyi istisna edilmir. Abxazın Xaçmaz rayonu ərazisindəki Canaxır abidəsi ilə əlaqəsi barədə mülahizə irəli sürülmüşdür [5, s.50]. Bütün bu fikirləri nəzərdən keçirən Mübariz Xəlilov haqlı olaraq göstərir ki, Abxaz şəhərini Xaçmaz rayonu ərazisindəki abidələrdə lokallaşdırmaq əsassızdır. O, Abxaz şəhərinin Quba-Xaçmaz bölgəsinin dağətəyi ərazisndə yerləşməsi ehtimalını irəli sürür [5, s.50]. Fikrimizcə, Abxaz şəhəri indiki Quba şəhərinin yaxınlığında mövcud olmuşdur. Abxaz şəhərini Quba şəhərinin girişində, Bakı-Quba yolunun sol tərəfində, Ağçayın sol sahilində, dəniz səviyyəsindən 480 m yüksəklikdə yerləşən Sandıqtəpə abidələrində lokallaşdırmaq olar.

Sandıqtəpə abidələrində aparılmış arxeoloji qazıntılar zamanı bu yaşayış yerinin ilk mədəni təbəqəsinin IV-VIII əsrlərdə, üst təbəqəsinin isə IX-XIII əsrlərə aid olması müəyyən olunmuşdur. Yaşayış yerinin narınqala hissəsinin ilk orta əsrlərdə inşa edildiyi müəyyən olunmuşdur [5, s.117]. Sandıqtəpə abidələr kompleksi ilk orta əsrlərdə iri bir şəhərgah olmuşdur [5, s.124]. Beləliklə, bir daha qeyd edək ki, Sandıqtəpə abidələr kompleksinin – şəhərgahının yazılı mənbələrdə adı çəkilən Abxaz şəhəri olması şübhə doğurmur.

Bərdə-Dərbənd ticarət-karvan yolu üstündə yazılı mənbələrdə adları çəkilmiş və bəhs olunmuş şəhərlərdən başqa şübhəsiz ki, yolun üstündə və ya onun keçdiyi yerin yaxınlığında onlarla digər kiçik yaşayış məntəqələri, həmçinin ilk orta əsr qalaları mövcud olmuşdur. Bu qalalar yolun təhlükəsizliyini qorumuş, şəhərlərarası əlaqələndirici rol oynamış, yolçuların dayanıb dincəlməsi üçün məkan kimi xüsusiyyət daşımışdır. Şübhə yoxdur ki, bu qalalarda təhlükəsizliyin keşiyində duran daimi qarnizonlar saxlanılmışdır.

Yazılı mənbələrin məlumatlarının təhlili, tarixi-arxeoloji tədqiqatların nəticələrinin təhlili, mövcud ilk orta əsr yaşayış yerlərinin arxeoloji abidələri, Bərdə-Dərbənd yolunun üstündə yerləşən yaşayış məntəqələrindən Bədricin Mingəçevir abidələrində, Abxazı isə Sandıqtəpə abidələr kompleksində lokallaşdırmağa əsas verir.

Ədəbiyyat siyahısı:

1. *Aşurbəyli S.B. Şirvanşahlar dövləti. (VI-XVI əsrlər.). Bakı, "Avrasiya press" nəşriyyatı, 2006, 416 s.*

2. Azərbaycan tarixi üzrə qaynaqlar (S.S.Əliyarov və Y.M.Mahmudovun redaktəsilə), Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1989, 328 s.

3. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. Bakı, Şərq-Qərb nəşriyyatı, 2007, 424 s.

4. Əliyev T.V. Orta əsr Bərdic şəhəri haqqında. // Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universiteti, "Gənc alimlərin I beynəlxalq elmi konfransı"nın materialları, I hissə, Gəncə 17-18 oktyabr 2016-cı il, Gəncə, GDU-nun nəşriyyatı, 2016-cı il, s.57-59.

5. Xəlilov M.C. Albaniyanın yaşayış yerləri (IV-X əsrlər). Bakı, Xəzər Universiteti nəşriyyatı, 2010, 284 s.

6. Məmmədova F.C. Azərbaycanın (Albaniyanın) siyasi tarixi və tarixi coğrafiyası. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 262 s.

7. Moisey Kalankatuklu. Albaniya tarixi. Mxitar Qoş. Alban salnaməsi. (Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Z.M.Bünyadovundur.), Bakı, Elm, 1993, 270 s.

8. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası, Bakı, "Müəllim" nəşriyyatı, 2006, 148 s.

9. Vəlixanlı N.M. IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında. Bakı, Elm nəşriyyatı, 1974, 224 s.

10. Vəlixanlı N.M. Ərəb xilafəti və Azərbaycan. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 157 s.

11. Йакут ал-Хамави. Му'джам ал-булдан (сведения об Азербайджане). Хамдуллах Казвини. Нузхат ал-кулуб (материалы по Азербайджану). Баку, Элм, 1983, 68 с.

TÜRK DÜNYASINDA MİQRASİYALAR (XX-XXI ƏSRLƏR)

Rəna İbrahimova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin
"Arxeologiya və Etnoqrafiya" kafedrasının dosenti
rena.ibrahimova.historian@gmail.com

Açar sözlər: *Qafqaz, Gürcüstan, Axısqa türkləri, dövlətçilik tarixi, deportasiya, məcburi miqrasiyalar*
Keywords: *Caucasus, Georgia, Ahiska Turks, history of statehood, deportation, forced migrations.*

Dünyada daima baş verən və ən geniş yayılmış etnik proseslərdən biri miqrasiyadır. Miqrasiyalar müxtəlif səbəblərdən baş verə bilər: iqtisadi, demoqrafik, ekoloji fəlakət, siyasi, etnik qarşıdırma, ya təzyiqlər, dini, sosial problemlər, hərbi əməliyyatlar, mədəni, təhsil almaq problemləri ucbatından. Miqrasiyalar ölkədaxili, ölkələrarası, qitələrarası istiqamətlərdə gedir, müvəqqəti və daimi xarakter daşıyır. Miqrasiyanın təbii, könüllü ya məcburi tipləri də vardır. Məcburi miqrasiya avtoritar rejimlərin həyata keçirtdiyi vasitələrdən biridir. Türklər bəşər tarixində qüdrət, alicənablıq, azadlıq fədaisi, sədaqət və yüksək hərb sənətinin, dövlətçilik əzmi, ləyaqət, mərdlik, cəsarət, şücaət sahibi kimi yer almışlar.

Axısqa Gürcüstanın güneyində yerləşən tarixi bölgələrindədir. "Tayfalar qapısı" adlanan bu əraziyə zaman-zaman müxtəlif türk tayfalarının keçid nöqtələrindən olmuşdur. VII yüzilliyə aid "Erməni coğrafiyası"nda Mərkəzi Qafqazda 53 türk tayfasının olduğu göstərilir. Türk dünyasının bir hissəsi olan Axısqa türklüyünün tarixini şərti olaraq qədim dövr, atabəylik və paşalıq süqutu, oyanış, sürgün, yurda dönüş mücadiləsi mərhələlərinə bölünür. Qədim yunan, Roma, Bizans, ərəb, gürcü, erməni mənbələri türklərin Cənubi Qafqazda, o cümlədən Gildir-Axısqa bölgəsində ən azı iki-üç min illik tarixini təsdiqləyir. Türk soylarına bağlı məskən, qala, orman, dağ adları Axıska-Axılkələk torpağında günümüzə qədər qalır. Cənub-qərbi Qafqazda daha dərin iz qoyan və Axıska türklərinin əcdadları sayılan türk soyu isə buntürklərdir. Onlar haqqında ən qədim məlumat VII əsrin ortalarına aid "Moksevay Kartlisay"gürcü mənbəyində əksini tapmışdı. "Bun" sözü kuman, qırgız, tatar, qara qırgız dillərində soy-nəsil mənasını verir. Həmin mənbədə buntürklərin 28000 ailə olduğunu və onların Msxetdən qərbdə Kür boyu saldıqları Sarkine, Kaspi, və Urbnisi şəhərlərində və ətrafında yaşadıqları qeyd olunub [5, s.1-5]. Buntürklər və hunlar burada kartvellər - gürcülərdən də öncə yaşamışlar. XI-XII əsrlərdə gürcülərin dəvəti ilə yerli xalq sayılan qıpçaqların buraya yeni axını baş verir, eyni zamanda cənubdan oğuzlar köç etmişlər. Onların yerləşdiyi torpaqlar – Axıska, Axılkələk, Borçalı, Qaraçöp olmuşdur. Gürcüstanın ərazisi bu dövrdə iki hissəyə bölünür: Kartveloba (yəni Gürcüoba), Didi türkoba (Böyük Türküstan) və bu bölgəyə bütün Şərqi və qismən Qərbi Gürcüstan daxil idi [1, s.24]. "Didi Turkoba"nın hərbi-siyasi qüdrəti XIII əsrdə güclənir, Axısqa Gürcüstanın aslılığından qurtulur və qıpçaq bəyliklərini elan edirlər. 1578-ci ildə Osmanlı fəthinə qədər faktiki müstəqilliyini və türklüyünü

saxlamış, Axısqa bəyliyi gürcü mənbələrində Saataqo, Samsli Saatabaqo (Atabəylər yurdu, Samshi Atabəyliyi) kimi tanınmışdır. Mübariz və qürurlu Axısqa əhalisinin daxili özünüidarəsi, dövlətçilik ənənəsi və türk-islam mədəniyyəti XV əsrdə Osmanlı fəthindən sonra daha da inkişaf etmişdir [1, s.24]. 1628-ci ilə qədər Axısqada atabəylik forması saxlanır, sonra isə paşalıq yaradılır. Bu tarixdən başlayaraq paşalıq xeyli güclənir, 14 sancaqdan ibarət, 15 şəhəri olan qüdrətli vilayətə çevrilir. Ahıska adı gürcü, erməni, rus və türk qaynaqlarında Ak-sıka, Akesqa, Ahaltsihe, Akal kelek, Akal kalak və başqa formalarda qeyd olunmuşdu. 1828-ci ilin aprelində çar Rusiyası Türkiyəyə müharibə elan edir, Qafqaz döyüş meydanına çevrilir. Axıska türklərinin qəhrəmanlığı, misilsiz müqavimətinə baxmayaraq 1828-ci ilin 16 avqustunda Axıska paşalığının mövcudluğuna son qoyuldu və onların tarixində yeni mərhələ başladı. Axısqa türkləri nəinki müstəqilliklərini, eləcə də mənəvi sərvətlərini itirmiş oldular. Əhmədiyyə camisi nəzdində toplanmış müxtəlif elm sahələrinə həsr olunmuş çox saylı ərəb, türk və fars dillərində nadir əlyazmalar, elmi əsərlər müsadirə olunub Ərzurum, Ərdəbil, Bəyazit, Dərbənd, Qars, İrəvan, Təbriz, Gəncə, Bakı əlyazmaları kimi Peterburqa göndərildi [2, s.7]. Bu itki Axısqa türklərin yaddaşında belə misralarla həkk olunmuşdu:

Əhmədiyyə camesi söküldü,
Arabayla Urusetə çəkildi,
O vaxt mislimanın beli büküldü,
Ağla, nənəm, ayrılacax zamandır [1, s.36].

Rus hökuməti köçürülmə siyasəti apararaq yaratdığı Axıska və Axılkələk uyezdlərindən xeyli türk əhalisini Türkiyəyə köçürür, əvəzində ardıcıllıqla 130 min erməni və 3000 molokan-duxobor burada yerləşdirir. Ermənilərə maddi yardım göstərilir və vergilərdən azad olunurlar. İşğaldan öncə Axısqa şəhərinin 50 min əhalisi olduqu halda, bu hadisədən sonra 10-13 minə düşür, Cavaxetdə 29 kəndi rus hökuməti türklərdən cuzi pul məbləğinə alır və əhalini Türkiyəyə köçürür. Artıq 1864-cü ildə Axısqa qəzasında 63,3 min əhalisi olan 322 yaşayış məntəqəsindən Axısqa şəhərində 15 min əhali, bunlardan cəmi 18,5 min müsəlman olmuşdur. Türklərin Axısqa və Axılkələkdən məcburi köçü prosesini, onlara qərəzli qeyri-obyektiv yanaşmanı Rusiya imperiyası mütəmadi olaraq davam etmişdi. Axısqalarının tarixində XX əsrin əvvəllərindən faciəli sürgünlər və deportasiyalar dövrü başlayır. 1914-cü ildə I Dünya müharibəsi başlayanda türklərə liderlik edə biləcək 150-dən çox vətənpərvər Rusiyanın uzaq əyalətlərinə sürgün edilmişlər. I Dünya müharibəsinin başa çatmasından sonra siyasi xəritədə böyük dəyişikliklər baş verir – dörd imperiya dağılır və bunlardan biri Osmanlı imperiyası olmuşdu. Bundan sonra cənub-qərbi Qafqazda ilk dəfə olaraq "Axısqa hökuməti - müvvəqqətəsi" (29 oktyabr 1918-30 noyabr 1918) türk ordusu Axıska-Axılkələkdən çıxarılacağı ərəfədə yaradılır. Hökümətin başında böyük öndər, mollanəsrəddinci Ömər Faiq Nemənzadə durur. Qars şəhəri bu hökümətin paytaxtı sayılır. Lakin 1919-cu ildən cənub-qərbi Qafqazda ingilislərin dəstəyi ilə erməni təcavüzü baş qaldırır. Qarsa ermənilər sahib olmaq, Axılkələk və Borçalını

Gürcüstan və Ermənistan arasında bölüşdürülmək nəzərdə tutulur. Basqınlardan xilas olmaq məqsədilə Axısqada qədim qıpçaq atabəyləri sülaləsindən olan Osman Sərvər Atabəyin başçılığı ilə yenidən qurtuluş savaşı başlayır, erməni təcavüzündən qurtulmaq üçün Axısqa-Axılkələk Müsəlmanları Milli Şurası yaradır. 1919-cu il 25 dekabrda qurucu parlamenti Cənubi Gürcüstanın müsəlmanlar yaşayan hissəsinə rəsmi olaraq muxtariyyət statusu və geniş qanunvericilik səlahiyyətləri verir. Sovet hakimiyyəti illərində Axısqa türklərinin sayı qəsdən azaldılırdı. 1939-cu il siyahıyalmasında onları artıq azərbaycanlı kimi qeyd edirlər.

1944-cü ilin mayında hazırlanmış bir sənədə görə, əvvəlcə türkləri Gürcüstan SSR-nin şərq rayonlarına köçürmək nəzərdə tutulurmuş, lakin həmin ilin iyulunda əhalinin respublikadan kənara çıxartmaq, Orta Asiya və Qazaxıstana sürmək qərara alınır. Səbəb isə guya Türkiyə ilə sərhədlərdə təhlükəsizliyi təmin etmək məqsədilə Cənubi Gürcüstandan "türk, kürd və həmşillərin", həmçinin Acariyadan acarları da köçürülməsi vacibdir. Boşalmış yurd-yuvalarına isə gürcüləri köçürmək nəzərdə tutulurdu. Milli-ayrı seçkilik siyasətinə uyğun olaraq, 1944-cü ilin iyulunda Axısqada gürcü ailələrinin qeydiyyatı aparılır, 67 kənddə yalnız 235 ailənin gürcü soyadı daşıdığı məlum olur (lakin bunların da əksəri özünü türk hesab edir). Sürgün ərəfəsində türklər arasında təhqiredici təbliğat aparılır, onlara gürcülüyü qəbul etdirmək üçün bir çox cəhdlər edilir, lakin hamı türk olduğunu qətiyyətlə təsdiqləyir. 1944-cü ilin 14 noyabrından başlayaraq bir neçə gündə böyük bir ərazidə yaşayan 95 minə qədər Axısqa türkləri vəhşicəsinə, əsgərlərin müşayiəti ilə xüsusi vaqonlarla uzaq Türküstana sürülür. Onlar bütün vətəndaşlıq hüquqlarından məhrum edildi. Sabahı zorla gürcüləri boşalmış evlərə köçürməyə başladılar. 1944-cü ilin noyabr-dekabrında və 1945-ci ilin yanvarında Gürcüstandan ümumilikdə 95.699 nəfər sürgünə yola salınıb, insanlar yola çıxmaq üçün cəmi 2 saat vaxt və 3 günlük ərzaq gotürülməsinə icazə verilmişdi. Yol boyu soyuq vaqonlarda 17 mindən çox adam tələf oldu, meyidləri əsgərlər vaqonlardan yollara atırlar. Sürgün əməliyyatını xüsusi səylə yerinə yetirən əsgərlər hökümət tərəfindən orden və medallarla təltif olunur. Rəsmi sənədlərin məlumatına görə 1948-ci ilin iyununa qədər 30 mindən həyatını itirmiş, o cümlədən 17 min günahsız uşaqlar [1, s.56], ön cəbhədə qəhrəmancasına döyüşən Axısqa əsgərlərinin ailələri o zaman sürgün həyatı yaşayır, min cür məhrumiyyətlərlə tək başına qalmışdılar. 1944-1948-ci illərdə sürgündə dərddən, xəstəlikdən, acından ölən 37 mindən çox türkdən başqa, müharibədə iştirak edən 46 mindən artıq Axısqa türkünün 25 mindən çoxu həlak oldu, 8 nəfər Sovet İttifaqı Qəhrəmanı adını və yüzlərlə döyüşçü Şöhrət ordeni və digər orden və medallar alır. Müharibə qazilərini cinayətkar kimi sürgün yerlərinə göndərirlər. Axısqa türklərinə qarşı törədilmiş bu soyqırım acı xatirələrlə yaddaşlarda qalaraq onların tarixinə qanlı hərflərlə yazılıb. Sovet dövründə Mesxet-Cavaxetin (Axısqa, Adıgün, Aspinza, Axilkələk rayonları) Borçalının əsas miqrasiya axınlarının yönəldiyi yerlər olur. 1944-cü ildən sonra İmeretidən, Borjom, hətta Boqdanovka və Axilkələk (bu iki rayondan ilk növbədə ermənilər) rayonlarından xeyli əhalinin Axısqa bölgəsinə köçdüyü baş verir. Türkləri Vətənin hətta

həndəvərinə turist belə buraxmamaq üçün dövlət sərhədlərinin yasaq zolağı Axısqa-Axılkələkdə 5-dən 85 km-ə qədər artırılır. Sürgün həyatı ilə barışmayan Axızqa türkləri kədərləri, Vətən yanğısını bayatılarda əks etdirirlər:

Genə təzələndi eşgi dərdlərim
Bayramda qol-qanad açeydim, Vətən!
Sənin gül nəfəsin duymax üçün bən
Quş olub havanda uçeydim, Vətən! [1, s.174]

Of dedim, dilim yandı
Od durdi kilim yandı
Bən vətəndəm ayrildım,
Torpağım, elim yandı [3, s. 22]

Məcburi miqrasiya ilə qarşılaşmış Axıska türkləri öz mənəvi etnik dəyərlərini qoruyub saxlayırlar, yaşadırlar. Qürurlu, ləyaqətli, zəhmətkeş, bütün sınaqlara sinə gələrək soy köklərinə sadiq qalmışlar:

Sökülməyən bənd-bərələr sökülər
Dəli çaylar yatağından çəkilər,
Dağlar-daşlar əriyib də tökülər,
Türklüyümüz yenilməz!

Qarı düşmən, yüz dəyişsin adımız,
Qandan gedməz dədə-baba odumuz,
Gör nə deyir sümüyümüz-südümüz,
Türklüyümüz yenilməz!

Vətənsizlik – xalq üçün böyük faciyədir. Türklər bu dərdin bütün sınaqlarından mərdanə çıxmışlar, daha da sıx birləşmiş, saflaşmış, doğma yurda daha möhkəm bağlanmışlar. 1956-cı ildə Axısqa türklərinə SSRİ-nin digər bölgələrinə köçmələrinə və məskunlaşmalarına icazə verildi, nəticədə 1958-1960-cı illərdə onların bir hissəsi Azərbaycana gəlmişdir. 1989-cu ilin iyulunda Özbəkistanın Fərqanə vadisi bölgəsində baş vermiş qanlı münaqişə nəticəsində Axısqa türklərini özbəklər kütləvi sürətdə ölkədən qovurlar. Bu prosesdə Axısqa türklərindən 51 nəfər öldürülür, qalanları isə Özbəkistanı tərk edir, Azərbaycana pənah gətirirlər. Xocalıda məskunlaşmış 86 nəfər Axısqa türkləri 26 fevral 1992-ci ildə erməni qatillərinin yerli əhaliyə qarşı törətdikləri soyqırıma məruz qalırlar [4, s.87]. 1989-1991-ci illərdə Gürcüstan hökuməti tək-tük qalmış türk ailəsini, hətta özünü "mesx" adlandıranları da yenidən yurdlarından, ölkədən çıxartdı. Beləliklə, 50 ildən sonra Özbəkistan və Gürcüstanda axısqalar ikinci sürgünə məruz qaldılar. Bu gün onlar dünyanın bir çox ölkələrinə səpələnmişlər. Dogu Anadolu bölgəsində (Ərzurum-Oltu, Hadman, Artvin-Savşat (Yusifeli, Ərdəhan, Qars kimi şəhərlərdə) dağınıq olaraq yaşayan Axısqa türklərinin danışdığı türkçə - vaxtı ilə Gürcüstanda yaşamış Axısqa türklərinin danışdığı türkçə ilə eynidir. Sürgün olunarkən sayı 100 mindən çox olan, bu gün 0,5 mln. çatmış Axısqa türkləri Azərbaycan, Türkiyə, Orta Asiya, Qazaxıstan, Şimali Qafqaz, Rusiya və Ukraynanın müxtəlif yerlərində yığcam icmalar halında yaşayır. Axısqa türklərinin bir çox nümayəndələri Azərbaycanın Saatlı, Sabirabad, Beyləqan, Xaçmaz, Quba, Şamaxı, Şəmkir, Gəncə bölgələrində məskən salıb. Doğma yer adlarını burada yaşadırlar. Məsələn, Mil-Muğan düzündə Axısqa, Varxan, Adıgün, Pulate, Sivri, Smada obaları belə yaranmışdır. Lakin hər bir türk əvvəl-axır Axısqaya, əsl Adıgünə, əsl Varxana qayıdacğına sidq ürəklə inanır [1, s.110]. Son illərdə Krasnodarda yaşayan Axısqa türklərinin ABŞ-a emiqrasiya məsələsi prezident Corc Buşun razılığı ilə baş verib. Yaşadıqları ölkədən asılı olmayaq Axıska türkləri milli-dini mənliklərini, mədəniyyətlərini qorumuşlar.

Rus mədəniyyəti, tarixini, elmini zənginləşdirən, dünyaya tanıtdıran yüzlərlə türk kökənli yazıçılar, şairlər, rəssamlar, alimlər vardır. Məsələn, F.M.Dostoyevski 1389-cu ildə Qızıl Ordadan Moskvaya köçmüş tatar əsilzadəsi Aslan Çələbi Mirzədən törəyən nəslin nümayəndəsidir. Yazıçı Aleksandr İvanoviç Kuprin (Kulunçak xanın nəsli Qasım xanın əyanı), yazıçılar İvan Bunin, Anna Axmatova, tarixçi Nikolay Karamzin, rəssam Kuinci (Yemənçi oğlu nəslindən) Arxip İvanoviç, feldmarşallar Mixail Kutuzov və Aleksandr Suvorov, qeneral Aleksandr Yermolov (Arslan Mirzə Yermola nəslindən), admiral Kolçak, bəstəkar Sergey Raxmaninov və başqaları.

Ədəbiyyat siyahısı:

1.Hacılı Asif. Axısqa türkləri: Vətən bilgisi. – İstanbul. – 2009. – 584 s.
2.Hacılı Asif. Ahıska türkləri: inanc dünyası.- Bakı, "Mütərcim" – 2014 – 107 s.
3.Kazımov İsmayıl. Axıska türklərin dili. Bakı, "Elm", 1999 – 231 s.
4.Kəlbizadə Elnur. Axıska türkləri: deportasiyadan Xocalı soyqırımına // "Qafqazda deportasiyalar", Respublika elmi konfransı. Tezislər. – Bakı. 29 noyabr 2018-ci il. – s.86-87.
5.Источники грузинских летописей. Три хроники. СМОМПК. – Тифлис, – 1900, 28-ci buraxılış, s.1-5.

NAXÇIVAN TÜRBƏLƏRİNDƏ SƏRDABƏLƏRİN QURULUŞU HAQQINDA

Günel Əliyeva
AMEA Arxeologiya və Antropologiya İnstitutu, kiçik elmi işçi
msaliyevagunel@mail.ru

***Açar sözlər**: Naxçıvan, memorial abidələr, sərdabə, qülləvari türbələr, kubşəkilli türbələr, memarlıq üslubu*
***Keywords**: Nakhchivan, memorial monuments, crypt, tower-shaped tombs, cube-shaped tombs, architectural style*

Naxçıvan bölgəsinin memarlıq abidələri, qədim şəhər yerləri və qalalar son bir neçə əsrdə səyahətçilərin, tarixçi və coğrafiyaşünasların diqqətini cəlb etsə də bu abidələr tədqiqatlara çox az cəlb olunmuş, əsas arxeoloji qazıntılar XX əsrin 20-ci illərindən sonra aparılmışdır [4, c.372-373]. Tədqiqatlar sübut edir ki, Azərbaycanın orta əsr şəhərlərində XI-XII əsrlərdə urbanizasiya prosesləri sürətlə gedirdi. Bu dövrdə Azərbaycan şəhərlərinin simasını məscidlər, minarələr, mədrəsələr, karvansaralar, örtülü bazarlar, ictimai tikililər müəyyən edirdi [2, s.73]. Memarlıq abidələri içərisində memorial abidələri xüsusilə qeyd etmək lazımdır.

Memorial abidələr, tikinti texnikasına, memarlıq üslubuna, interyer və eksteryerin bədii tərtibatına və funksional təyinatına görə Naxçıvan memarlıq məktəbinin dövrümüzədək yaxşı saxlanmış monumental tikilileridir. Dünya memarlığının inciləri sırasına daxil olan Yusif Küseyir oğlu türbəsi (1162), Möminə Xatun türbəsi (1187), Xaraba Gilan türbələri (XII-XIV əsrlər), Qarabağlar türbəsi (XIV əsr) və

Der günbəzi (XIV əsrin sonu-XV əsrin əvvəli) kimi memorial abidələr Naxçıvan memarlıq məktəbinin yaranması, inkişaf mərhələləri və arealını hərtərəfli araşdırmağa imkan verir. Bu abidələrin tədqiqi Naxçıvan memarlıq məktəbinin yaranması və inkişafında mühüm rolu olan ustaların yaradıcılığını araşdırmağa və obyektiv qiymətləndirməyə əsas yaradır [8, c.9). Ornamentlərin mükəmməl kompozisiyasına, epiqrafik mətnlərə və bədii tərtibatına görə Naxçıvan türbələri Orta əsrlər dövrü müsəlman-Şərq incəsənətinin, fəlsəfəsinin bir parçasıdır [1, s.51].

Yaxın və Orta Şərqin memarlıq inciləri sırasında olan Naxçıvan memarlıq abidələri – Yusif Küseyir oğlunun (1162) türbəsi, Xaraba Gilandakı səkkizbucaqlı türbə (1170-1175) və Möminə Xatun (1187) türbələri dahi memar Əcəmi Əbubəkr oğlu tərəfindən inşa olunmuşdur [7, c.21].

Naxçıvan memarlıq məktəbinə aid memorial abidələrin quruluşunda diqqəti cəlb edən əsas funksional elementlərdən biri də türbələrin sərdabələrinin quruluşudur. Sərdabələr memorial abidələrdə dəfn kamerası funksiyasını daşıdığına görə yerin altında işlənir. Bu səbəbdən onların xarici görünüşü – eksteryeri "yoxdur", daha dəqiq desək torpağın altında qaldığından görünmür. Sərdabələrin inşası zamanı əsas diqqət bu tikililərin interyerinin sadə bədii tərtibata malik, lakin olduqca davamlı olmasına diqqət edilmişdir. Memorial abidələrin yerüstü hissənin - türbənin quruluşu onun yeraltı hissəsinin sərdabənin quruluşundan o qədər də asılı olmamışdır. Belə ki, Naxçıvan memarlığında tək dayaq sütunlu səkkizbucaqlı, onbucaqlı sərdabələrin üzərində həm qülləvari, həm də kubşəkilli türbələrin ucaldıldığını görürük. Memarlıq tarixinə aid elmi ədəbiyyatda orta əsr türbələrinin geniş təsviri, plan və kəsikləri verilsə də, bu türbələrin quruluşundakı ayrı-ayrı elementlərin necə və nə səbəbdən yarandığı haqqında çox az məlumata rast gəlirik. Bu məqalədə, türbələrin sərdabələrinin orta əsrlər boyu təkamülünü, onların quruluşundakı əsas elementləri, abidənin tipini müəyyən edən əsas göstəriciləri araşdırmaq əsas məqsəd kimi qarşıya qoyulmuşdur.

Tədqiqat zamanı türbə tiplərinin, xüsusən onların sərdabələrinin müqayisəli təhlili əsasında abidənin qiymətləndirilməsi aparılmış, dövrün memarlıq abidələri içərisində yeri və tarixi əhəmiyyəti göstərilmişdir.

Naxçıvan memarlıq məktəbinə aid türbələrdə quruluşuna görə kvadrat, dördbucaqlı, xaç formalı, altıbucaqlı, səkkizbucaqlı, onbucaqlı sərdabələrə rast gəlinir. Sərdabələrin quruluşunda diqqəti cəlb edən onların daxildən və xaricdən fərqli quruluşda inşa olunmasıdır. Belə ki, sərdabələrin daxili hissəsinin neçə bucaqlı formada olmasından asılı olmayaraq onların xarici tərəfi dördbucaqlı formada inşa olunmuşdur. Bunun əsas səbəbi sərdabənin dəfn kamerası olmaqdan başqa, həm də türbənin kürsülüyü funksiyasını yerinə yetirməsidir. Türbə nə qədər hündür olurdusa, kürsülük də ona uyğun enli və davamlı inşa olunurdu**.**

Naxçıvanın XII-XV əsr türbələrində quruluşuna görə bir neçə tip sərdabəyə rast gəlinir.

1. Dördbucaqlı plana malik üzəri qövsvari tağ-tavanla örtülmüş sərdabələr.
2. Dairəvi plana malik üzəri yarımsferik tavanla örtülmüş sərdabələr.

3. Çoxbucaqlı, ortası xaç formalı, üzəri mürəkkəb quruluşlu tavanla örtülmüş sərdabələr.

4. Kvadrat planda olub ortası xaç formalı, üzəri mürəkkəb quruluşlu tavanla örtülmüş sərdabələr.

5. Çoxbucaqlı planda olub ortasında çoxüzlü dayaq sütunu olan sərdabələr.

Birinci tip sərdabələrin ən sadəsi dördbucaqlı planda işlənib üstü qövsvari tağ-tavanla örtülən türbələrdir. Belə türbələr adətən daşdan dördbucaqlı formada olur və kubşəkilli türbələrin ən sadə forması hesab olunur. Həmin türbələrin həcmləri kiçik olduğu üçün divarlarının eni də 50-70 sm arasında olur. Bu türbələrin sərdabələrinin qövsvari tavanının üst hissəsi horizontal şəkildədir və tavanın horizontal hissəsi, eyni zamanda türbənin döşəməsidir. Qeyd etmək lazımdır ki, belə tikinti texnikasından tək dayaq sütunlu sərdabələrin tavanında da istifadə edilmişdir.

Kubşəkilli türbələrin bu üsulla inşa olunan mini forması fundamentdən türbənin dam örtüyünə qədər daşla işləndiyi üçün monolit tikililər sırasına daxildir.

XIV əsrin əvvəllərindən başlayaraq geniş yayılan **ikinci tip sərdabələr** səkkizbucaqlı kürsülük içərisində səkkizbucaqlı planda işlənmiş və üstü qövsvari tağ-tavanla örtülmüş sərdabələrdir. Naxçıvan ərazisində bu tip sərdabələrin ən yaxşı nümunəsi Aza şəhər yerində "Der günbəzi" adlanan türbənin sərdabəsidir. Səkkiz üzlü türbənin yuxarı hissəsi bişmiş kərpiclə inşa olunmuşdur, dörd üzü açıq, dörd üzü qapalıdır. Üç yarusludur, səkkizbucaqlı gövdə üzərində ucalan üçüncü silindrik qat qövsvari tavanla örtülmüşdür. Türbənin bəzədilməsində qəhvəyi və mavi rəngli kaşılardan istifadə olunmuşdur [3, s.127-141]

Türbənin sərdabəsinin divarları çəhrayı rəngli (tufit) daşlarla işlənmişdir. Kürsülüyün kənar tərəfləri də bu cür daşlarla işlənmiş, arada qalan hissə çay daşları və gəc məhlulu ilə doldurulmuşdur. Belə konstruksiya türbəni təbii qüvvələrin təsirinə dayanıqlı, zəlzələyə davamlı etmiş, ona estetik cəhətdən yaraşıqlı görkəm vermişdir.

Üçüncü tip sərdabələrin ən yaxşı nümunəsi Xaraba Gilan şəhər yerində Birinci memorial kompleksdəki səkkiz üzlü türbənin və Möminə Xatun türbəsinin sərdabələridir. Xaraba Gilan şəhər yerindəki səkkizbucaqlı türbənin sərdabəsi də səkkizbucaqlı planda işlənmişdir. Türbənin divarlarının eni 1,5 m olub 20x20x5 sm ölçülü bişmiş kərpiclərlə inşa olunmuşdur. Yarımqazma şəklində olan sərdabənin divarları daşla işlənmişdir [3, c. 45]. Lakin içəridən əlavə olaraq səkkizbucaqlının tərəfləri bir ara intervalla döşəmədən başlayaraq üçbucaq formasında işlənmiş və sərdabənin içərisinə bərabəryanlı xaç forması verilmişdir. Belə kombinə edilmiş konstruksiyanın qurulmasında məqsəd, sahəsi böyük olan sərdabənin üzərini zəlzələyə davamlı, möhkəm tavanla örtmək olmuşdur. Xaçvari planda olan sərdabənin tavanı çatma tağ formasında işlənmişdir. Bu zaman "xaç"ın tərəfləri qövsvari formada işlənərək mərkəzdə çatma tağla tamamlanır.

Çatma tağın mərkəzi nöqtəsini "xaç"ın daxili küncləri ilə birləşdirən "sütun" gəc və qamışla qəlibdə tökülmüşdür. Bu tikinti texnikası, Xaraba Gilan şəhər yerindəki eyni tipli – xaç formalı dini, ictimai və inzibati tikililərin hamısında izlənir.

Estetik görünüşünə və bədii ifadə formalarına görə qülləvari türbələrdən kəskin surətdə fərqlənən kubşəkilli türbələrin də xaç formalı sərdabələri **(dördüncü tip)** vardır.

Hər iki tip türbənin xaç formalı sərdabələri funksional cəhətdən eyni olsalar da, konstruktiv cəhətdən fərqlənirlər. Qülləvari türbələrdə (Möminə Xatun, Xaraba Gilanda Birinci memorial kompleksdəki səkkiz üzlü türbə) xaçın ucları birbaşa türbənin divarında qurtarır. Burada, sərdabənin divarları üzərində türbənin divarları ucalır.

Kubşəkilli türbələrin xaç formalı sərdabələrinin quruluşu ilə çox üzlü türbələrin xaç formalı sərdabələrinin quruluşundakı əsas fərq ondadır ki, kubşəkilli türbənin içərisində əlavə dörd divar işlənmiş və onun içərisində xaç formalı sərdabə qurulmuşdur. Sərdabənin bu üsulla işlənməsi ümumi həcmi azaltsa da, möhkəmliyi və zəlzələyə davamlılığı artırmışdır. Maraqlıdır ki, xaç formalı sərdabələrin üstü tavanla örtülmüş, bu zaman tağın yuxarı hissəsinin maksimum horizontal vəziyyətə yaxın olmasına səy göstərilmişdir. Xaraba Gilan şəhər yerindəki Birinci memorial kompleksin səkkiz üzlü türbəsinin, İkinci memorial kompleksin 1 saylı türbəsinin tağı bişmiş kərpiclə işlənmişdir. Ona görə də ilk baxışda tağın aşağı hissəsinin daşla işləndiyi təsəvvürü yaranır. Yeri gəlmişkən qeyd edək ki, ictmai binaların, yaşayış evlərinin, müdafiə divarlarındakı bürclərin də xaç formalı alt mərtəbələri analoji üsulla işlənmişdir. Xaç formalı, üzəri tağ-tavanla örtülmüş tikililər Xaraba Gilan şəhər yerində geniş yayılmışdır. Bu tip tikililər Narınqalanın su anbarında, müdafiə divarındakı dairəvi bürcün alt mərtəbəsində, Şəhristandakı-İçərişəhərdəki yaşayış evlərinin birinci mərtəbələrində, kubşəkilli və qülləvari türbələrin sərdabələrində tədqiq edilmişdir.

Naxçıvan memarlıq məktəbi abidələri içərisində ən mürəkkəb və mükəmməl quruluşa malik sərdabələr **beşinci tip** dayaq sütunlu çoxbucaqlı plana malik sərdabələrdir. Bu cür quruluşa malik sərdabələr həm kubşəkilli, həm də qülləli türbələrdə rast gəlinir. Tək dayaq sütunlu sərdabələrə Naxçıvandakı Möminə Xatun türbəsi (1187) və Xaraba Gilandakı kubşəkilli türbədir [7, c.22, рис. 16].

Naxçıvan-Marağa memarlıq məktəbinə aid türbələr içərisində, hələlik aşkar edilən ən hündür və ən mürəkkəb quruluşa malik türbə Möminə Xatun türbəsidir (XII əsr). Bu türbənin həm sərdabəsi, həm də türbə hissəsi ön üzlü plandadır. Sərdabənin interyeri, xüsusən tavan hissəsi bədii ifadə formasına və estetik görünüşə malikdir. Burada tavanın hər üzdən başlanan hissəsi mərkəzə doğru simmetrik şəkildə kiçilərək ortada birləşir. Sərdabənin həm divarlarında, həm də tavanında mütənasiblik və hər bir elementin vahid kompozisiyanın simmetrik tərkib hissəsi olması Naxçıvan memarlarının və ustaların memarlıq və tikinti sahəsində yüksək bilik və bacarığa malik olduqlarını göstərir.

Naxçıvanda **beşinci tip** sərdabələrin daha bir mükəmməl nümunəsi Xaraba Gilan şəhər yerindəki kubşəkilli türbənin sərdabəsidir. Sərdabənin tikintisində bişmiş kərpicdən istifadə edilməmiş, bütünlüklə yerli dağ daşından istifadə olunmuşdur. Bu memorial abidənin həm türbə, həm də sərdabə hissəsi digər türbələrdən fərqlənir. Türbənin içərisi ziyarətgah olmuş, şərq tərəfində çatma tağlı böyük portal işlənmişdir.

Türbənin sərdabəsini daş tikililərin ən mükəmməl konstruksiyaya malik nümunəsi hesab etmək olar. Burada həm divarların, həm sütunun, həm də tavanın daşları qalınlığına, eninə, uzunluğuna görə bir-bir seçilmişdir. Tikinti texnikasına, hörgünün keyfiyyətinə görə də çox möhkəm və dayanıqlıdır.

Bu yazıda orta əsr türbələrinin və sərdabələrinin forması, konstruktiv quruluşu və tikinti texnikasının müxtəlif cəhətləri haqqında təhlillər apardıq. Ümumiyyətlə, Naxçıvan türbələrinin sərdabələri hərtərəfli araşdırma tələb edən tarixi-arxeoloji tədqiqat mövzusudur.

Ədəbiyyat siyahısı:

1.Aliyev K. Başlangıçların Başlangıcı: Nahcivan - Marağa Mimarlık Biçimlerinin Mahiyeti. İstanbul, Akademi Titiz Yayınları, 2015, 482 s.
2.Dostiyev T.M. Azərbaycanın orta əsr şəhərləri (IX-XIII əsrin əvvəlləri). Bakı, Elm və Təhsil, 2016, 200 s.
3.İbrahimli B. Naxçıvanın orta əsr şəhərləri: AZA (tarixi-arxeoloji tədqiqat). Bakı, Avropa nəşriyyatı, 2020, 348 s.
4.Археология. Крым, Северо-восточное Причерноморье и Закавказье в эпоху средневековья. IV-XIII века. Москва, Наука, 2003, 533 с.
5.Вартанесов И.Л. Мавзолеи близ селения Дер. Памятники архитектуры Азербайджана. Сборник материалов. Баку, Азер нешр, 1950, с 57-62; 59-61.
6.Ибрагимов Б.И. Средневековый город Киран. Баку-Москва, 2000, 176 с.
7.Мамед-заде К, М., Саркисов Н.А. Орнаментально-декоративное убранство памятников архитектуры Азербайджана. Баку, Элм, 1986, 44 с.
8.Мамедов Ф.Г. Архитектурные связи школ зодчества средневекового Азербайджана. Баку, Элм, 1988, 120 с.

ORTA ƏSR BEYLƏQAN ŞƏHƏRİNİN SƏLCUQ DÖVRÜ KERAMİKASININ RƏQƏMSALLAŞDIRILMASI VƏ MÜHAFİZƏSİ (MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN MATERİALLARI ƏSASINDA)

Arzu Mirzəhmədova
Milli Azərbaycan Tarixi Muzeyi, kiçik elmi işçi
arzumirzehmedova@gmail.com

Açar sözlər: *Milli Azərbaycan Tarixi Muzeyi, Arxeologiya fondu, keramika, rəqəmsallaşdırma, mühafizə*
Keywords: *National Museum of History of Azerbaijan, Archaelogical fund, ceramic, digitization, protection*

Səlcuq dövrü Azərbaycan mədəniyyətində yeni elementlərin meydana çıxması ilə yanaşı mövcud ənənələrin də inkişafına səbəb olmuşdur. Bunun bariz örnəyi orta əsr Beyləqan şəhər yerindən aşkar olunmuş Səlcuq dövrü maddi mədəniyyət nümunələridir. Orta əsr Beyləqan şəhəri XI-XIII əsrlərdə Azərbaycanın sosial, iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Beyləqan şəhər yerində arxeoloji kəşfiyyat və qazıntı işləri 1933-cü ildə akad. İ.İ.Meşşaninovun rəhbərliyi altında, 1936-ci ildə isə Ə.K.Ələkbərovun rəhbərliyi ilə aparılmışdır. 1951-ci ilin yanvar ayında İ.M.Cəfərzadənin rəhbərliyi ilə növbəti arxeoloji qazıntılara başlanılmışdır. Beyləqan şəhər yerində əsaslı və geniş miqyaslı arxeoloji tədqiqat işləri 1953-1958-ci illərdə arxeoloq A.A.İesseninin rəhbərliyi ilə aparılmış, ekspedisiyanın fəaliyyəti nəticəsində şəhərin müxtəlif inkişaf dövrlərini əks etdirən maddi mə-

dəniyyət qalıqları üzə çıxarılmışdır. 1959-1968-ci illərdə şəhər yerində aparılmış qazıntılara isə Q.M.Əhmədov rəhbərlik etmişdir.

Orta əsr Beyləqan saxsı məmulatı şirsiz və şirli olmaqla iki əsas qrupa bölünür və hər iki qrupa aid saxsı qabların gili təxminən eyni kimyəvi tərkibə malikdir [2, s.80]. Beyləqan dulusçuları anqobdan, sonra isə rəngsiz şəffaf şirdən (qurğuşun oksidindən) istifadə etmişlər. Anqobun qabların bədii işlənməsində böyük əhəmiyyətini nəzərə alaraq, bəzi mütəxəssislər şirli qabları məhz bu iki böyük qrupa - anqoblu və anqobsuz kimi təsnif etmişlər [2, s.32). Beyləqanın şirli keramika nümunələri gilinin tərkibinə görə iki qrupa ağ və qırmızı gildən hazırlanmış saxsı məmulatlarına bölünür. Belə ki, ağ gil və qırmızı gil anlayışı ümumi xarakter daşıyaraq, materialları bir-birindən ayırmaq üçün istifadə edilir. Ağ gil nümunələrinə fayans, farfor, seladon kimi qablar aid edilə bilər. Qırmızı gildən hazırlanmış nümunələrə gəldikdə isə çoxlu sayda qırmızı, boz və qəhvəyi rəngli gildən hazırlanmış keramika məmulatı aid edilir [1, s.211].

Orta əsr Beyləqan şirli saxsı məmulatının dövrlər üzrə bölgüsünü A.L.Yakobson vermiş və onları erkən islam, keçid və Səlcuq dövrü olaraq qruplaşdırmışdır.Erkən islam dövrü şirli saxsı qab nümunələri IX-X əsrlər dövrünü əhatə edir. Keçid dövrü X əsrin sonu XI əsrləri özündə ehtiva edir, XI əsrin sonundan XIII əsrin əvvəlinə qədər olan dövr isə Səlcuqlu dövrüdür. Beyləqan keramikasında Səlcuq sənətinə xas olan nəbati motivləri, zoomorf təsvirlər, epiqrafik yazılar və həndəsi ritmlərin xüsusiyyətləri müşahidə edilir.

Bu dövrdə şirli qab istehsalı bədii sənətkarlığın müstəqil sahələrindən birinə çevrilmiş və naxış çəkmə texnikasında dəyişikliklər olmuşdur. Hələ X əsrdə yaranmış qrafik naxışlı qablara əlavə şabalıdı və yaşıl rəngli boya ilə təsvirlər çəkilərək, iki texniki üsulla çoxrəngli müxtəlif naxışlar alınmışdır. Bu dövrdə istifadə edilmiş başqa bir texniki üsul fonu qazımaqla naxış işləmələrini üzə çıxarmaq üsuludur. XII əsrdə bu üsulla hazırlanmış qabların naxışları incə və zərifdir. Qab anqobla örtüldükdən sonra onun üzərində çəkilən naxış və ya rəsmin fonu qazılırdı. Daha sonra isə üstündən rəngsiz şəffaf şir çəkilirdi. Nəticə olaraq qabın üzərində həm müxtəlif rəngli həm də relyefli naxış təsviri alınırdı (şəkil 1) [2, s.59]. A. L. Yakobsonun fikrincə bu metod Azərbaycanda formalaşmışdır [4, c.252]. Bu üsulun tətbiqinə daha çox zoomorf təsvirli şirli qabların bədii tərtibatında rast gəlirik. XI-XIII əsrin əvvəllərində hazırlanmış şirli qablara qrafik və yaxud qazıma texnikası ilə (anqobüstü) naxış çəkilmiş və ancaq bir şirlə örtülmüş qablar aiddir (şəkil 2,3). Beyləqanın şirli qablarının içərisində üzərində ərəb və fars dilində yazılar olan nümunələr də var (şəkil 4).

Azərbaycan ərazisində Səlcuq fayansı tipologiyasının tədqiqi Səlcuqlar dövrünün mədəni əlaqələri, xronoloji məlumatları və regional xüsusiyyətlərin öyrənilməsi baxımından qiymətli mənbədir (şəkil 5). Azərbaycanda tapılan Səlcuq dövrünə aid fayansları üç böyük qrupa bölmək olar: saya, şiraltı və şirüstü naxışlı [3, c.13]. Şiraltı naxışlı fayanslar arasında isə siluetlər və Səlcuq bəyazı xüsusi yer tutur. Səlcuq dövrünə məxsus yeniliklərdən biri də "düyü dənəsi" texnikasıdır. Azərbaycanda aşkar edilmiş "düyü dənəsi" texnikası ilə hazırlanmış fayans nümunələri monoxrom və polixrom olmaqla iki qrupa bölünür.

Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya Fondu olduqca zəngin kolleksiyaya sahibdir. Burada onların qorunması, elmi işlənməsi və həm də təbliği prosesi həyata keçirilir. Arxeoloji qazıntılar nəticəsində əldə edilmiş keramika nümunələri Arxeologiya Fondunda inventarlaşdırılır, material sinfinə görə ayrılır və temperatur-rütubət rejiminə nəzarət edilən xüsusi fond otaqlarında saxlanılır. Bu maddi mədəniyyət nümunələrinin xeyli hissəsi Azərbaycanın tarixən Türk dünyasının bir hissəsi olduğunun bariz göstəricisidir. Bunu biz Səlcuq dövrünə aid maddi irs timsalında əyani şəkildə görə bilirik. Milli Azərbaycan Tarixi Muzeyinin Arxeologiya fondu artefaktların qəbulu, mühafizə işi, ümumilikdə isə materialların qorunmasını XX əsrin 20-ci illərindən başlayaraq həyata keçirir. Arxeologiya fondunda artefaktların qorunmasında ilkin mərhələ artefaktların fonda qəbulu və onların inventar kitabında qeydiyyata alınmasıdır. Sonra isə tapıntılar saxlanc yerlərində yerləşdirilir. Fond materialları inventar kitabına salındıqdan sonra elektron pasportu tərtib olunur (şəkil 6). Tapıntının fonddakı yeri haqqında qeydlər *Microsoft Office Word* proqramında Arxeologiya Fondunun Elektron Məlumat Bazasına (AFEMB) köçürülür. Arxeologiya fondu uzun illər ərzində orta əsr Beyləqan şəhər yerində aparılmış arxeoloji qazıntılar nəticəsində əldə olunmuş materialları özündə birləşdirir və onların mühafizəsi işini təşkil edir.

Səlcuq dövrü keramikasının rəqəmsallaşdırılması prosesində əsas məqsəd materialların daimi mühafizəsini həyata keçirməklə yanaşı tədqiqatçılar üçün elmi resurs yaratmaq, təbliğat və ekspozisiya imkanlarını artırmaq və muzey fondunun itki riskini azaltmaqdır. Hər bir material üçün fondun elektron pasport sistemində - inventar və səhra nömrəsi, ümumi adı, tərkibi, miqdarı, dövrü, tapan şəxs və tapılma yeri, tarixini qeyd etməklə yanaşı saxlanma vəziyyəti və fondda yerləşdiyi saxlanma yeri, DK nömrəsi və əlavə məlumatlar varsa qeyd etmək, öyrənilməsi, təsviri həmçinin ölçüləri göstərilməklə foto rəsmi yerləşdirilməlidir (şəkil 7). Ancaq ümumilikdə materialların saxlanma şəraiti ilə əlaqədar müəyyən problemlər də mövcuddur. Təəssüf ki, bəzi fraqmentlərin səthində çat və mexaniki zədələr, duzlaşma proseslərini görmək olur. Fondda mühafizə tədbirləri kimi, səth təmizlənməsi, fraqmentlərin birləşdirilməsi və yapışdırılması prosesləri fond əməkdaşları tərəfindən həyata keçirilir. Bu kolleksiya nümunələrinin rəqəmsallaşdırılması nəticəsində məlumatların təhlükəsizlik şifrələnməsi təmin edilir, mühafizə ilə bağlı risklər azalır, elmi araşdırmaların imkanları genişlənir, beynəlxalq tədqiqat əməkdaşlığı yaradılır və muzey ekspozisiyasının interaktivləşdirilməsi mümkün olur.

Ədəbiyyat siyahısı:

1. Ağalarov M. Beyləqanın şirli keramikası: yerli və gətirilmə xüsusiyyətlər// 2. Uluslararası Balkanlar, Anadolu, Kafkasya ve Türkistan Coğrafyası sanat, kültür, tarih və folklor kongresi/Sanat etkinlikləri, May 2022, Aydın-TÜRKİYE, s. 211-213.

2. Əhmədov Q. M. Orta əsr Beyləqan şəhəri. Elm nəşriyyatı, Bakı, 1979. s. 200

3. Агаларов М. Типология Сельджукских фаянсов с территории Азербайджана// Ахинжановские чтения - 2024. Материалы международной научной конференции студентов и молодых учёных, г. Алматы, 24-26 апреля 2024 г, Алматы 2024. с. 12-14

4. *Якобсон А.Л. Художественная керамика Байлакана (Орен-кала). // МИА. 1959, №67, с.* 228-303

ŞƏKİLLƏR:



Şəkil 1.



Şəkil 2.




Şəkil 3.



Şəkil 4.



Şəkil 5.



Şəkil 6.



Şəkil 7.

ERKƏN ORTA ƏSRLƏRDƏ GƏNCƏ–QAZAX BÖLGƏSİNDƏ TÜRK SİYASİ-MƏDƏNİ TƏSİRLƏRİ

Nihad Baxşiyev
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasının II kurs magistrantı
nihadbaxsiyev1@gmail.com
Elmi rəhbər: dosent Yunis Nəsibli

Açar sözlər : *Şəddadilər, Gəncə, Arran, Qazax, türk tayfaları*
Keywords: *Sheddadis, Ganja, Arran, Kazakh, turkic tribes*

Erkən orta əsrlər dövrü (təxminən V–XII əsrlər) türklərin Avrasiya məkanında geniş siyasi və etnik proseslərə təsir göstərdiyi mühüm bir mərhələdir. Bu dövrdə formalaşan türk dövlətləri təkcə Orta və Daxili Asiyada deyil, Qafqaz, Ön Asiya və Şərqi Avropa regionlarında da siyasi tarazlığa təsir etmişdir. Göytürklər, Uyğur xaqanlığı, Xəzər xaqanlığı və Səlcuqlar kimi dövlətlər öz idarəçilik sistemi, hərbi-siyasi gücü və mədəni təsirləri ilə geniş coğrafiyada iz qoymuşlar. Bu proseslər Cənubi Qafqazda, xüsusilə də Gəncə–Qazax bölgəsində etnik və siyasi vəziyyətin formalaşmasına birbaşa təsir göstərmişdir. Bölgənin strateji mövqeyi, əlverişli təbii-coğrafi şəraiti və tarixi ticarət yolları üzərində yerləşməsi burada türk tayfalarının məskunlaşmasını sürətləndirmiş və erkən Azərbaycan türk dövlətçiliyinin formalaşması üçün zəmin yaratmışdır.

Gəncə-Qazax bölgəsində türk dövlətlərinin izləri: Erkən orta əsrlər – V–XI əsrlər – türk xalqlarının siyasi, sosial və mədəni inkişafı baxımından həlledici tarixi mərhələ kimi çıxış edir. Bu dövr Avrasiyanın geniş coğrafiyasında bir-birini əvəz edən və hər biri regionun siyasi mənzərəsini dəyişdirən türk dövlətlərinin meydana çıxması ilə səciyyələnir. Hun imperiyasının dağılmasından sonra türk dünyasının liderliyini qəbul edən Göytürk xaqanlığı, onun ardınca yaranan Uyğur dövləti, Qarluq və Kimek birlikləri, Qıpçaq konfederasiyası, Avrasiyanın qərb hissəsində isə Xəzər xaqanlığı bütövlükdə orta əsr siyasi mühitini formalaşdıran əsas qüvvələr olmuşdur. Bu dövlətlərin təsiri yalnız öz coğrafi sərhədləri ilə məhdudlaşmır, həm Şərqi Avropa, həm Ön Asiya, həm də Qafqaz regionunun ictimai-siyasi quruluşunu dəyişdirirdi.

Türk dövlətlərinin formalaşması onların yayılma arealında yaşayan xalqlarla sıx qarşılıqlı əlaqələri tətikləyirdi. Xüsusilə Qafqaz regionu – siyasi sabitlik və iqtisadi tranzit məkanı kimi – türk dövlətlərinin həm hərbi, həm diplomatik, həm də miqrasiya siyasətində mühüm yer tuturdu. Regionun mərkəzi zonalarından biri olan Gəncə–Qazax bölgəsi erkən orta əsrlərdən başlayaraq türk tayfalarının məskunlaşdığı, siyasi təsirin formalaşdığı, ticarət yollarının keçdiyi strateji bir məkan kimi ön plana çıxmışdır. Bölgənin bu əhəmiyyəti həm coğrafi mövqeyi, həm də siyasi proseslərdə oynadığı roldan irəli gəlirdi [1, s. 230].

Göytürk xaqanlığının VII əsrdə Qafqaz Albaniyası ilə qurduğu yaxın ittifaq bölgədə türk mənşəli tayfaların məskunlaşmasını sürətləndirmişdir. Albaniya mənbələri savir, hun, bulqar və avar mənşəli tayfaların Qafqaza daxil olmasını təsdiqləyir və onların bir qismi Kür–Araz ovalığında, xüsusilə Gəncə və Qazax ətraflarında

məskunlaşmışdır. Bu tayfaların siyasi fəaliyyətinin izləri arxeoloji tapıntılarda da öz əksini tapır: atlı döyüşçü təsvirləri, türk tipli silah nümunələri, at dəfnləri və qoçqoyunlu heykəltəraşlıq ənənəsinin ilkin formaları bölgədə erkən türk mədəni təsirini sübut edir. Gəncə–Qazax zonasında tapılan tunc ox ucluqları, dəmir qılınc və nizə nümunələri Göytürk dövrünün hərbi-texniki xüsusiyyətlərini xatırladır.

Xəzər xaqanlığının yüksəlişi bölgənin tarixində yeni mərhələ açmışdır. VII əsrin ikinci yarısından başlayaraq Xəzər dövləti Qafqazın şimal hissəsinə və keçid yollarına nəzarəti ələ almış, bu vəziyyət Gəncə–Qazax bölgəsinə də birbaşa təsir göstərmişdir. Xəzərlərin əsas məqsədi ticarət yollarını qorumaq və Bizans–Sasanilər rəqabətini balanslaşdırmaq idi. Bu səbəbdən bölgə müharibələrin deyil, daha çox iqtisadi canlanmanın mərkəzinə çevrildi. Xəzər dövründə Gəncənin şəhər kimi yüksəlişi, sənətkar qruplarının formalaşması, metal emalı mərkəzlərinin genişlənməsi mənbələrdə qeyd olunur. Bölgənin tranzit rolu Bərdə–Gəncə–Dəbil xətti boyunca ticarət axınlarını gücləndirmiş, bunun nəticəsində Gəncə IX əsrdən etibarən Qafqazın aparıcı şəhərlərindən birinə çevrilmişdir.

Türk tayfa birlikləri bölgənin etnik quruluşuna da təsirsiz qalmamışdır. Savir, xəzər, bulqar və erkən oğuz qruplarının bölgəyə axını nəticəsində Gəncə–Qazax zonasında türk mənşəli əhali kütləsi getdikcə artmış, yerli alban əhalisi ilə mədəni inteqrasiya prosesləri baş vermişdir. Bu proses daha sonra Səlcuq dövründə sürətlənəcək etnik sintez üçün zəmin yaratmışdır.

XI əsrdə Qıpçaq konfederasiyasının yüksəlişi bölgənin tarixində yenidən dönüş nöqtəsi yaratdı. Qıpçaqların Cənubi Qafqaza daxil olması həm hərbi-siyasi, həm də etnik təsirin güclənməsi ilə nəticələndi. Qıpçaqlar ticarət yollarını nəzarətə götürməklə yanaşı, Kür çayının yuxarı axarı boyunca məskunlaşmış, Qazax–Ağstafa–Tovuz xətti onların əsas dayanma məkanlarından biri olmuşdur. Qıpçaq tayfalarının bölgəyə gətirdiyi mədəniyyət – atçılıq ənənələri, döyüşçü elitası, metallurgiya və zərgərlik mədəniyyəti – arxeoloji materiallarla da təsdiqlənir. Qoç və at fiqurlu daş abidələrin bölgədə geniş yayılması da məhz bu dövrün təsirinin davamıdır [5, s. 15].

Türk dövlətlərinin bölgəyə təsiri yalnız hərbi-siyasi proseslərlə məhdudlaşmırdı. Onların idarəçilik sistemində tətbiq olunan bəzi modellər – hərbi əsillərə əsaslanan torpaq bölgüsü, vergi strukturunun yenilənməsi, ticarət yollarının qorunması üçün xüsusi hərbi dəstələrin ayrılması – daha sonrakı Səlcuq və Eldənizlər dövrünün idarəçilik ənənələrinə təsir göstərmişdir. Bu baxımdan Gəncə–Qazax bölgəsi təkcə siyasi hərəkətliliyin deyil, həm də dövlətçilik təcrübələrinin formalaşdığı məkanlardan biri kimi çıxış edir.

Erkən orta əsrlərdə türk dövlətlərinin Avrasiyada formalaşması Gəncə–Qazax bölgəsinin siyasi, etnik və mədəni inkişafını bilavasitə müəyyənləşdirmişdir. Türk tayfalarının ardıcıl miqrasiyası, Göytürk və Xəzər dövlətlərinin diplomatik və hərbi siyasəti, Qıpçaq konfederasiyasının bölgədəki üstünlüyü nəticəsində Gəncə–Qazax zonası türklərin daimi məskunlaşma və təsir mərkəzinə çevrilmişdir. Bu proseslər Azərbaycan türklərinin etnogenezində, bölgənin şəhər mədəniyyətinin formalaşmasında, ticarət yollarının bərpasında və siyasi məkanda türk kimliyinin möhkəmlənməsində həlledici rol oynamışdır. Bu baxımdan Gəncə–Qazax bölgəsi

erkən orta əsrlərdən etibarən həm Qafqaz tarixinin, həm də ümumtürk tarixi proseslərinin ayrılmaz hissəsinə çevrilmişdir.

X əsrin sonu – XI əsrlər Cənubi Qafqazın siyasi tarixində yeni bir mərhələ açdı. Bu dövrdə Arran ərazisində hakimiyyətə gələn Şəddadilər sülaləsi Azərbaycan siyasi həyatında mühüm rol oynadı. 971-ci ildən etibarən Gəncənin Şəddadilərin paytaxtına çevrilməsi həm şəhərin, həm də ona bitişik Gəncə–Qazax bölgəsinin iqtisadi, sosial və siyasi inkişafına ciddi təkan verdi. Şəddadilərin paytaxt olaraq Gəncəni seçməsi təsadüfi deyildi. Şəhərin strateji mövqeyi, ticarət yolları üzərində yerləşməsi, güclü əkinçilik və sənətkarlıq ənənələri, habelə hərbi baxımdan əlverişli relyefi sülaləni bu ərazidə möhkəmlənməyə sövq edirdi [4, s.124].

Gəncə Şəddadilər dövründə yalnız siyasi mərkəz deyil, eyni zamanda iqtisadi həyatın, diplomatik əlaqələrin və hərbi idarəçiliyin ən mühüm məkanı oldu. Şəhərin ətrafındakı Gəncə–Qazax bölgəsi isə paytaxtın ərzaq təminatını, hərbi qüvvələrin atçılıq bazasını, metallurgiya və zireh istehsalı üçün lazım olan resursları təmin edən strateji sahə kimi çıxış edirdi. Qazax düzənliyi Şəddadilərin atlı qoşunlarının formalaşması üçün ideal mühit yaradırdı və bu səbəbdən bölgə ordunun əsas dayanma mərkəzlərindən biri hesab olunurdu. Şəddadilərin hərbi gücündə atlı süvarilərin xüsusi rolu olduğundan Gəncə–Qazax torpaqları onlar üçün sadəcə periferiya deyil, dövlət mexanizmini təmin edən əsas baza idi [1, s.67].

Gəncə şəhərinin inkişafında Şəddad ibn Mərzuban və xüsusilə də Fəzl ibn Məhəmmədin fəaliyyəti diqqət çəkir. Onların hakimiyyəti dövründə şəhər möhkəmləndirilmiş müdafiə divarları ilə əhatə olunmuş, yeni bazarlar, sənətkarlıq məhəllələri, karvansaralar və yol infrastruktur obyektləri inşa edilmişdir. Bu inkişaf Qazax bölgəsi ilə iqtisadi əlaqələri gücləndirmiş, bölgənin kənd təsərrüfatı məhsulları Gəncə bazarlarına tədarük edilərək ticarət dövriyyəsini artırmışdır. Qazaxın maldarlıq ənənələri, geniş otlaq sahələri və Kür çayı boyunca əkinçilik imkanları Gəncə üçün dayanıqlı iqtisadi baza formalaşdırırdı.

Şəddadilərin hakimiyyəti dövründə bölgənin etnik tərkibi də müəyyən dəyişikliklərə uğramışdır. Hun-Xəzər mənşəli qədim türklərlə yanaşı, XI əsrdə bölgəyə daxil olan oğuz–qıpçaq qrupları Gəncə–Qazax zonasında məskunlaşmağa başlamışdı. Səlcuqların Qafqaza yürüşlərindən əvvəl bölgədə artıq güclü türk etnik mühiti formalaşmışdı. Şəddadilərin özlərinin də türklərlə yaxın siyasi əlaqələri, oğuz tayfa birlikləri ilə müttəfiqlik siyasəti türk elementlərinin bölgəyə daha sıx inteqrasiyasına şərait yaradırdı. Bütün bunlar daha sonra XII əsrdə Azərbaycan Atabəyləri dövlətinin qurulması üçün tarixi zəmin hazırlamışdır.

Gəncə–Qazax bölgəsi Şəddadilər dövründə yalnız iqtisadi mənada deyil, mədəni baxımdan da yüksəliş dövrünü yaşadı. Gəncə şəhəri həmin dövrdə Arranın ən böyük sənətkarlıq mərkəzlərindən birinə çevrilmiş, metal emalı, toxuculuq, zireh istehsalı və zərgərlik inkişaf etmişdi. Qazax və Şəmkir bölgələrindəki dəmir və mis yataqları Gəncə sənətkarlarının məhsullarına xammal təmin edirdi. Bu, paytaxtın iqtisadi müstəqilliyini artırırdı [2, s.423].

Siyasi baxımdan Gəncə–Qazax bölgəsi Şəddadilərin həm müdafiə zolağı, həm də diplomatik əlaqələr sahəsi idi. Kür çayı boyunca yerləşən Qazax bölgəsi Gürcüstanla olan sərhədlərə yaxın olduğundan Şəddadilər burada hərbi istehkamlar ya-

ratmış, Gürcü çarları ilə aparılan mübarizədə bölgəni dayaq nöqtəsi kimi istifadə etmişlər. Gəncə şəhəri isə həm Bizans, həm Şirvanşahlar, həm də Səlcuqlar arasında diplomatik əlaqələrin mərkəzi olduğundan bölgənin təhlükəsizliyi dövlət siyasətinin əsas istiqamətlərindən biri idi.

Şəddadilərin paytaxtı Gəncə olduğu dövrdə Gəncə–Qazax bölgəsi yalnız Arran ölkəsinin deyil, bütün Cənubi Qafqazın mühüm siyasi, iqtisadi və hərbi mərkəzlərindən birinə çevrilmişdir. Bu dövr bölgənin sonrakı inkişafı üçün əsas baza yaratmış, həm şəhər mədəniyyəti, həm də türk etnik-siyasi varlığının möhkəmlənməsi baxımından həlledici mərhələ olmuşdur. Şəddadilərin Gəncəni paytaxt seçməsi bölgənin tarixi inkişaf trayektoriyasına dərin təsir göstərmiş və Qafqaz tarixində Gəncə–Qazax zəncirinin xüsusi yer almasına səbəb olmuşdur.

Erkən orta əsrlərdə türk dövlətlərinin Avrasiyada genişlənməsi Qafqaz bölgəsinə, xüsusilə Gəncə–Qazax ərazisinə güclü siyasi, hərbi və etnik təsir göstərmişdir. Hun, Göytürk, Xəzər və Qıpçaq kimi türk birliklərinin fəaliyyətləri bölgənin əhalisinin formalaşmasına, ticarət yollarının canlanmasına və şəhər mədəniyyətinin inkişafına şərait yaratmışdır. Nəticədə Gəncə–Qazax zonası erkən orta əsr türk dövlətçiliyinin Qafqazdakı mühüm dayaqlarından birinə çevrilmiş və Azərbaycan türklərinin etnogenezində aparıcı rol oynamışdır.

Ədəbiyyat siyahısı:

1. *Azərbaycan türkləri (qədim və erkən orta əsrlər dövründə). Bakı, Elm, 2011, 560 s.*
2. *Tağıoğlu Ə. Qədim Ön Asiya və Ön Qafqaz türk tayfaları. Bakı, Nurlan, 2008, 799 s.*
3. *Məmmədova Ş., Məmmədli Ş. Qafqaz xalqları tarixinin mənbəşünaslığı. Bakı, 2017, 226 s.*
4. *Məmmədov T. Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, Elm, 2006, 400 s.*
5. *Bünyadov Z. Azərbaycan VII–IX əsrlərdə. Bakı, Elm, 2007, 608 s.*

TÜRK ETNOMƏDƏNİ SİSTEMİNDƏ İNSAN KONSTİTUSİYASININ EKOLOJİ ASPEKTLƏRİ

Səlimə Əliyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və etnoqrafiya" kafedrasının II kurs magistrantı
salimaaliyeva26@gmail.com
Elmi rəhbər: t.ü.f.d. Fəxriyyə Həvilova

***Açar sözlər**: bədən morfologiyası, antropometrik göstəricilər, köçəri mədəniyyət, həyat tərzi modeli, ekosistem*
***Keywords:** body morphology, anthropometric indicators, nomadic culture, lifestyle pattern, ecosystem*

Antropologiyada insan konstitusiyası anlayışı insanın bioloji, morfoloji, fizioloji və psixoloji xüsusiyyətlərinin kompleks sistemi kimi başa düşülür. Bu sistem yalnız genetik amillərlə deyil, həmçinin, iqlim, relyef, təbii resurslar və ekoloji mühit kimi xarici faktorlarla dinamik qarşılıqlı təsirdə inkişaf edir [2, s.28;41]. Türk xalqlarının etnomədəni sistemi bu anlayışın öyrənilməsi üçün mühüm empi-

rik baza rolunu oynayır. Çünki türk etnosları müxtəlif iqlimlərdə (Sibir tayqalarından Anadolunun subtropik dağətəyi zonalarına qədər), tarixən etnik baxımdan geniş arealda (Orta Asiya çöllərindən Anadolu yaylalarına, Qafqaz dağ sistemindən Volqa boyuna qədər) yayılmış və yaşamışdır. Bu müxtəlif ekoloji şərait onların bədən quruluşunun, metabolik uyğunlaşmalarının, psixofizioloji reaksiyalarının və sosial davranışının formalaşmasına əhəmiyyətli təsir göstərmişdir [6, s.17;71]. L.N. Qumilyovun "etnogenez" konsepsiyasına görə, hər bir etnosun passionar enerjisi (bir etnosdakı fərdlərin və ya ümumilikdə xalqın çevik, fəal və yaradıcı davranmaq qabiliyyətini təmin edən daxili enerji) onun ekoloji mühitlə uyğunlaşma dərəcəsindən asılıdır [5, s.114].

Türk xalqlarının müxtəlif coğrafi-ekoloji mühitlərdə formalaşması onların bədən quruluşunda əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Orta Asiyanın quru, kontinental, kəskin temperaturlu iqlim şəraiti tarixən güclü fiziki dözümlülük, kompakt bədən quruluşu (yəni, sıx, massiv, enerjiyə qənaətli), yaxşı inkişaf etmiş tənəffüs sistemi və effektiv termorequlyasiya mexanizmləri (bədən temperaturunun sabit saxlanılması), bədən həcminin nisbətən kiçik olması (çiyinlərin geniş, əzələ sisteminin inkişaf etmiş, yağ toxumasının isə orta səviyyədə paylanmış olması) kimi adaptiv xüsusiyyətlər yaratmışdır [3, s. 228]. Həmçinin qazax, qırğız, özbək və türkmən icmalarında müşahidə olunan geniş döş qəfəsi, sıx sümük quruluşu və fiziki dayanıqlılıq çöl mühiti, uzun məsafəli köç həyatı, atçılıq və yarım-köçəri həyat tərzinə adaptasiyanın nəticəsi olmuşdur [1, s.47].

Bu proporsiyalar soyuq iqlim adaptasiyasının klassik göstəricisi hesab olunur. Sovet dövründə qazax, qırğız və Altay türkləri üzərində aparılan antropometrik ölçmələrə görə uzunboylu, həmçinin güclü skelet quruluşlu endo-mezomorf tip üstünlük təşkil etmişdir.

Bunun əksinə olaraq, Anadoluda yaşayan türklər və Azərbaycan türkləri daha mülayim iqlim arealında formalaşdıqları üçün onların antropometrik göstəriciləri balanslı bədən proporsiyaları, orta ölçülü skelet quruluşu, uzun ətraflar, incə sümük strukturu, bədən səthinin geniş olması, yumşaq üz konturları və daha açıq piqmentasiya ilə xarakterizə olunur. Həmçinin, bədəndəki istiliyin sürətli şəkildə tənzimlənməsi xüsusiyyəti də müşahidə olunur. Bu bədən modeli ekoloji baxımdan istiyə uyğunlaşma göstəricisi sayılır və enerji mübadiləsinin yüngülləşməsinə xidmət edir. Bu müxtəliflik türk etnosunun genetik birliyinə zidd olmamaqla bərabər, həm də geniş coğrafi yayılmanın təbii nəticəsi kimi ortaya çıxmış və ekoloji antropologiyanın əsas qanunauyğunluqları ilə üst-üstə düşmüşdür [1, s.48,56].

Ekoloji amillərin antropometrik uyğunlaşmada rolu yalnız bədən proporsiyaları ilə məhdudlaşmır. Məsələn, quru iqlimdə yaşayan əhali arasında su itkisinin azaldılmasına yönəlmiş fizioloji xüsusiyyətlər, məsələn "qeyri-bərabər tər reaksiyası" olduğu halda, Orta Asiya populyasiyalarında isə "quru tənəffüs ritmləri" kimi fərqlər qeydə alınmışdır. Mülayim iqlimdə yaşayan insanlarda isə metabolik ritm daha sabit, termal stress isə daha azdır [3, s.220;228].

Türk etnomədəni sistemində insan yalnız bioloji varlıq kimi deyil, həmçinin kosmos–təbiət–insan harmoniyasına əsaslanan dünyagörüşün bir parçası kimi çıxış edir. Göy (asiman), Yer, Su və Od kimi əsas təbii ünsürlər minillər boyunca həm mədəni simvolizmi, həm də gündəlik həyatın ekoloji əsaslarını formalaşdırmışdır. Bu baxımdan insan konstitusiyasının ekoloji aspektlərini öyrənmək təkcə antropometrik və bioloji göstəriciləri deyil, həm də mentaliteti, dünya modelini və mədəni davranış kodlarını aydınlaşdırmaq zərurəti yaradır [4, s. 62;121].

Türk dünyagörüşündə təbiət yalnız fiziki mühit deyil, həm də kosmik nizamın bir hissəsidir. Türk etnomədəni modelində insan təbiətin mərkəzində deyil, onun bir hissəsi kimi qəbul olunur. "Təbiətə qarşı deyil, təbiətlə birlikdə yaşamaq" prinsipi türk ekoloji etikası üçün əsasdır. Bu baxış antropoekoloji düşüncənin ilkin forması kimi qiymətləndirilə bilər. Göy Tanrı inancı, su kultu, dağ kultu və od kultu insanın öz ekoloji mühitinə olan münasibətini tənzimləmiş, mədəni davranışlar sistemini formalaşdırmışdır. Göy — ucalıq, nizam və kosmik gücün rəmzi; Yer — sabitlik və maddi həyatın qaynağı; Su — təmizlik, həyat, törəyişin başlanğıcı; Od — enerji, transformasiya və təmizlənmə funksiyalarının daşıyıcısıdır [4, s.62,78].

Bu simvolik sistemin kökləri təkcə mifologiyada deyil, həm də insan konstitusiyasının ekoloji şərtlənməsində özünü göstərir. Məsələn, suyun sakral funksiyası (müqəddəs, toxunulmaz olması) su ehtiyatlarının qənaətcil istifadəsini, çöl mühitində isə suyla bağlı sosial davranış qaydalarını formalaşdırmışdır. Od kultu isə həm qışda temperaturun sərt olduğu Orta Asiyada, həm də metallurgiya və istehsalatın inkişaf etdiyi Anadolu və Azərbaycan ərazilərində insanın ekoloji adaptasiyasına təsir etmişdir [6, s.102,114].

Türk xalqlarının yaşayış modelləri tarixən köçəri, yarım-köçəri və oturaq həyat formalarının vəhdətindən ibarət olmuşdur. Köçəri həyat tərzi insanlardan sərt ekoloji mühitlərlə birbaşa təmasda olmağı tələb etdiyindən insan konstitusiyası daha çox dözümlülüyə əsaslanırdı. At minmə ilə əlaqədar olaraq bud və çanaq əzələləri inkişaf etmiş, uzun məsafəli hərəkətə uyğun proksimal ətraf gücü yaranmış, davamlı fiziki əmək onurğanı, çiyin qurşağını möhkəmləndirmişdir. Güclü tənəffüs və dövran sistemi; uzaq məsafələrə hərəkətə uyğunlaşma qabiliyyəti; az su və yetərsiz qida ilə yaşamaq bacarığı; çevik termorequlyasiya kimi adaptiv xüsusiyyətlər bunlardan bir neçəsidir.

Oturaq əhali isə kənd təsərrüfatı və sənətkarlığın inkişafı ilə əlaqədar daha fərqli ekoloji adaptasiyalar qazanmışdır: təbiətlə əlaqə əsasında daha stabil metabolizm, torpaqla bağlı fəaliyyət nəticəsində inkişaf etmiş əzələ strukturları və daha sabit enerji dövriyyəsi bunlardan hesab olunur [2, s.55,63].

Müasir dövrdə isə urbanizasiya (kiçik yaşayış məntəqələrindən böyük şəhər mühitinə keçid) və sənayeləşmə bu adaptiv mexanizmlərin çoxunu zəiflədir. Şəhər mühitində insanın fiziki aktivliyinin azalması, havanın çirklənməsi, ekoloji stress faktorları (səs, işıq çirkliliyi) və qida rasionlarının dəyişməsi (xüsusilə özündə geni modifikasiya edilmiş orqanizmləri ehtiva edən) insan konstitusiyasının təbii adap-

tiv mexanizmlərini pozur və bədən sağlamlığı ilə psixoloji sabitlik arasında yeni disbalanslar yaradır.

Orta Asiya, Anadolu, Qafqaz və Volqa bölgələri XXI əsrdə sürətli urbanizasiya və ekoloji dəyişikliklərlə qarşılaşmışdır. Sənaye tullantıları, su ehtiyatlarının çirklənməsi, meqapolislərin genişlənməsi, təbii yaşayış zolaqlarının azalması və iqlim dəyişikliyi insan sağlamlığına birbaşa təsir edir. Tənəffüs xəstəlikləri, hormonal pozuntular, psixoloji gərginlik, yuxu ritminin dəyişməsi və metabolik xəstəliklərin artması müasir antropologiyanın müşahidə etdiyi əsas tendensiyalardır [7, s.101].

Urbanizasiya eyni zamanda cəmiyyətlərin genetik yaddaşındakı ənənəvi ekoloji davranış kodlarının zəifləməsinə səbəb olur. Məsələn: suyun müqəddəsliyi ideyasının zəifləməsi nəticəsində su israfının artması; od kultunun sosial rolunun sıradan çıxması nəticəsində enerji sərfiyyatında aktiv nəzarətin azalması; təbiət–insan harmoniyasının qırılması nəticəsində psixoloji narahatlıq və sosial təcrid bunlardan sadəcə bir neçəsidir. Bu dəyişikliklər türk xalqlarında insan konstitusiyasının həm fiziki, həm də psixoloji komponentlərinə təsir edərək yeni antropoloji modellərin yaranmasına səbəb olmaqdadır [3, s.251].

Türk etnomədəni sistemində insan konstitusiyası tarixi-ekoloji şəraitlə sıx bağlıdır. Geniş coğrafi yayılma türk xalqlarının antropometrik, fizioloji və psixoloji müxtəlifliyini şərtləndirmişdir. Eyni zamanda, mədəni sistemdəki təbiət kultları insanın ekoloji mühitlə münasibətini tənzimləyən mühüm genetik kod kimi çıxış etmişdir.

Müasir dövrdə urbanizasiya, sənayeləşmə və ekoloji balansın pozulması ənənəvi adaptiv xüsusiyyətlərin zəifləməsinə, fərqlərə səbəb olur. Bu fərqlər müasir tədqiqatlarda özünü göstərir; məsələn, Azərbaycanda leptosom-mezomorf qarışıq tip (zərif və orta tip harmonik bədən quruluşlu), Anadolu türklərində isə daha tarazlaşdırılmış mezosom tip (orta, balanslı bədən quruluşu) geniş yayılmışdır. Balansın pozulması həmçinin yeni sağlamlıq problemlərini də meydana çıxarır.

Bu kimi problemlərin qarşısının alınması yolu olaraq qədim ekoloji mədəniyyətin müasir şəraitə uyğun yenidən qurulması, türk mədəni düşüncəsindəki ekoloji konsepsiyaların bərpası və müasir ekoloji siyasətlə uyğunlaşdırılması insan konstitusiyasının qorunması baxımından mühüm və aktualdır. Təbiətə hörmət, torpaqla bağlılıq, resursların bərabər istifadəsi kimi dəyərlərin yenidən canlandırılması insan konstitusiyasının bərpası üçün vacibdir.

Ədəbiyyat siyahısı:

1.Антропов, В. И. "Физическая антропология народов Средней Азии и Кавказа". Москва: Наука, 1980.

2.Авдеев, А. Н. "Экологическая антропология". Санкт-Петербург:Питер, 2013.

3.Дробышевский, С. В. "Антропология: происхождение, современность". Москва: Академкнига, 2017.

4.Элиаде, М. "Шаманизм: Архаические техники экстаза". Москва: Прогресс, 1993.

5.Гумилёв, Л. Н. "Этногенез и биосфера". Москва: Наука, 1989.

6.Жданко, Т. А. "Этнография тюркских народов". Москва: Наука, 1984.

7.Яблоков, Л. Т. "Экология человека". Москва: Академкнига, 2007.

ANADOLU ANTROPOLOGİYASINDA PALEOPATALOJİ TAPINTILAR

Gülay Hüseynli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və etnoqrafiya" kafedrasının II kurs magistrantı
gulayhuseynli2003@icloud.com
Elmi rəhbər: t.ü.f.d. Hicran Mahmudova

Açar sözlər: *Paleopatologiya, Anadolu antropologiyası, skelet qalıqları, trepanasiya*
Keywords: *Paleopathology, Anatolian anthropology, skeletal remains, trepanation*

İnsanlar tarix boyunca müxtəlif xəstəlik və travmalarla mübarizə aparmış, bu xəstəliklərin izləri günümüzə qədər gəlib çatmış antropoloji materiallarda – osteoloji, odontoloji qalıqlarda, insan sümüklərində, dişlərdə və mumiyalarda – müşahidə olunur. Paleopatologiya elmi bu qalıqları tədqiq edərək qədim insanların yaşayış şəraiti, qidalanması, əmək fəaliyyəti və gigiyena səviyyəsi haqqında məlumatların əldə edilməsində həlledici rol oynayır. Bundan əlavə, paleopatoloji analizlər tarixi dövrlərdə mövcud olmuş pandemiyaların dinamikasını, irsi xəstəliklərin genetik yükünü və kollektiv travmaların cəmiyyətlərə təsirini dərindən anlamağa imkan yaradır.

Paleopatalogiya qədim dövrlərə aid insan və heyvan qalıqlarında aşkarlanan xəstəlik izlərini öyrənən elm sahəsidir. Yunan sözü olan paleopatalogiya "paleos" (qədim), "pathos" (ağrı-acı), "logos" (elm, bilik) kimi tərcümə edilir. Keçmişdə baş vermiş yoluxucu xəstəliklərin (epidemiyaların) təkamül proseslərinin tədqiqi paleopatologiyanın əsas istiqamətini təşkil edir. Termin kimi ilk dəfə 1910-cu ildə Sir Marc Armand Ruffer tərəfindən qədim Misir mumiyalarının tədqiqi zamanı işlədilmişdir. Bu sahə, məhkəmə antropologiyasında skeletləşmiş insan qalıqlarının identifikasiyası prosesində mühüm məlumatlar təqdim edir [1, s.60].

İnsan qalıqlarına maraq əsrlər boyu mövcud olsa da, bu qalıqlarda müşahidə olunan xəstəliklərin elmi şəkildə öyrənilməsi çox son dövrlərdə sistemli hala gətirilmişdir. Rudolf Virxov kimi alimlərin Neandertal qalıqları üzərində apardıqları araşdırmalar paleopatologiyanın elmi əsaslarını möhkəmləndirmiş, xüsusilə sümüklərdə aşkarlanan qeyri-spesifik infeksion xəstəliklərin və maddələr mübadiləsi pozğunluqlarının (metabolik xəstəliklərin) izlərini müəyyənləşdirmək bu elmin əsas istiqamətlərindən biri olmuşdur. Amerika alimləri, o cümlədən Joseph Con və Samuel Morton, qədim insan qalıqlarında travma və infeksion xəstəliklərin tədqiqi ilə sahənin inkişafına mühüm töhfə vermişlər. Bu tədqiqatlar nəticəsində paleopatologiya həm qədim sivilizasiyaların sosio-mədəni şəraiti və xəstəliklərə qarşı mübarizə üsulları kimi tarixi-antropoloji suallara cavab axtarmaq, həm də antropoloji identifikasiya prosesləri üçün vacib elmi sahə kimi formalaşmışdır [8, s.363].

Paleopatologiya, təkcə tibbi patologiyaları deyil, həm də qədim cəmiyyətlərin demoqrafik strukturunu, ekoloji şəraitlə qarşılıqlı əlaqələrini, qidalanma vərdişlərini və sosio-iqtisadi tərəqqisini (və ya gündəlik həyatını) hərtərəfli təhlil etməyə imkan yaradır. Qədim Şərq ilə Qərb sivilizasiyaları arasında körpü rolunu oynayan bu region, Paleolit dövründən Roma və Bizans dövrlərinə qədər müxtəlif mədəniyyətlərə

və imperiyalara ev sahibliyi etmişdir. Belə bir mədəni və tarixi davamlılıq, populyasiyaların migrasiya, urbanizasiya və kənd təsərrüfatına keçid kimi böyük sosial dəyişikliklərə necə uyğunlaşdığını öyrənmək üçün unikal imkanlar yaradır. Qədim Anadolu cəmiyyətləri üzərində aparılan paleopatoloji tədqiqatlar, bu populyasiyalarda geniş yayılmış bir sıra xəstəlikləri müəyyən etməklə yanaşı, onların məruz qaldığı stress faktorları barədə də dəyərli məlumatlar təqdim etmişdir. Skelet qalıqlarında aşkar edilmiş əsas patologiyalar cəmiyyətin qarşılaşdığı sağlamlıq çağırışlarının xronoloji və coğrafi fərqliliyini əks etdirir. Bu əsas patoloji kateqoriyalara qidalanma və metabolik pozğunluqlar, iltihabi və degenerativ xəstəliklər, infeksiya və neoplaziyalar (şişlər), travmatik zədələr, habelə anomaliyalar və konjenital (doğuşdan gələn) defektlər daxildir [7, s.225].

Qədim Anadolu cəmiyyətlərinə aid skelet qalıqlarının aşkara çıxarılmasına başlanıldığı 1930-cu illərdən etibarən, bu insanların sağlamlıq problemləri üzərində müəyyən dövrlərdə elmi araşdırmalar aparılmışdır. İlk tədqiqatlarda ətraflı şəkildə işlənməyən paleopatoloji analizlər, xüsusilə son 30 il ərzində daha detallı şəkildə müzakirə mövzusu olmuş və qədim Anadolu insanlarının sağlamlıq vəziyyəti ətraflı araşdırılmağa başlanmışdır. Neolit dövründən müasir dövrə qədər Anadoluda yaşamış cəmiyyətlərin skeletləri üzərində həyata keçirilən paleopatoloji işlər, bizə bu insanların sağlamlıq durumları və ümumi həyat tərzləri barədə məlumat verməklə yanaşı, eyni zamanda rast gəlinən xəstəliklərin köklərini və ilk dəfə göründüyü dövrləri müəyyənləşdirməsi baxımından da böyük əhəmiyyət kəsb edir [4].

Qədim patalogiyaların öyrənilməsi sahəsində, cərrahi müdaxilələrin ən erkən izləri artıq Neolit dövrünə (xüsusilə trepanasiya) aid edilir. Bu fakt, bəşər övladının xəstəliklərlə mübarizə tarixinin nə qədər qədim olduğunu göstərir və tədqiqatımızın aktuallığını artırır. Qədim xəstəliklərə dair tədqiqatlar (paleopatologiya) göstərir ki, Paleolit dövründən etibarən mövcud olan patologiyalar arasında Neolit dövründə Anadoluda tətbiq edilən trepanasiya (üç nümunə qeydə alınmışdır) xüsusi əhəmiyyətə malikdir. Skelet qalıqları üzərində aparılan geniş təhlillər zamanı ən çox rast gəlinən patoloji vəziyyətlər arasında artrit, kribra orbitaliya, infeksiyalar və travmalar (yüksək diaqnostika asanlığı səbəbindən) qeyd olunur. Bununla belə, cüzam, sifilis və vərəm kimi spesifik xəstəliklərə az rast gəlinməsi, bu sahədəki metodoloji çətinliklərə və ya tədqiqatçıların mövzuya hazırlıq səviyyəsinə işarə edir, bu da gələcək araşdırmalar üçün imkanlar yaradır [7, s.225].

Anadolunun erkən Bizans dövrünə aid olan Çiçəkdağı (Kırşehir) skelet kolleksiyasının pis qorunmuş olması, bərpa (restavrasiya) işlərini çətinləşdirmişdir. Bəzi bədən sümüklərinin itməsi, digərlərinin isə təmirə yararsız dərəcədə zədələnməsi, bu populyasiya üzərində paleopatoloji və paleodemofrafik tədqiqatların aparılmasına ciddi maneələr yaratmışdır. Çiçəkdağı icmasının paleopatoloji analizi zamanı 12 yetkin fərdin təxminən 50%-də osteofit (sümük çıxıntıları) və Şmorl düyünlərinin, 33%-də isə daban sümüyü çıxıntısı (kalkaneal spur) kimi xəstəliklərin müşahidə olunması, bu insanların fiziki cəhətdən ağır iş yükünə məruz qaldığını düşünməyə əsas verir. Bu ağır fiziki əməyin izləri fonunda ağız və diş sağlamlığı göstəricilərinin yüksək olması xüsusi diqqət çəkir. Belə ki: çürüklərin sayının azlığı, hipoplaziya (diş inkişaf qüsurları) hallarının nadir tapılması, abses əlamətlərinə heç rast gə-

linməməsi, diş daşının (tartar) qeydə alınmaması aiddir. Xülasə, Bizans dövrünə aid Çiçəkdağı kişilərinin ağır fiziki əməklə məşğul olmalarına baxmayaraq, yaxşı qidalanma rejimi ilə təmin olunduqları aşkar edilmişdir. Skelet materialları arasında yalnız kişi, körpə və uşaqların olması maraq doğursa da, Kırşehir Muzeyi tərəfindən davam etdirilən qazıntılar nəticəsində skelet sayının artması bu Anadolu icması haqqında daha ətraflı məlumatların əldə edilməsinə imkan yaradacaqdır [2, s.77].

Hacettepe Universitetinin Bioloji Antropologiya Laboratoriyasında saxlanılan və İkiztəpə qazıntıları nəticəsində aşkar edilən skelet qalıqları bu araşdırmanın əsasını təşkil etmişdir. Tədqiqat çərçivəsində, skeletlər trepanasiya əməliyyatının mövcudluğu və onun uğurlu nəticəsi baxımından makroskopik olaraq təhlil edilmişdir. Trepanasiya izləri olan nümunələr əlavə olaraq rentgenoloji (radioloji) cəhətdən də qiymətləndirilmişdir. Bu müayinənin məqsədi, fərdlərin aparılan cərrahi müdaxilələrdən sonra həyatda qalıb-qalmadıqlarını müəyyən etmək olmuşdur. Trepanasiya əməliyyatlarının ehtimal olunan səbəblərini dəqiqləşdirmək məqsədilə, cərrahi müdaxilə keçirmiş kəllələrin digər hissələri ilə yanaşı, gövdə sümüklərindəki zədələnmələr də öyrənilmişdir. Bundan əlavə, kolleksiyaya daxil olan bütün skelet qalıqlarının kəllələri xəstəlik əlamətlərinin mövcudluğu baxımından təhlil edilmiş, beləliklə, cərrahi müdaxilənin mümkün səbəbləri digər paleopatoloji tapıntılarla dəstəklənməyə çalışılmışdır [3, s.377].

2013-cü ildə Gebze-Orhanqazi-Bursa Avtomobil Yolunun inşası zamanı Havuzdərə kəndi ərazisində bir nekropol sahəsi aşkar edilmişdir. Qazıntılar nəticəsində ümumilikdə 305 qəbir aşkarlanmışdır ki, onların əksəriyyəti sadə torpaq qəbirlərindən ibarətdir. Qəbirlərin əsasən cənub-qərbdən şimal-şərqə doğru istiqamətləndiyi qeyd olunur. Məzarlardakı skeletlərin çoxunun arxası üstə uzanmış vəziyyətdə dəfn edildiyi məlumdur. Qazıntı hesabatları göstərir ki, məzarlıq sahəsi Osmanlı dövründə qeyri-müsəlman icmalar tərəfindən istifadə edilmişdir. Bu ehtimalı gücləndirən amil, məzarlıqda Bizans dövrünə aid heykəl altlıqları, sütun və memarlıq təkrar istifadə qalıqları kimi aşkar edilməsidir [6].

Bu araşdırmanın nəticələri göstərir ki, Anadolu paleopatologiyası sahəsindəki tədqiqatlar hələ də sistematik və ixtisaslaşmış yanaşma tələb edir. Mövcud nəşrlərdə qədim icmaların patoloji profilləri əsasən geniş yayılmış xəstəliklərlə (artrit, travma) məhdudlaşır. Bu məhdud spektr Türkiyədə paleopatologiya üzrə ixtisaslı təhsilin və multidissiplinar əməkdaşlığın az olması ilə əlaqələndirilir. Nəticə olaraq, Anadolunun tam paleopatoloji mənzərəsini yaratmaq üçün gələcək tədqiqatlarda diaqnostik standartların yüksəldilməsi (radioloji üsullarla) və antropologiya ilə tibb sahələri arasında əməkdaşlığın gücləndirilməsi zəruridir.

Ədəbiyyat siyahısı:

1.Açıkkol Yıldırım, A. Adli Antropolojide Paleopatolojik Analiz. Turkiye Klinikleri J Foren Med, 2017, s.60–64.

2.Alkan, Y., Erkman, A. C., & Kaplan, İ. Çiçekdağı İskeletlerinin Paleoantropolojik Analizi 29 // Arkeometri Sonuçları Toplantısı Kitabı Ankara 2014. Kültür Varlıkları ve Müzeler Genel Müdürlüğü, s.77-82.

3.Erkman, A. C. İkiztepe Erken Tunç Çağı İnsanlarında Trepanasyon: Olası Nedenleri. 26 // Uluslararası Kazı Sonuçları Toplantısı Bildirileri Cilt 1, Ankara: Kültür Varlıkları ve Müzeler Genel Müdürlüğü. 2004, s.377–384.

4.İkiz, F. Eski Anadolu İnsanlarının Sağlık Sorunları// Türk Tarihine Dair Makaleler,2017. 35–48 s.
5.İnan, G. Van Kalecik (Urartu) toplumunun erişkin bireylerinin paleopatolojik analizi. Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü, Ankara. 2011. s.1-18
6.Şahin, A. Havuzdere iskeletlerinin paleopatolojik analizi. Mersin Üniversitesi Sosyal Bilimler Enstitüsü, s.127-142. Mersin.2018
7.Varlık, N. Paleopathology in Anatolia From Neolithic to Ottoman. A. K. Ayyıldız (Redaktor) Infectious Diseases in Ottoman Empire and Turkish Republic. Türk Tarih Kurumu.2017, s.225
8.Waldron, H. A. The Study of the Human Remains from Nubia: The Contribution of Grafton Elliot Smith and his Colleagues to Palaeopathology//Medical History, 2000. 44(3), s.363–388.

TÜRK XALQLARINDA UZUNÖMÜRLÜLÜK: ANTROPOLOJİ YANAŞMA

Nihad Mərdiyev
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və etnoqrafiya" kafedrasının II kurs magistrantı
merdiyevnihad@gmail.com
Elmi rəhbər: t.ü.f.d. Fəxriyyə Həvilova

Açar sözlər: *türklər, üzünömürlülük, əsas amillər, genetika, antropologiya*
Keywords: *Turks, longevity, main factors, genetics, anthropology*

Uzunömürlülük irsiyyət, həyat tərzi, sosial-iqtisadi şərait və tibbi xidmətlərin əlçatanlığı kimi amillərin birgə təsiri ilə formalaşan fenomendir. Türk xalqlarında insan ömrünün uzunluğu və uzunömürlülük rast gəlmə tezliyinə görə digər xalqlardan fərqlənir. Bu prosesə demoqrafik, coğrafi - ekoloji, genetik və mədəni amillər təsir etmiş, qədimdən gələn ənənələr, həyat tərzi onların xronoloji ömrünün artmasına və parallel olaraq gümrah qalmalarına imkan yaratmışdır.

XX əsrin sonu-XXI əsrin başlanğıcında antropoloji herontologiyada ümumdünya miqyasında molekulyar markerlər mühüm göstərici hesab olunurdusa, XXI əsrin ilk onilliyində epigenetik saat və multiom modellər (genomika, proteomika, metabolomika), ikinci onilliyində isə DNT analizləri, genlərin metilləndirilməsi (genlərin aktivliyinin dəyişdirilməsi) və ekspressiyası (genlərin fəallığı) mühüm yer tutmuşdur. Hal-hazırda mövcud olan fikirlərə görə yaşı 100-ü keçmiş planet sakinləri - sentenarianlar (latınca - centenarian) qeydə alınan bölgələr Yer kürəsinin "mavi zonaları" hesab olunur. Ehtimal edə bilərik ki, Azərbaycan daxil olmaqla, türk dünyasına aid olan ölkələr də bu zonaya daxildir. Bəzi araşdırmalar Qazaxıstanda yerli qazax əhalisinin bəzi hallarda digər etnik qruplarla müqayisədə daha yüksək gözlənilən ömür uzunluğuna malik olduğunu göstərir; oxşar fərqlər Türkiyənin müxtəlif bölgələrində də müşahidə edilir [1, 363-364]. Odur ki, uzunömürlüyün genetik komponenti araşdırılmış, bəzi türk qruplarında (xüsusilə başqırdlarda) metabolizm (orqanizmdə həyat fəaliyyətini təmin edən bütün kimyəvi reaksiyalar) və detoksifikasiya (orqanizmdə zərərli maddələrin (toksinlərin) parçalanaraq zərərsizləşdirilməsi və bədəndən xaric olunması prosesi) ilə əlaqəli gen polimorfizmlərinin (eyni genin fərqli insanlarda bir-birindən kiçik, sabit fərqlərlə mövcud

olması) uzunömürlülüyə yaxın fenotiplərlə (bir canlının görünən və ölçülə bilinən bütün xüsusiyyətləri) assosiasiya olunduğu bildirilmişdir. Bununla yanaşı qeyd etmək lazımdır ki, genetik assosiasiya siqnalları mövcud olsa da, bunlar bütöv mənzərəni izah etmir, belə ki, uzunömürlülük poligen xarakter daşıyır və həyat tərzi ilə genlərin qarşılıqlı təsirindən güclü şəkildə asılıdır .

Müasir uzunömürlülər üzərində aparılan araşdırmalar göstərir ki, 100 yaşdan yuxarı insanların bir çoxunda metabolik biomarkerlər (qlükoza, sidik turşusu, kreatinin və digər göstəricilər) daha aşağı olur. Bu cür biomarker profili Avropa uzunömürlüləri üzrə böyük tədqiqatlarda da təsdiqlənmiş və oxşar faktorların türk xalqlarında da rol oynaya biləcəyi ehtimal olunur [3]. Türklərin yaşadığı bir çox bölgələrdə ənənəvi qidalanma və həyat tərzi (fiziki aktivlik, qida rejimi, sosial bağlılıq) ömür uzunluğuna müsbət təsir etmişdir. Məsələn, dağlıq və kənd yerlərində həyat daha aktiv, stress faktorları az, qida daha təbii olmuşdur. Lakin urbanizasiya, qidalanma dəyişiklikləri və qeyri-infeksion xroniki xəstəliklərin artması bəzən ömür uzunluğu göstəricilərinə mənfi təsir göstərir.

Tarixi-antropoloji yanaşma sentenarianların (yaşı 100 və daha çox olan insanların) həyat tərzini, sosiallaşmanı mühüm göstəricilərdən hesab edirlər. Belə ki, uzunömürlülər təcrid olunmuşlar deyil, cəmiyyətə hərtərəfli şəkildə inteqrasiya olunmuş şəxslərdir. Bütün mavi zonalar boyunca yaşayan insanlar qohumların – kollektivin əhatəsində gündəlik aktiv həyat tərzi keçirmiş, qarşılıqlı yardım institutunda aparıcı mövqe daşımışlar. Hesab olunur ki, məhz bu amil genetikadan da üstün olub, uzunömürlülüyü şərtləndirən amillərdəndir.

Bildiyimiz kimi, təhsil, gəlir səviyyəsi, tibbi xidmətin əlçatanlığı, ekoloji şərait (hava çirklənməsi, əmək şəraiti) də ömür uzunluğuna təsir edir. Türkiyə və Mərkəzi Asiya ölkələri üzrə aparılan araşdırmalar göstərir ki, təhsil və sosial-iqtisadi statusla gözlənilən ömür uzunluğu arasında güclü əlaqə mövcuddur. Şəhərlərdə ürək-damar və tənəffüs xəstəliklərindən xəstələnmə daha yüksək olduğu üçün bu faktorlar ömür uzunluğunun artımını ləngidir [1;3]. Tarixən, uzunömürlülüklə bağlı əsas məqam gündəlik qidalanma ilə də sıx əlaqələndirilir. Müasir dövr dietoloqları, həkimlər, insan konstitusiyası ilə məşğul olan mütəxəssislər bitki və tərəvəzlərə əsaslanan qidalanmanın insan ömrünə təsirini qeyd edirlər. Bununla belə, statistika üzrə uzunömürlü azərbaycanlılar qırmızı ət tərkibli (qoyun-quzu, dana əti), bol zülallı xörəklərə üstünlük vermiş və kifayət qədər ömür sürmüşlər. Təbii ki, bu da onların gündəlik həyat tərzi, xüsusilə təsərrüfat məşğuliyyəti ilə birbaşa bağlı olan məsələlərdəndir.

Qeyd edək ki, ümumilikdə türk xalqlarında bioloji və xronoloji yaşın əsas göstəriciləri əksər vaxtlarda fərqli olmuşdur. İnsanın mövcudluğunu və yaşam müddətini göstərən "yaş", ümumi zaman göstəricisi olan "il" demək olar ki, eyni mənada işlədilməmişdir. VII-VIII əsrlərə aid edilən epitafiyalarda, xüsusən də Orxon-Yenisey yazılarında belə bu iki ifadə başqa mənalarda işlənmişdir. Eyni struktur müasir dövrə qədər gəlib çataraq, azərbaycan, türkmən, tatar, qazax, qırğız, özbək, yakut və s. dillərində qaldığından, onun qədimdən mövcudluğunu təsdiq etməyə imkan verir. Antropolinqvistikada hal-hazırda bu məsələ ilə bağlı yeni yanaşmalar mövcuddur və bu yanaşmalar türklərin danışıq dilində uzun illər ərzində formalaşmış

ifadələrin təəssüf ki, düzgün tərcümə olunmadığını bildirirlər [1, 370-374]. Belə ki, qədim türklərin təsərrüfat məşğuliyyətində maldarlğın daha üstün olması onların zaman anlayışına da təsirsiz ötüşməmişdir. Yazın əvvəllərində yerdə yeni otlar cücərərkən, quzuların doğulması eyni vaxta təsadüf etdiyindən, onların yaşını da yeni yaşıllıqla əlqələndirirdilər. Yaş tamamlanmamış il başa çatırdı, bu halda isə avropalıların il anlayışından türklərin yaş anlayışı 1 il geri qalmış hesab olunurdu. Bu fikrə aydınlıq gətirmək üçün Çin təqviminə müraciət etmək olar. Belə ki, çinlilər də qədim türklər kimi öz yaşlarını təqvim ili üzrə hesablayırdılar. Çinlilərdə Yeni il ərəfəsində dünyaya gələn uşaq artıq bir neçə gün sonra 2 yaşlı sayılırdı, yəni, dünyaya gələn uşağın neçə yaşda olmasından asılı olmayaraq, təqvim ili dəyişdiyindən bir yaş böyüdüyünə inanılırdı.

Hal-hazırda uzunömürlülük məsələsi irsiyyətlə birbaşa əlaqələndirilir və konkret genlərin təsiri əsas götürülür. Ümumilikdə qəbul olunmuş fikrə görə kifayət qədər ömür sürənlərdə irsiyyətin rolu 25-30%-dir və yerdə qalan müddət birbaşa insanın həyat tərzi ilə bağlıdır. Qeyd edə bilərik ki, başqırdlar üzərində aparılan araşdırmalar onlar arasında müəyyən allellərin (eyni genin fərqli variantı) uzunömürlülüklə əlaqəli ola biləcəyini göstərmiş, bu qrupu gələcək araşdırmalar üçün maraqlı modelə çevirmişdir [2]. Tədqiqiatlar göstərir ki, 100 yaşdan artıq yaşamış insanlarda Apolipoprotein adlanan genin E2 alleli E4 allelindən üstünlük təşkil edir. Eyni zamanda, bir çox xalqlarda GG genotipi ilə uzunömürlülük arasında birbaşa bağlılığın olması da müəyyənləşdirilmişdir [4]. İnsanların uzun illər boyunca DNT səviyyəsində somatik xanalarında toplanan zədələr tədricən qocalmaya və ömür müddətinə birbaşa təsir edir. Həyat boyunca, biz, müxtəlig mutagen amillərlə qarşılaşırıq, onlardan təbiətin kimyəvi çirklənməsi, ultra bənövşəyi şüalanma, ion radiasiyası və s daha tez-tez baş verir və müxtəlif patalogiyaların yaranmasına gətirib çıxarır. Türklərdə məhz həyat tərzi, təsəsrrüfat fəaliyyəti daha təmiz ekoloji mühitlə bağlı olduğundan, ətraf mühit və təmiz hava, sağlam qidalanma uzunömürlülüyə imkan vermişdi.

İnsanlarda progeriya (progeros - qocalmış) monogen irsi patalogiyalar hesab olunur və herontologiyada, antropologiyada daim diqqət mərkəzində saxlanılır. Erkən qocalma amili də məhz bu proseslə əlaqəlidir. Bir sıra toxuma və orqanlarda baş verən qocalma (Xatçinson-Hilford sindromu, Verner sindromu və s.) birbaşa ömür müddətinə də təsirsiz ötüşmür. Bundan başqa, unimodal qocalma da qeydə alınır ki, bu konkret orqanlarda gedən proseslərlə də əlaqəli olub, irsi hiperxolestrinemiya, Altsheymer xəstəliyinin monogen dominant formalarda və s. özünü göstərir. Uşaqlarda Xatçinson-Hilford, yaşlılarda Verner sindromu qocalmanı sürətləndirir, dəri və digər orqanların hüceyrələrində yenilənmə faizi tamamilə azalır. Belə bir gerilik müxtəlif səviyyələrdə qeydə alnır və Blüm sindromu, fankon anemiyası, piqment ksenoderması, hətta Daun sindromu kimi DNT defektləri formasında özünü büruzə verir [4]. Türk xalqlarının yaşadıqları coğrafiyada bu sindromlar uzun illər qeydə alınmasa da, son dövrlər ekoloji amillərin və s. təsirindən artıq müşahidə olunmaqdadır.

Azərbaycanda aparılan lokal tədqiqatlar yüzyaşlıların bir qisminin sağlamlıq profillərinin müəyyən spesifik xüsusiyyətlər göstərdiyini ortaya qoyur. Qazaxıstan

və digər Mərkəzi Asiya ölkələrində statistik tədqiqatlar son illərdə ömür uzunluğunun artdığını göstərir; lakin etnik qruplar arasında sağlamlıq və ölüm göstəricilərində fərqlər qalmaqdadır [1].

Ümumiyyətlə, türk xalqlarında uzunömürlülük genetik, mədəni, ekoloji və sosial amillərin qarşılıqlı təsiri ilə formalaşan kompleks bir fenomendir. Bu prosesləri daha dərindən başa düşmək üçün demoqrafiya, genetika, epidemiologiya və sosial elmlərin birgə tətbiq olunduğu çoxşaxəli araşdırmalara ehtiyac var. Xüsusilə, yaşın dəqiq təsdiqlənməsi üçün standart metodların tətbiqi, uzunömürlülərin geniş kütləvi kohortlarının yaradılması və molekulyar tədqiqatların genişləndirilməsi vacibdir. Mövcud məlumatlar göstərir ki, uzunömürlülüyə təsir edən həm ümumi amillər (sağlam metabolik profil, təhsil və tibbi xidmətə çıxış), həm də lokal amillər (ənənəvi həyat tərzi, bəzi genetik xüsusiyyətlər) mövcuddur. Bu amillərlə paralel irsi-genetik və ətraf mühitin təsiri məsələsi aktual olaraq qalır və multidissiplinar yanaşma tələb edir.

Ədəbiyyat siyahısı:

1. Базен Л. Концепция возраста у древних тюркских народов. //Зарубежная тюркология. Вып. I. Древние тюркские языки и литературы. М.: 1986. с. 361-378.
2.Исследование ассоциации полиморфизма PON1 с долголетием у башкир // // Биомика. 2020. Т.12(4). С. 435 - 441.
3. Малыгина Н.А О генетических аспектах старения, возрастной патологии и долголетия// https://cyberleninka.ru/article/n/o-geneticheskih-aspektah-stareniya-vozrastnoy-patologii-i-dolgoletiya
4. 50 лет в поисках «Гена долголетия» // https://cyberleninka.ru/article/n/50-let-v-poiskah-gena-dolgoletiya

XƏZƏR TÜRKLƏRİ VƏ YƏHUDİLİK DİNİ MƏRASİM YEMƏKLƏRİ

Qüdrət Alıyev
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və Etnoqrafiya" kafedrasının II kurs magistrantı
Aliyevqudret1010@gmail.com
Elmi rəhbər: dosent Qənirə Pirquliyeva

Açar sözlər: *Xəzər türkləri, yəhudiliyə qayıdış, dini bayramlar, koşer*
Keywords*: Khazar turks, return to judaism, religious holidays, kosher*

Xəzər Xaqanlığı Qərbi Türk Xaqanlığının dağılmasından sonra formalaşaraq Şərqi Avropada uzunömürlü və güclü bir siyasi qurum kimi tanınmışdır. Xəzərlərin yəhudiliyi qəbul etməsi, onların siyasi və mədəni müstəqillik strategiyası ilə bağlı olmuş, dövlət daxilində dini və mədəni birliyin təmin edilməsində mühüm rol oynamışdır. Bu proses eyni zamanda Xəzər cəmiyyətinin özünü idarəetmə qabiliyyətini və mədəni dəyərlərə bağlılığını göstərir. Xəzərlərin dini mərasimləri, bayramları və qida ənənələri həm Türk, həm də Yəhudi mədəniyyətlərinin unikal birləşməsini əks etdirir. Bu baxımdan Xəzər tarixinin və mədəniyyətinin öyrənil-

məsi, Türk dünyasının ortaq tarixi və mədəni irsi ilə bağlı geniş perspektivlər təqdim edir.

Xəzər xaqanlığı 651-ci ildə Qərbi Türk xaqanlığının dağılması nəticəsində yaranmış və türklər tərəfindən qurulmuş ən uzunömürlü imperiyalardan biri sayılır. Bu dövlətin əsasını Türk xaqanlığının hakim nəsillərindən olan Aşina soyuna mənsub sülalə qoymuşdur. Qısa bir müddət ərzində Xəzərlər Şərqi Avropanın ən güclü siyasi qurumuna çevrilmiş, bir əsrdən artıq müddətdə Ərəb Xilafəti ilə mübarizə apararaq Şərqi Avropanı ərəb işğalından qorumuşlar [1, s.32].

Xəzərlərin yəhudiliyi qəbul etmə tarixi uzun müddət qeyri-müəyyən və mübahisəli olmuşdur. Hansı mənbəyə üstünlük verilməsindən asılı olmayaraq, bu hadisənin tarixini təxminən 740-cı ildən 861-ci ilə qədər olan dövrə aid edirlər.Əl-Məsudi Xəzərlərin yəhudiliyi qəbul etməsini xəlifə Harun ər-Rəşidin (786–809) hakimiyyəti dövrünə aid etmişdir. Xəzərlər 837–838-ci illərdə Abbasilərin dirhəmlərini (gümüş sikkələrini) təqlid edərək öz pullarını kəsmişdilər. Bu sikkələrin üzərində adətən müsəlman simvolları həkk olunurdu, lakin xəzərlərin sikkələrində bu ifadə dəyişdirilmişdi: "Allahdan başqa Tanrı yoxdur və Musa Onun elçisidir" (yəni "Məhəmməd" əvəzinə "Musa" yazılmışdı). Bu fakt, həmin dövrdə Xəzər cəmiyyətinin hakim təbəqələrinin artıq yəhudiliyi qəbul etdiyini açıq şəkildə göstərir. Artamonovun şərhinə görə, "Vita Constantini" əsəri xəzərlərin artıq yəhudiləşdiyini aydın şəkildə nümayiş etdirir. O bildirir ki, 737-ci il hadisələrindən sonra Xəzərlərin Bizans və Xilafətlə əlaqələri fonunda yəhudilik kimi monoteist dinlərdən birinə keçmələri zəruri idi. Onlar xristianlıqla İslam arasında "orta yol" kimi yəhudiliyi seçmişdilər [5, s.56].

Xəzərlərin rəhbəri Bulanın yəhudiliyi qəbul etmə tarixi 740-cı il hesab olunur. Həmin dövrdə hökmran zadəgan təbəqəsi və əhalinin bir hissəsi də yəhudiliyi qəbul etmişdi.Bu məlumat Yəhuda Halevinin "Kuzari" adlı əsərindəki fikrə əsaslanır. Əsərdə qeyd olunur ki, Xəzər xaqanı Halevinin dövründən təxminən dörd yüz il əvvəl yəhudiliyi qəbul etmişdi. Buna əsasən, bəzi tədqiqatçılar hesab edirlər ki, Bulan 737-ci ildə İslama keçməyə məcbur edilən, fəqət bu keçidi qısamüddətli edən xaqan olmuş ola bilər. Lakin sonralar qeyd olunduğu kimi, Bulan xaqan deyil, bəy (bəy-hökmdar) idi [5, s.124].

Mənbələrdə qeyd olunduğuna görə, Xəzər hökmdarı bir gecə yuxuda "Tanrıya xoş gələn əməli axtar" əmrini almış və bu yuxunun təsiri altında onun mənasını anlamağa çalışmışdır. Rəvayətə əsasən, bu hadisəni öz vəziri ilə bölüşmüş və birlikdə Varşan dağlarına səfər etmişlər. Onlar dəniz sahilindəki səhralıq dağlara çataraq gecəni bir mağarada keçirmişlər. Həmin mağarada bir qrup yəhudinin Şabbat ayinlərini icra etdiklərini müşahidə etmişlər. Hökmdar və vəziri bu hadisədən dərin təsirlənmiş, həmin şəxslərlə söhbət etdikdən sonra onların dinini qəbul etmişlər. Yəhudi qaydalarına uyğun şəkildə həmin mağarada sünnət olunmuş və daha sonra öz ölkələrinə qayıtmışlar. Xəzər hökmdarı və yaxın ətrafı yəhudi qanunlarını öyrənməyə böyük maraq göstərmiş, lakin dini dəyişikliklərini ilk mərhələdə gizli saxlamışlar. Bu məlumat zamanla daha geniş təbəqələr arasında yayılmışdır. Yəhudiliyi

qəbul edən Xəzərlər müxtəlif ölkələrə elçilər göndərərək dini biliklərə və müqəddəs kitabların surətlərinə yiyələnməyə çalışmışlar. Tövratın öyrənilməsi dövlət miqyasında təşviq olunmuşdur [4, s.35].

Xəzərlərin yəhudiliyi qəbul etməsi, onların bu dini "qayıdış" anlayışı ilə daxilən mənimsədikləri və bunun çevrilmə hekayələrində öz əksini tapdığı aydın şəkildə müşahidə olunur. Ərzaq,əmtəə və lüks malları oturaq qonşulardan asılı şəkildə təmin edən köçəri xalqlardan fərqli olaraq, Xəzər xaqanlığı əsas tələbatlarının demək olar ki, hamısını öz daxilində ödəyə bilirdi və bu ona Cənubi Rusiya–Ukrayna çöllərində yaranmış digər köçəri dövlətlərdən qat-qat uzunömürlü olmağa imkan verirdi. Türklər hər il baharın gəlişini Uluğ-kun ("Böyük Gün") adlandırdıqları mərasimlə qeyd edirdilər. Bu bayram martın 22-də keçirilir və "Oşlaq ay" adlı ayın başlanğıcını xəbər verirdi. Bundan əlavə türklərin xaqanın rəhbərliyi altında keçirilən iki mühüm mərasimi də var idi : yazın gəlişi ilə Tanrıya (Tengriyə) qurbanların təqdim edilməsi və ildə bir dəfə hər bir türkün öz ata yurdunu ziyarət etməsi [3, s.121].

Xəzərlər İbrani əlifbasını və Yosef, Harun və Şmuel kimi İbrani adlarını qəbul edərək yəhudi dininə bağlılıqlarını vurğulamışlar. Hətta bu bağlılığı daha da inkişaf etdirərək, Pasxa və Hanuka kimi yəhudi bayramlarında doğulan uşaqlarına bu bayramların adlarını vermişlər. Yəhudilər bütün böyük Xəzər şəhərlərində məskunlaşmışdılar. Mənbələrdə Xəzərlərin şənbə və bayram günlərində işləməmək, qadağan olunmuş heyvanların ətlərini yeməmək və sünnət olunmaq kimi qaydaları əhatə edən Tövrat (Tora) öhdəliklərini qəbul etdikləri yazılmışdır. Vexler iddia etmişdir ki, Pasxa adı, uşaqlara doğulduqları bayramların, ayların və ya yerlərin adını verməklə bağlı bir zamanlar çox yayılmış türk adətinin tək nümunəsidir. Lakin bu advermə praktikasının yalnız türk xalqları və ya türk bölgələri ilə məhdudlaşmadığı qeyd edilir [3, s.18].

Xəzər hökmdarı Yusifin Hasday ibn Şapruta ünvanlanmış cavab məktubunda qeyd edilir ki, "Bulanın nəslindən olan oğulların içərisindən sonralar Obadiyah adlı bir hökmdar çıxmışdır. O, dürüst və ədalətli bir şəxs idi. Obadiyah dövləti yenidən nizama salmış və yəhudi dinini düzgün və qaydalara uyğun şəkildə təşkil etmişdir. O, sinaqoqlar və mədrəsələr inşa etdirmiş, çoxlu israilli alimləri ölkəyə dəvət etmiş, onları qızıl və gümüşlə təltif etmişdir. Onlar isə hökmdara Müqəddəs Yazıların (Tanaxın) 24 kitabını, Mişnanı, Talmudu və müəyyənləşdirilmiş dua qaydasını izah etmişlər. Obadiyah Tanrıdan qorxan, qanunu və əmrləri sevən bir insan idi" [5, s.129].

Hər nə qədər Xəzərlər yəhudi mədəniyyətini mənimsəmiş olsalar da,həm Əl-İstəxri tərəfindən təsvir olunan,həm də Çin mənbələrində türklərə aid edilən oxşar tacqoyma mərasimləri onların dövlət idarəçiliyində qədim türk siyasi ənənələrini qoruyub saxladıqlarını göstərir.

Əbdəl-Cəbbar ibn Məhəmməd əl-Həmdani "Rəsulullahımız Məhəmmədin Peyğəmbərliyinin Sübutlarının Təsisi" (The Establishment of Proofs for the Prophethood of Our Master Muhammad) əsərində yazmışdır: "Yəhudi icmasının nüma-

yəndələrindən biri Xəzər tayfalarının yəhudiliyi qəbul etməsinə nail olmuşdur. Xəzərlər isə Tövrat qanunvericiliyinin tələb etdiyi ağır dini öhdəlikləri qəbul etmişlər. Bu öhdəliklərə sünnət ayininin icrası, ritual təmizlik və qüsl qaydaları, Şabbat günü və dini bayramlarda işləmək qadağası, habelə bu dinə görə haram sayılan heyvanların ətinin qəbulu ilə bağlı qadağa və digər şəriət hökmləri daxil idi" [9, s. 438].

Kaşrut yəhudi dinində qida ilə bağlı dini qanunlar toplusudur. Yəhudi dini qanunlarına əsasən istehlakı icazəli olan qidalar "koşer" adlanır. Kaşrut qanunlarının əsas müddəalarına müəyyən heyvanların (donuz və pulcuqsuz dəniz məhsullarının) istehlakının qadağan edilməsi, ət və süd məhsullarının birlikdə istifadə edilməməsi, həmçinin məməlilərin və quşların xüsusi qaydada "şehita" adlanan dini kəsim üsulu ilə kəsilməsi barədə göstərişlər daxildir [8].

X əsr Bizans mənbəsi olan Akvitanialı Xristian Drutmar (Christian Druthmar of Aquitania) Xəzərlərin yəhudiliyi tam şəkildə yerinə yetirdiyini, bunun da kaşrut daxil olmaqla, bütün dini qanunları əhatə etdiyini qeyd edir [2, s.26].

XII əsr yəhudi səyyahı Rabb Petaxiya Ratisbon (Rabbi Petachia of Ratisbon) Xəzər yəhudilərinin Şabbatda çörəyi əvvəlcədən kəsdiyini, qaranlıqda yediyini və bütün günü yerində oturduğunu təsvir edir. Bu təcrübə sadə yəhudi adətlərinə bənzəyir və koşer qanunlarının Şabbat yemək qaydaları ilə əlaqəlidir [7, s.20].

Yəhudilər bir çox bayram qeyd edir və hər bayramda özünəməxsus yeməklər təqdim edilir. Hər həftə qeyd edilən şənbə (Şabbat) günü insanların intensiv həyat tempini dayandırması, dincəlməsi, diqqətini yenidən toplaması və ailə üzvləri ilə dostları ilə mənəvi əlaqə qurması üçün bir fürsət hesab olunur. Ənənəvi şənbə axşamı yeməyi adətən ət ilə doldurulmuş xəmir parçaları (kreplax) olan toyuq şorbası, doğranmış qaraciyər və ya balıqdan hazırlanmış klassik yəhudi yeməyi, müxtəlif formalarda bişirilmiş toyuq və müxtəlif tərəvəzlərdən ibarət olur.

"Dünyanın Doğum Günü" adlandırılan Roş Haşanah özünü dərketmə, mənəvi düşünmə və yeni başlanğıclar dövrü kimi qəbul edilir. Bu bayram zamanı insanların "şirin və bərəkətli yeni il" arzuları xüsusi simvolik qidalar vasitəsilə ifadə olunur. Bal içində batırılmış payız alma dilimləri və bal tortu bu bayramın simvoludur. Bu bayram üçün bişirilən çallah (yəhudi çörəyi) adətən hörülmüş formadan fərqli olaraq dairəvi formada hazırlanır. Bu, əbədiliyin və həyatın dövri xarakterinin rəmzidir. Xəmirin tərkibinə əlavə yumurta, şəkər və kişmiş qatılması isə şirin və bərəkətli bir ilin başlanğıcına işarə edir [8].

Yom Kippur "Kəffarə Günü" kimi tanınan bu bayram, əsasən yeməkdən imtina etməklə xarakterizə olunur və həm insanlar arasında, həm də Tanrı ilə barışmaq məqsədi daşıyır. Orucun sonunda keçirilən axşam yeməyi adətən yüngül və süd məhsullarından ibarət olur. Bu menyuya şirin əriştə pudinqi (kugel), pendirli blinçiklər (blintses), yumurta yeməkləri, salatlar, simitlər (bagel), həmçinin siyənək (herring), ağ balıq (whitefish) və duzlu qızılbalıq (lox) kimi balıq növləri daxildir. Türk yəhudiləri arasında isə ənənəvi olaraq oruc açarkən ilk dadılan yemək evdə hazırlanmış heyva və digər meyvə mürəbbələri olur. Bunlar bir stəkan su ilə birlik-

də təqdim edilir. Yom Kippur ərəfəsində doyurucu, lakin susuzluq yaratmayan bir yemək süfrəsi açmaq vacib hesab olunur [10].

Nəticə: Xəzər Xaqanlığı, Türk və Yəhudi mədəniyyətlərinin nadir sintezini təcəssüm etdirərək, Şərqi Avropanın tarixində unikal bir yer tutmuşdur. Yəhudiliyi qəbul etməklə onlar nəinki siyasi müstəqilliklərini gücləndirmiş, həm də dini mərasimlər, bayramlar və qida ənənələri vasitəsilə Türk ənənələrini Yəhudi qanunları ilə harmonik şəkildə birləşdirmişlər. Kaşrut qaydaları, Şabbat ayinləri, Pasxa və Roş Haşana kimi bayramlar, eləcə də simvolik yeməklər bu birləşmənin bariz nümunələridir. Bu proses Xəzər cəmiyyətinin mədəni çevikliyini və özünü idarəetmə qabiliyyətini nümayiş etdirir, eyni zamanda Türk dünyasının ortaq irsinə yeni ölçülər qatır. Xəzər tarixinin öyrənilməsi, müasir dövrdə mədəni inteqrasiya və dini tolerantlıq mövzularında dəyərli dərslər təqdim edir, bu da regionun zəngin keçmişini daha dərindən başa düşməyə kömək edir.

Ədəbiyyat siyahısı:

1.Əsədov.F. Xəzərlər və Azərbaycan, Elm və təhsil, Bakı 2018. 240.s
2.Arthur Koestler. The Thirteenth Tribe , Hutchinson & Co, London 1976. 256.s
3.Douglas Morton Dunlop. The History of the Jewish Khazars. Princeton, New Jersey: Princeton University Press. 1954. 293 s.
4.Halevi Judah. The Kuzari: An Argument for the Faith of Israel. New York: Schocken Books, 1964. 332 s.
5.Kevin Alan Brook. The Jews of Khazaria. Jason Aronson Book, Lanham, 2002. 380 s.
6.Peter.B Golden.The World of the Khazars,Leiden Boston, 2007, 469 s.
7.Rabbi Petachia of Regensburg .The Travels of Rabbi Petahyah. London, 1856. 114 s.
8.A Short Guide to Jewish Religion, Culture
https://www.ajc.org/news/a-short-guide-to-jewish-religion-and-culture
9.Gil Moshe. Did the Khazars convert to Judaism? 2011, 429–441 s.
https://www.persee.fr/doc/rjuiv_0484-8616_2011_num_170_3_3056
10.Traditional and Kosher Rules.https://community.eatrightpro.org/rmig/religionsandfaith/jewish/jewish-resources/traditional-kosher-rules

CƏNUBİ AZƏRBAYCAN QAYA TƏSVİRLƏRİ HAQQINDA

Asiman Eyvazova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və etnoqrafiya" kafedrasının II kurs magistrantı
asimaneyvazova@gmail.com
Elmi rəhbər: t.ü.f.d.,dosent İradə Avşarova

Açar sözlər: *Cənubi Azərbaycan, qaya təsvirləri, insan, heyvan, ovçuluq, məşğuliyyət*
Keywords: *Southern Azerbaijan, rock carvings, human, animal, hunting, subsistence activities*

Cənubi Azərbaycanın qaya təsvirləri e.ə. IV-I minilliklərə aid Təbrizə yaxın olan Sunqur dağlarında, Qaradağ yaxınlığındakı yüksək dağlıq ərazilərdə və s. yerlərdə qeydə alınmışdır. Buradakı təsvirlərin süjet xətti müxtəlifliyi ilə seçilir. Belə

ki, qayalar üzərində yer alan təsvirlərin əksəriyyəti qədim dövr insanlarının məişəti, məşğuliyyəti, təsərrüfat həyatı, dini baxışları, incəsənəti haqqında informasiyanı özündə qoruyub saxlayan yeganə mənbələr olmaqla yanaşı, həm də nadir tarixi sənət əsərləridir.

Cənubi Azərbaycanın ovçuluq məşğuliyyəti ilə bağlı təsvirlərin süjet xəttinə gəldikdə isə onu deyə bilərik ki, aparılan tədqiqatlar onların Qobustan və Gəmiqaya təsvirləri ilə yaxın analogiya təşkil etdiyini göstərir. Bu günədək tədqiqat işində Azərbaycan və onun tarixi ərazilərindən olan Cənubi Azərbaycan qaya təsvirləri arasında təsviri müqayisəli və tarixi müqayisəli təhlil aparılmamışdır. Bu da mövzunun aktuallığını şərtləndirən məsələlərdəndir.

Cənubi Azərbaycan qaya təsvirləri XX əsrin ortalarından başlayaraq, son dövrlərdək daha çox tədqiqatçıların diqqətini cəlb etmişdir. Bölgələrdə ilk dəfə qayaüstü təsvirləri tədqiq edən İtalya arxeoloji ekspedisiyası olmuşdur.Son illərdə, qayaüstü rəsmlərlə bağlı araşdırmalar ölkənin müxtəlif ərazilərini də əhatə etməyə başlamışdır. Bu baxımdan Cənubi Azərbaycan tədqiqatçıları arasında Mohammad Rahim Saraf 1987-ci il və Jamal Lahafianın 2013-cü il tədqiqatları mühüm əhəmiyyət kəsb edir. Şimali-Qərbi İranda M. Kazemi və R. Rezaloonun apardığı tədqiqatlar nəticəsində də yeni petroqliflər aşkarlanmışdır. Mahabad, Qara Dağ Arasbaran, Meşkinşəhr, Əhər, Huridərə Navasar kəndi , Şahindəz ,Huridərə Dava Dərəsi , Xanıməlili kimi mühüm abidələr bu tədqiqatların bir qismini təşkil edir [1, s.70-71].

Beləliklə, qeyd etdiyimiz kimi qaya təsvirlərinə dünyanın bir çox yerlərində, o cümlədən Cənubi Azərbaycan ərazisində də çox rast gəlinir. Cənubi Azərbaycanının Qaradağ bölgəsi bu cür incəsənət nümunələrinin geniş şəkildə yayıldığı bölgələrdəndir. Belə ki, 2022-ci ilin yayında Vərzəqan mahalında yerləşən Sungun Mis Mədənində aparılan arxeoloji araşdırmalar zamanı qaya təsvirləri ilə zəngin üç arxeoloji ərazi müəyyən edilmişdir. Onlardan Cənubi Azərbaycanda Qoşadaş, Doh Dərəsi abidələrində aşkarlanan qayaüstü rəsmlərin hər biri tarixin müəyyən xronoloji çərçivəsinə uyğun olan təsvirləri özündə yaşadır. Qayalar üzərində yer alan insan, heyvan və simvolik motivlərdən ibarət bu təsvirlər əsasən döymə texniki üsulu ilə işlənmiş, nadir hallarda isə onların çəkilişində oyma və həkk etmə üsullarından da istifadə olunmuşdur. Qoşadaş petroqliflərində qeydə alınmış təsvirlərin bir çoxu İranın və Azərbaycanın Qobustan , Gəmiqaya bölgələrində tədqiq olunmuş təsvirlərlə yaxın analogiya təşkil edir [1, s.69 ; 6, s.26 ;7, s.35].

Cənubi Azərbaycanın Qaradağ bölgəsində Qoşadaş qara daşları üzərində təsvir edilmiş petroqliflər, ənənəvi olaraq "el yolu" adlanan köhnə köçəri yolunun üzərində, dik terrasda yerləşir. Şimaldan cənuba təxminən 100 m, şərqdən-qərbə isə 700 m.-ə qədər uzanan qara daşlar üzərindəki rəsmlər böyük bir kompleks təşkil edir. Bəzi hallarda, təsvirlər külək təsirlərindən eroziyaya uğramışdır. Aparılan araşdırmalar nəticəsində təsvirləri 3 əsas qrupa bölmək olar: insan, heyvan və həndəsi təsvirlər. Oxunaqlı olan nümunələr arasında antro-zoomorf təsvirlər üstünlük təşkil edir. Onların əsasını keçi təsvirləri təşkil edir. Belə ki, tədqiq olunan 50 qaya təsviri arasında 5 insan, 40 keçi, dəvə və 5 maral qeydə alınmışdır. Təsvirlərin çəkil-

məsində əsasən zərbetmə texniki üsulundan istifadə edilsə də, bəzi təsvirlərin çəkilməsində oyma üsuludan da istifadə olunduğu nəzərə çarpır [1, s.71-72]. Heyvan təsvirləri, əsasən sxematik və stilizə olunmuş tərzdə təsvir edilmişdir. Təsvirlər əsasən, yerli əhalinin məişəti və gündəlik həyatı ilə bağlıdır. Bundan əlavə, qayalar üzərində insan təsvirləri ilə yanaşı, ovçuluq və maldarlıqla bağlı mürəkkəb kompozisiyalara da rast gəlinir. Bu tip təsvirlərlə Cənubi Azərbaycanın Yanıq təpə (C.A. Burney), Dinkə (O.W. Muscarella) və Azərbaycanın Gəmiqaya petroqlifləri arasında oxşar xüsusiyyətlər müşahidə edilir ki, bu da bölgədəki oturaq və köçəri qruplar arasında mümkün qarşılıqlı əlaqələrə bir işarədir [1, s.73].

Ümumiyyətlə, tədqiqatlardan göründüyü kimi İran ərazisində aşkarlanan petroqliflər müxtəlif təsvirlərlə xarakterizə olunur. Çaram şəhərinin Mondan kəndi yaxınlığında aşkar edilmiş Tang-e Birzal petroqlifləri də bu qəbildəndir. Tang-e Birzal ərazisindəki qaya təsvirləri iki əsas kateqoriyaya bölünür: geometrik və zoomorf. Qeyd etməliyik ki, 2013-cü ildə aşkarlanan bu petroqliflərdə zoomorf təsvirlər və o cümlədən keçi təsvirləri qeydə alınmışdır [2, s.119]. Tədqiqatlar göstərir ki, Qaradağda və Həmadan şəhərində aşkarlanan Qışlaq petroqliflərində də anoloji xüsusiyyətlər izlənilir. Belə ki, Qışlaq bölgəsindəki petroqliflər və digər qayaüstü incəsənət nümunələri Azandəryan petroqlifləri ilə bənzərdir. Təsvirlər qayalar və düz səthlər üzərində yerləşir. Yerli əhali bu səthlərə "yağlı qaya" (yaghli ghieh) adını vermişdir. Qışlaq petroqlifləri ərazidə aparılan səyyar tədqiqat nəticəsində aşkar edilmişdir və ümumilikdə geniş bir sahəyə yayılmış 17 qaya üzərində 70-dən çox nümunə qeydə alınmışdır. Bu petroqliflərin çəkilməsində əsasən döymə texniki üsülundan istifadə olunmuş, bəzən sürtmə və oyma üsulu tətbiq edilmişdir. Buradakı petroqliflər süjet xəttinə görə dörd əsas qrupa bölünür: antropomorf fiqurlar, dağ keçiləri, itlər və simvolik təsvirlər. Təsvirlər bəzən tək-tək oyulmuş, bəzən isə müəyyən kontekst daxilində yerləşdirilmişdir [3, s.18].

Bundan əlavə Şərqi Azərbaycanın Huridərə şəhərində qeydə alınmış Doh Dərəsi petroqlifləri də maraq doğurur. Ümumiyyətlə, İranın şimal-qərb bölgəsi qayaüstü rəsmlərə meylli ərazilərdən biridir. 2013-cü ilin yayında Qarasuçayının sahilində aparılan arxeoloji tədqiqatlar zamanı bir neçə yerdə petroqliflər qeydə alınmışdır. Bu petroqliflərdə, əsasən insan motivləri, simvolik üslubda çəkilmiş heyvanlar üstünlük təşkil edir. Petroqliflər sərt bazalt daşları üzərində, əsasən döyülərək, nadir hallarda isə cızıqlar çəkilmişdir [4, s.1]. Təsvirlər arasında insan təsvirləri üstünlük təşkil edir. Petroqliflərin çəkilməsində cızma və döymə texniki üsullarından istifadə edilmişdir. Rəsmlər əsasən, realizm üslubunda çəkilmiş, əksəriyyəti profildən verilmişdir [4, s.5].

Qayaların birinin üzərində sol əlini qabağa uzatmış atlı, onun yanında isə keçi təsviri yer alır. Burada üzərində təsvir olan daşların sayı 37-dir. Doh Dərəsi petroqliflər kolleksiyası insan, heyvan, həndəsi simvollar və alətlər qruplarına bölünmüşdür. Onu da qeyd etmək lazımdır ki, bu əsərlərin hər birini növünə və üslubuna görə ayrı-ayrı yarımqruplara bölmək olar [4, s.5].

Doh Dərəsi təsvirlərində Piyada adam təsviri yaradılmışdır. Bu rəsmlərdə insanlar ovçuluq və heyvanları otarmaq kimi müxtəlif kompozisiyalarda yer almaqla

yanaşı, həm də dini ayin həyata keçirən qrup halındadırlar. Təsvirlərin birində bəzi insanlar əllərində alət, bəziləri isə alətsiz təsvir olunmuşlar [4, s.5]. Tədqiqatlar göstərir ki, bəzi qayalar üzərində təsvir olunmuş insan fiqurları tək və ya qrup halında, abstrakt üslubda həkk olunmuşdur [5, s.188-189].

Doh Dərəsi təsvirlərindən birində dörd insan bir yerdə, bir-birinin əlini tutaraq təsvir olunmuşdur. Analoji kompozisiya Qobustan qaya təsvirində də müşahidə edilmişdir (Fərəcova, 2018). Bir çox tədqiqatçıların fikrincə, bu rəsmlər bölgədə yaşamış cəmiyyətlərin ənənəvi ritual rəqslərini təmsil edir (cədvəl 1). Ərazidə tədqiq olunan at və atlı təsvirləri, o cümlədən digər oxşar motivlər tək və ya kollektivdir. Ümumiyyətlə, Doh Dərəsi qaya təsvirləri sadə şəkildə yaradılmışdır [4, s.6-7].

Nəticə: Cənubi Azərbaycanın Doh Dərəsi petroqliflərini Qaradağ qayaüstü rəsm kolleksiyasının kiçik bir hissəsi hesab etmək olar. Cənubi Azərbaycanın qaya təsvirlərinin tədqiqi göstərir ki, məişətdən və təbiətdən götürülmüş bu tip motivlər qədim dövrlərdə ərazidə məskunlaşmış insan cəmiyyətlərinin məşğuliyyəti, həyat tərzi, təsərrüfatı və dini inancları ilə bağlı olmuşdur. Heyvan təsvirlərinin çeşidliliyi geniş olmasa da, döyüşçü fiqurlarının at və ya dəvə üzərində təsvir edilməsi bu məkanı fərqləndirən əsas xüsusiyyətlərdən biridir. Qayalar üzərində yer alan ovçuluq və təsərüfat həyatı ilə bağlı kompozisiyalara gəldikdə isə, onu deyə bilərik ki, bu cür kompozisiyaların qayalar üzərində döyülməsi ovun uğurlu olması, məhsuldarlığ və nəsil artımı inamı ilə bağlı olmuşdur. Heyvan təsvirlərinin bir çoxu isə qayalar üzərində totemlər və dövrün heyvanat aləminin göstəricisidir. Müxtəlif simvolik motivlərə gəldikdə isə, onlar özündə kainat və təbiəti simvolizə edir. Bundan əlavə, qayalar üzərində ox və yayın ayrıca təsvir edilməsi, maraq doğurmaya bilməz, belə ki, bu tip təsvirlər ov və dövüş simvolu olmaqla yanaşı, həm də qədim türk ənənələrini özündə yaşadır.


Tədqiqatlar Azərbaycan və onun tarixi ərazilərində tədqiq olunmuş qaya təsvirlərinin bir-biri ilə yaxın analogiya təşkil etdiyini və eyni etnik birliklərin dünyagörüşlərindən yaranan yaradıcılıq nümunəsi olduğunu göstərir.

Ədəbiyyat siyahısı:

1. *Mosayeb Narimani, Behrouz Afkhami, Reza Rezalou- An investigation and analysis of the petroglyphs of Qoshadash, Sungun, Varzeqan (NW Iran)* http://www.arheologie.ro/doc/sp19/5_Narimani.pdf
2. *Soraya Estavi, Zahra Asghari, Ali Aarab, Reza Rezaloo, Aliye Amirinejad Archaeological Discovery, 2016, 4, 119-124 -Introduction over Newly-Discovered Petroglyphs of Tang-e Birzal, Southern Iran* https://www.scirp.org/pdf/AD_2016060915134823.pdf
3. *Yaghoub Mohamadifar, Esmail Hemati Azandaryani-International Journal of Archaeology 2015; 3(2): 17-21-The Petroglyphs of Qeshlagh in Hamadan Province, Western Iran* https://www.researchgate.net/profile/YaghoubMohammadifar/publication/282452161_The_Petroglyphs_of_Qeshlagh_in_Hamadan_Province_Western_Iran/links/5abd5c1faca27222c7558ca9/The-Petroglyphs-of-Qeshlagh-in-Hamadan-Province-Western-Iran.pdf?origin=publication_detail&_tp=eyJjb250ZXh0Ijp7ImZpcnN0UGFnZSI6InB1YmxpY2F0aW9uIiwicGFnZSI6InB1YmxpY2F0aW9uRG93bmxvYWQiLCJwcmV2aW91c1BhZ2UiOiJwdWJsaWNhdGlvbiJ9fQ

4. Saeed Satarnezhad, Siyavash Abdollahi, Kiomars Karimi, Mosayeb Narimani- Introducing the Petroglyphs Dava darasi in Horand County, East Azerbaijan səh16- file:///C:/Users/HP/Downloads/art-univer-v10n19p55-en%20(2).pdf
5. Rouhollah Shirazi- The petroglyphs of the Kajou Valley, Makran, Iran: Tang Sar, Dehirak and Deskigan assemblages- file:///C:/Users/HP/Downloads/paleo_0153-9345_2016_num_42_1_5700.pdf
6. İ.M.Cəfərzadə "Qobustan qayaüstü rəsmlər", Bakı: Elm nəşriyyatı 1973, s 346
7. Müseybli Nəcəf. Gəmiqaya. Bakı: Çaşıoğlu nəşriyyatı , 2004- 320səh

Əlavə 1.



GƏNCƏ-QAZAX BÖLGƏSİNİN ERKƏN ƏKİNÇİ TAYFALARI TÜRK DÜNYASININ FORMALAŞAN MƏDƏNİ İRSİNİN TƏRKİB HİSSƏSİ KİMİ

Aişə İsmayılzadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və Etnoqrafiya" kafedrasının II kurs magistrantı
aisha.ismayilzada.vuqar@bsu.edu.az
Elmi rəhbər: dosent Fərhad Quliyev

Açar sözlər: *Azərbaycan, əkinçi, mədəniyyət, irs, türk*
Keywords: *Azerbaijan, farmer, culture, heritage, Turkish*

Azərbaycan ərazisi Qafqaz və Ön Asiyanın qovşağında yerləşməsi etibarilə tarixən erkən mədəniyyətlərin təşəkkülü və yayılması baxımından mühüm rol oynamışdır. Bu baxımdan Azərbaycanın qərb bölgələrində, xüsusilə Gəncə-Qazax zonasında qeydə alınmış Neolit və Eneolit dövrlərinə aid arxeoloji abidələr regionun

erkən əkinçilik mədəniyyətinin formalaşmasında aparıcı mərkəzlərdən biri olduğunu sübut edir. Göytəpə, Şomutəpə, Töyrətəpə, Hacıələmxanlı kimi yaşayış yerlərində aparılan arxeoloji qazıntılar bu ərazidə oturaq həyat tərzinin, əkinçilik və maldarlığın, sənətkarlığın ilkin inkişaf mərhələlərini üzə çıxarmışdır [4, s.90].

Gəncə-Qazax bölgəsinin erkən əkinçi tayfalarının yalnız lokal deyil, ümumtürk mədəni kontekstində qiymətləndirilməsinin zəruriliyi ilə bağlıdır. Tədqiqatın məqsədi bu tayfaların maddi-mədəni irsini türk dünyasının qədim sivilizasiya prosesləri ilə müqayisəli şəkildə araşdırmaq və onların ümumtürk mədəni irsinin formalaşmasındakı rolunu müəyyənləşdirməkdir.

Qafqaz ərazisində, o cümlədən Azərbaycan torpaqlarında erkən əkinçilik mədəniyyətinin formalaşması e.ə. VII–VI minilliklərə təsadüf edir. Arxeoloji materiallar göstərir ki, Gəncə-Qazax bölgəsində insanlar tədricən ovçu-yığıcı təsərrüfatdan istehsal təsərrüfatına keçmiş, torpaqla bağlı rituallar, məhsuldarlıq inancları və kollektiv əmək vərdişləri formalaşmışdır [1, s.32].

Şomutəpə mədəniyyəti bu baxımdan Gəncə-Qazax bölgəsində erkən əkinçi mədəniyyətin klassik nümunəsidir. Bu mədəniyyətə aid tikililərin dairəvi planlı olması, bişmiş kərpicdən istifadə edilməsi, taxıl ehtiyatlarını saxlamaq üçün anbar tipli qurğuların mövcudluğu, əkinçilik təsərrüfatının yüksək təşkilatçılıq səviyyəsindən xəbər verir. Bu bölgədə əkinçiliyin inkişafı tədricən suvarma texnologiyalarının ortaya çıxması ilə paralel gedirdi. Şomutəpədə tapılan taxıl anbarlarının konstruksiyası, su axarları və taxıl üyütmə alətləri bu fikrin arxeoloji sübutlarıdır [5, s.260].

Göytəpə abidəsində tapılan daş oraq dişləri, taxıl üyüdənlər, keramika nümunələri bu ərazidə buğda və arpa növlərinin becərildiyini aşkar göstərir. Radiokarbon analizlər bu yaşayış məskəninin e.ə. VI minilliyə aid olduğunu sübut etmişdir. Bu fakt bölgənin Yaxın Şərqdə yerləşən Neolit mərkəzləri ilə paralel inkişaf etdiyini göstərməklə, onu həmin sivilizasiya zolağının tərkib hissəsi kimi təqdim edir [3, s.32].

Erkən əkinçi tayfaların etnik mənsubiyyətinin müəyyənləşdirilməsi mürəkkəb məsələdir. Lakin arxeoloji və etnoqrafik materialların müqayisəli təhlili göstərir ki, Gəncə-Qazax bölgəsində yaşamış bu tayfaların təsərrüfat formaları, yaşayış quruluşu və inanclar sistemi sonrakı türklərin həyat tərzi ilə mühüm oxşarlıqlar təşkil edir [2, s.140].

Türk xalqlarına xas olan torpağa sitayiş, məhsuldarlıq kultu, od və su kultları kimi inancların kökləri məhz Neolit və Eneolit dövrünün dünyagörüşündə formalaşmışdır. Bu baxımdan erkən əkinçilik mədəniyyəti təkcə iqtisadi deyil, həm də mənəvi mədəniyyətin formalaşmasında fundamental rol oynamışdır.

Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, torpağa və suya xüsusi münasibət bu dövrdə artıq rituallaşmış formaya düşmüşdü. Göytəpədə tapılan qurban çuxurları və ritual qablar bu inanc sisteminin arxeoloji sübutlarıdır. Od kultu da xüsusi yer tuturdu. Evlərin ocaq mərkəzli planlaşdırılması, kül təbəqələrinin müşahidə olunması kult praktikalarının olduğunu göstərir. Bu elementlər sonradan türklərin "Od anası", "Yer-su ruhları" anlayışında davam etmişdir.

Göytəpə və Şomutəpədə aşkar olunan zoomorf fiqurlar, ana tanrıça təsvirləri məhsuldarlıq mifologiyasının inkişaf etmiş olduğunu göstərir. Bu kult sonralar türk mifoloji dünyagörüşünə transformasiya olunmuş və "yer–su", "umay", "od ruhu" motivləri ilə zənginləşmişdir [1, s.61].

Erkən aqrar cəmiyyətlərin sosial strukturu bərabərlik prinsipinə əsaslanmışdır. Arxeoloji qazıntılar istismarçı təbəqənin mövcud olmadığını göstərir. Evlərin ölçüsünün eyniliyi sosial təbəqələşmənin hələ formalaşmadığını sübut edir. Eyni zamanda qəbilələrin kollektiv əmək əsasında təşkil olunan yaşayış forması, sosial bərabərlik elementləri, icma tipli strukturlar türk tayfa sisteminin ilkin əsaslarını təşkil etmişdir. Bu sosial model sonralar köçəri türk tayfalarında "oba", "el" və "ulus" strukturuna dönüşmüşdür.

Gəncə-Qazax bölgəsinin erkən əkinçi mədəniyyətində dulusçuluq, toxuculuq və obsidian məmulatlarının istehsalı mühüm yer tutmuşdur. Keramik məmulatlar üzərində həndəsi ornamentlərin mövcudluğu türk bədii düşüncəsinin erkən formalarını əks etdirir. Saxsı qablar üzərindəki həndəsi ornamentlər – ziqzaqlar, spiralvari xətlər, dairəvi motivlər – türk dekorativ sənətinin ilk formaları kimi qəbul edilə bilər [3, s.32].

Əldə edilmiş saxsı qabların naxış sistemləri ilə Orta Asiya və Altay bölgəsində sonrakı türk mədəniyyətlərində rast gəlinən ornamentlərin oxşarlığı diqqətə layiqdir. Bu fakt ortaq estetik təsəvvürlərin çox erkən mərhələlərdə formalaşdığını göstərir. Daş alətlər üzərində müşahidə olunan emal texnikası, əmək alətlərinin funksional bölgüsü türklərdə sənətkarlığın struktur əsaslarının qədim köklərə malik olduğunu sübut edir.

Türk dünyasının təşəkkülü yalnız Orta Asiya ilə məhdudlaşmır, onun kökləri Qafqaz və Ön Asiya mədəniyyətləri ilə qarşılıqlı təsirdə formalaşmışdır. Gəncə-Qazax bölgəsinin maddi-mədəniyyət materialları bu sahədə qədim əlaqə xəritəsini bərpa etməyə imkan verir [2, s.359].

Altay, Cənubi Sibir və Azərbaycan arasında mədəni paralellər – ornamental sistem, inanclar və təsərrüfat strukturu – Gəncə-Qazax bölgəsinin türk etnogenezində mühüm mərhələ olduğunu göstərir. Müasir tədqiqatçılar bu regionu "Qafqaz–Orta Asiya mədəni körpüsü" kimi qiymətləndirir. Bu körpü üzərində formalaşan erkən əkinçilik mədəniyyəti türk dünyasının iqtisadi və mədəni inkişafına güclü təkan vermişdir [1, s.61].

Yekun olaraq qeyd etmək olar ki, Gəncə-Qazax bölgəsinin erkən əkinçi tayfaları yalnız Azərbaycan tarixinin deyil, bütövlükdə türk dünyasının formalaşma proseslərinin ayrılmaz tərkib hissəsidir. Arxeoloji materiallara əsaslanan təhlil göstərir ki, bu tayfaların təsərrüfat modeli, dünyagörüşü və mədəniyyət ünsürləri sonralar türklərin etnik-mədəni kimliyinin əsaslarını təşkil etmişdir. Bu baxımdan Gəncə-Qazax mədəni irsi türk dünyasının ortaq mədəniyyət xəzinəsində özünəməxsus yer tutur və onun elmi araşdırılması yalnız milli deyil, ümumtürk mədəni tarixinin bərpası baxımından fundamental əhəmiyyət kəsb edir.

Ədəbiyyat siyahısı:

1. *Baxşəliyev V.B., Azərbaycan arxeologiyas I cild, Bakı: Elm,2007, 239s*
2. *Dostiyev T.M, Arxeologiya, Bakı: Elm və təhsil, 2021, 396s*

3. Quliyev F.E., Nişiyaki Y., Sivilizasiyanın başlanğıc nöqtəsi-Göytəpə neolit dövrü abidəsi. Bakı: CBC nəşriyyatı, 2012, 32s
4. Quliyev F.E., Neolit dövründə Cənubi Qafqazda məskunlaşma proseslərinin xronoloji xüsusiyyətləri (Göytəpə və Hacıələmxanlı qədim yaşayış yerlərinin radiokarbon analizləri əsasında) // Azərbaycan arxeologiyası, 2018, №1, s. 90-109
5. И.Г. Нариманов. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана (эпоха э;еолита VI-IV тыс. До н. Э.).-Баку: Элм, 1987. – 260с.

CƏNUBİ QAFQAZDA HOMO SAPİENS NEANDERTALENSİS NÖVÜNÜN MİQRASİYASI VƏ TƏKAMÜLÜ PROBLEMİ

Ülviyyə Ağamalıyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və etnoqrafiya" kafedrasının I kurs magistrantı
ulviyyeagamaliyeva2004@gmail.com
Elmi rəhbər: t.ü.f.d Hicran Mahmudova

Açar sözlər: *Homo, miqrasiya, paleoantropologiya, arxeologiya, Cənubi Qafqaz, neandertal*
Keywords: *Homo, migration, paleoanthropology, archaeology, South Caucasus, Neanderthal*

İnsanın yaranması, mənşəyi və təkamül xətti elmi təcrübə və araşdırmalarda ən maraqlı və mürəkkəb proses olub, uzun müddətdir ki, antropoloji və arxeoloji tədqiqatların əsas problemlərindən biridir. Xüsusilə də Homo sapiens və Homo neandertalensis arasındakı əlaqələr, onların antropoloji-genetik xüsusiyyətləri müasir dövrdə aktual məsələ kimi ön plana çıxır. Cənubi Qafqaz ərazisi bu proseslərin tədqiq olunmasında lazımi əhəmiyyətə malikdir. Belə ki, Qafqaz Anadolu, Mərkəzi Asiya və Yaxın Şərq arasında əsas dəhliz rolunu oynamışdır. Həmçinin, regionun təbii iqlim şəraiti, həm qədim, həm də müasir insan tiplərinin müxtəlif zamanlarda miqrasiyasına və məskunlaşmasına şərait yaratmışdır. Arxeoloji qazıntılar nəticəsində əldə olunmuş maddi mədəni və paleoantropoloji qalıqlar bizə Homo cinsinin yaşamını, tədrici inkişaf və miqrasiyası məsələlərini araşdırmağa imkan verir. Qafqazın arxeoloji abidələri, xüsusən də Azıx, Tağlar, Kudaro, Dmanisi kimi paleolit düşərgələri qədim daş dövrü mədəni nümunələrini deyil, həm də antropogenezin əsas mərhələlərinin öyrənilməsi istiqamətində də əsas mənbə kimi nəzərə çarpır.

Antropogenezisdə Homo sapiensin meydana çıxmasının tədqiq olunması və bu prosesdə neandertalların rolu məsələsi əsas problem kimi çıxış edir. Onların müqayisəsi zamanı aparılan araşdırmalar göstərir ki, təxminən 400.000 il bundan qabaq onların DNT-si eyni kökü paylaşmışdır. Ona görə də, neandertallar Homo sapiensin bir növü kimi tədqiq olunur və "Homo sapiens neandertalensis" adlandırılır.

XX əsrin 80-ci illərinə qədər təkcə Avropa ərazisi üzrə neandertal nəslinə aid 200- dən çox qalıq aşkar olunmuşdur. Ümumilikdə isə bu vaxta qədər 400-dən çox neandertal qalığı əldə olunmuşdur. Qalıqların kifayət qədər olması, onların əraziyə görə bölünməsinə imkan yaradır. Neandertal qalıqları daha çox Vyrum buzlaşması

dövrünə aid olub, Fransa, İtaliya, Belçika, Almaniya, Çexiya və Ukraynada üzə çıxarılmışdır. Ən son neandertal qalıqları Sen Sezarda (Fransa) aşkar olunmuşdur. Qeyd olunan bu materiallar ikinci Avropa neandertalları qrupu kimi ifadə olunur, "Klassik" və ya "Spay" qrupu adlandırılır [5, s.17]. Bu qalıqlar sübut edir ki, klassik neandertallar orta paleolit Mustye mədəniyyətini yaratmışlar.

Azərbaycan ərazisində isə ilk Mustye məskəni 1953-cü ildə S.N.Zamyatnin və M.M.Hüseynovun rəhbərliyi ilə Daşsalahlı kəndi yaxınlığında (Qazax rayonu) qeydə alınan Damcılı mağarasının arxeoloji tədqiqi 1956-1957-ci illərə aiddir [3, s.1071-1076; 4, s.165]. Azərbaycanda 1960-cı ildə Tağlar mağarası, 1983-cü ildə Qazma Mustye mağarası qeydə alınmışdır [9, s.485]. 1985, 1990, 2007-ci illərdə Ə.Q.Cəfərovun başçılığı ilə Buzeyir mustye mağarası (Lerik rayonu) tədqiq olunmuşdur. 2007-ci ildə Zuvandçay düşərgəsi qeydə alınmış, 2011-2012-ci ildə ilk tədqiqatlar aparılmış və 2015-ci ildə davam etdirilmişdir [2, s.26-32].

Həsənsu-İncəsu-Təvədöy çayı hövzələri arasında aşkar olunan Mustye abidələrinin, mədəniyyətinin yaranması, inkişafı və neandertalların yaşayışı 1960-cı illərdən başlayaraq M.M.Mansurov tərəfindən tədqiq olunmuşdur [1, s.130; 7, s.68-78; 6, s.22-29]. Təəssüf ki, bu qazıntı və tədqiqatlara baxmayaraq Azərbaycan ərazisində yeganə neandertal qalığı Azıx mağarasında tapılmışdır. 2010-cu ildə burada işğalçıların apardığı qeyri-qanuni qazıntılar zamanı neandertal tipli insana aid sol birinci daimi azı dişi aşkar olunmuşdur. Bu qalıq Krapinadan (Xorvatiya) və Sakajiadan (Qərbi Gürcüstan) tapılmış diş qalıqları ilə müqayisə olunmuş və yaxın göstəricilər müəyyənləşdirilmişdir [5, s.19].

2016-2023-cü illərdə Azərbaycan-Yaponiya beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən Damcılı mağarasında, 2024-2025-ci illərdə isə Tağlar mağarasında arxeoloji tədqiqatlar aparılmış və vacib elmi nəticələr əldə olunmuşdur. Hazırda tədqiqatlar Azərbaycan-Danimarka beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən Azıx mağarasında aparılır. Məqsəd bütün təbəqələrin, o cümlədən də orta paleolitə aid olan III təbəqənin mütləq yaşının müəyyən olunmasıdır [13, s.33-39; 12, s.304]

Cənubi Qafqazda orta paleolit dövrünə aid çox sayda paleoantropoloji tapıntı aşkar olunsa da, neandertal qalığı ilk dəfə 1961-ci ildə Cruçula mağarasında (Qərbi Gürcüstan) aşkar olunmuşdur. D.M.Tuşabramişvilinin başçılıq etdiyi ekspedisiya qazıntılar zamanı burada ayrılmış birinci üst sol azı dişi tapmışdır. Dişin təpəcikləri yeyilməsinə baxmayaraq, aydın ifadə olunurdu, amma ümumi quruluşu müasir insana bənzəsə də təpəciklərin ölçüsündə fərqlər mövcud idi. Dişin əsas diqqət çəkən xüsusiyyətindən biri də köklərin güclü dərəcədə birləşməsidir. Bu əlamətlər qalığın neandertal tipli insanlara yaxınlığını göstərir. Digər bir tapıntı isə 1974-1976-cı illərdə Sakajianın (Qərbi Gürcüstan) mustye təbəqəsində aşkar olunmuşdur. Buradan kəllə sümüyü, üst çənənin sol yarısının alveolyar hissəsi, həmçinin diş qalıqları tapılmışdır. Dişlərin quruluşuna diqqət yetirsək, bu qalıq gənc insana uyğun gəlir. Üst çənə sümüyü armudvari dəliyin aşağı küncü və demək olar ki, almacıq sümüyündə sınmışdır. Təxminən damaq sümüyü birləşməsi xəttində bu fraqmentə sınmış damaq çıxıntısı parçası birləşmişdir [8, s.157]. Həmçinin üst çənənin boşluğu böyük ölçülərə malikdir ki, bu da diş çuxurlarının reduksiyasından

irəli gəlir. Neandertallara aid qalıqlar Ortvala (Qərbi Gürcüstan və Bronze (Qərbi Gürcüstan) mağaralarında da aşkar olunub. Ortvala mağarasının III təbəqəsində iki diş tapılmış və yaşlı neandertala aid olunmuşdur. Bronze mağarasının VIII təbəqəsindən isə yuxarı sol azı dişi aşkarlanmış və 8 yaşlı uşağa aid olduğu müəyyən edilmişdir. Bu tapıntılara əsasən deyə bilərik ki, Cənubi Qafqaz neandertalların miqrasiyası prosesində əsas regionlardan biri olmuşdur.

İnsanın yaranması və təkamülü prosesində əsas məsələlərdən biri də neandertalların Homo sapienslərlə əvəz olunmasıdır. Buna səbəb isə son buzlaşma dövrü və onunla bağlı dəyişikliklərdir. Həmin proseslər Homo sapienslərin müxtəlif ərazilərə yayılmasına və iki növ arasında baş vermiş əlaqələr nəticəsində neandertalların zamanla yoxa çıxmasına səbəb olmuşdur. Bu vəziyyəti öyrənmək üçün orta paleolitdən üst paleolitə keçid dövrü tapıntıları dərindən təhlil olunmuş və araşdırılmışdır. Azərbaycan ərazisində bu dövrə aid Damcılı, Tağlar, Zar və Zuvandçay mağaraları müəyyən olunsa da qazıntılar zamanı lazımi nəticələr əldə olunmamışdır. Cənubi Qafqazda son illərdə aparılmış tədqiqatlar nəticəsində bu dövrə aid xronologiya Ortvale Klde (Qərbi Gürcüstan) qayaaltı sığınacağında və Dzudzuana (Qərbi Gürcüstan) mağarasında aşkar olunmuşdur. Dzudzuana mağarasında ilkin tədqiqatlar 1966-1975-ci illərdə D.Tuşabramişvilinin rəhbərliyi ilə aparılmış və sonra 1983-1986-cı illərdə T.Meşveliani tərəfindən davam etdirilmişdir. 1996-2008-ci illərdə Gürcüstan, ABŞ, İsraildən olan beynəlxalq arxeoloji ekspedisiya tərəfindən burada tədqiqatlar aparılmışdır [11, s.332-333].

Son illərdə Bondi (Qərbi Gürcüstan) mağarasında aparılmış tədqiqatlar zamanı orta-üst paleolit dövrünə aid yeni məlumatlar əldə olunmuşdur. Cənubi Qafqazda neandertalların nəslinin kəsilməsi tarixi (37 min il b.e.ə.) təxminən Avropadakı neandertalların nəslinin kəsilməsi tarixi ilə üst-üstə düşür. Son tədqiqatlara əsasən isə Avropada 38 min il əvvələ qədər gənc neandertal qalığı yoxdur [12, s.8611]. Bu əsasla da deyə bilərik ki, neandertallar bu dövrdən sonra Avropada yayılmamışdılar. Amma orta-üst paleolit dövrünə aid aparılan araşdırmalar neandertallarla bağlı bu fərziyyələri inkar edir. Bura A.Zeynalovun Qazma mağarasında apardığı tədqiqatları zamanı əldə olunmuş nümunələrin İspaniya və Yaponiya laboratoriyasında aparılmış təhlillərini aid edə bilərik. Bu təhlillərə əsasən qalıqlar fərqli minilliklərə aid edilir [10, s.15].

Sonda belə nəticəyə gələ bilərik ki, Cənubi Qafqaz ərazisində aparılmış arxeoloji və paleantropoloji tədqiqatlar neandertalların araşdırılması məsələsində əsas rola sahib olmuş və bu ərazilərdən aşkarlanan qalıqlar neandertal-Homo sapiens münasibətlərinin öyrənilməsində lazımi rol oynamışdır. Tezisdən çıxış edərək, Azərbaycanın Azıx, Tağlar, Zar, Damcılı və Gürcüstanın Ortvala, Bronze, Sakajia və digər abidələrini bu məsələnin öyrənilməsində əsas açar kimi qeyd edə bilərik. Neandertalların yox olması prosesi Cənubi Qafqazla yanaşı Avropada da eyni dövrə təsadüf edir. Bu eynilik regionun qlobal miqrasiya proseslərində mühüm körpü rolunu oynadığını göstərir. Mövcud qalıqlar həmçinin göstərir ki, neandertalların nəslinin kəsilməsi təkcə bioloji səbəblərlə deyil, iqlim və ekoloji dəyişikliklər, resurs rəqabəti və demoqrafik fərqliliklər kimi faktorların təsiri ilə baş vermişdir.

Ədəbiyyat siyahısı:

1. *Azərbaycan Arxeologiyası (6 cilddə), Bakı: Şərq-Qərb, 2008, s.632*
2. *Cəfərov, Ə.Q Paleolit arxeoloji ekspedisiyasının 2015-ci ildə apardığı çöl tədqiqat işlərinin ilkin nəticələri / Ə.Q.Cəfərov, C.S.İsmayılov, A.Ə.Cəfərova v.s // Azərbaycanda Arxeoloji Tədqiqatlar-2015-2016, Bakı: 2017, s.26-32*
3. *Hüseynov M.M Avey dağında daş dövrü mağarası. Bakı: Azərbaycan SSR Elmlər Akademiyasın Məruzələri, 1959, № 11, s.1071-1076*
4. *Hüseynov M.M Azərbaycan arxeologiyası (daş dövrü). Bakı: ADU-nun nəşriyyatı, 1975, s.165*
5. *Габуния, Л.К, Ниорадзе, М.Г, Векуа, А. К. О мустьерской человеке из Сакажиа (Западная Грузия) // - Москва: Вопросы Антропологии, 1978. вып.59, с.154-164.*
6. *Гусейнов, М. М. Работы в Нахичеванской АССР | - Москва: Археологические Открытия 1983 года, 1985, с.485.*
7. *Məmmədov Y.V. Homo cinsinin Cənubi Qafqazda məskunlaşması (arxeoloji və paleoantropoloji materiallar əsasında) / Tarix üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / –Naxçıvan, 2021. – 28 s.*
8. *Mənsurov, M.M. Qədirdərə paleolit düşərgəsində aşel dövrü məmulatı // – Bakı: Azərbaycan Arxeologiyası, – 1999. № 1, – s. 22-29.*
9. *Mənsurov, M.M. Şıxlı kəndində paleolit tapıntıları // – Bakı: Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, Tarix, fəlsəfə, hüquq seriyasi, –1966. № 1, – s. 68-78.*
10. *Nishiaki, Y., Zeynalov A and Y. Mammadov Y 44. Damjili Cave – Investigating the Late Pleistocene to Holocene Human History in the Southern Caucasus. Oxford: Oxbowbooks, 2025, p.304*
11. *Nishiaki Y, Zeynalov A., and Mamadov Y. Resumption of the excavations ef the Middle Paleolithic Taglar Cave // News of Baku University, series of humanitarian sciences, N1, 2025, p.p. 33-39.*
12. *Pinhasi, R. Revisedage age of late Neanderthal occupation and the end of the Middle Paleolithic in the northern Caucasus / R. Pinhasi, T. Higham, L.Golovanova [et al.] // Proceedings of the National Academy of Sciences, 2011, p.8611-8616.*
13. *Bar - Yosef, O. Dzudzuana: an Upper Palaeolithic cave site in the Caucasus foothills (Georgia) / O. Bar-Yosef, A. Belfer-Cohen, T. Mesheviliani [et al.] // Antiquity, 2011, v.85, - p.331-349.*

AİLƏ DƏYƏRLƏRİNƏ QLOBALLAŞMANIN TƏSİRİ

Fidan Osmanlı
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və etnoqrafiya" kafedrasının I kurs magistrantı
fidanosman513@gmail.com
Elmi rəhbər: t.ü.f.d.Fəxriyyə Həvilova

Açar sözlər: *qloballaşma, ailə dəyərləri, sosial dəyişiklik, milli kimlik*
Keywords: *globalization, family values, social change, national identity*

Müasir dövrün ən böyük, aktual və əhatəli proseslərindən biri qloballaşmadır. Qloballaşma dünya ölkələrini mədəni, iqtisadi, siyasi və texnologiya baxımından bir-birilə sıx və qarşılıqlı şəkildə bağlayan prosesdir. Qeyd etmək lazımdır ki, qloballaşmanın dəqiq tərifi, həmçinin onun müsbət və ya mənfi proses olması ilə bağlı tədqiqatçılar tərəfindən qəbul edilmiş vahid bir fikir yoxdur. İlk olaraq, biz bu ifadənin lüğəvi və etimoloji mənasına nəzər salaq. Qloballaşma sözü ingiliscə

"globalization" terminindən yaranıb və "global" (bütün yer kürəsini əhatə edən) sözündən götürülüb. Bu termin ilk dəfə XX əsrin II yarısından etibarən istifadə olunmağa başlayıb. Bu gün qloballaşmanın meydana gəlməsinin əsas səbəbləri kimi texnologiyanın və informasiya vasitələrinin sürətlə inkişafını əsas götürürlər. İctimai proses kimi qloballaşma cəmiyyət həyatının bütün sahələrinə, eyni zamanda cəmiyyətin ən əsas təməl qurumu olan ailə institutuna həm mənfi, həm də müsbət təsirlərini göstərir. Ailə kiçik bir dövlətdir. Onun da öz qanunları, adət-ənənəsi, yaşam tərzi, mühiti var. Dünyada mövcud olan bu təbii birliklərin içərisində Azərbaycan ailəsi özünəməxsusluğu, yüksək mənəvi dəyərlərə bağlılığı ilə seçilir [2, s.1]. Ənənəvi ailə modeli əsrlər boyu formalaşmış dəyərlər, qarşılıqlı məsuliyyət və sosial sabitlik üzərində qurulmuşdur. Xalqımızın çox gözəl və zəngin ailə ənənələri var. Bu ənənələr dərin və sarsılmaz köklərə malikdir. XXI əsrdə qloballaşmanın gətirdiyi yeniliklər ailə dəyərlərinə də öz müsbət təsirini göstərmişdir. Bunlardan bəzilərini qeyd etmək olar:

1. Mədəni təsirlər. Qloballaşma nəticəsində müxtəlif xalqların mədəniyyətləri bir-biri ilə qarşılıqlı əlaqəyə girir. Azad münasibətlər, gender bərabərliyi, ailədaxili qarşılıqlı hörmət, uşaqların hüquqlarına diqqət kimi müsbət meyillər yaranır.
2. İqtisadi amillər. Qloballaşmanın gətirdiyi iqtisadi dəyişikliklər, yeni iş imkanları qadınların əmək bazarında rolunun artmasına şərait yaradır.
3. Texnologiyanın rolu. Qloballaşmanın əsas dayaqlarından biri olan texnologiyanın inkişafı nəticəsində uzaq məsafədə yaşayan ailə üzvləri arasında məsafə proplemi azalır (video zənglər, onlayn görüşlər).
4. Milli kimlik və ailə dəyərləri. Azərbaycan kimi ənənəvi cəmiyyətlərdə ailə dəyərləri milli - mənəvi kimliyin mühüm hissəsidir. Qloballaşma bu dəyərlərə yeni elementlər əlavə etməklə yanaşı, onların assimilyasiya riskini də artırır. Buna görə də milli ailə modelinin qorunması və müasir dəyərlərlə uzlaşdırılması əsas prioritet olmalıdır.

Qloballaşma, informasiya texnologiyalarının sürətli inkişafı, internetin həyatın bütün sahələrinə nüfuz etməsi bir sıra müsbət tendensiyalarla yanaşı, bəzi neqativ halların da artmasına səbəb olur. Buna görə də, qloballaşmanın yalnız uğur və xoşbəxtlik gətirməsi haqqında müddəalar düzgün deyildir. Çünki qloballaşma nəticəsində Azərbaycan ailəsinə xas olan bir çox dəyərlərimizi itirir və qərb, Avropa ailə sisteminə üstünlük verməyə çalışırıq. Yad, millətimizə xas olmayan ideyaların, davranış normalarının təbliği böyüməkdə olan gənc nəslə bəzən yalnış yol göstərir. Ailə dəyərlərində bəzi xoşagəlməz transformasiyalar baş verir. Məhz bu səbəbdən qloballaşmanın ailə dəyərlərinə göstərdiyi mənfi təsirləri də qeyd etmək yerinə düşərdi. Qloballaşmanın ailə dəyərlərinə göstərdiyi mənfi təsirlərdən biri nikahın rəsmi qeydiyyatı olmadan birgə yaşamanın geniş yayılmasıdır. Son onilliklərdə müşahidə olunan rəsmi nikah olmadan birgə yaşamanın yayılması ailənin dərinləşməkdə olan böhranına, ailə dəyərlərinin tənəzzülünə səbəb olur. Bütün bunların nəticəsində cəmiyyətdə uğursuzluq kəskinləşir, sosial davranışın deviant formaları artır. Eyni zamanda Azərbaycanda da nikahdan kənar doğulmaların sayı artır, hərçənd,

bu öz-özlüyündə ilk növbədə "ana" ailələri adlanan ailələlərdən olan uşaqların natamam sosiallaşması ilə bağlı çoxsaylı problemlər yaradır [5, s.115]. Digər bir problem iqtisadi amillərlə bağlı meydana çıxır. İqtisadi dəyişikliklər – miqrasiya, yeni iş imkanları, şəhərləşmə, qadınların əmək bazarına daha çox qoşulması ailə münasibətlərinə təsir edir. Qadınların iqtisadi müstəqilliyi artdıqca ailə daxilində bərabərlik güclənir. Bu isə ərlə arvad arasında anlaşılmazlıqlara son nəticədə isə boşanmaya səbəb olur. Qloballaşma şəraitində etnik mədəniyyətə təsir göstərən və onun dəyişkənliyini şərtləndirən vacib amillərdən biri də Azərbaycanda son illərdə intensivliyi ilə seçilən miqrasiya proseslərdir [3, s.66]. Miqrasiya səbəbindən ailə üzvlərinin bir-birindən ayrı düşməsi (xaricdə iş imkanları) ailə bağlarının zəifləməsinə, etimad və güvənin azalmasına səbəb olur. Qloballaşma dəyərlərin dəyişməsinə zəmin yaradır. Ənənəvi olaraq ailə kollektiv məsuliyyət, böyüklərə hörmət, nəsil davamlılığı üzərində qurulurdusa qloballaşmanın təsiri ilə fərdiyyətçilik, şəxsi azadlıq və özünüreallaşdırma ön plana keçir. Bu dəyişiklik nikahların gecikməsinə, boşanma hallarının artmasına və doğum səviyyəsinin aşağı düşməsi kimi nəticələrə gətirib çıxarır. Texnologiyanın inkişafı virtual asılılıq, real ünsiyyətin azalması, ailə münasibətlərində soyuqluq kimi mənfi halların artmasında böyük rol oynayır. Ailə üzvləri bir-birlərinin problemləri ilə maraqlanmır, valideynlər övladları ilə kifayət qədər zaman keçirmir, sosiallaşmaya maraq göstərmirlər. Bütün bunlar həm valideynlərin, həm də uşaqların psixoloji cəhətdən inkişafına mənfi təsir göstərməklə yanaşı, hətta ailədaxili münaqişə, uyğunsuzluq, intihar, boşanma kimi halların çoxalmasına gətirib çıxarır. Bu gün qloballaşmanın bariz şəkildə inkişafını özündə geniş şəkildə əks etdirən vasitə Kütləvi İnformasiya Vasitələridir. KİV gənc nəslin şəxsiyyətinin formalaşmasında, dünyagörüşünün inkişafında, milli dəyərlər zəminində tərbiyə olunmasında güclü vasitədir. Lakin qeyd etmək lazımdır ki, elə mətbuat nümunələri vardır ki, çox zaman milli dəyərlərimizə və mentalitetimizə uyğun olmayan yazılar nəşr edir. Bu sıraya, həmçinin, bu gün Azərbaycan televiziya kanallarında təqdim olunan verlişlərin böyük bir qismi daxil edilə bilər. Qloballaşmanın sürətlə inkişaf etdiyi bir dövrdə KİV-in əsas məqsədi milli-mənəvi dəyərlərimizi təbliğ etməklə, gəncliyin mənəvi yetkinliyi naminə fəaliyyət göstərməli olmasıdır. Cəmiyyətə, gənc nəsilə fayda verə biləcək, məntiqi, təsirli, ibrətli yazılar nəşr edilməli, verlişlər təqdim olunmalıdır. KİV – in xüsusilə, televiziyanın üzərinə düşən böyük vəzifələrdən biri də ailə dəyərlərimizin təbliğində müsbət ictimai rəyi formalaşdırmaqdır. Lakin çox təəssüf ki, bugünkü TV proqramları demək olar ki, tamamilə bu istiqamətdə əks-davranışlar nümayiş etdirirlər.

Ailə dəyərlərimiz demək olar ki, təbliğ olunmur. Televiziya kanallarında sosialməişət mövzulu proqramlarda yalnız mənfi ailə modellərini, həmin ailələrdə baş verən neqativ halları nümayiş etdirirlər. Halbuki, Azərbaycanın yüksək keyfiyyət dəyərlərinə malik nümunəvi ailələrinin sayı müqayisə edilməyəcək dərəcədə çoxdur. Düzdür, mənfi ailələrin qüsurlarını, problemlərini işıqlandırmaqla cəmiyyətdə mövcud olan nöqsanları göstərmək, digər insanların bunlardan nəticə çıxarmasına şərait yaratmaq olar, lakin burada balansın pozulmamasına diqqət yetirmək lazım-

dır [4, s.15]. Bu gün çox təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 30 illik torpaq savaşı verən bir xalqın televiziya kanallarında onun şanlı tarixindən, milli-mənəvi dəyərlərindən bəhs edən verilişlər əvəzinə, bayağı, etik dəyərlər səviyyəsində olmayan keyfiyyətsiz verilişlər xalqa təqdim olunur. Ailə dəyərlərinə ciddi təsir göstərən amillər sırasında sosial şəbəkələrin də rolunu xüsusilə qeyd etmək lazımdır. Hansı ki, gənclərin demək olar ki 99 faizi bu gün sosial şəbəkələri həyatlarının ayrılmaz parçasına çeviriblər. Sözügedən sosial platformalarda qərb ailə dəyərlərinə, Avropa cəmiyyətinə xas olan əlamətlərə daha çox rast gəlindiyi məlum faktdır. Öz həyat tərzini, ailə vəziyyətini, yaşayışını həmin platformalarda nümayiş etdirən insanlar Azərbaycan gəncliyi və ailələri arasında həmin meyllərin yaranmasına istər mənfi, istərsə də müsbət şəkildə təsir göstərmiş olurlar. Bu xüsusilə gənc, yeni evli ailələr arasında bir sıra anlaşılmazlıqların, fikir ayrılıqlarının yaranmasına səbəb olur və son nəticədə isə boşanma hallarına gətirib çıxarır. Sosial şəbəkələrlə bağlı daha bir nüansı vurğulamaq yerinə düşər ki, bu həmin platformalarda tanış olmaq, münasibət qurmaqdır. Qloballaşmanın təsiri ilə Avropa həyat tərzindən Azərbaycan mentalitetinə də keçid edən bu proses müasir gənclik üçün normal qəbul edilsə də, əslində, çoxları bunun sonrakı nəticələri və fəsadları barədə düşünmürlər. Hansı ki, bu cür tanışlıqlar və ailə qurmaq ailənin sonrakı həyatında bəzi problemlərin meydana çıxmasına səbəb ola bilər. Bunlardan bir neçəsini qeyd edə bilərik. Sosial şəbəkələrdə tanış olan cütlüklər arasında etimad zəif ola bilər, qarşılıqlı nəzarət, qısqanclıq və mübahisələr baş verə bilər. Bəzi ailələr belə münasibətlərə mənfi yanaşır ki, bu da sonradan müəyyən qarşıdurmalara səbəb ola bilər. Virtual mühitdə yaranan münasibətlərin sağlam ailəyə çevrilməsi üçün bir sıra şərtlər vacibdir ki, bunlara, hörmət, dürüstlük və real ünsiyyət və s. daxildir. Sosial şəbəkələrin daha bir mənfi cəhəti insan sağlamlığına ciddi zərər vuran vərdişlərin təbliğ edilməsidir. Bunlar narkotik, alkoqol və spirtli içkilərin təbliği və təşviqidir. Asılılıqların formalaşması gənclərin ailə qurmasına ciddi çətinliklər törətməklə yanaşı həm də ailədə zorakılıq, mübahisə hallarının artmasına səbəb olur. Eyni zamanda boşanma hallarının artması, nikah yaşının artmasına, doğumun aşağı düşməsinə gətirib çıxarır. Ümumiyyətlə, 2005-2024-cü illər üzrə boşanma statistikasına nəzər saldıqda görə bilərik ki, 2005-2014-cü illər dövründə boşanmalar tədricən artmış, 2014-2019-cu illər arası yüksəlmə və dalğalanma müşahidə olunmuş, 2020 – ci ildə COVİD-19 pandemiyası ilə bağlı müvəqqəti düşüş, 2021-2024 – cü illər də isə yenidən artım baş vermiş, xüsusilə 2023-2024 – cü illərdə kəskin yüksəliş müşahidə olunmuşdur. Ən çox göstərilən sosial səbəblər isə məişət zorakılığı, iqtisadi problemlər, fərqli mənəvi dəyər və dünyagörüşləri, asılılıqlardır. Ailələrin sağlam, xoşbəxt yaşaması üçün onun üzvləri arasında səmimi mədəni münasibət olmalı, valideyn-övlad münasibətləri düzgün qurulmalıdır. Mədəniyyət, qarşılıqlı hörmət və bu hörmətdən doğan davranış qaydaları ailə mənəviyyatının təməlidir. Ailədən aşılanan müsbət mənəvi-psixoloji iqlim ictimai mühitə də nüfuz edir. Bir məqamı nəzərdən qaçırmamalıyıq ki, ailə cəmiyyətlə, mövcud olduğu dövrlə sıx əlaqədə olan bir institutdur. Bu baxımdan cəmiyyətin hər bir vətəndaşı ailə dəyərlərinin qorun-

ması, yad meyillərin qarşısının qətiyyətlə alınması milli dəyərlərin qorunması üçün güc sərf etməlidir [1, s.5].

Azərbaycan ailəsi hər şeydən əvvəl milli adət-ənənələrimizi özündə yaşatmalı, övladlarımız dünyaya gəldikləri gündən milli-mənəvi dəyərlərimizlə tərbiyə olunmalıdır. Böyüyə hörmət, kiçiyə qayğı, milli dəyərlərimizə bağlılıq bu tərbiyənin əsasını təşkil etməlidir.

Ədəbiyyat siyahısı:

1. *Hüseynova H. Ailə milli - mənəvi dəyərlərin daşıyıcısıdır// Azərbaycan, 2009,s. 5*
2. *İsmayıl Z. Azərbaycan ailəsi və milli dəyərlər // Nuhçıxan, 2020, s. 1*
3. *Məmmədli Ə. Müasir cəmiyyət və etnomədəni müxtəliflik //Bakı. 2017, s. 66*
4. *Ömərov V. Milli ailə dəyərləri və qloballaşma // "Səs" qəzeti, Bakı. 2020, s. 15*
5. *Vahidov F. Q., Ağayev T. B. Sosiologiya. Bakı: "Təknur" nəşriyyatı, 2008, s.* 115

TOVUZ RAYONUNUN NEOLİT DÖVRÜ ABİDƏLƏRİNDƏN AŞKARLANMIŞ BİTKİ QALIQLARINA DAİR

Maral Əlizadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin II kurs tələbəsi
marallizade7@gmail.com
Elmi rəhbər: dosent Fərhad Quliyev

Açar sözlər: *Neolit, arxeobotanika, Hacıələmxanlıtəpə, Göytəpə, Menteştəpə, Tovuz, arxeobotaniki flotasiya.*
Keywords: *Neolithic, archaeobotany, Hajialamkhanlitepe, Goytepe, Menteshtepe, Tovuz, archaeobotanical flotation*

Neolit dövrü cəmiyyətin təsərrüfat həyatında əsaslı dəyişikliklərin baş verməsi ilə əlamətdar olmuşdur. İlk növbədə istehsal təsərrüfatının formalaşması mühüm əhəmiyyət daşıyır. Bu dövrün əmək alətlərinin tipoloji təhlili göstərir ki, mikrolitlərdən quraşdırma alətlərin bir qismindən ovçuluq və balıqçılıqda istifadə olunduğu halda, bir çox əmək alətləri daha mütərəqqi istehsal təsərrüfatına, əkinçilik təsərrüfatı təyinatına malik idi. Neolit dövrünə dair zəngin maddi-mədəniyyət nümunələrinə Tovuz rayonunun Hacıələmxanlıtəpə, Göytəpə, Menteştəpə yaşayış yerlərində rast gəlirik. Azərbaycan arxeologiyasında zəif tədqiq olunan arxeobotanika sahəsinə həsr olunmuş hazırkı məqalədə Azərbaycanda Neolit dövrünün bitki qalıqlarına dair məlumatlar öz əksini tapmışdır.

Hacıələmxanlıtəpə. Hacıələmxanlıtəpə abidəsi Azərbaycanın orta Kür vadisində yerləşən, e.ə. VI minilliyə aid Neolit dövrü təpə tipli yaşayış yeridir. 2012–2015-ci illər arasında aparılan qazıntılar göstərmişdir ki, bu Neolit yaşayış məskəni regionda, hətta bütün Cənubi Qafqazda məlum olan ən erkən kənd yaşayış yerlərindən biridir. Qazıntılar zamanı ən azı 4 əsas yaşayış mərhələsi aşkar olunmuşdur (I–IV səviyyələr) [7]. Radiokarbon analizləri II və III səviyyələr arasında 50 ildən az bir fasilə olduğunu göstərsə də, ümumi arxeoloji material hər hansı mədəni qı-

rılma olmadığını göstərir. Eyni yerlərdə tikililərin üst-üstə düşməsi yaşayışın fasiləsiz olduğunu göstərir. Buna görə də, Hacıələmxanlıtəpənin I–IV səviyyələri bir kompleks kimi qiymətləndirilir.

Hacıələmxanlıtəpə icmalarının əsas təsərrüfatı qida istehsalına əsaslanırdı. Əldə edilmiş bitki qalıqları əsasən buğda, arpa və paxlalılar kimi becərilən mədəni bitkilərdən ibarət idi [7, s.229]. Qoz-fındıq və meyvə kimi yabanı bitkilər də istifadə olunurdu. Heyvandarlıq isə əsasən qoyun, keçi və daha az dərəcədə iri buynuzlu mal-qara və donuz bəslənilməsinə əsaslanırdı . Qoyunların qədim DNT analizi göstərir ki, onlar yerli yabanı keçilərdən yox, Cənub-Qərbi Asiyadan gətirilmiş əhliləşdirilmiş sürülərdən törəmişdir [7, s.230].

Göytəpə abidəsində də əsas təsərrüfat nümunələri davam etsə də, yeni dəyişikliklər müşahidə edilmişdir. Hacıələmxanlı təpəsində qabıqlı buğda və arpa üstünlük təşkil edir, Göytəpə və Şomutəpə mədəniyyəti abidələrində isə asan döyülən (libere excutiens) buğda növləri çoxluq təşkil edir. Bu da göstərir ki, Göytəpədə istifadə olunan dənli bitkilərin mənşəyi Cənub-Qərbi Asiyadır [7, s.230].

Göytəpə. Son 20 ildə Kür və Araz çaylarının orta axarında, Tovuz rayonunda erkən Neolit dövrünə aid qazıntılar nəticəsində Cənubi Qafqazın ilk fermerlərinə dair xeyli arxeobotaniki məlumatlar əldə olunub. Bu abidələr arasında Göytəpə xüsusilə bol üzvi qalıqları ilə seçilir və həmin dövrdə təsərrüfat və bitki istifadəsini anlamaqda açar məkan ola bilər. Göytəpənin arxeobotanik məlumatları bölgədə əkinçiliyin formalaşması prosesini və Cənubi Qafqazın digər əraziləri ilə müqayisələri müzakirə etmək üçün əsas yaradır [6].

Dənli bitki qalıqlarının toplanmasında flotasiya texnologiyasının tətbiqi əhəmiyyətli olmuşdur. Flotasiya qurğusu böyük bir çən və iki ələkli kiçik bir vannadan ibarətdir. Çən və vannalar dövriyyə yaratmaq və suyun böyük çəndən daşmasını təmin etmək üçün bir xortum və nasosla birləşdirilir. Yüngül fraksiyaların toplanması üçün çənin çıxış hissəsinin altında 0,3 mm-lik incə ələk yerləşdirilir. Yüngül fraksiyalar qurudulur və mikroskopik müşahidə üçün Yaponiyaya göndərilir. Ağır fraksiyalar isə böyük çənin içərisində, su səviyyəsinin bir qədər altında yerləşdirilmiş 0,5 mm-lik ələk vasitəsilə toplanırdı [1, s.325]. Bu fraksiyalara keramika parçaları, daş qırıntıları, sümük fraqmentləri və digər kiçik obyektlər daxil idi. Onlar da qurudulub çeşidlənmişdir. Böyük miqdarda taxıl dənələri, ən çox rast gəlinən taxıl arpa, sonra azad döyülən buğda (Triticum libere excutiens) və qabıqlı buğda olmuşdur. Məhsul yığımına mərcimək də daxil idi. Digər paxlalılar və meyvə ağaclarına aid qalıqlar çox az miqdarda qeydə alınmışdır.

Arpa. Göytəpə əkinçilik bitki kolleksiyasında ən üstünlük təşkil edən növ olub, ehtimal ki, sakinlər üçün ən mühüm ərzaq bitkisi idi. Arpa (Hordeum) dənələri çoxlu miqdarda tapılmışdır. Cəmi beş dənə qabıqlı arpa kimi dəqiq müəyyənləşdirilə bilmişdir; qalan dənələrin çoxunun yuvarlaq və dolğun forması arpaya məxsus olduğunu göstərir [1, s.327].

Buğda. Göytəpədə ən çox rast gəlinən buğda növü sərbəst-döyülən (libere excutiens) buğdadır (triticum). Sərbəst-döyülən buğdaya aid dənələrin sayı təxminən

250 ədəd olmuşdur. Sərbəst-döyülən buğdanın sünbülcük əsasları da çoxlu miqdarda tapılmışdır. İki və daha çox seqmenti bağlı olan təxminən 100 sünbülcük əsası müəyyən edilmişdir. Bu isə açıq şəkildə göstərir ki, Göytəpə sakinləri sərbəst-döyülən buğdanı əsas əkin bitkilərindən biri kimi becərmişlər [1, s.327].

Digər dənli bitki hissələri. Yuxarıda qeyd olunduğu kimi, Göytəpədən əldə edilən üzvi materiallar çox yaxşı qorunub saxlanmışdır. Kövrək və adətən kömürləşmə prosesində çox nadir hallarda salamat qalan pulcuq (palea), lamma (lemma), sünbül qılçığı (arista) və ya qılaf ucu (tip of glume) kimi hissələr də bol şəkildə aşkar edilmişdir. Belə kövrək hissələrin fraqmentlərinin sayı 7.000-dən çox olmuş və "yüngül çaf" (palea levis) kimi qeydə alınmışdır [1, s.329].

Menteştəpə. Menteştəpə, Azərbaycan Respublikasının qərbində, Tovuz rayonunun Eyyublu kəndinin kənarında yerləşir və Kür çayının sol qolu olan Zəyəmçaydan təxminən 1 km aralıdır. Kiçik Qafqaz dağ silsiləsinin ətəkləri isə cənubdan 10 km-dən az məsafədədir . Bu abidə ilk dəfə 1960-cı illərdə araşdırılmış və Eneolit dövrünə aid edilmişdir (Nərimanov, 1987). 1970-ci illərdə təpənin bir hissəsi üzüm bağının salınmasından əvvəl aparılan planlaşdırma (hamarlama) işləri nəticəsində dağıdılmışdır. Lakin 2007-ci ildə aparılan araşdırmalar göstərmişdir ki, səth altında tikinti qalıqları hələ də nisbətən yaxşı qorunub saxlanmışdır. 2008-ci ildən etibarən Menteştəpədə B. Lyonnet (UMR 7192–CNRS) və F. Quliyev (AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Bakı) rəhbərliyi altında Azərbaycan-Fransa ekspedisiyası qazıntı aparmışdır. Bu qazıntılar Neolit dövründən Erkən Tunc dövrünə qədər – təxminən 3500 illik bir dövrü əhatə edən ardıcıl yaşayış mərhələlərini müəyyənləşdirmişdir [4, s.20].

Arxeobotaniki qalıqlar. Qazıntı sahəsində quyular, döşəmə qatları və ocaqlar kimi müxtəlif kontekstlərdən götürülmüş 2000 litrdən çox çöküntü ələnmişdir. Bunun üçün 0,5 mm-lik ələkli flotasiya cihazından istifadə olunmuşdur. Qurudulduqdan sonra nümunələr toxum və meyvələrin araşdırılması üçün binokulyar mikroskop, kömür fraqmentlərinin tədqiqi üçün isə optik əks-işıqlı mikroskopla öyrənildi. Makrobotaniki qalıqlar əsasən kömürləşmiş şəkildə qorunmuşdu, bəziləri isə biominerallaşmışdı [2, s.19]

Müqayisə aparmaq üçün müasir toxum və meyvə kolleksiyaları və müxtəlif atlaslardan istifadə olunmuşdur. Kömür fraqmentlərinin identifikasiyası üçün müasir ağac nümunələri və ağac anatomiyası atlasları tətbiq olunmuşdur.

Menteştəpədən əldə olunmuş toxum və meyvələrin analizi 40.000-dən çox nümunəyə əsaslanır. Bu qalıqlar 88 stratigrafik vahidə aiddir və yaşayışın müxtəlif mərhələlərini əhatə edir. Ən çox nümunə Menteş III mərhələsinə məxsusdur. Bu məqalədə yalnız xronoloji olaraq dəqiq müəyyənləşdirilmiş 71 nümunə müzakirə olunur [2, s.20]. Neolit dövründən bəri taxıl qalıqları üstünlük təşkil etmişdir. Onların morfologiyası göstərir ki, həmin dövrdə taxıllar artıq tam əhliləşdirilmişdi. Üç taxıl növü müəyyən edilmişdir: arpa, emmer iki dənli buğda(Triticum dicoccum) və sərbəst döyülən buğda. Arpa bütün dövrlərdə əsas əkin bitkisi olmuşdu, lakin Eneolitdə sərbəst döyülən buğdanın əhəmiyyəti artır, emmerin isə azalır.

Mərci, acı noxud (grasspea) və noxud/yem noxudu tipli paxlalılar bütün xronoloji ardıcıllıqda qeydə alınmışdır. Kətan isə yalnız Menteş III mərhələsində tapılmışdır. Nümunələrin çoxu taxıllar, paxlalılar, müəyyən meyvə ağacları və yabanı bitkilərin az miqdarda qalıqlarından ibarətdir ki, bu da onların müxtəlif mənşəli detrital yığınlar olduğunu göstərir. 47 yabanı bitki taksonu müəyyən edilmişdir və onlardan bəziləri ehtimal ki, əkin alaq otlarıdır [2, s.19].

Yabanı bitkilərin yalnız cins səviyyəsində müəyyən olunması onların FIBS metodu (Botanik Sorğuların Funksional Təhlili) ilə geniş şəkildə analiz olunmasına imkan vermir. Bu metodun tətbiqi üçün taksonların növ səviyyəsində dəqiq identifikasiyası vacibdir, çünki analiz bioloji tip, cücərmə dövrü, çiçəklənmə dövrü, yarpaq hündürlüyü və yarpaq sahəsi kimi növün özünəməxsus xüsusiyyətlərinə əsaslanır. Bu cür təhlillə əkin intensivliyi, səpin mövsümü, suvarma və gübrələmə sistemləri kimi mühüm məsələləri müəyyənləşdirmək mümkündür. Mövcud identifikasiya səviyyəsi bu metodun tətbiqinə imkan verməsə də, ilkin yanaşma kimi yabanı otların çiçəklənmə müddətlərinə əsasən səpin mövsümü haqqında fikir yürütmək mümkündür. Əgər taxıllar payızda səpilib yazın sonu-yayın əvvəli biçiliridirsə, erkən cücərən və erkən çiçəklənən alaq otları gec cücərən növlərə nisbətən üstünlük əldə edərdi.Əgər taxıllar yazda səpilirdirsə, payızda cücərən alaq növləri torpağın şumlanması zamanı məhv edilər, yazda cücərən növlər isə daha çox yayılardı. Botaniki materialda müəyyən olunmuş hər bir cins üçün Cənubi Qafqazda böyüməsi mümkün olan növlərin çiçəklənmə dövrü və müddəti flora inventarlarının köməyi ilə qeydə alınmışdır [2, s.20].

Neolit dövrü (Menteş I). Neolit dövründə taxıllar əkin bitkiləri arasında əsas yer tuturdu. Müəyyən edilmiş qalıqlar arasında arpa dominant idi (16%), onu emmer buğdası (7%) və buğda (5%) izləyirdi [2, s.20]. Müəyyən edilməmiş buğda qalıqları da mövcud idi (4%). İstər hansı taxıl növünə aid olmasından asılı olmayaraq, karipoz (taxıl dənələri) qalıqları (96%) pulya qalıqlarından (4%) çox üstünlük təşkil edirdi. Paxlalılar da qeydə alınmışdır (2%, əsasən mərcimək, və əlavə olaraq bir ədəd müəyyən edilməmiş paxla toxumu tapılmışdır). Toxuculuq üçün istifadə olunan bitkilərə (məsələn, kətan) dair heç bir qalıq aşkarlanmadı. Meşəlik ərazilərə aid meyvə ağacları və yabanı bitkilər toxum və meyvə qalıqlarının 7%-ni təşkil edirdi. Meşə meyvə ağacları içərisində qarağac (Celtis sp.) və üzüm (Vitis vinifera) təmsil olunmuşdur [2, s.21]

Nəticə. Tovuz rayonunda yerləşən Hacıələmxanlıtəpə, Göytəpə və Menteştəpə yaşayış yerləri Neolit dövründə Cənubi Qafqazda əkinçiliyin təşəkkülü və inkişafını izləmək üçün əsas arxeobotaniki mənbələrdir. Hacıələmxanlıtəpədə qeydə alınan buğda, arpa və paxlalı qalıqları burada oturaq və məhsuldar təsərrüfat sisteminin formalaşdığını sübut edir. Göytəpədən əldə olunmuş zəngin botanik material, xüsusilə buğdanın və arpanın dominantlığı, əkinçilik texnologiyalarının Cənub-Qərbi Asiya mənşəli ənənələrlə sıx bağlı olduğunu göstərir. Flotasiya ilə aşkar edilmiş minlərlə dən və taxıl hissəsi bu faktı bir daha təsdiqləyir. Menteştəpədə 40.000-dən çox toxum nümunəsinin analizi əkinçiliyin Neolitdən Erkən Tunc döv-

rünə qədər ardıcıl inkişafını izləməyə imkan vermişdir. Ümumilikdə, hər üç yaşayış yeri üzrə arxeobotaniki məlumatlar göstərir ki, Neolit dövründə Azərbaycan artıq oturaq, sistemli və mədəni bitkilərə əsaslanan inkişaf etmiş əkinçilik modelinə malik olmuşdur. Bu abidələr regionda erkən kənd təsərrüfatı ənənələrinin mənşə və inkişafını öyrənmək üçün fundamental baza təşkil edir.

Ədəbiyyat siyahısı:

1. Akashi C., Tanno K., Plant remains from Göytepe , Excavations at the Neolithic settlement of Göytepe, the middle Kura Valley, Azerbaijan, 2008-2009, p 323-332
2. Astruca L. , Decaix A., Guilbeauc D., Lyonnet B., Guliyev F., Agricultural Practices at Mentesh Tepe (Kura Valley, Azerbaijan) during the Neolithic, Chalcolithic and Bronze Age: An Overview from Sickle Elements and Botanical Remains Arkeoloji Bilimleri Dergisi / Turkısh Journal Of Archaeologıcal Scıences – 2022, p 15-23
3. Azərbaycan Arxeologiyası altı cilddə I cild Bakı: Şərq-Qərb,2008, s 335-339.
4. Decaix A., Messager E., Tengberg M., Neef R., Lyonnet B., Guliyev F., Vegetation And Plant Exploitation At Mentesh Tepe (Azerbaijan), 6th–3rd Millennium BC İnitial Results Of The Archaeobotanical Study, Quaternary International 2016, p 19-21.
5. Dostiyev T. Arxeologiya Bakı 2021, s.148.
6. Nishiaki Y., Guliyev F., Göytepe Neolıthıc Excavatıons In The Mıddle Kura Valley, Azerbaıjan the individual authors and Archaeopress 2020
7. Nishiaki Y., Guliyev F., Hacı Elamxanlı Tepe, the Shomutepe Culture, and the Neolithic Southern Caucasus, Hacı Elemxanlı Tepe The Archaeological Investigations of an Early Neolithic Settlement in West Azerbaijan Berlin 2021 Chapter 11 p 229-231

SKİF HEYVANİ ÜSLUBU ÜMUMTÜRK MƏDƏNİYYƏTLƏRİ SİSTEMİNDƏ

Gülbikə Aslanlı
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Arxeologiya və Etnoqrafiya" kafedrasının II kurs magistrantı
gulaslanli96@gmail.com
Elmi rəhbər: t.ü.f.d. Hicran Mahmudova

Açar sözlər: *skif heyvani üslubu, türk dünyası mədəniyyəti, mədəni irs, skif-sak incəsənəti , Skif-Türk mədəni davamlılığı*
Keywords: *scythian animal style, turkic world culture, cultural heritage, scytho-turkic cultural continuum, scythian-saka art*

Türk Dünyasının arxeoloji mədəniyyətləri min illər ərzində Avrasiyanın böyük bir hissəsində yaşamış xalqlar tərəfindən formalaşdırılmış zəngin və çoxsahəli bir mədəniyyət sistemidir. Bu mədəniyyətin semantik əsasını Göy Tanrıya inam, heyvan fiqurlarına əsaslanan simvollar, igidlik və döyüşkənlik anlayışı, atın həyatdakı xüsusi yeri, həmçinin əcdadlara hörmət və təbiətə bağlı inanclar təşkil edir. Türklərin bədii düşüncəsi və müqəddəs dəyərləri çox qədim dövrlərdə yaranmış ümumi mifoloji ənənələrin davamı kimi inkişaf etmişdir. Erkən türk toplumları təbiəti,

heyvanları və göy cisimlərini yalnız gündəlik həyatın bir hissəsi kimi deyil, həm də mənəvi dünyanın vacib ünsürləri kimi qəbul edirdilər. Bu baxışlar zamanla onların sənətinə, inanclarına, mifologiyasına və sosial davranışlarına da təsir göstərmiş, eyni zamanda arxeoloji abidələrdə öz əksini tapmışdır.

Elmi araşdırmalara əsasən, türk dünyasının erkən mədəni düşüncəsinin formalaşmasında Skif mədəniyyəti xüsusi yer tutur. E.ə. I minillikdə Avrasiyanın geniş çöllərində yaşayan skif-sak toplumları öz dünyagörüşlərini əsasən heyvan təsvirlərinə əsaslanan bədii üslub vasitəsilə ifadə etmişlər. Onlar həm real, həm də mifik heyvan obrazlarından istifadə edərək yaradılış, təbiətin iş prinsipləri, insanın ətraf mühitlə əlaqəsi haqqında təsəvvürlərini maddiləşdirirdilər. Bu təsvirlər yalnız dekorativ məqsəd daşımır, həm də həmin toplumların inanclarını, dünyanı qavrama tərzini və simvolik düşüncəsini əks etdirən ideoloji bir sistemin əsasını təşkil edirdi [4, 303]. Müxtəlif arxeoloji abidələrdən qeydə alınmış Skif heyvani üslubu sonrakı dövrdə türk toplumları arasında geniş yayılaraq bədii ifadə vasitələrinin mühüm bir hissəsinə çevrilmişdir. Bu motivlər tədricən türk xalqlarının döyüş ideologiyasında, əcdadlara hörmət ənənəsində və təbiət qüvvələrinə inanclarında aparıcı element kimi formalaşmışdır [3, 79]. Heyvan fiqurlarının güc, qoruyuculuq, dözümlülük və ilahi qüvvələrlə bağlılığı mənaları türk mədəni irsində uzun əsrlər boyu öz təsirini saxlamışdır. Azərbaycan və Şimali Qafqaz ərazilərində Avrasiya çölləri boyunca yaşamış etnoslar arasında davamlı mədəni əlaqələrin mövcud olduğunu açıq şəkildə göstərir. Bu bölgələrdən tapılan metal məmulatları, silah nümunələri, at qoşqusuna aid bəzək detallarında yer alan heyvan motivləri və digər sənət nümunələri üslub baxımından böyük oxşarlıq göstərir. Bu oxşarlıqlar yalnız təsadüfi paralellər deyil, coğrafi yaxınlıq, qarşılıqlı əlaqələr, ticarət yolları və mədəni təmasların mövcudluğunun göstəricisidir. Tapıntıların təhlili göstərir ki, skif-sak bədii ənənələrinin mühüm hissəsi sonrakı dövrlərdə türk mədəniyyətinə inteqrasiya olunmuş və bu ənənə əsrlər boyunca transformasiya edərək yaşamağa davam etmişdir. Bu səbəbdən Skif heyvan üslubunun tədqiqi türk dünyasının mənəvi-mədəni irsinin köklərini anlamaq üçün böyük elmi əhəmiyyət kəsb edir. Bu üslub türk toplumlarının ilkin ideoloji təsəvvürləri, sənət formaları və mifoloji düşüncəsi haqqında mühüm məlumatlar verir [2, 46]. Skif-sak mirası həm qədim türk bədii təfəkküründün formalaşmasına, həm də ümumilikdə Avrasiyada sinxron mədəniyyətlərin inkişafına təsir etmiş ən mühüm komponentlərdən biridir.

Bu üslubun əsas xüsusiyyətləri aşağıdakılardır:

- Hərəkət və dinamizmin təsviri;
- Mübarizə səhnələrin göstərilməsi;
- Dinlə bağlı simvolik məzmun;
- Qurd, maral, qartal və s. kimi simvolik heyvanların üstün rolu

Azərbaycan (Qarabağ, Naxçıvan-Kültəpə, Qəbələ-Çuxur Qəbələ arxeoloji kompleksi) və Şimali Qafqaz bölgələrində tapılmış materialların müqayisəsi göstərir ki, hər iki bölgə oxşar estetik prinsiplərə və dini düşüncə sisteminə sahib olmuş-

dur. Bu isə Skif heyvani üslubunun Türk dünyasının qədim mədəniyyət xəritəsində mühüm rol oynadığını təsdiqləyir.

Qurd, maral və qartal motivlərinin: türk-skif mədəni paralellərinə nəzər yetirdikdə görmək olur ki, qurd - əcdad və döyüşçü güc rəmzi hesab olunur. Skif sənətində qurd motivi əsasən gücü, qoruyuculuğu və döyüşçü ideologiyasını simvolizə edir. Ümumtürk mədəniyyətində qurd (Bozqurd):

- əcdadın rəmzi,
- yol göstərən və qoruyucu simvol;
- dövlət və hakimiyyətlə bağlı dini obrazdır.

Şimali Qafqaz kurqanlarında tapılmış qurd təsvirləri ilə Azərbaycan tapıntıları arasında paralellər mövcuddur ki, bu da qurd simvolunun ortaq köçəri-türk ideoloji sisteminin bir hissəsi olduğunu göstərir. Maral – kainatla əlaqəli və məhsuldarlıq rəmzidir. Maral skif üslubunda ən çox istifadə olunan obrazlardan biridir. Maral skif mədəniyyətində göylə əlaqə qurmaq və həyatın davamlılığını simvolizə edir. Ümumtürk dünyasında maral: müqəddəs simvol, qadınlıq və həyat başlanğıcını təmsil edən obraz, məhsuldarlıq və ruhani təmizlik rəmzidir. Qartal – Göy Tanrı və hakimiyyət rəmzi skif sənətində qartal əsasən hakimiyyət və göy aləmi ilə əlaqəli rəmzdir. Ümumtürk mədəniyyətində qartal həm də Göy Tanrının simvolu, xaqanlıq və dövlətçilik rəmzi, yuxarı dünya qatının qoruyucusu kimi qəbul edilir.

Skif heyvan təsviri üslubu Avrasiya çöllərində yaşayan skif-sakların bədii düşüncəsinin ən mühüm ifadə formalarından biri kimi formalaşmışdır. Bu üslubun inkişafını Avrasiya çöllərindəki cəmiyyətlərin həm sosial quruluşu, həm də ideoloji baxışı ilə əlaqəli şəkildə izah edirlər. Onların tədqiqatlarında göstərilir ki, heyvan təsviri üslubunun əsas məqsədi yalnız gözəl bəzək yaratmaq deyil, həm də bu toplumların mifoloji və dini dünyagörüşünü ifadə etmək olub [1, 97]. Azərbaycan və Şimali Qafqaz ərazilərində aparılan arxeoloji tədqiqatlar göstərir ki, bu regionlar skif və erkən köçəri tayfaların mədəniyyətinin əsas inkişaf mərkəzlərindən biri olub. Şimali Qafqaz kurqanlarında tapılmış heyvan formasında qızıl lövhəcikləri skif-sak ideologiyasının burada xüsusi şəkildə inkişaf etdiyini göstərir. Tədqiqatçılar Azərbaycanda Qarabağ, Gədəbəy, Qobustan və Naxçıvandan tapılmış tunc fiqurlar, heyvan başlıqları və at qoşqu elementlərinin bu üslubla birbaşa bağlı olduğunu vurğulayırlar. Skif heyvan üslubunun əsas xüsusiyyətlərini belə sıralayır:

- hərəkət və dinamikanın göstərilməsi;
- mübarizə və döyüş səhnələrinin təsviri;
- heyvan təsvirlərinin mifoloji sintezləri;

maral, qartal, qurd kimi dini və simvolik heyvanların üstünlüyü şəklində ifadə edirlər [1, 23-24].

Bu motivlərin həm Azərbaycan, həm də Şimali Qafqaz tapıntılarında oxşar formalarda olması, bölgənin vahid mədəni sistemə daxil olduğunu göstərir. Tədqiqatlar göstərir ki, maral və dağ keçisi motivləri yalnız bədii element deyil, həm də göylə əlaqəli, dini simvolik məna daşıyan təsvirlərdir. Skif cəmiyyətinin sosial quruluşunu öyrənərkən, heyvan üslubunun döyüşçü ideologiyası ilə sıx bağlı olduğunu göstərir. Bu ideo-

logiyanın izləri həm Şimali Qafqaz kurqanlarında, həm də Naxçıvan və Gədəbəydə tapılmış silah dəstlərində müşahidə olunur. Bu ənənənin Sarmat və daha sonrakı erkən türk mədəniyyətinə ötürüldüyünü xüsusi vurğulayır [5, 133-134].

Heyvani üslub türk xalqlarının ortaq mədəniyyətinin əsas elementidir. Bu üslub yalnız skif tayfalarına deyil, geniş Avrasiya çöllərində yaşayan etnosların mədəniyyətinə aid olub, burada vahid sənət ənənəsi yaratmışdır. Azərbaycan və Şimali Qafqaz bu üslubun regional mərkəzlərindən biri olmuşdur. Hər iki bölgənin zəngin arxeoloji materialı bu üslubun inkişafını xüsusi rol oynadığını göstərir. Heyvani üslub ümumtürk dini və mifoloji düşüncə sistemində mühüm rol oynayır. Maral, qurd və qartal kimi heyvan təsvirləri türk mifologiyasında xüsusi simvolik məna daşıyır. Bu üslubun elementləri müasir türk dünyasında da qorunub saxlanır. Bu motivlərin müasir sənətdə, dövlətçilik simvollarında və xalça ornamentlərində istifadə edilməsi "mifin mədəni davamlılığı" nəzəriyyəsini təsdiqləyir. Nəticə olaraq, müqayisəli təhlillərə əsaslanaraq demək olar ki, Skif heyvan üslubu yalnız qədim bədii ifadə forması deyil, türk dünyasının ortaq mədəni yaddaşının və tarixi kimliyinin əsas hissəsidir. Azərbaycan və Şimali Qafqazda bu üslubun geniş yayılması isə regionun türk-mədəni inteqrasiyasında vacib rol oynadığını göstərir.

Ədəbiyyat siyahısı:

1. *Артамонов М.И. Скифы. Издательство Ленинград, Ленинградского Университета, 1974. 156 с.*
2. *Руденко С.И. Горноалтайские находки и скифы. Издательство Москва АН СССР 1962, 268 с.*
3. *Руденко С.И. Сибирская коллексия Петра I. М-Л:АН СССР, 1962, 52с.*
4. *Кантарович А.Р. Искусство скифского звериного стиля Восточной Европы. Т.1, издательство Московского Университета, 2022, 431с.*
5. *Stevens-Arroyo, Anthony M.Renate Rolle. The World of the Scythians. Translated by F.G. Wells.," Comparative Civilizations Review: Vol. 31: No. 31, Article 8. University of California Press, 1989, 132-134.*

SİKKƏLƏR VƏ TƏSVİRLƏR-TÜRKLƏRİN DÜNYAGÖRÜŞLƏRİNİN SİMVOLLARI KİMİ

Mehdi Novruzov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin IV kurs tələbəsi
mehdi.novruzov132@gmail.com
Elmi rəhbər: dosent Qənirə Pirquliyeva

Açar sözlər: *Sikkələrdə zoomorfizm, kosmoqonizm, məişət və məşğuliyyət əlamətləri*
Keywords: *Zoomorphism on coins, cosmogony, signs of everyday life*

Türk xalqlarının mədəniyyətində müəyyən özünəməxsus yer tutan sikkə və sikkəçilik işində bütün tarixi dövrlərdə maraqlı simvollar mövcud olmuşdu. Bunlara astronomik-kosmoqonik, türk boylarının damğaları, o cümlədən totemizmin əla-

mətləri olan cürbəcür heyvan obrazlarını nümunə kimi göstərmək olar.Göstərilən təsnifatda daha çox zoomorf mənşəli təsvirlər yalnız bir sənətkarlıq nümunəsi kimi deyil, həm də bu böyük xalqın dini inanc sistemində mühüm simvolik məna daşıdığını sikələrin ikonoqrafik analizi sübut edir. Bildiyimiz kimi türklərin gündəlik məişət və sosial həyatında, dini dünyagörüşləri sistemində, həmçinin leksikologiyasında mühüm mövqelərdən birində hərəkət -yol-müdafiə mənasını daşıyan minik, qoşqu heyvanları durur. Belə ki, bu cür əhliləşdirilmiş heyvanlar türk həyat tərzinin əsas aspekti olan hərbi yürüşlərində, o cümlədən cürbəcür səbəblərdən-təbii hadislər, İqlim, otlaqlar, içməli su axtarışlarında, yaylaq-qışlaq yarımköçəri həyatlarında bir yerdən başqa məkana köç etmələrində iştirak etmişlər. Bu heyvan simvollarından ən çox rastlananlar at, əfsanəvi simurq, günəşlə birlikdə işlənən şir təsviridir. Görünür bu səbəblərdən bu xalq hər zaman dövlət qurduqları zaman dövriyyəyə buraxdıqları sikkələrdə əsasən tanıdıqları, yayarandıqları heyvan obrazlarına xüsusi yer vermişlər.Bundan başqa qədim dünyada demək olar ki, ilk dövlərin hamısında şir, bəbir, at öküz obrazları hakimiyyət rəmzi kimi istifadə edilmişdi. Türklər də dünyanın ən qədim xalqlarından biri olaraq, harada, hansı tarixi şərtlərlə dövlət qurmaqlarından asılı olmayaraq, pul içini başlayanda bu ənənəni özlərinə məxsus olan şəkildə davam etdirmişlər. Sikkələrdəki təsvirlər sırasında ikinci yerdə kosmoqonik mənşəli təsvirlər vardır. Bunlardan daha çox türkləri və türkçülüyü tanıtdıran hilal - ay və ulduz , şir və günəş təsvirlərini qeyd etmək lazımdır.Bunlardan ay-ulduz günümüzədək türk xalqının mədəni irsində xüsusi önəm kəsb edərək yaşadılmaqdadır.

Beləliklə numizmatik materiallardakı təsvirləri aşağıdakı mini təsnifatlaşdırmaq olar:

I. Əfsanəvi mifik obrazlar

1.**Simurq.** Qrifonlar kimi qartal başlı, şir bədənli və qanadlı bir əfsanəvi varlıqlar sırasında özünə yer tutan bu obraz yalnız türklərə sözsüz ki, aid deyil. Belə ki, hind mifologiyasında bu heyvanın adı Qaruda, islam mədəniyyətində Anka, Zümrüdanka və ən populyar variant olaraq İran miflərində simurq adıyla hallanır. Anka quşu küllərindən yenidən yaranmağı bacaran, yüksəklərdən uçan bir heyvan olaraq qəbul edilir. Onun digər variantı Qarudanın formalarına, hindlilərə aid əfsanələrdə səmanı, ağıl və qüdrəti simvolizə edir. Ortaq coğrafiyanı bölüşən mədəniyyətlərdə eyni əfsanələrin olması qəbuledilən reallıqdır [5, s.2-3; 4, s.23-25]. Simurq quşu türk numizmatik nümunələrində iştifadə edilən bir təsvirdir. Baktriya dövlətinə aid olan bəzi sikkələrdə antik dövrdə türk runi əlifbasında olan yazılarla yanaşı bir-birinə baxan iki simurq quşu təsviri elmə məlumdur. Son illərdə bu ərazilərdə aşkar edilən 2 ədəd sikkənin aversində hökmdar adı Tudun Tarxan sözləri ilə bərabər analoji obrazın izlərinin olması barədə məlumatlar vardır. Ümumiyyətlə, antik dövrə aid olan sikkələrdə 2 eyni heyvanın qarşı- qarşıya gəldiyi təsvirlər çox yer verilir [1, s.220-221].

2. **Əjdəha.** Elmdə əjdaha inancının türklərə çin mədəniyyətindən daxil olması barədə mülahizələr mövcuddur. Türklərdə bu obraz çox zaman bədəni ilan, başı

buynuzlu formada təsvir edilsə də, əjdahanın buynuzsuz, qanadlı formalarda da təsvirlərinə yer verilmişdir. Türk mifologiyasında qüvvənin, bolluğun, yağışın simvolu olaraq qəbul edilir. Əjdəha fiquru sonrakı illərdə daha genişlənmiş və Səlcuqlar vasitəsiylə islam mədəniyyətinə daxil edilmişdi [5, s.7; 6, s.11-16]. Eynilə orta əsrlərdə bəzi türk sikkələrində əjdəha təsvirli nümunələrə rast gəlinir. Bunlardan Artuqlu dövlətinin sikkə nümunələrini göstərmək olar [6, s.11].

II. Minik vasitələri

1. At təsviri: Dünyanın demək olar əksər xalqlarının, o cümlədən türklərin mədəniyyət quruculuğu işlərində mühüm yerə və əhəmiyyətə malik olan heyvan növü at olmuşdu**.** Türklər atdan döyüşlərdə, təsərrüfat-məişət həyatlarında, dəfetmə adətlərində geniş istifadə etmişlər. Bu xalqın ən qədim inanc sistemində görünür, atla bağlı xeyli məsəllər olmuşdu. Məsələn, "at muraddır" deyən türklər ata vasitəçi varlıq olaraq, göy və ya tanrı arasında əlaqəni yarada biləcək qüvvə kimi yanaşmışlar. Əfsanələrə görə hətta at tanrı tərəfindən yerə göndərilmişdi. Atın rənginin ağ olması türklərdə xüsusi anlam daşıyır. Türklər atı müqəddəs saydıqlarından onun südündən, ətindən də istifadə etmişlər. At müqəddəs sayıldığına görə onunla bağlı qurban ritualları çox olmuşdur. Arxeoloji araşdırmalarla çoxlu at dəfn yerləri müəyyənləşdirilmişdir. Bəzi təsvirlərdə qanadlı at obrazı işlədilməsi də onun müqəddəsliyi və göylə əlaqəsini göstərir. At simvolizmi roluna görə dost, güc, qeyri adi qüvvə türklər tərəfindən mənalarında işlənmişdir. Bu obraz türklərə məxsus sikkələrdə həm ayrıca, həm də bəzi hallarda atlı-akınçı – döyüşçünün əsas vasitəsi, hökmdar olaraq təsvir edilmişdir [5, s.4-5; 6, s.7-10]. Bu qəbildən aversində ay və ulduz simvolu və Yabqu Xaqan yazısı olan sikkələrin reversində insan və ayrıca sağa tərəf baxan at və ya at üzərində əlində qartal tutmuş təsvirlərzərb edilən sikkə nümunələri türk numizmatikası kontekstinə daxildir [1, s.59,62].

2.Dəvə: Dəvə də at kimi minik vasitəsi olaraq əsasən Mərkəzi Asiya coğrafiyasında yerli türklər həm də qəhramanlıq, güc, dözümlülük simvolu, həm də vacib qida vasitəsi olduğundan sikkələrdə istifadə etmişlər [5, s.6-7] Türk numizmatikasında aversində 2 hörgüclü-Baktriya dəvəsi obrazına yer verilmişdir. Ən son tapıntılardan Daşkənd ətrafında qazıntılardan tapılan bir neçə sikkənin aversində sağa tərəf baxan 2 hörgüclü dəvə təsvirli nominalları qeyd etmək olar [1, s.80].

Bəbir: Bəbirin şirlə təbiətdə eyni qüvvədə görülməsi onun mənasını açıqlayır. Bəbirin təsvir edildiyi Mərkəzi Asiya sikkə nümunələri vardır. Sağa tərəf baxan bəbir təsvirləri göstərilmişdir.[1, s.101,185

III.Kosmoqonik-astronomik obrazlar. Öncədən qeyd etmək lazımdır ki, sikkələr üzərində dünya mifoloji obrazları sırasında olan bu simvollar ikili-qoşa şəkildə zərb edilməsi türk numizmatik materiallarının əsas xüsusiyyətlərindədir.

Ay və ulduz: Qədim dönəmdən dünyanın müxtəlif mədəniyyətlərində önəmli yeri olan ay və ulduzun qoşa təsviri uzun illərdir tanrı və tanrıçaların, hökmdarların əzəmətini ifadə etmək üçün istifadə edilmişdi. Şumerlərdən insanlar artıq ulduz xəritələri hazırlamışlar. Qədim dövrdən insanlar qütb ulduzunun parlaqlığına görə müqəddəs hesab etmişlər. Eynilə Ayın Yer planetinə yaxınlığı və parlağlına görə

insanlar üçün xüsusi kosmik əhəmiyyət daşıması müxtəlif miflərin yaradılmasına səbəb olmuşdur. Ay və ulduzların həmişə göy üzündə hərəkətdə olması, günəş şüalarının aya düşməsinə görə yaranan fərqli formalarına əsasən insanlar ay təqvimi yaratmışlar. Beləliklə, Ay və ulduz təsviri dünya mədəniyyətlərinin ortaq motivi olaraq, türklərdə də istifadə edilmişdir. Həmçinin, bu simvol bu günə qədər islam-türk mədəniyyətinin ortaq nümunəsi olaraq qalır. Hətta türklər bu 2 obyektli simvolu özlərinə əsas simvol seşmişlər.Türklər ayın hakimiyyəti, qüdrət və əzəməti ehtiva etdiyinə inanırdılar. Ay və ulduz xüsusi simvol olduğundan türklər tərəfindən zərb edilən sikkələrdə hər zaman hökmdar, o cümlədən heyvan obrazlarının yuxarı hissəsində zərb edilmişdir [3, s.286-287]. Bundan başqa, yəhudilikdə Davud peyğəmbərin adıyla hallanan, mənası "davud qalxanı" olaraq da keçən Davud ulduzu bu etnik dində əsas görülsə də, bu təsvir Xəzər xaqanlığında da istifadə edilmişdir. Xəzərlərə aid üzərində Davud ulduzu işlənmiş sikkə nümunləri bir çox yerlərdə tapılmışdır [2, s.247].

Şir və günəş: Şərqin dövlətçilik simvolunda çox işlənmiş sobrazlardan biridir. Şir ayrılıqda gücün, qüdrətin, qoruyuculuğun simvolu hesab edilir. Şir və günəş simvolu günümüzədək məsələn İran dövlətinin metal sikkələrində istifadə edilməkdədir. Şir və günəş cütlüyü obrazı monqollar, Səfəvilər, zəndlər, qacarlar, pəhləvilər tərəfindən dövlətçilik rəmzi kimi qəbul edilmişdi. Azərbaycan xanlıqlarından Gəncə, Bakı, İrəvanda zərb edilən bu obraz qüvvədə qalmışdı [2, s.202-209].

Nəticədə türklərin ən qədim zamanlardan yaratmış olduqları dövlətlərdə sikkə işinin yaradılmasında mifoloji obrazları yaşatmaları, əslində özlərinə aid olan həyat tərzinin bütün elementlərinin, dini dünyagörüşlərinin əsas əlamətləri ilə birbaşa bağlılığı ilə bərabər dünya sikkəçilik işinin bir hissəsi olduqlarını sübut edən önəmli faktlardan hesab edilə bilər.

Ədəbiyyat siyahısı:

1. *Babayar G. Köktürk kağanlığı sikkeleri katalogu. Ankara: TİKA, 2007, 232 s.*
2. *Pirquliyeva Q., Cəfərov M. Numizmatika. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: 2024, Füyuzat, 272 s.*
3. *Gök N., Kutlu M. Hilal ve ay-yıldız motifi sembol ve ideolojik kullanım. Doğu Batı. Düşünce Dergisi, (31),.2005, 267-287s.*
4. *Çoruhlu Y. Kozmolojik, Mitolojik, Astrolojik Dinî ve Edebî Tasavvurlara Göre türk sanatında hayvan sembolizmi. İstanbul: Ötükən, 2019, 159 s.*
5. *Tansü Y., Güvenç B. Eski Türk mitolojisinde hayvan motifleri üzerine düşünceler. Türk dünyası araşdırmaları vakfı, nömrə 218, oktyabr, 2015, 203-218 s.*
6. *Topal Y. Türk mitolojisindeki fantastik fiqürlerin geleneksel izleri. Atatürk Universitesi Journal of art time. 2022*

DÖVLƏTLƏŞDİRİLMİŞ TERRORİZM, HUMANİTAR FƏLAKƏT VƏ YUMŞAQ GÜC: ERMƏNİ TERRORİZMİ VƏ AZƏRBAYCAN QAÇQINLARI KONTEKSTİNDƏ ANALİTİK YANAŞMA

Akif Marifli
Özbəkistandakı H.Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru,
tarix üzrə fəlsəfə doktoru
akif.marifli@gmail.com

Açar sözlər: *dövlətləşdirilmiş terror, humanitar fəlakət, qaçqın, yumşaq güc, mədəni ideologiya, 44 günlük müharibə.*
Keywords: *state-sponsored terrorism, humanitarian disaster, refugee, soft power, cultural ideology, 44-day war.*

Giriş. Müasir beynəlxalq münasibətlər sistemində terrorizmin transformasiyası onun "dövlətləşdirilməsi" fenomenini ön plana çıxarmışdır. Dövlətləşdirilmiş terrorizm, klassik terror qruplarının fəaliyyətindən fərqli olaraq, müəyyən dövlət strukturlarının ideoloji, siyasi və ya hərbi məqsədlərlə terror praktikalarını bilavasitə dəstəkləməsi, maliyyələşdirməsi və legitimləşdirməsi kimi izah olunur [3]. Ermənistan–Azərbaycan münaqişəsi kontekstində bu fenomen xüsusi aktuallıq kəsb etmişdir. XX əsrin sonlarında Ermənistan tərəfindən həyata keçirilmiş etnik təmizləmə siyasəti, sistematik zorakılıq aktları və terrorçu qrupların aktiv dəstəklənməsi Azərbaycan qarşısında böyük humanitar fəlakət yaratmış, bir milyondan çox qaçqın və məcburi köçkünün formalaşmasına səbəb olmuşdur.

Bu proses, eyni zamanda, informasiya manipulyasiyası, mədəni təsir və diaspor şəbəkələri vasitəsilə həyata keçirilən "yumşaq güc" siyasəti ilə müşayiət edilmişdir. Joseph Nye tərəfindən formalaşdırılmış yumşaq güc konsepsiyası [7], Ermənistanın beynəlxalq auditoriya qarşısında özünü "zərərçəkmiş tərəf" kimi təqdim etmək praktikasını anlamaq üçün metodoloji çərçivə yaratmışdır. Bu tezis, dövlətləşdirilmiş terrorizm və humanitar fəlakət kontekstində Ermənistanın yumşaq güc strategiyalarının Azərbaycanın qaçqın problemi ilə kəsişməsini analitik şəkildə təhlil edir.

1. Dövlətləşdirilmiş terrorizmin nəzəri konteksti. Terrorizmin dövlətləşdirilməsi anlayışı müxtəlif tədqiqatçılar tərəfindən fərqli aspektlərdə şərh edilir. Hoffman bu fenomeni dövlətlərin birbaşa terror praktikasına qoşulması və ya qeyri-dövlət aktorlarını öz maraqlarına uyğun silahlandırması kimi izah edir [4]. Bu zaman dövlət yalnız maliyyə və silah dəstəyi vermir, həm də terror aktlarını diplomatik və informasiya müstəvisində legitimləşdirməyə çalışır. Wilcox isə dövlətləşdirilmiş terrorizmin əsas məqsədinin ərazi qazanmaq, demoqrafik tərkibi dəyişdirmək və mülki əhali üzərində siyasi nəzarəti gücləndirmək olduğunu qeyd edir.

Ermənistan–Azərbaycan münaqişəsində bu anlayışın tətbiqi empirik cəhətdən əsaslıdır. 1980–1990-cı illərdə ASALA, JCAG kimi erməni terror təşkilatlarının Azərbaycan əhalisinə və regiondakı mülki hədəflərə qarşı törətdiyi zorakılıq aktlarının Ermənistanın siyasi və ideoloji strukturları ilə əlaqəsi müxtəlif tədqiqatçılar tərəfindən göstərilmişdir. Bu fəaliyyətlər tədricən Ermənistanın dövlət siyasəti ilə sinxronlaşmış və "tarixi ədalət" adı altında legitimləşdirilmişdir.

2. Dövlətləşdirilmiş terrorizmin humanitar nəticələri: Azərbaycan qaçqınları problem. Humanitar fəlakət anlayışı BMT-nin təsnifatına əsasən mülki əhali arasında kütləvi hərəkətlilik, zorakılıq, məcburi köçürülmə, etnik təmizləmə və təhlükəsizlik boşluqlarının yaranması ilə xarakterizə olunur [10]. Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi zorakılıq və hərbi əməliyyatlar, xüsusilə də 1988–1993-cü illərdə sistematik şəkildə aparılan etnik təmizləmə siyasəti nəticəsində, Azərbaycan tarixində ən genişmiqyaslı humanitar böhran formalaşmışdır.

Tədqiqatlar göstərir ki, insanları məcburi köçkünə çevirmək yalnız fiziki zorakılıq aktlarının nəticəsi deyil, həm də planlaşdırılmış terror metodudur. Ermənilərin Xocalı, Qaradağlı, Ağdaban və digər yaşayış məntəqələrində törətdiyi kütləvi qırğınlar bu kontekstdə dövlətləşdirilmiş terrorizmin həm hərbi, həm də psixoloji alət kimi istifadə edildiyini təsdiq edir. Həmçinin qeyd edilir ki, müasir hərbi-siyasi münaqişələrdə mülki əhalinin qorxudularaq kütləvi şəkildə ərazidən uzaqlaşdırılması strateji məqsədlərə xidmət edir və terrorun normativ elementinə çevrilir.

Azərbaycan qaçqın problemi yalnız humanitar böhran deyil, həm də uzunmüddətli sosial, psixoloji və iqtisadi nəticələr yaradan strukturlaşmış etnik zorakılıq nümunəsidir. Bu baxımdan Ermənistanın fəaliyyətləri təkcə hərbi yox, həm də ideoloji komponentli dövlət siyasəti kimi qiymətləndirilə bilər.

3. Yumşaq güc və mədəni ideologiya: Ermənistanın informasiya və diaspor siyasətinin metodoloji təhlili. Terrorizmin dövlətləşdirilməsi ilə yumşaq güc arasında görünməyən, lakin strateji mahiyyətə malik kəsişmələr vardır. Yumşaq güc, məcburetmə və təhdiddən fərqli olaraq, mədəniyyət, ideologiya və informasiya vasitəsilə təsir göstərmək imkanını ifadə edir [8]. Ermənistanın münaqişə dövründə yaratdığı informasiya narrativləri məhz bu kontekstdə təhlil olunmalıdır.

a) Diaspor şəbəkələrinin ideoloji gücü

Erməni diasporu Qərb ölkələrində ictimai rəyin formalaşmasında aktiv fəaliyyət gəstərirlər. Libaridian diasporun siyasi institutlarla əlaqələrinin Ermənistanın beynəlxalq legitimlik qazanması prosesində həlledici rol oynadığını yazır [5]. Bu şəbəkə vasitəsilə Ermənistan öz terror fəaliyyətlərinin nəticələrini "müdafiə müharibəsi", Azərbaycan qaçqınlarını isə "məcburi müharibə miqrasiyası" kimi təqdim etməyə çalışmışdır.

b) İnformasiya müharibəsi və selektiv yaddaş siyasəti

Ermənistanın yumşaq güc siyasətinin əsas mexanizmlərindən biri tarixi hadisələrin selektiv interpretasiyasıdır. Bu, Andersonun "təsəvvür olunmuş icmalar" nəzəriyyəsi ilə uyğun gəlir: cəmiyyət öz kollektiv yaddaşını məqsədli şəkildə formalaşdıraraq siyasi məqsədlərə uyğunlaşdırır [1]. Ermənistan bu kontekstdə Xocalı soyqırımını susdurmaq, əvəzində özünü "qurban" kimi təqdim etmək strategiyası həyata keçirmişdir.

c) Akademik diskursun politizasiyası

Münaqişə ilə bağlı beynəlxalq elmi diskursda Ermənistanın yumşaq gücü özünü "qeyri-obyektiv tədqiqatların sponsorluğu", "qəbul edilmiş narrativlərin təkrarı" və "alternativ perspektivlərin marjinallaşdırılması" formalarında göstərmişdir və bu model müasir informasiya müharibələrinin əsas tərkib elementidir.

4. Dövlətləşdirilmiş terrorizmin yumşaq güclə inteqrasiyası: metodoloji sintez. Terrorizmin dövlətləşdirilməsi və yumşaq güc arasında əlaqənin nəzəri əsaslandı-

rılması beynəlxalq münasibətlərdə konstruktivist yanaşma ilə izah edilə bilər. Wendt göstərir ki, dövlətlərin davranışı yalnız maddi güclə deyil, həm də ideoloji identikliklə müəyyən olunur [12]. Ermənistan öz identikliyini "tarixi haqqa əsaslanan mübarizə" kimi quraraq həm terror praktikalarını legitimləşdirir, həm də yumşaq güc vasitəsilə bunu beynəlxalq aləmdə qəbul olunan narrativə çevirir.

Bu sintez Azərbaycan qaçqın problemi ilə birbaşa bağlıdır. Dövlətləşdirilmiş terrorizm fiziki fəlakət yaradır, yumşaq güc isə bu fəlakətin beynəlxalq aləmdə necə təqdim ediləcəyini müəyyənləşdirir. Beləliklə, zorakılıq aktları ilə informasiya strategiyası bir-birini tamamlayan mexanizm kimi çıxış edir.

Ermənistan–Azərbaycan münaqişəsi kontekstində dövlətləşdirilmiş terrorizm, humanitar fəlakət və yumşaq güc fenomenləri bir-biri ilə sıx bağlı olan kompleks siyasi-strateji sistem təşkil edib. Ermənistanın terrorçu qrupları dəstəkləməsi, mülki əhaliyə qarşı zorakılıq aktlarının həyata keçirilməsi və bunun nəticəsində Azərbaycan qaçqın böhranının yaranması faktoru onun dövlət səviyyəsində zorakılığı legitimləşdirdiyini göstərir. Eyni zamanda, Ermənistan diaspor və informasiya şəbəkələri vasitəsilə öz yumşaq gücündən istifadə edərək, bu zorakılığın beynəlxalq müstəvidə təhrif olunmuş şəkildə qəbul olunmasını təmin etmişdir.

Bu baxımdan, Azərbaycan qaçqın problemi yalnız hərbi-siyasi böhran deyil, həm də yumşaq güc və ideoloji təsir mexanizmlərinin müəyyənləşdirdiyi qlobal humanitar məsələ kimi qiymətləndirilməlidir. Tədqiqatlar göstərir ki, müasir münaqişələrdə terror praktikaları təkbaşına fəaliyyət göstərmir; onlar informasiya müharibəsi, identiklik siyasəti və beynəlxalq narrativlərlə sinxronlaşmış şəkildə tətbiq olunur. Bu inteqrativ yanaşma münaqişənin mahiyyətini daha dərindən anlamağa və gələcək tədqiqatlar üçün metodoloji baza yaratmağa imkan verir.

Lakin, 44 günlük Vətən müharibəsi və Zəfər sonrası dövr dövlətləşdirilmiş terrorizmin dağılması, yumşaq güc balansının dəyişməsi ilə nəticələndi. Prezident İlham Əliyevin strateji liderliyi ilə 44 günlük Vətən müharibəsi Ermənistanın institusional səviyyədə qurduğu dövlətləşdirilmiş terror təcrübəsinin və onu legitimləşdirən ideoloji çərçivələrin iflasını şərtləndirdi. Azərbaycan Ordusunun hərbi üstünlüyü, siyasi iradəsi və beynəlxalq hüquqa söykənən mövqeyi bu dönüşü mümkün edən əsas amillərdən oldu. Bu proses, xüsusən, Cənab Prezident İlham Əliyevin illərdir ardıcıl şəkildə həyata keçirdiyi uzaqgörən siyasətin nəticəsi kimi qiymətləndirilir. Onun siyasi iradəsi, diplomatik fəaliyyətinin çevikliyi və informasiya müharibəsində qurduğu effektiv dövlət strategiyası Ermənistanın yumşaq güc manipulyasiyalarını ifşa etmiş, Azərbaycanın regional və qlobal səviyyədə legitimlik üstünlüyünü möhkəmləndirmişdir.

Zəfərdən sonra Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifə Ermənistanın dövlətləşdirilmiş terrorizminin humanitar nəticələrini aradan qaldırmaq idi. Prezident İlham Əliyevin rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri – "ağıllı şəhər" və "ağıllı kənd" layihələri, sürətlə həyata keçirilən infrastruktur quruculuğu, mina təmizləmə siyasəti və "Böyük Qayıdış" proqramı – humanitar, sosial və siyasi reabilitasiya prosesinin institusional əsasını formalaşdırdı. Bu siyasət Azərbaycanı post-münaqişə dövründə regionun sülh və inkişaf mərkəzinə çevirən mühüm faktordur.

Cənab Prezidentin diplomatik xətti yumşaq güc sahəsində də yeni mərhələ açdı. Azərbaycanın beynəlxalq platformalarda təqdim etdiyi faktoloji əsaslandırılmış mövqe, regional əməkdaşlıq təşəbbüsləri və sülh gündəmi Ermənistanın uzun illər formalaşdırdığı manipulativ narrativləri ciddi şəkildə zəiflətmişdir. Beləliklə, 44 günlük müharibə təkcə hərbi qələbə deyil, həm də Prezident İlham Əliyevin liderliyi sayəsində regionda siyasi nizamın, informasiya tarazlığının və humanitar ədalətin yenidən qurulması prosesinin başlanğıcı oldu.

Ədəbiyyat siyahısı:

1. Anderson, B. (2006). Imagined Communities: Reflections on the Origin and Spread of Nationalism, Revised Edition Verso. New York. 240 p.
2. Whyte, C., Thrall, A. T., & Mazanec, B. (Eds.) (2020). Information Warfare in the Age of Cyber Conflict. Taylor & Francis / Routledge. 270 p.
3. Herman, E., & O'Sullivan, G. (2011). The Terrorism Industry. Random House. 312 p.
4. Hoffman, B. (2006). Inside Terrorism. Columbia University Press. 456 p.
5. Libaridian, G. (2014). Modern Armenia: People, Nation, State. Transaction Publishers. 340p.
6. Zartman, I. W. (2011). Peacemaking in International Conflict: Methods & Techniques. United States Institute of Peace Press. 320 p.
7. Nye, J. (2004). Soft Power: The Means to Success in World Politics. PublicAffairs. New York, USA. 191 p.
8. Nye, J. (2011). The Future of Power. PublicAffairs. New York, USA. 320 p.
9. Stanton, J. A. (2017). Violence and Restraint in Civil War. Cambridge University Press. 340 p.
10. UNHCR (2020). Global Report on Forced Displacement. Copenhagen. 71 p.
11. Michael M. Gunter. (2011) Armenian Terrorism in the Twentieth Century. Palgrave Macmillan. 206 p.
12. Wendt, A. (2012). Social Theory of International Politics. Cambridge University Press. 429 p.

KÜLTÜREL BELLEKTE NAZAR VE ÇİLE: AZERBAYCAN VE ANADOLU HALK İNANÇLARINDA RİTÜEL VE KORUYUCU PRATİKLER

Meleyke Memmedova
Azerbaycan Milli Bilimler Akademisi Folklor Enstitüsü Mitoloji Bölümü, Doç. Dr.
meleykememmed1@gmail.com,
0000-0001-7714-4668

Anahtar kelimeler: *Azerbaycan, Anadolu, kültür, nazar, çile, ritüel.*
Keywords: *Azerbaijan, Anatolia, culture, evil eye, torment, ritual*

Nazar ve çile kavramları, kültürel bellekte önemli bir yere sahiptir ve toplumsal ritüellerin temel taşlarından biri olarak karşımıza çıkar. Hem Azerbaycan hem de Anadolu coğrafyalarında bu kavramlar, geleneksel inanışlar ve ritüellerle zenginleşmiştir. Nazar, başkalarının kıskanç bakışlarından kaynaklanan kötü enerjiyi temsil ederken, çile ise halk inançlarında nazara ve kötü enerjilere bağlı olumsuz etkileri tanımlamak için kullanılır. Özellikle lohusa kadınlar ve yeni doğan bebeklerle ilgili koruyucu ritüellerde karşımıza çıkan çile, kırkbasma kavramıyla yakından ilişkilidir.

Bu çalışmada, Azerbaycan ve Anadolu halk kültürlerindeki nazar ve çileye ilişkin ritüeller karşılaştırmalı bir perspektiften ele alınmaktadır. Nazar boncuğu, tütsü yakma, dualar ve muska gibi uygulamalar, kötü gözden korunma amacı güden gelenekler arasında yer alır. Çile kavramı ise halk inançlarında yeni dünyaya gelen çocuğu ve annesini 40 gün süreyle kötü enerjiden koruma çabalarını ifade eder. Bu süreçte kapıya demir bırakma, çocuğu belirli ritüellerden geçirme ve lohusa kadının diğer lohusa kadınlarla temas etmesinden kaçınma gibi pratikler öne çıkar. Bu inançlara göre çilenin etkileri, yürüyememe veya konuşma gecikmesi gibi durumlarla ilişilendirilir ve ritüellerle ortadan kaldırılmaya çalışılır.

Makale, bu ritüellerin sadece bireysel düzeyde değil, aynı zamanda toplumsal ve kültürel kimliklerin inşasındaki rolünü incelemektedir. Kültürel bellek bağlamında, sözlü edebiyat, halk masalları ve geleneksel sanatlar bu inançların nesiller boyu aktarılmasında kritik bir işlev görmüştür. Sonuç olarak, nazar ve çile kavramlarının halk inançlarındaki ritüeller aracılığıyla manevi dünyayı zenginleştirdiği ve kültürel sürekliliği sağladığı vurgulanmaktadır. Bu inceleme, iki bölge arasındaki ortak kültürel motiflerin ve farklılıkların anlaşılmasına katkı sunmaktadır.

Azerbaycan ve Anadolu kültürlerinde nazar ve çile kavramlarının toplumsal hafızadaki rolünü ve ritüellerle aktarımını inceleyen bu çalışmanın amacı, bu inançların kültürel bellek oluşumundaki önemini ve bireylerin manevi deneyimlerini nasıl şekillendirdiğini ortaya koymaktır. Nitel analiz yöntemiyle yapılan folklorik incelemelerde, nazar boncuğu, muska, tütsü ve çileyi kesme ritüelleri karşılaştırmalı bir perspektifle ele alınmıştır. Araştırma, nazar ve çilenin iki kültürdeki benzerlik ve farklılıklarını, ritüellerin kimlik inşasındaki işlevlerini ve kültürel belleğin sürekliliğine katkılarını vurgulamaktadır.

Giriş: Nazar ve çile kavramları, hem Azerbaycan hem de Anadolu halk kültürlerinde güncelliğini koruyan ve toplumsal belleğin şekillenmesinde önemli rol oynayan iki temel inanış unsurudur. Günümüz toplumlarında modern yaşamın etkisi artsa da, kötü gözden korunma ve lohusalık dönemine ilişkin ritüellerin hâlen güçlü biçimde uygulanması, konunun canlılığını ve kültürel pratiklerdeki sürekliliğini göstermektedir. Bu araştırmanın ilmî önemi, nazar ve çileye ilişkin ritüellerin yalnızca bireysel deneyimleri değil, aynı zamanda toplumsal ve kültürel kimlik inşasını etkileyen derin bir anlam evreni sunmasından kaynaklanmaktadır.

Çalışmada, Azerbaycan ve Anadolu'da nazar ve çileye bağlı ritüeller karşılaştırmalı bir bakış açısıyla incelenmiş; nazar boncuğu, tütsü, muska ve çileyi kesme gibi uygulamaların kültürel bellekteki yeri değerlendirilmiştir. Araştırma sonuçları, iki bölgede benzer inanç kalıplarının bulunduğunu, ritüellerin halkın manevi dünyasını düzenleyen işlevsel yapılar oluşturduğunu ve bu uygulamaların kültürel sürekliliği güçlendirdiğini ortaya koymaktadır.

Azerbaycan ve Anadolu kültürlerinde nazar ve çile kavramlarının toplumsal hafızadaki rolünü ve ritüellerle aktarımını inceleyen bu çalışmanın amacı, bu inançların kültürel bellek oluşumundaki önemini ve bireylerin manevi deneyimlerini nasıl şekillendirdiğini ortaya koymaktır.

Nitel analiz yöntemiyle yapılan folklorik incelemelerde, nazar boncuğu, muska, tütsü ve çileyi kesme ritüelleri karşılaştırmalı bir perspektifle ele alınmıştır.

Bulgular: Nazar ve çile kavramları, kültürel bellekte önemli bir yere sahiptir ve toplumsal ritüellerin temel taşlarından biri olarak karşımıza çıkar. Hem Azerbaycan hem de Anadolu coğrafyalarında bu kavramlar, geleneksel inanışlar ve ritüellerle zenginleşmiştir. Nazar, başkalarının kıskanç bakışlarından kaynaklanan kötü enerjiyi temsil ederken, çile ise halk inançlarında nazara ve kötü enerjilere bağlı olumsuz etkileri tanımlamak için kullanılır. Özellikle lohusa kadınlar ve yeni doğan bebeklerle ilgili koruyucu ritüellerde karşımıza çıkan çile, kırkbasma kavramıyla yakından ilişkilidir.

Bu çalışmada, Azerbaycan ve Anadolu halk kültürlerindeki nazar ve çileye ilişkin ritüeller karşılaştırmalı bir perspektiften ele alınmaktadır. Nazar boncuğu, tütsü yakma, dualar ve muska gibi uygulamalar, kötü gözden korunma amacı güdülen gelenekler arasında yer alır. Çile kavramı ise halk inançlarında yeni dünyaya gelen çocuğu ve annesini 40 gün süreyle kötü enerjiden koruma çabalarını ifade eder. Bu süreçte kapıya demir bırakma, çocuğu belirli ritüellerden geçirme ve lohusa kadının diğer lohusa kadınlarla temas etmesinden kaçınma gibi pratikler öne çıkar. Bu inançlara göre çilenin etkileri, yürüyememe veya konuşma gecikmesi gibi durumlarla ilişkilendirilir ve ritüellerle ortadan kaldırılmaya çalışılır.

Nazar ve Koruyucu Uygulamalar: Azerbaycan ve Anadolu'da nazara uğrayan çocukların üzerindeki olumsuz etkinin giderilmesi için çeşitli geleneksel ritüeller uygulanır. Bu uygulamalar arasında kurşun dökme, tütsüleme, hocaya okutma, üzerlik otunu yakma, nazarı değen kişinin giysisinden parça yakıp dumanını koklatma, tuz çatlatma, mum dökme ve çamaşır değiştirme gibi pratikler bulunmaktadır. Bu ritüellerin, çocuğun üzerindeki nazarı "çözerek" kötü enerjiyi uzaklaştırdığına inanılır.

Her iki kültürde de mavi gözlü kişilerin nazarının daha etkili olduğu inancı yaygındır. Örneğin Çanakkale'de, mavi gözlü birinin nazarına uğramış çocuk için "nazarı değenin kapısından yonga koparılır, yakılır ve dumanı çocuğun üzerine tutulur" [4, s.217].

Anadolu'da üzerlik tütsüsü de nazarı gidermek amacıyla sıkça kullanılmakta ve üzerlik yakılırken belirli sözler hızlıca söylenmektedir:

Üzerliksin havasın
Her dertlere devasın
Ak göz, kara göz,
Mavi göz, yeşil göz,
Sarı göz, ela göz
Hangisi nazar etmişse
Onların nazarını boz [3, s.263].

Ya da bunun yerine yörede şu sözler söylenir:

Elemtere fiş,
Kem gözlere şiş;
Üzerlik çatlasın,
Nazar eden patlasın [5, s.232].

Büyükler ve çocuklar için uygulanan üzerlik ritüeli sırasında söylenen, ritüelin etkisini artırdığına inanılan sözler bölgesel farklılıklar göstermektedir. Özellikle Nahçıvan'ın Şerur bölgesinde üzerlik tütsülenirken kullanılan ifadeler benzer bir içerik taşısa da, yöreye özgü çeşitli söyleyiş farklılıkları dikkat çekmektedir:

Üzerriysen havasan,
Nahan derde devasan.
Hansı bir evde olsan,
Neçe gada savarsan.
Atın göydü, üzerriy.
Donun göydü, üzerriy.
Müşgül işim düşübdü,
Hal günündü, üzerriy.
Üzerriyler çırtdasın,
Yaman gözler pırtdasın [1, s. 286].

Sonuç olarak, nazar inancı hem Azerbaycan hem de Anadolu kültürlerinde kötü bakış ve olumsuz enerjilere karşı geliştirilen geleneksel korunma uygulamalarının merkezinde yer almaktadır. Nazar boncuğu, tütsü, muska ve benzeri yöntemler, bireysel bir korunma arayışının ötesinde, toplumun ortak hafızasında yer etmiş sembolik pratikler olarak kültürel sürekliliği güçlendirmektedir. Bu uygulamalar, toplumsal dayanışmayı görünür kılarken, bireylerin manevi dünyasında güven, korunma ve denge hissi oluşturan köklü bir kültürel yöntemler bütünü olarak değerlendirilmektedir.

Çile ve Koruyucu Uygulamalar: Azerbaycan ve Anadolu folklorunda çocuk daha doğmadan önce, onu çeşitli olumsuzluklardan, kötü enerjilerden ve nazardan korumaya yönelik pek çok ritüel uygulanmaktadır. Bunun yanı sıra halk inançlarında varlığına inanılan cin, hal anası, al karısı gibi varlıklardan ve çocuğun maruz kalabileceği çileye düşme, cin değişmesi, halbasma, albasma ve kırkbasma gibi durumlara karşı da koruyucu nitelikte geleneksel uygulamalar geliştirilmiştir. Çocuk dünyaya geldikten sonra ise hem anne hem de bebek için ilk kırk gün, halk kültüründe hassas ve korunması gereken bir dönem olarak kabul edilir. Bu nedenle farklı inanç kalıplarına bağlı olarak çeşitli ritüeller yerine getirilir.

Özellikle kırklı çocuğu ziyarete gelen kişilerin taşıdığı düşünülen ağırlığın ve kötü enerjinin etkisiz hâle getirilmesi amacıyla uygulanan ritüellerden biri şöyledir: "Kırklı çocuğun ziyaretine biri geldiğinde çocuğu dışarı çıkarırlar, ardından eve geri getirirler ve kapı ağzına demir bırakırlar ki, gelen kişinin ağırlığı orada kalsın" [6, s.368; 2, s.468-469]. Aynı inanç doğrultusunda, kırklı bir kadının başka bir kırklı kadını ziyaret etmesi de uygun görülmez; çünkü bu karşılaşmanın çileye sebep olacağı düşünülür. Çilenin yol açtığı zararları gidermek amacıyla uygulanan ritüellerden biri şu şekilde aktarılmaktadır: Folklorik inanışlara göre, kırklı (zahı/lohusa) kadınlar birbirleriyle karşılaştıklarında, birinin çilesi diğerini etkileyebilir. Bu etkileşim özellikle çocuklar üzerinde yansımalar bırakmakta olup, çocuğun gelişiminde aksamalara yol açabilmektedir; örneğin çocuk yürüyemeyebilmektedir. Bu bağlamda, kaynak kişilerden birinin gözlemlerine göre, büyük kızının çocuğu yürüyememiştir. Anlatılan ritüellere göre, ikiz çocuk sahibi bir annenin bacakları arasından çocuğun üç kez geçirilmesi, çilenin geçmesine ve dolayısıyla ço-

cuğun sorunlarının çözülmesine aracılık edebilir. Ayrıca, iki çileli kadının bir araya geldiğinde sancaklarını birbirlerine vermesi, çilelerin birbirini baskılamasını engelleyen bir yöntem olarak değerlendirilmektedir. Çilenin etkileri farklı biçimlerde ortaya çıkmaktadır; kimi zaman ayağa düşmesi durumunda çocuk yürüyememekte, kimi zaman ise dile düşmesi durumunda konuşma gecikmesi gözlemlenmektedir. Örneğin bir gözlemde, kaynak kişinin torununun konuşamamasının nedeni, çilenin diline düşmesi olarak belirtilmiş ve çilesi ortadan kaldırıldığında çocuğun konuşmaya başladığı ifade edilmiştir [7, s.290; 3, s.267].

Halk inanışlarında çile, çocuğun yürüyüşünü etkileyen bir engel olarak kabul edilmektedir. Bu bağlamda, çileli olduğuna inanılan çocukların yürüme becerisinin kazanılması için belirli ritüeller uygulanmaktadır. Gözlemlere göre, çocuğun çileli olduğu düşünüldüğünde, örneğin anne rahmindeyken babası ölen bir çocuğun, bacakları arasından üç kez geçirilmesi gibi uygulamalar yapılmaktadır. Bu ritüelin ardından çocuğun çilesinin kesildiği ve yürüyüşünde ilerleme sağlandığı ifade edilmektedir [7, s.288; 2, s.470]. Aynı halk inancı çerçevesinde, çileye düşen bir kişinin çileden kurtulması amacıyla gerçekleştirilen ritüellerden biri, imamlara ikram için hazırlanan yemek sofrasının kırıntılarının kişinin başına dökülmesidir. Bu uygulamanın, çilenin etkisini ortadan kaldıracağına inanılmaktadır. Çileye düşen çocuklar içinse, hayvan sürüsünün önünden geçirilmesi veya babasının bacakları arasından geçirilmesi gibi ritüeller uygulanmakta ve bu yöntemlerin çilenin etkisini gidereceği kabul edilmektedir [3, s.267].

"Çile" kelimesi Farsça çehel (kırk) sözcüğünden türemiştir. Tasavvuf geleneğinde nefsi terbiye etmek ve ruhu arındırmak amacıyla dervişlerin kırk günlük riyazete girmesi "çile" olarak adlandırılır. Halk inanışlarında ise çile, doğum yapan kadının ve bebeğin kırk günlük hassas dönemini ifade eder. Bu dönemin sonunda gerçekleştirilen çilekesti töreni, dinî bir uygulama olmamakla birlikte, anne ve çocuğun rahatı, huzuru, kötü enerjilerden, ağırlıktan ve nazardan korunması açısından önemli görülmektedir.

Sonuç olarak, halk inançlarında "çile" kavramı hem anne hem de çocuk için kırk günlük hassas dönemi düzenleyen koruyucu bir çerçeve işlevi görmektedir. Bu süreçte uygulanan ritüeller, bireysel bir korunma pratiği olmanın ötesinde, toplumsal hafızada kuşaktan kuşağa aktarılan kültürel bir güvenlik işlevi niteliğindedir. Çileye ilişkin uygulamalar anne ve çocuğun fiziksel ve ruhsal bütünlüğünü sağlama amacı taşırken, aynı zamanda toplumun ortak değerlerini, dayanışma biçimlerini ve sembolik dünyasını da görünür kılmaktadır.

Sonuç: Bu çalışma, Azerbaycan ve Anadolu halk kültürlerinde nazar ve çile kavramlarının, sadece bireysel korunma uygulamaları olarak değil, aynı zamanda toplumsal ve kültürel kimliklerin inşasında işlev gören derin sembolik pratikler olduğunu ortaya koymuştur. Nazar ve çileye bağlı ritüeller, halkın manevi dünyasını düzenlemenin ötesinde, kültürel belleğin nesiller boyu aktarılmasında kritik bir rol oynamaktadır. Sözlü edebiyat, halk masalları ve geleneksel sanatlar, bu inançların sürekliliğini ve toplumsal hafızadaki yerini güçlendiren temel araçlar olarak işlev görmüştür.

Araştırma, nazar ve çilenin toplumsal dayanışmayı görünür kılan, bireylerin ruhsal ve bedensel güvenliğini koruyan, aynı zamanda kültürel normları ve sembo-

lik değerleri yeniden üreten birer koruyucu pratik olarak işlev gördüğünü göstermektedir. Bu bağlamda, Azerbaycan ve Anadolu örnekleri arasındaki benzerlikler, ortak kültürel motiflerin varlığını ortaya koyarken; uygulamalardaki farklılıklar ise bölgesel özgünlükleri ve halk inançlarındaki çeşitliliği vurgulamaktadır.

Sonuç olarak, nazar ve çile ritüelleri, halk kültürünün manevi ve sembolik dünyasını zenginleştirirken, kültürel sürekliliği sağlayan ve toplumsal kimliği besleyen temel uygulamalar olarak değerlendirilmektedir. Bu çalışma, her iki coğrafyada halk inançlarının karşılaştırmalı olarak incelenmesine ve kültürel motiflerin süreklilik ve farklılık boyutlarının anlaşılmasına katkı sunmaktadır.

Kaynakça:

1.İmanov, M & Qasımova F. Şerur Folklor Örnekleri. Nahçıvan: Ecemi Neşriyatı, 2018, 286 s.
2.Məmmədova, M. "Qarabağ Folklorunda Doğum Ritualları və İnancları"// Ziyalı İşığında Ramazan Qafarlı – 70 Beynəlhalq İctimai və Mədəni Elmlər Konfransı, 15-16 iyul, Azərbaycan-Bakı. Web:www.izdas.org/ramazan-gafarli-kongresi, 2021, s.465-471
3.Memmedova, M. "Azerbaycan ve Anadolu Folklorunda Çocuğu Nazar, Hal ve Çileden Korumak İçin Yapılan Yöntem ve Ritüeller". 10. Uluslararası Çocuk ve Gençlik Edebiyatı Sempozyumu Bildiriler Kitabı/ Robert Minnullin'in Doğumunun 75. Yılına Armağan "Çocuk ve Gençlik Edebiyatında Dil, Kültür ve Gelenekler; Tarih, Şiir, Kalkınma Stratejileri", 20-21 Ekim, Kazan / Tataristan, 2023, s.259-271
4.Örnek, S.V. Geleneksel Kültürümüzde Çocuk. Ankara: BilgeSu yayıncılık, 2015, 352 s.
5.Örnek, S.V. Türk Halk Bilimi. Ankara: BilgeSu Yayıncılık, 2016, 262 s.
6.Rüstemzade, İ. Qarabağ: folklor da bir tarixdir. VIII kitap (Kəlbəcər rayonundan toplanmış folklor örnəkləri). Bakı: Zerdabi LTD MMC, 2014a, 436 s.
7.Rüstemzade, İ. Qarabağ: folklor da bir tarixdir. IX kitap (Beyləqan, İmişli, Tərtər, Bərdə və Cəbrayıl rayonlarından toplanmış folklor örnəkləri). Bakı: "Zərdabi LTD" MMC, 2014b, 402 s.

MARKAZIY OSIYO XALQLARI TARIXI ORGANILISHI

Nigina Elmamatova
Toshkent Davlat Sharqshunoslik Universiteti, Markaziy Osiyo xalqlari tarixi yonalishi "manbashunoslik, tarixshunoslik va tarixiy tadqiqot usullari" mutaxasisligi I kurs magistiranti
niginaelmamatova@gmail.com;
https://orcid.org/0009-0008-1210-1825
Ilmiy maslahatchi: professor I.Xaydarov

Kalit sozlar: *Markaziy Osiyo xalqlari, tarixiy manbalar, etnogenez, arxeologiya, madaniy meros, davlatchilik, tarixshunoslik, ilmiy tadqiqotlar, integratsion yondashuv, qadimiy manbalar.*
Keywords: *Central Asian peoples, historical sources, ethnogenesis, archaeology, cultural heritage, statehood, historiography, scientific research, integrative approach, ancient sources.*

Annotatsiya. Ushbu mqolada Markaziy Osiyo xalqlari tarixini organish jarayonining tarixiy bosqichlari, ilmiy manbalari va tadqiqot yonalishlarini tahlil qiladi. Mavzuda mintaqa xalqlarining etnogenezi, davlatchilik ananalari, madaniy merosi hamda qadimiy manbalar asosida shakllangan tarixiy xotira masalalari yoritiladi. Shuningdek, arab, fors, xitoy, rus va yevropa manbalarida aks etgan malumotlar-

ning ilmiy ahamiyati qayd etiladi. Zamonaviy arxeologik topilmalar, antropologik tadqiqotlar va yozma manbalar asosidagi ilmiy yondashuvlar Markaziy Osiyo tarixini kompleks organish uchun muhim omil sifatida korsatib beriladi. Ishda mintaqa tarixini organishning yangi metodologik yondashuvlari, integratsion ilmiy tahlillar va xalqaro tadqiqotlar ahamiyati alohida takidlanadi. Mazkur tadqiqot Markaziy Osiyo xalqlarining oziga xos tarixiy taraqqiyoti va madaniy identitetining shakllanish jarayoniga yangi ilmiy nuqtai nazar beradi.

Markaziy Osiyo xalqlari tarixi insoniyat sivilizatsiyasining eng qadimiy va serqirra bolimlaridan biri sifatida jahon tarixshunosligida alohida orin egallaydi. Mintaqa hududi qadimdan Sharq va G‘arbni bog‘lovchi geostrategik makon sifatida nafaqat iqtisodiy, balki siyosiy hamda madaniy taraqqiyot markazi bo‘lib kelgan. Turli xalqlar, qabilalar va davlatlar o‘rtasidagi madaniy aloqalar, etnik jarayonlar, harbiy-siyosiy o‘zgarishlar Markaziy Osiyoning murakkab va boy tarixiy landshaftini shakllantirgan. Mazkur maqolada Markaziy Osiyo xalqlari tarixining o‘rganilish jarayoni, asosiy manbalari, turli davrlardagi tarixshunoslik an’analari, zamonaviy ilmiy yondashuvlar hamda tadqiqot yo‘nalishlari ilmiy tahlil qilinadi.

Markaziy Osiyo tarixini o‘rganishda eng muhim manbalar qadimgi sharqiy tamaddunlarga oid yozma bitiklar hisoblanadi. Xitoy yilnomalari — “Shi Szi”, “Xan shu”, “Suy shu” kabi asarlarda mintaqa xalqlari — ushunlar (xunlar), yuechjilar, kangyuylar, saklar, usunlar haqida keng ma’lumot berilgan. Bu manbalarda Markaziy Osiyo hududidagi ilk siyosiy ittifoqlar, savdo yo‘llari, etnik tarkib, urf-odatlar va harbiy yurishlar tafsilotli tarzda tasvirlangan.

Shuningdek, ahamoniylar mixxat bitiklari, “Avesto”, qadimgi Baqtriya yozuvlari, oromiy va sug‘d yozuvlari Markaziy Osiyo xalqlarining diniy e’tiqodi, ijtimoiy tuzilmasi va madaniy hayotini o‘rganish uchun g‘oyat muhimdir. Zardushtiylikning shakllanishi va uning tarqalish geografiyasi aynan ushbu yozma manbalarda o‘z aksini topgan [1].

Gerodot, Strabon, Arrian, Pompey Trog, Polien kabi antik tarixchilar Markaziy Osiyoda yashagan sak-massagetlar, parfiya, baqtriya xalqlari va ularning qo‘shnilari haqida muhim ma’lumotlar qoldirgan. Ularning tasvirlarida mintaqaning etnik tarkibi, harbiy san’ati, iqtisodiy faoliyati va siyosiy tuzumi haqida boy tasvirlar mavjud.

Arab geograflari va tarixchilari — al-Idrisiy, al-Istahriy, Beruniy, Ibn Sino, Narshaxiy, Tabariy, Rashididdin kabi allomalarning asarlari Markaziy Osiyo xalqlarining VI–XIII asrlar oralig‘idagi hayotini yoritishda asosiy manbalardan biridir. Bu davrda Movarounnahr, Xorazm, Farg‘ona, Qashqar va Turkiston hududlari yirik ilmiy va madaniy markaz sifatida rivojlangan.

XX asrning ikkinchi yarmidan boshlab arxeologik tadqiqotlar Markaziy Osiyo tarixini qaytadan rekonstruksiya qilishda ulkan ahamiyat kasb etdi. Sopollitepa, Jarqo‘ton, Afrosiyob, Tuproqqal’a, Oltintepa kabi yodgorliklarda o‘tkazilgan qazishmalar qadimgi sug‘d, xorazm, turk va boshqa xalqlar hayotidan yangi dalillarni keltirdi.

Markaziy Osiyo tarixi bo‘yicha tarixshunoslikning shakllanish bosqichlari

Ilk o‘rganilish davri (XIX asr — XX asr boshlar). Bu davrda mintaqa tarixining ilmiy jihatdan tadqiq qilinishi rus sharqshunoslari — V.V. Bartold, A.L. Kun, N.I. Veselovskiy, V.A. Zhukovskiy kabi olimlar faoliyati bilan bog‘liq. V.V. Bartold-

ning “Turkiston tarixi” va boshqa ishlari Markaziy Osiyo xalqlari tarixini ilmiy o‘rganishda asosiy manbalardan biriga aylangan [2].

Sovet tarixshunosligi davri (1920–1990 yillar). Sovet davrida Markaziy Osiyo tarixi marksistik metodologiya asosida o‘rganilgan bo‘lsa-da, arxeologik, etnografik va antropologik tadqiqotlar kengayib, ko‘plab faktologik ma’lumotlar to‘plangan. M. Masson, Ya. G‘ulomov, A. Asqarov, M. Is’hoqov, B. Ahmedov kabi olimlar mintaqa tarixini o‘rganishda katta ilmiy maktab yaratgan [3].

Mustaqillik davrida tarixshunoslik (1991 yildan hozirga qadar). Mustaqillik yillarida milliy tarixni qayta ko‘rib chiqish, qadriyatlar va tarixiy xotirani tiklash jarayoni kuchaydi. Markaziy Osiyo xalqlari tarixi yangicha, zamonaviy yondashuv asosida tadqiq qilinmoqda. Yangi topilmalar, ilg‘or texnologiyalar, qo‘shma ekspeditsiyalar natijasida arxeologiya, genetika va tarix fanlari integratsiyalashgan holda rivojlandi [4].

Markaziy Osiyoda yashagan xalqlarning kelib chiqishi masalasi tarixshunoslikda eng muhim va murakkab mavzulardan biridir. Sak-massagetlar, usunlar, yuechjilar, xorazmiylar, so‘g‘diylar, baqtriyaliklar mintaqa etnik tarkibining qadimgi qatlamini tashkil etgan. Keyinchalik turkiy qabilalar — qarluq, qipchoq, o‘g‘uz, uyg‘ur va boshqalar mintaqaning etnogenetik jarayonida katta rol o‘ynagan.

Yozma manbalar, arxeologiya, antropologiya va genetik tadqiqotlar asosida bugungi o‘zbek, qozoq, qirg‘iz, turkman, tojik va boshqa xalqlarning shakllanishi ko‘p qirrali tarixiy jarayon bo‘lgani ilmiy asosda o‘z isbotini topmoqda.

Markaziy Osiyo hududi qadimdan yirik davlatlarning shakllanish markazi bo‘lib kelgan. Baqtriya, So‘g‘diyona, Xorazmshohlar davlati, Turk xoqonligi, Qoraxoniylar, Chig‘atoy ulusi, Temuriylar davlati kabi siyosiy tuzilmalar nafaqat mintaqa, balki jahon tarixida ham muhim o‘rin egallaydi.

Har bir davlatchilik davri o‘ziga xos boshqaruv tizimi, iqtisodiy tartibi, harbiy tuzilmasi va madaniy rivojlanish bosqichiga ega bo‘lgan. Bu jarayonlar bugungi Markaziy Osiyo xalqlarining siyosiy-madaniy rivojlanishida tarixiy asos bo‘lib xizmat qiladi.

Markaziy Osiyo ilm-fan va madaniyatning yirik markazlaridan biri sifatida Sharq uyg‘onish davrida ulkan muvaffaqiyatlarga erishgan. Forobiy, Beruniy, Ibn Sino, Ulug‘bek, Navoiy kabi allomalar nafaqat oz davrining, balki umumjahon ilm-fan taraqqiyotining yetakchi namoyandalariga aylangan.

Madaniy merosni organish ushbu asarlarning qolyozmalari, arxitektura yodgorliklari, til va adabiyot namunalari orqali amalga oshiriladi. Samarqand, Buxoro, Xiva, Termiz kabi shaharlarda olib borilayotgan arxeologik tadqiqotlar madaniy merosni tiklashda muhim orin tutadi.

Bugungi kunda Markaziy Osiyo xalqlari tarixini organishda quyidagi zamonaviy metodologiyalar qollanilmoqda:

Tarix, arxeologiya, antropologiya, etnologiya, lingvistika, genetik tadqiqotlar birgalikda olib borilmoqda. Bu esa tarixiy jarayonlarni yanada aniqroq tiklash imkonini bermoqda.

Turli xalqlarning etnik, madaniy va siyosiy oxshashliklarini solishtirish afzallik beradi. Bu metod Markaziy Osiyoning boshqa hududlar bilan aloqalarini yoritishda qollanadi.

GIS xaritalash, 3D rekonstruksiya, raqamli arxivlar yaratilishi tarixiy jarayonlarni vizual va ilmiy tarzda qayta tiklashga yordam bermoqda.

UNESCO, ICOMOS, xalqaro arxeologik markazlar bilan hamkorlik yangi ilmiy natijalarni keltirmoqda [5].

Xulosa qilib aytganda, Markaziy Osiyo xalqlari tarixi ulkan ilmiy salohiyatga ega bolib, uning organilishi kop qirrali manbalar, tarixiy faktlar va zamonaviy tadqiqot uslublariga tayanadi. Qadimgi yozma manbalar, arxeologik topilmalar, etnografik kuzatishlar hamda genetik izlanishlar mintaqaning tarixiy taraqqiyotini chuqur va holis organish imkonini yaratadi. Mustaqillik yillarida milliy tarixshunoslik rivojlanib, Markaziy Osiyoning jahon sivilizatsiyasidagi orniga yangicha yondashuv shakllandi. Bugungi kunda mintaqa xalqlari tarixi nafaqat ilmiy, balki ijtimoiy-madaniy ahamiyati bilan ham alohida ahamiyat kasb etadi. Tarixni chuqur bilish, milliy ozlikni anglash va kelajak taraqqiyot yolini belgilashda muhim vosita bolib xizmat qiladi.

Kaynakça:

1. Ahmedov B. A. Ozbek davlatchiligi tarixi. Toshkent: Fan, 2001, 320 b.
2. Asqarov A. Ozbekistonning eng qadimgi tarixi. Toshkent: Sharq, 1997, 280 b.
3. Gulomov Ya. G. Orta Osiyo irrigatsiya tarixi. Toshkent: Fan, 1957, 356 b.
4. Sagdullayev A. Qadimgi Ozbekiston tarixi. Toshkent: Universitet, 2000, 290 b.
5. Karimov A. Turkiston tarixi va madaniyati. Toshkent: Akademnashr, 2012, 240 b.
6. Ruhl, M. M., L. Aufstieg und Niedergang des Russischen Reiches: Der Weg eines tausendjährigen Staates. Stuttgart: Deutsche Verlags-Anstalt, 1992. ***[In German]***
7. Seydametov, E. Kh., and A. A. Sheykhumerov. "Tatary na voennoy sluzhbe u osmanskikh sultanov" ["Tatars in Military Service of the Ottoman Sultans"]. Zolotoordynskoe obozrenie 12, no. 2 (2024): 399–413. ***[In Russian]***
8. Sheykhumerov, A. A. "Organizatsionnaya struktura krymskotatarskogo voyska (XV–XVIII vv.)" ["Organizational Structure of the Crimean Tatar Army (15th–18th Centuries)"]. Zolotoordynskaya tsivilizatsiya 10 (2017): 321–337. ***[In Russian]***
9. Vásáry, István. "The Crimean Khanate and the Great Horde (1440s–1500s): A Fight for Primacy." In Das frühneuzeitliche Krimkhanat (16.–18. Jahrhundert) zwischen Orient und Okzident, edited by Meinolf Arens and Denise Klein, 13–26. Wiesbaden: Harrassowitz Verlag, 2012. ***[In English]***
10. Williams, B. G. The Sultan's Raiders: The Military Role of the Crimean Tatars in the Ottoman Empire. Washington, DC: The Jamestown Foundation, 2013. 54 pp. ***[In English]***
11. Sheykhumerov, A. A. Voysko Krymskogo khanstva v XV–XVIII vekakh: organizatsiya i taktika [The Army of the Crimean Khanate in the 15th–18th Centuries: Organization and Tactics]. PhD diss. (Cand. Hist. Sci.). Simferopol, 2022. ***[In Russian]***

TARİX DƏRSLƏRİNDƏ TÜRK DÜNYASI ELEMENTLƏRİNİN İNTEQRATİV YANAŞMALARLA ÖYRƏDİLMƏSİ

Afaq Alıyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının II kurs magistrantı
alyva.afa@mail.ru
Elmi rəhbər: dosent Mətanət Məmmədova

Açar sözlər: *Türk dünyası, təhsil, inteqrasiya, fənn, milli kimlik*
Keywords*: Turkic world, education, integration, science, national identity*

Müasir qloballaşma dövründə xalqın tarixi-mədəni kimliyinin qorunması təhsil sisteminin əsas məqsədlərindən biri hesab olunur. Bu kontekstdə "Türk dünyası" anlayışı türk xalqlarının ortaq tarix, mədəniyyət və mənəvi dəyərlərini birləşdirən çox mühüm konsepsiyadır və həm elmi, həm də pedaqoji baxımdan xüsusi aktuallıq kəsb edir. XXI əsrdə türk dövlətləri arasında siyasi, iqtisadi, humanitar və mədəni əməkdaşlığın genişləndirilməsi təhsil sistemində bu istiqamətin daha dərindən öyrənilməsinə ehtiyac olduğunu göstərir. Azərbaycan xalqı türk dünyasının ayrılmaz hissəsi olduğundan ümumi təhsil müəssisələrində tarix dərslərində türk dünyasına aid biliklərin sistemli şəkildə tədrisi millilik, mənəvi dəyərlər və kimlik məsələlərinin möhkəmləndirilməsi baxımından olduqca vacibdir [2, s.331-335]. Bu səbəbdən Azərbaycan tarixində türk dünyası və ona aid olan elementlərin inteqrativ formada təşkili şagirdlər üçün mühüm əhəmiyyət daşıyaraq onların kimlik və milli özünüdərk dəyərlərinin formalaşmasına təsir edir. Bu tədqiqatın məqsədi Azərbaycan tarixi fənn kurikulumlarında türk dünyası elementlərinin inteqrativ yanaşmalar əsasında öyrədilməsinin elmi-metodiki əsaslarını təhlil etmək və praktiki tətbiq imkanlarını müəyyənləşdirməkdir.

"Türk dünyası" anlayışı və təhsildə əhəmiyyəti. "Türk dünyası" anlayışı geniş coğrafiyanı – Orta Asiya, Cənubi Qafqaz, Anadolu və digər ərazi əraziləri əhatə edərək türkdilli xalqların tarixi, mədəni və etnik birliyini özündə birləşdirir. Bu xalqlar müxtəlif dövrlərdə vahid siyasi birliklər yaratmış, oxşar dini inanclar, adət-ənənələr və dil xüsusiyyətləri formalaşdırmış, böyük dövlətçilik ənənələri ilə seçilmişdirlər. Qədim türklərdən başlayaraq Göytürk imperiyası, Uyğur dövləti, Səlcuqlular, Xəzərlər, Osmanlı imperiyası, eləcə də Azərbaycan xalqının Atabəylər, Baharlı, Bayandurlu, Səfəvilər, Azərbaycan Xalq Cümhuriyyəti və müasir Azərbaycan Respublikası kimi dövlətçilik mərhələləri türk dünyasının siyasi irsinin təməlini təşkil edir. Bu proseslər türk xalqlarının yalnız siyasi tarixini deyil, həm də ortaq mədəniyyətini də formalaşdırmışdır. Türk xalqlarının dövlətçilik ənənələri bu gün də onların siyasi düşüncəsində, milli kimliyində və sosial dəyərlərində öz əksini tapmaqdadır. Türk dünyası yalnız etnik-mədəni birlik deyil, həmçinin siyasi-strateji mahiyyət daşıyan tarixi bir konsepsiyadır [4, s.89-91]. 2009-cu ildə yaradılmış Türk Dövlətləri Təşkilatı vasitəsilə türkdilli dövlətlərin əməkdaşlığının gücləndirilməsi, ortaq əlifba, ortaq tarix, ortaq dərsliklərin hazırlanması kimi təşəbbüslərin reallaşdırılması bu anlayışın aktual siyasi çərçivəyə keçməsinə şərait yaratmışdır. Bu məsələlər ümumi təhsil sistemində türk dünyası elementlərinin daha geniş formada tədrisini tələb edir. Azərbaycan ümumi təhsil müəssisələrində ortaq türk kimliyinin tarix dərsliklərində necə təqdim olunması xüsusi əhəmiyyət kəsb edir. Şagirdlərdə erkən yaşlardan bu kimlik şüurunun formalaşdırılması onların soykökə bağlılıq hissini gücləndirməklə yanaşı, ortaq dəyərlərə sahib çıxmaq baxımından da mühüm rol oynayır [3, s.49-53]. Türk dünyasının öyrənilməsi təkcə tarixi biliklərin mənimsənilməsi baxımından deyil, həm də milli kimlik və mənəvi dəyərlərin formalaşması baxımından əhəmiyyətlidir. Azərbaycan xalqının etnik mənsubiyyətinin türk köklərinə dayanması bu mövzunun təhsil sistemində xüsusi yer tutmasını zəruri edir. Şagirdlər türk xalqlarının tarixini öyrənməklə öz mənşəyi, soykökü, dil və mədəniyyət birliyinə dair biliklərini dərinləşdirir, milli şüur və vətəndaşlıq kimliyi daha möhkəm formalaşır. Təhsildə türk dünyası elementlərinin öyrənilməsi şagirdlərdə milli kimlik balansını formalaşdırır. Onlar təkcə Azərbaycan tarixini deyil, eyni zamanda türk xalqlarının dünya tarixində oynadığı rolu dərk edirlər. Bu da öz növbəsində şagirdlərin tarixi prosesləri müqayisəli şəkildə təhliletmə bacarığının inkişafına şərait yaradır.

Ümumi təhsil müəssisələrində keçirilən türk dünyası materialları eyni zamanda şagirdlərin emosional-mənəvi dünyasına müsbət təsir edir. Qəhrəmanlıq dastanları, milli mübarizə ənənləri, türk dövlətçilik ənənələri, Orxon-Yenisey abidələri, Dədə Qorqud irsi kimi nümunələr onlarda milli qürur, vətənpərvərlik və tarixi məsuliyyət hissi formalaşdırır. Bu cür nümunələr şagirdlərin dərs materiallarına emosional bağlılığını artırır və onların tarix fənninə marağını gücləndirir.

Təhsil prosesində türk dünyası elementlərinin inteqrativ tətbiqi. Təhsil siyasəti kontekstində türk dünyası elementlərinin tədrisi strateji cəhətdən olduqca əhəmiyyətlidir. Azərbaycan Respublikasının milli kurikulumu şagirdlərin milli-mənəvi dəyərlər əsasında formalaşdırılmasını prioritet istiqamət kimi müəyyən etmişdir. Bu baxımdan türk dünyası, türk mədəniyyəti, ortaq tarixi dövlətlər və on-

ların Azərbaycan tarixindəki rolu məktəbdə tədris olunan mövzuların tərkib hissəsinə çevrilmişdir. Bu həm də Azərbaycanın dünya türk ailəsi arasında yerinin şagirdlərə izah edilməsi baxımından vacibdir.

Türk xalqlarının yayılma coğrafiyası, miqrasiya yolları, dövlət quruluşları, din və ideologiya sistemləri, zəngin ədəbi irsi, iqtisadi əlaqələri kimi mövzular tarix fənninin coğrafiya, ədəbiyyat, dilçilik və digər fənlərlə inteqrativ öyrənilməsinə geniş imkan yaradır [5, s.45-53]. Bu cür inteqrasiya həm kurikulumun tələbinə uyğundur, həm də müasir təlim metodikasının mühüm komponentidir. Türk dünyasının öyrənilməsində coğrafiya fənni ilə əlaqə xüsusi əhəmiyyət kəsb edir. Belə ki, türk xalqlarının yayılma arealının xəritə üzərində göstərilməsi, coğrafi şəraitin köçəri həyat tərzinə təsiri, İpək Yolunun türk dövlətlərinin iqtisadi-siyasi gücünə verdiyi imkanlar tarix və coğrafiya fənlərinin inteqrasiyasına aid nümunələrdir. Bu inteqrasiya nümunələri şagirdlərdə məkan təfəkkürünü inkişaf etdirir, eyni zamanda tarixi hadisələrin coğrafi şərtlərlə əlaqələndirilməsinə imkan verir.

Türk dünyası ilə bağlı mövzular ədəbiyyat və Azərbaycan dili fənləri ilə çox güclü formada tamamlanır. "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi dastanların tarixi faktlarla müqayisəsi, bu dastanların sosial quruluş, adət-ənənələri və qəhrəmanlıq ideallarını özündə əks etdirməsi şagirdlərin həm mədəni irsə marağını, həm də tarixi prosesləri anlama qabiliyyətini artırır, onlarda ədəbi-tarixi analiz bacarıqlarını inkişaf etdirir. Orxon-Yenisey abidələri, Atilla, Mete və digər tanınmış türk hökmdarları haqqında mətnlər tarixi biliklərin dil və ədəbiyyat vasitəsilə zənginləşdirilməsinə şərait yaradır. Şagirdlər həm qədim türk dövlətçiliyini, həm də qədim türk runik əlifbasını öyrənə bilərlər [1].

Türk dünyası irsi incəsənət nümunələri ilə zəngin olduğu üçün musiqi, təsviri incəsənət kimi fənlərlə tarixin əlaqəsi olduqca mühümdür. Məsələn, karvansaralar, qəbirüstü abidələr, qədim türk tamğaları, qopuz, saz kimi qədim türk çalğı alətlərinin təsvirləri incəsənətlə tarixin vizual və emosional qavranmasını gücləndirir.

Nəticə. Təhsil prosesində Türk dünyası ilə bağlı olan elementlərin inteqrativ yanaşmalarla öyrədilməsi müasir təhsil sisteminin əsas tələblərindən biri kimi çıxış edir. Türk dünyasının tarixində, mədəniyyətində, dövlətçilik ənənəsində və mənəvi dəyərlərində mövcud olan zənginlik yalnız faktların təqdimatı ilə deyil, müxtəlif fənlərlə əlaqələndirilmiş şəkildə daha dərindən mənimsənilə bilər. İnteqrativ yanaşma şagirdlərin tarixi hadisələri bütöv şəkildə dərk etməsinə, hadisələr arasında səbəb–nəticə əlaqələrini daha dolğunanlamasına, türk dünyasının inkişaf xəttini ümümtürk mədəni-sivilizasiya kontekstində başa düşməsinə imkan yaradır.

Tədqiqatlar göstərir ki, türk dünyası elementlərinin dərslərə sistemli şəkildə daxil edilməsi şagirdlərin milli-mənəvi dəyərlərə bağlılığını gücləndirir, onlarda öz soykökünə hörmət, milli kimlik şüuru və mədəni identiklik formalaşdırır. İnteqrasiya yolu ilə qurulan dərslər şagirdlərə təkcə məlumat vermir, həm də onların emosional, yaradıcı və analitik bacarıqlarını inkişaf etdirir. Türk xalqlarının ortaq folkloru, musiqisi, ədəbiyyatı, coğrafiyası, elmi nailiyyətləri və dövlətçilik təcrübələri müxtəlif fənlər arasında körpü rolunu oynayır və bu əlaqə şagirdlərin düşünmə diapazonunu genişləndirir.

Coğrafiya, ədəbiyyat, musiqi kimi fənlərlə aparılan inteqrasiya şagirdlərin biliklərinin möhkəmlənməsini təmin edir və tarix dərslərinin daha əyani, praktiki, interaktiv və yadda qalan olmasına şərait yaradır. Bu cür dərslər XXI əsr bacarıqlarının – tənqidi düşüncə, problem həlli, yaradıcı yanaşma və rəqəmsal savadlılığın formalaşmasına da mühüm təsir göstərir.

Xüsusilə də, tarix dərslərində türk dünyasına aid olan elementlərin inteqrativ yanaşmalarla öyrədilməsi gələcək nəsillərin milli-mədəni köklərini dərindən tanımasına, türk xalqları arasında mənəvi birliyin və tarixi yaddaşın daha möhkəm formalaşmasına şərait yaradır. Belə dərslər həm şagirdlərin intellektual səviyyəsini artırır, həm də onların milli kimliklərinin inkişafına, vətənpərvərlik duyğularının güclənməsinə xidmət edir. Bu baxımdan, inteqrativ yanaşma yalnız metodik tələb deyil, həm də strateji-mədəni zərurət kimi çıxış edir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün "Azərbaycan tarixi" fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI Siniflər). Bakı: 2013, 144 s.
2. Əmirov M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası (Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti), Bakı: ADPU-nun nəşriyyatı, 2014, 678 s.
3. Xanizadə G. Tarix dərsliklərində ortaq türk kimliyi: Azərbaycan təhsil sistemində türk dünyası perspektivi. Azərbaycan Universiteti, PARADIGMA, No.3, 2025, s.49-56 https://doi.org/10.30546/30015.2025.3.028
4. Məmmədov Z. "Türk dünyasında mədəni inteqrasiya". "Türk dövlətləri tərkibində inteqrasiya prosesləri: müasir çağırışlar və hədəflər" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, s.89-91.
5. Məmmədova M. S. "Tarix fənni və fənlərarası inteqrasiya". Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, №2, 2021, s.45-53.

TÜRKİYƏDƏ "ÇAĞDAŞ TÜRK VƏ DÜNYA TARİXİ" FƏNNİNİN TƏDRİSİ VƏ TƏTBİQİ

Aysel Rüstəmova
Sumqayıt Dövlət Universitetinin "Tarix və coğrafiya" fakültəsinin
II kurs magistrantı
ayselrustmova3@gmail.com
Elmi rəhbər: dosent Əfşan Şəfiyeva

Açar sözlər: *Çağdaş Türkiyə tarixi, dünya tarixi, Türkiyədə tarix dərsləri, çağdaş tarix təlimi, tarix təlimi*
Keywords: *Contemporary Turkish history, world history, history lessons in Turkey, contemporary history teaching, history instruction*

Şagirdlərin türk dünyası və dünyadakı inkişaflardan xəbərdar ola bilməsi, həmçinin yaşadığımız dünyanı daha dərindən qavraya bilməsi üçün yaxın tarixi öyrənməlidir. Dünyada baş verən siyasi-iqtisadi, sosial-mədəni, tarixi-coğrafi məsələləri oxuyub anlama və dövrümüzdə baş vermiş ziddiyyətlərin mahiyyətini dərk etmək üçün çox vacibdir. Amma Türkiyədə dövrümüzə yaxın keçmiş yüksək səviyyədə

araşdırılmırdı. Yaxın tarixin tarix mi yoxsa bir növ jurnalistika mi olduğu mütəmadi müzakirə obyektinə çevrilirdi [5, s.175.]. Yaxın tarixi dövrlərin tədris olunacağı təqdirdə dərslərdə şagirdlər arasında mübahisələr yaşanacağından ehtiyat edirdilər. Yalnız Türkiyə çoxpartiyalı siyasi dövrə keçiddən sonra çağdaş dövrlərə aid araşdırmalar başladı ancaq tədqiqatlar siyasi həyat və partiyalarla məhdudlaşırdı. Xoşbəxtlikdən tədqiqatlar genişlənməyə başladı. Tarixçilər çağdaş tarixi araşdırıb və cəmiyyəti daha çox maraqlandıran mövzuları nəzərdən keçirərək, yüksək səviyyədə forma və üslubi çərçivədə tarix elmini ictimaiyyətə çatdıracaq (populyar edəcək) işlər görülməyə başlandı. Bu sahədə universitetlərdə tədris və araşdırma işi ilə məşğul olan elmi kadrların əziyyəti təqdirəlayiqdir. Elmin tələb etdiyi dəqiqlik, doğruluq və qərəzsizlik prinsiplərini əsas götürərək, düşüncələrini açıq və yığcam bir dillə aydın şəkildə çatdırmağı tarixçilərin mühüm vəzifəsinə çevrildi [2, s.7].

Türkiyə tarix elmində Çağdaş dövr dedikdə "Türkiyə Cümhuriyyət İnqilab Tarixi və Atatürkçülük" məsələləri Mudros müqaviləsindən Mustafa Kamal Atatürkün vəfatına və II Dünya Müharibəsinə qədərki dövrü əhatə edir. Çağdaş dövr tarixinin tədris zamanı məktəblərdə, demokratiya tarixində yaşanan çevrilişlər, ictimai və siyasi problemlər, xalqın və siyasətçilərin demokratiya mübarizələri tamamilə şagirdlərə öyrədilmirdi. Bunun əsas səbəbi isə dərs zamanı yaşana biləcək fikir ayrılığı və münaqişələrin qarşısını almaq idi. Məhz bu səbəbdən şagirdlər ibtidai və orta təhsil aldıqları dövr ilə yaşadıqları dövrdəki baş verən hadisələrin tarixi kökləri, arxa planını öyrənə bilmir və yaxın dövrdə baş verən proseslərdən xəbərsiz qalırdılar [4, s.54]. Bu da gənc nəslin yaşadığı dövr hadisələrin mahiyyətini anlaya bilməyib, və qarşılaşacaqları problemlərdən çıxış yolu tapa bilməyib həyat şərtlərinin daha çox ağırlaşmasına gətirib çıxara bilirdi.

Şagirdlərin həm milli tarix, həm Avropa eləcə də dünya tarixinə məxsus yarım əsr əvvələ aid tarixi prosesləri öyrənmədən, yaşadıqları cəmiyyəti və dünyanı anlaya bilməyəcəkləri hər kəsə məlumdur. Müasir dövrümüzlə birbaşa bağlı və təsirləri hələ də davam edən məsələlərin kökü məxsusi olaraq çağdaş tarixə gedib çıxır. Türkiyədə çağdaş tarix dərslərindən öncə şagirdlər (ibtidai və orta təhsil alan) müasir dövrdə baş vermiş hadisələrə aid məlumatları yalnız ailələrindən, ətraf mühitdən, yazılı və vizual mediadan, internet və digər mənbələrdən məlumat öyrənməyə çalışırdılar.

Son illərdə mənbələrin müxtəlifləşməsi çağdaş dövrə aid tarixi araşdırmaların mənbə çatışmazlığı və mənbələrin əlçatanlığı kimi problemləri həll edilməyə başlandı. Belə ki, mövzuların geniş tədqiqi və yaxın dövrdə yaşanmış tarixi proseslərə şahid olan şəxslərlə müsahibələrin aparılması, çağdaş dövr məsələləri ilə əlaqəli xəbər proqramlarının hazırlanması, sənədli filmlərin çəkilməsi və sənədlərin araşdırılması cəmiyyətin çağdaş dövr haqqında məlumat əldə etmələri xeyli asanlaşdı. Bununla belə, artıq Türkiyə və dünyada yaşanan tarixi proseslər artıq yalnız dövlətə məxsus arxiv və rəsmi yazışmalara əsaslanan, arxiv və kitabxana kimi qapalı məkanlarda aparılan bir araşdırma ilə məhdudlaşmır, radio və kinolarla daha maraqlı bir sahəyə çevrilmişdir.

Türkiyə Sənayeçi və İş Adamları Dərnəyi (TÜSİAD) tərəfindən "Gənclər üçün Çağdaş Tarix" (Kuyaş-Akarçay və b., 2002), Tarix Vəqfi tərəfindən isə "20. Yüzyıl Dünya və Türkiyə Tarihi" (Alpkaya-Alpkaya, 2004) adlı kitablar nəşr edilmişdir. Türkiyə Sənayeçi və İş Adamları Dərnəyi (TÜSİAD) və Tarix Vəqfi tərəfindən nəşr olunan bu kitablar liseylərdə çağdaş tarix tədrisinin zəruriliyini vurğulamaq məqsədilə alternativ dərs materialları kimi hazırlanmışdı. Lakin bu dərs kitabları bəzi özəl məktəblərdə tədris olunması ilə məhdudlaşıb. Dünyada tarix təlimində yeni yanaşmaların və Türkiyədə tarix dərslərinin məzmununun yenilənməsinə aid müzakirələrin nəticəsində 2008–2009 tədris ilindən etibarən tarix proqramlarına Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) dərsi yeni fənn kimi daxil edilmişdir [3, s.298].

Çağdaş Türk və Dünya Tarixi fənn proqramında dərsin məqsədləri aşağıdakı kimi müəyyən edilmişdir:

1. Şagirdlərin XIX əsrdən bu günə qədər dünyada və Türkiyədə baş vermiş inkişaflara dair bilik əldə etmələrini təmin etmək.
2. Bu dövrdə dünyada baş verən siyasi, sosial, mədəni və iqtisadi inkişafların Türkiyəyə təsirini və bu inkişafların XX əsr dünya hadisələrindəki rolunu anlamaq.
3. Qloballaşan dünyada siyasi, sosial, mədəni və iqtisadi hadisələrin çoxşaxəliliyini və mürəkkəbliyini müxtəlif baxış bucaqlarından araşdıra bilmək.
4. Şagirdlərin XXI əsrin inkişaf edən və dəyişən ehtiyaclarına cavab verə biləcək, gələcəyə dair sağlam proqnozlar formalaşdıra biləcək bacarıqlar qazanmasını təmin etmək.
5. Şagirdlərin müxtəlif mədəniyyətlərlə qarşılıqlı əlaqədə ola bilən intellektual və sosial bacarıqlara malik fərdlər kimi yetişmələrinə nail olmaq [1, s.5-7].

Çağdaş Türk və Dünya Tarixinin (Ç.T.D.T) tədrisi dünya və Türkiyədə yaxın dövrdə baş verən hadisələri təhlili və Türkiyəyə təsirini, Türkiyənin dünyadakı mövqeyini və rolu, dünyadakı proseslərin müxtəlif perspektivlərdən araşdırılmasının lazımlığı və gələcəyə dair fərqli proqnozlar irəli sürə bilən gənclər yetişdirilməsi hədəfləyir.

Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) fənnin tədris proqramı I Dünya Müharibəsindən bu günə qədər dünyada və Türkiyədə baş vermiş siyasi, hərbi, sosial, mədəni və iqtisadi sahələrdə inkişafları əhatə edir və bu çərçivədə dərslik *beş fəsilə bölünür:* I. Fəsil*: XX əsrin əvvəllərində dünya;* II. Fəsil: *II Dünya Müharibəsi;* III. Fəsil: *Soyuq Müharibə dövrü;* IV. Fəsil*: Yumuşama dövrü və sonrakı mərhələ;* V. Fəsil: *Qloballaşan dünya.*

Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) dərsinin məzmunu I Dünya Müharibəsindən sonra dünyada və Türkiyədə baş verən mühüm proseslər, xüsusilə Türkiyədə 1945-ci ildən sonra çoxpartiyalıq dövrü, Demokrat Partiya, 1960 çevrilişi, 1971 memorandum, 1980 çevrilişi kimi Türkiyə üçün ciddi məsələlər yer tutur.

Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) kitabında beynəlxalq siyasi tarix mövzularının daha dominant olduğu, sosial, iqtisadi və mədəni inkişaflara daha az yer verildiyin görürük. Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) kitabında Türkiyə tarixinə dair hissələrin üçdə ikisi xarici siyasət məsələləri, üçdə bir hissəsində isə daxili siyasi, iqtisadi, sosial və mədəni mövzuları əhatə edir. Həm dünya, həm də

Türkiyə tarixi mövzularında beynəlxalq siyasi tarix demək olar ki, digər məsələləri geridə qoyub**.** Ancaq bu dərsliklə məktəblərə siyasətin daxil olması narahatlıq yaradıb və daha çox xarici siyasi mövzulara və Türkiyə ilə digər dövlətlər arasındakı münasibətlərə yer verilmişdir. Bunun əsas səbəbi dərs prosesində şagirdlərin arasında münaqişə yaranmasının qarşısını almağa çalışmaq dayanır. Türkiyədəki etnik müxtəliflik, müxtəlif dini düşüncələr həssaslıqla işləmədiyi təqdirdə şagirdlər arasında mübahisə doğura bildiyindən dərs proqramında bu məsələlərə kifayət qədər yer ayrılmır. Daxili siyasi məsələlərə kifayət qədər yer verilməməsi insanların bu gün yaşanan hadisələrin mahiyyətini anlamasını çətinləşdirdiyi göz ardı edilib. Şagirdlərə maarifləndirici, münaqişələrin aradan qaldırmaq məqsədilə fikir müxtəlifliyinə hörmətlə yanaşmaq aşılanmalıdır. Dərs zamanı müəllim şagirdlərə Türkiyə vətəndaşlarının vətəndaş öhdəliklərini təbliğ etmək münaqişələrin qarşısını almağa çalışmalıdır. Əks təqdirdə şagirdlər cəmiyyətdəki problemləri təlim prosesində gözdən qaçırır və gündəlik həyatlarında qarşılaşdıqda neqativ halları aradan qaldırmaq üçün alternativlər düşünə bilmirlər.

Şagirdlər Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) dərsini öyrənməklə qloballaşan dünyada və beynəlxalq münasibətlərdə Türkiyənin mövqeyini, vətən və dünya problemlərini anlamaq proseslərə dair təkliflər hazırlama, həyatı, siyasəti və dövlətlərarası münasibətləri təhlil etmək bacarığı qazanır. Şagirdlərin dünyada meydana gələn ziddiyyətlərin, dünyadakı siyasi, sosial və elmi inkişafları, Türkiyənin aktual məsələlərinin və onun beynəlxalq sahədəki rolunun düzgün qiymətləndirilməsində tarix təhsili həmçinin Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) dərsləri müstəsna rol oynayır.

Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) fənn proqramında ortaya çıxan bir sıra problemlər var. Bunlara misal olaraq aşağıdakıları deyə bilərik:

1. Bu problemlərin ən mühümü Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) fənninin dərs vəsaitləri hazırlanarkən şagirdlərin çətinlik çəkməsinə səbəb olan biləcək elmi-akademik üslubda yazılmasıdır. Dərsliklər hazırlanarkən şagirdlərin çətinlik çəkəcəyi ağır detalların daha sadə dildə yazılmasına diqqət yetirilməlidir.
2. Digər problemlərdən biri isə təlimin təşkili zamanı dərslərin kompüter, multimedia kimi texnoloji vasitələrlə təmin olunmamasıdır.
3. Təlim prosesində atlas, xəritə və digər vizual materialların çatışmazlığı da ciddi neqativ haldır.
4. Təlim zamanı mövzular üzrə bədii, sənədli filmlər, video nümayişlər slaydlar ilə dəstəklənilməmək əhəmiyyətli dərəcədə təlimin keyfiyyətin itirir və s.

Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) dərs proqramı hazırlanarkən dünya tarixi aspektindən təkcə Avropa tarixi istiqamətindən deyil, həm də Asiya və Afrika ölkələri tarixlərinə yer verilməlidir. Dünya ölkələri arasında siyasi müxtəliflikləre xüsusi diqqət yetirilməlidir. Hər bir dövlətin özünəməxsus idarəetmə sistemi var, dövlətlərin siyasi tarixə nəzər salındıqda görə bilirik ki, oxşar hadisələr baş verib amma siyasi şərait, cəmiyyətin ictimai şüuru fərqlidir və bununla da oxşar proseslərin fərqli nəticələri ola bilir. Şagirdlər dünya ölkələri arasındakı müxtəliflikləri qarşılıqlı analitik təhlil, müqayisə, səbəb-nəticə əlaqələri ilə asanlıqla qavraya bi-

lərlər. Bunu Türkiyə tarixinin paralelində də deyə bilərik. Proqram təkcə Türkiyənin deyil, Orta Asiya Türk Respublikalarının tarixini əhatə etməlidir. Proqramda türklərə aid məsələlərin sayı artdığı təqdirdə türklərin bir-biri ilə dostluq, qardaşlıq münasibətləri daha da möhkəmlənir sarsılmaz mənəvi bağ yaranmasına gətirib çıxarmış olar. Bununla da şagirdlərə təlim zamanı şagirdlərə türk dövləti birliyi dostluğu qardaşlığı aşılana bilir.

Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) fənnin tədrisi zamanı dövlətlər arasında, siyasi xadimlər arasında və başqa tarixi proseslər arasında müqayisələr aparılarsa təlim məqsədləri daha tez əldə edə bilərik. Müqayisələr aparıldığı zaman təlim daha effektiv olacaqdır. Bunun əsas səbəbləri şagirdlər həm analitik düşüncə tərzinə, həm obyektiv təhlil etmə bacarığı, həm fikirlərini ifadə etməyə, həm obyektlərin mahiyyətini dərk etmə, həm elmi nəticələri dəqiqləşdirmə və sinifləşdirmə, həm də səbəb-nəticə əlaqələrini mənimsəmiş olacaqlar. Çağdaş Türk və Dünya Tarix (Ç.T.D.T) dərsində müqayisəli analiz üsulunun tətbiqi edilən zaman müəllimlər təlim prosesinə həssas yanaşmalıdır. Tarix dərslərində müqayisə tətbiq edilən zamanı müəllimlərin qarşısında duran vəzifələr var. Türk və Dünya Tarix (Ç.T.D.T) dərsində Müqayisə tətbiq edilən zamanı müəllimlərin əsas vəzifəsi bunlardır:

1. Şagirdlərin obyektiv qiymətləndirmə, təlim standartlarına uyğun analiz etmək, müqayisə aparmaq, səbəb-nəticə əlaqələri qurmaq aparmağa təşviq etmək;
2. Şagirdlərin tarixi proseslərin müqayisəsi zamanı birtərəfli yanaşmalarının qarşısını almaq;
3. Şagirdlərin tənqidi düşüncənin inkişafı etmək;
4. Şagirdlərin bir-biri ilə fikir mübadiləsinə, əməkdaşlığa təşviq etmək;
5. Öyrənməyə maraq oyatmaq;
6. Şagirdləri tədqiqata yönəltmək;
7. Nizam-intizama diqqət yetirilməli, etik-estetik tərbiyə diqqət yetirmək;
8. Sinifdə psixoloji rahatlıq yaratmaq; və s.

Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) fənni yeri gəldi dünya, yeri gəlsə Türkiyə tarixi haqqında öyrətdikləri əvəzsizdir. Çağdaş Türk və Dünya Tarixi (Ç.T.D.T) fənni Türkiyənin dünyadakı mövqeyini, türk dünyasındakı mövqeyini şagirdlər asanlıqla öyrənməsinə xidmət edir.

Ədəbiyyat siyahısı

1. MEB. T.C. Milli Eğitim Bakanlığı Talim ve Terbiye Kurulu Başkanlığı Ortaöğretim Çağdaş Türk ve Dünya Tarihi Dersi Öğretim programı. Ankara: 2012, 52 s.

2. Özbaran S. Tarih Tarihçi ve Toplum. İstanbul: Tarih Vakfı Yayınları, 2005, 8 s.

3. Öztürk S., Aktekin S. Çağdaş Türk və Dünya Tarixi Dərsi mövzusunda müəllim görüşləri (Trabzon ili nümunəsi). 2012, 312 s.

4. Saydam A. Öğrenilemeyen Asır, 20. Yüzyıl Tarihinin Öğrenilememesi Harf Yayınları Ankara.: 2009, 172 s.

5. Tunçay M. Türkiye Cumhuriyeti'nde Tek Parti Yönetimi'nin Kurulması (1923-1931), İstanbul: Tarih Vakfı Yurt Yayınları, 2005, 484 s.

"ERMƏNİ MƏSƏLƏSİ" –TARİXİN SAXTALAŞDIRILMASI

Könül Əzimova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının II kurs magistrantı
konul.azimova.abdulazim@bsu.edu.az
Elmi rəhbər: t.ü.f.d Elşən Aslanov

Açar sözlər: *Şərq məsələsi, Erməni məsələsi, "Hnçaq", "Daşnaqsütun", terror*
Keywords: *The Eastern Question, the Armenian Question, "Hnchak", "Dashnaktsutyun", terror*

Erməni məsələsi ideyası uğrunda çarpışmalardan Anadoluda, Yaxın Şərqdə və Cənubi Qafqazda insanlar əsrlərlə əziyyət çəkmiş və hələ də yeni zülmlərə düçar olmuşlar. Erməni şovinizmi müasir dövrdə bütün dünya siyasətinə sirayət edir, imkan tapan kimi təxribatçılıq və terrorçuluq fəaliyyətindən əl çəkmir.

"Şərq məsələsi"nin davamı – "erməni məsələsi"nin meydana çıxması. XIX əsrin ikinci yarısından etibarən beynəlxalq münasibətlər sistemində "erməni məsələsi" özünü göstərməkdədir. Bu məsələnin kökü bir çox elmi ədəbiyyatda "Şərq məsələsi" kimi tədqiq olunur. Tarixi ədəbiyyata nəzər saldığımızda həqiqətən də görürük ki, tarixdə "erməni məsələsi" deyə bir məsələ olmamışdır. Bəs bu məsələ nədən qaynaqlanır, problemin kökü nədir, niyə "Şərq məsələsi"nin tərkib hissəsi kimi sonradan "erməni məsələsi" beynəlxalq münasibətlər sistemində özünə yer almışdır? Aparılan araşdırmalardan məlum olur ki, XVI əsrdən etibarən dünyanın üç qitəsinə yayılmış Osmanlı imperiyası dünyanın bir çox dövlətlərini narahat etməyə başlamışdır. Feodal pərakəndəliyi dövrü yaşayan, XV əsrdən etibərən mərkəzləşmə dövrünə qədəm qoyan Avropanın bir çox dövlətləri Osmanlı imperiyasının Avropada qazandığı üstünlüklərdən ciddi narahatlıq keçirirdilər. Elə bu məqsədlə onlar Osmanlı imperiyasının parçalanması üçün çeşidli yollar axtarırdılar və onlar çox geniş ərazili Osmanlı imperiyasının mülklərinin bölüşdürülməsi, əlverişli tranzit yollarına nəzarəti ələ keçirmək üçün Osmanlı imperiyasına qarşı mübarizədə birləşə bildilər.

1877-1878-ci illər rus-türk müharibəsində Osmanlı imperiyasının məğlub olması, Rusiyanın Osmanlı imperiyası üzərində qazandığı ciddi üstünlüklər Şərq məsələsinin həllinə çalışan dövlətləri hərəkətə gətirdi. San-Stefano konfransında Rusiya Osmanlı imperiyasında yaşayan ermənilərlə bağlı 16-cı maddəni gündəliyə gətirib Osmanlı imperiyasında yaşayan xristianların, xüsusilə ermənilərin himayədarı rolunu öz üzərinə götürməyə çalışdı. Lakin Osmanlı imperiyası üzərində Rusiyanın qazandığı ciddi üstünlüklər və Osmanlı imperiyası üzərində təkbaşına söz sahibi olmaq istəyi Avropanın digər dövlətlərini ciddi şəkildə narahat etməyə başladı. Berlin konqresinin yekun müddəasında San-Stefano müqaviləsinin 16-cı maddəsi dəyişdirilərək 61-ci maddə ilə əvəzləndi. Beləliklə də, beynəlxalq münasibətlər sisteminə ilk dəfə olaraq "erməni məsələsi" daxil edildi [2, s.89]. Berlin konqresinin 61-ci maddəsi isə Osmanlı imperiyasında yaşayan ermənilərin hüquq və azadlıqlarının Avropa dövlətləri tərəfindən birgə müdafiə olunmasını, Osmanlı

imperiyasının mütəmadi olaraq Şərqi Anadoluda yaşayan ermənilərlə bağlı islahatlar keçirməsi və bununla bağlı Avropa dövlətlərini məlumatlandırması nəzərdə tuturdu. Beləliklə də, əllərinə tarixi fürsət düşən Osmanlı imperiyasının Şərqi Anadolu vilayətlərində dağınıq halda yaşayan erməni əhalisi Avropa dövlətlərinin əllərində bir alətə çevrilməklə, özlərinə gələcəkdə dövlət yaradacaqlarına ümid etməyə başladılar [6, s.92].

Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinin intensiv xarakter alması. Azərbaycan türklərinin tarixi-etnik torpaqlarından didərgin salınması nəticəsində həmin ərazilərdə dünyanın hər bucağından gətirilən ermənilər məskunlaşmışdır. 1828-ci ildə çar Rusiyası və Qacarlar hökuməti arasında bağlanmış Türkmənçay sülhündən sonra Azərbaycan əraziləri kütləvi şəkildə gəlmə ermənilərin "vətəninə" çevrildi. İstər aparılan tədqiqatlardan, istərsə də arxiv materiallarından məlum olur ki, 1826-1828-ci il Rus-İran və 1828-1829-cu il Rus-Osmanlı müharibələrindən sonra Azərbaycan ərazilərinə köçürülən ermənilərin sayı süni şəkildə yerli türk-müsəlman əhalisinin sayına çatdırılmışdı [1, s.56].

Əslində bu siyasət XVIII əsrdə Rus çarı I Pyotrun apardığı siyasətin davamı idi. Belə ki, I Pyotr general-mayor Matyuşkinə ruslar tərəfindən zəbt edilmiş Azərbaycan torpaqlarından müsəlmanları köçürüb, onların yerinə rus, erməni və digər xristan xalqlarının yerləşdirilməsi haqqında tapşırıq vermişdi. Türkmənçay sülhü ilə parçalanmış Şimali Azərbaycan torpaqlarında – Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının ərazilərində havadarlarının himayəsi nəticəsində erməni xalqı "Erməni vilayəti" adlı inzibati bölgü vahidi yaratdı. Bu süni ərazi bölgüsü ilə əslində Azərbaycan türklərinin öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu, dənizdən- dənizədək "Böyük Ermənistan" ideyalarının təbliği geniş surətdə artmağa başladı.

Erməni məsələsinin Türk tarixşünaslığında araşdırılması. Türk tarixşünaslığında "erməni məsələsi" XIX əsrin sonu və XX əsrin əvvəllərində Osmanlı İmperiyasının siyasi, diplomatik və sosial böhranlarının bir parçası kimi izah olunur. Bu yanaşmada əsas vurğu erməni üsyanları, xarici dövlətlərin müdaxiləsi və 1915-ci il köçürülmə siyasətinə yönəlir.

XX əsrin 60-cı illərində Türkiyə tarixşünaslığında tədqiqat mövzusuna dair məlumat verən əsərlərdən biri Hüsamettin Tuğaç tərəfindən yazılmış "Türk İstiklal Harbi: Doğu Cephesi" adlı kitabdır. 1965-ci ildə nəşr olunan bu əsərin III cildi 1995-ci ildə Türkiyə Cümhuriyyəti Müdafiə Nazirliyi tərəfindən yenidən çap edilmişdir. Giriş, on iki fəsil və nəticədən ibarət olan bu əsərdə Birinci dünya müharibəsinin sonunda yaranmış əlverişsiz şəraitdə ermənilərin Şərqdə türk və müsəlman əhaliyə qarşı törətdiyi zorakılıq hərəkətləri, "Böyük Ermənistan" məsələsi və onun Şərqi Anadoluda yaratdığı əks-səda, həmçinin Ermənistana qarşı aparılan hərbi əməliyyatlar nəticəsində imzalanmış Gümrü, Moskva və Qars sazişləri təhlil olunur. Əsərin birinci fəslində "erməni məsələsi", Azərbaycan və digər Cənubi Qafqaz ölkələrindəki siyasi vəziyyətdən bəhs olunur.

Cənubi Qafqazda ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdiyi hərəkətlər əsərin dördüncü fəslində öz əksini tapır. Müəllif yazır ki, Mudros müqaviləsindən sonra Ermənistan müstəqilliyini elan edərək İrəvan, Qars və Naxçıvan ərazilərində türk-müsəlman əhaliyə qarşı kütləvi zorakılıq hərəkətləri həyata keçirdi. "1918-ci ilin qışında, türk ordusu Üç Sancağı boşaltmazdan əvvəl, Göyçə gölü ilə Naxçıvan arasında Andranikin və Yapun adlı erməninin başçılıq etdiyi Zəngəzur və Dərələyəz hadisələri başladı. Eyni zamanda, Ermənistan silahlı qüvvələri Şərur rayonuna hücum etdi. Dərələyəzin müsəlman kəndləri yandırılaraq dağıdıldı, 1000-dən çox insan şəhid oldu, 113 kənd yerlə-yeksan edildi" [6, s.211].

Türkiyə tarixşünaslığında erməni məsələsi ilə bağlı yazılmış əsərlərdən digəri Münir Süreyya Beyin "Ermeni Meselesinin Siyasi Tarihçesi (1877–1914)" əsəridir. Giriş, beş fəsil və nəticədən ibarət olan bu kitab 2001-ci ildə nəşr olunmuşdur. Osmanlı arxivlərinə əsaslanan, erməni məsələsinin XIX əsrin sonu və XX əsrin əvvəllərində siyasi müstəvidə necə formalaşdığını izah edən fundamental bir tədqiqatdır.

Kitabın üçüncü fəsilində erməni komitələrin yaradılması və onların geniş fəaliyyəti haqqında məlumat verilir. Müəllif qeyd yazır ki, erməni komitələri xalqı üsyanlara sövq edir, öz silahlı dəstələrinin əli ilə qırğınlar törədirdilər. Əsərdə qeyd edilir ki, "Erməni komitələri öz inqilabi və terror fəaliyyətləri ilə Osmanlı İmperiyasının daxili dincliyini pozmaq məqsədi güdürdülər" [5, s.108].

Əlavə olaraq bu fəsildə Osmanlı dövlətinə qarşı təşkilatlanmış erməni siyasi hərəkatlarının yaranması, onların məqsədləri və Avropa dövlətləri ilə əlaqələri geniş şəkildə araşdırılır. Müəllif Avropa dövlətlərinin erməni məsələsini siyasi alətə çevirdiyini qeyd edir.

Nəticə: Erməni məsələsi XIX əsrin sonu və XX əsrin əvvəllərində Osmanlı dövlətinin siyasi, diplomatik və sosial həyatında mühüm bir problem kimi ortaya çıxmışdır. Bu məsələ, bir tərəfdən imperiyanın daxili sabitliyini sarsıdan üsyan və separatçı hərəkatlarla, digər tərəfdən isə Avropa dövlətlərinin müdaxiləsi ilə beynəlxalq müstəviyə daşınmışdır. Tarixi mənbələrin təhlili göstərir ki, erməni məsələsi yalnız bir etnik qrupun taleyi ilə bağlı hadisə deyil, həm də böyük güclərin Osmanlı üzərində siyasi təzyiq vasitəsinə çevrilmişdir. Müasir tarixşünaslıqda bu mövzu müxtəlif yanaşmalarla araşdırılsa da, arxiv materiallarının obyektiv saxlanılması və elmi təhlili tarixi həqiqətlərin üzə çıxarılması üçün əsas şərtdir.

Ermənistanın Azərbaycana qarşı təcavüzü və işğalçılıq müharibəsinin tarixi kökləri erməni tarixinin bəzi məsələlərini nəzərə almağı zəruri edir. Bu təcavüzkarlıq siyasəti erməni tarixinin mahiyyətindədir. Məhz buna görə də beynəlxalq və daxili vəziyyətin imkan verdiyi tarixi şərait yaranan kimi ermənilər xəyanətkar niyyətlərini reallaşdırmaq üçün bütün vasitələrdən istifadə etmişlər. "Erməni məsələsi" adlandırılan məsələnin meydana gəlməsini də təsadüfi hesab etmək olmaz.

Ədəbiyyat siyahısı:

1. Əmrahov Z. Osmanlı imperiyasında "Erməni məsələsi" problem (Türkiyə tarixşünaslığı kontekstində). *Bakı*, Elm və təhsil, *2017*, 272 səh.
2. *Qazıyev Y. Erməni məsələsi: yalanlar və gerçəklər. Bakı, 2009, 344 s.*

3. Qeybullayev Q. Ə. Qədim türklər və Ermənistan. Bakı: 1992, 140 s.
4. Sadıqov H. Erməni məsələsi: xəyanəti, deportasiyam, soyqırımını və işğalı pərdələyən yalan. Bakı, "Adiloğlu" nəşriyyatı, 2012, 576 s.
5. Süreyya B. M. Ermeni meselesinin siyasi tarihçesi (1877–1914). Ankara, 2001, 193 s.
6. Tuğaç H. Türk İstiklal Harbi: Doğu cephesi (1919–1921). Ankara, 1995, 263 s.

QƏRBİ AZƏRBAYCANLILARIN ÖZ TARİXİ-ETNIK TORPAQLARINDAN DEPORTASİYASININ NÖVBƏTİ MƏRHƏLƏSİ (1948-1953-cü illər)

Nərgiz Əlizadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının II kurs magistrantı
nergizelizade03@gmail.com
Elmi rəhbər: dosent Xumar Səfərova

Açar sözlər: *Qərbi Azərbaycan, sovet rəhbərliyi, yerli əhali, deportasiya, boşaldılmış kəndlər, dağıdılmış abidələr*
Keywords: *Western Azerbaijan, soviet leadership, local population, deportation, evacuated villages, destroyed monuments*

XX əsrin ortalarında SSRİ-də həyata keçirilən etnik-siyasi proseslərin tərkib hissəsi kimi Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikası) yaşayan azərbaycanlıların 1948-1953-cü illərdə öz doğma torpaqlarından kütləvi şəkildə deportasiyası Cənubi Qafqazın demoqrafik və siyasi ən mühüm hadisələrdən biri olmuşdur. Bu deportasiya yalnız Sovet dövrünün milli siyasətinin bir epizodu deyil, həm də regionda etnik balansın məqsədyönlü şəkildə dəyişdirilməsi, Ermənistan SSR-in monoetnik məkana çevrilməsi istiqamətində sistemli addımların davamı kimi qiymətləndirilir. Deportasiyanın hüquqi bazası SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il 4083 saylı və 10 mart 1948-ci il 754 saylı qərarları ilə müəyyənləşdirilmişdir. Formal olaraq "könüllü köçürmə" kimi təqdim olunan bu proses faktiki olaraq zorakı xarakter daşımış, yüz minlərlə insanın tarixi yurdlarından məcburi şəkildə çıxarılması ilə nəticələnmişdir. Müxtəlif arxiv sənədləri və tədqiqat materialları [1, s. 172] deportasiyanın əvvəlcədən planlaşdırıldığını, siyasi məqsədlərə xidmət etdiyini və Ermənistan SSR rəhbərliyinin israrlı tələbləri ilə həyata keçirildiyini təsdiqləyir. Bu deportasiya aktı sonrakı onilliklərdə-xüsusilə 1988-1991-ci illərdə-Qərbi Azərbaycandan azərbaycanlıların tamamilə qovulmasına aparan zəncirin əsas halqası olmuşdur. Bu baxımdan 1948-1953-cü illər deportasiyasının elmi tədqiqi həm tarixi gerçəkliklərin ortaya qoyulması, həm də regionun müasir etnik-siyasi reallıqlarının izahı baxımından mühüm əhəmiyyət daşıyır. Tarixşünaslıqda deportasiyanın səbəbləri bir neçə istiqamətdə şərh edilur.

Birinci istiqamət deportasiyanı erməni repatriantlarının yerləşdirilməsi ilə əlaqələndirir. 1946-1948-ci illərdə həyata keçirilən repatriasiya proqramı çərçivəsində Yaxın Şərq,Avropa və ABŞ-dan təxminən 100 minə yaxın erməni Ermənistan

SSR-ə gətirilmişdi. Rəsmi sovet sənədləri deportasiya olunanların sayını 100 min nəfərə yaxın göstərsə də, Azərbaycan arxiv mənbələri, sovet statistika topluları və yerli tədqiqatlar bu rəqəmin 100-150 min arası olduğunu təsdiqləyir [4, s.62].

Onların yerləşdirilməsi üçün lazımi əhali və torpaq resurslarının yaradılması məsələsi Ermənistan rəhbərliyi tərəfindən Moskva qarşısında məqsədyönlü şəkildə qaldırılmış və bunun nəticəsi olaraq azərbaycanlıların köçürülməsi siyasi qərara çevrilmişdir. İkinci istiqamət deportasiyanı SSRİ-nin etnik mühəndislik və sosial nəzarət siyasəti ilə əlaqələndirir.1930-1950-ci illərdə müxtəlif xalqların – krım tatarları, qaraçaylar, inguşlar, məshəti türkləri və s.məcburi köçürülməsi imperiyanın etnik siyasətinin əsas mexanizminə çevrilmişdir. Qərbi Azərbaycanlıların deportasiyası bu siyasətin Cənubi Qafqazda tətbiqi kimi dəyərləndirilir.

Üçüncü istiqamət deportasiyanı Ermənistan SSR-də uzun illər formalaşan antitürk ideoloji mühitlə əlaqələndirilir.1948-1953-cü illərdə Ermənistan SSR-dən 100-150 min arasında azərbaycanlı köçürülmüşdür. Köçürülən əhali əsasən Kür-Araz ovalığının iqlim baxımından əlverişsiz ərazilərinə - Sabirabad, Saatlı, İmişli, Beyləqan və digər rayonlara yerləşdirilmişdir. Köçürülmə zamanı ciddi sosial-iqtisadi itkilər, malyariya və digər xəstəliklər nəticəsində ölüm halları geniş yayılmışdır. Azərbaycan Milli Arxivində saxlanılan sənədlərdə belə hallar xüsusi olaraq qeyd edilmişdir [2, s.52]. Ərzaq, su, tibbi xidmət çatışmazlığı müşahidə olunmuş, ailələr illərlə torpaqsız və evsiz qalmışlar.

XX əsrin əvvəllərində Ermənistan ərazisində azərbaycanlılar 30-40 % - lik paya sahib idilər. Lakin Sovet dövrü boyu həyata keçirilən ardıcıl deportasiya və sıxışdırma siyasəti nəticəsində bu rəqəm 1950 – ci illərin ortalarına qədər kəskin şəkildə azalmışdı. Bundan əvvəl də 1918-1920, 1926,1937,1945- ci illərdə müxtəlif ölçülərdə köçürülmələr baş vermiş, 1948-1953– cü illər deportasiyası bu siyasətin əsas mərhələlərindən biri olmuşdur.

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" qərar qəbul edildi. Həmin qərarın 11-ci bəndində göstərilirdi ki, Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn ermənilərin yerləşdirilməsi üçün istifadə etsinlər. "Digər azərbaycanlı əhali" kateqoriyasına açıqlıq gətirilməsə də, aydın olurdu ki, bu kateqoriya altında Ermə-nistanın şəhərlərində yaşayan fəhlələr və kolxozçu olmayan azərbaycanlıların köçürülməsi nəzərdə tutulurdu. Həmin qərarla Ermənistanın 26 rayonundan 100 min azərbaycanlının köçürülməsi nəzərdə tutuldu. Qərarın 1-ci bəndinə əsasən 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfər köçürülməli idi. Bu qərarın icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları zorakı üsullarla həyata keçirildi, 26 rayondakı 200-dən artıq yaşayış məntəqəsindən, xüsusilə Vedi, Zəngibasar, Ellər, Qafan, Paşalı, Keşişkənd, Qəmərli, Əştərək, Üşkilsə, Basarkeçər, Axta rayonlarından, Dərəçiçəkdən və İrəvan şəhərindən təqribən 150 min nə-

fər azərbaycanlı öz tarixi-etnik torpaqlarından deportasiya edildi. SSRİ hökumətinin azərbaycanlıların köçürülməsi haqqında verdiyi qərarlar Ermənistan hökumətinə fürsət verdi ki, İrəvan şəhəri ətrafında, Ermənistanın İran və Türkiyə ilə sərhədləri boyunca azərbaycanlı yaşayış məntəqələrinin əksəriyyətini yer-yurdlarından deportasiya etmək yolu ilə birdəfəlik xəritədən silə bilsin [4, s.57; 1, s.172].

SSRİ Ali Soveti 14 noyabr 1989-cu ildə "Zorla köçürülmüş xalqlara qarşı repressiya tədbirlərinin qanunsuz və cinayətkar tədbirlər hesab edilməsi və onların hüquqlarının təmin olunması haqqında" bəyannamə və SSRİ Nazirlər Soveti buna müvafiq olaraq xüsusi qərar qəbul etmişdir. Həmin bəyannamədə bütöv xalqları zorla köçürmək praktikasını beynəlxalq hüququn əsaslarına, sosializm quruluşunun humanist təbiətinə zidd olan ən ağır cinayət kimi qətiyyətlə pisləmiş, repressiyaya məruz qalmış bütün Sovet xalqlarının hüquqlarının bərpası üçün müvafiq qanunvericilik tədbirlərinin görülməsi zəruri hesab edilmişdi. SSRİ Ali Sovetinin 14 mart 1991-ci il tarixli qərarı ilə repressiya olunmuş xalqların qanuni hüquqlarının bərpa edilməsi haqqında qərar qəbul etmişdir. Lakin adları çəkilən sənədlərdə deportasiya olunmuş xalqların sırasında Ermənistandan deportasiya olunan azərbaycanlıların adı çəkilməmişdir. Ona görə də indiki Er-mənistan ərazisindən deportasiya edilmiş soydaşlarımızın öz tarixi vətənlərinə qayıtmaq hüququ tanınmadı və xalqımıza qarşı edilən tarixi ədalətsizlik bərpa olunmadı. Bu, keçmiş SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı qərəzli münasibətindən irəli gəlirdi [5, s.6].

Azərbaycan xalqına qarşı tarixi cinayət kimi qiymətləndirilən bu aksiyaya hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 18 dekabr 1997-ci ildə "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə depor-tasiyası haqqında" fərman imzalamışdır. Həmin fərmanla SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli və 1948-ci il 10 mart tarixli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı kimi xarakterizə edilmişdir. Fərmanda qeyd edilir ki, 1948–1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün ounmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmədiyi, minlərlə insanın, o cümlədən qocaların və körpələrin ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olduqları qeyd edilmişdir. Erməni şovinist dairələri və SSRİ rəhbərliyi ilə yanaşı, o dövrkü Azərbaycan rəhbərliyinin də həmin cinayətlərin həyata keçirilməsində oynadıqları rol pislənilmişdir [2, s.197].

Beləliklə, 1948-1953- cü illərdə Qərbi Azərbaycandan azərbaycanlıların kütləvi deportasiyası SSRİ-nin milli siyasətinin ən dramatik səhifələrindən biridir.Bu deportasiya planlı şəkildə həyata keçirilmiş, siyasi, ideoloji və demoqrafik məqsədlərə xidmət etmişdir. Onun nəticəsində yüz minlərlə insan öz tarixi torpaqlarını itirmiş, Ermənistan SSR monoetnik struktur qazanmış, Azərbaycan SSR-in demoqrafik və sosial vəziyyətində cuddi dəyişikliklər baş vermişdir. Deportasiya

bölgədə sonrakı etnik qarşıdurmaların əsasını qoymuş və Cənubi Qafqazın siyasi coğrafiyasına həlledici təsir göstərmişdir. Qərbi Azərbaycanın-indiki Ermənistanın 34 rayonunun adı dəyişdirilərək ermənilşdirilmişdir [3]. 1989-cu ildə "Azərbaycan Qaçqınlar Cəmiyyəti" kimi təsis edilmiş, 2022-ci ildə "Qərbi Azərbaycan İcması" adını almış təşkilat indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların hüquqlarının müdafiəsi ilə məşğuldur. İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə **"Qayıdış konsepsiyası" elan edilmişdir** [6]**.** Bu Konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.

Ədəbiyyat siyahısı:

1.Bayramov İ. Qərbi Azərbaycan və ya Ermənistanın etnik təmizləmə siyasəti. Bakı, Çıraq, 2011, 288 s.
2.Ermənistan azərbaycanlılarınını tarixi coğrafiyası. (B.Budaqov və Q.Qeybullayevin redaktəsi ilə). Bakı, Gənclik, 1995, 464 s.
3.Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri. Bakı, Ağrıdağ, 2006, 227 s.
4.Nazim Mustafa. Qərbi Azərbaycan: faktlar, sənədlər, reallıqlar. Bakı, "Orxan" NPM, 2025, 108 s.
5.Nazim Mustafa. Qərbi Azərbaycandan azərbaycanlıların etnik təmizlənməsinin mərhələləri və monoetnik erməni dövlətinin yaranması // Respublika, 2023, 17 dekabr, № 276.
6. Qərbi Azərbaycan İcması. Qayıdış Konsepsiyası. https://westaz.org/az/details/senedler/qayidis-konsepsiyasi/qayidis-konsepsiyasi

MATENADARAN SƏNƏDLƏRİNDƏ AZƏRBAYCANIN ÇUXUR-SƏƏD BÖLGƏSİNİN TÜRK TOPONİMLƏRİ

Ayşən Allahverdiyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasının II kurs magistrantı
aysenallahverdiyeva44@gmail.com
Elmi rəhbər: dosent Bəymirzə Şabiyev

Açar sözlər: *Çuxursəəd, bəylərbəylik, Matenadaran, toponim, türk*
Keywords: *Chukhursaed, beylerbeylik, Matenadaran, toponym, turk*

Mənbələr əsasında alimlərin araşdırmalarında İrəvan bölgəsinin əvvəlki adı olan Çuxursəəd anlayışı ilə bağlı əsas fikir ondan ibarətdir ki, bu bölgənin adı Baharlı əyanlarından biri olan Əmir Səədin adı ilə bağlıdır. Onun başçılıq etdiyi tayfanın məskunlaşdığı ərazinin metropoliyası əvvəlcə Sürməli çuxuru, Arpaçayın qovuşduğu torpaqlar olsa da, sonralar oların nəzarət etdiyi tarixi-coğrafi areal ge-

nişlənmiş və Səəd-Çuxuru kimi tanınmışdır [1, s.415]. Qaynaqlardan belə məlum olur ki, Əmir Səəd XIV əsrin 80-ci illərinə qədər yaşamışdır. Əmir Teymurun Cənubi Qafqaza yürüşü nəticəsində Azərbaycan, habelə onun tərkibində olan Çuxur-Səəd torpaqlar da Teymurilərin nəzarəti altına düşmüşdür. 1405-ci ildə onun vəfatından sonra yaranmış vəziyyətdən istifadə edən Əmir Səədin varisləri İrəvan bölgəsində xırda bir əmirlik yaratmış, 1413-cü ildə Əmir Səədin məzarı üzərində məqbərə ucaltmışdılar.

Görkəmli Səfəvişünas alim olan Oqtay Əfəndiyev bu adın - Çuxursəəd anlayışının etimologiyasını izah etməklə yanaşı, bölgənin sərhədlərini və əhatə etdiyi əraziləri də göstərmişdir. O, bu istilahın XIV əsrdə yaşamış Əmir Səədin adı ilə bağlı olduğunu və Səfəvilər dövründə Çuxur-Səəd vilayətinin şimal-qərbdə Şuragol, şimal-şərqdə Göyçə gölü, cənub-qərbdə Qarsla sərhədləşdiyini və cənub-şərqdə Sürməli, Naxçıvan, Maku və bəzən də Bəyazidi əhatə etdiyini qeyd etmişdir [1, s.69]. Dövrün digər tarixçisi olan İsgəndər bəy Münşi öz əsərində Çuxur-Səəd vilayəti ilə bağlı müəyyən məlumatlar vermişdir. O, Osmanlı dövləti ilə Çuxur-Səəd bəylərbəyliyi arasında sərhəd xəttinin Qars boyu keçməsinə diqqət çəkərək belə yazırdı: "Çuxur-Səəd və Ərzurum arasında yerləşən Qars qalasının bir tərəfi Gürcüstanın Meşq adlı yerinə birləşir. Bu qala əsgərlərin gediş-gəlişi nəticəsində bərbad hala düşmüşdür" [1, s.90].

Məşhur rus şəqşünası və tarixçisi olan V.F.Minorski isə Çuxur-Səəd vilayətinin Axalsıxla (Axiska) qonşuluqda yerləşdiyini göstərmişdir [1, s.90].

Erməni tarixçisi olan A.D.Papazyan qeyd edir ki, ilk əvvəllər İrəvan, Sürməli və ətraf torpaqları əhatə edən Çuxur-Səəd anlayışı sonrakı dövrlərdə geniş əraziləri özündə birləşdirmişdi. Müasir dövrdə bir vaxtlar Çuxur-Səəd vilayətinin tərkibinə daxil olan tarixi Azərbaycan torpaqlarının bir hissəsi indiki Azərbaycan Respublikasının, digər hissəsi isə Ermənistan, Gürcüstan, İran və Türkiyə Respublikalarının tərkibinə daxildir. A.D.Papazyan və başqa onun kimi tarixçilər bu ərazini saxtakarcasına "Böyük Ermənistsan"ın tərkib hissəsi kimi təqdim etməyə çalışırlar. Qəribədir ki, A.D.Papazyan və digərləri bu əsası olmayan fikirləri sübuta yetirmək üçün tarixi mənbələrə istinad edə bilmirlər. Lakin Çuxur-Səəd ərazisinin tarixi və əzəli Azərbaycan torpağı olmasını sübuta yetirən çoxlu sayda qaynaqlar və dəlillər mövcuddur ki, bunların içərisində yer adları daha çox əhəmiyyət kəsb edir. Çuxur-Səəd əyalərinə daxil olan coğrafi toponimlərin etimologiyası bu yerlərin türk-oğuz etnoslarına aid olduğunu sübut edir. XV-XVIII əsrlərə aid qaynaqlarda, narrativ və memuar xarakterli sənədlərdə Çuxur-Səəd bölgəsinə aid çoxlu sayda türk-oğuz mənşəli toponimlər toplanmışdır. Bu qaynaqların içərisində A.D.Papazyan tərəfindən nəşr olunan və Matenadaranda saxlanılan sənədlər əsas rol oynayır. Matenadaran seriyalı sənədlər əsasən iki qrupdan ibarətdir. Birinci qrup hökmdar və vilayət hakimlərinin fərmanlarından, ikinci qrup isə daşınar-daşınmaz əmlakın alqı-satqısını əks etdirən şəriət məhkəməsinin qəbalələrindən ibarətdir. Həmin sənədlərdə olan qəbalələrin və fərmanların araşdırılması, eləcə də təhlil edilməsi yer adlarının öyrənilməsi baxımından çox böyük mahiyyət kəsb edir.

Mənbələrdə qeyd olunur ki, XV əsrin II yarısından etibarən Çuxur-Səəd ərazisi Naxçıvan əyalətinin tərkibində olmuşdur. 1475-ci ilin 8 oktyabrında Həsən padşah tərəfindən verilmiş fərmanda göstərilir ki, erməni monarxı Vardan və digərləri hüzura gələrək, qədim dövrdən indiyədək Üçkilsə rahibləri və xidmətçilərindən xərac və cizyə alınmadığını və bu barədə əllərində əvvəlki hökmdarların fərmanlarının olduğunu göstərmişlər.Fərmanda Dərəşəmbin darğa və kələntərlərinə Üçkilsə din xadimlərini incitməmək, əvvəlki kimi onlardan vergi almamaq tapşırığı verilmişdir [1, s.81]. Buradan aydın olur ki, həmin dövrdə Çuxur-Səəd vilayəti Naxçıvan tüməni və ya Dərəşəmb mahalına tabe olmuşdur.

XVI əsrdə Azərbaycan Səfəvilər dövləti yarandıqdan sonra bu ölkə inzibati ərazi baxımından bir neçə bəylərbəyliyə bölünmüşdür ki, bu bəylərbəyliklərdən biri də Çuxur-səəd bəylərbəyliyi olmuşdur. Bu bəylərbəyliyin nə zaman yaradılması dəqiq məlum olmasa da, Şah İsmayılın 1505-ci il tarixli fərmanı onun XVI əsrin ilk başlanğıcında yarandığını deməyə əsas verir. Eyni zamanda nəşr olunan "Matenadaranın fars dilli sənədləri" toplusuna daxil edilən 9 saylı sənəd Çuxursəəd bəylərbəyliyinin XVI əsrin əvvəllərində yarandığını göstərir.

Rəsmi sənədlərdə Çuxur-Səəd anlayışı ilk dəfə 1428-ci ildə işlədilmişdir.1428-1430-cu illərdə Üçkilsə kəndinin alınıb satılması ilə bağlı tərtib edilmiş üç qəbalə sənədi əsasında 1430-cu ildə şəriət məhkəməsi tərəfindən verilən yeni qəbalədə Üçkilsə kəndinin Azərbaycan ölkəsinə tabe olan Gürcüstan rayonlarından hesab edilən Çuxur-Səəd vilayətinin Karbi nahiyyəsində yerləşdiyi göstərilmişdir [1, s.80].

Səfəvi dövrünə aid mənbələrdə Çuxur-Səəd bəylərbəyliyinin ayrı-ayrı mahallarında da darğa və kələntər vəzifəsinin olmasını təsdiqləyən məlumatlara rast gəlmək mümkündür. 1505-ci ilin 26 avqustunda Şah I İsmayıl tərəfindən imzalanmış fərmanda Qızıl-Vəng monastrı və ruhanilərin bir sıra vergilərdən azad edilməsinə Çuxur-Səədin hakimi ilə yanaşı darğa və kələntərinin əməl etməsi göstərişi verilmişdir [Şah I İsmayıl Səfəvinin 1505-ci il tarixli fərmanı (Sənəd №9) – Qızılvəng monastrı, Çuxur-Səəd, Ukaz, s.174-175].

Şah I İsmayılın varisi olan Şah I Təhmasibin 1544-cü il 19 avqust tarixində verdiyi fərmanında Əylisdəki apostal Tovma monastrına məxsus mülklərdən monastra bəhrəçə vergisinin ödənilməsinə Əylisin darğasının yardım etməsinin göstərilməsi, mahallarda da darğa mənsəbinin olmasını təsdiq edir [Şah I Təhmasib Səfəvinin 1544-cü il tarixli fərmanı (Sənəd №12) – Naxçıvan tüməni, Azad-Ciran nahiyəsi, Ukaz I, s.178].

Səfəvilərin qüdrətli hökmdarı olan Şah I Abbasın 1648-ci ildə verdiyi fərmanında İrəvanlı xoca Akopun İrəvan xanlığının Yayçı, Norageh, Gölkəndində mülkləri üzərində hüquqlarının bərpası haqqındakı fərmanında göstərilir ki, Xoca Akop həmin mülklərin ona məxsus olmasını əks etdirən İrəvan bəylərbəyi, şeyxülislamı və qazısının möhürləri ilə təsdiqlənmiş sənədi təqdim etmişdir [Şah II Abbas Səfəvinin 1648-ci il tarixli fərmanı (sənəd №35) – Yaycı, Norageh və Gülkəndi kəndləri, Ukaz, II, s.325]. Bu fərman İrəvan vilayətində şeyxülislam vəzifəsinin olmasını təsdiq etməklə yanaşı, vəzifə iyerarxiyasında şeyxülislamın qazıya nisbətən

bir pillə yuxarıda durmasını təsdiq edir [1, s.101]. Eyni zamanda bu fərmanlar adı keçən toponimlərin öyrənilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Ədəbiyyat siyahısı:

1.Şabiyev B.Ş. Azərbaycan Səfəvi dövlətinin İrəvan vilayəti. Bakı: Füyuzat, 2023, 456 s.
2.Папазян А.Д. Аграрные отношения в Восточной Армении в XVI-XVII веках.Ереван: Из-во АН Арм, ССР, 1972, 303 с.
3.Персидские документы Матенадарана. I. Указы. Вып. I. (XV-XVIвв.). Составил А.Д.Папазян. Ереван: Из-во АН Арм.ССР, 1956, 315 с.
4.Персидские документы Матенадарана. I. Указы. Вып. II. (1601-1650 гг). Составил А.Д.Папазян. Ереван: Из-во АН Арм.ССР,1959, 593 с.
5.Персидские документы Матенадарана. II. Купчие. вып. I . (XIV-XVI вв.). Составил А.Д.Папазян. Ереван: Из-во Арм.ССр,1968,640 с.
6.Симеон Ереванци. Джамбр. памятная книга, зерцало и сборник всех обстоятелъств св. престола Эчмиадзина и окрестных монастырей. Перевод С. Малхасянца. М., Из-во Восточной литературы,1958, 399 с.

AZƏRBAYCAN ATABƏYLƏR DÖVLƏTİ TÜRK TARİXŞÜNASLIĞINDA

Aynur Əliyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasının II kurs magistrantı
Aliyevaaynur1@icloud.com
Elmi rəhbər: professor Zabil Bayramlı

Açar sözlər: *Atabəylər, Eldəniz, gürcülər, türk tarixşünasları, Səlcuqlar*
Keywords*: Atabegs, Eldeniz, georgians, turkic historians, seljuks*

Orta əsr Azərbaycan tarixi türk dövlətçilik ənənəsinin mühüm mərhələlərindən biri olan Atabəylər (Eldənizlər) dövləti ilə sıx bağlıdır. XII əsrdə Böyük Səlcuq imperiyasının zəifləməsi fonunda meydana çıxan bu dövlət, həm siyasi müstəqillik, həm də idarəçilik sistemi baxımından türk dövlət ənənəsinin davamı kimi formalaşmışdır. Atabəylər dövləti təkcə Azərbaycan ərazisində deyil, həm də Qafqazın ümumi siyasi mənzərəsində mühüm rol oynamış, bölgədə türk etnosunun siyasi, mədəni və dini təsir dairəsini genişləndirmişdir. Türk tarixşünaslığında Atabəylər dövləti məsələsi Səlcuq dövlətindən sonrakı dövrdə türk dövlətçiliyinin inkişaf mərhələsi kimi qiymətləndirilir. Faruk Sümər, İbrahim Kafesoğlu, Osman Turan, Zəki Vəlidi Toğan, Mehmet Altay Köymən. Hüseyn Kayhan kimi tanınmış alimlər Atabəylər dövlətini Səlcuq idarəçiliyinin davamı, eyni zamanda Azərbaycan torpaqlarında formalaşan ilk müstəqil türk dövləti kimi araşdırmışlar. Bu tədqiqatlarda Atabəylər dövlətində siyasi hakimiyyətin təşkili, mərkəzi idarəetmə sistemi, ordu quruculuğu, diplomatik münasibətlər və mədəni həyatı kimi məsələlər xüsusi diqqət mərkəzində olmuşdur. Müasir türk tarixşünaslığında Atabəylər dövləti təkcə regional siyasi qurum kimi deyil, həm də Türk-İslam dünyasının mədəni və

ideoloji dirçəliş mərhələsi kimi təqdim olunur. Bu yanaşma Atabəylərin dövründə Gəncə, Naxçıvan, Təbriz kimi şəhərlərin elm, mədəniyyət və memarlıq mərkəzinə çevrilməsi, habelə dövlətin İslam və türk kimliyini sintez edən siyasət aparması ilə əlaqələndirilir.1234

Atabəylər dövlətinin türk tarixşünaslığında dəyərləndirilməsi: Türk tarixşünaslığında Atabəylər (Eldənizlər) dövlətinin yaranması məsələsi, adətən, Böyük Səlcuq imperiyasının süqutu və Azərbaycan ərazisində müstəqil türk hakimiyyətinin təşəkkülü ilə əlaqələndirilir. Atabəylər dövləti türk tarixşünaslığında müxtəlif aspektlərdən dəyərləndirilir. Belə ki, həm Səlcuq idarəçiliyinin davamını təşkil edən və sonradan müstəqillik qazanan, həm də Azərbaycan türk dövlətçiliyinin başlanğıc mərhələsini formalaşdıran, eyni zamanda Türk-İslam mədəniyyətinin təşəkkülündə mühüm mərhələ sayılan bir dövlət kimi qeyd olunur[1, s.3].

Bir çox tarixşünaslara görə Atabəylər dövləti Azərbaycanın ilk müstəqil türk dövləti kimi qeyd olunur. Belə ki, Faruk Sümər Azərbaycan Atabəylər dövlətinin siyasi tarixi haqqında dolğun məlumat verməsə də, Eldənizlərin İraq Səlcuq Sultanlığı zamanındakı nüfuzu və hakimiyyətindən bəhs edir. Faruk Sümər "Azərbaycan Atabəyləri" adlı məqaləsində Atabəylərin yaranmasını Böyük Səlcuq imperiyasının zəifləməsi nəticəsində mərkəzi hakimiyyətin sarsılması ilə izah edir. O yazır ki, Şəmsəddin Eldəniz əvvəlcə Səlcuq şahzadəsinin tərbiyəçisi (atabəyi) kimi fəaliyyət göstərmiş, lakin sonradan siyasi hakimiyyəti öz əlinə alaraq mərkəzi Azərbaycan olan müstəqil dövlət qurmuşdur [5, s. 215].1234

İbrahim Kafesoğlu "Səlcuq tarixi və Türk-İslam mədəniyyəti" əsərində bu prosesi türk dövlət sistemində atabəylik institutunun təbii nəticəsi kimi izah edir. Onun fikrincə, atabəylik əvvəlcə tərbiyəçilik və hərbi nəzarət funksiyası daşısa da, zamanla müstəqil hakimiyyət forması almışdır. Osman Turan isə "Səlcuqlular zamanında Atabəylər" əsərində Eldənizlərin Səlcuqların siyasi varisi olduğunu vurğulayır və qeyd edir ki, onların hakimiyyətə gəlməsi "mərkəzi gücün zəifləməsinə qarşı yerli türk qüvvələrinin reaksiyası" idi. Zəki Vəlidi Toğan bu dövləti "Ümumi Türk tarixinə giriş" əsərində Qafqazda türk hakimiyyətinin möhkəmlənməsi üçün əsas mərhələ kimi təqdim edir və yazır ki, Atabəylər sayəsində Azərbaycan bölgəsi "Türk siyasi kimliyinin əsas dayağına çevrildi". Ümumiyyətlə atabəylər dövlətinin nə zaman yaranması məsələsi də diqqəti cəlb edən mövzulardan birisidir. Çünki, bu barədə Hüseyin Kayhan və Gülay Öğün Bezər müxtəlif fikirlər irəli sürmüşlər. Atabəylər dövlətinin yaranması barədə Gülay Öğün Bezər belə yazır "543-cü ildə (1148) Şəmsəddin əl-Dənizin Azərbaycana vali təyin edilməsi ilə Azərbaycan Atabəyləri kimi tanınan sülalənin əsasları qoyuldu. Daha sonra onun ögey oğlu Arslanşah b. Tuğrulun atabəy təyin olunması ilə bölgədə əhəmiyyətli bir gücə çevrildi (555/1160). Sikkə zərb edən və adlarına xütbələr oxuyan ilk üç atabəy İraq Səlcuq sultanları üzərində tam hökmranlıq yaratsalar da, bu arada onlara formal sədaqətlərini qoruyub saxladılar. Bunun müqabilində atabəylərin apardıqları böyük mübarizələr sayəsində sultanlar xəlifənin şiddətli müqavimətinə baxmayaraq, İraq, Cibəl, Kirman, Azərbaycan, Mosul, Əl-Cəzlrə, Əhlat və Ərzurumda hökmranlıq edə bildilər.Onların sayəsində Böyük Səlcuqlu dövlətinin süqutundan sonra

(552/1157) ifratlarını artıran gürcülərin hücumlarını da dayandıra bildilər" [2, s.102]. Hüseyin Kayhan da Eldənizlər dövlətinin yaranması tarixini 1140-ci ildən sonrasına təsadüf etdiyini yazarkən, eyni zamanda Ziya Bünyadovun da fikirlərini əsaslandırır. "İldənizin Azərbaycana atabəy kimi göndərildiyi tarix mənbələrdə göstərilməsə də, hadisələrin gedişatına əsasən onun 1146-cı ildən əvvəl baş verdiyi görünür. Mövcud mənbələrdə onun Naxçıvana gəliş tarixinə aydınlıq gətirəcək heç bir məlumat yoxdur. Lakin şair Mücirəddin-i Beyləqaninin İldənizin böyük oğlu Cihan Pəhlivanı tərifləyən bir şeirində onun 33 yaşında dövlət hakimiyyətinə sahib olduğu qeyd edilir. Bu tarix 1176-cı il olmalı idi. Sultan Arslanşah həmin ilin əvvəlində vəfat etdiyi üçün Cihan Pəhlivan yeddi yaşlı oğlunu II Səlcuq taxtına oturtdu və II Səlcuyi taxtına qoydu. Dövlət, həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə qorxulu və hörmət edilən bir gücə çevrilir. Deməli, o, 1143-cü ildə anadan olmuş olmalıdır. Buna əsaslanaraq İldənizin İraq Səlcuqlu Sultanı I Tuğrulun dul arvadı Müminə Hatunla evlənməsi və Azərbaycana göndərilməsi tarixini 1141 və ya 1142-ci il kimi nəzərdən keçirməliyik. İldənizin bu vaxt 30 yaşının əvvəlində olduğunu düşünmək yerinə düşərdi. Həqiqətən də, Səlcuq vəziri Nizam əl-Mülkun "Siyasətnamə"sində hərbdə qulam kimi başlayan bir şəxsin əmir rütbəsinə çatdığı və bir bölgəyə vali göndərildiyi yaş 30-40 yaşları arasında göstərilmişdir [3, s.12].

Azərbaycan tarixçisi Ziya Bünyadov mövzu ilə bağlı araşdırmasında İldənizin Azərbaycana göndərildiyi tarixi, deməli, Azərbaycan Atabəyliyinin yaranma tarixini 1136-cı il kimi göstərir. O yazır ki, bu tarixdə İldəniz Sultan Tuğrulun dul arvadı Möminə Hatunla evlənərək atabəy rütbəsi alıb, ona Arrana verilir. O, mənbə kimi Zahirəddin Nişapuri "Tarih-i Əl-i Səlcuq" əsərinin 75-ci səhifəsini göstərir. Lakin nə müvafiq əsərin göstərilən səhifəsində, nə də başqa səhifələrdə Atabəy Eldənizin Arrana göndərildiyi tarix göstərilmir. Əvvəlcə Ziya Bünyadov sadəcə olaraq 1136-cı illə bağlı öz təxminlərini əsas götürdüyü görünsə də, əsərində belə bir ifadənin olmaması onu deməyə əsas verir ki, bu, sadəcə təxmin yox, dəqiq biliyin məhsulu kimi təqdim olunur. Lakin onun mənbəsində belə bir məlumatın olmaması işləri çətinləşdirir [6, s.120].

Eldənizlər dövlətinin gürcülərlə olan münasibətlərindən də bəhs olunur. Yazılanlara görə çar III Baqratın (1156- 1184) Şərqi Anadoluya yürüşü, Gəncəyə qədər irəliləyib şəhəri ələ keçirməsi, hətta Ani şəhərində kütləvi qırğın və qətliamlar törədilməsindən bəhs olunur. 1162-ci ildə 30 minlik ordu ilə Azərbaycana yenidən yürüşü, Dvin şəhərini işğal edib şəhər və ətrafını talan edərək 10 mindən çox insanın qətlə yetirilməsi qeyd edilir. Gürcülərin bu hücum xəbərinu alan Eldəniz əks hücumlar təşkil etmiş və Ani, Dəbil şəhərlərini azad edərək regionda üstlünlüyünü əlində saxlamışdır. Türk tarixçilərinin də yazdığından aydın olur ki, o zamanlar da gürcülər Azərbaycanın qərb torplarını ələ keçirməyə çalışsalar da Şəmsəddin Eldəniz buna icazə verməmiş və Azərbaycan torplaqlarının xristianlar tərəfindən ələ keçirilməsinə qarşı mübarizə aparmışdır. Bu nübarizə onun ölümündən sonra oğlanlari tərəfindən də davam etdirilmişdir.

Azərbaycan Atabəylər dövlətində idarəetmə eynilə İraq Səlcuq Sultanlığında olduğu kimi qaldığı yazılır. Eldəniz nə inzibati nə də ordu quruculuğunda dəyişiklik etməmişdir. Sadəcə İraq Səlcuq Sultanlığının təcrübəsindən istifadə edirdilər. Hər bir vilayətə valilər təyin olunur, məhkəmələrə qazılar rəhbərlik edirdi. Divana rəhbərlik vəzirin əlində idi [4, s. 36].

XII əsrdən XIII əsrə qədər mövcud olmuş, Yaxın və Orta Şərqdə öz dövrünün qüdrətli dövlətlərindən birisinə çevirlən Eldənizlər (Atabəylər) dövləti haqqında yazılanlardan da aydın olur ki, türk tarixşünaslığında Atabəylər dövlətinin Səlcuq ideyalarının davamçısı olması, sonradan müstəqilliyi ərəfəsində regionda üstünlüyünü bərqərar etməsi, Türk mədəni irsinə sahib çıxması, bölgədə türklərin hegemonluğunu daha da artırması əsas diqqət məsələsi olmuşdur. Dövlətin yaranması barədə mübahisəli məsələlər olsa da, türk tarixşünasları yenə də Azərbaycan tarixçilərinin bu barədə fikirlərinə önəm vermiş və dəyərləndirmişdir.

Ədəbiyyat siyahısı:

1. *Alyari Hüseyin. Azərbaycan Atabegleri İl-Deniz Oğulları. İstanbul: İstanbul Üniversitesi, Edebiyat Fakultesi Doktora Tezi, 1966, 24 s.*
2. *Gülay Ögün Bezer. İldenizliler. TDV İslam Ansiklopedisi, 2013, 585 s.*
3. *Kayhan Huseyin. Azerbaycan Atabegleri (İldenizliler). Ankara: Türk Tarih Kurumu Yayınları, 2019, 318 s.*
4. *Nəcəf Əkbər. Şəmsəddin Eldəniz. Bakı: Altun kitab, 2024, 160 s.*
5. *Sümer Faruk. Toğrul I, Tuğrul b. Muhammed Tapar, DİA, 2012, 406 s.*
6. *Bünyadov Ziya. Azərbaycan Atabəylər dövləti (1136-1225-ci illər). Bakı," Şərq-Qərb", 2007, 312 s.*

TÜRK DÜNYASINDA ŞƏHƏR İDARƏÇİLİYİNDƏ OXŞARLIQLAR (SƏFƏVİ VƏ BÖYÜK MOĞOL İMPERİYALARI NÜMUNƏSİNDƏ)

Fidan Xudaverdiyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasının II kurs magistrantı
fidanxudaverdiyeva02@gmail.com
Elmi rəhbər: professor Zabil Bayramlı

Açar sözlər: *Səfəvi dövləti, Böyük Moğol dövləti, şəhər idarəçiliyi, kələntər, kotval*
Keywords: *Safavid Empire, Great Mughal Empire, city administration, kalantar, kotwal*

Türk dövlətçilik tarixində Azərbaycan Səfəvi (1501-1736) və Böyük Moğol (1526-1859) imperiyaları xüsusi yerə sahib olmuş dövlətlər kimi mövcud olduqları vaxtlarda qazandıqları siyasi qələbələrlə və dövlət idarəetməsi sahəsində yaratdıqları sistemlə diqqəti cəlb etmişdilər. Qeyd olunan bu iki dövlət arasında dövlət səviyyəsində geniş əlaqələr mövcud olmuşdur. Səfəvi dövləti ilə Böyük Moğol dövləti arasında yaradılmış sıx iqtisadi-siyasi və mədəni əlaqələr dərin tarixi köklərə malikdir. C.Aydoğmuşoğlunun sözlərinə görə, I Şah İsmayılın hakimiyyəti

dövründə Böyük Moğol dövləti ilə təməli qoyulan əlaqələr hər iki dövlət arasında qarşılıqlı münasibətlərin yaranmasında əhəmiyyətli rol oynamışdır. Hətta Moğol sarayında daimi Səfəvi elçisi də fəaliyyət göstərmişdi [3, s.222]. Qarşılıqlı əlaqələr kontekstində XVI-XVII əsrlərdə regionda əsas söz sahibinə çevrilmiş bu dövlətlərdə idarəçilik sisteminin bir çox sahələrində bənzərliklər gözə çarpır. Bu bənzərliklər hər iki dövlət arasında yaradılmış dostluq əlaqələrindən və türk etnik kimliyinə mənsub olmalarından qaynaqlanır. Həm Səfəvi dövlətinin, həm də Böyük Moğol dövlətinin idarəçilik sistemində türk dövlətçilik sisteminin ənənəvi izlərinə rast gəlmək mümkündür. Bir çox sahələrdə olduğu kimi, hər iki dövlətin idarəçilik sisteminin əsas hissəsini təşkil edən şəhər idarəçilik sistemində də oxşar cəhətlər vardır.

Səfəvi və Böyük Moğol dövlətlərində şəhər idarəçilik sisteminin oxşar cəhətlərinə dair: Hər iki dövlətin şəhər idarəçilik sisteminin ortaq xüsusiyyətlərini təhlil etməzdən öncə ilk növbədə bu dövlətlərin ayrı-ayrılıqda şəhər idarəçilik sistemindən, şəhər idarəçiliyində mühüm rola malik olan idari vəzifələrdən və bu vəzifə sahiblərinin hüquq və səlahiyyətlərindən bəhs etmək lazımdır. Azərbaycan Səfəvilər dövlətində, ondan əvvəl mövcud olmuş Baharlı və Bayandurlu dövlətlərinin idarəçilik sistemi bəzi dəyişikliklərlə davam etdirilmiş və daha da inkişaf etdirilmişdir. Ölkə ərazisinin mərkəzləşmiş qaydada birləşdirilməsi onun daxili və xarici ticarətinin, kənd təsərrüfatının, sənətkarlığın inkişafına müsbət təsir göstərmiş, şəhər əhalisinin sayı artmış və şəhərlər ticarət və sənətkarlıq mərkəzlərinə çevrilmişdir [6, s.4]. Səfəvi dövlətində mərkəzi hakimiyyətlə yerli idarəetmə aparatı arasında qarşılıqlı münasibətlər ərazi bölgüsü prinsipləri əsasında tənzimlənirdi. Həmçinin dövlətin tərkibində yaradılmış inzibati ərazi vahidləri mərkəz ətrafında birləşdirilmişdi [1, s.28]. Vilayətləri və onların tərkibinə daxil olan şəhərləri, qəsəbələri idarə edən məmurlar şah tərəfindən təyin olunur və onların fəaliyyətlərinə nəzarət olunurdu. Səfəvilər dövlətində şəhərlərin idarəsi kələntər, möhtəsib, darğa, kətxuda və.s adlanan məmurlar tərəfindən həyata keçirilirdi. Azərbaycan Səfəvilər dövlətində şəhər idarəçiliyində yüksək vəzifə sahiblərindən biri olan kələntər şəhərdə vergi və mükəlləfiyətləri toplamaqla məşğul idi. Kələntər əhalidən üşr (onda bir) vergisi alır və əhalidən toplamaq üçün yeni vergilər təyin edirdi. Cinayət işlərinə baxmaq da kələntərin səlahiyyətlərinə daxil idi. S. M. Onullahiyə görə şahın fərmanı ilə yerli feodal əyanlarından təyin olunan kələntər hətta bu vəzifəyə sahib olmaq üçün üçün şaha rüşvət belə verirdi. Rüşvət verərək vəzifəyə təyin olunan kələntər verdiyi rüşvəti qısa bir zamanda əhalidən alırdı [7, s.336].

Səfəvi dövlətində şəhər idarəçiliyində digər bir mühüm vəzifə möhtəsib idi. Minorski möhtəsiblə bağlı aşağıdakı məlumatları vermişdir: "Möhtəsib vəzifəsi köhnə islami vəzifələrdən sayılır. "Təzkirətü'l – müluk" adlı əsərdə onun sadəcə bazar müfəttişliyi etdiyi bildirilir" [7, s.338]. Oqtay Əfəndiyev "Azərbaycan Səfəvilər Dövləti" adlı əsərində "möhtəsib" vəzifəsi haqqında məlumat verərkən onun şəhər bazarlarına nəzarət edən, əmtəə qiyməti təyin edən mərkəzi hakimiyyət məmuru olduğunu bildirir. O, qeyd edir ki, möhtəsibin əsas vəzifəsi ticarətin düzgün aparılmasına nəzarət, fırıldaqçılığın qarşısını almaq idi [2, s.259]. Möhtəsibin ver-

diyi fərman əsasında qanuna riayət etməyən şəxslər həbs edilirdi. Törətdikləri əməllərin ağır və yaxud yüngül olmasına görə günahkarlar zindana salınır və ya ölüm cəzasına məhkum edilirdi. Möhtəsib hər ay bazarda satılan malların qiymətlərinin siyahısını hazırlayıb saray darvazalarına yapışdırır və hazırladığı bu siyahının sonunda öz möhürünü vururdu [6, s.52].

Səfəvi dövlətində mərkəzi hakimiyyət tərəfindən şəhərlərin idarəsini qanun əsasında təşkilini təmin etmək məqsədilə iri ticarət mərkəzlərinə nəzarət etmək üçün xüsusi məmurlar təyin edilirdi ki, darğa adlanan bu məmurlar şəhərin inzibati idarəsinə rəhbərlik etməklə yanaşı, tacirlər və sənətkarlar tərəfindən bazara gətirilən malların oğurlanması, qanuna zidd əməllərin qarşısının alınmasını təmin edirdilər [6, s.181]. Təbriz şəhəri xassə olduğu vaxtlarda şahın göstərişi əsasında təyin olunan darğa tərəfindən idarə olunurdu. Darğa həmçinin cinayət işlərinin həllinə dair məsələlərdə də iştirak edirdi. O, divandan məvacib almaqla yanaşı, şəhər əhalisindən, ümumiyyətlə şəhərdən gələn gəlirin bir hissəsini də əldə edirdi [7, s.335].

Böyük Moğol dövlətinin şəhər idarəçilik sisteminə gəldikdə isə bu dövlətdə də, Səfəvilər dövlətində olduğu kimi, şəhər idarəçilik sistemi bilavasitə mərkəzi hakimiyyətin nəzarəti altında idi. Həm Səfəvilər, həm də Böyük Moğol dövlətində şəhərlərin idarə olunmasında, ictimai asayişin qorunmasında və separatçılıq meyllərinin qarşısının alınmasında bir sıra dövlət məmurları yaxından iştirak edirdilər ki, Böyük Moğol dövlətində belə dövlət məmurları subəhdar, kotval, faujdar idi. Səfəvilər dövlətində əyalətin və yaxud vilayətin ümumi rəhbəri vali, bəylərbəyi adlandığı halda, Böyük Moğol dövlətində eyni səlahiyyətlərə malik şəxslər subəhdar adlanırdı. Subəhdar rəsmi olaraq əyalətin idarəsinin tənzimlənməsində iştirak edirdi. Onun əsas vəzifələri əyalətdə nizam-intizamı qorumaq, əhalidən gələn gəlirlərin rahat və uğurlu şəkildə toplanılmasına yardım etmək və hökmdar tərəfindən verilən fərman və əmrləri yerinə yetirmək idi ki, bu cəhətlərinə görə subəhdar Səfəvi dövlətinin şəhər idarəçiliyində xüsusi yerə sahib olan kələntərlə eyni funksiyaları daşıyırdı. Subəhdar bütün təbəqələrə yaxşı davranmalı, onları məmnun etməli və güclülərin zəiflərə zülm etməsinin qarşısını almalıdır. O, bütün zülmkarlara qarşı mübarizə aparmalıdır [5, s.81]. Subəhdar üsyançı zəmindarları və qanuna zidd hərəkətlərə yol verən şəxsləri cəzalandırmalı və əyalətdə baş verən hadisələr haqqında hər ay məhkəməyə məlumat verməli idi. Subəhdar heç vaxt cinayətkardan rüşvət alaraq onu azad edə bilməzdi, çünki digər varlı şəxslər də rüşvət verməklə cəzadan azad olacaqlarını bilərək daha çox qanun pozuntularına yol verəcəkdilər [5, s.82].Göründüyü kimi, Böyük Moğol dövlətində subəhdar adlanan məmurlar Səfəvi dövlətində vilayət və əyalətləri idarə edən məmurlar kimi eyni səlahiyyət və vəzifələrə malik olmuşdur.

Moğol şəhər administrasiyasında əsas yer tutan məmurlardan biri də kotval idi ki, o, şəhər idarəçiliyində mühüm mövqeyə malik idi və Səfəvi dövləti şəhər idarəçiliyində mühüm rola malik olan darğa adlanan məmurlarla eyni səlahiyyətlərə sahib olmuşdur. Mənbələrdə mövcud olan məlumatlara və Avropa səyyahlarının müşahidələrinə əsaslanaraq kotvalın funksiyalarının çox geniş və əhatəli olduğunu

söyləmək olar. Onun səlahiyyət və vəzifələri müasir bələdiyyə işçilərinin funksiyalarından daha geniş görünür. Kotval şəhərin hüdudları daxilində icra, polis və məhkəmə hakimiyyətlərini özündə birləşdirirdi. Kotval eynilə Səfəvi dövlətində olduğu kimi Moğol imperatorunun (Səfəvi dövlətində şahın) fərmanı əsasında təyin olunurdu [4, s.48]. Kotval şəhər polisinin rəisi olan şəhər zabiti idi. Hökmdar və ya əyalət valisi məhkəmə keçirəndə və ya əhaliyə müraciət etdikdə mütləq şəkildə kotval da burada iştirak etməli idi. O, həmçinin həbsxanada olan məhbusların sayını yoxlayır və onlara qarşı irəli sürülən ittihamların doğruluğunu müəyyən edirdi. Daha sonra isə günahsız hesab etdiyi məhbusların azadlığa buraxılmasını təmin edirdi [5, s.93]. Kotval gözətçiləri və süpürgəçiləri çağıraraq, onlardan hər məhəllənin (şəhərin) hadisələrini hər gün ona bildirmələri üçün təlimat verirdi. O, hər məhəllədən bir nökər tutaraq bütün xəbərləri əldə etmək üçün həmin şəxsi ora casus kimi göndərirdi ki, bu iki mənbədən gələn məlumatları müqayisə etsin və beləliklə, həqiqəti bilsin və lazımi tədbirləri görə bilsin [5, s.94]. Venesiyalı səyyah Nikola Manuci kotvalın vəzifələri haqqında maraqlı məlumatlar vermişdir: "Kotval, şəhərdə şah tərəfindən qadağan edilmiş başqa bir qanuna zidd hadisənin baş verməsinə nəzarət etməlidir. O, hökmdarına hesabat göndərə bilmək üçün şəhərdə baş verən hər şey haqqında məlumat əldə edirdi. Bu məqsədlə Böyük Moğol imperiyasında ev xarabalıqçıları kimi tanınan müəyyən şəxslər vardı. Bu şəxslər gündə iki dəfə hər evi təmizləmək üçün getməli və orada baş verən hər şeyi kotvala danışmalı idilər". Kotval həmçinin oğruları və cinayətkarları həbs etmək vəzifəsinə də malik idi ki, eyni səlahiyyət Səfəvi dövlətində darğaya da məxsus idi. Onun səlahiyyətləri daxilində Səfəvi dövlətində mövcud olan darğa adlı məmurlar kimi xeyli süvari və çoxlu sayda piyada əsgəri də vardır [5, s.96].

Moğol şəhər idarəçiliyində mühüm idari vəzifələrdən biri də faujdar adlanan məmurlar idi. Faujdar ölkədə kiçik üsyanları yatırmaq, quldur dəstələrini dağıtmaq və ya həbs etmək, bütün zorakı cinayətləri araşdırmaq və vergi orqanlarına və ya məhkəmə hakiminə qarşı müxalifəti qorxutmaq məqsədilə güc nümayişləri etmək üçün yerləşdirilən hərbi qüvvələrin komandiri idi [5, s.92]. Faujdar müasir dövrümüzün polis rəisi kimi bir çox səlahiyyətlərə malik dövlət məmurlarından idi ki, onun hüquqları Səfəvi dövlətində qanuna zidd fəaliyyət göstərən şəxsləri həbs etmək və cəzalandırmaq hüququna malik olan möhtəsibin vəzifələrinə uyğun gəlirdi.

Mənbələrdə, bir sıra tarixi əsərlərdə qeyd olunan məlumatlara əsaslanaraq həm Səfəvi, həm də Böyük Moğol imperiyasında şəhər idarəçiliyinin mərkəzi hakimiyyətdən asılı olmaqla müvafiq dövlət orqanlarına tabe olduğu qənaətinə gəlmək olar. Bu dövlətlərdə şəhərlərin sosial – iqtisadi həyatı birbaşa hökmdarın göstərişi və ya fərmanı əsasında təyin olunan yüksək vəzifəli məmurlar tərəfindən idarə olunurdu. Hər iki dövlətin şəhər idarəçilik sistemində şəhərin ümumi hakimi hərbi və daha geniş idarəetmə vəzifələrinə malik olsa da, şəhərlərin daxili idarəetməsi xüsusi dövlət məmurlarına tapşırılırdı. Bu dövlət məmurları Səfəvilər dövlətində kələntər, möhtəsib, darğa, kətxuda və.s olduğu halda, Böyük Moğol dövlətində isə subəhdar, kotval, faujdar idi. Vəzifə adları fərqli olsa da, bu dövlət məmurları eyni

hüquq və vəzifələrə malik olmuşlar. Onlar XVI-XVII əsrlərdə şəhərlərin idarəsinin təşkilində əhəmiyyətli dərəcədə rol oynamış, şəhərlərdə asayişin qorunmasını, şəhər sakinlərinin sülh şəraitində və dinc şəkildə yaşayışını təmin etmişlər. Əldə edilən məlumatlardan həm də aydın olur ki bu cür idarəçilik sistemi ilə şəhərlərin idarə olunması hər nə qədər təqdirəlayiq olsa da, istisna hallarda şəhər idarəçiliyində iştirak edən məmurların öz vəzifələrindən sui-istifadə hallarına da rast gəlmək mümkündür. Ancaq buna baxmayaraq, şəhərlərin bu cür idarəçilik sistemi ilə idarə olunması ümumilikdə həm Səfəvi, həm də Böyük Moğol dövlətlərinin idarəçilik sisteminə müsbət təsir göstərmiş, mərkəzi hakimiyyətə qarşı çıxışlar edən qüvvələrin fəaliyyətlərinin neytrallaşdırılmasına və hər iki dövlətin qanunlar əsasında idarə olunmasına əyani surətdə kömək olmuşdur.

Ədəbiyyat siyahısı:

1. Bayramlı Z. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu, Bakı: Avropa, 2015, 348 s.
2. Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti, Bakı: Şərq-Qərb, 2007, 344 s.
3. Nəcəfli T. Azərbaycan Səfəvi dövlətinin xarici siyasəti, Bakı: Turxan NPB, 2020, 520 s.
4. Pal Singh M. Administration of towns and markets under the Mughals (1556-1707), Aligarh: Aligarh Muslim University, 1973, 335 p.
5. Sarkar J. Mughal administration, Calcutta: S.C.Majumdar, SRI Courange Press, 1920, 152 p.
6. Süleymanov N. Azərbaycan Səfəvi Dövləti XVII əsrdə (J. Şarden, J. B. Tavernye, P. D. Valle və E. Kempferin gündəlikləri əsasında), Bakı: İqtisad Universiteti, 2021, 283 s.
7. Veliyeva Z. Safevi Devlet Teşkilatı (Tezkiretü'l – Mülük' e Göre), Ankara: Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Genel Türk Tarihi Anabilim Dalı, 2007, 431 s.

RUSİYANIN MƏRKƏZİ ASİYA VƏ ŞİMALİ AZƏRBAYCAN MÜSƏLMAN RUHANİLİYİNƏ DAİR SİYASƏTİNİN MÜQAYİSƏLİ TƏHLİLİ

Mirsamir Seyidov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasının II kurs magistrantı
mirsamirseyid@gmail.com
Elmi rəhbər: dosent Rəsul Hüseynli

Açar sözlər: *Rusiya imperiyası, müsəlman ruhaniliyi, Mərkəzi Asiya, Quzey Azərbaycan, dini siyasət, idarəetmə, məzhəb*
Keywords*: Russian Empire, Muslim clergy, Central Asia, Northern Azerbaijan, religious policy, governance, sect/denomination*

XVI–XIX əsrlər ərzində Russian Empire — Rusiya imperiyası — müsəlman əhalinin sıx yaşadığı geniş coğrafiyaları (Kazan, Həştərxan, Volqa-Ural regionu, Mərkəzi Asiya, sonradan isə Azərbaycan xanlıqları) öz tərkibinə qatmışdır. Bu işğallar nəticəsində imperiyaya daxil edilən müxtəlif müsəlman toplumlarına münasibət, həmin dövrün siyasi, hərbi və strateji məqsədlərinə uyğun olaraq fərqli for-

malarda gerçəkləşdirilmişdir. Rusiya hökuməti müsəlman dini elitasını — ruhanilərini — neytral sosial təbəqə yox, potensial ideoloji və siyasi təsir gücünə malik qüvvə olaraq görmüşdür. Bu səbəbdən, müsəlman dini elitasına münasibət imperiyanın təhlükəsizlik və idarəetmə strategiyası çərçivəsində formalaşdırılmışdır.

Rusiyanın müsəlman ruhaniliyinə ümumi yanaşması (XVI–XVIII əsrlər). İlk mərhələ – Açıq təzyiq və zorla xristianlaşdırma siyasəti: XVI əsrin ortalarından XVIII əsrin sonuna qədər Rusiya çarlığı imperiya sərhədlərinə daxil edilmiş müsəlman xalqların dini kimliyini dövlət üçün potensial təhlükə hesab edirdi. Bu dövrdə məscidlərin dağıdılması, xristianlıq qəbul edənlərə imtiyazların verilməsi, pravoslav missionerlərinin türk-müsəlman xalqları arasında fəal təbliğat aparması və müsəlman ruhanilərinin nüfuz dairəsinin məhdudlaşdırılması kimi təzyiq mexanizmləri tətbiq edilirdi. Xristianlaşdırma və dini basqı siyasətinin arxasında duran əsas səbəb — İslamın işğal edilmiş ərazilərdə ideoloji təsir bazası olması və ruhanilərin imperiyaya qarşı narazılıq yarada biləcəyi ehtimalı idi [4, s.37]. Lakin zorakı xristianlaşdırma və təzyiq siyasəti gözlənilən nəticələr vermədi və müsəlman toplumları dini kimliklərini qoruyub saxlaya bildilər. Bu, imperiyanın dini assimilyasiya planlarının fiaskoya uğramasının erkən nümunəsi idi.

XVIII əsrin sonundan Rusiyanın yumşaq diplomatik siyasətə keçidi. Catherine the Great (II Yekaterina) dövrü və ruhanilərlə inteqrasiya siyasəti: 1780-ci illərdən etibarən Rusiya çarlığı müsəlman ruhaniliyinə münasibətdə əvvəlki açıq təzyiqdən uzaqlaşaraq daha yumşaq, diplomatik yanaşmaya yönəldi. Bu dönüş imperiyanın müsəlman əhalisi ilə uzunmüddətli sülh və idarəçilik istəyindən irəli gəlirdi. 1788-ci ildə dövlət-idarə strukturu daxilində rəsmi dini idarəetmə orqanı — Orenburg Muslim Spiritual Assembly (OMSA) yaradıldı. Bu qurum vasitəsilə ruhanilər dövlət məmurları ilə eyni statusa gətirildi, onların fəaliyyəti tənzimləndi, moske və mədrəsələrin tikintisinə icazə verildi, eyni zamanda imperiyaya sədaqət göstərən "idarəçi islam elitası" formalaşdırıldı. Bu yanaşma imperiyaya daxil olmuş müsəlman əhalini yalnız nəzarətdə saxlamaq üçün yox, onları imperiyanın idarəetmə sisteminə inteqrasiya edərək uzunmüddətli sabitlik və loyalizm təmin etmək üçün seçilmiş vasitə idi [1, s.124].

Beləliklə, XVIII əsrin sonlarına doğru Rusiya müsəlman ruhaniliyini yalnız repressiv obyekt kimi yox, formal dini idarəetmə çərçivəsində "idarə olunan, nizama salınmış" institusional strukturun bir hissəsi kimi qəbul etmişdi.

XIX əsrin başlanğıcında Rusiyanın Quzey Azərbaycandakı siyasəti. Azərbaycan xanlıqlarının işğalı və yeni mürəkkəb situasiya: XIX əsrin əvvəllərində Rusiya imperiyası Azərbaycan xanlıqlarını işğal edərkən burada əvvəlki Volqa-Ural və ya Mərkəzi Asiya təcrübəsinə uyğun olmayan — həm mədəni, həm dini, həm də hüquqi — fərqli bir kontekstlə qarşılaşdı. Regionun əhalisinin böyük hissəsinin şiə məzhəbinə mənsub olması, hüquqi sistemin şəriət ilə adət hüququnun sintezindən ibarət olması və xanlıq idarəetmə sisteminin özünün regionun tarixi-mədəni köklərindən qaynaqlanması, Rusiyanın bu torpaqlarda vahid dini idarəetmə strukturu yaratmasını çətinləşdirirdi. Bundan əlavə, İran və Osmanlı impe-

riyaları ilə paralel müharibələr fonunda işğal prosesi gedirdiyindən, çar hökumətinin dini idarəetmə məsələlərinə dərhal müdaxilə etmək üçün kifayət qədər stabil baza yox idi [3, s.98].

Beləliklə, ilk mərhələdə imperiya yerli ruhaniləri və elitanı narazı salmamaq üçün status-kvo rejimini qorumağa üstünlük verdi. Ruhanilərin hüquqi-dini funksiyaları — şəriətə və adət hüququna əsaslanan məhkəmə, sosial və dini rol — tamamilə ləğv edilmədi. Bu yanaşma, Rusiyanın yeni idarə etdiyi Cənubi Qafqaz bölgəsində sosial sakitliyi və imperiyaya loyalist münasibəti qorumaq məqsədinə xidmət edirdi.

Müqavilə ilə ilhaq olunmuş xanlıqlarda siyasət: Qarabağ, Şəki, Şirvan kimi müqavilə yolu ilə Rusiyaya tabe olmuş xanlıqlarda imperiya nisbətən yumşaq xətt tutdu. Bu regionlərdə məscid və dini məktəblərin fəaliyyəti dayandırılmadı, ruhanilərin şəriətə və adət hüququna əsaslanan dini-hüquqi funksiyaları saxlanıldı. Rusiyanın bu yanaşması — mövcud institusiyaları ləğv etməkdən çox, onları nəzarətdə saxlamaq və öz maraqlarına uyğun tədricən "yeni idarəçiliyə uyğunlaşdırmaq" idi.

Hərbi müqavimət göstərən xanlıqlarda sərt siyasət: Buna baxmayaraq, Gəncə, Quba, Lənkəran kimi xanlıqlar müstəmləkə rejiminə müqavimət göstərdikdə, Rusiya çarlığı sərt tədbirlərə əl atdı: işğaldan sonra xanlıq strukturları ləğv edildi, regionlər tam olaraq hərbi-müstəmləkə idarəçiliyinə tabe edildi, və ruhanilərin fəaliyyət dairəsi kəskin şəkildə məhdudlaşdırıldı. Bu cür qərarlar çox zaman regiondəki yüksək rütbəli məmurlar — məsələn, general-məmurlar səviyyəsində — öz səlahiyyətləri əsasında verilirdi [1, s.187].

Beləliklə, bu regionlərdə ruhanilərin sosial-hüquqi statusu və dini institutları demək olar ki, sıradan çıxarılırdı.

Mərkəzi Asiya ilə Quzey Azərbaycanın müqayisəli təhlili. Oxşarlıqlar: Hər iki regionda — Mərkəzi Asiya və Quzey Azərbaycanda — Rusiya imperiyası müsəlman ruhaniliyini potensial siyasi təhlükə kimi qiymətləndirirdi; dini elitanın nüfuzunu nəzarətdə saxlamaq, müsəlman toplumunun imperiyaya qarşı üsyan potensialını azaltmaq və ruhaniləri dövlət aparatına inteqrasiya etmək məqsədilə siyasət yürütürdü. Bu strategiya imperiyanın böyük müsəlman əhaliyə malik ərazilərdə idarəetməni möhkəmləndirmək istəyi ilə bağlı idi.

Əsas fərqlər. Məzhəb fərqləri: Mərkəzi Asiyada müsəlman əhalinin böyük hissəsi sünni-hanafi idi və Rusiya burada artıq Volqa-Ural regionu və digər müsəlman oblastlarında uzunmüddətli idarəetmə təcrübəsinə sahib idi. Azərbaycanda isə əhalinin əsasən şiə məzhəbindən olması Rusiyanın dini siyasətində ehtiyatlılıq və regionun xüsusi şərtlərini nəzərə almağı zəruri edirdi. Bu məzhəb fərqi imperiyanın ruhanilərlə inteqrasiya strategiyasını regiondan-regiona uyğunlaşdırmasını tələb edirdi [5, s.235].

İşğal dövrünün şəraiti: Mərkəzi Asiyanın işğalı əsasən XIX əsrin ikinci yarısına təsadüf edir — bu zaman Rusiyada artıq ilkin idarəetmə modeləri təcrübədən keçirilmiş idi. Azərbaycanda isə işğal dövrü İran və Osmanlı imperiyaları ilə para-

lel müharibələr fonunda baş vermiş, buna görə də dini idarəetmə strukturları yaratmaq üçün stabil şərait mövcud deyildi. Bu isə Rusiyanı burada daha ehtiyatlı və mərhələli siyasət aparmağa vadar edirdi.

Administrativ yanaşma: Mərkəzi Asiyada imperiya, OMSA nümunəsində vahid inzibati-dini idarəetmə modeli tətbiq edirdi; ruhanilərin təyinatı, mədrəsələrin fəaliyyəti və məscidlər dövlət nəzarəti altında idi. Azərbaycanda isə belə vahid struktur yaradılmamışdı: bölgənin siyasi və məzhəbi – şiə/sünni – mürəkkəbliyi, adət-şəriət sisteminin qarışığı və çoxsaylı yerli dini liderlərin varlığı bu cür mərkəzləşmiş idarəetməyə imkan vermirdi. Bu fərq Rusiyanın regionlarda idarəetmə strategiyasının dəyişkənliyini izah edir [4, s.56].

Ruhanilərin imperiyaya təsir gücü: Mərkəzi Asiyada — xüsusən OMSA ilə rəsmi inteqrasiyadan sonra — ruhanilərin sosial təsir gücü imperiya qanunvericiliyi və inzibati nəzarət vasitəsilə zəiflədilmişdir. Azərbaycanda isə ruhanilər hüquqi münasibətlər, adət-hüquq sistemi və məişət adətlərinin bir hissəsi idi; buna görə də onların sosial mövqeyi daha güclü idi. Bu da Rusiyanın burada dini və sosial siyasətini daha ehtiyatlı planlaşdırmasına gətirib çıxarırdı [2, s.61].

Rusiyanın nəticə baxımından əldə etdikləri: Mərkəzi Asiyada Rusiya imperiyası ruhanilərin bir hissəsini imperiyanın idarəetmə strukturuna inteqrasiya edə bildi, dini qarşıdurmaları minimuma endirdi və vahid dini idarəetmə modeli formalaşdırdı. Quzey Azərbaycanda isə dini idarəetməni qısa müddətdə tam nəzarətə götürmək mümkün olmamış, ruhanilərlə münasibətlər əsasən lokal məmurlar vasitəsilə tənzimlənmiş və şiə ruhaniliyini tam nəzarət altına almaq mümkün olmasa da, sosial sabitlik və imperiyaya loyalist münasibət — çox vaxt — qorunub saxlanmışdı.

Rusiya imperiyasının müsəlman ruhaniliyinə münasibəti tarix boyu böyük dəyişikliklərə məruz qalmışdır: əvvəlcə açıq təzyiq və xristianlaşdırma siyasəti, sonra isə dövlət-idarəetmə strukturlarına ruhanilər vasitəsilə inteqrasiya siyasəti. Bu təkmilləşən yanaşma onun imperiyadakı çoxsaylı müsəlman əhalini nəzarətdə saxlamaq, idarə etmək və onlardan gələcəkdə "idarəçi sinif" formalaşdırmaq cəhdindən irəli gəlirdi.

Mərkəzi Asiya və Quzey Azərbaycan kimi coğrafi və məzhəbi baxımdan müxtəlif regionlərdə bu siyasət müxtəlif taktika və metodlarla həyata keçirilmiş, lokal şərtlər — məzhəb, adət-hüquq sistemi, siyasi sabitlik — imperiyanın dini siyasətinin formalaşmasında həlledici rol oynamışdır.

Beləliklə, Rusiya imperiyasının müsəlmanlara qarşı siyasəti yalnız mərkəzləşdirilmiş "inkişaf konsepti" deyildi, eyni zamanda "region spesifikası"na uyğun çevik taktikadan ibarət idi. Bu yanaşma imperiyanın uzunömürlü kolonial idarəçiliyinin dini-ictimai sabitliyini təmin edən əsas mexanizmlərdən biri olmuşdur.

Ədəbiyyat siyahısı:

1. Khodarkovsky, Michael. Russia's Steppe Frontier: The Making of a Colonial Empire, 1500–1800. Bloomington: Indiana University Press, 2002, 290 s.

2. Khalid, Adeeb. Islam after Communism: Religion and Politics in Central Asia. Berkeley: University of California Press, 2007, 259 s.
3. Fisher, Avery. The Russian Annexation of the Caucasus. Cambridge: Cambridge University Press, 1970, 646 s.
4. Bennigsen, Alexandre & Wimbush, S. Enders. Muslims of the Soviet Empire: A Guide. Bloomington: Indiana University Press, 1985, 294 s.
5. Swietochowski, Tadeusz. Russian Azerbaijan, 1905–1920: The Shaping of a National Identity in a Muslim Community. Cambridge: Cambridge University Press, 1985, 148 s.

SOVET İŞĞAL REJİMİ TƏRƏFİNDƏN DİNİ TƏRİQƏTLƏRİN SİSTEMLİ SIXIŞDIRILMASI (1920-1930-CU İLLƏR)

Rəşad Əsgərov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasının II kurs magistrantı
resad.esgerov27@gmail.com
Elmi rəhbər: professor Fəzail İbrahimli

Açar sözlər: *Təriqət, Bolşevik, Sovet, Komissar, İdeologiya*
Keywords: *Sect, Bolshevik, Soviet, Comissar, İdeology*

XX əsrin ilk onillikləri Azərbaycan tarixinin ən mürəkkəb və ziddiyətli dövrlərindən birini təşkil edir. 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkədə sovet işğal rejiminin qurulması yalnız siyasi sistemi dəyişmədi, həm də cəmiyyətin bütün ideoloji, mədəni və dini həyatını köklü şəkildə yenidən formalaşdırdı. Bolşeviklər tərəfindən həyata keçirilən bu proses mahiyyət etibarilə işğal rejiminin qurulması ilə müşayiət olunmuş, mərkəzi sovet rəhbərliyinin siyasi iradəsini yerli əhalinin sosial və mənəvi həyatına tətbiq etməyə yönəlmişdi. Sovet ideologiyasının əsas sütunlarından birini dinin sosial həyatda sıxışdırılması və dini qurumların təsir dairəsinin zəiflədilməsi təşkil edirdi. Bu siyasət yeni sosialist dünyagörüşünün formalaşdırılması və cəmiyyətin ideoloji baxımdan tam nəzarət altına alınması üçün zəruri hesab edilirdi. Bu məqsədlə 1920-30-cu illərdə dini icmalar ləğv edilir, din xadimləri müxtəlif təzyiqlərə məruz qalır və dini ayinlərə qadağalar qoyulurdu. Bu siyasətdə başlıca məqsəd sovet ideologiyasına xidmət edən bir cəmiyyət formalaşdırmaq idi.

Sovet işğal rejiminin qurulması və dini təriqətlərə qarşı mübarizə: 1920-ci ilin əvvəllərinə doğru Azərbaycan Xalq Cümhuriyyəti getdikcə güclənən xarici təziqlə üz-üzə qalmağa başladı. Yenicə beynəlxalq aləmdə de-fakto tanınmağa başlayan Azərbaycanın bolşeviklər tərəfindən işğal edilməsi təhlükəsi yarandı. Bu tanınma Moskvanın Qafqazda nüfuz planına zidd olduğundan, bolşevik rəhbərliyinin Azərbaycana qarşı siyasi qısqanclığını və aqressiv mövqeyini daha da kəskinləşdirdi. Nəticədə, 1920-ci ildə Azərbaycanın işğalı artıq Moskvanın regional siyasətində qaçılmaz hədəf kimi müəyyən olunmuşdu.

Azərbaycanı işğal etmək məqsədilə göndərilmiş Xl Orduya qarşı müqavimət göstərilməsinə baxmayaraq bolşeviklər zorla Bakıda hakimiyyəti ələ almağa nail oldular. Beləliklə, 1920-ci il aprelin 28-də bolşevik qüvvələri Bakıda hakimiyyəti ələ aldıqdan sonra Azərbaycan Sovet Sosialist Respublikasının qurulduğunu rəsmən bəyan etdilər. Bununla da mövcud dövlət idarəçiliyi ləğv edildi və bütün siyasi hakimiyyət bolşeviklərin yaratdığı Müvəqqəti İnqilab Komitəsinin ixtiyarına verildi. Həmin gün yeni sovet hakimiyyəti strukturlarının formalaşdırılması istiqamətində ilk addımlar da atıldı ki, bu da Azərbaycan SSR Xalq Komissarları Sovetinin yaradılması ilə nəticələndi. Aprel ayının 28-də Müvəqqəti İnqilab Komitəsi yaranmış yeni hökumətin tərkibini təsdiq etdi. Nəticədə, Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibinə Nəriman Nərimanov (sədr), Həmid Sultanov, Əliheydər Qarayev, Qəzənfər Musabəyov, Mirzə Davud Hüseynov, Dadaş Bünyadzadə, Çingiz İldırım, Ç.Vəzirov daxil idilər [1, s.9].

Bununla da Azərbaycanda hakimiyyəti ələ alan bolşeviklər sovet ideologiyasına malik olan yeni cəmiyyətin formalaşdırılması üçün sovet milli siyasətini həyata keçirməyə başlamışdır. Burada da başlıca məqsəd milli dəyərlərə, milli adət-ənənələrə və eləcə də dinə qarşı etinasız yanaşmaq və onları qadağan etmək təşkil edirdi.

Din əleyhinə qarşı mübarizə ilk olaraq dövrün aparıcı dinlərinə qarşı həyata keçirilirdi. Bolşeviklərin din əleyhinə siyasəti hələ 1918-ci il 23 yanvar tarixli RSFSR XMK-nın "Kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında" dekreti ilə özünü göstərmişdir. Bu dekretlə bütün dinlərin tam bərabər elan edilməsi özlərini pravoslav kilsəsi tərəfindən sıxışdırılmış hesab edən təriqətçilər tərəfindən olduqca xoş qarşılandı [5, s.63].

1920-ci ilin may ayında Azərbaycan SSR Xalq Maarif Komissarlığının məktəblərdə dinin tədrisinin dayandırılması və eyni zamanda məktəb daxilində hər hansı bir dini ayinin həyata keçirilməsinə icazə verilməməsi nəzərdə tutulmuşdu. Din Nazirliyinin ləğvi haqqında dekret hər bir vətəndaşın istədiyi dini seçmək və yaxud heç bir dini inancı qəbul etməmək hüququ və bununla yanaşı hər hansı dinin leyhinə və ya əleyhinə təbliğat aparmaq hüququ verirdi [1, s.237].

Din əleyhinə mübarizə əsasən dövrün daha çox insanları tərəfindən qəbul edilən yəhudilik, xristianlıq və islam dininə qarşı aparılırdı. İlk vaxtlar təriqətlərə qarşı mübarizə bir o qədər ciddi formada getmirdi. Təriqətlərə çox az toxunulur və hətta onlara öz qurultaylarının keçirmələri üçün imkan tanınırdı.

Sovet Rusiyasının təriqətlərlə bağlı siyasətinin formalaşmasında RK(b)P MK-nın Xll qurultayı mühüm rola malik olmuşdur. 1923-cü ildə 17-25 aprel tarixlərində keçirilən bu qurultayda köhnə dini cəmiyyətlərə qarşı mübarizə nəticəsində onların sıradan çıxarıldığı, lakin eyni zamanda bəzi təriqətçilərin də canlanması məsələsi diqqət mərkəzində oldu. Lakin qurultayda müzakirə edilən bu məsələlərə baxmayaraq qurultaydan sonrada təriqətlərə qarşı o qədər də ciddi mübarizə aparılmırdı.

AK(b)P MK qəza komitələrinə Azərbaycanda mövcud təriqətlərin fəaliyyətinin öyrənilməsinə xüsusilə də hərbi hissələrdə bu fəaliyyətlərin öyrənilməsinə göstəriş verilmişdi.

1924-cü il yanvar ayının 8-də AK(b)P Siyasi Bürosunun keçirilən iclasında "Din əleyhinə təbliğatın aparılmasına dair" məsələ müzakirə edilir. Siyasi Büronun keçirilən bu iclası nəticəsində din əleyhinə mübarizə aparılması məqsədilə "Din əleyhinə komissiya" yaradılır [3, s.29]. 1924-cü ildə dinə qarşı dahada kəskin mübarizə aparmaq məqsədilə Bakıda "Allahsızlar cəmiyyəti" yaradıldı [2, s.112].

Azərbaycanda təriqətçiliyə qarşı kəskin mübarizə RK(b)P MK-nin 1924-cü il 23-31 may tarixlərində keçirilən XIII qurultayının qərarlarından sonra başaldı. Bu dövrdə bir sıra təriqətlər bəhailik, müridilik, baptist və bir sıra digər təriqətlərin fəaliyyəti nəzarət altında idi.

1924-cü ilin iyun ayından bəzi dini ayinlərin keçirilməsinə, ibadət ocaqlarına və din xadimlərinə qarşı tədbirlər görülməyə başladı [4, s.39].

1924-cü ildən təriqətçiliyə qarşı başlayan bu mübarizənin gedişi nəticəsində bəhailik antisovet təriqəti elan edilərək ona qarşı mübarizəyə başlanılır. Bu mübarizə nəticəsində bəhailik təriqətini nəzarət altında saxlamaq üçün FK-ya göstəriş verildi. 1929-cu ildə keçirilmiş birinci Ümumittifaq partiya konfransındada təriqətlərə, bəhailiyə qarşı əks münasibət özünü göstərdi. Bu konfransda bəhai təriqətinə qarşı mübarizə ön plana çıxmış və bəhai təriqəti antisosialist, antisovet təriqəti kimi təqdim edilmişdir. Konfransada iştirak edən Azərbaycan nümayəndələri bəhai təriqətinin ideoloji baxımdan sovet ideologiyasına zidd olduğunu və onu tənqid edən əsərlərin çap edilməsinə ehtiyac olduğunu vurğulamışdılar. Konfransın ardınca dini inanclara və xüsusilə bəhailiyə qarşı mübarizə genişlənməyə başladı kı, bu da özünün bu dövrdə çap edilən ədəbiyyat nümunələrində göstərməyə başladı. Çap edilən ədəbiyyat nümunələrində bəhai təriqətinin İran monarxı Rza Pəhləvinin casusluq şəbəkəsi ilə əlaqəli olduğu, təriqət üzvlərinin İrana və imperialist dairələrə xidmət etdiyi, kapitalist maraqlara qulluq edən sosial bir qrupda başqa bir şey olmadıqları iddia olundu. Eyni zamanda sovet mətbuatı bəhai təriqətinin müxtəlif siyasi dairələrlə o cümlədən Müsavat, İttihat və bəzi müəllim təbəqələri ilə əlaqələrini qabardaraq, bu qrupların təhsil müəssələrində gənclər arasında antisovet təbliğatı apardıqlarını iddia edirdi [5, s.70].

Bəhailərə qarşı aparılan mübarizə nəticəsində bəhai təriqətinə üzv olan məktəb və digər mədəni-maarif müəssələrinin rəhbərləri öz vəzifələrindən kənarlaşdırlıdı. Bütün bunlardan əlavə onların açdıqları məktəblər, kitabxanalar və.s bağlandı və eyni zamanda bəhailiyə aid olan ədəbiyyatlar müsadirə edilməyə başlandı [5, s.70].

Bolşeviklərin təriqərtlər qarşı mübarizəsində metodlardan biri də dini rəhbərlərin ölkədən sürgün edilməsi idi. Bununla yanaşı təqiqətçilərin əmlaklarının əllərindən alınması da təriqətçilərə qarşı mübarizədə önəmli rola malik idi.

Təriqətlərə qarşı aparılan bu mübarizədə 1920-ci ildə "Gənclərin baptist hərəkatı" təşkilatı yaradıldı və bununla yanaşı bu hərəkatın yerlərdə bir neçə dərnəyi təşkil edil-

di. Bu dərnəklərin də başlıca məqsədi gəncləri öz dini icmalarına və valideyinlərinə qarşı qoyurdu. Lakin 18-20 nəfərlik dərnəklər elə də uğur qazana bilmədi.

Nəticədə bolşeviklər Azərbaycanda hakimiyyəti zorla ələ aldıqdan sonra burada sovet milli siyasətini həyata keçirmişdilər. Sovet milli siyasətinin başlıca məqsədi Azərbaycanda dinin və milli adət-ənənlərin sıradan çıxarılması olmuşdur. Bu mübarizədə sovet ideologiyasına xidmət edən yeni bir toplumun yaradılması istiqamətində insanların geyiminə, musiqisinə və nəhayət dini inanclarına qarşı sərt mübarizə aparılmışdır. Dinə qarşı aparılan mübarizədə dini ayinlərə və dini bayramlara qarşı əks münasibət özünü göstərmiş və onların keçirilməsi zamanla qadağan edilmişdir. Dinə qarşı bu münasibət təriqətlərə qarşı mübarizə formasında da özünü göstərmişdir. İlk vaxtlar təriqətlərə qarşı dövrün aparıcı dinləri ilə müqayisədə bir qədər yumşaq yanaşılmış, lakin zamanla bu mübarizə sərt formaya keçmişdir. Lakin həm milli adət-ənənlərə qarşı, həm də insanların inanc sisteminə qarşı aparılan bu mübarizə insanları öz milli-mənəvi dəyərlərindən uzaqlaşdıra bilmədi.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan tarixi. Yeddi cilddə. C. VI. Bakı: Elm, 2008, 567 s.
2. İbrahimli F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930). Bakı: Mütərcim, 2001, 169 s.
3. Quluzadə M. Azərbaycan SSR-də dövlət və din münasibətləri (1920-1991-ci illər). Bakı, 2016, 315 s.
4. Məmmədov C. Azərbaycanda dövlər-din münasibətləri: tarix və müasirlik. Bakı: Tuna, 2018, 124 s.
5. Nuruzadə Ş. XX əsrin 20-30-cu illərində Azərbaycanda Etnokonfessional şərait. Bakı: AFPoliqrAF, 2010, 216 s.

BAKI TÜRKOLOJİ QURULTAYININ KEÇİRİLMƏSİNDƏ SOVET SİYASƏTİNİN TƏSİRİ VƏ NƏTİCƏLƏRİ

Turqay Məmmədli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasının II kurs magistrantı
turqaymmmdli333@gmail.com
Elmi rəhbər: tarix elmləri doktoru Lətifə Əliyeva

Açar sözlər: *Türkoloji qurultay, ziyalı, əlifba, islahat, sovet, repressiya*
Keywords: *Turkology congress, intellectual, alphabet, reform, soviet, repression*

1926-cı il I Bakı Türkoloji Qurultayının keçirilməsi Türk dünyasının tarixində siyasi əhəmiyyəti olan bir hadisədir. Türkoloji qurultayla bağlı həm mədəni-maarif sahəsinə aid olan əlifba islahatı, həm də milli kimlik məsələsi bir yerdə nəzərdən keçirilməlidir. Türkoloji Qurultayın keçirilməsi yalnız elmi əhəmiyyətə görə deyil, həmçinin, əsas etibarilə siyasi müstəvi üçün əhəmiyyət təşkil edirdi. Sovet İttifaqının I Bakı Türkoloji Qurultayının təşkilinə münasibəti, yürütdüyü siyasət ilk mərhələdə intellektual türkçülük hərəkatına qarşı bir strategiya olmuşdur. So-

vetlərin daxili və xarici siyasətində önəmli yer tutan bu qurultay milli şüurun formalaşmasında mühüm rol oynayan şəxsləri bir yerə toplamaq və sovet ideologiyasına qarşı ola biləcək hər hansı milli oyanışın bir təhdid kimi qarşısını almaq olacaqdı. 1937-ci ildən başlayaraq tüğyan edən repressiya dalğası məhz qurultay iştirakçıları üçün faciəvi sonluğu labüd etmişdi.

Mahiyyət. Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 27 iyun 1918-ci ildə verilən qərarla türk dili dövlət dili elan edildi. Cümhuriyyət işğal edilənədək əlifba məsələsi də müzakirə olunurdu. Aprel işğalından sonra qurulan ikinci respublikamızda digər sahələrdə olduğu kimi mədəni-maarif sahəsində də sovet siyasəti həyata keçirilməyə başlandı. AXC tərəfindən yaradılan milli mədəni nümunələr sərfnəzər edildi və yerinə bolşeviklər tərəfindən "formaca milli, məzmunca sosialist" prinsiplər tətbiq edilməyə başlandı. Bolşeviklər ".... formaca milli, məzmunca sosialist" proletariat mədəniyyətini ruslaşdırdı, yalnız hərfləri deyil, hər şeyi ruslaşdırdı..." [3, s.94]. "Mədəni inqilab"ın aparılması və "proletar mədəniyyət"in formalaşdırılması mərkəzin göstərişi ilə aparılır və Lenin planının həyata keçirilməsinə çalışılırdı. Quruculuq işləri bir-başa partiya nəzarətində idi. Buna əsasən, 1920-ci ilin sonunda RKP MK tərəfindən Azərbaycan partiya rəhbərliyinə də "proletkult haqqında" rəsmi sənəd göndərdildi [5, s.305]. Mədəni-maarif sahəsində sovet siyasətini həyata keçirmək üçün işğal günü olan 28 apreldə D.Bünyadzadənin başçılığı ilə Xalq Maarif Komissarlığı yaradıldı. Mədəni-maarif sahəsində siyasətin əsas qərarları I Ümumazərbaycan Qurultayında verilmişdi. Bu istiqamətlər, qəbul edilmiş 19 bəndlik qərarda öz əksini tapmışdır və bununla türk dilinin və mədəniyyətinin öyrənilməsi, eləcə də tədrisat işlərinin aparılması ilə məsələlər üzrə qərarlar qəbul edilmişdir. Hələ 1920-ci il, may ayının 10-da xalq maarif komissarı D.Bünyadzadənin imzası ilə təhsilin ana dilinə keçirilməsi haqqında dekret verildi. Əhali arasında savadsızlığın ləğvi istiqamətində işlər görülməsi üçün 1921-ci ilin iyunuda Azərbaycan MİK tərəfindən dövlət komissiyası yaradıldı. Lakin, savadsızlığa qarşı mübarizədə ərəb əlifbasının imkanları, şriftləri və hərfləri manea kimi görüldü. Latın qrafikasına keçidin labüdlüyü müəyyən olundu və 6 mart 1922-ci ildə AKP MK plenumunda Azərbaycan əlifbasını latın qrafikasına keçirmək üçün S.Ağamalıoğlunun sədrliyi ilə xüsusi komissiya yaradıldı. May ayında isə bu işlə bağlı Yeni Türk Əlifbası Daimi Komissiyası yaradıldı. Az.MİK tərəfindən 23 iyul 1923-cü ildə bütün respublika ərazisində sənədlərin Azərbaycan (türk) dilində çap edilməsilə bağlı əmr verdi. 31 iyulda verilən dekretlə isə bütün idarələr türk dilinə keçdi. Həmçinin, 20 oktyabr 1923-cü il tarixində verilən dekretlə kargüzarlıq həm əski, həm də yeni əlifba ilə aparılmalı idi. Bunlar əsas etibarilə dil-əlifba istiqamətində görülən işləri əhatə edirdi. Türkoloji Qurultayın keçirilməsilə bağlı məsələlər isə 1923-cü ildən geniş vüsət alır [1]. Bu istiqamətdə olan işlərə isə hətta AKP MK-nın 6-cı gizli şöbəsi tərəfindən nəzarət olunur, yazışmalar adi, məxfi, tam məxfi qriflər altında aparılır və iştirak edənlər müəyyənləşdirilərkən latın qrafikasına keçidi dəstəkləyənlərə üstünlük verilirdi. Qurultayla bağlı hələ bundan əvvəl, 1913-cü ildə Aleksandr N.Samoyloviç tərəfindən türkologiya qurul-

tayının keçirilməsi təklif edilmişdi. Lakin, maddi dəstək təmin edilməmişdi. Bu ideya 1922-ci ildə rus şərqşünaslarının Peterburqda keçirdiyi toplantıda müzakirə edilmiş və 1923-cü ildən dəstək tapmağa başlamışdı. İlk dəfə belə bir təklif isə 1924-cü ildə Azərbaycan SSR hökuməti tərəfindən ittifaq rəhbərliyinə təqdim olunmuşdu. Gündəlikdə duran əsas məsələ - ərəb qrafikasından latın əlifbasına keçid isə həmin yığıncaq barədə rəsmi qərara altı ay qalmış 1-ci Yerli Diyarşünaslıq Konfransında, eləcə də SSRİ Elmlər Akademiyası və Ümumittifaq Şərqşünaslar Birliyində irəli sürülmüşdü. 1925-ci il sentyabrın 15-də Moskvada SSRİ şərqşünaslarının iclası keçirilir və burada da ölkənin bütün türkoloqlarının iştirakı ilə qurultay çağırılması qərara alınır. Keçiriləcək qurultayın əsas müzakirə mövzularından biri bütün türkdilli xalqların ərəb qrafikasından latın qrafikasına keçidi idi. Həmin iclasa Azərbaycan MİK sədri S.Ağamalıoğlu rəhbərlik edirdi. Qərar qəbul edildi ki, I Ümumittifaq Türkoloji Qurultayının çağırılması Moskvada SSRİ Şərqşünaslıq Elmi Assosiasiyasına və Bakıda Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinə tapşırılsın. Bunlar sovetlərin daxili prosesləri ilə əlaqədar idi. Eyni zamanda xarici məsələlər də mühüm rol oynamışdır. Bu xüsusda Bakı Türkoloji Qurultayı həm türkologiya tarixi, həm Türkiyə – Rusiya münasibətləri, həm də Türküstan xalqlarının gələcəyi üçün dönüş nöqtəsi oldu: ilk baxışda türkdilli xalqların latın qrafikasına keçmək qərarı ilə müşayiət olunsa da, əslində, strateji əhəmiyyət daşıyır, Qərbə qarşı Rusiyanın Osmanlı Türkiyəsi ilə üzdə görünən hərbi və siyasi, mədəni, eləcə də türkologiya sahəsində əməkdaşlığı idi. 1922-ci ilin martında Türkiyə mətbuatında Anadoluda "Şərq Məktəbi"nin açılacağı və bu məktəbdə Asiya ölkələrinə göndəriləcək məmurların gedəcəkləri yerlər, təhsil alacaqları ilə bağlı xəbərlər yayıldı və bu türkiyyat aləmində canlanma yaratdı. Həmin ərəfədə Azərbaycanın Ankaradakı elçisi İbrahim Əbilov Şərqin dost xalqlarının gəncləri üçün nur mənbəyi olacaq böyük və ortaq bir universitet yaradılması ideyasını önə sürmüşdü. M.Fuad Köprülünün rəhbərliyi altında 1924-cü ildə türkoloji araşdırmalar aparılması məqsədilə İstanbul Universiteti daxilində Türkiyyat İnstitutu yaradıldı. 1926-cı ilə 2 il qalmışdı və institutun yaradılmasının əsas səbəblərindən biri olan İstanbulda Beynəlxalq türkologiya qurultayı keçirmək düşüncələrdə idi. Əslində, bir il əvvəl Türkiyədə keçirilməsi nəzərdə tutulan qurultayın bir il sonra Bakıda gerçəkləşməsi düşündürücü məsələdir. Çünki "Fuad Köprülü Türkiyyat İnstitutunun müdiri vəzifəsində çalışırdı və Atatürkün arzusu ilə 1925-ci ildə İstanbulda toplanması düşünülən ilk millətlərarası türkoloji konqresin hazırlanmasına məmur edilmişdi". Bütün bunlara baxmayaraq qurultay Bakıda keçirildi. 26 fevral – 6 mart 1926-cı il tarixlərində Bakıda keçirilən Birinci Bakı Türkoloji Qurultay və orda müzakirə olunan məsələlər (türk xalqlarının tarixi, dili, ədəbiyyatı, terminologiya, etnoqrafiya və s.) həmin dövr üçün ciddi tarixi hadisə idi. 1926-cı il fevralın 26-da Bakıdakı İsmailiyyə binasında Birinci Türkoloji Qurultay işinə başladı. Qurultayda 131 nəfər nümayəndə (20 nəfər beynəlxalq elm ictimaiyyətinin nümayəndəsi) iştirak etmiş, 17 iclas keçirilmiş, türklərin, bütövlükdə Türk Dünyasının dili və tarixinə, etnogenezisi və etnoqrafiyasına, ədəbiyyat və mədəniyyətinə dair

38 məruzə dinlənilmişdi. Qurultayda qəbul edilən qərarlar ərəb qrafikasından latın qrafikasına keçid üçün mühüm bir hadisə oldu və 1 yanvar 1929-cu ildən bu keçid reallaşdı. Lakin, Türkiyə Cümhuriyyətinin siyasəti ilə ziddiyyət təşkil edən sovetlər bundan 10 il sonra 1939-cu ildən kiril qrafikasına əsaslanan əlifbaya keçmək barəsində qərar verdi və bunu "zəhmətkeşlərin ümumi istəyi" ilə pərdələdi. "Latın əlifbasını qəbul etməklə o zaman ərəb əlifbasını işlədən Türkiyədən ayrılmağı nəzərdə tutan yuxarı sovet siyasi dairələrinin əsas fikri nə olursa olsun əlifbanı dəyişmə, türklərin bir-birindən uzaqlaşma ənənəsinin əsasının qoyulması idi" [4, s.7]. Ən əsası isə qurultay iştirakçılarının aqibəti üçün həyati təhlükə yarandı, faciələr baş verdi. Professor Kamil Vəli Nərimanoğlu filologiya xüsusən də türkologiya elmi üçün çox dəyərli olan insanların günahsız yerə qətl edildiyi bu Qurultayı "insanlıq dramı" adlandırır [1, s.3]. İştirakçılar 30-cu illərin sonunda millətçilik, pantürkizm və əks-inqilabi fəaliyyətlə günahlandırılacaq, 100-dən çoxu isə repressiyaya məruz qalacaqdı. Bəkir Çobanzadə, Əli Nazim, Vəli Xuluflu, Salman Mümtaz, Əbdüllətif Səfərov, Əliabbas Müznib, Xalid Səid Xocayev, Səməd Mənsur, Evgeni Polivanov, Aleksandr Samoyloviç, Abdurrauf Fitrat, Törəqul Atabayev, Osman Akçokraklı, Ğayaz İbrahimov və başqaları repressiya qurbanları olmuşdur. "İnsanlarda ümid, alimlərdə coşğun həvəs, siyasət sükancılarında strateji plan və proqramlar bu qurultayı canlı Şekspir faciəsinə bənzədirdi. Bu canlı teatr səhnəsinin faciəli qəhrəmanları bir-bir səhnəyə çıxırdı. Türkoloq alimlər XX yüzilliyin ilk böyük elmi etiraflarını edir, gələcək araşdırma borclarını və vəzifələrini açıqlayır, fikirlərin toqquşması elm üfüqlərinə yeni işıq, ziya salırdı. Hər iki qütbdən olan siyasətçilərin bəxti gətirmişdi. Məxfi məlumatlarla dolu qovluqlar aşıb-daşırdı" [2, s.119].

I Bakı Türkoloji Qurultayının keçirilməsi bir çox tərəfdən türk və türkologiya üçün imkanlar açsa, və yeni milli yol xəritəsi hazırlamağa şərait yaratsa da fitnəkar və anti-milli siyasət yeridən sovet imperiyası üçün gələcəkdə milli təhdidin ortadan qaldırılması üçün fürsət oldu. Lakin, ortaq əlifba, dil və digər mədəni sahələrdə müştərəklik olması üçün qəbul edilən qərarlar Türk kimliyinin tarixində miras qoydu və imperiyanın dağılması fonunda Türk dövlətlərinin müstəqillik səhifələrində yenidən canlandı. I Bakı Türkoloji Qurultayının 100 illiyinin keçirilməsilə bağlı qərar da bu tarixi hadisəyə verilən əhəmiyyətli siyasi qiymətdir və gələcək nəsillər Türk Dövlətlərinin şahlanış tarixi ilə tanış olub qürur duyacaqlardır.

Ədəbiyyat siyahısı:

1. Vəli K., Ağakişiyev Ə. 1926-cı i I Bakı Türkoloji Qurultayı: (stenoqram materialları, biblioqrafiya və foto-sənədlər). Bakı, "Çinar-Çap", 2006, 571 s.

2. Bünyadov Z. Qırmızı terror. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 331s.

3. Mühacirət irsimizdən: M.Ə.Rəsulzadənin otuz məktubu. https://1905.az/wp-content/uploads/2018/12/30-mektub.pdf

4. Fərəh A. Birinci Türkoloji Qurultay haqqında düşüncələr. Bakı, Ədəbiyyat qəzeti. 2006, 32s.

5. Məmmədov N. Azərbaycanda dövlət quruculuğu (XX əsrin 20-30-cu illəri). Bakı, BDU, 2022, 463s.

LƏNKƏRAN QƏZASINDA YERLƏŞƏN QƏDİRLİ KƏNDİNİN 1873-cü il KAMERAL TƏSVİRİ

Nihad Nadirli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasının II kurs magistrantı
nihadnadirli2@gmail.com
Elmi rəhbər: dosent Boran Əziz

Açar sözlər: *Qədirli, kameral təsvir, Şahsevən, tatar, ruhani*
Keywords: *Gadirli, cameral description, Shahsevan, tatar, cleric*

Azərbaycan tarixinin bir sıra problemlərinin öyrənilməsində kameral təsvirlər mənbə rolunu oynayır. Mənbə rolunu oynayan kameral təsvirlərdən biri də 1873-cü ildə həyata keçirilmişdir. Məhz bu kameral təsvir nəticəsində Lənkəran qəzası və onun kəndlərində əhalinin sayını, tərkibini, məşğuliyyətini öyrənmək mümkündür. Masallı rayonunun Qarğalıq adlı inzibati ərazi vahidinin tərkibində yerləşən Qədirli kəndi məhz Lənkəran ovalığındadır. Kəndin tam adı, 1873-cü il arxiv materialları içərisində Qoçaq Qədirli olaraq göstərilir. Sonralar Qədirli kəndi olaraq adlanmağa başlamışdır. Hazırda eyniadlı kənd Tovuz rayonunda da mövcuddur. Ümumiyyətlə toponimin tarixinə nəzər salsaq, Azərbaycan xalqının formalaşmasında və inkişafında xüsusi rolu olan oğuz soyköklü əfşarlarla bağlı olduğunu görürük. Şahsevənlərin tərkibində də qədirlilərin adı çəkilir. Qərbi Azərbaycanda, İrəvan şəhərindən 49 km məsafədə yerləşən Vedi rayonunda da Qədirli kəndi mövcud olmuşdur. Lakin kənd əhalisi 1948-ci ildə erməni millətçiləri tərəfindən zorla yurdlarından çıxarılmış və kəndin adı dəyişdirilmişdir. [3. s.304] Hazırda Türkiyə, Qərbi Azərbaycan, İran, Tovuz, Qobustan, Masallı, Şamaxı kimi ərazilərdə rastlanan Qədirli toponimi, XVll əsrdə Şah Abbas tərəfindən verilən göstərişlə Şahsevən tayfalarının Ərdəbildən Muğan bölgəsinə köçürülməsinin nəticəsi kimi meydana çıxır [4, s.132]. Qədirli kəndi həmçinin zəngin tarixi irsə malikdir. Antik dövrə aid küp qəbir nekropolu , şumer yazıları, erkən orta əsr qəbirləri və digər nümunələr vardır. Qədirli kəndinin XX əsr 60-cı illərinə kimi vəfat edən şəxsləri Qızılağac kəndində dəfn edilmişdir. XlX əsrin sonu XX əsrin əvvəllərində bu kənddə yaşamış iki şəxsin fəaliyyəti böyükdür. Məşhədi Nemət 1914-cü ildə Ərkivandan Kalinovkaya su xətti çəkdirib. Kərbəlayi Kərim isə ruslara qarşı mübarizədə xalqı səfərbər etmişdir [1, s.24-28].

Qədirli kəndinin kameral təsviri: 1- ci ailə: 1)Hacıeynal Şahverdi oğlu-50 yaş, 2) onun 4 oğlu: Fətulla -26 yaş, Rzaəli -17yaş, Məmməd-11 yaş, Neymətulla-4 yaş. Ailədə 5 kişi 3 qadın yaşamışdır. 2-ci ailə: 1)Abdulla Şahverdi oğlu -40 yaş 2) onun 4 oğlu var : Ağarəhim -18 yaş, Şahverdi-16 yaş , Əliəkbər -14 yaş , Müslüm -6 yaş. Ailədə 5 kişi 3 qadın yaşamışdır. 3-cü ailə: 1)Cəbrail Həsənəli oğlu-15 yaş, 2) qardaşları: Abbas -12 yaş, Məcnun-4 yaş, Ağabala -2 yaş. Ailədə 4 kişi 1 qadın yaşamışdır. 4-cü ailə: 1) Məmməd Məmmədcəfər oğlu- 28 yaş, 2)

oğlu Allahverdi -5 yaş, 3) qardaşı Orucqulu-29 yaş. Ailədə 3 kişi 2 qadın yaşamışdır. 5-ci ailə: 1) Ağamurad Abbasəli oğlu -35yaş, 2) oğlu Səfərəli -5 yaş. Ailədə 2 kişi 1 qadın yaşamışdır. 6-cı ailə: 1)Qartalxan Vəli oğlu -35 yaş, 2) oğulları Səlim və Müslüm -11yaş, 3) əmisi Məlikin oğlu Sadiq-29 yaş. Ailədə 3 kişi 3 qadın yaşamışdır. 7-ci ailə: : 1) Nurullah Kərbəlayi Bayraməli oğlu - 25 yaş, 2) oğlu Tağı - 1 yaş, 3) qardaşının iki oğlu var : Feyzulla - 13 yaş, Ruhulla -4 yaş. Ailədə 4 kişi , 4 qadın yaşamışdır. 8-ci ailə: 1) Şahverdi Şahverdi oğlu - 45 yaş, 2) oğulları : Teymur - 28 yaş, Əbülfət - 16 yaş, Vəli - 14 yaş, Qurbanrza - 5 yaş, Bəhmanrza - 2 yaş. Ailədə 6 kişi , 2 qadın yaşamışdır. 9-cu ailə: 1) Xəlil Adıgözəl oğlu - 30 yaş , 2) oğlu Şərbətəli - 3 yaş, 3) qardaşı Xəliliman - 29 yaş, 4) onun oğlu Əhmədəli - 1 yaş. Ailədə 4 kişi , 4 qadın yaşamışdır. 10-cu ailə: 1) Sarıxan Mirverdi oğlu- 30 yaş. Ailədə 1 kişi, 3 qadın yaşamışdır. 11-ci ailə: 1) Muradəli Babaəli oğlu - 45 yaş, 2) oğulları Musa -22 yaş, Hüseynxan - 4 yaş. Ailədə 3 kişi, 2 qadın yaşamışdır. 12-ci ailə: 1) Kərbəlayi Cavad Ağaverdi oğlu - 30 yaş, 2) onun 3 oğlu var : Balaağarza - 6 yaş, Qulamrza - 3 yaş, Əlimirzə - 1 yaş . Ailədə 4 kişi, 2 qadın yaşamışdır. 13-cü ailə: 1) Xudaverdi Ağaverdi oğlu - 40 yaş, 2) 4 oğlu var: Mikayıl - 22 yaş , İsrafil - 20 yaş, Məmmədrza - 6 yaş, Ağamirzə - 3 yaş. Ailədə 5 kişi, 4 qadın yaşamışdır. 14-cü ailə: 1) Mehdi Xanəli oğlu - 35 yaş, 2) oğlu Hüseynəli - 8 yaş, 3) qardaşı Mehdinin 2 oğlu var: Lütfulla - 20 yaş, Ağaməli - 14 yaş. Ailədə 4 kişi,4 qadın yaşamışdır. 15-ci ailə: 1) Mirzə Şahverdi oğlu - 25 yaş, 2) qardaşları: Səməd -18 yaş, Abduləli- 15 yaş. Ailədə 3 kişi, 1 qadın yaşamışdır. 16-cı ailə: 1) Turabxan Babaxan oğlu- 17 yaş, 2) qardaşı Cəfər - 5 yaş. Ailədə 2 kişi, 2 qadın yaşamışdır. 17-ci ailə: 1) Şükür Hüseyn oğlu - 25 yaş, 2) qardaşı Balaoğlan - 15 yaş və Xudarəhim - 3 yaş. Ailədə 3 kişi, 1 qadın yaşamışdır. 18-ci ailə: 1) Əmirəli Əliqeyrət oğlu - 35 yaş, 2) qardaşları: Nəcəfəli - 30 yaş, Ağaməli - 27 yaş, Gəncəli - 15 yaş. Ailədə 4 kişi, 3 qadın yaşamışdır. 19-cu ailə: 1) Əmin Nəsirxan oğlu - 35 yaş, 2) oğlu Mütəllim - 12 yaş, 3) qardaşı Hüseyn - 30 yaş, 4) Hüseynin 2 oğlu var: Ağadədə - 11 yaş, Xanbaba - 3 yaş. Ailədə 5 kişi, 5 qadın yaşamışdır. 20-ci ailə: 1)Ağamir Məlik oğlu - 50 yaş. Ailədə 1 kişi, 2 qadın yaşamışdır . 21-ci ailə: 1) Rəhim bəy Məmməd oğlu - 35 yaş, 2) oğlu Mustafa - 11 yaş. Ailədə 2 kişi, 2 qadın yaşamışdır. 22-ci ailə: 1) Balaoğlan Səid oğlu - 30 yaş, 2) oğulları: Məhəmməd - 10 yaş və Cəfər - 7 yaş, 3) qardaşı oğlu Bəşir - 24 yaş. Ailədə 4 kişi, 2 qadın yaşamışdır . 23-cü ailə: 1) Ağababa Xanəli oğlu - 18 yaş, 2) qardaşı Rzababa- 5 yaş. Ailədə 2 kişi, 2 qadın yaşamışdır . 24-cü ailə: 1) Qulamxan İbrahim oğlu - 35 yaş, 2) oğlu İslam- 4 yaş, 3) qardaşı Tumarxanın oğlu İsmayıl - 25 yaş və Əmrah - 20 yaş. Ailədə 4 kişi, 4 qadın yaşamışdır. 25-ci ailə: 1) Qasım Rəhim oğlu - 30 yaş, 2) oğlu İsmayıl - 6 yaş, 3) qardaşının oğlu Zeynaləli- 18 yaş. Ailədə 3 kişi, 5 qadın yaşamışdır. 26-cı ailə: 1) Məmmədbədəlxan İbrahim oğlu - 37 yaş, 2) oğulları: Şahverdi - 20 yaş, Məmməd - 3 yaş, Musa- 1 yaş. Ailədə 4 kişi, 4 qadın yaşamışdır. 27-ci ailə: 1) Şahəli Əhməd oğlu - 35 yaş, 2) onun 4 oğlu var: Sərdar - 20 yaş, Abdulhüseyn - 17 yaş, Manaf - 15 yaş, Məmmədhüseyn - 3 yaş. Ailədə 5 kişi, 2 qadın yaşamışdır. 28-ci ailə: 1) Bəyəli Əhməd oğlu- 30 yaş, 2) oğlu Əhməd - 2 yaş, 3) qardaşı Əbil - 28 yaş 4) Əbilin oğlu Məmmədrza - 1 yaş. Ailədə 4 kişi, 4

qadın yaşamışdır. 29-cu ailə: 1) Əlibaba Məhəmməd oğlu - 40 yaş, 2) oğlu Ağaəli - 15 yaş. Ailədə 2 kişi, 6 qadın yaşamışdır. 30-cu ailə: 1) Ruhulla Ağaxan oğlu - 28 yaş, 2) qardaşı Ağarəhim - 18 yaş. Ailədə 2 kişi, 2 qadın yaşamışdır. 31-ci ailə: 1) Seyfulla Kərbəlayi Hacıbaba oğlu - 24 yaş, 2) onun 3 qardaşı : Həbibulla - 26 yaş, Hümmət - 18 yaş, İmamulla - 14 yaş. Ailədə 4 kişi, 4 qadın yaşamışdır. 32-ci ailə: 1) Rzaqulu Rüstəm oğlu- 50 yaş, 2) oğulları: Şərif - 15 yaş, Mikayıl - 13 yaş, 3) qardaşı Rzaqulunun oğlu Baxış - 35 yaş, 4) Baxışın oğulları - Əliəkbər - 16 yaş, Mustafa - 13 yaş. Ailədə 6 kişi, 3 qadın yaşamışdır. 33-cü ailə: 1) Əliqasım Allahverdi oğlu - 40 yaş, 2) oğulları :Həsən - 14 yaş, Hüseyn - 10 yaş, Mirzə - 3 yaş. Ailədə 4 kişi, 3 qadın yaşamışdır. 34-cü ailə: 1) Əliməmməd Süleyman oğlu- 14 yaş, 2) qardaşı Lütfi - 20 yaş. Ailədə 2 kişi, 1 qadın yaşamışdır. 35-ci ailə: 1) Azad Allahqulu oğlu -16 yaş, 2) qardaşı Abduləli - 13 yaş, 3) əmisi Ağaəlinin oğlu Mirəli - 27 yaş. Ailədə 3 kişi, 4 qadın yaşamışdır. 36-cı ailə: 1) Baxışəli Mehrəli oğlu - 35 yaş, 2) oğlu, Ağamoğlan - 5 yaş. Ailədə 2 kişi, 2 qadın yaşamışdır. 37-ci ailə: 1) Nadir Novruz oğlu - 26 yaş, 2) qardaşı Əliəkbər - 24 yaş. Ailədə 2 kişi, 3 qadın yaşamışdır. 38-ci ailə: 1) Nurəli Səbzəli oğlu - 40 yaş, 2) oğulları: Seyfulla - 22 yaş, Paşa - 20 yaş, Aslan - 14 yaş. Ailədə 4 kişi, 3 qadın yaşamışdır. 39-cu ailə: 1) Dinəli Səbzəli oğlu - 35 yaş, 2) oğulları : Şahəli - 12 yaş, Ağababa - 11 yaş. Ailədə 3 kişi, 3 qadın yaşamışdır. 40-cı ailə: 1) Səməd Məmmədimanqulu oğlu- 18 yaş. Ailədə 1 kişi, 1 qadın yaşamışdır. 41-ci ailə: 1) Rəcəbəli Mehrəli oğlu - 34 yaş, 2) oğlu Mirzəxan - 2 yaş. Ailədə 2 kişi, 2 qadın yaşamışdır. 42- ci ailə: 1) Əsgər Səbzəli oğlu - 30 yaş, 2) oğulları Şahbazəli - 7 yaş, Həmid - 3 yaş. Ailədə 3 kişi, 1 qadın yaşamışdır. 43-cü ailə: 1) Baba Məstəli oğlu - 29 yaş, 2) oğlu Cəfərqulu - 2 yaş, 3) qardaşları: Neymətulla - 26 yaş, Eynulla - 18 yaş 4) qardaşı oğlu Nəcəfqulu - 11 yaş. Ailədə 5 kişi, 1 qadın yaşamışdır. 44-cü ailə: 1) Adıgözəl Salmanəhməd oğlu - 35 yaş, 2)oğulları Xanbaba - 5 yaş, Ağababa - 2 yaş. Ailədə 3 kişi, 4 qadın yaşamışdır. 45-ci ailə: 1) Ağaməmməd Tağı oğlu - 38 yaş, 2) oğulları: Cəfər 5 yaş, Şirməmməd - 2 yaş, 3) qardaşı Poladxan - 15 yaş. Ailədə 4 kişi, 2 qadın yaşamışdır. 46-cı ailə: 1) Əlihüseyn Əliqulu oğlu - 40 yaş, 2) oğulları: Ağaqulu - 25 yaş, Heydərxan - 22 yaş, Salmanhüseyn - 20 yaş, Yaqub - 15 yaş, Xanqulu - 12 yaş. Ailədə 6 kişi, 7 qadın yaşamışdır. 47-ci ailə: 1) Azad Məmmədibrahim oğlu - 40 yaş, 2) oğulları- Kərim - 13 yaş, Xəlil - 8 yaş, 3) qardaşı Oruc - 30 yaş. Ailədə 4 kişi, 3 qadın yaşamışdır. 48-ci ailə: 1) Abdulla Kərbəlayi Məmmədqulu oğlu - 22 yaş, 2) 2 qardaşı var: Fəttah - 5 yaş, Səttar - 2 yaş. Ailədə 3 kişi, 2 qadın yaşamışdır. 49-cu ailə: 1) Bağır Həzrətqulu oğlu - 45 yaş, 2) oğlu Mikayıl - 3 yaş, 3) qardaşları: Əmin - 21 yaş və Abbas - 18 yaş. Ailədə 4 kişi, 6 qadın yaşamışdır. 50-ci ailə: 1) Kərbəlayi Azadqulu Pirsəttar oğlu - 45 yaş, 2) 5 oğlu var: Cəfərqulu - 20 yaş, Ağaqulu - 18 yaş, Nəcəfqulu - 10 yaş, Əli - 8 yaş, Əhməd - 6 yaş. Ailədə 6 kişi, 3 qadın yaşamışdır. 51-ci ailə: 1)Məmməd Məmmədəli oğlu-26 yaş, 2) qardaşları: İsrail - 22 yaş, Samit - 20 yaş, Qasım - 5 yaş. Ailədə 4 kişi, 8 qadın yaşamışdır.52-ci ailə: 1) Ağakərim Molla Məmmədqulu oğlu - 35 yaş, 2) oğulları: Əbülfət-5 yaş, Əbdülfət- 2 yaş. Ailədə 3 kişi, 4 qadın yaşamışdır. 53-cü ailə: 1) Əbil Məşədi İman oğlu - 30 yaş, 2) qardaşı: Lütfulla -26 yaş. Ailədə 2 kişi, 2 qa-

dın yaşamışdır. 54-cü ailə: 1) Məmmədbağır Nağdəli oğlu - 61 yaş. Ailədə 1 kişi, 2 qadın yaşamışdır. 55-ci ailə: 1) Murad Heydər oğlu - 25 yaş, 2) qardaşı Əli - 20 yaş. Ailədə 2 kişi, 2 qadın yaşamışdır. 56-cı ailə: 1) Kərbəlayi Əliəkbər Məşədi Vəliqulu oğlu- 40 yaş, 2) oğulları Zeynal - 15 yaş, Cəfərqulu- 2 yaş. Ailədə 3 kişi, 2 qadın yaşamışdır. 57-ci ailə: 1) Həsən Məmmədhüseyn oğlu - 22 yaş, 2) qardaşları: İskəndər - 16 yaş, Rəhim - 12 yaş, Abduləli- 9 yaş. Ailədə 4 kişi, 3 qadın yaşamışdır. 58-ci ailə: 1) Sadıq Ağalar oğlu - 45 yaş, 2) oğulları: Əziz - 14 yaş, Rza - 8 yaş, Fariz - 4 yaş, Abdulla - 1 yaş, 3) qardaşı Vəli - 30 yaş. Ailədə 6 kişi, 3 qadın yaşamışdır. 59-cu ailə: 1) Cahangir Mirzə oğlu - 15 yaş. Ailədə 1 kişi, 4 qadın yaşamışdır. 60-cı ailə: 1) Əliqulu Niftəli oğlu - 35 yaş, 2) onun 3 oğlu var: Təhməz - 9 yaş, Teymur - 7 yaş, Bayraməli - 2 yaş. Ailədə 4 kişi, 2 qadın yaşamışdır. 61-ci ailə: 1) Bəndəli Nağdəli oğlu - 33 yaş, 2) oğlu Musa 12 yaş. Ailədə 2 kişi, 3 qadın yaşamışdır. 62-ci ailə: 1)Xudaqulu Əhmədxan oğlu - 45 yaş, 2) qardaşları: Xudaverdi - 30 yaş, Məmməd - 28 yaş. Ailədə 3 kişi, 4 qadın yaşamışdır. 63-cü ailə: 1) Bəndəli Əhmədəli oğlu - 50 yaş, 2) oğulları: Mahmud -22 yaş, Abbas - 7 yaş, Bədir - 3 yaş. Ailədə 4 kişi, 1 qadın yaşamışdır. 64-cü ailə: 1) Hüseyn Məşədi Molloqulu oğlu - 40 yaş, 2) oğulları, Qürbət - 13 yaş, Cavad - 2 yaş. Ailədə 3 kişi, 2 qadın yaşamışdır. 65-ci ailə: 1) İman Nağdulla oğlu - 35 yaş, 2) oğulları: Paşa - 4 yaş, Balaxan - 2 yaş, 3) qardaşları: Qurban - 25 yaş və Əziz - 20 yaş. Ailədə 5 kişi, 3 qadın yaşamışdır [2, s.65-85].

Arxiv materialları əsasında 1873-il Lənkəran qəzasında yerləşən Qədirli kəndinin kameral vəziyyəti təsvir olunmuş və əhalinin say tərkibi, etnik tərkibi, həmçinin məşğuliyyəti tədqiq edilmişdir. Digər siyahıyaalmalarda olduğu kimi qadınlar siyahıya alınmamışdır. Lakin 1873-cü il arxiv sənədində hər evdə yaşayan qadınların sayı göstərilmişdir [5, s.133]. Ümumilikdə 78 evdə 271 kişi, 226 qadın yaşamışdır. Burada, tezisin həcmi nəzərə alınaraq 65 ailə təsvir olunmuşdur. Milliyyət olaraq kəndlilər "tatar" qeyd olunub. Dini məzhəb olaraq isə şiədirlər. Ana dilləri də "tatar" dili kimi qeyd olunub. Təhsilləri və rus dili bilikləri yoxdur. Mülkiyyət və ödədikləri vergi haqqında olan hissə isə digər əksəriyyət kəndlərdə olduğu kimi boş saxlanmışdır. Kənd əhalisi xəzinə torpaqlarından istifadə edən dövət kəndliləri idi. 1873-cü ildə Qədirli kəndində qeydə alınan ən yüksək yaş həddi 61-dir. Kənddə ruhani şəxs kimi molla Məmmədqulunu, Kərbəlayi və Məşhədi təxəllüslü şəxslər kimi isə Kərbəlayi Bayraməli, Kərbəlayi Cavad, Məşhədi Vəliqulu , Məşhədi İman kimi şəxsləri göstərmək olar.

Ədəbiyyat siyahısı:

1. Əliyev A. Masallının tarix və mədəniyyət abidələri – ziyarətgahlar. Bakı, 2021, 139 s.

2.Azərbaycan Respublikası Milli Arxivi. f. .43, s. 2, sv. 7201, s. 65–85. "Qədirli kəndinin kameral təsviri", 1873.

3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. II cild. Bakı, Şərq-Qərb, 2007, 304s.

4.Məcidova L. Lənkəran qəzasının sosial-iqtisadi vəziyyəti. Bakı:2016, 132s.

5.Varsaman A, Xansuvar R. Lənkəran qəzasının (Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad, Biləsuvar, Sabirabad, Saatlı, İmişli) kameral təsviri. Bakı: 2024, 133 s.

SOVET RUSİYASI – TÜRKİYƏ ƏMƏKDAŞLIĞI VƏ AZƏRBAYCAN (1919-1921-ci illər)

Ruslanə Tağıyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasının II kurs magistrantı
tagiyevarusslana@gmail.com
Elmi rəhbər: professor Fəzail İbrahimli

Açar sözlər: *bolşeviklər, Türkiyə-Sovet Rusiyası münasibətləri, Nəriman Nərimanov, Naxçıvan məsələsi, Azərbaycan səfirliyi*
Keywords: *Bolsheviks, Turkish-Soviet Russian relations, Nariman Narimanov, Nakhchivan issue, Azerbaijani embassy*

1919-1920-ci illər dünya siyasətində kifayət qədər qarışıq və ziddiyətli bir dönəm idi. I Dünya müharibəsi bir tərəfdən ağır nəticələri, digər tərəfdə yeni güc mərkəzlərinin yaranması, əsrlik tarixə malik imperiyaların süqutu, xüsusilə yeni ideologiya – bolşevizmin meydana gəlməsi ilə sonlanmışdı.

Müstəqil Azərbaycan Respublikasının türk dövlətləri ilə birliyi, dostluğu, qarşılıqlı dəstəyi hər iki tərəfin hazırkı münasibətlərində mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda gələcək inkişafında da əvəzsiz rol oynayır. Azərbaycan 1918-ci ildə ilk dəfə müstəqil olduğu zaman da, 70 illik əsarətdən sonra müstəqil olduğu zamanda da ilk dəfə onu beynəlxalq zəmində tanıyan, 44 günlük müharibədə də ön sırada dəstək olan Türkiyə Cümhuriyyəti olmuşdur.

XX əsrin əvvəllərinə siyasi və hərbi kontekstdə baxdıqda bu dönəmdə əsas güc mənbəyi olan dövlətlərinin əsas diqqət mərkəzi Zaqafqaziya respublikaları olduğunu aydın şəkildə görürük. 1920-ci il hadisələri Azərbaycan tarixində "dönüş nöqtəsi" olan dönəmlərdəndir. Bakının nefti, burdan keçən hərbi-siyasi və ticarət əhəmiyyətli yollar regionun böyük dövlətlərinin maraq obyektinə çevrilmişdir. Belə bir vaxtda Zaqafqaziya Türk dünyası üçün strateji cəhətdən əhəmiyyətli idi. Sovet Rusiyası və yeni qurulan Türkiyə Cümhuriyyəti arasındakı münasibətlərin dinamikası, gizli diplomatik və hərbi danışıqlar, tərəfdaşlıqlar Cənubi Qafqaz regionunun gələcək siyasi xəritəsinin formalaşmasında mühüm rol oynayırdı.

Türkiyə-Sovet Rusiyası-Azərbaycan üçbucağı. Hələ birinci dünya müharibəsi bitmədən əvvəl Berlində "Azərbaycan" məsələsi ilə bağlı aparılan danışıqlarda razılıq əldə edilə bilməməsi Rusiya – Osmanlı arasında diplomatik əlaqələrin kəsilməsinə səbəb olmuşdur. 1919-cu ildə Mustafa Kamalın rəhbərliyi ilə başlayan azadlıq hərəkatının imperialist güclərə qarşı yönəlməsi Türkiyə və Sovet Rusiyasını yenidən yaxınlaşmağa sövq etmişdir. Belə ki, yeni qurulan Sovet Rusiyasının niyyəti özünü tanıtmaq olsa da, qərb dövlətləri onu "tanımamaq" siyasəti yeritdiyi üçün belə bir müttəfiq yalnız Türkiyə ola bilərdi. Anadolu hökümətinin isə apardığı mübarizədə yardıma ehtiyacı var idi və Azərbaycan həmin dövrdə ona kifayət qədər hərbi yardım göstərəcək gücə malik deyildi.

1919-cu ilin mayında Havzada M.Kamal ilə Sovet heyətinin görüşü keçirilir. "Təşkilati-Mahsusan"ın son başçısı olan Hüsaməddin Ertürk xatirələrində yazır ki,

nümayəndə heyətinə S.M Budyonnı rəhbərlik etmişdir. Lakin biz Budyonnının xatirələrində onun bu dövrdə Türkiyəyə getməsinə dair məlumat olmadığını görürük, eyni zamanda S. Yerasimosun xatirələrə əsasən yazdığı qeydlər bunu təsdiqləyir. Vasif Qafarovun fikrincə, H. Ertürk ola bilsin ki, xatirələrində səhv qeyd etmiş. Bu şəxs əslində Budu Mdvani olmuşdur [4, s.337].

Havza danışıqlarının olduğu günlərdə Mustafa Kamalın köməkçisi Husrevin Kazım Qarabəkir paşaya yazdığı məktubunda, düşmənlərə qarşı mübarizənin uğurulu olması üçün ruslardan silah-sursat alınması, bu məqsədlə iki ölkə arasında birbaşa sərhədin vacibliyi və belə bir sərhədin isə ancaq bolşeviklərin Qafqazı işğal etməsi ilə təmin edilə biləcəyini qeyd edirdi [4, s.337]. Göründüyü kimi, ilk təmas yarandığı günlərdə ortaya atılan əsas məsələ Qafqazın bolşevikləşdirilməsi olmuşdu.

Ərzurum konqresi günlərində Mustafa Kamal bolşeviklərlə əlaqələrin qurulması məsələsini həll etmək üçün Kazım Qarabəkir paşa tərəfindən həll edilməsinə qərar verdi. Bu qərar üzrə paşa Ö.Lütfi bəylə F.Sabit bəyi Azərbaycana göndərdi. Məqsəd ölkədəki vəziyyəti öyrənmək və burdakı bolşeviklərlə əlaqə yaratmaq idi.

Azərbaycan və yeni respublikalar bu dönəmdə qarşıya çıxan çətinliklərin həlli üçün özlərinə siyasi olaraq güclü, iqtisadi olaraq inkişafetmiş və varlı himayəçi axtarışında idilər. Birinci dünya müharibəsindəki ağır məğlubiyyətinə və beynəlxalq vəziyyət köklü şəkildə dəyişənə kimi Azərbaycan üçün himayəçilik edən Türkiyə idi. Müharibədən sonra isə bu cür himayəçi dövlət Böyük Britaniya, ABŞ, İtaliya və Fransa ola bilərdi. Lakin Fransanın himayədarlığı real deyildi, belə ki, Klemanso hökümətinin "vahid və bölünməz Rusiya"-ya sədaqəti daha üstün idi. Bu dönəmdə Qafqaza sıra ilə İngiltərə, İtaliya, ABŞ qoşunları gəldilər lakin yeni Qafqaz respublikalarının taleyində dönüş 1919-cu ilin noyabrında oldu. Böyük Britaniya baş naziri Lyold Corc parlamentin icmalar palatasındakı çıxışında qeyd edirdi ki, o, Azərbaycan istiqlaliyyətinin tanınmasına və yardım göstərilməsinə tərəfdardır [1, s.53].

Türkiyənin nümayəndə heyətini Bakıda dönəmin xarici işlər naziri Nəsib bəy Yusifbəyli qarşılayır. N.Yusifbəyli Anadolu nümayəndələrinin yardım istəyinə müsbət cavab verir, lakin F.Sabit bəy bu yardımın gerçəkləşməsinə mane olur. "Hümmət" vasitəsilə Bakı bolşevikləri ilə əlaqə qurur və Müsavat hökümətini devirib yerinə sollardan ibarət bir qrupu gətirmək üçün fəaliyyətə başlayır.

1919-cu ilin avqustunda Nuru Paşa, Kazım Qarabəkirin təlimatı ilə Azərbaycana gəlir və Bakıda yarımrəsmi olan "Türkiyə xalqının təmsilçiliyi"ni quraraq Anadolu hərəkatına yardım və dəstək təmin etməyə çalışır. Nəticədə Azərbaycan hökuməti dekabr ayında maliyyə yardımı göndərir. Ardından K. Qarabəkir paşa Xəlil paşanı Azərbaycana göndərir və belə tövsiyə verir:"Sovet Rusiyasının bütün paraxodları mazutla işləyir, Rusiya Bakısız yaşaya bilməz... Ona görə gec-tez Bakını işğal etməyi real kimi görünür... Biz iki tərəf arasında razılaşma əldə etməklə həm Azərbaycanın işğalının qarşısını ala bilərik, həm də Azərbaycan hökuməti ilə Rusiya arasında anlaşma əldə etmək və şərq yolunu sərbəst bulundurmaq bizim ən böyük ehtiyacımızdır" [4, s.343]. Xəlil Paşa Azərbaycana gəldikdə burdakı vəziyyətlə bağlı Kazım paşaya məktubunda yazır ki, bir qisim Türkiyə ilə əməkdaşlığa

yanaşsa da, digər qisim İran Azərbaycanı ilə birləşib böyük bir Azərbaycan yaratmaq tərəfdarıdır. Xəlil Paşa qeyd edir ki, K. Qarabəkir onun bu məktubuna cavab olaraq: "...Əsas vəzifəniz Sovet idarəsini türk hüduduna qədər çatdırmaq olmalıdır... əks təqdirdə bu başqalarının xeyrinə olacaq" yazmışdır. Xəlil Paşa burda hələ ittihadçı mövqeyini qoruyaraq yazırdı ki, istiqlalı üçün bu qədər əmək sərf etdiyimiz Azərbaycanı rus idarəsinə vermək Azərbaycana xəyanət deməkdir. O, belə bir şey baş verərsə, özü və şəxsində digər paşaların maddən və mənən intiharından başqa bir şey olmadığını yazırdı. Qeyd etmək lazımdır ki, 1918-ci ildə Azərbaycanda qurulan hökuməti dəstəkləyən və ona yardım göstərən Anadolu hərəkatı indi öz mənafeyi naminə bu dövləti bolşevikləşdirməyə sövq edirdi. M.Kamal və K.Qarabəkir paşa özləri üçün rəva görmədiyi bolşevizmi Azərbaycan üçün rəva görməsi, dost və qardaş olan Azərbaycanın bolşevikləşdirilməsini istəmələri özlüyündə bir ziddiyyət təşkil edir. Paşaları bu cür ziddiyyətli addımlar atmağa sövq edən isə Türkiyənin ölüm-dirim mübarizəsi verməsi və varlığını qorumaq üçün istənilən addımı atmağa məcbur və məhkum olması idi [4, s.364].

1919-cu ildə Sovet Rusiyası Azərbaycana hərbi müdaxilə etmək imkanına malik deyildi. Ona görə Azərbaycana təzyiqlərini müxtəlif yollarla - Bakıda olan bolşeviklərin və bolşevik ideyalarına aludə olan Nəriman Nərimanovun vasitəsilə edirdi. Nərimanov Sovet Rusiyasının Azərbaycana olan siyasi-ideoloji təzyiqlərini açıq-aydın dəstəkləyir və 16 iyul Nəsib bəy Yusifbəyliyə məktubunda yazırdı: "Əgər siz əvvəlki kimi kar və korsunuzsa, əgər indi, xüsusən Versal sülhündən sonra dünya miqyasında nələr olduğunu gör-mür və eşitmirsinizsə, onda Sovet Rusiyası sizin üçün bir o qədər qorxulu deyildir... Bütün siyasətiniz üçün Zaqafqaziya müsəlman fəhlə və kəndlilərinin məhkəməsi qarşısında cavab verməli olacağınız müdhiş saat yaxınlaşır... Onda sizdən soruşacaqlar: bəs bilmirdinizmi ki, Azərbaycan və Bakı şəhəri Sovet Rusiyası barəsində xüsusi mövqe tuturdu? Sovet Rusiyasının Ermənistan və Gürcüstanla əlaqəsi xüsusi rol oynamır, amma Bakı Sovet Rusiyasının həyatıdır... Mərd-mərdanə deyin: biz Rusiya inqilabının xarakterini anlamamışıq, biz dağıdıcı imperialist müharibəsinin bütün nəticələrini nəzərə ala bilməmişik, biz meydandan çəkilirik, Azərbaycanda qoy Sovet hakimiyyəti olsun! Mən əminəm ki, bununla siz rus proletariatı qarşısında təqsirinizi yüngülləşdirmiş olacaqsınız" [4, s.307].

1919-cu ilin sonlarından Qafqaz və ümimilikdə Rusiya ilə bağlı beynəlxalq müzakirələr fəallaşmışdı. Buna Sovetlərə qarşı mübarizə aparan keçmiş çar generallarının məğlubiyyətləri və Denikina qarşı olan üsyanların yaratdığı gərginlik səbəb olmuşdur. Bolşevizmin İrana və İraqa irəliləməsinin qarşısını almaq, Bakı neftinin sovetin əlinə keçməsini və Anadolu hərəkatı ilə birləşməsini istəməyən müttəfiqlər qarşıda tək çıxış yolu: Azərbaycan, Gürcüstan və Ermənistandan ibarət "Qafqaz səddi" yaratmaq. Lakin müttəfiqlərin bölgədə real hərbi qüvvəsi yox idi. Tək ümidləri Denikin idi, o da il sonunda bu ümid də boşa çıxdı, çünki Denikin Rusiya tərəfindən məğlubiyyətə uğramışdı və geri çəkilirdi.

1920-ci ilin yanvarında Varşavada "Kiçik Antana" blokunun təşkili məqsədilə konfrans təşkil edildi. Bu dövrdə Osmanlının da bu bloka qoşulacağı ilə bağlı sözsöhbətlər dolaşırdı. Ümumilikdə həmin dövrdə Türkiyənin milli azadlıq mübarizə-

sində Antantaya və bolşevizmə münasibət baxımından iki əsas istiqamət formalaşmışdır: 1. Qafqaza irəliləyən bolşevizmə qarşı Antantanın yardımına sığınmaq; 2. Anadolu torpaqlarını işğal altında saxlayan Antanta dövlətlərinə qarşı bolşeviklərlə əməkdaşlıq etmək [4, s.362]. M.Kamal Paşa isə Anadolu torpaqlarında hələ ki, gözü olmayan Rusiya ilə əməkdaşlığı üstün tuturdu.

1920-ci il yanvarın 11-i Paris Sülh konfransında Azərbaycanın müstəqilliyi de-fakto tanındı. İstanbulda bu böyük sevinclə qarşılandı və qəzetlərdə qardaş ölkəyə - Azərbaycana çoxlu təbrik nəşr olundu. 22 yanvarda Osmanlı Məclisi-Məbusanı Azərbaycan Cümhuriyyətinin müstəqilliyini de-fakto tanıdı. Müharibədən sonrakı ingilis əsarətində belə bir addım atmaq mümkün olmadığı üçün yalnız müttəfiqlər tanıdıqdan sonra Osmanlı Məclisi-Məbusanı da Azərbaycaın müstəqilliyini rəsmən tanımışdır. M.Kamal paşa Versal Ali şurasının bu addımını Anadolu hərəkatını boğmaq planı kimi qiymətləndirmişdir [2, s.513].

1920-ci illərin əvvəllərində Bakıda F.Sabit bəyin ətrafında toplaşan ehtiyat zabit Suleyman Nuri, Yüzbaşı Yaqub, bir neçə zabit və müharibə əsirlərindən ibarət qrupun toplantısı oldu. Toplantıda bolşeviklərlə birlikdə çalışmaq barədə qərar qəbul edildi və ilk addım kimi ingilis tərəfdarı olan hazırkı Azərbaycan hökümətini devirib, yerinə bolşevik tərəfdarı olan hökümət gətirmək müəyyənləşdirildi [3, s.658]. Bu məqsədlə Türk Kommunist Firqəsi yaradıldı.

1920-ci ilin martında Antanta dövlətlərinin İstanbulu işğal etməsi Anadolu hərəkatını Sovet Rusiyası ilə daha çox yaxınlaşmağa sövq etdi. M. Kamal paşa martın 16-da Ərzuruma göndərdiyi teleqramda qeyd edirdi ki, "Şərqə hücum ideyasının həyata keçirilməsi ilə bağlı 15-ci Kolordu Komandanlığının mövqeyini öyrənmək" istəyir. Elə həmin gün K. Qarabəkir paşa göndərdiyi cavab teleqramında bildirirdi: "İstanbuldakı vəziyyət tam şəkildə aydınlaşmadığından, bolşevik qüvvələri hələ Qafqaz dağlarına çatmadığından və onlarla əlaqə də qurulmadığından, üstəlik bölgədə qarın çoxluğu səbəbindən, aprelin əvvəlinə qədər hər hansı hücum əməliyyatını həyata keçirmək müşkül məsələdir" [2, s.594].

1920-ci ilin 28 aprelində Türk Kommunist Firqəsinin dəstəyi ilə Sovet Rusiyası Azərbaycan işğal olundu və Azərbaycan Sovet Sosial Respublikası yarandı. 1921-ci ilin fevralından Rusiya və Türkiyə arasında rəsmi danışıqlar başlandı. Qeyd olundu ki, əsas məqsəd dostluq müqaviləsi imzalamaqdr. Moskva konfransında Azərbaycanla bağlı məsələlər də müzakirə mövzusu idi. Martın 14-ü keçirilən iclasda müzakirələr bitdi. Üçüncü maddəyə əsasən, Naxçıvan üçüncü dövlətə güzəştə gedilməməsi şərtilə Azərbaycanda qalırdı. 16 martda müqaviləyə əlavə olaraq qəbul edilən maddədə, Naxçıvanın sərhədləri müəyyənləşdirilmişdir.

1921-ci ildə Türkiyə ilə dostluq və əməkdaşlıqla bağlı müqavilə imzalayan V.İ. Lenin Cənubi Qafqaz dövlətləri ilə Türkiyə arasındakı narazılıqları həll etmək üçün yeni bir konfrans daha çağırmaq istəyir. Əvvəlcə Bakıda keçirilməsi planlanan konfrans Qarsda keçirilməli oldu. 1921-ci ilin sentyabr ayında Cənubi Qafqazın üç respublikası, Türkiyə Cümhuriyyəti və Rusiyanın əhəmiyyətli görüşü oldu. Konfransda Türkiyə Xarici İşlər Naziri Yusuf bəy, Azərbaycan və Gürcüstandan çox Ermənistan ilə problemlərin həll olunmalı olduğunu qeyd edirdi. Türkiyə tərəfi haqlı olaraq vurğulayır ki, gərək erməni daşnakları, gərəksə də erməni bolşevik-

ləri ilə müqavilə imzalansa idi, gələcəkdə əlimizdə faktiki sübut və yazılı anlaşma olardı. Əgər Türkiyə Cənubi Qafqazın üç respublikası ilə müqavilə imzalasa, qərb dövlətləri eləcə də, Ermənistan müxalifəti bunun erməni xalqının iradəsi ilə deyil, Azərbaycan və Gürcüstanın basqısı ilə imzalandığını deyəcəkdi [5, s.9]. Lakin Rusiyanın israrı ilə Cənubi Qafqaz respublikaları və Türkiyə arasında 13 oktyabr tarixində Qars müqaviləsi imzalandı. Bu müqavilə Türkiyə-Sovet Rusiyası arasında imzalanan Moskva müqaviləsinin təməllərinə əsaslanaraq imzalanmışdır.

1921-ci ilin oktyabrında İ.Əbilov Türkiyəyə gəlir və onu burda qarşılayan 25 nəfərlik nümayəndə heyəti ilə Ankaraya gedir. 15 oktyabrda İ.Əbilov ilə M. Kamalın görüşü olur və 8 gün sonar - 23 oktyabrda Ankara şəhərində Azərbaycan səfiriyi açılır. M.Kamal açılışla bağlı mesajında bildirir ki, qadaş Azərbaycanın müstəqilliyi Türkiyənin müstəqilliyi qədər qiymətli və dəyərli, Azərbaycan xalqının müstəqil olması isə türk xalqı üçün şərəf və qürur mənbəyidir [5, s.10].

Ədəbiyyat siyahısı:

1. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. CI. Bakı: Şərq-Qərb, 2014, 440 s.*
2. *Kazım Karabekir. İstiklal harbimiz. CI. İstanbul: Yapı Kredi yayınları, 2006, 660 s.*
3. *Kazım Karabekir. İstiklal harbimiz. CII. İstanbul: Yapı Kredi yayınları, 2006, 681 s.*
4. *Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: Azərnəşr, 2011, 474 s.*
5. *Ramazan Uslu. Sovyet Rusya belgelerinde Türkiye-Azerbaycan siyasi ilişkileri (1920-1922). SÜTAD, Güz 2015, 14 s.*

YUNAN MƏDƏNİYYƏTİNİN QƏDİM AZƏRBAYCAN CƏMİYYƏTİNƏ TƏSİRİ

İlahə Cəfərova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrasının II kurs magistrantı
ceferova-ilahe@inbox.ru
Elmi rəhbər: t.ü.f.d. Rəna Şahbazova

***Açar sözlər**: Yunan, ellinizm, mədəniyyət, Atropatena, Albaniya*
***Keywords:** Greek, hellenism, culture, Atropatene, Albania*

B.e.ə. IV əsrin sonlarına yaxın yunan dünyasının kiçik şəhər-dövlətləri – polislər daha güclü şəkildə canlanmağa başladı. Bu proses yeni tarixi mərhələnin başlanmasını şərtləndirdi: sərhədlər aradan qaldırıldı, xalqlar birləşərək böyük bir mədəniyyətin əsasını qoydular. Bu inteqrasiya prosesinin sürətlənməsində Makedoniyalı İsgəndərin geniş miqyaslı hərbi yürüşləri həlledici rol oynadı. Makedoniyalı İsgəndər öz hərbi qüvvələri ilə çoxsaylı qədim xalqları hakimiyyəti altına almış və Hindistana qədər uzanan geniş əraziləri vahid imperiya tərkibində birləşdirmişdi. Şərq ölkələrinə yönəlmiş genişmiqyaslı hərbi yürüşlər dövründə qurduq-

ları imperiyanı möhkəmləndirmək məqsədilə Makedoniya, Yunanıstan və Kiçik Asiyadan bu bölgələrə çoxlu sayda hərbçi, sənətkar və tacir köçürülməyə başlandı. Bu gəlmələr işğal olunmuş ərazilərdə özlərinin adət-ənənələrini, dil və mədəniyyətini, həmçinin ictimai və hərbi idarəçilik qaydalarını yaymağa çalışırdılar. Nəticədə imperiyanın tabeçiliyinə daxil olan ölkələrdə Şərq və Qərb sivilizasiyalarının elementlərini birləşdirən yeni bir mədəniyyət formalaşmağa başladı. Tarixşünaslıqda bu proses ellin mədəniyyəti adı ilə tanınır.

Makedoniyalı İsgəndərdən sonrakı tarixi mərhələnin ellin dövrü kimi xarakterizə edilməsinin başlıca səbəbi yerli mədəni ənənələr və məktəblərin geniş şəkildə qəbul olunmuş ellin üslubunu mənimsəməsi ilə bağlı idi. Bu dövrün mahiyyətini müəyyənləşdirən əsas cəhətlərdən biri isə Yunan və Şərq mədəniyyətlərinə məxsus elementlərin qarşılıqlı təsiri və harmonik sintezi olmuşdur [5, s.158].

Şərqə doğru irəliləməyi qarşılarına məqsəd qoyan yunanlar üçün öz dini ideologiyalarını yaymaq hakimiyyətlərinin uzunömürlülüyünü təmin etmək baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Bu məqsədlə onlar ilk növbədə atəşpərəstliyin (Zərdüştiliyin) geniş yayıldığı Atropatena ərazisində yunan tanrılarına sitayiş edilən məbədlər inşa etməyə çalışmış və bunu həyata keçirməyə nail olmuşdular [2, s.169].

Atropatenada yunan tanrılarına həsr olunmuş ibadət mərkəzlərinin mövcudluğu haqqında məlumat ilk dəfə 1819-cu ildə ingilis səyyahı R. Ker Porterin İran səfəri zamanı qeydə alınmışdır. O, İranın Qərbi Azərbaycan və Kürdüstan vilayətlərinin sərhədinə yaxın, Takab şəhərindən təxminən 20 km qərbdə yerləşən Kerefto adlı dağlıq ərazidə yerləşən mağarada e.ə. III əsrə aid məbəd kompleksini aşkar etmişdi (yerli əhali bu abidəni "Kalei-Karafto" adlandırır) [2, s.170]. Qayada oyulmuş bu sakral kompleks e.ə. III əsrdən b.e. I əsrinə qədər Herakl kultunun ibadət mərkəzi kimi fəaliyyət göstərmişdir. Kompleksdəki otaqlardan birinin divarında həkk olunmuş qısa yunandilli yazıda məbədə daxil olan şəxslərin tanrı Heraklın himayəsinə alındığı qeyd olunur. Tədqiqatçılar bu tikilinin ibadətgah və ya yunan hərbi qarnizonunun dislokasiya məntəqəsi olması ehtimalını irəli sürürlər. Abidədə yunan memarlığının izləri açıq şəkildə görünməkdədir. Atropatena ellin-yunan mədəniyyətinin təsir dairəsinə daxil olduğu üçün Kerefto kimi bir abidənin meydana çıxması tamamilə təbii idi [2, s.171].

Mağara-kompleks Atropatenanın antik dövr memarlığını öyrənmək üçün yeganə nümunə olduğundan, onun memarlıq xüsusiyyətlərini daha geniş şəkildə təsvir etmək zəruridir. Kompleksin hər iki giriş qapısı yer səthindən təxminən 9 metr yüksəklikdə yerləşir və həmin girişlərə qalxmaq üçün ağ mərmərdən hazırlanmış pilləkənlər qurulmuşdur. Girişlərin ölçüləri eyni olub, hündürlüyü 1,8 metr, eni isə 1,2 metrdir. Sağ giriş əsas zal ilə əlaqələnir, sol girişdən isə hər biri 5,4 × 6,3 metr ölçülərində olan dördkünc formalı otaqlara keçmək mümkündür. Otaqların tavanı günbəzvari formaya malikdir və döşəmədən 4,5 metr yüksəklikdədir. Otaqlardan birindən kompleksin ikinci dəhlizinə keçid mövcuddur. Dəhlizin divarına yunan dilində belə bir mətn həkk olunmuşdur: "Burada Herakl yaşayır; buraya sığınan

hər cür naqislikdən uzaq olsun". Atropatenada bu ibadətgahın fəaliyyəti ellinizm dövrü ilə məhdudlaşmamış, Sasani imperiyası dövründə Zərdüştiliyin rəsmi dövlət dini elan edilməsinə qədər davam etmişdir [2, s.172].

Ellinizmin Atropatena və ona qonşu ölkələrdə yayılmasını sübut edən bir sıra tarixi mənbələr mövcuddur. Mənbələrin məlumatına görə, Makedoniyalı İsgəndər III Daranı məğlub edib Persepolu ələ keçirdikdən sonra divanxana və xəzinədə saxlanılan sənədlərin bir nüsxəsini əldə edərək onları öz dilinə tərcümə etdirmiş, zəruri hesab edilməyən dini və tarixi mətnlərin isə yandırılmasını əmr etmişdi. İsgəndər və onun canişinləri işğal etdikləri ərazilərin dövlət və elm xadimlərindən öz siyasi məqsədləri üçün fəal şəkildə istifadə etmişdilər. Bununla yanaşı, işğal edilən ölkələrin dövlət və elm xadimləri də işğalçıların dilini öyrənməyə və mədəniyyətinə maraq göstərmiş, xüsusilə şəhərlərdə yaşayan tacirlər və sənətkarlar gündəlik zərurətdən irəli gələrək yunan dilini qısa müddətdə mənimsəmişdilər. Beləliklə, Şərq və Qərb mədəniyyətlərinin sintezinin siyasi, iqtisadi və ictimai əsasları qoyulmağa başlamışdı.

Ellinizmin Atropatena ərazisində yayıldığını göstərən mühüm tapıntılardan biri Zaqros dağlarında, Kürdüstanın Avroman bölgəsində içərisində dəri üzərində yazılmış üç əlyazması olan daş küpdür. Həmin əlyazmalardan ikisi yunan dilində tərtib edilmiş icarə müqavilələridir. Müqavilələrdən aydın olur ki, razılaşmanın tərəfləri və şahidlərinin adları yunan mənşəli olmasa da, onlar yunan dili və yunan hüquq normalarından istifadə etmişlər [1, s.99].

Ümumilikdə, Atropatena nisbətən ellin dövlətləri ilə daha sıx siyasi və iqtisadi münasibətlər qurmuş və bu da mədəni qarşılıqlı təsirin formalaşması üçün əlverişli tarixi şərait yaratmışdır.

Ellin mədəniyyətinin izləri Şimali Azərbaycanın — Albaniyanın ərazisində də müşahidə olunur. Bunu Bərdə və Qəbələdən aşkar edilən pul dəfinələri, müxtəlif bəzək nümunələri, bullalar və s. təsdiqləyir. Mingəçevirdə aparılan qazıntılar zamanı torpaq qəbirlərdən əldə edilən boz və qara rəngli gil qablar, vazaların forması, dar dibli küplər bu bölgədə yerli mədəniyyətlə ellin mədəniyyətinin qarşılıqlı əlaqəsini ehtimal etməyə əsas verir [1, s.100].

Arxeoloji tədqiqatların nəticələri göstərir ki, ellin mədəni ənənələri qədim Azərbaycanın maddi mədəniyyətinin müxtəlif sahələrinə, o cümlədən Albaniya əhalisinin məişətinə və təsərrüfat fəaliyyətinə müəyyən təsir göstərmişdir. Bu qarşılıqlı təsirin izləri e.ə. I minilliyin ortalarından etibarən müşahidə olunur [4, s.17].

Ellinizm dövründə ticarət beynəlxalq xarakter almışdı. Ellin dövlətləri ilə iqtisadi-ticarət əlaqələrinin inkişafında ölkənin əlverişli coğrafi mövqeyi, yüksək iqtisadi potensialı, zəngin təbii resursları, habelə qədim Şərq mədəniyyət mərkəzlərinə yaxın yerləşməsi mühüm rol oynayırdı. Bununla yanaşı, Atropatena və Albaniya ərazilərindən keçərək bu iki ölkəni ellin dünyası ilə birləşdirən tranzit ticarət yolları da bu prosesə təkan verirdi. Bu barədə həm antik müəlliflərin yazılı məlumatları, həm də arxeoloji və numizmatik tapıntılar kifayət qədər informasiya təqdim edir. Ə. Rəcəbli "Azərbaycanın numizmatikası" adlı əsərində qeyd edir ki,

"Albaniyanın mühüm xarici əlaqələri cənub istiqamətində Atropatena vasitəsilə, oradan isə nəhəng ellin dünyası ilə mövcud olmuş və inkişaf etmişdir" [3, s.3].

Ellinizm dövründə pul dövriyyəsi geniş vüsət almış və uyğun iqtisadi bazaya malik bir çox ölkələrə yayılmışdı. Yəni yunan dünyasında formalaşmış pul sistemi tədricən ictimai-iqtisadi şəraiti buna əlverişli olan ərazilərə nüfuz edirdi. Albaniyada belə şərait məhz ellinizm dövründə formalaşmağa başlamışdı [3, s.3]. Albaniyanın ellinizm dövründəki pul dövriyyəsini öyrənmək üçün mühüm material ayrı-ayrı sikkə və iri pul dəfinələri təşkil edir. Onlar arasında xüsusilə 1966-cı ildə Qəbələ yaxınlığında aşkar edilmiş və e.ə. II əsrin 20-ci illərinə aid edilən dəfinə seçilir. Bu dəfinənin dəyəri ondadır ki, burada 500-dən artıq yerli alban zərbli sikkə tapılmışdır. Məhz bu tapıntı Albaniyada pul kəsiminin təkamülünü izləməyə imkan vermişdir, digər dəfinələr əsasında bu prosesi dəqiq müəyyənləşdirmək mümkün deyil. Qəbələ dəfinəsi göstərdi ki, ellinizm dövrünə aid yerli alban sikkələri Böyük İsgəndərin pullarının nümunəsi əsasında hazırlanırdı. Zaman keçdikcə bu sikkələr keyfiyyətcə tənəzzülə uğramış, İsgəndər sikkələri ilə genetik əlaqəni qorusa da, tipoloji cəhətdən dəyişikliklər keçirmişdi. Tədqiqatçıların qənaətinə görə, Albaniyada İsgəndər sikkələrinin təqlidi e.ə. III əsrdən etibarən başlamış və bu sikkələr Şərq bazarlarında geniş dövriyyədə olduqları dövrdə kəsilmişdir. Buna görə də, onlar Qafqaz Albaniyasının ilkin pullarının zərbində etalon rolunu oynamışdı [3, s.4].

Makedoniyalı İsgəndərin Şərqə yürüşü dünya mədəniyyəti tarixində Qərb və Şərq sivilizasiyalarının sintezinə əsaslanan yeni eranın başlanmasına təkan verdi. İsgəndərin Şərq yürüşündən başlayan ellinizm antik dövrün mühüm bir mərhələsi kimi Yaxın və Orta Şərq xalqlarının siyasi, sosial-iqtisadi və mədəni həyatında tarixi dönüşə səbəb oldu. Ellinizm dövrünü əhatə edən e.ə. 334–30-cu illər ərzində bu geniş coğrafiya, o cümlədən onun ayrılmaz hissəsi olan qədim Azərbaycan cəmiyyətinin bütün sahələrində keyfiyyətcə yeni proseslər baş verdi. Bu yeniliklər hakim yunan elitasının gətirdiyi mədəniyyət və dünyagörüşünün yerli ənənələrlə sintezi nəticəsində meydana çıxmışdı. Regionda natural mübadilə münasibətlərindən beynəlxalq ticarətə keçidi təmin etmək üçün karvan yollarının fəaliyyəti gücləndirilmiş, yeni ticarət yolları istifadəyə verilmiş, hərbi sahədə, incəsənətin bütün sahələrində mühüm yeniliklər baş vermiş, şəhər infrastrukturu dövrün tələblərinə uyğunlaşdırılmış, memarlıqda isə tamamilə yeni üslublar formalaşmışdı.

Ədəbiyyat siyahısı:

1. Fazili A. Ulusunu tanımayan tanrısını tanımaz (Atropatena e.ə. IV – e.VII əsri). Bakı, "Elm" nəşriyyatı, 1992, 216 s.

2. Atropatena Azərbaycan tarixçilərinin tədqiqatlarında (məqalələr toplusu). Bakı, Nəşriyyat şöbəsi, 2024, 266 s.

3. Əliyeva F. Albaniyanın ellin dünya ilə iqtisadi əlaqələri. Bakı, Tarix və onun problemləri, №1, 2014

4. Mustafayev L. Antik mədəniyyətin Azərbaycan Albaniyasının maddi irsinə mədəni təsiri. Avtoreferat. Bakı, Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi, 2016, 26 s.

5. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı, " Sabah" nəşriyyatı, 2010, 876 s.

KAMAL ƏLİYEVİN TƏDQİQATLARINDA QƏDİM ALBANİYA DÖVLƏTİNİN SƏRHƏDLƏRİ VƏ QONŞULARI MƏSƏLƏSİ

Məhəmməd Ərəbov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrasının II kurs magistrantı
arabov-maxammad@mail.ru
Elmi rəhbər: dosent Ellada Bəkirova

Açar sözlər: *antik müəlliflər, Albaniya dövləti, sərhəd, qədim albanlar*
Keywords: *ancient authors, Albania, border, ancient Albanians*

Azərbaycanın qədim və erkən orta əsrlər dövrünü əhatə edən Qafqaz Albaniyasının tarixinin tədqiqi müasir dövrdə qonşularımız tərəfindən Azərbaycana qarşı əsassız iddialara qarşı mübarizədə olduqca böyük əhəmiyyətə malikdir. Qafqaz Albaniyasının tarixinin öyrənilməsi yazılı və arxeoloji mənbələrə əsaslanır. Yazılı mənbələrin müəlliflərinin əksəriyyəti isə antik dövr müəllifləridir. Qafqaz Albaniyasın qədim dövr tarixin yerli tarixçilər tərəfindən öyrənilməsinə XX əsin II yarısından başlanılmışdır. 1974-cü ildə Azərbaycanda Qədim Albaniya dövlətinin tarixi ilə bağlı ilk yerli moqrafiya yazıldı. Monoqrafiyanın müəllifi görkəmli Azərbaycan tarixçisi Kamal Əliyev idi. Kamal Əliyevin əsas elmi araşdırma istiqaməti Albaniya dövlətinin qədim dövr tarixidir. Kamal Əliyev Qədim Albaniya tarixinin bir sıra məsələlərinə toxunmuşdur. Albaniyanın sərhədləri və qonşuları ilə olan münasibətlərinin xarakterinə dair məsələlər olduqca maraq doğurur. Lakin müəllifin Albaniyanın siyasi tarixinin e.ə I əsrdən başlandığı fikri ilə bir sıra səbəblərə görə razılaşa bilmərik [6, s.127-128]. Birinci səbəb ondan ibarətdir ki, ilk dəfə olaraq e.ə IV əsrdə Alban çarının adı çəkilir. Digər səbəb e.ə IV-III əsrin əvvəllərinə aid Alban hökmdarının adından kəsilən pullardan istifadə edilmişdir. Bu 2 fakt Albaniya dövlətininin müstəqil bir dövlət kimi mövcudluğunu e.ə Iəsrdən daha qədimə aid etməyə əsas verir. Albaniyanın siyasi tarixinin başlanğıc nöqtəsi ilə bağlı fərqli fikirlərinə baxmayaraq, Kamal Əliyevin Albaniya tarixin öyrənilməsindəki rolunu yüksək qiymətləndirmək lazımdır. Çünki müəllif antik mənbələrə istinad etməklə yanaşı bu mənbələrin müqayisəli təhlilini də aparmış və buna görə də Kamal Əliyevin əsərlərini Azərbaycan tarixin qədim dövr tarixi ilə bağlı ən vacib tədqiqatlardan hesab edə bilərik. Xüsusilə də Albaniyanın antik dövrü ilə bağlı başlıca əsər məhz onun əsərləri hesab oluna bilər.

Albaniyanın təbii - coğrafi mövqeyi: Kamal Əliyevin araşdırmalarında Albaniyanın təbi-coğrafi mövqeyi məsələsi antik mənbələr və arxeoloji faktlar əsasında tədqiq edilmişdir. Bu mənbələrin təhlili nəticəsində sərhədlərin formalaşmasında təbii obyektlərin böyük rol oynadığını görürük.

Qədim Albaniya dövləti şimaldan Qafqaz sıra dağları,cənubdan Araz çayı, şərqdən Xəzər dənizi və qərbdən isə Göyçə gölü və İberiya sərhədinə kimi uzanırdı [1, s.357-358]. Təbii - coğrafi sərhədlər bəzən sabit qalmırdı. Təbii - coğrafi

mövqe Qədim Albaniya dövlətinin müdafiyə qabiliyyətinə və qonşu dövlətlərlə olan münasibətlərinə də təsir göstərmişdir. Bu baxımdan əlverişli coğrafi mövqedə yerləşən Albaniya əraziləri daima qonşu dövlətlərin və yadellilərin diqqət mərkəzində olmuşdur. Qədim Albaniya dövlətinin təbii-coğrafi mövqeyini şərtləndirən xüsussiyyətlər isə həm ticarət yolları üzərində yerləşməsi, həm də zəngin təbii sərvətlərə malik olmasından ibarətdir.

Albaniyanın sərhədləri: Yuxarıda da qeyd etdiyimiz kimi Qədim Albaniya dövlətinin qonşu dövlətlərlə olan sərhədlərinin bir qismini təbii obyektlər təşkil edirdi. Kamal Əliyev də apardığı tədqiqatlarda məhz bu qənaətə gəlmişdir. Albaniyanın şimal sərhədləri əsasən Böyük Qafqazın hündür dağ silsilələri ilə əhatələnmişdir. Kamal Əliyev araşdırmalarının nəticəsi kimi Qədim Albaniya dövlətinin şimal sərhədlərini təbii müdafiə sistemi olmaqla yanaşı, həm də şimal ölkələrinə doğru açılan bir keçid qapısı hesab edirdi. Xəzər dənizi ilə Böyük Qafqaz dağları arasında yerləşən bu keçidin müdafiəsi isə hər zaman Qədim Alban hökmdarlarının diqqət mərkəzində olmuşdur. Dərbənd keçidi kimi də adlanan bu keçid müxtəlif şimal tayfaları ilə siyasi,iqdisadi və mədəni əlaqələrdə mühüm əhəmiyyətə malik idi. Albaniyanın şimal sərhədlərinin müxtəlif vaxtlarda bir qədərdə şimala doğru uzanaraq Sulak çayından keçdiyi də qaynaqlardan məlumdur. Bütün bunlar isə Qədim Albaniya dövlətinin siyasi gücündən xəbər verirdi.

Albaniyanın cənub sərhədlərini təbbi sərhəd olan Araz çayı təşkil edirdi. Araz çayı Qədim Albaniya dövlətini digər Qədim Azərbaycan dövləti olan Atropatena ilə həmsərhəd edirdi. Kamal Əliyevə görə hər iki Qədim Azərbaycan dövləti arasındakı münasibətlər siyasi və iqdisadi xarakter daşımışdır. Cənubdan şimala istiqamətlənən mühüm ticarət yolları Atropatena ərazisindən keçərək Albaniyaya daxil olur, buradan isə Xəzər dənizi sahillərindən keçərək şimala doğru uzanırdı. Həmçinin görkəmli tədqiqatçı Kamal Əliyev hər iki qədim Azərbaycan dövləti arasındakı münasibətləri enişli-yuxuşlu hesab edirdi. Bəzi dövrlərdə əməkdaşlıq yüksək səviyyədə olsa da, lakin bəzi vaxtlarda isə rəqabət və ziddiyyətlər müşahidə edilirdi. Bütün bunlarla yanaşı, məşhur antik müəlliflərdən biri kimi tanınan Strabonun Coğrafiya əsərində verdiyi məlumatlara əsaslanaraq Kaspiana vilayətinin hər iki Qədim Azərbaycan dövləti arasında sərhəd təşkil etdiyini də qeyd edə bilərik [2, s.17].

Albaniya dövləti şərqdən Xəzər dənizi ilə əhatə olunurdu. Müəllif Xəzər dənizin Qədim Albaniyanın iqdisadi həyatında mühüm əhəmiyyətə malik olduğunu xüsusilə vurğulayır. Həmçinin Xəzər dənizi ilə əhatə olunması onun siyasi və strateji əhəmiyyətini artırırdı. Qədim Roma sərkərdəsi Pompeyin e.ə 66- cı ildə Albaniya ərazisinə hücumunun məqsədlərindən birini də məhz Xəzər dənizinin sahillərinə çıxış əldə etmək təşkil edirdi.

Qərb və şimal-qərb istiqamətində təbii sərhədlər Kür çayı, Qanıx və İori çayları təşkil edirdi. Bu çaylar Qədim Albaniyanı İberiyadan ayıran təbbi obyektlər idi.Həmçinin antik müəlliflərdən Strabon, Böyük Plini və başqalarının verdiyi məlumatlara istinad edərək Kambisena vilayətinin Şimal-qərbdən İberiya dövləti ilə

həmsərhəd olması fikrini də qeyd edə bilərik. Kamal Əliyev antik müəlliflərin bununla bağlı verdiyi məlumatları təsdiqləyir. Antik müəlliflərdən Starbon qeyd edir:İberiyanın mərkəzindəki düzənlikdən çaylar axıb keçir. Onlardan ən böyüyü Kürdür. O, iti axarla düzənə çıxaraq, Qafqazdan axıb gələn Araq çayını və başqa qolları qəbul edir, sonra isə dar vadidən keçərək Albaniyaya axır; çox zəngin olan düzənliklərdən əzəmətlə axaraq, daha çox çayları, o sıradan Alazan, Sandoban, Retak və Xanı (hamısı gəmiçiliyə yararlıdır) qəbul edir və nəhayət, Kaspi dənizinə tökülür [2, s.18].

Albaniya sərhədlərinin tarixi inkişafı: Tarixçi Kamal Əliyevin apardığı tədqiqatların mühüm tərkib hissələrindən biri də Albaniya sərhədlərinin tarixi inkişafı məsələsidir. Müəllif belə qənaətə gəlmişdir ki, Qədim Albaniya dövlətinin sərhədləri heç də hər zaman sabit olmamış, müxtəlif vaxtlarda dəyişikliyə uğramışdır. Onun fikrincə sərhədlərin dəyişməsi qədim dövrdə regionda baş verən siyasi proseslər, böyük imperiyaların bölgəyə olan təsir gücü və daxildəki siyasi sabitliklə bağlı idi [6, s.145]. E.ə I əsrdə baş verən Roma-Parfiya müharibələri, həmçinin Roma Respublikasının Cənubi Qafqaza hərbi yürüşləri sərhədlər məsələsinə öz təsirini göstərirdi. Antik müəlliflərdən biri olan Klavdi Ptolomey Qədim Albaniyada 29 şəhərin olduğunu və hər birinin də coğrafi kordinantlarını vermişdir. Ptolomey Kür çayından cənubdakı əraziləri Albaniya əraziləri hesab etmir və Albaniyanın ərazisini Kürə qədər məhdudlaşdırırdı. Kamal Əliyev isə antik müəllifin bu fikri ilə razılaşmır. Apardığı tədqiqatlar nəticəsində belə qənaətə gəlir ki, Kür çayından cənubdakı ərazilər məhz qədim alban torpqaları olmuş, və bu torpaqların sakinləri də elə qədim albanlar özləri olmuşlar [5, s.62]. Ola bilsin ki, Tolomeyin yaşadığı dövrdə və ona yaxın vaxtlarda hərbi-siyasi səbəblərə görə qədim Alban hökmdarları Kürdən cənubdakı ərazilərə nəzarəti itirmişdir. Kamal Əliyev bu mövqeyini aparılan arxeoloji qazıntılar da sübut edir. Belə ki, müasir dövrdə Kür çayından həm şimalda, həm də cənubdakı ərazilərdə aparılan arxeoloji qazıntılar nəticəsində eyni və oxşar küp qəbirlərə rast gəlinmişdir. Küp qəbirlər isə qədim alban mədəniyyətinin tərkib hissəsidir. Bütün bunlar isə Kür çayının Ptolomeyə görə Albaniyanın cənub sərhədi olması fikrini qətiyyən inkar edir. Həmçinin digər antik müəllif Strabon Ptolomeydən fərqli olaraq Kür çayının Albaniyanın mərkəzindən keçdiyini bildirir [2, s.16]. Buradan isə Kürün hər iki sahilinin Qədim Albaniya ərazisi olduğu öz təsdiqini tapmış olur.

Kamal Əliyevin apardığı tədqiqatlar Qədim Albaniya dövlətinin sərhədləri və qonşuları barədə ətraflı fikir mübadiləsi aparmağa imkan veir. Onun apardığı tədqiqatların mühüm nəticələrindən biri budur ki, həm antik müəlliflərin verdiyi məlumatlara, həm də arxeoloji qazıntıların nəticilərinə istinad etmişdir. Digər mühüm bir nəticə isə ondan ibarətdir ki, Kamal Əliyev antik müəlliflərin verdiyi məlumatların hər birinin ayrı-ayrılıqda müqayisəli təhlilini aparmışdır. Həmçinin tədqiqatların vacib nəticələrindən biri də Qədim Albaniya dövlətinin siyasi, iqdisadi və mədəni inkişafının onun təbii-coğrafi mövqeyi ilə bağlı olması məsələsinin araşdırılmasıdır. Ən mühüm vacib cəhətlərdən biri də ondan ibarətdir ki, Kamal Əliyev

Qədim Albaniya dövlətinin tarixini elmi əsaslarla araşdıran və bu sahədə samballı əsərlər yazan ilk yerli tarixçi hesab olunur.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan tarixi. Yeddi cilddə, I cild. Bakı, Elm, 2007, 520 s.
2. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, Çıraq, 2007, 328 s.
3. Bəkirova E. Albaniyanın qərb torpaqları antik dövrdə. Bakı, İdeal-print MMC, 2021, 328 s.
4. Əliyev K., Əliyeva F. Azərbaycan antik dövrdə. Bakı, Azərbaycan nəşriyyatı, 1997, 120 s.
5.Алиев К. Г. Античные источники по истории Азербайджана. Баку, Элм, 1986, 129 с.
6. Алиев К. Г. Античная Кавказская Албания. Баку, Азернешр, 1992, 125 с.

MARK ANTONİNİN DÖVRÜNDƏ ROMA VƏ ATROPATENA ARASINDA HƏRBİ-SİYASİ ƏLAQƏLƏR

Tünzalə Səfərova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrasının II kurs magistrantı
tunzalsfrova9@gmail.com
Elmi rəhbər: t.ü.f.d Rəna Şahbazova

Açar sözlər: *Roma, Parfiya, Atropatena, Antoni, Artavazd*
Keywords: *Rome, Parthia, Atropaten, Anthony, Artavazd*

E.ə. II əsrin ikinci yarısından başlayaraq Roma və Parfiya arasında Mərkəzi Asiyanın əyalətlərində ağalıq uğrunda mübarizə güclənmişdi. Artıq bu dövrdə Parfiya ondan kənar ərazilərdə geniş işğalçılıq yürüşlərinə başlamış, Roma isə Aralıq dənizi hövzəsində güclü dövlətə çevrilmişdi.

E.ə. III əsrin əvvəllərində romalılar Kiçik Asiyada da fəallaşmışdılar. Ön Asiya ərazisində isə vəziyyət mürəkkəbləşdiyindən burada "siyasi dualizm" yaranmışdı.Romanın şərq əyalətlərinin əhalisi parfiyalıları, Parfiyanın qərb əyalətlərinin əhalisi isə romalıları öz xilaskarları kimi görürdülər. Mark Antoni dövründə hədəf böyük "Asiya dövlətini" qurmaq idi və əsas maneə Parfiya dövləti idi.Bu dövrdə Romaya qarşı Parfiya və Atropatena birgə mübarizə apardığından əsas hədəflərin biri də Atropatena idi.

E.ə. 38-ci ildə Gindar yaxınlığında baş vermiş döyüşdə Antonin sərkərdələrindən biri olan Publiy Ventili Parfiya qoşunlarını böyük məğlubiyyətə uğratdı. Qeyd edilir ki, parfiyalılar indiyəcən bu cür məğlubiyyətə uğradılmamışdı. Parfiyalıların Qərbə doğru irəlilədiyi uğurlu yürüşlər və qələbələrin nəticəsi uğursuzluqla sonlandı. Bundan sonra Parfiya dərin siyasi böhran keçirməyə başladı. Parfiyanın məğlub edilməsindən sonra Antoni qoşunlara özü rəhbərlik etməyə başladı. E.ə. 36-cı ildə Antoni və Misir kraliçası Kleopatra arasında ittifaq bağlandı və bununla da triumvirin Şərqi Aralıq sahili əyalətlərdə ellinistlərin mənafeyinin müdafiəçisi və qoruyucusu kimi hərəkət etməyə şans yaranmışdı.

Antoninin planı Makedoniyalı İsgəndərin imperiyası kimi bir "Asiya dövləti" yaratmaq idi. O bunun üçün ilk növbədə Kleopatradan olan oğlunun adını İsgəndər qoydu və Şərq ənənələrinə uyğun olaraq özünü ilahiləşdirmişdi. Oğlu İsgəndəri Helios və onun digər əkiz bacısı Kleopatranı isə Selena adlandırmışdı. Antoni yaxşı başa düşürdü ki, böyük "Asiya dövlətini" yaratmaq üçün əvvəl Parfiya dövlətini tabe etdirməli idi. Onun bu yürüşünün əsas maliyyə dəstəkçisi Kleopatra idi.E.ə. 36-cı ildə Antoni "Asiya dövlətini" yaratmaq üçün Parfiya üzərinə yürüşə başladı.

Parfiya dövlətində IVFraatın hakimiyyəti zamanı Parfiya-Atropatena münasibətlərində soyuqluq müşahidə edildiyindən daha sonra Atropatena Romaya meyil etməyə başladı.Çox keçmədən bu soyuqluğun qarşısı alınmış və yenidən Parfiya və müttəfiqləri Romaya qarşı mübarizəni davam etdirdilər. IV Fraat Şimali Mesopotamiyaya yürüşə başladı və Yevfratadan şərqdəki əyalətlərdə romalılılara qarşı hərbi əməliyyatlar aparmaq istəyirdi.

Antoni ənənəvi olaraq Parfiya ilə müharibə zamanı Ktesefon istiqamətində yürüşə başlayırdı lakin bu dəfə o cür hərəkət etmədi. Təbii ki, bu da qarşı tərəfdə çaşqınlıq yaratmışdı.Onun əsas məqsədi Atropatenaya Ermənistan sərhədlərindən daxil olmaq və Atropatenanın Ekbatan, Raqi və digər şəhərlərinə daxil olmaq idi. O, Parfiya ilə İkiçayarası arasındakı əlaqə yaradan əraziləri ələ keçirmək istəyirdi. Əslində, Antoninin bu cür hərəkət etməsinin bir sıra səbəbləri vardı. Belə ki, o Yuli Sezarın ölmədən öncəki Parfiya üzərinə olan yürüşün planlarına uyğun hərəkət edirdi. İkinci məsələ isə Antoni düşünürdü ki, o bu yolla gedərsə, Publiy Kanidi Krassın qoşunları ilə birləşə bilər.Bu dövrün mənbələrinin verdiyi məlumatlara görə Kanidi artıq bu dövrdə albanları və iberləri məğlub etmiş və Zaqafqaziya istiqamətindən romalılara edilə biləcək hücumun qarşısını almışdı.Üçüncü səbəb olaraq bu həm də, erməni çarının Atropatenanı işğal etmək planına uyğun sayılırdı.

Antoninin birləşmiş ordusu Xoy-Mərənd yolu ilə Atropatenanın "qış iqamətgahı" sayılan Fraaspanı ələ keçirmək üçün yürüşə başladı. Onun hərbi qüvvələri içərisində 300 mühasirə maşını və qalauçuran avadanlığı var idi [2, s.86]. Onu da qeyd etmək yerinə düşərdi ki, Antoni burada parfiyalılar və atropatenalılar tərəfindən güclü müqavimətə rast gələcəklərini düşünmürdü. Bununla yanaşı, bu ərazilərin coğrafi relyefi dağlıq ərazi olduğundan onun gətirdiyi böyük döyüş texnikalarını daşımaq çətinlik yaradırdı. Antoni müharibə texnikalarını leqat Oppi Statiana digər köməkçi dəstələri isə Pont çarı Polemon və Armenia çarı Artavazdın öhdəsində qoyaraq özü Fraaspaya doğru hərəkət etməyə başladı. Qeyd edilir ki, bu Antoninin böyük səhvi olmuşdu. Çünki ilk növbədə ordu hissələri arasında məsəfə xeyli uzanırdı.digər bir tərəfdən isə Fraaspa möhkəm qala divarları ilə əhatələndiyindən ordunun hərəkəti zəifləyirdi və Fraaspa müqavimət üçün xeyli tədarük görmüşdü.Üçüncü səbəb Roma ordusunun Oppi Statianın və digər müttəfiq qüvvələri üçün təhlükə mənbəyi idi.

Antoninin bu səhvi Parfiya qüvvələri üçün əsl fürsət yaratmışdı. Belə ki, Parfiya çarı IV Fraat Parfiya və Atropatena qoşunları ilə yürüşə başladı və bu xəbər Roma qüvvələrinə çatmışdı.Oppi Statianın qoşunu barədə məlumatlı olan IV Fraat onun qüvvələrini mühasirəyə alaraq 10 min Roma döyüşçüsünü həlak etmişdi. Bu

qanlı vuruşmada Oppi Statianın özü də öldürülmüş, onun döyüş avadanlıqları ələ keçirilmiş və xeyli əsir götürülmüşdü.Bu əsirlərin arasında Polemon da olmuşdu.

Antoninin digər müttəfiqi olan Armenia çarı Artavazd biabırcasına məğlub oldu və döyüş meydanından qaçmışdı.Bu biabırçı məğlubiyyət müharibənin taleyinə təsir etmişdi.Lakin bu qədər uğursuzluğa baxmayaraq Antoni Fraaspanın mühasirəsindən əl çəkmirdi. Fraaspa əhalisi isə uzunmüddətli müqavimət üçün güclü hazırlıq gördüyündən təslim olmurdu.Antoni bunu nəzərə almadan mühasirəyə hazırlaşmışdı.

Digər bir məsələ isə Parfiya-Atropatena qüvvələri romalıların yolunu kəsmiş və bu səbəblə romalılar arasında aclıq baş qaldırmışdı.Əslində, Parfiya-Atropatena qoşunları Roma ilə açıq döyüşə girmək istəmirdi və əsasən, müdafiə məqsədli müqavimət göstərirdi. Roma qoşunlarının yolunu bağlayıb və onları aclığa düçar etməklə geri çəkilmələrinə nail olmaq istəyirdilər.Həmçinin, uzunmüddətli müqavimət Roma qoşunlarında ruh düşkünlüyünə səbəb olmuşdu. Plutarx qeyd edir ki, Antoni mühasirə zamanı geri çəkilən qoşunları gördükdə qəzəblənmiş və desimasiya (hər on əsgərdən birinin öldürülməsinə əmr vermişdi) etmişdi [5, s.50].

Qışın yaxınlaşması ilə hər iki tərəf üçün çətin vəziyyət yaranmışdı.Antoni anlayırdı ki, romalılara düşmən münasibətin bəslənildiyi bir yerdə möhkəmlənmək mümkün deyil. Parfiya çarının müttəfiqi olan Atropatenalı Artavazd da yaxşı dərk edirdi ki, böyük bir hissəsi atlılardan ibarət olan bir ordunu qışda saxlamaq mürəkkəb idi.Artıq vəziyyət mürəkkəbləşdiyindən Antoni IV Fraatın yanına elçi göndərərək bildirmişdi ki,geri çəkilmək üçün bir sıra şərtləri etmək lazımdır. Bu şərtlərə, əsasən, Antoni Parfiya qüvvələrinin qənimət kimi əldə etdikləri Roma bayraqlarını və əsirlərin qaytarılması müqabilində geri çəkilməyi təklif edirdi [1, s.250]. Ancaq IV Fraat bu təklifi rədd etdi və bildirdi ki, romalılar şəhəri öz xoşluqları ilə tərk etsələr, onlara toxunulmayacaq lakin bu belə olmadı. Antoni düşünürdü ki, artıq sülh bağlanıb və geri çəkilmək üçün hazırlıqlara başladı. Ordu daxilində bəzi qüvvələrin etirazına baxmayaraq Antoni öz fikrindən dönməyərək geri çəkildi.Antoni geri çəkilərkən buraya daxil olduğu yolla deyil başqa yolla geri döndü. Qeyd edilir ki, çox güman Antoni bu plandan xəbər tutmuşdu və Şərq istiqamətində irəliləyirdi. O, Marağa-Səhənd-Təbriz-Mərənd-Əhər yolu ilə Arazı keçmiş və Armeniaya getmişdi.Antoni burada olarkən ordusuna baxış keçirdiyi zaman aydın olmuşdu ki, bu müharibə zamanı Atropatenada 35 minlik Roma döyüşçüsü həlak olmuşdu.

Beləliklə, Antoninin böyük "Asiya dövlətini" qurmaq planı uğursuzluğa düçar oldu.Təbii ki, bu uğursuzluğun bir sıra səbəbləri vardı.Bu səbəblərdən onu qeyd lazımdır ki, romalılar getdikləri yerlərə özləri ilə amansız, qəddar ellin adət-ənənələrini aparırdılar. Buranın yerli əhalisində bu qaydalara və romalılara qarşı nifrət vardı. Digər bir səbəb isə Antoni Parfiyada, ümumiyyətlə, Şərqdə baş verən dəyişikliklərə diqqət etmirdi. Atropatena əhalisi romalıları yunan-makedoniyalıların xələfi kimi gördükləri üçün onlara xüsusi nifrət və düşmən münasibət bəsləyirdilər. Romalılara qarşı olan bu mübarizə, əsasən, ümumxalq səviyyəsində idi.

Atropatenada ruh yüksəkliyi müşahidə edilirdi.Belə ki, Artavazd müharibə nəticəsində Roma bayraqlarını ələ keçirmiş, Pont çarı Polemon da daxil olmaqla bir

çoxlarını əsir olaraq götürmüşdü. Bu da Artavazdın nüfuzunu xeyli yüksəltmiş və bir müddət sonra Parfiya ilə münaqişələrə səbəb olmuşdu. Ələ keçirilmiş qənimətlərin bölüşdürülməsi məsələsində Parfiya və Atropatena arasında anlaşılmazlıq yarandı. Artavazd düşünürdü ki, IV Fraat Atropatenanı işğal edib və onun əlindən taxt-tacını alacaq.Bu cür mürəkkəb bir vəziyyətdə Artavazd artıq Parfiya meyilli siyasətindən əl çəkərək Romanın tərəfinə keçdi. Bunun üçün o ilk addımı ataraq e.ə 35-ci ildə Pont çarı Polemonu Antonin yanına göndərdi, sülh və dostluq təklif edərək qeyd etmişdi ki, Atropatena romalılar tərəfindən vuruşacaq. Antoni onun bu təklifini qəbul edərək Atropatena çarı ilə dostluq müqaviləsi bağladı.Bu hadisə hər iki dövlət üçün uğurlu addım idi. Çünki Artavazd və Parfiya çarı IV Fraat arasında münasibətlər problemli olduğundan romalılar ilə ittifaq Atropatena üçün zəruri idi.Digər tərəfdən Antoni bu ittifaqdan çox sevinmişdi və bu səbəbdən Pont çarı Polemona Kiçik Ermənistan ərazisini hədiyyə etmişdi. Antoninin bu uğurları onun "Asiya dövləti" yaratmaq planının yenidən gündəmə gətirilməsinə səbəb olmuşdu.

Antoni Araz çayını keçib atropatenalılar ilə görüşüb daha sonra mübarizəyə başlamaq istəyirdi. E.ə. 34-cü ildə Antoni Armeniaya irəliləyərək onun paytaxtı Artaşatı tutaraq Armenia çarı Artavazdı əsir olaraq götürdü. Ölkə xəzinəsi ələ keçirilərək Armenia rəsmi olaraq işğal edildi.Armenianın yeni çarı olan Artaşes bir müddət romalılarla mübarizə aparsa da, daha sonra bundan əl çəkmiş və ölkəni tərk edib Parfiyaya qaçmışdı.

Atropatena çarı Artavazd əvvəllər əldə etdiyi Roma bayraqlarını və qızı İotapeni Antonin Kleopatradan olan oğlu İsgəndərə ərə verəcəyini bildirmişdi.Bu zaman Antoni oğlu İsgəndəri Şərqin hökmdarı adlandırmışdı. E.ə. 34-cü ildə Antoni qələbəsini qeyd etdi və oğlunu "çarlar çarı" elan etmiş, həmçinin həmin vaxt Artavazdın qızı İotape ilə nişanlamışdı. Bununla yanaşı bu nişanın baş tutması üçün Misir kraliçası Kleopatranında razılığı zəruri idi və beləliklə Atropatena, Roma və Misir ittifaqı bağlandı. Hətta e.ə. 32-ci ildə Antoni yenidən Araz çayı sahilində Atropatena çarı olan Artavazdla dostluq müqaviləsini yeniləmişdi [3, s.11]. Bu cür nigah diplomatiyaları beynəlxalq münasibətlər tarixinin mühüm ünsürlərindəndir.

Antoni Parfiya ilə yenidən müharibələrinin davam etdiyini qeyd etmişdi.Bununla yanaşı, Atropatena çarı Artavazdın vəziyyəti xeyli mürəkkəb idi. Belə ki, e.ə. 33-cü ilin yazında Antoni Armenia ərazisinə yürüş etmək niyyətində idi. Lakin Oktavian Avqust ilə olan münaqişə səbəbi ilə döyüşləri dayandırıb geri qayıtmağa məcbur oldu.O geri çəkilərkən ordunun bir hissəsini Atropatenalı Artavazdın yanında saxlayaraq bildirmişdi ki, Oktavianla olan döyüşdə köməkçi qüvvə kimi iştirak edər.

İlk zamanlarda Artavazd Roma qoşunlarının köməyi ilə Parfiya-Armenia qüvvələrinə qarşı mübarizə apara bilirdi. Lakin daha sonra Antoni Artavazdın ixtiyarında qoyduğu qoşunu geri çağırması ilə Artavazd Parfiya-Armenia qüvvələri tərəfindən məğlub edildi. Parfiya çarı IV Fraat Atropatena ərazisini Armenia çarı Artaşasa verdi.Lakin bu vəziyyət uzun müddət davam etmədi və Artavazd əsirlikdən qaçdı.Plutarx qeyd edir ki, e.ə. 31-ci il Aktsi döyüşündə Antoni və Kleopatra qüv-

vələri məğlub olsa da, Atropatena çarı Artavazd Antoniyə verdiyi vədə sadiq qalaraq ona köməçi dəstə göndərmişdi. Belə anlaşılır ki, Artavazd artıq e.ə. 31-ci ildə azad idi. Artavazd daha sonra qalib gəlmiş Avqust Oktaviana meyil etməyə başlamışdı. Ona, həmçinin Oktavian tərəfindən Kiçik Armenianın hakimiyyəti verilmişdi.Oktavian bununla yanaşı Artavazdın qızı İotapeni də geri qaytardı.Artavazd e.ə. 20-ci ilə qədər Kiçik Armenianı idarə etmişdi. Atropatena tam 3 əsrə yaxın Sasanilər tərəfindən tabe edilənədək müstəqilliyini saxlamışdı [4, s.128].

Mark Antoninin dövründə Atropatena və Roma münasibətləri dəyişkən olmuşdu. Belə ki, Fraaspa mühasirəsi zamanı atropatenalıların Romaya qarşı inadlı müqaviməti və uzaqgörənliyi nəticəsində şəhər Antoni tərəfindən ələ keçirilə bilmədi. Parfiya və Roma meyilli siyasət yürüdərək dövlət müstəqilliyi əldə saxlanıldı. Zaman-zaman Parfiyaya tərəf siyasət apararaq bilikdə ortaq düşmən olan Romaya qarşı mübarizə aparmışdı. Lakin Parfiyanın güclənməsi səbəbi ilə dövlətçiliyin süqut etdirilməsi təhlükəsi yarandığı təqdirdə Atropatena Roma meyilli siyasətə başladı. 300 ilə qədər müstəqil siyasət aparılmış hətta qonşu dövlətlərin idarəsini də həyata keçirmişdi.

Ədəbiyyat siyahısı:

1. *Azərbaycan tarixi. Yeddi cilddə, I c. Bakı: 2007, 520 s.*
2. *Əliyarlı S. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci ilə qədər). Bakı: Çıraq, 2009, 872 s.*
3. *Fazili A. Atropatena (e.ə. IV-e.VII əsrlərdə). Bakı: Elm, 1992, 216 s.*
4. *Paşayeva M. Azərbaycanın qədim dövlətləri (e.ə III minillik - III əsrin əvvəlləri). Bakı: İqtisad Univeristeti Nəşriyyatı, 2018, 288 s.*
5. *Алиев И. Очерк Истории Атропатены. Баку: Азернешр, 1989, 160 с.*

AZƏRBAYCAN ŞƏHƏRLƏRİ YAN STREYSİN "ÜÇ SƏYAHƏT" ƏSƏRİNDƏ

Alidə Quliyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrasının II kurs magistrantı
alidequliyeva117@gmail.com
Elmi rəhbər t.ü.f.d Sayad Mehti-zadə

Açar sözlər: *Dərbənd, Bakı, Şamaxı, Streys, holland*
Keywords*: Derbent, Baku, Shamakha, Streis, Holland*

Azərbaycan dövlətləri və şəhərləri, həmçinin bu ərazilərin iqtisadi imkanları əvvəlki illərdə olduğu kimi orta əsrlər dövründə də daima avropalıların diqqət mərkəzində olmuşdur. Hansı ki, kapitalist münasibətlərinin inkişafı avropalıları yeni müstəmləkələr ələ keçirməyə istiqamətləndirdi. Böyük Coğrafi kəşflər dövründən başlayaraq Avropa səyyahlarının Şərqə səyahətləri əvvəlki dövrlərlə müqayisədə daha geniş vüsət aldı. Bayandurlu və Səfəvi hakimiyyətinin ilk illərindən başlayaraq bir çox

Avropa səyyahları müxtəlif məqsədlərlə bu dövlətlərin ərazilərində müxtəlif istiqamətlərdə fəaliyyət göstərmişdilər. İstər siyasi, istərsə də iqtisadi məqsədlərlə Azərbaycan ərazisində olmuş müxtəlif səyyahlar sözügedən ərazilər, buradakı mövcud şəhərlər və onların iqtisadi, siyasi vəziyyəti haqqında dəyərli və dolğun məlumatlar vermişlər. XV-XVI əsr boyu Şərqə səfər edən müxtəlif Avropa ölkələrinin diplomatlarının məlumatları bizə orta əsrlər dövründə Azərbaycan şəhər həyatının müxtəlif aspektlərinin öyrənilməsində yaxından kömək edir. Həmçinin, Azərbaycan şəhərlərinin beynəlxalq ticarətdə oynadığı rolu haqqında daha ətraflı məlumatlar verir.

XVII əsrdə də Avropanın Şərqlə bağlı niyyətlərində demək olar ki, heç bir dəyişiklik baş vermir. Eyni qaydada müxtəlif Avropa diplomatları Səfəvi sarayına və bu dövlətin ərazisinə öz siyasi və iqtisadi məqsədlərini həyata keçirmək üçün gəlirdilər. Qeyd edək ki, XVII əsrdən başlayaraq Şərqə öz diplomatik nümayəndələrini göndərən Avropa ölkələrinin sırasına Hollandiya da daxil olur. XVII əsrdə Şərqə səyahət edən Avropa səyyahları içərisində Hollandiyadan olan səyyahlar xüsusi ilə fərqlənməyə başladılar. Hollandlar da digər Avropa ölkələri kimi Şərqdə ticarət hüquqları əldə etmək məqsədi ilə mübarizəyə qoşulmuşdular. Artıq 1640-cı illərdə bu ölkə öz iqtisadi gücünün zirvəsinə çatmışdı. Elə bunun nəticəsi idi ki, artıq XVII əsrdə holland dənizçiləri bütün məlum dünya ilə əlaqələr yaratmışdılar. Hollandların da diqqətini ingilislər kimi ucuz kənd təsərrüfatı xammalı cəlb edirdi. Hansı ki, Yan Streys də Moskava bazarları haqqında verdiyi qeydlərində istehsal mallarının ucuzluğundan danışmışdır. Hollandların əsas niyyətlərindən biri də o idi ki, Rusiya ərazisindən istifadə etməklə Şərqlə təmaslar yaratsınlar. Onlar bir növ XVI əsrdə ingilislərin yeritdikləri siyasəti davam etdirirdilər. Məlumdur ki, İngilis ticarət kompaniyası olan Moskva şirkəti Səfəvilər dövləti və digər Şərq ölkələri ilə iqtisadi əlaqələr yaratmış və geniş ticarət imtiyazları ala bilmişdirlər. Lakin XVII əsrin ikinci yarısında onların Şərqdəki fəaliyyətləri XVI əsrlə müqayisədə kəskin şəkildə azalmışdı.

Şərqə səfər edən holland səyyahlarından biri də yuxarıda adını çəkdiyimiz Yan Streys (*Jans Janszoon Struys*) idi. Məhşur holland dənizçisi olmuş Y.Streys 3 dəfə Şərqə səfər etmiş, o cümlədən 3-cü səyahəti zamanı Səfəvilər dövləti ərazisində də fəaliyyət göstərmiş və burada olduğu müddətdə gördüyü şeylər haqqında "Üç səyahət" adlı səyahətnaməsində yazmışdır. Y.Streysin məlumatları istər XVII əsr Azərbaycan şəhər həyatının öyrənilməsində, istərsə də Azərbaycan şəhərlərinin dünya ticarət əhəmiyyətinin öyrənilməsində mühüm mənbədir. Y.Streys öz əsərində Şərqdəki ticarət yolları, bazarlar, həmçinin Moskva və Şərq xalqlarının adət-ənənələrini təsvir edərkən gənc holland burjuaziyasının tapşırığını yerinə yetirirdi. Səyyah bütün Şərqdə holland tacirlərinin olduğunu qeyd edir və məmnunluqla yazır ki, bizim soydaşlarımız olan hollandlar bütün tacirlərin ən böyüyüdür və Persiya (Səfəvi) şahı hollandları geniş ticarət apardığı dostları hesab edir. Azərbaycanın müxtəlif şəhərlərində olan və həmin şəhərlər haqqında geniş məlumat verən səyyah hələ Həştərxanda olarkən burada fəaliyyət göstərən Azərbaycan tacirləri haqqında məlumat vermiş və buradaki ipək ticarətindən danışarkən ipəyin bu şəhərə, əsasən Şamaxıdan gətirildiyini vurğulamışdır. Səyyahın bu məlumatına istinad edərək biz bu gün deyə bilirik ki, Azərbaycan ipəyi

öz ticari əhəmiyyətini XVII əsr boyu ərzində də qoruyub saxlamışdır. Məhz elə bu dövrdə də Azərbaycan ipəyi Avropa ölkələrinin əvvəlki zamanlarda olduğu kimi əsas diqqət mərkəzlərindən biri idi.

Yan Streys müxtəlif Azərbaycan şəhərlərində olmuş və öz səyahətnaməsində onlar haqqında geniş məlumatlar vermişdir. Səyyahın məlumat verdiyi şəhərlərdən biri də Dərbənd idi. Səyyahın Dərbəndin iqtisadi həyatı, onun Səfəvilər dövlətindəki yeri haqqında dəyərli məlumatları vardır. Hansı ki, Yan Streys öz əsərində Dərbəndin geniş təsvirini verərək yazır ki, şəhər Xəzər dənizində Səfəvi şahına tabe olan ilk şəhərdir [5, s.236].

Həmçinin, Y.Streys şəhərin coğrafi mövqeyi haqqında danışaraq qeyd edir ki, Dərbənd Xəzər dənizindən İrana gedən yolu açır. Çünki ətrafda olan dağlar keçilməzdir [5, s.236]. Göründüyü kimi, səyyah şəhərinin ətraf əraziləri haqqında məlumatlı idi və buna görə də qayalıq ərazilərdən keçmək əvəzinə Dərbəndin daha əlverişli yol olduğunu vurğulamışdı. Məlumdur ki, Dərbənd həm də Cənubdan Şimala keçmək üçün ən əlverişli məntəqə idi. Streys həm də şəhərin adının onun coğrafi mövqeyi ilə bağlı olduğunu da dilə gətirir və şəhərin adının Dərbənd olmasını bununla əlaqələndirərək qeyd edir ki, Der açar, Bent isə dövlət və ya bölgə deməkdir [5, s.237]. Yəni səyyah şəhərin adını onun öncədən də qeyd etdiyimiz kimi keçid, açar rolu oynaması ilə əlaqələndirmişdir.

Y.Streysin Dərbənd haqqında məlumatlarından şəhərin yuxarı, aşağı və orta hissə adlanan üç hissədən ibarət olduğunu görürük. Və səyahətnamədən şəhərin hər bir hissəsi haqqında ayrıca məlumatlar da ala bilirik. Səyyah yazır ki, Dərbənd şəhəri 3 hissəyə bölünür ki, yuxarı hissə dağ üzərində yerləşir və burada saray və min əsgərdən ibarət qarnizon var [5, s.238]. Səyyah bu qarnizon haqqında məlumatlarında qeyd edir ki, onun burada yerləşdirilməsinin əsas məqsədlərindən biri kazakların hücumlarından qorunmaqdır. Qeyd edək ki, Yan Streysin məlumatlarının maraqlı tərəflərindən biri də onun öz əsərində Stepan Razin hərəkatına yer verməsi idi. Bu məlumatların əhəmiyyəti bizim üçün ondan ibarətdir ki, məlumatları verən səyyah həmin dövr üçün Azərbaycan da olmuş və gördüklərini, o cümlədən eşitdiklərini yazmışdır. Səyyah şəhərin digər hissələri haqqında da məlumat verərək bildirmişdir ki, aşağı hissə bağ və tarlalardan ibarətdir. Həmçinin, farsların (yəni Səfəvilərin) yaşadığı orta hissənin isə dağıldığını vurğulayır. Şəhərə yaxın ərazidə hündür gözətçi qüllələri mövcud idi ki, bunlar yaxınlaşan qüvvələri aşkar etmək imkanı verirdi. Səyyahın məlumatlarından da aydın olduğu kimi Dərbənd orta əsrlər dövrü üçün tipik olan tərzdə tikilmişdir. Əsərdə həmçinin, Yan Streys tərəfindən şəhərin ticarət əhəmiyyəti də göstərilmişdi. Səyyah özü yazır ki, "əgər azadlığa çıxsam, Hollandiya ticarət gəmisi ilə yenə bura qayıdacağam" [4, s.58]. Səyyah hollandiya burjuaziyasının mövqeyindən çıxış edərək Azərbaycandakı ipək ticarətinin Hollandiyaya istiqamətləndirilməsinin lazım olduğunu da qeyd edir. Onuda qeyd edək ki, səyyah burada ticarət imkanları ilə də maraqlanırdı. Bu baxımdan Y.Streys yazır ki, Hollandiyadan qalay, sink, parça və bu kimi holland məhsulları Xəzər dənizi vasitəsi ilə idxal oluna bilsə holland tacirləri Ərdəbil, Şa-

maxı və Dərbənd kimi şəhərlərdə həmin məhsulları yaxşı gəlirlə sata bilər [1, s.275]. Y.Streys əsərində Dərbənd əhalisi haqqındada məlumatlar vermiş və yazmışdır ki, Dərbənd şəhərində xristianlar yoxdur, burada müsəlmanlar və bir neçə yahudi var. Həmçinin, Dərbəndin ticarətindən danışarkən burada qul ticarətinin də mövcudluğu haqqında məlumatlar vermişdir. O cümlədən, Qızılbaşlar haqqında maraqlı məlumat verən səyyah yazır ki, Qızılbaşlar özləri ilə xüsusilə fəxr edir və onlara deyilən hər bir əhəmiyyətsiz sözü belə özlərinə təhqir hesab edirdilər [5, s.238].

Yan Streysin məlumat verdiyi digər Azərbaycan şəhərlərindən biri də Bakı şəhəri idi. Dərbənd şəhəri kimi Bakı haqqında da geniş məlumatlar verən səyyah yazır ki, Bakıdan Gilan körfəzinə kimi torpaq lilli və qumludur. Bütün sahil boyunca çoxlu gözəl çaylar, limanlar və kanallar var [5, s.231]. Təkcə mövcud olan çaylar, limanları təsvir etməklə kifayətlənməyən səyyah burada olan mövcud balıqçılıq haqqında da məlumatlar vermişdir. "Dəniz və çaylar balıqlarla zəngindir və fars (Səfəvi) şahı buradan böyük gəlir əldə edir" [5, s.231]. Verilən məlumatlara əsasən bir daha təsdiq olunur ki, Azərbaycanda təkcə ipək ticarəti deyil, həmçinin balıqçılıq ticarətidə geniş yayılmış və gəlirli sahə olmuşdur. Səyyahın özünün də qeyd etdiyi kimi Səfəvilər bu sahədən böyük qazanc əldə edirdilər. Səyyah Xəzər dənizinin geniş təsvirini vermiş və əsərində maraqlı məlumatlar əks etmişdir. Xəzər dənizi haqqında öz müşahidələrini qeyd edən səyyah yazır ki, "heç bir yerdən başqa yerə çıxışı görünmür və onu dənizdənsə qapalı göl adlandırmaq lazımdır" [5, s.232]. Göründüyü kimi Y.Streysin Azərbaycandakı müşahidələrində və yazdığı məlumatlarıda bütün detallar belə əks olunmuş və səyyah haqlı olaraq Xəzər dənizini göl adlandırmışdır. O cümlədən, Xəzər dənizi sahilindən 8-9 mil uzaqlıqda suyun təzə və duzlu olduğunu da vurğulamışdır.

Öncədən də qeyd etdiyimiz kimi səyyah Səfəvilər dövlətində balıq ticarəti və onun gəlirli sahə olduğu haqqında öz məlumatlarını əsərində vermişdir. Belə ki, Y.Streys yazır: "Şah ilin aprel ayından sentyabrına kimi balıq tutumunu icarəyə verir. Müəyyən olunmuş ərazidə başqa heç kimin balıq tutmasına icazə verilmir. Sadəcə icarəyə verilmiş hissələrdən kənarda balıq tutulması mümkün idi, amma burada da demək olar ki, balıq olmurdu." Səyyah Xəzər dənizində sazan, nərə balığı, qızılbalıq kimi balıq növləri haqqında məlumar verir və yazır ki, buradakı balıqlar bizdə olandan daha iridir [5, s.232]. Səyyahın öz əsərində balıqçılıq haqqında geniş və dolğun məlumatlar verməsi bu sahənin önəmini bir daha sübüt edir.

Y.Streysin "Üç səyahət" əsərində haqqında məlumat aldığımız digər bir Azərbaycan şəhəri Şamaxıdır. Səyyah Şamaxı şəhəri haqqında məlumatlarında bu şəhərin məşhur ticarət mərkəzi olduğunu deyir [2, s.127; 5, s.243]. Y.Streys Dərbəndlə Şamaxı şəhəri arasında məsafə haqqında məlumat verərək yazır ki, "Dərbənddən Şamaxıya yol adətən 6 gün çəkir, əslində şəhərlər bir-birinə o qədər də uzaqda olmasada çox dolanbac yollarla iki dağ keçməlisən" [5, s.246]. Səyyahın belə bir maraqlı qeydləri var ki, o, şəhərin əvvəlki dövrlərlə müqayisədə nisbətən kiçildiyini vurğulayır və bunun səbəbini Səfəvi-Osmanlı müharibələrində görürdü. "Qədim dövrdə şəhər daha böyük idi. Şah Abbasın türklərlə (osmanlılarla) apardı-

ğı müharibələr zamanı xeyli kiçilmişdi. Türkləri sığınacaqdan məhrum etmək üçün kiçik bir şəhərə çevrildi". Doğrudur, müharibələr şəhərin özünə, o cümlədən onun iqtisadi həyatına ağır zərbə vururdu, lakin Şamaxı öz əhəmiyyətini, xüsusilə ticari, qoruyub saxlayırdı ki, biz bunu səyyahın digər məlumatlarından aydın görə bilirik. Bu baxımdan şəhərin quruluşunu təsvir edən səyyah qeyd edir ki, "Həm cənub, həm də Şimal tərəfdə küçələr çox dar, evlər alçaq, torpaqdan, gildən, taxtadan tikilib. Şəhərin cənub hissəsində çoxlu çadırlar, xəz, ipək, pambıq və qızıl, gümüşlə toxunmuş yaylıqlar və bu kimi sənətkarlıq məhsullarının satıldığı böyük bazarlar yerləşir.Burada iki xüsusi böyük həyət var ki, bunlardan birincisi şah karvansarası adlanır və burada daha çox rus tacirləri mis, qalay kimi mallarla ticarət aparırlar. Digəri isə Ləzgi karvansarası adlanır və bura əsasən dağıstanlılar gəlir" [5, s.245]. Şəhərdə səyyahında qeyd etdiyi kimi böyük bazarların olması, karvansaraların mövcudluğu geniş ticarətin mövcudluğundan xəbər verir. Qeyd etmək lazımdır ki, Səfəvilər dövründə karvansaralar ticarətin inkişaf göstəricilərindən biri idi. Karvan yollarının üzərində mütləq karvansaralar olurdu [4, s.59].

Səyyah əsərində Şamaxı zəlzələsi haqqında məlumatlara yer vermiş və qeyd etmişdir ki, "Məni ən çox təəccübləndirən bu şəhərin dağılıb yerlə-yeksan olunmasına baxmayaraq, 3 ildən az vaxt ərzində yenidən qurulması idi. Burada zəlzələlər tez-tez olur, lakin 1667-ci ildə baş veräni qədim zamanların ən güclüsü idi. 80 mindən çox silah daşıya bilən kişi məhv olmuş, fəlakət təkcə Şamaxını deyil, onun ətrafınıda bürümüşdü" [5, s.246]. Səyyahın da sözlərindən məlum olduğu kimi 1667-ci il zəlzələsinin Şamaxı şəhərinə mənfi təsirləri çox olmuşdur. Həmçinin, səyyah 1670-ci ildə olan digər bir zəlzələ haqqında da məlumat vermişdir ki, bunun digər bir önəmi bu dövr üçün Səfəvi-Hindistan əlaqələrini müəyyən etməyə kömək edir. Səyyah zəlzələdən hinduların narahat olduğunu və 100-dən çox tacirin şəhər ətrafına toplaşaraq suya düyü, lobya tökdüklərini və quşlara, balıqlara verərək bəzi rituallar həyata keçirdiklərinini yazır. Streyan onu da qeyd edir ki, hindular öz adət-ənənələrini yerinə yetirmək üçün şahdan icazə alırdılar [6, s.229]. Bu məlumatlar göstərir ki, hind tacirləri Səfəvilər ərazisində ticarət fəalliyyətləri aparmışdırlar.

Yan Streysin "Üç səyahət" adlı səyahətnaməsində Azərbaycan haqqında verilən bu məlumatlar XVII əsrin ikinci yarısında ölkədə mövcud iqtisadi,siyasi və sosial vəziyyətin öyrənilməsində, o cümlədən Azərbaycan şəhərlərində müxtəlif tacirlərin fəaliyyətləri, bu şəhərlərin XVII əsr üçün beynəlxalq ticarətdəki tutduqları yeri müəyyən etmək baxımından əhəmiyyətlidir.

Ədəbiyyat siyahısı:

1.Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. İkinci nəşri. Bakı: Təhsil, 2012, 296 s.
2.Mahmudov Y.M. Seçilmiş əsərləri, II cild. Bakı: Təhsil, 2011, 616 s.
3.Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı: Gənclik, 1980, 120 s.
4.Mehti-zadə S.Ç. "XVII əsr Azərbaycan şəhərlərinin ticarət həyatı Yan Streysin məlumatlarında". Qərbi Kaspi Universiteti. Elmi Xəbərlər № 3, 2021, s. 56-64.
5.Стрейс Я.Я. Три путешествия / Перевод Э.Бородиной. Москва: Соцэкгиз, 1935, 383 с.
6. Karimli S. "Historical Silk Road-intercultural and trade communication between India and Azerbaijan". The XIII International Scientific Symposium, 2021, p.229-234.

BAYANDURLU-QARAMAN ƏLAQƏLƏRİ

Mətin Quliyev
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrasının II kurs magistrantı
metinguliyev13@gmail.com
Elmi rəhbər: akademik Yaqub Mahmudov

Açar sözlər: *Qaraman bəyliyi, İshaq bəy, Osmanlı, Bayandurlu, müttəfiqlik*
Keywords: *Karamanids, Ishak of Karaman, Ottoman, Bayandurlu, alliance*

Qurulduğu dövrdən etibarən həm şərqdə, həm də qərbdə genişlənmə siyasəti yürüdən Osmanlı dövləti Əmir Teymur tərəfindən 1402-ci ildə Ankara döyüşündə məğlubiyyətə uğramış və güclü zərbə almışdı. Bu vuruşma nəticəsində Əmir Teymur Anadolu bəyliklərinə müstəqilliklərini geri qaytarsa da, gücünü yenidən toplayan Osmanlı dövləti hakimiyyət sahəsini genişləndirməyə davam etmişdi. Artıq XV əsrin 60-cı illərində Anadoluda Osmanlının təhlükə hesab etdiyi yeganə siyasi qurum Qaraman bəyliyi qalmışdı. Qaraman bəyliyi isə ənənəvi olaraq düşmənçilik etdikləri Osmanlı dövlətinə qarşı müttəfiq axtarışında idi. Bu axtarış öz nəticəsini vermiş və ümumi düşmənə qarşı Bayandurlular ilə yaxınlaşma baş vermişdi.

Əlaqələri doğuran siyasi proseslər və hadisələrin gedişatı: 1453-cü ildə Konstantinopolun Osmanlılar tərəfindən fəth edilməsi nəticəsində Şərq–Qərb ticarət yolu Osmanlıların nəzarətinə keçdi. Osmanlıların yüksək vergi tətbiq etməsi və gələcək işğallara hazırlıq görməsi rəqibləri arasında narazılıq yaratdı. Bizans dövründən geniş ticarət imkanlarına malik olan Venesiya dövləti Konstantinopolun süqutu ilə bu səlahiyyətlərini qısa müddətə itirsə də, 1454-cü il 18 aprel müqaviləsi ilə həmin imtiyazları bərpa etdi [3, s.99]. Lakin bu qısa fasilə ərzində Venesiya artıq 1453-cü ildə Qaraman bəyliyi ilə saziş imzalamışdı. Boğazların Osmanlıların əlinə keçdiyi dövrdə Qara dəniz ticarətindən sıxışdırılan Venesiya həmin müqaviləyə əsasən Qaraman ərazisi vasitəsilə Şərqlə geniş ticarət imtiyazları əldə etmişdi [3, s.104].

Venesiya 1463-cü ildə Osmanlı ilə müharibəyə başlamasına qədər Osmanlının şərq qonşuları ilə yalnız iqtisadi əlaqələr qurmağa üstünlük verirdi. Bu səbəbdən XV əsrin 50-ci illərində Osmanlıya qarşı şərq ölkələri ilə siyasi əlaqələrin qurulmasına Roma papaları rəhbərlik edirdilər. Bu dövr həm də Osmanlıların rəqibi olan Bayandurluların Avropa dövlətləri ilə ilk təmaslarına təsadüf edir. Bu əlaqələr təsadüfi deyildi. Belə ki, Bizansın süqutundan sonra Trabzon Rum imperiyası özünü Bizansın varisi hesab edir və Konstantinopolun süqutundan sonra Qərb dövlətləri ilə əlaqələri genişləndirmişdi. Trabzonun müttəfiqi olan Bayandurlular da bu danışıqlara daxil idi. 1458-ci ildə Roma papası Bolonyalı Lüdoviq vasitəsilə Bayandurlu–Papa–Trabzon ittifaqını qurdu. Bütün bu siyasi proseslərin fonunda ortaq düşmənə qarşı birləşmək məqsədilə Bayandurlu və Qaraman arasında da siyasi danışıqlar gedir və ittifaq qurulurdu.

Bayandurlu və Qaraman bəylikləri arasındakı ilk təmaslar Uzun Həsən və İbrahim bəy dövrlərinə təsadüf edir. Osmanlıların Anadoluda güclənməsi onları rəqib kimi görən Qaraman bəyliyini Osmanlının digər rəqibi olan Bayandurlular ilə ittifaq qurmağa təşviq edirdi. Fateh Sultan Mehmedin Konstantinopolun fəthindən sonra Balkanlara genişlənməsi və daha sonra Anadoluda türk siyasi birliyini qurmağa çalışması Qaramanlılar üçün böyük təhlükə yaradırdı [5, s.65]. 1461-ci ildə Trabzonun Osmanlılar tərəfindən ələ keçirilməsi Qaramanın Bayandurlular üçün əhəmiyyətini daha da artırdı. Qaraman bəyliyi Bayandurlular üçün geostrateji baxımdan önəmli idi. Bunun bir neçə səbəbi var idi:

1. Qaraman bəyliyinin ərazisi Anadolunun cənubunda Aralıq dənizi sahilində yerləşirdi və şərq–qərb ticarət yolunun əsas arteriyalarından birini təşkil edirdi.
2. Qaraman bəyliyinə hakim olan qüvvə Anadolunun digər bölgələrində də üstünlük əldə edə bilərdi.
3. Bayandurluların Avropa dövlətləri ilə əlaqələrində odlu silahları Aralıq dənizi vasitəsilə Qaraman ərazisindən gətirmək zərurəti yaranırdı.

1463-cü ildə Venesiya–Osmanlı müharibəsi başladı. Venesiya öz diplomatları vasitəsilə həm şərqdə, həm də qərbdə müttəfiqliklər qurmağa girişdi. Venesiya senatı 1463-cü il 2 dekabrda Osmanlıya qarşı Asiyada Qaraman bəyliyi ilə ittifaqa girməyi qərara aldı [3, s.103]. Bu vəzifə Venesiya diplomatı Andrea Kornaroya tapşırıldı. O, Qaraman bəyi İbrahim bəyi Osmanlıya qarşı müharibəyə başlamağa təşviq etməli və dəstək olaraq hücum zamanı altı hərbi gəminin göndəriləcəyini bildirməli idi. Əldə ediləcək torpaqlar Qaraman bəyliyinə vəd olunurdu. Müqabilində isə Qaraman bəylərinə Venesiyadan xəbərsiz Osmanlılarla sülh bağlamaq qadağan edilirdi. Osmanlının əzəli rəqibi olan Qaraman bəyliyi bu təklifi dərhal qəbul etdi.

Lakin, Osmanlının ən böyük düşməni və Çələbi Sultan Mehmedin (1412-1421) kürəkəni Karamanoğlu İbrahim bəy (1424-1463) otuz doqquz il padşahlıq etdikdən sonra vəfat edərək taxtını varisi və böyük oğlu İshaq bəyə buraxdı [2, s.101]. İbrahim bəyin digər oğlanlarının buna qarşı çıxması qonşu dövlətlərin məsələyə müdaxiləsini labüd etdi. İshaq bəy bəylərin bir qisminin dəstəyini alırdı, ona qarşı çıxan qardaşı Pir Əhməd isə Osmanlılara arxalanırdı. İshaq bəy əvvəlcə Silifkəyə çəkildi, nəticədə Osmanlı dəstəyi ilə Pir Əhməd Konyada taxta oturdu. İshaq bəy əvvəlcə Məmlüklərə müraciət etsə də, yardım ala bilməyəcəyini anlayaraq Bayandurlu Uzun Həsənə üz tutdu.

Trabzonun süqutundan sonra Qaramanın əhəmiyyəti artdığı üçün Uzun Həsən İshaq bəyi məmnuniyyətlə dəstəklədi. Bayandurlu dəstəyi ilə İshaq bəy hücuma keçərək Zülqədəroğulları hökmdarı Məlik Arslanla döyüşdü və onu məğlub etdi. Ardınca Uzun Həsən Qaraman yürüşü edərək Pir Əhmədi hakimiyyətdən uzaqlaşdırdı və İshaq bəyi yenidən taxta çıxardı. Konyada adına xütbə oxutdurub sikkə zərb etdirən İshaq bəy Bayandurlulara Aralıq dənizinə çıxış, Anadolunun mərkəzinə və qərbinə istiqamətli gələcək ekspansiyalar üçün strateji imkanlar yaratmış oldu.

Zülqədəroğulları vasitəsilə Məmlüklər də hadisələrə müdaxilə edirdilər. Məmlüklər ikili siyasət yürüdür, həm Zülqədəroğullarına əlavə qüvvə göndərərək İshaq

bəyə hücum etməyə təşviq edir, həm də Bayandurluların Pir Əhmədə qalib gəlməsini məmnunluqla qarşılayırdılar. Məmlüklərin əsas məqsədi Osmanlıları bölgədən uzaq saxlamaq idi.

İshaq bəy tərəfindən məğlub edilən Pir Əhməd Osmanlılara sığındı. II Mehmedin Qaramanı dəstəkləməsinin əsas məqsədi Bayandurluları bölgədən uzaqlaşdırmaq idi. İshaq bəy bəzi Qaraman torpaqlarını sultana təklif etsə də, II Mehmed bu torpaqların qanuni olaraq Osmanlıya aid olduğunu bildirdi və təklifi rədd etdi. Pir Əhməd Osmanlı ordusunun köməyi ilə yenidən taxta qayıtdı və söz verdiyi bəzi Qaraman torpaqlarını Osmanlıya təslim etdi. İshaq bəy yenidən Bayandurlulara sığındı. 1466-cı ildə Pir Əhmədlə mübarizədən nəticə ala bilməyən İshaq bəy Diyarbəkirə çəkildi və həmin il vəfat etdi.

Osmanlı dəstəyi ilə mövqeyini möhkəmləndirən Pir Əhməd sonradan Osmanlılara qarşı çıxdı. II Mehmedin Avropada yürüşdə olmasından istifadə edərək güzəştə getdiyi əraziləri geri aldı və Uzun Həsənlə Osmanlıya qarşı ittifaq qurdu. Lakin II Mehmedin Anadoluda başladığı əməliyyatlar Qaraman qüvvələrini geri çəkilməyə məcbur etdi. Mahmud Paşa komandanlığında Qaraman ərazisində saxlanılan Osmanlı qoşunları Qaraman–Bayandurlu birləşmiş qüvvələrini məğlub etdi. Torpaqlar Tarsusa qədər Osmanlı hakimiyyətinə keçdi. Tarsusda da müqavimət göstərə bilməyən Pir Əhməd Uzun Həsənin yanına sığındı.

Bu hadisələrdən sonra Uzun Həsən özünü Qaramanın tam hamisi hesab edir, keçmiş bəylərdən dəstək toplayırdı. Şərqdəki düşmənlərini məğlub etmiş Uzun Həsən bütün gücünü Osmanlı üzərinə yönəltdi. Beləliklə, Bayandurlular Avropa dövlətləri ilə bağladıqları ittifaqa uyğun olaraq 1472-ci ilin yazında Osmanlıya qarşı Qaraman torpaqlarına yürüşə başladılar. Bayandurlu qoşunlarına Bəktaş oğlu Ömər başçılıq edirdi. Qaraman bəylərinin iştirakı ilə hücum uğurlu oldu: əvvəlcə Tokat, daha sonra isə Qeysəriyyə, Ağsaray və Ağşehir ələ keçirildi və qoşunlar Qaraman ərazisinə daxil oldular [3, s.133]. Osmanlı qüvvələri geri çəkildi və Bayandurlu ordusu Aralıq dənizi sahillərinə çıxdı. Lakin Avropa dövlətlərindən gözlənilən odlu silahların gəlməməsi Uzun Həsənin Qaraman torpaqlarında möhkəmlənməsinə imkan vermədi. 1473-cü ildə Otluqbeli döyüşündə Bayandurlular məğlub oldu. Bu məğlubiyyət nəticəsində Osmanlıların Qaramanda möhkəmlənməsinə tam olaraq şərait yaratdı. 1474-cü ildə Gedik Ahmed Paşa, Torosları və Aralıq dənizi sahillərini işğal edərək Qaramanın fəthini tamamladı [1, s.115].

Pir Əhməd qardaşı Qasım bəylə bir müddət daha müqavimət göstərsə də, nəticə əldə edə bilmədi və 1474-cü ildə Uzun Həsənin ona iqta olaraq verdiyi torpaqda vəfat etdi [4, s.69].

Pir Əhmədin ölümündən sonra Qaraman bəyliyi ərazilərinin iddiaçısı Qasım bəy oldu. Bu dövrdə ən mühüm hadisə II Mehmedin ölümündən (1481) sonra Osmanlıda başlayan taxt mübarizəsi idi. II Mehmedin oğulları Bəyazid və Cem Sultan arasında gedən mübarizədə Qasım bəy, Qaraman torpaqlarının ona qaytarılması müqabilində Cem Sultanı dəstəklədi. Bu prosesdə Qasım bəy Bayandurlulardan da yardım aldı, lakin Cem Sultanın mübarizədə uğursuzluğu Qaraman bəyliyinin

də taleyini müəyyən etdi və Qasım bəyin 1483-cü ildə ölümü ilə bəyliyin tam süqutu baş verdi.

Qaraman bəyliyi XV əsrin ortalarında dövrün ən qızğın siyasi proseslərində iştirak etmiş və Yaxın Şərq regionun böyük dövlətlərinin meydan müharibələrinə şahidlik etmişdir. Bu prosesdə Qaraman bəyliyi Bayandurlu bəyliyi ilə geniş müttəfiqlik siyasəti güdmüş və yeri gələndə onun himayəsinə daxil olmuşdur. Lakin Avropanın şərqdəki müttəfiqlərinə qarşı laqeyd olması, onları dövrün ən müasir silahlı qüvvəsinə sahib olan Osmanlı qarşısında yalnız buraxması müttəfiqlərin bu mübarizədə qələbə qazanmasını mümkünsüz etmiş və bu proseslər Qaraman bəyliyinin siyasi səhnədən tam olaraq getməsini labüd etmişdi.

Ədəbiyyat siyahısı:

1. *İnalcık H. Devleti Devlet-i 'Aliyye (I cild). İstanbul: Türkiye İş Bankası, 2020, 378 s.*
2. *Kılıç R. Fatih devri (1451-1481) Osmanlı-Akkoyunlu ilişkileri. Sosyal Bilimler Enstitüsü Dergisi, Sayı 14, 2003/1 ,s. 95-118 s.*
3. *Mahmudov Y. Azərbaycan diplomatiyası. Bakı: Təhsil, 2006, 416 s.*
4. *Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında) . Bakı: Çaşıoğlu, 2012, 604 s.*
5. *Yıldırım H. Karamanoğulları beyliği'nin Anadolu beylikleri ve devletleriyle ilişkileri. Karaman: Yüksek Lisans Tezi, Karamanoğlu Mehmetbey Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Tarih Ana Bilim Dalı, 2023, 115 s.*

TÜRKİYƏ- PAKİSTAN STRATEJİ ƏMƏKDAŞLIĞININ ƏSAS İSTİQAMƏTLƏRİ

Pərzad Mirzəzadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Asiya və Afrika ölkələri tarixi" kafedrasının II kurs magistrantı
mirzezadeperzad03@gmail.com
Elmi rəhbər: dosent Qismət Davudov

Açar sözlər: *Pakistan, Türkiyə, Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası, diplomatik əlaqələr, strateji tərəfdaşlıq, müqavilə*
Keywords: *Pakistan, Turkey, High-Level Strategic Cooperation Council, diplomatic relations, strategic cooperation, agreement*

Türkiyə və Pakistan arasında Pakistanın yaranmasından etibarən möhtəşəm və qardaşlıq xarakterli ikitərəfli münasibətlərə malikdir. Hər iki ölkə arasında mehriban münasibətlər unikaldır, çünki iki xalq arasında dərin qardaşlıq hissləri olduqca qeyri-adi və səmimidir. Həmçinin hər iki dövlət müxtəlif beynəlxalq və regional məsələlərdə ortaq baxışlara sahibdir. Türkiyə və Pakistan dini, sosial və tarixi bağlar paylaşır. Eyni zamanda hər iki ölkə mühüm geostrateji əhəmiyyətə malikdir. Onların siyasi, iqtisadi və hərbi potensialı hər iki dövləti müsəlman dünyasında mərkəzi güclərə və aparıcı ölkələrə çevirir. Bu əməkdaşlıq Pakistan və Türkiyənin

regional və qlobal təhlükəsizlik məsələlərində qarşılıqlı dəstəklə birgə milli maraqlarını qorumağa istiqamətlənmişdir.

Siyasi münasibətlər hər iki ölkə arasında diplomatik əlaqələrin qurulması ilə 1947-ci ildə başladı. Türkiyə Pakistanı Birləşmiş Millətlər Təşkilatında müstəqil suveren dövlət kimi qəbul etdi və Pakistanın stabilləşdirilməsinə siyasi dəstək verdi. Keçmişdən fərqli olaraq, 1990-cı illərdə iki ölkə arasındakı ikitərəfli münasibətlərdə durğunluq müşahidə olundu. Onların müttəfiqliyinə baxmayaraq, Pakistan və Türkiyə qlobal məsələlərin çoxunda siyasət və baxışlarının uyğunluğuna rəğmən bəzi beynəlxalq məsələlərə yanaşmalarında fikir ayrılığı yaşayırdılar. Bu fikir ayrılığına ən bariz nümunə 1990-cı illərdə Əfqanıstanla bağlı tutduqları fərqli mövqelər idi. 1989-cu ilin fevralında Sovet qoşunlarının çıxmasından sonra başlayan vətəndaş müharibəsi dövründə Pakistan Talibanı dəstəkləyirdi, halbuki Türkiyə Şimal İttifaqını müdafiə edirdi. Bu həmin dövrdə onların fərqli geosiyasi strategiya və maraqlarını əks etdirirdi [5, s.68].

Lakin bu dövrdə baş vermiş mühüm inkişaflardan biri 1992-ci ildə baş nazir Süleyman Dəmirəlin Pakistan səfəri oldu. Bu səfərdə o, münasibətlərin iqtisadi aspektini vurğuladı. Türkiyə Pakistanın avtomagistral layihəsinə 600 milyon dollar sərmayə qoydu və bir türk şirkəti Pəşəvər-İslamabad 165 km uzunluğunda avtomobil yolunun tikintisi üçün tender qazandı. 1993-cü ildə tarixdə ilk dəfə olaraq Türkiyə və Pakistanın baş nazirləri eyni anda qadın oldu. Bənazir Bhuttonun Türkiyəyə ilk rəsmi səfəri uğursuz alındı, çünki Tansu Çiller onu İstanbulda qəbul etmədi və onun səfərinin İstanbul hissəsi ixtisar edildi. Bu, Pakistan tərəfindən xoş qarşılanmadı. Dəmirəl dövründə avtomobil yolunun layihəsi ilə bağlı əldə edilmiş razılaşma Bhutto Türkiyəyə səfər etdikdən dərhal sonra ləğv edildi ki, bu da diplomatik gərginlik yaratdı. İslamabad və Ankara arasında yaranan gərginliyə cavab olaraq, Türkiyə Pakistan pambığının idxalına kvota tətbiq etdi [4, s.20].

Lakin, 1994-cü ildə həm İslamabad, həm də Ankara Bosniya müharibəsi ilə bağlı ortaq mövqe tutdular ki, bu da iki ölkə arasındakı gərgin münasibətləri yumşaltdı. Bhutto və Çiller birlikdə Bosniya-Herseqovinanı ziyarət edərək dünya ictimaiyyətinin diqqətini bosniyalıların çəkdiyi əziyyətlərə yönəltdilər.

1990-cı illərin ikinci yarısı hər iki ölkədə daxili siyasi qarışıqlıqlar müşayiət olundu, nəticədə pmanda Pakistanın daxili sabitliyini dəstəkləmək üçün çalışdı. Pakistan və Türkiyə əsas qlobal islami məsələlərdə uyğun mövqe sərgiləməyə davam etdilər. Hər iki ölkə davamlı olaraq Fələstin məsələsini dəstəkləyib, İslamofobiyanın artmasına qarşı fəal mövqelər nümayiş etdirmişdir. Vahid İslam bloku formalaşdırmaq ideyası, onların müsəlman dünyasında liderlik ambisiyalarını əks etdirir [10].

11 sentyabr 2001-ci il hadisələrindən sonra baş verən inkişaflara baxdıqda, onların davam edən tərəfdaşlığının sadəcə ortaq fikirlərə əsaslanan iqtisadi əməkdaşlıqdan fərqləndiyi, xüsusi olaraq kəşfiyyat, müdafiə sənayesi və terrorizm və təşkilatlı cinayətkarlığı ölkələrində əngəlləmək məqsədilə strateji əməkdaşlığa yönəldiyi görünür. Pakistan–Türkiyə münasibətləri Rəcəb Tayyib Ərdoğanın hakimiyyəti dövründə daha da gücləndi 2003-cü ildə İstanbuldakı Əl-Qaidə hücumu nəti-

cəsində 60 nəfər həlak olmuş, 650 nəfər yaralanmışdı. Bu, Türkiyə üçün ciddi təhlükəsizlik təhdidi idi. Əl-Qaidə ölkədə təsirini artırır, türk kürdlərindən və pakistanlılardan terror fəaliyyətləri üçün istifadə edirdi. 2004-cü ilin yanvarında Ankara və İslamabad Beynəlxalq Terrorizm və Təşkilatlanmış Cinayətkarlıqla Mübarizə haqqında Sazişi imzaladılar. Terrorizmə qarşı mübarizə bu sazişin əsas istiqamətlərindən biri idi [3, s.66].

Bu əsrin ilk onilliyi ərzində Pakistan iki təbii fəlakət yaşadı: 2005-ci ilin oktyabr zəlzələsi və 2010-cu il daşqınları. Türkiyə bu iki böyük təbii fəlakət zamanı Pakistana böyük yardım göstərdi. O, xilasetmə qrupları, səhiyyə və ərzaq təminatı ilə yanaşı müxtəlif yardım göndərdi. Daşqınlar Pakistanın kənd təsərrüfatını və infrastrukturunu demək olar ki, tamamilə məhv etmişdi. Türkiyə Pakistana dəstək olmaq üçün ictimai və özəl yardım təşkilatlarını səfərbər etdi.Türkiyə, həmçinin, Əfqanıstandakı Taliban üsyanı ilə bağlı Pakistan və Əfqanıstan arasında mövcud olan dərin etimadsızlıq və fikir ayrılığı məsələsində hər iki ölkəyə diplomatik dəstək göstərdi. O hər iki ölkənin liderlərini 29 aprel 2007-ci ildə Ankarada keçirilən üçtərəfli sammitə topladı. Əfqanıstan prezidenti Həmid Kərzai və Pakistan Prezidenti Müşərrəf ilə aparılan danışıqlardan sonra üç ölkə arasında əməkdaşlığın yaxşılaşdırılmasına dair Ankara Bəyannaməsi qəbul edildi. Üçtərəfli sammit növbəti illərdə də davam etdirildi. Biznesmenlər üçün vizaların yüngülləşdirilməsi sahəsində əlavə əməkdaşlıq axtarıldı Türkiyə həmçinin Pakistanın F-16 qırıcı təyyarələrinin modernləşdirilməsinə başladı. Bu dövr hər iki ölkə liderlərinin tez-tez yüksək səviyyəli qarşılıqlı səfərləri ilə də xarakterizə olunurdu [4, s.21].

2009-cu ildən bəri Türkiyənin Pakistana birbaşa investisiyalarının həcmi 300 milyon dollardan artıq olmuşdur. "Koç Holdinq"in məişət texnikası üzrə törəmə şirkəti olan "Arçelik" 2016-cı ildə Pakistanın "Dawlance" şirkətini 258 milyon dollara satın almışdır [3, s.68].

Pakistan 15 iyul 2016-cı ildə Türkiyədə baş vermiş qanlı dövlət çevrilişi cəhdini ən sərt şəkildə qınamışdır. Baş nazir Nəvaz Şərif dünyadakı ilk liderlərdən biri olaraq Prezident Rəcəb Tayyib Ərdoğana zəng etmiş və Pakistanın Türkiyə xalqına, rəhbərliyinə və seçilmiş hökumətinə qəti dəstəyini və həmrəyliyini ifadə etmişdir [9].

Pakistan və Türkiyə 2010, 2017 və 2022-ci illərdə ikitərəfli əlaqələrin gücləndirilməsinə dair razılaşmalar imzalamışdır. Eyni zamanda, Pakistan Türkiyənin müdafiə sənayesi ixracı üçün əsas bazarlardan biridir və bu, Ədalət və İnkişaf Partiyasının (AKP) hökuməti üçün mühüm maliyyə prioriteti hesab olunur [1, s.522].

Türkiyə Hindistanın Kəşmir müsəlmanlarının insan haqlarını kobud şəkildə pozmasını açıq şəkildə qınayan azsaylı ölkələrdən biri olmuşdur. 2017-ci ildə, Hindistanın narazılığına baxmayaraq, Türkiyə Prezidenti Ərdoğan Yeni Dehli səfəri zamanı Kəşmirdə yaşayanların əziyyətlərinin azaldılması üçün səylər göstərilməsini tələb etmişdir. Baş nazir İmran Xan Prezident Ərdoğana dəstəyi üçün təşəkkür etdi: "BMT Baş Assambleyasında Kəşmirlilərin hüquqlarını dəstəklədiyi üçün Prezident Rəcəb Tayyib Ərdoğana bir daha dərin təşəkkürümü bildirirəm". O, Türkiyəni Kəş-

mirlilər üçün öz müqəddəratını müəyyənləşdirməkdə güc mənbəyi kimi qiymətləndirdi və bununla Türkiyə Prezidentinin ifadələrini təkrarlamışdır [2, s.8].

2016–2021-ci illər ərzində Türkiyənin STM şirkəti Pakistanın "AGOSTA 90B" tipli sualtı qayıqlarını modernləşdirərək onları qabaqcıl sonar sistemləri və silahlarla təchiz etmişdir. Pakistanın F-16 döyüş təyyarələri də Türk Hava Sənayesi tərəfindən modernləşdirilmişdir ki, bu da texniki əməkdaşlığın dərinləşdiyinin əlavə göstəricisidir. Türkiyə Pakistanın "Super Mushshak" təyyarələrini əldə etmiş, Pakistan isə "Akıncı", "Anka" və "TB-2" modelləri daxil olmaqla Türk pilotsuz uçuş aparatlarını (PUA) satın almışdır. Türkiyənin qlobal silah bazarında, xüsusilə PUA istehsalında möhkəm gücə çevrilməsi Pakistan tərəfindən müsbət qarşılanmışdır [8].

İkitərəfli səfərlər münasibətlərin inkişafına töhfə vermişdir. Türkiyənin Xarici İşlər naziri M. Çavuşoğlu 12-14 yanvar 2021-ci il tarixində Pakistana rəsmi səfər edib, Prezident Arif Alvi ilə görüşmüş və "Hilal-e Pakistan" medalı ilə təltif olunmuşdur. Səfər zamanı tərəflər siyasi, hərbi və təhsil sahələrində əməkdaşlığı müzakirə etmiş, Türk Maarif Fondunun fəaliyyəti ilə bağlı anlaşma memorandumu imzalanmışdır. Mövlud Çavuşoğlu həmçinin Karaçidə Türkiyə Baş Konsulluğunun yeni binasının açılışında iştirak etmişdir [11].

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 13 fevral 2025-ci ildə İslambada Pakistan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının 7-ci sessiyasını idarə etmək üçün gəlmişdir. Ümumilikdə 24 saziş və memorandum imzalanmışdır. Bunlar müdafiə enerji və mədənçilik, ticarət və sənaye, su və toxum istehsalı, elmi təhsil, bankçılıq, dini xidmətlər, halal qida, media, hüquq, səhiyyə, aerokosmik sənaye və mədəniyyət sahələrini əhatə edir [7].

Qeyd etmək lazımdır ki, Pakistan Türkiyənin Şərqi Aralıq dənizi, Liviya və Kipr ilə bağlı mövqeyini dəstəkləyir. Hər iki dövlət Əfqanıstanda stabilliyin təmin olunmasını müdafiə edir və bölgədə radikal qüvvələrlə mübarizədə oxşar narahatlıqlarını bölüşür.

Türkiyə və Pakistan arasındakı münasibətlər tarixi dostluq və qarşılıqlı etimada əsaslanır. 1990-cı illərdə siyasi və iqtisadi çətinliklər ikitərəfli əlaqələrdə durğunluq yaratmış olsa da, sonrakı illərdə hər iki ölkə strateji, iqtisadi və hərbi əməkdaşlığı gücləndirmişdir. Pakistan və Türkiyə münasibətlərində fikir ayrılıqları olsa da, bu, münaqişə və sərt rəqabətdən çox, qarşılıqlı geosiyasi və regional kontekstlərdə fərqli strategiyaların ifadəsi kimi başa düşülməlidir. Bu fərqliliklərə baxmayaraq, ortaq dəyərlər və regional təhlükəsizlik maraqları onların tərəfdaşlığını daha da möhkəmləndirmişdir. Həmçinin regional konfliktlərin həllində Türkiyə və Pakistanın vasitəçilik missiyasını gücləndirir və gələcəkdə daha geniş əməkdaşlıqlar üçün zəmin yaradır. 2001-ci ildən sonra terrorizm, müdafiə sənayesi və iqtisadi investisiyalar sahəsində tərəfdaşlıq ön plana çıxmış, son illərdə isə yüksək səviyyəli strateji əməkdaşlıq çərçivəsində çoxşaxəli sazişlər imzalanmışdır. Bu da Pakistan-Türkiyə münasibətlərinin yalnız tarixi dostluqdan ibarət olmayıb, həm də regionda strateji əhəmiyyət daşıyan davamlı bir tərəfdaşlıq olduğunu göstərir.

Ədəbiyyat siyahısı:

1. *Bukhari Ahmed Hussain Shah, "Pakistan-Türkiye Bilateral Relations: A Historical Perspective." Journal of Development and Social Sciences 5, no. 4 (2024): s.521–528.*
2. *Mohydin Ravale. Turkey and Pakistan's Foreign Policy Congruence: A Co-orientation Analysis of Political Messaging. TRT World Research Centre Discussion Paper, November 2020, 18 s.*
3. *Pak-Turk Strategic Framework and Geo-Economic Relations in post 9/11 Era: A war Forward for Strong Partnership s.63-72.*
4. *Sheharyar Khan M. Dynamics of Pakistan–Turkey relations. Pakistan Review of Social Sciences, 2020, p.14–24.*
5. *Shkurti Özdemir, Gloria, and Rizwan Zeb. "Dynamics of Pakistan-Türkiye Relations in a Challenging Global Order."Strategic Studies 44, 2025, p.64-88 .*
6. *Ahsan, A. (2023, September 14). Turkey – Pakistan Relations. Russian International Affairs Council. https://russiancouncil.ru/en/blogs/alahsan/turkey-pakistan-relations/*
7. *Arab News. (2025, February 13). Pakistan, Türkiye sign 24 agreements during Erdoğan visit. https://www.arabnews.com/node/2590075/pakistan*
8. *Cheema, A. S. (n.d.). The Pakistani-Turkish Relationship. Daily Times. https://dailytimes.com.pk/1283108/the-pakistani-turkish-relationship/*
9. *Daily Sabah. (2017, March 23). Turkey, Pakistan celebrating 70 years of friendship. https://www.dailysabah.com/op-ed/2017/03/23/turkey-pakistan-celebrating-70-years-of-friendship*
10. *The Türkiye–Pakistan nexus: Strategic implications for maritime India. https://maritimeindia.org/the-turkiye-pakistan-nexus-strategic-implications-for-maritime-india/*
11. *Türkiye–Pakistan ikili ilişkileri. (2022). Türkiye Cumhuriyeti İslamabad Büyükelçiliyi. https://islamabad-be.mfa.gov.tr/Mission/ShowInfoNote/351926*

HÜLAKÜLƏRİN İDARƏÇİLİK SİSTEMİNDƏKİ YENİLİKLƏR VƏ ONLARIN REGİONA TƏSİRİ

Orxan Eyyubov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Asiya və Afrika ölkələri tarixi" kafedrasının II kurs magistrantı
orxaneyyubov7@gmail.com
Elmi rəhbər: t.ü.f.d., dos. Kəmalə Sofiyeva

Açar sözlər: *Hülakülər dövləti, N. Tusi, Böyük Yasa, Qazan xan, Olcaytu, F. Rəşidəddin*
Keywords: *Hulaguids state, N. Tusi, Great Yassa, Ghazan khan, Öljaitü, F. Rashid al-Din*

Türk dünyası tarixində mühüm rol oynamış Hülakülər dövləti türklərin Yaxın Şərqdə daha da güclənməsinə və dövlətləşmə prosesində irəliləməsinə gətirib çıxarmışdır. Monqollar Yaxın Şərqə gəlməmişdən öncə bölgədə siyasi parçalanma hökm sürürdü. Keçmiş abbasi–səlcuqlu dövlət sisteminin təsiri artıq xeyli zəifləmişdi. Səlcuqlular dövründə formalaşmış qulam–atabəylik idarəçilik modeli də öz əvvəlki funksionallığını itirmişdi. Nəticədə Yaxın Şərq coğrafiyasında bir-birindən asılı olmayan çoxsaylı sultanlıqlar və atabəyliklər meydana çıxmış, mərkəzi hakimiyyət anlayışı demək olar ki, tamamilə dağılmışdı. Monqolların bölgəyə daxil olması ilə bu dağınıq siyasi mənzərədə yeni bir mərkəzləşmə prosesi başlandı. Müstəqil şəhər-dövlətlər tədricən vahid hakimiyyət altında birləşdi. Çingiz xa-

nın hazırladığı "Böyük Yasa" monqol tayfalarını bir dövlət daxilində toplamağı bacarsa da, bu qanunlar daha inkişaf etmiş və oturuşmuş idarəçilik ənənələrinə malik Yaxın Şərq kimi regionda güclü təsir göstərə bilmirdi. Araşdırmanın əsas predmetini təşkil edən Hülakülər dövləti bölgədə mövcud idarəçilik təcrübələrini yenidən formalaşdırmış və bir sıra mühüm islahatlar həyata keçirmişdi. Sonradan islam sivilizasiyası çərçivəsində tamamilə assimilasiya olunsalar da, onların idarəçilik modeli nəinki daxil olduqları mədəni mühitə təsirsiz qalmadı, həmçinin özlərindən sonra yaranan dövlətlərin siyasi- inzibati sistemlərinə də sirayət etdi.

Monqolların əsas qanunnaməsi olan "Böyük Yasa"da müxtəlif xalqlara və dinlərə qarşı tolerantlıq xüsusi vurğulanırdı. Yasaya görə, Tanrının rizası üçün bütün dinlərə hörmət göstərilməli, heç biri üstün tutulmamalıdır [8, s.199]. Bu prinsip Hülakülərin Yaxın Şərqdə tətbiq etdiyi idarəçilik siyasətinin ideoloji əsaslarından biri olmuşdur.

Monqolların siyasi mərkəzləşdirmə modeli İran bürokratiyasının vergi və idarəçilik təcrübəsi ilə birləşərək güclü dövlət mexanizmi yaratdı. Bu dövrdə farsların müəyyən türk-monqol ünsürlərini mənimsəməsi, eləcə də iranlıların "Xan" titulundan istifadə etməsi bu sintezin göstəricisidir. Monqol dövlət idarəçiliyinin mühüm institutu olan Böyük Qurultay Yaxın Şərqdə də tətbiq edildi. Hakimiyyətin müəyyənləşdirilməsi, hərbi yürüşlərin planlaşdırılması və mühüm dövlət qərarları məhz bu qurultaylarda qəbul olunurdu. Qurultayın kollegial mahiyyəti regionda uzun müddət qorunmuş və hətta Nadir xan Əfşarın Suqovuşanda oxşar mexanizmlə Şah seçilməsi bu ənənənin davamlılığını göstərmişdir.

Hülakülərdə xaqandan sonra dövlət iyerarxiyasında ikinci ən mühüm şəxs naib əs-səltənə idi. O, dövlət işlərinə ümumi nəzarəti həyata keçirir və həm daxili, həm də xarici məsələlərlə məşğul olurdu [6, s.318]. Bu dövrdə baş vəzirin siyasi çəkisi xeyli azalmışdı. Hətta Səfəvi idarəçilik sistemində də vəzir dördüncü sırada dayanır, şahdan sonra ikinci şəxs vəkil sayılırdı. Bu, monqol idarəçilik modelinin region dövlətlərinə təsirinin davam etdiyini göstərir.

Monqolların vergi siyasəti də mühüm əhəmiyyət kəsb edirdi. Tamğa vergisi tətbiq olunaraq hər şəhərdə tamğacı vəzifəsi yaradıldı, o, vergi toplama və xəzinə işlərinə nəzarət edirdi. Hər şəhərdə əmir əl-üməra, mustofhi və digər inzibati orqanlar fəaliyyət göstərirdi ki, bu da idarəçiliyin sistemləşdiyini nümayiş etdirirdi.

Məhkəmə sistemi Hülakülərin ən önəm verdiyi sistem idi. Monqollarda yarğıç adlanan vəzifə bu işlə məşğul olurdu. Monqol törəsini tətbiq edən bu vəzifə birbaşa monqol xaqanı tərəfindən seçilirdi [6, s.363]. Məhkəmə sistemi qədim türk törəsinin təsiri ilə hazırlanmış Çingizin Böyük Yasasına əsaslanırdı. Yaxın Şərq monqollardan öncə şəriət məhkəmələri ilə idarə olunurdu. 1219-dan başlayaraq hüquq sistemində dəyişiklər başladı. Maraqlı nüans budur ki, ittiham olunan şəxsə vəkil təyin edilə bilərdi. Həmin şəxsin öz hüquqları var idi. Monqol idarəçiləri şəriət məhkəməsini ləğv etmədilər. Hətta Hülakü xan dövründə iki cür məhkəmə sistemi olduğu yazılır [8, s.202]. Qazan xandan (1295-1304) sonra bu sistem tamam

dəyişdi. Artıq monqol məhləməsi ikinci plana keçirilərək şəriət məhkəməsi ön plana çəkildi.

Qazan xanın islahatları ilə xəbərlərin ötürülməsindəki gecikmələr aradan qaldırıldı. Çoxsaylı yam məntəqələrinin yaradılması dövrün poçt sisteminin təşkili və səmərəliliyinin göstəricisi idi. Hülakülər dövlətinin idarə, maliyyə, hərbi və məhkəmə qurumları həm qədim türk dövlət ənənələri ilə oxşarlıq göstərir, həm də sonrakı Cəlairli, Baharlı, Bayandurlu, Səfəvi və Osmanlı idarəçiliyinə bir model rolunu oynayırdı. Bunun səbəbi, mülki idarəçilərin çoxunun türk mənşəli olması və bu dövlətlərin də əsasən türk tayfalarına söykənməsidir. Bu məsələdə xüsusilə Uyğur və Xarəzmşah dövlətlərində uzun müddət xidmət etmiş, idarəçiliyi ailə peşəsi halına gətirmiş Cüveynilər kimi nəsillərin təsiri böyük olmuşdur. Uyğur və Xarəzm türklərindən olan bu təcrübəli bürokratlar Hülakü dövlətinin formalaşması və inkişafında mühüm rol oynamışlar [9, s.236].

Biz monqolların bölgəyə gəlişi ilə qadın idarəçiliyinin yüksəlişini müşahidə edirik. Monqol ənənələrinə görə qadınlar cəmiyyətdə daha sərbəst mövqeyə malik idilər. Bunun əksinə isə, həmin dövrdə digər şərq xalqlarında qadınların azadlığı məhdud idi. Hülakülər dövrünə qədər isə Törəgənə xatun və Sorqaqtənə xatun kimi qadın liderlərin olduğu böyük Monqol imperiyası yeni bir ənənə yaratdı. Ata Məlik Cüveyni yazırdı ki, Monqol sarayında bir xorasanlı Fatimə adlı cariyə vardı. O Törəgənə xatunla görüşmək üçün saraya gedib gəlirdi. Törəgənə 1242-ci ildə Xatun Monqol imperiyasının regenti olaraq ölkə işlərini öz əlinə aldıqdan sonra Fatimə dövlət idarəçiliyində söz sahibi oldu. Sarayın bütün sirlərini öyrəndikdən sonra ona qarşı olan dövlət böyüklərini vəzifədən uzaqlaşdırdı [1, s.231]. Daha sonra Hülakü xanın (1256-1265) xanımı Dövlət Xatunu qeyd etmək olar. Onun dövlət içərisindəki rolu güclü idi. O, Yaxın Şərqdəki xristiyanların hamisi idi. Hətta elə bir dövr gəlir ki monqol idarəsi altında qadın idarəçilərin olduğu ərazilər olur. Kirmanda Qutluqxanilər sülaləsinin nümayəndəsi Qutluq Tərkən Xatun bunun ən bariz nümunələrindən biridir. O, 1257-1282-ci illərdə Kirman hakimi olmuşdur. Mənbələrdə onun taxta çıxması sadə və təbii bir proses kimi təsvir olunur. Tərkən ilk siyasi addımlarında monqol idarəçi regent qadınların siyasətini izləyərək dövlət işlərini öz əlinə aldı və Kirmanda yarım-müstəqil hakimiyyətinin tanınması üçün monqol sarayına hədiyyələr göndərməyə başladı [2, s.105]. Daha sonra biz nümunələri 1264-cü ildə Şiraz hakimi olmuş Abeş Xatun kimi hakimlərlə də davam etdirə bilərik. Bütün adı çəkilən bu xatunların Hülakü sarayı ilə bir-başa əlaqəsi olmuşdur. Qafqazda artıq bu ənənə var idi. Monqollar gəldikdə Gürcüstanda Kraliça Rusudan taxtda idi. Ancaq Qazan xanın İslamı qəbul etməsindən sonra qadınların rolu bir qədər azalır. Qadınların siyasətdəki rolu əllərindən alınır. Sati Bəy xatunun 1338-1339-cu illərdə Hülakü dövlətində ilk və yeganə taxta çıxan qadın olması isə bu ənənin bitmədiyini göstərir [2, s.104].

Çingiz Xanın ən əsas əhəmiyyət verdiyi sahə ordu idi və bu yasada açıqca yazılmışdı. Monqollar hərb sahəsində çox yeniliklər gətirdilər və bu özlərindən sonrakı dövlətlərədə siraət etdi. Ən kiçik əsgər birliyi on nəfər (arban) idi. Onun başında on başı dururdu. Daha sonra yüz nəfərlik (yaqun) və min nəfərlik (minqan)

hissələr var idi. On min əsgərin olduğu birliyə farsça tümən deyilirdi. Bu termin günümüzdə də istifadə olunur. Ordunun böyük hissəsi daimi hərbi xidmətdə idi [7, s.435-436]. Çingiz xan şəxsi sədaqətə əsaslanan komandanlıq sistemi qurmuşdu. Ən yüksək rütbəli komandanlar noyon adlanırdı. Kəşfiyyat və rabitə sistemi çox inkişaf etmişdi. Hülakülər dövründə də orduya nəzarət monqol-türk əyanlarının əlində idi. Farslar bu vəzifələrə yad idi. Biz bu tendensiyanı Səfəvi ordusunda da qızılbaş sisteminin timsalında görürük.

Monqol yasası dinlərin ən böyük qoruyucusu idi. Yasada yazılırdı: "O (Çingiz xan) heç bir istisna etmədən Əli ibn Əbu Talibin nəslindən olanlara, fəqirlərə, Quran qarilərinə, hüquqşünaslara, həkimlərə, alimlərə, sufilərə, müəzzinlərə və ölü yuyanlara heç bir vergi qoyulmamasına qərar verdi. O, bütün dinlərə hörmət göstərilməsini və heç birinin digərindən üstün tutulmamasını əmr etdi. O, bu buyrucları Tanrının rizası üçün çıxardı" [8, s.199].

Hülakülərə qədər monqollarda iki güc formalaşmışdı. Bu güclərin əsas simaları Sorqaktənə və Törəgənə idi. Törəgənə müsəlman dünyasını dəstəkləyirdi. Sorqaktənə bütün qaraitlər kimi xristiyan-nəsturi idi və xristiyanlığın ən böyük himayədarlarından idi [4, s.20]. Hələ Törəgənənin regent olduğu dövrdə sarayda şiə müsəlmanların təsiri var idi. Daha sonra Hülakü xanın Alamut qalasını fəthindən sonra qaladakı şiə alimləri onun sarayına üz tutur. Bu şəxslərin önündə Xacə Nəsirəddin Tusi gəlirdi. Onun Hülakü sarayına təsiri çox güclü idi. Onun ideologiyası saray tərəfindən mənimsənildi. Dini zümrələr Hülakülər dövründə bir xatunun və ya sultanın öz inanclarına mənsub olmasını çox istəyir, bunun üçün də sarayda daim təsirli olmağa çalışırdılar [3, s.89]. İslamın sünni qolu monqolların Bağdadı tutması ilə sarsılmış və əvvəlki qüdrətini itirmişdi. Onların bəziləri Məmlüklərə qatılaraq Hülakülərə qarşı yeni bir cəbhə yaradırdılar. Xəlifəliyin qaldırılması ilə artıq güclü və siyasi balansı öz lehinə çevirə bilən istənilən sülalə İslam dünyasının lideri mövqeyinə keçə bilərdi. Sünniliyin radikal şəkildə Anadoluda və Məmlük sərhədlərində təbliği Hülaküləri ona qarşı bir məzhəbə üz tutmasına vadar edirdi. Şiə imamilər bundan istifadə edərək öz təsirlərini yayırdılar. Hətta bu dövrdə Nəsirəddin Tusi ilə Cüveyninin Hülakü xanı İmam Hüseyinin məzarı üzərinə aparması rəvayət edilir [10, s.108].

Hülakülər hakimiyyətinin şiə dünyasına verdiyi imkanlar sayəsində bu dövrdə şiə fiqhı sistemləşmiş və institutlaşdırılmışdır. Nəsirəddin Tusi və Əllamə Hillinin zamanından başlayaraq şiə alimlər Hülakü idarəsinə yaxınlaşmış, dövlət imkanlarından faydalanaraq fiqh sahəsində özlərini inkişaf etdirmişlər. Nəticədə bu dövrdə yazılan əsərlər həm sayca artmış, həm də daha etibarlı olmuşdur [3, s.104].

Hülakülər dövründə dini siyasət dövlət sabitliyinə görə formalaşırdı. Qazan xan İslamı rəsmi dövlət dini elan etdi və sünni fiqhini (əsasən Hənəfi–Şafii) dövlət idarəçiliyinə tətbiq etdi. Buna baxmayaraq, şiə təriqətləri və sufi mərkəzləri fəaliyyətlərini davam etdirirdilər. Olcaytu xanın dövründə (1304–1316) isə rəsmi olaraq imamiyyə şiəliyi qəbul edildi. Əllamə Hilli və digər alimlərin təsiri ilə Olcaytu şiə məzhəbini dövlət səviyyəsində təşviq etdi, bu da xüsusilə Təbriz və Azərbaycan bölgəsində şiəliyin güclənməsinə səbəb oldu. Bu dövrdə Səfiəddin Ərdəbili (Ərdəbildə) sufi və şiə ünsürlərini birləşdirərək Səfəvi təriqətinin təməlini qoydu,

Zahid Gilani (Gilanda) isə Ərdəbildə şiə və sufi təsirlərinin yayılmasında mühüm rol oynadı. Bu təkkələr yalnız dini mərkəz kimi fəaliyyət göstərməmiş, həm də imamiyyə fiqhini, Əhli-beyt sevgisi və sufizm təlimlərini xalq arasında yaymışdır. Olcaytu dövründə yayılan şiə təsiri, daha sonra Səfəvilər dövründə (XVI əsr) dövlət dini səviyyəsinə yüksəldi. Səfiəddin Ərdəbili və müridləri İran və Azərbaycan ərazilərində imamiyyə şiə təlimini genişləndirdi. Hülaküklərin dövründə formalaşan bu dini və elmi şəbəkə Səfəvilərin rəsmi dövlət dini kimi şiəliyi qəbul etməsində əsas rol oynadı. Beləliklə, Hülakülər dövrü şiə düşüncəsinin yayılması və təriqətlərin güclənməsi baxımından kritik bir mərhələ olmuş, gələcək yüzilliklərdə İran-Azərbaycan bölgəsinin dini mənzərəsini müəyyən etmişdir. İran və Azərbaycan ərazilərində Monqol dövründən əvvəl təsiri az olan şiə varlığı 1335-ci ildə Səid Bahadır Xanın ölümündən sonra İbn Tıktıkâ və Hamdullah Müstovfî tərəfindən verilən məlumatlara görə ümumi əhalinin təxminən 20%-ni təşkil edirdi [3, s.107-108].

Digər mövzulardan biri Azərbaycan xalqının formalaşmasıdır. Müasir tarixşünaslıqda Azərbaycan adının mənası türkləşdirilir və bu zaman F. Rəşidəddinin "Oğuznamə"sinə istinad edilir. Əkbər Nəcəf bu fikrə qarşı yeni bir baxış irəli sürərək deyir ki, Rəşidəddinin "Oğuznamə"sində yazılan Azərbaycan sözünün türk dilinə uyğun mənalandırılması və Oğuz xanın bu adı verməsinə aid əfsanə dövrün dövlət siyasəti idi. Rəşidəddinin təşəbbüsü Qazan xanla birlikdə Hülakü dövlət sistemində meydana gələn böyük dəyişikliklər və yeni dövlət kimliyinin formalaşdırılmasının labüdlüyünü göstərir. Hülakülər dövründə dövlət mərkəzinin (dar-üs-səltənə) Azərbaycanda yerləşməsi nəzərə alındıqda, Rəşidəddinin həm siyasi, həm də coğrafi olaraq Azərbaycanı türk yurdlarının mərkəzinə yerləşdirmək istəyi anlaşılandır [5, s.63].

Hülakülər dövründə idarəçilik sahəsində tətbiq olunan islahatlar Yaxın Şərqdə siyasi, inzibati, dini və sosial sahələrdə mühüm təsirlər yaratmışdır. Monqol idarəçilik modelinin əsas prinsiplərindən olan tolerantlıq, dinlər arası hörmət və qanunlara riayət ideyası, bölgədə mövcud idarəçilik ənənələri ilə sintez olunaraq güclü və funksional dövlət mexanizminin formalaşmasına imkan yaratmışdır. Hülakülər dövlətində mərkəzləşdirilmiş hakimiyyət, naib əs-səltənə institutunun təşkili, tamğa vergisi və digər maliyyə mexanizmlərinin yaradılması, həmçinin məhkəmə sistemində qanuni hüquqların qorunması idarəçiliyin sistemləşdirilməsi baxımından önəmli addımlar olmuşdur.

Eyni zamanda, qadınların dövlət idarəçiliyindəki rolu Monqol ənənələri çərçivəsində güclənmiş, saray və yerli hakimiyyət səviyyəsində nüfuzlu xatunların fəaliyyətinə şərait yaradılmışdır. Hərbi təşkilatlanma və komandanlıq sistemi isə davamlı və daimi ordunun yaradılması ilə region dövlətlərinin hərbi təcrübəsinə təsir göstərmişdir.

Dini sahədə isə Hülakülər dövrü şiəliyin sistemləşməsi və yayılması üçün elmi, hüquqi və siyasi zəmin yaratmışdır. Nəsirəddin Tusi və digər alimlərin saraydakı nüfuzu, Qazan xanın sünni hüququ idarə sisteminə rəğmən şiə təriqətlərinə imkan verməsi, Olcaytu dövründə isə imamiyyə şiəliyin rəsmi dövlət dini kimi qəbul edilməsi bölgədə dini mənzərənin formalaşmasında həlledici olmuşdur. Bu proses, sonrakı əsrlərdə, xüsusilə Səfəvilər dövründə şiəliyin dövlət ideologiyası halına gətirilməsinə imkan yaratmışdır.

Nəticə etibarilə, Hülakülər dövləti yalnız idarəçilik və hərbi sahədə deyil, həm də dini, sosial və mədəni sahələrdə regiona uzunmüddətli təsir göstərərək gələcək dövlətlərin siyasi, inzibati və ideoloji inkişafına model olmuşdur. Dövlət mərkəzinin Azərbaycan və İran ərazilərində yerləşdirilməsi, yerli sülalələrin rolu və dini təsirlərin formalaşması Hülakülər dövrünü həmin bölgənin siyasi və mədəni tarixində mühüm bir mərhələ kimi qeyd etməyə əsas verir.

Ədəbiyyat siyahısı:

1. Cüveyni A. Tarih-i Cihan Güşa, 1. Baskı, çeviren M. Öztürk. Ankara: Türk Tarih Kurumu yayınları, 2013, 658 s.
2. De Nicola B. Women in Mongol Iran: The Khatuns, 1206-1335 Edinburg, Edinburg University Press Ltd, 2017, 304 p.
3. Haykıran K.R. İlhanlı hakimiyeti ve İmamiye şiileri Milel ve Nihal dergisi, 17 (1), 2020, s. 87-109.
4. Nəcəf Ə. Hüləgü xan. Bakı: Çapar nəşriyyatı, 2022, 239 s.
5. Nəcəf Ə. Metatarix: Azərbaycan tarix metafizikası. Bakı: Çapar nəşriyyatı, 2025, 244 s.
6. Piriyev V. Azərbaycan XIII-XIV əsrlərdə Bakı, Nurlan nəşriyyatı, 2003, 458 s.
7. Spuler B. İran Moğollarının Tarihi çeviri Kinay Kapkan, Ankara: Dorlion yayınları, 1. Baskı, 2024, 391 s.
8. Yasa Nigehi M. Yasa ve Moğol döneminde İran`ın hukuk düzeni üzerindeki etkisi Cihannüma tarih ve coğrafya araştırmaları dergisi, çev. Reza Khalily, sayı IV/1, temmuz 2018, s. 195-209.
9. Yücel M.U, Moğollar tarihi İstanbul, İÜ Ders Kitabı, 2010, 295 s.
10. امیرتیمور رفیعی, هانیه گلستانی, عال‌ءالدین عطاملک جوینی و هوالکوخان مغول تاریخ واحد محالت تابستان ۱۳۸۷ (1378) شماره ۹, صهفه105-121.

MƏRCİDABIK VƏ RİDANİYƏ DÖYÜŞLƏRİNİN TÜRK TARİXİNDƏ YERİ

Aydın İslamzadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Asiya və Afrika ölkələri tarixi" kafedrasının II kurs magistrantı
aydinislam610@gmail.com
Elmi rəhbər: professor Sani Hacıyev

Açar sözlər: *I Səlim, Osmanlı imperiyası, Mərcidabık döyüşü, Ridaniyə döyüşü, Məmlük dövləti, Qansu Qavri, II Tumanbəy*
Keywords: *Selim I, Ottoman empire, Battle of Marj Dabiq, Battle of Ridaniya, Mamluk state, Qansuh Ghuri, Tumanbay II*

Türk xalqlarının dövlətçilik tarixində Osmanlı imperiyasının tarixi böyük əhəmiyyətə malikdir. Osmanlı imperiyasının İslam dünyasının lider dövlətinə çevrilməsi, mühüm strateji əraziləri ələ keçirməsi, müqəddəs torpaqların müdafiəsinə yiyələnməsi əsasən Mərcidabık və Ridaniyə döyüşlərinin nəticəsindən asılı idi. Bu döyüşlərdəki qələbələr sayəsində İslam dünyasının böyük hissəsi və bir sıra Ərəb ölkələri uzun müddət türk imperiyasının tabeliyində qalmışdır. Məhz bu səbəblərə görə tezisimiz aktual mövzuya həsr edilmişdir.

Yavuz Sultan Səlim 1512 – ci ildə Osmanlı imperatorluğunda hakimiyyətə gəldikdən sonra 1514 – cü ildə Çaldıran döyüşündə Səfəviləri məğlub edərək Şah İsmayıl Xətai üzərində zəfər əldə etmiş, 1515 – ci ildə isə Dulqədiroğullarının ərazisini ələ keçirmişdir. Qazanılan zəfərlər nəticəsində Diyarbəkir də daxil olmaqla, Antep və Malatya kimi şəhərlərə sahib olundu ki, bununlada şərqi Anadoluda Osmanlı hakimiyyəti təmin edildi. Xüsusi ilə qeyd etməliyik ki, Antep və Malatya kimi ərazilərin tutulması ilə Osmanlı imperiyası Məmlük dövlətinin sərhədlərinə yaxınlaşmış olur [2, s.29 - 30].

Növbəti səfərini Səfəvilər dövləti üzərinə edərək, həlledici nəticə əldə etmək istəyən Osmanlı hökmdarı 40 minlik qüvvənin Malatyaya doğru hərəkət etməsi haqqında göstəriş verir. Bu qüvvələrə başçılıq baş vəzir Sinan paşaya tapşırılır. Lakin, Yavuz Sultan Səlimə qarşı Səfəvilərlə ittifaq quran Məmlük dövləti Osmanlı ordusuna səfəri zamanı müəyyən maneələr yaratmış, ordunun hərəkətini məhdudlaşdırmışdı. İstanbulda olan Osmanlı sultanına Məmlük dövlətinin bu addımları barədə məlumat çatdırıldıqdan sonra I Səlimin hədəfi Məmlük dövlətinə doğru çevrilməkdə idi [4, s.110]. Məmlüklərin addımlarını müzakirə etmək məqsədi ilə toplanan divanda həm Mehmed paşa, həm də Herseqli Əhməd paşa Məmlük dövlətinə zərbə endirməyin zəruri olduğunu qeyd edərək, artıq onların əlində olan Məkkə və Mədinə kimi müqəddəs torpaqların əldə olunmasının vaxtı çatdığını sultanın diqqətinə çatdırırlar. Alınan qərarla 1516 – cı ilin iyun ayının 5 – də Məmlük dövlətinin ordusuyla qarşılaşmaq üçün Yavuz Sultan Səlim İstanbuldan ayrılır. Döyüş zamanı imperiyanın 3 əsas şəhərində qarışıqlıq çıxmaması üçün İstanbula nəzarət Piri Mehmed paşaya, Bursaya nəzarət Herseqli Əhməd paşaya, Ədirnəyə nəzarət isə sultan I Səlimin oğlu şahzadə Süleymana tapşırılır. 1516 – cı ilin iyun ayının 26 – da Konyaya çatan Yavuz Sultan Səlim müharibədən öncə böyük ruh yüksəkliyi əldə etmək üçün təsəvvüf şeyxlərinin türbələrini ordusuyla birgə ziyarət edir. Elə bu dövrdə Məmlük hökmdarı Qansu Qavri 50 min nəfərlik qüvvə ilə Hələbə çatmış olur [10, s.186 – 187]. Osmanlı ilə Məmlük dövləti arasında bu mübarizənin başlıca səbəbi İslamın lideri hesab edilən Məmlük sultanının portuqallar qarşısında bacarıqsız olması, eyni zamanda strateji əhəmiyyətə malik əraziləri əlində tutması idi. Biz bu ərazilərə misal olaraq mühüm ədviyyat yollarını, Hicaz bölgəsini, Misir və Suriyanı göstərə bilərik. Osmanlı sultanı belə hesab edirdi ki, Portuqaliya qarşısında aciz qalan Məmlük hökmdarını İslam lideri statusundan məhrum etməyin tam zamanıdır [1, s.108 – 110]. Çünki, bu ada layiq olan şəxs məhz Osmanlı sultanı Yavuz Sultan Səlim idi.

Məmlük hökmdarının zəifliyi xalq arasında nüfuzunun azalması ilə nəticələnmiş, həmçinin onun Məkkə və Mədinəni qoruya bilməyəcəyi fikirlərini formalaşdırmışdı. Çarəsiz xalq bütün ümidini Osmanlı sultanına bağlayırdı. Bütün bunlar xalqın Osmanlı hökmdarına məktublar yazıb, kömək diləməsi ilə nəticələnmişdi. Məhz bu amillərə görə Osmanlı Məmlüklərə qarşı apardığı mübarizənin səbəbində Məmlük dövlətinin öz xalqını və müqəddəs torpaqları qoruya bilməməsini göstərirdi [2, s. 30 – 31]. Həmçinin Osmanlıda Məmlük dövləti Səfəvi dövlətinə yar-

dım etməkdə günahlandırılaraq, onlara qarşı döyüş fətvası verilir [5, s. 129]. Bu cür ideoloji savaşda Osmanlının addımına cavab olaraq Məmlük dövləti də Osmanlını ənənəvi İslamdan uzaq düşməkdə günahlandırır. Lakin nə ordu, nə də xalq Osmanlıya qarşı müharibə aparmaq istəmir, əksinə ona qarşı böyük simpatiya bəsləyirdilər. Bu xüsusiyyət əsasən Qahirə və Hələbdə hiss olunurdu. Xüsusi ilə Hələbdə xalq Məmlük dövlətindən imtina edib, Yavuz Sultan Səlimin tərəfinə keçməkdə idi. Ordu isə müsəlmanlara qarşı müharibəni lazımsız hesab edirdi. Hətda ordu komandanları arasında Osmanlı cəsusları var idi. Onlar mühüm məlumatları Osmanlı sultanına çatdırırdılar [6, s.35 – 36].

Mərcidabık döyüşü: Ordusu ilə birgə hərəkət edən I Səlimə qarşı Məmlük cəsusu tərəfindən sui – qəsd təşəbbüsü iki tərəf arasındakı müharibə riskini daha da yüksəldir. Bundan sonra qəzəblənən Osmanlı sultanı ağır sözlərlə dolu məktubunu Məmlük hökmdarına göndərir. 1516 – cı ilin avqust ayının 18 – də Yavuz Sultan Səlim Antepə çatdıqdan sonra, ordu komandanları ilə birgə məmlüklülərə qarşı aparacağı döyüşdə hansı taktikalardan istifadə etməklə bağlı məsləhətləşmələr aparır. Elə bu zaman Məmlük hökmdarı öz ordusu ilə birgə Hələbdən 38 kilometr şimalda yerləşən Mərcidabık səhrasında düşərgə salır. 1516 – cı ilin avqust ayının 24 – də Mərcidabıkda qarşı – qarşıya gələn iki ordunun qüvvələr nisbəti mənbələrdə bir – birinə yaxın göstərilməkdədir. Beləki, iki tərəfində qüvvələri ayrı – ayrılıqda 80 minə yaxın idi. Lakin bəzi mənbələrdə Osmanlı ordusunun hətda 120 min nəfərdən ibarət olduğu qeyd edilməkdədir. Osmanlıda I Səlim və baş vəzir Sinan paşa 300 – ə qədər top və tüfənglərlə təmin edilmiş mərkəz hissədə mövqe tutmuşdu. Ordunun sağ qanadına Dulqədiroğullarından Əli bəy, Qaraman bəylərbəyi Hüsrəv paşa başçılıq edirdi. Bu hissə eyni zamanda Ramazanoğullarından Mahmud bəyə və Anadolu bəylərbəyi Zeynal paşaya tapşırılmışdı. Ordunun sol qanadı isə Məngli Gərayın oğlu olan Səadət Gəraya və Rum bəylərbəyi Mehmed paşaya həvalə edilmişdi. Həmçinin Diyarbəkir bəylərbəyiylə, Rumeli bəylərbəyi Yusif paşa da sol qanada komandanlıq edənlər siyahısında idi. Məmlük ordusunda isə sol qanada Hələb naibi, sağ qanada isə Şam naibi başçılıq edirdi. Məmlüklər əllərində odlu silahlar olmasına baxmayaraq Osmanlıya qarşı süvarilər vasitəsi ilə hücum etməyi planlaşdırırdılar. Məmlüklərin hücumu ilə başlayan döyüşün ilk anlarında Osmanlı qüvvələri geri çəkilməyə məcbur olsada, tüfəng atəşləriylə üstünlüyü ələ alan Osmanlı ordusu Şam naibini öldürməklə tamamilə psixoloji üstünlük qazanır. Vəziyyətin gərginləşdiyini görən Hələb naibinin döyüş meydanından qaçmasından sonra Osmanlı qüvvələri Məmlük ordusunun mərkəz hissəsini də darmadağın edir. Məmlük sultanı da döyüş meydanından qaçarkən atdan yıxılaraq vəfat edir [9, s.174 – 176]. Beləliklə Mərcidabık döyüşündə yaxşı təşkilatlanmış, odlu silahları yüksək səviyyədə tətbiq edən, Renessans və müasir Osmanlı ordusu böyük üstünlüklə qələbə qazanır [8, s.234].

Mərcidabık döyüşündə Qansu Qavrinin öldürülməsindən sonra 1516 – cı ilin oktyabr ayının 11 – də II Tumanbəy Məmlük dövlətinin hökmdarı seçilir. Qaynaq-

larda II Tumanbəyin Qansu Qavrinin qardaşı oğlu olduğu qeyd edilməkdədir. II Tumanbəy Məmlük dövlətinin sultanı seçildiyi zaman 38 yaşında idi [6, s.43].

Mərcidabıkda qazanılan qələbədən sonra Şam istiqamətinə yönələn Osmanlı ordusu buranı ələ keçirdikdən sonra növbəti addımları müzakirə etmək məqsədi ilə böyük məsləhətləşmələr həyata keçirir. Müzakirələr zamanı başda baş vəzir Sinan paşa və İdris Bitlisi olmaqla bir qrup Məmlük dövlətinə bitirici zərbə endirmək və Misirə doğru səfəri davam etdirmək fikrini irəli sürsələrdə, başqa qrup isə bu səfərin çətinliklərə görə imkansız olduğunu bldirərək fikrə qarşı çıxırlar. Bu zaman Osmanlı sultanı bütün fikirləri nəzərə alaraq II Tumanbəyin atdığı addımlara uyğun qərar verəcəyini dövlət adamlarının diqqətinə çatdırır. II Tumanbəyə Osmanlı sultanına tabe olması və Yavuz Sultan Səlimi İslam dünyasının lideri qəbul etməli olmasıyla bağlı iki məktub göndərilir. İkinci məktubu aparan elçiləri II Tumanbəyin öldürtməsi artıq iki dövlət arasında növbəti müharibənin başlanğıcı olur. Aparılan növbəti məsləhətləşmələrdə Osmanlının dövlət adamları tərəfindən Misirə səfər qərarı qəbul edilir. Əvvəlcə Sinan paşanın rəhbərliyində 4 min nəfərlik Osmanlı qüvvələri Qəzzaya göndərilir. Məmlük dövləti bu qüvvələri qarşılamaq məqsədi ilə Canbərdi Qəzainin rəhbərliyi altında 5 min nəfərlik qüvvəni Qəzzaya yollayır. Baş verən döyüşdə Osmanlı ordusuna məğlub olan Canbərdi Qəzai Misirə geri çəkilməyə məcbur qalır. Qələbə xəbərini eşidən Yavuz 1516 – cı ilin dekabr ayının 15 – də Şamdan Misirə doğru səfərə başlayır.1516 – cı ilin dekabr ayının 29 – da Qüdsə çatan sultan müqəddəs şəhəri ziyarət edir. Daha sonra yoluna davam edən Osmanlı qüvvələri 1517 – ci ilin yanvar ayının 2 – də Qəzzaya daxil olur. Burada Misirə iki istiqamət üzrə hücum etmək qərara alınır. Bu istiqamətlərdən biri Sinay yarımadası üzərindən idi. Osmanlı qüvvələri 1517 – ci ilin yanvar ayının 9 – da hərəkətə başlayır [7, s.104 – 105].

Ridaniyə döyüşü: Maneələrlə dolu və keçilməsi çətin olan Sinay yarımadasını qəfil möcüzəylə yağış yağması və su ehtiyyatı üçün 2000 dəvədən istifadə edilməsi ilə rahat keçən Osmanlı ordusu üstün kəşfiyyatı sayəsində bədəvi ərəblərin hücum təhlükələrini də sıfıra endirir. İki ordu 1517 – ci ilin yanvar ayının 22 – də səhər saatlarında Ridaniyədə üz – üzə gəlir. Yenədə Osmanlı ordusunun mərkəzində Yavuz Sultan Səlim və baş vəzir Sinan paşanın rəhbərliyindəki qüvvələr yer almaqda idi. Sol hissəyə komandanlıq isə Ayaz ağaya tapşırılmışdı. Ayaz ağa bu dövrdə yeniçəri ağası vəzifəsini daşıyırdı. Mərcidabıkdakı məğlubiyyətdən sonra yeni taktika formalaşdıran II Tumanbəy Osmanlı süvarilərini dayandırmaq məqsədi ilə toplardan geniş şəkildə istifadə etmək niyyətində idi. Məmlük sultanının planına əsasən Məmlük atlıları Osmanlı qüvvələrinə hücum edib, daha sonra geri çəkilərək gizlədilən toplar sayəsində hücumda olan Osmanlı ordusunu məhv etməli idi. Lakin, güclü kəşfiyyatı olan Osmanlı sultanı bu plandan öncə xəbərdar olmuş, Məmlük ordusu geri çəkilən zaman Əl – Müqəddəm dağı istiqamətində arxadan dolanıb, Məmlük ordusunun sağ qanadına zərbə endirməyi qərara almışdı. Bu plan əsasında Məmlük ordusunun toplardan istifadəsi imkansız hala gətiriləcəkdi. Plana uyğun olaraq Osmanlı ordusunun sağ qanadındakı sipahilər Məmlük qüvvə-

ləri hücum edən zaman hərəkətə keçərək düşmənin toplardan istifadəsinin qarşısını alırlar. Daha sonra baş vəzir Sinan paşanın rəhbərliyindəki tüfənglə silahlanmış yeniçərilər hücum edib, Məmlük ordusunu darmadağın edir. Onlara bu hücum zamanı Osmanlı topçuları kömək göstərir. Məmlük sultanı Sinan paşanın hücumunun qarşısını alamaq üçün irəli atılır. Sinan paşa Məmlük hökmdarı tərəfindən öldürülsədə, artıq döyüşün taleyi çoxdan həll edilmişdi. Məmlük sultanı Qahirəyə doğru geri çəkilmək qərarı qəbul edir. O, Qahirədə küçə döyüşləri ilə müharibəni davam etdirmək niyyətində idi. Lakin, kəşfiyyat məlumatları sayəsində Qahirə şəhərinin bütün nüansları haqqında məlumatlara sahib olan Yavuz Sultan Səlim növbəti zəfərlə 1517 – ci ilin fevral ayının 15 – də şəhəri tamamilə ələ keçirir [3, s.1278 – 1281].

Mərcidabık döyüşündə qazanılan qələbə sayəsində Osmanlı imperiyası Hələb, Hum, Şam, Hama, Livan və Fələstin kimi əraziləri ələ keçirmiş olur. Xüsusi ilə Suriya starteji cəhətdən böyük əhəmiyyətə malik idi. Əldə edilən uğurlara Ridaniyə qələbəsi ilə Misirin tutulması, Məkkə və Mədinənin idarəsinin ələ keçirilməsi də əlavə edilir. Həmçinin Venesiyanın Kiprə görə Məmlük dövlətinə ödədiyi rüsum Yavuzun məmlüklər üzərindəki qələbələrindən sonra Osmanlıya təqdim edilir [1, s.150 – 152].

Mərcidabık döyüşü ilə zəifləmiş Məmlük dövlətini dərindən sarsmağı bacaran Yavuz Sultan Səlim, Ridaniyə döyüşündəki qələbəsi ilə Məmlük dövlətinə son qoymuş olur. Osmanlı imperiyası tarixində Mərcidabık və Ridaniyə döyüşləri böyük əhəmiyyətə malikdir. Yavuz Sultan Səlim bu sınaqlar qarşısında üzüağ çıxaraq İslam dünyasının lideri olmağı bacarmış, Osmanlını İslamın lider dövlətinə çevirmişdir.

Ədəbiyyat siyahısı:

1. Ağayev M., Əliyeva S. Osmanlı tarixi (dərs vəsaiti). Bakı: "AVROPA" nəşriyyatı, 2021, 565 s.
2. Aydın M. A, Beydilli K, Emecen F, İhsanoğlu E, İpşirli M, Kütükoğlu M, Ortaylı İ, Özcan A, Yediyıldız B. Osmanlı devleti ve medeniyeti tarihi. İki ciltte, cild: 1, İstanbul: İRCİCA: İslam Tarih, Sanat Ve Kültür Araştırma Merkezi, 1994, 868 s.
3. Çavdaroğlu B. E. Askeri dönüşüm çağında Mercidabık ve Ridaniye savaşları üzerine bir tahlil. Ulakbilge Sosyal Bilimler Dergisi, cilt: 5, sayı: 14, 2017, s.1269 – 1284.
4. Efe A. Osmanlı sultanları Söyüddən Vyanaya. Bakı: Qanun nəşriyyatı, 2023, 352 s.
5. Finkel K. Osmanlı İmperiyasının tarixi (1300 – 1923) Osmanın yuxusu. Bakı: QANUN nəşriyyatı, 2021, 688 s.
6. İvanov N. Osmanlının Arap ülkelerini fethi (1516 – 1574). Ankara: Türk Tarih Kurumu yayınları, 2013, 321 s.
7. Memiş Ş, Emecen F, Söylemez F, Kılıç R, Polat S, Öztürk T, Küçükaşçı M. S, Bostan İ, Dingeç E, Bostan H, Yüksel A, Usta S, Kartal A, Önal A, Öbek A. İ, Örs H, Yazgıç S. K, Arabacı H. M. Yavuz Sultan Selim. Trabzon: Trabzon Büyükşehir Belediyesi Kültür Yayınları, 2024, 528 s.
8. Ortaylı İ. Türklərin qızıl dövrü. Bakı: TEAS Press Nəşriyyat evi, 2019, 292 s.
9. Türkiye Diyanet Vakfı İslam ansiklopedisi. 46 ciltde, cild: 29, Ankara, 2004, 588 s.
10. Von Hammer, Joseph. Osmanlı tarihi Devlet – İ Aliye. İstanbul: Kamer Yayınları, 2013, 480 s.

OSMANLI MODERNLƏŞMƏSİNİN (XVIII–XIX ƏSRLƏR) TÜRK DÜNYASINDA ETNİK KİMLİKLƏRİN TRANSFORMASİYASINA VƏ QƏRBYÖNÜMLÜ MƏDƏNİ PROSESLƏRƏ TƏSİRİ

Nuranə Cəbizadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Türk xalqları tarixi" kafedrasının
II kurs magistrantı
cebizadenurane@gmail.com
Elmi rəhbər: t.ü.f.d. Şəbnəm Cəfərova

Açar sözlər: *Osmanlı modernləşməsi, Türk millətçiliyi, Etnik kimlik, Pan- islamizm, Osmanlıçılıq*
Keywords: *Ottoman modernization, Turkish nationalism, Ethnic-idendity, Pan-islamism, Ottomanism*

XVIII–XIX əsrlərdə Osmanlı imperiyasında başlayan modernləşmə prosesi yalnız hərbi və inzibati islahatlarla məhdudlaşmayıb, həm də köhnə ümmət anlayışını modern dövlət və millət ideologiyaları ilə əvəz etməyə yönəlmişdir. Bu transformasiya, imperiyada yaşayan türk dilli və müsəlman əhalinin etnik kimliklərində dəyişikliklərə və qərbyönümlü mədəni proseslərin sürətlənməsinə səbəb olmuşdur. Osmanlı modernləşməsinin bu təsirləri, türk dünyasında etnik və mədəni identikliklərin yenidən formalaşmasının əsas amillərindən biri kimi çıxış etmişdir.

Osmanlıda modernləşmə öncəsi, yəni klassik dövrdə, cəmiyyəti təşkil edən əsas bölünmə xətləri dini və xanədan kimliyi idi. İnalcığın fikrincə, bu dövrdə toplumun quruluşu sekulyar (dünyəvi) deyil, daha çox dini əsaslara dayanırdı və bütün siyasi sistemin mərkəzində dini legitimlik yerləşirdi. [3, s.71-72] Timur qeyd edir ki, Osmanlılar dövlət qurma prosesində toplumu bir araya gətirəcək, siyasətə yön verəcək bir dünya görüşünə ehtiyac duyurdular. Ona görə də, qurucu zümrə müsəlman olduğu üçün, özlərindən əvvəl Anadoluda hökm sürmüş Səlcuqlardan miras qalmış İslam mədəniyyətini mənimsətməyə çalışdılar [5, s.81] Lewis də düşünür ki, Osmanlılar öz kimliklərini tamamilə İslami dəyərlər üzərində qurmuşdular. Bu dini əsaslar içində millət sistemi xüsusi əhəmiyyət daşıyırdı. Adıyekeyə görə, II Mehmet dövründə Osmanlılar artıq imperiya halına gəldiyindən, millət sistemi də bu dövrdə formalaşmağa başladı. Bu sistem bu gün istifadə olunan "millət" anlamında deyildi, kimliyin əsası din idi. Bütün bu təsvirlər Osmanlının ilk dövrlərini anlamağa kömək edir [1, s.183-192]. Bununla belə, 1402-ci il Ankara döyüşündən sonra qısa müddətlik türklük vurğusu artsa da, İstanbulun fəthindən sonra imperiya və İslam mərkəzli kimlik yenidən üstünlük qazandı. Bunun nəticəsində Osmanlı cəmiyyəti modern dövrə dini əsaslı, lakin müxtəlif etnik qrupları özündə birləşdirən bir quruluş kimi daxil oldu. Modernləşmə ilə birlikdə sekulyar təsirlər gücləndi, millətçilik ideologiyalarının yayılması isə kimlik anlayışlarını dəyişdirərək dini bağlılığın yerini siyasi və etnik mənsubiyyətlərin almasına şərait yaratdı.

Modernizasiya və modernləşmə fərqli, amma bir-biri ilə bağlı iki proses kimi qiymətləndirilir: modernizasiya insanın və sosial qrupların kimliyini formalaşdıran düşüncə tərzini, modernləşmə isə bunun siyasi-institusional çərçivəsini yaradan dəyişiklikləri əhatə edir [2, s.69]. Osmanlıya modern olmayan cəmiyyətlər

üçün formalaşmış bu xüsusiyyətlərin yansıması "Qərbləşmə" anlayışı ilə izah olunur və XVIII–XIX əsrlərdə dövlətin Avropa qarşısında zəifləməsini aradan qaldırmaq üçün islahat ehtiyacı ortaya çıxır. XVIII əsrin sonu və XIX əsrin əvvəllərində Osmanlı imperiyasında modernizasiya cəhdləri, əsasən dövlətin Avropa qarşısında zəifləməsini aradan qaldırmaq məqsədilə ortaya çıxmışdır. Bu dövrdə modernləşmə prosesi, cəmiyyətin idarəetmə, maliyyə və hərbi strukturlarında müəyyən dəyişiklikləri əhatə edən bir standartlaşma prosesi kimi formalaşırdı. Mövcud bərabərsizliklərin və ikili quruluşların aradan qaldırılması, dövlətin effektiv idarə olunmasına yönələn islahatların əsas məqsədini təşkil edirdi. XVII əsrdən başlayaraq Osmanlı yazarları və dövlət adamları çöküşün qarşısını almaq üçün hərbi və inzibati islahatlar üzərində düşünürdülər. Hərbi sahədə aparılan dəyişikliklər, institutların bir-birinə bağlılığı səbəbindən torpaq düzəninə və maliyyə sisteminə də təsir göstərirdi. XVIII əsrin sonlarında isə bu dəyişikliklər artıq Avropa modellərinə uyğunlaşmaq və cəmiyyətin idarə olunmasında daha səmərəli mexanizmlər yaratmaq istiqamətində daha geniş vüsət almışdı. Bu dövrdə aparılan modernizasiya cəhdləri, XIX əsrin əvvəllərində Osmanlı dövlət adamlarının Avropa dövlətlərinin artan üstünlüyünü getdikcə daha yaxşı anlaması və buna qarşı strategiyalar hazırlaması ilə davam etmişdir. Cəhdlərin məqsədi həm Osmanlı idarəetməsini səmərəli hala gətirmək, həm də Avropa dövlətlərini razı salmaqla onların imperiya üzərindəki təzyiqlərini azaltmaq idi. Beləliklə, XVIII əsrin sonu – XIX əsrin əvvəlləri Osmanlıda modernizasiya cəhdləri, hərbi, maliyyə və inzibati sahələrdə aparılan islahatlarla, həmçinin cəmiyyətin strukturunda baş verən dəyişikliklərlə xarakterizə olunur. Bu proses tənzimatla davam edərək XIX əsrin ortalarına çatmış və daha geniş miqyasda qərbləşmə siyasətinə çevrilmişdir [2, s.71] Bu dövrdə tənzimat dövlət adamları Avropadan fərqli mədəniyyət anlayışını qəbul etmirdilər və mədəniyyət ilə elmi vahid kimi görürdülər. Yazılarında "İslam mədəniyyəti" və "Avropa mədəniyyəti" kimi ayrımlar yox idi. Avropa elmi isə müsəlmanların "itirilmiş mirası" kimi qiymətləndirilir və yenidən İslam dünyasına qaytarıla bilirdi. İkinci nəsil tənzimat islahatçıları Avropa düşüncə cərəyanlarında, xüsusilə liberalizm və milliyyətçilikdən təsirlənmişdi. 1865-ci ildə ortaya çıxan Yeni Osmanlılar tənzimatın gətirdiyi yenilikləri qəbul edərək bəzi yönlərdən tənqid edir, İslam fəlsəfəsi ilə modernləşmənin yaradacağı mədəni və əxlaqi boşluqları doldurmağa çalışırdılar. Onlar liberalizm və milliyyətçiliyi İslamla uzlaşdıraraq cəmiyyətə tətbiq etməyə çalışmışdır.

XIX əsrdə Osmanlıda milliyyətçilik hərəkatları ilkin olaraq azlıqlar arasında başlamış, dini kimlikdən sekulyar millət kimliyinə keçid ilə paralel inkişaf etmişdir. Snyderin təsnifatına görə, bu mikro milliyyətçilik hərəkatları sonradan makro milliyyətçilik səviyyəsinə keçərək daha geniş pan-millətçi ideyalara (Pan-İslamizm, Pan-Slavizm və s.) zəmin hazırlamışdır [4, s.3-4] Osmanlı kontekstində azlıqların millətçi fəaliyyətləri Yeni Osmanlılar kimi türk–müsəlman ziyalılarının iştirakı ilə "qarşı-reaksiya" formasında genişlənmiş və nəticədə Osmanlıçılıq və İslamçılıq ideyaları meydana çıxmışdır. Bu dövrdə təhsil və mədəni fəaliyyət Qərbdə təhsil almış dünyəvi intellektualların nəzarətinə keçərək, dini qurumlarla yeni ziyalılar arasında gərginlik yaratmış və azlıqların milli hərəkatlarına qarşı mərkəzi müsəlman–türk elitasının milli siyasətini formalaşdırmışdır. 1821-1829-cu illər

Yunan üsyanı və 1877-1878-ci illər Osmanlı-Rus müharibəsi kimi hadisələr milli şüurun güclənməsinə səbəb olmuş, nəticədə XIX əsrin sonlarından etibarən Osmanlıçılıq və İslamçılıq ideyaları azlıqların separatçı milliyyətçiliyinə qarşı bir siyasi-cəmiyyət strategiyası kimi inkişaf etmişdir. Bu proses, sonrakı Türk milliyyətçiliyi və Cumhuriyyət dönəminin millətçilik siyasətinin təməlini qoymuşdur.

Osmanlıçılıq və İslamçılıq Osmanlı imperatorluğunun son dövründə ortaya çıxan üç əsas ideoloji yönümlərdən ikisi olub, Türkçülük isə bu ikisinə bir reaksiya olaraq formalaşmışdır. Osmanlıçılıq, imperatorluq daxilində fərqli etnik və dini qrupları "Osmanlı milləti" adı altında birləşdirərək vahid bir siyasi kimlik yaratmağa çalışırdı [2, s.69] Bu ideya, pre-modern status və cəmiyyət anlayışından uzaqlaşaraq, Fransız İnqilabı sonrası Avropada yayılan vətəndaşlıq və hüquqi bərabərlik prinsiplərini Osmanlıya tətbiq etməyə yönəlmişdi. İslahat fərmanı və 1876-cı il Konstitusiyası Osmanlıçılığın rəsmi ifadəsi olub, bütün Osmanlı əhalisini dini və etnik mənsubiyyətindən asılı olmayaraq bir "Osmanlı" kimi tanımışdır. Lakin Balkan müharibələri, digər müharibələr və demoqrafik dəyişikliklər Osmanlıçılığın nüfuzunu zəiflətdi, fərqli etnik və dini qruplar arasında milliyyətçilik şüuru gücləndi. Bu şəraitdə Osmanlıçılıq ideyası artıq ümumi bir üst kimlik olaraq perspektiv vermirdi və Osmanlıçılığın zəifləməsi və etnik-dini qruplar arasında milliyyətçilik hərəkatlarının artması səbəbindən, müsəlman-türk əhali ortaq dini və mədəni kimlik ətrafında birləşməyə başladı. Beləliklə, Osmanlıçılıq və İslamçılıq bir tərəfdən dövlətin parçalanan imperiya daxilində birləşdirici ideyası olaraq, digər tərəfdən isə artan türkçülük və azlıqların milliyyətçilik hərəkatlarına reaksiya olaraq formalaşmışdır.

XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Osmanlıda modernizasiya cəhdləri yalnız idarəetmə və iqtisadi sahələri deyil, həm də ideoloji və mədəni sahələri əhatə edirdi. Tənzimat islahatları ilə Osmanlı cəmiyyətində dini və mədəni kimlik zəifləyərkən, İslamçılıq ideyası bu boşluğu doldurmaq məqsədilə formalaşmışdır. Bu ideologiya II. Əbdülhəmid dövründə pan-islamist prinsiplər vasitəsilə müsəlman qruplar arasında vahid bir "Müsəlman milləti" yaratmağa yönəlmiş, təhsil və mədəniyyət sahəsində dini və sekulyar elementləri birləşdirərək ümumi bir milli kimliyin təşəkkülünə xidmət etmişdir. Modernləşmə prosesinin nəticəsi olaraq, rum və serb milliyyətçiliyi ilə rəqabət aparmaq məqsədilə, müsəlman Osmanlı elitası İslamı bir birləşdirici element kimi istifadə etməyə çalışmışdır [5, s.81]. Lakin cəmiyyət modernləşdikcə sekulyarlaşır və dinin birləşdirici funksiyası zəifləyirdi. Bu şəraitdə Osmanlıçılıq və İslamçılıq ideyaları imperatorluğu bir arada saxlamaqda kifayət etmirdi. Buna cavab olaraq türkçülük ideyası siyasi və ideoloji mərkəzə yüksəlmişdir. Pan-islamist və pan-türkçü təsirlər birləşərək, Osmanlı-Müsəlman elitasının birliyini təmin etməyə yönəlmiş, Yusuf Akçura kimi ziyalılar isə İslamın birlik gücünü milliyyətçilik üçün istifadə etməyin vacibliyini vurğulamışdır. Beləliklə, Türkçülük ideyası həm Osmanlıçılıq və İslamçılığa alternativ olmuş, həm də modernləşmə və azlıqların separatçı milliyyətçiliyi üzərində qurulmuş sosial bir zəmində formalaşmışdır.

Müasir türk dünyasının ortaq tarixi-mədəni dəyərlərinin siyasi zəmini məhz Osmanlı modernləşməsi (XVIII-XIX əsrlər) dövründə baş verən ideoloji böhranın nəticəsidir. Modernliklə birlikdə gələn dünyəviləşmə və Qərb konsepsiyaları ənə-

növi dini-sülalə kimlik sistemini sarsıtmış, ilk olaraq azlıqların separatçı millətçilikləri şəklində özünü göstərən etnik mübarizə sahəsi yaratmışdır. Osmanlı imperiyasını qorumaq məqsədi ilə irəli sürülən əks-ideologiyalar – Osmanlıçılıq və İslamçılıq – bu təzyiqlərə qarşı durmaqda aciz qaldılar. Bu iki ideologiyanın uğursuzluğu, nəticədə imperiyanın əsas elementi olan türk elementinə söykənən və ortaq dili, tarixi və mədəniyyəti siyasi platformaya daşıyan Türkçülüyün yaranmasına səbəb oldu. Məhz bu ideoloji qərar, müasir Türkiyə Cümhuriyyətinin və geniş mənada Türk dünyası milli kimliklərinin formalaşmasında həlledici rol oynadı. Beləliklə, türk millətçiliyinin əsasını təşkil edən və müasir inteqrasiya proseslərinə rəhbərlik edən ortaq dəyərlər hələ XIX əsrdə modernləşmənin yaratdığı çətinliklərə bir cavab olaraq siyasiləşdirilmişdir. Türk millətçiliyinin tam anlaşılması üçün, modernləşmənin özünün, azlıqların separatizminin və ona qarşı yaranmış Osmanlıçılıq-İslamçılıq ideologiyalarının birgə təhlil edilməsi vacibdir.

Ədəbiyyat siyahısı:

1. *Adıyeke N. 'Islahat Fermanı Öncesinde Osmanlı İmparatorluğu'nda Millet Sistemi ve Gayrı Müslimlerin Yaşantılarına Dair, 270 s.*
2. *Çiğdem A. Batılılaşma, Modernite ve Modernizasyon. Modern Türkiye'de Siyasi Düşünce III: Modernleşme ve Batıcılık, Ed. Uygar Kocabaşoğlu, İstanbul, İletişim Yayınları, 2004, 625 s.*
3. *İnalcık H. Osmanlı İmparatorluğu Klasik Çağ (1300-1600), İstanbul: Yapı Kredi Yayınları, 2005, 290 s.*
4. *Louis L. Snyder. Macro-Nationalisms: A History of Pan-Movements, Greenwood Press, Westport, Connecticut 1984, 320 p.*
5. *Taner T. Osmanlı Kimliği. Ankara, İmge Kitabevi, 2000, 169 s.*

QƏRBİ HUN İMPERİYASININ XARİCİ SİYASƏTİNİN AVRASİYA GEOSİYASƏTİNƏ TƏSİRİ VƏ XXI ƏSR TÜRK DÜNYASI ÜÇÜN TARİXİ İBRƏTLƏRİ

Taliyyə Eminova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Türk xalqları tarixi" kafedrasının II kurs magistrantı
talieminova@gmail.com
Elmi rəhbər: professor İsmayıl Məmmədov

Açar sözlər: *Avrasiya, imperiya, diplomatiya, inteqrasiya, geosiyasət*
Keywords: *Eurasia, empire, diplomacy, integration, geopolitics*

Avrasiyanın qədim siyasi mənzərəsi türk xalqlarının yaratdığı dövlətlərin fəaliyyəti, xüsusilə də onların xarici siyasət strategiyaları ilə formalaşmışdır. Bu dövlətlər arasında Qərbi Hun imperiyası xüsusi yer tutur. Hunların dövlətçilik və idarəçilik ənənələri yalnız öz dövrlərinə təsir etməklə kifayətlənməmiş, həm də sonrakı türk imperiyalarının – Göytürk, Uyğur, Səlcuq, Osmanlı və digər türk dövlətlərinin siyasi mədəniyyətinə dərin iz buraxmışdır. Qərbi Hun imperiyasının xarici siyasəti Avrasiyada güc balansını dəyişdirmiş, geosiyasi xəritənin formalaşmasın-

da mühüm rol oynamış, eyni zamanda müasir türk dünyasının strateji davranış modelləri üçün tarixi örnəklər yaratmışdır.Belə ki,Qərbi Hun imperiyasının xarici siyasəti və ümumilikdə hunların qərbə köçləri sayəsində Qərbi Avropanın ictimai həyatının mənzərəsi tamamilə dəyişərək yeni ictimai quruluş meydana gətirmişdir.

Bu tezisin məqsədi Qərbi Hun imperiyasının xarici siyasətinin Avrasiyanın siyasi və geosiyasi reallıqlarına təsirini araşdırmaq, həmçinin XXI əsrdə türk dünyası qarşısında duran çağırışlar üçün tarixi dərsləri göstərməkdir. Mövzunun aktuallığı həm Hun imperiyasının dövlətçilik ənənələrinin ümumtürk identikliyinin formalaşmasında önəmli yer tutması, həm də müasir dövrdə Türk Dövlətləri Birliyi çərçivəsində yeni inteqrasiya proseslərinin güclənməsi ilə bağlıdır.

Qərbi Hun imperiyası Asiya hun imperiyasının parçalanması nəticəsində yaranmış siyasi varis dövlətlərdən biri idi. Hun konfederasiyasının geniş Avrasiya coğrafiyasında yaratdığı nüfuz Qərbi Hun dövlətinin formalaşmasına əlverişli zəmin hazırlamışdı. Qərbi Hun imperiyasının yaranması artıq IV–V əsrlərdən başlayaraq Avrasiya çöllərində yeni geosiyasi gücün meydana çıxması demək idi.İmperiyanın Avrasiyanın mərkəzində yerləşməsi onun xarici siyasətini həm Şərq, həm Qərb, həm də Cənub istiqamətində təsir mexanizminin yayılmasın imkan verirdi. Bu mövqe dövlətə ilk olaraq ticarət yollarına nəzarət, hərbi yürüşlərin istiqamətinin rahat seçilməsi, diplomatik əlaqələrin geniş coğrafiyada qurulması,çoxetnik siyasi strukturu idarə etmə imkanları verməkdə idi.Bu amillər xarici siyasətin həm müvəffəqiyyət, həm də zərurətdən doğan elementlərinin formalaşmasında həlledici rol oynamışdır [3, s.56].

Qərbi Hun imperiyasının xarici siyasətinin əsas istiqamətlərinə qısaca diqqət yetirək.Bizansla münasibətlər əsasən diplomatiya və təzyiq siyasətinə əsaslanırdı.Qərbi Hunların xarici siyasətində ən aktiv sahələrdən biri Bizans imperiyası ilə münasibətlər idi. Hunlar Bizans üçün həm təhlükə, həm də zəruri siyasi tərəfdaş idilər. Diplomatik nümayəndə heyətlərinin göndərilməsi, sülh müqavilələrinin bağlanması, müttəfiqlik və ya vassallıq münasibətlərinin müzakirəsi Qərbi Hun diplomatiyasının dinamikliyini göstərirdi.Xüsusilə Attilanın dövründə Hun-Bizans münasibətləri Avrasiyanın siyasi balansına ciddi təsir etmiş, Bizans Hunlara qarşı həm hərbi, həm də ideoloji mübarizə aparmağa məcbur olmuşdu. Hunların ağır vergi tələb etməsi, Bizansı özünün geosiyasi orbitinə salması Avrasiyadakı güc nisbətini tamamilə dəyişmişdi.Qərbi Roma imperiyası ilə münasibətləridə strateji rəqabət və güc balansına əsaslanırdı.Qərbi Hunlar üçün Qərbi Roma ilə münasibətlər mühüm əhəmiyyət daşıyırdı. Hunlar romalılarla müttəfiqlik və rəqabəti paralel şəkildə yürüdür, lazım olduqda onların müttəfiqi qismində german hücumlarından qoruyan tərəfdaş rolunu oynayırdı. Bu rəqabət Avrasiyanın cənubunda türklərin siyasi nüfuzunun artması ilə nəticələnmiş və türklərin regionda uzunmüddətli geosiyasi mövqelərinin əsasını qoymuşdur.Avropa xalqları ilə əlaqələr və "Böyük köçlər dönəmi"Qərbi Hunların xarici siyasətinin ən əhəmiyyətli nəticələrindən biri Avropa xalqlarının siyasi xəritəsini dəyişdirən "Böyük köçlər dövrü"nün baş verməsi idi [1, s.93]. Hunların Qərbə doğru hərəkəti: german tayfalarını yeni ərazilərə yönəltdi, Roma imperiyasında siyasi böhranı sürətləndirdi, Avro-

pada yeni dövlətlərin yaranmasına şərait yaratdı, xalqların etnik tərkibində dəyişikliklərə səbəb oldu. Bu proses Avrasiyanın demoqrafik, siyasi və mədəni mənzərəsini köklü şəkildə dəyişdirmişdi. Qərbi Hun imperiyasının Avrasiyada geosiyasi balansın formalaşmasındakı rolu Qərbi Hunların xarici siyasəti yalnız hərbi ekspansiya deyil, həm də uzunmüddətli geosiyasi strategiya idi. Hunlar Avrasiyada mərkəzi güc amili kimi çıxış edirdi.Qərbi Hunlar Avrasiyanın şimal çöllərindən Balkanlara qədər uzanan geniş ərazidə mərkəzləşdirici güc kimi çıxış edirdi. Bu, müxtəlif etnik qruplar arasında siyasi əlaqələrin formalaşmasına şərait yaratmışdı və ticarət yollarının nəzarətini təmin edirdi. Hunlar İpək Yolunun şimal qollarına, Avropa ilə Asiya arasındakı tranzit marşrutlara, şimaldan cənuba gedən iqtisadi əlaqələrə nəzarət etməklə Avrasiyanın iqtisadi geosiyasətində mühüm rol oynayırdı. Hunların siyasi gedişləri yeni siyasi mədəniyyət yaratdı. Qərbi Hun imperiyası qədim türklərin diplomatik mədəniyyətini, elçilik institutunu, beynəlxalq münasibətlərdə güc və müzakirə balansını, müharibə–sülh konseptləriniilk dəfə sistemli şəkildə ortaya qoymuşdu [2, s.254].

Bu ənənələr sonrakı türk dövlətlərində – Göytürk, Səlcuq, Osmanlı və hətta müasir türk respublikalarında bu və ya digər formada davam etmişdir.Qərbi Hun imperiyasının xarici siyasətinin ümumtürk dövlətçilik ənənələrinə təsiri hunların xarici siyasəti ümumtürk dövlətçilik ənənəsinin formalaşmasında böyük rol oynamışdır. Ənənənin əsas elementləri aşağıdakılar idi.Gücə söykənən, amma diplomatiyanı önə alan siyasət hunlar müharibə ilə diplomatiyanı paralel aparır, hərbi gücü diplomatik üstünlüyə çevirməyi bacarırdı.. Çoxşaxəli əlaqə sistemi hunların xarici siyasəti həm Qərb, həm Şərq, həm də Cənub yönümlü idi. Bu model bu gün Türk Dövlətləri Təşkilatının da əsas strategiyalarından biridir. Etno–siyasi inteqrasiya Qərbi Hun dövləti çox etnikli imperiya idi və müxtəlif tayfaların konfederativ birlikdə idarə olunma modeli türklərin imperiya quruculuğu təcrübəsini yaratdı [5, s.28].

XXI əsr türk dünyası üçün tarixi ibrətlər Qərbi Hun imperiyasının xarici siyasətindən müasir türk dövlətləri üçün mühüm və aktual ibrətlər çıxarmaq mümkündür. XXI əsrdə türk dünyası geosiyasi rəqabət, enerji marşrutları, informasiya təhlükəsizliyi, qlobal siyasi qarşıdurmalar kontekstində öz strateji yolunu müəyyənləşdirir. Hunların siyasəti bu prosesdə vacib tarixi miras rolunu oynaya bilər.Türk dövlətləri arasında birliyin gücləndirilməsi Hun konfederasiyası göstərir ki, türklərin birliyi onların gücünün əsas mənbəyidir. Bu fikir bu gün Türk Dövlətləri Birliyinin ideoloji-siyasi dayaqlarından biridir. Geosiyasi tranzit mövqeyindən səmərəli istifadəyə nəzər salsaq hunların ticarət yollarına nəzarəti bu gün türk dövlətlərinin xarici siyasətində geosiyasi tranzit xəttlərinə verdikləri önəmdə görərik.Zəngəzur dəhlizi, Transxəzər dəhlizi, Orta Dəhliz kimi layihələrətam uyğun gələn tarixi ənənənin davamıdır. Diplomatiya və təhlükəsizlik siyasətinin paralel aparılması hunların xarici siyasəti sübut edir ki, yalnız hərbi güc kifayət etmir; güclü diplomatik əlaqələr də vacibdir. Bu xüsusilə müasir dövrdə Azərbaycanın, Türkiyənin, Qazaxıstanın, Özbəkistanın və digər türk dövlətlərinin regional siyasətində özünü göstərir. Mədəni və ideoloji vahidliyin qorunması hunların irsində ortaq türk kim-

liyinin ilkin təməlləri var. Bu gün ortaq türk əlifbası, ortaq tədris proqramları, ortaq media platformaları kimi məsələlər bu ənənənin davamı sayıla bilə Geosiyasi rəqabətdə praqmatik davranış modeli hunların həm Qərb, həm Şərq, həm də Cənub dövlətləri ilə paralel balans qurması bu gün türk dövlətlərinə çoxqütblü dünya şəraitində praqmatik siyasət aparmağı öyrədir [4, s.88].

Nəticə Qərbi Hun imperiyasının xarici siyasəti Avrasiyanın siyasi mənzərəsinin formalaşmasında mühüm rol oynamış, bölgədə etnik, mədəni və siyasi prosesləri əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Hunların diplomatik ənənələri, hərbi gücün effektiv istifadəsi, ticarət yollarına nəzarət strategiyası və çoxistiqamətli xarici siyasət xətti ümumtürk dövlətçilik ənənəsinin əsas dayaqlarını yaratmışdır. XXI əsrdə türk dünyası qarşısında duran çağırışlar – regional təhlükəsizlik, iqtisadi əməkdaşlıq, enerji tranziti, informasiya müharibəsi, mədəni inteqrasiya – Qərbi Hun imperiyasının təcrübəsindən çıxarılan tarixi dərslərlə daha sağlam şəkildə dəyərləndirilə bilər.Bu baxımdan Qərbi Hun imperiyasının xarici siyasəti yalnız tarixi hadisələr toplusu yox, eyni zamanda müasir türk dövlətləri üçün strateji davranış modelidir. Türk dünyasının gələcək inkişafında, xüsusilə Türk Dövlətləri Təşkilatının güclənməsi fonunda hunların qoyduğu dövlətçilik və diplomatiya irsi mühüm əhəmiyyət kəsb edir.

Ədəbiyyat siyahısı:

1.Ahmetbeyoğlu A . Atilla ve Aresin kılıcı. İstanbul, Türk Kültürü Yayınları, 1997, 740 s.
2.Baştav Ş . Avrupa Hunları Türkler. Ankara, Kültür Yayınları, 2002, 853 s.
3.Demircioğlu H . Roma Tarihi. Ankara, Türk Tarih Kurumu Yayınları, 2015, 427 s.
4.Kafesoğlu İ . Türk Milli Kültürü. İstanbul, Kültür Yayıncılık, 1997, 454 s.
5.Tümer G. Bizansta Din-Devlet ilişkisi. İstanbul, DDİS Bildirileri, 1996, 467s.

TÜRK MƏDƏNİYYƏTİNİN FUNDAMENTAL MƏNBƏLƏRİ VƏ TARİXİ YADDAŞI

Emil Qarayev
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Türk xalqları tarixi" kafedrasının
II kurs magistrantı
emilq878@gmail.com
Elmi rəhbər: t.e.d., professor Əsməd Muxtarova

Açar sözlər: *Türk dünyası, mədəniyyət, tarix, kimlik, ortaq dəyərlər*
Keywords: *Turkish world, culture, history, identity, common values*

Dünya mədəniyyətinin formalaşmasında müxtəlif sivilizasiyalar, xalqlar və etnik birliklər qarşılıqlı şəkildə bir-birinə təsir göstərmiş, əsrlər boyunca mədəni inteqrasiyanın müxtəlif formaları meydana gəlmişdir. Bu proses insan cəmiyyətlərinin tarixi inkişafının və mədəniyyətlərin qarşılıqlı zənginləşməsinin təməl prinsiplərindən birini təşkil edir. Müxtəlif coğrafiyalarda yaranmış sivilizasiyalar yalnız öz daxili inkişafını təmin etməklə kifayətlənməmiş, həm də qonşu xalqların mədə-

niyyətinə təsir göstərmiş, bəzən isə bu təsir uzun müddətli və dərin izlər buraxmışdır. Bu kontekstdə Türk dünyası tarixi və mədəni baxımdan xüsusilə diqqət çəkir. "Türk dünyasının tarixi kökləri minilliklərə söykənir və coğrafi baxımdan geniş bir ərazini əhatə edir — Altay dağlarından Anadoluya, Orta Asiyadan Volqaboyuna və Qafqaza qədər uzanan bu sahə, Türk sivilizasiyasının inkişafında əsas rol oynamışdır. Türk dünyası yalnız regional bir hadisə kimi dəyərləndirilə bilməz; o, həmçinin ümumdünya mədəniyyətinə verdiyi töhfələrlə sivilizasiyalararası qarşılıqlı təsirin canlı nümunəsini təşkil edir [1].

Türk xalqlarının ortaq tarixi–mədəni dəyərləri onların etnogenezində, dilində, dini və dünyagörüşündə, ictimai quruluşunda, ədəbiyyatında, dövlətçilik ənənələrində və milli kimliyinin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Bu dəyərlər əsrlər boyunca saxlanılmış və nəsildən-nəsilə ötürülmüşdür ki, bu da türk xalqlarının vahid mədəni kimliyinin formalaşmasına imkan yaratmışdır. Müasir dövrdə bu ortaq dəyərlərin öyrənilməsi yalnız tarixi biliklərin zənginləşdirilməsi baxımından deyil, həm də Türk dünyasında elmi-humanitar əməkdaşlığın inkişafı və mədəni inteqrasiyanın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyırTürk xalqlarının şifahi və yazılı ədəbiyyatında ortaq mənşə ideyası mühüm yer tutur. Orxon-Yenisey yazıları, Dədə Qorqud Kitabı və Manas dastanı Türk dünyasının vahid tarixi yaddaşını təsdiqləyən əsas mənbələrdir. Bu mənbələrdə Türk boylarının kök birliyi, siyasi təşkilatlanma modeli, qəhrəmanlıq idealları və ictimai dəyərləri eyni tarixi-mədəni kontekstdə təqdim olunur [2].

Türk xalqlarının şifahi və yazılı ədəbiyyatında ortaq mənşə ideyası mühüm yer tutur. Orxon-Yenisey yazıları, “Dədə Qorqud Kitabı”, “Manas” dastanı Türk dünyasının vahid tarixi yaddaşını təsdiqləyən əsas mənbələrdir. Bu mənbələrdə Türk boylarının kök birliyi, siyasi təşkilatlanma modeli, qəhrəmanlıq idealları və ictimai dəyərləri eyni tarixi-mədəni kontekstdə təqdim olunur. Məsələn, Orxon-Yenisey yazıları yalnız yazılı abidə kimi deyil, həm də erkən türk dövlətçilik ideyalarının və mədəni normativlərin əks olunduğu fundamental mənbədir. Eyni zamanda, “Dədə Qorqud Kitabı” və “Manas” dastanı sosial və mənəvi dəyərlərin, qəhrəmanlıq anlayışının və etno-mədəni kimliyin qorunmasında mühüm rol oynayır.Erkən dövlətçilik nümunələri olan Göytürk Kağanlığı, Uyğur Dövləti, Qarluq, Qıpçaq, Səlcuq, Xarəzmşahlar, Osmanlı və digər siyasi qurumlar Türk xalqlarının ortaq dövlətçilik modelinin inkişafına zəmin yaratmışdır. Bu dövlətlər yalnız siyasi idarəetmədə deyil, həm də mədəni inteqrasiyada türk kimliyinin daşıyıcıları olmuşdur. Göytürk Kağanlığının yazılı abidələrində “el”, “il” və “töre” anlayışları dövlətçilik fəlsəfəsinin əsasını təşkil edir və bu anlayışlar daha sonrakı Türk dövlətlərində də eyni məna çərçivəsində qorunub saxlanmışdır. Beləliklə, Türk dövlətçilik ənənəsi yalnız siyasi idarəetmə modelini deyil, həm də mədəni, mənəvi və sosial prinsipləri bir bütün olaraq əhatə etmişdir.Türk dilləri Altay dilləri ailəsinin ən böyük və geniş yayılmış qolu kimi bütün Türk coğrafiyasında mədəni və mənəvi inteqrasiyanın əsas vasitələrindən biri olmuşdur. Orxon-Yenisey yazıları, Uyğur əlifbası, daha sonra ərəb və latın qrafikası Türk dünyasının yazı mədəniyyətinin ortaq aspektlərini formalaşdırmışdır.

"XI əsrdə Mahmud Kaşğarinin "Divanü Lüğat-it-Türk" əsəri yalnız leksikoqrafik mənbə kimi çıxış etmir, eyni zamanda Türk dillərinin vahid strukturunu və mədəni semantikasını ortaya qoyan ensiklopedik bir əsər olaraq ortaq dil yaddaşını təsdiqləyir. Bu əsər Türk xalqları arasında dil birliyinin və mədəni yaddaşın qorunmasında mühüm rol oynamışdır [3].

Bu əsər Türk xalqları arasında dil birliyinin və mədəni yaddaşın qorunmasında əhəmiyyətli rol oynamışdır.Türk dünyasının mədəniyyətinin formalaşmasında qədim türklərin inanc sistemi, xüsusilə Tanrıçılıq (Tengri inancı) mühüm rol oynayır. Göytürk yazılı abidələrində Tanrı anlayışı siyasi legitimliyin mənbəyi kimi təqdim olunur, eyni zamanda cəmiyyətin mənəvi və əxlaqi dünyagörüşünün formalaşmasında əsas elementi təşkil edir.

"Daha sonrakı dövrlərdə İslamın qəbul edilməsi Türk xalqlarının dini həyatında dönüş nöqtəsi olmuşdur. İslam mədəniyyəti ilə Türk ənənələrinin sintezi yeni mənəvi modelin – həm mənəvi, həm də sosial dəyərlərin harmonik birləşməsinin – formalaşmasına gətirib çıxarmışdır [4].

Xüsusilə sufizm, təvazökarlıq, tolerantlıq və qarşılıqlı yardım kimi prinsiplərin güclənməsinə səbəb olaraq Türk cəmiyyətinin mənəvi dəyərlər sistemini zənginləşdirmişdir. Ahilik, dədə-babalıq ənənələri, sufi məktəbləri və divan ədəbiyyatı kimi mədəni institutlar Türk düşüncə tərzinin və ictimai həyatın ruhunu formalaşdırmışdır.

Türk siyasi-mədəni düşüncəsinin formalaşmasında "el", "il", "yurt" və "töre" kimi anlayışlar xüsusi yer tutur. Bu terminlər qədim türklərin dövlətçilik fəlsəfəsini, hüquq sistemini və sosial nizamını müəyyən edən əsas kateqoriyalar hesab olunur. "İl" – siyasi sabitlik və dövlət hakimiyyətinin təşkilini, "töre" – hüquqi normaları və ictimai davranış qaydalarını, "el" – xalqın birliyini və sosial həmrəyliyi, "yurt" isə məskunlaşma məkanını, yəni dövlətin coğrafi-siyasi sərhədlərini ifadə edir. Bu anlayışların semantik məzmunu Göytürk kitabələrində, xüsusilə Bilgə Kağan və Tonyukuk abidələrində, həmçinin "Kutadğu Bilig" və "Atabetül-Haqayiq" kimi orta əsr didaktik abidələrində geniş şəkildə əksini tapmışdır. Qədim mətnlərdə bu kateqoriyalar Türk dövlətçilik modelinin ideoloji dayaqları kimi təqdim olunur və toplumun idarəçilik prinsiplərinin əsasını təşkil edir [5].

Türk dünyasının ortaq tarixi və mədəni dəyərləri minilliklər ərzində formalaşmış sivilizasiya təcrübələrinin nəticəsi kimi ortaya çıxmışdır. Bu dəyərlər geniş coğrafiyada həm vahid Türk kimliyinin yaradılmasına, həm də müxtəlif Türk icmaları arasında mədəni inteqrasiyanın güclənməsinə şərait yaratmışdır. Tarixi mənbələr göstərir ki, ortaq mədəniyyət yalnız coğrafi yaxınlıqla izah edilə bilməz; onun əsasını dil, din, dövlətçilik ənənələri, şifahi və yazılı ədəbiyyat, sosial mentalitet və mədəni arxetiplərin birliyi təşkil edir. Bu dəyərlərin sistemli şəkildə öyrənilməsi, qorunması və müasir dövrdə inkişaf etdirilməsi Türk dünyasında mədəni birliyin möhkəmləndirilməsi və qarşılıqlı elmi-humanitar əməkdaşlığın genişləndirilməsi üçün strateji əhəmiyyət kəsb edir. Bu proses yalnız tarixi biliklərin zənginləşdirilməsi ilə məhdudlaşmır, həm də Türk sivilizasiyasının bugünkü dünyada özünü təsdiqləməsi və gələcək nəsillərə ötürülməsi baxımından vacibdir.

Ədəbiyyat siyahısı:

1.Ögəl B. Türk Mədəniyyət Tarixi . Ankara: Türk Tarih Kurumu. s.70–90.

2. Peler G. Tarih Boyunca Altay Halkları Arasındaki Geçişkenlik. Uluslararası İdil - Ural ve Türkistan Araştırmaları Dergisi, 2019, s.83-94.

3. Kaşğari M. Divanü Lüğat-it-Türk. II cild. Bakı: Ozan, 2006, s. 120-125.

4. Findley C. V. . The Turks in World History. New York: Oxford University Press, 2005, p. 42-45.

5. Kafesoğlu İ. Türk Milli Kültürü. İstanbul: Ötüken, 2015, s. 45–62.

ƏLCƏZAİR MÜSTƏQİLLİYİ KONTEKSTİNDƏ EVİAN SAZİŞİ VƏ FRANSA KOLONİALİZMİNİN SÜQUTU

Elnur Mehdiyev

Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi" kafedrasının II kurs magistrantı

mehdiyev.elnur2002@gmail.com

Elmi rəhbər: dosent Rövşən Hətəmov

Açar sözlər: *Əlcəzairdə çevriliş, Evian sazişi, Ş.de Qoll, MAC, GST, Türkiyə*

Keywords: *Coup in Algeria, Evian Agreement, C.de Gaulle, FLN, OAS, Turkey*

De Qoll 1961-ci il 8 yanvarda Əlcəzairin öz müqəddəratını təyinetməsi ilə bağlı ilk referendum keçirdi. Səs verənlərin 75%-i (həm Fransada, həm də Əlcəzairdə) referendumu dəstəklədi və De Qollun hökuməti FLN (Milli Azadlıq Cəbhəsi) ilə gizli sülh danışıqlarına başladı. Əlcəzair departamentlərində isə 69,51% öz müqəddəratını təyinetmənin lehinə səs verdi [4]. 1961-ci ilin martında başlayan danışıqlar De Qollun daha kiçik olan Əlcəzair Milli Hərəkatının (MNA) danışıqlara daxil edilməsində israr etməsi səbəbindən pozuldu, buna isə FLN etiraz etdi.[1] O dövrdə FLN xeyli güclü hərəkat olduğu və MNA demək olar ki, tamamilə sıradan çıxarıldığı üçün, FLN-in danışıqlardan bir müddətlik çəkilməsindən sonra fransızlar nəhayət MNA-nı danışıqlardan kənarlaşdırmağa məcbur oldular [1, s. 88].

22 aprel 1961-ci ildə hökumətin FLN ilə danışıqlarını ləğv etmək məqsədi daşıyan generalların qiyamı Əlcəzair müharibəsinə rəsmi münasibətdə böyük bir dəyişikliyə səbəb oldu. De Qollun devrilməsi üçün edilən çevriliş cəhdinə generallar Raul Salan, Andre Zeller, Moris Şal və Edmond Yuhaud rəhbərlik edirdilər [1]. Yalnız paraşüt diviziyaları və Xarici Legion çevrilişə qoşuldu, Hərbi-Hava Qüvvələri, Hərbi- Dəniz Qüvvələri və Ordunun əksər hissəsi isə sadiq qaldı. Buna baxmayaraq, 23 apreldə De Qoll çevrilişi pisləmək üçün Fransa televiziyasına çıxdı. Adətən ucadan danışan de Qoll çıxışını "Fransız kişiləri, fransız qadınları, mənə kömək edin!" deyərək bitirirdi [1, s. 89]. De Qoll indi əvvəlki heç bir Fransa hökumətinin etmək istəmədiyi pye-nuarları tərk etməyə hazır idi. Ordu qiyam nəticəsində nüfuzdan salınmışdı və Fransanın Əlcəzairlə əlaqəsinin qalan hissəsi boyunca siyasi baxımdan diqqətdən kənarda qalmışdı. OAS (Gizli Silahlı Təşkilat) müharibənin qalan hissəsində Pye-nuarlar üçün əsas bayraqdar olmalı idi.

FLN ilə danışıqlar 1961-ci ilin may ayında Evian limanında yenidən başladı; bir neçə uğursuz başlanğıcdan sonra Fransa hökuməti atəşkəsin 18 mart 1962-ci

ildə qüvvəyə minəcəyi barədə qərar verdi. Danışıqlarda əsas çətinlik de Qollun yalnız əhalinin əksəriyyətinin yaşadığı Əlcəzairin sahil bölgələrinə müstəqillik vermək, neft və qazla zəngin olan Sahara səhrasında qalmaq qərarı idi, FLN isə bütün Əlcəzairi ələ keçirdi [1]. Danışıqlar zamanı pye-nuar və müsəlman icmaları bombalama, atışma, boğaz kəsmə və sui-qəsdlərin üstünlük verilən üsullar olduğu aşağı səviyyəli vətəndaş müharibəsinə cəlb edildi.Kanadalı tarixçi Con Kerns yazırdı ki, bəzən elə təsir bağışlayırdı, sanki hər iki icma "ağıllarını itirirdi", çünki gündəlik həyatdakı "qətllər fərq qoymadan törədilirdi" [1, s.90].

29 iyun 1961-ci ildə de Qoll televiziyada döyüşlərin "demək olar ki, başa çatdığını" və sonradan Fransa Ordusu ilə FLN arasında heç bir böyük döyüşün olmadığını elan etdi. 1961-ci ilin yayında OAS və FLN vətəndaş müharibəsinə başladılar və bu müharibədə müsəlmanların əksəriyyəti üstünlük təşkil etdi [2, s.90]. De Qollu Saharaya iddialarından imtina etməyə məcbur etmək üçün FLN 1961-ci ilin payızında Fransada yaşayan əlcəzairlilərin nümayişlərini təşkil etdi və bu nümayişlər Fransa polisi tərəfindən yatırıldı. 17 oktyabr 1961-ci ildə keçirilən nümayişdə Moris Papon (Fransa dövlət məmuru və siyasətçisidir) əlcəzairlilərin qırğınına çevrilən bir hücum əmri verdi. 10 yanvar 1962-ci ildə FLN Əlcəzairdə OAS-a təzyiq göstərmək üçün "ümumi hücum"a başladı və pye-nuar icmalarına bir sıra hücumlar təşkil etdi. 7 fevral 1962-ci ildə OAS mədəniyyət naziri Andre Malrauxu mənzil binasında bomba ilə öldürməyə cəhd etdi; bu cəhd onu öldürmədi, lakin qonşu mənzildə dörd yaşlı bir qızın gözlərini qəlpələrdən kor etdi [5, s.183]. Bu hadisə Fransanın fikrini OAS-a qarşı yönəltməkdə çox rol oynadı.

1962-ci il fevralın 20-də Əlcəzairin tam müstəqilliyini təmin edən bir sülh razılaşmasına nail olundu. Yekun formada olan Evian sazişi pye-nuarlara üç illik müddət ərzində Əlcəzairlilərlə bərabər hüquqi müdafiə imkanı verirdi. Bu hüquqlara mülkiyyətə hörmət, ictimai işlərdə iştirak və bütün mülki və mədəni hüquqlar daxil idi. Lakin bu dövrün sonunda bütün Əlcəzair sakinləri Əlcəzair vətəndaşı olmaq və ya hüquqlarının itirilməsi ilə əcnəbi kimi təsnif edilmək məcburiyyətində qalacaqdılar. Saziş həmçinin Fransaya müstəqillik qazandıqdan sonra belə Əlcəzairdə hərbi bazalar (Riqan nüvə sınaq poliqonu, Mers-el-Kebir hərbi-dəniz bazası və Bu Sfer hərbi-hava bazası daxil olmaqla) yaratmağa və Əlcəzair neftinə münasibətdə imtiyazlara sahib olmağa icazə verirdi.

OAS kifayət qədər müsəlmanın öldürüləcəyi təqdirdə, pye-nuarlara qarşı ümumi bir qırğın başlayacağına və bunun Fransa ordusunun silahlarını hökumətə qarşı çevirəcəyinə ümid edərək, Evian Sazişini zədələmək üçün terror hücumları başladı. OAS-ın Əlcəzairin qədim şəhər qalasına minaatan mərmiləri atması ilə bağlı geniş təxribata baxmayaraq, FLN cavab hücumlarının olmaması barədə əmr Verdi [1, s.87]. 1962-ci ilin yazında OAS həm FLN-ə, həm də Fransa dövlətinə qarşı müharibəsini maliyyələşdirmək üçün bank soyğunçuluğuna əl atdı və Paris tərəfindən onları izləmək üçün göndərilən xüsusi bölmələri bombaladı.

Atəşkəsdən sonra pye-nuar icması ilə Fransa Ordusundakı keçmiş himayədarları arasında gərginlik yarandı. 20 martda OAS fransız qoşunlarına qarşı pusqu qurmasından sonra 20.000 jandarm və əsgərə Əlcəzairdəki əsasən pye-nuar rayonunun Bab El Ued ərazisini işğal etmək əmri verildi. Bir həftə sonra 4-cü tirayörAla-

yının (80% müsəlmanlardan ibarət fransız zabitləri olan bir bölmə) [2] fransız əsgərləri Əlcəzairdəki pye-nuar nümayişçilərinin izdihamına atəş açaraq 50-80 mülki şəxsi öldürdülər [3]. Bu üç hadisədə ümumi itkilər pye-nuarlar arasında 326 nəfərin ölümü və yaralanması, 110 fransız hərbçisinin isə ölməsi və ya yaralanması ilə nəticələndi. 26 mart 1962-ci ildə jurnalist Henri Tanner baş verən qırğını necə dəhşətli olduğunu təsvir etmişdi. Qırğın pye-nuar icmasını çox qəzəbləndirdi və OAS-a dəstəyin kəskin şəkildə artmasına səbəb oldu [1, s.95].

1962-ci ilin aprelində Əlcəzairin müstəqilliyi ilə bağlı keçirilən ikinci referendumda Fransa seçicilərinin 91 faizi Evian Sazişini dəstəklədi. 1 iyul 1962-ci ildə Əlcəzairin 6,5 milyon seçicisindən təxminən 6 milyonu səs verdi. Səsvermə demək olar ki, yekdilliklə keçirildi, müstəqillik üçün 5.992.115 səs, əleyhinə isə 16.534 səs verildi, pye-nuar və Harki (Əlcəzair Müstəqillik Müharibəsi zamanı Fransa ordusunda köməkçi xidmət edən yerli Əlcəzair müsəlmanları idilər) əhalisinin əksəriyyəti ya qaçdı, ya da bitərəf qaldı [3]. De Qoll 3 iyulda Əlcəzairi müstəqil ölkə elan etdi. Lakin Fransanın Müvəqqəti İcraiyyə orqanı Fransanın Əlcəzairə daxil olmasının 132-ci ildönümü olan 5 iyulu milli müstəqillik günü kimi elan etdi.

Atəşkəs və Əlcəzairdə Fransa referendumu arasındakı üç ay ərzində OAS yeni bir kampaniya başlatdı. OAS FLN tərəfindən atəşkəsin böyük bir şəkildə pozulmasına səbəb olmağa çalışdı, lakin indi hücumlar həm müqavilələri həyata keçirən Fransa ordusuna və polisinə, həm də müsəlmanlara qarşı yönəlmişdi. Bu, Əlcəzairin səkkiz illik vəhşi müharibədə şahidi olduğu ən qəddar qırğın idi. OAS əməliyyatçıları mart ayında gündə orta hesabla 120 bomba partlatdılar və hədəflər arasında xəstəxanalar və məktəblər də var idi. 7 iyun 1962-ci ildə Əlcəzair Universitetinin Kitabxanası OAS tərəfindən yandırıldı.

1962-ci ilin yayında pye-nuar əhalisi Fransaya qaçdı. Bir il ərzində demək olar ki, bütün yəhudi icması da daxil olmaqla 1,4 milyon qaçqın köçə qoşuldu. 5 iyul 1962-ci ildə müstəqillik elan edilməsinə baxmayaraq, sonuncu Fransa qüvvələri Mers əl-Kəbir dəniz bazasından 1967-ci ilə qədər çıxmadı. (Evian Sazişləri Fransaya on beş il ərzində hərbi mövcudluğunu qorumağa icazə vermişdi, buna görə də 1967-ci ildə geri çəkilmə qrafikdən xeyli əvvəl baş verdi. Kerns 1962-ci ildə Parisdən yazdığı məktubda belə deyirdi: "Müəyyən mənada son il daha pis olub. Gərginlik heç vaxt bu qədər yüksək olmayıb. Ən azından Fransada məyusluq heç vaxt bu qədər böyük olmayıb. Bütün bunların ağılsız qəddarlığı heç vaxt bu qədər absurd və vəhşi olmayıb. 1961-ci ilin ümidverici yazından 18 mart 1962-ci il atəşkəsinə qədər uzanan bu son il real nəticəsi olmayan, görüntü xatirinə aparılan mübarizə və ya qarşıdurma, yalançı təhdidlər, təslimçilik və qanlı isteriya (insanlar o qədər qorxu və nifrət içində idilər ki, ağlını itirərək bir-birini öldürürdülər) mövsümünü əhatə etdi. Fransız Əlcəzairi çox pis şəkildə öldü. Onun əzabı Avropa imperializminin göstərə biləcəyi qədər çirkin bir təşviş və vəhşiliklə yadda qaldı. 1962-ci ilin yazında imperiyanın bədbəxt cəsədi hələ də titrəyir, özünü qardaş qırğınına boyadı. Ən azı yeddi il yarım davam edən bütün ölüm epizodu, bəlkə də bütün müstəmləkəçilik tarixində ən acınacaqlı və iyrənc bir hadisə idi. Münaqişənin dolaşıq torunda əhəmiyyətli bir şəxsin necə yaxşı göründüyünü görmək çətindir. Heç kim münaqişəni qazanmadı, heç kim ona hakim olmadı" [1, s. 87].

Türkiyə bu hadisələri böyük maraqla izləyirdi. 1950–1960-cı illərdə NATO üzvü olaraq Fransa ilə müttəfiqlik münasibətləri saxlayırdı, eyni zamanda Asiya və Afrika xalqlarının müstəmləkə zəncirlərini qırmaq mübarizələrinə simpatiya göstərirdi. Əlcəzairin azadlıq savaşı Türkiyə ictimaiyyətində "müsəlman qardaşların ədalət mübarizəsi" kimi dəyərləndirilirdi.

Evian sazişi imzalandıqdan sonra Türkiyə hökuməti Əlcəzairin müstəqilliyini açıq şəkildə alqışladı və 1962-ci ilin iyulunda Əlcəzair Demokratik Xalq Respublikasını tanıyan ilk müsəlman dövlətlərdən biri oldu. Türkiyə mətbuatı və universitet gəncliyi bu hadisəni azadlıq və ədalət ideyalarının qələbəsi kimi təqdim etdi

Beynəlxalq səviyyədə Türkiyə BMT və digər platformalarda Əlcəzairin tanınmasını dəstəklədi və Evian sazişini müharibələrin diplomatik yolla həllinin nümunəsi kimi qiymətləndirdi. 1962-ci ilin sonunda diplomatik münasibətlər quruldu, səfirliklər açıldı və iqtisadi, mədəni və siyasi əməkdaşlıq başladı.

Fransa bəzi mətbuat orqanlarında Türkiyənin balans siyasətini tənqid etsə də, Ankara mövqeyini ədalət və xalqların azadlıq hüququ prinsipləri ilə əsaslandırırdı. Nəticədə, Evian sazişi yalnız Əlcəzair üçün deyil, bütün Afrika və Asiya xalqlarının azadlıq mübarizəsində dönüş nöqtəsi oldu və Türkiyə bunu səmimi dəstəklədi.

Ədəbiyyat siyahısı:

1. *Cairns John. Algeria: The Last Ordeal. International Journal, 1962 p.87-97*
2. *Montagnon Pierre. L'Armee d'Afrique. Pygmalion, 2012, 464 s.*
3. *Proclamation des résultats du référendum d'autodétermination du 1er juillet 1962"*
4. *Référendum sur l'autodétermination en Algérie". Université Perpignan. Archived from the original on 26 July 2011. Retrieved 5 September 2011.*
5. *Shepard Todd. The Invention of Decolonization: The Algerian War and the Remaking of France Ithaca: Cornell University Press, 2008, 288 p.*

XX ƏSRIN 80 – Cİ İLLƏRİNDƏ İNGİLTƏRƏ - TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

Yeganə Məmmədzadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi" kafedrasının II kurs magistrantı
memmedzadeyegane0@gmail.com
Elmi rəhbər: t.ü.f.d. Zərifə Nəzirli

Açar sözlər: *Margaret Tetçer, 1980-ci il çevrilişi, Kipr böhranı, Foklend müharibəsi, PKK*
Keywords: *Margaret Thatcher, 1980 coup, Cyprus crisis, Falklands war, PKK*

1980-ci illər İngiltərə–Türkiyə münasibətlərində mühüm dəyişikliklərin baş vermişdiyi dövr idi. Soyuq müharibə şəraiti, NATO-nun cənub cinahındakı vəziyyət, Yaxın Şərqdəki gərginliklər, Foklend müharibəsi, Türkiyədə 1980- ci il hərbi çevrilişi, Turgut Özalın həyata keçirdiyi iqtisadi islahatlar, SSRİ-nin dağılması prosesi kimi məsələlər ikitərəfli münasibətlərə də mühüm təsir göstərmişdir. İngiltərə 1979-cu ildən- Margaret Tetçer hakimiyyəti dövründən- beynəlxalq siyasətdə

daha aktiv rol oynamışdır və təhlükəsizlik əməkdaşlığı, iqtisadi liberallaşma və ikitərəfli siyasi dialoqu əsas götürən siyasət aparırdı. Həmçinin, Tetçer dövründə Britaniya Türkiyə ilə də siyasi, hərbi və iqtisadi əməkdaşlığı gücləndirmək üçün müxtəlif diplomatik addımlar atmışdır. Eyni zamanda, Türkiyə daxilindəki siyasi hadisələr, xüsusilə 12 Sentyabr 1980-ci il hərbi çevrilişi beynəlxalq aləmin və əsasən Britaniyanın Türkiyə ilə bağlı siyasətinə mühüm təsir göstərmişdir. Demokratiya və insan hüquqları məsələləri Britaniya tərəfindən dəqiqliklə izlənilmiş, ancaq strateji və təhlükəsizlik maraqları daha üstün tutulmuşdur.

1980 çevrilişi Qərbdə, həmçinin Londonda siyasi sabitlik və demokratiya ilə bağlı narahatlıqlar doğurdu. London insan hüquqları ilə bağlı narahatlıq bildirsə də, Türkiyənin NATO üçün strateji əhəmiyyətini əsas məsələ hesab edirdi. Və bununla bağlı bildirirdi ki: "NATO- nun cənub cinahının müdafiəsi üçün Türkiyədəki siyasi sabitlik mühüm əhəmiyyət daşıyır və London Ankaranın qısa zamanda demokratiyaya qayıdacağına ümid edir" [2, s.284]. Britaniyanın fikri belə idi ki, Türkiyə NATO-nun etibarlı üzvü olmalı, Şərqi Aralıq dənizi bölgəsində şəraitin və öz resurslarının imkan verdiyi qədər əsas rol oynamalı və iqtisadi cəhətdən dayanıqlı hala gəlməlidir. Türklər Britaniyanın maliyyə yardımını və daha əhəmiyyətlisi, Britaniyaya olan borclarının yenidən cədvəlləşdirilməsini yüksək qiymətləndirmişdilər. Bununla belə, Britaniyanın türklərlə münasibətdə əsas üstünlüyü beynəlxalq məsələlərdə daha böyük təcrübəsi, hələ də sahib olduğu nüfuz və onlarla ciddi şəkildə məsləhətləşməyə hazır olması idi. İngiltərə hökuməti anlayırdı ki, Türkiyənin demokratiyaya qayıdışı məsələsinin idarə olunması düzgün aparılmasa, bu hətta Türkiyənin NATO-ya sadiqliyinə də təsir göstərə bilərdi. Odur ki, Britaniya hökumətinin mövqeyi nisbətən daha anlayışlı idi. Lakin Daunt Britaniya Hökumətini xəbərdar edirdi ki, generallar üçün açıq-aşkar bəraət qazandıran tərəf kimi çıxış etməkdən çəkinməlidir. Beləliklə, Türkiyə NATO-nun cənub cinahının dayağı hesab edilirdi. London insan hüquqları sahəsində tənqidlərini səsləndirsə də, təhlükəsizlik və kəşfiyyat əməkdaşlığı davam etdirildi. Həmçinin, Böyük Britaniyanın Avropa Birliyinə sədrliyi Türkiyə ilə siyasi əməkdaşlığı daha çox gücləndirmişdir.

1979-cu il seçkilərində qalib gələn və baş nazir olan Margaret Tetçer Türkiyəyə xüsusi önəm verirdi. "Tetçer Türkiyəni Yaxın Şərqdə və Aralıq dənizi hövzəsində SSRİ təsirinin qarşısını almaqda vacib tərəfdaş kimi görürdü. Tetçer hökumətinin sənədlərində Türkiyənin ön cəbhə dövləti olduğu və onun siyasi sabitliyinin əhəmiyyəti vurğulanır, onun Qərbə doğru istiqamətlənməsinin xüsusi əhəmiyyət daşıdığı bildirilidi" [6, s.27]. Beləliklə, Tetçer hökumətinin siyasəti iki əsas istiqamətdə idi. Bunlardan biri, Türkiyənin NATO daxilində rolunun gücləndirilməsi idi. Digər məsələ isə, Türkiyədə iqtisadi islahatlara dəstək idi. 1983 seçkilərində Turgut Özalın hakimiyyətə gəlməsi İngiltərə tərəfindən yaxşı qarşılanmışdı. Tetçer və Özal arasında iqtisadi liberalizm və Qərbə istiqamətli siyasət baxımından benzerlik siyasi əlaqələri gücləndirən amillərdən idi.

Türkiye 1952-ci ildən NATO üzvüdür və Alyans daxilində xüsusiylə cənub cinahının təhlükəsizliyində və sabitliyində əsas rol oynamışdır. Xüsusiylə Soyuq Müharibə dövründə SSRİ təhlükəsinə qarşı NATO çərçivəsində əməkdaşlıq Türki-

yə üçün mühüm əhəmiyyət kəsb edirdi. Alyans üzvləri Türkiyəni SSRİ-yə qarşı sadiq və dəyişməz müttəfiq kimi görürdü. O cümlədən, 1980-ci illərdə "İngiltərə–Türkiyə münasibətlərinin əsasını da NATO daxilində əməkdaşlıq təşkil edirdi. SSRİ-nin Əfqanıstana müdaxiləsi və təsirinin güclənməsi, Yaxın Şərqdə münaqişələr Türkiyənin əhəmiyyətini daha da artırmışdı. Britaniyanın hesabatlarında Türkiyə "Aralıq dənizinin şərq sahillərində sovet hərbi aktivliyinə nəzarət üçün təkrarolunmaz ölkə" kimi təsvir olunurdu" [4, s.62]. 1980 ci illər NATO çərçivəsində birge hərbi təlimlər artırıldı, radar və rabitə sahələrində investisiyalar davam etdirildi və beləliklə, NATO-nun cənub cinahının müdafiə potensialı gücləndirildi. "Hər iki ölkə; Euromissiles" (INF) mübahisəsində ABŞ-ın mövqeyini dəstəkləyirdi, NATO-nun ikili strategiyasının - həm hərbi güclənmə, həm də dialoq siyasətinin - müdafiəçiləri idi" [7, s.65].

Çevrilişdən sonra iqtisadi münasibətlərdə də canlanma müşahidə olunurdu. Türkiyənin 24 yanvar 1980 iqtisadi islahat proqramı Beynəlxalq Valyuta Fondu və Qərb tərəfindən müsbət qarşılanmış və ən dəstəklənmişdir. Britaniya hökumətinin hesabatlarında da bununla bağlı qeyd olunurdu ki, iqtisadi liberallaşma Türkiyənin Qərb bazarlarına inteqrasiyasını gücləndirəcək və bununla da, İngiltərə şirkətləri üçün yeni imkanlar yaranacaq. 1983-dən sonra Turgut Özalın iqtisadi liberallaşma proqramı Britaniya şirkətlərinin Türkiyəyə marağını daha da artırdı. Tetçer və Özalın eyni baxışları – özəlləşdirmə, bazarın liberallaşdırılması, ixraca əsaslanan iqtisadiyyat – əlaqələrin daha genişlənməsinə imkan verirdi. "Beləliklə, 1980-lərin sonuna yaxın İngiltərə Türkiyənin əsas Avropa ticarət tərəfdaşlarından biri olmuşdu" [5, s.370]. Özal hakimiyyəti dövründə xarici sərmayə qanunlarının sadələşdirilməsi nəticəsində İngiltərə şirkətləri: enerji, sənaye istehsalı, bank-maliyyə sahələrində yatırımlarını artırdılar.

1982 -ci il Foklend müharibəsi zamanı Türkiyənin Britaniyaya qarşı spontan simpatiya və dəstəyi müşahidə olunurdu. Türk diplomatların ifadəsinə görə: "NATO-nun həmrəyliyi üçün Türkiyə Böyük Britaniyanın ərazi bütövlüyünə hörmət prinsipini dəstəkləyir" [4, s.51]. Bu mövqe Britaniya tərəfindən yüksək qiymətləndirilmiş və Ankara-London münasibətlərinin genişlənmənə müsbət təsir yaratmışdır.

Kipr problemi XX əsrin ən mühüm münaqişələrindən biri olmuşdur. Adanın coğrafi və strateji mövqeyi, həmçinin etnik və siyasi tərkibi onun regiondakı önəmini artıran amillərdən idi. İngiltərə, 1878-ci ildən 1960-cı ilə qədər Kipr üzərində kolonial hakimiyyətini saxlamışdır. Daha sonra isə beynəlxalq hüquqa hörmət çərçivəsində Kiprin müstəqilliyini tanımışdır. 1974-cü il Türkiyə hərbi müdaxiləsi - Kipr böhranı zamanı İngiltərə humanitar yardımlar etmiş və BMT çərçivəsində də sülhü dəstəkləmişdir. Kipr problemi iki ölkə arasında ən mühüm fikir ayrılığı olaraq qalırdı. İngiltərə Türkiyə və Yunanıstanla yanaşı adanın "zəmanətçi dövləti" idi. Lakin, London 1983-cü ildə Şimali Kipr Türk Respublikasının elan edilməsini tanımadı. "Bu məsələ Türkiyə - İngiltərə arasında müəyyən gərginlik yaratsa da, tərəflər NATO əməkdaşlığına zərər verməmək üçün çalışdılar" [3, s.136]. Britaniya-Türkiyə münasibətləri adada baş verən hadisələr səbəbindən müəyyən dərəcə-

də pisləşsə də, Kipr məsələsi onlar arasında ciddi problemlər yaratmadı. Britaniya hökuməti münasibətlərin pozulmaması üçün balanslı diplomatiya yürüdürdü. Bu, iki ölkə arasındakı tərəfdaşlıq ehtiyacının və ortaq maraqların nəticəsi idi.Kipr münaqişəsi nisbətən sakitləşdikdən sonra türklərlə ingilislər arasındakı münasibətlər də sakitləşdi və ikitərəfli əlaqələr daha dayanıqlı bir yol aldı.

1984-dən sonra PKK-nın silahlı fəaliyyətə başlaması İngiltərə tərəfindən narahatlıqla və narazılıqla qarşılanmışdı. İngiltərə bunu Türkiyənin daxili sabitliyinə qarşı mühüm təhlükə kimi dəyərləndirirdi. İngiltərə Xarici İşlər Nazirliyi 1980-ci illərin ortalarına aid sənədlərdə PKK-nı terrorist, eyni zamanda separatçı hərəkat kimi qeyd edilirdi. Beləliklə, London PKK-nı terror təşkilatı kimi tanıdı və zorakılığı pislədi. "Britaniya hökuməti PKK-nı rəsmi şəkildə terror təşkilatı kimi tanımış və Türkiyənin ərazi bütövlüyünü dəstəkləmişdir" [1, s.26].

Böyük Britaniya 1973-cü ildə AİB-ə daxil olduqdan sonra təşkilat daxilində "açıq qapı" prinsipinin ən ardıcıl müdafiəçilərindən olmuşdur. İngiltərə genişlənməni Qərbin təhlükəsizliyi üçün vacib hesab edirdi. İngiltərə həmçinin düşünürdü ki, Türkiyənin Aİ-yə inteqrasiyası bir sıra müsbət nəticələri olacaq -Aralıq dənizinin şərq sahillərində və Yaxın Şərqdə sabitliyi gücləndirəcək, Rusiyanın bölgəyə təsir imkanını tarazlayacaq, Avropanın enerji təhlükəsizliyini artıracaq və.s. İngiltərə həmçinin sərbəst bazar prinsiplərinə əsaslanan Aİ modelini dəstəkləyirdi (xüsusilə Marqaret Tetçer dövründə). Beləliklə, Türkiyə kimi mühüm tranzit mərkəzi olan, büyük bazara malik, iqtisadiyyatını inkişaf etdirən bir ölkənin Aİ-yə daxil olması Britaniyanın iqtisadi maraqlarına da uyğun gəlirdi. Digər tərəfdən, Almaniya və Fransa kimi Avropa ölkələrindən fərqli olaraq İngiltərə inteqrasiyanın dərinləşməsinin yox, genişlənməsinin müdafiəçisi kimi çıxış edirdi.Beləliklə, Türkiyənin 1980-ci illərdə Avropa Birliyinə yenidən yaxınlaşması istəyinə İngiltərənin münasibəti digər Avropa dövlətlərinə nisbətən daha müsbət idi. Britaniya hökuməti Türkiyənin strateji mövqeyini Avropa məkanının təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb etdiyini hesab edirdi. "1987-ci ildə Türkiyənin Aİ-yə tamhüquqlu üzvlük üçün müraciəti Ankara-London münasibətlərində mühüm rola malik olan məsələ idi. İngiltərə bu addımı dəstəkləyir və Türkiyənin Qərbə inteqrasiyasını mühüm addım kimi görürdü" [7, s.102].

1980-ci illərdə İngiltərə–Türkiyə münasibətləri Soyuq müharibə fonunda, Tetçer–Özal ideoloji yaxınlığı və Türkiyənin Qərbə inteqrasiyası əsasında möhkəmlənmişdir. Kipr və insan hüquqları kimi məsələlərdə fikir ayrılıqları mövcud olsa da, iki ölkə iqtisadi, hərbi, təhlükəsizlik və enerji sahələrində əməkdaşlıq əsas götürülmüşdür. 12 sentyabr 1980-ci il hərbi çevrilişi beynəlxalq münasibətlərdə ciddi narahalıq yaratmamışdır. Bu zaman İngiltərə, Türkiyənin regional mövqeyini dəstəkləyərək, Sovet təsirinə qarşı cənub-şərqi qanadın gücləndirilməsini vacib hesab etmişdir. Kipr məsələsi və digər regional problemlər mövcud olsa da, iki ölkə arasındakı strateji əməkdaşlıq və gərginliklərin diplomatik yolla həll olunmasına diqqət yetirilmişdir. Nəticədə, 1980-ci illərdə Türkiyə–İngiltərə münasibətləri dayanıqlı və əhəmiyyətli əməkdaşlıq modeli kimi qiymətləndirilə bilər.

Ədəbiyyat siyahısı:

1.Criss Nur Bilge. The Nature of PKK Terrorism in Turkey. United Kingdom: Studies in Conflict & Terrorism, 18(n1), 1995, p. 17–37.
2.Hale William. Turkish Foreign Policy since 1774. Londan: Routledge, 2013, 488 p.
3.Ker-Lindsay, J. EU Accession and UN Peacemaking in Cyprus. Houndmills, Basingstoke: Palgrave Macmillan, 2005, 214 p.
4.Ceylan M. F. NATO'nun Geçmiş ve Geleceğinde Türkiye. Türkiye: Gazi Kitabevi, 2023, 121s.
5.Pamuk Ş. Economic Growth in Turkey, 1820–2008. Cambridge: Cambridge University Press, 2008, 480 p.
6.Thatcher Foundation Archives. (1980–1988). Margaret Thatcher Foreign Policy Papers. Cambridge: Churchill Archives Centre. https://www.margaretthatcher.org/archive
7.Uğur M. The European Union and Turkey: An Anchor/Credibility Dilemma. Aldershot: Ashgate, 1999, 286 s.

RUSİYA İMPERİYASININ ŞƏRQ SİYASƏTİ: QAFQAZ İSTİQAMƏTİNDƏ GENİŞLƏNMƏ VƏ BEYNƏLXALQ RƏQABƏT

Mirfazil İbrahimli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Slavyan ölkələri tarixinin" kafedrasının II kurs magistrantı
ibrhmv777@gmail.com
Elmi rəhbər: dosent Sevda Hüseynova

Açar sözlər: *Şərq siyasəti, Qafqaz, İmperializm, Geosiyasət, Diplomatiya, Regional münasibətlər*
Keywords: *Eastern Policy, Caucasus, Imperialism, Geopolitics, Diplomacy, Regional Relations*

Rusiya imperiyasının XVIII–XIX əsrlərdə formalaşan Şərq siyasəti Qafqaz regionunun siyasi-mədəni inkişafında həlledici rol oynamış və bu məkanın geosiyasi taleyini əsaslı şəkildə dəyişdirmişdir. Rusiyanın Şərq siyasəti, xüsusən Qafqaz kimi regionlarda strateji maraqlar, imperial ideologiya və çoxmillətli imperiyanın idarəçiliyi arasındakı qarşılıqlı əlaqəni göstərir" [8, s.56]. Avrasiya məkanının ən mürəkkəb bölgələrindən biri sayılan Qafqaz təkcə strateji mövqeyinə görə deyil, həm də çoxsahəli siyasi proseslərin kəsişmə nöqtəsi olduğu üçün böyük imperiyaların daim diqqət mərkəzində olmuşdur. Bu baxımdan Rusiyanın Cənubi Qafqaz istiqamətində yürüdüyü genişlənmə siyasəti təkcə regional maraqların deyil, həm də qlobal rəqabətin tərkib hissəsi kimi meydana çıxmışdır.

XVIII əsrin sonlarında Osmanlı və İran kimi regional güclərin zəifləməsi, Avropa dövlətləri arasındakı qüvvələr balansının dəyişməsi və beynəlxalq ticarət yollarının yenidən formalaşması Rusiyanın Qafqaza doğru irəliləyişini sürətləndirmişdir. Şimal imperiyasının Qafqazı nəzarət altına almaq cəhdi həm siyasi, həm də iqtisadi məqsədlərə söykənirdi: Qara dənizdən Xəzər dənizinə qədər uzanan strateji xətti idarə etmək, isti dənizlərə çıxış əldə etmək, həmçinin regionun təbii resurslarından və ticarət marşrutlarından istifadə etmək Rusiya siyasətinin əsas prioritetləri sırasında yer alırdı. Qafqaz beləliklə Rusiya üçün yalnız sərhəd bölgəsi deyil, imperiya təhlükəsizliyinin mühüm tərkib hissəsinə çevrilmişdi.

Rusiya imperiyasının regiona daxil olması təkcə hərbi ekspansiya prosesindən ibarət olmayıb, həm də diplomatik təzyiqlər, yerli siyasi quruluşların ləğvi, inzibati idarəçiliyin dəyişdirilməsi və sosial münasibətlərin yenidən tənzimlənməsi ilə müşayiət olunmuşdur. Qarabağ, Şəki, Şirvan, Gəncə və digər xanlıqların tədricən nəzarət altına alınması, eləcə də Şimali Qafqazda uzunmüddətli müharibələrin aparılması imperiyanın bölgəyə verdiyi strateji əhəmiyyətin göstəricisi idi. Bu proseslər nəticəsində Qafqazın siyasi xəritəsi tamamilə yenilənmiş, yerli dövlətçilik formaları tədricən ortadan qaldırılmış və rus inzibati modeli tətbiq edilməyə başlanmışdır.

Qafqaz uğrunda rəqabət təkcə Rusiya ilə yerli siyasi qüvvələr arasında deyil, həm də böyük dövlətlər arasında gedirdi. Rusiya–Britaniya münasibətlərində "Böyük oyun" adlandırılan geosiyasi mübarizə, Osmanlı dövlətinin regionla bağlı maraqları və İranın itirilmiş torpaqlar uğrunda apardığı mübarizə Qafqazı beynəlxalq münasibətlərin ən gərgin arenasına çevirmişdi. Rusiyanın tarixi müdaxilələri sonrakı münaqişələr üçün nümunə yaratmış, imperiya strategiyalarının bəzən gözlənilməz sosial və siyasi nəticələr doğurduğunu göstərmişdir [7, s. 134]. Bu rəqabət Rusiya imperiyasının bölgədəki mövqelərini gücləndirməklə yanaşı, Qafqaz xalq-larının sosial, mədəni və siyasi həyatında da ciddi dəyişikliklərə səbəb olmuşdur.

Bütün bu amillər göstərir ki, Rusiyanın Qafqaz istiqamətində yürüt-düyü genişlənmə siyasəti təkcə regional tarixin bir epizodu deyil, həm də Qafqazın müasir siyasi reallıqlarının formalaşmasında əsas komponentlərdən biridir. Bu məqalənin məqsədi Rusiya imperiyasının Şərq siyasətinin Qafqaz istiqamətində həyata keçirilmiş mərhələlərini, bu siyasətin beynəlxalq rəqabət kontekstində necə formalaşdığını və regionun siyasi inkişafına nə kimi təsirlər göstərdiyini elmi əsaslarla təhlil etməkdir.

Rusiya imperiyasının Şərq siyasəti XVIII–XIX əsrlər boyu ardıcıl şəkildə formalaşan və tədricən geniş miqyaslı geosiyasi strategiyaya çevrilən siyasi xətt idi. Bu siyasətin əsasını imperiyanın coğrafi sərhədlərinin genişləndirilməsi, təhlükəsizlik mühitinin möhkəmləndirilməsi, beynəlxalq ticarət yollarına nəzarət edilməsi və imperiya ideologiyasının Şərq xalqları üzərində təsirinin artırılması təşkil edirdi. Xüsusilə Qafqaz istiqaməti bu siyasətin ən həssas və ən strateji sahəsi kimi ön plana çıxmışdır. Rusiyanın Qafqaza artan marağı həm geosiyasi reallıqlardan, həm də imperiyanın daxili ideoloji məqsədlərindən doğurdu.

Əvvəla, Rusiya imperiyası özünü Avrasiya məkanında təbii lider kimi görən siyasi düşüncəni XIX əsrdə daha sistemli şəkildə formalaşdırdı. "Şimaldan cənuba doğru irəliləyiş" ideyası imperiya elitası arasında geniş yayılmışdı və bu yanaşma Rusiya dövlətçiliyinin tarixi inkişafı ilə əsaslandırılırdı. Rus siyasi dairələrinə görə imperiya yalnız sərhədlərini genişləndirməklə deyil, həm də Şərq xalqlarını "mədəni və siyasi baxımdan inkişaf etdirməklə" öz missiyasını həyata keçirirdi. Bu ideoloji çərçivə sonradan ruslaşdırma siyasətinin və Qafqazda idarəçilik sisteminin əsaslandırılması üçün mühüm vasitəyə çevrildi.

İkinci mühüm amil Rusiyanın geosiyasi mövqeyi idi. Avropa və Asiya arasında körpü rolunu oynayan Rusiya imperiyası Cənubi Qafqazı strateji baxımdan əvəzsiz region kimi qiymətləndirirdi. Qafqaz vasitəsilə həm Yaxın Şərq, həm Mərkəzi Asiya, həm də Qara dəniz hövzəsinə nəzarət etmək mümkün olurdu. Osmanlı və İran kimi dövlətlərin zəifləməsi Rusiyanın bu regionda rahat manevr etməsinə şərait yaratdı. Bu

zəifləmə imperiya üçün ərazi genişlənməsi baxımından əlverişli siyasi mühit formalaşdırdı və Qafqaz Rusiyanın cənub müdafiə xəttinin mühüm həlqəsinə çevrildi.

Bundan başqa, Qafqaz ticarət yolları və iqtisadi resurslar baxımından da Rusiya üçün böyük əhəmiyyət kəsb edirdi. Xəzər dənizi hövzəsi, Bakı nefti və İpək yolunun mühüm qolları Rusiya imperiyasının iqtisadi maraqlarını daha da gücləndirirdi. Regionun təbii ehtiyatlarına nəzarət həm iqtisadi təhlükəsizlik baxımından, həm də Avropa dövlətləri ilə rəqabətdə üstünlük qazanmaq üçün vacib sayılırdı. Xüsusilə Böyük Britaniya ilə gedən geosiyasi mübarizə Rusiyanın Şərq siyasətini daha aqressiv edirdi. İngiltərənin Hindistana gedən yollar üzərində təsirini artırmaq cəhdləri Rusiyanın Cənubi Qafqazda möhkəmlənmək siyasəti ilə toqquşur, bu da "Böyük oyun" kimi tanınan rəqabətin əsasını təşkil edirdi. Qafqaz uzun müddət imperiyaların kəsişdiyi nöqtə olmuşdur; burada Rusiyanın Şərqdəki strateji ambisiyaları tez-tez yerli siyasi qurumlarla toqquşmuş, həm regional dinamikaları, həm də imperial siyasətləri formalaşdırmışdır [1, s.45].

Qafqazın strateji əhəmiyyəti Rusiyanı bu regionda mərkəzləşmiş siyasət yürütməyə vadar etmiş, regional ittifaqlar və müqavimət hərəkətləri imperiyanın inzibati strategiyalarına təsir göstərmişdir [5, s.25].Qafqazın hərbi-strateji dəyərini artıran digər faktor Böyük Britaniya ilə aparılan geosiyasi mübarizə idi. XIX əsrdə Atlantik və Hind okeanına çıxış əldə edən Britaniya imperiyası Avrasiyada nüfuz dairəsini genişləndirməyə çalışırdı. Hindistanın müdafiəsi Britaniya üçün prioritet olduğundan Qafqaz üzərində Rusiya nəzarətinin güclənməsi Londonda ciddi narahatlıq yaradırdı. Bu səbəbdən Qafqaz "Böyük oyun" adlandırılan geosiyasi rəqabətin mərkəzlərindən birinə çevrildi və regiona sahib olmaq Rusiya üçün həm hərbi, həm də siyasi güc nümayişi idi. Britaniyanın İran və Osmanlı üzərindən göstərdiyi təsirə qarşı Rusiyanın Qafqazda möhkəmlənməsi imperiyanın beynəlxalq mövqelərini gücləndirməyə xidmət edirdi.

Qafqazın strateji əhəmiyyətinin başqa bir aspekti onun daxili siyasi quruluşu ilə bağlı idi. Regionda etnik və dini müxtəlifliyin yüksək olması imperiya üçün həm təhlükə, həm də imkan kimi görünürdü. Bir tərəfdən müxtəlif xalqların müqaviməti hərbi əməliyyatları uzadırdı, digər tərəfdən isə Rusiya üçün yerli hakimiyyətlərini zəiflədib öz inzibati modelini tətbiq etməyə şərait yaradırdı. Bu baxımdan Şimali Qafqaz müharibələri regionun strateji dəyərinin bir daha təsdiqi idi: Rusiyanın bölgəyə nəzarəti tam əldə etməsi üçün uzun illər davam edən hərbi kampaniyalar aparmasına ehtiyac yaranmışdı.

Bütün bu amillər göstərir ki, Qafqaz təkcə bir coğrafi məkan deyil, Rusiya imperiyasının hərbi-siyasi strategiyasının ən mühüm dayaqlarından biridir. Regiona nəzarət imperiyanın cənub sərhədlərini qorumaq, Yaxın Şərq istiqamətində təsir imkanlarını genişləndirmək və beynəlxalq rəqabətdə üstünlük qazanmaq üçün əsas şərt idi. Buna görə də Qafqaz XIX əsr boyunca Rusiya siyasətində prioritet mövqe tutmuş, imperiyanın hərbi gücünün əsas hədəflərindən birinə çevrilmişdir.

Rusiya imperiyasının Qafqazda genişlənməsi XVIII əsrin sonlarından başlayaraq XIX əsrin sonlarına qədər tədricən həyata keçirilmişdir. İlkin mərhələdə Rusiyanın diqqəti Şimali Qafqaz və Gürcüstan üzərinə yönəlmiş, bu ərazilərin strateji mövqeyi və təbii sərhədləri imperiyanın təhlükəsizlik xəttini möhkəmləndirməyə

xidmət etmişdir. 1801-ci ildə Gürcüstanın Rusiyaya birləşdirilməsi imperiyanın regiondakı nüfuzunun əsas dönüş nöqtəsi hesab edilir.

Sonrakı mərhələdə Qarabağ, Şəki, Şirvan və Gəncə xanlıqları tədricən Rusiyanın nəzarəti altına alınmışdır. Bu proses yerli siyasi quruluşların zəiflədilməsi və Rusiya inzibati sisteminin tətbiqi ilə müşayiət olunmuşdur. XIX əsr boyunca davam edən Qafqaz müharibələri, xüsusilə Şimali Qafqazda aparılan hərbi əməliyyatlar imperiyanın bölgədə tam mövqeyini təmin etmək məqsədini güdürdü.XIX əsrdə Rusiya imperiyasının Qafqaz siyasəti strateji ehtiyaclarla yanaşı, imperial ambisiyaların ideoloji çərçivəsini əks etdirirdi; bu, fəth ilə etnik qrupların idarə olunmasını birləşdirirdi [4, s.203].

Beləliklə, Rusiya imperiyasının Qafqazda genişlənməsi mərhələli, strateji planlı və həm hərbi, həm diplomatik tədbirlərlə dəstəklənən proses olmuşdur. Bu genişlənmə yalnız ərazi baxımından deyil, həm də regiondakı siyasi və sosial dəyişikliklərin təşəkkülündə əsas rol oynamışdır. Rusiya imperiyası Şərq siyasətini həm hərbi güc, həm də diplomatik əlaqələr vasitəsilə həyata keçirmiş, sərhədlərini qorumaqla yanaşı, qonşu regionlarda təsirini artırmaq məqsədi güdürdü [3, s.78].

Ədəbiyyat siyahısı:

1.King, C. The Ghost of Freedom: A History of the Caucasus. Oxford University Press, 2008, 352 s.
2. Suny, R. G. The Making of the Georgian Nation. Indiana University Press, 1994, 360 s.
3. Lieven, D. Empire: The Russian Empire and its Rivals. Yale University Press, 1998, 496 s.
4. Riasanovsky, N. V.; Steinberg, M. D. A History of Russia. Oxford University Press, 2010, 736 s.
5. Rayfield, D. Edge of Empires: A History of Georgia. Reaktion Books, 2012, 432 s.
6. Broers, L. The Russian Empire and the Caucasus: Imperial Strategies and Local Politics. Palgrave Macmillan, 2016, 304 s.
7. King, C. The Post-Soviet Wars: Rebellion, Ethnic Conflict, and Nationhood in the Caucasus. Yale University Press, 2013, 344 s.
8. Suny, R. G. Russia and the Soviet Union: A Historical Introduction from the Kievan Rus to the Present. Cambridge University Press, 2015, 520 s

GÜRCÜSTAN RESPUBLİKASININ SOVETLƏŞMƏSİ

Rauf Kərimzadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Slavyan ölkələri tarixi" kafedrasının II kurs magistrantı
raufkerimzade2003@gmail.com
Elmi rəhbər: dosent Sevda Hüseynova

Açar sözlər: *Gürcüstan, repressiya, Rusiya, sosializm, kollektivləşdirmə*
Keywords: *Georgia, repression, Russia, socialism, collectivization*

XX əsrin əvvəllərində Cənubi Qafqaz geosiyasi baxımdan dünyanın ən mürəkkəb regionlarından biri idi. Böyük imperiyaların – Rusiya, Osmanlı və İranın – əsrlərlə davam etmiş təsirlərinin ardınca bölgədə yeni siyasi aktorlar, milli dövlətlər meydana çıxmaqda idi. 1917-ci il Rus inqilabından sonra imperiyanın süqutu

Qafqaz xalqları üçün müstəqillik pəncərəsi yaratdı və 1918-ci ildə Gürcüstan Demokratik Respublikası formalaşdı. Lakin bu müstəqillik uzun sürmədi. Bolşevik Rusiyasının ideoloji və hərbi ekspansiya siyasəti nəticəsində Gürcüstan 1921-ci ildə işğal olundu və sovetləşmə prosesi başlandı. Bu proses yalnız siyasi hakimiyyət dəyişikliyindən ibarət deyildi; o, ölkənin sosial, iqtisadi, mədəni və ideoloji strukturunun tamamilə yenidən qurulması demək idi. Bu tezis Gürcüstanın sovetləşməsinin səbəblərini, mərhələlərini və genişmiqyaslı təsirlərini çoxsahəli şəkildə araşdırır.

1918–1921-ci illərdə mövcud olan Gürcüstan Demokratik Respublikası regionda parlamentli demokratiya modelini tətbiq edən ilk dövlətlərdən biri idi. Menşevik liderlər sosial demokrat düşüncəyə əsaslanan, həm sosial siyasəti, həm də iqtisadi islahatları həyata keçirməyə yönəlmiş bir dövlət qurmağa çalışırdılar. Lakin ölkə həm iqtisadi baxımdan zəif idi, həm də daxili etnik gərginliklərlə üzləşirdi. Abxaziya və Osetiya bölgələrində separat güclər, Osmanlı və Denikin ordusunun hücumları, bolşevik təbliğatı dövlətin sabitliyini zədələyirdi. Gürcüstanın Qərbə inteqrasiya cəhdi – xüsusilə Almaniya və Böyük Britaniyadan yardım istəyi – gözlənilən nəticəni vermədi. Belə bir zəiflik sovetləşməni sürətləndirən əsas amillərdən biri oldu [3, s.81].

1920-ci illərin əvvəllərində bolşeviklər artıq Azərbaycanın neft ehtiyatlarını ələ keçirib Ermənistanda sovet hökuməti qurmuşdular. Gürcüstan isə Qafqazın tam sovetləşdirilməsi üçün son maneə idi. Moskva regionu həm enerji, həm də təhlükəsizlik baxımından həyati əhəmiyyətli hesab edirdi. Gürcüstanın Qara dəniz sahili, Batumi limanı və nəqliyyat-kommunikasiya xətləri, xüsusilə Bakı–Batumi neft boru kəməri bolşeviklərin planlarında strateji rol oynayırdı. Buna görə də Kreml gürcü menşevik hökumətini "burjua-millətçi" kimi damğalayaraq onun devrilməsini siyasi zərurət kimi təqdim edirdi. 1921-ci ilin fevralında Qızıl Ordu Gürcüstana daxil oldu və qısa müddət ərzində Tiflisi nəzarətə götürdü. Gürcüstanın işğalı SSRİ-nin Qafqaz siyasətinin mühüm mərhələsi idi [5, s. 138].

Qızıl Ordu Tiflisə daxil olduqdan sonra bolşeviklər sürətlə yeni hakimiyyət strukturlarını formalaşdırdılar. Gürcüstan Sovet Sosialist Respublikası elan edildi və keçmiş demokratik institutlar ləğv olundu. Menşevik liderlərin əksəriyyəti mühacirətə getməyə məcbur edildi. Sovetləşmənin ilk mərhələsində siyasi müxalifət qəti şəkildə aradan qaldırıldı, bolşevik partiyası yerli hakimiyyətin yeganə mənbəyinə çevrildi. Gürcüstanın idarəçiliyi Moskvanın təyin etdiyi kadrların nəzarətinə keçdi və dövlət aparatının bütün strukturları mərkəzləşdirildi. Bu, sovetləşmənin təkcə siyasi deyil, həm də ideoloji məqsədlər güddüyünü göstərirdi [2, s.190-191].

Gürcüstan cəmiyyətinin böyük hissəsi sovetləşməni işğal kimi qəbul edirdi. 1924-cü ildə menşevik liderlərinin rəhbərliyi ilə genişmiqyaslı anti-sovet üsyanı baş verdi. Qərbi Gürcüstanda başlayan üsyan qısa müddətdə paytaxta doğru yayılsa da, sovet ordusu tərəfindən qəddarcasına yatırıldı. Minlərlə insan güllələndi, daha çoxu sürgün edilərək Sibirə göndərildi. Bu məğlubiyyət Gürcüstanda sovet hakimiyyətinə ciddi müqaviməti uzun müddət zəiflətdi və bolşevik nəzarətinin daha sərt şəkildə möhkəmlənməsinə gətirdi [3, s.147].

1929–1933-cü illərdə SSRİ-də həyata keçirilən kollektivləşmə siyasəti Gürcüstanda da geniş miqyas aldı. Ölkə iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatı zorakı şəkildə kolxoz və sovxozlara birləşdirildi. Kəndlilərin şəxsi mülkiyyəti məhdudlaşdırıldı, torpaq üzərində nəzarət dövlətə keçdi. Xüsusilə çay, sitrus və üzüm kimi Gürcüstanın əsas gəlirli sahələri kollektiv təsərrüfatlara çevrildi. Kollektivləşmə kəndlilərin narazılığını artırdı və bir çox bölgədə gizli müqavimət ocaqları formalaşdı. Minlərlə "kulak" damğası vurulan ailə sürgün edildi. Bu proses kəndlərdə sosial strukturun tam dəyişməsinə səbəb oldu [4, s.158].

1930–1950-ci illərdə Gürcüstanda geniş sənaye layihələri həyata keçirildi. Rustavi metallurgiya kombinatı, Zestafoni ferrosilisium zavodu, Chiatura manqan mədənləri SSRİ sənaye sisteminin mühüm hissəsinə çevrildi. Sənayeləşmə hesabına Tiflis, Kutaisi və Rustavi kimi şəhərlərdə əhali sürətlə artdı. Lakin sənaye siyasəti yerli tələbatdan çox SSRİ-nin ümumi planına yönəlmişdi. Gürcüstan resursları çox vaxt respublikanın öz inkişafını deyil, mərkəzin ehtiyaclarını təmin edirdi. Bu isə iqtisadi asılılığın dərinləşməsinə səbəb olurdu [1, s.167].

Sovet hakimiyyəti təhsil sahəsində geniş islahatlar həyata keçirərək savadlanmanı əhəmiyyətli dərəcədə artırdı. Tiflis Dövlət Universitetinin fəaliyyəti genişləndirildi, yeni elmi institutlar açıldı. Lakin təhsil sistemi sovet ideologiyasının daşıyıcısı idi; dərsliklər marxizm-leninizm kontekstində hazırlanırdı. Gürcüstanda mədəniyyət sahəsi də ciddi nəzarət altına alındı. Ədəbi yaradıcılıq sosialist realizmi çərçivəsində həyata keçirilməli idi. Sofiko Çiaureli, Nodar Dumbadze, Konstantine Gamsaxurdia kimi sənətkarların yaradıcılığı sovet senzurası çərçivəsində inkişaf edirdi. Bununla belə, gürcü mədəniyyəti tamamilə yox olmadı; o, sovet ideoloji çərçivələrində özünü qorumağa çalışırdı [5, s.241].

Stalin dövründə – xüsusilə 1937–1938-ci illərdə – Gürcüstan SSR-də geniş repressiyalar həyata keçirildi. Keçmiş Demokratik Respublika liderləri, ziyalılar, müəllimlər, din xadimləri, hətta partiya kadrlarının özləri məhv edildi. Minlərlə gürcü "xalq düşməni" damğası ilə güllələndi və ya sürgün edildi. Repressiyaların özəl cəhətlərindən biri onların milli elitaya qarşı yönəlməsi idi. Xüsusilə tarixçilər və yazıçılar "millətçilikdə" günahlandırılaraq cəzalandırılırdı. Bu, Gürcüstan cəmiyyətinin intellektual potensialına ağır zərbə vurdu [1, s.210].

Gürcüstan Pravoslav Kilsəsi tarixən xalqın milli identitetinin əsas dayaqlarından biri olmuşdur. Sovet hakimiyyəti dini institutları zəiflətmək üçün sistemli siyasət yürüdürdü. Kilsələr bağlanır, monastırlar dağıdılır, ruhanilər təqib edilirdi. Dini mərasimlərin keçirilməsi məhdudlaşdırılırdı. Lakin Gürcüstanda dini ənənələr tamamilə aradan qaldırıla bilmədi və ailə daxilində, gizli formada yaşamağa davam etdi. Sovet rejimi kilsəni zəiflətsə də, onu tam məhv edə bilmədi [3, s.188]. SSRİ rəhbəri İosif Stalinin gürcü olması respublikaya müəyyən üstünlüklər qazandırırdı. Gürcüstan sənayeləşməyə daha çox investisiya alırdı, mərkəzi idarəetmə orqanlarında gürcülərin payı yüksək idi. Lakin bu vəziyyət yalnız müəyyən dövr üçün keçərli idi. Stalin dövrünün repressiyaları eyni dərəcədə Gürcüstanı da vurdu və respublika həm faydalar, həm də itkilər yaşadı. Bununla belə, Stalinin gürcü ol-

ması milli kimlik üzərində paradoksal təsir yaratdı: bir tərəfdən qürur, digər tərəfdən onun repressiyalarının acı mirası [2, s.260].

SSRİ-də milli siyasət nominal olaraq xalqların bərabərliyini və respublikaların hüquqlarını tanıyırdı, lakin reallıqda mərkəzin tam nəzarəti vardı. Gürcüstanda Abxaziya və Cənubi Osetiyada muxtar qurumlar yaradılması sonradan münaqişələrin yaranmasına zəmin oldu. Sovet hakimiyyəti etnik bölgələrdə demoqrafik dəyişikliklər aparır, yerli əhalinin məskunlaşma strukturunu yenidən formalaşdırırdı. Bu siyasət görünüşdə "sosialist beynəlmiləlçiliyi", əslində isə mərkəzdən idarə olunan balans mexanizmi idi [1, s.224].

1991-ci ildə SSRİ dağıldıqdan sonra Gürcüstan müstəqilliyini bərpa etsə də, sovet dövründən qalan siyasi və iqtisadi problemlər ağır yük kimi ölkənin üzərində qaldı. Abxaziya və Cənubi Osetiya münaqişələri, iqtisadi asılılıq, sənaye sisteminin iflası, siyasi qeyri-sabitlik – bütün bunlar sovetləşmə siyasətinin uzunmüddətli nəticələri idi. Gürcüstan post-sovet mərhələyə zəif dövlət strukturları və dərin cəmiyyət bölünməsi ilə daxil oldu. Bu, sovetləşmənin ölkənin tarixində buraxdığı ağır mirası bir daha göstərir [5, s.305].

Gürcüstanın sovetləşdirilməsi 1921-ci ildə hərbi müdaxilə ilə başlamış olsa da, prosesin mahiyyəti təkcə Qızıl Ordunun Gürcüstanı işğal etməsi ilə məhdudlaşmırdı. Bu, həm də cəmiyyətin bütün sahələrini köklü şəkildə dəyişdirən uzunmüddətli sosial, iqtisadi, ideoloji və institusional transformasiya idi. Sovet hakimiyyətinin qurulması Gürcüstanın dövlətçilik ənənələrinə ciddi zərbə vurdu; demokratik idarəetmə modeli ləğv edildi, siyasi plüralizm tamamilə sıradan çıxarıldı, menşeviklərin yaratdığı parlament respublikası məhv edildi. SSRİ rəhbərliyi Gürcüstanı özünün Cənubi Qafqaz siyasətinin strateji mərkəzlərindən birinə çevirərək ölkənin daxili inkişaf istiqamətlərini Moskvanın maraqlarına tabe etdirdi. Bu baxımdan sovetləşmə Gürcüstan tarixində həm zorakı, həm də sistemli şəkildə aparılmış hakimiyyət dəyişikliyinin klassik nümunəsi kimi qiymətləndirilə bilər. Sovetləşmənin nəticələrindən biri iqtisadi sahədə yaşanan tam transformasiya idi. Mülkiyyət münasibətləri kökündən dəyişdirildi, sənaye dövlətləşdirildi, kənd təsərrüfatı kollektivləşdirildi, şəhərsalma və infrastruktur SSRİ-nin ümumi planına uyğunlaşdırıldı. Gürcüstan bir çox halda mərkəzin sənaye və ərzaq təminatında rol oynayan regiona çevrildi. Bu iqtisadi model müəyyən sahələrdə modernizasiya və urbanizasiya proseslərini sürətləndirsə də, yerli təşəbbüslərin qarşısını aldı, bazar münasibətlərini sıradan çıxardı və uzunmüddətli perspektivdə qeyri-sabit iqtisadi struktur formalaşdırdı. Kollektivləşmə dövründə minlərlə gürcü kəndlisi repressiyaya məruz qaldı, torpaq üzərində ənənəvi münasibətlər dağıdıldı. Siyasi sahədə sovetləşmə Gürcüstan cəmiyyətinin azadlıq və müstəqillik ideallarını ciddi şəkildə daraltdı. Sovet hakimiyyəti millətçi hərəkatı sistemli şəkildə təqib etdi, menşevik liderlərini sürgün və repressiyalarla aradan götürdü, kilsənin fəaliyyətini məhdudlaşdırdı. 1930-cu illərdəki böyük stalinçi repressiyalar Gürcüstanda ziyalı mühitini demək olar ki, məhv etdi, ölkənin siyasi elitası tamamilə dəyişdirildi. Gürcüstan Sovet Sosialist Respublikası formal olaraq federativ birlikdə yer alsa da, real haki-

miyyət Moskvanın əlində cəmlənmişdi. Bu vəziyyət XX əsrin sonlarına qədər davam edərək ölkədə siyasi passivlik və mərkəzə asılılıq yaratdı. Mədəni və ideoloji sahədə sovetləşmə həm müsbət, həm mənfi nəticələr doğurdu. Bir tərəfdən, kütləvi savadlanma proqramları, ali təhsil ocaqlarının genişləndirilməsi və elmi-tədqiqat institutlarının yaradılması Gürcüstanda intellektual potensialın artmasına səbəb oldu. Digər tərəfdən, bütün bu inkişaf sovet ideologiyası çərçivəsində həyata keçirilir, milli mədəniyyətin sərbəst inkişafı məhdudlaşdırılırdı. Tarixşünaslıq, ədəbiyyat, incəsənət sosialist realizmi ideologiyasına uyğunlaşdırıldı. Gürcüstanın tarixi sovet prizmasından yenidən yazılır, milli kimliyin bir çox simvol və elementləri ideoloji nəzarət altına alınırdı. Sovetləşmənin ən ağır nəticələrindən biri Gürcüstanda milli müqavimət ənənəsinin parçalanması və cəmiyyətin uzunmüddətli şəkildə sosial-psixoloji nəzarət altında saxlanılması idi. Repressiyalar, məcburi kollektivləşmə, milli intellektualların aradan qaldırılması və fövqəladə nəzarət sistemləri cəmiyyətdə qorxu mühiti yaratdı. Bu, gürcü cəmiyyətində sosial aktivliyin azalmasına, təşəbbüskarlığın zəifləməsinə və dövlətə inamın sarsılmasına səbəb oldu. Nəticədə Gürcüstan SSRİ dağıldıqdan sonra müstəqilliyə qayıdış mərhələsində ciddi çətinliklərlə üzləşdi—siyasi institutların zəifliyi, iqtisadi qeyri-sabitlik, sosial parçalanma və milli münasibətlər böhranı bunun nəticəsi idi.

Bununla belə, qeyd etmək lazımdır ki, sovetləşmə dövrü Gürcüstan üçün yalnız itkilərdən ibarət deyildi. Sənayeləşmə, urbanizasiya, təhsil və səhiyyənin genişləndirilməsi, kommunikasiya infrastrukturunun qurulması kimi proseslər müasir Gürcüstanın sosial-iqtisadi bazasının formalaşmasında müəyyən rol oynadı. Lakin bu modernləşmə totalitar nəzarət altında aparıldığı üçün təbii inkişaf yolunu məhdudlaşdırdı və ölkəni Moskvanın maraqlarına xidmət edən iqtisadi-siyasi sistemə bağladı. Bunun nəticəsi olaraq müstəqillik bərpa olunduqda Gürcüstan çoxsaylı struktur problemlərlə üzləşdi və keçid dövrü daha ağrılı keçdi. Ümumiləşdirərək demək olar ki, sovetləşmə Gürcüstan tarixində ziddiyyətli, çoxqatlı və uzunmüddətli təsirləri olan bir prosesdir. Bu proses Gürcüstanın siyasi müstəqilliyini məhv etsə də, sosial modernləşmə sahəsində müəyyən imkanlar yaratdı. Lakin bu imkanlar sovet totalitarizminin sərhədləri daxilində formalaşdığı üçün cəmiyyətin öz daxili inkişaf modelini seçmək imkanını əngəllədi. Gürcüstanın müasir tarixində postsovet dövründə baş verən bir çox siyasi, sosial və iqtisadi problemlərin kökləri məhz XX əsrin 20–80-ci illərində tətbiq edilən sovet idarəetmə modelinə gedib çıxır. Buna görə sovetləşmə yalnız tarixi hadisə deyil, həm də bugünkü Gürcüstanın dövlətçilik, milli identiklik və siyasi mədəniyyətinin anlaşılmasında əsas açar məqamlardan biridir.

Ədəbiyyat siyahısı:

1. *Əliyev, R. Cənubi Qafqazda Geosiyasi Maraqlar və Sovetləşmə. Bakı, 2012, 143 s.*
2. Джанелидзе, Г. История Грузии. Тбилиси, 1980, 488 s.
3. Lang, D. M. A Modern History of Georgia. London: Weidenfeld & Nicolson, 1962, 370 s.
4. Məmmədov, F. Qafqazda Sovet İmperiya Siyasəti. Bakı, 2007, 400 s.
5. Suny, R. G. The Making of the Georgian Nation. Indiana University Press, 1994, 418 s.

HEYDƏR ƏLİYEV–İLHAM ƏLİYEV SİYASİ XƏTTİNİN TÜRK DÜNYASI REALLIQLARI KONTEKSTİNDƏ TƏHLİLİ

Rəna Həsənzadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin ″Qafqaz xalqları tarixi″ kafedrasının
II kurs magistrantı
rhesenzade2022@gmail.com
Elmi rəhbər: t.e.d., professor İradə Hüseynova

Açar sözlər: *Azərbaycan, dövlətçilik modeli, beynəlxalq arena, Türk Şurası, müstəqillik, siyasi sabitlik*
Keywords: *Azebaijan, statehood model, international arena, Turkic Council, independence, political stability*

Cənubi Qafqaz regionu, strateji mövqeyi, zəngin mədəniyyəti və tarixi ilə hər zaman diqqət mərkəzində olmuşdur. Bu regionda dövlətçilik modellərinin formalaşması, xüsusən də son yüz ildə, həm dünya siyasətin dəyişikliklərindən, həm də region xalqlarının milli və müstəqillik uğrundakı mübarizələrindən asılı olaraq inkişaf etmişdir. Sovet ittifaqının dağılması nəticəsində Azərbaycan, Ermənistan, Gürcüstanın müstəqilliyini qazanması ilə Cənubi Qafqaz ölkələri öz siyasi və iqtisadi inkişaf xəritələrini müəyyən etməyə başladılar. Bu prosesdə Azərbaycan Respublikasının rəhbərləri- Heydər Əliyev və İlham Əliyev tərəfindən müəyyən olunan siyasi xəttin rolu əvəzolunmazdır.

Bu təqdimatın məqsədi, Cənubi Qafqazda dövlətçilik modelinin formalaşmasında Heydər Əliyev və İlham Əliyev siyasi xəttinin Türk dünyası reallıqları kontekstində necə inkişaf etdiyini araşdırmaqdır. Azərbaycan xalqına xas olan dövlətçilik tarixində bu iki liderin həm tarixi, həm də müasir dövrdəki müstəsna rolu danılmazdır. Azərbaycan həm də Türk dünyası ilə bağlı strateji əlaqələrini gücləndirmək məqsədilə bir sıra əhəmiyyətli təşəbbüslər irəli sürmüşdür.

Cənubi Qafqazın siyasi tarixində, ələxsus, müstəqillik əldə etdikdən sonra, dövlətçilik strukturunun formalaşdırılması çətin bir proses olmuşdu. Sovet ittifaqının dağılmasından sonra Azərbaycan 1991-ci ildə müstəqilliyini elan etmiş, amma o dövrə xas olan siyasi qeyri-sabitlik və iqtisadi problemlər dövlətin möhkəmlənməsində maneələr törətmişdir. Həmin dövrdə ölkədə bir çox siyasi gərginliklər və dəyişikliklər yaşanmış, həm də liderlik məsələsi problem yaratmışdır.

1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi, Azərbaycanın dövlətçilik modelinin formalaşmasında əvəzolunmaz hadisə oldu. Ümummilli lider Heydər Əliyev, Azərbaycanı siyasi və iqtisadi böhrandan xilas edərək, ölkənin sabitliyini təmin etmək üçün əsaslı addımlar attı. Müdrik siyasətçi, həm daxili siyasətdə həm də beynəlxalq arenada Azərbayanın mövqeyini gücləndirmək üçün strateji diplomatik yanaşmalar tətbiq edirdi. Heydər Əliyevin əsas məfkurəsi Azərbaycanın müstəqilliyini qorumaq, iqtisadiyyatını inkişaf etdirmək və Azərbaycanın Türk dünyası ilə sıx əlaqələrini möhkəmləndirmək idi.

Heydər Əliyevin siyasi davamçısı olan İlham Əliyev atasının qurduğu siyasi və iqtisadi xətti inkişaf etdirərək ölkənin müasir dünyada daha böyük rol oynamasına

çalışdı. İlham Əliyev rəhbərliyi ilə, Azərbaycanın xarci siyasətində xüsusilə Türk dünyası ilə münasibətlərə önəm verilmişdir. İlham Əliyev bununla yanaşı, enerji siyasəti, nəqliyyat dəhlizlərinin inkişafı və beynəlxalq əməkdaşlıq sahəsində müstəsna uğurlar əldə etmişdir.

1991-ci ilin 9 noyabr tarixində Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət Türkiyə oldu.Bu tarixdən sonra iki ölkə arasında münasibətlər sürətlə inkişaf etməyə başladı və 1992-ci il yanvarın 14-də diplomatik əlaqələrin qurulmasına dair protokol imzalandı. Digər dövlətlərlə, Türkiyə ilə diplomatik əlaqələrin yaradılması, Azərbaycanın müstəqilliyinin ilk dövrlərindən etibarən xüsusi strateji əhəmiyyət daşıyırdı [4, s.1].

Türk dünyası və Cənubi Qafqaz siyasəti: Türk dünyası ortaq tarixə, mədəniyyətəvə dillərə sahib olan xalqların birliyini təmsil edir. Bu reallıq, Azərbaycan üçün xüsusi bir əhəmiyyətə malik olduğundan həm tarixi, həm də mədəni bağlılığı Türk dünyası ilə çox güclüdür.Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra beynəlxalq əlaqələri yalnız Qərb və Rusiya ilə deyil, eyni zamanda Türk dünyası ilə gücləndirməyə başlamışlar.

Ümummilli lider Heydər Əliyev Sovet ittifaqının dağılmasından sonra türk dövlətlərinə sahib çıxaraq onların inkişaf etdirilməsi üçün Türkiyənin üzərinə düşən vəzifələr haqqında Qazi Mustafa Kamal Atatürkün vəsiyyətinin yerinə yetirilməsi zamanının gəldiyini, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elm, mədəniyyət, təhsil sahəsində, bütün başqa sahələrdə əlaqələrin başqa dövlətlərlə olan əlaqələrdən dostluq,qardaşlıq əlaqələri kimi fərqlənəcəyini bildirirdi [3, s.103].

30 may 1996-cı ildə ″ Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının perspektivləri″ mövzusunda keçirilən konfransın açılışında Heydər Əliyev öz çıxışında vurğulamışdır ki, Azərbaycan Türkiyə arasında münasibətlər yalnız ticarət çərçivəsində məhdudlaşmamalıdır. Ölkəmizdə müştərək iş görmək, müştərək işlər nəticəsində həm mənfəət götürmək, həm də Azərbaycanın iqtisadiyyatını inkişaf elətdirməkdən ibarət olmalıdır [1, s.357].

Azərbaycanın təşəbbüsü ilə 2009-cu ildə yaradılmış Türk Şurası, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanı birləşdirir. Heydər Əliyev və İlham Əliyev bu təşkilatın gücləndirilməsi və Türk dünyası ölkələri ilə siyasi, iqtisadi və mədəni əlaqələrin möhkəmləndirilməsi istiqamətində mühim addımlar atmışlar. Həmçinin, Azərbaycan, Türk dünyası ilə əlaqələrində enerji təhlükəsizliyi, iqtisadi inteqrasiya və regional təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirmişdir.

Azərbaycanın dövlətçilik modelinin formalaşmasında Heydər Əliyev və İlham Əliyev siyasi xəttinin təsiri böyükdür. Heydər Əliyev dövründə, Azərbaycanın siyasi və iqtisadi sisteminin bərpa olunması, sabitliyin təmin edilməsi və müstəqilliyin qorunması üçün əsaslı islahatlar həyata keçirilmişdir. Bununla yanaşı, o, regiondakı münaqişələrin həlli və Azərbaycanın beynəlxalq aləmdəki mövqeyinin möhkəmləndirilməsi üçün fəal diplomatik siyasət yürütmüşdür. Bu prosesdə, Türk dünyası ilə sıx əlaqələr xüsusi əhəmiyyət daşımışdır. İlham Əliyev dövründə, Heydər Əliyev tərəfindən atılan addımlar davam etdirilmiş və daha da genişləndirilmişdir. İlham Əliyevin xarici siyasətində Türk dünyası ilə inteqrasiya, xüsusilə

enerji və ticarət sahələrində əməkdaşlıq, daha da ön plana çıxmışdır. Azərbaycan, həmçinin, Şərq-Qərb arasında mühüm nəqliyyat dəhlizlərinin mərkəzi kimi çıxış etmişdir. Bu strateji mövqeyin gücləndirilməsi, həm də Türk dünyası ilə əlaqələrin inkişafına xidmət etmişdir.

Qazi Mustafa Kamal Atatürkün ″ Azərbaycanın kədəri kədərimiz, sevinci sevincimizdir.″ifadəsi 44 günlük vətən müharibəsində Türkiyənin Azərbaycanı dəstəkləməsi və sonadək yanında olması ilə öz təstiqini bütün zamanlarda olduğu kimi indiki dövrdə də təstiqini tapdı [4, s.106]

Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir [5.].

Xatırlatmaq lazımdır ki, Azərbaycan döyüş vaxtı Türkiyə və İsrail istehsalı olan PUA (Pilotsuz Uçuş Aparatı) - lardan istifadə etmişdir. Bu aparatlar müxtəlif profilli- həm hücum, həm kəşfiyyat, həm də ″kamikadze″ tipli dronlardır. Türkiyənin ″Bayraktar TB2″ aparatı yüksək texniki xüsusiyyətlərə sahibdir. Təkcə bu dronlar vasitəsilə Azərbaycan ermənistanın bir milyard dollar dəyərində texnikasını məhv etməyə nail olmuşdur [2, s.76].

Heydər Əliyev və İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi xətt, Cənubi qafqazda dövlətçilik modelinin formalaşmasında vacib rol oynamışdır. Azərbaycan bu model vasitəsilə, regional sabitliyi təmin etmiş, iqtisadiyyatını gücləndirmiş və beynəlxalq arenada nüfuzunu artırmışdır.Türk dünyası ilə əlaqələrin gücləndirilməsi, xüsusən, Türk Şurasının inkişafı, Azərbaycanın regional gücünü artıran faktorlardan biri olmuşdur. Heydər Əliyev və onun layiqli davamçısı İlham Əliyev, Türk dünyasının gələcək inkişafında və inteqrasiyasında liderlik etmiş, bu prosesin Cənubi Qafqazda və ümumilikdə dünya səhnəsində uğurla həyata keçirilməsinə zəmin yaratmışdır.

Ədəbiyyat siyahısı:

1. Əliyev H. Müstəqilliyimiz əbədidir. altıncı kitab, mart,1996-iyun,1996. Bakı: Azərnəşr, 1998, 512 s.

2. Hüseynova İ. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri. Bakı: Füyuzat, 2021, 221 s.

3. Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries Haydar Aliyev'in Azerbaycan'ın Türkiye ile İlişkilerinin Gelişimine İlişkin Görüşleri, 2023, 103-116 s.

4. Məmmədli A. ″Türkiyə Azərbaycanın müttəfiqi,strateji tərəfdaşıdır. Azərbaycan: 2025, № 231, 12s.

5. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev. ″İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən Müharibəsində qələbəyə həsr olunmuş Zəfər Paradında iştirak ediblər. https://president.az/az/articles/view/48788*

AZƏRBAYCAN-TÜRKİYƏ QARDAŞLIĞININ HUMANİTAR ASPEKTLƏRİ (1914-1918-ci illər)

Günay Əliyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının II kurs magistrantı
gunay.eliyeva32@gmail.com
Elmi rəhbər: dosent Sevinc Qasımova

Açar sözlər: *xeyriyyəçilik, Azərbaycan Xalq Cümhuriyyəti, Osmanlı, hərbi yardım, I Dünya müharibəsi*
Keywords: *Charity, Azerbaijan Democratic Republic, Ottoman, military aid, World War I*

XX əsrin əvvəlləri Cənubi Qafqaz və Yaxın Şərq üçün dərin siyasi, iqtisadi və sosial dəyişikliklərlə xarakterizə olunur. Birinci dünya müharibəsi imperiyaların süqutunu sürətləndirmiş, xalqlar arasında həmrəylik və əməkdaşlıq meyillərini gücləndirmişdir. Bu dövr, xüsusilə də 1914-1918-ci illər Azərbaycan və Türkiyə arasında qardaşlıq münasibətlərinin daha aydın və möhkəm şəkildə təzahür etdiyi mərhələ kimi qiymətləndirilir. Hər iki xalqı birləşdirən tarixi köklər, dil və mədəniyyət yaxınlığı siyasi münasibətlərin də humanitar müstəvidə dərinləşməsinə imkan vermişdir. Bu dövrdə xalqın həmrəyliyi, xüsusilə Osmanlı Dövləti ilə münasibətlər, milli şüurun formalaşmasında mühüm yer tuturdu. Çünki Azərbaycan xalqı bolşevik-daşnak təcavüzü, şəhərlərin dağıdılması, on minlərlə qaçqının yaranması ilə üzləşmişdi.

Azərbaycan-Türkiyə əlaqələrinin humanitar aspektləri təkcə siyasi və hərbi müstəvidə deyil, həm də maarifçilik, mətbuat, mühacirət fəaliyyəti, ictimai yardımlaşma və mədəni inteqrasiya sahələrində özünü göstərmişdir. Məhz bu şəraitdə xeyriyyə cəmiyyətləri həm xalqın sosial ehtiyaclarını qarşılamaq, həm də Osmanlı əsgərlərinə yardım etmək üçün müxtəlif istiqamətlərdə fəaliyyət göstərməyə başladılar. Onların fəaliyyəti Azərbaycan-Türkiyə qardaşlığının tarixində mühüm bir səhifə olaraq qalmaqdadır. Bu tezisdə müharibə dövründə iki xalq arasında qardaşlığın humanitar təzahürləri araşdırılır, bu münasibətlərin regionun gələcək inkişafına təsiri qiymətləndirilir.

I Dünya Müharibəsi illərində fəaliyyət göstərən xeyriyyə cəmiyyətləri: Azərbaycan və Türkiyə xalqları arasında qardaşlığın kökləri çox qədim dövrlərə gedib çıxsa da, 1914-1918-ci illər bu münasibətlərin siyasi məna qazanması və geniş kütlələr tərəfindən dərk edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Birinci dünya müharibəsi dövründə Osmanlı imperiyası həm Qafqaz cəbhəsində, həm də Orta Şərqdə çətin vəziyyətlə üzləşmişdi. Bu zaman azərbaycanlı ziyalılar - Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Yusif Akçura kimi şəxsiyyətlər türk dünyasının birliyini ideya müstəvisində dəstəkləyir, İstanbul mətbuatında türk xalqlarının siyasi və mədəni hüquqlarının qorunması uğrunda çıxış edirdilər.

1915-ci ilin əvvəllərində Qafqaz cəbhəsində baş verən müharibələr zamanı müsəlman əhalinin ağır fəlakətə məruz qalması Azərbaycan xalqını xeyli kədərləndirmişdi. Qars, Ardahan, Sarıkamış, Oltu, Artvin, Ardanuç və s. yerlərdən gələn xəbərlər əhaliyə ağır təsir etmiş və orada yaşayan qardaşlarına yardım əli uzatmaq üçün fəaliyyətə başlamışdılar. Bu yardımlaşmada ən aktiv fəaliyyət göstərən xeyriyyə cəmiyyətləri arasında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti", "Nicat", "Səadət"-in adını çəkməliyik. 1905-ci ildə Hacı Zeynalabdin Tağıyevin təşəbbüsü nəticəsində "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" yaradılmışdı. Hacı Zeynalabdin Tağıyev idarə heyətinin sədri, İsrafil Hacıyev müavini, Həsən bəy Zərdabi, - Əlimərdan bəy Topçubaşov və Əsədulla Əhmədov idarə heyətinin üzvləri seçilmişdilər. Birinci Dünya müharibəsi dğvründə baş verənlər, Qafqaz cəbhəsindəki müsəlman əhalinin yaşadığı fəlakətlər, cəmiyyətə böyük təsir göstərmiş və Cəmiyyət bir ildə on ilin durğunluğunun öhdəsindən artıqlaması ilə gəlmişdi [5, s.11].

"Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti" əvvəlcə müharibə bölgələrinə göndərmiş olduğu nümayəndələr vasitəsi ilə təcili toplanaraq Gəncə, Tbilisi və Bakı kimi şəhərlərdə, Qafqazın müxtəlif bölgələrinə gələn müsəlman qaçqınlar üçün sığınacaqlar açaraq onları yerləşdirmək üçün fəaliyyətə başlamışdılar [1, s.23]. Baş verən hadisələri dəyərləndirən B.Aslan "Dünya Savaşi Esnasinda Azerbaycan Türkleri"nin "Anadolu Türkleri"ne "Kardaş Kömeği (Yardımı)" ve Bakü Müslüman Cemiyyet-i Hayriyesi" adlı əsərində yazır ki, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin rəhbərliyi və koordinasiyası ilə Qafqazın türklər yaşayan həmin bölgələrində yardım komitələri təşkil edildi. Qars və ətrafına ilk yardım komitələri göndərildi [2, s.91].

Həmçinin B.Aslan yazır ki, "Bakı Müsəlmanları Xeyriyyəsi Cəmiyyəti"nin rəhbərliyi və koordinasiyası ilə Qafqazın hər yerində yardım toplama işləri başlanıldı. Azərbaycan türklərinin Qafqazın demək olar ki, hər yerində Anadoluda fəlakətə məruz qalan qardaşları üçün həyata keçirdiyi yardım kampaniyasının əsas şüarı "Qardaş köməyi" adını aldı [2, s.91]. Müəllifin fikrincə, Anadoluda müsəlmanların fəlakətə düçar olması ilə Azərbaycan türklərinin həyata keçirdiyi qardaş köməyinin fəaliyyətində əsas rol oynayan şəxslərin siyahısına doktor Xosrov Paşa bəy Sultanov başçılıq edirdi [2, s.122].

Birinci Dünya müharibəsi zamanı ermənilər tərəfindən əsir götürülərək Rusiyanın Orenburq şəhərinə göndərilən, qayıtdıqdan sonra Qars millət vəkili seçilən F.Erdoğan "Türk Ellerinde Hatıralarım" adlı əsərində yazır: "Türk ordusu Qarsı tərk etdikdən sonra erməni və rusların törətdikləri zülmləri Bakı Xeyriyyə Cəmiyyətinə bildirirlər. Yusif bəy Cəfərov Moskvaya gedərək bu vəziyyəti çara şikayət edir. Bundan sonra yerli türklərə xeyriyyə cəmiyyətinin yardım etməsinə icazə verilir. Dərhal doktor Xosrov bəy Sultanov əlli nəfərlik qrupla Qarsa gəlir. Hər tərəfdən dul qadınlar və yetim uşaqlar toplanaraq Bakıya göndərilir" [4, s.103]. Qars bölgəsində türk xalqının başına gətirilən fəlakətlər qarşısında yardım işlərinə başlayan Azərbaycan türkləri, əvvəldə bildirildiyi kimi, Rusiya hökuməti Dövlət Duması və Qafqaz Baş Qubernatorluğu qarşısında məsələ qaldıraraq rəsmi icazə al-

mağa nail olmuşlar. Nəticədə Qafqazın hər yerində yardım fəaliyyətləri başlanıldı. Çay, şəkər, un və geyim əşyalarından ibarət iki vaqon yardım Qarsa göndərilmişdi. Ağabala Quliyevin rəhbərlik etdiyi bu nümayəndə heyəti Qars, Sarıqamış və digər yerlərdə yardımları payladıqdan sonra Azərbaycana qayıtmış və bölgədəki vəziyyət barədə Cəmiyyətə hesabat vermişdilər.

F.Erdoğan qeyd edir ki, "Qarsın türk kəndlərinin əhalisinə geyim və ərzaq paylanılır. Bakı milyonçuları bu iş üçün pullarını sərf etməyə başlayırlar. Hacı Zeynalabdin Tağıyev müharibə bitənə qədər hər gün 1000 çuval fabrik unu göndərməyi öz üzərinə götürmüşdü" [4, s.134].

M.Süleymanlı da öz məqaləsində yazmışdır ki, "1915-ci ilin martında "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin təşəbbüsü ilə Azerbaycandakı qəzet sahibləri və yazarları tərəfindən yaxınlaşan Novruz bayramı münasibətilə bayramın ikinci günü "Qardaş Köməyi" adı ilə bir qəzetin nəşr olunması qərara alınmış və hazırlıqlara başlanmışdı" [9, s.112]. Bu heyətə "İqbal" qəzetindən M.Ə.Rəsulzadə, "Səda" qəzetindən H.B.Vəzirov və "İkdam" qəzetindən Mahmud Nədim Qaragözov seçilmişdilər. Bununla bağlı keçirilən iclasda qəbul edilən qərara əsasən, "Qardaş Köməyi" qəzeti Novruz bayramının ikinci günü çap olunmalı və həmin gün Bakıda heç bir müsəlman qəzetini nəşr edilməməli idi. Bu qəzetdən əldə edilən gəlirin isə hamısı müsəlman hərbçilərinin (əsgər ailələrinin) xeyrinə istifadə olunacaqdı [9, s.123].

Bu qərarlar əsasında görülən işlər öz bəhrəsini vermiş və "Qardaş Köməyi" qəzeti bir günlük gecikmə ilə Novruz bayramının üçüncü günü yalnız bir sayı olmaqla nəşr edilmişdi. Qəzetin imtiyaz sahibi və məsul müdiri vəzifəsini "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin sədri Mirzə Əsədullayev öz üzərinə götürmüşdü. Qəzetin nəşri üçün lazım olan kağızı isə Haşim bəy Vəzirov, Orucov qardaşları və "İqdam" qəzetinin sahibi Əli Muxtar-Əli Əkbərov təmin etmişdilər. Birinci Dünya müharibəsi dövründə "Nicat" və "Səadət" xeyriyyə cəmiyyətlərinin fəaliyyəti Azərbaycanın sosial-mədəni həyatında mühüm iz buraxmış humanitar hadisələrdən biri idi. Hər iki təşkilat XIX əsrin sonu - XX əsrin əvvəllərində formalaşmış maarifçilik hərəkatının davamı kimi meydana çıxmış, müharibə başladıqdan sonra isə öz fəaliyyətlərini daha çox sosial yardım, qaçqınların müdafiəsi, ehtiyacı olan əsgər ailələrinin və kimsəsizlərin himayəsi istiqamətində genişləndirmişdi. Cəmiyyətlərin işi təkcə maddi yardım toplamaqdan ibarət deyildi.Onlar Azərbaycan cəmiyyətində həmrəyliyi gücləndirən, müharibənin doğurduğu ağır nəticələri yüngülləşdirən və humanitar şüuru formalaşdıran qurumlar kimi çıxış edirdilər.

"Nicat Maarif və Xeyriyyə Cəmiyyəti" müharibədən əvvəl də Bakıda ən fəal maarif və yardım təşkilatlarından biri idi [6, s.13]. Bu dövrdə Osmanlı cəbhəsində yaralanmış türklər üçün də yardım kampaniyaları həyata keçirirdilər. Bakı və Gəncədə təşkil edilən belə kampaniyalar çərçivəsində paltar, dərman, ərzaq və pul yardımı toplanır, Osmanlıya göndərilirdi. Bu təşəbbüslər Azərbaycan-Türkiyə qardaşlığının humanitar aspektini daha da gücləndirmiş və iki xalq arasında mənəvi bağlılığın möhkəmlənməsinə xidmət etmişdi. Azərbaycanın tanınmış ziyalıları - Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə və başqaları bu təşəbbüslərin həm təşkilat-

çısı, həm də ideoloji dəstəkçiləri idi. Həm "Nicat", həm də "Səadət" cəmiyyətləri Birinci Dünya müharibəsinin Azərbaycan cəmiyyətinə vurduğu sosial zərərin azaldılmasında müstəsna rol oynamış humanitar qurumlar idi. Onlar dövlət strukturlarının zəif olduğu bir dövrdə ictimai özünüidarəetmə nümunəsi göstərmiş, minlərlə insanın həyat şəraitinin yaxşılaşmasına real təsir göstərmişdilər [5, s.33]

1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması iki ölkə arasındakı münasibətlərin yeni mərhələyə keçməsinə səbəb oldu. Cümhuriyyət hökuməti Türkiyə ilə diplomatik əlaqələri genişləndirməklə yanaşı, humanitar əməkdaşlığı da gücləndirdi. 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti yalnız siyasi və dövlətçilik baxımından deyil, həm də sosial-mədəni mühitin təşkilatlanması, cəmiyyətin milli ideyalar ətrafında səfərbərliyi baxımından ölkə tarixində mühüm bir mərhələ oldu [8, s.123]. Bu dövrdə Azərbaycan xalqı bolşevik-daşnak təcavüzü, şəhərlərin dağıdılması, on minlərlə qaçqının yaranması ilə üzləşmişdi. Belə çətin şəraitdə Osmanlı qoşunları, Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusu, Azərbaycanın xilası üçün Bakıya doğru yürüşə başladı. Bu ordunun gəlişi xalq tərəfindən böyük minnətdarlıqla qarşılandı və yalnız siyasi deyil, humanitar səviyyədə də geniş dəstək göstərildi.

Məhz bu şəraitdə AXC dövrünün xeyriyyə cəmiyyətləri həm xalqın sosial ehtiyaclarını qarşılamaq, həm də Osmanlı əsgərlərinə yardım etmək üçün müxtəlif istiqamətlərdə fəaliyyət göstərməyə başladılar. Dövrün ən nüfuzlu cəmiyyətlərindən biri olan, "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti", həm şəhər əhalisinin ehtiyaclarının qarşılanması, həm də Qafqaz İslam Ordusu üçün tibbi və humanitar dəstəyin təşkili ilə məşğul olurdu. Yaralıların müalicəsi, hospital şəbəkəsinin yaradılması və ərzaq təminatı cəmiyyətin əsas fəaliyyət istiqamətləri idi [3, s.65].

1914-1918-ci illər Azərbaycan-Türkiyə qardaşlığının humanitar aspektləri baxımından dönüş nöqtəsi olmuşdur. Bu dövrdə iki xalqın münasibətləri yalnız siyasi maraqlara deyil, dərin tarixi, mədəni və mənəvi bağlara əsaslanırdı. Maarifçilik hərəkatı, mətbuatın rolu, müharibənin doğurduğu humanitar ehtiyaclar, qarşılıqlı yardımlaşma və Qafqaz İslam Ordusunun fəaliyyəti bu qardaşlığı daha da gücləndirmişdir.

Bu humanitar əməkdaşlıq təkcə o dövr üçün deyil, həm də müasir Azərbaycan-Türkiyə münasibətlərinin ideoloji bünövrəsinin formalaşmasında həlledici rol oynamışdır. Məhz həmin illərdə atılmış addımlar iki ölkə arasında bu gün mövcud olan sıxstrateji və mədəni inteqrasiyanın əsasında dayanır.

Ədəbiyyat siyahısı:

1. Ağayev M. Millî mücadele yıllarında Türkiye ve Azerbaycan ilişkileri, Doktora Tezi. Danışman: Prof.Dr. Ali Arslan. T.C. İstanbul Üniver sitesi Sosyal Bilimler Enstitüsü Tarih Anabilim Dalı. İstanbul: Türkiyə, 2006, 165 s.

2. Aslan Betul. "Dünya Savaşi Esnasinda Azerbaycan Türkleri"nin "Anadolu Türkleri"ne "Kardaş Kömeği (Yardımı)" ve Bakü Müslüman Cemiyyet-i Hayriyesi. Ankara: Atatürk Kültür Mərkəzi Yayınları, 2000, 395s.

3. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Bakı Kitab klubu, 2017, 346 s.

4. Erdoğan F. Türk Ellerinde Hatıralarım. Ankara: Kültür Bakanlığı Yayınları, 1998, 235 s.

5. Həsənli C. Birinci Dünya Müharibəsi və Cənubi Qafqaz. Bakı: Elm və Təhsil, 2014, 359 s.

6. İsmayılov İ. Azərbaycan-Türkiyə mədəni əlaqələri XX əsrdə. Bakı: Azərbaycan Dövlət Neft Akademiyası Mətbəəsi, 2004, 153 s.
7. Rəsulzadə Məhəmməd Əmin. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
8. Yaqublu N. Qafqaz İslam ordusu Azərbaycanda. Bakı: Elm, 2013, 205 s.
9. Süleymanlı M. Azerbaycanlıların Anadolu Türklerine Kardeşlik Yardımları (Balkan ve I. Dünya Savaşı Esnasında). Türk Dünyası İncelemeleri Dergisi, 7(2), 2007, s.173-198.

MÜASİR TƏHSİLDƏ RƏQƏMSAL QURĞULARIN ROLU, İNTEQRASİYASI VƏ İSTİFADƏ ZAMANI YAŞANAN PROBLEMLƏR

Ayişə Aslanova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının II kurs magistrantı
ayseaslanova712@gmail.com
Elmi rəhbər: dosent Nurlan Abbasov

***Açar sözlər**: rəqəmsal vasitələr, rəqəmsallaşmanın istiqamətləri, rəqəmsallaşmanın perspektivlər, rəqəmsallaşmada problemlər*
***Keywords**: digital tools, digitalization trends, digitalization prospects, problems in digitalization*

XXI əsrdə qlobal çağırışlara uyğun formalaşan müasir təhsil sistemi rəqəmsal texnologiyaların sürətli inkişafı ilə yeni bir mərhələyə keçmişdir. Bu proses yalnız texnoloji yeniliklərin tədris mühitinə gətirilməsi ilə məhdudlaşmır, həm də pedaqoji metodların yenilənməsi, təlimin effektivliyinin artırılması və şagird–müəllim münasibətlərinin müasir tələblərə uyğunlaşdırılması baxımından böyük əhəmiyyət daşıyır.

Türk dünyası ölkələrində təhsil sistemlərinin modernləşdirilməsi istiqamətində aparılan islahatlar və rəqəmsal mühitə keçid təşəbbüsləri ortaq elmi-pedaqoji əməkdaşlıq üçün geniş imkanlar açır. Türk dünyası konfranslarının məqsədlərindən biri də qardaş ölkələr arasında təhsil sahəsində inteqrasiyanı gücləndirmək, yeni texnologiyaların tətbiqi sahəsində ortaq elmi yanaşmalar formalaşdırmaq və rəqəmsal mühitdə tədrisin keyfiyyətinin artırılması yollarını axtarmaqdır. Rəqəmsal texnologiyaların təhsilə verdiyi geniş imkanlara baxmayaraq, onların istifadəsi zamanı müxtəlif problemlər meydana çıxır. İnfrastrukturun qeyri-bərabərliyi, müəllimlərin texniki bacarıqlarının yetərsiz olması, tədris resurslarının çatışmazlığı, rəqəmsal savadlılıq səviyyəsində fərqlər, eləcə də texnologiyanın pedaqoji məqsədlərlə uyğunlaşması məsələləri bu problemlər sırasında yer alır. Türk dünyası ölkələri üçün bu problemlərin müqayisəli şəkildə araşdırılması, təcrübə mübadiləsi və birgə həll yollarının müəyyənləşdirilməsi xüsusi aktuallıq daşıyır.

Bu tezis müasir təhsil sistemində rəqəmsal qurğuların rolunu, onların inteqrasiya mexanizmlərini və tətbiq zamanı ortaya çıxan problemləri təhlil edir, həmçinin Türk dünyası təhsil məkanında bu sahədə əməkdaşlıq imkanlarını araşdırır.

Təhsilə rəqəmsal transformasiya. Təhsilin rəqəmsal transformasiyası günümüzdə təhsil sistemlərinin müasir tələblərə uyğunlaşması, innovasiyaların tətbiqi və şagirdlərin daha geniş məlumat əldə etməsi baxımından mühüm əhəmiyyət

kəsb edir. Bu proses informasiya və kommunikasiya texnologiyalarının (İKT) təhsilə inteqrasiyasını nəzərdə tutur. Rəqəmsal transformasiya vasitəsilə təhsil sistemləri daha çevik, hərtərəfli və əlçatan olur. Təhsil sistemi inkişaf etdikcə, burda əsas məsələ şagirdlərə olan fərdi yanaşmadır. Çünki müasir təhsil prinsipləri hər bir şagirdə fərdi yanaşma tələb edir. Rəqəmsal vasitələr hesabına qurulan dərslər müəllim - valideyn, müəllim- şagird arasında olan münasibətin yüksək səviyyədə inkişafınada təsir edir [4, s.13].

Rəqəmsallaşmanın istiqamətləri. Vahid təhsil məkanının formalaşdırılması təhsil prosesini intensivləşdirərək bir sıra üstünlüklər verir: təhsil almaq üçün şərait əhəmiyyətli dərəcədə yaxşılaşdırılır - təhsil prosesi daha əlçatan, açıq və şəffaf olur. İT texnologiyaları hesabına müəllim və tələbələrin elmi resurslara çıxışı asanlaşdırılır, müvafiq olaraq elmi tədqiqatların əlçatanlığı artır, dünya çapında tədqiqat məkanına inteqrasiya asanlaşdırılır. Təhsil sisteminin modernləşdirilməsi ilk növbədə rəqəmsal iqtisadiyyatın tələblərinə uyğun olaraq kurikulumların dəyişdirilməsinə, rəqəmsal vasitələr və texnologiyaların geniş tətbiqinə, vahid informasiya mühitinin formalaşdırılmasına, "ömür boyu təhsil" və "mütərəqqi təhsil" prinsiplərini həyata keçirən fərdi təlim planından istifadə imkanlarının təmin edilməsinə yönəlib [5, s.66].

Rəqəmsal perspektivlər. Aparılan araşdırmalara, əsasən, idarəetmə və təhsil sahələrində rəqəmsallaşmanın bir sıra müsbət və mənfi təsirləri üzə çıxmışdır. Rəqəmsallaşmanın idarəetmədə təsiri:

- *Qərarvermə prosesinin optimallaşdırılması*: Rəqəmsal texnologiyalar ilk olaraq verilənlərin təhlilini asanlaşdırır və idarəçilərə daha sürətli və dəqiq qərarlar qəbul etməyə imkan verir. Belə nəticəyə gəlinmişdir ki, rəqəmsal idarəetmə alətlərindən istifadə edən təşkilatlarda qərarvermə prosesi 40%-ə qədər sürətlənmişdir.
- *Şəffaflığın və hesabatlılığın artırılması*: Rəqəmsallaşma korrupsiya hallarının qarşısının alınmasında əsas vasitələrdən biri olmuşdur. Elektron hökumət sistemlərinin tətbiqi sayəsində dövlət idarəetməsində şəffaflıq və ictimai nəzarət güclənmişdir.
- *İnsan resurslarının idarə edilməsində innovativ yanaşma*: Bu vasitələr kadr seçimini, bacarıqların qiymətləndirilməsini və işçi resurslarının inkişafı proseslərini daha effektiv hala gətirmişdir [3, s.88].

Qarşıya çıxan problemlər və məhdudiyyətlər:

- ✓ *Texnoloji bərabərsizlik*: Rəqəmsal imkanların müxtəlif bölgələrdə qeyri-bərabər olması nəticəsində təhsil və idarəetmədə rəqəmsallaşmanın tam şəkildə tətbiqi mümkün olmur.
- ✓ *Kibertəhlükəsizlik riskləri*: Rəqəmsal idarəetmə və təhsil sistemlərində şəxsi məlumatların qorunması məsələsi aktual problem olaraq qalır. Araşdırmalara görə, dövlət idarəetmə sistemlərində kiberhücumların sayı son beş ildə 60%-ə ə qədər artmışdır.
- ✓ *Adaptasiya və psixoloji faktorlar*: Müəllimlər, tələbələr, həmçinin digər təhsil işçiləri yeni texnologiyalara uyğunlaşmaqda çətinlik çəkə bilərlər. Bunun üçün sistemli təlim və dəstək proqramlarının həyata keçirilməsi vacibdir [3, s.89].

Ali təhsil müəssisələri (ATM-lər) sosial dəyişikliklərin və inkişafın əsas aparıcı qüvvələrindən biridir. ATM-lər yerləşdikləri regionlarda rəqəmsal inkişafı dəstəkləyir. Bu müəssələrin rolu yalnız tələbələrə təhsil verməkdən ibarət deyil, eyni zamanda məşğulluğun yüksəldilməsi və əmək bazarının müasir tələblərə cavab verən işçi qüvvəsi ilə təmin edilməsi rolunu oynayırlar [2, s.161].

Rəqəmsal təhsilin uğurlu olması üçün üç amil xüsusi əhəmiyyət daşıyır: 1. peşəkar müəllimlər; 2. uyğun avadanlıqlar; 3. tələbələrin aktiv iştirakı. Müəllimlər öz ixtisasları üzrə əsaslı biliklərə malik olmalı, müasir texnologiyadan istifadə bacarıqlarına yiyələnməli və öz fənlərilə bağlı tədris metodlarını tətbiq etməyi bacarmalıdır.Bunun üçün müəllimlər üçün təlimlər təşkil edilməli və bu sahədə olan bacarıqları inkişaf etdirilməlidir. Müasir texnologiyaların təhsilə inteqrasiyası yalnız dərslərin onlayn formatda keçirilməsi ilə məhdudlaşmır, eyni zamanda öyrənmə prosesini daha interaktiv və maraqlı edir [4, s.13].

Rəqəmsal texnologiyalar və ali təhsil prosesi Ali məktəblərdə rəqəmsal texnologiyalar tədris prosesini interaktiv etməklə yanaşı, tələbələrə fərdi yanaşma imkanı verir. Virtual sinif otaqları, elektron universitet sistemləri, onlayn kitabxanalar və mənbələr akademik məlumatı daha asan əlçatan edir. LMS (Learning Management Systems), PMS kimi sistemlər ali təhsil proqramlarını idarə etmək və dəyərləndirmə prosesini avtomatlaşdırmaq üçün istifadə edilir. Hal-hazırda LMS və PMS/TMS sistemləri çalışdığım BANM, BDU – da tətbiq edilir [1, s.216].

Müasir texnologiyalardan istifadə edərkən tələbələr aşağıdakı üstünlükləri əldə edirlər: 1. Fərdi yanaşma imkanı – Rəqəmsal texnologiyalar tələbələrin fərdi bacarıqlarına uyğun təlim materialları hazırlamağa imkan verir. 2.Məlumat mənbələrinin çoxtürlülü – Elektron kitablar, onlayn kurslar, virtual laboratoriyalar akademik bilik bazasını genişləndirir. 3. Effektiv qiymətləndirmə – Onlayn açıq testlər və qiymətləndirmə sistemləri tələbələrin performansını daha obyektiv müyyən etməyə imkan yaradır. Lakin ali məktəblərdə rəqəmsal texnologiyaların tətbiqi zamanı bəzi problemlərə rast gəlmək olar: Universitetlərin texnoloji infrastrukturunun bəzi hallarda geridə qalması; Müəllim və professor heyətinin rəqəmsal bacarıqlarının yetərli olmaması; Tələbələrin texnologiyadan qeyri-effektiv istifadə etmə riski; Kibertəhlükəsizlik problemləri.

Aparılan araşdırmalar göstərir ki, rəqəmsal qurğuların təhsildə tətbiqi təlimin keyfiyyətinin yüksəldilməsi, məlumatların daha sürətli mənimsənilməsi və interaktiv öyrənmə mühitinin formalaşdırılması baxımından mühüm üstünlüklər yaradır. Lakin bu imkanlarla yanaşı, infrastruktur çatışmazlıqları, müəllimlərin rəqəmsal bacarıqlarındakı fərqlər və texnologiyanın pedaqoji məqsədlərə uyğunlaşdırılması kimi problemlər də diqqət tələb edir. Türk dünyası ölkələri üçün bu məsələlərin ortaq elmi müzakirəsi və təcrübə mübadiləsi rəqəmsal təhsil siyasətinin inkişafında xüsusi əhəmiyyət daşıyır. Konfranslar və birgə layihələr sayəsində rəqəmsal transformasiya prosesinin effektiv idarə olunması, yeni metodik yanaşmaların formalaşdırılması mümkündür. Nəticə olaraq, rəqəmsal qurğuların təhsilə uğurlu

inteqrasiyası üçün həm texniki, həm də pedaqoji sahədə məqsədyönlü addımların atılması vacibdir.

Ədəbiyyat siyahısı:

1. Allahverdiyeva N. Ali məktəblərdə rəqəmsal texnologiyaların tətbiqində yaranan problemlər. İdarəetmədə və təhsildə rəqəmsallaşdırma mövzusunda II Respublika elmi konfransının materialları, 23-24 aprel, 2025 ci il, Naxçıvan Dövlət Universiteti, 226 s, s. 216-217.
2. Əlizadə N, İsfəndiyarova Ü, İsmayılova P. Ali təhsildə rəqəmsal transformasiya və müəllimlərin rəqəmsal qabiliyyətləri. İdarəetmədə və təhsildə rəqəmsallaşdırma mövzusunda II Respublika elmi konfransının materialları, 23-24 aprel, 2025 ci il, Naxçıvan Dövlət Universiteti, 226 s, s.161.
3. Həzizzadə C. İdarəetmə və təhsildə rəqəmsal transformasiya: trendlər, çağırışlar və perspektivlər. İdarəetmədə və təhsildə rəqəmsallaşdırma mövzusunda II Respublika elmi konfransının materialları, 23-24 aprel, 2025 ci il, Naxçıvan Dövlət Universiteti, 226 s, s.88-89.
4. İsmayılova M, İsmayılov M. Təhsilin rəqəmsal transformasiyası: imkanlar və problemlər, 23-24 aprel, 2025 ci il, Naxçıvan Dövlət Universiteti, s.13-14.
5. Səbzəliyev Ə. Elm və təhsildə rəqəmsallaşma istiqamətləri. İdarəetmədə və təhsildə rəqəmsallaşdırma mövzusunda II Respublika elmi konfransının materialları, 23-24 aprel, 2025 ci il, Naxçıvan Dövlət Universiteti, 226 s, s.66.

ÜMUMTƏHSİL MƏSƏLƏLƏRİNDƏ MƏKTƏBLƏRİN VIII SİNİFDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ ANALİTİK BACARIQLARIN İNKİŞAF ETDİRİLMƏSİ

İsmət İbrahimov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının II kurs magistrantı
ibrahimov.ismet2003@icloud.com
Elmi rəhbər: professor Şikar Qasımov

Açar sözlər: *analitik bacarıqlar, tədris metodu, tarix dərsləri, 8-ci sinif, problemli təlim, müqayisəli təhlil, tarixi mənbələr*
Keywords: *analytical skills, teaching methods, history education, 8th grade, problem-based learning, comparative analysis, historical sources*

Azərbaycan tarixinin ümumi təhsil pilləsində tədrisi şagirdlərin milli kimliyinin formalaşması, tarixi düşüncə tərzinin inkişafı və vətəndaş mövqeyinin möhkəmlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusilə 8-ci sinif üçün nəzərdə tutulmuş "Yeni dövr Azərbaycan tarixi" mövzuları analitik bacarıqların inkişaf etdirilməsi üçün geniş imkanlar yaradır. Bu yaş dövründə şagirdlər artıq faktların sadəcə mənimsənilməsi ilə kifayətlənməməli, hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək, müqayisə aparmaq və nəticə çıxarmaq kimi bacarıqları formalaşdırmalıdırlar [1].

Analitik bacarıqların inkişafı müəllimin düzgün metod seçməsindən, tətbiq olunan didaktik vasitələrdən və tədris prosesinin təşkilindən asılıdır. Bu istiqamətdə kurikulumun tələbləri də şagirdyönümlü təlimi ön plana çıxarır.

Eyni zamanda Azərbaycan tarixinin 8-ci sinifdə tədrisi Türk dünyasının ortaq tarixi ilə də sıx bağlıdır. Türk dövlətlərinin – Səlcuqların, Baharlıların, Bayandurluların və digər türk mənşəli siyasi qurumların Azərbaycandakı tarixi proseslərə təsirinin öyrənilməsi şagirdlərdə ümumtürk mədəni dəyərlərini anlamağa kömək edir. Bu mövzuların təhlili şagirdlərin analitik bacarıqlarını genişləndirərək tarixi hadisələri yalnız milli deyil, həm də ümumtürk kontekstində dəyərləndirməyə imkan yaradır. Türk xalqlarının siyasi əlaqələrinin, mədəni qarşılıqlı təsirlərinin və vahid mənəvi irsinin araşdırılması şagirdlərdə daha geniş dünyagörüş və səbəb-nəticə əlaqələri qurma qabiliyyəti formalaşdırır. Bu isə Azərbaycan tarixinin regional və ümumtürk məkanında yerini daha dərindən başa düşməyə şərait yaradır [5, 23].

Analitik bacarıqların mahiyyəti və tələbləri: Analitik bacarıqlar şagirdin məlumatı təhlil etmə, səbəb-nəticə əlaqələrini müəyyənləşdirmə, məntiqi nəticələr çıxarma və müqayisə aparma kimi fəaliyyətləri yerinə yetirməsini nəzərdə tutur. Tarix fənni isə bu cür bacarıqların inkişafı üçün ən əlverişli fənlərdən biridir.

8-ci sinif Azərbaycan tarixi üzrə mövzular analitik yanaşmanı tələb edən geniş material təqdim edir. Bu mövzular çərçivəsində şagirdlər:

1. Tarixi hadisələrin səbəblərini araşdırır (Səfəvilər dövlətinin zəifləməsi və süqutu).
2. Hadisələr arasındakı əlaqələri təhlil edir (XVIII əsrdə siyasi parçalanma və xanlıqların yaranması).
3. Tarixi şəxsiyyətlərin fəaliyyətini qiymətləndirir (Nadir şahın islahatları).
4. Tarixi xəritə və mənbələr üzərində işləyərək nəticə çıxarır [2, 25-38].

Bu fəaliyyətlər şagirdlərin tədqiqatçılıq bacarıqlarının əsasını formalaşdırır.

8-ci sinif tarix dərslərində analitik bacarıqların inkişafı üçün metodlar:

a) Problemli təlim metodu

Dərs problem sualı ilə başlayır, şagirdlər araşdırma apararaq cavaba özləri gəlirlər. Məsələn: "Səfəvilər dövlətinin süqutu daxili, yoxsa xarici səbəblərlə bağlı idi?" Bu metod şagirdin düşünmə prosesini aktivləşdirir və məntiqi nəticə çıxarma bacarığını gücləndirir.

b) Müqayisəli təhlil metodu

Şagirdlər müxtəlif dövrləri və hadisələri müqayisə edirlər:

- Nadir şah dövləti ilə Qacar dövləti
- XVIII əsr Azərbaycan xanlıqları arasındakı oxşar və fərqli xüsusiyyətlər

Müqayisə cədvəlləri analitik təfəkkürün inkişafında effektiv vasitədir.

c) Tarixi mənbələrlə iş

Tarixi sənəd, xəritə, şəkil və qısa mətnlərlə iş şagirdin tədqiqat aparma, məlumatı təhlil etmə və faktları ümumiləşdirmə bacarığını artırır. Mənbə təhlili kurikulumun tələb etdiyi əsas fəaliyyətlərdən biridir [3, 67-80].

d) Qrafik təşkilatçılar və klasterlər

Klasterlər, səbəb-nəticə diaqramları, Venn diaqramları kimi vasitələr hadisələr arasındakı əlaqələri daha aydın görməyə imkan verir. Bu cür vizual alətlər şagirdin analitik düşüncə prosesini sadələşdirir.

e) Diskussiya və debat metodları

Tarixi hadisələrin qiymətləndirilməsi zamanı şagirdlər müxtəlif baxış bucaqlarını müdafiə edir, arqumentlər irəli sürür və məntiqi əsaslandırma aparırlar. Bu metod tənqidi və analitik təfəkkürü birbaşa inkişaf etdirir [4, 11-15].

Nəticə: 8-ci sinifdə Azərbaycan tarixinin tədrisi analitik bacarıqların inkişaf etdirilməsi üçün geniş imkanlara malikdir. Müəllim tərəfindən şagirdyönümlü metodların tətbiqi, tarixi mənbələrlə işin gücləndirilməsi və problemli təlimin dərs prosesinə inteqrasiyası nəticəsində şagirdlərin tədqiqat aparma, təhlil etmə və məntiqi nəticə çıxarma bacarıqları formalaşır. Bu isə gələcəkdə daha dərindən düşünən, hadisələrə analitik yanaşa bilən və mövqeyini əsaslandıra bilən vətəndaş yetişdirilməsinə xidmət edir.

Ədəbiyyat siyahısı:

1. Quliyev A. Tarixin tədrisində yeni yanaşmalar. Bakı, "Təhsil" nəşriyyatı, 2019, 110 s.
2. İsmayılov R. Ümumi təhsildə analitik bacarıqların inkişafı. Bakı, "Elm və Təhsil" nəşriyyatı, 2021, 220 s.
3. Hacıyev S. Tarix fənninin tədris metodikası. Bakı, "Qafqaz Universiteti" nəşriyyatı, 2020, 210 s.
4. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan tarixi kurikulumu. Bakı, 2018, 140 s.
5. Məmmədov M. Tarix dərslərində problemli təlim metodunun tətbiqi. Bakı, Pedaqoji Araşdırmalar Jurnalı, 4(2), 2017, 122 s.

V SİNİF AZƏRBAYCAN TARİXİ KURSUNDA AKVARİUM TƏLİM ÜSULUNDAN İSTİFADƏ

Günay Ömərova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının II kurs magistrantı
gunay.omarova0109@gmail.com
Elmi rəhbər: dosent Aydın Məmmədov

Açar sözlər: *Azərbaycan tarixi, akvarium metodu, interaktiv təlim, tədris strategiyaları, tənqidi düşüncə*
Keywords: *History of Azerbaijan, fishbowl method, interactive learning, teaching strategies, critical thinking*

Azərbaycan tarixi dərsləri milli kimliyin formalaşmasında, vətənpərvərlik hissinin gücləndirilməsində mühüm rol oynayır. Bu dərslərinin məqsədi yalnız faktları şagirdlərə olduğu kimi öyrətmək deyil, eyni zamanda tarixi hadisələri anlama, müqayisə və analiz etmə bacarıqlarını inkişaf etdirməkdir. Qədim türk dövlətlərindən biri olan Azərbaycanın dövlətçilik ənənələri, eləcə də milli-mədəni dəyərləri bu dərslərdə əsas diqqət mərkəzində olmalıdır. Azərbaycanın türk dövləti kimi

mövcudluğu və onun tarixi proseslərdə rolu şagirdlərə yalnız milli tarix anlayışını təqdim etmir, həm də ölkənin siyasi və mədəni inkişafını dərindən başa düşmələrinə şərait yaradır.

Bunlara əsasən, V sinif Azərbaycan tarixi dərslərində akvarium təlim üsulu kimi interaktiv və şagird mərkəzli metodların tətbiqi xüsusilə aktuallıq kəsb edir. Bu üsul şagirdlərin qrup müzakirəsi bacarıqlarını, tənqidi düşüncəsini və fəal öyrənmə prosesində iştirakını gücləndirərək dərsin effektivliyini artırır.

Müasir dövrdə məktəblərdə daha çox fəal təlim metodlarından istifadə edilir. Fəal təlim metodlarına o metodlar daxil edilir ki, onlar şagirdlərin keçmiş bilikləri və dərslik materialları əsasında yeni biliklər əldə edə bilsinlər [1, s.147]. Akvarium metodu da belə metodlardan biridir. "Akvarium" metodu orta və böyük qrup müzakirələrini təşkil etmək üçün istifadə olunan bir strategiyadır. Bu texnikanın müxtəlif variantları mövcuddur, lakin əsas ideya öyrənməni müzakirə vasitəsilə təşviq etməkdir [4, s.15]. Bu metod zamanı şagirdlər daxili və xarici dairələr olmaqla iki qrupa bölünür. Daxili dairə "akvarium"u təmsil edir və burada şagirdlər mövzu üzrə müzakirə aparırlar. Xarici dairədəki şagirdlər isə müzakirəni müşahidə edir və qeydlər aparırlar. Birinci mərhələnin nəticələri və fəaliyyət prosesi ilə bağlı ikinci mərhələdə müzakirə baş verir [3, s.265]. Bu fəal və şagird mərkəzli strategiya mürəkkəb mətn və ideyaların anlaşılmasını gücləndirməklə yanaşı, qrup müzakirəsi bacarıqlarının inkişafına da töhfə verir. Daxili dairədə şagirdlər müxtəlif baxış bucaqlarına cavab verməyi praktiki şəkildə öyrənirlər. Xarici dairədəki şagirdlərin müşahidələri isə effektiv kiçik qrup müzakirələrinin xüsusiyyətlərini müəyyən etməyə kömək edir. Akvarium prosesi iştirakçıları fəal dinləməyə, fəal ünsiyyət qurmağa və müxtəlif baxış bucaqlarını daha yaxşı başa düşməyə təşviq edir [2, 48].

Akvarium metodunun səmərəli tətbiqi müəyyən strukturlaşdırılmış mərhələlərdən ibarətdir:

- ✓ Mövzunun və problem sualının müəyyənləşdirilməsi;
- ✓ Daxili dairənin formalaşdırılması;
- ✓ Müzakirənin aparılması;
- ✓ Refleksiya və təhlil mərhələsi;
- ✓ Rolların dəyişdirilməsi (istəyə görə);

Bu metodun müsbət cəhətləri ilə yanaşı mənfi cəhətləri də mövcuddur:

- vaxt tələb edir;
- mövzu seçiminə həssasdır;
- böyük qruplarda tətbiqi çətindir;
- yüksək fasilitasiya bacarığı tələb edir;
- qiymətləndirilməsi çətindir.

Yuxarıda dərs prosesində akvarium metodunun tətbiqinin mərhələlərini göstərdik, indi isə bu metodun V sinif Azərbaycan tarixi kursunda istifadəsi zamanı şagirdlərə veriləcək suallara nəzər salaq. İlk olaraq şagirdlər daxili və xarici qruplara bölünürlər, daha sonra isə şagirdlərə müəllim tərəfindən suallar ünvanlanır.

Mövzu: Səlcuqlar və Azərbaycan

Suallar: 1. Oğuzlar kimlər idi?

2. Səlcuq hökmdarlarından hansılarının adını çəkə bilərsiniz?

3. Səlcuqların Azərbaycanı fəth etməsinə münasıbətiniz necədir?

Mövzu : Şeyx necə şah oldu?

Suallar : 1. Şah İsmayıl Xətai dedikdə ağlınızda canlanan ilk fikir nə olur?

2. İndiki Azərbaycan - Türkiyə və həmin dövrdəki Səfəvi – Osmanlı münasibətləri arasındakı nə kimi fərqlər mövcuddur?

3. Səfəvi – Osmanlı qarşıdurmaları haqqında nə deyə bilərsiniz?

Mövzu: Tariximizdə qadınlar

Suallar: 1. Türk cəmiyyətində qadınların rolu nədən ibarətdir?

2. Tomiris haqqında nələr bilirsiniz?

3. Fikrinizcə türk qadınlarının bu qədər döyüşçü və diplomat kimi yetişməsinin başlıca səbəbi nədir?

Daxili dairə suallara cavab tapıb onları müzakirə etdikdən bir müddət sonra xarici dairə daxili dairəyə daxil olur, daxili dairə isə müşahidəçi roluna keçir. Bu, bütün şagirdlərə həm müzakirədə iştirak, həm də müşahidə etmə təcrübəsi qazandırır. Ancaq yuxarıda da qeyd etdiyimiz kimi bu proseses istəyə bağlı olaraq baş verir, yəni əgər müəllim istəməzsə və ya vaxt azlığı olarsa yerdəyişmə olmaya da bilər. Müəllim gələcək dərslərdə yenə bu metoddan istifadə edərsə xarici və daxili dairələrdəki şagirdlərin yerini o zaman dəyişə bilər. Beləliklə də hər bir şagirdin fərqli vaxtlarda olsa da təcrübəsi olmuş olar.

Dərs zamanı bu suallar daxili dairədəki şagirdlərə ünvanlanır və onlar bu suallar əsasında müzakirə aparırlar. Eyni zamanda xarici dairədəki şagirdlər, yəni müşahidə edən qrup da onlara başqa cür suallar ünvanlaya bilərlər. Bu metodun tətbiqi şagirdlərin təfəkkürünə də təsir edir. Belə ki bu zaman tənqidi və yaradıcı təfəkkür inkişaf edir, analitik düşünmə güclənir, məntiqi ardıcıllıq yaranır, metakoqnitiv bacarıqlar inkişaf edir, eyni zamanda sosial təfəkkür də formalaşır.

Dərsin sonunda isə şagirdlər müzakirə əsasında verilmiş mövzular haqqında fikirlərini ümumiləşdirir, xarici dairədəki şagirdlər müşahidə etdikləri vərdişləri qiymətləndirir və öz düşüncələrini paylaşırlar. Bununla da dərs prosesi yekunlaşmış olur.

V sinif Azərbaycan tarixi dərslərində akvarium metodu şagirdlərin fəal iştirakını təmin edən, interaktiv və şagird mərkəzli bir metod olaraq effektivliyi ilə seçilir. Aparılan araşdırmalar və tətbiq nümunələri göstərir ki, bu üsul şagirdlərin tarixi mövzuları daha dərindən anlamaq, qrup müzakirəsi bacarıqlarını inkişaf etdirmək, eləcə də tənqidi və analitik düşüncə qabiliyyətlərini gücləndirmək üçün əlverişlidir. Akvarium sinifə sosial qarşılıqlı əlaqələri diqqətlə müşahidə etmək və öyrənmək imkanı təqdim edir [5, s.301]. Akvarium metodu vasitəsilə şagirdlər həm müzakirədə aktiv iştirak edir, həm də digər şagirdlərin arqumentlərini müşahidə edərək fərqli baxış bucaqlarını dəyərləndirməyi öyrənirlər. Nəticə etibarilə, akvarium üsulu yalnız V sinif şagirdlərinin tarixi biliklərini artırmır, eyni zamanda dərs prosesini daha interaktiv, maraqlı və effektiv edir. Bu metodun mütəmadi tətbiqi

şagirdlərin öyrənmə motivasiyasını yüksəldir, qrup daxilində və sinif səviyyəsində təhsil keyfiyyətinin artırılmasına imkan yaradır.

Ədəbiyyat siyahısı:

1. Əhmədova A. VI – IX siniflərinin ümumi tarix kurslarında beyin həmləsi metodundan istifadə. Bakı, Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 85 (2), 2018, 147-150 s.
2. Effendi A. The effectiveness of fishbowl technique towards students' self-efficacy in speaking. Mataram, Journal of Languages and Language Teaching, 5(2), 2017, 46-51 p.
3. Joshi M., & Shinde, J. Comparative Study of Effectiveness of Fishbowl Strategy in Synchronous and Asynchronous Mode of Online Learning. New Delhi Indian Journal of Educational Technology, 3(2), 2021, 263-276 p.
4. Kreim H. A., & Srahan, S. A. S. Fishbowl Technique in Teaching Grammar. Baghdad, Journal of the College of Basic Education, 22 (94), 2016, 13-26 p.
5. Nisa R. Cooperative Teaching-Learning using the Fishbowl Technique for teaching reading. Banda Aceh, English Education Journal, 7(3), 2016, 298-310 p.

TÜRK DÜNYASININ ORTAQ TARİXİ-MƏDƏNİ İRSİNİN TƏDRİSİNDƏ İNNOVATİV METODLARIN TƏTBİQİ

Süleyman Rəhimli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının II kurs magistrantı
suleyman.rhml05@gmail.com
Elmi rəhbər: t.e.d. Tahirə Həsənzadə

***Açar sözlər**: türk dünyası, türk dünyasının ortaq mədəni irsi, innovativ pedaqoji metodlar, interaktiv təlim, layihə əsaslı tədris, rəqəmsal təhsil texnologiyaları*
***Keywords:** turkish world, common cultural heritage of the Turkish world, innovative pedagogical methods, interactive learning, project-based learning, digital educational technologies*

XXI əsrdə qloballaşma, informasiya texnologiyalarının sürətli inkişafı və türk dövlətləri arasında mədəni inteqrasiya türk dünyasının ortaq tarixi-mədəni irsinin öyrədilməsini zəruri edir. Ənənəvi tədris metodları rəqəmsal nəsil tələbələrinin öyrənmə tələblərini tam qarşılamadığından, innovativ pedaqoji yanaşmaların tətbiqi aktualdır. İnteraktiv dərslər, layihə əsaslı təlim və rəqəmsal texnologiyalar tələbələrin analitik, yaradıcı və tədqiqat bacarıqlarını inkişaf etdirir və tarixi-mədəni irsin qorunmasına xidmət edir. Bu səbəbdən mövzu həm nəzəri, həm də praktiki baxımdan aktuallıq kəsb edir.

Türk xalqlarının ortaq irsi çoxqatlı və zəngin məzmunu ilə seçilir. Bu irsin əsas komponentlərinə qədim etnik köklər, dövlətçilik ənənələri, runik yazıları, mifoloji düşüncə tərzi, ədəbiyyat və folklor nümunələri və s. aiddir. Ə. Zəki Vəlidinin qeyd etdiyi kimi, "Türk xalqlarını birləşdirən əsas amillərdən biri onların ortaq tarixi yaddaşı və mədəni irsidir" [6, s. 15]. Bu baxış ortaq mədəniyyət dəyərlərin tədri-

sində vahid nəzəri-metodoloji yanaşmanın qurulmasının vacibliyini bir daha təstiqləyir.

Müasir pedaqogika sahəsində aparılan araşdırmalar göstərir ki, dərsliklərdə ortaq irs bütöv sistem kimi əhatə olunmur, ənənəvi şifahi-auditor modellər rəqəmsal nəslin təhsil tələblərini qarşılamır. Bu baxımdan müəllimlərin innovativ təlim texnologiyalarına keçidi obyektiv zərurət kimi qiymətləndirilir. Qeyd edildiyi kimi, "təhsil prosesində innovativ metodlar şagird və tələbənin öyrənmə fəallığını artıran əsas amillərdir" [4, s.56]. İnnovativ pedaqoji modellər – interaktiv təlim, layihə-tədqiqat yönümlü fəaliyyət, rəqəmsal və multimodal resurslardan istifadə, simulyasiya və oyunlaşdırma texnologiyaları türk dünyasının ortaq irsinin daha dərindən və sistemli mənimsənilməsinə imkan yaradır. Bu metodlar tələbələrdə analitik təfəkkürü, tədqiqat bacarıqlarını və tarixi-mədəni təhlil qabiliyyətini gücləndirməklə yanaşı, ortaq türklük kimliyinin formalaşmasına da mühüm təsir göstərir.

Bu tezisin məqsədi türk dünyasının ortaq tarixi-mədəni irsinin tədrisində innovativ pedaqoji metodların potensialını araşdırmaq və onların tədris prosesinə inteqrasiyasının əsas istiqamətlərini müəyyən etməkdir. Bu əsas istiqamətlərə - Tarixi-mədəni irsin tədrisində ənənəvi və müasir pedaqoji metodların müqayisəli təhlilini aparmaq; İnnovativ metodların — interaktiv dərslər, layihə əsaslı təlim, oyunlaşdırma, simulyasiyalar — pedaqoji və didaktik potensialını qiymətləndirmək və s. aiddir.

Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, türk dünyasının ortaq irsinin tədrisi ilk dəfə olaraq innovativ metodlarla sistemli şəkildə əlaqələndirilir, inteqrativ və rəqəmsal yanaşmanın pedaqoji potensialı müəyyənləşdirilir.

Tədqiqatın elmi və praktik əhəmiyyəti bir neçə istiqamətdə özünü göstərir. Birincisi, təhsil prosesində innovativ metodların tətbiqinin səmərəliliyinin artırılması üçün nəzəri və praktik baza təmin edilir. İkincisi, türk dünyasının ortaq mədəni irsinin dərs proqramlarına inteqrasiyası üçün tövsiyələr formalaşdırılır. Üçüncüsü, gələcək tədqiqatlar üçün nəzəri və metodoloji əsaslar yaradılır.

Türk dünyasının ortaq tarixi-mədəni irsi bir neçə əsas komponentdən ibarətdir. Bu irs tarixi, mədəni və sosial elementləri əhatə etməklə, türk xalqlarının ortaq kimliyinin və mədəni yaddaşının formalaşmasında mühüm rol oynayır. "Türk dünyasının ortaq tarixi irsi müxtəlif dövrlərdə yaranmış siyasi və mədəni münasibətlərin, dillərin, adət-ənənələrin və ümumi etno-mədəni davranış modellərinin məcmusudur" [4, s.45]. Bu anlayış yalnız tarixi məlumatların öyrənilməsi ilə məhdudlaşmır, həm də mədəni dəyərlərin və ənənələrin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından əhəmiyyət kəsb edir.

Tarixi-mədəni irsin əsasını təşkil edən elementlər arasında yazılı və şifahi mənbələr, ədəbi nümunələr, mədəni obyektlər və simvolik davranış formaları xüsusi yer tutur. Karaman bildirir ki, "Türk xalqları arasında ortaq mədəni irsin əsasını yazılı mənbələr, ədəbi və mədəni nümunələr, həmçinin dillər və ənənələr təşkil edir" [2, s.12]. Bu nümunələr təkcə tarixi məlumatları əks etdirmir, həm də xalqlar arasında ortaq dəyərlərin formalaşmasına xidmət edir.

Eyni zamanda, tarixi-mədəni irsin tədrisi prosesində yalnız ənənəvi metodların tətbiqi kifayət etmir. "Ənənəvi tədris metodları tələbələrin fəal iştirakını, kritik düşünmə və yaradıcı bacarıqlarının inkişafını tam təmin etmir" [1, s.78]. Bu baxımdan, tədris prosesinə innovativ pedaqoji metodların inteqrasiyası zərurət təşkil edir. İnnovativ yanaşmalar tələbələrin irsin müxtəlif aspektlərini anlamaq qabiliyyətini artırır, həmçinin onların tarixi və mədəni biliklərə dair analitik düşünmə bacarıqlarını gücləndirir.

Tarixi-mədəni irsin tədrisinin effektivliyini artırmaq məqsədilə müasir tədqiqatlar bu sahədə metodoloji yanaşmaların inkişafına diqqət yetirir. Tarixi-mədəni irsin öyrədilməsi prosesi yalnız faktların təqdimatından ibarət olmamalı, həm də tələbələrin fəal iştirakı və təhlil bacarıqlarının inkişafını təmin etməlidir.

Müasir təhsil prosesində innovativ pedaqoji metodların tətbiqi tələbələrin bilik, bacarıq və kompetensiyalarının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. İnnovativ pedaqoji metodlar tədris prosesində tələbələrin fəal iştirakını təmin etməklə, onların tənqidi və yaradıcı düşünmə qabiliyyətlərini gücləndirir. Bu metodlar yalnız bilik ötürülməsi ilə kifayətlənmir, həm də tələbələrdə analitik düşüncə, problem həll etmə və komanda əməkdaşlığı bacarıqlarını inkişaf etdirir.

İnnovativ pedaqoji metodlar müxtəlif kateqoriyalara bölünür. Interaktiv metodlar, layihə əsaslı tədris, rəqəmsal texnologiyalar və gamifikasiya tədris prosesinin effektivliyini artıran əsas innovativ yanaşmalardandır. Interaktiv metodlar tələbələrin dərs materialı ilə aktiv işləməsini təmin edir və onların tarixi-mədəni mövzuları dərindən mənimsəməsinə şərait yaradır. Layihə əsaslı tədris isə tələbələrin yaradıcı yanaşmalarını ortaya çıxarır və real tarixi-mədəni problemlərin həllinə yönəldir.

Texnologiyaların tətbiqi isə müasir təhsildə önəmli rol oynayır. Rəqəmsal alətlər və simulyasiya proqramları tələbələrin tarixi və mədəni irsə dair anlayışlarını vizual və interaktiv şəkildə inkişaf etdirməyə imkan verir. Eyni zamanda, multimedia və distant təhsil vasitələri vasitəsilə türk dünyasının ortaq irsini öyrənmək imkanları genişlənir.

Layihə əsaslı yanaşmalar tələbələrə tarixi və mədəni mövzuları praktik şəkildə araşdırmaq imkanı verir. Layihə əsaslı tədris, tələbələrə tarix və mədəniyyət mövzularını dərinləşdirilmiş və real kontekstdə öyrənmək imkanı yaradır, həmçinin analitik və yaradıcı bacarıqlarını inkişaf etdirir". Bu yanaşma, eyni zamanda, tələbələrin komanda şəklində işləmə qabiliyyətlərini də gücləndirir.

Təcrübələr göstərir ki, interaktiv metodların tətbiqi tələbələrin müstəqil tədqiqat aparmaq və məlumatları təhlil etmək bacarıqlarını artırır. Nağısoylu qeyd edir ki, "Etibarlı mənbələrdən istifadə və interaktiv dərs metodları tələbələrin tarixi-mədəni irsə dair biliklərinin dərinləşməsini təmin edir və onların analitik düşünmə qabiliyyətini inkişaf etdirir" [3, s.37]. Bu yanaşmalar yalnız təhsil müəssisələri üçün deyil, eyni zamanda milli və türk dünyası mədəniyyətinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından da önəmlidir.Türk dünyasının ortaq tarixi-mədəni irsinin tədrisində innovativ metodların tətbiqi həm tələbələrin fəallığını artırır**,** həm də tarixi və mədəni biliklərin mənimsənilməsini dərinləşdirir**,** nəticədə

tədris prosesinin keyfiyyətini yüksəldir [5, s.24]. Bu yanaşmalar gələcəkdə pedaqoji praktikaların formalaşması və tədris proqramlarının modernləşdirilməsi üçün nəzəri və praktik baza yaradır.

Türk dünyasının ortaq tarixi-mədəni irsinin tədrisi XXI əsrin təhsil tələblərinə uyğun olaraq yalnız məlumatların ötürülməsi ilə kifayətlənməməli, tələbələrin fəal iştirakını və analitik düşünmə bacarıqlarını inkişaf etdirməlidir. Tələbələrin fəallığını artırmaq üçün layihələr, simulyasiyalar, interaktiv tapşırıqlar və komanda işinə əsaslanan metodlar xüsusi əhəmiyyət kəsb edir.

Nəticə olaraq onu deyə bilərik ki, innovativ pedaqoji yanaşmaların tətbiqi həm tələbələrin intellektual fəallığını artırır, həm də Türk dünyasının ortaq mədəni irsinin qorunması və gələcək nəsillərə ötürülməsi üçün effektiv mexanizm rolunu oynayır.

Ədəbiyyat siyahısı:

1. Həsənzadə T. Pedaqogikada interaktiv təlim metodları. Bakı, 2021, 120 s.
2. Karaman M. The Cultural Heritage of the Turkic World. Ankara: Türk Tarih Kurumu, 2018, 250 s.
3. Nağısoyl, M. Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar. Dilçilik Elmi Araşdırmalar Toplusu, I cild,Bakı, 2025, 93 s.
4. Quliyev A. Türk dünyası tarixi və mədəniyyəti. Bakı, Elm, 2020, 400 s.
5. Qurbanov R. Azərbaycanda türk xalqları tarixinin tədqiqi və tədrisi məsələləri. Bakı, 2017, 216 s.
6. Vəlidi Ə. Umumi türk tarihine giriş. Bakı, 1981, 583 s

MÜASİR DÖVRDƏ ALİ MƏKTƏBLƏRDƏ FƏAL TƏLİM METODLARI İLƏ TƏDRİS (ŞAH I ABBASIN HAKİMİYYƏT DÖVRÜ)

Cehun Hüseynli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının II kurs magistrantı
chusheynli@yandex.com
Elmi rəhbər: professor Şikar Qasmov

Açar sözlər: *Şah I Abbas, Fəal təlim, Ali pedeqoji məktəb, debat və qrup iş, Analtik düşüncə*
Keywords*: Shah I Abbas, Active learning, Higher Pedagogical İnstitution, Debate and Group work, Analytical thinking*

Şah I Abbas dövrü təkcə Azərbaycan tarixinin deyil, bütün Türk dünyasının siyasi və mədəni inkişafında dönüş mərhələsi olduğundan, bu mövzunun ali pedaqoji təhsildə dərindən öyrədilməsi xüsusi aktuallıq kəsb edir. Müasir qlobal inteqrasiya şəraitində Türk dövlətləri arasında əlaqələrin genişlənməsi tarixi-mədəni irsin tədrisində interaktiv metodlardan daha səmərəli istifadəni tələb edir. Bu yanaşma gələcək tarix müəllimlərinin həm peşəkar hazırlığını gücləndirir, həm də milli-tarixi kimliyin daha şüurlu şəkildə mənimsənilməsinə şərait yaradır.

Şah I Abbasın hakimiyəti illəri, həm regionda siyasi mənzərəni dəyişmiş, həmdə bütün türk mədəniyətinə ciddi təsri göstərən islahatlat keçirilməsi ilə fərqlənir. Bu dövr yalnız Azərbaycan tarixinin yox ümumilikdə bütün türk xalqlarını irisinin

vacib bir hissəsidir. Səfəvilərin özəyini təşkil edən Qızılbaş adət-ənənəlri bir çox türk dövlət və xalqradada öz əksini tapmışdır. Muasir dövrdə Türk dövlətləri arasınsa beynəlxaq əlaqələrin genişləndiyi bir vaxta tarix fəninin tədrisində Türk dünaysı amilininin daha geniş nəzərə alınmasını tələb edir. Ali pedeqoji məktələrdə aprılan taix təhsili yalnız milli tarixi deyil bütün Türk xalaqlarınən tarixinin qavranılması və tətbiqini tələb edir. Bu məqsədə nail olmaq üçün fəal interaktiv metodlar mühüm əhəmiyət kəsb edir. Bir çox interaktiv təlim metodu məsələn rollu oyunlar, qurupla iş, debat və s. Şah l Abbasının dövrünü yalnız fakt kimi yox daha dərindən öyrənilməsinə imkan yardır

Şah I Abbas (1587-1629) hakimiyyətə gəldikdən sonra Səfovilərin itirilmiş ərazisini geri qaytarmaq və sarılmış qüdrətini bərpa etmək üçün harbi va inzibati islahat kecirdi [4, s.247]. Şah I Abbasın hakimiyyəti Səfəvi dövlətinin dönüş nöqtəsi kimi qiymətləndirilir. Onun apardığı islahatlar təkcə siyasi idarəçiliyə deyil, ordunun yenidən qurulmasına, iqtisadi canlanmaya və mədəni inkişafın yüksəlməsinə ciddi təsir göstərib. Bu dövrün ali pedaqoji məktəblərdə tədrisi gələcək tarix müəllimləri üçün həm elmi bilik, həm də metodik bacarıq baxımından xüsusi əhəmiyyət daşıyır. Bu səbəbdən mövzunu fəal təlim metodları ilə öyrətmək həm məzmunu daha canlı edir, həm də tələbələrin dərs prosesində iştirakını artırır.Müasir təlim yanaşmaları göstərir ki, tələbə yalnız informasiyanı dinləməklə deyil, həmin informasiyanı işləyərək, düşünərək və tətbiq edərək öyrəndikdə daha yaxşı nəticə əldə edir. Şah I Abbas dövrü öz quruluşu, hadisələrin ardıcıllığı və geniş tarixi faktlara malik olması ilə interaktiv dərslər üçün əlverişli mövzudur. Məsələn, dövlətin mərkəzləşməsi, Qızılbaş əmirlərinin təsirinin zəiflədilməsi, qulam ordusunun gücləndirilməsi kimi mövzular problem əsaslı öyrənmə üçün çox uyğun material yaradır. Dərsdə tələbələrdən "Şah Abbasın idarəçilik islahatları dövləti hansı istiqamətdə dəyişdirdi?" sualına cavab hazırlamaq istənilə bilər. Bu zaman tələbələr faktları sadalamaqla kifayətlənmir, həm də öz baxışlarını formalaşdırırlar."Fəal (interaktiv) təlim" şagirdlərin faal idrak fealiyyətinə əsaslanan ve tohsil prosesinin digər İştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur [2, s.11]. Fəal təlim metodu təqdim edilən informasiyanın ziddiyyətli və yarımçıq olması səbəbindən aqli cəhətdən gərgin) vəziyyətin yaradılmasıa əsaslanir. Bu cür vəziyyətin yaradılması şagirdlər Qarşıya qoyulmuş məqsədə nail olmaq yollarını axtarmağa sövq edir və bununla da onların təfəkkürünü fəallasdırr. Bu da öz növbəsində şagirdlərdə idrak fallğı yaradır, onların tədqiqat fəaliyyətini artırr [1, s.97].

Dövrün iqtisadi həyatı da interaktiv metodlarla öyrədilməsi mümkün olan mövzular sırasındadır. İpək yolunun qorunması, ticarət yollarının bərpası, karvansaraların tikilməsi, İsfahanın yeni paytaxt kimi inkişaf etdirilməsi tələbələrə vizuallaşdırma metodlarının tətbiqi üçün geniş imkan yaradır. "Səbəb-nəticə cədvəli", "ağac sxemi", "məntiqi xəritə" kimi üsullar bu mövzunu daha anlaşılan və yadda qalan edir. Tələbələr islahatların nəticələrini özləri qruplaşdıraraq dövrə daha sistemli şəkildə baxmağı öyrənirlər. Şah I Abbas dövrü mədəniyyətinin öyrədilməsi də fəal təlim üçün olduqca cəlbedicidir. İsfahanın memarlıq mərkəzinə çevrilməsi,

meydanların, körpülərin, məscidlərin tikintisi tələbələrin layihə işi hazırlaması üçün çox əlverişlidir. Məsələn, qruplara "İsfahanın şəhərsalma layihəsini təqdim edin" tapşırığı verildikdə, hər qrup tarixi mənbələrə əsaslanaraq öz planını qurur və təqdim edir. Bu cür dərslər tələbələrdə həm araşdırma bacarığını artırır, həm də yaradıcı düşünməni inkişaf etdirir. Şah I Abbasın diplomatik siyasətinin tədrisində debat metodundan istifadə dərsin dinamikliyini artırır. Osmanlı-Səfəvi münasibətlərinə, Avropa dövlətləri ilə əlaqələrə dair müzakirələr tələbələri çoxşaxəli düşünməyə təşviq edir. Debat zamanı tələbələr faktları müqayisə edir, mövqelərini müdafiə edir və hadisələrin müxtəlif tərəflərini qiymətləndirməyi öyrənirlər. Bu isə gələcək müəllim üçün vacib olan tənqidi təfəkkürü inkişaf etdirən amillərdən biridir. Fəal təlim metodlarının tətbiqi ali pedaqoji məktəblərdə təkcə bilik vermək funksiyası daşımır, həm də tələbələrin gələcək dərs demə bacarıqlarını formalaşdırır. Tələbələr interaktiv dərsin necə qurulduğunu praktik olaraq gördükdə, gələcəkdə məktəb mühitində bu metodları daha asan tətbiq edə bilirlər. Bu, onların pedaqoji hazırlığının keyfiyyətini yüksəldir və tədris prosesinə innovativ yanaşma gətirir. Ümumiyyətlə, Şah I Abbasın hakimiyyət dövrünün interaktiv üsullarla tədrisi həm tarixi materialın genişliyi, həm də metodik imkanların çoxluğu baxımından çox əlverişlidir. Bu yanaşma tələbələrin dərs prosesində fəal iştirakını təmin edir, onların tarixə marağını artırır və analitik təfəkküründü gücləndirir. Nəticə olaraq, mövzunun fəal təlim metodları ilə öyrədilməsi ali pedaqoji təhsil sistemində həm elmi, həm də praktik baxımdan əhəmiyyətli nəticələr verir. Fəal təlimdə şagirdlərin naillyyətlərinin qiymətləndirmə obyektlər sırasına daha biri də şagirdin şəxsi keyfiyyətleri məsələn, biliyə yiyələnmək həvəsi, sosial keyfiyyətlər, yaradıcılıqkeyfilyyətləri, mənəvi keyfiyyətlər ve s.əlavə olunur [2, s.32].

XVI əsrin başlanğıcında Azərbaycan Səfəvi dövlətinin yaranması, habelə mərkəzləşdirilmiş siyasi qurumun qüvvətlənməsi ilə əlaqodar xalqın mədəniyyəti də xeyli inkişaf etdi [1, s.243]. Şah I Abbasın hakimiyyəti həm Azərbaycan tarixində, həm də ümumi türk dünyasının siyasi-mədəni inkişafında açıq bir dönüş nöqtəsi kimi görünür. Onun apardığı hərbi, siyasi və iqtisadi islahatlar dövlətin bütövləşməsini, ordunun güclənməsini, ticarətin canlanmasını və mədəniyyətin çiçəklənməsini təmin etmişdi. Bu qədər zəngin və çoxşaxəli bir dövrün ali pedaqoji məktəblərdə yalnız faktların sadalanması ilə öyrədilməsi, açığı, mövzunun potensialını tam ortaya çıxarmır.Bu səbəbdən məhz interaktiv və fəal təlim metodları — qrupla iş, debatlar, rollu oyunlar, layihə fəaliyyəti, vizual sxemlər və problem əsaslı öyrənmə — Şah I Abbas dövrünün tədrisini həm daha canlı edir, həm də tələbənin hadisələri "hazır bilik" kimi deyil, düşünərək, araşdıraraq, müqayisə edərək qavramasına şərait yaradır. Bu metodlar sayəsində tələbə sadəcə tarixi hadisəni öyrənmir, həm də ona şəxsi münasibət formalaşdırır və müəllim kimi gələcək fəaliyyətində tətbiq edə biləcəyi metodik bacarıqları təcrübədə mənimsəyir.Eyni zamanda bu mövzunun türk dünyasının ümumi mədəni və siyasi irsində tutduğu yer tələbələrdə regional kimlik, mədəni bağlılıq və inteqrasiya haqqında daha geniş düşüncə formalaşdırır. Şah I Abbas dövrü tələbəyə həm tarix bilikləri verir, həm də onu müasir türk coğrafiyasında gedən prosesləri daha də-

rindən anlamağa hazırlayır. Nəticə olaraq, Şah I Abbas dövrünün fəal təlim metodları ilə öyrədilməsi ali pedaqoji təhsildə həm elmi, həm analitik, həm də praktik baxımdan çox faydalıdır. Bu yanaşma dərsi daha maraqlı edir, tələbənin diqqətini dərsə cəlb edir, tənqidi və yaradıcı düşüncəni gücləndirir və gələcək müəllimlərin peşəkar hazırlığını real şəkildə artırır.

Ədəbiyat siyahısı:

1. Məmmədov İ. Azərbaycan Tarixi (Ali məktəblər üçün dərslik). Bakı: Adiloğlu nəşriyyatı, 2005, 488 s.
2. Veysova Z. Fəal İnteraktiv təlim (Müəllimlər üçün vəsait). Bakı: 2007, 156 s.
3. Əliyeva F., Məmmədova Ü. Müasir Təlim Texnologiyaları. Bakı : 2014, 194 s.
4. Veysova Z. Fəal (interaktiv) təlim texnologiyası: Psixoloji mexanizmləri və quruluşu. Kurikulum 2008, №1, s. 95-102.

TÜRKİYƏNİN AVROPA İTTİFAQINA ÜZVLÜK CƏHDLƏRİ VƏ ABŞ-IN MÖVQEYİ

Banuçiçək Hüseynli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi" kafedrasının II kurs magistrantı
banucicekhuseynli00@gmail.com
Elmi rəhbər: dosent Məmmədağa Baxışov

Açar sözlər: *ABŞ, Türkiyə, Avropa İttifaqı*
Keywords: *USA, Turkey, Europeon Union*

Türkiyənin Avropa İttifaqına üzv olmaq cəhdləri təkcə regional siyasi proseslərin nəticəsi deyil, həm də transatlantik münasibətlərin mühüm istiqamətlərindən biri kimi qiymətləndirilməlidir. Xüsusilə İkinci Dünya müharibəsindən sonra beynəlxalq sistemin formalaşması, Qərb blokunun siyasi identikliyinin dərinləşməsi, NATO-nun yaradılması, və Avropa inteqrasiyasının xarakteri ABŞ-ın Türkiyəyə münasibətinin əsasını formalaşdırmışdır. ABŞ, istər soyuq müharibə dövründə, istərsə də ondan sonrakı dövrdə Türkiyənin Qərb strukturlarına inteqrasiyasını enerji marşrutlarının sabitliyi, regional təhlükəsizlik, Yaxın Şərq siyasəti və Avropa təhlükəsizliyi kontekstində strateji zərurət kimi qiymətləndirmişdir. Beləliklə, Vaşinqton uzun müddət Türkiyənin Avropa İttifaqına üzvlüyünün dəstəklənməsini öz Avroatlantik strategiyasının mühüm hissəsi hesab etmişdir [1].

ABŞ-ın mövqeyi ilk növbədə Türkiyənin NATO-ya üzvlüyünün yaratdığı tarixi çərçivədən başlayır. 1952-ci ildə Türkiyə və Yunanıstanın NATO-ya daxil olması Qərb təhlükəsizlik sistemində vahid cənub cinahının yaranmasına səbəb oldu. Bu mərhələdən sonra ABŞ Türkiyəni yalnız hərbi-strateji müttəfiq deyil, həm də geniş Avropa məkanının siyasi inteqrasiya prosesində mühüm tərəfdaş kimi görməyə başladı. Soyuq müharibə dövründə Avropa İttifaqı (həmin dövrdə Avropa İqtisadi Birliyi) daha çox iqtisadi qurum kimi fəaliyyət göstərdiyindən ABŞ Türkiyənin bu

quruma daxil olmasına bilavasitə təsir göstərmirdi. Lakin 1963-cü il Ankara müqaviləsinin imzalanması və Türkiyənin AİB ilə assosiasiya münasibətlərinə başlaması Vaşinqton tərəfindən strateji addım kimi qiymətləndirildi. Məhz həmin dövrdə ABŞ Avropanın inteqrasiyasını NATO ilə paralel inkişaf edən bir proses kimi dəyərləndirirdi və Türkiyənin bu prosesdə iştirakı ABŞ üçün Cənubi Avropa təhlükəsizliyinin bütövlüyünü qorumaq baxımından vacib idi [2].

1980-ci illərdən sonra ABŞ-ın Türkiyə–Avropa İttifaqı münasibətlərinə marağı daha da artdı. 1989-cu ildə Avropa İttifaqının Türkiyənin tam üzvlük müraciətinə mənfi cavab verməsi Vaşinqtonda ciddi narazılıq doğurmasa da, ABŞ bu qərarın Türkiyəni Qərbdən uzaqlaşdırmaması üçün vasitəçi kimi çıxış etməyə çalışdı. 1990-cı illərin əvvəllərində SSRİ-nin süqutu ilə qlobal sistemdə baş verən köklü dəyişikliklər Vaşinqton üçün Türkiyənin Avropa strukturlarına inteqrasiyasının prioritetliyini daha da artırdı. ABŞ bu dövrdə Türkiyəni Orta Asiya, Qafqaz və Yaxın Şərq bölgələri ilə Avropa arasında strateji körpü hesab edir və onun Aİ-yə üzvlüyünü həm demokratikləşmə proseslərinin dərinləşməsi, həm də Avropanın enerji təhlükəsizliyinin möhkəmlənməsi baxımından vacib hesab edirdi. 1995-ci ildə Türkiyənin Avropa İttifaqı ilə Gömrük Birliyinə daxil olması ABŞ tərəfindən böyük məmnunluqla qarşılandı, çünki bu addım Türkiyənin Avropa iqtisadi sisteminə dərin inteqrasiyasının başlanğıcı kimi qiymətləndirilirdi [5].

ABŞ-ın Türkiyənin Avropa İttifaqına üzvlüyü ilə bağlı mövqeyi müxtəlif dövrlərdə müəyyən fərqlər göstərsə də, əsas strateji xətt dəyişməz qalmışdır: Vaşinqton Türkiyənin üzvlüyünün Avropada geosiyasi balansın Qərb xeyrinə gücləndirdiyini düşünmüşdür. ABŞ-ın bu mövqeyi Bill Klinton administrasiyası dövründə daha açıq şəkildə ifadə olundu. NATO-nun genişlənməsi, Balkan münaqişələri və Avropada yeni təhlükəsizlik arxitekturasının formalaşması fonunda Türkiyənin Avropa İttifaqına yaxınlaşması ABŞ üçün strateji prioritet hesab olunurdu. Klinton administrasiyası vurğulayırdı ki, Türkiyənin Avropa İttifaqına üzvlüyü "Avropanın demokratik və çoxmədəniyyətli kimliyinin genişlənməsi" deməkdir [4].

1999-cu ildə keçirilən Helsinki Sammitində ABŞ-ın diplomatik təzyiqi və dəstəyi sayəsində Türkiyənin rəsmi namizəd statusu əldə etməsi dönüş nöqtəsi oldu. Avropa İttifaqı daxilində bəzi ölkələrin, xüsusilə Yunanıstan və Avstriyanın Türkiyəyə qarşı sərt mövqe tutmasına baxmayaraq, Vaşinqtonun Avropa paytaxtlarına yönəlik diplomatik fəaliyyəti sammitin nəticələrinə ciddi təsir göstərdi. Həmin dövrdə ABŞ Türkiyənin NATO üçün strateji rolunu və Balkanlarda sabitliyin qorunmasında oynadığı rolu əsas arqument kimi ön plana çıxardı [5].

XXI əsrdə ABŞ-ın Türkiyənin Avropa İttifaqına üzvlüyünə dair mövqeyi daha ardıcıl və daha aydın şəkildə ifadə olunmağa başladı. Buş administrasiyası Türkiyənin Aİ üzvlüyünü "ABŞ-ın milli təhlükəsizlik maraqlarının bir hissəsi" kimi vurğulayırdı. Vaşinqtonun yanaşmasına görə, Türkiyənin İttifaqa daxil olması Avropanın Yaxın Şərqlə diplomatik əlaqə imkanlarını genişləndirir, müsəlman dünyası ilə Avropa arasında siyasi dialoqu gücləndirəcək, və enerji marşrutlarının şaxələndirilməsi baxımından Aİ üçün həll edici rol oynayacaqdı [2].

B.Obama dövründə ABŞ daha yumşaq və diplomatik üsluba keçsə də, strateji xətt əvvəlki kimi qaldı. Obama Avropa Parlamentində çıxışı zamanı açıq şəkildə bildir-

mişdi ki, Türkiyənin Aİ-yə üzvlüyünü dəstəkləmək "Avropanın qlobal çoxmədəniyyətli birliyə çevrilməsinin vacib şərtidir". Bu açıqlama Aİ daxilində müəyyən narazılıqlar yaratsa da, ABŞ-ın mövqeyinin dəyişməzliyi bir daha ortaya qoyurdu. Obama administrasiyasının yanaşmasına görə, Türkiyənin Aİ-yə qəbul edilməməsi Avropanı daha qapalı, "xristian klubu" modelinə yaxınlaşmasına və Avropa dəyərlərinin qlobal miqyasda universal xarakterinin zəifləməsinə səbəb ola bilərdi.

Bununla yanaşı, Aİ-nin daxili siyasi prosesləri ABŞ-ın birbaşa müdaxilə edə biləcəyi proses deyildi. Xüsusilə 2010-cu ildən sonra Aİ-də miqrasiya böhranı, iqtisadi böhran, sağçı populizmin yüksəlişi və genişlənmə yorğunluğu Türkiyənin üzvlüyü ideyasını daha da çətinləşdirdi. Bu şəraitdə ABŞ-ın mövqeyi müəyyən qədər dəyişdi: ABŞ artıq Türkiyənin tamhüquqlu üzvlüyünü deyil, Aİ ilə yaxın strateji əlaqələrinin qorunmasını prioritet kimi vurğulamağa başladı. Bu dövrdə ABŞ üçün əsas məsələ Türkiyənin Qərb blokundan kənarlaşmasının qarşısını almaq idi. Suriya müharibəsi, Rusiya–Ukrayna münaqişəsi və enerji böhranı fonunda ABŞ Türkiyənin rolunu yenidən "regional güc və NATO üçün əhəmiyyətli komponent" kimi qiymətləndirdi [5].

D.Tramp administrasiyası zamanı ABŞ-ın ümumi xarici siyasət xəttinin qeyri-sabit olması Türkiyə–Aİ məsələsinə də təsir etdi. Tramp administrasiyası Türkiyənin Aİ-yə üzvlüyünə dəstəyi digər administrasiyalar qədər ifadə etməsə də, Vaşinqtonun strateji baxışı dəyişməz qaldı: Türkiyə Qərb sisteminin açar aktorudur və bu sistemdə qalmalıdır. Tramp dövründə ABŞ üçün əsas risk Türkiyənin Rusiya ilə yaxınlaşması idi ki, bu da Vaşinqtonun nəzərində yalnız Türkiyənin Aİ-yə deyil, ümumən Qərb məkanına inteqrasiyasının zəifləməsi anlamına gəlirdi [3].

2020-ci illərdən etibarən ABŞ-ın mövqeyi daha praqmatik və təhlükəsizlik yönümlü xarakter aldı. C.Bayden administrasiyası Türkiyənin Avropa İttifaqına daxil olmasını aktiv şəkildə təşviq etməsə də, onun Avropa ilə institusional əlaqələrinin dərinləşməsini dəstəkləməkdə davam edir [4].

ABŞ-ın bu məsələyə yanaşması təkcə siyasi və strateji maraqlarla məhdudlaşmır, eyni zamanda dəyərlər və ideoloji çərçivə daxilində də izah olunur. Vaşinqton uzun illərdir Türkiyənin dünyəvi dövlət modeli, NATO üzvlüyü, demokratik institutlarının inkişafı və Qərb yönümlü siyasi kursunu Avropa və müsəlman dünyası arasında körpü rolunun əsas şərti kimi görmüşdür. Bununla yanaşı, ABŞ-ın bu mövqeyinə qarşı Avropa daxilində siyasi və institusional müqavimətin olması da Vaşinqtonun diplomatik fəaliyyətini məhdudlaşdıran amillərdən olmuşdur. Xüsusilə Fransa və Almaniyanın müəyyən dövrlərdə Türkiyənin üzvlüyünə qarşı ehtiyatlı yanaşması ABŞ diplomatiyasını daha çox "tənzimləyici aktor" roluna salmışdır. ABŞ, prinsip etibarilə, Avropanın suveren qərarvermə hüququna birbaşa müdaxilə etmək istəməsə də, onun üçün əsas strateji xətt dəyişməz qalmışdır: Türkiyə mütləq şəkildə Qərb siyasi və təhlükəsizlik arxitekturası daxilində qalmalı, Avrasiya məkanında rəqib güc mərkəzlərinə yaxınlaşmamalıdır [1].

Ümumilikdə ABŞ-ın Türkiyənin Aİ-yə üzvlüyünə mövqeyi geosiyasi (Türkiyə Qara dəniz, Balkanlar, Qafqaz və Yaxın Şərq arasında mərkəzi mövqeyə malikdir. ABŞ üçün bu mövqenin Avropa ilə inteqrasiya vasitəsilə Qərb məkanında qalması strateji əhəmiyyət kəsb edir), təhlükəsizlik (NATO-nun cənub cinahının qorunma-

sı, enerji xəttlərinin təhlükəsizliyi, terrorizmlə mübarizə və regional münaqişələrin idarə edilməsi Türkiyənin Avropa strukturlarına yaxın olmasını tələb edir) və ideoloji-siyasi (Türkiyənin demokratik və dünyəvi dövlət modeli ABŞ üçün Qərb dəyərlərinin müsəlman dünyasına ötürülməsi baxımından mühüm nümunə hesab olunmuşdur) olmaqla üç səviyyədə xarakterizə olunur [2].

ABŞ Türkiyənin Avropa İttifaqına üzvlüyünü yalnız iki tərəf arasında münasibətlərin məhdud komponenti deyil, daha geniş miqyaslı Avroatlantik təhlükəsizlik memarlığının tərkib hissəsi kimi qiymətləndirmişdir. Vaşinqton hələ də Türkiyənin Qərb blokundan uzaqlaşmamasını prioritet sayır və Türkiyənin Aİ ilə əlaqələrinin güclənməsini geosiyasi sabitlik üçün zəruri hesab edir. Lakin Aİ daxilindəki siyasi dinamika, Türkiyə–Aİ münasibətlərindəki problemlər və qlobal proseslərin dəyişməsi ABŞ-ın bu mövqeyinin praktiki nəticələrini məhdudlaşdırır. Buna baxmayaraq, ABŞ üçün Türkiyənin Avropa ilə əlaqələri gələcək onilliklərdə də regional təhlükəsizlik arxitekturasının ayrılmaz hissəsi olaraq qalmaqda davam edəcəkdir.

Ədəbiyyat siyahısı:

1. *Baxışov M.Ə. ABŞ-ın yeni və müasir tarixi. Bakı: AzTU-nun mətbəəsi, 2012 ,178s.*
2. *Ширяев Б. А. Внешняя политика США: принципы, механизмы, методы. Курс лекций, Издательство Санкт-Петербургского университета, 2007, 442с.*
3. *Türkiye ve Avrupa Birliği ilişkilerinde Trump etkisi. https://www.aa.com.tr/tr/analiz/turkiye-ve-avrupa-birligi-iliskilerinde-trump-etkisi/3467773*
4. *ABD-AB İlişkilerinin Türkiye Üzerine Etkileri , 2025. https://buab.beykent.edu.tr/docs/default-source /event/abd-ab-ozet.pdf?sfvrsn=4e47accb_2*
5. *The United States of America Effect on Turkey - European Union Relations, 2014 https://www.researchgate.net/publication/275541147_The_United_States_of_America_Effect_on_Turkey_-_European_Union_Relations*

NAFTA İLƏ TÜRKİYƏ ARASINDA TİCARƏT MÜNASİBƏTLƏRİ

Sərxan Məmmədov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi" kafedrasının II kurs magistrantı
serxanmemmedov0907@gmail.com
Elmi rəhbər: dosent Məmmədağa Baxışov

Açar sözlər: *NAFTA, Türkiyə, ticarət əlaqələri, iqtisadi əməkdaşlıq, enerji və logistika*
Keywords: *NAFTA, Turkey, trade relations, economic cooperation, energy and logistics*

Şimali Amerika Azad Ticarət Sazişi (NAFTA) 1994-cü ildən etibarən ABŞ, Kanada və Meksikanı vahid iqtisadi məkan ətrafında birləşdirərək, dünyanın ən böyük regional ticarət bloklarından birinə çevrilmişdir. Sazişin əsas məqsədi ticarət maneələrinin azaldılması, gömrük rüsumlarının minimuma endirilməsi və regional iqtisadi inteqrasiyanın gücləndirilməsi olmuşdur. Qlobal iqtisadiyyatın liberallaşdığı bir dövrdə NAFTA bölgəsi ticarət axınlarının mərkəzlərindən birinə çevrilmiş, xüsusilə sənaye və xidmət sektorlarında böyük artımlar müşahidə edilmişdir.

Türkiyə isə Avrasiya regionunda strateji mövqeyə malik olmaqla yanaşı, ixrac yönümlü iqtisadiyyat modelini inkişaf etdirdikcə NAFTA ölkələri ilə ticarət əlaqələri daha böyük əhəmiyyət qazanmışdır. Türkiyənin sənaye istehsalı, avtomobil sektoru, tekstil sənayesi, kənd təsərrüfatı məhsulları və yüksək texnologiya sahələrində artan potensialı Şimali Amerika ölkələri üçün ciddi maraq doğurur. Digər tərəfdən, ABŞ və Kanada kimi dövlətlərin enerji təhlükəsizliyi, Meksikanın isə istehsal gücü Türkiyə üçün mühüm əməkdaşlıq istiqamətləri yaradır [2, s.98].

Türkiyə ilə ABŞ arasındakı iqtisadi və ticarət əməkdaşlığı uzun illər NATO müttəfiqliyi və siyasi strateji tərəfdaşlıq əsasında formalaşmışdır. ABŞ Türkiyəyə ixracda aviasiya texnologiyaları, kimya sənayesi məhsulları, enerji avadanlıqları və yüksək texnologiyalar üzrə üstünlük təşkil edir. Türkiyə isə ABŞ bazarına daha çox tekstil məhsulları, hazır geyim, avtomobil hissələri, dəmir-polad, kənd təsərrüfatı məhsulları və elektronika göndərir. Ticarət həcmləri hər il dəyişsə də, ümumi dinamika artım meyli ilə xarakterizə olunur.

Bu əlaqələrin iqtisadi dayaqlarından biri də iki ölkə arasında müdafiə sənayesi əməkdaşlığıdır. ABŞ şirkətlərinin Türkiyə bazarında fəaliyyəti, Türkiyə istehsalı olan məhsulların ABŞ bazarına çıxışı ikitərəfli əlaqələrin sabitliyini qoruyur [1, s.15-18].

Kanada ilə ticarət əlaqələri ABŞ-la müqayisədə daha kiçik həcmlidir, lakin son illərdə bu əlaqələr tədricən genişlənməkdədir. Kanada Türkiyəyə əsasən xammal, kənd təsərrüfatı məhsulları, sənaye avadanlıqları və enerji ilə bağlı texnologiyalar ixrac edir. Türkiyə isə Kanadaya maşınqayırma məhsulları, məişət texnikası, tikinti materialları və kənd təsərrüfatı məhsulları göndərir.

Bununla yanaşı, Kanadanın mədənçilik sektoru və Türkiyənin bu sahəyə investisiya cəlb etmək istəyi iki ölkə arasında qarşılıqlı maraqları artırır. Logistika əməkdaşlığının genişlənməsi isə transatlantik ticarət axınlarının daha səmərəli təşkilini təmin edir [5, s.48].

Meksika ilə iqtisadi əlaqələr NAFTA məkanının istehsal şəbəkəsində Meksikanın əsas sənaye mərkəzi kimi xüsusi rol oynaması ilə əhəmiyyətlidir. Türkiyə Meksikaya daha çox avtomobil sənayesi üçün detallar, elektronika, məişət texnikası, dəmir-polad və tekstil ixrac edir. Meksikadan Türkiyəyə isə kimya sənayesi məhsulları, kənd təsərrüfatı məhsulları, avtomobil hissələri və xammal gətirilir.

Son illərdə Türkiyə şirkətlərinin Meksikada istehsal layihələrində iştirakı, eləcə də Meksikanın Avrasiya bazarlarına çıxış üçün Türkiyə üzərindən marşrut axtarışı iki ölkə arasında əməkdaşlıq potensialını artırır [5, s.249].

NAFTA bölgəsinə çıxış üçün Türkiyənin qarşılaşdığı maneələr də az deyil. ABŞ və Kanada kimi inkişaf etmiş ölkələrdə tətbiq olunan yüksək texniki standartlar, keyfiyyət nəzarət mexanizmləri və təhlükəsizlik tələbləri Türkiyənin ixrac portfelinin genişləndirilməsini müəyyən dərəcədə çətinləşdirir. ABŞ bazarında rəqabət əsasən Çin, Almaniya, Yaponiya və Cənubi Koreya kimi güclü texnoloji istehsalçıların üstünlüyü altında formalaşır. Bu səbəbdən Türkiyə məhsullarının fərqləndirilməsi, brend dəyərinin artırılması və dəyər zəncirinin yüksək pillələrinə keçid prioritet mə-

sələlər kimi önə çıxır. Logistika məsafəsi və daşınma xərcləri də Türkiyənin NAFTA bölgəsi ilə ticarətini məhdudlaşdıran mühüm amillərdən biridir.

2018-ci ildə NAFTA- nın USMCA (ABŞ–Meksika–Kanada Sazişi) ilə əvəz olunması Türkiyə üçün yeni imkanlar və yeni tələblər yaratmışdır. Yeni sazişdə avtomobil sənayesi üçün mənşə qaydalarının sərtləşdirilməsi, əmək standartlarının yüksəldilməsi, rəqəmsal ticarətin genişləndirilməsi və əqli mülkiyyət hüquqlarının gücləndirilməsi kimi müddəalar Türkiyənin bu regionla münasibətlərini yenidən strukturlaşdırmasını zəruri edir. Xüsusilə avtomobil sənayesində yeni qaydalar Türkiyə istehsalçılarının Meksika ilə əməkdaşlıq etməsi və Şimali Amerika təchizat zəncirinə inteqrasiya olunması üçün yeni yollar açа bilər.

Gələcək perspektiv baxımından, Türkiyə ilə NAFTA/USMCA ölkələri arasında ticarət əlaqələrinin genişlənməsi üçün bir sıra kilid istiqamətlər mövcuddur: yüksək texnologiyalı məhsulların istehsalının artırılması, ixracın rəqəmsallaşdırılması, logistik mərkəzlərin modernləşdirilməsi, ABŞ və Kanada bazarlarının tələblərinə uyğun sertifikatlaşdırma sistemlərinin təkmilləşdirilməsi, Meksika ilə sənaye əməkdaşlığının dərinləşdirilməsi və qarşılıqlı sərmayə axınlarının stimullaşdırılması. Bu hədəflərin həyata keçirilməsi Türkiyənin qlobal rəqabət qabiliyyətini artırmaqla yanaşı, NAFTA bölgəsi ilə iqtisadi inteqrasiyasını daha dayanıqlı və uzunmüddətli edəcək [4].

Türkiyə Şərq–Qərb nəqliyyat dəhlizlərinin qovşağında yerləşdiyindən, NAFTA ölkələri üçün Avrasiya bazarlarına alternativ giriş nöqtəsi kimi yüksək strateji əhəmiyyət kəsb edir. Bakı–Tbilisi–Qars dəmir yolu xətti, Türkiyənin liman infrastrukturu, enerji tranzit xətləri və logistika potensialı ABŞ, Kanada və Meksika üçün maraqlı əməkdaşlıq sahələridir. Bu baxımdan enerji təhlükəsizliyi, tədarük zəncirləri və nəqliyyat layihələri NAFTA–Türkiyə münasibətlərinin gələcək inkişaf istiqamətlərindən biridir [6, s.156].

Türkiyə ilə NAFTA ölkələri arasındakı ticarət münasibətləri iqtisadi, siyasi və strateji baxımdan böyük əhəmiyyət daşıyır. ABŞ ilə ticarət əlaqələri miqyas və dərinlik baxımından daha geniş olsa da, Kanada və Meksika ilə əməkdaşlıq da inkişaf potensialına malikdir. Enerji, sənaye, logistika, kənd təsərrüfatı və texnologiya sahələrində qarşılıqlı asılılıq və maraqlar bu əlaqələrin daha da güclənməsi üçün zəmin yaradır.

USMCA-nın qəbulundan sonra Şimali Amerika bazarında dəyişən tənzimləmələr Türkiyənin bu ölkələrlə ticarət strategiyasını yenidən qiymətləndirməsini tələb edir. Lakin ümumi perspektiv göstərir ki, NAFTA məkanı ilə əlaqələrin genişləndirilməsi Türkiyənin qlobal iqtisadi sistemdə mövqeyinin güclənməsinə mühüm töhfə verəcəkdir [2, s.367-369].

Ədəbiyyat siyahısı:

1. Cornell, S. F. Azərbaycan müstəqillikdən sonra. Bakı: Qanun Nəşriyyatı, 2014, 416 s.
2. Şəfəq, B. Enerji siyasəti və qlobal güclər. Bakı: Elm və Təhsil, 2019, 389 s.
3. Anceschi, L. Kazakhstan's Foreign Policy: The Quest for Multi-vectorism. London: Routledge, 2014, 208 s.

4. Hufbauer, G. C., & Schott, J. J. NAFTA Revisited: Achievements and Challenges. Washington, D.C.: IIE Press, 2005, 504 s.
5. Pomfret, R. The Economies of Central Asia. Princeton: Princeton University Press, 2019, 360 s.
6. Yergin, D. The New Map: Energy, Climate, and the Clash of Nations. New York: Penguin Press, 2020, 656 s

COP29-UN AZƏRBAYCANDA KEÇİRİLMƏSİNİN QAFQAZ VƏ TÜRK DÜNYASI ÖLKƏLƏRİ ÜÇÜN EKOLOJİ VƏ DİPLOMATİK ƏHƏMİYYƏTİ

Abdurrəhman Abdurəhmanov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qafqaz xalqları tarixi" kafedrasının II kurs magistrantı
abdurehmanov099@gmail.com
Elmi rəhbər: dosent Samir Baxşəliyev

Açar sözlər: *COP29, iqlim dəyişmələri, ekoloji əməkdaşlıq, diplomatik əhəmiyyət, Türk Dövlətləri Təşkilatı, yaşıl keçid*
Keywords: *COP29, climate change, ecological cooperation, diplomatic significance, Organization of Turkic States, green transition*

2024-cü il noyabrın 11-24-də Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Azərbaycanın ev sahibliyi ilə regionun tarixində ilk belə qlobal tədbir olmuşdur [1]. Bu, Cənubi Qafqaz və Türk dünyası ölkələri üçün ekoloji və diplomatik baxımdan müstəsna əhəmiyyətə malikdir. COP29 "Maliyyə COP-u" adlandırılmış, iqlim maliyyələşməsi, karbon bazarlarının operativləşdirilməsi və inkişaf etməkdə olan ölkələrə dəstək kimi prioritetlərə fokuslanmışdır. Azərbaycanın neft-qaz ölkəsi kimi qlobal iqlim proseslərində aktiv iştirakı "yaşıl keçid" strategiyasını ön plana çıxarmış, region ölkələrinə də nümunə olmuşdur [2]. Konfransın əsas nəticələrindən biri inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə 2035-ci ilədək ildə ən azı 300 milyard ABŞ dolları maliyyə ayırması bar

ədə yeni kollektiv kəmiyyətli hədəfin qəbul edilməsidir, lakin inkişaf etməkdə olan ölkələr bu məbləği kifayət qədər hesab etməmişlər [3].

Aktuallıq. İqlim dəyişmələri Qafqaz və Türk dünyasına birbaşa təsir edir: Qafqazda buzlaqların əriməsi su qıtlığına, Mərkəzi Asiyada quraqlıq və Aral dənizinin fəlakətinə, Türkiyədə meşə yanğınlarına səbəb olur. İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (IPCC) hesabatlarına əsasən, region ən həssas zonalar sırasındadır. COP29-un Bakıda keçirilməsi regionun problemlərini qlobal səviyyədə gündəmə gətirmiş, Qafqaz və Türk dövlətlərinin birgə səsini gücləndirmişdir. Azərbaycanın Xəzər hövzəsində yerləşməsi iqlim dəyişmələrinin su ehtiyatları, biomüxtəliflik və enerji sektoruna təsirini ön plana çıxarmış, region ölkələri üçün birgə həllər axtarışına stimul vermişdir.

Ekoloji əhəmiyyəti. COP29-un əsas nəticələrindən biri yeni kollektiv kəmiyyətli maliyyə hədəfinin müəyyənləşdirilməsidir – inkişaf etmiş ölkələr 2035-ci ilədək inkişaf etməkdə olan ölkələrə ildə ən azı 300 milyard ABŞ dolları maliyyə ayrılacaq. Bu, Qazaxıstan, Özbəkistan, Türkmənistan kimi Türk dövlətləri üçün yaşıl enerji layihələrin maliyyələşdirilməsində önəmlidir. Karbon bazarlarının (Paris Sazişinin 6-cı maddəsi) operativləşdirilməsi regionda emissiyaların azaldılmasına stimul verəcək; Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji zonası" yaratma planları nümunədir.[4] Bundan əlavə, konfransda qida, meşələr, torpaq və təbiət sahələrində yeni öhdəliklər qəbul edilmiş, lakin əhəmiyyətli irəliləyiş olmamışdır [3].

Türk Dövlətləri Təşkilatı (TDT) COP29 çərçivəsində Ekologiya Nazirlərinin Deklarasiyasını qəbul etmişdir [7]. Bu, Türk dünyasının birgə iqlim siyasətini formalaşdırır və iqlimə davamlı kəndlər forumunun yaradılması kimi təşəbbüsləri əhatə edir. Qafqaz regionunda isə "İki böhran – bir həll: Qafqazda biomüxtəliflik və iqlim əlaqəsi" tədbiri keçirilmiş, Gürcüstan və Azərbaycanın birgə layihələri müzakirə olunmuşdur. Ermənistanın boykotuna baxmayaraq, Azərbaycan "Sülh COP-u" təşəbbüsü ilə regionda əməkdaşlıq üçün platforma yaratmış, müharibənin ekoloji nəticələrini (məsələn, minalanmış ərazilərin bərpası) qlobal gündəmə çıxarmışdır. Azərbaycanın ekoloji dayanıqlılıq hesabatına əsasən, konfrans ölkənin iqtisadi, sosial və ekoloji inkişafına uzunmüddətli təsir göstərmişdir [6].

Cədvəl 1: COP29-un əsas nəticələri və regiona təsiri[10]

Nəticə	Təsvir	Region təsiri
Maliyyə hədəfi	300 mlrd. USD illik (2035-ədək)	Türk ölkələrinə yaşıl layihələr üçün maliyyə
Karbon bazarları	Paris 6-cı maddənin operativləşdirilməsi	Emissiyaların azaldılması Qafqazda
Ekoloji deklarasiya	TDT nazirlərinin imzası	Birgə iqlim siyasəti Türk dünyasında
Sülh COP-u	Müharibənin ekoloji nəticələri	Qafqazda sülh və bərpa prosesləri

Diplomatik əhəmiyyəti. COP29 Azərbaycanın beynəlxalq nüfuzunu artırdı və Türk dünyasının lider dövlətlərindən biri kimi mövqeyini möhkəmlətdi. TDT çərçivəsində keçirilən qeyri-rəsmi zirvə görüşü Türk dövlətlərinin birliyini nümayiş etdirdi, Qarabağ Deklarasiyası (2024 iyul) COP29-u dəstəkləmişdir [5]. Azərbaycanın Qara dəniz vasitəsilə Mərkəzi Asiya ölkələrindən Avropaya yaşıl enerji ixracı layihələri (Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan kabeli) regionu enerji mərkəzinə çevirir və Cənubi Qafqazı qlobal enerji keçidində önə çıxarır [2].

Qafqazda isə COP29 post-müharibə dövründə sülh danışıqları üçün imkan yaratdı; Azərbaycanın ərazilərinin bərpası "yaşıl bərpa" prinsipi ilə aparılır və regionda dayanıqlı inkişaf modelini təklif edir. Bu, Türkiyə və Mərkəzi Asiya ölkələri ilə strateji tərəfdaşlığı gücləndirir, Xəzər hövzəsinin ekoloji problemlərini (su qıtlığı, çirklənmə) birgə həll etməyə yönəldir. Konfrans Azərbaycanı iqlim diplomatiyasının mərkəzinə çevirmiş, fossil yanacaq asılılığından yaşıl iqtisadiyyata keçidi region üçün nümunə etmişdir.

Tədqiqatda təklif olunur ki, TDT çərçivəsində "Türk Dünyası İqlim Platforması" yaradılsın – bu platforma regionun birgə Milli Müəyyən Edilmiş Töhfələrinin (NDC) hazırlanmasına xidmət etsin və iqlimə davamlı kəndlər forumunu genişləndirsin [9].

Nəticə olaraq COP29 region ölkələrinin qlobal iqlim proseslərində aktivliyini artırdı, yeni maliyyə mənbələri açdı və Türk birliyini möhkəmlətdi.[8] Azərbaycanın ev sahibliyi tarixi uğur kimi yadda qalacaq, lakin maliyyə hədəflərinin reallaşdırılması regionun gələcək inkişafı üçün açardır.

Ədəbiyyat siyahısı:

1. Azerbaijan's Baku at Center of World: COP29 Takes Stage.// Turkic World, 11.11.2024. https://turkic.world/en/articles/economy/299928

2. COP-29 and Azerbaijan. // Belfer Center, 04.11.2024. https://www.belfercenter.org/research-analysis/cop-29-and-azerbaijan

3. COP29 Azerbaijan: What's at stake at the 2024 global climate summit?. // Al Jazeera, 11.11.2024. https://www.aljazeera.com/news/2024/11/11/cop29-in-azerbaijan-whats-at-stake-at-the-2024-global-climate-summit

4. COP29 key outcomes for food, forests, land and nature at the UN climate talks in Baku. // Carbon Brief, 27.11.2024. https://www.carbonbrief.org/cop29-key-outcomes-for-food-forests-land-and-nature-at-the-un-climate-talks-in-baku/

5. Garabagh Declaration. // Organization of Turkic States, 06.07.2024. https://www.turkicstates.org/u/d/temel_belgeler/garabagh-declaration.pdf

6. In solidarity for a Green World - COP29 Azerbaijan Sustainability Report. // COP29.az, 28.09.2025. https://cop29.az/storage/2420/COP29_Sustainability-Report_ENG.pdf

7. OTS ministers approve Ecology Declaration at COP29 in Azerbaijan. // Qazinform, 14.11.2024. https://qazinform.com/news/ots-ministers-approve-ecology-declaration-at-cop29-in-azerbaijan-0f6ae9

8. The COP29 Legacy: Initiatives and Achievements Shaping Global Climate Goals. // Trends Research & Advisory, 17.12.2024. https://trendsresearch.org/insight/the-cop29-legacy-initiatives-and-achievements-shaping-global-climate-goals/

9. Turkic states step up climate action with new COP29 declaration. // Caliber.az, 14.11.2024. https://caliber.az/en/post/turkic-states-step-up-climate-action-with-new-cop29-declaration

10. What happened at COP29. // ECCO Climate, 10.01.2025. https://eccoclimate.org/what-happened-at-cop29-the-results-of-the-baku-conference-of-the-parties/

MÜASİR DÖVRDƏ ABŞ-NİN CƏNUBİ QAFQAZ SİYASƏTİNİN TÜRK DÜNYASINA TƏSİRİ

Səbuhi Kazımzadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qafqaz xalqları tarixi" kafedrasının II kurs magistrantı
sebu1796@gmail.com
Elmi rəhbər: t.e.d., professor Qabil Əliyev

Açar sözlər: *Türk dünyası, Cənubi Qafqaz, Mərkəzi Asiya, Enerji layihələri, TRIPP dəhlizi*
Keywords: *Turkic world, South Caucasus, Central Asia, Energy projects, TRIPP corridor*

Cənubi Qafqaz regionu tarixən böyük güclərin rəqabət meydanı olmuş, geosiyasi mövqeyi və enerji resurslarına çıxış imkanları ilə beynəlxalq münasibətlər sistemində xüsusi strateji əhəmiyyət qazanmışdır. Azərbaycan, Gürcüstan və Ermənistanın yerləşdiyi bu məkanda həm regional dövlətlər, həm də qlobal güclər arasında nüfuz mübarizəsi daim hiss olunur. Xüsusilə Rusiya və ABŞ kimi böyük aktorların burada yürütmüş olduqları siyasət, təkcə Cənubi Qafqazın təhlükəsizlik və inkişaf dinamikasına deyil, eyni zamanda geniş coğrafiyanı əhatə edən Türk dünyasının geosiyasi gələcəyinə birbaşa təsir edir. Türk dünyasında strateji mövqeyinə görə Azərbaycan, Cənubi Qafqazda baş verən bütün proseslərə - Türk dövlətlərinin inteqrasiyası, enerji siyasəti, regional əməkdaşlıq və təhlükəsizlik arxitekturasına ciddi şəkildə istiqamət verməkdədir. Rusiya Federasiyası postsovet məkanında hegemonluğunu qorumağa çalışan ənənəvi qüvvə kimi Cənubi Qafqazda öz mövqelərini genişləndirmək üçün siyasi, hərbi və iqtisadi alətlərdən aktiv şəkildə istifadə edir. Moskvanın "yaxın xarici" konsepsiyası çərçivəsində regiona yanaşması, Cənubi Qafqazı nəzarət zonasının ayrılmaz hissəsi kimi qəbul etməsi, Türk dünyasının birləşdirici layihələrinin xüsusilə nəqliyyat dəhlizlərinin, enerji əməkdaşlığının və təhlükəsizlik strukturlarının inkişafını müəyyən dərəcədə məhdudlaşdırır. Rusiya Ermənistanla müttəfiqlik münasibətləri, Azərbaycan üzərində geosiyasi təsir vasitələri, eləcə də Şimali Qafqaz faktorundan istifadə etməklə bölgədə güc balansını öz xeyrinə yönləndirməyə çalışır. Bütün bunları nəzərə alaraq Rusiyanın Cənubi Qafqaz və Mərkəzi Asiyanın Türk dövlətləri üzərində siyasətini neytrallaşdırmaq üçün Cənubi Qafqaz regionunun və Mərkəzi Asiya Türk dövlətlərinin bir-birləri ilə və ABŞ ilə əlaqələrinin inkişaf etdirmələri olduqca vacibdir. ABŞ-nin Cənubi Qafqazdakı siyasəti daha çox enerji təhlükəsizliyi, demokratik idarəetmə və regional inteqrasiyanın təşviqi prinsiplərinə əsaslanır. Vaşinqton bu regionu Rusiya təsirinin balanslaşdırılması üçün mühüm geosiyasi məkan kimi qiymətləndirir. Xəzər hövzəsi enerji resurslarının Avropa bazarlarına çıxışında ABŞ-nin dəstəklədiyi layihələr xüsusən Bakı–Tbilisi–Ceyhan və Cənub Qaz Dəhlizi Azərbaycan və Türkiyənin regional çəkisini artırmaqla Türk dünyası üçün strateji üstünlüklər yaratmışdır. Türk dünyasının Avrasiya məkanında artan rolunu nəzərə aldıqda, Cənubi Qafqazda böyük güclərin qarşıdurmasının yaratdığı

nəticələri sistemli şəkildə təhlil etmək elmi-praktik baxımdan xüsusi əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən, mövcud araşdırma ABŞ-nin Cənubi Qafqazdakı fəaliyyət istiqamətlərini, onların Türk dünyasına inteqrasiya perspektivlərinə olan təsirlərini və regionun gələcək geosiyasi mənzərəsini kompleks şəkildə qiymətləndirməyi qarşıya məqsəd qoyur.

ABŞ-nin Cənubi Qafqazda enerji siyasəti: 1994-cü il sentyabrın 20-də Bakıda imzalanan "Əsrin müqaviləsi" ABŞ-nin Cənubi Qafqazda enerji siyasətinin əsasını qoydu. Bu müqavilə, Azərbaycanın Xəzər dənizindəki Azəri-Çıraq-Günəşli neft yatağının işlənməsini BP, SOCAR və digər beynəlxalq şirkətlərlə (Amoco, Unocal, Exxon Pennzoil və s.) birgə həyata keçirməyi nəzərdə tutmuş, ümumi investisiya 7,4 milyard dollar təşkil etmişdir [5]. Müqavilə, Türk dünyasına təsir olaraq, Azərbaycanı enerji ixracatçısı kimi gücləndirmiş, sonradan Mərkəzi Asiya ölkələri (məsələn, Qazaxıstanın Tengiz yatağı) üçün nümunə olmuşdur. 1998 - ci il 7-8 sentyabr Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmazına dair saziş və Bakı Bəyannaməsinin imzalanması Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması Xəzər dənizi və Mərkəzi Asiya regionundakı zəngin təbii ehtiyatların istismarı sahəsində beynəlxalq əməkdaşlığı inkişaf etdirmişdir. 1999 - cu il 24 apreldə Vaşinqtonda ABŞ Konqresində Qafqaz və Mərkəzi Asiya ölkələrinin dövlət başçılarının və xarici işlər nazirliklərinin iştirakıyla Böyük İpək Yolunun bərpasına həsr olunan qanun layihəsinin müzakirə olunması Heydər Əliyev və ABŞ Konqresinin üzvü Sem Braunbəkin təşəbbüsü ilə baş vermişdi. ABŞ-nin Bu cür iqtisadi layihələrə dəstək verməsi Türk dövlətlərinin dünya iqtisadiyyatına inteqrasiyası üçün böyük imkanlar yaratmışdır [1, s.485]. ABŞ regionun enerji resurslarını Rusiya asılılığından azad etmək və Avropaya alternativ yollar yaratmaq məqsədilə Cənubi Qafqazda enerji layihələrində strateji tərəfdaş kimi fəaliyyət göstərir. ABŞ Dövlət Departamentinin məlumatlarına görə, Azərbaycanın qaz ixracı Cənubi Qaz Dəhlizi vasitəsilə Avropa enerji təhlükəsizliyini təmin edir və Rusiyanın regiona təsirini azaldır [9]. ABŞ BTC boru kəmərinin inkişafını dəstəkləmiş, bu layihəni regionun iqtisadi böyüməsi üçün vacib hesab etmişdir, çünki o, Xəzər dənizinin enerji resurslarını Türkiyə vasitəsilə dünya bazarına çıxarır. Bu layihələr Türk dünyasına iqtisadi inteqrasiya baxımından mühüm təsirlər göstərmişdir. Cənubi Qafqaz Qaz Boru Kəməri (SCP) Şah Dəniz-2 yatağından qazı Türkiyə sərhədinə çatdırır, bu da Türk dünyasının enerji resurslarını Mərkəzi Asiyadan Avropaya çıxararaq, Rusiya asılılığını azaldır və Türk Dövlətləri Təşkilatının (OTS) iqtisadi birliyini gücləndirir. Dünya Bankının hesabatlarında TANAP layihəsinin Cənubi Qaz Dəhlizinin bir hissəsi kimi Türk dövlətlərinin qlobal enerji bazarındakı rolunu artırdığı qeyd olunur [6].

TRIPP dəhlizi: Ümumilikdə, ABŞ-nin Cənubi Qafqazda apardığı siyasət regionu mühüm enerji və nəqliyyat qovşağına çevirib. Bu proses, bir tərəfdən, Türk dövlətləri arasında inteqrasiyanı gücləndirib, onları daha müstəqil regional aktora çevirib; digər tərəfdən isə bölgədə böyük güclər arasında davamlı rəqabət mühiti yaradıb [8]. Xüsusilə Kreml Azərbaycan–Ermənistan müharibəsindən sonra regi-

onda yaranmış real vəziyyəti nəzərə alaraq Zəngəzur dəhlizinin nəzarəti özündə olmaqla açılmasını və marşrut boyunca sərhəd və gömrük yoxlamalarının aparılmasını müdafiə edirdi. Rusiya regionda nəqliyyat dəhlizləri üzrə danışıqlar üçün 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixlərində imzalanmış üçtərəfli bəyanatlara əsaslanırdı. Lakin ABŞ TRIPP dəhlizi təşəbbüsü ilə Rusiyanın Zəngəzur dəhlizinə nəzarət planlarını qüvvədən salmış oldu [2, s.31]. TRIPP (Trump Route for International Peace and Prosperity), yəni Zəngəzur dəhlizi Türk dünyası üçün strateji olaraq çox böyük əhəmiyyət kəsb edir. Bu marşrut Cənubi Qafqazda Azərbaycanı Naxçıvanla birləşdirir və beləliklə, Mərkəzi Asiya Türk ölkələrindən Türkiyəyə və daha geniş Avropa bazarlarına çıxışı asanlaşdırır. Bu dəhliz iqtisadi səmərəliliyi artıraraq nəqliyyat xərclərini azalda bilər; energetik layihələr (neft, qaz), kommunikasiya xətləri (fiber-optik) kimi infrastruktur elementlərini özündə birləşdirəcəyi planlaşdırılır. TRIPP həm də geosiyasi rol oynayır: ənənəvi Rusiya və İran marşrutlarından asılılığı azaldaraq, Türk dünyasının Avrasiya məkanda koordinasiyasını gücləndirə bilər. Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanychbek Omuraliyev hesab edir ki, TRIPP Orta Dəhliz layihəsi ilə tamamlayıcıdır və Türk regionunda logistika əməkdaşlığını yeni səviyyəyə çıxardacaq. Prezident İlham Əliyev də Zəngəzur koridorunun "Türk dünyasını bir-birinə bağlayacaq" bir layihə olduğunu vurğulayıb. Avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan Vaşinqtonda üçtərəfli görüş keçirərək "Birgə Bəyannamə" imzalayıblar [3]. Bu bəyannamə ABŞ-nin Azərbaycan və Ermənistan siyasətində böyük əhəmiyyət kəsb edir və TRIPP dəhlizinin yaradılmasını nəzərdə tutur. Bəyannamə həmçinin keçmiş münaqişənin bitdiyini, sərhədlərin toxunulmazlığını və qisas cəhdlərinin rədd edildiyini vurğulayır. TRIPP layihəsi ABŞ Prezidenti Donald Tramp tərəfindən irəli sürülmüş bir təşəbbüsdür və əsasən Zəngəzur dəhlizinin Ermənistan ərazisindən keçən hissəsini əhatə edir. Layihənin əsas məqsədi Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək, regionda sülhü möhkəmləndirmək, iqtisadi inkişafı stimullaşdırmaq və Asiya ilə Avropa arasında yeni ticarət yolları yaratmaqdır. Bu layihə ümumi daxili məhsulu (ÜDM) 1 trilyon ABŞ dollarından çox olan dövlətlər arasında ortaq yol yaradır. Layihə Mərkəzi Asiya, Cənubi Qafqaz və Avropa arasında yeni iqtisadi əlaqələr formalaşdırır, yüklərin daşınmasını asanlaşdırır və regionun iqtisadi inkişafını stimullaşdırır. Məsələn, TRIPP Orta Dəhlizin gücünü iki dəfə artıra bilər, Türkiyə vasitəsilə Aralıq dənizinə çıxış təmin edərək Türk dövlətlərinin qlobal ticarətdə rolunu gücləndirir. Bu, enerji resurslarının (neft, qaz) və digər malların daşınmasını sürətləndirir, illik 15 milyon ton yük dövriyyəsi potensialı yaradır [7]. Noyabrın 6-da Vaşinqtonda ABŞ Prezidenti ilə Mərkəzi Asiya ölkələrinin (Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistan) liderləri arasında 5+1 formatında görüş keçirilib. Mərkəzi Asiya ölkələrinin nadir torpaq metalları və enerji resursları Orta Dəhlizin, eyni zamanda Cənubi Qafqazın strateji əhəmiyyətini artırır. ABŞ bu resurslara çıxış əldə etmək üçün region dövlətləri ilə əməkdaşlığı gücləndirir və Mərkəzi Asiya-

dan Yaxın Şərqə və Avropaya uzanan nəqliyyatın əsas hissəsinin Cənubi Qafqaz üzərindən keçəcəyini önə çəkir. Qazaxıstan və Özbəkistan kimi ölkələr isə Çin və Rusiyanın təsirini balanslaşdırmaq üçün Vaşinqtonla əməkdaşlığı dərinləşdirərək resurslarını Orta Dəhliz və Cənubi Qafqaz marşrutu ilə ixrac etməyə çalışırlar. Beləliklə, Cənubi Qafqaz Mərkəzi Asiyanın strateji metalları və enerji ehtiyatlarının qlobal bazara çıxışında əsas tranzit mərkəzi kimi ön plana çıxır [4]. TRIPP Türk dünyasının bir mərkəz kimi çıxış etməsini təmin edir, Azərbaycanı Avrasiya nəqliyyatının mərkəzinə çevirir və "Böyük Türk Dönəmi"nin başlanğıcını simvolizə edir. Ümumilikdə, TRIPP layihəsi Türk dünyasını daha inteqrasiya olunmuş bir məkana çevirərək iqtisadi rifahı, mədəni əlaqələri və qlobal mövqeyini yüksəldir, xüsusilə Mərkəzi Asiya ölkələri üçün yeni imkanlar yaradır [10].

Müasir dövrdə Rusiya və ABŞ-nin Cənubi Qafqaz siyasəti yalnız regional siyasi balansın müəyyənləşdirilməsində deyil, həm də Türk dünyasının geosiyasi gələcəyinin formalaşmasında həlledici rol oynayır. Bu iki qlobal aktorun bölgədə yeritdiyi fərqli strateji yanaşmalar, Türk dövlətlərinin inteqrasiya səylərinə, enerji təhlükəsizliyinə, regional əməkdaşlıq layihələrinə və kommunikasiya infrastrukturunun inkişafına birbaşa və dolayı təsirlər göstərir. Rusiya öz "yaxın xarici" konsepsiyası çərçivəsində Cənubi Qafqazı təsir dairəsinin ayrılmaz elementi kimi qəbul edir və siyasi, hərbi, iqtisadi vasitələrlə bu mövqeyini qorumağa çalışır. Moskvanın təhlükəsizlik yönlü siyasəti, Ermənistanla müttəfiqlik münasibətləri, regiondakı hərbi mövcudluğu və enerji asılılığı yaratmaq strategiyası Türk dövlətlərinin inteqrasiya imkanlarını zaman-zaman məhdudlaşdırır. Bu amillər Cənubi Qafqaz üzərindən Türk dünyasının birləşdirici layihələrinin həyata keçirilməsində gecikmələr və əlavə təhlükəsizlik riskləri yaradır. Digər tərəfdən, ABŞ-nin regiona yanaşması daha çox enerji təhlükəsizliyi, nəqliyyat marşrutlarının inkişaf etdirilməsi, Qərbə inteqrasiya və demokratik institutların gücləndirilməsi kimi prioritetlərə əsaslanır. Vaşinqtonun dəstəklədiyi enerji və nəqliyyat xətləri BTC, BTƏ, BTQ və Cənub Qaz Dəhlizi kimi layihələr Türk dövlətləri arasında iqtisadi və geostrateji bağları möhkəmləndirən mühüm faktor kimi çıxış edir. Bununla belə, bölgədə böyük güclər arasında rəqabətin artması Türk dövlətlərinin strateji birliyini zəruri edir. Bu baxımdan Türk Dövlətləri Təşkilatının, həmçinin çoxtərəfli Türk qurumlarının rolu gələcək dövrdə daha da yüksələcək. Beləliklə, müasir dövrdə Cənubi Qafqaz və Türk dünyası üçün yaranan geosiyasi reallıqlar göstərir ki, Türk dövlətlərinin uzunmüddətli maraqları yalnız regional əməkdaşlığın dərinləşdirilməsi, strateji layihələrin təhlükəsizliyinin təmin edilməsi və müstəqil xarici siyasətin qorunması ilə təmin oluna bilər. Bu kontekstdə Türk dünyasının qarşıdakı dövrdə artan əməkdaşlığı, regiondakı böyük güclərin təsir balansını daha dayanıqlı şəkildə formalaşdırmaq üçün əsas faktora çevrilməkdədir.

Ədəbiyyat siyahısı:

1. Hüseynova İ., Heydər Əliyev və Qafqazda Sülh Prosesi, Bakı, Çaşıoğlu, 2008, 672 s.
2. Əliyev Q.Ə., Zəngəzur Dəhlizi: Tarix və Müasirlik // 2. Zəngəzur Beynəlxalq Elmi Konfransı: Tam mətnli materiallar kitabı. İstanbul : Yönetim Yayınları, 2023, 245 s.

3. Prezident İlham Əliyev təkcə müharibənin qalibi deyil, həm də sülhün müəllifidir – şərh https://azertag.az/xeber/prezident_ilham_aliyev_tekce_muharibenin_qalibi_deyil_hem_de_sulh_un_muellifidir____serh-3695983 [11.08.2025].
4. Baku post. Tramp türk ölkələri ilə saziş imzaladı: yeni neft hansı metaldır? https://www.bakupost.az/tramp-turk-olkeleri-ile-sazis-imzaladi-yeni-neft-hansi-metaldir [07.11.2025].
5. Energy Trade – CAREC Programme (Session 7-1 təqdimatı) https://www.carecprogram.org/uploads/2014-Energy-Trade-Pres-Session7-1.pdf [May 2014].
6. SOCAR – South Caucasus Gas Pipeline (EBRD Project Summary) https://www.ebrd.com/home/work-with-us/projects/psd/27637.html
7. TRIPP layihəsi mütləq reallaşdırılacaq – İlham Əliyev https://milliinfo.az/siyaset/23967-tripp-layihsi-mtlq-realladrlacaq-ilham-liyev.html [21.10.2025].
8. ICS EUR Azerbaijan – Public Version (U.S. State Department) https://www.state.gov/wp content/uploads/2022/06/ICS_EUR_Azerbaijan_Public.pdf [iyun 2022].
9. Key Topics – Bureau of South and Central Asian Affairs https://www.state.gov/key-topics-bureau-of-south-and-central-asian-affairs
10. President: Turkic world experiencing renewed growth https://turkic.world/en/articles/world_news/435124 [07.11.2025].

SOVET HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN NEFTİNİN İQTİSADİ VƏ STRATEJİ ROLU (1920-1922-ci illər)

Bənövşə Ramazanova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasının II kurs magistrantı
mrs.benovse01@icloud.com
Elmi rəhbər: professor Elmira Muradəliyeva

Açar sözlər: *Azərbaycan nefti, Sovet hakimiyyəti, Bakı nefti, neft istehsalı, enerji mərkəzi*
Keywords: *Azerbaijani oil, Soviet authority, Baku oil, oil production, energy center*

1920-ci illərin əvvəlləri Azərbaycan tarixində həm siyasi, həm də iqtisadi baxımdan kəskin dönüş mərhələsi kimi qiymətləndirilir. Azərbaycan Cümhuriyyətinin süqutu və ölkənin XI Qırmızı Ordu tərəfindən işğalı ilə bölgədə yeni sovet idarəetmə modeli quruldu. Sovet hakimiyyətinin ilk hədəfi isə Azərbaycanın ən strateji sərvəti olan neft sənayesinin tam şəkildə dövlət nəzarətinə götürülməsi oldu. Bu proses təkcə iqtisadi baxımdan deyil, həm də Rusiya–İran və Rusiya–Türkiyə arasındakı tarixi sərhədlərin yenidən təsis olunması kimi qiymətləndirilirdi [3, s.91].

XX əsrin əvvəllərindən etibarən Bakı dünyanın ən böyük sənaye neft mərkəzlərindən biri idi və qlobal enerji bazarında xüsusi rol oynayırdı. Nobel və Rotşild kimi iri şirkətlərin fəaliyyət göstərdiyi Bakı neft sənayesi həm Qafqazın iqtisadi həyatında, həm də Rusiya və Avropanın sənaye modernləşməsində mühüm yer tuturdu.

1920–1922-ci illərdə Sovet hakimiyyəti Azərbaycan neftinin idarəetmə strukturunu köklü şəkildə dəyişdirdi: mədənlər, emal zavodları, nəqliyyat şəbəkələri tamamilə milliləşdirildi, may ayında "Azneft" tresti yaradıldı və bütün neft hasilatı

birbaşa Moskvanın iqtisadi planlaşdırma sisteminə bağlandı. Bu dövr həm də neft sənayesində böhran, istehsalın tənəzzülü, kadr çatışmazlığı, infrastruktural dağılma kimi problemlərlə xarakterizə olunur. Eyni zamanda Sovet Rusiyasının vətəndaş müharibəsindən sonra ağır enerji qıtlığı yaşaması Azərbaycan neftinə daha böyük strateji əhəmiyyət qazandırmışdı.

Bu dövrün araşdırılması yalnız Azərbaycan tarixi üçün deyil, həm də bütün Türk dünyasının iqtisadi və siyasi modernləşmə proseslərini anlamaq baxımından mühüm əhəmiyyət daşıyır, çünki Bakı nefti XX əsrin əvvəllərində regiondakı türk xalqlarının sənaye inkişafını və geosiyasi yerləşməsini birbaşa təsirləndirən başlıca enerji qaynağı olmuşdur.

1920–1922-ci illərdə neft sənayesində böhran və istehsalın azalması. Sovetləşdirmədən sonra Azərbaycan neft sənayesi ciddi istehsal böhranı ilə üzləşdi. İlk olaraq, ölkəni tərk edən mühəndis və ixtisaslı neftçi kadrların itkisi hasilat prosesində ciddi eniş yaratdı. Bu kadr çatışmazlığı, xüsusilə Balaxanı, Suraxanı və Bibiheybət mədənlərində istehsalın azalmasına səbəb oldu.Eyni zamanda, birinci dünya müharibəsi və 1918–1920-ci illərdə baş verən siyasi qarışıqlıqlar avadanlıqların sıradan çıxmasına səbəb olmuşdu. İstehsal avadanlıqlarının və ehtiyat hissələrinin çatışmazlığı neft quyularının fəaliyyətini məhdudlaşdırdı və nəticədə hasilat əvvəlki illərlə müqayisədə xeyli azaldı. Bakı–Batum boru kəməri və dəmir yolu infrastrukturunun nasaz vəziyyətdə olması isə neftin daxili və xarici bazarlara daşınmasını çətinləşdirdi.

Bu dövrdə hasilatın azalması yalnız iqtisadi baxımdan deyil, həm də siyasi baxımdan Sovet hakimiyyəti üçün ciddi problemlər yaratdı. Neft istehsalının durğunluğu Sovet hökumətini nəticədə istehsalın bərpasına və mərkəzləşdirilmiş idarəetmənin təkmilləşdirilməsinə yönələn addımlar atmağa vadar etdi.

Qeyd etmək lazımdır ki, XX əsrin 20-ci illərinin əvvəllərində neft uğrunda mübarizənin təməlində 3 əsas səbəb dayanmışdı: dünya miqyasında neftə olan tələbatın güclənməsi; ABŞ-da neft ehtiyyaylarının azalması; neft krallarının daha çox varlanmaq məqsədilə yeni-yeni sahələrə sahib olmaq iddiaları [4, s.21].

Bərpa siyasəti və Azərbaycan neftinin Sovet iqtisadiyyatındakı rolu. 1921-ci ildə Yeni İqtisadi Siyasətin (NEP) tətbiqi Azərbaycan neft sənayesində bərpa prosesini sürətləndirdi. NEP çərçivəsində müəyyən özəl təşəbbüslərə icazə verildi, əməkhaqqı sistemi təkmilləşdirildi və ixtisaslı mütəxəssislərin bir qismi ölkəyə dəvət edildi. Bu tədbirlər nəticəsində 1922-ci ildən etibarən neft hasilatı əvvəlki illərlə müqayisədə xeyli artdı və Bakı nefti yenidən Sovet iqtisadiyyatının enerji mərkəzinə çevrildi.

Azərbaycan neftinin strateji əhəmiyyəti yalnız hasilat və iqtisadi gəlirlərlə ölçülmürdü. Neftin ixracı və daxili paylanması mərkəzləşdirilmiş şəkildə tənzimlənirdi ki, bu da Moskvanın sənaye müəssisələrinə davamlı enerji təminatı yaratmasına imkan verirdi. Azərbaycan nefti həmçinin Sovet hakimiyyətinin regiondakı mövqeyini gücləndirir, enerji siyasətinin mərkəzləşdirilmiş şəkildə həyata keçirilməsinə şərait yaradırdı.

Bu dövr göstərdi ki, Azərbaycan nefti yalnız iqtisadi resurs deyil, həm də Sovet Rusiyası üçün siyasi və strateji alət idi. Bərpa siyasəti və NEP tədbirləri nəticəsində hasilatın artması, işçi qüvvəsinin təşkili və mərkəzləşdirilmiş idarəetmənin tətbiqi Azərbaycan neft sənayesini Sovet İttifaqının strateji enerji mərkəzi səviyyəsinə çıxardı.

1921-ci ildə dünyada istahsal edilən neftin 61,9%-i Amerika Birləşmiş Ştatlarının, 25,6% Kanadanın payına düşürdüsə, Rusiyanın payına 3,7% düşürdü [2].

R.Berzin yazır ki, 1921-ci ildə dünyada 759 milyon barel neft istehsal edilmişdi. Neft istehsalı bu templə getsə, dünyanın neft ehtiyatları təxminən 40 ilə tükənəcəkdir.

1920–1922-ci illər Azərbaycan neft sənayesi üçün həlledici, dönüş nöqtəsi hesab olunan bir dövrdür. Bu illər ərzində neft yalnız iqtisadi resurs kimi önəmli olmamış, həm də Sovet hakimiyyəti üçün strateji və sosial alət funksiyasını daşımışdır. 1920-ci ilin aprelinə qədər Azərbaycan nefti milli sərvət kimi idarə olunurdu və hasilatın böyük hissəsi xarici kapital tərəfindən təşkil edilirdi. Sovet hakimiyyətinin qurulması ilə neft sənayesi dövlət nəzarətinə keçirildi, bu isə həm iqtisadi idarəetmədə vahid sistemin formalaşmasına, həm də gəlirlərin dövlət büdcəsinə yönəldilməsinə imkan yaratdı.

Hasilatın planlı idarə olunması nəticəsində Azərbaycan neftindən gələn gəlirlər iqtisadiyyatın müxtəlif sahələrinə yönləndirildi. Neft ixracı Sovet hökumətinə valyuta qazandırmaqla yanaşı, daxili sosial layihələrin maliyyələşdirilməsinə də şərait yaratdı. Həmin dövrdə işçilərin məşğulluğu, əmək şərtləri və sosial təminatı müəyyən standartlarla tənzimlənmiş, texniki biliklərin artırılması üçün kurslar təşkil edilmişdir. Bu addımlar işçi qüvvəsinin keyfiyyətini yüksəltməklə yanaşı, sosial rifahı təmin etməyə də xidmət edirdi.

Nəticə etibarilə, 1920–1922-ci illər Azərbaycan neft sənayesinin Sovet iqtisadi və sosial sisteminə inteqrasiya olunduğu, həmçinin gələcək modernləşmə və regional strateji əhəmiyyət baxımından təməl ilklərin qoyulduğu dövrdür. Neft bu illərdə iqtisadi gəlir mənbəyi, işçi məşğulluğunu təmin edən sektor, sosial rifah vasitəsi və Sovet hakimiyyəti üçün strateji alət funksiyasını daşıyaraq çoxşaxəli rol oynamışdır. Bu dövr Azərbaycan üçün yalnız sənaye inkişafı deyil, həm də dövlət idarəçiliyi və sosial siyasətin formalaşması baxımından kritik əhəmiyyət daşıyır.

Ədəbiyyat siyahısı:

1. Altstadt A. The Azerbaijani Oil Industry under Soviet Rule. Cambridge: Cambridge University Press, 1992, 334 p.

2. Берзин Р. И. Мировая борьба за нефть. Москва: Главное Управление по Топливу, 1922, 125 с.

3. Muradəliyeva E. Toprağın Kanı – Bakü Petrolünün Kısa tarihi. İstanbul: TEAS-PRESS, 2017, 177 s.

4. Səlimov Ş.Azərbaycan Nefti Beynəlxalq Münasibətlərdə (1920–1922-ci illər). Bakı: Bakı Universiteti Nəşriyyatı, 2005, 159 s.

5. Swietochowski T. Russia and Azerbaijan: A Borderland in Transition. Columbia: Columbia University Press, 1995, 290 p.

TÜRK DÜNYASINDA İNTEQRASİYANIN TARİXİ ƏSASLARI

Nüsrət Mirzəyev
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin
"Türk xalqları tarixi" kafedrasının II kurs magistrantı
nusretmirzeyev27@gmail.com
Elmi rəhbər: dosent Sənubər İsmayılova

***Açar sözlər**: inteqrasiya, türkdilli ölkələr, regional əməkdaşlıq, mədəni birlik, tarixilik prinsipi*
***Keywords**:integration, Turkic-speaking countries, regional cooperation, cultural unity, historical principle*

Müasir dünya nizamını və beynəlxalq münasibətlər sistemini inteqrasiya prosesləri olmadan təsəvvür etmək mümkün deyildir. Bu inteqrasiya prosesləri müxtəlif forma və miqyaslarda həyata keçirilir. Bu gün qlobal, regional və subregional inteqrasiya formaları mövcuddur ki, bunların ən geniş yayılmış forması regional inteqrasiyadır. Məqalədə bəhs olunan türk dünyası inteqrasiya prosesləri isə məhz regional inteqrasiyanın bir nümunəsi hesab edilir. Bu inteqrasiya prosesləri Avrasiyaya yayılan qədim türk xalqlarını özündə birləşdirir.İnteqrasiya proseslərinin əsas aktoru olan dövlət anlayışı və arqumenti türklər üçün yad anlayış deyildir. Metin Aydoğan qeyd edir ki: "Dünya tarixində türklər qədər çox və çeşidli dövlət qurmuş bir başqa millətin olmadığı artıq hər kəsin qəbul etdiyi yəqinləşmiş bir gerçəkdir. Hər dönəmdə və sürəkli biçimdə dünyanın çox geniş məkanlarına yayılan türklər yaşadıqları hər yerdə, böyüklü-kiçikli, təsirli-təsirsiz, qalıcı-keçici çox müxtəlif dövlətlər qurmuşlar ki, bununla da türk tarixi müəyyən bir anlamda dövlətquruculuğunun tarixi halına gəlmişdir."Hər bir inteqrasiyanın təməl şərtlərindən biri onun yaranmasını şərtləndirən amillərdir. Belə ki, inteqrasiyanın formalaşmasının bir neçə əsası ola bilir və bu inteqrasiyanın inkişafına təsir göstərə biləcək çoxçeşidli faktorlar mövcud olur. Nümunə olaraq zamanın tələbi, coğrafi amil, tarixi faktor və s. göstərilə bilər. Eyni köklü tarix, oxşar mədəniyyət və eyni qəlbli adət-ənənə türk xalqlarının inteqrasiyasını sürətləndirmişdir [2, s.113].

Türk dünyasında daxili inteqrasiya proseslərinin tarixi əsaslarına nəzər yetirsək görərik ki, bu ideyanın ilkin nüvələri 680–745-ci illərə aid Orxon–Yenisey yazılarında özünü göstərir. Göytürk abidələrində dövlətçilik, birlik və türk kimliyinin vahid strukturu geniş şəkildə ifadə olunmuşdur. Bilgə Kağanın çağırışında deyildiyi kimi: "Ey türk milləti, silkələn və özünə qayıt!" [1, s.32].

Orta əsrlər türk dünyasında daxili inteqrasiya prosesləri üçün mühüm nailiyyətlərin əldə olunduğu və əsas prinsiplərin formalaşdığı bir dövr kimi qiymətləndirilir. Bir çox tədqiqatçılar "Zəfərnamə" əsərinə istinad edərək Əmir Teymurun türk dünyasını birləşdirməyə yönəlmiş siyasəti və bu siyasətin həyata keçirilmə istiqamətləri barədə ətraflı məlumat əldə etmişlər. Məhz bu dövrdə türk dünyasının İslamla qarşılaşması baş verir. Qeyd olunduğu kimi, "türklərin qılıncı ilə ərəblərin ayinləri qovuşur". Cavanşir Feyziyevin "Türk dövlətləri birliyi" əsərində vurğu-

landığı kimi, türklər siyasi birlik mədəniyyətini İslamın müxtəlif qolları — sufilik, şiəlik, bəktəşilik kimi fərqli təriqətlər üzərində belə formalaşdırmağı bacarmışdır.

XIX əsr türk xalqları üçün ciddi dağınıqlıq dövrü olmuş, həmin mərhələdə inteqrasiya prinsipləri olduqca zəif şəkildə təzahür etmişdir. Bununla belə, bu dövrə qədər formalaşmış türkçülük ideyası artıq bir neçə istiqamətdə mövcud idi. Həmin mərhələdə siyasi türkçülük, mədəni türkçülük və ideoloji türkçülük kimi tendensiyalar meydana çıxmışdır. Bu istiqamətlərin mahiyyəti haqqında böyük mütəfəkkir Yusuf Akçura "Türkçülüyün tarixi" adlı klassik və fundamental əsərində geniş izah vermişdir. 1928-ci ildə çap olunan bu əsərdə türk xalqlarının keçdiyi tarixi və ideoloji inkişaf yolu, onların dünya tarixinə bəxş etdiyi böyük şəxsiyyətlər və bu tarixçənin zəngin çalarları əhatəli şəkildə təhlil edilmişdir [2, s.176].

Türk dünyası inteqrasiyasının tarixi əsaslarına nəzər yetirdiyimiz zaman, biz 19-cu əsrin sonu və 20-ci əsrin əvvəllərində türk dünyasının böyük şəxsiyyətlərinin fikirləri ilə yaxından tanış olmalıyıq. Həmin dövrdə böyük türk mütəfəkkirlərinin idealları və düşüncələri türk dünyasında gedən və gələcəkdə gedəcək inteqrasiyanın ideologiyasını və ideoloji bazasını formalaşdırmışdır. Bu xüsusda Ziya Gökalp, Yusuf Akçura, İsmayıl bəy Qaspralı, Əli bəy Hüseynzadə, Əhməd Ağaoğlu kimi şəxsiyyətləri və onların fikirlərini qeyd edə bilərik.

Türk dünyası inteqrasiya proseslərinin tarixi əsaslarına nəzər yetirdikdə ən aparıcı və fundamental mərhələnin heç şübhəsiz keçən əsrin sonlarından başladığını görürük. Bu elə bir dövr idi ki, SSRİ süqut etmiş, SSRİ tərkibində yaşamış türk xalqları müstəqillik qazanmışdı. 30–31 oktyabr 1992-ci ildə türk dövlət başçılarının Ankarada ilk zirvə görüşü keçirilir [3, s.344]. Bundan sonra da silsilə şəkildə bu qurultaylar türk coğrafiyasının müxtəlif şəhərlərində təşkil olunur.

Həmin dönəmdə Türkiyənin siyasi rəhbərliyi — Turqut Özal və Süleyman Dəmirəl — türk dünyasında gedən inteqrasiya proseslərinə xüsusi diqqət göstərirdi və həmçinin Azərbaycanda isə rəhbərlikdə olan Əbülfəz Elçibəyin türkçülüyü dövlətin xarici siyasət strategiyasının əsas istiqamətlərindən birinə çevirmək istiqamətində addımlar atırdı. Eyni zamanda SSRİ-nin süqutu və yaranan münbit şərait türk dünyasında inteqrasiya proseslərinin genişlənməsinə səbəb olmuşdur.Sonrakı illərdə də inteqrasiya sahəsində görülən işlər və əldə edilən uğurlar nəticəsində bir sıra önəmli institutlar yaranmışdır: Türk Dövlətləri Təşkilatı (TDT), TürkPA – Türkdilli Ölkələrin Parlament Assambleyası, TÜRKSOY – Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı,TÜRKAK – Türk Akademiyası (Astana),Türk Mədəniyyəti və İrsi Fondu, Türk İnvestisiya Fondu,Türk Biznes Şurası, Türk Diaspor Təşkilatları Birliyi (formalaşma prosesində), Türk Ticarət və Sənaye Palatası,Türk Kargo Alyansı, Orta Dəhliz üzrə Birgə Koordinasiya Mərkəzi (TDT çərçivəsində),Xoca Əhməd Yəsəvi Beynəlxalq Türk–Qazax Universiteti, Manas Universiteti (Qırğızıstan–Türkiyə), Türk Universitetlər Birliyi və s. [6, s.12].

Bu inteqrasiya institutlarının yaradılması türk dünyasında əməkdaşlığın təşkilati əsaslarını daha da gücləndirmişdir. Türk dünyasında formalaşan inteqrasiya birlikləri və institutları müxtəlif istiqamətlər üzrə inkişaf edir və bu proses davam et-

məkdədir. Bu inkişafın əsas səbəbi ondan ibarətdir ki, türk dünyasının daxili inteqrasiya ənənələri dərin tarixi köklərə, zəngin siyasi və mədəni təməllərə, həmçinin çoxşaxəli əməkdaşlıq istiqamətlərinə malikdir. Tarix boyunca türk xalqları arasında yaranmış siyasi birlik nümunələri, ortaq mədəni dəyərlər, dil yaxınlığı, coğrafi bağlar və iqtisadi əməkdaşlıq imkanları müasir inteqrasiya strukturlarının formalaşmasına güclü ideoloji və institusional əsas yaratmışdır. Məhz bu zəmin üzərində günümüzdə müxtəlif sahələri — siyasət, mədəniyyət, təhsil, iqtisadiyyat, təhlükəsizlik və nəqliyyat kimi istiqamətləri — əhatə edən çoxsəviyyəli inteqrasiya institutları meydana çıxmışdır.

Qeyd etməliyik ki, tarix boyu və tarixin hər bir mərhələsində türk dünyasında gedən inteqrasiya proseslərinə kənar müdaxilələr və birmənalı olmayan yanaşmalar mövcud olmuşdur. Bu isə inteqrasiya proseslərinin inkişafına daim ciddi təsir göstərmişdir. Rusiya faktorundan kənar, türk dünyası inteqrasiyasına təsir edən xarici müdaxilələr də prosesin mürəkkəbləşməsinə səbəb olur. Xüsusilə Çin Orta Asiya ölkələrinə genişmiqyaslı investisiyalar yatırmaqla iqtisadi asılılıq yaradır və bu, həmin dövlətlərin qərarvermə müstəqilliyinə təsir göstərə bilir. ABŞ və Qərb dövlətləri isə bölgədə enerji marşrutları, təhlükəsizlik əməkdaşlığı və siyasi islahatlarla bağlı öz maraqlarını irəli sürür, bu da türkdilli ölkələri bəzən müxtəlif geosiyasi vektorlar arasında seçim etməyə məcbur edir. İran və Avropa İttifaqı kimi aktorların regional iqtisadi və siyasi gündəmləri də inteqrasiya prosesinə dolayı təzyiq yaradır. Xarici güclərin bu paralel maraqları türk dövlətlərinin vahid mövqedən çıxış etməsini çətinləşdirir və inteqrasiyanın daha ehtiyatlı şəkildə inkişaf etməsinə səbəb olur [4, s.12].

Qədim siyasi ənənələrə sahib türk xalqlarının inteqrasiya proseslərinə nəzər yetirdikdə onların çoxvektorlu və çoxistiqamətli inteqrasiyanın güclü tarixi təməllərini görmüş oluruq [5, s.513]. Türk coğrafiyasını əhatə edən bu regional inteqrasiya, tarixilik prinsiplərinə söykənməklə yanaşı, çağdaş dünya nizamının argumentləri, həmçinin gələcək üçün proqnoz və hədəfləri özündə birləşdirən uğurlu bir konsepsiya irəli sürmüşdür.İnteqrasiya birliklərinin və təşkilatlarının yaradılması, ikitərəfli və çoxtərəfli münasibətlərin gedişatı, aktorların inteqrasiyanı inkişaf etdirəcək fəaliyyəti bu gün onun tarixi təməllərini daha da möhkəmləndirməkdədir.

Ədəbiyyat siyahısı:

1. Balcı A. Türk Devletleri Teşkilatı ve Türk Dünyasının Geleceği. Ankara: SETA Yayınları, 2022, 270 s.

2. Əhmədov H. Türk dünyası və inteqrasiya prosesləri. Bakı: Şərq–Qərb Nəşriyyatı, 2010, 240 s.

3. Kemal Anadol. Orta Asya türk devletleri tarihi. İstanbul: KAMER Yayınları, 1996, 464 s.

4.Robins P. Turkey and the Turkic States: Cooperation or Competition? Routledge Publishing House, 2000. p. 167

5.Turkic Council. Turkic World Vision - 2040. Retrieved from https://www.turkkon.org2021 Şərq-Qərb, 2007, 536 s.

6. Yesevi A. Türk Dünyasında Kimlik ve İnteqrasiya Problemleri. Türk Akademiyası Nəşriyyatı. 2021, 100 s.

CƏNUBİ QAFQAZDA GEOSİYASİ RƏQABƏT KONTEKSTİNDƏ GÜRCÜSTAN VƏ TÜRK DÜNYASI

Lətif Abdullayev
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qafqaz xalqları tarixi" kafedrasının II kurs magistrantı
letifabdullayev03@icloud.com
Elmi rəhbər: dosent Aynur Hüseynova

Açar sözlər: *Gürcüstan, Türk dünyası, Cənubi Qafqaz, Türkiyə, Azərbaycan, əməkdaşlıq*
Keywords: *Georgia, Turkish world, South Caucasus, Turkey, Azerbaijan, collaboration*

Cənubi Qafqaz regionu tarixən imperiyalararası rəqabətin kəsişdiyi geosiyasi məkan kimi səciyyələnmişdir. XXI əsrin əvvəllərindən etibarən isə regionda ABŞ, Avropa İttifaqı (Aİ), Rusiya, Türkiyə və Çin kimi aktorların maraqlarının toqquşması müşahidə olunur. Gürcüstan bu rəqabət mühitində Qara dənizə çıxışa malik yeganə sabit tranzit ölkə kimi həm enerji, həm təhlükəsizlik, həm də nəqliyyat layihələrinin mərkəzində dayanır. Regionda Azərbaycanın enerji resursları və onun üzərindən keçən kəmərlər, Ermənistanın Rusiya ilə hərbi-siyasi ittifaqı, Gürcüstanın Qərbə inteqrasiya xətti və burada Türkiyənin artan təsiri bir-biri ilə sıx bağlı proseslərdir. Türkiyə–Gürcüstan münasibətləri postsovet dövründə sürətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə çatmış, bu tərəfdaşlıq regionun enerji xəritəsinin, təhlükəsizlik arxitekturasının və iqtisadi inteqrasiyasının formalaşmasına birbaşa təsir göstərmişdir. Digər tərəfdən, türk dünyası çərçivəsində inteqrasiya təşəbbüsləri – xüsusilə Türk Dövlətləri Təşkilatının (TDT) yaranması və genişlənməsi – Gürcüstanın regional siyasətində yeni perspektivlər açmışdır. Gürcüstanın türk dünyası ilə əlaqələri, əsasən, Azərbaycan və Türkiyə vasitəsilə qurulduğu üçün bu kontekst həm geosiyasi, həm də geo-iqtisadi baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu tezisdə Gürcüstanın Cənubi Qafqazdakı geosiyasi mövqeyi, Türkiyə ilə qarşılıqlı əlaqələrinin tarixi və müasir dinamikası, habelə türk dünyasının regiondakı artan təsiri elmi təhlil predmetinə çevrilir.

Sovet İttifaqının dağılması ilə Cənubi Qafqazda yaranmış geosiyasi boşluq region ölkələrini öz təhlükəsizlik modellərini yenidən formalaşdırmağa məcbur etdi. Gürcüstan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra həm daxili etnik separatizm (Abxaziya və Cənubi Osetiya), həm də xarici təhdidlər fonunda ciddi təhlükəsizlik çağırışları ilə üzləşdi. 1990-cı illərin əvvəllərində Rusiya Federasiyasının regiondakı hərbi-siyasi təsiri Gürcüstanın qərbyönlü kursunu xeyli məhdudlaşdırsa da, 2003-cü il Qızılgül inqilabından sonra ölkənin xarici siyasətində radikal dönüş yaşandı və Avro-Atlantik inteqrasiya strateji prioritet elan olundu [3, s.112].

Bu dəyişiklik Gürcüstan–Türkiyə münasibətlərində də yeni mərhələ açdı. Əslində, Ankara Tbilisini hələ 1991-ci ildə müstəqilliyini tanıyan ilk dövlətlərdən biri kimi dəstəkləmişdi. Lakin 2000-ci illərin əvvəllərindən etibarən əməkdaşlıq dərinləşərək enerji və nəqliyyat layihələri vasitəsilə institusional xarakter aldı. 1990-

cı illərin sonlarında imzalanmış Bakı–Tbilisi–Ceyhan (BTC) neft kəməri və Bakı–Tbilisi–Ərzurum (BTƏ) qaz kəməri Gürcüstanın tranzit ölkə kimi geosiyasi çəkisini xeyli artırdı. Bu layihələr həm Rusiya enerji monopoliyasına alternativ yaratdı, həm də Gürcüstanın Qara dənizə çıxış imkanlarını genişləndirdi [2, s.221].

Türkiyə bu prosesdə təkcə iqtisadi aktor kimi deyil, həm də regional təhlükəsizlik memarı qismində çıxış edirdi. 2008-ci il Rusiya–Gürcüstan müharibəsindən sonra Gürcüstanın ərazi bütövlüyünün dəstəklənməsi Türkiyə diplomatiyasının əsas xəttinə çevrildi. Ankara Gürcüstanın NATO ilə əməkdaşlığını açıq şəkildə dəstəkləyən regiondakı yeganə dövlət oldu. Bu, həm də Qara dəniz regionunda NATO-nun şərq cinahının güclənməsi baxımından vacib idi [1, s.94].

Türkiyə–Gürcüstan münasibətlərini gücləndirən digər mühüm amil Azərbaycanla olan üçtərəfli əməkdaşlıq formatıdır. 2012-ci ildən etibarən Azərbaycan–Gürcüstan–Türkiyə üçtərəfli müdafiə nazirləri görüşləri və hərbi təlimləri regionda təhlükəsizliyin kollektiv şəkildə təmin edilməsinə xidmət edir. Bu model Gürcüstanın NATO-ya tamhüquqlu üzv olmadan da Qərb təhlükəsizlik məkanına faktiki inteqrasiyasını sürətləndirir. Bununla yanaşı, 2017-ci ildə istifadəyə verilmiş Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xətti Gürcüstanı Avrasiya ticarət dəhlizinin mühüm halqasına çevirdi. BTQ xətti Çin–Mərkəzi Asiya–Xəzər dənizi–Azərbaycan– Gürcüstan–Türkiyə marşrutu boyunca malların Avropaya ən qısa müddətdə daşınmasını təmin etməklə Gürcüstanın strateji rolunu daha da artırdı. Çin tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" təşəbbüsü də bu xəttin əhəmiyyətini artırır, çünki Gürcüstan limanları və tranzit infrastrukturu bu layihənin Qafqaz qolunun əsasını təşkil edir. Türk dünyasının son onillikdə institusional inteqrasiyası Gürcüstan üçün yeni geosiyasi perspektivlər formalaşdırır. Türk Dövlətləri Təşkilatının (TDT) genişlənməsi və iqtisadi platformalara çevrilməsi fonunda Gürcüstanın bu struktura müşahidəçi qismində qoşulması barədə müzakirələr intensivləşmişdir. TDT çərçivəsində nəqliyyat, enerji və mədəniyyət sahələrində əməkdaşlıq imkanlarının artması Gürcüstanın Azərbaycan və Türkiyə ilə strateji tərəfdaşlığını tamamlayır. Gürcüstanda yaşayan azərbaycanlı icmasının ölkənin üçüncü ən böyük etnik qrupu olması da bu inteqrasiyanın sosialmədəni bazasını möhkəmləndirir [4, s.54].

Gürcüstanın Qərbə inteqrasiya kursu ilə Türkiyə və türk dünyası ilə əlaqələri arasında ziddiyyət yaranmır, əksinə, qarşılıqlı şəkildə bir-birini tamamlayır. NATO və Aİ ilə əməkdaşlıq Gürcüstanın təhlükəsizlik və institusional modernizasiya hədəflərini təmin edirsə, Türkiyə və Azərbaycanla inteqrasiya Gürcüstanın enerji və nəqliyyat şəbəkələrinə qoşulmaqla regional rəqabətdə mövqelərini möhkəmləndirir. Bununla belə, Gürcüstanın geopolitik mövqeyini mürəkkəbləşdirən əsas faktor Rusiya ilə münasibətlərdir. Moskva Gürcüstanın NATO-ya inteqrasiya perspektivini öz milli təhlükəsizliyinə təhdid kimi qəbul edir və separatçı bölgələrdəki hərbi mövcudluğu vasitəsilə Tbilisini siyasi baxımdan təzyiq altında saxlayır. Bu fonda Türkiyə Gürcüstan üçün balanslaşdırıcı aktor rolunu oynayır. Ankara həm Gürcüstanın enerji təhlükəsizliyinin təmin edilməsində, həm də iqtisadi sabitlikdə əvəzsiz rol oynayır.

Türkiyə–Gürcüstan əlaqələri iqtisadi sahədə də genişlənməkdə davam edir. Türkiyə Gürcüstanın ən böyük ticarət tərəfdaşlarından biridir. Gürcüstan iqtisadiyyatına türk investisiyaları xüsusilə energetika, tikinti, turizm və logistika sahələrində nəzərə çarpır. Batumi və Adjariyada türk kapitalının geniş paya sahib olması bu əlaqələrin daha çox lokal səviyyədə də inteqrasiya edilməsinə imkan yaradır. Mədəni-humanitar əməkdaşlıq da diqqətəlayiqdir. Gürcüstan türkologiya mərkəzinin fəaliyyəti, Tbilisidə Yunus Əmrə İnstitutunun açılması, Türkiyədə gürcü dilinə dair tədqiqatların artması əlaqələrin elmi və mədəni istiqamətdə möhkəmlənməsinə xidmət edir. Türk dünyasının inteqrasiyasının mədəni yönünü gücləndirən bu layihələr Gürcüstan üçün həm sosial sabitlik, həm də regiondaxili dialoq imkanları yaradır. Mədəni-humanitar əməkdaşlıq da diqqətəlayiqdir. Gürcüstan türkologiya mərkəzinin fəaliyyəti, Tbilisidə Yunus Əmrə İnstitutunun açılması, Türkiyədə gürcü dilinə dair tədqiqatların artması əlaqələrin elmi və mədəni istiqamətdə möhkəmlənməsinə xidmət edir. Türk dünyasının inteqrasiyasının mədəni yönünü gücləndirən bu layihələr Gürcüstan üçün həm sosial sabitlik, həm də regiondaxili dialoq imkanları yaradır.

Beləliklə, Gürcüstanın Cənubi Qafqazdakı mövqeyi, Türkiyə ilə strateji tərəfdaşlığı və türk dünyası ilə əlaqələri regionun geosiyasi balansında həlledici yer tutur. Gürcüstan üçün əsas prioritetlərdən biri həm Qərb təhlükəsizlik sisteminə inteqrasiyanı davam etdirmək, həm də Türkiyə və türk dünyası ilə əməkdaşlığı dərinləşdirərək regional rəqabətdə öz mövqeyini gücləndirməkdir.

Nəticə: Gürcüstanın geosiyasi mövqeyi onu Cənubi Qafqazın regional nizamının mühüm aktoruna çevirir. Türkiyə ilə strateji tərəfdaşlıq, Azərbaycanla üçtərəfli əməkdaşlıq modeli və türk dünyası ilə artan inteqrasiya Gürcüstanın həm təhlükəsizlik, həm də iqtisadi inkişaf məqsədlərinə xidmət edir. BTC, BTƏ, BTQ kimi layihələr Gürcüstanı regional enerji və nəqliyyat xəritəsinin mərkəzinə çevirərək onun beynəlxalq əhəmiyyətini artırmışdır. TDT-nin genişlənməsi fonunda Gürcüstanın bu məkanla əməkdaşlığı perspektivli xarakter daşıyır. Bütün bunlarla yanaşı, Gürcüstanın xarici siyasət balansı – Qərbə inteqrasiya hədəfi və regiondakı türk aktorları ilə əməkdaşlıq – bir-birini tamamlayan strateji vektorlardır. Rusiya amilinin yaratdığı təhlükəsizlik boşluğu Türkiyə və Azərbaycan vasitəsilə qismən kompensasiya edilir. Bu baxımdan Gürcüstanın gələcək geosiyasi mövqeyi onun regiondakı güc mərkəzləri ilə əlaqələrini nə dərəcədə balanslaşdıra biləcəyindən asılı olacaqdır.

Ədəbiyyat siyahısı:

1. *Aydın M. Turkey's Regional Security Policy in the South Caucasus. Ankara: SETA Publications, 2019, s. 90– 115.*
2. *Cornell S. The South Caucasus: Between Turkey, Russia and Europe. London: Routledge, 2017, p. 210–245.*
3. *Nodia G. Georgia after the Rose Revolution: Political Transformation and Security Challenges. Tbilisi: Caucasus Institute Press, 2005, p. 100–125.*
4. *Wheatley J. Georgia: Minority Policies and Regional Integration. Oxford University Press, 2019, p. 50–70.*
5. *Cornell, S. & Starr, F. Modernization and Security in the South Caucasus. Central Asia–Caucasus Institute, 2018, p. 55–80.*

6. Ismailzade F.). "Azerbaijan–Georgia–Turkey Trilateral Cooperation," Caucasus Analytical Digest, № 42, 2012, p. 3–7.
7. De Waal T. The Caucasus: An Introduction. Oxford University Press, 2010, p. 165–188.
8. German T. . Regional Power Politics and the South Caucasus. Journal of Eurasian Studies, 7(2), 2016, p. 140–155.

ZƏNGƏZUR DƏHLİZİ LAYİHƏSİNİN REALLAŞMASININ REGİONAL ƏHƏMİYYƏTİ

Yaşar Xıdırov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qafqaz xalqları tarixi" kafedrasının II kurs magistrantı
yasar.xdrov@bk.ru
Elmi rəhbər: professor İradə Hüseynova

Açar sözlər: *Qarabağ, Zəngəzur, Urbanistika, İnfrastruktur layihələri, Demoqrafik dinamika*
Keywords: *Karabakh, Zangezur, Urbanism, İnfrastructure projects, Demographic dynamics*

2020-ci ildə başa çatan Vətən müharibəsi nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi Cənubi Qafqazda tamamilə yeni siyasi, iqtisadi və geostrateji reallıqlar yaratmışdır. Qarabağ və Şərqi Zəngəzur bölgələrinin işğaldan azad edilməsi bu ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirilməsini, məcburi köçkünlərin doğma yurdlarına mərhələli şəkildə qaytarılmasını və regionun ümumi inkişaf modelinin yeniden formalaşdırılmasını zəruri etmişdir. Post- münaqişə dövründə regionda reallaşan ən mühüm geoiqtisadi layihələrdən biri, şübhəsiz ki, Zəngəzur dəhlizidir. Bu dəhliz hən Azərbaycan üçün strateji nəqliyyat arteriyası kimi çıxış edir, həm də Cənubi Qafqazın kommunikasiya sisteminin yeniden qurulmasında mühüm rol oynayır. [1, s.15–22].

Bu tezisin məqsədi Qarabağ və Şərqi Zəngəzurda qayıdış və bərpa-quruculuq proseslərinin məzmununu elmi aspektdən təhlil etmək, bu proseslərin Zəngəzur dəhlizinin yaranması ilə necə sinxron şəkildə inkişaf etdiyini göstərmək və dəhlizin regional kommunikasiya sistemində yaratdığı yeni iqtisadi-siyasi reallıqları araşdırmaqdadır.

I.Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq prosesləri: elmi yanaşma: İşğaldan azad edilmiş ərazilər uzun illər ərzində tamamilə dağıdılmış infrastrukturla, yararsız vəziyyətə salınmış yaşayış məntəqələri ilə və təhlükəsizlik baxımından ciddi problemlərlə xarakterizə olunurdu. Bu səbəbdən post-münaqişə dövründə Azərbaycan tərəfindən həyata keçirilən bərpa siyasəti çoxşahəli və kompleks yanaşma tələb edirdi [1, s.50–67. Bərpa-quruculuq strategiyası əsasən minalardan təmizləmə işlərindən başlayaraq nəqliyyat, enerji, sosial infrastrukturun mərhələli şəkildə bərpasına qədər geniş spektrli fəaliiyəti əhatə edir. Bölgədə həyata keçirilən infrastruktur modernizasiyası yalnız fiziki yenidənqurma ilə məhdudlaşmır. Bu proses həm də bölgənin iqtiasdi potensialının yenidən qurulmasını nəzərdə tutur.

Yeni avtomobil və dəmir yollarının çəkilməsi, hava limanlarının tikintisi, kommunikasiya xətlərinin bərpası və ağıllı şəhər-konsepsiyalarının tətbiqi Qarabağ və Şərqi Zəngəzurun gələcək inkişafını müəyyən edən strateji istiqamətlərdir [5, s.41–58].. Bu çərçivədə Zəngilanın Ağalı kəndinin "ağıllı kənd" modeli kimi formalaşdırılması regionun bərpasında yeni urbanistika yanaşmasının tətbiq edildiyini göstərir. Qayıdış prosesinin elmi təhlili göstərir ki, məcburi köçkünlərin doğma yurdlarına qaytarılması yalnız demoqrafiq proses deyil, həm də sosial-iqtisadi reinteqrasiya modelidir.

II. Zəngəzur dəhlizi: regional kommunikasiya sisteminin yeni mərhələsi: Zəngəzur dəhlizinin yaranması Cənubi Qafqazın nəqliyyat-coğrafi məkanında mühüm transformasiya yaradır. Bu dəhliz Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birbaşa birləçdirməklə ölkənin uzun illər davam edən kommunikasiya məhdudiyyətlərinin aradan qaldırılmasına imkan verir. Eyni zamanda dəhliz Avrasiya nəqliyyat sisteminin mühüm tərkib hissəsi olan Orta Dəhlizin yeni seqmenti kimi çıxış edir və Çin-Mərkəzi Asiya- Xəzər hövzəsi-Azərbaycan- Türkiyə-Avropa marşrutunun daha səmərli fəaliyyətinə şərait yaradır.

Elmi aspektdən yanaşdıqda Zəngəzur dəhlizi yalnız tranzit marşrutu deyil, həm də regionun iqtisadi inteqrasiyasını stimullaşdıran mühüm geoiqtisadi alətdir. Dəhlizin açılması ilə Cənubi Qafqaz ölkələri arasında qarşılıqlı iqtisadi asılılıq artır, alternativ logistika və nəqliyyat marşrutları yaranır, regionun qlobal ticarət sisteminə inteqrasiyası daha da güclənir. Azərbaycan və Türkiyə arasında quru əlaqəsinin bərpa edilməsi türk dünyası daxilində inteqrasiyanın dərinləşməsinə ciddi töhfə verir [6, s. 210–215].

Dəhlizin fəaliyyətə başlaması Zəngilan, Qubadlı və Laçın rayonlarının yeni iqtisadi mərkəzlərə çevrilməsi üçün real imkanlar yaradır. Dəhliz boyunca yaradılacaq logistika, sənaye və xidmət zonaları regionun inkişafını sürətləndirəcək və işğaldan azad olunmuş ərazilərin iqtisadi dövriyyəyə qayıdışını təmin edəcək.

III. Qarabağ və Şərqi Zəngəzurda bərpa işləri ilə Zəngəzur dəhlizinin sinerjisi.

Bərpa-quruculuq prosesinin analitik təhlili göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun infrastruktur baxımından yenidən qurulması ilə Zəngəzur dəhlizinin yaradılması arasında qarşılıqlı sinerji mövcuddur. Bu sinerji həm iqtisadi, həm sosial, həm də geosiyasi müstəvilərdə özünü göstərir. İnfrastrukturun yenilənməsi dəhlizin effektiv fəaliyyətini təmin edən əsas amillərdən biri olduğu kimi, dəhlizin fəaliyyəti də bu infrastrukturun iqtisadi dəyərini artırır [3, s. 20–35].

Yaranan yeni nəqliyyat arteriyaları Qarabağ və Şərqi Zəngəzurun ölkənin ümumi nəqliyyat sisteminə inteqrasiyasını sürətləndirir. Bu proses qayıdan əhali üçün yeni iqtisadi fəallıq zonalarının yaranmasına səbəb olur. Kommunikasiyanın genişlənməsi regionda sahibkarlığın inkişafı, ticarət dövriyyəsinin artması və iqtisadi şaxələnmənin təmin edilməsi ilə müşayiət olunur.

Geosiyasi aspektdən Zəngəzur dəhlizi bölgədə sülhün və əməkdaşlığın iqtisadi əsaslarını formalaşdırır. Qarabağda aparılan bərpa-quruculuq işləri regionu sabit-

lik və inkişaf məkanına çevirir və bununla da Cənubi Qafqazda uzunmüddətli sülhün möhkəmlənməsi üçün yeni imkanlar yaradır [4, s. 47–52].

Nəticə. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri ilə Zəngəzur dəhlizinin yaranması Cənubi Qafqazda yeni iqtisadi və geosiyasi reallıqların formalaşmasına səbəb olmuşdur. Bərpa siyasətinin elmi təhlili göstərir ki, bu proses regionun yalnız fiziki deyil, həm də funksional və strateji baxımdan yenidən qurulmasına xidmət edir. Zəngəzur dəhlizi isə bu yeni reallığın mərkəzi elementlərindən biri kimi çıxış edərək Qarabağ və Şərqi Zəngəzurun sosial-iqtisadi və kommunikasiya sisteminə inteqrasiyasını sürətləndirir.

Nəticə etibarilə, bərpa-quruculuq prosesi ilə Zəngəzur dəhlizinin formalaşması Azərbaycan Respublikasının milli inkişaf strategiyasının qarşılıqlı şəkildə tamamlayan iki əsas istiqamətidir. Bu iki prosesin birlikdə inkişafı Cənubi Qafqazın gələcək nəqliyyat arxitekturasını müəyyənləşdirir, Azərbaycanı regionun əsas kommunikasiya və iqtisadi mərkəzinə çevirir və Qarabağ–Şərqi Zəngəzur modelinin uzunmüddətli dayanıqlığını təmin edir [2, s.16–19].

Əlavə olaraq, Zəngəzur dəhlizinin açılması ilə regionun demoqrafik dinamikası da yeni mərhələyə qədəm qoyur. Qayıdış prosesi yalnız humanitar xarakter daşımır; o həm də regionun əmək bazarının, istehsal potensialının və sosial xidmətlər sisteminin yenidən qurulması üçün vacib şərtdir. Əhali məskunlaşdıqca xidmət ekosistemi – təhsil, səhiyyə, nəqliyyat, biznes mühiti – genişlənir və bu proses öz növbəsində regionun iqtisadi cəlbediciliyini artırır. Nəticədə Qarabağ və Şərqi Zəngəzurun inkişafı təkcə dövlət investisiyaları ilə deyil, özəl sektorun və beynəlxalq tərəfdaşların iştirakı ilə də daha sürətli və kompleks şəkildə aparılır.

Yekun olaraq, Zəngəzur dəhlizi post-münaqişə dövründə Qarabağ və Şərqi Zəngəzurun bərpa strategiyasını təkamül etdirən, regionu Cənubi Qafqazın əsas kommunikasiya mərkəzinə çevirən və Azərbaycan iqtisadiyyatının geoiqtisadi mövqeyini gücləndirən fundamental amildir. Bu dəhlizin açılması bərpa prosesinin yalnız iqtisadi deyil, həm də siyasi və sosial ölçüsünü genişləndirərək regionun uzunmüddətli inkişaf trayektoriyasını müəyyən edir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişaf modeli. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2020, 98 s.

2. Azərbaycan Respublikası Prezident Administrasiyası. "Böyük Qayıdışa dair I Dövlət Proqramı". Bakı: Rəsmi Nəşriyyat, 2022, 35 s.

3. Əliyev İ. Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası və post-münaqişə dövrünün çağırışları. Bakı: Prezident Kitabxanası, 2023, 120 s.

4. Ismayilov E. The Geopolitical Significance of the Zangezur Corridor in the South Caucasus. Caucasus Analytical Digest, No. 127. Zurich: University of Zurich Press, 2022, p. 30–55.

5. Məmmədov R. Post-münaqişə dövründə Qarabağda reinteqrasiya və inkişaf modeli. Bakı: BDU Nəşriyyatı, 2022, 85 s.

6. Rodrigue J-P. The Geography of Transport Systems. 5th edition. New York: Routledge, 2020, 458 p.

AZƏRBAYCAN–TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ ŞUŞA BƏYANNAMƏSİNİN TARİXİ ƏHƏMİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

Kənan Hüseynzadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qafqaz xalqları tarixi" kafedrasının II kurs magistrantı
guseynovkanan18@gmail.com
Elmi rəhbər: dosent Aynur Hüseynova

Açar sözlər: *Şuşa Bəyannaməsi, Azərbaycan–Türkiyə münasibətləri, Türk dünyası, təhlükəsizlik, inteqrasiya, geosiyasət*
Keywords*: Shusha Declaration, Azerbaijan–Turkey relations, Turkic world, security, integration, geopolitics*

Azərbaycan–Türkiyə münasibətləri tarixən etnik, mədəni və siyasi yaxınlıq üzərində formalaşmış, zaman keçdikcə regional və qlobal proseslər fonunda dərinləşərək strateji müstəviyə keçmişdir. Bu əlaqələrin tarixi mahiyyətini anlamaq üçün münasibətlərin ideoloji əsaslarına nəzər salmaq kifayətdir: "Bir millət, iki dövlət" ifadəsi təkcə siyasi şüar deyil, hər iki xalqın intellektual yaddaşında möhkəm yer tutan, dövlət siyasətinə çevrilmiş identiklik konsepsiyasıdır. XX əsrin əvvəllərindən başlayaraq Bakının 1918-ci ildə Qafqaz İslam Ordusu tərəfindən azad edilməsi, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması dövründə Türkiyə ilə siyasi təmaslar, sovet dövründə mədəniyyət müstəvisində əlaqələr, 1991-ci ildə Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətin Türkiyə olması bu münasibətlərin tarixi ardıcıllığını təsdiqləyən faktlardır. Müstəqillikdən sonra iki dövlət arasında siyasi və iqtisadi əməkdaşlıq genişlənərək 2010-cu ildə imzalanmış "Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə" ilə hüquqi-institusional çərçivəyə salınmışdır. Lakin 2021-ci il iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi bu münasibətlərin ən yüksək mərhələsi kimi tarixə düşmüşdür. Bu sənəd Azərbaycan–Türkiyə əlaqələrini müttəfiqlik səviyyəsinə yüksəldən, həm regiona, həm də Türk dünyasına yeni geosiyasi mesajlar verən strateji bəyannamədir.

Şuşa Bəyannaməsinin imzalandığı məkan, Şuşa şəhəri təsadüfi seçilməmişdir. Bu şəhər Azərbaycan tarixinin, mədəniyyətinin və dövlətçilik düşüncəsinin rəmzi olmaqla yanaşı, 30 ilə yaxın işğal altında qalmış və 2020-ci il Vətən müharibəsində azad edilmişdir. Şuşanın seçilməsi Azərbaycan dövlət müstəqilliyinin bərpası, ərazi bütövlüyünün təmin edilməsi və Türk dünyası birliyinin simvolik təsdiqi idi. Prezident İlham Əliyevin "Bu gün Şuşada imzalanan sənəd gələcək nəsillər üçün yol xəritəsidir" sözləri bu bəyannamənin həm tarixi, həm siyasi, həm də ideoloji mahiyyətini göstərir [1]. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşaya səfəri isə Türkiyə dövlətinin Qarabağın azad edilməsini və Azərbaycan suverenliyini strateji hadisə kimi qiymətləndirdiyini nümayiş etdirdi. Bu mənada Şuşa Bəyannaməsi təkcə diplomatik sənəd deyil, həm də bir ideoloji manifest kimidir.

2020-ci ilin Vətən müharibəsi Cənubi Qafqazda yeni geosiyasi düzən yaratdı. Azərbaycan öz torpaqlarını azad etməklə beynəlxalq hüququ bərpa etdi və bölgədə güc balansını dəyişdi. Müharibə dövründə Türkiyənin verdiyi siyasi və diplomatik

dəstək regionda Azərbaycan–Türkiyə təhlükəsizlik modelinin effektivliyini göstərdi. Azərbaycanın qələbəsi və işğaldan azad edilmiş ərazilərdə dövlət suverenliyinin tam bərpası iki ölkə arasında strateji əməkdaşlığın formal müttəfiqlik mərhələsinə keçməsini zəruri etdi. Şuşa Bəyannaməsi bu tarixi zərurətin məhsulu kimi ortaya çıxdı. Azərbaycanlı tədqiqatçı Fərhad Məmmədov qeyd edir ki, bəyannamə

"Azərbaycan–Türkiyə münasibətlərinin dövlətçilik fəlsəfəsinin hüquqi ifadəsidir" [2, s.11]. Bu yanaşma sənədin mahiyyətini açan ən düzgün xarakteristikadır.

Bəyannamənin məzmunu çoxşaxəlidir və müdafiə, təhlükəsizlik, iqtisadiyyat, enerji, nəqliyyat, mədəniyyət, diaspora və siyasi koordinasiya kimi sahələri əhatə edir. Bu çoxsahəlilik təsadüfi deyil, çünki sənəd iki ölkə arasında münasibətləri təkcə bir sektor üzrə deyil, bütöv strateji sistem olaraq yenidən konfiqurasiya edir. Sənədin ən mühüm müddəalarından biri hərbi təhlükəsizlik sahəsində qarşılıqlı yardım prinsipinin təsbitidir. Bu prinsip bəyannamənin mərkəzi sütunu hesab olunur, çünki regionda baş verən geosiyasi silkələnmələr, xüsusilə Ermənistanın müxtəlif dövrlərdə sərgilədiyi hərbi-siyasi iddialar fonunda iki ölkənin təhlükəsizlik məkanının vahid çərçivədə təsbit olunmasına xidmət edir. Belə ki, iki ölkə birbirinə qarşı yönəlmiş hər hansı təhlükəni ortaq təhlükə kimi qəbul edəcəyini bəyan edir və bu, həm siyasi, həm də əməliyyat xarakterli bir öhdəlik kimi dəyərləndirilir. Bu müddəa yalnız diplomatik jest deyil, real təhlükəsizlik mexanizmi yaradan hüquqi baza formalaşdırır; başqa sözlə, Türkiyənin təhlükəsizliyinə yönəlmiş risklər artıq avtomatik olaraq Azərbaycanın təhlükəsizliyinə təhdid kimi, Azərbaycanın təhlükəsizlik maraqlarına qarşı yönəlmiş addımlar isə Türkiyənin də maraq dairəsini əhatə edən faktor kimi qiymətləndirilir. Bu yanaşma NATO daxilində tətbiq edilən kollektiv müdafiə modelinə bənzəyir və regionda məhdudlaşmış milli təhlükəsizlik konsepsiyalarından daha geniş, qarşılıqlı inteqrasiya olunmuş təhlükəsizlik fəlsəfəsinə keçidi ifadə edir. Azərbaycanlı analitik Elxan Şahinoğlu qeyd edir ki, Şuşa Bəyannaməsi "Cənubi Qafqazda Ermənistanın revanşizm cəhdlərinə qarşı preventiv siyasi-hərbi sipər" funksiyası daşıyır [4, s.3]. Bu təhlil onu göstərir ki, sənəd yalnız keçmiş təhdidlərə reaksiya vermək üçün deyil, həm də gələcəkdə hər hansı təhlükənin qarşısını almaq üçün qabaqlayıcı müdafiə arxitekturası yaradır. Eyni zamanda bəyannamənin bu müddəası iki ölkənin hərbi-strateji planlaşdırma, təlim-tədris və müdafiə sənayesi proseslərini də sinxronlaşdırır və onların təhlükəsizlik siyasətlərini bir-birinə daha sıx bağlayır.

Müdafiə sənayesi sahəsində əməkdaşlıq da Şuşa Bəyannaməsinin prioritet istiqamətlərindəndir və bu, sənədin təhlükəsizlik məkanını yalnız hərbi yardım çərçivəsində deyil, texnoloji üstünlüklər müstəvisində də gücləndirdiyini göstərir. Azərbaycan artıq uzun müddətdir Türkiyənin yüksək texnoloji müdafiə sistemlərindən, xüsusilə Bayraktar TB2 tipli pilotsuz uçuş aparatlarından, müxtəlif zərbə və kəşfiyyat sistemlərindən, elektron müharibə texnologiyalarından və rabitə vasitələrindən geniş şəkildə istifadə edir. 2020-ci il Vətən müharibəsi bu sistemlərin üstünlüyünü bütün dünyaya nümayiş etdirdi və Azərbaycan ordusunun hərbi əməliyyatlarda tətbiq etdiyi texnologiya əsaslı döyüş taktikaları qlobal hərbi ədəbiyyatın diqqət mərkəzinə düşdü. Məhz bu təcrübə göstərdi ki, Türkiyə istehsalı müasir

hərbi texnologiyalar Azərbaycan üçün yalnız satınalma obyekti deyil, həm də uzunmüddətli strateji üstünlüyün təminatçısıdır.

Şuşa Bəyannaməsi ilə müdafiə sənayesində əməkdaşlıq təkcə hazır məhsulun alınması formatından çıxaraq daha dərin mərhələyə – texnoloji mübadilə, birgə istehsal, elmi-tədqiqat layihələrinin koordinasiyası və müdafiə sənayesinin lokallaşdırılması səviyyəsinə keçmişdir. Bu proses Azərbaycan üçün iki əsas nəticə doğurur: birincisi, ölkənin müdafiə sənayesi gələcəkdə daha çox daxili istehsala əsaslanan, texnoloji cəhətdən müasir, ixrac potensialı olan struktura çevrilir; ikincisi, Azərbaycan ordusunun istifadə etdiyi silah və sistemlər üzərində texniki nəzarət artır, xarici asılılıq əhəmiyyətli dərəcədə azalır. Türkiyə üçün isə bu əməkdaşlıq Cənubi Qafqazda hərbi-sənaye infrastrukturunun bir hissəsini formalaşdırmaq imkanı yaradır ki, bu da Ankaranın regional hərbi-strateji mövqeyini daha da gücləndirir.

Azərbaycan Müdafiə Nazirliyinin rəsmi məlumatlarına əsasən, artıq 2021–2025-cü illərdə iki ölkə arasında müdafiə sənayesi üzrə 30-dan çox birgə layihə müzakirə edilmiş, onların bəziləri icra mərhələsinə keçmişdir [3]. Bu layihələr sırasında pilotsuz uçuş aparatlarının yerli komponentlərlə təchiz edilməsi, yeni nəsil rabitə sistemlərinin birgə hazırlanması, kibernetika və elektron müharibə sahəsində ortaq tədqiqat proqramları, habelə hərbi təlimlərin texniki təchizatının lokallaşdırılması kimi istiqamətlər xüsusi yer tutur. Bu yol xəritəsi həm Azərbaycanın müdafiə potensialını ciddi şəkildə gücləndirir, həm də iki ölkənin uzunmüddətli hərbi-sənaye inteqrasiyasını təmin edir. Nəticə etibarilə, müdafiə sənayesi sahəsindəki əməkdaşlıq Şuşa Bəyannaməsinin yalnız bu gün üçün deyil, gələcək onilliklər üçün strateji əsaslar yaratdığını təsdiqləyir.

Enerji və nəqliyyat sahələri bəyannamənin digər strateji sütununu təşkil edir. Azərbaycan–Türkiyə enerji əməkdaşlığı TANAP və TAP layihələri ilə Avropa enerji təhlükəsizliyinin əsas komponentlərinə çevrilmişdir. Şuşa Bəyannaməsi bu əməkdaşlığın yalnız qaz və boru xətləri ilə məhdudlaşmadığını, enerji keçidi dövründə yaşıl enerjinin, külək və günəş resurslarının birgə istifadəsini də hədəflədiyini göstərir. Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji zonası" qurur və bu prosesdə Türkiyənin təcrübəsinin tətbiqi xüsusi əhəmiyyət kəsb edir.

Nəqliyyat siyasətində isə Zəngəzur dəhlizinin açılması bəyannamənin ən strateji elementlərindən biridir. Bu dəhliz təkcə Azərbaycan və Türkiyəni deyil, bütün Türk dünyasını birləşdirəcək tarixi marşrutdur. Azərbaycanlı tədqiqatçı Zaur Şiriyevin fikrincə, Zəngəzur dəhlizi "Türk dünyasının inteqrasiyasında XXI əsrin ən mühüm geosiyasi layihəsidir" [5, s.18]. Dəhlizin açılması Mərkəzi Asiya ölkələrinin Türkiyə vasitəsilə Avropa bazarlarına çıxışını asanlaşdıracaq, Orta Dəhlizi gücləndirəcək və Cənubi Qafqazı qlobal logistika mərkəzinə çevirəcəkdir.

Mədəni-humanitar sahə də bəyannamənin diqqət mərkəzindədir. Ortaq türk kimliyi, dil birliyi, mədəniyyət və ədəbiyyatın təbliği və qorunması sahələrində əməkdaşlıq daha da güclənir. Türk Dövlətləri Təşkilatının son iki ildə institusional olaraq genişlənməsi və aktivləşməsi məhz Şuşa Bəyannaməsinin siyasi təsirinin nəticələrindən biri kimi qiymətləndirilir. Azərbaycan və Türkiyənin bu təşkilatdakı koordinasiyalı mövqeyi Türk dünyasının gələcək inteqrasiya modelini formalaşdırmaqdadır.

Bütün bunlarla yanaşı, bəyannamənin diplomatik xarakteri də xüsusi diqqətə layiqdir. Sənəd iki ölkənin beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyi, regional məsələlər üzrə vahid mövqenin formalaşdırılması, sülh təşəbbüslərində qarşılıqlı fəaliyyət kimi öhdəlikləri ehtiva edir. Bu, Azərbaycan və Türkiyənin beynəlxalq arenada siyasi çəkisini artırır və onları regional güc tandeminə çevirir.

Gələcək perspektivlər baxımından Şuşa Bəyannaməsi Azərbaycan–Türkiyə münasibətlərini yeni strateji mərhələyə daşıyır. Həm müdafiə sənayesi, həm nəqliyyat-kommunikasiya, həm enerji, həm də mədəniyyət sahələrində geniş imkanlar açır. Azərbaycanın bu sənəddə ortaya qoyduğu strateji baxış Qarabağın bərpası, işğaldan azad olunan ərazilərin reinteqrasiyası və Türk dünyası ilə əlaqələrin genişlənməsi aspektlərində özünü göstərir. Bütün bunlar Şuşa Bəyannaməsini XXI əsrdə Azərbaycan–Türkiyə münasibətlərinin ideoloji və siyasi əsas sənədinə çevirir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı (2021). Şuşa Bəyannaməsinin imzalanması haqqında məlumat. www.president.az. İstinad tarixi: 20.11.2025
2. Məmmədov F. Azərbaycan–Türkiyə münasibətlərinin yeni mərhələsi: Şuşa Bəyannaməsinin siyasi təhlili. Bakı: ADA Universiteti Analitik Sənədlər Mərkəzi, 2022, 52 s.
3. Müdafiə Nazirliyi. Azərbaycan–Türkiyə hərbi əməkdaşlıq statistika bülleteni. 2023. www.mod.gov.az. İstinad tarixi: 20.11.2025
4. Şahinoğlu E. Şuşa Bəyannaməsinin regional təhlükəsizlik arxitekturasındakı rolu. "Atlas" Araşdırmalar Mərkəzi, 2021, 27 s.
5. Şiriyev Z. Cənubi Qafqazda yeni geosiyasi düzən və Zəngəzur dəhlizi. Bakı: ADA Strateji Araşdırmalar, 2022, 44 s.
6. Türk Dövlətləri Təşkilatı. İllik Hesabat. Ankara: TDT Katibliyi.2022.
7. Türkiye Cumhurbaşkanlığı rəsmi saytı. Şuşa səfəri və birgə bəyanat. www.tccb.gov.tr. 2021, İstinad tarixi: 20.11.2025

TÜRK DÜNYASINDA QIZILBAŞLIQ İDEOLOGİYASININ YERİ

Dərya Rəsulova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasının I kurs magistrantı
deryaresulova2021@icloud.com
Elmi rəhbər: professor Zabil Bayramov

Açar sözlər: *Qızılbaşlıq, Səfəvilər, Anadolu türk tayfaları, türk siyasi düşüncəsi, şiəlik və təsəvvüf*
Keywords: *Qizilbash, Safavids, Anatolian turkic tribes, turkish political thought, shiism and sufism*

Giriş. Qızılbaşlıq ideologiyası, Türk dünyasının siyasi və mədəni tarixində müstəsna yer tutan, mürəkkəb sosial, dini və siyasi elementlərin sintezindən yaranmış bir təlimdir. Bu ideologiya, Anadolu türk tayfalarının köklü şəkildə davam edən qədim inam və ənənələri ilə İslam sufizmi və şiə inancının mistik cəhətlərinin birləşməsi nəticəsində formalaşmışdır. Qızılbaşlığı sadəcə dini bir məzhəb ki-

mi qiymətləndirmək kifayət deyil, o eyni zamanda dərin sosial köklərə və özünəməxsus siyasi düşüncəyə malik bir hərəkat idi.

Tarixi köklər: Qədim Türklük və Batini Cərəyənlarla Əlaqə. Bəzi tədqiqatçılar Qızılbaşlıq məfhumunun mənşəyini daha erkən batini cərəyanlarla, xüsusilə də Xürrəmilik hərəkatı ilə əlaqələndirirlər.Məzdəkilik inancından təsirlənərək VIII əsrin sonlarında yayılan Xürrəmi cərəyanı ərəb mənbələrində öz tərəfdarlarının qırmızı geyimlərinə görə "Mühəmmərə"(qırmızılar) adlandırılmışdır [6, s.205]. Qırmızı rəngə olan bu xüsusi münasibət, Xürrəmilərin IX əsrdə Babəkin başçılığı altında Ərəb xilafətinə qarşı apardığı həm hərbi, həm də ideoloji mübarizənin simvoluna çevrilmişdi.

Məfhumun Səfəvi kimliyinə çevrilməsi. "Qızılbaş" terminin tarixi mənbələrdə ilk rəsmi istifadəsi XV əsrin son rübü ilə əlaqələndirilir və birbaşa Səfəvi təriqətinin rəhbəri Şeyx Heydərin adı ilə bağlıdır. Rəvayətə görə, Şeyx Heydər İmam Əlinin göstərişi ilə 12 zolaqlı (12 imama işarə) qırmızı parçadan papaq geyinməyə başlamış və ardıcıllarına da bunu əmr etmişdir [6, s.206].

Beləliklə, qırmızı rəngdəki bu xüsusi baş geyimi onları digər türkman tayfalarından fərqləndirən, Səfəviyə bağlılığın simvoluna çevrilən bir eyniləşdirmə vasitəsinə dönmüşdür.

Qızılbaşlıq Səfəvilər dövründə Türkman tayfalarının milli kimliyinin və dövlətə siyasi bağlılığının əsas göstəricisi idi. Bu məfhumu tərk etmək Səfəvi döblətinə xəyanət kimi qiymətləndirilirdi [6, s.205-207].

Səfəvi Hərəkatının Qızılbaş İdeologiyası ilə vəhdəti. 1499-cu ildən etibarən Cüneyd, Heydər və Sultanəli kimi Səfəvi Şeyxlərinin rəhbərliyi altında başlayan Qızılbaş hərəkatı, Şah İsmayıl Xətainin liderliyi ilə təkcə dini deyil, həm də dövlət quruculuğu məqsədi güdən siyasi bir gücə çevrildi. Hərəkatın ilkin çıxışları sosial zəminə əsaslanaraq Anadolu türk tayfalarını (o cümlədən köçəriləri və oturaq əhalini) birləşdirirdi. İ.P.Petruşevskinin qeyd etdiyi kimi İsmayıl, yalnız Azərbaycanı birləşdirmək məqsədi daşımır, həm də qonşu türk ölkələrində də fəallıq göstərərək, böyük şiə dövləti qurmaq ideyasını reallaşdırmağa çalışırdı [3, s.52].

Qızılbaşlığın təsəvvüf və şiəliyin ifrat cəhətlərini birləşdirən ideologiyası Şah İsmayılın ilahi mahiyyətini ön plana çıxarırdı.V.F.Minorskinin təbirincə, Səfəvilərin sirləri yalnız bu mistik və dini iddialarla anlaşıla bilərdi. Anadolu və Kiçik Asiya türk tayfaları arasında İsmayıla qarşı duyulan bu sonsuz sevgi və ilahiləşdirmə ona türk siyasi düşüncəsində liderlik imkanı verdi [3, s.53].

Səfəviyyə təriqəti yarandığı ilkin mərhələdə müəyyən bir məzhəbə (Şiə və Sünni) bağlılığı ilə seçilmirdi. Əksinə, o, təsəvvüfə əsaslanan və sufi dərviş ənənələrini yaşadan bir təriqət idi.Bu yanaşmanı, "Səfvətüs-səfa" əsərinin nüfuzlu tədqiqatçılarından olan Mirzə Abbaslının fikirləri də təsdiqləyir. O, bu təriqətin banisi və rəhbəri Şeyx Səfinin geniş kütləsi ətrafında birləşdirə bilməsi üçün məzhəb sərhədlərini aşmasının vacibliyini qeyd edir: "Şərqin milyonlarla insanı əhatə edən belə əhəmiyyətli bir təriqətinin qurucusu olan Şeyx Səfi, əgər bəlli bir məzhəbi istiqamətə sadiq qalsaydı, müxtəlif şiə və sünni qruplarını həmçinin təsəvvüfi və irfani cərəyanlara mənsub olan şəxsləri Darülirşad təriqət ocağının ətrafında bir araya gətirməkdə çətinlik çəkərdi" [1, s.290]. Yəni, Səfəviyyənin erkən dövrdəki

ümumbəşəri və məzhəblərarası sufi xarakteri, onun Şərqin böyük bir hissəsini öz bayrağı altında toplamaq qabiliyyətinin əsas səbəbi idi.

İslami düşüncə forması elmi dairələrdə ilk dəfə Fuad Köprülü tərəfindən dərindən tədqiq edilmişdir. Köprülü Osmanlı mənbələrində Qızılbaşlara qarşı geniş istifadə olunan, lakin kəskin mənfi çalar daşıyan "rafizi" terminindən imtina etmişdir. O, bu kəlməni əvəz etmək üçün bəzən "**heterodoks**" və bəzən də "**batini**" kəlmələrini işlətmişdir. Onun araşdırmalarına görə, Xorasan mühüm bir təsəvvüf ocağı idi və İslamı fərqli şəkildə şərh edən bu cərəyanlar əsasən yaylaq-qışlaq təsərrüfatı ilə məşğul olan türk icmaları arasında meydana gəlmişdi [5, s.17-18]. Fəqət bir məqamı qeyd etmək önəmlidir ki, Köprülü "heterodoks"/" batini" istifadə etməsi Xorasanın rolu, türk icmalarında yaranması və İslam xüsusiyyətlərini az izah etməsi tamamilə saxlanılmışdır.

Səfəvi ideologiyasında xüsusi önəm daşıyan və Sünni İslamda mövcud olmayan əsas anlayışlardan biri İmamət inamı idi. Bu doktrina Səfəvi dövlətinin quruluşunda və ideoloji əsasında mühüm rol oynamışdır. S.Dalkıranın qeydlərinə görə, şiə təlimində imamlar peyğəmbərlər kimi günahsız hesab olunurlar [2, s.83]. Onlar sonsuz biliyə malikdirlər ki, bu biliyin də ilahi mənbədən gəldiyinə inanılır. Bu ideologiyaya görə, imama itaət mütləq və şərtsizdir. Bu cür dini-siyasi düşüncə ilə tərbiyə olunmuş qızılbaşlar Şah İsmayıla sadəcə bir dünyəvi hökmdar kimi deyil, eyni zamanda İmam kimi baxırdılar və onun hər əmrini sorğu-sual etmədən yerinə yetirməyi özlərinə borc bilirdilər.

Osmanlı mənbələrində və rəsmi tarixi əsərlərdə Qızılbaşlara qarşı tez-tez aşağılayıcı və mənfi çalar daşıyan terminlər işlədilirdi. Onlar üçün "rafizi" (dindən uzaqlaşan), "zındıq" (imansız) və "mülhid" (tanımaz) kimi ifadələr istifadə edilirdi.Terminə yüklənən bu cür şiddətli mənfi mənalar qızılbaş icmalarının öz kimliklərini açıq şəkildə ifadə etmələrini çətinləşdirirdi və nəticədə qızılbaş ideologiyası zamanla dəyişikliklərə uğradı. Doğan Kaplanın fikrincə, bu fərqliləşmənin əsasını iki mühüm element təşkil edirdi: Türklük və Səfəviyə bağlılıq.

Zaman keçdikdə bu proses qızılbaş icmasını iki əsas qola ayırdı:

1.Səfəvi ərazisinə köçənlər-Şərqi Anadoludan Səfəvi dövlətinin ərazisinə köçən qızılbaş kütləsi burada Şiə-İmamiyyə məzhəbini tam olaraq qəbul etdi və bu yeni mərkəzdə məzhəbi həyatlarını davam etdirdi;

2.Anadoluda qalanlar-Anadolu ərazisində Osmanlı hakimiyyəti altında qalan Qızılbaş hissəsi isə öz ideologiyasına daha sədaqətli qaldı.

Osmanlı təzyiqləri bir tərəfdən Qızılbaş kimliyinin inkişafına təsir etdi, digər tərəfdən isə onları coğrafi və məzhəbi baxımdan fərqli istiqamətlərə yönəltdi [4, s.14].

Dövlət quruculuğuna gedən yolda əhəmiyyətli rola malik qızılbaş ordusunda həmçinin Anadolu türkmanları da var idi. H.Römer bu haqda qeyd edir ki, Səfəvilərin qızılbaş ordusu mövcud idi, hansı ki, tərkibində xeyli sayda qızılbaş türkman əsgərləri var idi [7, s.22].

Nəticə. Qızılbaşlıq ideologiyası Türk dünyasının siyasi və mədəni tarixində sadəcə dini bir fenomen deyil, köklü türk siyasi düşüncəsi, sufizm və şiəlik elementlərini uğurla sintez edən mürəkkəb bir hərəkat olmuşdur. Aparılan araşdırmalar

göstərir ki, Qızılbaşlıq həm Anadolu türk tayfalarının qədim inam və ənənələrindən (qırmızı rəng simvolizmi, batini cərəyanlar) qidalanmış, həm də Səfəvi təriqətinin liderliyi altında özünün siyasi zirvəsinə çatmışdır. Şeyx Heydərin simvollaşdırdığı bu hərəkat, xüsusilə Şah İsmayıl Xətainin rəhbərliyi ilə böyük mahiyyət kəsb edərək türkman tayfalarını toplamış və nəticədə Səfəvilər dövlətinin qurulmasında əsas ideoloji baza rolunu oynamışdır.Qızılbaşlıq bu dövrdə siyasi sədaqət, etnik kimlik və dini inancın ayrılmaz vəhdətinə çevrilmişdir. Türk dünyasında qızılbaşlıq, əsasən, Osmanlı imperiyasına qarşı çıxan, eyni zamanda Səfəvi hakimiyyətini formalaşdıran və inkişaf etdirən güclü və müstəqil bir ideoloji dayaq mövqeyini tutmuşdur. Bu ideologiya geniş coğrafiyada yaşayan Türk xalqlarının həm siyasi, həm də mədəni şüurunun formalaşmasında silinməz izlər buraxmışdır.

Ədəbiyyat siyahısı:

1.Abbaslı M. Safevilerin kökenine dair. Belleten: 1976, s.287-329.
2.Dalkıran S. İran Safevi devletinin kuruluşuna Şii inanclarının etkisi ve Osmanlının İrana bakışı //Atatürk Üniversitesi İlahiyyat Fakültesi Dergisi, 2002, s.49-96.
3.Əfəndiyev O. Azərbaycan Səfəvi dövləti. Bakı: Şərq-Qərb , 2007, 344s.
4.Kaplan D. Buyruğa göre Kızılbaşlık: Konya: 2008, 247s.
5.Köprülü M.F. Türk edebiyyatında ilk mutasavvıflar. Ankara: Türk Tarih Kurumu Basım evi, 1976, 415s.
6.Qızılbaşlıq Ensiklopediyası. I cild. Bakı: 2024, 504s.
7.Roemer H.R. Kızılbaş türkmenler Safevi teokratiyasının kurucuları ve kurbanları. Utah: 1990, s.27-40.

ÜMUMTÜRK DÜNYASINDA ƏRDƏBİL ŞEYXLİYİNİN YERİ

Ahu Səfərəliyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin ”Azərbaycan tarixi (təbiət fakültələri üzrə)” kafedrasının I kurs magistrantı
sefereliyevaalma@gmail.com
Elmi rəhbər: professor Zabil Bayramlı

Açar sözlər: *Ərdəbil şeyxliyi, Səfəviyyə təriqəti, Qızılbaşlar, Ümumtürk dünyası Şeyx Səfiəddin siyasiyyun (və ya Şeyxliyin siyasətə çevrilməsi)*
Ключевые слова*: Ардебильское шейхство, Орден Сефевийе, Кызылбаши, Общетюркский мир, Шейх Сефиаддин, Политизация шейхства*

Giriş: Ərdəbil şeyxliyi Orta əsrlər ümumtürk dünyasının siyasi və mənəvi tarixində dönüş nöqtəsi təşkil edən mühüm hadisələrdən biridir. Tədqiqat mövzusunun aktuallığı ondan irəli gəlir ki, bu dini-sufi mərkəz təkcə regionda deyil, həm də daha geniş coğrafiyada, xüsusilə də Anadolu və Azərbaycanda yaşayan türk tayfalarının birləşdirici ideologiyası rolunu oynamışdır. XIII əsrin sonlarında Şeyx Səfiəddin Ərdəbili tərəfindən təməli qoyulan Səfəviyyə təriqəti [4, s.12] illər keçdikcə mənəvi rəhbərlikdən güclü bir siyasi və hərbi hərəkata – Qızılbaş hərəkatına çevrilmişdir. Bu transformasiya XV əsrdə regionda hökm sürən Baharlı və Bayan-

durlu dövlətlərinin zəifləməsi fonunda baş vermiş, türk dövlətçiliyinin tarixində yeni bir mərhələnin əsasını qoymuşdur [1, s.38].

Təqdim olunan işin əsas məqsədi Ərdəbil şeyxliyinin dini fəaliyyətdən siyasi hakimiyyətə keçid prosesini və onun ümumtürk dövlətçilik ənənələrinin bərpası baxımından əhəmiyyətini araşdırmaqdır. Bu məqsədə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur: 1) Şeyxliyin banilərinin (xüsusilə Şeyx Cüneyd və Şeyx Heydərin) fəaliyyətinin təriqəti necə hərbiləşdirdiyini müəyyənləşdirmək; 2) Qızılbaş ideologiyasının türkmən tayfaları arasında yayılma mexanizmlərini təhlil etmək; 3) Şeyxliyin nəticəsi olaraq yaranan Səfəvi dövlətinin geosiyasi baxımdan ümumtürk dünyasındakı yerini qiymətləndirmək. Tədqiqat Azərbaycan və Türkiyə tarixşünaslığının əsas əsərlərinə, o cümlədən ilkin mənbələrə [5, s.95] əsaslanaraq tarixi-analitik metodologiya ilə aparılmışdı**r.**

Ərdəbil şeyxliyinin yaranması və ilkin inkişafı. Ərdəbil şeyxliyi XIII əsrin sonlarında, Elxanilər dövlətinin zəifləməsi və Azərbaycan-Anadolu regionunda sosial-siyasi, qeyri-sabitliyin hökm sürdüyü bir dövrdə meydana çıxmışdır. Bu dövrdə geniş xalq kütlələri arasında yayılan sufizm, ruhani dayaq axtaran insanlar üçün sığınacaq rolunu oynayırdı. Şeyxliyin banisi Şeyx Səfiəddin İshaq Ərdəbili (1252–1334) olmuşdur. O, öz dövrünün nüfuzlu din xadimi, Şeyx Zahid Gilaninin müridi idi və onun vəfatından sonra 1301-ci ildə Səfəviyyə təriqətinin rəhbərliyini öz üzərinə götürdü. Şeyx Səfiəddin təriqətə rəhbərlik etdiyi müddətdə Ərdəbili nəhəng mənəvi və iqtisadi mərkəzə çevirmişdir. Şeyx Səfiəddinin fəaliyyəti ilkin mərhələdə yalnız təsəvvüf və mənəvi təmizliyə əsaslanırdı. Onun rəhbərliyi altında təriqət kütləvi xarakter almağa başladı. Təkcə Ərdəbil və ətraf bölgələrdən deyil, həm də Anadoludan, Suriyadan, Şimali Qafqazdan və İrandan çox sayda mürid (mühüm qismi türkmən tayfalarına aid idi) Ərdəbilə axışırdı. Bu müridlər "Səfi ocağına" (Səfiəddinin xanəgahına) nəzirlər, vəqflər vasitəsilə böyük dəstək verirdilər ki, bu da Şeyxliyin tezliklə böyük iqtisadi gücə çevrilməsinə səbəb oldu. Məsələn, tarixi mənbələr Şeyx Sədrəddin Musa dövründə Ərdəbilin Elxanilər sarayında belə nüfuza malik olduğunu göstərir [6, s.110]. Şeyx Səfiəddinin öz sözləri, moizələri və duaları "Səfvət-üs-səfa" kimi əsərlərdə cəmləşdirilmişdir ki, bu da təriqətin ideoloji bazasını formalaşdırmışdır. Onun dövründə şeyxlik hələ siyasi mübarizəyə qoşulmamışdı. Şeyx Səfiəddin müasiri olan hökmdarlarla – Elxanilər və onların xələfləri ilə əsasən dinc və neytral münasibətlər qururdu. Onun əsas məqsədi mənəvi hakimiyyəti gücləndirmək, ədalət və humanizm ideyalarını yaymaq idi. Lakin bu mənəvi təsir qısa zamanda siyasi potensiala çevriləcəkdi. Bu potensial Şeyxliyin ümumtürk dünyası üçün əhəmiyyətli yerini müəyyən etdi: Şeyx Səfiəddin Azərbaycanda və Anadoluda parçalanmış türk tayfaları arasında ortaq mənəvi bağ yaratmış, sonrakı nəsillər üçün siyasi birləşmənin ideoloji zəminini hazırlamışdı [1, s.42].

Şeyxliyin siyasi gücə çevrilməsi və ümumtürk dünyasına təsiri. Şeyx Səfiəddin və onun yaxın varisləri (Şeyx Sədrəddin Musa, Şeyx Əli) şeyxliyi dini mərkəz kimi inkişaf etdirdikdən sonra, XV əsrdə Ərdəbil ocağı radikal siyasi kursa

keçid etdi. Bu çevrilmə Şeyx Cüneydin (1447-ci ildən sonra) rəhbərliyi ilə başladı. Şeyx Cüneyd, təriqətin rəhbəri kimi fəaliyyətə başlayanda, ruhani rəhbərlikdən əlavə, hərbi-siyasi lider rolunu öz üzərinə götürdü. O, müridlərini, xüsusilə də Anadolunun Şərqindən və Azərbaycandan gələn türkmən tayfalarını silahlandırmağa və onlara mübarizə ruhu aşılamağa başladı [3, s. 24]. Bu addım şeyxliyi o zamankı siyasi hakimlərlə (əsasən Baharlılarla) qarşıdurmaya gətirdi və Cüneyd bir neçə dəfə Ərdəbildən sürgün edildi. Sürgündə olarkən Şeyx Cüneyd Anadoluda və Suriyada geniş təbliğat apararaq mürid dairəsini daha da genişləndirdi və özünün messianistik rolunu təsdiqlədi. Onun fəaliyyəti nəticəsində Şeyxliyin tərəfdarları fərqləndirici qırmızı başlıq (türkcə: tac-i Heydəri) taxmağa başladılar ki, bu da onlara Qızılbaş adının verilməsinə səbəb oldu [4, s.115]. Qızılbaş hərəkatı, Səfəviyyə ideologiyasını türk dövlətçilik ənənəsi ilə birləşdirən yeni bir siyasi güc idi. Şeyx Cüneydin siyasətini oğlu Şeyx Heydər daha da kəskinləşdirdi. O, Qızılbaş tayfalarının (əsasən Ustaclı, Şamlı, Təkəli, Əfşar, Qacar və s.) hərbi təşkilatlanmasını gücləndirdi və xristian gürcülərə qarşı "qazavat" adı altında hərbi yürüşlər təşkil etməklə müridlərinin döyüş təcrübəsini artırdı. Məhz Şeyx Heydərin rəhbərliyi ilə Ərdəbil şeyxliyi artıq mənəvi mərkəz olmaqdan çıxıb, Azərbaycanı və ətraf türk bölgələrini birləşdirmək iddialı olan real bir hərbi-siyasi qüvvəyə çevrildi. Professor Zabil Bayramlı öz əsərində bu prosesi təhlil edərək qeyd edir ki, Səfəvi Dövləti şeyxliyin birbaşa siyasi nəticəsi idi və "onun etnik bazası, hərbi gücü və idarəetmə kadrları əsasən Anadolu və Azərbaycanda yaşayan türkmən-qızılbaş tayfalarından təşkil olunmuşdu" [1, s.75]. Bu, şeyxliyin ümumtürk dünyasındakı yerini izah edən mühüm amildir: Ərdəbil mərkəzi XV əsrdə parçalanmış türk etnosunu vahid ideologiya və dövlətçilik bayrağı altında toplayaraq, Şərqdə yeni bir imperiyanın – Səfəviyyə-Qızılbaş dövlətinin yaranmasına şərait yaratdı [1, s.80]. Bu dövlət, sonrakı əsrlərdə regionun geosiyasi və mədəni simasını kökündən dəyişdirdi.

Ərdəbil şeyxliyinin mədəni və mənəvi irsi. Ərdəbil şeyxliyi yalnız hərbi-siyasi deyil, həm də mədəni-mənəvi cəhətdən ümumtürk dünyasına dərin təsir göstərmişdir. Şeyxliyin banisi Şeyx Səfiəddin dövründən başlayaraq inkişaf edən Səfəviyyə təriqəti, mənəvi təsəvvüf hərəkatı ilə şiəliyin bəzi elementlərini birləşdirərək unikal bir ideoloji sintez yaratdı [2, s.70]. Bu sintez sonradan Qızılbaş ideologiyasının əsasını təşkil etdi. Şeyx İsmayılın rəhbərliyi altında 1501-ci ildə Səfəvi dövləti qurulduqda, bu ideologiya rəsmi dövlət dini elan edildi. Bu hadisə təkcə Azərbaycanda deyil, bütün Yaxın Şərqdə dini-siyasi mənzərəni köklü şəkildə dəyişdirdi. Ərdəbil ocağının əhəmiyyəti türk dili və ədəbiyyatı sahəsində də özünü göstərir. Qızılbaş rəhbərlərinin, xüsusilə Şah İsmayıl Xətainin Azərbaycan türkcəsində yazdığı şeirlər və rəsmi yazışmalar bu dilin Səfəvi imperiyasının saray və ordusunda əsas ünsiyyət vasitəsi kimi möhkəmlənməsinə səbəb oldu [6, s.145]. Beləliklə, Ərdəbil şeyxliyi türk dövlətçiliyini bərpa etməklə yanaşı, ortaq türk mədəniyyətinin yayılmasına və inkişafına da mühüm töhfə vermişdir.

Nəticə: Tədqiqat nəticəsində aydın olur ki, Ərdəbil şeyxliyi ümumtürk dünyasında təməlqoyucu və transformasiyaedici bir rol oynamışdır. Şeyx Səfiəddin Ər-

dəbilinin mənəvi rəhbərliyi ilə başlayan Səfəviyyə təriqəti [1, s.45], Şeyx Cüneyd və Şeyx Heydərin rəhbərliyi altında hərbi-siyasi hərəkata – Qızılbaş ideologiyasına çevrilmişdir. Bu çevrilmə XV əsrin ikinci yarısında regionda hökm sürən qeyri-sabitlik şəraitində parçalanmış türk tayfalarını vahid dini və siyasi bayraq altında toplayan əsas amil oldu. Ərdəbil şeyxliyinin Ümumtürk dünyasındakı yeri ilk növbədə onun Azərbaycan türk dövlətçiliyinin bərpasına gətirib çıxarması ilə ölçülür. Qızılbaşlar tərəfindən qurulan Səfəvi dövləti, Şah İsmayıl Xətainin simasında, Anadoludan Mərkəzi Asiyaya qədər uzanan ərazilərdə türk tayfalarının geosiyasi qüvvəsini bərpa etdi. Beləliklə, Ərdəbil ocağı təkcə dini və iqtisadi mərkəz yox, həm də yeni, güclü türk imperiyasının – Səfəviyyənin yaranmasına zəmin hazırlayan siyasi körpü funksiyasını yerinə yetirmişdir [5, s.180]. Şeyxliyin irsi bu gün də türk xalqlarının tarix şüurunda mühüm yer tutur.

Ədəbiyyat siyahısı:

1.Bayramlı Z. H. Azərbaycan Səfəvi Dövləti (Yaranması, İnkişafı və Tənəzzülü). Bakı: Bakı Dövlət Universitetinin Nəşriyyatı, 2018, 360 s.
2.Həsənov S. Səfəvi Şeyxlərinin Tarixi. Bakı: Elm və Təhsil, 2010, 264 s.
3.Musalı N. Şeyx Cüneyd və Şeyx Heydərin Hərbi-Siyasi Fəaliyyəti. Bakı: Çinar-Çap, 2005, 156 s.
4.Oqtay T. Azərbaycan Tarixi. Bakı: ADPU Nəşriyyatı, 2008, 350 s.
5.Sümer F. Safevi Devletinin Kuruluşu ve Gelişmesinde Anadolu Türklerinin Rolü. Ankara: Türk Tarih Kurumu Yayınları, 1976, s. 265 s.
6.Təbrizi İskəndər Bəy Münşi. Tarix-i Aləmara-yi Abbasi (Şah Abbasın Dünyanı Bəzəyən Tarixi). Bakı: Şərq-Qərb, 2010, 792 s.

ŞİRVANŞAH III MƏNUÇÖHR DÖVRÜNDƏ AZƏRBAYCAN-GÜRCÜSTAN MÜNASİBƏTLƏRİ

Rəfiqə Yunusova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasının I kurs magistrantı
refiqeyunusova@icloud.com
Elmi rəhbər: dosent Yunis Nəsibli

Açar sözlər: *Azərbaycan, Gürcüstan, Qafqaz, diplomatik münasibətlər, siyasi tarix*
Keywords: *Azerbaijan, Georgia, Caucasus, diplomatic relations, political history*

Giriş. XII əsrin ilk yarısı Cənubi Qafqazda mürəkkəb siyasi proseslərin getdiyi, regional güclər arasında nüfuz uğrunda mübarizənin kəskinləşdiyi bir dövr kimi səciyyələnir. Bu dövrdə bölgədə fəaliyyət göstərən əsas siyasi faktorlardan biri Şirvanşahlar dövləti idi və Şirvanşah III Mənuçöhrün (1120–1160) hakimiyyəti ölkənin xarici siyasət istiqamətlərinin formalaşmasında mühüm mərhələ təşkil edirdi. Onun dövründə Şirvan həm Səlcuq imperiyasının təsiri altında balanslı siyasət yürütməyə çalışır, həm də şimal və qərb istiqamətlərindən artan təhlükələrə cavab vermək məcburiyyətində qalırdı.

Bu təhlükələrdən ən mühümü Gürcüstan krallığının bölgədə güclənməsi idi. XI əsrin sonlarından etibarən Baqratlılar tərəfindən birləşdirilən və siyasi mərkəzləşməni tamamlayan Gürcüstan XII əsrdə Qafqazda aparıcı güc olmaq iddiası ilə çıxış edirdi.

Bu dövrlər ərzində Bizansın xarici siyasətində Qafqaz mühüm rol oynayırdı. Bizansın Gürcüstana təsiri isə siyasi və sosial baxımdan, əsasən Gürcüstan olmaqla, Ermənistan və Cənubi Qafqaz regionuna bir çox cəhətdən təsir etmişdir [6, s.331-332].

Gürcüstanın əvvəlki əsrdə Bizansla yaxın siyasi əlaqələri, Səlcuq yürüşləri fonunda hərbi potensialının artması və daxili feodal parçalanmanın aradan qaldırılması onu regionda daha aktiv və ekspansiv siyasət yürütməyə vadar edirdi.

Feodal dövründə həm Qərb, həm də Şərq ölkələrində aparıcı və əsas xarici ticarət mövcud idi. Bu baxımdan feodal Gürcüstan da istisna deyildi. Bu proseslər XII əsrdə Gürcüstan–Şirvan münasibətlərinin gərgin və bəzən müharibələrlə müşayiət olunan xarakter almasında həlledici rol oynadı [7, s.36].

Tədqiqatın aktuallığı ondan ibarətdir ki, Mənuçöhr dövründə Azərbaycan–Gürcüstan münasibətləri təkcə iki dövlətin siyasi əlaqələrini deyil, həm də ümumilikdə Cənubi Qafqazın geosiyasi inkişaf trayektoriyasını müəyyənləşdirmişdir. Şirvanın Gürcüstanla münasibətlərində müharibə, diplomatiya, sülh sazişləri, ittifaqlar və iqtisadi-strateji maraqlar kimi məsələlərin araşdırılması XII əsr region tarixinin daha dolğun şəkildə anlaşılması üçün zəruridir.

Bu tezisdə məqsəd Şirvanşah III Mənuçöhr dövründə Azərbaycan–Gürcüstan münasibətlərinin mahiyyətini, onların formalaşmasına təsir edən amilləri, münasibətlərin siyasi, hərbi və diplomatik aspektlərini araşdırmaq, həmçinin həmin münasibətlərin Cənubi Qafqaz tarixində oynadığı rolu müəyyənləşdirməkdən ibarətdir.

Şirvanşah III Mənuçöhrün hakimiyyət dövrü və siyasi vəziyyət. Şirvanşah III Mənuçöhrün (1120–1160) hakimiyyəti Şirvanşahlar dövlətinin siyasi tarixində mühüm mərhələ hesab olunur. Onun hakimiyyətə gəldiyi dövrdə Şirvan daxili sabitliyə malik olsa da, ölkənin xarici mühitlə bağlı qarşılaşdığı təhdidlər əvvəlki əsrlərlə müqayisədə daha kəskin xarakter almışdı. XII əsrin birinci yarısında Cənubi Qafqazda qüvvələr balansı dəyişir, Gürcüstan krallığı güclənir, Səlcuq imperiyası isə tədricən zəifləyirdi. Bu amillər Şirvanın xarici siyasət strategiyasını müəyyən edən əsas faktorlardan biri oldu.

III Mənuçöhrün hakimiyyəti dövründə Şirvanşahlar dövləti mərkəzləşmiş idarəetmə prinsiplərini qoruyub saxlayırdı. Şirvan uzun müddət ərzində nisbətən sabit siyasi quruluş kimi formalaşmış, yerli feodal təbəqə Şirvanşah hakimiyyətinə tam tabe olmuşdu. Şirvanın iqtisadi və siyasi mərkəzi olan Şamaxı şəhəri regionun ən mühüm şəhərlərindən biri olaraq qalırdı. Mənuçöhrün hakimiyyəti ölkədən keçən ticarət yollarına nəzarəti davam etdirməklə dövlətin iqtisadi dayaqlarını möhkəmləndirirdi.

Bununla belə, Şirvan coğrafi mövqeyinə görə həm şimaldan köçəri tayfaların basqınları, həm də qərbdən Gürcüstanın genişlənmə siyasəti üçün açıq hədəfə çevrilirdi. Bu səbəbdən Mənuçöhr daxili sabitliyi qorumaqla yanaşı, müdafiə qabiliyyətinin gücləndirilməsinə xüsusi diqqət yetirirdi.

III Mənuçöhr hakimiyyətə gəldiyi zaman Səlcuq imperiyası hələ də regionun əsas siyasi gücü idi və Şirvanşahlar formal olaraq Səlcuqlara tabe sayılırdı. Lakin XII əsrin ortalarında imperiyanın zəifləməsi Şirvana müəyyən siyasi manevr imkanları yaratdı. Bu dövrdə Şirvanşahlar daha müstəqil xarici siyasət yürütməyə, xüsusilə Gürcüstan və Qafqaz Albaniyası istiqamətlərində balanslı mövqe tutmağa çalışırdı.

III Mənuçöhr dövründə Azərbaycan–Gürcüstan münasibətləri. Şirvanşah III Mənuçöhrün hakimiyyətə gəldiyi XII əsrin birinci rübü Azərbaycan–Gürcüstan münasibətlərinin həm gərginləşdiyi, həm də strateji baxımdan əhəmiyyətli bir dövr olmuşdur. Bu mərhələ, həm Səlcuq imperiyasının zəifləməsi, həm Gürcüstanın güclənməsi, həm də Şirvanın iki böyük güc arasında qalması ilə səciyyələnir. Mənbələr göstərir ki, bu dövrdə münasibətlər müharibə, sülh, diplomatik evliliklər və dəyişən siyasi ittifaqlarla müəyyən olunurdu.

Gürcüstanın Şirvan işlərinə müdaxiləsi. Mənbələrə görə, Şirvanşah Əfridunun oğlu Mənuçöhr təxminən 1111-ci ildə Gürcü kralı IV Davidin qızı Tamarla evlənmişdir [1, s.160].

Bir qızını Bizansa, digərini isə Şirvana ərə vermiş gürcü hökmdarı Qurucu David Şirvanşahla dil tapıb, səlcuqlar əleyhinə mübarizədə onun yardımından istifadə etmək fikrində idi. Lakin Əfridun əvvəlki kimi, türklərə daha çox meyil göstərirdi.

Bu evlilik hər iki tərəf üçün siyasi məqsədlər daşıyırdı. Gürcüstan bu vasitə ilə Şirvan üzərində nüfuz qazanmağa çalışır, Şirvanşahlar isə Səlcuq təzyiqinə qarşı güclü müttəfiq əldə etməyə ümid edirdilər.

Lakin bu nikah gözlənilən nəticəni vermədi. Əksinə, Gürcü hökmdarları bunu Şirvana təsir göstərmək üçün bir vasitəyə çevirdilər.

Mənbələr xəbər verir ki, IV David evlilikdən qısa müddət sonra Şirvan torpaqlarına hücumlar təşkil etmiş, xüsusilə oğlu Demetrinin yürüşləri Şirvan üçün ciddi itkilər yaratmışdır [5, s.82].

Kaladzor qalasının alınması və 1120-ci il hücumları Gürcüstanın bu dövrdə Şirvanı zəif həlqə kimi görməsinin nəticəsi idi.

Regiondakı səlcuq və qıpçaq təsirləri. XII əsrin əvvəllərində Gürcüstan həm qıpçaqların, həm də səlcuqların təzyiqi altında idi. IV Davidin qıpçaq bəyi Şəraqənin oğlu Ətrəkin qızı Quranduxtla evlənməsi və 40 min qıpçağın Gürcüstana yerləşdirilməsi ölkənin hərbi potensialını əhəmiyyətli dərəcədə yüksəltmişdi. Bu vəziyyət Şirvan üçün yeni təhlükə yaradırdı, çünki güclənmiş Gürcüstan həm səlcuqlara qarşı mübarizədə üstün mövqeyə çıxmış, həm də Şirvana qarşı genişlənmə siyasətinə başlamışdı. Əfridun və Mənuçöhrün Gürcü krallığı ilə qohumluq yaratmaq cəhdləri, əslində, həm qıpçaq təhlükəsindən, həm də səlcuq təhdidindən yayınmaq məqsədi daşıyırdı. Lakin regiondakı qüvvələr nisbəti dəyişdikcə Siyavur və Mənuçöhr kimi Şirvanşahlar da öz siyasi kurslarını dəyişməyə məcbur qalırdılar.

Şirvanın siyasi istiqamətinin dəyişməsi. 1121-ci ildə Didqori döyüşü Cənubi Qafqaz tarixində dönüş nöqtəsi oldu. Gürcü ordusunun Səlcuq koalisiya güclərini darmadağın etməsi nəticəsində regionda güc balansı Gürcüstanın xeyrinə dəyişdi.

Didqoridən sonra 1122-ci ildə Tiflisin və Dmanisinin alınması Gürcüstanı Qafqazın aparıcı gücünə çevirdi.

Bu hadisələr birbaşa Şirvanşah III Mənuçöhrün siyasətinə təsir etdi. Mənuçöhr əvvəlki kimi səlcuqlara bağlı qalmağın təhlükəli olduğunu görərək siyasi xəttini dəyişdi və Gürcüstanla yaxınlaşmağa başladı. Mənbələrə görə, bu dəyişikliyə Mənuçöhrün həyat yoldaşı Tamarın saraydakı nüfuzu da təsir etmişdir.

Səlcuqluların Şirvana yürüşü. Şirvanın bir neçə əmiri Sultan Mahmudun yanına gəlib, Şirvanşah III Mənuçöhrün (1120-ci ildən 1160-cı ilədək) fəaliyyətsizliyindən, gürcülərin təzyiqindən ona şikayət etdilər və sultana "özlərinin zəifliyini, öz ölkələrini qorumağa imkanları olmadığını" bildirdilər [3, s.17], [4,195].

1123-cü ildə Səlcuq sultanı Mahmud ibn Məhəmməd Şirvana yürüş edərək Şamaxını ələ keçirmiş, Şirvanşahı əsir almış və Gürcüstana qarşı yürüşə hazırlıq görmüşdür. Bu məlumat həm gürcü "Kartlis Tskhovreba" salnaməsində, həm də fars mənbələrində öz əksini tapmışdır.

Gürcü ordusunun Şirvana gələrək Aqsunqur və Əhmədilinin dəstələrini məğlub etməsi, sultanın Şamaxını tərk edib geri çəkilməsi göstərir ki, bölgədə artıq söz sahibi Gürcüstan idi. Şirvan isə həmin dövrdə iki güc arasında manevr edən, öz müstəqilliyini qorumağa çalışan kiçik, lakin strateji əhəmiyyətli dövlət kimi çıxış edirdi.

Hərbi-siyasi ittifaqın möhkəmlənməsi və iqtisadi əlaqələr. 1123-cü ildə Sultan Şirvanı işğal etsə də, Davidin ona qarşı hərəkətə keçməsi ilə geri çəkildi. Həmin əməliyyatlar zamanı gürcülər Arran atabəyi Ağsunqurun 4000 nəfərlik qüvvəsini məğlubiyyətə uğratdılar [5, s.85].

Bu hərbi uğur və Sultanın geri çəkilməsi Şirvanşah III Mənuçöhrün xarici siyasətində Gürcüstanla yaxınlaşma xəttini qəti şəkildə möhkəmləndirdi. Tarixi mənbələr təsdiqləyir ki, regionda yaranmış yeni geosiyasi reallıq Şirvanın hərbi potensialının Gürcüstanın genişlənmə siyasəti ilə uzlaşmasına şərait yaratmışdı. Xüsusilə 1124-cü ildə Gürcü çarı IV Davidin Şəddadilər üzərinə, Ani şəhərinə təşkil etdiyi yürüşdə Şirvanşahın dəstəyi bu ittifaqın canlı sübutu kimi göstərilə bilərdi. Bu fakt, Şirvanın artıq Səlcuq imperiyasının vassal asılılığından çıxaraq regional siyasətdə aktiv iştirakçıya çevrildiyini göstərir.

Şirvanın öz istiqlaliyyətini bərpa edə bildiyi bu illərdə Şirvanşahlar dövləti III Mənuçöhrün başçılığı ilə gücləndi və çiçəkləndi. Şirvanın bu tərəqqi dövrü Səlcuq imperiyasının tənəzzülü zamanına düşdü. Bu dövrdə Mənuçöhr öz dövlətini xeyli möhkəmləndirdi. Şirvan sərhədlərini genişləndirmək məqsədilə qonşu ölkələrə yürüşlər təşkil etdi, çox güman, IV Davidin Gürcüstanda yerləşdirdiyi qıpçaqların qiyamını da o yatırdı, Arranı fəth etdi [2, s.253].

Siyasi yaxınlaşma iqtisadi və mədəni əlaqələrin inkişafına da güclü təkan vermişdir. Tiflisin azad edilməsi və Şirvanın ticarət yolları üzərindəki nəzarəti Cənubi Qafqazın vahid iqtisadi məkana inteqrasiyasını sürətləndirirdi. Şəhər həyatının canlanması və sənətkarlığın inkişafı bu dövrün xarakterik xüsusiyyətlərindən idi. Mənbələrə görə, region şəhərlərinin iqtisadi yüksəlişi və ticarət yollarının təhlükə-

sizliyi Şirvanla Gürcüstan arasındakı mal mübadiləsini artırmış, bu da III Mənuçöhrün xəzinəsinin zənginləşməsində mühüm rol oynamışdır. Beləliklə, III Mənuçöhrün hakimiyyətinin ikinci dövrü Azərbaycan-Gürcüstan münasibətlərinin ən məhsuldar və qarşılıqlı faydalı mərhələsi kimi xarakterizə edilə bilər.

Nəticə. XII əsrin birinci yarısında Cənubi Qafqazda baş verən mürəkkəb siyasi hadisələr fonunda Şirvanşah III Mənuçöhrün hakimiyyəti Azərbaycan–Gürcüstan münasibətlərinin formalaşmasında mühüm rol oynamışdır. Səlcuq imperiyasının zəifləməsi, Gürcüstanın isə IV David və onun varisləri dövründə sürətlə güclənməsi regionda qüvvələr balansını dəyişdirmiş və Şirvanın xarici siyasətini birbaşa müəyyən etmişdir.

Mənbələrə əsasən, Şirvanşahın İraq Səlcuqlarından asılılığı həm yazılı salnamələrdə, həm də numizmatik materiallarda özünü göstərməkdədir. Şirvanşah Əfridun və onun oğlu Mənuçöhrün Gürcü şahzadələri ilə qurduğu qohumluq əlaqələri hər iki tərəf üçün siyasi məqsədlər daşıyırdı. IV Davidin qızı Tamarın Mənuçöhrə ərə verilməsi Şirvan üçün Səlcuq təhlükəsinə qarşı müttəfiqlik yaratmaq məqsədi daşısa da, əksinə, Gürcüstan hökmdarlarının Şirvan işlərinə daha açıq qarışmasına gətirib çıxardı.

1117–1120-ci illərdə gürcü qoşunlarının Şirvana yürüşləri, Kaladzor qalasının, Qəbələ və bir sıra digər şəhərlərin ələ keçirilməsi münasibətlərin açıq şəkildə gərgin xarakter aldığını göstərir. Didqori döyüşündən (1121) sonra Gürcüstanın bölgədə ən güclü siyasi qüvvəyə çevrilməsi III Mənuçöhrün siyasi kursunda dönüş yaratmış, o, əvvəlki kimi Səlcuq sultanına bağlılıq siyasətindən uzaqlaşaraq Gürcüstanın tərəfinə keçmişdir. Gürcü mənbələri (Kartlis Tskhovreba) və fars salnamələri Şirvanda baş vermiş hadisələri təsdiq edir və göstərir ki, Şirvanşahın bu siyasət dəyişikliyi sultan Mahmudun 1123-cü ildə Şirvana cəza yürüşü ilə nəticələnmişdir.

Tədqiqat göstərir ki, III Mənuçöhrün dövründə Azərbaycan–Gürcüstan münasibətləri sabit və davamlı deyil, əksinə, siyasi şəraitdən asılı olaraq dəyişkən, gərgin və çoxtərəfli olmuşdur. Həm hərbi qarşıdurmalar, həm qohumluq bağları, həm də regional güc balansının dəyişməsi Şirvanın diplomatik xəttini müəyyən edən əsas amillər olmuşdur. Bu dövrdə Şirvan həm Səlcuq imperiyası, həm də güclənən Gürcüstan arasında balans yaratmağa çalışan müstəqil siyasi faktor kimi çıxış etmişdir.

Ədəbiyyat siyahısı:

1. *Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı: Avrasiya Press, 2006, 451 s.*
2. *Azərbaycan Tarixi. Yeddi Cilddə. II Cild: III-XIII əsrin I rübü. Bakı: Elm, 2007, 491s.*
3. *Bünyadov Z. M. Azərbaycan Atabəyləri dövləti. Bakı: Şərq-Qərb, 2007, 258 s.*
4. *Kartlis Tskhovreba (Gürcü Salnamələri). Red. S. Kaukhchishvili. Tbilisi: 1955, 444s.*
5. *Minorsky V. Studies in Caucasian History. Cambridge University Press, 1953, 203 s.*
6. *Ercan, Ayşe Beyza, "The Byzantine Empire in the Kingdom of Georgia's Foreign Policy in the 11th Century", Karadeniz Araştırmaları Enstitüsü Dergisi, 6/11, ss.331-344.*
7. *Габашвили М. В. Города Грузии XI–XII веков. Тбилиси: Мецниереба, 1968, 260 с. (на грузинском языке).*

TÜRK-İSLAM CƏMİYYƏTLƏRİNDƏ VƏQF İNSTİTUNUN SOSİAL-İQTİSADİ ROLU (XVIII-XIX ƏSRİN I YARISI)

Emin Məcidli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasının I kurs magistrantı
emin.macidli.elchin@bsu.edu.az
Elmi rəhbər: dosent Rəsul Hüseynli

Açar sözlər: *vəqf institutu, torpaq mülkiyyəti, ruhani zümrəsi, XVIII-XIX əsr vəqfləri, Türk-islam dünyasında vəqf*
Keywords: *waqf institution,land property,religious clergy, waqfs of the 18th–19th centuries, waqf in the Turkic–Islamic world*

Giriş. Türk-İslam dünyasında vəqf institunun formalaşması sosial-ictimai, iqtisadi, dini-mədəni həyatın inkişafı və formalaşmasında əsas rol oynayan ünsürlərdən biri olmuşdur. XVIII-XIX əsrin I yarısında həm Türk-İslam dünyasında, həm də Azərbaycanda torpaq mülkiyyəti üzərində müxtəlif tənzimlənmələr aparıldığı dövrdür. Tək Azərbaycanda XIX əsrdə müxtəlif qərarlar əsasında torpaq mülkiyyətin üzərində dəyişikliklər aparılmışdır. Vəqf institutunun cəmiyyətdə oynadığı rol mühüm əhəmiyyət kəsb edir. Vəqf yalnız dini-mədəni deyil, onun gəliri ilə təhsil ocaqları, sosial təhlükəsizlik, tibbi və dini ocaqların maliyələşdirilməsi baxımından da önəm daşıyır. XIX əsrin I yarısından başlayaraq Azərbaycanda,Osmanlıda həm də ümumtürk dünyasında vəqf institunda aparılan dəyişikliklər tam təhlil edilməmişdir.Son on ildə aparılan tədqiqatlarda vəqf institunun önəmi ətraflı surətdə araşdırılır və müqayisəli şəkildə təhlil edilir.Bizdə tədqiqatımızda müqayisəli-tarixi yanaşma üsulundan istifadə edərək, XVIII-XIX əsrın I yarısında Türk-İslam dünyasında vəqf institundabaş vermiş dəyişikliklər və bunun dövlətlərin sosial-iqtisadi strukturuna təsirini araşdırmağa çalışırıq.

Vəqf instituna ümumi baxış: XVIII-XIX əsrlər Türk-İslam coğrafiyasında torpaq münasibətlərinin strukturu və ictimai həyata təsiri öyrənilməsi göstərir ki,vəqf institu dövlət idarəçiliyinin və yerli əhalinin həyatının ayrılmaz hissəsi olaraq xüsusi əhəmiyyət kəsb etmişdir. Vəqf islam ölkələrində din və xeyriyyə məqsədi ilə bağışlanan torpaq mülkiyyət forması olub. Azərbaycan tarixşünaslığında Ziya Bünyadov vəqfi "Allahın mülkiyyəti" olaraq qeyd edərək vəqfin dini önəmini vurğulamışdır [1, s.151].

Akademik ədəbiyyatda geniş surətdə qeyd olunur ki, Qurani-Kərim və hüquqi mənbələrdə vəqf termini qeyd olunmayıb.Lakin "Allah yolunda malların xərclənməsi" "sədəqə" kimi fikirləri iddia edən ayələrdə (Bəqərə 2/261-274) vəqf institunun dini legitimliyinin əsas mənbələrindən biri kimi şərh olunur [10, s.479].

Vəqf həm lüğəvi, həm də hüquqi anlamda müxtəlif mənalar daşıyır.Lüğəvi olaraq vəqf "qoruyub saxlamaq", hüquqi olaraq isə "əmlakın saxlanması, mənfəətin qaydaya salınması deməkdir" [3, s131]. Vəqf mülkləri bəzən bir əmlakdan ibarət olur,bəzən isə bir neçə əmlakı əhatə edən vahid kompleks şəkildə təşkil edilirdi [10, s.480].

Vəqf mülkiyyətinin idarəsi üçün xüsusi idarəetmə mexanizmləri yaradılmışdı.Azərbaycan xanlıqları dövründə bu qurum "moqutat dəftəri" adlanırdı. Həmən qurumlar xanlıq ərazisində olan bütün vəqfləri nəzarət altında saxlayır və onlara sərəncamlar verirdi. Vəqfi idarə edən şəxs mütəvəlli adlanırdıVəqfdar mütəvəllini təyin edir, əgər vəfat edərsə yeni mütəvəllini şeyxülislam, qazılar təyin ediblər. Mütəvəlli vəqfin tam sahibkarı sayılmırdı.Vəqf mülkiyyəti daxilində olan gəlirləri idarə edirdi. Torpağı nə sata nədə bağışlama hüququ var idi. Şəriət hüququna əsasən vəqf mülkiyyətini satmaq olmazdı. Xüsusi hallar olarsa əgər o zaman vəqf mülkiyyətinin satılmasına icazə verilirdi. Bu hallara "Vəqf edilmiş əmlak yararsız hala düşərsə, Vəqfdarlar arasında ixtilaf yaranarsa" vəqf əmlakı satıla bilərdi. Türk-İslam coğrafıyasında dağılmış, yararsız halda olan torpaqların vəqf mülkü olaraq yenidən can qazandığını görməyimizdə mümkündür [3, s.132;10, s.481].

Vəqf mülkiyyəti öz xüsusiyyətləri ilə digər mülkiyyət növlərindən spesifik xüsusiyyətlərinə görə kəskin fərqlənir. Vəqf müəlkiyyəti dövlət vergisindən azad idi,gəlirindən həm dini institutlar, həm də sosial ehtiyaclar üçün istifadə olunurdu. İbn Bəttutə öz məşhur "Səyahətnamə" əsərində vəqf mülkiyyətinin gəlirlərinin istifadəsi baradə qeyd edir ki," Həccə getməyənləri həccə göndərmək, evlənə bilməmiş qızların cehizini almaq, Əsirləri hürriyətə qovuşturmaq" kimi müxtəlif ehtiyaclar üçün xərclənmişdir [10, s.481].

Azərbaycanda Vəqf İnstitutu (XVIII–XIX əsrin I yarısı): Türk-İslam coğrafiyasındakı ümumi vəqf strukturu əsasında XVIII-XIX əsrin I yarısında Azərbaycan ərazisində formalaşmış vəqf torpaqları özünəməxsus xüsusiyyətləri ilə seçilir və xalqın sosial-iqtisadi həyatın təşkilində önəmli rol oynayır. Səfəvilər dövründə vəqf torpaqları önəmli sayılırdı. Nadir şah Əfşar hakimiyyəti dövründə həyata keçirməyi planlaşdırdığı dini siyasətdə ruhanilərin təsir imkanlarının ciddi manea yarada biləcəyini dərk edərək, onların siyasi nüfuzunu zəiflətmək məqsədilə vəqf mülklərini dövlətin sərəncamına keçirmişdir. Nadir şahın ölümündən sonra isə xanlıqlar dövründə yerli hakimlər bu mülkləri yenidən ruhanilərə qaytarmışlar [2, s.109].

Qeyd olunan dövrlərdə faktiki olaraq nə qədər ərazinin vəqf torpağı sayıldığı məlum deyildi. Vəqf mülkləri xan xəzinəsi xeyrinə vergi və mükəlləfiyətdən azad edilmişdir. Müqəddəs tikililərdə alim, şeyxlərin zaviyəsi olurdu.Həmin şeyxlərin xalq və xanlıqlar üzərində nüfuzu çox önəmli olmuşdur.Bu səbəbdən onların vəqf mülkləri daima artmışdır [3, s.137].

Azərbaycan ərazisində bir çox məşhur vəqflər olmuşdur. Onlardan biri Bibi-Heybət məqbərəsinin vəqfi idi. Quba xanı Fətəli xanın 1789-cu il ölümündən sonra oğlu Əhməd xan onu Bibi-Heybət məqbərəsinin yanında dəfn etmiş, həmin məqbərəyə mütəvəlli olaraq Şeyx Ələsgəri təyin etmişdi.Xalqa Şeyx Ələsgərə mütləq şəkildə hörmət edilməsi bildirilmişdir.Bibi-heybət məqbərəsinin ərazisi artmışdır [9, s.18]. Bibi-heybət məqbərəsinə bəzi kəndlərdə iqtisadi fəaliyyəti təmin edən torpaqlar aid edilmişdir. Qarabağ xanlığı ərazisində Azərbaycan tarixində önəmli sayılan Gövhər ağa məscidi vəqfidə qeyd edilməlidir.1768-ci ildə Şuşa-

da tikilmiş Gövhərağa məscidinə Qarazıxa, Maqsudlu, Qubadlu mahalında Eloğlu kəndləri daxil edilmişdi [3, s.137; 6, s.62].

Ali Ruhanilərin başçılıq etdiyi dini qurumların vəqf torpaqları Azərbaycanda öz genişliyi ilə seçilirdi.Hüseyn Dəlili Cənubi Azərbaycanda dini fanatizmin çoxluğunu əsas gətirərək Cənubi Azərbaycan xanlıqlarındada vəqf mülklərin çoxluğunu qeyd etmişdi.Vəqf mülklərindən əldə olunan gəlirdə mənimsəmə hallarıda baş verirdi.Bütün sənədləşmə işləri ruhanilərin əlində toplaşmışdı [3, s.138]. XIX əsrdə Rusiya imperiyasının Cənubi Qafqaza doğru başlatdığı işğal dalğası vəqf mülkiyyətinin taleyinə ciddi təsir göstərdi.

Rus İmperiyası Azərbaycan ərazisində vəqflərlə ilk dəfə 1829-cu il əsasnaməsi ilə qarşılaşdı.Bu qanun vəqfləri iki hissəyə ayırırdı.Vəqflər mənəvi və xüsusi olaraq kateqoriyalara ayırılmış, xüsusi vəqflərin idarəsinin müəyyən müddətə ailələrə verilməsinə,daha sonra dövlət xəzinəsinə keçməsinə imkan yaratmışdır. Vəqflərin gəlirləri müvafiq olaraq dini müəssisələrə yönəlirdi. 1829-cu ildə verilən bu əsasnamə zamanı vəqf mülkiyyətinin idarəsində bir çox praktiki problemlər yaranmışdır. Bu probləmlərin qarşısının alınması üçün 1846-cı il əsasnaməsi tərtib olundu. Bu əsasnamə əsasında vəqf mallarının və gəlirinin sui istifadəsinin qarşısının alınması təmin olundu [8, s.1].

Osmanlı imperiyasında vəqf institutu(XVIII-XIX əsrin I yarısı): XVIII-XIX əsrin I yarısın Osmanlı imperiyasında vəqf mülkiyyəti dövlət idarəçiliyi,Sosial-iqtisadi münasibətlər və şəhər idarəçiliyində mühüm rol oynayan ən geniş yayılmış torpaq mülkiyyət formalarından biri kimi çıxış edirdi. Həmin dövrdə Osmanlı imperiyasında vəqf institunun gəlirləri son dərəcə geniş idi və vəqflərin illik gəlirləri dövlət xəzinəsinin ümumi gəlirlərinin təxminən yarısına bərabər olurdu. Tarixi mənbələrə əsasən, təkcə XVIII əsrdə Osmanlı ərazisində təxmini 6 min yeni vəqf qurulmuşdur [9, s.1].

Tarixi bir gerçəklik var ki,vəqfin iqtisadi gücü əsasında imperiyanın sosial həyatında xüsusi əhəmiyyət daşımışdır. Vəqf gəlirlərinin strukturunda 28.16% təhsilə, 30.75% dini məsələlərə, 10.51% sosial xeyriyə işlərinə , 6.5% hərbi təşkilatlara, 9.70% vəqfin idarəsinə ayrılması,Vəqfin Osmanlı cəmiyyətin funksional yönümlü institut olduğunu göstərir [9, s.2].

XIX əsr Osmanlı imperiyasında qərbyönümlü islahatları aparıldığı, idarəetmə və maliyyə sistemində nəzərə çarpacaq dəyişikliklərin olduğu bir dövr kimi xarakterizə olunur. Reformist siyasəti ilə seçilən Sultan II Mahmudun Hakimiyyəti dövründə dağınıq şəkildə olan vəqf torpaqlarının sabit şəkildə idarə olunması üçün Evkaf-ı Hümayun nəzarəti təşkil edildi [10, s.521].

Tarixi mənbələri araşdırdıqda bu təşkilatın əsası XVIII əsrin II yarısında I Əbdülhəmid tərəfindən qoyulmuşdur,lakin II Mahmudun dövründə təkminləşdirərək ilk öncə 1809 daha sonra 1826-cı ildə Evkaf-ı Hümayun nəzarəti qurulmuşdur..Təşkilatın Osmanlı gəlirlərinə müsbət mənada xeyir verməsi gözlənilirdi. Lakin Tənzimat dövründən sonra aparılan islahatlara baxmayaraq, idarəetmədə yaranan bürokratik pozuntular və maliyyə pozuntuları müəyyən problemlərə sə-

bəb olmuşdur. Nəticə qurumun gözlənilən səmərəliliyi tam şəkildə təmin olunmamışdır. Evkaf-I Hümayun nəzarəti 1924-cü ildə Türkiyə Böyük Millət Məclisinin qərarı ilə ləğv edilmişdir [7, s.523,524].

Orta Asiya xanlıqlarında vəqf institu(XVIII-XIX əsrin I yarısında): XVI-II–XIX əsrin I yarısında Orta Asiya xanlıqlarında vəqf institutu dini-mədrəsə həyatı, sosial yardım mexanizmləri və şəhər iqtisadiyyatının təşkili baxımından əsas strukturlardan biri kimi formalaşmış, yerli idarəçilik sisteminin mühüm dayağı olmuşdur.

Orta Asiya xanlıqlarından biri olan Xivə xanlığında vəqf xüsusi geniş yayılmış torpaq mülkiyyət formalarından biri olmuşdur. Tarixi mənbələrdə Rus işğalı ərəfəsində Xivə xanlığın əhalisinin 1 milyon nəfərə çatdığı,torpaq sahəsinin isə ümumi olaraq 681.000 desyatin olduğu qeyd olunur. Bu torpaqların 224.000 desyatini ümumi olaraq vəqf mülkləri kimi ayrılmışdır. Xanlar vəqf mülklərinə mütəmadi şəkildə hər il torpaq sahəsi bağışlanılır, əlavə olaraq dövlət hesabına məscid və mədrəsələrə taxıl bağışlanırdı. Məsələn Ərəb Məhəmmədxan mədrəsəsinə hər il 12 min batman taxıl bağışlanması ilə bağlı məlumatlar mövcuddur. Vəqf ərazilərinin sayı xanlığın bağışladığı əraziyə əlavə olaraq dağıdılmış şəkildə olan mülklərində birləşməsi ilə genişləyirdi. Xivə Xanlığından toplanılan bir illik vəqf gəliri 576 qızıl salgut təşkil etməsi bu mülkiyyət formasının iqtisadi qüdrətini göstərirdi. XIX əsrdə Rusların işğalı zamanı belə vəqf mülkiyyəti ənənəsi qalmış, lakin Ruslar tərəfindən bəzi dəyişikliklərə məruz qalmışdır [4, s.1,8,13-15].

Kokand xanlığında xanlarından olan Umar xan (1810-1822) sosial həssas qruplara yönəlmiş vəqf təsis edərək, xüsusi mülkiyyət yaratmışdı. Buxara, Xokand və Xivə xanlıqlarında vəqf institunun idarəçiliyi mütəvəllilər tərəfindən həyata keçirilir, lakin idarəetmədə yarana hər hansısa bir nöqsan onun vəzifədən kənarlaşdırılmasınasına səbəb olurdu. Daha sonra Vəqf mülkiyyəti dövlət nəzarətinə verilirdi. Vəqf gəlirlərinin mühüm bir qismi mədrəsələrin, dini-mədəni ocaqların və sosial təminat strukturlarının maliyyələşdirilməsinə yönəldilirdi ki, bu da vəqfin Orta Asiya cəmiyyətlərindəki çoxşaxəli sosial-iqtisadi funksiyasını təsdiq edir [4, s.15].

Nəticə: XVIII-XIX əsrin I yarısın Türk-İslam dünyasında vəqf institu sosial-iqtisadi, dini-mədəni və ictimai strukturların formalaşmasında mühüm rol oynayan bir sistem kimi fəaliyyət göstərmişdir. Tədqiqat göstərir ki, vəqf mülkiyyətinin hüquqi statusu ümumi İslam hüquq ənənəsinə əsaslansada, müxtəlif regionlarda onun tətbiqi və idarəetməsi fərqli şəkildə inkişaf etmişdir. Beləliklə, vəqf institutu bütün Türk-İslam coğrafiyasında cəmiyyət həyatının təşkilində əvəzsiz rol oynayan, həm dini legitimlik, həm də iqtisadi dayanıqlıq yaradan çoxşaxəli bir sistem olmuşdur.

Ədəbiyyat siyahısı:

1. *Bünyadov Z. Azərbaycan VII–IX əsrlərdə. Bakı: Şərq-Qərb, 2007, 424 s.*
2. *Hacıyeva Z. Qarabağ xanlığı: Sosial-iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı: Təhsil, 2007, 254 s.*
3. *Hüseynli R. Azərbaycan ruhaniliyi (xanlıqlar dövründən sovet işğalınadək). Bakı: Kür, 2002, 266 s.*

4. Kamolova N. P. History of Agricultural Traditions in the Khorezm Oasis (XIX Century–Early XX Centuries). Konya: Atlas Akademi, 2023, 131 p.
5. Musəvi T. Bakı tarixə dair orta əsr sənədləri. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1967, 150 s.
6. Mustafazadə T. Qarabağ xanlığı. Bakı: Sabah, 2010, 243 s.
7. Öztürk N. Evkaf-ı Hümâyun Nezareti, İslam Ansiklopediyası. https://islamansiklopedisi.org.tr/evkaf-i-humayun-nezareti (İstinad tarixi: 19.11.2025).
8. Tornau N. E. О праве собственности по мусульманскому законодательству. https://www.booksite.ru/fulltext/bro/kga/0/767.htm (İstinad tarixi: 19.11.2025).
9. Yediyıldız B. Vakıf müessesinin XVIII. asır türk toplumundaki rolü. 27 s.
10. Yediyıldız B. Vakıf, İslam Ansiklopediyası. https://islamansiklopedisi.org.tr/vakif (İstinad tarixi: 19.11.2025).

İRƏVAN XANLIĞI İLƏ OSMANLI İMPERİYASININ MÜNASİBƏTLƏRİ AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA

Zəhra Şərifzadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (təbiət fakültələri üzrə)" kafedrasının I kurs magistrantı
serifzade03@gmail.com
Elmi rəhbər: dosent Mehman Abdullayev

Açar sözlər: *İrəvan xanlığı, Osmanlı imperiyası, xarici siyasət, diplomatik münasibətlər, geosiyasi maraqlar*
Keywords: *Iravan Khanate, Ottomon Empire, foreign policy, diplomatic relations, Geopolitical interests*

Giriş: Nadir şah Əfşarın qətlindən sonra Əfşarlar imperiyası parçalanmış, onun ərazisində 20 xanlıq, 6 sultanlıq, 5 məliklik və 1 camaatlıq meydana gəlmişdir. Azərbaycan tarixində "Xanlıqlar dövrü" adlanan bu zaman kəsiyi həmçinin tariximizdə 2-ci feodal dağınıqlığı dövrü kimi səciyyələnir. Bu dövrdə yaranmış feodal dövlətlərin bir-biri ilə birləşməməsinin nəticəsidir ki, xüsusilə də Rusiya imperiyası, Osmanlı imperiyası, Kartli – Kaxetiya çarlığı, Qacarlar dövləti Azərbaycan ərazisini zəbt etmək üçün mübarizə aparmışdılar.

Azərbaycan ərazisində yaranmış və ərazisi hərbi-strateji mövqe cəhətdən olduqca əlverişli olan xanlıqlardan biri də əsası 1747-ci ildə Əfşarlar nəslindən olan Mir Mehdi xan tərəfindən qoyulan İrəvan xanlığı olmuşdur. İrəvan xanlığı daim qonşu dövlətlərin maraq obyekti olmuş, bu səbəbdən də öz müstəqilliyini qorumaq üçün xarici siyasətində həlledici addımlar atmağa məcbur olmuşdur. Bu araşdırmanın məqsədi isə onun mövcud olduğu illərdə (1747-1828) Osmanlı imperiyası ilə münasibətlərini ön plana çıxarmaqdır. Xanlığın bəzən müttəfiq, bəzən düşmən mövqedə durduğu Osmanlı imperiyasının onun tarixində olduqca əhəmiyyətli yeri olmuşdur.

İrəvan xanlığının tarixi dövrümüzə qədər geniş şəkildə araşdırılmaması mövzunun aktual olmasının başlıca səbəbidir. Tarixi torpaqlarımız 29 may 1918-ci ildə

zəruri siyasi vəziyyət yarandığı üçün ermənilərə güzəşt edilmiş, daha sonrakı dövrdə, Sovet dönəmində və hal-hazırda da Ermənistanın tərkibində qalmaqda davam edir [6, s.19-20]. Bu səbəbdən də xanlığın tarixi, xüsusən də Sovet dövründə araşdırmaya cəlb edilməmişdir. İrəvan ərazisini bizdən zorla alan ermənilər burada vaxtilə mövcud olmuş bu xanlğın tarixini idarəçiliyi azərbaycanlıların əlində olduğu üçün tədqiq etməyə səy göstərməmiş, təkcə Üç Kilsə monastırının keçmişini araşdırmışlar [6, s.25]. Lakin qeyd etmək lazımdır ki, xanlığın tarixi ilk dəfə olaraq erməni tarixçisi V. R. Qriqoryan tərəfindən işlənmiş, o xanlığın 1780-1800-cü illər tarixi haqqında dissertasiyasını müdafiə etmişdir [6, s.25]. Bundan başqa Azərbaycan tarixşünaslığında da xanlığn tarixi araşdırmaya cəlb edilmiş, lakin hələ də geniş şəkildə tədqiq olunmamışdır. Xanlığa aid sənədlər isə "Matenadaran"da və Moskva Dövlət Hərb Tarixi Arxivində (MDHTA) saxlanılır [6, s.25, 87].

Tədqiqat zamanı müqayisəli təhlil metodundan istifadə olunmuş, tarixşünaslığımızda xanlığa həsr olunmuş əsərlər qarşılaşdırılmış, Osmanlı ilə İrəvan xanlığının münasibətləri ümumiləşdirilmişdir.

İrəvan xanlığının Osmanlı ilə münasibətləri: Osmanlının İrəvan xanlığının qonşuluğunda yerləşməsi onun gürcü və rusların hücumlarından qorunmasında mühüm rol oynayırdı [2, s.414]. Osmanlının böyük rolundan biri də xanlığın ona arxalanaraq II İraklinin xanlığın ərazisində Gürcüstana zorla köçürdüyü ailələri geri qaytarmağı ondan tələb etmək idi [6, s.82]. Gürcüstanın tez-tez İrəvana yürüş etməsi və onu özünə tabe etməsi Osmanlının siyasi maraqlarına uyğun gəlmədiyinə görə o, İrəvan xanlığında bu siyasətin qarşısını almağa cəhd göstərmiş, hətta Axalsıx paşasına və erməni patriarxına II İraklini tənbeh etmək üçün vəzifə vermişdi [6, s.84].

Rusiyanın və Kartli – Kaxetiya çarlığının Azərbaycan torpaqlarında güclənməyini istəməyən Osmanlı onların siyasi planlarının pozulması üçün hər vəchlə səy göstərmiş, hətta xanlığa göndərdiyi məktubların birində iki dövlətin (Osmanlı imperiyası ilə İrəvan xanlığının) qonşu və dost olmasından bəhs etmiş, bununla yanaşı xanlığın özünü xarici hücumlardan müdafiə etməsi üçün İstanbuldan Qarsa xeyli top gətirilməsini əmr etmişdi [6, s.86-87].

Bəhs edilən dövrdə Osmanlı dövləti diplomatik yollardan istifadə edərək İrəvan xanlığını öz tərəfinə çəkməyə cəhd göstərmiş, və bir müddət onunla ittifaq bağlaya bilmişdi. Fuad Əliyev və Urfan Həsənov "İrəvan xanlığı" adlı kitablarında MDHTA-a istinad edərək Rusiyanın və Gürcüstanın İrəvan üzərində ağalıq etmək istədiyi dövrdə Osmanlının İrəvana çoxsaylı məktublar göndərməsi və İrəvanla müttəfiq olması barədə məlumatlar qeyd ediblər [6, s.88].

İrəvan xanlığının siyasi vəziyyətindəki qarışıqlıqdan istifadə edən Osmanlı imperiyası həm nikah diplomatiyası, həm də müsəlmanların xəlifəsi kimi İrəvan xanlığını, eləcə də Xoy xanlığını özünə tabe etməyə cəhd göstərmiş, lakin Gürcüstan (Kartli – Kaxetiya çarlığı) və Rusiyanın təzyiqlərindən sonra qoşunlarını geri çəkməyə məcbur olmuşdur [6, s.91-93; 8, s.57]. Bu uğursuzluqdan sonra Osmanlı diplomatik danışıqlar və qiymətli hədiyyələrlə (kürk üçün samur xəzi, daş-qaşla bəzənmiş saat, külli miqdarda məbləğə malik çervon) göndərməklə Azərbaycan

xanlarını və Dağıstanın bir sıra xanlarını öz tərəfinə çəkməyə nail olmuş, hətta bir müddət Qars, Axalsix, Trabzon, Ərzurum kimi şəhərlərində türk qoşunlarını rusların və gürcülərin üzərinə hücum etmək üçün hazır vəziyyətdə saxlamışdı [5, s. 534; 6, s. 94-96; 7, s. 35, 53]. Qeyd etmək yerinə düşərdi ki, Osmanlı imperiyası bu siyasətindən bir neçə dəfə fəal şəkildə istifadə etmişdi.

Lakin Osmanlının dəfələrlə İrəvanı özünə tabe etmək cəhdinə baxmayaraq, Qacarlara sözdə tabe olduğunu bildirmək üçün girov kimi sevmədiyi qardaşını göndərən İrəvan xanı Məhəmməd xan, eyni zamanda 1765-ci ildə Kartli – Kaxetiya çarı II İrakli birləşmiş və Qacarlara qarşı mübarizə aparmaq üçün İrəvan qalasında istehkam qurmuşdu, lakin Qacarların xanlığın bu siyasətindən xəbəri var idi [2, s.414; 6, s.97-100; 7, s.45-46, 78].

Osmanlı elçiləri 1768-1774-cü illər rus – türk müharibəsi dövründə İrəvan xanlığına, eləcə də digər xanlıqlara getmiş, onlardan rus qoşunlarının Azərbaycana buraxılmamasını istəmişdilər [6, s.96; 7, s.24, 65]. Osmanlı dövlətinin İrəvan xanlığına göndərdiyi elçilər onu Gürcüstan və Rusiya əleyhinə Osmanlı ilə birləşməsinə cəhd göstərir, İrəvan xanlığından isə mövcud siyasi vəziyyət qarşısında müsbət cavab alırdılar [6, s.95; 7, s.55-57]. Sözügedən dövrdə İrəvan xanı Hüseyn Əli xan ilə Xoylu Əhməd xanın Trabzon valisi ilə yazışmaları olmuş, gürcülərin rus qoşunlarına hərbi yardım təhlükəsi Osmanlıya bildirilmişdir [7, s.37]. İrəvan xanlığının Qars mühafizi İzzət Mehmed paşaya 1775-ci il 23 iyun tarixində göndərdiyi məktubda isə Fətəli xanın Dağıstanda ruslar ilə ittifaqda olmasından bəhs edirdi [7, s.38].

Osmanlının Azərbaycan xanları və Dağıstanın bir sıra yerli feodal hakimləri ilə birləşməsi haqqında 13 iyun 1785-ci ildə II İrakli Rusiyaya məlumat vermiş, ondan xüsusilə İrəvan və Gəncəni işğal etmək üçün əlavə hərbi təchizat tələb etmişdi [7, s.66].

II İraklinin 1787-ci il 22 noyabr tarixində İrəvana yürüşündən sonra İrəvan xanı noyabrın 26-da Zeynəlabdin adlı elçisini Osmanlıya danışıqlar aparmaq və ondan yardım istəmək üçün göndərmişdi [6, s.82; 7, s.82-83]. 1788-ci ilin 2 sentyabrında Osmanlı sultanı I Əbdülhəmid II İrakli ilə görüşdükdə onu öz yanına çəkmək istəmiş, II İrakli buna ilk başda razı olmasa da, sonradan müəyyən şərtlərlə Osmanlının Georgiyevsk müqaviləsinin ləğvi, ruslarla əlaqənin kəsilərək Gürcüstan yolunun bağlanması və Gəncə xanlığı ilə İrəvan xanlığının daxili işlərinə qarışmamaq kimi istəklərini qəbul etmişdi [1, s.166; 7, s.83-84].

1795-ci ildə İrəvan xanlığını da ələ keçirən qacarlar Tiflisdə ərzaq çatışmazlığı ilə üzləşərək Osmanlıya etdiyi müraciətlərində müsbət cavab almış, Osmanlı 1774-cü il və 1791-ci ildəki sülhlərdə uğursuzluq əldə etdiyi üçün Rusiya imperiyasına zərbə endirmək məqsədilə Qacarlara yardım etmişdi [6, s.101-102; 7, s.89-90]. Lakin 1796-cı ildə general Zubovun Azərbaycana yürüşü nəticəsində İrəvanı itirən Qacarlar yenə də Osmanlıdan kömək istədi, Osmanlı isə rusların burada möhkəmlənməsinin qarşısını almaq məqsədilə onlara yardım etməkdə davam etdi [6, s.102-104]. Bir-birinin ardınca baş verən siyasi hadisələr nəticəsində müttəfiq olan Osmanlı dövləti ilə İrəvan xanlığı artıq düşmən mövqedə dayandılar, bu zaman Osmanlı Rusiya ilə yaxınlaş-

dı [6, s.104-108]. Belə ki, İrəvan xanlığı hətta Sultan III Səlimə qarşı Şərif paşanın qaldırdığı üsyana yardım etmişdi [7, s.100-101].

XIX əsrin əvvəllərində Rusiyanın Azərbaycanı işğal planı Osmanlı və Qacar dövlətlərinin maraqlarına zidd olduğuna görə hər iki dövlət rus işğalının qarşısını almaq siyasəti yeridirdi [4, s. 550].

1804-1813-cü illər rus – qacar müharibələri zamanı İrəvan xanlığı Qacarlar dövlətindən narazı olduğu üçün elatının çoxunu Osmanlıya göndərərək və özü də İrəvan qalasına çəkilərək Rusiyadan kömək istədi, lakin rus qoşunu buraya gəlsə də, əlverişli şəraitlə üzləşdiyinə görə qalanı ala bilməmişdi [3, s.277].

1806-1812, 1828-1829-cu illər rus – türk müharibələri də Rusiyanın Cənubi Qafqazda ağalıq etmək istədiyi səbəbindən baş verdi, nəticədə Rusiya qalib gələrək Cənubi Qafqazda ağalığını təmin etdi və istər Osmanlı imperiyası, istərsə də Qacar dövləti uyğun olaraq imzaladıqları Ədirnə və Türkmənçay müqavilələri ilə bunu təsdiq etməyə məcbur qaldılar. Rusiya bütün Şimali Azərbaycan xanlıqlarını işğal edib onları ləğv etdi. İrəvan xanlığı ilə Naxçıvan xanlığı da 1828-ci il 21 mart tarixində ləğv edilərək yerində qondarma "erməni vilayəti" yaradıldı və ermənilərin bu ərazilərə köçürülməsi prosesinə başlandı.

Nəticə: İrəvan xanlığı mövcud olduğu müddətdə xarici siyasətində dəfələrlə manevr etməyə məcbur olmuşdu. Tədqiqat nəticəsində aydın olmuşdur ki, onun Osmanlı ilə əlaqələri daha sıx olub. İki dövlət uzun müddət müttəfiq olmuşdu. Osmanlı imperiyası, ümumiyyətlə, Rusiya və Gürcüstanın Cənubi Qafqazda möhkəmlənməyini istəmədiyi üçün Azərbaycan xanlarını, xüsusilə də İrəvan xanlığını və Dağıstanın bir neçə iri feodal hakimini öz tərəfinə dəfələrlə çəkməyə nail olmuşdur. Lakin Gürcüstan və Rusiya Osmanlıya hər dəfəsində təzyiq göstərmişdi. Araşdırma nəticəsində İrəvan xanlığının öz müstəqilliyini qorumaq üçün ciddcəhdlə səy göstərdiyini aydın görmək mümkündür. Osmanlı isə əsasən Cənubi Qafqazda güclü rəqib istəmədiyindən nəinki İrəvan xanlığı ilə, qeyd edildiyi kimi burada hakim mövqedə duran bir sıra dövlətlərlə diplomatik əlaqələr yaratmışdı. İrəvan xanlığı Azərbaycanın güclü xanlıqlarından biri olmasına baxmayaraq dövrünün güclü imperiyalarının maraq dairəsində olduğu üçün onları mənfur siyasətinə məruz qalmış, nəticədə isə Rusiya imperiyası tərəfindən işğal olunaraq ləğv olunmuşdur. Ərazsində yaradılan qondarma "erməni vilayəti" isə ermənilərin bu ərazilərə iddiasını gücləndirmişdir. Çar Rusiyasının, Sovet Rusiyasının yürütdüyü siyasət və eləcə də Azərbaycan Xalq Cümhuriyyətinin zərurətdən doğan səbəblərə görə İrəvanı ermənilərə güzəştə getməyinin səbəbidir ki, bu tarixi diyarımız hələ də mənfur düşmənin tapdağı altındadır.

Ədəbiyyat siyahısı:

1. *Bakıxanov A. Gülüstani – İrəm. Bakı: Qanun nəşriyyatı, 2020, 368 s.*
2. *Azərbaycan tarixi. 7 cilddə. III c. Bakı: Elm, 1999, 534 s.*
3. *Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı: Şərq – Qərb, 2007, 141 s.*
4. *Nəcəfli G. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı). Bakı. Nurlan, 2002, 131 s.*

5. Abdullayev M. Azərbaycan tarixi. Bakı: Füyuzat, 2025, 448 s.
6. Mustafa N. İrəvan şəhəri. Bakı: "Red N Line" MMC. 2020, 292 s.
7. Əliyarlı S. Azərbaycan tarixi – Uzaq keçmişdən 1870-ci ilə qədər. Bakı: Çıraq nəşriyyatı, 2009. 861 s.
8. Bünyadov Z., Yusifov Y. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I c. Bakı. Azərbaycan Dövlət nəşriyyatı. 1994, 687 s.

TÜRK DÜNYASI TARİXİNDƏ AZƏRBAYCAN QADINLARI CÜMHURİYYƏT DÖVRÜNDƏ

Nigar Mirzəyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi(humanitar fakültələr üzrə)" kafedrasının I kurs magistrantı
nigarmirze9@gmail.com
Elmi rəhbər: tarix elmləri doktoru Lətifə Əliyeva

Açar sözlər: *Azərbaycan Xalq Cümhuriyyəti,gender bərabərliyi,seçki hüququ,Azərbaycan qadını, əmək fəaliyyəti*
Keywords: *Azerbaijan Democratic Republic,gender equality,suffrage,Azerbaijani woman,work activity*

Giriş. Türk dünyasının tarixində Azərbaycan qadınlarının mövqeyi həmişə diqqət çəkmişdir. Xüsusilə Azərbaycan Xalq Cümhuriyyəti dövrü bu baxımdan ən mühüm mərhələlərdən biridir. 1918–1920-ci illər arasında mövcud olmuş Cümhuriyyət, qadınların cəmiyyətdə rolunun genişlənməsi, onların hüquqlarının tanınması və ictimai-siyasi həyatda iştirakının artması üçün mühüm şərait yaratmışdı. Bu dövr həm ölkənin özündə, həm də bütövlükdə türk dünyasında yeni düşüncə və modernləşmə proseslərinin gücləndiyi bir zaman kimi qiymətləndirilir.Cümhuriyyət hökumətinin qəbul etdiyi qərarlar nəticəsində Azərbaycan qadınları müsəlman Şərqində ilk dəfə seçki hüququ qazandılar. Bu addım bölgədəki ənənəvi yanaşmaları dəyişdirdi və qadınların ictimai fəallığının artmasına yeni imkanlar açdı. Həmin illərdə təhsil, mədəniyyət, tibb və mətbuat sahələrində irəli çıxan bir çox Azərbaycan qadını ölkənin modernləşməsi prosesində fəal iştirak edirdi.

Fevral inqilabından sonra Azərbaycan qadınları öz ictimai fəaliyyətlərini xeyli genişlətdilər.Ümumrusiya Qadınların Hüquq Bərabərliyi Liqasının Bakıda şöbəsi yaradıdı(sonradan Respublika Qadınlar İttifaqı adlandı). 1917 ci il aprelin 15-20 də Bakıda Qafqaz müsəlmanlarının qurultayı keçirildi.Qurultayda qafqazdakı qadınların vəziyyəti də müzakirə edildi. Rəsulzadə çıxışlarında müsəlman qadınlarının azadlığını və kişilərlə bərabər hüquqlarının olmasını mühüm hesab edirdi. Qurultayın müsəlman qadınlara kişilərlə bərabər siyasi və iqtisadi hüquqlar verilməsinin zəruri sayıldığı siyasi komissiyasının qətnaməsi bəyan edildi. Azərbaycan sovet tarixşünaslığında uzun müddət belə bir fikir var idi ki,yalnız sovet hakimiyyəti Azərbaycanda bərqərar olduqdan sonra qadınlar azadlıq,kişilərlə bərabər hüquq və seçki hüququ əldə etdilər.Və onlar sübut etməyə çalışırdılarki Oktyabr in-

qilabına qədər Azərbaycan qadınları hüquqsuz idilər hətta ibtidai təhsil belə ala bilmirdilər [3, s.159].

Ancaq Azərbaycan xalq cümhuriyyəti 1918 ci il 28 may tarixində elan olunduqdan sonra bir çox qabaqcıl ölkələri geridə qoyaraq yeni bir addmı atmış və qadınlara kişilərlə bərabər seçki hüququ vermişdi. O müsəlman şərqində ilk parlamentli respublika olmaqla həmçinin qadınlara seçki hüququ verməklə tarixdə dərin iz buraxmışdı.İstiqlal bəyənnaməsinin 4-cü bəndində qeyd olunur: "Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrəvində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin edər" [2]. Azərbaycan qadınlarının kişilərlə hüquq bərabərliyi bununla elan olunmuşdu.

Qadınların öz hüquqları uğrunda mübarizə üsulları hər olkədə fərqlidir ancaq onları ümumi bir məqsədi var:seçki hüququ əldə etmək.seçki hüququ isə millətin xeyrinə ümumi işdə eyni hüquqlarla iştirak etmək üçün vasitə idi [3, s.169]. "Açıq söz" kimi mətbuat orqanlarımızda öz səhifələrində qadınları siyasi mübarizəyə seçkilərdə iştiraka cəlb etməyə çalışırdı.Ancaq sovet tarixşünaslığı deyirdiki Müsavat qadınların seçkilərdə iştirakının əleyhinədir. 1917 ci ildə Zaqafqaziyada Umumrusiya müəssisələr məclisinə seçkilər keçirildi və azərbaycanlı qadınların iştirakı ilə Müsavat qələbəni təmin etdi. Bununla qadınlar öz fəaliyyətlərini milli hərəkatın maraqları ilə birləşdirdilər [3, s.180-182]. Maraqlı məqamlardan biri də budur ki,tədqiq olunan dövrdə dünyanın bir çox yerlərində qadınların seçki hüququ uğrunda mübarizəsi gedirdi və yalnız bir neçə yerdə qadınlar hələ 1 dunya müharibəsi başa çatmamış ümumi seçki hüququnu əldə edə bilmişdilər. Azərbaycanda qadınların seçki hüququ uğrunda mübarizə məsələsində bir neçə mərhələ araşdırmalar nəticəsində müəyyən edilib: 1)17 oktyabr çar manifestindən sonra qadınların seçki hüquqları barədə məsələni qaldırmaq imkanı yaradıldığı 1905-ci ili 1-ci mərhələnin başlanğıcı hesab etmək olar. 2)1908-ci il 3)1917-ci il [3, s.182-183]. Milli rəhbərlərin və maarifpərvərlərimizin apardığı fəaliyyətlərin nəticəsində Azərbaycan qadınlarının seçki hüquqları 1919 iyulun 21-i parlamentin qəbul etdiyi "Müəssislər məclisinə seçkilər haqqında" Əsasnamədə yer verilməsi ilə nəticələndi. Bu əsasnaməyə görə 20 yaşı tamam olmuş hər iki cinsdən olan vətəndaşlar seçkidə iştirak hüququna malik idilər. "Parlamentin bu qərarı Azərbaycan qadınlarının həyatında böyük dönüş yaratdı. Seçki hüququ əldə etmiş Azərbaycan qadını həmdə ilk dəfə dövlət idarəetmə aparatında vəzifə sahibi oldu. Təkcə parlament dəftərxanasının işçilərinin 6-sı qadın idi.Dəftərxana müdirinin köməkçisi vəzifəsinə isə, Azərbaycan ictimai fikrinə, Azərbaycan qadınının maariflənməsinə və azadlıq mübarizəsinə öz dəyərli töhfələrini vermiş, Zaqafqaziyada ilk Azərbaycan dili müəlliməsi,ilk Azərbaycan qadın jurnalisti və publisisti Şəfiqə xanım Əfəndizadə təyin edildi" [1, s.102]. Şəfiqə Əfəndizadənin "Azərbaycan" qəzetində nəşr olunmuş silsilə məqalələri qadın hüquq bərabərliyinə həsr olunmuşdur.Şəfiqə xanım bir məqaləsində belə qeyd edirki,əgər cəmiyyətdə kişilər böyük hüquqlara malikdir,amma qadınlar hər cür hüquqdan məhrum olursa xalq heç zaman inkişaf edə bilməz [3, s.162].

Belə bir məsələdə maraqlıdırki,dünyanın bir çox ölkəsində qadınlar öz hüquqları uğrunda mübarizə aparırdılar. Lakin Azərbaycanda bu hərəkat belə aktiv deyildi. Biz təhlil etsək görərik ki, Azərbaycan qadınları öz hüquqları uğrunda mübarizədə yüksək aktivlik nümayiş etdirmirlər,burada feministlərin və sufrajistlərin hərəkatları olmamışdı [5]. Qadınların mübarizəsi gedən dövrdə türk sufrajist qadınları meydana çıxdılar.Türk qadınlarının vəziyyəti haqqında onların mübarizəsi haqqında Rəsulzadə "İqbal" qəzetində "Türkiyədə qadınlar" adlı məqalələr dərc etdirmişdi. O belə qənaətə gəlirdiki, türk qadınları həm inkişafda, həm də öz hüquqları uğrunda mübarizədə xeyli irəli gediblər və bizim qadınları geridə qoyublar [3]. Yalnız tək-tək azərbaycanlı qadınlar mübarizəyə qalxırdılar və onlarda vəziyyətin çətinliyini başa düşən, təhsilli qadınlar idi. Azərbaycanlı qadınların seçki hüququ uğrunda mübarizəsinə kişilər böyük dəstək verdilər və mütərəqqi kişilər qadın hüquqları haqqında məsələ qaldırırdılar [3, s.193]. ADR dövründə qadınların cəmiyyətin ictimai-siyasi həyatına cəlb edilməsi üzrə müntəzəm və əməli işlər aparılırdı. 1919-cu ildə Azərbaycanda 8 mart -Işçi qadınların həmrəylik günü qeyd edildi [4]. Şəfiqə Əfəndizadə "Təşkilatın qadınlara təsiri" adlı "Azərbaycan" qəzetində nəşr olunmuş məqaləsində belə qeyd edirdi: Nə zaman ki, qadınlar kişilərlə bərabər hüquqlara malik olacaq,o zaman həmin cəmiyyətin xoşbəxt həyatına inanmaq olar, Azərbaycan həmin məqamdan daha yaxşı yaşamağa başlayacaq, Azərbaycan dövləti əbədi yaşayacaq". Cümhuriyyət dövründə Azərbaycan qadınlarının ictimai fəaliyyətinin xüsusilə aktivləşməsi müşahidə edilirdi. Bakı Müsəlman xeyriyyə qadın cəmiyyətinin fəaliyyəti daha aktiv idi. Onun sədri Liza Muxtarova idi və o, həmçinin uşaq ölümü ilə mübarizə cəmiyyətində də çalışmışdır. Xeyriyyə cəmiyyətinin nəzdində fəaliyyət göstərən qadın məktəbi mart hadisələrindən sonra fəaliyyətini dayandırmış olsa da tezliklə onun fəaliyyəti bərpa olundu. Bu məktəb Azərbaycan qadınlarının ictimai həyata qoşulmasına və təhsil almasına böyük töhfələr vermişdi.Azərbaycan qadınları respublikanın hüdudlarından kənarda da ictimai iş aparırdılar. Mart qarətləti və qarışıqlığı günlərində Bakını tərk etmiş Ş.Əfəndizadə İstanbulda aktiv çalışır və "Cəmiyyəti-nisvan" qadın cəmiyyətinin işində iştirak edirdi [3, s.201]. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınların kişilər ilə eyni hüquqları əldə etməsi nəinki həyatın bütün sahələrinə, həmçinin də qadınların əmək fəaliyyətinə təsir göstərdi. İşçi müsəlman qadınların sayı xeyli artdı. İşçi qadınların sayı 1920-ci ilin aprelində kişilərinki ilə demək olar eyni idi. Əmək fəaliyyəti ilə məşğul olan müsəlman qadınların sayı artdığı bir vaxtda rus qadınlarının sayı azalrıdı,görünür onlar Azərbaycanın müstəqil olmasını dünya ölkələri tərəfində tanınmasını qəbul etmək istəmirdilər. Eyni zamanda bəzi faktlar göstərir ik,işləyən rus qadınları azərbaycanlı işçi qadınlardan, hətta kişilərdən də yüksək maaş alırdılar. Belə bir şəraitdə görünür bəzi rus qadınları təşəkkür olaraq Cümhuriyyət hökümətinə qarşı təxribatçı iş aparır,qiyam və tətil edirdilər.

Danışdığımız dövrdə bərabər siyasi və vətəndaşlıq hüquqları almış əksər azərbaycanlı qadınlar səhibkarlıq fəaliyyətlərini uğurla həyata keçirirdilər. Onlardan biri Həmidə Cavanşir idi. O, 1918-1920-ci illərdə əvvəlcə Şuşada, sonra da doğma

Kəhrizli kəndində toxuculuq emalatxanası açmışdı. ADR dövründə qadınlar bir çox sahədə fəaliyyət göstərirdi. 1918-cil ildə A.Sadıqova şəfqət bacısı kimi türk ordusunda xidmət edirdi.Sovet hakimiyyəti illərində isə o Azərbyacan K(b)P Bakının Şəhər rayon komitəsinin birinci katibi olmuşdu [3, s.209-210].

Cümhuriyyət dövründə maarif sahəsində də uğurlar əldə edilmişdi. Hökumətin apardığı fəaliyyət nəticəsində Bakıda qadın gimnaziyaları var idi. Eyni zamanda müəllim seminariyaları, Müqəddəs Nina qadın tədris müəssisəsi fəaliyyət göstərirdi.Ölkənin müxtəlif bölgələrində qadın gimnaziyaları açılırdı. 1919-cu il iyulun 17-i qəbul edilmiş qərara əsasən qısamüddətli pedaqoji kurslar açılmışdı. Lakin qadın kursuna rəhbərlik kişilərə tapşırılmışdı [3, s.211]. Bakı dövlət universiteti təsis edildikdən sonra, buraya həm təhsil almaq üçün həmdə idarəetmə sahəsində qadınların qəbul edilməsinə qərar verilmişdi.

İndi isə cümhuriyyət dövründə fəaliyyət göstərmiş, Azərbaycan tarixində iz buraxmış qadınların bir neçəsinə nəzər salaq.Onlardan biri ilk azərbaycanlı şəfqət bacısı, general Əliağa Şıxlinskinin həyat yoldaşı Nigar Hüseyn Əfəndi qızı Şıxlinskayadır. O, 1878-ci ildə Tiflis şəhərində dünyaya gəlmişdir. "Russkiy invalid" qəzetində öz doğmalarını cəbhəyə yola salan qadınlara 1914-cü il avqustun 4-də dərc olunan məqaləsində müraciət edirdi. O,1918-ci ildə Azərbaycan ədəbiyyatı haqqında silsilə məqalələri ilə "Yeni fikir" qəzetində çıxış etmişdir. Həmçinin, 1914-1918-ci illərdə "Qırmızı xaç" adlanan zabit arvadlarının yaratdığı hərbi xəstəxanaya başçılıq edirdi. O, 15 avqust 1931-ci ildə Bakıda vəfat etmişdir. Mədəniyyət sahəsində də Azərbaycan qadınları böyük uğurlar əldə etmişdilər. Bunlardan biri Azərbaycan musiqi tarixində ilk peşəkar pianoçu, ziyalı və ictimai xadim Xədicə Qayıbovadır. Xədicə xanım 1893-cü ildə Tiflisdə anadan olmuşdur.Azərbaycanlı qadınlar üçün onun təşəbbüsləri və iştirakı ilə musiqi-dram studiyası yaradılmışdı.

Bütün bu yazılanların nəticəsində belə fikir söyləmək olar ki, ADR dövründə əldə edilmiş ən böyük nailiyyətlərdən biri Azərbaycan qadınının müstəqillik hissini dadması, bu ölkənin vətəndaşı olaraq azərbaycançılıq hissinin yaranması oldu. ADR-in mövcud olduğu bu qısa dövr ərzində maarifpərvər və mütərəqqi xadimlərimiz qadınların hüquqları sahəsində xeyli iş gördülər. Azərbaycan qadınları bir çox Avropa və Amerika qadınlarından əvvəl seçki hüququ əldə edərək fərqləndilər.

Ədəbiyyat siyahısı:

1.Abdullayeva Ş-Qadın hüquqlarının müdafiəçisi Şəfiqə Əfəndizadə /chromeextension: //efaidnbmnnnibpcajpcglclefindmkaj/http://anl.az/down/meqale/medeni_az/2018/mart-aprel/178(meqale) .pdf (20.11.2025)

2.Azərbaycan Cümhuriyyəti Hökumət qanun və binagüzarlıqları məcmuəsi, 1919, №1, səh. 5-7./https://axc.preslib.az/az/page/iKYoaVNIsO

3..Əliyeva L-Azərbaycan qadınları emansipasiya yollarında(1918-1920),Bakı: Ecoprint, 2018.-280 s.

4.İmanzadə S-Oktyabr sosialist inqialbi və azərbaycanda qadın azadlığı 1917-1927,Azərbaycan dövlət universiteti elmi əsərləri,1957, no10, s.88-96

5.Quluzadə Z-Gender Azərbaycanda Bakı: Azərnəşr, 2003, 324 s.

BİRİNCİ TÜRKOLOJİ QURULTAYININ TÜRK DÜNYASINDA ORTAQ MƏDƏNİ VƏ TARİXİ DƏYƏRLƏRİN ARAŞDIRILMASINDA YERİ

Fidan Şahəli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Azərbaycan tarixi (humanitar fakültələr üzrə)" kafedrasının I kurs magistrantı
sahlifidann@gmail.com
Elmi rəhbər: dosent Sevda İsmayılova

***Açar sözlər**: Birinci Türkoloji Qurultay, ortaq tarix, mədəni dəyərlər, türk dillərinin terminologiyası, türk dillərinin orfoqrafiyası, latın qrafikası*
***Keywords**: First Turkogical congress,common history,cultural value, Terminology of the Turkic Languages, Orthography of the Turkic Languages , latin alphabet reform*

Giriş. Türk dünyasının ortaq tarixi və mədəni dəyərləri minilliklər boyunca geniş coğrafiyada formalaşmış və müxtəlif siyasi, sosial, mədəni proseslərlə zənginləşmişdir. Lakin bu zəngin irsin ətraflı şəkildə tədqiqi, vahid elm metodologiyası ilə araşdırılması və ümumtürk kontekstində qiymətləndirilməsi uzun müddət ərzində müxtəlif səbəblərdən mümkün olmamışdır. XX əsrin əvvəlləri türk xalqının intellektual oyanışının gücləndiyi,milli kimlik və mədəni özünüdərk proseslərinin sürətləndiyi dövr kimi tarixə düşmüşdür. Bu şəraitdə 1926 cı ildə Bakıda keçirilən 1-ci Türkoloji Qurultay türk dünyasının elmi inteqrasiyası baxımından dönüş nöqtəsi olmuşdur. Qurultayın çağırılması bir sıra zəruri amillərlə şərtlənirdi Birincisi həmin dövrdə türk xalqları arasında dil, yazı və mədəniyyət sahəsində əlaqələrin yaradılması xüsusi aktuallıq kəsb edirdi. Türk dillərinin müxtəlif bölgələrdə fərqli istiqamətlərdə inkişafı ortaq terminiloji bazanın olmaması və elmi tədqiqatların parçalanması bu istiqamətdə vahid elmi platformanın yaradılmasını tələb edirdi. İkincisi, ərəb əlifbasından latın qrafikasına keçid məsələsi türk cəmiyyətində geniş müzakirə olunurdu.Yazı islahatı həm savadsızlığın aradan qaldırılması , həm də elmi-mədəni əlaqələrin möhkəmləndirilməsi baxımından mühüm addım hesab edilirdi . Üçüncüsü, türk xalqları arasında ortaq mədəni və tarixi irsin sistemli şəkildə araşdırılması zərurəti yaranmışdı. Folklorun, etnoqrafiyanın ədəbiyyatın, tarixi mənbələrin toplanması və elmi tədqiqi üçün vahid konsepsiyanın formalaşdırılması tələb olunurdu.

Qurultay türk xalqlarının ortaq tarixi-mədəni irsinin müqayisəli şəkildə araşdırılması,ortaq dil və əlifba məsələlərinin elmi müzakirəsi, ədəbiyyat və dilçilik kimi sahələrdə vahid yanaşma prinsiplərinin müəyyənləşdırılməsi üçün ilk beynəlxalq elmi platforma rolunu oynadı.

Birinci Türkoloji Qurultay 1926 cı il fevralın 26-dan martın 6-dək Bakıda S.A.Ağamalıoğlunun sədrliyi ilə Mədəniyyət Sarayında keçirildi. Qurultayda 131 nümayəndə iştirak edirdi. Onların 98-i türk, 33-ü başqa millətlərin adamları idi [1, s.44]. Burada Tatarıstan və Çuvaş respublikasından Özbəkistana və Şimali Qafqazın türk xalqlarından Yakutiyaya kimi SSR-nin bütün türk-tatar xalqları , eləcə də ölkənin şərqşünasları,xarici elmlərin nümayəndələri təmsil olunmuşdu. Birinci Türkoloji Qurultayın təntənəli iclasını Azərbaycan komitəsinin sədri S.A.Ağama-

lıoğlu açdı və o, öz nitqində qeyd etdi ki, "Azərbaycanlılar onlara nəsib olan xoşbəxtliyi yüksək qiymətləndirəcəklər, bu xoşbəxtlik dünyanın ilk Türkoloji qurultayının öz doğma torpaqlarında açılmasından irəli gəlir və bununla da kifayətlənmir: Burada ilk dəfə türk xalqlarının nümayəndələri görüşmə imkanı əldə edəcəklər. Türk-tatar xalqlarının tarixində onların aktual mədəniyyət məsələlərinin nəzərdən keçiriləcəyi və həll ediləcəyi qurultay kimi böyük bir hadisə olmamışdır". Onun fikrincə türkoloji qurultay türk xalqları arasında elmi mübadilənin başlanmasına da təkan verəcəkdir. Eyni zamanda türk-tatar xalqlarının iqtisadi-siyasi birliyinin güclənməsində mühüm rol oynayacaqdır [3, s.6].

Qurultayda öz həllini tapmalı olan məsələlərdən biri əlifba məsələsidir. Əlifba ən mübahisəli problemdir. Burada bir-birini təkzib edən 2 mövqe var: Bir qrup ərəb, o biri qrup isə yeni latın əlifbasına köklü keçidi dəstəkləyir. S.A.Ağamalıoğlu qurultayın bu məsələdə də öz sözünü deyəcəyini qeyd edib. Ağamalıoğlunun giriş nitqindən sonra 22 nəfərdən ibarət olan rəyasət heyəti seçilmişdir.

Birinici Türkoloji qurultayın 17 iclası dinlənilmiş,38 məruzədə çıxış edilmişdir. Qurultayın gündəliyinə bu məruzələr daxil edilmişdir: 1) Türk xalqlarının tarixinin öyrənilməsinin hazırkı vəziyyəti və qarşıda duran vəzifələr 2) Müasir türk dillərinin hazırkı vəziyyəti və tədqiqi 3) Türk xalqları ədəbiyyatının tədqiqi 4) Türk dillərində elmi terminologiyanın formalaşdırılması prinsipləri 5) Türk dillərinin orfoqrafiyasına dair 6) "Əlifba haqqında" 7)"Sovet hakimiyyəti dövründə türk xalqlarının mədəni nailiyyətləri" və s.

Bütün bu məsələlərdən, məruzələr siyahısından göründüyü kimi, əsas bu 3 mövzu mühüm praktiki əhəmiyyətə malik idi: Terminologiya,orfoqrafiya və Türk xalqlarının əlifbası.

Əlifba məsələsində 101 lehinə,7 əleyhinə və 9 bitərəf səs çoxluğu ilə latınçıların təklifi qalib gəldi. Əlifba məsələsinə dair qəbul edilən qərarda qeyd olunur ki, qurultay latın əlifbasının ərəb əlifbası üzərində texniki üstünlüyünü, habelə yeni əlifbanın ərəb əlifbası ilə müqayisədə böyük mədəni, tarixi və mütərəqqi əhəmiyyətini qeyd etməklə yanaşı, eyni zamanda yeni əlifbanın tətbiqi məsələsini və üsullarını müəyyənləşdirir. Bununla əlaqədar olaraq qurultay Azərbaycan SSR-in vilayət və respublikaları, Yakutiya, İnquşetiya, Qaraçay-Çərkəz Kabardiya və Osetiya tərəfindən yeni latın əlifbasının tətbiqi sahəsində apardığı müsbət işləri qeyd edir və digər respublikalara metodları öyrənərək öz ölkələrində mümkün formada həyata keçirməyi tövsiyə edir.

Qurultay bütün türk respublikalarına və bölgələrinə türkologiyaya dair materialların toplanması və sistemləşdirilməsi,əlyazmaların qeydə alınması və saxlanılması,yerli dialekt və nitqlərin öyrənilməsi və s üçün öz ərazilərində Türkoloji komitələr təşkil etməyi tövsiyə gördü. Dünyada misli görünməmiş türk-tatar xalqlarının bu beynəlxalq forumu 10 gün davam etdi. Bütün türk-tatar xalqları təkcə SSRİ daxilində deyil, həmdə Sovet ittifaqının hüdudlarından kənarda bir araya gətirilməsi istiqamətində böyük mədəni nailiyyət əldə edildi. Bu,təkcə SSRİ-də ya-

şayan türk-tatar xalqları üçün deyil, həmdə İran və Əfqanistan üçün, eləcə də bütün elm dünyası üçün çox böyük mədəni və tarixi əhəmiyyət kəsb edirdi [3, s.14].

Birinci Türkoloji Qurultayın böyük coşqu və mütəşəkkiliklə davam edən əkssədası böyük bir coğrafiyanı əhatə edirdi. 1927-ci ildə Krımda, 1928-ci ildə Səmərqənddə, 1930-cu ildə Almatıda imla konfransları, 1932-ci ildən başlayaraq keçirilən Türk Dili Konqresləri, 1976-cı ildə Almatıda, 1980-ci ildə Daşkənddə, 1988-ci ildə Aşqabadda keçirilən Sovet türkoloji konqresləri Birinci Türkoloji Qurultayın təsiri ilə keçirilmiş mühüm elmi tədbirlərdir. Bu tədbirlər türkologiyanın müxtəlif istiqamətlər üzrə inkişafına böyük töhfələr vermişdir

Yeni əlifbanın ilk kütləvi tətbiqinə türkdilli respublikalardan məhz Azərbaycanda başlanılması hələ XIX əsrdən etibarən burada mütərəqqi ziyalıların əlifba islahatı uğrunda fəal şəkildə apardıqları mübarizənin nəticəsi idi [4].

Hazırda Azərbaycan, Türkiyə, Özbəkistan və Türkmənistanda rəsmi yazı sistemi kimi latın qrafikasından istifadə olunur. Qazaxıstan isə latın əlifbasına keçidlə bağlı qərar qəbul etmişdir. Ümummilli lider Heydər Əliyevin 1 avqust 2001-ci il tarixli xüsusi fərmanı Azərbaycanda latın əlifbasına tam keçidi təmin etmiş və bununla da Türkoloji Qurultayın ideyalarının müstəqillik dövründə ölkəmiz üçün nə qədər əhəmiyyətli və dəyərli olduğunu bir daha göstərmişdir. Bundan əlavə, 3 oktyabr 2009-cu ildə Türkdilli Dövlətlərin Dövlət Başçılarının Naxçıvan görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması və həmin qurumun səmərəli fəaliyyəti də yeni tarixi mərhələdə II Türkoloji Qurultayın ideyalarının işığında türk xalqları arasında elmi-mədəni inteqrasiyanın gücləndirilməsinə mühüm töhfə vermişdir [2, s.5].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 fevral 2016-cı il tarixli "Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı, öz mahiyyətinə görə, I Türkoloji Qurultayın zəngin elmi irsinin və tarixi dərslərinin müstəqillik dövrünün tələbləri fonunda yenidən araşdırılması, müasir şəkildə dəyərləndirilməsi və nəticələrinin sistemləşdirilməsi üçün geniş imkanlar yaradır. Bu sərəncam həm də həmin Qurultayın müasir elmi proseslər üçün aktuallığını bir daha ortaya qoyur.

Nəticə. Birinci Türkoloji Qurultayın türk dünyasının ortaq mədəni və tarixi dəyərlərinin öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıması dövlət səviyyəsində dəfələrlə vurğulanmışdır. Son illərdə bu istiqamətdə atılan addımların davamı olaraq, Azərbaycan Respublikasının Prezidenti tərəfindən qəbul edilən sərəncamda Qurultayın 100 illik yubileyinin keçirilməsi qərara alınmış, sənəddə türk ölkələri arasında qardaşlıq münasibətlərinin, mədəni əməkdaşlığın və ortaq elmi dəyərlərin araşdırılmasının müasir dövrdə daha da aktuallaşdığı qeyd edilmişdir. Birinci Türkoloji Qurultayın təkcə tarixi fakt kimi deyil, həm də bu gün türk xalqlarının ortaq kimliyinin elmi əsaslarla tədqiqində mühüm mərhələ kimi qiymətləndirildiyini göstərir. 2025 ci il oktyabrın 6-7-də Qəbələ şəhərində keçirilən Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 12 ci Zirvə Görüşünün Bəyannaməsində Birinci Tür-

koloji Qurultayın 100 illik yubileyinin qeyd edilməsi çağırışının öz əksini tapması bunun daha bir təzahürüdür [5].

Beləliklə, Birinci Türkoloji Qurultay yalnız tarixi hadisə deyil, həm də bu gün türk xalqlarının elmi, mədəni və intellektual inteqrasiyasının nəzəri əsaslarını formalaşdıran, ortaq kimlik və birlik ideyasını gücləndirən müstəsna əhəmiyyətli bir mərhələ kimi qiymətləndirilməlidir.

Ədəbiyyat siyahısı:

1.Babayev A. Birinci Türkoloji Qurultay və Azərbaycanda Türkologiya , Bakı: "Elm nəşriyyatı", 2016, 336s.
2.Xalq qəzeti. Türkologiya elminin böyük təməli və müasir dövr. 2016, 23 noyabr.
3.Xəlilov B.Ə. Birinci Beynəlxalq Türkoloji Qurultay. Bakı: "Elm nəşriyyatı", 1999, 183s.
4.Birinci Türkoloji Qurultay. https://president.az/az/articles/view/17825
5.Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.22 oktyabr 2025-ci il. https://president.az/az/articles/view/70396

TÜRKİYƏ TARİXŞÜNASLIĞINDA SƏFƏVİ-OSMANLI MÜNASİBƏTLƏRİNDƏ DİN FAKTORUNUN ƏHƏMİYYƏTİ

Zalikə Bəybalayeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Qədim dünya və orta əsrlər tarixi" kafedrasının I kurs magistrantı
zalikabeybalayeva@gmail.com
Elmi rəhbər: t.ü.f.d Sayad Mehti-zadə

Açar sözlər: *Səfəvi, Avropa, məzhəb, din, sünni, ideologiya*
Keywords: *Safavid, Europe, sect, religion, Sunni, ideology*

Giriş. Tarixin müxtəlif inkişaf mərhələlərinə baxdıqda yaranmış dövlətlərin daxili və xarici siyasətinə din amilinin necə təsir etdiyini aydın müşahidə edirik. Səfəvi və Osmanlı dövlətlərinin münasibətlərini təhlil etməzdən əvvəl həmin dövrün dini baxımdan əsas xarakterik xüsusiyyətlərinin ön plana çəkilməsi önəmlidir. XVI-XVII əsrin siyasi tarixində ən mühüm mövzulardan biri Səfəvi-Osmanlı münasibətləri idi. Bu münasibətlərin formalaşmasında sadəcə iqtisadi və siyasi maraqlar deyil, eyni zamanda dini faktorlar da önəmli rol oynamışdır. Bəhs edilən dönəm ərzində şiəlik və sünnilik arasında olan qarşıdurma hər iki imperiyanın xalq tərəfindən hakimiyyətinin tanınması üçün güclü vasitəyə çevrilmişdir. İki dövlət arasında baş vermiş qarşıdurmalar təkcə geosiyasi xəritəni deyil, həmçinin müsəlman dünyasının dini-ideoloji strukturuna da təsir edirdi. Bu mövzu Türkiyə tarixşünaslığında mühüm hesab edilmiş, Osmanlı mənbələrində Səfəvilərin dini siyasəti təhlükə kimi, Səfəvi mənbələrində isə Osmanlılar zülmkar olaraq göstərilmişdir. Səfəvi dövlətinin yaranması və şiəliyin rəsmi məzhəb olaraq qəbul olunması Osmanlı sarayında narahatlığa səbəb olmuşdur. Osmanlı dövləti isə sünniliyi müdafiə edərək özünü İslamiyyətin öncüsü olaraq görürdü.

Müasir Türkiyə tarixçilərinin əksəriyyəti Səfəvi-Osmanlı müharibələrini şərh edərkən vurğulayırlar ki, I Şah İsmayılın Səfəvi dövlətini yaratması Osmanlı üçün Şərqdən gələn əsas təhlükə hesab olunurdu. Onlar həmçinin göstərirlər ki, Səfəvilər hələ Osmanlı nəzarətinə keçməmiş Azərbaycan və Bayandurlu torpaqlarında öz mövqelərini möhkəmləndirməyə çalışırdılar [5, s.103]. Şah I İsmayılın şiəliyi dövlət məzhəbi etməsi təkcə Azərbaycanda deyil, İran və ətraf ərazilərdə qızılbaş ideologiyasını daha da gücləndirirdi. Artıq qızılbaşlıq sırf dini məzhəb olmaqdan çıxaraq dövlətə bağlılığın göstəricinə çevrilirdi. Eyni zamanda qızılbaş tayfalarının böyük bir qisminin Anadolu köklü olması Osmanlı dövləti üçün narahatlıq mənbəyi sayılırdı. Bu dini qarşıdurma zaman keçdikcə siyasi münaqişəyə gətirib çıxarırdı. Osmanlı imperiyası Səfəvilərin dini məzhəblərinə qarşı çıxıb, ziddiyyətlər nəticəsində müharibələr aparırdılar. Həmçinin dini fərqlilikdən istifadə edən Səfəvilər Anadoluda Osmanlı hakimiyyətinə qarşı ideoloji rəqabət aparırdı. Səfəvilərin Anadolu ərazisində siyasi təbliğat aparması təkcə dini təriqətçilik deyil, həm də Osmanlının sosial mövqeyini zəiflətmək məqsədi də daşıyırdı. Burada biz görə bilərik ki, sünni Osmanlı dövlətinin şiə olan bir imperiyanın yüksəlişini qəbul etməməsi siyasi maraqlarla dinin birləşməsindən qaynaqlanırdı.

Türkiyə tarixşünaslığında bu mövzu ilə bağlı bir çox tarixçilər müxtəlif mərhələlərdə öz yanaşmalarını bildirmişdilər. H.İ. Bulud bununla bağlı qeyd edirdi ki, "*Anadoluda hakimiyyəti ələ keçirmək üçün Səfəvilər şiəlik təbliğatını həyata keçirərkən Osmanlılar da sünniliyi tamamilə möhkəmləndirməyə çalışmışdır. Şübhəsiz dini birlik siyasi birlik yaradacaqdı. Bu səbəbdən, Osmanlı hakimiyyəti Anadoluda sünnilərin yerləşdirilməsini bu torpaqların Osmanlı dövlətinin hüdudları daxilində qalmasının mühüm təminatı hesab etmişdi. Məsələyə Səfəvilər nöqteyi-nəzərindən baxılarsa, Şərqi Anadolu onlar üçün iqtisadi, siyasi və strateji cəhətdən mühüm əhəmiyyətə malik olduğundan həmin bölgənin daim nəzarət altında saxlanılması önəmli bir məsələ idi*" [1, s.53]. Anadoluya hər zaman Səfəvilər potensial bir genişlənmə sahəsi kimi baxırdılar və buna görə də Osmanlı imperiyası ilə münasibətləri gərginləşməyə səbəb olurdu. Bu dövrdə İranda yaşayan sünnilərə qarşı böyük təzyiqlər olmuş, Osmanlı torpaqlarında olan qızılbaş ünsürlərinin üləma tərəfindən rafizi elan edilməsi və dövlət tərəfindən sərt təqiblərə məruz qalması bir sıra mübahisələrə səbəb olub və bu gündə davam edir. Ə.Y.Ocaq bu məsələyə aydınlıq gətirərək yazırdı ki, "*Osmanlı qaynaqlarının hamısı Osmanlı-Səfəvi münasibətləri və mücadilələrini bu gün çox açıq şəkildə göründüyü kimi əsas etibarı ilə siyasi rəqabət və ya düşmənlik məsələsi deyil, sünniliyi "doğru inanc" və şiəliyi isə "yolunu azmış inanc" kimi təqdim etmişlər*" [6, s.506].

V. Kövsərani yazırdı ki, "*Bəzi tarixçilər Osmanlı-Səfəvi toqquşmasının sünni-şiə qarşıdurması olduğuna inansa da, məzhəblər arasındaki fərqlər savaşın alovlanması və ya pərdələnməsindən başqa bir şey deyildir. Səfəvi Osmanlı çəkişmələrinin əsas səbəbi tərəflərin iqtisadi maraqlarını qorumaq uğrunda apardığı mübarizə olmuşdur*" [3, s.73-76]. Müasir türk tədqiqatçıları arasında belə bir fikir irəli sürülür ki, Səfəvilər dövləti və Osmanlı imperiyası arasındakı qarşıdurma yalnız dini zəmində izah edilə bilməz. Tofiq Nəcəfli iddia edir ki, *"Səfəvi və Osmanlı İm-*

periyası arasındakı müharibələr əsasən dövlətlərin siyasi və iqtisadi maraqları ilə idarə olunurdu" [5]. Münaqişənin mürəkkəbliyini nəzərə alaraq, bu yanaşma dini təsirin əhəmiyyətini inkar etmədən onu digər amillər kontektsində qiymətləndirməyə çalışır. XVI əsrdə İpək yolu boyunca ticarət və Azərbaycanın zəngin mineral ehtiyatları Osmanlı imperiyasının iqtisadi maraqlarının mərkəzində idi. Osmanlı sultanları Xəzər dənizinə çıxış axtarırdılar və ipək ticarətini inhisara almağa çalışırdılar. Türk tarixçilərinə görə, Portuqaliyanın Hind okeanında mövqeyinin güclənməsi və Osmanlı imperiyasının Avropa ilə ticarət əlaqələrinin genişlənməsi onların şərqə doğru yönəlməsinə səbəb oldu. Çaldıran döyüşü Türkiyə tarixşünaslığında Osmanlı imperiyasının şiə təhlükəsinə qarşı əldə etdiyi strateji qələbə kimi təqdim edilir. Osmanlı ordusunun texniki üstünlüyü ilə yanaşı, Sultan Səlimin özünü İslamın müdafiəçisi kimi təqdim etməsi də qələbədə mühüm rol oynadı. Çaldıran döyüşünün nəticəsi həm hərbi-siyasi, həm də dini-ideoloji xarakter daşıyırdı. Döyüşdə məğlubiyyət qızılbaş-şiə inancına ciddi zərbə vurur və bəzi tayfa rəhbərləri Səfəvi asılılığında Osmanlı asılılığına keçmişdi. 1555-ci ildə imzalanan Amasya sülh müqaviləsi türk tarixşünaslığında dönüş nöqtəsi hesab olunur. Bu müqavilə ilə Osmanlı sultanları 41 il düşmən hesab etdikləri Səfəvilər dövlətini müstəqil dövlət kimi tanıyır. Osmanlıların realist siyasəti kimi bilinən bu hadisə eyni zamanda məhzəblər arasındakı qarşıdurmanın qalxmadığını göstərirdi. Amasya müqaviləsindən sonra da Səfəvilər dövləti Şərqi Anadoluda qızılbaş təbliğatına davam etmişdi. Bununla belə bir nəticəyə gələ bilərik ki, sülh müqavilələri yalnız siyasi məsələləri həll edirdi. Daha sonra Qəsri-Şirin müqaviləsinin 1639-cü ildə imzalanması ilə dövlətlər arasında uzunmüddətli sərhəd sabitliyi yarandı, həmçinin Səfəvi-Osmanlı münasibətlərində yeni dövrün başlanğıcı oldu. Türk tarixçiləri bu müqaviləni iki dövlət arasında yaranan balans hesab edir və onun əhəmiyyətini vurğulayırlar.

Türk mənbələrində Osmanlı sultanı III Muradın 1578-ci ildə Səfəvilərlə müharibəyə hazırlaşarkən şiələlərə qarşı islamın "cihad" şüarından istifadə etdiyi qeyd edilmişdir. Bu da dini amillərin ideoloji müdafiə və hərbi səfərbərlikdə rol oynadığını nümayiş etdirir. B.A. Gökdağ da deyirdi ki, *"Osmanlı-Səfəvi ziddiyyətlərində məzhəb fərqlərinin mərkəzi yer tutduğunu, bu dini ayrı-seçkiliyinin yüz minlərlə Anadolu və İran türkünün qanının boş yerə axmasına səbəb olmuşdu"* [2, s.128]. Bu gərgin məzhəb münaqişəsi yalnız dini ideologiya ilə məhdudlaşmadı. O həmçinin siyasi hegemonluq uğrunda əsas vasitəyə çevrildi. Osmanlı imperiyası özünü sünni İslamın müdafiəçisi elan etsə də, Səfəvi İran və Anadoluda təsirini genişləndirməyə çalışırdı. Şah İsmayıl Anadolu türklərinə, xüsusən də Osmanlı mərkəzi hökuməti üçün təhlükə yaradan qızılbaşlara təsir göstərirdi. Baş verən döyüşlər zamanında on minlərlə qızılbaş Anadoludan qaçdı və ya zorla İrana sürgün edildi. Eyni zamanda Səfəvilərin təzyiqi altında sünni əhali Osmanlı torpaqlarına sığındı. Bu kütləvi köç sadəcə əhali hərəkatı deyildi, həm də mədəni, iqtisadi-sosial bölünmələrin təzahürü idi.

Səfəvi-Osmanlı münasibətlərini sırf şiə-sünni fərqi ilə izah etmək XVI-XVII əsr Osmanlı tarixçilərinin bu hadisələrə sonradan əlavə etdikləri məzhəb yönümlü

pərdə kimi qiymətləndirə bilinər. Əslində bu rəqabətin məğzində Yaxın və Orta Şərqdə hökmranlıq məsələsi dayanırdı. Hadisələrə məzhəb bucağından baxanda tarixi hadisələrin labirintində dolaşıb qalırsan. Əgər məzhəb məsələsindən baxsaq, Osmanlı imperiyası öz ərazilərini genişləndirmək üçün 14-ə yaxın müsəlman-türk dövlətini ortadan qaldıraraq öz ərazilərinə birləşdirmişdir. Osmanlı imperiyasının işğal etdiyi müsəlman dövlətlərinin əhalisi sünni məzhəbində olmuşdur. Xəlifəliyin mərkəzi olan Misir Məmlük dövləti sünni məzhəbində idi. Osmanlı üləmasının çıxardığı fətvaya görə dinsiz elan edilmişdi. Bu əslində müəyyən məqsədi gizlətmək üçün istifadə olunan bir örtük rolunu oynayırdı. Osmanlı şeyxülislamları eyni mövqeni Səfəvi dövlətinə qarşı da tətbiq etmişdilər [5, s.89].

Türkiyə tarixçisi Ö. Küpəlinin fikirlərinə görə, "*Osmanlı və Səfəvi dövlətləri arasında yüz əlli ildən artıq dəvam edən mübarizənin sünni-şiə mübarizəsi kimi təqdim edilməsi düzgün deyil. İki dövlət arasındakı düşmənçilik əsasən siyasi rəqabətdən qaynaqlanmışdır. Bu zaman Osmanlılar sünnilikdən, Səfəvilər də şiəlikdən daxili və xarixi siyasətlərini müəyyənləşdirmək üçün siyasi bir vasitə kimi istifadə etmişdilər. Osmanlı dövləti daxildə əsasən şiəliyə, xüsusən də Qızılbaşlığa meylin qarşısını almaq üçün sünniliyi müdafiə edərək gücləndirməyi əsas siyasət hesab etmiş, xarici siyasətində isə Səfəviləri müsəlman dünyasının parçalanmasına səbəb olan din düşməni kimi göstərməyə çalışırdılar. Buna qarşı Səfəvilər qərb qonşularının torpaqlarında narazı əhalini şiəlik təbliğatı ilə üsyana qaldıraraq Osmanlı dövlətini çətin vəziyyətə qoyaraq hakimiyyətləri qərbə doğru genişləndirməyə çalışırdılar*" [4, s.69].

Osmanlı-Səfəvi münasibətlərini təhlil edən türk tarixçiləri orta əsr Osmanlı mənbələrini əsas götürərək ictimai-siyasi prosesləri, iki dövlət arasındakı münasibətləri dini kontekstdən qiymətləndirirlər. Lakin dini adlandırılan bu münaqişə və müharibələrin tarixi əsasını, siyasi maraqları və məqsədlərini ortaya qoyur. Osmanlı-Səfəvi müharibəsi əsasən siyasi məqsədlərlə idarə olunduğundan, onu sırf dini baxımdan şərh edən türk tarixçiləri bəzən onun əsl mahiyyətini anlaya bilmirlər [5, s.104].

Nəticə. Yekun olaraq demək olar ki, Səfəvi-Osmanlı münasibətlərində istər aktual tarixi proseslərdə, istərsə də bu proseslərin tarixşünaslıqda əks olunmasında dini amil mühüm rol oynasa da, yeganə rol oynamayıb. Dini faktorunun həddindən artıq qabardılması münaqişənin əsl səbəblərini – siyasi hegemonluq, iqtisadi maraqlar və regional üstünlük uğrunda mübarizəni ört-basdır etmək rolunu təşkil edirdi. Səfəvilər dövlətinin etnik-siyasi mahiyyətinin təhrif edilməsi tarixi reallığı təhrif edir, obyektiv elmi araşdırmalara mane olur. Türkiyə tarixşünaslığında Səfəvi-Osmanlı münasibətlərinin öyrənilməsi göstərir ki, onlar indiyə kimi bizim üçün əlçatmaz olan ilkin mənbələrdən, kitablardan, nüsxələrdən tam şəkildə istifadə etməklə Səfəvi dövlətinin Osmanlı imperiyası ilə qarşılıqlı əlaqələrində din amilinin nə dərəcədə əhəmiyyətli olmağını, başqa siyasi proseslərin də önə çəkilməsinə nail olmuşdular.

Ədəbiyyat siyahısı:

1. Bulut H.İ. Şah İsmail-Yavuz Selim mücadilesi ve ulemanın rolu: Kemal Paşazade örneyi / Birinci Uluslararası Şah İsmayıl Hatayi Sempozyum Bildirileri. 9-11. Ekim, 2003, Ankara: 2004, s. 53-67.

2. Gökdağ B.A. Selimnamelerde Osmanlı-Safevi ilişkileri / Birinci Uluslararası Şah İsmayıl Hatayi Sempozyum Bildirileri. 9-11. Ekim, 2003, Ankara: 2004, s. 125-142.

3.Kevserani V. Osmanlı ve Safevilerde din-devlet ilişkileri. Denge yayınları, İstanbul: 1992, 240 s.

4. Küpeli Ö. Safevi-Osmanlı münasebetleri. İstanbul: Yedditepe yanınları, 2014, 336 s.

5. Nəcəfli T.H. Səfəvi-Osmanlı münasibətləri. (Türkiyə tarixşünaslığında) Bakı: Turxan NPB, 2014, 516 s.

6. Ocak A.Y. Osmanlı kaynaklarında ve modern türk tarihçiliginde Osmanlı Safevi münasibetleri // TTK , Belleten, c. LXVI sayı, 246, Ankara: 2002, s. 501-516.

AZƏRBAYCAN MİLLİ MƏTBUATIN FORMALAŞMASINDA HƏSƏN BƏY ZƏRDABİ VƏ "ƏKİNÇİ" QƏZETİNİN TARİXİ MİSSİYASI

Vasif Beybutlu
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, Tarixşünaslıq və Metodika" kafedrasının I kurs magistrantı
beybutluvasif12@gmail.ru
Elmi rəhbər: dosent Samir İsmayılov

Açar sözlər: *Həsən bəy Zərdabi, Zərdabi ənənəsi, Milli şüur, Azərbaycanda jurnalistika.*
Keywords: *Hasan bey Zardabi, Zardabi Tradition, National Consciousness, Journalism in Azerbaijan.*

Giriş. Tarix boyu insanlar ətraflarında baş verənlərlə maraqlanmış və bilik, eləcə də ideyalarını cəmiyyətlə bölüşmək istəmişlər. Mətbuat və ədəbiyyat bu ötürülmədə vasitəçi rolunu oynamışdır. Mətbuat cəmiyyətin tarixi yaddaşının canlandırılmasında və maarifləndirilməsində ən vacib ünsiyyət vasitələrindən biri olmuşdur. Nəşrlər, xüsusən də kritik dövrlərdə cəmiyyətlərin köməyinə gəlmiş, onların maarifləndirilməsinə və mənəvi ehtiyaclarının ödənilməsinə töhfə vermişdir. Bu tədqiqatda Azərbaycanın çətin dövrlərində mətbuatın rolu və türkdilli mətbuatın banisi hesab edilən Həsən bəy Zərdabinin milli şüurun inkişafındakı mühüm rolu araşdırılmışdır. Bu tədqiqatda "Həsən bəy Zərdabinin mətbuata və gələcək nəsil ziyalılarına təsiri nə idi? Onu türk dilində qəzet nəşr etməyə təşviq edən səbəblər nələr idi? Həsən bəy Zərdabinin Azərbaycanda milli dövlətin qurulmasında hansı rolu olub? Həsən bəy Zərdabinin nəşrlərindən başqa, Azərbaycan hansı başqa mətbuat əsərlərini yaratmışdır və bu əsərlər milli şüura necə töhfə vermişdir?" kimi suallara cavab tapmağa çalışılmışdır.

Çar Rusiyasının Azərbaycanı işğal etməsi təkcə siyasi deyil, həm də mədəni baxımdan region üçün mənfi nəticələrə səbəb oldu. Belə ki, 1822-ci ildən sonra ruslar Azərbaycandakı xanlıqları ləğv edərək Rusiya General Qubernatorluğunu yaratdılar. Daha sonra onlar Azərbaycan xalqını assimilyasiya etməyə və dini,

həmçinin milli hərəkatları söndürməyə çalışdılar. Rusiyanın gözləntilərinin əksinə olaraq, bu siyasətlər Azərbaycan türkləri arasında milli oyanışa səbəb oldu və mətbuatın inkişafını sürətləndirdi. Ziyalılar milli şüuru mətbuat vasitəsilə ictimaiyyətə çatdırmaqla birlik və həmrəylik hissi aşılamağa çalışdılar. Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov və Əli bəy Hüseynzadə kimi ziyalılar bu milli oyanışı təşviq etməkdə və assimilyasiyanın qarşısını almaqda mühüm rol oynadılar. Bu ziyalıların təsiri altında Azərbaycan türkləri ana dillərini mənimsəməyə başladılar və bununla da artan türk kimliyi hissini inkişaf etdirdilər. Bunun nəticəsi idi ki, 1918-ci ildə Azərbaycanda milli dövlətin qurulmasına əhəmiyyətli töhfələr verdilər [4, s.1].

Azərbaycan mətbuatı 1905-ci ilə qədər ruslar tərəfindən tətbiq edilən senzura ilə üzləşmişdi. 1905-ci il inqilabından sonra rusların mətbuata təzyiqi müəyyən qədər azaldıqda isə ziyalılar səslərini daha açıq və cəsarətlə ifadə etməyə başladılar [9, s.125]. 1905-ci il və sonrakı illər mətbuat, eləcə də nəşriyyat sahəsində əhəmiyyətli yüksəliş dövrü olmuş, ana dilində 63-dən çox nəşr işıq üzü görmüşdü [15, s.56]. Həmin illərdə Azərbaycanda çap olunan mətbu orqanlarını və ziyalıların ictimaiyyətə yönəltdiyi mesajları nəzərdən keçirdikdə milli dirçəlişin baş verdiyini, "Biz kimik?" sualının gündəmə gəldiyini və milli kimlik axtarışının genişləndiyini müşahidə etmək mümkündür.

Həsən bəy Zərdabi və Azərbaycan Mətbuatı. Azərbaycanda mətbuatın təməli XIX əsrin son rübündə qoyulmuşdur. Daha əvvəl qeyd edildiyi kimi, həmin dövrdə Rusiya senzurasının sərtliyi səbəbindən mətbuat və media orqanlarında azad fikir və düşüncənin tam şəkildə ifadə edilməsi mümkün deyildi. Azərbaycan mətbuatına ən böyük töhfələrdən birini verən və ilk türkdilli mətbu orqanın əsasını qoyan şəxs isə **Həsən bəy Zərdabi** olmuşdur; onun yaratdığı **"Əkinçi"** qəzeti milli mətbuat tarixinin dönüş nöqtəsi hesab edilir.

Həsən bəy Zərdabinin mətbuat fəaliyyətini müzakirə etməzdən əvvəl, onun sosialist yanaşmasının mənşəyini və düşüncəli həyatının formalaşdığı çərçivəni təhlil edə bilmək üçün həyatını anlamaq vacibdir. Həqiqətən də, təhsil təcrübələri onun mentalitetinin formalaşmasında mühüm amillərdən biri olmuşdur. Həm də Zərdabinin şairləri sevən və onlara ev sahibliyi edən bir ailədə böyüməsi onun mədəni həyatının inkişafına töhfə vermişdir [2, s.10]. Atası Səlim bəy onu şairlər haqqında məlumatlılığını artıraraq mədəni həyatını inkişaf etdirən bir ailədə böyütmüşdür [7, s.4]. Zərdabi ibtidai təhsilini Zərdab kəndindəki mədrəsədə başa vurmuş və ərəb-fars dillərini öyrənmişdir. 1852-ci ildə Şamaxı şəhərində məktəbdə oxumuşdur. Zərdabinin intellektual həyatına əsas təsir göstərən amil onun Moskva Universitetinin Fizika-Riyaziyyat Fakültəsinin Təbiət kafedrasında təhsili olmuşdur. Qəzet nəşr etdirmək və sosial problemlərlə məşğul olmaq sosial intizamın səciyyələndirdiyi sahələr olsa da, Zərdabinin sosial hadisələri effektiv şəkildə təhlil etməsi və işini buna uyğun şəkildə formalaşdırması onun güclü elmi fəaliyyətini nümayiş etdirməsinə imkan yaratmışdır. Moskvadakı müəllimlərinin təsiri ilə o, Darvinizmdən təsirləndi. Darvinizmin "ən güclü olanın yaşaması" prinsipini

onun türk millətini dəstəkləmək uğrunda mübarizəsində müşahidə etmək mümkün idi. Lakin o, bu hərəkatın prinsiplərini həyat prinsipi kimi qəbul etmədi və daha çox populist hərəkatın ideyalarına uyğun hərəkət etdi. İlya İliç Meçnikov, İvan Mixayloviç, Kliment Arkadayeviç Timiryazev və İliç Menkiçev kimi materialistlər ona intellektual cəhətdən təsir göstərdilər [7, s.7]. Rusiyadakı populist hərəkatı da Zərdabiyə təsir edən amillərdən biri idi. Zərdabi xalqın bərabərliyini və problemlərini hədəfləyən bu hərəkatı özünün həyat fəlsəfəsi kimi seçmişdir. Həm cəmiyyəti cəhalətdən azad etmək uğrunda mübarizəsi, həm də öz düşüncə tərzində ortaya çıxan azadlıq qığılcımları bu qarşılıqlı əlaqənin göstəriciləri kimi göstərilə bilərdi. Universiteti bitirdikdən sonra Zərdabi torpaq idarəçiliyində çalışdı. "Papaqlı rus" kimi tanınan Zərdabi geniş etibar qazana bilməmişdir. Bu mənfi münasibət onun işini daha da çətinləşdirirdi. Bu dönəmdə Zərdabinin məqsədi torpaqla bağlı mövcud mübahisələri həll etmək idi. Lakin güclü ağaların xeyrinə həll edilən problemlər Zərdabinin xarakterinə və xasiyyətinə zidd idi. Zərdabinin ədalətsizliyə qarşı çıxması onun rəhbərləri ilə toqquşmasına səbəb oldu. Nəticədə o, istefa verməyə məcbur oldu [16, s.79].

Zərdabi həyatı boyu Azərbaycanın inkişafı, mətbuatın qurulması və ətraf mühitin qorunması ilə məşğul olmuşdur. Belə ki, Zərdabinin ideyalarının əsasını təşkil etdiyi dövrdə Azərbaycan müstəmləkə əsarəti ilə mübarizə aparırdı. Bir tərəfdən rusların assimilyasiya fəaliyyəti, digər tərəfdən ictimaiyyətin cəhaləti və mürtəce ruhaniləri Azərbaycanı çıxılmaz vəziyyətə salırdı. Ölkənin mübarizə meydanına çevrildiyi bir zamanda Zərdabi Azərbaycana qayıdıb mübarizə aparan şəxslərin sıralarına qatıldı. Bunlardan biri də dramları ilə tanınan Mirzə Fətəli Axundzadə idi. Bu dramları Azərbaycan tamaşaçılarına çatdırmaq üçün çalışan Zərdabi 1873-cü ildə teatr yaratmağa müvəffəq oldu. Hətta Nəcəf bəy Vəzirovun dəstəyi ilə Zərdabi Axundovun "Hacı Qara" komediyasında rol aldı. O, bu komediyadan əldə edilən gəliri yoxsul tələbələrə vermişdir. Zərdabinin yoxsul tələbələrə maliyyə dəstəyi sonradan aparacağı fəaliyyətlər barəsində qabaqcadan xəbər verir.

Bundan başqa Zərdabi təhsildəki problemləri "cəhalət, təhsilin ana dilində aparılmaması, ruhanilər tərəfindən təhsilin yanlış şərh edilməsi, qeyri-dəqiq tədris üsulları və qadınların təhsilinə diqqət yetirilməməsi" kimi başlıqlar altında təsnif edirdi. Onun fikrincə, cahil düşüncə ilə böyüyən gənclər nə cəmiyyət üçün, nə də özləri üçün faydalı ola bilərlər. Onun fikrincə, gənclik cəmiyyətin dinamikasını təşkil etdiyindən, bu dinamikanın sağlam olmaması bütöv bir toplumun çökmə təhlükəsinə gətirib çıxara bilərdi. Çünki təhsilin keyfiyyəti isə bir xalqın ya güclü və azad yaşamasının, ya da müstəqilliyini itirərək asılılıq vəziyyətinə düşməsinin əsas səbəblərindən biridir. Həqiqətən də, rusların mədəni assimilyasiya siyasəti açıq şəkildə görünürdü; lakin cəmiyyətin təhsilə qarşı laqeyd münasibəti də ən azı bu qədər təhlükə yaradırdı. Belə ki, ruslar elm və bilik sahəsində irəlilədikcə, türklər geridə qalır, mollalar və ruhanilər təhsilə mane olur, cəmiyyəti cəhalətə doğru yönəldirdilər. Ədəbiyyata əsaslanan təhsilin məhdudluğu və zorakı tərbiyə üsullarından istifadə isə digər ciddi çatışmazlıqlar idi. Bütün bu problemləri aradan qal-

dırmaq üçün Zərdabi elmi araşdırmalar aparır, xüsusilə gənc nəslin təhsilə çıxış imkanlarının genişləndirilməsi istiqamətində fəaliyyət göstərirdi. Zərdabi, ana dilində təhsilin vacibliyini daim vurğulayırdı [10, s.32]. O, həmçinin qadınların təhsilinin cəmiyyətin gələcəyi üçün həlledici əhəmiyyət daşıdığını bildirərək bu sahədə də aktiv fəaliyyət göstərən ziyalılardan biri idi. Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi və Zərdabinin həyat yoldaşı Hənifə xanımın iştirakı ilə qızların təhsili üçün xüsusi məktəb açılmışdı. Məktəbin ilk direktoru Hənifə xanım oldu. Qafqaz müsəlman qadınlarının maariflənməsinə verdiyi böyük xidmətlərə görə Zərdabi "Qafqaz müsəlman qadınlarının mənəvi əcdadı" adlandırılmışdır.

Həsən bəy Zərdabi və "Əkinçi" qəzeti. Tələbəlik illərindən etibarən türk dilində mətbuat orqanının olmadığını görən Zərdabi bu sahədə boşluğu doldurmaq məqsədilə nəşriyyat fəaliyyətinə başlamağın vacibliyini dərk etmişdi [2, s.22]. Onu türk dilində qəzet hazırlamağa sövq edən əsas səbəblərdən biri də ictimaiyyətin teatrlara və təhsil ocaqlarına marağının son dərəcə az olması idi. Mübariz ruhlu Zərdabi, qəzet oxucularının zamanla artacağına inanaraq öz düşüncələrini və maarifçi ideyalarını daha geniş kütləyə çatdırmaq üçün türk dilində qəzet nəşr etməyə qərar verdi [16, s.84-85]. O, həmçinin mətbuatı siyasi və sosial hadisələri öz dövrünün reallıqları ilə əks etdirən ən güclü "güzgü" kimi qiymətləndirirdi. **"Əkinçi" qəzeti 22 iyul 1875-ci ildə nəşrə başladı.** Həsən bəy Zərdabi qəzetin formalaşmasına əvəzsiz töhfələr verərək onun bütün iş proseslərində — məqalələrin yazılması, redaktəsi və korrektəsi də daxil olmaqla — aktiv iştirak edirdi [13, s.492]. Zərdabinin uzaqgörən yanaşması və digər müəllifləri qəzetə yazı göndərməyə təşviq etməsi onun məzmununu daha da zənginləşdirdi. Qəzet 1875–1877-ci illər arasında cəmi 56 nömrə çap etmişdir. Zərdabinin yazıları ilə yanaşı, Seyid Əzim Şirvani, Əhsənül-Cavaid, Mirzə Fətəli Axundov və Nəcəf bəy Vəzirov kimi şairlər, yazıçılar, pedaqoqlar və tarixçilər də "Əkinçi"yə məqalə və məktublar göndərərək qəzetin intellektual və maarifçi istiqamətinin formalaşmasında mühüm rol oynamışlar [8, s.4].

"Əkinçi" qəzeti adından da göründüyü kimi, kənd təsərrüfatı ilə bağlı mövzulara geniş yer ayırırdı. Kənd təsərrüfatı həmin dövrdə Azərbaycanın iqtisadi gəlirlərinin əsas hissəsini təşkil etdiyindən qəzetin məqsədlərindən biri bu sahədə peşəkarlığı artırmaq, ictimaiyyətə iqtisadi fəaliyyətlərdə zəruri bilik və təcrübə qazandırmaq idi. Zərdabi qəzetdə torpağın gübrələnməsi, səmərəli təsərrüfatçılıq və qənaətcil iqtisadi davranış kimi mövzuları işıqlandırmaqla həm iqtisadi maarifləndirməni genişləndirməyi, həm də keyfiyyətli istehsalın təşviqini hədəfləyirdi. O, hesab edirdi ki, iqtisadi inkişaf təmin olunduğu təqdirdə ictimaiyyət sosial məsələlərə daha həssas olur, çünki insanların əsas ehtiyacları artıq ödənilmiş sayılırdı [6, s.51]. Bununla belə, Zərdabinin məqsədi yalnız kənd təsərrüfatı haqqında yazmaq deyildi. O, qəzet vasitəsilə cəmiyyətdə yenilik toxumları səpmək, maarifçiliyi gücləndirmək və geniş kütlələrə doğru bilgi çatdırmaq istəyirdi. Buna görə də "Əkinçi" həm maarifçilik tribunasına, həm də Zərdabinin populist ideyalarını həyata keçirmək üçün vasitəyə çevrilmişdi [5, s.473]. Qəzetdə rusların Qafqazda

apardığı müstəmləkəçilik siyasət, cəmiyyətdəki din xurafatları, Qafqaz türklərinin geri qalmasının səbəbləri və inzibati idarəçilik kimi məsələlər də daim müzakirə mövzusu olmuşdur. Xalqın problemlərinin həllinə xüsusi əhəmiyyət verən Zərdabi, yalnız dini mövzulara yönələn və dünyəvi məsələlərə biganə qalan yazarlara da öz tənqidi münasibətini bildirirdi. Zərdabi publisistik fəaliyyətində sosial bərabərsizliyin əsas simvolu olan feodal sisteminə də kəskin şəkildə qarşı çıxmış, bu sistemi açıq zülm forması kimi xarakterizə etmişdir. Onun məşhur "Azadlıq olmayan yerdə irəliləyiş ola bilməz" fikri bu baxımdan xüsusi önəm daşıyır. Zərdabiyə görə, sağlam və davamlı inkişaf yalnız azad düşüncə mühiti ilə mümkündür; fərqli fikirlərin qarşılıqlı müzakirəsi olmadan düzgün qərarlar qəbul oluna bilməz. Əks halda, cəmiyyət despotik hakimiyyətə, xaosa və durğunluğa sürüklənərdi.

Qəzetin əsas məqsədi insanları qəflət yuxusundan oyatmaq, cəhaləti aradan qaldırmaq, dini xurafatları tənqid edərək maarifçilik ideyalarını yaymaq, ictimaiyyəti siyasi proseslər barədə məlumatlandırmaq və satirik-realistik ədəbiyyatın inkişafına təkan vermək idi. Zərdabi xüsusilə kəndliləri – sadə xalqı – cəmiyyətin təməli hesab edir və onları maarifləndirməyi prioritet sayırdı [3, s.8]. Sovetlər dövründə – xüsusilə erkən mərhələlərdə – cahil türk kəndlilərini hədəfə alan siyasət yürüdülür, rus mərkəzçi baxış bucağı ilə kəndlilər səfalət və cəhalətə məhkum edilmiş bir kütlə kimi təqdim olunurdu. Zərdabi isə dövlət qulluğunda çalışdığı dövrlərdə xalqın vəziyyətini yaxından müşahidə etdiyindən, bu düşüncənin doğruluğunu qəbul etmir və rusların bu siyasətlə məqsədlərinə çatmasının qarşısını almağa çalışırdı. Onun kəndlilərə xüsusi diqqət göstərməsinin səbəblərindən biri də onların cəhalət içində saxlanılan təbəqə olması və maarifçiliyin məhz təməldən – xalqın özündən – başlamalı olduğuna inanması idi. Bununla yanaşı, Zərdabi cəmiyyətin mədəni dayaqlarından biri hesab etdiyi intellektual təbəqənin formalaşmasına da böyük əhəmiyyət verirdi. O, ziyalıların təhsilliliyini, inkişafını və cəmiyyətdə fəal mövqe tutmasını vacib hesab etdiyindən, bu istiqamətdə də müxtəlif maarifçi və publisistik təşəbbüslər həyata keçirirdi [1, s.413].

Zərdabi 1906-cı ildə yazdığı "Din və Dil" məqaləsində milli birliyin əldə olunmasına təsir edən amilləri iki başlıq altında təsnif etmişdir: dil və din. O, bu iki anlayışın ayrılmaz olduğunu və cəmiyyətin təməl təbəqəsini təşkil etdiyini vurğulamışdır. Zərdabi bu baxışlarda Cəmaləddin əl-Əfqani ilə oxşarlıqları bölüşür. Həqiqətən də, o, dili və dini sosial çərçivənin formalaşmasında və onun davamlı mövcudluğunda əsas elementlər kimi görürdü [11, s.135]. Zərdabi "Türk milləti dilini itirib. Onlara dillərini tapın və verin ki, yaşasınlar və inkişaf etsinlər" sözləri ilə dilin cəmiyyəti saxlayan, davamlılığı təmin edən və milli şüuru yaradan element olduğunu vurğulamaq istəyirdi [14, s.73-74]. Buna görə də, ictimai anlaşmanı və məlumatlılığı təmin etmək üçün sözügedən qəzetdə sadə bir dilə üstünlük verilirdi. Zərdabi elmi sivilizasiyanın yalnız bir cəmiyyət öz dilini mənimsədikdə inkişaf edə biləcəyinə inanırdı. Zərdabinin türk nəşrlərindəki sadələşdirmə səyləri mətbuata qadağan olunmuş sözləri daxil etmək kimi qəbul edilirdi. Bəziləri onu öz dilini Osmanlı türkcəsi ilə qarışdırmaqda günahlandırırdılar [15, s.41]. Bəziləri

Osmanlı türkcəsinin öz dilləri ilə uyğun olmadığını iddia edirdi. Zərdabi Osmanlı türkcəsinə daxil olan ərəb və fars sözlərinin fərqləndirməyə səbəb olduğunu, beləliklə, ayrı dillər kimi göründüyünü, əslində isə öz dilləri ilə inteqrasiya olunduğunu bildirirdi [12, s.17]. Qəzet həmçinin fars dilinin təsirini müdafiə edən və ənənəvi hesab edənlər tərəfindən də tənqid olunurdu. Bu tənqidin səbəbi Əkincinin sadə dili və fars terminlərindən az istifadə etməsi idi.

"Əkinçi" qəzetinin nəşrinə əhəmiyyətli töhfələr verən Bakı qubernatoru Staroselskinin başqa yerə keçirilməsi onun ömrünü qısaltdı. Bu, senzuranın güclənməsinə səbəb oldu. 1877-ci ildə qəzet Osmanlı İmperiyası ilə Rusiya arasındakı müharibəni əsas gətirərək bağlandı [3, s.5]. Qəzetin bağlanmasının əsas səbəbi ictimaiyyət arasında milli şüurun artırılması və Osmanlı İmperiyasına rəğbət bəsləməsi idi. "Əkinçi"nin bağlanmasından sonra nəşrlər davam etdi. Lakin sonralar nəşr olunan qəzetlər Zərdabi ənənəsində olduqlarını iddia etsələr də, sosial hadisələrdən uzaq olmaları bu ənənəni tam şəkildə daşımadıqlarını göstərir.

Nəticə: Həsən bəy Zərdabinin mətbuat sahəsində həyata keçirdiyi yeniliklər və maarifçi təşəbbüsləri Azərbaycan cəmiyyətində dərin və uzunmüddətli nəticələr doğurdu. Zərdabinin dövründə başlayan "icmaya doğru" hərəkatı, eləcə də dilin sadələşdirilməsi ideyası sonrakı ziyalılar tərəfindən mənimsənilərək möhkəm bir əsas üzərində inkişaf etdirildi. Dil cəmiyyətin həm özünüifadə vasitəsi, həm də varlığının davamlılığını təmin edən, birlik və həmrəylik yaradan ən mühüm amillərdəndir. Belə ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycan mədəniyyətini araşdırdıqda fars və rus dillərinin aydın dominantlığı görünür. Türk dilində yazmaq və ya ana dilində danışmaq uzun müddət cəhalət əlaməti kimi dəyərləndirilirdi. Lakin Zərdabinin və onunla həmfikir olan maarifçi ziyalıların fəaliyyəti nəticəsində bu yanlış yanaşma getdikcə dəyişdi. Türk dili Azərbaycan mətbuatında sistemləşməyə başladı, çap məhsullarında daha geniş yer aldı və nəhayət, ictimai-mədəni kimliyin əsas dayağına çevrildi. Zərdabinin və digər ziyalıların səyləri sayəsində türk dili rus və fars dillərinin hegemonluğu altında assimilyasiyaya məruz qalmaqdan xilas oldu. Zərdabi və maarifçi nəsil üçün mətbuat sadəcə informasiya vasitəsi deyil, həm də milli kimliyi oyadan və qoruyan ideoloji bir platforma idi. Onların mətbuat vasitəsilə atdıqları ən mühüm addım milli kimliyi tədricən itirməkdə olan bir topluma işıq salmaq, onu yenidən şüurlandırmaq və özünüdərki gücləndirmək oldu. Bu baxımdan demək olar ki, Azərbaycanın milli dövlət kimi meydana çıxmasında — tədqiqatımız boyu vurğulandığı kimi — xalqın milli şüurunu oyatmaq məqsədi daşıyan ziyalıların proqramları, ideoloji yanaşmaları və maarifçilik fəaliyyəti mühüm rol oynamışdır. Nəticə etibarilə, Azərbaycanın yetmiş illik müstəqillik mübarizəsi də məhz bu intellektual ənənədən, Zərdabi və onun davamçılarının yaratdığı maarifçilik düşüncəsindən ilhamlanaraq formalaşmış və uğurla başa çatmışdır.

Ədəbiyyat siyahısı:

1. Açıqqaya, S. "Çarlık Rusyası Hakimiyetindeki Türklerinde Ulus Bilincinin Gelişmesinin Temel Dinamikleri", Sosyal Bilimler Enstitüsü Dergisi, 2010, 420.

2. Aydınoğlu, T. Hasan Bey Zerdabi Hatıralarda, Bakü: Azerbaycan Cumhuriyeti Medeniyet ve Turizm Nazırlığı. 2013, 99 s.
3. Gündoğdu, A."İki Devrim Arasında Rusya'da Siyasi Katılım ve Türkler", XVI. Türk Tarih Kongresi, Ankara: TTK. 2010, 35 s.
4. İmanov, V. Ali Merdan Topçubaşı (1865-1934), Lider Bir Aydın ve Bağımsız Azerbaycan Cumhuriyeti'nin Temsili, İstanbul: Boğaziçi Üniversitesi Yayınları. 2003, 303 s.
5. İsmayıl, M. "XX. Yüzyıl Azerbaycan Basını", Türkler, Ankara: Yeni Türkiye Yayınları, 2002, 652 s.
6. Köçərli, F. "Həsən Bəy Məlikov", Hanifə xanım Məlikova-Abeyava'nın Xatirələri (Biography of Həsən Bəy Məlikov Zərdabi), Bakı. 2005, 70 s.
7. Məmmədova, M. Həsən Bəy Zərdabinin Bioqrafiyası və Epistolyar Siyahısı, Bakı. 2006, 300 s.
8. Nağıyev, C. Həsən Bəy Zərdabinin Arxivinin Təsviri, Bakı. 2008, 200 s.
9. Qafqazyalı, A. İran Türkleri, İstanbul: Bilge Oğuz Yayınları. 2010, 900 s.
10. Qazan, H. "Azerbaycan Milli Uyanışında Aydınlar ve Basın", İnönü Üniversitesi İletişim Fakültesi Elektronik Dergisi, C. 1/S. 1. 2016, 60 s.
11. Qurbanov, Ş. Cemaleddin Afgan ve Türk Dünyası, İstanbul: Doğu Yayınları. 2011, 325 s.
12. Nəsibli, N. Azerbaycan Türklerinin Önderleri, Berikan Yayınları, Ankara 2017., 524 s.
13. Sarıahmetoğlu, N. "Azerbaycan'da Eğitim ve Basın", Türkler, Ankara: Yeni Türkiye Yayınları, 2002, 492 s.
14. Süleymanlı, E. Milletleşme Sürecinde Azerbaycan Türkleri, İstanbul: Ötüken Yayınları, 2006, 373 s.
15. Swietochowski, T. Russian Azerbajian (1905-1920), The Shaping of National Identity in a Muslim Community. 2004, 272 s.
16. Yeşilot, O. Hasan Melikzade Zerdabi ve Ekinci Gazetesi, İstanbul: Yeditepe Yayınları. 2012, 216 s.

TÜRK DÜNYASI MƏDƏNİ İRSİNİN VƏ TARİXİ ŞƏXSİYYƏTLƏRİNİN QƏHRƏMANLIQ NÜMUNƏLƏRİNİN BƏZİ MƏSƏLƏLƏRİ

Səkinə Hüseynova
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının I kurs magistrantı
sekine2000sh@gmail.com, nurlan-abbasov@mail.ru
Elmi rəhbər: dosent Nurlan Abbasov

Açar sözlər: *Türk mədəni irsi, qəhrəmanlıq ənənələri, tarixi şəxsiyyətlər, milli-mənəvi tərbiyə, pedaqoji yanaşma*
Keywords: *Turkish cultural heritage, heroic traditions, historical figures, national and moral values, pedagogical approach*

Giriş. Türk dünyası minilliklər boyunca formalaşmış zəngin mədəni irsə, yüksək mənəvi dəyərlərə, dövlətçilik təcrübəsinə və qəhrəmanlıq ideallarına malik böyük bir sivilizasiya məkanıdır. Bu irs yalnız tarixi hadisələrin məcmusu deyil, həm də milli kimliyin formalaşması, cəmiyyətin birləşdirilməsi və gənc nəsillərin tərbiyəsində mühüm rol oynayan ideoloji-bədii sistemdir. Türk xalqlarının ortaq tarixi kökləri, dastanları, qəhrəmanlıq ənənələri, müdrik dövlət və hərb xadimləri bu gün də tərbiyə prosesində aktual olaraq qalır.

Müasir dövrdə qloballaşma, informasiya axını və mədəni assimilyasiya təhlükələri fonunda türk dünyasına məxsus milli-mənəvi dəyərlərin qorunması və gənclərə ötürülməsi xüsusi əhəmiyyət kəsb edir. Bu konteksdə tarixi şəxsiyyətlərin, idealların və qəhrəmanlıq nümunələrinin pedaqoji baxımdan sistemləşdirilməsi, tədris prosesində məqsədyönlü istifadəsi mühüm tədqiqat istiqamətlərindən biridir.

Bu tezisdə türk dünyasının mədəni irsinə daxil olan qəhrəmanlıq modelləri, tarixi şəxsiyyətlərin tərbiyəvi potensialı, onların müasir gənclərin formalaşmasında rolu və bu istiqamətdə mövcud pedaqoji problemlər təhlil edilir.

Türk dünyası mədəni irsinin mahiyyəti və pedaqoji əhəmiyyəti. Mədəni irs anlayışının türk kontekstində şərhi. Türk dünyası mədəni irsi minilliklər ərzində formalaşmış maddi və qeyri-maddi elementlərin bütöv sistemidir. Bunlara dil, ədəbiyyat, folklor, dastanlar, musiqi, məişət ənənələri, dövlətçilik nümunələri və qəhrəmanlıq dastanları daxildir. Xüsusilə qeyri-maddi mədəni irs — "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Manas", "Oğuznamə", "Alpamış" kimi eposlar türk xalqlarının mənəvi kodunu təmsil edir. Ümumilli lider H. Əliyev göstərirdi ki, vətənpərvərlik tərbiyəsinin kökündə, bünövrəsində ilkin olaraq ana dili dayanır. Daha sonra xalqın inkişaf etmiş elmi, ədəbiyyatı, ən güclü tərbiyə vasitəsi olan zəngin folklor nümunələri gəlir [1, s.5].

Dastanlarda ən təməl dəyərlərdən biri qəhrəmanlıq və igidlikdir. Dastanlarda qəhrəmanlıq və fədakarlıq əhəmiyyətli yer tutur. Qəhrəmanlar çətin sınaqlarla qarşılaşdıqda qorxmadan hərəkət edir və xalqlarını qorumaq üçün mübarizə aparırlar. Eyni zamanda, başqaları üçün fədakarlıq edərək ictimai dəyərləri qoruyurlar. Bu dəyərlər cəmiyyətdə örnək olur və insanların özünü inkişaf etdirməsinə kömək edir [4].

"Dədə Qorqud" dastanında əxlaq tərbiyəsinin mühüm tərkib hissəsi olan vətənpərvərlik, yurd sevgisi əsərin əsas ideyasını təşkil edir. Bu ideya isə qədim oğuz türklərinin qəhrəmanlıq şücaətlərindən süzülüb gəlməkdədir. Dastanda yetişən nəsildə vətənə məhəbbət tərbiyəsi üçün ilk növbədə onlara vətəni tanıtmağa və sevdirməyə yön verir [2, s.41].

Bu irs həm tarixi, həm də pedaqoji baxımdan böyük əhəmiyyət daşıyır, çünki: Milli kimlik və birlik şüurunu gücləndirir, Vətənpərvərlik və fədakarlıq kimi dəyərləri aşılayır, Kollektiv yaddaşı qoruyur, Gənclərdə milli-mənəvi dayanıqlığı möhkəmləndirir, Gələcək nəsillərin mənəvi-mədəni formalaşmasında baza rolunu oynayır.

Qəhrəmanlıq ənənələri mədəni irsin nüvəsi kimi. Türk mədəniyyətində qəhrəmanlıq yalnız hərbi rəşadət deyil, həm də ən yüksək mənəvi keyfiyyətlərin təcəssümüdür: ədalət, mərdlik, sözə sədaqət, xalq üçün fədakarlıq, mənəvi təmizlik, böyüyə hörmət, kiçiyə qayğı.

Bu dəyərlər gənclərin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır və müasir pedaqoji sistemdə yenidən aktuallaşdırılmalıdır.Türk dünyasının tarixi şəxsiyyətləri və onların tərbiyəvi potensialı. Dövlət qurucuları və siyasi liderlər.

Türk dünyası dövlətçilik ənənələrinin baniləri olan şəxsiyyətlər – Bilgə Kağan, Tonyukuk, Alp Arslan, Şah İsmayıl Xətai, Atatürk, Əmir Teymur, Uluq bəy və b. – yalnız siyasi lider deyil, həm də yüksək mənəvi keyfiyyətləri ilə nümunə olan şəxslərdir.

Onların tərbiyəvi əhəmiyyəti aşağıdakılardır: Dövlətə sədaqət və xalq mənafeyini üstün tutmaq, Strateji düşüncə və liderlik keyfiyyətləri, Elmə, mədəniyyətə, maarifə verdikləri dəyər,

Ədalətli idarəçiliyin modeli, Güclü iradə və milli birliyin qorunması.

Məsələn, Atatürkün maarifçi islahatları, Bilgə Kağanın Orxon kitabələrində gənclərə ünvanlanmış nəsihətləri, Şah İsmayıl Xətainin milli birlik ideyası gənclərin tərbiyəsində universal dəyərlər təqdim edir.

Türk tarixi həm də rəşadətli hərb xadimləri ilə zəngindir: Nəsimi, Babək, Koroğlu, Alpamış, Manas, Qarabağ tarixi qəhrəmanları və XX–XXI əsr şəhid və qaziləri.

Bu qəhrəmanlıq nümunələrinin tərbiyəvi aspektləri: Cəsarət və fədakarlıq, haqq-ədalət uğrunda mübarizə, xalqın müdafiəsi, qorxmazlıq və əqidə möhkəmliyi, mənəvi bütövlük.

Xüsusilə Qarabağ Zəfəri kontekstində müasir qəhrəmanların nümunəsi gənclik üçün real, yaxın və güclü motivasiya mənbəyidir.

Türk-islam sivilizasiyasının böyük alim və mütəfəkkirləri – Fərabi, Nəsrəddin Tusi, İbn Sina, Yusif Balasaqunlu, M.F.Axundzadə, Zərdabi, Nizami Gəncəvi, Yunus Əmrə və b. – mənəvi-mədəni dəyərlərin formalaşmasında misilsiz rol oynayıb. Onların tərbiyəvi mirası, elmə və bilik qazanmağa təşviq, humanizm və mənəvi harmoniya ideyaları, ədalət, kamillik və müdriklik, xeyirxahlıq və insanpərvərlik hislərinin aşılanmasından ibarətdir. Elm və mənəviyyatın vəhdəti türk düşüncə sisteminin əsas prinsipidir və bunun gənclərə ötürülməsi müasir təhsil üçün vacib məsələdir.

Qəhrəmanlıq nümunələrinin tərbiyəvi funksiyaları. Vətənpərvərlik və milli kimlik tərbiyəsi. Qəhrəmanlıq obrazları gənclərdə: Milli iftixar hissi, tarixi yaddaş, Vətənə bağlılıq, milli kimliyə sədaqət, mənəvi məsuliyyət kimi hisləri formalaşdırır. Bu funksiyalar milli təhlükəsizlik və dövlətçilik şüurunun formalaşması üçün strateji əhəmiyyət daşıyır.

Qəhrəmanlıq nümunələri gənclərə: Dürüstlük, fədakarlıq, insanpərvərlik, prinsipiallıq, əxlaqi saflıq kimi keyfiyyətlər aşılayır. Türk dastanlarında qəhrəman heç vaxt şəxsi mənfəət üçün döyüşmür; məqsədi həmişə haqq və ədalətdir. Liderlik və sosial məsuliyyətin inkişafı.

Tarixi şəxsiyyətlərin həyatı gənclərə: Liderlik bacarığı, qərarvermə qabiliyyəti, kollektiv məsuliyyət hissi, cəsarətli davranış modeli, cəmiyyətə xidmət ideyası qazandırır. Bu, müasir gənclərin sosial fəallığının artırılması baxımından vacibdir. Qəhrəmanlıq irsinin tədrisə inteqrasiyası: metodiki məsələlər. Tədris proqramlarında sistemli yanaşmanın olmaması. Bir çox türk ölkələrində qəhrəmanlıq irsinin tədrisi mövcuddur, lakin: Materiallar sistemləşdirilmir, Müxtəlif ölkələrin ortaq irsindən lazımi qədər istifadə edilmir, Bəzi mövzular formal şəkildə təqdim olunur,

Gənclərin yaş xüsusiyyətlərinə uyğun metodika zəifdir. Bu səbəbdən tədris prosesi istənilən tərbiyəvi effekti vermir. Müasir pedaqoji texnologiyalardan istifadə.

Qəhrəmanlıq irsinin tədrisində istifadə oluna biləcək metodlar: Layihə əsaslı təlim, debat, müzakirə, tənqidi düşünmə, virtual muzeylər və multimediya resursları, bədii oxu və dramatizasiya, Rol modellərinin psixoloji analizi, Türk dünyası üzrə inteqrativ dərslər.

Hərbi-vətənpərvərlik hissinin yaradılmasında əhəmiyyətli rol oynayan hərbi idman oyunlarının keçirilməsi də təqdirəlayiqdir. Məktəbli uşaqların əsgər forması geyinərək yarışda iştirak etməsi, onların bir anlıq özlərini əsgər kimi hiss etməsinə şərait yaradır. Belə tədbirlər gənc nəslin hərbi vətənpərvərlik ruhunda böyüməsinə öz müsbət təsirini göstərir.

Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi ilə bağlı işlərin forma və üsullarının müxtəlif və rəngarəng olması da əhəmiyyətli rol oynayır. Azərbaycan ordusunun yaradılması günü kimi bayram tədbirlərinə hazırlıq və təntənəli surətdə qeyd edilməsi, hərbi hissələrə, döyüş yerlərinə, qəhrəmanların abidələrinə ekskursiyaların təşkil olunması, Qarabağ müharibəsinin veteranları, qaziləri ilə görüşlər keçirilməsi gənclərin yaddaşında dərin iz buraxır. Hərbi-vətənpərvərlik mövzularında görüşlər, söhbətlər, ədəbi-bədii gecələr, müzakirələr keçirmək, şəkilli albomlar, fotosərgilər, fotoalbomlar təşkil etmək və s. Tədbirlər vətənpərvərlik tərbiyəsində ən təsirli formalardır. Bunlar həyata keçirilən zaman hər bir gənc vətən qarşısında öz məsuliyyətini başa düşür, vətəni qorumağa, onu sevməyə bütün varlığı ilə hazır olur. Bu metodlar gənclərdə emosional təsiri gücləndirir və qəhrəmanlıq dəyərlərinin daha dərindən mənimsənilməsinə kömək edir [3]. Bu məsələdə media və rəqəmsal platformaların da rolu böyükdür. Müasir dövrdə gənclər informasiyanı əsasən rəqəmsal mühitdən alır. Bu səbəbdən, Türk qəhrəmanları haqqında animasiya, film və serialların hazırlanması, mobil tətbiqlər, interaktiv xəritələr, sosial mediada maarifləndirici kontent, virtual reallıq əsasında tarixi rekonstruksiyalar böyük tərbiyəvi potensiala malikdir.

Türk dünyası çərçivəsində ortaq qəhrəmanlıq konsepsiyasının formalaşdırılması. Ortaq mədəni yaddaşın gücləndirilməsi. Türk dövlətləri arasında mədəni əməkdaşlıq gücləndikcə ortaq qəhrəmanlıq konsepsiyasının yaradılması aktualdır. Ortaq qəhrəmanlıq modeli:Türk xalqlarının birliyini möhkəmləndirir, Ortaq tarix şüuru yaradır, Dünya miqyasında mədəni nüfuzu artırır.

Türk Akademiyası, TÜRKSOY və digər qurumların rolu.

Bu qurumların fəaliyyəti: Ortaq dərslik layihələri, konfranslar, ekspedisiyalar, ümumtürk mədəni irsinin elmi araşdırılması, gənclər üçün təhsil proqramları kimi istiqamətlərdə vacibdir. Lakin hələ də potensial tam istifadə olunmur. Müasir siyasi-mədəni şəraitin təsiri.

Türk dövlətləri arasında inteqrasiya prosesi sürətləndikcə, gənc nəslin də ortaq dəyərlərlə böyüməsi strateji zərurət kimi ön plana çıxır. Qəhrəmanlıq tərbiyəsi həm milli, həm də ümumtürk kimliyinin əsas ideoloji dayaqlarından birinə çevrilmişdir.

Pedaqoji problemlər və həll yolları.

Problemlər: Tədris materiallarının parçalanmış və sistemsiz olması. Müəllimlərin metodoloji hazırlığının kifayət etməməsi. Milli qəhrəmanlığın bəzən yalnız hərbi konteksdə təqdim edilməsi. Gənclərin tarixi şəxsiyyətlərlə emosional bağının zəif olması. Rəqəmsal mədəniyyətlə ənənəvi tədris arasında uyğunsuzluq.

Həll yolları: Ortaq türk qəhrəmanlıq dərsliyinin hazırlanması. Müxtəlif yaş qrupları üçün adaptiv tədris modellərinin yaradılması. Qəhrəmanlıq mövzusunun həm mənəvi, həm psixoloji yönlərinin açıqlanması. Rəqəmsal humanitar layihələrin (VR, interaktiv platformalar) genişləndirilməsi. Qəhrəmanlıq nümunələrinin müasir həyatla əlaqələndirilməsi. Müəllimlərin peşəkar hazırlığı üçün xüsusi proqramlar.

Nəticə. Türk dünyasının mədəni irsi və tarixi şəxsiyyətlərinin qəhrəmanlıq nümunələri gənclərin milli-mənəvi tərbiyəsinin mühüm komponentidir. Bu irs gənclərə yalnız keçmişin dəyərlərini deyil, həm də müasir dünyanın çağırışları qarşısında möhkəm durmaq üçün lazım olan ideoloji dayaqları verir. Qəhrəmanlıq dəyərləri gənclərin kimlik şüurunu formalaşdırır, onların sosial məsuliyyətini artırır, liderlik keyfiyyətlərini gücləndirir.

Tarix təhsilində vətənpərvərlik tərbiyəsinin yeri bir çox pedaqoqlar, tədqiqatçılar və sosial elm adamları tərəfindən müzakirə edilmişdir. Heç bir ümumbəşəri təhsil idealı müəyyən edilməsə də, tez-tez istinad edilən ideal vətənpərvərlik tarixi faktları təhrif etmədən və başqalarına qarşı düşmənçilik yaratmadan aşılanmalıdır. Eyni zamanda, tarix təhsilinin məlumatlı vətəndaşlıq tərbiyəsinə töhfə verəcəyi gözlənilir [5].

Bu tezisdə göstərilən istiqamətlər – tədris metodlarının yenilənməsi, rəqəmsal resursların tətbiqi, ortaq türk mədəni yaddaşının gücləndirilməsi və tarixi şəxsiyyətlərin pedaqoji potensialından məqsədyönlü istifadə – türk dünyası üçün strateji əhəmiyyət daşıyır.

Müasir dövrdə türk xalqlarının birliyi, mədəni irsin qorunması və gənc nəslin milli-mənəvi baxımdan sağlam yetişməsi üçün qəhrəmanlıq tərbiyəsinin elmi və metodoloji əsaslarda inkişaf etdirilməsi mühüm vəzifə olaraq qalır.

Ədəbiyyat siyahısı:

1. *Ağayev M. Pedaqoji fikir tarixində tərbiyə və təhsil (dərs vəsaiti). Bakı, 2011, 178 s.*
2. *Əliyev F. Müasir mərhələdə vətənpərvərlik tərbiyəsi (metodik vəsait). Bakı, ADPU nəşriyyatı, 156 s.*
3. *Əhmədova S. Şuşa ili və şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi. "Qədim Diyar" beynəlxalq onlayn elmi jurnal, cild 4, 2022*
4. *Gelişli Y. Türk destanlarının değerler açısından incelenmesi. Journal of Turkic civilization studies, cilt 4, 2014*
5. *Tarih eğitimi ve vatanseverlik üzerine bazı düşünceler. Uluslarası Türkçe edebiyat, kültür, eğitim dərgisi. sayı 3, 2015*

TÜRK DÜNYASI: ORTAQ TARİXİ MÖVZULARIN TARİX DƏRSLƏRİNDƏ İNTERAKTİV METODLARLA TƏDRİSİ

Röya Mirzəzadə
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının I kurs magistrantı
roya.mirzezade.1994@gmail.com
Elmi rəhbər: dosent Mətanət Məmmədova

Açar sözlər: *ortaq tarix, inteqrativlik, türk dünyası, metodika, tarixin tədrisi*
Keywords*: common history, integrativity, Turkic world, methodology, teaching of history*

Türk dövlətlərinin son illərdə həm siyasi, həm iqtisadi, həm də mədəni sahələrdə əməkdaşlığı türkdilli dövlətlərin birliyi mövzusunu daha da əhəmiyyətli edib. Xüsusilə, 44 günlük Vətən müharibəsindən sonra yeni bir mərhələyə keçən Azərbaycan-Türkiyə arasındakı münasibətlər, bütün türk dünyasında birlik ideyasını daha da gücləndirdi. Türk dünyası: ortaq mövzuların tarix dərslərində tədrisi mövzusu milli kimliyin, milli özünüdərk prosesinin və milli mədəni yaddaşın formalaşması və qorunub saxlanılmasında çox mühüm əhəmiyyət kəsb edir və türk xalqları min illər boyunca bir-birinə bağlı olduğu kimi , günümüzdə də bu proses davam edir. Türk xalqları ortaq dil, ortaq ideallar, mədəniyyət ətrafında cəmlənib. "Bizim başqa ailəmiz yoxdur, ailəmiz Türk dünyasıdır" [1]. Bu ifadə sadəcə ədəbi bir ifadə deyil, siyasi eyni zamanda tarixi cəhətdən öz təsdiqini tapmış reallıqların bərpasına çağırışdır. Bu baxımdan "Türk dünyasının birliyi" ideyası siyasi və ideoloji cəhətdən çox mühüm əhəmiyyət kəsb edir. Bu ideya XIX əsrdən siyasi-ideoloji formaya keçsə də, XX və XXI əsrlərdə isə dövlət strategiyası, hətta hərbi-strateji tərəfdaşlıq səviyyəsinə qədər yüksəlmişdir.

Bu nöqteyi nəzərdən ortaq türk tarixi mövzularının interaktiv metodlarla, müasir pedaqoji yanaşmalarla tədrisi həm metodiki, həm də ideoloji baxımdan çox önəm daşıyır. "Tarix fənni pedaqoji anlayış kimi həm də Pedaqogikanın, Psixologiyanın, Fiziologiyanın zəruri tələblərinə cavab vermək üçün bir sıra keyfiyyətləri ehtiva edir. Bu mənada tarix inteqrativ fənn xarakteri daşıyır" [2, s.8].

Ortaq türk tariximizin tədrisi mövzusunda atılmış ən əsaslı addım ümumtəhsil məktəblərimizin VIII siniflərində tədris olunan "Ortaq türk tarixi" vəsaitidir. Əslində bu məsələ ilə bağlı 90-cı illərin əvvəllərindən müəyyən müzakirələr aparılsa da Azərbaycan da daxil olmaqla türkdilli respublikalar SSSR-nin tərkibindən ayrıldıqdan sonra məsələnin müzakirəsi uzun bir müddət dayanıb. Nəhayət, Azərbaycan, Qırğızıstan, Qazaxıstan və Türkiyənin dövlət başçılarının birgə iştirak etdiyi, 2012-ci ildə Qırğızıstanda keçirilən zirvə görüşündə məsələ yenidən müzakirə olundu. Müzakirələrin nəticəsi olaraq ortaq türk tarixi kursunun yaradılması və bu ölkələrin ümumtəhsil məktəblərində tədris edilməsinə dair qərar imzalandı. Sonrakı illərdə Qəbələdə və onun ardınca Bodrumda keçirilən zirvə görüşlərində isə qərar təsdiq edildi. "Ortaq türk tarixi kursunu yazmaq vəzifəsi isə Beynəlxalq

Türk Akademiyasına həvalə edilmişdir. Akademiya da bu qərarın ardından xüsusi işçi qrupu yaradılaraq dərsliklər ən qısa müddətdə hazır edilmiş, 2017-ci ildə Qazaxıstanın Astana şəhərində vəsaitin müzakirəsi keçirilmiş və 2019-cu ildən isə artıq bu ölkələrdə ortaq türk tarixinin tədrisinə başlanıb" [6]. Azərbaycanda isə 2021-2022-ci tədris ilindən etibarən 150-yə qədər pilot məktəbdə fakültativ dərs kimi tədris olunur. Dərslik 7 bölmədən ibarətdir və XV əsrə qədər olan dövrü əhatə edir. Dərsliyin gələcəkdə daha da təkmilləşdirilməsi və XV əsrdən müasir dövrə qədər olan mərhələni əhatə edən davamının hazırlanması üçün də müəyyən müzakirələr gedir. Həmin mövzuların interaktiv metodlarla tədrisi ideoloji cəhətdən xüsusi önəmlidir.

Xüsusi önəm kəsb edən problemli məqamlardan biri ondan ibarətdir ki, ümumtəhsil məktəblərində türk dünyası ortaq mövzuları hələ də əsasən mühazirə tipli, şagirdlərin passiv, sadəcə məlumat alan mövqedə olduğu üsullarla tədris edilirdi. Şagirdlər həmin mövzunu sadəcə mexaniki surətdə əzbərləyirlər. Şagirdlər türk xalqlarının bir-biri ilə münasibətini, ortaq mədəniyyət, ortaq ədəbiyyat, dünyanın siyasi tarixinə təsiri kimi mövzuları dərk etmirlər. Mövzunu dərk edib tənqidi nəticə çıxarılmaması, qısamüddətli şəkildə yadda saxlanılmasına, lazımi dərəcədə dərk olunmamasına və həmçinin milli kimlik və soykökü anlayışlarının zəif inkişafına səbəb olur.

Başqa bir əsaslı problem isə ortaq türk tarixi tədrisi zamanı audio-vizual vasitələrdən, coğrafi məkan təsəvvürləri formalaşdırmaq üçün xəritələrdən istifadə olunmaması və onların mövzular ilə tam şəkildə inteqrasiyasının yaradılmamasıdır. Lakin, türk dünyası tarixi yazılı mənbələr, xəritələr, qədim türk yazıları, statistik mənbələr, foto mənbələr və arxiv materialları ilə zəngindir. Bu kimi materiallardan istifadə olunmadan şagirdlərin dərsə cəlb olunması onların fənnə qarşı marağını da azaldır.

Tədqiqatın əsas məqsədi türk dünyasının ortaq tarixi mövzularının tədrisi zamanı interaktiv metodların istifadə olunmasının vacibliyini əsaslandırmaqdır. Həmçinin, bəhs olunan metodların istifadə olunmasında birbaşa nümunələr verərək, bu metodların şagirddə analitik düşünmə, anlayıb nəticə çıxarma, müstəqil fikir irəli sürmək kimi bacarıqların formalaşmasında nə dərəcədə əhəmiyyətli olduğunu izah etməkdir [4].

"Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim şagirdlərin yaddaşının təkcə yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha çox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərinin, şəxsi keyfiyyət və qabiliyyətlərin qazanılmasına yönəlib" [7, s.11]. Belə olduqda şagird müəllimin də fasilitatorluğu ilə ümumi ifadələri konkret faktlardan ayırmağı, məlumatları analiz edib müəyyən nəticələr əldə etməyi, məsələyə tənqidi yaxınlaşaraq öz yanaşmasını ortaya qoymağı öyrənmiş olacaq.

Beyin həmləsi (əqli hücum) və BİBÖ metodu - fəal dərsin ilk mərhələsi hesab olunan motivasiya mərhələsində əsasən "beyin həmləsi" metodundan istifadə olu-

nur. Metodun üstünlüyü şagirdləri dərs prosesinin gedişinə hazırlamaq, onlarda müəyyən təsəvvürlər oyatmaq və mövzuya aid müəyyən fikirlər formalaşdırmaqdır. Ortaq türk tarixi mövzularının tədrisi zamanı beyin həmləsi metodundan istifadə edərək şagird fəallığını artırmaq olar. Məsələn, "Göytürklər haqqında nələr bilirsiz?", "Hansı məşhur türk sərkərdələrinin adını çəkə bilərsiniz?" və s. tipli suallar ünvanlamaqla onlarda müəyyən fəallıq yaratmaq və mövzuya dair nələrin bilindiyini yoxlamaq olar. BİBÖ cədvəli ilə isə dərsin sonunda, ümumiləşdirmə mərhələsində nələrin öyrənildiyinə ümumi baxış keçirildikdə istifadə olunması çox daha məqsədəuyğundur. Beləcə dərsin keyfiyyətini və qavramanın səmərəliliyini artırmış oluruq.

Venn diaqramı və müqayisəli təhlil - tarixin dərk olunmasında və tənqidi təfəkkür bacarıqlarının inkişaf etdirilməsində ən effektiv metodlardan sayılan müqayisəli təhlil mövzunu dərindən dərk etmə tələb etdiyi üçün şagirdlərin bilavasitə analitik düşünmə bacarıqlarıda inkişaf edir. Xüsusilə Hun imperatorluğu, Göytürk xaqanlığı, Uyğur xaqanlığı, Xəzər xaqanlığı kimi erkən orta əsrlərdə mövcud olmuş türk dövlətlərinin tarixini öyrənərkən tətbiq edilməsi dərsin qavranılmasını və səmərəliliyini artıracaqdır.

Şaxələndirmə (klaster) - Səlcuqlar, Göytürklər, Hun kimi kompleks xarakter daşıyan mövzuların alt bölmələrə parçalanaraq tədrisi zamanı şaxələndirmə metodundan istifadə öyrənmə keyfiyyətini artıracaq.

Təqdimat (prezentasiya) - təqdimat şifahi, yazılı, rollu yəni, səhnələşdirilmiş formada ola bilər. Həmçinin, rəqəmsal vasitələrdən istifadə edilərək slayd şəklində təqdim oluna bilər. Məsələn, "Türk dünyasının ortaq mənəvi və mədəni irsi" mövzusunda təqdimat hazırlayarkən şagird türk dünyasının ortaq dastanları, türk xalqlarının ortaq mənəvi dəyərləri, türk xalqlarının ortaq mədəniyyəti, ortaq milli oyunlar haqqında geniş araşdırma edərək və mövzu əsasında foto və digər vizual resurslar əldə edərək təqdimat edəcək. Şagirdin müstəqil araşdırması və təqdimatı auditoriya qarşısında çıxış etmə qabiliyyətini də inkişaf etdirmiş olacaqdır. Həmçinin, mənbələrlə işləmə bacarığı da təkmilləşəcək.

"Debatla müşayiət olunan müzakirə xəritəsi" [7, s.82]. - burada əsas nail olmaq istədiyimiz məqsədimiz öyrənilməsi nəzərdə tutulan mövzuya daha dərindən yanaşmadır. "Tarix dərsində xəritə ilə iş çoqrafi mühiti xarakterizə etmək üçün əsas metoddur. Coğrafi mühit cəmiyyət inkişafının hərəkətverici qüvvəsi olmayıb, bununla belə bu və ya digər ölkədə, bu və ya digər dövrdə - tarixi prosesi sürətləndirərək, yaxud əksinə, ləngidərək, əhəmiyyətli təsir göstərir" [3, s.291].

Biz xəritənin köməyilə tarixi əlaqələri, xüsusilə səbəbiyyət əlaqələrini əyani surətdə açıb göstəririk. Tarixi öyrənərkən, xüsusi ilə də Türk ortaq tarixi kimi geniş aspektli və coğrafi önəm kəsb edən mövzuların tədrisində tarixi xəritələrdən istifadə bilavasitə önəmlidir. Həmçinin xəritələrdən təkrar və ümumiləşdirmə dərslərində də istifadə oluna bilər. Çünki, tarixi xəritələr hadisələri xronoloji baxımdan izləməyə də imkan yaradır. Vizuallaşdırma baxımından da xəritələrin xüsusilə "Tü-

rklərin ilk köçləri" kimi coğrafi məkan vizuallaşdırılması tələb edən mövzuların tədrisində tətbiqi xüsusi əhəmiyyət kəsb edir.

Qruplarla iş və Layihələr - Qruplarla iş zamanı müəyyən bir problemin həllində qrup üzvləri öz rollarına uyğun çıxış edirlər. Adətən passiv, müstəqil fəaliyyyətdən çəkinən şagirdlərin tədqiqata cəlb olunması üçün ən səmərəli vasitədir. Sinif şagird sayına uyğun qruplara bölündükdən sonra ən önəmli məqam mövzu seçimidir. I qrup – "Türk xaqanlıqları", II- qrup "Xalqların böyük köçündə türklərin rolu" , III qrup –"Türk dünyası XIII-XV əsrlərdə", IV qrup - "Türk dünyasının ortaq mədəni irsi" kimi mövzular bölünərək geniş aspektli tədqiqatlar aparıla bilər. Layihələr də qrupla edilə bilər və ya fərdi qaydada. Layihələrin aparılmasında ən önəmli məqam şagirdin müstəqil düşünmə, nəticə çıxarma, mənbələrlə işləmə, tədqiqatçılıq bacarıqlarının inkişafıdır. "Ortaq türk dastanları", "Türk xalqlarının ortaq mənəvi dəyərləri" və s. kimi mövzular layihə tapşırıqları zamanı verilə bilər [5].

Bu nöqteyi nəzərdən yola çıxaraq ortaq türk tarixi mövzularının məktəb tarix proqramında inteqrasiyası genişləndirilməli, müəllimlərin interaktiv metodlardan daha səmərəli istifadə edə bilməsi üçün müəyyən öyrədici məqsədli seminarlar, təlimlər keçirilməli, həmçinin rəqəmsal resurslardan-animasiyalar, slaydlar, xəritələr və s. istifadə artırılmalıdır. Şagirdlər ortaq türk tarixi mövzularında "Dədə Qorqud eposu", "Türk dövlətləri xronologiyası", "Ortaq türk irsi" kimi layihələr hazırlamağa təşviq edilməlidir. Hətta müvafiq təşkilatların rəhbərliyi ilə məktəblər arası mübadilə layihələri belə qurula bilər.

Türk xalqlarının ortaq tarixinin öyrənilməsi məsələsi sadəcə məlumat vermək və yaxud da dünyagörüşü formalaşdırmaq məqsədi daşımamalıdır. Gələcək nəslin öz soykökünü, milli kimliyini tanıması, milli-mədəni dünyagörüşünün, milli kimlik düşüncəsinin formalaşması baxımından bilavasitə xüsusi önəm daşıyır. Bu yolda istifadə olunacaq metodiki yanaşmalar da ən az bu mövzuların tədrisi qədər əhəmiyyətlidir.

Ədəbiyyat siyahısı:

1. Əliyev İlham. Bizim başqa ailəmiz yoxdur, ailəmiz Türk dünyasıdır/https://report.az/amp/daxili-siyaset/azerbaycan-prezidenti-turk-dovletleri-teskilati-bizim-ucun-esas-beynelxalq-teskilatdir-cunki-bu-bizim-ailemizdir / 19.11.2025

2. Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ümumi tarix fənni üzrə təhsil proqramı (kurikulumu) (VI-XI siniflər). Bakı: 2013, 133 s.

3. Xıdırzadə S. Türk Dünyası: Ortak Tarixdən Ortak Gələcəyə. https://dogru.az/turk-dunyasi-ortak-tarixden-ortak-geleceye / 19.11.2025

4. Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası . Bakı: 2011, 707s.

5. Kıdırəli D., Babayar Q. Ortaq türk tarixi: VIII sinif üçün dərslik. Bakı: Beynəlxalq Türk Akademiyası, 2023, 160 s.

6. Nəcəfxanlı Ə. "Ortaq türk tarixi" Dostluq və qardaşlıq dərsliyi https://www.xalqqazeti.az/az/sosial-heyat/144386-ortaq-turk-tarixi / 19.11.2025

7. Veysova Z. Fəal/interaktiv təlim-müəllimlər üçün vəsait. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNİCEF), 2007, 156 s.

TÜRK DÜNYASINDA TƏHSİLİN STRATEJI VƏHDƏTİ: MİLLİ RUH, YARADICI TƏFƏKKÜR VƏ İNKİŞAF PRİORİTETLƏRİ

Tamilla İsmayılbəyli
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının I kurs magistrantı
tamilla.ismayılbayli.saleh@bsu.edu.az
Elmi rəhbər: t.ü.f.d. Elşən Aslanov

Açar sözlər: *təhsildə inteqrasiya, milli prioritetlər, divegent təfəkkür, fəlsəfi-yaradıcı yanaşma, əməkdaşlıq körpüsü*
Keywords: *integration in education, national priorities, divergent thinking, philosophical-creative approach, bridge of cooperation*

Müasir Türk Dövlətləri üçün təhsil inteqrasiyası sadəcə akademik bir əməkdaşlıq deyil, həm də Türk Birliyinin gələcəyini və qlobal rəqabətə davamlılığını təmin edən fundamental strateji zərurətdir. "Türk Dünyası Baxış - 2040" [8, s.2] sənədində öz əksini tapan bu hədəf, tədris prosesində milli kimliyin qorunması ilə yaradıcı və innovativ yanaşmanın sintezini tələb edir. Müasir dövrdə türk dövlətləri arasında təhsil inteqrasiyası yalnız texniki standartların uyğunlaşdırılmasından yəni diplom tanınması, akkreditasiyadan ibarət olmamalıdır. Bu həm də Türk dünyası gəncliyin milli-mənəvi köklərini dərindən dərk edən, eyni zamanda qlobal çağırışlara qarşı yaradıcı və innovativ həllər irəli sürə bilən bir nəsil formalaşdırmaq missiyasıdır. Bu tezis, bu ikili yanaşmanın Azərbaycanın Milli Prioritetləri və Türk Dünyası üçün tarixi əhəmiyyəti kontekstində necə bir metodoloji zəmin yaratdığını araşdırır.

Tədqiqatın əsas məqsədi, strateji vəhdəti təhlil etmək, ikili yanaşmanı əsaslandırmaq və təhsildə əməkdaşlıq, ortaq təhsil proqramlarının və akademik mübadilə layihələrinin yaradılmasıdır.

Tədqiqatın elmi yeniliyi, problemin yalnız təhsil standartları səviyyəsində deyil, milli və regional strateji inkişaf prioritetləri çərçivəsində araşdırılmasından və irəli sürülən metodoloji vəhdət yanaşmasından ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin elan etdiyi "Azərbaycan 2030: Milli Prioritetlər" sənədi [7], Türk Dövlətlər Təşkilatının təhsil hədəfləri ilə birbaşa əlaqələnir. Bu sənəd növbəti onillikdə ölkənin prioritetlərdən biri olan "Rəqabət qabiliyyətli İnsan Kapitalı və Müasir İnnovasiyalar Məkanı" birbaşa təhsil sistemindən iqtisadiyyata töhfəni hədəfləyir. Bu məqsədə çatmaq üçün göstərilən əsas şərtlər nəzərə alınmalıdır: Ali təhsil müəssisələrinin beynalxalq təhsil standartlarına cavab verməli; ixtisas proqramları qlobal əmək bazarı tələblərinə uyğunlaşdırılmalı; kompyüter və informasiya savadlığının bütün pillələrdə prioritetləşdirilməli; interaktiv tədris, tənqidi düşüncə, yaradıcı yanaşma, analitik təhlil və kompleks problem həll etmə bacarıqlarına üstünlük verilməli; ömürboyu öyrənmə imkanlarının yaradılması və iş həyatında tələb olunan karyera təlimlərinə investisiya olunmalıdır.

Türk Dövlətləri Təşkilatının "Səmərqənd Bəyannaməsində" qeyd olunan əsas istiqamətlərindən olan üzv ölkələr arasında Türk Ali Təhsil Məkanının formalaşdırması, ortaq təhsil və elm layihələrinin reallaşdırılması, texnologiya transferinin gücləndirilməsi və kosmik texnologiyalarının inkişaf etdirilməsidir. Türk Dövlətlərin birliyi və əməkdaşlığı nəticəsində Azərbaycan milli insan kapitalını izolyasiyadan çıxararaq 5 ölkədən ibarət böyük bir iqtisadi və intelektual bazara daxil ediləcək, bununla da beynəlxalq rəqabət qabiliyyəti kəskin artacaqdır. İlk Türk Nobel mükafatı laureatı Prof.Dr.Aziz Sancarın "Biz çalışdıqca, istehsal etdikcə üstün olacağıq. Əks halda, üstünlük genetik deyil. Bütün insanlar bir-birinə bərabərdir" [9, s.11] fikri təhsil metodologiyasında bərabər imkanların yaradılmasının və yalnız əməyə, yaradıcılığa və istehsala əsaslanan rəqabətə dayanıqlı mühitin qurulmasının vacibliyini vurğulayır. Türk təhsil inteqrasiyası məhz bu bərabərlik əsasında, ortaq zəhmətlə yüksəlməyi hədəf seçməlidir.

Tədris prosesində milli və yaradıcı yanaşmanın vəhdəti, türk gəncliyinin həm milli köklərinə bağlı olmasını, həm də qlobal səviyyədə düşünmə qabiliyyətini təmin edir. Milli ruhun aşılanması ədəbiyyat tədrisi vasitəsilə prioritetləşdirilməlidir. Nizami Gəncəvi, Mövlana Cəlaləddin Rumi, Əlişir Nəvai kimi ümumtürk dəyərlərini təmsil edən dahilərin əsərləri tədris olunarkən, bu əsərlərdəki etik dəyərlər, humanizm və dövlətçilik ideyaları müasir dövrün problemləri kontekstində şərh edilməlidir. Milli ədəbiyyatın tədrisi təkcə tarixi- ilolojı deyil, həm də fəlsəfi-yaradıcı yanaşma ilə aparılmalıdır.

Ədəbi mətnlər passiv oxu materialı deyil, yaradıcı layihələr üçün xammal olmalıdır. Bəs türk gənclərimizdə vətəninə, millətinə, tarixinə, kökünə sevgini necə aşılıya bilərik? Hansı tədris metodlarından istifadə edə bilərik? Onlarda ali təhsil müəssələrində yaradıcı təfəkkürün inkişafı təkcə milli ruhun gücləndirilməsində deyil, həm də gələcək inkişafın təminatına xidmət etməlidir. Mədəni siyasi milli birliyin möhkəmləndirilməsi təhsil sahəsində yeni prioritetlərin gücləndirilməsi, bu prioritetlərin içərisində müxtəlif fənlər xüsusən humanitar fənlərin tədrisində milli, innovativ və yaradıcı yanaşmanın vacibliyini göstərmək məqsədi qoyulmuşdur.

Niyə türk gənci Avropa ali təhsil müəssələrində təhsil almaq istəyir? Türk gənclərinin Avropa və ABŞ təhsilinə üstünlük vermə səbəbləri qlobal tanınma və universitetlərinin əksər halda beynəlxalq reytinqdə daha yüksək pillələrdə yerləşməsidir. Bu müəssisələrdə elmi sahəsində daha müasir texnologiyalar və elmə böyük sərmayələr qoyulur. Xaricdə təhsil almış məzunların karyera imkanları və perspektivləri daha yüksək olur. Türk dövlətləri bu "beyin axınını" dayandırmaq və təhsilin dünya standartlarına çatdırmaq üçün milli prioritetləri müəyyənləşdirməlidilər.

Türk Dövlətlərin Milli Prioriteti strateji və ciddi investisiyalarla türk gəncini Qərbə getmək əvəzinə, öz milli universitetlərini qlobal rəqabət qabiliyyətli bir mühit kimi görməyə başlayacaqdır. Türk gənclərinin yalnız Qərb deyil, həmçinin türk alimlərindən ilhamlanması, qürur mənbəyi olmalıdır. Milli ruhunu, kimliyini, köklərini tanınması və qorunması əsas prioritetlərdən biridir. Dahi alim Lütfi Zadə, təkcə Azərbaycanın deyil, bütün dünya elminin görkəmli simalarından biri ol-

muşdur. Onun irsi Türk Dünyası, texnologiya və riyaziyyat elmi üçün əvəzsizdir. Akademik Yusif Məmmədəliyev neft kimyası sahəsində dünya miqyaslı kəşflərlə tanınan dahi bir alimdir. Prof.Dr.Aziz Sancar ilk türk nobel kimya mükafatı laureatı, Prof.Dr.Oktay Sinanoğlu "Türk Eynşteyni" adlandırılıb. Kimya, Fizika və Molekular Biologiya sahəsində töhfələr verib. Qazaxıstan alimləri Abay Kunanbayev şair, mütəfəkkir, maarifçi, Ratbai Myrzakulov nüfüzlu alim fizika-riyaziyyat elmlər doktorudur. Türk Dünyası intellektual irsinin miqyası o qədər genişdir ki, bu irsi tək bir təhsil proqramına və ya tezisə sığdırmaq qeyri-mümkündür. Buna görə də, milli ruhun və yaradıcı təfəkkürün gücləndirilməsi üçün tələbələrin fəal iştirakı ilə həyata keçirilən "Türk Dünyası Elm Xadimlərinin Rəqəmsal Arxivinin Yaradılması Layihəsi" kimi beynəlxalq əməkdaşlıq proqramlarına ehtiyac var. Bu alimlərin uğurları, türk dünyasının uğurudur. Gənclər Qərbdə ideal obrazlar axtarmaq əvəzinə, öz daxili coğrafiyalarında kı alimlərdən nümunə götürərək və ilhamlanacağına inanıram.

Tədrisdə müasir, qabaqcıl metodlar üzərində işlənilməsi, özünü təlim prosesinin vacib üzvü hesab edən, öz tədqiqat potensialını göstərmək üçün bərabər imkanlara malik olan bir türk gənci gələcəkdə layiqli yerini tutacaq, təhsil sektorunda və ya istənilən qeyri-təhsil sektorunda görkəmli bir şəxsiyyət olacaqdır. Bunun üçün onun yaradıcı təfəkkürünün inkişaf yolunu tapmaq, yeni ideyalar və qeyri standart problemlərin fərqli həlli yollarının olduğunu göstərmək və vəziyyətə fərqli tərəfdən baxmaq və qeyri-aşkar əlaqələri tapmaq qabiliyyətini inkişaf elətdirmək lazımdır. David İqlaman və Antoni Brant kitabında yaradıcı yanaşmanın "bizə adəti hüdudları aşmağa və yenilik yaratmağa kömək edən koqnitiv bir proses" [3] kimi izah edirlər. Tədqiqatlar göstərir ki, yaradıcı təfəkkürün inkişafı yalnız düzgün təhsil mühiti yaradılması, müstəqil axtarışın stimullaşdırılması, hipotizlərin irəli sürülməsi və rəqəmsal texnologiyalarının təhsil prosesinə ineqrasiyası zamanı mümkün olur [5, s.62].

Milli təhsilinin modernləşdirilməsinin əsas ideyalarından biri, şəxsiyyətin öz fərdiliyini həyata keçirməyə və cəmiyyətdə baş verən dəyişikliklərə hazır olmasını təmin edəcək özünütəkmilləşdirmə (özünüinkişaf, özünütəhsil) mexanizminin məktəb təhsil prosesinə daxil edilməsidir. Buna nail olmaq üçün əsas şagirdlərin təhsil prosesinə daxil edilməsi müxtəlif tədris texnologiyalardan və fəaliyyət əsaslı qarşılıqlı əlaqə formalardanistifadədir. Bütün təhsil prosesi iştirakçılarını cəlb etməyə, onların yaradıcı qabiliyyətlərini reallaşdırmağa, mövcud bilik və bacarıqlarını praktiki fəaliyyətdə tətbiq etməyə imkan verən interaktiv formalar ən çox tələb olunan formalara çevrilir. Təhsil fəaliyyətinin bu cür təşkili formalarına interaktiv oyunlar, ustad dərsləri, layihə fəaliyyətləri, problemli vəziyyətlərin yaradılması, eksperiment aparmaq və sair daxildir.

Hər hansı bir müasir tədris texnologiyası pedaqoji elm və təcrübə nailiyyətlərinin sintezini, keçmiş təcrübənin ənənəvi elementləri ilə sosial tərəqqi, humanizasiya və cəmiyyətin demokratikləşməsi nəticəsində yarananların birləşməsini təmsil

edir. Müəllimin pedaqoji ustalığı seçilmiş tədris texnologiyasına uyğun zəruri məzmunu, metodları və tədris vasitələrini seçməkdən ibarətdir [6, s.5].

Türk Dünyası gəncliyinin yaradıcı təfəkkürünün gücləndirilməsinə xidmət edən, innovativ metodolojı yanaşmaları və konseptual layihələri sizə təqdim edirik:

1.Project Based Learning Layihə Əsaslı Öyrənmə - tələbələrin mürəkkəb suallara cavab tapmaq üçün bilik və bacarıqlarını tətbiq etdiyi dinamik bir öyrənmə modelidir.Aşağıda göstərilən layihələr Türk Dövlətlər Təşkilatının üzv ölkələrindən olan akademik və biznes nümayəndələrinin iştrak etdiyi onlayn festivalda, konfransda təqdim edilə bilər:

"Türk Dünyasının ortaq tarixini və ya iqtisadi potensialını 2040-cı ilə necə rəqəmsallaşdıra və qloballaşdıra bilərik?"; "Qədim Türk İrsi: Yenidən Canlandırma"; "Tarixi Azərbaycan ərazisində türk tayfalarının hərəkəti və məskunlaşması"; "Türk Dünyası üçün yaşıl Dəhliz"; "Türk elminin Ulduzları"; "Türk Dünyası Elm Xadimlərinin təbliği Layihəsi".

2. "Türk Dövlətləri arasında səyahət" Layihəsi Türk Dövlətləri Təşkilatına üzv ölkələrin və müşahidəçi ölkələrin (Türkmənistan,Macarıstan) ali təhsil müəssisələrinin yüksək akademik göstəricilər və elmi tədqiqat potensialı olan bakalavr və magistr tələbələri üçün hazırlanan bir layihədir.

Bu layihəyə daxildir: ortaq düşərgələr, mədəni-tarixi turlar,elmi konfranslar və festivallar.

Təhsil mübadilə proqramları (Orxon və Mövlanə təhsil mübadilə proqramları) tələbələrə bir semestrlik proqram çərçivəsində digər Türk Dövlətinin universitetində müvafiq ixtisas üzrə təhsil almaq imkanın yaradılması.

3.Milli Tədris Metodlarını və Uğurlu təcrübələrini mənimsəməsi (öyrənməsi və tətbiq edilməsi) Türk Dövlətlərinin təhsil sahəsində uğurlu milli metodları mənimsəyib tətbiq etməklə ortaq təhsil məkanını zənginləşdirə bilərik. Mövlana fəlsəfəsi öyrətdiyi kimi, fərqliliklərdə bərabərliyi tapmaq, yəni hər bir ölkənin milli metodunun türk birliyinə xidmət etməsini təmin etməkdir.

1. Təcrübənin İdentifikasiyası (effektiv və sınaqdan keçmiş metodların sənədləşdirilməsi və siyahısı hazırlanması)
2. Ortaq metodik baza (adaptasiya üçün vahid modul strukturu yaradılması)
3. Ekspert mübadiləsi (Təlimçilərin təlimi)
4. Pilot layihələrin Həyata keçirilməsi (sınaq və adaptasiya)
5. Nəticələrin inkişafına inteqrasiya(prosesin mütəmadi qiymətləndirilməsi və yenilənməsi)

3.Çoxşaxəli Analiz (Divergent Təfəkkür) tədbiqi:

Divergent təfəkkür tətbiqi [4, s.53], tarixi faktların əzbərlənməsi əvəzinə, tarixi proseslərə fərqli pespektivdən yanaşma bucağı, səbəb-nəticə əlaqələri və strateji düşüncə bacarığını inkişaf elətdirmək üçün fərqli bir yanaşmadır.

Məsələn: "Səfəvi-Osmanlı Müharibələri olmasaydı: Türk Dünyasında Divirgent İnkişaf Ssenariləri". Bu metod sayəsində tələbənin problemə qeyri-standart yanaşmasına, tənqidi təfəkkürün formalaşdırmasına bir yoldur. Tələbə Divergent

təfəkkürlər yanaşsa hansı qənaətlərə gələ bilər? Müharibə xərclərinə ayrılan böyük maliyyə resursları infrastruktura, elmə, mədəniyyətə yönəldilə bilərdi. Ortaq Türk Ədəbi dilin formalaşması daha tez baş verə bilərdi, Avropa Təzyiqinə daha güclü və birləmiş şəkildə cavab verilə bilərdi.

Nəticə olaraq tarix sübut etdiki, Türk xalqları bir-biri ilə rəqabət edəndə deyil, bir-birini tamamlayanda güclənir. Daxili çəkişmələr həmişə xarici təhdidlər üçün yol açır. Müasir qloballaşma dövründə belə təhlükəsizlik və iqtisadi müstəqilliyin təminatı yalnız regional birliklərlə mümkündür.

Böyük Azərbaycan mütəfəkkiri Abbasqulu ağa Bakıxanovun tarixi biliklərin əhəmiyyəti haqqında "Tarix elmi dünyanın təcrübəsini bizə kəşf edir. Bundan daha yaxşı nə ola bilər? Xüsusən, hər bir ölkənin tarixi orada yaşayan xalq üçün faydalıdır. Çünkü tarix ona öz millətinin təbiət və adətlərindəki xüsusiyyətləri bildirər, qonşu tayfalarının rəftarından məlumat verər, müxtəlif xalqlarla saxlanan əlaqənin əsas xeyir və zərərini ona məlum edər [1, s.10]" bu dərin fikrini, müasir dövrdə Türk Dövlətləri Təşkilatının (TDT) üzvləri öz milli adətlərini və mənsubiyyətini təsdiqləyən ortaq tarix kimi unutmamalıdır. Çünki bu yaddaş onlara həm qlobal rəqabətdə müstəqil qalmaq üçün lazım olan daxili həmrəyliyi, həm də strateji nəticələr çıxarmaq zərurətini Türk Dünyası miqyasında vahid strateji güc formalaşdırmaq üçün zəruri olan təməli verir.

Türk dövlətləri arasında təhsil inteqrasiyası — milli ədəbi-mənəvi irsin qorunması, Prezident İlham Əliyevin Milli Prioritetlərinə uyğun kadr hazırlığı və yaradıcı təfəkkürün inkişaf etdirilməsi yolu ilə həyata keçirilməlidir. Bu yanaşma türk gəncliyini milli ruhda tərbiyə edərək, onlara qlobal rəqabətdə üstün olmaq üçün zəruri olan innovativ alətləri verməklə, Türk Birliyinin davamlı və uğurlu gələcəyini təmin edir. Türk dövlətləri arasında təhsil inteqrasiyası Samuel Hantinqtonun irəli sürdüyü "Sivilizasiyaların Toqquşması" nəzəriyyəsinə alternativ olaraq "Sivilizasiyaların Mübadiləsi" modelini təqdim edir. Onun fikrinə görə Türk Dünyası öz mədəni və tarixi irsinə söykənərək, daxili əlaqələrini gücləndirərək dünya miqyasında dialoq və əməkdaşlıq körpüsü rolunu oynaya bilər. Bu inteqrasiya özünü qapalı bir blok kimi yox, qlobal mübadilənin fəal iştirakçısı kimi təqdim etməlidir. Bu isə yalnız təhsil sistemi vasitəsilə yetişdirilən açıq fikirli, lakin milli dəyərlərə sadiq olan kadrlarla mümkündür [2, s.150]. Təhsil sahəsində keçirilən bütün islahatların son nəticəsi işsizliyin qarşısını almaq gənc nəsilə yol açmaqdır. Türk Dövlətləri arasında təhsil inteqrasiyanın yalnız akademik məqsəd deyil, həm də strateji, iqtisadi və mədəni bir zərurətdir. Regionda özünəməxsus bir təhsil modeli yaratmaq eyni zamanda qlobal problemlərə innovativ həllər tapan yeni nəsil formalaşdırmaqdır. Bunun üçün təhsildə yeniliklərə yol açılmalıdır.

Tədqiqatın elmi yeniliyi Türk Dünyası gəncliyinin yaradıcı təfəkkürünün gücləndirilməsinə xidmət edən, innovativ metodolojı yanaşmaların və konseptual layihələrin istifadəsi, milli-mənəvi dəyərlərin aşılanması ilə qeyri-standart, yaradıcı düşüncə imkanlarının inkişafı, Divergent Təfəkkürün təhsil metodologiyasında istifadəsi gənclərin yaradıcı təfəkkürünü inkişafında əsaslı dəyişikliklər edəcək.Dis-

sertasiya tədqiqatının əsas hədəfi, gənclərdə yaradıcı təfəkkürün inkişafını stimullaşdırmaq üçün yeni pedaqoji yanaşmaları sınamaqdan ibarətdir. Türk Dünyası gənclərinin yaradıcı təfəkküründün inkişaf mexanizmlərini empirik cəhətdən tədqiq etmək məqsədilə, bir sıra sistemli eksperimentlər (məsələn, divergent düşüncə testləri və təlim modulları) aparılacaqdır. Tədqiqat nəticəsində təhsil metodologiyasına daha dolğun və praktik töhfələr veriləcəkdir. Türk Dövlətləri arasında təhsil inteqrasiyanın yalnız akademik məqsəd deyil, həm də strateji, iqtisadi və mədəni bir zərurətdir.

Ədəbiyyat siyahısı:

1. *"Azərbaycan 2030:Milli Prioritetlər"https://e-qanun.az/framework/46813 [22.11.2025]*
2. *Bakıxanov A. "Gülüstani-İrəm" Bakı: Elmlər Akademiyası 1951 (252s)*
3. *Богоявленская Д.Б. «Психология Творческих способностей».Москва: Academa 2002 (320s)*
4. *David E., Antony B. "How Human Creativity Remakes the World", USA :Catapult Books 2007 (383s)*
5. *Guilford I.P. "The Structure of Intellect" .USA : Smart Pop 1959 (293s)*
6. *Петрова Е.Ю «Современные технологии в Обучении географии» Томск: ТГПУ, 2018 (124c)*
7. *Samuel H. Sivilizasiyaların Toqquşması və Dünya Nizamının yenidən təşkili. Bakı: Texas Press 2024 (396 s)*
8. *Səmərqənd, 7 iyun 2023 Professor Aziz Sancarın çıxış mətni / UNECEkspert (12) 2023 https://unec.edu.az/application/uploads/2015/02/UNEC_Ekspert_12_2023.pdf [22.11.202*
9. *"Türk Dünyası 2040" https://turkicstates.org/u/d/news/5-ek--turk-dunyasi-2040-vizyonu.pdf [22.11.2025]*

GÜNÜMÜZDƏ TÜRKİYƏNİN BALKAN SİYASƏTİNİN PRİNSİP VƏ İSTİQAMƏTLƏRİ

Mirhəmid Bədəlov
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Türk xalqları tarixi" kafedrasının I kurs magistrantı
mirhamid.badalov.mirhasan@bsu.edu.az
Elmi rəhbər: dosent Turan Axundova

Açar sözlər: *Türkiyə, Balkan siyasəti, Strateji dərinlik, Regional təhlükəsizlik, TİKA, Mədəni diplomatiya, NATO*
Keywords: *Turkey, Balkan Policy, Strategic Depth, Regional Security, TİKA, Cultural Diplomacy, NATO*

Giriş. Günümüzdə Türkiyənin Balkan siyasətinin əsas prinsiplərinə "Regional sahiblənmə" və "İnklüzivlik", istiqamətlərinə isə yüksək səviyyəli siyasi dialoq, hər kəs üçün təhlükəsizlik, bölgədəki çox millətli və çox dinli cəmiyyətlərin mühafizəsi, maksimum iqtisadi inteqrasiya aiddir. XXI əsrin əvvəllərində Türkiyə Cümhuriyyəti üçün Balkan bölgəsi həm tarixi, həm də strateji baxımdan mühüm əhəmiyyət daşıyırdı. Soyuq müharibənin bitməsi və Yuqoslaviyanın dağılması nəticəsində bölgədə yaranan geosiyasi boşluq Türkiyəyə yeni diplomatik imkanlar

qazandırdı. Türkiyə bu dövrdə həm mədəni, həm iqtisadi, həm də təhlükəsizlik baxımından Balkanlarda təsir dairəsini gücləndirməyə çalışdı. Məhz bu dövrdə Türkiyənin əsas məqsədi mövcud olan əməkdaşlığı sürətləndirmək və ortaq maraq sahələri yaratmaqla hərtərəfli regional inteqrasiyaya nail olmaq idi.

1990-cı illər və Ərdoğan dövrü. 1990-cı illərdə baş verən Bosniya müharibəsi zamanı Türkiyə NATO çərçivəsində fəal mövqe nümayiş etdirdi və Balkanlarda sülhün bərqərar olması üçün diplomatik və humanitar dəstək göstərdi. Bu dövrdə Türkiyə həm də bölgədə yaşayan türk və müsəlman icmalarının hüquqlarının müdafiəsini öz prioritetlərinə daxil etdi. 1990-cı illərə damğasını vurmuş siyasi və iqtisadi böhranlardan sonra bu günkü prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi altında AK Partinin təkbaşına hakimiyyətə gəldiyi 2002-ci ildən sonrakı dövrdür. "Girişimci və insani" xarici siyasət yanaşmasının ön plana çıxarıldığı bu dövr, Balkanlarla münasibətlərdə yeni bir dönüm nöqtəsi kimi qiymətləndirilə bilər [2, s.62-65].

2000-ci il öncəsi dövrlə müqayisə edildikdə, bu dövrdə bölgə üzrə bütün aktor və tərəfləri əhatə edən Balkanlar siyasətinin fasiləsiz yüksək səviyyəli siyasi dialoq, regional sülh və sabitliyin təmin edilməsi, iqtisadi inteqrasiya və bölgədəki çoxetnikli, çoxdinli və çoxmədəniyyətli quruluşun qorunması kimi əsas prinsiplər çərçivəsində formalaşdığını söyləmək olar. Bu prinsiplərlə yanaşı, Türkiyənin bölgə siyasətlərində nəzərə almalı olduğu bir sıra vazkeçilməz amillərin mövcud olduğunu da qeyd etmək lazımdır. Bunlardan birincisi, altı əsrə yaxın davam etmiş ortaq tarixdir. İkincisi isə bununla əlaqəli olaraq insan amilidir. Bölgənin uzun müddət Osmanlı idarəsində qalmasının nəticəsi olaraq Balkan ölkələrinin hamısında soydaş və qohum icmalar mövcuddur. Eyni şəkildə, müxtəlif dövrlərdə bölgədən Türkiyəyə yaşanan köçlər nəticəsində ölkədə çox sayda Balkan mənşəli Türkiyə vətəndaşı yaşayır [1].

Digər bir amil isə bölgənin coğrafi baxımdan Türkiyə üçün daşıdığı əhəmiyyətdir. Bütün bu faktorlar Türkiyənin Balkan ölkələri ilə münasibətlərinə təsir etmək gücünə malikdir. Bölgə ilə uzun və köklü tarixi-mədəni bağlara sahib olan Türkiyə, insan amili baxımından Bosniya-Herseqovina vətəndaş müharibəsi ilə Kosovo böhranını yaxından hiss etmişdir. Bu səbəblə, regional sülh və sabitliyin təsis olunması prosesində Kosovo Qüvvəsi (KFOR), Avropa Birliyi Qüvvəsi (EUFOR) və Avropa Birliyi Hüququn Üstünlüyü Missiyası (EULEX) kimi beynəlxalq sülhməramlı missiyalarda yer almışdır. Türkiyə bunlara əlavə olaraq, regional əməkdaşlığın inkişaf etdirilməsi üçün qurucu üzvü olduğu Cənub-Şərqi Avropa Əməkdaşlıq Prosesinə (GDAÜ) aktiv şəkildə töhfə verir və eyni zamanda bölgə ölkələrinin Avropa-Atlantik qurumlarına inteqrasiya prosesini təşviq edir [2, s.57-62].

Yumşaq güc. 2000-ci illərin əvvəllərindən etibarən Türkiyə Balkan siyasətində "yumşaq güc" yanaşmasına üstünlük verməyə başladı. Bundan əlavə, xüsusilə son dövrlərdə Balkan ölkələrində türkcəyə olan maraq getdikcə artmaqdadır. Bu səbəblə, türkcə öyrənmək üçün ölkəmizin universitetlərini seçən Balkan mənşəli tələbələrin sayında ciddi artım müşahidə olunur. Ümumi qiymətləndirmə aparsaq, son illərdə Türkiyənin iqtisadi və xarici siyasətlərində əldə etdiyi uğurlar Balkan

dövlətləri üzərində nüfuzlu bir Türkiyə imici formalaşdırmışdır. Bu inkişafla yanaşı, Balkan ölkələrinin Türkiyəyə və Türk mədəniyyətinə olan marağı da artaraq davam etməkdədir. Türkiyə Respublikası Dövləti TİKA, Yunus Əmrə İnstitutu, Xaricdə Yaşayan Türklər və Əqraba Topluluqlar Başqanlığı, Səhiyyə Nazirliyi, Milli Təhsil Nazirliyi kimi qurumları vasitəsilə Balkan dövlətləri üzərində iqtisadi, inkişaf, təhsil, mədəniyyət, səhiyyə və texniki dəstək kimi sahələrdə yumşaq güc siyasətlərini formalaşdırmaq səyi içindədir. Bu təşəbbüs, Türk xarici siyasəti baxımından mühüm bir addımdır. Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), Maarif Fondu, Yunus Əmrə İnstitutu kimi qurumlar vasitəsilə təhsil, mədəniyyət və sosial layihələr həyata keçirildi. Bu siyasət sayəsində Türkiyə regional sabitlik və əməkdaşlıq mühitinin yaranmasında mühüm rol oynadı. Mədəni diplomatiya çərçivəsində Türkiyənin Balkanlar siyasətində mühüm bir boşluğu dolduran qurumlardan biri də Yunus Əmrə İnstitutudur. 2007-ci ildə qurulan və qısa müddət ərzində Albaniya, Bosniya-Herseqovina, Monteneqro, Kosovo, Makedoniya, Serbiya və Rumıniyada ofislərini açan Yunus Əmrə İnstitutu Türk dilinin yanaşı mədəniyyət və incəsənət sahələrində Türkiyənin tanıdılmasına töhfə verməkdədir.

2016-cı ildə qurulan və bu günə qədər 42 ölkədə məktəbəqədər təhsildən universitetə qədər uzanan qurumları ilə fəaliyyət göstərən Türkiyə Maarif Vəqfi isə Albaniya, Bosniya-Herseqovina, Kosovo, Makedoniya və Rumıniyada Türkiyənin beynəlxalq təhsildə Balkanlara açılan qapısı olmuşdur. Uzun tarixi və mədəni bağların mövcud olduğu Balkanlar, Türk xarici siyasəti üçün coğrafi, siyasi, iqtisadi və insan amili baxımından hər zaman prioritet bölgə olmuşdur. Regional qarışıqlıqlar, vətəndaş müharibələri və böhranların yaratdığı çətin şərtlərdə, 1990-cı illərin əvvəlində sürətlə bölgə siyasətinə daxil olan Türkiyə, regional sülh və sabitliyin təmin edilməsi prosesində aktiv rol oynamışdır. Yumşaq güc yalnız hərbi güc xaricindəki güc kimi qəbul edilməməlidir**.** Hərbi gücə malik olan ölkələr eyni zamanda bu güclərinin yaratdığı psixoloji təsir sayəsində müəyyən bir yumşaq gücə də sahib olurlar. Burada əsas olan, hərbi gücü arxa planda saxlamaqla bunu bir qorxutma elementi kimi istifadə etmək, amma eyni zamanda qarşı tərəfin bunu bilməsini təmin etmək və xarici vasitələrdə iqtisadiyyatı, insani və mədəni faktorları daha çox ön plana çıxarmaqdır. Müasir dövrdə yumşaq güc, hərbi güc qədər xərcli bir tətbiq sahəsidir. Bu vəziyyət göstərir ki, yumşaq gücü tətbiq edən ölkə həm zəngin, həm də effektiv bir ölkədir. Buna görə də dünyada yumşaq güc tətbiq edən ölkələr, başda siyasi sabitlik olmaqla, bir çox sahələrdə inkişaf etmiş ölkələrdir [3].

Strateji dərinlik. Ərdoğan hakimiyyəti dövründə "strateji dərinlik" doktrinası Türkiyənin Balkan siyasətinin ideoloji çərçivəsini müəyyən edən əsas konsepsiyaya çevrildi. Bu yanaşmaya görə, Balkanlar Türkiyə üçün sadəcə qonşu coğrafiya deyil, Osmanlı dövründən miras qalmış çoxəsrlik siyasi, iqtisadi və mədəni bağların davam etdiyi strateji hinterland hesab olunur. Bu baxış Ankaranın regiona daha diqqətli, daha sistemli və daha çoxsahəli yanaşma formalaşdırmasına şərait yaratdı.Bu dövrdə Türkiyə Balkan ölkələri ilə münasibətlərini həm ikitərəfli diplomatik kanallar vasitəsilə, həm də NATO, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası,

Cənub-Şərqi Avropa Ölkələri Əməkdaşlıq Prosesi kimi çoxtərəfli platformalarda əməkdaşlığı dərinləşdirməklə qurdu. Ankara regional təhlükəsizlik məsələlərində daha aktiv rol oynayaraq, Balkanların Avroatlantik strukturlara inteqrasiyasını dəstəkləməyə başladı. Bu, xüsusilə Kosovo və Şimali Makedoniyanın NATO üzvlüyü proseslərində görünür [2, s.62-65].

Türkiyənin prioritet tərəfdaşları olan Bosniya və Herseqovina, Albaniya, Kosovo və Şimali Makedoniya ilə münasibətlər isə həm siyasi, həm də sosial müstəvidə daha intensiv xarakter aldı. Bu ölkələrdə türkdilli və müsəlman icmaların mövcudluğu, Osmanlı şəhər-mədəniyyət ənənələrinin qorunması, eləcə də Türkiyə ilə tarixi yaxınlıq Ankara üçün əməkdaşlığı asanlaşdıran əsas amillərdən biri oldu. Bosniya-Herseqovinada siyasi dialoq və vasitəçilik təşəbbüsləri, Kosovonun beynəlxalq statusunun tanınması istiqamətində Türkiyənin dəstəyi, Albaniya ilə hərbi-sənaye və infrastruktur layihələri, Şimali Makedoniya ilə təhlükəsizlik sahəsində əməkdaşlıq bu mərhələnin konkret nümunələri kimi göstərilir. Bununla yanaşı, yumşaq güc alətləri də Türkiyənin Balkan strategiyasının ayrılmaz hissəsinə çevrildi. TİKA-nın region üzrə inkişaf layihələri, Yunus Əmrə İnstitutunun dil və mədəniyyət mərkəzləri, Türkiyə Maarif Vəqfinin təhsil müəssisələri, TRT Balkan kimi media kanallarının fəaliyyəti Türkiyənin sosial-mədəni nüfuzunu artıran əsas mexanizmlər oldu. Bu siyasət nəticəsində Türkiyə təkcə diplomatik və iqtisadi aktor deyil, həm də mədəni və humanitar dəstək göstərən regional tərəfdaş kimi qəbul edilməyə başladı. Eyni zamanda türk biznesinin Balkanlara marağı da əhəmiyyətli şəkildə artdı. Enerji, nəqliyyat, bankçılıq, telekommunikasiya və tikinti sahələrində Türk şirkətləri regionda geniş investisiya portfeli formalaşdırdılar. Beləliklə, iqtisadi asılılıqların azalması və qarşılıqlı faydalı əməkdaşlıq modeli Türkiyə-Balkan əlaqələrinin davamlı olmasına xidmət etdi. Ümumilikdə, Ərdoğan dövründə Türkiyənin Balkan siyasəti təkcə təhlükəsizlik və diplomatiya sahələrinə əsaslanmadı, həm də humanitar, mədəni, təhsil və iqtisadi komponentləri özündə birləşdirən çoxvektorlu strategiyaya çevrildi. Bu yanaşma Ankaranın regionda həm təsir dairəsini genişləndirməsinə, həm də Balkanlarda sabitlik, dialoq və qarşılıqlı asılılığın gücləndirilməsi baxımından aparıcı aktorlardan biri kimi mövqeyini daha möhkəm şəkildə qurmasına imkan verdi [6].

Nəticə. XXI əsrdə Türkiyənin Balkan siyasəti tarixi bağlar, geosiyasi maraqlar və mədəni yaxınlıq əsasında formalaşmışdır. Bu siyasət sayəsində Türkiyə Balkanlarda həm sabitliyin təminatçısı, həm də regional liderliyə iddialı bir dövlət kimi mövqeyini möhkəmləndirmişdir.

Ədəbiyyat siyahısı:

1. Çetin Selvet. "Balkanlarda Kültürel Kimlikler Çatışmayı Önleyebilir mi?" http://www.sde.org.tr 2011.

2. Davutoğlu, A. Stratejik Derinlik: Türkiye'nin Uluslararası Konumu, İstanbul 2001, 114 s.

3. Dedeoğlu Beril. "Kamu Diplomasisi ve Akıllı Güç-Beril Dedeoğlu Röportajı", www.ekopolitik.org 2011.

4. Kaçmazoğlu H.B. "Doğu Batı Çatışması Açısından Globalleşme",Eğitim Araştırmaları Dergisi,2002,12 s.

5. Oruç Zülküf. Balkanlarda Osmanlı Mirası ve Ulusçuluk Çerçevesinde Balkan Türklerinin Kimlik ve Yönetim Sorunları Kosova ve Makedonya Örneği, Sakarya Üniversitesi Sosyal Bilimler Enstitüsü, (Yayınlanmamış Doktora Tezi) 2011, 279 s.
6. TİKA. Balkanlarda Türk Əməkdaşlıq Proqramları Hesabatı, Ankara, https://tika.gov.tr/publication/tika-faaliyet-raporu-2018/?utm_source=chatgpt.com 2018.
7. Zehra Eroğlu. Turkish foreign policy towards the Balkans in the post-Cold War era, 2005, 122 s.

TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATI: REALLIQDAN GƏLƏCƏYƏ

Ayna Quliyeva
Bakı Dövlət Universitetinin Tarix fakültəsinin "Türk xalqları tarixi" kafedrasının I kurs magistrantı
aynaquliyeva20@gmail.com
Elmi rəhbər: dosent Sənubər İsmayılova

Açar sözlər: *Türk Dövlətləri Birliyi, Əməkdaşlıq Şurası, "Türk Dünyası 2040 Vizyonu", gələcək ideyaları, mədəni əlaqələr, əməkdaşlıq*
Keywords: *Turkic States Union, Cooparation Council, "Turcic World 2040 Vision", future ideas, cultural relations, cooperation*

Giriş. Türk xalqları birliyi ideyası XIX-XX əsrin əvvəllərində formalaşan türkçülük hərəkatına əsaslanır. Sovetlər dövründə bu yanaşma pantükçülük adı ilə damğalansa da, 1991-ci ildə SSRİ-nin süqutundan sonra Türkiyə müstəqil Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Türkmənistan ilə əlaqələr yaratmağa başladı. Beləliklə, Türk Dövlətləri arasında siyasi, iqtisadi və mədəni əlaqələri inkişaf etdirmək ideyası yenidən formalaşdı. 30 il davam edən proses 2021-ci ildə Türk Dövlətləri Təşkilatının yaranmasına və onun "Türk Dünyası-2040 Vizyon"u kimi strateji hədəflərin müəyyənləşməsi ilə nəticələndi.

Türk dövlət başçılarının zirvə toplantılarından Türk Dövlətləri Təşkilatına. Türk dövlətləri arasındakı əməkdaşlığın ilk addımı 1992-ci il 30-31 oktyabr tarixində Ankarada keçirilən I Zirvə görüşündə atıldı. 31 oktyabrda Yekun Bəyannamə imzalandı. Türk dövlətlərinin birliyinin möhkəmləndirilməsi, əməkdaşlığa başlanılması, ortaq tarixi dili və mədəniyyəti qorumaq əsas məqsəd idi. Görüşdə Türk xalqlarını arasında həmrəyliyi göstərilərək Bosniya-Hersoqovina, Qarabağ, Tacikistan və Kipr hadisələrinə münasibət bildirildi [2, s.159-161].

II Zirvə görüşünün (18-19 oktyabr 1994, İstanbul) əsas məqsədi iqtisadi, mədəni, təhsil sahəsində əlaqələri inkişaf etdirmək idi. Bundan başqa, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinin vacibliyi vurğulandı. 1995-ci il avqustun 27-28-də Bişkekdə keçirilən III Zirvə görüşündə iqtisadi, mədəni humanitar yardımdan başqa narkobiznesə və silah alverinə qarşı mübarizə məsələləri müzakirə olundu. Azərbaycan-Ermənistan münaqişəsinin BMT qətnamələri əsasında həll olunmasının vacibliyi bildirildi. Bişkek protokolu imzalandı. IV Zirvə görüşündə (21-22 okyabr 1996, Daşkənd) ticarət, kommunikasiya, TRASEKA, Transqafqaz dəhlizi məsələləri müzakirə olundu. TÜRKSOY-un fəaliyyəti təsdiq-

ləndi. Türk Dövlət Başçılarının görüşlərinin Katibliyinin yaradılması fikri irəli sürüldü. V Zirvə görüşü 1998-ci ilin iyunun 9-da Astanada keçirildi. Görüşdə:siyasi, iqtisadi, mədəni əməkdaşlıq, ərazi bütövlüyü, dövlətin daxili işlərinə qarışılmaması məsələləri təsdiqləndi. Terrorizm və separatizmə qarşı birgə fəaliyyət müzakirə olundu. Türk Dövlət Başçılarının görüşlərinin katibliyi Türkiyədə daimi əsaslarla yaradıldı [2, s.162-173].

2009-cu il oktyabrın 2-3-də Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Naxçıvanda Zirvə görüşü keçirildi. Bu görüş zamanı Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan tərəfindən "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası" yaradılmasına dair Naxçıvan Sazişi imzalandı. Zirvə görüşündə Türkmənistan vitse-prezident səviyyəsində təmsil olundu. Saziş 17 noyabr 2010-cu ildə qüvvəyə mindi. Bişkekdə keçirilmiş II Zirvə (22-23 avqust 2012) görüşü "Təhsil, Elm və Mədəni Əməkdaşlıq" mövzusunda oldu. Bu görüşdə Astanada "Türk Akademiyası", Bakıda "Türk Mədəniyyəti və İrsi Fondu" yaradılması ilə bağlı sazişlər imzalandı. V Zirvə görüşündə isə (11 sentyabr 2015, Astana) "Media və İnformasiya" əsas mövzu olaraq elan edilmişdi. Bu görüşdə Türk investisiya Fondunun yaradıldı, nəqliyyat və İpək Yolu əlaqələrinin inkişafı ilə bağlı razılaşmalar əldə edildi və ortaq Türk tarixi dərsliyinin hazırlanmasının zəruriliyi vurğulandı. VI Zirvə görüşü 3 sentyabr 2018-ci ildə Çolpan Ata şəhərində keçirilmişdir. Görüş Gənclər və Milli İdman Növləri mövzusunda idi. Liderlər ümumdünya Köçəri oyunlarının uğurundan məmnunluqlarını bildirmiş, nəqliyyat, ticarət və turizm sahəsində əməkdaşlığın vacibliyini vurğulamışdılar. Macarıstan Şurada müşahidəçi statusu qazanması, yeni baş katibin təyin edilməsi və Ortaq Türk tarixi dərsliyi üzrə irəliləyişlərin əldə olunmasının vacibliyi qeyd olundu. 12 noyabr 2021-ci ildə İstanbulda keçirilən VIII Zirvə görüşündə "Rəqəmsal dövrdə yaşıl texnologiyalar və ağıllı şəhərlər" mövzusu geniş müzakirə edildi. Liderlər təşkilatın adının "Türk Dövlətləri Təşkilatı" olaraq dəyişdirilməsi ilə bağlı qərar qəbul etdilər. Türkmənistan təşkilata müşahidəçi üzv qəbul edildi. Bu görüşdə təşkilatın orta və uzunmüddətli məqsəd və vəzifələrini müəyyən edən "Türk Dünyası 2040 Vizyonu" sənədi qəbul edildi [4].

"Türk Dünyası 2040 Vizyonu". "Türk Dünyası 2040 Vizyonunda" türk dövlətlərinin gələcəkdə bir-biri ilə daha sıx əlaqədə olması nəzərdə tutulur. Qarşıda duran əsas məqsəd kimi 2040-cı ilə qədər türk xalqları arasında vahid iqtisadiyyatı, mədəniyyəti, elmi və s. əlaqələri formalaşdırmaqdır. Sənəddə qeyd olunur ki, Türk dünyası ortaq tarixə, birgə dilə və mədəniyyətə doğru irəliləməli, bu birliyi qorumaq, inkişaf etdirmək və gələcək nəsillərə ötürmək əsas vəzifə olmalıdır [5, s.361-362].

"Türk Dünyası 2040 Vizyon"u üzrə əsas istiqamətlər:

İqtisadi əməkdaşlıq. "Türk dünyası 2040 Vizyonu"nda türk dövlətləri arasında iqtisadi əməkdaşlıq əsas istiqamətlərdən biridir. Sənəddə nəzərdə tutulur ki, üzv ölkələrin tarixi və mədəni imkanları, birgə turizm layihələri, İpək Yolu turizmi sahələri genişləndirilməlidir. Kənd təsərrüfatının inkişafı,ərzaq təhlükəsizliyi, ekolo-

ji təmiz iqtisadi problemlərin azaldılması əsas istiqamətlərdəndir. Bundan əlavə, xarici investisiyaların cəlbi, sənayenin formalaşdırılması, şəffaflığın yaradılması, kiçik və orta biznes sahibkarlarına yeni imkanların yaradılması iqtisadi əməkdaşlıqda əsas məqsədlərdən biridir [3, s.8-9].

Nəqli əlaqə və gömrük. Türk dünyasında ən çox problem yaşanan sahələrdən biri də nəqliyyat və gömrükdür. Üzv dövlətlər arasında olan qanunvericilikdə və təcrübədə fərqlər olduğu üçün dövlətlər arasında çətinlik yaranırdı. "Türk dünyası 2040 Vizyonu"nda bununla bağlı addımlar atılmışdır. Sənəddə xüsusilə Transxəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizinin ən qısa, təhlükəsiz marşruta çevrilməsi əsas hədəf olaraq göstərildi. Zəngəzur dəhlizinin müxtəlif beynəlxalq iqtisadi platformalarda birgə təşviqi əsas götürülür. Ekoloji cəhətdən təmiz nəqliyyat növlərini və texnologiyalarını inkişaf etdirmək, aviaşirkət əməliyyatları üçün inzibati prosedurların sadələşdirilməsi planlaşdırılır [3, s.10].

Siyasi və təhlükəsizlik üzrə əməkdaşlıq. Üzv dövlətlər arasında tərəfdaşlıqları inkişaf etdirmək və dövlət qurumları arasında əməkdaşlıq mexanizmlərinin yaradılması əsas prioritetlərdən biridir. Üzv dövlətlərin qanunvericilik, maliyyə sistemlərinin gücləndirilməsi üçün regional proqramların dəstəklənməsi vacib məsələlərdəndir. Mədəniyyət, akademik və parlament sahələrində əməkdaşlığın inkişaf etdirilməsi nəzərdə tutulur. Bu məqsədlə TÜRKSOY, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu və TÜRKPA kimi türk əməkdaşlıq təşkilatları ilə əməkdaşlıq və koordinasiya təmin edilməlidir. Həmçinin beynəlxalq və regional təşkilatlarla birgə layihələrin həyata keçirilməsi əsas istiqamətlərdəndir. Transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə vacib məsələlərdən biri idi. O cümlədən narkotiklərin qanunsuz dövriyyəsi, qeyri-qanuni miqrasiya, insan alveri, qeyri-qanuni silah alveri, orqan alveri, iqtisadi, maliyyə və kibercinayətkarlıq bura aiddir. Bu istiqamətdə hüquq-mühafizə orqanları arasında səmərəli əməkdaşlıq və koordinasiyanın təmin edilməsi nəzərdə tutulur [3, s.7-8].

İnformasiya və Kommunikasiya Texnologiyaları. Əməkdaşlığın genişləndirilməsi, informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində siyasət və qaydaların uyğunlaşdırılması məqsədi daşıyır. Ticarət, nəqliyyat, səhiyyə və təhsilə üstünlük verilməklə, elektron hökumət və elektron xidmətlər sahəsində birgə proqram və layihələrin hazırlanması nəzərdə tutulur. Regional təhlükəsizlik məsələlərinin həlli üçün kibertəhlükəsizlik sahəsində əməkdaşlığın inkişaf etdirilməsi mühüm istiqamətlərdən biridir. Ümumi kosmik infrastrukturlardan, innovativ texnologiyalardan istifadə və resursların idarə olunması, fövqəladə halların azaldılması və davamlı inkişaf məqsədilə kosmos əsaslı məlumatların mübadiləsi üzrə əməkdaşlıq mexanizmləri yaradılır. Kosmik tədqiqatlar sahəsində elmi əməkdaşlıq, eləcə də üzv dövlətlərin müvafiq orqanları və universitetləri arasında birgə tədqiqat təşviq edilir [3, s.10-11].

Enerji. Enerji təhlükəsizliyinə yeniliklər vermək üçün Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Cənub Qaz Dəhlizi və onun komponentləri olan TAP və TANAP kimi layihələrin inkişafı nəzərdə tutulur. Xüsusilə günəş, külək, bioenerji

və nüvə kimi bərpa olunan enerji sahələrində bilik və təcrübə mübadiləsinin genişləndirilməsi, enerji şaxələndirilməsinin təmin edilməsi üçün əməkdaşlıq dərinləşdiriləcək. Şəhər və kənd yerlərində enerji səmərəliliyinin artırılması, ekoloji təmiz enerjinin təşviqi və davamlı xidmətlərin yaradılması üçün birgə səylər həyata keçiriləcək. Bundan başqa, "Türkiyə Enerji Bazarı"nın yaradılması və üzv dövlətlər arasında enerji əməkdaşlığının institusionallaşdırılması da sənəddə nəzərdə tutulur [3, s.11].

Təhsil və elm. Ortaq türk tarixi, mədəniyyəti, dili, ədəbiyyatı və coğrafiyasına dair elmi araşdırmaların gücləndirilməsi əsas məqsədlərdən biridir. Üzv dövlətlərin məktəblərində bu fənlər üzrə seçmə kursların dəstəklənməsi nəzərdə tutulur. Akademiklər, tədqiqatçılar, müəllimlər və tələbələr üçün elmi nəşr məlumatlarının hazırlanması, üzv dövlətlərin elmi jurnallarının ümumi beynəlxalq indeksinin yaradılması planlaşdırılır. Türk dünyasına aid olan ortaq onlayn açıq ensiklopediyasının yaradılması nəzərdə tutulur. Beynəlxalq beyin mərkəzləri arasında əməkdaşlığın sürətləndirilməsi məqsədilə "Türk Dünyası Düşüncə Mərkəzləri Şəbəkəsi"nin yaradılması əsas məqsədlərdən biridir.

Orxon Prosesi Mübadilə Proqramı vasitəsilə Türkiyə Ali Təhsil Bölgəsini tam funksional vəziyyətə gətirmək və Türkiyə Universitetlər Birliyini (TÜRKÜNİB) aparıcı əməkdaşlıq mexanizminə çevirmək planlaşdırılır [3, s.14-15].

Nəticə. Göründüyü kimi, "Türk Dünyası 2040 Vizyon"u türk dövlətləri arasında İqtisadi, Nəqliyyat və Gömrük, İnformasiya və Kommunikasiya Texnologiları (İKT), Enerji, Elm və Təhsil və s. kimi sahələrdə 2040-cı ilə qədər ciddi vəzifələr müəyyən edir və bütün bunlar Türk Dövlətlər Birliyinin real imkanlarını əsas götürərək gələcəyə baxışını təmin edir. 2040-cı ilə qədər Türk Dövlətləri Birliyi arasında daimi əməkdaşlığın, regional sabitliyin möhkəmləndirilməsinə xidmət edir.

Ədəbiyyat siyahısı:

1. Bereket İlayda Yahni. Türkiye'nin Bağımsız Türk Cumhuriyetleriyle Diplomatik İlişkileri: Tdt Ve Türk Dünyası 2040 Vizyonu Açısından Değerlendirme // XI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu 11-13 İyun 2024. Bakı, 2024, s.359-366. - https://www.utudas.org/Makaleler/845785629_XI.%202C.%2041.pdf [17.11.2025]

2. Feyziyev Cavanşir . Türk Dövlətləri Birliyi. Bakı: Şərq-Qərb nəşriyyatı, 2013, 312 s.

3. Ruintən Sevinc. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri). Bakı, Adiloğlu, 2005, 316 s.

4. Türk Dövlətləri Təşkilatı – Rəsmi sayt. - https://www.turkicstates.org/az/organization-of-turkic-states [17.11.2025]

5. "Türk Dünyası 2040 Vizyonu". - https://turkicstates.org/u/d/news/5-ek–turk-dunyasi-2040-vizyonu.pdf [17.11.2025]

TÜRK DÜNYASI: ORTAQ TARİXİ – MƏDƏNİ DƏYƏRLƏR, MÜASİR REALLIQLAR VƏ GƏLƏCƏYƏ BAXIŞ MÖVZUSUNDA

II BEYNƏLXALQ ELMİ KONFRANSIN MATERİALLARI
25-26 dekabr 2025-ci il

THE TURKIC WORLD: SHARED HISTORICAL AND CULTURAL VALUES, CONTEMPORARY REALITIES, AND A VISION FOR THE FUTURE

II INTERNATIONAL SCIENTIFIC CONFERENCE MATERIALS
25-26 december 2025

Elmi redaktor: Kəmalə Nəcəfova

Redaktorlar: Tarix Dostiyev
Hicran Mahmudova
Asəf Hacıyev
Günel Əliyeva-Məmmədova
Ulduz Paşayeva
Zərifə Nəzirli
Bircə Bayramova

QEYD: *Magistrantların və doktorantların materialları Elmi rəhbərlərin rəyi əsasında çapa təqdim edilir.*

Nəşriyyat direktoru: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Dizayner: İradə Əhmədova
Operator: Röya Nəsirova

Çapa imzalanmışdır: 15.03.2026
Kağız formatı: 70x100 1/8, ş.ç.v. 41,25 ç.v.
Sifariş: 678
Sayı 100 ədəd
"Füyuzat" nəşriyyatında çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69